HÜMEYİR ƏHMƏDOV

AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAF STRATEGİYASI

«ELM» NƏŞRİYYATI
BAKI–2010

Həyatımın yarıdan çoxunu
əməkdaşı olduğum
Azərbaycan Respublikasının
Təhsil Problemləri İnstitutunun
80 illik yubileyinə həsr edirəm

HÜMEYİR ƏHMƏDOV

AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAF STRATEGİYASI

Monoqrafiyanın nəşri Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi Şurasının 11 iyun 2010-cu il tarixli (protokol №4) qərarı ilə məqsədəuyğun hesab edilmişdir

«ELM» NƏŞRİYYATI
BAKI–2010

Elmi redaktor: **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
pedaqoji elmlər doktoru, professor,
Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü

Elmi məsləhətçilər: **Z.İ.Qaralov,**
pedaqoji elmlər doktoru, professor,
Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü

A.O.Mehrabov,
texniki elmlər doktoru, professor,
Rusiya Dövlət Təhsil Akademiyasının akademiki

F.A.Rüstəmov,
pedaqoji elmlər doktoru, professor,
Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü

Rəyçilər: **O.Q.Həsənli,**
pedaqoji elmlər doktoru, professor

H.B.Bayramov,
pedaqogika elmlər üzrə fəlsəfə doktoru, dosent,
Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü

Hümeyir Hüseyn oğlu Əhmədov.
Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı, «Elm» nəşriyyatı, 2010, 800 səh.,
İSBN 978-9952-453-41-6

Azərbaycanda təhsil tarixinin tədqiqi ilə bağlı dəyərli araşdırmalar, eyni zamanda son 15 ildə milli təhsilin inkişafına aid rəsmi sənədlər birlikdə ilk dəfə işıq üzü görür. Müəllifin əsas məqsədi təhsil siyasətinin uğurlarını şərtləndirən bütün nüansları göstərmək, əsaslı islahatyönümlü tədbirlərin həyata keçirilməsi zərurətini qabartmaq, Ulu öndər Heydər Əliyevin bu sahədə böyük xidmətlərini qeyd etmək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsil sahəsindəki fəaliyyətinin öyrənilməsində obyektiv mənbə kimi mühüm əhəmiyyət kəsb edən materialları və bu inkişaf üçün hüquqi-normativ baza rolunu oynayan rəsmi sənədləri «Əlavələr» şəklində təqdim etməkdir.

Çağdaş təhsilin inkişafına təkan verən beynəlxalq elmi-nəzəri və metodik istiqamətləri əks etdirən bu monoqrafiya son dərəcə zəngin faktoloji bazaya malikdir. Bu baxımdan, əsər təkcə mütəxəssislərdə deyil, bu sahə ilə yaxından tanış olmaq istəyən oxucu auditoriyasında da böyük maraq doğuracaq.

4301000000
650(07) –2010

© «Elm» nəşriyyatı, 2010
© H.H.Əhmədov, 2010

ÖN SÖZ

Vətəndaş mövqeyinin ifadəsi olan bu kitab milli təhsilimizin tərəqqisi fonunda ümumən Azərbaycanın yarım əsrlik tarixinə münasibəti özündə əks etdirir. Bu tarixin müəllifləri xalqımızın ümummilli lideri Heydər Əliyev və ulu öndərimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir.

Heydər Əliyev bizim üçün, gələcək nəsillərimiz üçün müstəqil dövlət qurdu. Bu dövlətin aydın sabahını təmin etdi. Səsimizi, sözümüzü dünyaya yetirdi. Azərbaycan üçün işıqlı bir yol müəyyənləşdirdi.

Bu yolla biz bu gün müqəddəs amallarımıza doğru addımlayırıq. Prezident İlham Əliyevin yürütdüyü siyasətin uğurları sayəsində ölkəmiz inkişaf edir, çiçəklənir. Dünya gücümüzü etiraf edir. Qürur duyuruq ki, Azərbaycan kimi müstəqil dövlətə sahibik.

Bu dövlətin tarixinin hər bir məqamına obyektiv münasibət isə vətəndaş olaraq hər birimizin vəzifəsidir. Sizə təqdim olunmuş bu kitab da belə bir zərurət əsasında ortaya çıxmışdır.

Burada öz əksini tapmış faktlar Azərbaycanın milli təhsil tarixini özündə demək olar ki, tam əks etdirir.

Monoqrafiya üç istiqaməti özündə birləşdirir: ulu öndər Heydər Əliyevin mənəvi-siyasi irsində təhsilin yeri, Prezident İlham Əliyevin həyata keçirdiyi təhsil siyasəti və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təhsil sferasına dair ictimai fəaliyyəti. Bu istiqamətlərin hər üçü vahid bir dövlətçilik xəttinin tərkib hissələri kimi nəzərdən keçirilib.

Dahi dövlət xadimlərinin həyat və fəaliyyəti böyük bir dövlətçilik fəlsəfəsi, böyük bir dövlətçilik məktəbidir.

Ümid edirik ki, bu monoqrafiya da Heydər Əliyev məktəbindən öyrənənlər üçün dəyərli bir vəsait rolunu oynayacaqdır!

Hüseyn ƏHMƏDOV,
akademik

MÜƏLLİFDƏN

Qərblə-Şərqin, fərqli sivilizasiyaların təmas nöqtəsində, dünyanın ayrı-ayrı güc mərkəzlərinin maraqlarının kəsişmə məkanında yerləşən Azərbaycan dövlətinin tərəqqisi, sözün həqiqi mənasında xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Müstəqilliyi qazanmaq və qorumaq: bunlardan hansının daha çətin olduğunu müəyyənləşdirməkdən ötrü tarix kitablarını vərəqləmək kifayətdir. Ulu öndər Heydər Əliyevin isə böyüklüyü ondadır ki, görkəmli dövlət xadimi Azərbaycan dövlətinin istiqlalını bütün dünyaya qəbul etdirməklə bərabər milli istiqlalımızın əbədiliyi, Azərbaycan dövlətinin müstəqil yaşaması üçün zəruri əsasları da təmin etmişdir.

Heydər Əliyev hələ ölkəyə birinci rəhbərliyi dövründə (1969–1982) milli dövlətçilik idealını ən müxtəlif formalarda gündəmə gətirmiş, ayrı-ayrı sənət adamlarımızın timsalında Azərbaycan sözünü, Azərbaycan səsini dünyaya çıxarmış, xarici aləmin Azərbaycanı coğrafi areal kimi keçmiş Sovetlər İttifaqının xammal, sənaye mərkəzindən daha çox qədim, zəngin mədəniyyət ocağı kimi tanınmasına nail olmuşdur.

Məhz Heydər Əliyevin ölkəmizə rəhbərliyi illərində Azərbaycan dili rəsmi sənədlərdə dövlət dili kimi təsbit edilmiş, repressiya dövründən yasaq sayılan mövzular yenidən yaradıcılıq nümunələrində görünməyə başlamış, Azərbaycan tarixinin obyektiv şəkildə, təhriflərdən uzaq formada yazıya alınması istiqamətində ilk addımlar da bu dövrdə atılmış, milli şüurda sözün əsl mənasında oyanış baş vermiş, Azərbaycan xalqı müstəqil yaşamaq haqqını daha dərindən və aydın şəkildə dərk etməyə başlamışdır.

Ulu öndərimizin o tarixi dövrdə həyata keçirdiyi missiya daha çox mənəvi-ideoloji səviyyədə özünü göstərən bu proseslərlə heç də məhdudlaşmır. Heydər Əliyev bütün bu istiqamətlərlə Azərbaycanın sosial-iqtisadi müstəqilliyinin təmin olunması yönümündə atılan addımlar arasındakı paralelliyi də təmin etmişdi. Onun bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda yüzlərlə sənaye müəssisəsi tikilmişdir. Yollar, körpülər və digər bu kimi zəruri infrastruktur obyektləri inşa edilərək vətəndaşlarımıza istifadəsinə verilmişdir. Azərbaycanın bütün bölgələri işıqlandırılmış, ən ucqar kəndlərimizə belə qaz, su, rabitə xətləri çəkilmişdir. Kənd təsərrüfatı inkişaf etdirilmiş, bu reallıq o dövr üçün hələlik siyasi sənədlərdə öz təsdiqini

tapmasa belə, Azərbaycan kəndlisi öz torpağının sahibinə çevrilmişdir. Vətəndaşlarımızın maddi-rifah halı xeyli yaxşılaşdırılmışdır. Ölkəmizin bütün bölgələrində tikilən bir-birindən yaraşıqlı yaşayış kompleksləri, binalar, çoxsaylı daşınmaz əmlak obyektləri Azərbaycanın görkəmini dəyişmişdir.

Heydər Əliyev o illərdə insanlarımızda sabaha inam hissi aşıladı. Cəmiyyətdə haqq-ədalət öz yerini tutdu. Beləliklə, Azərbaycan vətəndaşı daim onun yanında olan, ona dəstək verən Vətən, Azərbaycan isə uğrunda canını belə fəda etməyə hazır olan vətəndaş qazandı.

Ədalət naminə demək lazımdır ki, Azərbaycanın istiqlal mübarizəsi tarixi yazılarkən, Azərbaycan Demokratik Cümhuriyyəti dövrü ilə, milli azadlıq mücadiləsinin açıq müstəviyə keçdiyi ötən 80-ci illərin sonları arasında bir növ körpü rolunu oynamış 60-cı, xüsusilə də 70-ci illər mərhələsinin dəqiqliklə öyrənilməsinə, faktların yeni kontekstdən qiymətləndirilməsinə ciddi ehtiyac var. Çünki Azərbaycanın öz dövlət müstəqilliyini elan etməsi, suveren bir təsisat kimi gələcəkdə problemlərinin həllinə nail olması üçün real əsasların məhz XX əsrin 60–70-ci illərində formalaşdırılması danılmaz faktdır. Əlbəttə, hər bir dövr tarixdə öz rolunu oynadığından irəli sürdüyümüz fikirlərlə nə Cümhuriyyət, nə də 80-ci illərin sonlarında vüsət götürmüş Azərbaycan milli azadlıq hərəkatı dövründə əldə edilən tarixi nəticələrin dəyərini azaltmaq niyyətində deyilik. Lakin bunun özü də reallıqdır ki, əgər ulu öndər Heydər Əliyevin hələ respublikamıza birinci pəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi-mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil xəttə malik, heç bir dövlətdən asılı olmayan təsisat kimi mövcudluğu şübhə altında qalardı.

Heydər Əliyev hakimiyyətinin birinci mərhələsində Azərbaycan milli ideyasını dinamik tərzdə cəmiyyətin bütün təbəqələrinə ötürdu. İctimai şüurun alt qatında gizlənən istiqlal duyğularını üzə çıxarıb ona yeni məzmun verdi. Milli ruhun daşıyıcısı olan elm, ədəbiyyat, incəsənət xadimlərimiz repressiyalardan qorundu.

Milli yöndə iş aparan alimlərə lazımınca diqqət göstərməklə Heydər Əliyev sovet dönəmində mövcudluğu dar çərçivələrə salınmış Azərbaycanın milli əsaslarının möhkəmləndirilməsi xəttini uğurla həyata keçirdi. Ulu öndərin ölkə rəhbərliyinə dönüşünün ilk illərindən başlayaraq teatr-

larımızın repertuarında milli tamaşaların sayı artır, tarixi filmlərin çəkilişi gündən-günə genişlənirdi. Osmanlı türkcəsində «Peyğəmbər»i, «Şeyx Sənan»ı yazan, Tofiq Fikrətin, Akif Ərsoyun ideya təsirindən çıxa bilməməkdə günahlandırılaraq Sibirə ölümə göndərilən Hüseyn Cavidin nəşinin qalıqlarının Sibirdən Azərbaycana gətirilməsi milli təfəkkürün, milli bədii dəyərin itməməsi üçün atılan böyük addımlardandır.

O dövrdə Azərbaycanda dissident hərəkatının genişlənməməsinin səbəblərindən biri də Heydər Əliyevin milli təmayülçü ədiblərimizə qarşı təhdid, təzyiq siyasəti aparmamasının, əksinə mövcud imkanlar daxilində bu cəhdlərin qarşısını almağa çalışmasının nəticəsidir. Bəxtiyar Vahabzadənin «Gülüstan»ı, Xəlil Rza Ulutürkün və Qabilin milli ruhlu şeirləri, Mövlud Süleymanlının «Dəyirman» povesti varlığımızın ifadələri kimi məhz bu dövrlərdə leqal və qeyri-leqal nəşrlərdə sərbəst yayılma im-kanları qazandı.

Tariximizin yazılmamış sahələrindən biri də 1970-ci illərdə ölkədə Azərbaycanın bütövlüyü ilə bağlı yaradılan ictimai qurumlar və bu qurumların fəaliyyət sferasıdır. Güman edirik ki, o dövrü öyrənən tarixçi alimlərimiz Azərbaycanda milli azadlıq uğrunda ilk qeyri-leqal dərnəklərin yaradılmasının məhz Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəldiyi tarixi dövrə təsadüf etməsi faktı ətrafında ciddi araşdırmalar aparsalar, maraqlı nəticələrə gələ bilərlər.

Bu dövrdə həmçinin Cənubi və Şimali Azərbaycanın birləşdirilməsi ideyası xüsusi aktuallıq qazanırdı ki, bu da antisovet təbliğat elementlərinə gətirib çıxarmaqla yanaşı, milli məsələlərin müzakirəsinə də təkan verirdi. Ali məktəb auditoriyalarında, ictimai mərkəzlərdə Cənub problemi geniş şəkildə müzakirə edilirdi.

Təsadüfi deyil ki, əsrlər boyu bir-birindən ayrı düşmüş Quzey və Güney arasında ilk ədəbi-mədəni əlaqələr məhz 1970-ci ildə formalaşdı. Məhəmmədhüseyn Şəhriyarın ana dilində yazdığı milli ruhlu əsərlər Bakıda çapdan çıxdı. Ədəbiyyatımızda cənub motivi təzahür etdi. Mədəniyyətin bütün sahələrində milli köklərə qayıdış başlandı.

Ümummilli liderimiz SSRİ-ni idarə edən ən aparıcı simalardan biri kimi Kremldə çalışdığı dövrlərdə (1982–1987) Azərbaycanın gələcək müstəqilliyinə şərait yaradan imkanlar sırasını genişləndirməkdə idi. Məhz belə bir zəmin üzərində 80-ci illərin sonlarından etibarən SSRİ-də yaranmış tarixi

şəraitdən bəhrələnərək öz haqları uğrunda mücadiləyə qalxan xalqımızın mübarizə əzmi nəticəsində Azərbaycan, nəhayət ki, öz dövlət müstəqilliyinə qovuşdu. 1991-ci ilin 18 oktyabrında qüdrətli dövlət xadimi Heydər Əliyevin də əsas təşəbbüskarlardan biri kimi imza atdığı «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktı» ilə ölkəmizin istiqlaliyyəti bütün dünyaya bəyan edildi.

Lakin müstəqilliyin ilk dönəmində tarixi səhvlərin təkrarlanması yenə öz işini görür, tarixin özünün də mənfi istiqamətə doğru yenidən təkrarlanmasına, yenicə qazanılmış müstəqilliyimizin itirilməsinə, Azərbaycanın bir daha hansısa dövlətin müstəmləkəsinə çevrilməsinə real təhlükə doğururdu. Hakimiyyət uğrunda gündən-günə gərginləşməkdə olan qanlı mübarizələr Azərbaycan ərazilərinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı ilə müşayiət olunur, respublikamızın bəzi regionlarında da separatizm meyilləri baş qaldırırdı. Ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalmışdı. Xaos, anarxiya meyilləri insanlarımızı addım-addım təhdid edirdi. Siyasi qarşıdurmalardan cana doymuş vətəndaşların təhlükəsiz yaşamaq hüququ təmin olunmur, hərbi müxalifət, qeyri-qanuni silahlı birləşmələr xalqla istədiyi formada davranırdı. Həyata keçirilən yarımaz siyasət ucbatından ölkədə sosial-iqtisadi böhran kulminasiya həddinə çatmış, səfalət girdabına yuvarlanan əhali gələcəyə ümidini itirmişdi. Yaxın dövlətlərlə münasibətlərin düşmənçilik müstəvisinə keçdiyi, ölkədə anarxiyanın ən pis formada təzahür etdiyi AXC– Müsavat hakimiyyəti dövründə artıq Azərbaycanın parçalanaraq bir dövlət kimi dünya xəritəsindən silinməsi ehtimalı xeyli real idi.

Əgər belə bir həlledici mərhələdə tarixə MİLLİ QURTULUŞ günü kimi daxil olmuş əlamətdar hadisə baş verməsəydi, əgər həmin gün xalqın istəyi və tələbi ilə dövrümüzün müdrik tarixi şəxsiyyəti, təcrübəli və iradəli dövlət xadimi, ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, hər zaman tərəqqi edən, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik.

Bu qayıdış Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Bu, əsrlərin sınağından keçə-keçə min bir əziyyətlə, amma dönmədən məqsədinə doğru addımlayan bir millətin özünün özünə qayıdışı idi. Bu, dilimizin, milli-mənəvi dəyərlərimizin, unudulmuş, yaddan çıxmış bir çox həqiqətlərin, mənəvi bütövlüyümüzün qayıdışı idi. Azərbay-

can bu qayıdışla müstəqillik tarixinin daha şərəfli, daha əzəmətli bir mərhələsinə qədəm qoydu.

Həmin mərhələnin baş memarı ümummilli liderimiz Heydər Əliyev idi. Bu dövr təkcə müdrik dövlət adamının xalqın təkidi və tələbi ilə hakimiyyətə qayıdışından dərhal sonra ölkəni bürümüş vətəndaş müharibəsinə son qoyması, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövlətimizi məhv etmək planlarının puça çıxarılması, xalqımıza qarşı törədilən qəsdlərin qarşısının fədakarlıqla alınması dövrü deyildi. Bu dövr eyni zamanda Azərbaycanın dünya birliyinə qovuşması, xalqın varlığının bütün dövlətlər tərəfindən tanınıb qəbul edilməsi dövrü idi.

Torpaqlarımıza yiyələnmək üçün ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Heydər Əliyev Azərbaycan dövlətçiliyini qoruyub saxlaya bildi. Azərbaycan müxtəlif dövrlərdə ölkəmizə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş düşmənlərimizin, onların bitib-tükənməyən məkr, hiylə və iddialarının qarşısında duruş gətirdi. Məhz Heydər Əliyev zəkası hesabına bu təxribatların heç biri baş tutmadı. Azərbaycan qısa bir müddət ərzində regionun ən qabaqcıl dövlətinə çevrildi.

Bu mənada 1993-cü il 15 iyundan sonrakı dövr Azərbaycan tarixində mahiyyətcə yeni bir eranın başlanğıcıdır. Çünki Heydər Əliyev yeni dövrdə, yeni şəraitdə Azərbaycan cəmiyyətinin mövcudluğunun, milli-mənəvi dəyərlərin və fəlsəfi yanaşmaların əsasını qoymuşdur. Böyük şəxsiyyət dövlət quruculuğunun elə bir konsepsiyasını işləyib hazırlamışdır ki, burada sosiologiya və fəlsəfənin bir çox problemləri mücərrəd ideyalar və elm sahəsindən əməli siyasət müstəvisinə keçmişdir. 1993-cü ildən götürülən siyasi xəttin əsas üstün cəhətlərindən olan demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu yönündə ardıcıl, məqsədyönlü tədbirlərin reallaşdırılması ölkəmizdə demokratiyanın, insan hüquq və azadlıqlarının təməl prinsiplərinin bərqərar olmasına zəmin yaratmışdır. 1995-ci ildə bəşəri demokratik dəyərləri özündə əks etdirən Konstitusiyanın qəbulu, çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, ölkə tarixində ilk dəfə olaraq Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması və digər demokratik tədbirlər Azərbaycanı sivil dövlətlər sırasına çıxarmışdır. Bu siyasət nəticəsində Azərbaycan Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmiş, dünya

demokratik birliyi ailəsinə qovuşmuşdur. Müstəqillik illərində cəmiyyətin tərəqqisinin, elmin, mədəniyyətin, mənəviyyatın inkişafının ən qüdrətli vasitəsi olaraq təhsilə qayğının artırılması dövlət siyasətinin üstün prinsipi kimi qəbul edilmişdir. 1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycan təhsilinin qarşısında yeni üfüqlər açılmış, təhsil, səhiyyə, sosial müdafiə sistemi kimi vacib sferalar həm struktur, həm də məzmun etibarilə yeniləşmişdir. Lakin bütün bunlardan da əvvəl biz Heydər Əliyevə ilk növbədə milli qürurumuzun mühafizəsinə və yüksəlişinə görə borcluyuq.

Heydər Əliyev hələ 1993-cü il avqustun 23-də Azərbaycan televiziyası ilə çıxışında hansı tarixi missiyanı, hansı çətin vəzifəni üzərinə götürdüyünü aydın şəkildə ifadə etmiş, həmin çətin və mürəkkəb zaman kəsiyində Azərbaycanda dövlət hakimiyyətinin hansı real gücə malik olduğunu düzgün qiymətləndirərək milli dövlətçiliyin qorunmasında bəlkə bir qədər mücərrəd görünən, lakin bütün zamanların və real hakimiyyətlərin mənbəyi olan xalqa arxalandığını cəsarətlə göstərmişdir: ***«Şəxsən mənim heç bir silahım yoxdur: nə topum, nə tapançam, nə də avtomatım var. Mənim idrakım var, iradəm var və xalq mənə ümid bəsləyirsə, xalq mənə bu səlahiyyəti vermişdirsə, xalqı bu ağır vəziyyətdən çıxarmağı öz öhdəmə götürmüşəmsə, güman edirəm ki, xalq məni müdafiə edəcəkdir. Ona görə də nə çevrilişdən qoruxuram, nə də mənə qarşı terror aktları hazırlayan qüvvələrdən. Heç bir şeydən qorxmuram. Demişəm və indi də deyirəm: həyatımın bundan sonrakı hissəsini xalqıma bağışlamışam. Xalq onu harada kəsərsə, orada da kəsiləcəkdir. Mən həyatımı xalqın sərəncamına vermişəm. Hər dəqiqə, hər saat, gecə-gündüz xalqa xidmət edirəm. Heç bir qüvvəyə xidmət etmirəm. Heç bir qüvvə də mənə təzyiq edə bilməz».***

Heydər Əliyevin vətən və xalq qarşısında xidmətlərinin əsas özəyini o təşkil edirdi ki, ulu öndərimiz müstəqillik, azadlıq məhfumunu ara sözlərindən, mitinq danışıqlarından, bir sözlə şifahi şüar səviyyəsindən milli ideologiya fəlsəfəsinə çevirdi. Azərbaycanın qurtuluş yolunun milli müstəqillikdən və Azərbaycançılıq ideologiyasından keçdiyini insanlara əxz etdirə bildi. Ən başlıcası isə bu nemətlərin sadəcə qürur deyil, həm də insanların güzəran məsələsi olduğuna hər kəsi inandırdı: «Borcumuz odur ki, Azərbaycan müstəqil bir dövlət kimi daha da inkişaf etsin, daha

da qüdrətlənsin. Azərbaycanın müstəqilliyi hər bir vətəndaş üçün xoş-bəxtlik gətirsin, səadət gətirsin».

Hərdən «görəsən, Heydər Əliyevin gücü nədə idi?», – sualı üzərində düşünərkən ulu öndərimizin şəxsiyyəti, həyat və fəaliyyəti dərhal bu sualı bizim üçün cavablandırmış olur. Heydər Əliyevin gücü ilk növbədə onda idi ki, qüdrətli siyasətçi bütün məsələlərdə səfərbərlik yarada bilir, xalqın milli birliyini təmin etməyi və bu gücü vahid amala yönəltməyi bacarırdı. Bu bacarıq isə xalqın öz liderinə olan inamına söykənirdi.

Heydər Əliyevin müdrik qərarları ilə cəmiyyətdə ictimai-siyasi sabitliyin təmin edilməsi, vətəndaşlarımız arasında milli birliyin əldə olunması sayəsində milli iqtisadiyyatımızda tənəzzülün qarşısı alındı. 1994–1995-ci illərdə mövcud nailiyyətlərin əldə olunması üçün zəruri əsaslar hazırlandı və 1996-cı ildən etibarən Azərbaycanın sosial-iqtisadi həyatında dirçəliş təzahürləri nəzərə çarpmağa başladı.

Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiqlədi. İqtisadi islahatların mühüm istiqaməti olan özəlləşdirmə prosesi uğurla həyata keçirildi. O illərdə siyasi, iqtisadi və informasiya blokadasında olan Azərbaycan Respublikası bütün bunlara rəğmən Heydər Əliyev qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi» kimi qlobal layihənin imzalanmasına müvəffəq oldu. Azərbaycan üçün həyati əhəmiyyət daşıyan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar edilməsi, həm də xarici siyasətdə uğurların qazanılmasında müstəsna rol oynadı. Heydər Əliyevin özünün də vurğuladığı kimi, «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycan Xəzər dənizi və onun enerji ehtiyatlarını bütün dünyanın üzünə açdı.

«Əsrin müqaviləsi»nin imzalanması ilə yanaşı hasil olunacaq neftin dünya bazarına çıxarılması üçün əlverişli marşrutun axtarıb tapılması zərurəti meydana çıxarkən Heydər Əliyev özünəməxsus müdrikliklə neft kəmərinin çoxvariantlılığı ideyasını irəli sürdü və Bakı–Supsa kəmərinin işə salınmasına paralel olaraq «Əsrin müqaviləsi» çərçivəsində hasil olunacaq əsas neftin nəqli üçün «Bakı–Tbilisi–Ceyhan» neft kəmərinin inşası ideyasını gündəmə gətirdi. 1999-cu ilin noyabrında ATƏT-in İstan-

bul zirvə toplantısının sammiti çərçivəsində Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri ABŞ-ın dövlət başçısının iştirakı ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin inşa edilməsinə dair hökumətlərarası saziş imzaladılar. Bu kəmərin çəkilməsi yolunda yaradılan çoxsaylı əngəllərə baxmayaraq Azərbaycan Prezidenti Heydər Əliyevin siyasi iradəsi və uzaqgörənliyi sayəsində maneələrin hamısı dəf edilərək bu layihənin gerçəkləşməsi reallığa çevrildi.

Azərbaycanın yeni neft strategiyası və Bakı–Tbilisi–Ceyhan, habelə Bakı–Tbilisi–Ərzurum enerji layihələri 1991-ci ildə müstəqillik qazanmış dövlətimizin çağdaş tarixində əldə etdiyi ən uğurlu nailiyyətlərdir. Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətindən qaynaqlanan bu nailiyyətlər müasir Azərbaycan üçün əsas siyasi, milli və iqtisadi təhlükəsizlik amillərinə çevrilmişdir.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra həyatımızda baş verən müsbət irəliləyişlərlə bağlı onlarla kitab və minlərlə qəzet materialı çapdan çıxıb. Odur ki, hər bir müasirimizin gözü önündə baş verən hadisə və prosesləri bir daha ətraflı sərf-nəzər etməyə əlahiddə ehtiyac yoxdur. Ümummilli liderimiz Heydər Əliyevin respublika rəhbərliyinə dönüşündən dərhal sonra vətəndaş qarşıdurması təhlükəsinin aradan qaldırılması və daxili ictimai-siyasi sabitliyin bərqərar edilməsi; düşmənin Azərbaycan torpaqlarını işğal siyasətinin dayandırılması; siyasi həyatın sanksiyalaşdırılması və hüquqi islahatların həyata keçirilməsi; formalaşdırılmış münbit zəmin nəticəsində təsirli iqtisadi islahatların aparılması; bütün bunların nəticəsində Azərbaycan vətəndaşı üçün sosial rifahlı, sabit, müdafiə qabiliyyətli və beynəlxalq aləmdə sayılıb-seçilən dövlətə çevrilməsi kimi məqsədlər istiqamətində kompleks tədbirlər həyata keçirilməyə başlandı. Məhz bu nöqteyi-nəzərdən Azərbaycanın bu gün əldə etdiyi hər bir nailiyyətin çıxış nöqtəsi kimi 1993-cü ilin 15 iyununu qəbul etmək lazımdır.

Heydər Əliyevin siyasi obrazı Azərbaycan xalqının dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Dünya tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, gələcəyini, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini, Azərbaycanın bey-

nəlxalq aləmə inteqrasiyasını, milli mədəniyyətimizi öyrənir. Heydər Əliyev fenomeni Azərbaycan xalqının özünütəsdiqidir desək yəqin ki, yanılmarıq.

Heydər Əliyev dühasının qüdrəti sayəsində Azərbaycanın demokratik quruculuq və milli inkişaf yolu spesefik yönümdə, onun milli xüsusiyyətləri və xalqın mənəvi dəyərləri nəzərə alınmaqla həyata keçirilmişdir. Demokratiyanın və bazar iqtisadiyyatı münasibətlərinin bütün ölkələr üçün qəbul edilmiş norma və standartlarından əlavə, onların həyata keçirilməsində hər ölkənin özünəməxsus xüsusiyyətləri də zəruri amil kimi nəzərə alınır ki, bu da nəticə etibarilə, inkişafın müxtəlif modellərini səciyyələndirir. Bizim inkişaf yolumuz tarixi ənənələrin və milli xüsusiyyətlərin bəşəri dəyərlərlə qovuşuğu olan Azərbaycan modelini ehtiva edir. Yəni milli-mənəvi dəyərlər dövlət quruculuğu prosesində aparıcı yer tutaraq, onun bilavasitə nüvəsini təşkil edir.

Heydər Əliyevin rəhbərliyi ilə milli-mənəvi dəyərlərin qorunması istiqamətində də kifayət qədər iş görülmüşdür. Xalqın tarixi ənənələri özünə qaytarılmış, o, dilini, dini etiqad hüququnu yenidən qazanmış, mənəvi dəyərlərini inkişaf etdirmək üçün geniş imkanlar qazanmışdır.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin nəinki mühafizi, həm də onun ən böyük təbliğatçısı və bütün sahələrdə, xüsusən də dövlət quruculuğu istiqamətində mükəmməl tətbiqçisidir. Onun bütün fəaliyyəti boyunca «milli amil» aparıcı xətt kimi özünü büruzə vermişdir. Heydər Əliyev siyasi irsində milli amil iqtisadi-siyasi, sosial-psixoloji, mədəni həyatın potensialını hərəkətə gətirən, ona stimul verən mexanizmdir. Ulu öndərin siyasi fəlsəfəsinə görə müstəqil dövlət quruculuğunun nailiyyətini təmin edən əsas şərtlərdən birincisi məhz mənəvi irsin varisliyidir.

Ölkə daxilində birliyin yaradılması vacibliyini daim diqqətdə saxlayan ulu öndərimiz, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanmasını, vahid amal uğrunda birləşməsinin təmin olunmasını dönə-dönə söyləməklə yanaşı, bu istiqamətdə də konkret addımlar atırdı. Adı «ən böyük azərbaycanlı» kimi tarixə həkk edilmiş Heydər Əliyev yaddaşlarda həm də dünya azərbaycanlılarının həmrəyliyini rəsmiləşdirən ilk dövlət adamı kimi yaşayacaq. Ulu öndərimizin hələ ötən əsrin 70–80-ci illərində nəzəri cəhətdən hazırladığı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik edərkən isə tətbiqinə başladığı milli inkişaf modelinin vətəndaş həmrəyli-

yinin təmin olunması ilə bağlı müddəalarında dünya azərbaycanlılarının birliyinin yaradılması xüsusi önəm daşıyırdı. Təsadüfi deyil ki, məhz müdrik rəhbərimizin təşəbbüsü ilə respublikada ilk dəfə olaraq 1991-ci ilin dekabrın 16-da Naxçıvan Ali Məclisi 31 dekabr gününü «Dünya azərbaycanlılarının həmrəyliyi günü» kimi rəsmiləşdirmiş, yalnız 10 gün sonra Azərbaycanın Milli Şurası bu tarixi rəsmiləşdirən qərar qəbul etmiş, bu tarixi günün həqiqi mənada, əsl ümumxalq bayramı kimi qeyd edilməsi isə yalnız 1993-cü ildən sonra mümkün olmuşdur.

Heydər Əliyevin Azərbaycan diasporası ilə münasibətlərində bu fikirlər prioritet təşkil edir: «Vətəndən kənarda yaşayan soydaşlarımızın ürəkləri gərək daim Azərbaycanın nəbzi ilə vursun. Harada yaşamasından, vəziyyətinin ağır və çətinliyindən asılı olmayaraq gərək hər kəs öz ana Vətəni haqqında düşünsün: azərbaycanlılar artıq bilirlər ki, indi bizim, nəhayət, müstəqil dövlətimiz var. Bu, müstəqil Azərbaycandır. Deməli, harada olursansa ol, hansı ölkədə yaşayırsansa yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən».

Prezident Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin noyabr ayının 9–10-da Bakıda keçirilən Dünya azərbaycanlılarının birinci qurultayı Azərbaycan diasporasının təşkilatlanması istiqamətində dönüş mərhələsinə çevrildi. Bu möhtəşəm mərasimdə çıxış edən ümummilli liderimiz dünya azərbaycanlıları qarşısında duran məqsədlər, vəzifələr, missiyalar barədə, diasporaların işini effektiv və məhsuldar qurmaq yönümündə konseptual fikirlərini səsləndirdi: «Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik... Azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir, şeirlərimiz, mahnılarımız, incəsənətimiz, xalqımıza mənsub olan adət-ənənələrimizdir».

Heydər Əliyev Azərbaycan xalqı üçün bitkin bir ideologiya müəyyənləşdirmiş, onun Azərbaycançılıq ideologiyası həm Azərbaycanda, həm də bütün dünyada yaşayan soydaşlarımızın ümummilli mənafelər çevrəsində bir araya gəlməsi, Azərbaycan mənafelərinin qələbə çalması üçün fundamental baza rolunu oynamış, ümummilli liderimiz xalqın hər bir nümayəndəsi kimi hər birimizə Azərbaycanın nurlu sabahı uğrunda lazım gələr-

sə, öz həyatımızı qurban vermək, milli yüksəliş naminə fərdi maraqların fövqündə dayanmağı bacarmaq, Vətənə təmənnasız xidmət ideallarını aşılaya bilmişdi. Heydər Əliyev müəllifi olduğu Azərbaycançılıq ideologiyası qeyd edilən istiqaməti formalaşdırmaq, milli-mənəvi dəyərlərin qorunması və təbliğ edilməsi sahəsində irəliləyişlərə nail olmaq baxımından mükəmməl ideoloji zəmin və sənəd kimi özünü təsdiqləmişdir.

Azərbaycançılıq ideologiyası əslində, milli-mənəvi dəyərlər sistemində tətbiq olunması və daim öyrənilməsi vacib olan mükəmməl nəzəri-praktik ideoloji baza, Azərbaycan insanının dövlətçilik düşüncəsinin əsasını təşkil edən milli, mənəvi, mədəni, ədəbi, tarixi, siyasi, iqtisadi dəyərlər sisteminin ümumiləşdirilmiş məcmusudur.

Azərbaycançılıq ideologiyası geniş profilli, dövlət quruculuğunun bütün sahələrini əhatə edən konsepsiyadır. Həmçinin milli intibahımızın ən dəqiq və doğru müəyyənləşdirilmiş konseptual istiqamətidir. Ulu öndər Heydər Əliyevin Azərbaycançılıq ideologiyası xalqın və dövlətin əsrlər boyu bərqərar olan ənənələrini, həmçinin ötən əsrin 70–80-ci illərində formalaşması tam başa çatan milli-mənəvi dəyərlərin həm də iqtisadi-siyasi ahəngini ehtiva etməklə yanaşı, nail olduğumuz tərəqqinin perspektiv yönümünü də əks etdirir. Bir sözlə, Heydər Əliyevin Azərbaycançılıq ideologiyası artıq milli inkişafın praktik modeli kimi qəbul olunaraq, dövlətçilik nəzəriyyəsinin təkmil konsepsiyasına çevrilmişdir. Müstəqilliyin ilk illərindən etibarən daim aktual olan «yolumuz haradır və hansı potensialla irəliləyirik» sualına cavabı da məhz bu konsepsiyanın müddəalarında tapmaq olar.

Bu konsepsiyadan irəli gələn vəzifələr heç şübhəsiz ki, yaşlı və orta nəslin nümayəndələri ilə birgə həm də daha çox gələcəyimizin qurucusu olan gənclərin üzərinə düşür. Azərbaycan gəncliyi mənsub olduğu milli mədəniyyətin, əxlaqın, mənəvi irsin hər cür müasirliyin fövqündə dayandığını dərk etməlidir.

Gənclik bilavasitə gələcəyimizin qurucusu, sabahımızın təminatçısı olduğundan bu sosial kateqoriyanın milli ruhda tərbiyəsi, həmçinin milli-mənəvi dəyərlərə uyğun formalaşması cəmiyyətin qarşısında duran əsas tələblərdəndir. Bunu təmin edəcək yeganə qüvvə isə təhsildir ki, monoqrafiyada bu istiqamətdə görülən işlər haqqında geniş söhbət açılacaq, ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu strateji inkişaf kursu üzrə təhsil sahəsində formalaşdırılmış ənənələrin, əldə

edilmiş uğurların geniş təhlili veriləcəkdir.

Az qala yarım əsrlik müddət ərzində Heydər Əliyev fenomeni Azərbaycanın və ümumilikdə regionun ictimai-siyasi həyatının danılmaz faktına çevrilmişdi və bu həqiqət qarşısında həm də təbiətin yazılmamış qanunlarını, insan ömrünün hüdudsuz olmadığını nəzərə alan hər kəs Heydər Əliyevin cismani yoxluğundan sonra Azərbaycan həyatında boşluq yaranacağı, onun başladığı işlərin yarımçıq qalacağı, Azərbaycanın yenidən vaxtilə həyatımızdan keçmiş tələtümlü günlərə qayıdacağı narahatlığını bölüşürdü.

Amma Heydər Əliyev dühasının qüdrəti onda idi ki, onun dövlətçilik konsepsiyasında bu amil də diqqətdən kənarda qalmamışdı. Ulu öndərimiz, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin timsalında öz siyasət məktəbində onun qurduğu dövləti parlaq sabahlara aparacaq, Heydər Əliyev ideyalarını davam etdirəcək, yeni dövrdə Azərbaycanın yüksəlişinin, müstəqilliyinin əbədiliyinin təminatçısı olacaq layiqli varisini də yetişdirərək Azərbaycan cəmiyyətinə və ümumilikdə bütün dünyaya təqdim etmişdi.

2003-cü ilin 15 oktyabr prezident seçkilərində ümummilli liderimizin xeyir-duası və Azərbaycan xalqının yüksək etimadı ilə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevin indiki narahat dünyamızda Azərbaycanın qarşısında duran taleyüklü məsələləri böyük uğurla həyata keçirməsi ulu öndərin müəyyənləşdirdiyi daxili və xarici siyasət kursunun bütün dövrlər üçün gərəkli olduğunu bir daha təsdiqləməkdədir. Burada şübhəsiz ki, yüksək intellektə, dərin biliyə malik, müasir proseslərin mahir bilicisi olan Prezident İlham Əliyevin şəxsi keyfiyyətləri də danılmazdır. Heydər Əliyev strategiyasının haradan başlayıb, hansı istiqamətlərə doğru getməsini dəqiq bilmək və yüksək peşəkarlıqla həyata keçirməkdə Prezident İlham Əliyevin məharəti və tutulan yolun alternativsizliyi müasir dövrdə və yaxın gələcəkdə Azərbaycanın uğurlarını təmin edən mühüm amildir. Xalq Heydər Əliyev siyasətinin davamını İlham Əliyevə etibar etməkdə bir də ona görə yanılmamışdır ki, bu davamçını müəyyən edərkən xalqın seçimi ilə ulu öndərimizin seçimi üst-üstə düşürdü. 2003-cü ildə prezident seçkiləri ərəfəsində ümummilli liderimiz Azərbaycan xalqına müraciətində gələcəyə olan inamını belə ifadə etmişdi: «İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev

başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm».

«İnam imandandır» demiş ulularımız. Azərbaycan xalqının inamlı və imanlı xalq olmasının daha bir sübutu da xalqımızın öz seçimində yanılmamasıdır. Məhz bu inamın, «xalq-Prezident, Prezident – xalq» vəhdətinin nəticəsidir ki, bu gün Azərbaycan dövləti 1993-cü ildə yalnız arzulaya biləcəyi bütün nailiyyətlərə sahibdir: güclü və dinamik hərəkətdə, inkişafda olan iqtisadiyyat, vətəndaşların gündən-günə artan rifahı, sabitlik və vətəndaş həmrəyliyi, regionda əsas söz sahibinə çevrilən müstəqil siyasət aparan nüfuzlu dövlət və ən əsası sabaha ümid.

Tarixi təcrübədən məlumdur ki, bəzən ayrı-ayrı dövlətlərin yüksəlişi, böyük ideyaların həyata keçirilməsi dövrü yalnız bir şəxsin ömrü ilə məhdudlaşır. Lakin Heydər Əliyev müdrikliyi, Heydər Əliyev uzaqgörənliyi Azərbaycan təcrübəsində bunun tam əksini göstərməkdədir. Xalqın yüksək etimadı ilə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi bu müddət ərzində Heydər Əliyevin müəllifi olduğu strateji inkişaf kursu böyük uğurla davam etdirilmiş, ümummilli liderimizin nəzəriyyə formasında irəli sürdüyü, lakin həyata keçirməyə vaxt-imkan tapmadığı ideyalar da reallığa çevrilmişdir.

Bu dövrdə ilk növbədə ölkəmizin davamlı inkişafına təminat yaradan amillər daha da möhkəmləndirildi. Cəmiyyətdə ictimai-siyasi sabitlik təmin olundu. Böyük diplomatik məharətlə həyata keçirilən balanslaşdırılmış xarici siyasət xətti Azərbaycanın başqa dövlətlərlə münasibətlərində hər hansı gərginlik yarada biləcək məqamların ortaya çıxmasına imkan vermədi. Azərbaycan bütün geopolitik maraqların üst-üstə düşdüyü, beynəlxalq mübahisələrin daha çox diskussiya, anlaşma müstəvisinə yönəldiyi dialoq meydanı kimi bütün maraqları özündə bir araya gətirdi. Fərqli mədəniyyətlərə, milli-dini mənsubiyyətlərə tolerant münasibətlə ölkəmiz bütün dünyada örnəyə çevrildi.

Azərbaycanda uzun illərdən bəri vətəndaşların ciddi narahatlığına səbəb olmuş sosial-iqtisadi problemlərin həllinə doğru istiqamətlənən ən uğurlu ideyalar reallaşdı. Azərbaycan regionlarının inkişafı, mövcud sosial-iqtisadi problemlərin aradan qaldırılması üçün mükəmməl dövlət proqramları qəbul olundu və icra edildi. Ölkəmizdə demokratik islahatlar daha geniş vüsət aldı. Hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, insan hüquq və azad-

lıqlarının, söz-mətbuat azadlığının təminatı istiqamətində mühüm addımlar atıldı.

Müstəqil Azərbaycan dövləti bu gün tarixinin ən böyük yüksəliş dövrünü yaşayır. Ölkəmiz artıq təkcə Cənubi Qafqazın deyil, postsovet məkanının və onun əsasən Qərbə inteqrasiyaya can atan hissəsinin ən aparıcı dövlətlərindən birinə çevrilmişdir. Bu həqiqəti həm regionda, həm də daha geniş anlamda oynadığımız geosiyasi rol və topladığımız geosiyasi çəki deyil, bu iki amilin arxalandığı real iqtisadi göstəricilər sübuta yetirir. Təkcə bir faktı diqqətə çatdıraq ki, beynəlxalq strateji araşdırma mərkəzlərinin gəldiyi nəticələrə görə Azərbaycan bu gün dünyanın ən sürətli inkişaf tempinə malik ölkəsidir. Respublikamıza investisiya axını ildən-ilə güclənir. Azərbaycan xarici kapital yatırımına görə Şərqi Avropa məkanında lider mövqeyini qoruyub saxlayır. Elə bir regional layihə yoxdur ki, ölkəmizin razılığı və fəal iştirakı olmadan həyata vəsiqə qazana bilsin. Bütün bunlar ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kursun bəhrəsidir.

Əhəmiyyətli məqam isə ondan ibarətdir ki, əldə edimiş nailiyyətlər Azərbaycan insanının mənafeyinə xidmət edir. Vətəndaşlarımızın firavan həyatının təmin olunması üçün çoxsaylı dövlət proqramlarının icrası bu gün də uğurla davam etdirilir. Bölgələrimizdə həyat canlanır. Sahibkarlığın inkişafına yönələn diqqət hesabına Azərbaycanda özəl sektor ildən-ilə inkişaf edir. Yeni iş yerləri açılır. Ölkəmizdə işsizlik, yoxsulluq səviyyəsi aradan qalxır. Respublikamızda infrastruktur yeniləşir. Elektrik enerjisi, istilik problemi aradan qaldırılır. Bakı və Bakıətrafı qəsəbələrin inkişafı üçün layihələr reallaşdırılır. Bir-birindən yaraşıqlı müasir binalar, geniş komplekslər, ölkəmizin bütün regionlarında davam etdirilən tikinti-abadlıq tədbirləri ilə Azərbaycan sanki yenidən qurulur.

Azərbaycan vətəndaşlarının mədəni-intellektual potensialının artırılması, dövlət rəhbərimizin qeyd etdiyi kimi ölkəmizdə mövcud olan iqtisadi potensialın insan kapitalına çevrilməsi üçün məqsədyönlü layihələr həyata keçirilir. İnformasiya texnologiyalarının ən son nailiyyətləri Azərbaycan insanlarının da həyatına daxil olur. Vətəndaşlarımız informasiyalı dünyanın sakinlərinə çevrilir. Bütün respublika boyunca təhsil, səhiyyə, mədəniyyət obyektləri tikilərək vətəndaşlarımızın ixtiyarına verilir. Heydər Əliyev Fon-

sakinlərinə çevrilir. Bütün respublika boyunca təhsil, səhiyyə, mədəniyyət obyektləri tikilərək vətəndaşlarımızın ixtiyarına verilir. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bir sıra faydalı ictimai təşəbbüslərin müəllifi kimi bu yöndə gördüyü işlər əldə olunmuş nailiyyətlərə xüsusi rövnəq verir.

Qazanılan uğurların böyük bir hissəsinin Azərbaycan təhsilinin payına düşməsi isə heç də təsadüf olmayıb, milli dövlətimizin seçdiyi tərəqqi yolunun, inkişaf modelinin tələblərindən irəli gəlir. Çünki müasir dövrdə ölkələrin qüdrəti heç də onun hərbi potensialı malik olduğu iqtisadi resurslarla ölçülmür. Bu gün dövlətlərin gücünü müəyyən edən yeganə meyar insan kapitalıdır ki, bu sərvəti formalaşdırmaq üçün yeganə yol məhz elmin, təhsilin inkişafından keçir.

Bəs müstəqil Azərbaycan dövləti qloballaşan dünyamızın müəyyən etdiyi bu yeni rəqabət mühitinə nə dərəcədə hazırdır? Diqqətinizə təqdim etdiyimiz monoqrafiyada bu sualı dolğun şəkildə cavablandırmağa çalışmışıq.

Təhsilin inkişafında hüquqi baza rolu oynayan müvafiq norma sənədləri də kitaba əlavələr şəklində daxil etmişik. Hüquqi baza rolunu oynayan qanunlar, fərmanlar, sərəncamlar, normativ və bu qəbildən olan digər sənədləri cəm halında kitaba daxil etməkdə məqsədimiz gənc tədqiqatçıların işinə yardımçı olmaqdır.

Bunu özünüzə stolüstü kitab kimi seçib faydalanarsanız, arzu və təkliflərizi göndərəcəyiniz halda əvvəlcədən təşəkkürümü bildirirəm.

E-mail: humeyir@gmail.com

I FƏSİL

TƏHSİL İNKİŞAFI TƏMİN EDƏN ƏN ZƏRURİ VƏZİFƏDİR

Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O milli məqsədlər, mənafelər əsasında qurulmalıdır.

Heydər ƏLİYEV

AZƏRBAYCANDA TƏHSİL TARİXİNƏ DAİR

Təhsil inkişafı təmin edən ən zəruri vasitədir. Cəmiyyət qarşısında dayanmış bir sıra əsaslı problemlərin həlli ilk növbədə təhsilin tərəqqisindən keçir. Təsadüfi deyil ki, Azərbaycanın və ümumilikdə dünyanın indiyə qədər yetirdiyi ən böyük mütəfəkkirlər onları düşündürən mənəvi idealların təntənəsini məhz təhsildə, insanların maariflənməsində axtararaq zəmanələrinin böyük maarifpərvərləri kimi tarixdə əbədilik qazanmışlar.

Onların hələ yüzilliklər boyunca düşüncələrə səpdikləri maarif toxumları indi öz bəhrəsini verir. «İnformasiya əsri» adlandırdığımız XXI əsrin hər birimizi təəccübləndirən elmi-texniki «möcüzələri», bütün dünyada demokratiyanın inkişafı, insan hüquq və azadlıqlarının təminatı istiqamətində qazanılan nailiyyətlər elmi, təhsili vaxtilə bəşəriyyət üçün vacib sosial amilə çevirməyə müvəffəq olmuş fikir adamlarının bu gün gerçəkləşən arzularıdır. Bu sırada Azərbaycan maarifçilərinin də xidmətləri müstəsna olmuşdur.

Azərbaycanın qədim tarixə, mədəniyyətə malik olması Qobustan, Gəmiqaya, Oğlanqala, Gültəpə daş kitabələrində özünü aydın göstərir. Tarixin müxtəlif mərhələlərində ərazisində Manna, Midiya, Albaniya, Atropatena kimi qədim dövlətlərin olması Azərbaycanın təhsilinə də təsirsiz ötüşməyib.

VII əsrin ortalarından başlayaraq, ərəb işğalları Atlantik okeanından Hindistanadək geniş bir ərazidə yaşayan müxtəlif xalqların sosial-mədəni həyatında köklü dəyişikliklər yaratdı. İslam əvvəlcə Mərkəzi Ərəbistanda, sonra isə Ərəbistan yarımadasında müsəlman dövlətinin ideologiyası oldu. İslamın meydana gəlməsi elmin, təhsilin, mədəniyyətin və mənəviyyatın inkişafına güclü təsir göstərdi.

Orta əsrlərdə islam mədəniyyəti Avropa mədəniyyətini xeyli qabaqladı. Yaxın və Orta Şərq, müsəlman İspaniyası və Şimali Afrika ölkələrində islamın təsiri ilə zəngin mədəniyyət yarandı. İslam mədəniyyəti Avropa,

Asiya, Afrika və eləcə də Latın Amerikası sivilizasiyasında körpü rolunu oynamaqla, mədəniyyətlərin qarşılıqlı inkişafında əvəzsiz xidmət göstərdi

İslamın yayıldığı ərazilərdə elə bir mədəniyyət sistemi yaranmışdı ki, burada hər şey – ilahiyyat, siyasət, hüquq, məişət, elm, əxlaq, din və incəsənət qarşılıqlı əlaqədə idi. Ərəb dili bu mədəniyyətin mühüm amili idi. Müsəlman mədəniyyəti islamı qəbul etmiş xalqların islamdan qabaqkı mədəniyyətinin müəyyən əlamətlərini əxz etmişdi. Müsəlman mədəniyyətinin mərkəzləri Dəməşq, İsgəndəriyyə, Qahirə, Bağdad şəhərləri hesab olunurdu. Xilafətin XI–XII əsrlərdə siyasi süqutundan sonra müsəlman mədəniyyəti xeyli müxtəliflik kəsb etsə də, öz birliyini qoruyub saxladı. Bu mədəniyyətin əsas komponenti islam idi. İslamın müqəddəs kitabı «Qurani-Kərim»dir.

Bir tərəfi atəşpərəst, digəri xristian olan Azərbaycan ərazisində VIII əsrdən etibarən tədricən ***müsəlman məktəbləri*** yayılmağa başladı. Azərbaycanda ilk müsəlman məktəbinin açılışı (yaradılması) VIII əsrin birinci yarısına təsadüf edir. İlk vaxtlar islami dəyərlər zəminində müsəlmanların təlim-tərbiyə funksiyasını məscidlər yerinə yetirirdi. Burada «Quran»ın ayələri ucadan oxunur və mənası izah edilirdi. Məscidə gələnlər bilmədiklərini öyrənər, sonra isə öyrəndiklərini başqalarına öyrədərdilər. Zaman keçdikcə bu təlim-tərbiyə müəssisələri dəyişikliyə uğradı, öz proqramı, maliyyə sistemi, daxili qayda-qanunları ilə fərqlənən xüsusi məktəb binaları ilə əvəz olundu.

Azərbaycanda xilafət dövründə uzun müddət ***fərdi təhsil*** sistemi əsas yer tutmuş, elm həvəskarları ayrı-ayrı alimlərin yanında yüksək təhsil almışlar.

VII–X əsrlərdə islam ölkələrində ali təhsil sahəsində ayrıca mədrəsələr açılmasa da, bir çox iri şəhərlərdə, o cümlədən Bağdad, Şam, Hələb, Həmədan, Rey, Xarəzm, Buxara şəhərlərində əl-Xarəzmi, Əbu Bəkir Məhəmməd İbn Zəkəriyyə Yahya əl-Razi, əbu Nəsr Məhəmməd əl-Fərabi, İbn Məskuyə, Əbu Əli İbn Sina kimi dövrün bir çox ensiklopedik biliyə malik alimlərinin ayrıca *tədris dairələri* olmuşdur. Yaxın və Orta Şərq ölkələrinin, o cümlədən Azərbaycanın elm həvəskarları belə alimlərin yanında riyaziyyat, fəlsəfə, məntiq, nücum, ilahiyyat, dil və ədəbiyyat sahələri üzrə təhsil alırdılar. Belə ki, Əbdülhəsən Bəhmənyar ali təhsilini Əbu Əli İbn Sinanın yanında təkmilləşdirib filosof məqamına yüksəlmişdi.

Xilafətin bütün ərazilərində, o cümlədən Azərbaycanda yeni elm sahələri inkişaf edib təkmilləşdikcə müasir tədris müəssisələrinin yaranması həyati zərurətə çevrilirdi. Belə müəssisələrdən biri də ***mədrəsələr*** (ərəbcə –

öyrədilən yer deməkdir) idi. Elmi müzakirələrin və disputların keçirilməsi üçün müvafiq yerlərin olmaması mədrəsələrin yaranmasının əsas səbəbi idi. Çünki məsciddə bu cür müzakirələrin aparılması ədəb normalarına uyğun gəlmirdi. Mədrəsələr iki pilləli olurdu: *orta təhsil verən və ali təhsil verən mədrəsələr.*

Azərbaycanda mədrəsə təhsilinin sürətli inkişafı XII əsrə təsadüf edir. Həmin dövrdə mədrəsələr əsasən Marağa, Naxçıvan və Gəncə şəhərlərində mərkəzləşmişdi. Digər şəhərlərdə də yüksək təhsil verən mədrəsələr fəaliyyət göstərirdi. Bunlardan biri də Şamaxı yaxınlığında yerləşən *«Mədrəse-ye Tibb»* adlı məktəb idi. Həmin mədrəsə Əfzələddin Xaqaninin əmisi Ömər İbn Osman Kafiyəddin tərəfindən yaradılmışdı.

Qeyd etmək lazımdır ki, XII əsrdə Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən mədrəsələr arasında Naxçıvan mədrəsələri diqqəti daha çox cəlb edir.

XII əsrdə Azərbaycanda *Əbül Üla Gəncəvi, Fələki Şirvani, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi* kimi tanınmış şəxsiyyətlər məhz mədrəsə təhsili almış ziyalılar idi.

XIII əsrdən başlayaraq, islam dünyasında, o cümlədən Azərbaycanın təhsil sahəsində böyük uğurlar əldə edildi. Bağdadda «Müstənsəriyyə», Qahirədə «Nasiriyyə», «Qəmhiyyə», «Kamiliyyə», «Salihiyyə» mədrəsələri geniş şöhrət qazandı. Əsrin əvvəllərində Azərbaycanın Təbriz, Marağa, Xoy, Şəlmaz, Urmiyə, Mərənd, Ərdəbil, Bərdə, Gəncə, Beyləqan, Naxçıvan, Bakı və Şəki şəhərlərində mədrəsələr fəaliyyət göstərirdi. Bu dövrdə mədrəsələrin fəaliyyətinin daha da genişlənməsində əvvəlki əsrin təhsil təcrübəsinin əhəmiyyətini inkar etmək olmaz. Məsələn, elə təkcə Nizamiyyə məktəblərinin təsiri ilə müxtəlif bölgələrdə 238-ə yaxın mədrəsə açıldı. Dəməşqdə 20, Bağdadda 30 belə məktəb fəaliyyət göstərirdi. Həm XII əsrdə fəaliyyət göstərən, həm də XIII əsr mədərəsələri orta əsrlər dünyasında ilk ali tədris müəssisələri idi ki, burada tələbələrə əqli, mənəvi və fiziki keyfiyyətlər kompleks şəkildə aşılanırdı.

XIV əsrdə bəzi mədrəsələrin nəzdində rəsədxana, müalicə evləri və elmi kitabxanalar təşkil edilmişdi. Belə təhsil ocaqları əslində dövrün tanınmış alimlərinin elmi-pedaqoji fəaliyyətlərini birləşdirən mərkəzlər idi. Buna misal olaraq, ***«Şənb-e Qazan», «Rəb-e Rəşidi»*** və ***«Sultaniyyə»*** mədrəsələrini göstərmək olar.

XIII–XIV əsrlərdə böyük elm və təhsil ocağı olan ***«Rəb-e Rəşidi»*** təhsil kompleksi ***Fəzlullah Rəşiddədinin*** (1247–1318) təşəbbüsü ilə Təbriz yaxınlığında təşkil edilmişdi. «Rəb-e Rəşidi» əslində universitet şəhərciyi tipində tikilmiş elm və təhsil müəssisəsi idi. Burada din, fəlsəfə, təbiət, nücum və tibb şöbəsi fəaliyyət göstərirdi.

XIV əsrin əvvəllərində Azərbaycan şəhərlərində yeni təhsil ocaqları və mədrəsələr açıldı.

XVI–XVII əsrlərdə Azərbaycanda məktəb və mədrəsələrin sayı daha da artdı. Övliya Çələbinin «Səyahətnamə» əsərində verdiyi məlumata görə, XVII əsrdə Azərbaycan ərazisində 1200 ibtidai məktəb və 100 mədrəsə (orta və ali məktəb) var idi. Orta hesabla hər məktəbdə 50–100 nəfərə qədər şagird, hər mədrəsədə isə yüzlərlə və bəzi halda isə 1000-dən artıq tələbə təhsil alırdı. Tələbələr eyni proqramla oxuyub, eyni sahə mütəxəssisləri olurdular.

XVII əsr Azərbaycan tarixində milli məktəb və maarifin inki-şafını xüsusi olaraq qeyd etmək lazımdır. Bu dövrdə ərəb və fars dilləri ilə yanaşı, Azərbaycan dili də öz milli hüququna yiyələnmiş, istifadə dairəsi genişlənmişdi. Səfəvilər dövründə Azərbaycan dilinin geniş yayılması ilə əlaqədar olaraq, Adam Oleari yazır: *«Şirvanda, Azərbaycanda, Bağdadda və İrəvanda hətta uşaqlar türk dilində təhsil alırdılar»*. Sarayda danışıq Azərbaycan dilində gedirdi. XVI–XVII əsrlərdən başlayaraq, Azərbaycan məktəblərində təlimin həm də ana dilində aparılması, bu dövrdə Azərbaycanda milli mədəniyyətin, xüsusilə də milli maarifin yüksək inkişaf səviyyəsini təsdiq edən əsas faktdır.

XVIII əsrdə Azərbaycanda yadelli işğalçıların fasiləsiz basqınları və arasıkəsilməz feodal çəkişmələri nəticəsində məktəb və maarif işlərində müəyyən durğunluq yarandı. XVIII əsrin əvvəllərində onlarla məktəb və mədrəsəsi olan Şabran şəhəri bütövlükdə dağıdıldı, təhsil ocaqları məhv edildi. Buna baxmayaraq, həmin dövrdə Azərbaycanda məktəb və mədrəsədə təhsil almış və sonralar müəllim kimi fəaliyyət göstərmiş onlarla ziyalının adını çəkmək mümkündür: Məhəmməd Həsən xan Müştaq, Məhəmməd Zari, Arif Təbrizi, Arif Şirvani, Ağa Məsih Şirvani, Baba Şirvani, Xəstə Qasım, Molla Vəli Vidadi, Molla Pənah Vaqif və digərləri təhsil və maarif sahəsindəki tənəzzülü aradan qaldırmaq üçün əllərindən gələni edirdilər. Molla Vəli Vidadinin Cəbrayılın Çələbilər kəndində, Molla Pə-

nah Vaqifin Şuşanın Saatlı məhəlləsində açdıqları məktəblər yerli əhalinin təhsilə cəlb olunmasında əhəmiyyətli rol oynamışdır.

Orta əsrlərdə Azərbaycanda fəaliyyət göstərən məktəb və mədrəsələr xalqın o dövrün tələbinə uyğun təhsil almasında, elmi biliklərə yiyələnməsində müstəsna xidmətlər göstərməklə yanaşı, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Marağalı Əvhədi, Imadəddin Nəsimi, Şah Ismayıl Xətai, Məhəmməd Füzuli, Qövsi Təbrizi, Saib Təbrizi kimi ziyalılar yetişdirdi.

XIX əsrdə «Gülüstan» (1813) və «Türkmənçay» (1828) müqavilələrinə əsasən Azərbaycan iki yerə bölündü: Şimali və Qərbi Azərbaycan Rusiyanın, Cənubi Azərbaycan isə İranın tərkibinə daxil edildi.

Çarizm Azərbaycanda ruslaşdırma siyasətini iki istiqamətdə həyata keçirirdi:

1) üləmaları, mollaları və əfəndiləri idarələrdə məmur vəzifələrinə təyin edərək öz xidməti qulluqçusuna çevirmək;
2) azərbaycanlı uşaqları rus məktəblərində oxudub, onlardan rus təbiətli «uçitellər» hazırlamaq.

Çar Rusiyasının 1829-cu ildə təsdiq etdiyi «Zaqafqaziya məktəblərinin əsasnaməsi»nə uyğun olaraq, əhali arasında rus dilini yaymaq, onlara ibtidai təhsil vermək məqsədilə Şuşa (1830), Nuxa (Şəki) (1831), Bakı (1832), Gəncə (1833), Şamaxı (1838) və Naxçıvanda (1838) qəza məktəbləri açıldı.

XIX əsrin ortalarında Quba (1854-cü il), Ordubad (1854-cü il), Lənkəran (1856-cı il) və Zaqatalada (1862-ci il) yeni tip ***ibtidai məktəblər*** yarandı. Quba və Ordubad məktəblərində 30, Lənkəran məktəblərində 90-a qədər şagird təhsil alırdı. Şagirdlərin arasında azərbaycanlılar üstünlük təşkil edirdi.

XIX əsrin 40-cı illərində Azərbaycanda gimnaziya təsis etmək fikri meydana gəldi. Yuxarı təbəqəyə məxsus olan azərbaycanlı uşaqlar üçün Tiflis gimnaziyasında müəyyən yer ayrıldığını bəhanə edən hökumət bundan imtina etdi və əvəzinə Şamaxıdakı qəza məktəbinin dördsinifli ***ali ibtidai məktəbə*** çevrilməsinə göstəriş verdi.

Çox keçmədi ki, çar hökuməti yerli əhalidən rus dilini bilən ruhani şəxslər hazırlamaq, Şərq dillərini bilən və mütləqiyyətə sadiq məmurlar yetişdirmək məqsədilə müsəlman məktəbləri açmaq məcburiyyətində qaldı. 1847-ci ildə Tiflisdə Əliyyə (şiə), 1849-cu ildə isə Ömərıyyə (sünnü) məktəbləri

açıldı. Yerli əhali tərəfindən rəğbətlə qarşılanan bu tip məktəblər sonralar Gəncə, Şuşa, Nuxa, Şamaxı, Bakı şəhərlərində, Salyan, Lənkəran və Zaqatalada təşkil edildi. Bu tip məktəblərin açılması çarizmin milli ucqarlarda mövqeyinin möhkəmlənməsinə xidmət etsə də, azərbaycanlılara məxsus məktəblərin təşkili sahəsində irəliyə doğru atılmış mütərəqqi bir addım idi.

XIX əsrin 60-cı illərində Rusiyada baş verən dəyişikliklər milli ucqarlarda, o cümlədən Azərbaycanda xalq maarifi və məktəb təhsili sahəsində müəyyən dəyişikliklərə səbəb oldu.

60-cı illərin məktəb islahatı nəticəsində «bütün təbəqələrdən olanların uşaqlarına ibtidai, əqli və dini-əxlaqi təhsil vermək» məqsədilə ***şəhər məktəbləri*** yaradıldı. Bu məktəblər Azərbaycanda fəaliyyət göstərən qəza məktəblərinin bazasında formalaşdırıldı. Şuşa (1874), Şamaxı (1874), Nuxa (Şəki) (1877), Naxçıvan (1879), Yelizavetpol (Gəncə) (1884) və Zaqatalada (1886) şəhər məktəbləri yaradıldı.

70-ci illərdən etibarən Azərbaycan kəndlərində də rus dilində təhsil verən kənd məktəbləri meydana gəldi. Qazax qəzasının Dağkəsəmən, Zəngəzur qəzasının Gorus, Qubadlı, Cəbrayıl qəzasının Gəbrayıl kəndlərində, Göyçayda, Altıağacda, Salyanda belə məktəblər açıldı.

1879-cu il sentyabrın 3-də Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının nəzdindəki *Azərbaycan şöbəsi* (tatar ibtidai məktəbi ilə birlikdə) açıldı. İbtidai məktəbin açılmasının məqsədi ondan ibarət idi ki, azərbaycanlı gənclər burada ilkin təhsilini aldıqdan sonra Seminariyada təhsillərini davam etdirə bilərdilər. Digər bir məqsəd isə seminaristlərin həmin məktəbdə pedaqoji təcrübə keçməsi idi.

Azərbaycan şöbəsinin on dörd ildən artıq inspektoru olan Aleksey Osipoviç Çernyayevski (1840–1894) tələbələrin müəllim kimi hazırlanmasında çox böyük iş görmüşdü. O, seminariyada işlədiyi müddətdə səmərəli, elmi-metodik fəaliyyət göstərmiş, təlim-tərbiyənin bu və ya digər problemləri ilə bağlı məqalələr yazmış, Azərbaycan balaları üçün «Vətən dili» və «Rus dili» adlı dərsliklər hazırlamışdı.

Seminariyanın məzunları olan Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Səfərəli bəy Vəlibəyov, Əliş Tahirov, Mahmud bəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Pənah Qasımov, Hənifə Terequlov, Əli Hüseynov, Fərhad Ağazadə, Səməd Acalov, Teymur Bayraməlibəyov, Süleyman Sani

Axundov, Azad Əmirov, Əhmədağa Mustafayev, Yusif Qasımov, Əli Qəmərli, Hüseyn Minasazov, Əli Səbri, Məmməd Qarayev, Əhməd Seyidov kimi onlarla xalq müəllimi ömürlərini şam kimi bu xalqın istiqbalı, istiqlalı, tərəqqisi və milli mədəniyyətinin inkişafı yolunda əritmişlər.

Mübaliğəsiz demək olar ki, *Moskva Dövlət Universiteti Rusiyada elm, maarif və mədəniyyətin inkişafı sahəsində hansı xidmətlər göstərmişsə, Azərbaycanda bu şərəfli işi Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi yerinə yetirmişdir (akad. H.M.Əhmədov).*

Azərbaycanda açılan dövlət məktəbləri xalqın savadlanmasına kömək etsə də, o həm məzmunca, həm də formaca ruslaşdırma siyasətini həyata keçirən təhsil müəssisəsi idi.

XIX əsr təhsil sahəsindəki inkişaf və yeniliklərin bir səbəbi də azərbaycanlılar arasında ibtidai təhsilin yayılması idi. Belə ki, bu amil ***orta təhsil müəssisələrinin*** təşkilinə zəmin yaradırdı və əhalinin orta təhsilə olan ehtiyacını ödəmək məqsədi isə gimnaziyaların təşkil edilməsini zəruriləşdirirdi.

1865-ci il sentyabrın 13-də Bakı dördsinifli ali ibtidai məktəbin əsasında realnı progimnaziya təşkil olundu. 1867-ci ildə həmin progimnaziya realnı gimnaziyaya çevrildi. 1870-ci il iyunun 1-də Yelizavetpol (Gəncə) qəza məktəbi klassik progimnaziyaya çevrildi. 1881-ci il sentyabrın 20-də Şuşada realnı məktəbin əsası qoyuldu.

1896-cı ilin sentyabrın 1-də III Aleksandr adına Bakı oğlan gimnaziyası təşkil edildi.

XIX əsrin axırlarında Azərbaycanda oğlanlar üçün natamam orta və orta təhsil müəssisəsi olmaq etibarilə cəmi 6 məktəb fəaliyyət göstərirdi. Bunlardan ikisi realnı (Bakı, Şuşa), ikisi klassik gimnaziya (Yelizavetpol (Gəncə), Bakı), biri progimnaziya, biri isə ticarət məktəbi idi.

XX əsrin əvvəllərində Rusiyada yaranan ictimai-siyasi şərait Azərbaycana da güclü təsir göstərdi. Rusiyanı bürüyən azadlıq hərəkatı, 1905–1907-ci illər burjua-demokratik inqilabı Azərbaycanda genişlənməkdə olan milli hərəkatın, o cümlədən təhsilin yeni müstəvidə inkişafına əsaslı təsir göstərdi. Baş verən ictimai-siyasi hadisələr, xalqın azadlıq mübarizəsi, maarif müəssisələrinin, məktəblərin genişləndirilməsi, təhsilin ana dilində, pulsuz və ümumi olması tələblərini irəli sürməyə şərait yaratdı.

1900-cü ilə olan məlumata görə, Azərbaycanda cəmi 172 ibtidai məktəb fəaliyyət göstərirdi.

1902-ci ildə hər iki quberniyada məktəblərin sayı 230-a çatdı.

1903-cü ildə dövlət vəsaiti hesabına Lənkəran və Quba şəhərlərində şəhər məktəbləri açıldı. Bu məktəblərdə təhsil alan 168 şagirddən 95-i azərbaycanlı idi.

Həmin dövrdə Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında ibtidai təhsil verən məktəblərlə bərabər sənət məktəbləri də fəaliyyət göstərirdi. Həmin sənət məktəblərində təhsil alan 218 uşaqdan cəmi 55 nəfəri azərbaycanlı idi.

1914-cü ildə Azərbaycanda fəaliyyət göstərən 942 məktəbdən 920-si ibtidai məktəb idi (burada da təhsil alan 62786 şagirddən 22161-i azərbaycanlı idi).

Bunlarla yanaşı, 1914/15-ci tədris ilində Azərbaycanda 21 *ali ibtidai məktəb* də fəaliyyət göstərirdi. Ali ibtidai məktəbdə təhsil müddəti 4 il idi. Uşaqlar buraya 3–4 illik ibtidai məktəbi bitirdikdən sonra daxil olurdular.

I müəllimlər qurutayından sonra «Qurultay şurası»nın 1909–1910-cu illərdə 9, daha sonrakı illərdə 10 məktəbi olmuşdur.

1915–1916-cı illərdə «Qurultay şurası» məktəblərinin sinifləri artırıldı. Bir il sonra artıq onun 70 sinfi vardı. Siniflər artıqca təbii ki, şagirdlərin sayı da artırdı. 1914–1915-ci illərdə bu məktəblərdə 2874, 1915–1916-cı illərdə isə 3090 nəfər şagird təhsil alırdı.

XX əsrin əvvəllərində təlimin rus dilində aparıldığı və Azərbaycan dilinin ayrıca bir fənn kimi keçirildiyi *rus-Azərbaycan məktəblərinin* sayı ildənilə artmağa başladı. 1917-ci ildə Azərbaycanda belə məktəblərin sayı 16 idi.

XX əsrin əvvəllərində Azərbaycanda ibtidai təhsilin inkişafında ***maarifçilik – xeyriyyəçilik*** istiqamətində fəaliyyət göstərən ***«Nicat», «Nəşri-maarif», «Səadət» və «Səfa» cəmiyyətləri*** xüsusilə fərqlənirdi.

XX əsrin əvvəllərində təhsilin inkişafına mane olan ciddi problemlər ***Azərbaycan müəllimlərinin I (1906) və II (1907) qurultaylarında*** geniş müzakirə olundu.

Rusiya müsəlmanlarının birinci (15 avqust 1905-ci il-Nijni Novqorod), ikinci (13–23 yanvar 1906-cı il-Peterburq), üçüncü (10–25 avqust 1906-cı il – Nijni Novqorod) qurultayları azərbaycanlı müəllimlərin bir araya gəlməsində çox böyük təsiredici hadisəyə çevrildi.

XX əsrin əvvəllərində Azərbaycanda ali təhsil verən təhsil müəssisələri olmasa da, Həsən bəy Zərdabi, Gorani Adıgözəlov, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov, Əbdülrəhim bəy Haqverdiyev, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Şahtaxtlı, Əlimərdan bəy Topçubaşov və

başqa onlarla ziyalımız Avropanın, Rusiyanın, Türkiyənin və digər qabaqcıl ölkələrin ali təhsil ocaqlarında yüksək səviyyəli ali təhsil almış, millətin tərəqqisini, inkişafını özlərinin həyat amalı hesab etmişlər.

XX əsrin əvvəllərində çar Rusiyasında və milli ucqarlarda ibtidai və orta məktəblər üçün nizamnamələr tez-tez dəyişsə də, çarizmin milli ucqarlarda yeritdiyi ruslaşdırma və xristianlaşdırma siyasətinin mahiyyəti dəyişmədi.

Zaman-zaman öz azadlığı və istiqlaliyyəti uğrunda şəhidlər verən Azərbaycan 1918-ci ilin 28 mayında öz arzusuna qovuşdu, Azərbaycanın milli dövlətçilik tarixində öz möhrünü vurmuş Azərbaycan Demokratik Respublikasını yaratdı.

Şərqdə ilk demokratik, dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti milli dövlət siyasətinin təməl prinsiplərindən biri kimi xalq maarifinin, elm və mədəniyyətin inkişafını ön plana çəkdi, təhsil sahəsində köklü islahatlara və təhsil quruculuğuna başladı.

Bu məqsədlə Azərbaycan hökumətinin qərarına əsasən 1918-ci ilin 30 iyulunda *Xalq Maarifi və Dini Etiqad* Nazirliyi yaradıldı və ilk xalq maarif naziri Nəsib bəy Yusifbəyli təyin edildi.

2 avqust 1918-ci il tarixində təsdiq olunmuş Əsasnaməyə görə nazirlik aşağıdakı strukturda təşkil edilmişdi: 1) nazir; 2) nazir müavini; 3) nazir şurası; 4) məktəbləri idarə edən üç şöbə – ali və orta, xalq və peşə məktəbləri şöbələri.

Nazirlik yarandığı ilk gündən Azərbaycan Xalq Gümhuriyyətinin təhsil siyasətinin əsas istiqamətlərindən olan təhsil müəssisələrinin milliləşdirilməsi məsələsini ön plana çəkdi, ümumi icbari təhsil layihələri hazırladı, kəndlərdə, şəhərlərdə yeni məktəblər açmağa qərar verdi.

Məktəb islahatı sahəsində məsələləri ətraflı müzakirə etmək, dövlət proqramı üçün təkliflər hazırlamaq məqsədilə hökumət 1919-cu ilin avqust ayında Bakıda *Azərbaycan müəllimlərinin Qurultayını keçirdi.* Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil, elm və mədəniyyət sahəsində apardığı quruculuq işləri, təxirəsalınmaz tədbirlər qısa bir vaxt ərzində öz nəticəsini verirdi.

Artıq 1919-cu ilin əvvəllərində respublika ərazisində 23 dövlət orta, orta ixtisas təhsili müəssisəsi vardı ki, onlardan da 6-sı kişi, 4-ü qadın gimnaziyası, 5-i realnı məktəb, 3-ü müəllimlər seminariyası, 3-ü «Müqəddəs Nina» qız məktəbi, 1-i politexnik və 1-i kommersiya məktəbi idi. 1914-cü ildə yaradılmış Balaxanı realnı qız məktəbinin bazasında oğlanlarla qızların birgə

təhsil aldığı gimnaziya yaradıldı. Kişi gimnaziyaları iki şöbədən – humanitar və real, qadın gimnaziyaları isə ancaq humanitar şöbədən ibarət idi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə 1914-cü ildə yaradılmış Gəncə müəlllimlər seminariyası da milliləşdirildi. Eyni məqsədlə Bakıda Darülmüəllimin (kişi məktəbi) və Darülmüəllimat (qadın məktəbi), Nuxada Darülmüəllimin açıldı, Zaqatala, Ağdam, Şuşa şəhərlərində isə açılması nəzərdə tutulurdu. İbtidai məktəblərin müəllimlərə olan ehtiyacını təmin etmək məqsədi ilə Gəncədə, Nuxada, Şuşada 200 nəfər müəllim hazırlayan kurslar açıldı («Azərbaycan» qəz., 11 noyabr 1918-ci il, №36). Təhsil ocaqlarının milliləşdirilməsini daha səmərəli təşkil etmək, ibtidai siniflərin müəllimlərə olan ehtiyacını ödəmək məqsədilə Bakıda, Qazaxda, Qusarda, Salyanda və Zaqatalada da qısa müddətli kurslar açıldı ki, bunların da hər birində 50 nəfər dinləyici təhsil alırdı. Parlamentdə Göyçayda realnı məktəbin açılması haqqında qanun layihəsi təsdiq olundu (Bax: Adres Kalendar Azerbaydjanskoy Respubliki. B., 1920, səh. 55).

Firudin bəy Köçərlinin səyi və işgüzarlığı nəticəsində Azərbaycan mədəniyyətinə onlarla ziyalı bəxş etmiş Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü və həmin ilin noyabrında fəaliyyətə başladı. Azərbaycan ziyalılarının Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin respublikamıza köçürülməsi ideyası nəhayət ki, reallaşdı. Bu istiqamətdə inadla mübarizə aparan Firudin bəy Köçərli hələ Azərbaycan müəllimlərinin I qurultayında (1906-cı il) belə bir vacib məsələnin müzakirəsinə nail olmuşdu. Qurultay bu barədə danışanların, xüsusilə, Firudin bəy Köçərlinin məzmunlu çıxışından sonra Qori Seminariyası Azərbaycan şöbəsinin Azərbaycanın şəhərlərindən birinə köçürülməsi barədə qərar qəbul etmişdi. Lakin çar Rusiyasının antiazərbaycan siyasəti bu qərarın reallaşmasına imkan vermədi. Xalq Cümhuriyyəti isə Qori Seminariyasının Azərbaycan şöbəsinin respublikaya köçürülməsinin əhəmiyyətini qiymətləndirərək həmin işi reallaşdırdı. Seminariyanın məhz Qazaxa köçürülməsi təsadüfi deyildi, yerli əhali AXC hökuməti qarşısında məsələ qaldırmışdı ki, Qori seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüləcəyi təqdirdə onlar tərəfindən seminariya üçün 10 desyatin (hektar) yer ayrılacaq, birdəfəlik 3000 manat, ildə isə 1000 manat pul veriləcək. AXC hökuməti maliyyə xərclərini öz öhdəsinə götürmüş qazaxlıların bu xahişini qəbul edərək 1918-ci ilin 10 iyul tarixli iclasında seminariyanın Azərbaycan şöbəsinin Qazaxa köçürül-

məsi barədə qərar vermiş və bu məqsədlə 5080 manat vəsait ayırmışdı (Seyidov F.Ə. Maarifimizin təkrarsız xəzinəsi. Bakı, 2001, s.51). Seminariyanın yerləşəcəyi bina məsələsini isə yerli əhali özü həll etdi. Belə ki, maarifpərvər Məşədi İbrahim Kosalı özünün mülkünü tədris binası kimi seminariyaya hədiyyə etdi. Sonralar məlum qarabağ hadisələri dövründə mənfur ermənilər tərəfindən top atəşilə darmadağın edilmişdir.

Türkiyədən dəvət olunmuş 50 nəfər müəllim respublikada xalq maarifinin yenidən təşkilində səylə çalışır, dərsliklər, tədris vəsaitləri hazırlayır, milliləşdirilmiş məktəblərdə dərs deyirdilər. Hökumətin qərarı ilə dəvət olunan müəllimlərə yerli müəllimlərin əmək haqqından 50% artıq maaş verilirdi.

Təhsilin milliləşdirilməsi istiqamətində işlər daha da genişləndirilirdi. Artıq Bakı politexnik, kommersiya məktəbləri istisna edilməklə bütün orta təhsil müəssisələri, o cümlədən III, IV kişi və II, III, IV qadın gimnaziyaları milliləşdirilmişdi. Milliləşdirilmiş məktəblərdə «Rus tarixi»nin yerinə «Ümumi türk tarixi», rus məktəblərində isə həftədə 3–4 saat Azərbaycan dilinin tədrisi planlaşdırıldı. Eyni zamanda xalq maarifi sahəsində milliyyəti, dini və cinsindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər təhsil hüququ verilirdi.

Azərbaycan dili dövlət dili (27.06.–01.07.1918) elan edildiyindən Parlamentin dəftərxanası bütün dövlət və ictimai təşkilatlara və ayrı-ayrı şəxslərə bildirirdi ki, parlamentə və onun dəftərxanasına hər cür yazılı müraciət ancaq dövlət dilində olmalıdır. Başqa dillərdə yazılmış ərizələrin üzərinə parlamentin sədr müavini Həsənbəy Ağayev səliqə ilə aşağıdakı məzmunda dərkənar qoyardı: «Ərizə türkcə lisanda olmadığı üçün əncamsız qalır».

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ümumi təhsilə, ümumtəhsil müəssisələrinin şəbəkəsinin inkişafına müstəsna əhəmiyyət verməsinin bir göstəricisi də bu idi ki, milli hökumət əvvəlcə ölkədə hamılıqla icbari ibtidai təhsilə, sonra isə ümumi orta icbari təhsilə keçidi özünün təhsil siyasətində prioritet istiqamət hesab edirdi. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin sayca dördüncü hökumət kabinetinin parlamentə təqdim etdiyi Hökumət Proqramında (deklarasiyasında) deyilirdi ki, təhsilin milli müstəqilliyin möhkəmləndirilməsində müstəsna rolu nəzərə alınaraq, ümumi icbari təhsil haqqında qanun layihəsi hazırlanmalı və həmin ilin payızından ümumi təhsil müəssisələri şəbəkəsi daha da genişləndirilməlidir. Bu məqsədlə hökumət ilk növbədə təhsilin məzmunu sahəsində islahatlar aparmaq,

yeni dərsliklər hazırlamaq məqsədilə komissiyalar yaradılacağını xüsusi olaraq vurğulayırdı.

Dövlət səviyyəli tədbirlərin nəticəsi idi ki, bütün orta təhsil müəssi-sələrində təhsil alan azərbaycanlı oğlan və qızların sayı sürətlə artırdı. Faktlara müraciət edək: Əgər 1914/15-ci tədris ilində orta ümumtəhsil məktəblərində (müəllimlər seminariyaları istisna edilməklə) 9643 şagirddən yalnız 1137-si azərbaycanlı (999-u kişi, 138-i qadın) idisə, 1919/20-ci tədris ilində oxuyan 9611 şagirdin 3395-i (2978-i kişi, 317-si qadın) azərbaycanlı idi. (*Bax: Народное образование в Азербайджане (1920–1927), B., 1928, 16 c.).*

Azərbaycan Xalq Cümhuriyyəti dövründə məktəblərin quruluşunda da xeyli dəyişiklik edildi. Bakı və Gəncə quberniyalarında fəaliyyət göstərən məktəblərin direktorluğu ləğv olundu, onların funksiyaları nazirliyə, bir qismi isə xalq məktəbləri inspektorluğuna keçdi. Bakı direktorluğunun nəzdində olan pedaqoji muzey Bakı və onun rayonlarının xalq məktəbləri inspektorluğunun tabeliyinə verildi. 1919-cu ildə bölgələrdə, o cümlədən Qarabağda 10 xalq inspektorluğu fəaliyyət göstərirdi.

İbtidai məktəbləri bitirən şagirdlər orta məktəblərə, yaxud əsrin əvvəllərində yaradılan və təhsil müddəti dörd il olan ali ibtidai məktəblərə qəbul olunurdular. 1919-cu ildə respublikada 15 milliləşdirilmiş ali ibtidai məktəb vardı ki, onlar da Bakı, Göyçay, Quba, Qusar, Salyan, Lənkəran, Şamaxı, Göytəpə, Gəncə, Gorus, Ağdaş, Şuşa, Nuxa (Şəki), Qazax, Zaqatalada yerləşirdi. Nazirlik daha 2 ali ibtidai məktəbin açılması haqqında məsələ qaldırmışdı. Ali ibtidai məktəblərlə yanaşı, Şuşa və Zaqatalada qadın gimnaziyaları, Gəncə, Zaqatala və Nuxada sənət məktəbləri var idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu dövrdə təhsildən yayınmış «küçə uşaqları»nın taleyinə də biganə qalmamış, 1919-cu ilin avqustunda Bakıda həmin uşaqlar üçün dövlət hesabına «Uşaq evi» və «Uşaqlara yardım bürosu» təşkil etmişdi.

Gənc Azərbaycan dövlətinin xidmət sahələrinin ahəngdar işini təşkil etmək üçün ilk növbədə dəmiryolu, bank, poçt və teleqraf xidməti üzrə milli kadrların hazırlanması kursları açılmışdı. Eyni zamanda kənd təsərrüfatında, sənayedə ixtisaslı mütəxəssislərin, fəhlə kadrlarının, texniki profilli ustaların hazırlanması məqsədilə müvafiq kurslar fəaliyyət göstərirdi. Hətta «Bakıda Şərq incəsənəti və təsviri sənətinin ənənələrini davam etdirmək

məqsədilə sənaye-incəsənət məktəbinin açılması qərara alınmışdı» (Azərbaycan Cümhuriyyəti. Bakı, 1998. s.164).

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil quruculuğu təkcə bunlarla bitmir. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi 2 il ərzində bütün çətinliklərə və məhrumiyyətlərə baxmayaraq, xalq maarifinin yeni-dən təşkili sahəsində xeyli iş görüldü. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu, Pedaqoji İnstitut və Dövlət Konservatoriyasının açılması üçün müəyyən təşkilati işlər aparsa da, o dövrdə yaranmış tarixi-siyasi şərait yalnız Bakı Dövlət Universitetini (1919-cu il) təsis etməyə imkan verdi. «Azərbaycan gəncliyini elm və texnika əsrinə hazırlamaq üçün» (Məmməd Əmin Rəsulzadə), «təbii lisanda, tariximizin, ədəbiyyatımızın inkişafına kömək edə biləcək kəslərin yetişməsi məqsədilə» (Nəsib bəy Yusifbəyli) 1 sentyabr 1919-cu ildə qəbul edildi. Bakı Dövlət Universiteti təsis edildi. BDU-nun açılması ilə bağlı sənədlər parlamentin müxtəlif komissiyalarında, partiyanın fraksiyalarında, parlamentin iclaslarında 4 aya qədər müzakirə edildi. Bir sıra təshih və əlavələrdən sonra 10 maddəlik «Bakı Dövlət Darülfünunu haqqında qanun», BDD-nun 5 fəsil 72 maddədən ibarət Nizamnaməsi parlamentdə təsdiq olundu. Universitetin ilk rektoru olmuş Vasili İvanoviç Razumovski parlamentdəki çıxışında göstərirdi ki, Azərbaycan öz ali maarif ocağını açdı. Türk xalqları tarixinə yeni parlaq səhifə yazıldı. Avropa və Asiyanın hüdudlarında yeni bir məşəl şölələndi (Разумовский В.И.Основание университета в Баку, «Известийа Бакинского Государственного Университета», 1919, №2, səh.16).

Ali təhsilli milli mütəxəssislərin hazırlanması təhsil quruculuğunda mühüm yer tuturdu. Bu vəzifənin icra edilməsi istiqamətlərindən biri azərbaycanlı gənclərin dövlət hesabına xarici ölkələrin tanınmış ali məktəblərinə təhsil almağa göndərilməsi idi. Bununla bağlı milli hökumətin ilk tədbiri xüsusi Parlament Komissiyası tərəfindən seçilmiş 100 nəfər azərbaycanlı gəncin xaricdə oxumağa göndərilməsi oldu. Onlardan 10 nəfərinin İngiltərəyə, 23 nəfərinin İtaliyaya, 45 nəfərinin Fransaya, 9 nəfərinin Türkiyəyə, 13 nəfərinin Rusiyaya göndərilməsi qərara alınmışdı. Lakin sonradan bu bölgüdə müvafiq dəyişiklik edildi. Seçilən tələbələrdən 49-u Almaniyanın, 27-si Fransanın, 4-ü İtaliyanın, 1-i İngiltərənin, 6-sı Türkiyənin ali məktəblərinə Parlament və Hökumət üzvlərinin, tanınmış iş adamlarının, din

xadimlərinin, ictimaiyyətin iştirakı ilə təntənəli şəkildə yola salınsa da (14.01. 1920), 13 nəfərini Rusiyada vətəndaş müharibəsi başladığına görə oraya göndərmək mümkün olmadı. Dövlət hesabına xaricə ali təhsil almağa göndərilən tələbələrdən başqa, Parlament Komissiyası tərəfindən 31 nəfər əlavə abituriyent də seçilmişdi ki, onların da böyük əksəriyyəti öz hesabına, yaxud mesenatların maliyyə dəstəyi ilə Qərbi Avropa ölkələrinin ali məktəblərinə göndərildi.

Xaricə göndərilən həmin tələbələrin xərci üçün hökumət Xalq Maarifi Nazirliyinin sərəncamında olan dövlət xəzinəsindən 7 milyon manat ayırmışdı. Avropaya göndərilənlərin hər biri üçün 1000 frank yol xərci, hər ay isə 400 frank təqaüd, Rusiyaya göndərilənlər üçün isə 3 min rubl yol xərci və hər ay bir o qədər də təqaüd nəzərdə tutulmuşdu. Dövlət hesabına oxuyan tələbələr təhsilini başa vurduqdan sonra hökumətin göndərdiyi yerdə 4 il işləməli idilər.

15 sentyabr 1919-cu ildə Bakıda, Gəncədə, Şuşada, Nuxada, Zaqatalada və Qazaxda yaşlılar üçün axşam kursları açıldı. Kurslardakı dərslər iki semestr ərzində aparılırdı: birinci semestr 15 sentyabrdan 5 dekabr 1919-cu ilə kimi, ikinci semestr 1 yanvar 1919-cu ildən 1 aprel 1920-ci ilə kimi davam etmişdir. Üç şöbədən ibarət olan axşam kurslarının birinci şöbəsində Azərbaycan dilini bilməyən savadsız şəxslər, ikincisində Azərbaycan dilini az-çox bilənlər, azsavadlı, üçüncüsündə isə Azərbaycan dilinin tədrisi metodlarını, terminləri mənimsəməyə ehtiyacı olanlar məşğul olurdu. Axşam kursları ilə yanaşı, Bakıda milliləşdirilmiş siniflərin müəllimləri üçün xüsusi kurs da açıldı ki, ona parlamentin üzvü Abdulla bəy Əfəndizadə rəhbərlik edirdi. Bu kurslarda Azərbaycan dilinin tədrisinə hazırlıq və onun metodikası öyrədilirdi. Eyni zamanda 1 noyabr 1919-cu ildə Bakıda müsəlman fəhlələri üçün texniki kurslar da açılmışdı, həmin kurslarda 200 nəfərdən çox fəhlə təhsil alırdı.

Azərbaycanın orta təhsil məktəblərində 600, İstanbul məktəbləri üçün 50 təqaüdün təsisi, 650 təqaüdçünün hamısının təhsil haqqından azad edilməsi, dərsliklərlə təmin edilməsi, 300 nəfərə ayda 200 manat, digər 300 nəfərin hər birinə isə 900 manat, İstanbula göndərilən 50 nəfərin hər birinə isə ayda 2000 manat məbləğində təqaüd verilməsi; Maarif Nazirliyi nəzdində elmi-pedaqoji ədəbiyyat jurnallarının nəşri; Gəncədə, Qazaxda, Şuşada, Nuxada kişilər üçün 2 illik, Gəncədə, Bakıda, Nuxada qadınlar üçün 1 illik

pedaqoji kursların açılması və s. qanun layihələrini, təəssüflər olsun ki, Parlament qəbul edə bilməmişdi.

AXC hökuməti millətin ərazi bütövlüyünün qorunması ilə yanaşı, xalq maarifinin inkişafı sahəsində təqdirəlayiq işlər gördü və xeyli qanunlar qəbul etdi. Lakin ADR-in bolşeviklər tərəfindən işğalı milli təhsil quruculuğu sahəsində nəzərdə tutulan əsas islahatların davam etdirilməsinə imkan vermədi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xalq maarifi sisteminin yeni prinsiplər əsasında təşkili ilə təhsil tarixində yeni dövr başlandı. Bu işdə sovet Rusiyasının təhsil modeli əsas götürüldü, vahid dünyəvi əmək məktəbi, birgə təhsil, təhsildə hüquq bərabərliyi prinsipləri ön plana çəkildi. Xalq Maarifi Komissarlığı (1920, aprel) təsis edildi.

20-ci illərdə 1-ci və 2-ci pillə məktəbləri ilə yanaşı, 7 illik (1924/25) müəllimlik (1926/27) məktəblər də açıldı. 7 illik məktəblər ümumi təhsil verməklə gəncləri orta ixtisas məktəblərinə daxil olmağa hazırlayırdı, 9 illik məktəblər isə mahiyyətcə 1-ci və 2-ci pillə məktəblərin birləşməsindən ibarət idi.

1920–30-cu illərdə maarifin təməl prinsiplərindən biri əhali arasında savadsızlığı ləğv etmək sayılırdı. Bu hərakat Xalq Maarifi Komissarlığı nəzdində yaradılmış (1920, sentyabr) Savadsızlığı ləğvetmə üzrə Mərkəzi Komissiya tərəfindən həyata keçirilirdi. Əhalinin bütün təbəqələrini əhatə edən savadsızlığı ləğvetmə məktəbləri və kursları açıldı, «Savadsızlıqla mübarizə komitəsi» (1923, dekabr) və «Rədd olsun savadsızlıq» cəmiyyəti (1924, iyul) təsis edildi.

20–30-cu illərdə dinə qarşı mübarizə adı altında tarixi ənənəsi olan klassik müsəlman təhsil müəssisələri – məktəb və mədrəsələr tamamilə ləğv edildi.

30-cu illərdə təhsilin məzmununda milli dəyərlər arxa plana keçdi, saxta beynəlmiləlçilik aparıcı amilə çevrildi, nəticədə təhsilin məzmunu tamamilə sovet ideologiyasına tabe etdirildi. Azərbaycanda 1940/41 tədris ilində respublikanın 1668 ibtidai məktəbində 192825, bütövlükdə isə 3575 ümumtəhsil məktəbində 653071 şagird təhsil alırdı.

Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri bu mərhələdə dövlət təhsil sisteminin tərkib hissəsinə çevrildi. 20-ci illərdə respublikada uşaq bağçaları və uşaq evlərindən başqa, fabrik-zavod fəhlələrinin uşaqları üçün «uşaq ocaqları» da təşkil edildi, məktəbəqədər tərbiyəyə dair vahid proqram qəbul (1932) olundu.

Hökumətin ali və orta ixtisas təhsili sahəsində əsas məqsədi təhsil alanların «proletarlaşdırılması»na, yəni ali və orta ixtisas məktəblərinə qəbulda fəhlə-kəndli gənclərə üstünlük verilməsinə yönəldilmişdi. Bu məqsədlə Bakı Dövlət Universitetinin nəzdində fəhlə fakültəsi (1920, dekabr) açılmışdı. Fəhlə fakültələrinin başlıca vəzifəsi fəhlə-kəndli gəncləri ali məktəbə hazırlamaqdan ibarət idi. Onlar ali məktəbə imtahansız qəbul edildi. Sosial mənşəyinə görə fəhlə və kəndli olmayanların ali məktəbə qəbulu hökumət tərəfindən məhdudlaşdırılmışdır. Bir-birinin ardınca yeni ali məktəblər – Bakı orta texniki məktəbləri bazasında Bakı Politexnik Pedaqoji İnstitutu (1921), Azərbaycan Məktəbəqədər Tərbiyə İnstitutu (1921; 1922/23 tədris ilində Ali Qadın Pedaqoji İnstitutuna çevrildi, 1923 ildə isə Kişi Pedaqoji İnstitutu ilə birləşərək vahid Azərbaycan Ali Pedaqoji İnstitutu yaradıldı), Ali İncəsənət məktəbi (1921) təsis edildi.

1930-cu ildə Azərbaycan Dövlət Universiteti 4 müstəqil ali məktəbə (Tibb İnstitutu, Pedaqoji İnstitut, Sovet Quruculuğu və Hüquq İnstitutu, Kooperativ Ticarət İnstitutu) ayrıldı. Bununla yanaşı, Bakıda Zaqafqaziya Bədən Tərbiyəsi İnstitutu (1930) və bir sıra yeni ali məktəb və filiallar təsis edildi. Artıq 1932/33-cü tədris ilində respublikada 19 ali məktəb fəaliyyət göstərirdi ki, onlarda 10,6 min tələbə təhsil alırdı. Ali məktəblərə vahid rəhbərlik yox idi. 1934/35-ci tədris ilində Azərbaycan Dövlət Universiteti yenidən bərpa olundu, Neft İnstitutu ilə İnşaat İnstitutu birləşdirilərək Azərbaycan Sənaye İnstitutu, Sosial-İqtisadi ilə Sovet Ticarəti İnstitutunun bazasında isə Azərbaycan Xalq Təsərrüfatı İnstitutu təşkil edildi.

30-cu illərin sonunda Bakıda rus dilli müəllimləri hazırlayan ikiillik Azərbaycan Müəllimlər İnstitutu (1938), Gəncə, Şuşa, Naxçıvan, Xankəndi və Nuxada 2 illik müəllimlər institutları yaradıldı. Bu illərdə bir çox ali məktəbdə qiyabi və axşam şöbələri açılmış, hətta Bakıda Qiyabi Pedaqoji İnstitut (1936) təsis edilmişdi. 1940/41-ci tədris ilində respublikanın 16 ali məktəbində 14,6 min tələbə qiyabi təhsil alırdı. Beləliklə, bu mərhələdə Azərbaycanda ali təhsil müəssisələrinin geniş şəbəkəsi yaradıldı.

İkinci dünya müharibəsi illəri təhsilin inkişafında ən çətin, böhranlı mərhələ olsa da, məktəblərdə iş ahəngi pozulmadı. Səfərbərliyə alındı, tədris binalarının hərbi məqsəd üçün istifadəsi səbəbindən məktəb şəbəkəsi ixtisar olundu. 1941/42 tədris ilində 3463 ümumtəhsil məktəbində 569850 şagird təhsil alırdısa, müharibənin vurduğu zərbə nəticəsində 1944/45 tədris

ilində məktəblərin sayı 3233-ə, şagirdlərin sayı 482720-yə enmişdi. Müharibə ümumi icbari 7 illik təhsilə keçid prosesini də ləngitdi, ümumi təhsilin səviyyəsi aşağı düşdü.

1950/51-ci tədris ilində respublikada 4233 ümumtəhsil məktəbi vardısa, 1970/71-ci tədris ilində onların sayı 5115-ə çatdı. Ümumtəhsil məktəblərində 40-cı illərin sonunda 660000, 60-cı illərin sonunda isə 1444000 şagird var idi. Yaşlıların istehsalatdan ayrılmadan təhsil alması üçün 1970/71-ci tədris ilində 772 ümumtəhsil qiyabi (axşam) məktəbi fəaliyyət göstərirdi. Bu mərhələnin sonunda (1970) Azərbaycan ümumtəhsil məktəblərində 3–4 min nəfər müəllim çalışırdı.

1966-cı ildə ümumi icbari orta təhsilə keçilməsi başlandı. Ümumi təhsilin «internat» forması yarandı, politexnik təlimə üstünlük verildi, 7 illik məktəblər 8 illiyə, 10 illik məktəblər isə istehsalat təlimli 11 illik orta məktəblərə (1959) çevrildi. 60-cı illərin ortalarında (1966) 11 illik təhsil müddəti 10 illiklə əvəzləndi.

Müharibə illərində ali təhsil sistemində yenidən dəyişikliklər edildi. 1941-ci ildə Pedaqoji İnstitut, Xalq Təsərrüfatı İnstitutu, Qiyabi Pedaqoji İnstitut və Bədən Tərbiyəsi İnstitutu Azərbaycan Dövlət Universitetinə (ADU) birləşdirildi. Az sonra (1943) Pedaqoji İnstitut ADU-dan ayrılaraq müstəqil instituta, 2 illik Gəncə Müəllimlər İnstitutu isə Pedaqoji İnstituta (1943) çevrildi. Bir qədər sonra (1944) Xalq Təsərrüfatı İnstitutu ADU-dan ayrıldı. Yeni Teatr İnstitutu (1945) təsis edildi. Bu cür «birləşmə» və «ayrılmalar» müharibədən sonra və 50-ci illərdə də davam etdirildi. Nəticədə 1945/46 tədris ilində respublikada 17 ali məktəb olduğu halda, 1950/51 tədris ilində onların sayı 20-yə çatdırıldı. Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu (1948), Azərbaycan Politexnik İnstitutu (1950) yaradıldı, 2 illik müəllimlər institutları ləğv (1953) edildi. Azərbaycan SSR Nazirlər Soveti yanında Ali və Orta İxtisas Təhsili Komitəsi (1959) yaradıldı, az sonra (1962) isə Ali və Orta İxtisas Təhsili Nazirliyinə çevrildi.

Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında mühüm mərhələ sayılan bu illərdə təhsil, elm və mədəniyyətin inkişafında da böyük tərəqqi və yüksəliş baş verdi.

Azərbaycanda ümumi icbari orta təhsilə keçidə 60-cı illərin ortalarından başlansa da, bu prosesin tam gerçəkləşməsi 70-ci illərdə mümkün oldu. Ümumi orta təhsil məktəbləri şəbəkəsi 1965-ci illə müqayisədə 2,6 dəfə-

dən çox artaraq, 765-dən 1965-ə çatdı. 1145 ibtidai və natamam orta məktəb ümumtəhsil məktəbinə çevrildi, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün respublika tabeliyindəki xüsusi məktəblərin sayı 1979-cu ildə 22-yə, məktəbyanı internatlar şəbəkəsi 215-ə çatdırıldı.

1982-ci ildə respublikada 4395 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Həmin ilin sonunda Heydər Əliyevin SSRİ-nin ali rəhbərliyinə irəli çəkilməsi, dövlətin həm də təhsil siyasətinə və təhsil islahatlarına rəhbərlik etməsi Azərbaycanda ümumtəhsil məktəblərinin inkişafına və məktəb islahatı aparılmasına zəmin yaratdı. 1984-cü ildə SSRİ-də aparılan ümumtəhsil və peşə məktəbləri üzrə islahatın əsas istiqamətləri və strategiyasının müəyyənləşdirilməsi, həmin islahatın icra mexanizminin işlənib hazırlanması məhz İslahat Komissiyasının sədri Heydər Əliyevin adı ilə bağlıdır. Komissiyanın hazırladığı «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri»ndə nəzərdə tutulan bir çox məsələlər (6 yaşdan təhsil, 11 illik icbari orta təhsil, «Bilik günü»nün təsis edilməsi, ümumi orta təhsildə tədrisin təmayüllülər və dərinləşmiş siniflər əsasında qurulması və s.) həyata keçirilsə də, sonrakı siyasi proseslər qarşıya qoyulan məktəb islahatının reallaşmasına imkan vermədi.

Bu mərhələlərin sonunda (1990) respublikada 4356 ümumtəhsil məktəbində hər il orta hesabla 1,4 milyon şagird təhsil alırdı, müəllimlərin sayı 1970-ci ildəki 77 mindən 132 min nəfərə çatmışdı.

70–80-ci illərdə Azərbaycanda texniki peşə, ali və orta ixtisas təhsilli müəssisələrin şəbəkəsi də sürətlə inkişaf etdi. Peşə təhsili sahəsində yeni inkişaf strategiyası və proqramı hazırlanıb həyata keçirildi. 35 şəhər və 54 rayonda yeni texniki peşə məktəbi yaradıldı. 1970-ci ildə respublikada 76 texniki peşə məktəbi fəaliyyət göstərirdisə, 80-ci illərin əvvəlində (1982) bu rəqəm 184, sonunda (1990) isə 176 olmuşdur. Beləliklə, 70–80-ci illərdə texniki peşə məktəblərinin sayı 2,5 dəfə, təhsil alanların sayı isə 2,3 dəfədən çox artmışdı. Bu illərdə 5276 yerlik texniki peşə təhsili kompleksləri, 2400 yerlik tədris binaları, 2800 yerlik laboratoriya – təcrübə kursları, ümumi sahəsi 15559 kv.m olan yataqxana binaları tikilmiş, 194 tədris-istehsalat emalatxanası, 786 tədris kabineti, 22 təlim təsərrüfatı yaradılmışdı.

1988-ci ildə Maarif Nazirliyi, Ali və Orta İxtisas Təhsili Nazirliyi və Texniki Peşə Təhsili Komitəsi əsasında Xalq Təhsili Nazirliyi, 1993-cü ildə isə Təhsil Nazirliyi yaradıldı. 80-ci illərin sonlarında yaşı 15-dən yuxarı

olan əhalinin hər min nəfərindən 129-u ali, 146-sı orta ixtisas, 425-i ümumi orta, 190-nı natamam orta təhsilli idi. Bütün bu uğurlara baxmayaraq, 80-ci illərin sonlarından (1988) başlanan proseslər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, nəhayət, SSRİ-nin süqutu (1991), Dövlət idarəçiliyində tez-tez baş verən dəyişikliklər təhsil sistemində böhranın yaranmasına gətirib çıxartdı.

Azərbaycan Respublikasının milli təhsil quruculuğu sahəsində islahatlar «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı» və bu Proqramın komponent və alt-komponentləri üzrə təsdiq olunmuş İnkişaf Proqramları, Azərbaycan hökuməti ilə Dünya Bankı arasında imzalanmış birinci (1999, 12 iyul) və ikinci kredit (2003, 19 sentyabr) sazişləri əsasında hazırlanmış təhsil sektorunun inkişaf layihələri; beynəlxalq qurumlarla Təhsil Nazirliyi arasında bağlanmış layihələr əsasında aparılır.

1990-cı ildə respublikada 2185 məktəbəqədər tərbiyə müəssisəsində 181 min uşaq tərbiyə olunurdusa, bu rəqəmlər müvafiq olaraq 1991-ci ildə 2168 və 173 min nəfər, 1999-cu ildə 1814 və 112 min nəfər təşkil etmişdir. Ölkədəki 1764 məktəbəqədər tərbiyə müəssisəsində 110 min uşaq və onlarla 14557 pedaqoji işçi məşğuldur (2006). Ölkədə 11 qeyri-dövlət məktəbəqədər tərbiyə müəssisəsi də var. Bütövlükdə ölkə üzrə uşaqların ictimai tərbiyə ilə əhatəolunma göstəricisi 19,1% təşkil edir (2005). Azərbaycanda fəaliyyət göstərən beynəlxaq qurumların (YUNİSEF, Asiya İnkişaf Bankı və s.) maliyyə dəstəyi ilə məktəbəqədər təhsil sahəsində bir sıra proqramlar həyata keçirilir.

Azərbaycan təhsilinin təməlini təşkil edən ümumtəhsil müəssisələri şəbəkəsi inkişaf etmiş, ümumi təhsilin dövlət standartları və bazis tədris planı hazırlanmış, məzmunca yeniləşdirilməsi istiqamətində mühüm işlər görülmüşdür.

1991/92-ci tədris ilində 4332 gündüz ümumtəhsil məktəbindən 2710-u orta məktəb (62,6%) idisə, 2003/04-cü tədris ilində 4542 dövlət gündüz məktəbindən 3188-ini (70%) orta məktəblər təşkil etmişdir. Ümumtəhsil məktəblərinin sayı 1991/92-ci tədris ilindəki 4332-dən 2005/06-cı tədris ilində 4538-ə, orta təhsil alanların sayı müvafiq olaraq 1375 nəfərdən 1581 min nəfərə yüksəlmişdir.

Ölkədə yeni tipli tədris müəssisələri – kolleclər yaradılmışdır. Azərbaycanda 1998-ci ildə bu tipli 8 təhsil müəssisəsi vardı, 2004-cü ildə onların sayı 32-yə çatmışdır.

Ali təhsil sistemində 34 dövlət (5-i xüsusi təyinatlı və hərbi ali təhsil müəssisəsi), 14 qeyri-dövlət ali təhsil müəssisəsi (2005/06-cı tədris ili) fəaliyyət göstərir ki, bunlarda 129 mindən artıq (xüsusi təyinatlı və hərbi təhsil müəssisələri istisna olunmaqla) tələbə təhsil alır və 14 mindən artıq professor-müəllim heyəti çalışır. Dövlət ali məktəblərinin sayı müstəqilliyin ilk illərindəki 17-dən 34-ə yüksəlmişdir.

Azərbaycanda mədəni quruculuq və təhsil sahəsində mühüm addımlardan biri latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında qanun (1991, 25 dekabr) oldu. 1992/93-cü tədris ilindən ümumtəhsil məktəblərinin 1-ci sinfində, 1993/94-cü tədris ilindən isə bütün siniflərdə tədrisin latın qrafikalı əlifbada aparılmasına keçildi, bütün dərsliklərin latın qrafikasında nəşrinə başlandı.

Azərbaycanda 15 qeyri-dövlət ali məktəb fəaliyyət göstərir. (Azərbaycan Beynəlxalq Universiteti, Azərbaycan Universiteti, Qərb Universiteti, Xəzər Universiteti, Qafqaz Universiteti, Odlar Yurdu Universiteti və s.), 4 orta ixtisas (Beynəlxalq Kollec, Odlar Yurdu Universitetinin nəzdində Kollec və s.), 11 ümumi orta təhsil müəssisəsi (Heydər Əliyev adına Müasir Təhsil Kompleksi, Bakı Özəl Türk Liseyi, Odlar Yurdu Universiteti nəzdindəki Bakı Oksford məktəbi, Beynəlxalq Ümumtəhsil məktəbi və s.), 11 məktəbəqədər tərbiyə müəssisəsi (Beynəlxalq Məktəbəqədər Tərbiyə Məktəbi və s.) təsis edilmişdir.

Humanizm, demokratiya, idarəetmənin dövlət-ictimai səciyyəsi, tədrisin şəxsiyyətyönümlülüyü, milli və ümumbəşəri dəyərlərə hörmət, vətəndaşlıq tərbiyəsi, şəxsiyyətin azad inkişafı, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət və s. bu kimi konseptual prinsiplər əsasında ölkədə müasir, dünyəvi milli təhsil sisteminin qurulması Azərbaycanın təhsil siyasətinin əsasını təşkil edir.

II FƏSİL

AZƏRBAYCAN ELMİNİN VƏ TƏHSİLİNİN HİMAYƏDARI

Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət harada olursa olsun, nədən olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin savadına, biliyinə, müəllimə kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir.

Heydər ƏLİYEV

HEYDƏR ƏLİYEV İRSİNDƏ TƏHSİLƏ MÜNASİBƏT

Azərbaycan elminin, təhsilinin, ümumilikdə mədəniyyətinin inkişafında xidmətləri misilsiz olan ulu öndər Heydər Əliyev ölkəyə rəhbərliyinin bütün dövrlərində bu sahəyə diqqət və qayğısını əsirgəməmiş, daim milli elmimizin, təhsilimizin güclü himayədarı kimi çıxış etmişdir. Ümummilli liderin bu sahəyə son dərəcə həssas münasibəti heç də səbəbsiz deyildi. Heydər Əliyev elmin, təhsilin inkişafına milli dövlət quruculuğu prosesinin zəruri əsası kimi yanaşır, xalqın intellektual səviyyəsinin artırılmasını ən vacib vəzifələrdən biri kimi nəzərdən keçirirdi.

Görkəmli dövlət xadimi bu məqsədi əsas götürərək hələ ölkəyə birinci rəhbərliyi dövründə (1969–1982) Azərbaycan təhsilinin tərəqqisinə mane olan bir sıra amilləri aradan qaldırmış, mövcud potensialı ölkənin gələcək inkişafının elmi əsaslar üzərində qurulmasına, respublikanın mədəni-intellektual resurslarının gücləndirilməsinə, bir neçə on ildən sonra dövlət müstəqilliyini elan edəcək Azərbaycan üçün layiqli vətəndaşların yetişdirilməsi işinə səfərbər etmişdi.

2.1. Təhsil sahəsində islahatlar

Heydər Əliyevin təhsil sahəsində fəaliyyəti əsasən aşağıdakı istiqamətləri özündə əks etdirir: O, Azərbaycan maarif sisteminin ştat heyətini yerli kadrlar hesabına milliləşdirir, respublikanın hər yerində, xüsusən kənd yerlərində məktəblər tikdirir, müəllimlərə qayğı göstərir, təyinat sistemini genişləndirir, təyinatla kənd yerlərində işləyən müəllimlərə mənzil kirayə haqqı verilir və digər güzəştlər edilir, gənclərə ali təhsil almaq üçün şərait yaradılır, kənd yerlərini mütəxəssislərlə təmin etmək üçün gənclər ali məktəblərə müsabiqədənkənar qəbul edilir, ali məktəblərin sa-yını artırır, onla-

rın maddi texniki bazasını gücləndirir, Azərbaycan təhsilinin qabaqcıl dünya ölkələrinin təhsil sistemi ilə əlaqəsini qurmaq üçün səylər göstərilirdi.

Heydər Əliyev ilk növbədə Azərbaycan Respublikası Maarif Nazirliyinin tərkibini milliləşdirməyə başlayaraq bu məqsədə uğurla nail oldu. Kadrlara tələbat artırıldı. Azərbaycanlı təhsil işçilərinin nazirlik sistemində işə qəbulu gücləndirildi. Işdə nöqsanlara yol verənlər, o cümlədən səmimi olmayan qeyri-azərbaycanlılar tutduqları vəzifədən azad edilməyə başladılar. Məsələn, Azərbaycan KP MK-nın 1970-ci il 13 mart tarixli büro iclasında maarif nazirinin müavini R.A.Balayanın düzgün olmayan hərəkətləri müzakirə olundu və o, işdən azad edildi.

Heydər Əliyev hakimiyyətə gələrkən xalq maarifi müəssisələrinin saxlanmasına çəkilən xərc xeyli az olduğundan onun artırılmasına böyük səylə çalışır və buna nail olurdu. Xalq maarifi sahələrinin saxlanmasına ayrılan xərclər 1969-cu ildən başlayaraq hər il daim artırılırdı. Məsələn, Azərbaycanın 1977-ci il dövlət büdcəsində xalq maarifinin saxlanmasına 377,1 mln. manat ayrılırdı ki, bu da 1976-cı illə müqayisədə 19,3 mln. manat çox idi.

1978-ci ildə isə xalq maarifi müəssisələrinin saxlanmasına Dövlət büdcəsindən 384,3 mln. manat ayrıldı. Bu da 1976-cı illə müqayisədə 8,9 faiz çox idi. Sonrakı illərdə də xalq maarifinin saxlanmasına ayrılan vəsaitin həcmi artırıldı. Məsələn, 1981-ci ildə xalq maarifi müəssisələrinin maliyyələşdirilməsinə əvvəlki illə müqayisədə 4,7 faiz çox olmaqla 723,5 mln. manat ayrıldı. Sosial mədəni xərclər bütün büdcənin 57,2 faizini və ya 1 mlrd. 235 mln. 200 manat təşkil edirdi. Bu isə 1980-ci il planından 5 faiz, 1979-cu ildəkindən isə 10,8 faiz çox idi. 1982-ci ildə xalq maarifi müəssisələrinin maliyyələşdirilməsinə 1980-ci illə müqayisədə 4 faiz artımla 689 mln. manat vəsait ayrıldı. Xalq maarifinin saxlanmasına 46 faiz və ya 1980-ci ilin hesabatına nisbətən 9,9 faiz artımla 372,5 mln. manat yönəldildi.

Heydər Əliyevin Azərbaycan maarifinin inkişaf etdirilməsi sahəsindəki fəaliyyətinin başlıca istiqamətlərindən biri də yeni məktəb binalarının tikintisi, məktəbyaşlı uşaqların təhsilə cəlb olunması, təhsilin kütləviləşdirilməsindən ibarət idi. 1969-cu ildən 1982-ci ilə qədər olan dövrdə Azərbaycanda yeni məktəb binalarının tikilməsi və uşaqların məktəbə cəlb edilməsi daim yüksələn xətlə getmişdi. Qeyd etmək lazımdır ki, 1920-ci ilin aprelinədək, yəni sovet hakimiyyəti qurulanadək Azərbaycanda cəmi 976 məktəb var idi. Bu isə xeyli az olub xalqın maarifə olan tələbatını heç cürə ödə-

mirdi. Sovet illərindən başlayan məktəb binalarının tikintisi mədəni inqilab illərində genişləndirilsə də, Azərbaycanın bütün yaşayış məntəqələrini əhatə edə və tələbatı ödəyə bilməmişdi. 60-cı illərin sonunadək hətta bir çox məktəblər ayrı-ayrı vətəndaşların şəxsi evlərində yerləşir, ayrıca məktəb binaları olmayan kəndlər miskin görünürdü. Xalq yeni məktəb binalarının tikintisinə böyük ehtiyac duyurdu. Məktəb tikintisi üçün ayrılan xərclərin artırılması və bu işin həyata keçirilməsi tələb olunurdu. Ona görə də Heydər Əliyev hakimiyyətə gələn kimi böyük enerji və həvəslə bu problemin həllinə başladı.

1969-cu il sentyabrın 1-də respublikamızda 120 məktəbin açılışı oldu. Onların bir qismi yeni tikilmiş, bir qismi isə 8 illik məktəbdən orta məktəbə çevrilmişdi. Beləliklə, Heydər Əliyev hakimiyyətə gəldikdən az sonra Azərbaycanda olan orta məktəblərin ümumi sayı 1130-a çatdırıldı. Həmin il sentyabrın 1-də 1 mln. 130 min şagird dərsə başladı. Bu da 1968-ci illə müqayisədə 70 min nəfər çox idi. Başqa bir məlumatda isə göstərilir ki, 1969/70-ci tədris ilində Azərbaycanın gündüz ümumtəhsil məktəblərində 1 mln. 295 min şagir təhsil alırdı.

Bu illərdə məktəb yaşına çatmış uşaqların təhsilə cəlb olunması üçün də ciddi addımlar atıldı, məktəb şəbəkəsi sürətlə genişləndirildi. 1970-ci ildə 170 yeni orta məktəb açıldı. Bunun da 55-i Dövlət büdcəsi hesabına tikilən məktəb binaları idi. Bundan əlavə, bir sıra məktəb binaları kolxoz və sovxozların, yerli büdcənin hesabına tikilmişdi. 1970-ci il sentyabrın 1-i üçün Azərbaycanda əhalinin hər üç nəfərindən biri təhsilin bütün növləri üzrə əhatə olunmuşdu.

1971-ci ildə Azərbaycanda orta təhsil sahəsində yeni bir irəliləyiş əldə edildi, təhsilə cəlb edilən uşaqların sayı xeyli artdı. Həmin ildə Azərbaycan məktəblərində 1 mln. 390 min şagird təhsil alırdı ki, bu da əvvəlki illə müqayisədə 60 min nəfər çox idi. Təkcə birinci sinfə gedən şagirdlərin sayı 170 min nəfər təşkil edirdi. Respublikada 1905 səkkizillik, 1303 orta və xeyli ibtidai məktəb fəaliyyət göstərirdi. 1972-ci ilin sentyabr ayında isə Azərbaycandakı 4204 ümumtəhsil məktəbindən 1382-si orta (439-u şəhərdə, 943-ü kənddə), 1843-ü səkkizillik (299-u şəhərdə, 1544-ü kənddə), 979-u ibtidai məktəb idi. Gündüz məktəblərində 1 mln. 412 min 500 şagird təhsil alırdı. Bu rəqəm əvvəlki illə müqayisədə xalq maarifi sahəsində böyük sıçrayış demək idi.

Belə inkişaf respublika rəhbərinin xalq maarifinə bilavasitə qayğısının nəticəsində qazanılmışdı. Şagirdlərin sayının sürətlə artması bir tərəfdən əhali artımı, demoqrafik inkişafla bağlı idisə, digər tərəfdən əvvəlki illərdə təhsildən yayınanların, xüsusən qızların məktəbə cəlb edilməsinin nəticəsi idi, əhali artımına isə başlıca olaraq insanların həyat səviyyəsinin getdikcə yaxşılaşması təsir göstərirdi.

Azərbaycanlı qızların məktəbə cəlb edilməsi məsələsinə xüsusi diqqət verilməsi nəticəsində təhsilli qadınların xüsusi çəkisi sürətlə artır, Azərbaycan qadını respublikanın ictimai-siyasi və təsərrüfat həyatında mühüm rol oynayırdı. Artıq 1978-ci ildə Azərbaycanda 770 min nəfər ali və orta təhsilli qadın var idi, bu qısa müddət ərzində Azərbaycan cəmiyyətində qadının rolunun artırılması sahəsində böyük uğur qazanılmasından xəbər verirdi.

Lakin bu sahədə hələ 60-cı illərdən qalan bir problem həllini gözləyirdi ki, bu da məktəbi bitirən gənclərin işsiz qalması faktından ibarət idi. SSRİ Mərkəzi Statistika İdarəsinin rəisi V.Starovski Sov.İKP MK-ya yazdığı 1969-cu il 24 yanvar tarixli məktubunda müttəfiq respublikalara bu problemin həlli üçün səyləri gücləndirməyi təklif edirdi. Heydər Əliyev hakimiyyətə gələn kimi həmin problemin həllinə başladı və uğurlu nəticələrə nail oldu, Azərbaycanda texniki peşə təhsili şəbəkəsi genişləndirildi.

Məktəb tikintisinə qayğı göstərən Heydər Əliyev bu məsələni Azərbaycan KP MK-nın büro iclaslarında hərtərəfli, geniş müzakirə obyektinə çevirir və bununla bağlı qəti qərarlar qəbul edirdi. Onun sədrliyi ilə 1973-cü il avqustun 28-də keçirilən Azərbaycan KP MK bürosunun iclasında respublika ərazisində yeni məktəb binalarının tikintisinə dair qərar qəbul edildi, bu qərara əsasən 1974-cü ildə 35, 75-ci ildə 35, 76–80-ci illərdə 276 min şagird yeri olan məktəb binası tikilməli idi. Qərarın vaxtında və keyfiyyətlə yerinə yetirilməsini məsul şəxslərdən tələb edən Heydər Əliyev bu sahədə yol verilən hər hansı nöqsanın qarşısını qətiyyətlə alırdı.

İnternat məktəblərin tikintisinə də xüsusi diqqət yetirilirdi. MK-nın qəbul etdiyi qərara əsasən dövlət vəsaiti hesabına 1974-cü ildə 2 min, 75-ci ildə 3 min, 76–80-ci illərdə isə 10 min şagird yeri olan internat məktəb binaları tikilməli idi. Bu qərarın icrası ciddi nəzarətdə saxlanırdı, məktəb tikintisi bütün respublika ərazisində genişləndirilmişdi. İnternat məktəblərə ayrılan diqqət nəticəsində təhsil alan şagirdlər az sonra Azərbaycanı ümumittifaq kimya, fizika, riyaziyyat və başqa fənn olimpiyadalarında uğurla təmsil et-

məyə başladılar. Bütün bunlar Azərbaycanın istedadlı uşaqlarının, bütövlükdə xalqın intellektual səviyyəsinin ölkə miqyasında tanıdılması üçün əlverişli vasitə idi.

1974-cü ildə respublikanın orta məktəblərini 103 min nəfərədək oğlan və qız bitirdi. Bu da 1973-cü illə müqayisədə 13 min nəfər çox idi. Həmin ildə respublikada fəaliyyət göstərən 1540 orta və 1890 səkkizillik məktəbdə 1 mln. 500 min şagird təhsil alırdı.

1976/77-ci tədris ilində Azərbaycanın gündüz məktəblərində 1 mln. 464 min 400 şagird oxuyur, respublikada 1754 orta, 1743 səkkizillik məktəb fəaliyyət göstərirdi. Gərgin əmək, ardıcıl iş nəticəsində qısa müddət ərzində məktəb şəbəkəsinin 75 faizi artıq kəndlərdə yerləşmiş, Azərbaycan kəndində məktəb tikintisi geniş vüsət almışdı. 1974/75-ci tədris ilində respublikada 147 məktəb binası tikilib istifadəyə verilmişdi və bu da Azərbaycan maarifi tarixində böyük irəliləyiş idi.

1978-ci il üçün Azərbaycanın dövlət büdcəsində əsaslı vəsait hesabına 48,7 min, o cümlədən 29,5 min yerlik orta məktəb binası tikmək nəzərdə tutulmuşdu. Bu iş də uğurla yerinə yetirildi, nəticədə icbari orta təhsilə keçid illərində Azərbaycanın bütün əhalisinin 1 miln. 104 min 200 nəfərini və ya 18,8 faizini tam orta təhsilli adamlar təşkil edirdi.

1968–1978-ci illərdə Azərbaycanda orta məktəblərin sayı 77 faiz artmış, kənd məktəblərinin sayı 680-dən 1264-ə çatmışdı. Bütün bunların nəticəsində Azərbaycan kəndinin siması sürətlə dəyişirdi. Elmə və təhsilə maraq sürətlə artır, məktəblər kənddə mədəniyyət mərkəzləri kimi formalaşırdı.

Ümumiyyətlə, Heydər Əliyevin ölkəyə birinci rəhbərliyi illərində Azərbaycan başdan-başa savadlılar diyarına çevrilmişdi. 1980-ci ildə Azərbaycanda fəaliyyət göstərən ümumtəhsil məktəblərində 1 mln. 400 min şagird təhsil alırdı və bu Azərbaycanın bütün tarixi ərzində görünməmiş bir uğur idi. Moskva, Leninqrad və ölkənin başqa şəhərlərindəki ali məktəblərə qəbul olunmuş birinci kurs tələbələri ilə 1981-ci il avqustun 29-da keçirilən görüşdəki nitqində Heydər Əliyev deyirdi ki, indi Azərbaycanda təhsilin müxtəlif növləri üzrə 1 mln. 857 min nəfər əhatə olunub, onlardan 1,5 mln.-dan çoxu orta ümumtəhsil, qalanları isə ali məktəb və texnikumlarda oxuyur.

Müəllim hazırlığına, ali təhsilli müəllimlərin sayının artmasına və kənd məktəblərinin ixtisaslı müəllim kadrları ilə təmin edilməsinə xüsusi yer verilirdi. Qeyd etmək lazımdır ki, 1969-cu il sentyabrın 1-i üçün Azərbayca-

nın ibtidai, səkkizillik və orta məktəblərində işləyən 75 min müəllimin yalnız 50 faizinin ali təhsili var idi. Azərbaycan rəhbəri bu vəziyyətin dərhal düzəldilməsi istiqamətində qətiyyətli addımlar ataraq təxirəsalınmaz tədbirlər həyata keçirməyə başladı. Azərbaycan KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında respublikanın müxtəlif rayonlarından gənclərin ali məktəblərə müsabiqədənkənar qəbulu haqqında qərar çıxarıldı. Sonrakı illərdə də uğurla davam etdirilən bu iş Azərbaycanın kənd yerlərini müxtəlif peşə sahibləri, o cümlədən müəllimlərlə təmin etmək məqsədi güdürdü. Həmin qərar eyni zamanda Azərbaycan kəndində ümumi mədəniyyətin və təhsilin inkişafına yönəlmişdi. Qərarın uğurla yerinə yetirilməsi 70–80-ci illərdə Azərbaycan kəndinin inkişafında müstəsna rol oynadı.

Bununla belə, qeyd etmək lazımdır ki, müsabiqədən kənar qəbul işində nöqsanlara da yol verilirdi. Bəzi rayonlardan ali məktəblərə planda nəzərdə tutulan qədər gənci tövsiyə etmirdilər, qəbula gələn abituriyentlərin hazırlıq səviyyəsi aşağı olurdu və s. Heydər Əliyev yol verilən mövcud qüsurların tezliklə və qətiyyətlə aradan qaldırılmasını tələb edir, müvafiq tapşırıqlarını verirdi. Bununla bağlı olaraq o, 1982-ci ildə etdiyi nitqlərinin birində deyirdi ki, respublikanın 30 rayonuna müsabiqədən kənar 30 yer ayrılsa da, ali məktəblərə cəmi 7 nəfər qəbul edilib.

Kənd yerlərindən olan gənclərin Bakıya və digər şəhərlərə pedaqoji təhsil almağa gəlməsi digər bir problemin həllinin zəruriliyini irəli sürürdü. Həmin tələbələrin yaşaması üçün yataqxana şəbəkəsi çatışmırdı, ev kirayəsi isə baha olduğundan rayonlardan gələnlər üçün çətinliklər yaranırdı. Buna görə də tələbə gənclərin məişət şəraiti probleminin həlli də Heydər Əliyevi düşündürürdü və müvafiq qərarlar qəbul etməsinə səbəb olurdu.

1973-cü il avqustun 28-də Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin qəbul etdiyi qərara əsasən, pedaqoji institutların və məktəblərin nəzdində 1975-ci ildə 4,7, 1976–80-ci illərdə isə 50,6 min kv. m-lik yataqxanalar tikilməli idi. Rayonlardan pedaqoji təhsil almağa gələn gənclərin məişət şəraitinin yaxşılaşdırılmasına və kənd rayonlarında maarifin inkişafına xidmət edən bu qərarın icrası şəxsən Heydər Əliyevin nəzarətində idi. Bütün bunların nəticəsində pedaqoji yönümlü institut və məktəblərin tələbə yataqxanalarının tikintisi işi uğurla həyata keçirildi.

Heydər Əliyev kənd yerlərində işləməyə gedən gənc mütəxəssislərə və əvvəlki illərdən orada çalışan müəllimlərə xüsusi qayğı göstərməklə Azər-

baycan maarifinin coğrafiyasını genişləndirir və təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olurdu. Kənd rayonlarında xalq maarifinin səviyyəsini yüksəltməkdən ötrü gənc mütəxəssislər təyinatla yerlərə göndərilirdi. 1969-cu ildə 4 min gənc müəllim təyinatla rayon yerlərinə işləməyə yola salındı. Bu gənclərin bir qismi təyinat müddəti başa çatdıqdan sonra işlədikləri yeri tərk etsələr də, bəziləri getdiyi yerdə ailə quraraq yerli camaatla qaynayıb-qarışırdı. Azərbaycan kəndində məktəbin yüksəlişinə və kənd əhalisinin maariflənməsinə istiqamətlənmiş ümumi siyasətin həyata keçirilməsində həmin şəxslərin rolu heç şübhəsiz böyük idi, 60–70-ci illərdə müəllim kənddə ən çox maaş alır, ən hörmətli şəxslərdən sayılırdı.

1971-ci ildə kənd yerlərində ümumtəhsil məktəblərinin, o cümlədən həmin məktəblərin pensiyaya çıxmış müəllimləri, üçillik kənd texniki peşə məktəblərinin ümumtəhsil fənləri üzrə müəllimləri kənd təsərrüfatı vergisindən azad edildilər, bu addım kənddə məktəb işinin canlanmasına, müəllimin həyat şəraitinin yaxşılaşdırılmasına və nüfuzunun yüksəlməsinə təkan verdi.

Azərbaycanda maarifə göstərilən qayğının daha bir nümunəsi də «Xalq maarifi haqqında» qanun (27.12.1974) layihəsinin ümumxalq müzakirəsinə verilməsi və qəbul edilməsindən ibarət oldu, qanunun qəbulu və həyata keçilməsi Azərbaycan məktəbinin inkişafında əsaslı rol oynadı.

Heydər Əliyev ana dilində ibtidai və orta məktəb dərsliklərinin yaradılmasına da böyük əhəmiyyət verirdi, 1972-ci ildə bütövlükdə 86 adda 5 milyon nüsxə orta məktəb dərsliyi nəşr edildi. 1974-cü ildə 5 milyon 600 min tirajla 100 adda dərs kitabı, 7 adda metodiki vəsait, 10 adda əyani vəsait nəşr edilərək məktəblərə göndərildi. 1976-cı ildə ümumi tirajı 5 milyon 590 min nüsxə olan 93 adda dərslik çapdan çıxmışdı.

Heydər Əliyev Azərbaycan müəllimlərinin qurultaylarında iştirak edir və proqram xarakterli nitq söyləyirdi. Azərbaycan KP MK bürosunun 1978-ci il 25 mart tarixli iclasında Azərbaycan müəllimlərinin qurultayının çağırılması haqqında qərar qəbul edildi. Büronun 17 may tarixli iclasında isə Heydər Əliyevin qurultay iştirakçılarına təbrik məktubunun və edəcəyi məruzənin mətni bəyənildi. Həmin ilin may ayında keçirilən Azərbaycan müəllimlərinin VI qurultayında çıxış edən Heydər Əliyev geniş nitq söylədi. Onun nitqində Azərbaycan məktəbinin keçdiyi tarixi inkişaf yolu, mövcud vəziyyəti dərindən təhlil edilir, perspektivləri və qarşısında dayanan vəzifələr

müəyyən edilirdi. Heydər Əliyev Azərbaycan xalqının tərəqqisində təhsilin roluna xüsusi əhəmiyyət verdiyini vurğulayırdı.

Yüzlərlə fakt Heydər Əliyevin Azərbaycanın orta məktəb müəllimlərinin fəxri adlar almasında, ölkədə tanınmasında müstəsna rolunu sübut edir. Bununla bağlı olaraq o, Sov.İKP MK-ya dəfələrlə məktublar yazır və istəyinə çatmaqdan ötrü inadla təkid edirdi. Məsələn, 1981-ci il aprelin 23-də Z.Şöyübova SSRİ Xalq müəllimi fəxri adının verilməsi barədə MK-ya 233 nömrəli məxfi məktub yazmış, az sonra bu istəyinə nail olmuşdu. Müəllimlərə fəxri adların verilməsindən ötrü Moskvaya edilən çoxsaylı müraciətlər Azərbaycan rəhbərliyinin müəllim əməyinin qiymətləndirilməsinə böyük diqqətinin təzahürü idi. Müəllimə verilən qiymət Azərbaycanın hətta bütün ucqar rayonlarını da əhatələyirdi. Heydər Əliyev maarif işçilərinə mükafatları çox vaxt şəxsən özü təqdim edirdi.

Belə mərasimlərdən biri 1981-ci ilin dekabrında keçirildi. Mükafatların təqdimat mərasimində Heydər Əliyevin söylədiyi nitq onun Azərbaycan müəlliminə və məktəbinə münasibətinin mahiyyətini tamamilə açır. Ümummilli lider deyirdi: **«Müəllim sənəti şərəfli və gözəl sənətdir. Qədimdən xalqımızın içərisində ən mötəbər və ləyaqətli adamları müəllim deyə çağırmışlar»**.

Heydər Əliyev Azərbaycanda çoxillik tarixə malik olan məktəblərin yubileylərini də keçirirdi. Bundan ötrü Azərbaycan KP MK bürosunun müvafiq qərarları qəbul edilirdi. Məsələn, Büronun 1982-ci il 12 yanvar və 9 fevral tarixli iclaslarında Şuşa və Şəkidəki orta məktəblərin 150, Lənkərandakı 1 nömrəli məktəbin isə 125 illiyinin qeyd edilməsi barədə qərar qəbul edilmişdi. Qərara müvafiq olaraq geniş tədbirlər keçirilmiş, həmin məktəblərin maddi-texniki bazası gücləndirilmişdi. Lakin böyük tarixə malik məktəblərin sayı kifayət qədər olduğundan sonrakı illərdə belə yubileylərin keçirilməsi dayandırıldı.

Heydər Əliyev Azərbaycan üçün müxtəlif ixtisaslar üzrə ali təhsilli kadrların hazırlanmasından ötrü ayrılan xərcləri daim artırmağa çalışırdı. Müqayisə üçün qeyd etmək lazımdır ki, I Ümumazərbaycan sovetlər qurultayının materiallarında 1920-ci ilin aprelindən əvvəl Azərbaycanda yalnız 62 nəfər ali təhsilli şəxsin olduğu göstərilir. Bu məhdudiyyətin yarada biləcəyi problemləri yaxşı başa düşən Heydər Əliyev ali təhsilli mütəxəssis hazırlığına xüsusi diqqət yetirirdi.

Təhsil sistemində sosial ədalət prinsiplərinin qorunması, şəffaflığın təminatı, ali məktəblərə qəbul zamanı sosial təbəqə fərqinə yol verilməməsi Heydər Əliyevin xüsusi diqqət yetirdiyi əsas məsələlərdən idi. Məhz bu diqqət hesabına hələ o dövrdə ali məktəblərimizdə bilik həqiqi və yeganə meyara çevrildi. 50-ci illərin sonu, 60-cı illərin əvvəllərindən etibarən dövlət idarəçiliyi sistemində özünü göstərən ziyanlı təzahürlərin tərkib hissəsi kimi elm-təhsil məbədlərimizə də yol tapmış rüşvətxorluq və korrupsiya hallarının qarşısı əsaslı şəkildə alındı. Heydər Əliyevin böyük qətiyyət və prinsipiallıqla yaratdığı şəffaflıq sayəsində o illərdə maddi baxımdan imkansız, savadından başqa güvənc yeri qalmayan zəhmətkeş övladları da ali məktəblərin sayılıb-seçilən ixtisaslarına qəbul olunmaq imkanı əldə etdilər. 80-ci illərin əvvəllərində «Literaturnaya qazeta»ya verdiyi məşhur müsahibəsində **«Qoy, ədalət zəfər çalsın!»** – deyən ulu öndərimiz Azərbaycan təhsilində, sözün əsl mənasında, ədalətin zəfər çalmasına nail oldu.

Heydər Əliyev fəhlə və kəndli övladlarının təhsil almalarına əlverişli şərait yaradır, vəzifəli şəxslərin övladlarını ADU-nun Hüquq fakültəsinə müxtəlif üsullarla düzəltmələrinə imkan vermirdi, nəticədə 1978-ci ildə Azərbaycan ali məktəblərinə qəbul olunan gənclər içərisində fəhlə və kəndli uşaqlarının xüsusi çəkisi 67 faizdən çox təşkil edirdi və bu nəticə əvvəlki illə müqayisədə 13 faiz artım demək idi. Qeyd etmək lazımdır ki, tarixən Avropada millətin qanının qoruyucusu kimi adətən kənd əhalisi qəbul edilmişdir. Azərbaycanda müxtəlif sosial təbəqələrdən olan şəxslərin ali təhsil almalarına diqqət verilməsi təhsil, maarif və mədəniyyətin ümumi şəbəkəsini genişləndirir, respublikanın mədəni səviyyəsini yüksəldir, xalqın hakimiyyətə olan inamını artırırdı.

Heydər Əliyev Azərbaycanda ali təhsilin inkişafına xüsusi diqqət yetirir, onun şəbəkəsini genişləndirir, tələbələrin sayını artırır, müəllimlərə qayğı göstərirdi. Artıq qeyd edildiyi kimi, Heydər Əliyev hakimiyyətə gələrkən respublikada cəmi 13 ali məktəb vardı. Lakin o belə hesab edirdi ki, ali məktəblərin sayı Azərbaycan əhalisinin artan tələbatını ödəmir. Ona görə də Azərbaycan rəhbəri ali məktəblərin açılması işinə xüsusi diqqət yetirirdi. Məhz onun bu diqqəti sayəsində 1980-ci ildə Azərbaycanda mövcud olan ali məktəblərin sayı 17-yə çatdırıldı. Bakıda Rus dili və Ədəbiyyatı İnstitutu, İnşaat Mühəndisləri İnstitutu, Naxçıvanda və Xankəndində institutlar açıldı, 1976–1980-ci illərdə ali məktəblərdə 23 yeni fakültə, 72 yeni kafedra

yaradıldı, artıq 1980-ci ildə respublikamızda 140-dan çox müxtəlif ixtisaslar üzrə mütəxəssislər hazırlayan 75 orta ixtisas məktəbi fəaliyyət göstərirdi.

Əgər əvvəlki illərdə bu sahədə Azərbaycan qonşu respublikalardan geri qalırdısa, Heydər Əliyevin fəaliyyəti nəticəsində ali və orta ixtisas təhsilli kadrların hazırlanması səviyyəsinə və miqyasına görə Azərbaycan nəinki həmin respublikaları, hətta ümumilikdə Şərq respublikalarını da arxada qoydu. Artıq respublika əhalisinin hər 10 min nəfərindən 172 nəfəri tələbə idi. Lakin Heydər Əliyev bu sayla da kifayətlənməyərək yeni ali məktəblərin açılması işini davam etdirirdi. Bilavasitə onun səyi nəticəsində Azərbaycanda 18-ci ali məktəb olan Gəncə Texnologiya İnstitutu yaradıldı. Bu ali təhsil müəssisəsinin yaradılması Azərbaycanda yeni ixtisaslar üzrə mütəxəssislərin hazırlanmasına imkan verirdi.

Ümumiyyətlə, Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə Azərbaycanda 5 yeni ali məktəb açılmış, bu ali təhsil ocaqlarının maddi-texniki bazası formalaşdırılmış, inkişaf etmiş xarici ölkələrdən cihazlar və digər texniki ləvazimatlar alınıb gətirilmiş, tələbələr üçün yataqxanalar inşa edilmiş, bütün bu addımlar hesabına Azərbaycan sovet hakimiyyəti illərində ilk dəfə olaraq Cənubi Qafqaz regionunda qabaqcıl təhsil mərkəzinə çevrilmişdi.

Heydər Əliyev Azərbaycandakı mövcud ali təhsil müəssisələri sırasında Azərbaycan Dövlət Universitetinə xüsusi diqqət göstərir, ali məktəblərin tələbə heyətlərinin tərkibində qızların da çox olmasına çalışırdı. Alimlərin sayının artmasına və elmi araşdırmaların genişlənməsinə xüsusi diqqət yetirirdi. Xatırladaq ki, ilk tədris ilində universitetdə təhsil alan tələbələrin sayı 877 nəfər idi. Bundan başqa universitetdə 217 azad dinləyici qəbul edilmişdi. BDU özünün ilk bəhrəsini 1922-ci ildə verdi. 30 nəfər gənc ali təhsilli həkim adına layiq olmaları barədə universitet diplomu almışdı. Azərbaycan Dövlət Universitetini 1500-dən artıq gənc mütəxəssis bitirmişdi. 1938–1940-cı illərdə Universitetin Elmi Şurasında 1 doktorluq, 39 namizədlik dissertasiyası, 1941–1945-ci illərdə isə 13 nəfər, o cümlədən 8 nəfər azərbaycanlı doktorluq, 118 nəfər, o cümlədən 68 nəfər azərbaycanlı namizədlik dissertasiyası müdafiə etmişdi. 1945-ci ildən sonra Azərbaycan Dövlət Universitetini bitirənlərin sayı 21 min 928 nəfər olmuşdu. 1946–1969-cu illərdə isə əvvəlki 25 illə müqayisədə 8,3 dəfədən çox ali təhsilli mütəxəssis hazırlanmışdı. 70-ci illərdə Universitet tələbələrinin təxminən 75 faizini azərbaycanlı oğlan və qızlar təşkil edirdi.

Ali məktəblərin yubileylərinin keçirilməsi də Heydər Əliyevin fəaliyyətində başlıca yerlərdən birini tuturdu. O bu baxımdan Azərbaycan elmi, mədəniyyəti və təhsilinin inkişafında müstəsna rol oynamış hazırkı Bakı Dövlət Universitetinə xüsusi diqqət yetirirdi. Onun fikrincə, Universitetin auditoriyalarında dərs verən müəllimlər Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi sahəsində müstəsna rol oynayırdı.

Heydər Əliyev 1969-cu il noyabrın 1-də Universitetin 50 illik yubileyi münasibətilə keçirilən təntənəli mərasimdə ana dilində parlaq nitq söylədi. Həmin nitqində Heydər Əliyev deyirdi ki, Azərbaycan Dövlət Universitetinin yaranması qabaqcıl qüvvələrin qələbəsi, doğma xalqı maarifləndirmək uğrunda, dünya mədəniyyəti və elmi xəzinəsini onun üzünə açmaq uğrunda Azərbaycanın ən yaxşı oğullarının bir çox illər ərzində apardıqları mübarizənin yekunları idi. O bu sözləri ilə Azərbaycan istiqlalına və onun uğrunda mübarizə aparan qüvvələrə, eyni zamanda xalq cümhuriyyəti xadimlərinə olan etimadını açıq şəkildə bildirirdi. Nəzərdən qaçırmaq olmaz ki, Heydər Əliyev bu fikirlərini Universiteti yaratmış Azərbaycan Xalq Cümhuriyyətini düşmən sayan və həmin dövrü unutdurmağa çalışan Kommunist Partiyasının respublikadakı rəhbəri kimi çəkinmədən söyləyirdi.

O vaxt bəziləri belə düşünürdü ki, Heydər Əliyev Azərbaycan dilində danışa bilmir. Lakin onun bu nitqi Azərbaycan cəmiyyətində sözün əsl mənasında böyük sensasiya doğurdu. Hətta bəziləri ona yaxınlaşaraq ana dilində danışdığı üçün təbrik edir, minnətdarlıqlarını bildirirdilər. Ana dilini sevən, milli ruhla yaşayan adamlar üçün Heydər Əliyevin Azərbaycan dilində danışması böyük bir hadisə idi. O isə həmin adamlarla söhbətində bildirirdi ki, təəccüblənmək lazım deyil, bu dil mənim ana dilimdir və ana dilində danışmaq heç də qəhrəmanlıq sayılmamalıdır. Amma əslində sovet sistemi şəraitində respublika rəhbərinin ana dilində, həm də yüksək milli ruhla nitq söyləməsi özü və tutduğu post üçün bir sıra arzuolunmaz nəticələr verə bilərdi.

Heydər Əliyev bu nitqi ilə ana dilinə sevgini və onu inkişaf etdirməyin vacibliyini tövsiyə edir, milli ənənələrin inkişafında rolunu xüsusi qiymətləndirirdi. Heydər Əliyev deyirdi: «Azərbaycan xalqının ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir». O Azərbaycan dilinin, xalqın milli ruhunun, vətənpərvərlik hislərinin inkişafında universitetin müstəsna rolunu yüksək dəyərləndirirdi.

Universitetin yubileyində ölkənin müxtəlif şəhərlərindən, xarici dövlətlərdən, Bolqarıstan, Çexoslovakiya, Macarıstan və başqa ölkələrdən qonaqların gəlməsi Azərbaycan elm və təhsilinin beynəlxalq aləmdə qəbul edilməsinə nümunə idi. Universitetin yubileyinin keçirilməsi Azərbaycanın elm və mədəniyyətinin böyük bayramına çevrildi. Tədbirin keçirilməsi ilə kifayətlənməyən Heydər Əliyev Universitetin Dövlət mükafatı ilə mükafatlandırılmasına dair təşəbbüslə çıxış etdi, bilavasitə onun səyləri nəticəsində Universitet 1971-ci ildə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edildi, ordeni şəxsən Heydər Əliyev özü təqdim etdi. Sonrakı illərdə də belə bayram tədbirləri təşkil edilirdi.

1980-ci ildə Azərbaycan KP MK bürosu ADU-nun 60 illik yubileyinin keçirilməsi barədə qərar çıxardı, bu qərara müvafiq olaraq 1980-ci illərin əvvəllərindən etibarən yubiley tədbirləri keçirildi, yubiley tədbirində Heydər Əliyev iştirak edərək geniş nitq söylədi, onun nitqində Azərbaycan alimi̇nə yüksək qiymət verilir, ali təhsilin mövcud vəziyyəti təhlil edilir, inkişaf perspektivləri müəyyənləşdirilirdi, bu nitq Azərbaycan rəhbərinin ali təhsilin inkişafına xüsusi diqqətinin təzahürü idi.

Hərbi təhsilin inkişafı da bu dövrdə xüsusi diqqətdə olan məsələ kimi aktuallıq qazanmışdı. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq hissi keçirən Heydər Əliyev Azərbaycan övladlarının ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü. Həmin dövrdə Heydər Əliyev milli hərbi kadr hazırlığı sahəsində daha bir qəti addım atdı. Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması hərbi sahəyə marağın kütləviləşdirilməsi məqsədi daşıyırdı. Ulu öndərin təməlini qoyduğu Cəmşid Naxçıvanski adına hərbi məktəb isə Heydər Əliyevin milli təhsilimizin bütün sahələr üzrə inkişafına yüksək diqqət və qayğısının bariz təzahürüdür.

O dövrdə azərbaycanlılar hərbi kadr hazırlığına və SSRİ hər-bi elitasına yaxın buraxılmırdılar. Halbuki, Azərbaycanın ərazisində SSRİ səviyyəsində strateji əhəmiyyət kəsb edən bir neçə ali hərbi məktəb var idi. Azərbaycan ərazisində yerləşməsinə baxmayaraq, bu məktəblərin minlərlə kursantı arasında yalnız beş-altı azərbaycanlı var idi və onların da çoxu «beynəlmiləl» ailələrin üzvləri idilər. Şübhəsiz, bu tendensiya Heydər Əliyevi narahat etməyə bilməzdi. Böyük öndərimizin birbaşa müdaxiləsi və qayğısı ilə 70-ci illərdən başlayaraq Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı və milliləş-

dirmə prosesinə start verildi. 1979-cu ilin statistikasına görə, kursantların 65 faizini azərbaycanlılar təşkil edirdi.

BDU-nun professoru Yaqub Mahmudov 70-ci illərin sonlarında ali məktəblərə tələbə qəbulu ilə əlaqədar Mərkəzi Komitədə keçirilən ənənəvi müşavirəyə dəvət olunduqlarını xatırlayır: «Heydər Əliyev təhsil nazirini və bir-iki ali məktəb rektorunu dinlədikdən sonra, Ümumqoşun Komandirləri Məktəbinin rəisini çıxışa dəvət etdi. Və ona dərhal sual verdi – tələbələr içərisində yerli əhalinin, yəni azərbaycanlıların nümayəndələri nə qədərdir? Aldığı cavabdan, yəni azərbaycanlıların hərbi təhsilə zəif cəlb olunmasından çox narazı qalan Heydər Əliyev Ümumqoşun Komandirləri Məktəbinin rəisini kəskin surətdə məzəmmət edib ona konkret tapşırıqlar verdi. İş elə gətirdi ki, sonrakı il ali məktəblərə qəbul ərəfəsində Mərkəzi Komitədə keçirilən müşavirədə mən də iştirak etməli oldum. Heydər Əliyev Ümumqoşun Komandirləri Məktəbinin rəisini yenə xitabət kürsüsünə dəvət etdi. Rəis bu dəfə də müxtəlif rəqəmlər gətirdi. Heydər Əliyev əvvəlki kimi bu mühüm işin gedişi, ələlxüsus yerli əhalinin faizi ilə maraqlandı. Müəyyən irəliləyiş olmasına baxmayaraq yenə narazı qaldığını bildirdi. Böyük siyasətçinin dedikləri bügünkü kimi yadımdadır: **«Yerli əhalinin nümayəndələrini təyyarəçilik məktəblərinə göndərmək lazımdır. Təyyarəçilər hazırlamaq mütləqdir. Bu günlərdə kosmonavtlar dəstəsinin tərkibi ilə maraqlandım. Dəstəyə bir nəfər də olsun azərbaycanlının cəlb olunmamasından narazılığımı bildirdim. Mənə məlumat verdilər ki, kosmonavtlar dəstəsinə ancaq təyyarəçilik məktəblərini bitirənləri götürürlər. Bu məsələ ilə də maraqlandım. Aydın oldu ki, SSRİ-nin təyyarəçilik məktəblərində Azərbaycanın yerli əhalisinin bir nəfər də olsun nümayəndəsi təhsil almır. Bəs siz hara baxırsınız?!»**

Azərbaycanın gələcək inkişafına ünvanlanmış bütün bu strateji işlərə Heydər Əliyev şəxsən özü rəhbərlik edirdi. Bir sözlə, daim xalqın gələcəyini düşünən böyük Azərbaycanlı hələ o zamanlar vaxtı qabaqlayaraq XXI əsrin Azərbaycanı üçün zəhmət sərf edirdi. H.Əliyevin XX yüzilliyin 70–80-ci illərinin əvvəllərində həyata keçirdiyi kompleks inkişaf proqramları hesabına Azərbaycan o zaman dağılmağa başlamış böyük SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və mədəniyyət respublikasına çevrilmiş oldu. Bu Heydər Əliyevin məqsədyönlü, qabaqcadan ətraflı götür-qoy edilmiş, dərindən ölçülüb-biçilmiş və gələcəyə istiqamətləndirilmiş müdrik siyasətinin, dahiyanə uzaqgörənliyinin parlaq nəticəsi idi. Bu yöndə ortaya

qoyduğu gərgin zəhmətin xoş bəhrəsini illər sonra ümummilli liderimiz belə qiymətləndirirdi: «Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır».

Böyük öndərimiz hələ o zaman müstəqillik nemətinə qovuşduğumuz indiki günləri görür, doğma vətənimizi öz müstəqilliyi üçün hazırlayırdı. Heydər Əliyev kommunist rejiminin ağalığı dövründə doğma xalqına qarşı baş vermiş haqsızlıqlar əleyhinə özündən başqa heç kəsin apara bilməyəcəyi mübarizəni apardı, Kreml rejiminin ağır təqibləri şəraitində xalqının çəkdiyi əzablara cavab olaraq Azərbaycanın gələcəyi naminə olduqca uzaqgörən və cəsarətli addımlar atdı.

Dünya siyasətini və beynəlxalq münasibətlərdə baş verən prosesləri dərindən bilən Heydər Əliyev imkan düşdükcə inkişaf etmiş xarici ölkələrin qabaqcıl təhsil sistemi ilə Azərbaycan təhsil işçilərini tanış etmək fürsətini də əldən qaçırmırdı. 60-cı illərin sonlarından etibarən 2 müxtəlif sistemli dövlətlər arasında qarşıdurmadan gərginliyin zəiflədilməsinə keçid prosesi başladıqda Heydər Əliyev SSRİ-ABŞ ikitərəfli münasibətlərində özünü göstərən yaxınlaşmadan istifadə edərək mərkəzin tövsiyəsi ilə Azərbaycanda Amerika təhsil sisteminin tanıdılmasına və onun müsbət cəhətlərinin tətbiq edilməsinə çalışdı. Onun sədrliyi ilə keçirilən Azərbaycan KP MK-nın 1969-cu il 9 sentyabr tarixli büro iclasında «ABŞ-da təhsil» sərgisinin Bakıda təşkili barədə qərar qəbul edildi. 1969-cu il dekabrın 26-dan 1970-ci il fevralın 9-a qədər indiki Xətai sarayında uğurla keçən sərgiyə Azərbaycan təhsil işçiləri böyük maraq göstərdilər. Sərgiyə bütünlükdə 10 minlərlə adam baş çəkdi. Sərginin keçirilməsi heç şübhəsiz ki, sovet sistemi şəraitində Azərbaycan təhsil işçilərinin dünyanın qabaqcıl ölkələrindən birinin təhsil sistemi ilə tanış olmalarında müstəsna rol oynadı.

Heydər Əliyev respublika təhsilinin inkişafı məsələlərinə daha geniş yanaşır, iki sistem dövlətləri arasında müsəlman ölkələrində nüfuz qazanmaq uğrunda gedən mübarizədə Azərbaycanın rolunu qaldırmağa çalışırdı. O müsəlman dünyası üçün Azərbaycanın nümunə rolunu oynamasını respublikada elm, təhsil və mədəniyyətin inkişafından keçdiyini partiya və dövlət rəhbərlərinə inandıra bilmişdi. Bu məqsədlə o, təhsilin inkişafına böyük diqqət yetirir, Azərbaycan təhsilinin beynəlxalq əlaqələrinin qurulmasına və respublikanın xarici ölkələr, o cümlədən Şərq ölkələri üçün mütəxəssis hazırlayan

əsas mərkəzlərdən birinə çevrilməsinə çalışır və buna da nail olurdu. Bu işdə heç şübhəsiz ki, sovet dövlətinin ümumi niyyətləri ilə yanaşı, Azərbaycan elmi, mədəniyyəti və təhsilinin təbliği də nəzərdə tutulurdu. Məhz Heydər Əliyevin ölkəmizə rəhbərliyi illərində Azərbaycan sovet dövlətinin xarici ölkələr üçün mütəxəssis hazırlayan başlıca mərkəzlərindən birinə çevrilmişdi. Onun bilavasitə səyləri nəticəsində Asiya, Afrika, Latın Amerikası, hətta Avropanın müxtəlif ölkələrindən də gənclər Azərbaycan ali məktəblərinə təhsil almaq üçün gəlirdilər. Onların gəlişi ilə Azərbaycan ali təhsil müəssisələrində çalışan şəxslərin məsuliyyəti artır, təhsillin keyfiyyətinə daha çox diqqət yetirilirdi. Heydər Əliyev xarici ölkələrdən Azərbaycana gələn tələbələrlə işin aparılmasına, o cümlədən respublikanın nailiyyətlərinin təbliğ edilməsini tövsiyə edirdi. Azərbaycan KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında respublika ali məktəblərində təhsil alan xarici tələbələrlə işi yaxşılaşdırmaq barədə qərar qəbul edildi. Heç şübhəsiz ki, bu qərar dövlətin ümumi məqsədlərinə xidmət etsə də, Azərbaycanla əlaqələrin sıxlaşmasına, xalqın tarix, elm və mədəniyyətinin təbliğinə yönəlmişdi. Azərbaycan ali məktəblərində təhsil alan xarici tələbələrin sayı ildən-ilə artırdı. Məsələn, Azərbaycan Dövlət Universitetinin 14 min tələbəsi arasında 52 ölkənin nümayəndəsi oxuyurdu. 1975-ci ildə Azərbaycanın ali təhsil müəssisələrində 55 ölkədən 1621 nəfər, 1976-cı ildə 64 ölkədən 1647 nəfər tələbə təhsil alırdı.

. Gələn gənclərin sayının belə artım dinamikası respublikada elm və təhsilin keyfiyyətinin yüksək olması, xarici tələbələr üçün yaxşı məişət və təhsil şəraitinin yaradılması, Azərbaycanın qabaqcıl respublikaya çevrilərək nümunə rolu oynaması ilə bağlı idi. Bu sahədə Azərbaycan SSRİ-nin digər respublikalarını geridə qoya bilmişdi. Azərbaycan nümunəsində inkişaf etməkdə olan ölkələrə SSPİ-nin təsiri artdığından respublikanın hörməti və nüfuzu da güclənirdi.

Asiya, Afrika, Latın Amerikası, hətta Avropanın sosial-iqtisadi inkişaf istiqamətinə və səviyyəsinə görə müxtəlif olan ölkələri üçün Azərbaycanın təhsil ocaqlarında hazırlanan kadrlar təhsillərini başa vurduqdan sonra vətənlərinə qayıdaraq müxtəlif vəzifələrdə, bəziləri isə hətta sonralar dövlət başçıları olmuşlar.

Azərbaycan rəhbəri eyni zamanda imkan daxilində azərbaycanlı tələbələrin xarici ölkələrin universitetlərində təcrübə keçmələrinə və mübadilə proqramları çərçivəsində təhsil almalarına da nail olurdu. Məsələn, 1979-cu ildə 122 nəfər azərbaycanlı tələbə Almaniya Demokratik Respublikası,

Polşa, Çexoslovakiya, Macarıstan və Yuqoslaviyada təhsil almağa göndərilmişdi. Öz növbəsində həmin ölkələrdən də tələbələr Azərbaycana oxumağa gəlmişdilər. Bu ölkələr sosialist ölkələri olsalar da hər halda Avropa ölkələri kimi onlarda elm, təhsil və mədəniyyətin yüksək səviyyəsi xüsusi vurğulanırdı. Sovet sistemi şəraitində Azərbaycan xarici ölkələrlə birbaşa əlaqə yarada bilmədiyindən Heydər Əliyev azərbaycanlı gəncləri ölkənin qabaqcıl ali məktəblərində müxtəlif ixtisaslara yiyələnmələri üçün şərait yaradırdı. O, gənclərə dünya elminin ən son nailiyyətlərindən və təhsil aldığı şəhərin əhalisinin mədəniyyətindən xəbərdar olmağı tövsiyə edirdi.

Qabaqcıl Avropa və dünya elmi Azərbaycana Rusiyadan gəldiyi üçün Heydər Əliyev azərbaycanlı gənclərin SSRİ-nin müxtəlif şəhərlərində ən nüfuzlu ali məktəblərdə təhsil almalarına çalı-şırdı. Bu da əbəs deyildi. Çünki sovet təhsil sistemi dünyanın ən qabaqcıl təhsil sistemlərindən hesab olunurdu. Heydər Əliyev də bu təhsil sisteminin imkanlarından faydalanmağı tövsiyə edirdi. Lakin savadlı olmalarına baxmayaraq azərbaycanlı gənclərin bir çoxu, xüsusən də kənd yerlərindən çıxanlar rus dilini bilmədikləri üçün ümumi müsabiqə yolu ilə ölkənin qabaqcıl ali məktəblərinə qəbul oluna bilmirdilər.

Azərbaycan üçün yeni olan ixtisaslar üzrə mütəxəssis hazırlayan ali məktəblərə daxil olmaq isə daha çətin idi. Bu ixtisasların bir çoxu, məsələn, informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya və s. sahələrdə kadr çatışmazlığı, həm də mərkəzin yürütdüyü siyasət ucbatından Azərbaycanda hazırlanmırdı. Buna görə də Heydər Əliyev gənclərin ölkənin müxtəlif, ilk növbədə Moskva, Leninqrad, Kiyev, Minsk və başqa şəhərlərdəki ali məktəblərə müsabiqədənkənar qəbuluna icazə almağa başladı. Lakin 1972–1973-cü illərdə azərbaycanlılar bu məktəblərdə oxumağa çox az gedirdilər. Bu vəziyyətin dərhal aradan qaldırılması tələb olunurdu. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin bu istiqamətdə aydın və konkret məqsədlər güdən fəaliyyət proqramı vardı. O, qabaqcıl dünya elminə çıxışı sovet sistemi şəraitində azərbaycanlı gənclərin ölkənin nüfuzlu ali məktəblərində mükəmməl təhsil almalarında görür və onlara bu sahədə hər cür şərait yaradırdı. Heydər Əliyev ölkənin ali məktəblərində müsabiqədənkənar oxumağa gedən gənclərin ümumi sayının ildən-ilə artırılmasına Moskvadan böyük inadkarlıqla icazə alır, onların təhsilinin ümumittifaq büdcəsindən maliyyələşdirilməsinə nail olur, bu gənclərin məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirirdi. Azərbaycanlı gənclər qabaqcıl ali məktəblərdə təkcə

elmlərə yiyələnmir, eyni zamanda yaşadıqları şəhərlərin bir çox tarix-mədəniyyət abidələri ilə tanış olur, xarici dövlətlərdən oxumağa gələn tələbələrlə əlaqələr qurur, respublikanı uğurla təmsil edirdilər.

Ölkənin müxtəlif məktəblərinə oxumağa göndərilən gənclərin sayı əvvəllər təxminən 400–600 nəfər idisə, sonralar 800–900 nəfərə çatdırıldı. Artıq 70-ci illərin ortalarından başlayaraq ölkənin 40 şəhərində yerləşən ali məktəblərdə 1627 azərbaycanlı gənc müxtəlif ixtisaslar üzrə təhsil alırdı. 1977-ci ildə isə bu rəqəm artıq 2500 nəfərə çatmışdı. Qeyd etmək lazımdır ki, həmin gənclər 244 ixtisas üzrə təhsil alırdılar. Bu ixtisasların çoxunda Azərbaycanın ali məktəblərində mütəxəssis hazırlanmırdı.

Heydər Əliyevin fəaliyyəti yuxarıda qeyd edilənlərlə də məhdudlaşmırdı. Onun göstərişi ilə ölkənin müxtəlif ali məktəblərində təhsil alan gənclərlə müntəzəm olaraq görüşlər keçi-rilirdi. Həmin tələbə gənclərlə hər il Bakıda keçirilən təntənəli görüşdə Heydər Əliyev geniş nitq söyləyirdi. Bu görüşlər və onun nitqləri ölkənin nüfuzlu ali məktəblərində azərbaycanlı gənclərin təhsil almasına yönəldilən siyasətin ona verilən diqqətin, şəxsi mövqeyinin mahiyyətini açır. Məsələn, 1977-ci ilin avqustunda keçirilmiş görüşdəki nitqində Heydər Əliyev deyirdi: **«Bu illərdən özünüz üçün faydalı şəkildə istifadə edin. Teatrların, muzeylərin, qoruq yerlərinin, kitabxanaların qapıları sizin üzünüzə açıqdır. Siz də mümkün qədər daha çox öyrənməyə, öz görüş dairənizi genişləndirməyə, məlumatınızı artırmağa çalışın».**

1975-ci ildə azərbaycanlı gənclərin qəbul olunduğu və təhsil aldığı ali məktəblərin sayı daha da artdı, həmin ilin avqust ayında tələbə-gənclərlə keçirdiyi görüş zamanı Heydər Əliyev deyirdi: «Bu il... başqa şəhərlərin ali məktəblərinə 670 oğlan və qız qəbul edilmişdir». Bütövlükdə həmin ildə 2200-dən artıq gənc ölkənin 151 ali məktəbində 244 ixtisas üzrə təhsil alırdı, 1970–1979-cu illərdə ölkənin başqa ali məktəblərini 500 nəfər azərbaycanlı bitirmişdi, bu illər ərzində həmin ali məktəblərə azərbaycanlı gənclərin qəbul faizi 10 dəfə artırılmışdı, 1979-cu ildə ölkənin digər şəhərlərində 2800 nəfər azərbaycanlı oğlan və qız 244 ixtisas üzrə təhsil alırdı.

Heydər Əliyev mərkəzi şəhərlərdə, xüsusən Moskvada təhsil alan tələbə və aspirantların təhsilinə, məişətinə başlıca diqqət yetirirdi. Onun təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1979-cu il 2 noyabr tarixli iclasında büro üzvlərinin Moskvada təhsil alan tələbə və aspirantlarla görüşünün keçirilməsi barədə qərar qəbul edildi və qərarın icrası uğurla həyata keçirildi.

Həmin ilin dekabr ayında M.Qorki adına Moskva Dövlət Bədaye Teatrının yeni binasında Azərbaycandan Moskvada təhsil alan tələbə və aspirantlarla Azərbaycan KP MK-nın büro üzvlərinin möhtəşəm görüşü keçirildi. Bu görüşə Heydər Əliyevin dəvəti ilə SSRİ-nin ali təhsil naziri, şəhər rəhbərləri, Moskvadakı bütün institutların rektorları, tanınmış professorlar gəlmişdilər. Görüşdə geniş nitq söyləyən Heydər Əliyev tələbə və aspirantlara elmlərə dərindən yiyələnməyi, Moskvanın tarix və mədəniyyət abidələri iə yaxından tanış olmağı tövsiyə edir, nitqində bildirirdi ki, təhsil almaq üçün hər il Moskvaya 270–280 nəfər göndərilir. Qeyd etmək lazımdır ki, bu zaman SSRİ-nin 43 şəhərinin 152 ali məktəbində 3315 nəfər azərbaycanlı təhsil alırdı.

Bu istiqamətdə həyata keçirilən tədbirlər sonrakı illərdə də davam etdirildi. 1981-ci ildə başqa ali məktəblərə 853 nəfər oxumağa göndərildi. Onlardan 720 nəfəri I kursa daxil olmuşdu. Həmin ildə ölkənin müxtəlif ali məktəblərində 244 ixtisas üzrə 3600 nəfər azərbaycanlı tələbə təhsil alırdı.

Minlərlə azərbaycanlı gənc ölkənin müxtəlif ali məktəblərində təhsil alaraq vətənə mütəxəssis kimi dönürdü. Dünyanın bir sıra qabaqcıl alimlərindən dərs alan bu gənclər özləri ilə Azərbaycana yeni bilik, yeni düşüncə, yeni nəfəs gətirirdilər. Ölkənin başqa şəhərlərində, uzaq vilayətlərində oxumaları, oraların mühiti, mədəniyyəti, adət-ənənələri ilə yaxından tanış olmaları onların hərtərəfli inkişafına kömək edirdi.

Ölkənin müxtəlif yerlərində çalışan gənc mütəxəssislər respublikanı bacarıqla təmsil edirdilər. Qeyd etmək lazımdır ki, yeridilən bu siyasətdə güdülən məqsədlərdən biri də azərbaycanlıları bütün ölkə ərazisinə səpələyərək SSRİ-də Azərbaycan diasporunu formalaşdırmaqdan ibarət idi. Heydər Əliyev azərbaycanlıların harada yaşamalarından asılı olmayaraq əhalinin aşağı və orta deyil, yüksək təbəqəsində mövqe tutmasını arzulayırdı. O belə hesab edirdi ki, azərbaycanlı mütəxəssislər Azərbaycanın milli sərvətidirlər.

Azərbaycan rəhbərinin bilavasitə gərgin fəaliyyəti nəticəsində respublika savadlılar diyarına çevrildi. Sonralar Heydər Əliyev deyirdi: **«Azərbaycanda ən böyük nailiyyət ondan ibarətdir ki, bizdə savadsız adam yoxdur. Ölkəmizdə hansı bir kəndə, hansı bir dağ kəndinə getsəniz orada savadsız adam tapa bilməzsiniz»**. Azərbaycanda xalqın ümumi təhsil səviyyəsinin, mədəni səviyyəsinin yüksəlməsi XX əsrdə özünü çox bariz şəkildə göstərmişdir». Bütün bunlar, heç şübhəsiz, Heydər Əliyevin tarixi xidməti idi.

Heydər Əliyev sonralar qeyd edirdi ki, 70 ildə ideologiyadan, ictimai-siyasi, iqtisadi sistemdən asılı olmayaraq Azərbaycan xalqının bir neçə nəsli təhsil almış, böyümüş, yüksək səviyyələrə çatmış, böyük elm və mədəniyyətə sahib olmuşdular. Bunlar hamısı xalqımızın milli nailiyyətidir və indi bizim Azərbaycan respublikasının intellektual potensialını təşkil edir. Onun fikrincə, mövcud təhsil sistemi Azərbaycan xalqına böyük uğurlar qazandırmışdır. O, xalqın tərəqqisinin mədəniyyətin və elmin inkişafdan keçdiyini bilərək bu işə xüsusi diqqət verirdi.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov. İKP MK Siyasi Bürosunun üzvü kimi Moskvada işləməyə başladıqdan sonra da Heydər Əliyev Azərbaycan təhsilinə diqqətini zəiflətməmişdi. Təhsil sahəsinə də rəhbərlik edən baş nazirin birinci müavini kimi o, Azərbaycan təhsilinə xüsusi qayğı göstərirdi. 70–80-ci illərdə ölkənin qabaqcıl məktəblərində təhsil almış azərbaycanlı gənclər sonradan Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdə cəmiyyət həyatının ən müxtəlif sferalarında çalışaraq dövlət quruculuğu işinə öz töhfələrini verməyə başladılar.

2.2. Azərbaycanda elmin intibah dövrü

Ölkəyə rəhbərlik fəaliyyətinin ilk günlərindən milli təhsilimizin ən böyük hamisinə çevrilmiş Heydər Əliyev Azərbaycan elmini də diqqətdən kənarda qoymamış, bu sahənin inkişafını nəzərdə tutan dəqiq, əsaslandırılmış, məqsədyönlü konsepsiya ilə çıxış etmişdir.

Azərbaycan aliminə və elminə xüsusi qayğı göstərən Heydər Əliyev bu sahədəki fəaliyyətini də ardıcıl və sistemli şəkildə bir neçə istiqamət üzrə həyata keçirirdi: elmi-tədqiqat institutlarının və elmi işçilərin sayını artırır, Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səy göstərir, görkəmli alimlərin dövlətin müxtəlif orden, medal və mükafatları ilə təltif edilməsinə nail olur, Azərbaycan tarixi, dili və ədəbiyyatı üzrə tədqiqatların genişləndirilməsini təşviq edir; milli ruhlu alimləri təqib və təzyiqlərdən qoruyur, onlara yaradıcılıq şəraiti yaradırdı.

Azərbaycan elmini, mədəniyyətini və ədəbiyyatını dərindən bilən, böyük məhəbbətlə sevən, onu uca tutan və yüksək qiymətləndirən Heydər Əliyev nitqlərinin birində deyirdi: «Azərbaycan xalqının qədim mədəniyyətinin, elmi təfəkküründün kökləri onun tarixinin dərinliklərinə gedib çıxır. Bir

çox əsrlər boyu Azərbaycan xalqı Şərq ədəbiyyatı və incəsənətinin müxtəlif dövrlərin fəlsəfə və elminin ən yüksək nailiyyətlərini özündə təcəssüm etdirən zəngin, çoxcəhətli və orijinal mədəniyyət yaratmışdır. Ən qədim zamanlardan burada təbabət, astronomiya, riyaziyyat, coğrafiya, tarix, fəlsəfə, ədəbiyyat, musiqi mədəniyyəti və dekorativ sənət, bədii sənətlər inkişaf etmiş, gözəl memarlıq tikililəri yaradılmışdır».

Heydər Əliyev Azərbaycanı ölkə elminin mərkəzlərindən birinə çevirmək məqsədilə elmi-tədqiqat institutlarının, elmi işçilərin sayının artırılmasına çalışır və onlara qayğı göstərirdi. Bu sahədə onun fəaliyyəti kifayət qədər uğurlu idi. Əgər 1969-cu ildə Azərbaycanda fəaliyyət göstərən 89 elmi-tədqiqat, layihə müəssisəsi, sahə institutu və ali məktəblərdəki problem laboratoriyalarında 12350 elmi işçi, o cümlədən Elmlər Akademiyasının 55 akademiki və müxbir üzvü, 329 elmlər doktoru və 300 elmlər namizədi var idisə, 1978-ci ildə elmi-tədqiqat, layihə və sahə institutlarının sayı 118-ə, elmi işçilərin sayı 21407 nəfərə, akademik və müxbir üzvlərin sayı 100 nəfərə, elmlər doktorlarının sayı 853 nəfərə, elmlər namizədlərinin sayı 7594 nəfərə çatmışdı.

1980-ci ildə Elmlər Akademiyası sistemində 34 elmi və elm-istehsalat idarəsində 4000-dən çox şəxs, o cümlədən 245 elmlər doktoru və 1600 elmlər namizədi tədqiqat işi aparırdı. Respublika Elmlər Akademiyasının 56 həqiqi üzvü və 71 müxbir üzvü var idi. Ümumiyyətlə, həmin ildə Azərbaycan elmini 123 elmi idarə və 17 ali məktəbin kafedraları təmsil edirdi. Bu elmi qurumlarda təqribən 22 min elmi əməkdaş, o cümlədən 900-dən çox elmlər doktoru və 8 mindən çox elmlər namizədi çalışırdı.

Azərbaycan Heydər Əliyevin fəaliyyəti nəticəsində Cənubi Qafqazın qabaqcıl elm mərkəzinə çevrilərək digər respublikaları xeyli geridə qoymuşdu. Heydər Əliyev elmi işçilər arasında azərbaycanlıların xüsusi çəkisinin artırılmasına ciddi şəkildə çalışır, bu sahədə səylər öz bəhrəsini verirdi.

Müqayisə üçün bəzi faktların sadalanması deyilənlərə aydınlıq gətirir. Azərbaycandakı azərbaycanlı elmi işçilərin sayı 1947-ci ildə 48,6 faiz, 1960-cı ildə 64,6 faiz idisə, 1970-ci ildə 70,9 faiz, 1971-ci ildə isə 71,3 faiz olmuşdur. Bundan fərqli olaraq zaman-zaman həm çarizm, həm də sovet dövründə Azərbaycana yerləşdirilmiş gəlmə xalqların nümayəndələrindən olan elmi işçilərin sayı azalmağa doğru gedirdi. Əlbəttə, bu proses onların əleyhinə siyasət yeridilməsi deyildi. Belə vəziyyətin yaranmasının bir sıra səbəbləri var-

dı: azərbaycanlılar arasında elmə və təhsilə maraq artırdı, elmi-tədqiqat institutlarında yüksək maaş verilirdi, eyni zamanda Azərbaycanda əhali sürətlə çoxalırdı. Belə bir şəraitdə ölkə ictimai həyatının sürətlə beynəlmiləlləşdirilməsi, həmin xalqların nümayəndələrinin Azərbaycana gəlmə olduqlarını başa düşmələri onların respublikadan getmələrinə səbəb olurdu. Məsələn, Azərbaycanda ermənilərdən olan elmi işçilərin sayı 1970-ci ildə 6,2 faiz idisə, 1971-ci ildə aşağı düşərək 6,1 faiz oldu. Ruslardan olan elmi işçilərin sayı da azalmağa doğru getmişdi. 1963-cü ildə onların ümumi çəkisi 16,2 faiz, 1972-ci ildə 14,5 faiz idisə, 1971-ci ildə 14,4 faizə düşmüşdü. Bu ölkə əhalisinin içərisində milli kadrların xüsusi çəkisinin artması ilə əlaqədar idi.

Qeyd etmək lazımdır ki, yəhudilərdən olan elmi işçilər 1970-71-ci illərdə olduğu kimi qalmışdı: 4,8 faiz. Bu faktlar bir daha göstərir ki, ölkədə tüğyan edən antisemitizm Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanda qətiyyən mövcud deyildi. Belə bir fakt da maraqlıdır ki, 1968-ci ildə SSRİ-dən yalnız 400 nəfər yəhudi xarici ölkələrə köçmüşdüsə, 1973-cü ildə onların sayı 35 min nəfərə çatmışdı. 1979-cu ildə isə xarici ölkələrə köçən yəhudilərin sayı 50 min olmuşdu. Ölkədə bu istiqamətdə sərt siyasət yeridilməsinə baxmayaraq Azərbaycanda antisemitizm təzahürü yox idi. Yəhudilər Azərbaycanı özlərinin doğma vətəni hesab edirdilər.

Qeyd edildiyi kimi, Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanda elmi işçilərin sayı artır, alimlərin hazırlanmasına başlıca diqqət verilirdi. 1970–1980-ci illərdə Azərbaycanda 258 elmlər doktoru, 2677 elmlər namizədi hazırlanmışdı. Bu heç şübhəsiz ki, böyük uğur demək idi.

Heydər Əliyev alimləri və elmi idarələrin rəhbərlərini elmin ən müasir sahələri üzrə elmi-tədqiqat işlərinin aparılmasına yönəldirdi. Bilavasitə onun himayəsi altında Azərbaycanda elmin ən perspektivli sahələri üzrə elmi-tədqiqat işləri aparılırdı. Təkcə 1979-cu ildə təbiət və ictimai elmlər sahəsində respublikada aparılan elmi-tədqiqatların 55 nəticəsi sovet elminin ən mühüm nailiyyətləri sırasında qeyd edilmişdi. Bu, Azərbaycan fundamental elminin geniş uğurlarından xəbər verirdi. 1971–1980-ci illərdə Elmlər Akademiyası alimlərinin tədqiqatlarının istehsalata tətbiqi nəticəsində əldə edilən iqtisadi səmərə 570 milyon manatdan çox olmuş, həmin illər ərzində akademiya alimləri etdikləri müxtəlif ixtiralar üçün 1000-dən çox müəlliflik şəhadətnaməsi almışdılar ki, bu da əvvəlki 25 ildəkindən 5 dəfə çox idi.

Neft elmləri üzrə nəinki ölkədə, o cümlədən dünyada xeyli məşhur olan Azərbaycanı obrazlı şəkildə Neft Akademiyası adlandırırdılar. Neft kimyası və neftayırma Azərbaycan elminin aparıcı istiqamətinə çevrilmiş, bura xeyli qüvvə və maddi vəsait cəmlənmişdi. Azərbaycanın neftçi-alimləri bütün ölkələrdə və dünyada məşhur idilər. Bu sahə üzrə elmi məsələlərin müzakirəsi zamanı qərarlar adətən azərbaycanlı alimlərin yekun rəyindən sonra qəbul edilir, Azərbaycan alimlərinin dünyanın müxtəlif elm mərkəzlərində və universitetlərində vaxtaşırı olaraq oxuduqları mühazirələr yüksək dəyərləndirilir, respublikamızda təbiətşünaslıq elmi də sürətlə inkişaf edirdi.

1978-ci ildə Elmlər Akademiyasında həmin istiqamətlərdə işləyən güclü elmi mərkəz olan Təbii Ehtiyatların Kosmik Tədqiqatı İnstitutu yaradıldı, qısa müddət keçdikdən sonra institut alimlərinin tədqiqatları bütün ölkə miqyasında mötəbər qaynaq kimi qəbul edilməyə başladı.

O dövrdə neft kimyası prosesləri, Aşqarlar kimyası, kimya texnologiyasının nəzəri problemləri, fizika-riyaziyyat institutları böyük tədqiqat mərkəzlərinə çevrilmişdi. Azərbaycanlı alimlər Volqaboyu, Qərbi Sibir, Türkmənistan, Qazaxıstan, Belarus, Ukrayna və başqa respublikaların neft yataqlarının işlənməsində fəal iştirak edir, ADR, Rumıniya, Əfqanıstan, Əlcəzair, Kuba, İraq və Suriyada neft yataqlarının istismarı sahəsində fəal kömək göstərirdilər. Onların ixtiraları ABŞ, AFR, Yaponiya, İngiltərə və İtaliyada, bütövlükdə 15 ölkədə patentlər almışdı.

Respublikada radiotexnika, elektronika və elektron sənayesinin inkişaf perspektivlərini nəzərə alan alimlər texniki fizika, tətbiqi riyaziyyat, kibernetika, radioelektronika sahələrində və elmin digər müasir istiqamətlərində fəaliyyətlərini genişləndirirdilər. Bütün bunlarla bərabər, xalq təsərrüfatının artıq təşəkkül tapmış, iqtisadiyyat üçün ənənəvi olan sahələrinin yenidən qurulması prosesi də gedir, ekologiya sahəsində elmi-tədqiqat işlərinin aparılmasına xüsusi diqqət yetirilir, müxtəlif elm sahələrində çalışan alimlərin səyləri birləşdirilirdi. Təkcə 1981-ci ildə Azərbaycanın elmi-tədqiqat və layihə institutları ölkə üzrə 25 kompleks proqramın işlənib hazırlanmasında iştirak etmişdilər.

Heydər Əliyev Elmlər Akademiyasının, onun institutlarının, görkəmli alimlərin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi önəm verirdi. Onun fikrincə, belə yubileylərin keçirilməsi ölkədə elmə olan marağı daha da artırır, Azərbaycan elmini və alimlərini təkcə respublikada deyil, ölkədə və dünyada tanıdırdı.

Bununla əlaqədar olaraq Heydər Əliyev ciddi qərarlar qəbul edirdi. Deyilən məsələyə dair onun həyata keçirdiyi tədbirlərin yalnız bəzilərinin xronoloji ardıcıllıqla izlənilməsi fəaliyyət sahəsinin aydın mənzərəsini yaradır.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nın 1969-cu il 30 dekabr tarixli iclasında Azərbaycan EA-nın 25 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi barədə qərar qəbul olundu. Qərara uyğun olaraq elmi konfrans və simpoziumlar keçirildi. Yubiley tədbirlərində ölkənin və xarici dövlətlərin müxtəlif elm ocaqlarının nümayəndələri iştirak edərək elmi nailiyyətlər haqqında fikir mübadiləsi apardılar, Azərbaycan xalqının qədim tarixi və zəngin mədəni irsi ilə tanış oldular.

1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının 30 illik yubileyi təntənə ilə qeyd edildi, Heydər Əliyev Akademiyanın «Xalqlar dostluğu» ordeni ilə təltif edilməsi haqqında Sov.İKP MK-ya məktub yazaraq istəyinə nail oldu.

Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun 50 illiyi haqqında 1982-ci il sentyabr ayının 14-də Azərbaycan KP MK-nın qərarının qəbul edilməsi ədəbiyyat sahəsində tədqiqatların aparılmasına, ədəbi irsə, elmə verilən qiymətin və qayğının təzahürü idi.

Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ilin yanvar ayında Ordubadda görkəmli alim Yusif Məmmədəliyevin ev muzeyi açıldı, təntənəli açılış mərasimində respublikanın tanınmış alimləri və partiya işçiləri çıxış etdilər. Bu tədbir Naxçıvanda elmə olan marağın artmasına kömək edir, elmi irsə və alimə olan qayğını göstərirdi.

Heydər Əliyev Azərbaycanda kütləvi nəşrlərə, xüsusən ensiklopediyanın yaradılmasına xüsusi diqqət yetirirdi. Qeyd etmək lazımdır ki, Azərbaycan Sovet Ensiklopediyasının yaradılması barədə hələ 1965-ci ildə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qərarı qəbul edilmişdi. Bu qərara əsasən 10 cilddən ibarət ensiklopediyanın hər bir cildi 70 çap vərəqi həcmində olmalı idi. Lakin ötən müddət ərzində bu sahədə çoxlu qüsurlara və səhvlərə yol verilmişdi. Ensiklopediyanın heç bir cildi nəşrə hazırlanmamış, alimlər arasında elmi müzakirələr intriqalara çevrilmiş, xoşagəlməz mühit yaranmışdı. Ensiklopediyanın 1970-ci ilin sonunda hazırlanmış birinci cildi çoxlu səhvlər və qüsurlar ucbatından buraxılmamışdı. Buna görə də Heydər Əliyev Sov. İKP MK-ya 1974-cü il may ayının 23-də 252 nömrəli tam məxfi məktub yazaraq ensiklopediyanın birinci cildinin 1974-cü ildə, 10-cu cildinin isə 1980-ci ildə nəşr edilməsi barədə

icazə istədi və Moskvanın razılığını aldı. Azərbaycan KP MK bürosunun 1976-cı il 10 fevral tarixli iclasında Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası və elmi-redaksiya şurası barədə qərar qəbul edildi.

Heydər Əliyevin səyləri sayəsində 3836 məqalə-termindən ibarət olan Azərbaycan Sovet Ensiklopediyasının birinci cildi nəşr olundu. Bununla belə qeyd etmək lazımdır ki, alimlər arasında intriqaların hökm sürməsi nəticəsində birinci cild «Azərbaycan» məqaləsi olmadan nəşr edilmişdi.

Nitqlərinin birində Heydər Əliyev alimlərə irad tutaraq deyirdi ki, aranızda birliyin olmaması nəticəsində ensiklopediyanın birinci cildi Azərbaycan haqqında məqalə olmadan nəşr edildi. O, Azərbaycan alimləri arasında birliyə, əməkdaşlığa, yekdilliyə çalışır və buna da əsasən nail olurdu. Heydər Əliyev ensiklopediyanın sonrakı cildlərinin çapına da qayğı göstərirdi. 1980-ci ildə ASE-nin dördüncü cildi çap edildi. Ensiklopediyanın digər cildlərinin çapı işi sonrakı illərdə də davam etdirildi. Lakin müxtəlif elm sahələrinin adamları arasında hökm sürən yersiz mübahisələr ensiklopediyanın nəşrinə mənfi təsir göstərirdi.

Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan tarixinə, Azərbaycan dilinə, mədəniyyətinə dair elmi-tədqiqatların aparılması və monoqrafiyaların nəşri xeyli artırıldı. Yeni-yeni əsərlər yazılaraq nəşr edilirdi. Azərbaycan tarixi və dilçilik sahəsində yazılmış bir sıra əsərlərə dövlət mükafatları verilirdi.

O dövrdə Bakı bütün dünyada Türkologiya elminin mərkəzinə çevrilmişdi. 70-ci illərin əvvəllərində Bakıda kifayət qədər elmi sanbala malik «Türkologiya» jurnalının nəşrə başlaması böyük əzmin, fədakarlığın nəticəsi idi. «Türkologiya» jurnalının nəşrinə Kreml bir neçə dəfə etiraz etsə də, imperiya səlahiyyətliləri Heydər Əliyevin fədakarlığı qarşısında geri çəkilərək türk dünyasının birliyinə xidmət edən bu nəşrin qapanmasına müyəssər ola bilmədilər. Bütün bunlar onu göstərir ki, siyasi ab-havanın imkan verdiyi məqamlardan Heydər Əliyev hər zaman milli kimlik və milli şüurun oyanışı üçün diplomatik tərzdə istifadə etməyi bacarmışdır.

1926-cı ildə Bakıda keçirilən Birinci Beynəlxalq Türkoloji Qurultaydan xeyli sonra belə bir jurnalın nəşrə başlaması öləziyən türkçülüyə yeni nəfəsin, təkanın verilməsi məqsədini daşıyırdı. Türkoloji Qurultayın bütün nümayəndələrinin 37-ci ilin repressiya maşınında məhv edildiyini, volyuntarizm dövründə Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Ruhulla Axundov

kimi millətpərəst insanların bəraət aldığını, ancaq yenə də mərkəzin Azərbaycana milli məsələlərdə aman vermədiyini gözəl bilən Heydər Əliyev SSRİ rəhbərliyindəki şəxsi nüfuzundan istifadə edərək, milli oyanışın qığılcımlarını ədəbi nümunələrdə, tariximizin salnamələrində yaşatdı.

Heydər Əliyev alimlərə Azərbaycan tarixinin müxtəlif dövrlərinin dərindən araşdırılmasını tövsiyə edir, tarixçilərə müraciət edərək bildirirdi ki, qədim, orta əsrlər tariximiz, həmçinin XVIII, XIX, XX əsr tariximiz istənilən səviyyədə yazılmayıb. Tarixçilərlə dəfələrlə görüşən Heydər Əliyev bu sahədə öz dərin narahatlığını ifadə edir, Azərbaycan rəhbəri söhbətlərində başqa respublikanın tarixçilərinin öz tarixlərini yaxşı yazdığını açıq şəkildə azərbaycanlı alimlərin nəzərinə çatdırır, onları da buna səsləyirdi. Heç şübhəsiz, bütün bu söhbət və nəsihətlərin ciddi təsiri olur, Azərbaycan tarixinə dair dəyərli əsərlər yazılaraq nəşr edilirdi.

H.Əliyev belə hesab edirdi ki, xalq tarixi kökünü bilməli, xatırlamalı, elm və mədəniyyətindən ayrılmamalıdır, buna görə də Azərbaycan rəhbəri tarixçilərə tarixi düzgün yazmağı, obyektiv öyrənməyi və dəqiq qiymətləndirməyi tövsiyə edirdi.

Heydər Əliyev Azərbaycanın zəngin tarix və mədəniyyətinin dərindən araşdırılmasına, təbliğinə diqqət yetirərək qədim əlyazmaların qorunmasına, öyrənilməsinə və tədqiqinə xüsusi diqqət yetirir, çox doğru olaraq qeyd edirdi ki, ayrı-ayrı azərbaycanlılar yaxşı tarixi tədqiqat işləri yazsalar da, başqa xalqlardan fərqli olaraq Azərbaycan xalqında əvvəlki əsrlərdə sistemli tarixşünaslar olmayıb. Ulu öndərimizin fikrincə, belə tarixşünaslığın yaradılması üçün mənbələrin, qədim əlyazmaların öyrənilməsi xalqın tarixinin və mədəniyyətinin dərindən tətbiq edilməsində müstəsna rol oynadığından onların qorunması vacibdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının ən dəyərli tarixi əlyazmaları 30-cu illərdə kütləvi şəkildə məhv edilmiş, zərərli hesab edilərək yandırılmışdı. Heydər Əliyev hakimiyyətə gələnə qədər respublika Əlyazmalar Fondundakı əlyazmalar müvafiq binanın zirzəmisində bərbad halda saxlanırdı. Azərbaycan xalqının qədim tarixi keçmişini və mədəniyyətini özündə əks etdirən dəyərli əlyazmalar məqsədli şəkildə sıradan çıxarılırdı. Bu qiymətli mədəniyyət nümunələrinin bərpasına və qorunmasına ciddi ehtiyac vardı.

Dünyanın müxtəlif arxiv və kitabxanalarında Azərbaycanın qədim tarixinə və mədəniyyətinə dair əlyazmalar toplanıb respublikaya gətirilmədi-

yindən alimlər bu qiymətli məxəzlərdən istifadə edə bilmirdilər. Mövcud vəziyyəti aradan qaldırmaq üçün Heydər Əliyev bir sıra mühüm qərarların qəbuluna nail oldu. 1981-ci ilin avqust ayında Azərbaycan KP MK «Azərbaycan SSR Əlyazmalar Fondunun fəaliyyətini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» məsələni müzakirə edərək müvafiq qərar qəbul etdi. Mühüm elmi və siyasi əhəmiyyət daşıyan həmin qərarda deyilirdi ki, fondda müxtəlif dillərdə 40 mindən çox nadir abidə saxlanır. Azərbaycan elmi, mədəniyyəti və tarixi üçün xüsusi əhəmiyyət daşıyan bu qərarın qəbul edilməsi ilə Əlyazmalar Fondu Əlyazmalar İnstitutuna çevrildi.

Həmin qərarda abidələrin saxlanması üçün əlverişli şəraitin yaradılması, fondun maddi-texniki bazasının yaxşılaşdırılması, əlyazmaların axtarılıb tapılaraq mühafizə edilməsi nəzərdə tutulurdu. Qərara uyğun olaraq hələ XX əsrin əvvəllərində məşhur milyonçu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən tikilən, bir müddət Azərbaycan SSR Ali Sovetinin yerləşdiyi və sonradan boşalan binasını müxtəlif nazirlik, idarə və təşkilatlar ələ keçirmək istəsələr də, Heydər Əliyev onların xahişini rədd edərək binanı Əlyazmalar İnstitutuna verdi. Ümummilli liderimiz bu qərara gələrkən hesab edirdi ki, qədim kitablar Azərbaycan xalqının tarixi keçmişi və milli sərvətidir. Qərarın qəbul edilməsi Azərbaycan tarixinin və mədəniyyətinin araşdırılması istiqamətində mühüm mərhələnin başlanğıcını qoydu. Qərardan sonra bu binanın zirzəmisində bərbad vəziyyətdə olan kitablar çıxarılıb bərpa edilərək muzey nümunəsi kimi yaxşı vəziyyətdə saxlanmağa başlandı.

Yaradıldıqdan sonra da Əlyazmalar İnstitutunun fəaliyyəti Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Onun diqqət və qayğısı sayəsində çoxlu sayda qədim əlyazmalar tapılıb bərpa edilmiş, onların qorunması üçün lazımi şərait təmin edilmişdir. Sonrakı illərdə qədim Azərbaycan əlyazmalarına dair bir sıra respublika, beynəlxalq elmi konfranslar, seminarlar və simpoziumlar keçirilmişdir.

Heydər Əliyev Azərbaycanın qədim dövrlərdən bəri elm və mədəniyyət mərkəzi olmasını təbliğ etmək, müxtəlif xarici ölkə-lərin alimlərinin respublika ilə tanış olmaları, əlaqələr yaratmaları məqsədi ilə tədbirlər həyata keçirir, MK-nın müvafiq qərarlar qəbul etməsinə nail olurdu. Onun təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1981-ci il 14 iyul tarixli iclasında görkəmli alim Məhəmməd Nəsirəddin Tusinin 780 illiyinin təntənəli şəkildə qeyd olunması barədə qərar qəbul edildi. Qərara əsasən Bakı və Moskvada

yubiley mərasimləri, elmi sessiyalar keçirilməli, Bakı və Naxçıvanda Tusinin abidəsi ucaldılmalı, xatirə medalı, poçt markası, döş nişanı, plakatlar buraxılmalı, monoqrafiyalar və kitablar yazılaraq nəşr edilməli, filmlər çəkilməli, yubiley sərgiləri açılmalı idi.

MK qərarına uyğun olaraq Nəsirəddin Tusinin möhtəşəm yubileyi, elmi sessiyalar keçirildi, kitablar nəşr olundu. Bu tədbirlərdə Heydər Əliyev şəxsən iştirak etdi.

Heydər Əliyev Azərbaycanı Şərqi öyrənməkdə sovet elminin qabaqcıl elm mərkəzinə çevirmək istiqamətində də əzmlə çalışırdı. Şərqdə baş verən proseslər, xüsusən İran inqilabı və Əfqanıstana sovet müdaxiləsi bu məsələnin həllini daha da aktuallaşdırırdı. Yaranmış vəziyyətdən Azərbaycanın mənafeləri naminə istifadə edən Heydər Əliyevin təşəbbüsü ilə Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda Cənubi Azərbaycan tarixi şöbəsi, 1982-ci ildə isə Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Azərbaycan şöbəsi təşkil edildi, elə həmin ildə görkəmli şərqşünas alim Mirzə Kazımbəyin anadan olmasının 180 illiyi qeyd edildi.

Respublika rəhbəri Azərbaycan folklorunun dərindən araşdırılmasını və tədqiq edilməsini tövsiyə edirdi, bu barədə danışan Heydər Əliyev yazıçıların VII qurultayındakı nitqində deyirdi: «Yurdun folkloru, müxtəlif el sənətləri, etimologiya, dil tarixi – hamısı küll halında öyrənilməlidir». O bu istiqamətdə tədqiqat işlərinin aparılmasını təşviq edir və əlverişli şərait yaradırdı.

Heydər Əliyev Azərbaycan aliminə xüsusi diqqət yetirir, onları dövlətin yüksək orden və medalları ilə təltif olunmaq üçün təqdim edirdi. O, görkəmli alimlərin yubileylərini keçirir və məişət şəraitini yaxşılaşdırırdı. Azərbaycan alimləri onun yüksək diqqət və qayğısı ilə əhatə olunmuşdular. Məhz Azərbaycan rəhbərinin sayəsində ölkəmizin görkəmli elm xadimləri dövlətin orden və medallarına layiq görülür, fəxri adlar alırdılar. Bununla bağlı olaraq Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun iclaslarında məsələlər müzakirə edilirdi. Sov. İKP MK-ya məktublar yazılırdı.

Məsələn, görkəmli ədəbiyyatşünas alim, akademik M.A.Dadaşzadənin 70 illik yubileyi münasibətilə Oktyabr inqilabı ordeni ilə təltif edilməsi haqqında Azərbaycan KP MK bürosunun 1974-cü il 21 may tarixli qərarına uyğun olaraq Heydər Əliyev may ayının 24-də Sov. İKP MK-ya imzaladığı 253 nömrəli məxfi məktubda onu nüfuzlu, görkəmli alim kimi səciyyələndirir və mükafatın verilməsini xahiş edirdi. Heydər Əliyev bu istəyinə nail oldu.

Azərbaycan KP MK bürosunun 1977-ci il yanvar ayının 11-də keçirilən iclasında isə tanınmış tarixçi alim, akademik Ə.Sumbatzadənin Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə müvafiq məktubla Sov.İKP MK-ya müraciət etmək haqqında qərar qəbul olundu. Heydər Əliyev bu istəyinə də çatdı. Azərbaycan alimi M.Qaşqayın təltif olunması barədə də məktub yazıldı. Akademik Ə.Hüseynovun Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə həmin ilin sentyabr ayının 13-də 394 nömrəli, M.Quluzadənin eyni ordenlə təltif edilməsi barədə oktyabr ayının 12-də 441 nömrəli məxfi məktubla Sov.İKP MK-ya müraciət edildi.

Həmin ildə görkəmli coğrafiyaşünas alim, akademik Həsən Əliyevin anadan olmasının 70 illiyi qeyd edildi, Heydər Əliyev görkəmli ədəbiyyatşünas alim Həmid Araslının anadan olmasının 75 illiyi münasibətilə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi ilə əlaqədar 1979-cu il fevral ayının 8-də 59 nömrəli məxfi məktubu imzaladı və Həmid Araslı həmin mükafatla təltif edildi. Görkəmli dilçi alim, akademik M.Şirəliyevin Lenin ordeni ilə təltif edilməsi haqqında həmin ilin iyun ayının 26-da 327 nömrəli məxfi məktubla Sov.İKP MK-ya müraciət edildi və bu xahiş də yerinə yetirildi. Yenə eyni ilin avqust ayının 22-də kimyaçı alim İ.Orucovanın Oktyabr İnqilabı ordeni ilə təltif edilməsi haqqında 369 nömrəli məxfi məktubla Moskvaya müraciət edildi və bu istəyə də nail olundu.

Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan müxtəlif ümumittifaq və beynəlxalq elmi məclislərin keçirildiyi məkana çevrilmişdi. Respublikada müntəzəm olaraq mötəbər elmi konqreslər, regional məsələlərə həsr olunmuş elmi konfrans və simpoziumlar keçirilirdi. Səfər edən sovet və xarici ölkələrin alimləri Azərbaycan elminin nailiyyətləri, tarixi və mədəniyyəti ilə yaxından tanış olurdular. Heydər Əliyevin yürütdüyü siyasət sayəsində Azərbaycan 70–80-ci illərdə inkişaf etməkdə olan ölkələrin xalqları üçün milli, mədəni və elmi inkişafda nümunə rolunu oynayırdı. Bir çox xalqların nümayəndələri Azərbaycana səfər edərək ölkəmizin təcrübəsini öyrənir, həmin ölkələrin alimləri, ictimai və siyasi xadimlərinin iştirakı ilə Bakıda böyük elmi məclislər keçirilirdi. Məsələn, 1977-ci ilin may ayında Bakıda keçirilən Asiya, Afrika və Latın Amerikası xalqlarının milli-azadlıq hərəkatı mövzusunda nüfuzlu beynəlxalq elmi konfransda 70-dən çox ölkənin siyasi və ictimai xadimləri, alimləri iştirak etdilər. Elmi konfransda geniş və dərin məzmunlu nitqlə çıxış edən Heydər Əliyev bu ölkələrin xalq-

larının milli azadlıq mübarizəsini yüksək qiymətləndirirdi. Bakıda belə bir tədbirin keçirilməsi və onda Heydər Əliyevin nitq söyləməsi Azərbaycan rəhbərinin nəinki türk və müsəlman dünyasında, eyni zamanda milli azadlıq müba-rizəsi aparan ölkələrin xalqları, hökumət və ictimai dairələri arasında böyük nüfuza malik olan görkəmli dövlət xadimi onların üzləşdikləri problemlərin həlli yollarını dərindən bilən dünya şöhrətli siyasətçi olduğunu göstərirdi. Ümumiyyətlə, Heydər Əliyev sovet rəhbərləri arasında müsəlman Şərqinin problemlərini ən mükəmməl bilən siyasi xadim sayılırdı.

Heydər Əliyev Azərbaycan alimlərinin beynəlxalq əlaqələrinin genişləndirilməsinə böyük əzmlə çalışırdı. Bilavasitə onun sayəsində azərbaycanlı alimlər beynəlxalq elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış edir, Azərbaycan elmini dünyada tanıdır və xalqı ləyaqətlə təmsil edirdilər.

Heydər Əliyev Azərbaycan alimlərini sovet sisteminin təzyiqlərindən xilas edərək öz himayəsinə alır, onlara dəyərli araşdırmalar aparmaq üçün hər cür şərait yaradırdı. Təqib olunanları bəzən özü tənqid edir, yeri gəldikdə danlayır, sanki Moskvaya hər şeyin nəzarət altında olduğunu bildirir, az sonra isə həmin şəxsləri yüksək elmi idarələrdə rəhbər vəzifələrə təyin edir, onlara hər cür şərait yaradır, hücumlardan qoruyurdu. Heydər Əliyevin hakimiyyəti illərində alim cəmiyyətdə ən nüfuzlu və hörmətli şəxslərdən hesab edilirdi. Azərbaycan alimi maddi baxımdan tam təmin olunmuşdu. Onun yaşayış sarıdan hər hansı sıxıntısı demək olar ki, yox idi. Azərbaycan alimi yaxşı məişət şəraitinə malik idi. Bütün ölkədə professor yüksək rütbəli partiya işçisi qədər məvacib alırdı. Elə buna görə də gənclər arasında elmə maraq ildən-ilə güclənirdi. İstedadlı gənclər elmə həvəslə gələrək dissertasiyalar müdafiə etməklə elmi dərəcələr alırdılar. Elm Azərbaycanda ən hörmətli sahələrdən hesab edilirdi. Sonralar Heydər Əliyev deyirdi: **«Azərbaycan elmi çox irəliyə getmiş və özünün nə qədər qüdrətli və güclü olduğunu bütün dünyaya göstərmişdir».**

Heydər Əliyev Azərbaycan elminin keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirirdi. O, hakimiyyətə gələnə qədər Azərbaycanda qəribə bir mərəz əmələ gəlmişdi. Partiya, sovet, təsərrüfat işində çalışan çox adam vəzifə ilə yanaşı elmi dərəcələr də almaq istəyir, vəzifələrindən və maddi imkanlarından istifadə edərək namizədlik və doktorluq dissertasiyaları yazdırırdılar. Bütün günü, səhərdən gecəyarısınadək dövlət işində çalışan bu adamlar bir neçə ildən sonra müdafiə edərək alimlik diplomu alır və belə

hesab edirdilər ki, elmi dərəcə vəzifədən çıxandan sonra onlara lazım ola bilər. Artıq qeyd edildiyi kimi həmin dövrdə elm adamlarının məvacibləri xeyli yüksək idi. Məsələn, 70-ci illərdə Elmi-Tədqiqat İnstitutu direktorunun aylıq maaşı MK katiblərinin, Nazirlər Soveti sədrinin müavinlərinin maaşından çox idi. Vəzifədən çıxan adamlar isə elmi idarələrdə özlərinə isti yerlər qazanaraq rəhbər vəzifələr tutmaqla durğunluq yaradırdılar. Bununla da Azərbaycanda elmi dərəcəlilərin sayı süni surətdə artır, əsl elm isə inkişaf etmirdi. Alimlər ölkədə və dünyada lazımi qədər tanınmırdılar. Heydər Əliyev hakimiyyətə gələn kimi bu cür mənfi təzahürlərə qarşı kifayət qədər sərt mübarizəyə başladı. Onun səyləri nəticəsində bu cür biabırçılıqların qarşısı alındı. Bir çox adamlar cəzalandırıldı. Elmlə müntəzəm məşğul olmayanların dissertasiya işləri müdafiə etmələrinə qadağa qoyuldu.

Heydər Əliyev Moskvaya işləməyə getdikdən sonra da Azərbaycan elminə və aliminə olan qayğısını əsirgəmirdi. O, görkəmli azərbaycanlı alimlərin nümayəndələrini səmimi şəkildə qəbul edir, öz tövsiyələrini verir, xalqın mənafelərinin müdafiəsində ayıq olmalarının gərəkliliyini bildirirdi. Məsələn, erməni tarixçilərinin düşmən hesab etdikləri akademik Ziya Bünyadova 80-ci illərin ortalarında da diqqət və qayğı göstərir, qəbul edir, öz məsləhətlərini verirdi.

Beləliklə, Azərbaycan xalqının böyük tarixi ərzində məktəb və maarifin ən yüksək inkişafı 70–80-ci illərdə oldu. Xalqın maariflənməsinə xüsusi diqqət verən Heydər Əliyev sovet siyasətinin ümumi fondunda başlıca səylərini məktəb tikintisinə, büdcədən təhsilə ayrılan vəsaitlərin artırılmasına yönəltdi. Onun hakimiyyəti illərində Azərbaycan məktəb binalarının tikintisi meydanına çevrilmişdi. 1969–1982-ci illərdə Azərbaycanda 849 ümumtəhsil məktəbi, yəni ildə orta hesabla təxminən 7 məktəb tikilərək istifadəyə verilmişdi. Azərbaycan məktəbinin maddi-texniki bazası, təchizatı yaxşılaşır, məktəb kitabxanaları, fondları xeyli dərəcədə zənginləşirdi. Şagirdlərin əmək tərbiyəsinə diqqət yetirilir, məktəb emalatxanaları və müxtəlif peşə yönümlü sahələr inkişaf etdirilirdi.

Heydər Əliyev Azərbaycan müəlliminə xüsusi qayğı göstərir, onlara müxtəlif fəxri adlar verir, ən qabaqcıllarını bütün ölkə miqyasında tanıdırdı. Ulu öndərimizin müəllimə olan hörmətinin əsasında Azərbaycan xalqını savadsızlıqdan, gerilikdən, ətalətdən çıxarmaqda onların yüksək rolu dayanırdı. O bildirirdi ki, hər bir savadlı şəxs müəllimə hörmət etməli, müəllimin cəmiyyət həyatında oynadığı rolu yüksək qiymətləndirməlidir. Heydər Əliyev özü orta məktəb müəllimlərini unutmur, onları daim hörmətlə yad edirdi.

2.3. Azərbaycan təhsili müstəqillik dövründə

Heydər Əliyevin müəyyən etdiyi bu ənənələr Azərbaycanın dövlət müstəqilliyinə qovuşması üçün, bir növ, təməl rolunu oynasa da, əfsuslar olsun ki, Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində ulu öndərimiz Heydər Əliyevin hələ 70–80-ci illərdə formalaşdırdığı bu zəngin intellektual potensialdan, insan kapitalından lazımınca istifadə edilmədi.

Bir-birini əvəzləyən müvəqqəti hakimiyyətlərin yarıtmaz siyasəti ucbatından ölkə həyatının digər əhəmiyyətli sahələri kimi Azərbaycan elmi-təhsili də böhranla qarşılaşdı, bu sahədə ağır tənəzzül dövrü başlandı, təhlükəli meyillər ortaya çıxdı, Azərbaycandan xaricə «beyin axını» gücləndi, elm və təhsil sahəsində çalışanlar ölkədə ən çətin vəziyyətdə yaşayan və ən nüfuzsuz sosial kateqoriyalara çevrilərək xırda biznesin artan nüfuzu qarşısında miskin duruma düşdülər, Azərbaycan elmi, təhsili uğursuz eksperimentlərin meydanına çevrildi.

1999-cu ilin martında Heydər Əliyev təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasındakı yekun nitqində həmin dövrü xarakterizə edərək deyirdi: «**...Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, onillərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir qanun yaradasan**».

Əslində, həmin illərdə Azərbaycanın özünün bir dövlət kimi mövcudluğu sual altında idi. Həmin vaxt baş verən proseslərə xalqımızın ümumilli lideri Heydər Əliyevin qüdrətli əlləri müdaxilə etməsəydi, şübhəsiz ki, bu gün Cənubi Qafqaz ölkələri içərisində unitar quruluşlu müstəqil Azərbaycan dövlətinin mövcudluğu olduqca tərəddüdlü görünə bilərdi. 1993-cü ilin iyun ayında ulu öndərimizin xalqın təkidli tələbi ilə respublikanın ali rəhbərliyinə qayıdışından sonra müstəqil dövlətimiz sözün həqiqi mənasında, məhv olmaq təhlükəsindən qurtularaq inkişaf yoluna qədəm qoydu. Dövlət düşdüyü ağır siyasi böhrandan, vətəndaş müharibəsi təhlükəsindən xilas edildi, süni qiyamlar yatırıldı, Azərbaycanın müstəqilliyi, bütövlüyü təmin olundu. Respublikanın taleyüklü məsələləri ilə ciddi məşğul olmağa başlayan ulu öndərimiz Heydər Əliyev elə ilk gündən diqqətini ölkənin həm siyasi, həm də iqtisadi inkişafına yönəltdi. Heydər Əliyev belə bir şəraitdə bir neçə cəbhədə mübarizə aparmalı oldu. O, həyata keçirilən dövlət quru-

culuğu prosesinin ən zəruri tərkib hissələrindən biri kimi hələ 70–80-cı illərdə respublikada formalaşdırdığı zəngin elmi-intellektual potensiala istinad edərək özünün təkmil təhsil konsepsiyasını irəli sürərək, milli tərəqqi baxımından strateji əhəmiyyət daşıyan bu sahənin problemlərini diqqət mərkəzində saxladı. Görkəmli dövlət adamı Azərbaycan təhsilinin milli əsaslar üzərində çağdaş dünya təhsil sisteminə inteqrasiyasını başlıca vəzifə kimi aktuallaşdırdı. Elm və təhsil sahəsində mütərəqqi islahatları ardıcıllıqla həyata keçirdi. Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində hər bir vətəndaşın pulsuz icbari təhsil almaq hüququ təsbit edildi. Eyni zamanda milli təhsilin alternativ əsaslar üzrə yüksəlişini təmin etmək, daha səviyyəli təhsil uğrunda rəqabətə nail olmaq məqsədilə bu sahədə özəl sektorun inkişafına şərait yaradıldı.

Heydər Əliyevin tapşırığı ilə 1996-cı ildə respublika hökuməti «Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında» qərar qəbul etdi; peşə məktəbləri və peşə liseyləri yaradıldı. **Hər bir mütərəqqi islahatın uğuru, şübhəsiz, onun ictimai şüurla nə dərəcədə səsləşməsi, cəmiyyət tərəfindən qəbul olunub-olunmamasından bilavasitə asılıdır. Bu gerçəklikdən çıxış edən ulu öndərimiz Heydər Əliyev böyük strateq kimi ilk gündən milli təhsil sistemində islahatların təkamül yolu ilə aparılması tərəfdarı kimi çıxış etmiş, bu mövzuda ictimai müzakirələrin açılmasına nail olmuşdur.**

Ümummilli liderimizin «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında» 30 mart 1998-ci ildə imzaladığı sərəncam, habelə 15 iyun 1999-cu il tarixdə təsdiqlədiyi «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı» da təhsil sahəsində islahatların məhz tədricən, mərhələlərlə həyata keçirilməsi, Azərbaycanda təhsil standartlarının yeni dövrün şərtlərinə uyğunlaşdırılması prosesini təmin etdi. «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında» sərəncamda müstəqil Azərbaycanın təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların həyata keçirilməsi, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi, Avropa təhsil məkanına inteqrasiyanın təmin edilməsi kimi mühüm vəzifələr önə çəkilmişdir. «Azərbaycan Respublikasında Təhsil İslahat Proq-

ramı»nın əsas mahiyyətini isə təhsil sistemində islahatların təkamül yolu ilə, mərhələlərlə aparılması, tarixən formalaşmış zəngin, mütərəqqi ənənələrin, təcrübənin qorunub saxlanılması, dünya təhsil sisteminin Azərbaycanın milli xüsusiyyətləri ilə çuğlaşan prinsiplərinin tətbiqi məsələləri təşkil edirdi. İslahat proqramının həyata keçirilməsi nəticəsində Azərbaycanda təhsilin məzmunu yeniləşdirilmiş, yeni proqramlar və dərsliklər hazırlanmış, ayrı-ayrı təhsil sahələri, fənlər üzrə standartların hazırlanması istiqamətində ciddi iş aparılmışdır.

Ali təhsil sahəsində yeniliklərdən biri də «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli fərmanı ilə ölkənin 4 aparıcı ali məktəbinə – Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Tibb Universiteti və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına maliyyə müstəqilliyi, bir neçə ali məktəbə isə «Universitet» statusunun verilməsindən ibarətdir.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi islahatlar sayəsində Azərbaycandakı əksər ali məktəblərin inkişafı təmin olunmuş, təhsil sahəsində beynəlxalq əlaqələr genişlənmişdir. Ulu öndərimizin bu sahəyə diqqət və qayğısının təzahürü kimi təhsilin inkişafına ayrılan büdcə vəsaitinin ardıcıl olaraq artması 1993–2001-ci illərdə təhsil işçilərinin əmək haqqını 9 dəfə artırmağa imkan vermişdir.

Ulu öndərimiz Heydər Əliyevin «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 13 iyun 2003-cü il tarixli fərmanı isə təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, onun beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratmışdır. Bu fərmanla təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırılmış, daha bir neçə universitetə muxtariyyət statusu verilmiş, ölkəmizdə müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə Azərbaycan Müəllimlər İnstitutu və onun 12 filialı yaradılmışdır. Eyni zamanda yeni təhsil müəssisələri – Dənizçilik Akademiyası, Milli Təhlükəsizlik Akademiyası, Musiqi Akademiyası, Prezident yanında Dövlət İdarəçilik Akademiyası, Milli Konservatoriya və Aviasiya Akademiyası təsis edilmişdir.

Təhsilin ümumi keyfiyyətinə bilavasitə təsir edən mühüm amillərdən biri də orta ümumtəhsil məktəblərində maddi-texniki bazanın gücləndirilməsidir.

Ulu öndərimizin 4 oktyabr 2002-ci il tarixli «Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında» sərəncamı da məhz milli təhsil sisteminin inkişafında mühüm amil olan ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə və maddi-texniki bazanın möhkəmləndirilməsinə xidmət etmişdir. Sərəncama müvafiq olaraq Təhsil Nazirliyinin hazırladığı Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqram (2003–2007-ci illər) Prezidentin 17 fevral 2004-cü il tarixli sərəncamı ilə təsdiq olunmuşdur. Təsdiqlənmiş proqramda 2003–2007-ci illər ərzində respublika üzrə 44698 şagird yeri olan 149 məktəbin tikintisi, habelə 179 məktəbdə 212 əlavə sinif otağının inşası, 45 məktəbdə əsaslı təmirin aparılması nəzərdə tutulmuş və qarşıya qoyulmuş məqsədlər uğurla reallaşdırılmışdır.

1993-cü ilin iyunundan başlayaraq bütün sahələrdə olduğu kimi, elm sahəsində də tənəzzülün, təhlükəli, dağıdıcı meyillərin qarşısı alındı. Milli elmimizin inkişafı üçün əlverişli siyasi, iqtisadi, hüquqi mühit yaradıldı. Heydər Əliyevin milli müstəqillik, milli dövlət quruculuğu strategiyasında belə bir ideya əsaslandırıldı ki, dövlət müstəqilliyinin əbədiliyinin, vətəndaş cəmiyyətinin demokratik inkişafının magistral və hamar yolu mütləq və mütləq milli elmdən, milli təhsildən keçir.

Azərbaycan elmi öz qurtuluşuna görə məhz ulu öndərimiz Heydər Əliyevə minnətdardır. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ictimaiyyət nümayəndələri ilə ilk görüş üçün Akademiyanı seçən, ilk görüşünü məhz Azərbaycan alimləri ilə keçirən Heydər Əliyevin bu addımı heç şübhəsiz ki, onun elmə, intellektə, intellektual potensialın daşıyıcıları olan insanlara verdiyi böyük dəyərin ifadəsi idi. Bununla ümummilli liderimiz dövlətçilik ənənələrini sistemli şəkildə davam etdirən görkəmli dövlət xadimi kimi yeni yaratmağa başladığı müstəqil dövlətin bünövrəsinin elmi sütunlar üzərində qurulduğunu, intellektual potensiala arxalandığını ictimai fikrə çatdırdı. Bu, bir tərəfdən Heydər Əliyevin Azərbaycan elminə, intellektinə böyük hörmətinin təsdiqi idisə, digər tərəfdən Azərbaycan ziyalılarının Heydər Əliyev şəxsiyyətinə sonsuz inam və yüksək etimadının bariz təzahürü idi.

Ümummilli liderimiz Azərbaycanın fəlakətlərdən xilası, ağır sosial-iqtisadi-siyasi-mənəvi böhrandan çıxarılması, ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması üçün atdığı addımlar, həyata keçirdiyi islahatlar zamanı ən böyük dəstəyi də elə Azərbaycan ziyalılarından aldı. Heydər Əliyev cə-

miyyətin bütün sahələri kimi Azərbaycan elmini, təhsilini, mədəniyyətini də iflas təhlükəsindən qoruyub, bu sahələrdə dinamik inkişafı təmin etdi. Elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimlərinin sosial müdafiəsinin təşkili istiqamətində atılan addımlar, dövlət büdcəmizdə baş verən artımlar hesabına bu sahələrə yönələn vəsaitlərin artırılması yeni bir intibah mərhələsinin əsasını qoymuş oldu.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan elmi son illərin mərhumiyyətlərindən azad olaraq öz qəddini düzəltdi, uçurumdan geriyə doğru addımlayaraq özünü sahmana saldı, dirçəliş yoluna qədəm qoydu. Vətəndən uzaq düşüb bir tikə çörək dalınca xaricə üz tutan istedadlı alimlərimiz tədricən geriyə qayıtmağa başladılar. Elmlər Akademiyasının fəaliyyətində yeni istiqamətlər müəyyənləşdi və 1997-ci ilin 31 yanvarında böyük öndərimizin akademiyanın bir qrup aparıcı alimi ilə keçirdiyi tarixi görüşdən sonra faktiki olaraq ötən əsrdə Elmlər Akademiyasının inkişafının üçüncü mərhələsi başlandı. Heydər Əliyev həmin görüşdəki çıxışında çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərh olunmasının dövlət üçün mühüm əhəmiyyət kəsb etdiyini bir daha diqqətə çatdırdı. Azərbaycan elmi qarşısında dayanmış əsaslı problemlərə toxunub onların aktuallığını əsaslandıraraq alimlərimizə Azərbaycan dövləti, xalqı üçün daha gərəkli strateji məsələlərlə məşğul olmağı tövsiyə edərək, Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını irəli sürdü. Geniş kütlə, xalq, millət üçün humanitar elmlərin xüsusi əhəmiyyətə malik olduğunu vurğulayan böyük öndərimiz ədəbiyyat, mədəniyyət tarixinin yazılması zəruriliyi barədə söhbət açdı, çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərhinin dövlət üçün mühüm əhəmiyyətini qabartdı: «Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya və başqa fənlər hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq öyrənilməlidir. O cümlədən mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır».

Bütün bu tövsiyələr Azərbaycan elminin inkişafı məqsədinə hesablanmış fərman və sərəncamlarla müşayiət olunmuş, Heydər Əliyev ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində bir sıra mühüm

qərarlar qəbul etmişdir. Azərbaycan Respublikası Prezidentinin 15 may 2001-ci il tarixli fərmanı ilə Elmlər Akademiyasına «Azərbaycan Milli Elmlər Akademiyası» statusu verilmiş, bununla da akademiyanın fundamental elmin inkişafında əldə etdiyi nailiyyətləri, Azərbaycan xalqının mədəni və mənəvi təşəkkülündə oynadığı rolu və akademik elmin ölkənin inkişafının əsas təminatçısı olduğunu bir daha təsdiqləmişdir.

30 mart 2001-ci il və 1 iyul 2002-ci il tarixli sərəncamlarla AMEA Rəyasət Heyəti və akademiyanın bütün işçilərinin əmək haqları bir neçə dəfə artırılmış, 2002-ci ilin 12 avqustunda AMEA-nın Naxçıvan bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalanmış, böyük öndərimizin sədrliyi ilə Naxçıvan Ali Məclisinin iclas zalında bu bölmənin yaradılmasına həsr olunmuş müşavirə keçirilmişdir.

Azərbaycan elmində ümummilli liderin Milli Elmlər Akademiyasının statusu, Nizamnaməsi və MEA prezidentinin təsdiqi haqqında 4 yanvar 2003-cü il tarixli fərmanı da xüsusi əhəmiyyətə malikdir. Böyük öndərimizin bu addımı Milli Elmlər Akademiyası sistemində əsaslı islahatların aparılmasına, texniki bazanın modernləşdirilərək, beynəlxalq standartlara uyğunlaşdırılmasına, dünya ölkələrinin elm sahəsində əldə etmiş olduğu ən mütərəqqi təcrübənin mənimsənilməsinə, elmi-tədqiqat institutlarında, mərkəzlərdə işin keyfiyyət əmsalının artırılmasına, elmi ictimaiyyətin diqqətinin cəmiyyət həyatı üçün xüsusi aktuallıq kəsb edən problemlərə yönəlməsinə geniş şərait yaratmışdır.

Heydər Əliyevin həmin dövrdə verdiyi tapşırıqları həyata keçirmək məqsədilə ötən müddət ərzində AMEA-nın Rəyasət Heyəti Akademiyada islahatların aparılması, onun idarəetmə və təşkilat sisteminin təkmilləşdirilməsi, elmi-tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, kadr hazırlığının yaxşılaşdırılması, elmi işçilərin məsuliyyətinin artırılması, elmin və elmi xidmət müəssisələrinin işinin səmərəliliyinin yüksəldilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir. «Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası» hazırlanmış, Akademiyanın ümumi yığıncağında təsdiq edilmiş və tədricən həyata keçirilmişdir.

Heydər Əliyevin sərhəd tanımayan geniş yaradıcılıq fəaliyyətində dilçilik məsələləri, ilk öncə ana dili, dil və dövlət, dil və mədəniyyət, dil və millət, dil və tarix, dil və ədəbiyyat, dil quruculuğu kimi önəmli sosiolinqvistik məsələlər də xüsusi yer tuturdu. Bütün böyük siyasi xadimlər kimi, Heydər Əliyev də öz xalqının, ölkəsinin iqtisadiyyatı, maddi rifah halının yax-

şılaşması ilə bərabər, onun ümummədəni tərəqqisinin də qayğısına qalmış, yaşadığı ölkənin, mənsub olduğu xalqın dünyanın ən inkişaf etmiş ölkələri və xalqları səviyyəsinə yüksəlməsinə ciddi diqqət yetirmişdir. Ulu öndərimiz Heydər Əliyevin ana dilinə böyük qayğısı, sədaqəti, dərin məhəbbəti onun yalnız əsl vətəndaşlıq, ana dilini sevmək, yüksək qürur hisləri ilə bağlı deyildi. Bu, eyni zamanda onun öz ana dilini dərindən bilmək, həmin dilin bütün daxili sirlərinə, gözəlliklərinə dərindən vaqif olmaq və onlardan məharətlə istifadə edə bilmək qabiliyyətindən və istedadından irəli gəlirdi. Azərbaycan dilinin dövlət dili kimi bərqərar olunması və inkişaf etməsinə xüsusi diqqət yetirən ümummilli liderimiz Heydər Əliyev 18 iyun 2001-ci ildə «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» fərman imzaladı. Fərmanda Azərbaycan dilinin keçdiyi tarixi inkişaf yolu, ədəbi dilimizin inkişaf mərhələləri, müstəqil Azərbaycan Respublikasında ən mühüm ünsiyyət vasitəsi olan dilimizin tətbiqi ilə əlaqədar qarşıda duran vəzifələrin həyata keçirilməsinin konkret müddətləri göstərilmişdir.

Həmin dövrdə AMEA-nın Rəyasət Heyəti bu fərmanın icrası haqqında qərar qəbul etdi. Bu qərarda fərmanın dövlət dilimizin inkişafı sahəsində müstəsna əhəmiyyəti qeyd edilmiş və Akademiyada dövlət dilinin və latın qrafikasının tətbiqi məqsədilə bir sıra tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Bu tədbirlərin böyük bir qismi artıq həyata keçirilmişdir. Rəyasət Heyətinin 2001-ci il avqustun 22-də keçirilmiş iclasında Heydər Əliyevin «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında» fərmanı və 13 avqust 2001-ci il tarixli bəyanatı ətraflı müzakirə edildi. Rəyasət Heyəti akademiyanın elmi müəssisələrində və təşkilatlarında ölkə başçısının fərmanı və bəyanatından irəli gələn tədbirlər planının həyata keçirilməsi haqqında qərar qəbul etdi və ölkə Prezidentinə müraciət ünvanlandı.

Ümummilli liderimizin hakimiyyətə qayıdışından sonra elm sahəsində çalışan insanların, bütün ömrünü gənc nəslin maariflənməsinə həsr etmiş müəllimlərin sosial statusu yenidən yüksəldi. Tarixən ən şərəfli ictimai status sayılan alim-müəllim adının cəmiyyətdəki nüfuzu yenidən bərpa edildi.

Təhsilin əsas subyekti və cəmiyyətin ən fəal təbəqəsi olan Azərbaycan gəncliyi də böyük öndərimizin hakimiyyətə qayıdışı ilə çoxsaylı problemlərdən qurtuldu. 1988–1993-cü illərin məlum hadisələrinin Azərbaycan gəncliyini nizamsız, pərakəndə topluma çevirməsi faktı heç kimin yadından çıxmayıb. Öz siyasi ambisiyaları naminə Azərbaycanı böhranlara sürükləyən

qüvvələr məqsədlərinin icrası üçün ilk növbədə gəncliyimizdən bir vasitə kimi istifadə edir, ölkənin gələcəyini uçuruma aparırdılar.

1991–1993-cü illərdə Azərbaycanda müxtəlif adlar altında çoxsaylı gənclər təşkilatları ortaya çıxmışdı. O zaman ölkədəki mövcud hərc-mərclik şəraitində yaranan bu təşkilatların çoxunda siyasiləşmə, populizm meyilləri özünü büruzə verirdi. Təəssüflər olsun ki, bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlif yönlü siyasi partiya və qurumların təsiri altına düşmüşdü. Lakin Azərbaycan xalqının xilaskarı Heydər Əliyevin qayıdışının ilk dövründə Milli Məclisdə gənclərlə görüşündən sonra bu kimi hallara son qoyuldu. Belə bir şəraitdə Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi, demokratik dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi gənclərin ayrı-ayrı siyasi partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər edilməsi, vahid gənclər siyasətinin işlənib hazırlanması zəruriliyini ortaya qoydu və bu siyasət bu gün də böyük uğurla davam etdirilməkdədir.

Xalqımızın ümummilli lideri Azərbaycan idmanının ən böyük xeyirxahına çevrildi. Bu sahədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan idmançıları beynəlxalq yarışlarda parlaq qələbələrə imza atdılar.

Böyük öndərimiz öz çıxışlarında Azərbaycan gənclərinin mükəmməl təhsil alması zəruriliyini xüsusi diqqətə çatdırmışdır: «...Gənclərimiz təhsil almalıdırlar. Çünki ali təhsil olmasa, gənclərimizin istənilən gələcəyi də olmayacaqdır». Heydər Əliyev mənəvi tərbiyə məsələsini də Azərbaycan gəncliyi qarşısında dayanan mühüm prioritetlərdən hesab edirdi: «...Gənclərimizin qarşısında duran ən əsas məsələlərdən biri mənəvi tərbiyə məsələsidir. Bilirsiniz, indi maddi çətinlik, maddi ehtiyaclar, şübhəsiz ki, cəmiyyətdə cürbəcür mənfi halların meydana gəlməsinə gətirib çıxarır. Ancaq gənclərimiz də bilməlidir, vətəndaşlarımız da bilməlidir ki, bu dövrün müvəqqəti çətinliklərinə dözmək lazımdır, mənəvi tərbiyəni daim aparmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır. Umumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Nə qədər var-dövlət olsa da, nə qədər sərvət olsa da, nə qədər zənginlik olsa da mənəviyyat olmayan yerdə heç bir uğur ola bilməz. Xalqımızın tarixinin əsasını təşkil edən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları

bu gün dünyada məşhurlaşdıran və bizim üçün örnək edən, bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Ona görə də bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımlıdır. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz».

Ümummilli liderimiz gəncləri təhsilli, elmli və zəkalı görmək üçün onların xaricdə təhsil alması üçün hər cür imkanlarla təmin edirdi. Heydər Əliyevin Azərbaycan Müəllimlərinin XI qurultayında məktəb tikintisi, təmiri və təchizatına yardım göstərilməsi ilə bağlı çağırışı cəmiyyətdə böyük əkssəda, canlanma yaratdı. Məhz həmin müraciətdən sonra ölkədəki xarici təşkilatlar və səfirliklər də məktəb tikintisinə yardım etməyə səy göstərdilər. Heydər Əliyevin bu çağırışına ölkənin sahibkarları və xaricdə yaşayan imkanlı azərbaycanlılar da qoşuldu. Ölkəmizdə yeni məktəb binaları tikildi, məktəblər təmir edildi, ali təhsil müəssisələrinin maddi-texniki bazası yaxşılaşdırıldı. Ümummilli liderimizin qayğısı nəticəsində təhsil sistemində yaranmış güclü inkişaf tendensiyaları, yenilik və novatorluq dövrü başlandı. Təhsil sektoru üçün ayrılan büdcə vəsaitləri ildən-ilə artırıldı.

Azərbaycan şagirdlərinə ən böyük humanistliyi və qayğını da məhz ümummilli liderimiz Heydər Əliyev göstərmişdir. Böyük öndərin göstərişi ilə ölkə əhalisinin 20 faizini təşkil edən ümumtəhsil məktəb şagirdlərinin dərsliklərlə təminatına dövlət hesabına mərhələlərlə keçirilməsi haqqında xüsusi sərəncam imzalanmışdır. Bundan başqa, Heydər Əliyevin xüsusi sərəncamı ilə təsdiq olunmuş «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf sahəsində dövlət proqramı»nda 2003-cü ildən başlayaraq, ümumtəhsil məktəblərinin X–XI sinif dərsliklərinin də tədricən pulsuz təminatına keçidi nəzərdə tutulmuşdur ki, 2005-ci ildən başlayaraq bu, artıq reallığa çevrildi.

Hər il test üsulu ilə yüksək bal toplayıb ali məktəblərə qəbul edilən tələbələr də ümummilli liderimiz Heydər Əliyevin diqqətindən kənarda qalmırdı. O, həmin tələbələr üçün xüsusi Prezident təqaüdünün, eləcə də istedadlı gənclər üçün fəxri təqaüdlərin, «Qızıl kitab»ın təsis olunmasını reallaşdırdı.

Azərbaycan müəlliminin yaşayış səviyyəsi və sosial qayğıları ümummilli liderimizin daim diqqət mərkəzində saxladığı məsələlərdən idi. O dai-

ma müəllimlərin uca və müqəddəs peşə sahibləri olduqlarını söyləyir, cəmiyyəti onlara qarşı sayğılı olmağa çağırırdı. Eyni zamanda Azərbaycan müəllimini də öz müqəddəs peşələrinə sadiq olmağa, bu peşənin ucalığını qorumağa səsləyirdi. Ümummilli liderimizin təhsilə böyük diqqət və qayğısının nəticəsidir ki, bu gün ölkəmizdə vətənpərvər, müasir dünyagörüşlü və yüksək təhsilli gənclərimizin sayı xeyli artmışdır. Şübhəsiz, həmin gənclər Heydər Əliyevin şah əsəri olan stabil, qüdrətli Azərbaycanın gələcəyidir. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin gələcəyi baxımından gəncliyimizə olan yüksək inamını belə ifadə etmişdir: **«...Mən əminəm ki, Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir. Ona görə də biz – yaşlı nəslin nümayəndələri arxayınıq ki, siz, əziz gənclər, müstəqil Azərbaycan Respublikasının nə qədər çətinliklə başa gəldiyini dərk edərək müstəqil Azərbaycan Respublikasının gələcəyini qoruyub saxlayacaqsınız. Mən buna əminəm».**

Azərbaycan gənclərinin forumlarında xalqımızın ümummilli lideri, gəncləri ölkəmizin uğur və problemlərini dərindən öyrənməyə çağırmışdır: **«Biz əldə etdiyimiz nailiyyətləri qiymətləndirərək, eyni zamanda hələ həll olunmamış problemləri də yaxşı bilirik. Gənclər bunları-həm nailiyyətləri, həm də həll olunmamış problemləri bilməlidirlər. Gənclər hər şeyi bilməlidirlər. İndi biz müstəqil dövlətdə plüralizm, demokratiyanın inkişafı şəraitində yaşayırıq, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesini həyata keçiririk. Ona görə də Azərbaycanın hər bir vətəndaşı ölkəmizin həyatında gedən prosesləri bilməlidir və onlar bu proseslərdə fəal iştirak etməlidirlər. Gənclərin qarşısında dayanan vəzifələr birinci növbədə cəmiyyətdə öz yerini tutmaqdan, maariflənməkdən, təhsilini artırmaqdan, cəmiyyət üçün faydalı olmaqdan ibarətdir».**

Bu gün ölkəmizdə gənclər siyasəti gənclərin hərtərəfli inkişafını, onların cəmiyyət həyatında fəal iştirakını təmin etmək məqsədilə dövlət tərəfindən həyata keçirilən tədbirlər sistemidir. Bu siyasət çox geniş bir spektri – gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının təşkili, həyatın bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir.

III FƏSİL

İQTİSADİ POTENSİALDAN İNSAN KAPİTALINA

Mən tam əminəm ki, yüksək təhsil səviyyəsi olmasa, peşəkarlıq olmasa, gənclər ən mütərəqqi texnologiyalara yiyələnməsə, həqiqətən inkişaf etmiş dövlət qurmaq mümkün deyil. Buna görə də təhsil bizim üçün prioritet sahədir.

İlham ƏLİYEV

AZƏRBAYCAN TƏHSİLİ YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

XX əsrin ilk onilliyi alimlərin, analitiklərin və politoloqların verdikləri proqnozlara, qloballaşmaqda olan dünyanın yeni meyil və tələblərinin müəyyən edilməsinə, yaxın və perspektivli inkişaf proqramlarına düzəlişlər edilməsinə yekun vurmaq üçün, bir növ, çıxış nöqtəsi kimi böyük maraq predmetidir.

Bu mənada üçüncü minilliyin arxada qalan illəri Azərbaycanda həyatın bütün sahələrində möhtəşəm dəyişikliklərin geniş miqyas alması ilə əlamətdar olmuşdur. Ümummilli lider Heydər Əliyevin işləyib hazırladığı Azərbaycanın inkişaf strategiyasının nə qədər perspektivli və düzgün olmasını həyat özü inandırıcı şəkildə təsdiq etmişdir.

Ulu öndərimizin mənəvi-siyasi irsinin ən layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqın mütləq etimadı ilə müstəqil dövlətimizə rəhbərlik fəaliyyətinə başladığı 2003-cü ilin 15 oktyabrından etibarən respublikanın sosial-iqtisadi, siyasi, mədəni və humanitar sahələrdə inkişafı üçün fəaliyyət istiqamətlərini müəyyənləşdirmiş, bu istiqamətlər üzrə qarşıda dayanan vəzifələrin vaxtında icrası məqsədilə bir sıra addımlar həyata keçirmişdir.

XXI əsrə dinamik inkişaf edən dövlət kimi qədəm qoymuş respublikamız üçün bu illər həqiqətən tərəqqi və yüksəliş dövrü olmuşdur.

Dövlət quruculuğunun möhkəmləndirilməsi, ölkə iqtisadiyyatının keyfiyyətcə yeni mərhələyə keçməsi, Xəzərin karbohidrogen sərvətlərindən səmərəli istifadə edilməsi, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin istismara verilməsi digər qlobal və regional layihələrdə iştirak, Qərb və Şərq ilə tarazlaşdırılmış əməkdaşlıq siyasətinin həyata keçirilməsi istiqamətində Prezident İlham Əliyevin atdığı uğurlu addımlar Azərbaycan dövlətini ildən-ilə inkişaf etdirir, ölkəmizin taleyüklü problemlərinin həlli üçün imkanları daha da genişləndirir.

Dövlətimizin başçısının həm yaxın dövr, həm də uzunmüddətli perspektiv üçün siyasi istiqamətlər barədə dərindən əsaslandırılmış mövqeyi vardır ki, bu da dünyanın ən nüfuzlu siyasi liderləri tərəfindən yüksək dəyərləndirilir. Onlar Azərbaycan Prezidentini özlərinin bərabərhüquqlu tərəfdaşı, yeni dövrə mənsub olan islahatçı, beynəlxalq birliyə uğurla inteqrasiya edən lider kimi görür, onunla əməkdaşlığın daha da inkişafını ölkələrinin siyasətində prioritet istiqamətlərdən biri kimi qiymətləndirirlər.

Azərbaycan Prezidenti dövlətə rəhbərliyinin ilk günlərindən milli mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin də ən böyük hamisinə çevrilmişdir.

Onun dünya klassiklərinin əsərlərinin latın qrafikalı Azərbaycan əlifbası ilə nəşrini, habelə (artıq iki cildi çap olunmuşdur) Milli Ensiklopediyanın hazırlanmasını nəzərdə tutan sərəncamları, mədəniyyət, incəsənət xadimlərinə diqqət və qayğısı bunu bir daha təsdiqləyir. Bu addımlar, Azərbaycan elminin, mədəniyyətinin inkişafına, bu sahələrə marağın gücləndirilməsinə xidmət etmiş, cəmiyyətin bu kimi əhəmiyyətli sahələrə marağını stimullaşdırmışdır.

3.1. Müasir təhsil strategiyası

Prezident İlham Əliyevin rəhbərliyi altında əldə etdiyimiz nailiyyətlərin mühüm bir qismi də məhz Azərbaycan təhsilinin payına düşür. Azərbaycan Prezidenti ilk addımları ilə sübuta yetirmişdir ki, o təhsil sisteminin mövcud problemlərini, incəliklərini dərindən bilir və onların tez bir zamanda aradan qaldırılmasına çalışır. Ölkəmizdə «Bilik günü»nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında Prezident İlham Əliyevin imzaladığı fərman bu cəhətdən son dərəcə təqdirəlayiq faktdır. Bu fərman Azərbaycan təhsil sisteminin Avropa standandartlarına uyğunlaşdırılması baxımından müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda fərmanda ölkəmizin təhsil müəssisələrində təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edən səmərəli fəaliyyət sisteminin qurulması ilə əlaqədar bir sıra tədbirlərin görülməsi də nəzərdə tutulmuşdur.

Cənab İlham Əliyevin 11 fevral 2004-cü il tarixində imzaladığı «Azərbaycan respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı» (2004–2008) isə qarşıya qoyulmuş planların reallaşdırılması baxımından

müstəsna əhəmiyyət daşımaqla yanaşı, milli təhsilimizin inkişafı istiqamətində də çoxşaxəli tədbirlərin nəzərdə tutulduğu tarixi bir sənəddir.

Regionlarda təhsilin, səhiyyənin, mədəniyyətin, bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi, ümumtəhsil məktəblərinin 10 illik kompyuter texnologiyası ilə təchizi proqramının hazırlanıb həyata keçirilməsi, orta məktəb şagirdlərinə dərsliklərin pulsuz verilməsi, sağlamlıq imkanları məhdud uşaqlar üçün bölgələr üzrə məktəb, internat – məktəb, texniki peşə məktəblərinin yaradılması, bu müəssisələrin ixtisaslı pedaqoji kadrlarla təminatı üçün məqsədli yenidən hazırlanma kurslarının təşkili, orta ümumtəhsil məktəbləri şagirdləri arasında sahibkarlıq fəaliyyəti ilə bağlı olimpiadaların, viktorinaların, məşğulluq problemləri ilə bağlı dəyirmi masaların və konfransların keçirilməsi, gənclərin işsizlik problemləri ilə bağlı sosioloji tədqiqat işlərinin aparılması bu proqramın tərkib hissəsi kimi nəzərdə tutulmuşdur.

İstedadlı gənclərin müasir peşə və ixtisaslar üzrə inkişaf etmiş ölkələrdə təhsil almalarına və istehsalat təcrübəsi keçmələrinə kömək, sərhədyanı və dağlıq rayonlarda gənclər üçün yeni iş yerlərinin yaradılması, onların sahibkarlıq fəaliyyəti ilə məşğul olmasının təşviqi, ölkənin bütün regionları üzrə ali və orta ixtisas, texniki peşə, həmçinin şəhər və kənd ümumtəhsil məktəbləri üçün yeni binaların tikintisi, mövcud binaların təmiri, təhsil müəssisələrinin texniki təchizatının yaxşılaşdırılması da bu proqramda irəli sürülən müddəalar sırasındadır.

Bu gün müstəqil Azərbaycanda təhsil sistemində irimiqyaslı islahatlar prosesi artıq dönməz xarakter almışdır. Prezident İlham Əliyevin təhsil sisteminə diqqət və qayğısı sayəsində milli təhsil sisteminin aydın sabahını təmin edəcək inkişaf proqramları təsdiq olunaraq reallaşdırılmağa başlamış, Azərbaycan təhsilinin davamlı inkişafına yönəlmiş əsaslı addımlar atılmışdır.

Bu tədbirlər içərisində təhsilin məzmununun yeniləşdirilməsi, yeni proqram, dərslik və dərs vəsaitlərinin hazırlanması, təhsilin idarə olunmasının təkmilləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, tədrisdə müasir informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə olunması, beynəlxalq əlaqələrin genişləndirilməsi yolu ilə təhsilin keyfiyyətinin yüksəldilməsi və bu kimi prioritet sahələr üstünlük təşkil edir.

Cənab İlham Əliyev çıxışlarında daim vurğulayır ki, ölkədə həyata keçirilən yeni neft strategiyasının, sosial-iqtisadi islahatların uğurları davamlı və tarazlı inkişaf baxımından zəruri olan zəngin intellektual resurslarla bərabər insan kapitalının formalaşmasına da xidmət etməlidir. **«İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onlarda uğurun əsas səbəbi neft-qaz deyil, bilikdir, savaddır, müasirlikdir. Bizdə isə həm bu olmalıdır, həm də əlbəttə ki, təbii ehtiyatlar da var. Bu amillərin sintezi Azərbaycanı çox qabaqcıl, müasir ölkəyə çevirəcəkdir»** – deyən dövlət başçısının müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının mahiyyətində dayanıqlı və sabit inkişaf edən iqtisadi sistemin formalaşdırılması məqsədi dayanır. Bu siyasət neftdən asılılığı azaltmaqla ölkədəki dinamik iqtisadi inkişaf tempini sabit saxlamağa imkan verən fundamental əsasların yaradılmasını nəzərdə tutur. Neft tükənən, bərpa olunmayan təbii sərvətdir – Prezident İlham Əliyev bu əvəzsiz təbii sərvətin ixracından qazanılan böyük vəsaitlərin, ilk növbədə, insan faktorunun inkişafına yönəldilməsini, elmi-texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi yolu ilə dayanıqlı milli inkişafın təmin edilməsini zəruri sayır. Dövlət başçısı haqlı olaraq bildirir ki, neft Azərbaycan üçün məqsəd deyil, davamlı iqtisadi tərəqqini təmin etmək üçün vasitədir. Dünya təcrübəsində iqtisadiyyatın yalnız neft üzərində qurulması, habelə neft gəlirlərinə güvənlik nəticəsində iqtisadi sistemi iflic edən «Holland sindromu» kimi mənfi presedent də var. Məhz buna görə də dövlət başçısı iqtisadi inkişafa yalnız neft amili hesabına nail olmağı məqbul saymır, tarazlı və davamlı tərəqqi naminə qeyri-neft sektoruna xüsusi diqqət yetirilməsini önə çəkir: ***«Biz öz siyasətimizi elə aparmalıyıq ki, guya Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələrində və ilk növbədə, qeyri-neft sektorunda mövcud strukturlar inkişaf etdirilməlidir. Biz yalnız bu yolla Azərbaycanı hərtərəfli inkişaf etmiş dövlətə çevirə bilərik».***

Azərbaycan Prezidenti İlham Əliyevin neftdən əldə olunan vəsaitlərin böyük qisminin insan kapitalına yönəldilməsini təmin etmək istiqamətində yeritdiyi məqsədyönlü strategiya inkişaf etmiş bir sıra dövlətlərin təcrübəsində özünü tam doğrultmuşdur. Bu gün Uzaq Şərqin zəngin təbii sərvətləri olmayan bir sıra dövlətlərinin, konkret desək, Yaponiyanın timsalında tam əminliklə demək olar ki, elm və təhsil, yüksək ixtisaslı kadr potensialı hər bir dövlətin davamlı sosial-iqtisadi, mədəni-intellektual yüksəlişinin əsas təminatı qismində çıxış edir. İntellektual potensial əhəmiyyətinə və gətirdiyi

dividendlərə görə bu gün hətta zəngin təbii sərvətləri belə üstələyir. Müasir dünyada rəqabətə tab gətirmək üçün, ilk növbədə, təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına arxalanmaq lazımdır.

Doğrudan da, tarixi təcrübə göstərir ki, təbii sərvətlərin zənginliyi bəzi hallarda xalqlara və dövlətlərə davamlı inkişaf deyil, çoxsaylı arzuolunmaz problemlər gətirir. İndinin özündə də neftlə zəngin bəzi ölkələrin gərginlik və qeyri-stabillik mühitində yaşaması, təbii sərvətləri üzərində sahiblik hüququnu itirməsi ilə bağlı çoxsaylı misallar gətirmək mümkündür. Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində neft diplomatiyası sahəsində yeridilən naşı və yarıtmaz siyasətin fəsadlı nəticələri bu qənaətin həqiqiliyini bir daha təsdiqləyir.

Yalnız 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtmış ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın milli maraqlara əsaslanan yeni neft strategiyasını irəli sürmüş və onun uğurla gerçəkləşməsini təmin etmişdir. Böyük strateq ilk gündən dayanıqlı iqtisadi inkişafa nail olmağın ilkin şərti kimi ölkənin zəngin karbohidrogen ehtiyatlarının Qərb şirkətləri ilə birgə milli maraqlara uyğun mənimsənilməsi vacibliyini irəli sürərək bu istiqamətdə fəal diplomatiya yeritmişdir.

Ulu öndərimiz Heydər Əliyev neftdən əldə olunan gəlirlərin iqtisadiyyatın digər vacib sahələrinə yönəldilməsini, qeyri-neft sektorunda yeni istehsal müəssisələrinin yaradılması yolu ilə yeni iş yerlərinin açılmasını, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsini özünün iqtisadi siyasətində daim prioritet vəzifə kimi nəzərdən keçirmişdir. Ölkənin əvəzsiz milli sərvəti olan neftdən qazanılan gəlirlərin düzgün və səmərəli idarə edilməsi, hasilatda şəffaflıq prinsipinin qorunması ümummilli liderimiz Heydər Əliyevin hər zaman xüsusi diqqət yetirdiyi məsələlərdən olmuşdur. Ulu öndərimiz çıxışlarında həmişə bəyan etmişdir ki, neft təkcə indiki deyil, həm də gələcək nəsillərə məxsusdur. Bu zəngin təbii sərvətdən son dərəcə səmərəli şəkildə, qənaətlə, hər bir ölkə vətəndaşının mənafeyi naminə istifadə olunmalı, iqtisadiyyatın yalnız neft amilindən asılılığının qarşısını almalı, əldə olunan vəsaitlər elmi-intellektual resursların gücləndirilməsinə, insan kapitalının formalaşmasına xidmət etməlidir.

Ümummilli liderimiz Heydər Əliyevin «Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında» 29 dekabr 1999-cu il tarixli fərmanı da məhz bu ali məqsədlərin həyata keçirilməsinə xidmət etmişdir. Fond neft

sazişlərinin həyata keçirilməsi ilə bağlı əldə edilən gəlirlərin toplanması və səmərəli idarə edilməsi mexanizmidir. Belə bir qurumun yaradılması dövlətin neft-qaz ehtiyatlarının işlənməsindən əldə edilən gəlirlərin istifadəsində israfçılığa, əyintilərə səbəb ola biləcək halların qarşısının alınması, eləcə də şəffaflığın tam təmin edilməsi istəyi ilə əlaqədardır. Fondun fəaliyyətinin başlıca məramını neft və qaz hasilatından əldə olunan maliyyə vəsaitlərindən indiki və gələcək nəsillərin mənafeyi naminə məqsədyönlü istifadə təşkil edir. Hazırda Dövlət Neft Fondunda 16 milyard ABŞ dollarından çox vəsait toplanmışdır və bundan ölkə üçün müstəsna əhəmiyyət kəsb edən sosial-iqtisadi layihələrin gerçəkləşdirilməsində istifadə olunur. Fond müntəzəm olaraq ictimaiyyət qarşısında hesabatla çıxış edir, onun fəaliyyəti yerli və xarici auditorlar tərəfindən yoxlanılır.

Neft-qaz sənayesində gəlirlərin idarə olunması üzrə uzunmüddətli strategiyanın işlənib hazırlanması, Dövlət Neft Fondundan ayrılan vəsaitin şəffaflığını qorumaq məqsədilə onun büdcə xərcləri çərçivəsində ünvanlı istifadəsini təmin edən tədbirlərin görülməsi kimi mühüm məsələlər də fərmanda öz əksini dolğun şəkildə tapmışdır. Neft Fondunda toplanmış gəlirlərdən səmərəli istifadə olunmasına dövlət tərəfindən göstərilən həssas münasibətin təzahürü kimi, Azərbaycan Prezidenti İlham Əliyevin 27 sentyabr 2004-cü il tarixli fərmanı ilə təsdiq edilmiş **«Neft və qaz gəlirlərinin istifadə olunması üzrə uzunmüddətli strategiya»nın** əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Bu strategiyada vəsaitlərin qeyri-neft sektorunda, regionların, kiçik və orta sahibkarlığın inkişafında, infrastruktur sahələrin genişmiqyaslı inkişafında, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsində, «insan kapitalı»nın formalaşmasında, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində və digər bu kimi istiqamətlərdə istifadə olunması nəzərdə tutulmuşdur. Bu strategiyanın imzalanması bir daha təsdiqləmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyev neft sahəsində gəlirlərin idarə olunması, onlardan səmərəli istifadə, habelə şəffaflığın gözlənilməsi məsələlərinə kifayət qədər ciddiliklə yanaşır. Respublikamızın Böyük Britaniyanın sabiq Baş naziri Toni Bleyerin hasilat sənayelərində şəffaflıq təşəbbüsünə qoşulması bunu bir daha təsdiqləyirdi. **«Dövlət Neft Fondu çox şəffaf bir qurumdur, onun fəaliyyəti beynəlxalq maliyyə təsisatları tərəfindən dəstəklənir. Mütəmadi qaydada beynəlxalq audit keçirilir, Neft Fondunun gəlirləri və xərcləri haqqında mətbuatda vaxtaşırı məlumat dərc edilir. Şəffaf-**

lıq bizim uğurumuzun əsas səbəblərindən biri olacaqdır. Bilirsiniz ki, Azərbaycan Beynəlxalq Şəffaflıq Təşəbbüsünə qoşulmuşdur. Artıq bir ildən çoxdur ki, bu məsələ ilə ciddi məşğuluq və Böyük Britaniya Baş nazirinin təşəbbüsünü dəstəkləyirik. Deyə bilərəm ki, bölgədə Azərbaycan, bəlkə də, yeganə ölkədir ki, bu təşəbbüsdə çox fəal iştirak edir. Bu, bizə imkan verəcək ki, gələcəkdə neftdən əldə olunan gəlirlər səmərəli işləsin və hər bir Azərbaycan vətəndaşı bunu öz gündəlik həyatında hiss etsin... Neftdən əldə olunan gəlirlər artıq insanlarımızın gündəlik həyatında öz əksini tapır. Gələcəkdə, əlbəttə, gəlirlərimiz artdıqca, insanlarımız daha yaxşı yaşayacaqdır» – deyən Prezident İlham Əliyev neftdən əldə olunan vəsaitlərin iqtisadiyyatın digər sahələrinə, ilk növbədə, qeyri-neft sektorunun inkişafına və insan kapitalının formalaşdırılması məqsədinə yönəldilməsini hökumət qarşısında prioritet vəzifələr kimi müəyyənləşdirmişdir.

Texnogen proseslərin geniş vüsət aldığı müasir qloballaşma əsrində elm və təhsil sahəsində qazanılan nailiyyətlər dövlətlərin ümumi inkişaf səviyyəsindən və potensialından xəbər verən, sosial-iqtisadi, mədəni-intellektual yüksəlişi təmin edən vacib meyarlardan biri kimi çıxış edir.

İqtisadi tərəqqi, demokratikləşmə və insan hüquqlarının etibarlı təminatı baxımından özünün yüksək inkişaf mərhələsinə çatmış dövlətlərin bu nailiyyətləri məhz elmə, təhsilə böyük diqqət və qayğı nəticəsində əldə etdiyi danılmaz həqiqətdir. Təcrübə göstərir ki, iqtisadi inkişaf strategiyasını elmi əsaslar üzərində qurmaqla elmi inkişafı dövlət quruculuğu prosesinin mühüm təminatı sayan, hər zaman proqressiv ənənələrə istinad edən dövlətlər milli tərəqqiyə nail olur, dünya arenasında özünəlayiq yer tuturlar.

Bu gün sosial amil göstəriciləri – insan kapitalı, əmək haqqı, sosial bərabərsizlik və insan inkişafı indeksini özündə birləşdirir. Cəmiyyətin inkişafı bilavasitə insanın fəaliyyəti, onun əməyinin məhsuldarlıgı ilə əlaqəli olduğundan insana qoyulan investisiya – insan kapitalı xüsusi əhəmiyyət kəsb edir. İnsan kapitalı təhsil, elm, səhiyyə, mədəniyyət, incəsənət, informasiya xidmətinə əsaslanmaqla formalaşır. İnsan kapitalı kompleks sahələri əhatə etməklə istər iqtisadi, istər sosial, istərsə də siyasi-hüquqi sahəyə geniş təsir imkanlarına malikdir.

Sadalanan amillər insanın cəmiyyətdəki mövqeyini müəyyənləşdirməklə, onun həyat səviyyəsini xarakterizə edir. Bu baxımdan son zamanlar beynəlxalq qurumlar bir çox ölkələrdə insan kapitalını həmin parametrlərə görə

ölçərək, milli sərvətin tərkibində istehsal və təbii resurslarla yanaşı, insan kapitalını da hesablayırlar.

Təcrübə göstərir ki, insan potensialının formalaşdırılması sahəsində əsas ağırlıq məhz təhsil sisteminin üzərinə düşür. Burada söhbət təkcə ali təhsil sistemindən deyil, təhsilin bütün pillələrindən – məktəbəqədər, ümumtəhsil, məktəbdənkənar, ilk peşə-ixtisas, orta ixtisas, ali və əlavə təhsil müəssisələri – gedir.

Təhsil əhalinin həyat səviyyəsinin yüksəldilməsinin, insan inkişafı indeksinin mühüm amillərindən biri olmaqla, ölkənin sosial-iqtisadi inkişafının sürətlənməsinə hərtərəfli təsir göstərir. Bu amil indiki bazar iqtisadiyyatı şəraitində təhsilin səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilməsi zəruriliyini qarşıya qoyur. İnkişaf etmiş ölkələrin təcrübəsindən məlumdur ki, təhsil insanın istedadının, intellektinin üzə çıxmasına kömək edən mühüm vasitədir və cəmiyyətin inkişafının özülünü təşkil edir. Bu baxımdan indiki bazar iqtisadiyyatı şəraitində Azərbaycanda təhsil sisteminin dünya standartları səviyyəsinə çatdırılması vacibdir. Dünya təcrübəsinə diqqət yetirdikdə, təhsilin ölkədə nəinki sosial-iqtisadi, sosial-mədəni inkişafa nail olunmasında, həmçinin onun təhlükəsizliyinin, dayanıqlığının təmin edilməsində, cəmiyyətin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi və proqnozlaşdırılmasında mühüm yer tutan yaradıcı fəaliy-yət sahəsi olduğunu görmək olar.

Son illər sosial-iqtisadi inkişaf prosesinin sürətlənməsi ilə əlaqədar respublikamızın beynəlxalq aləmə çıxışına geniş imkanlar yaranmışdır. Lakin bu imkanların gerçəkləşdirilməsi hər şeydən əvvəl ölkədə elmin və təhsilin inkişaf səviyyəsindən, yeni texnika və texnologiyaların tətbiqindən, yeni elmi biliklərin, ixtisasların mənimsənilməsindən asılıdır. Yalnız bu halda Azərbaycanın sivil dünyaya inteqrasiyasına və dünya miqyasında nüfuzunun artmasına nail olmaq mümkündür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsil sistemi qarşısında qoyduğu vəzifələrə uyğun olaraq, Təhsil Nazirliyi təhsilin ən ciddi problemləri ilə bağlı strateji təhlillərə əsaslanmış inkişaf proqramlarının həyata keçirilməsini davam etdirmiş, təhsil sferasının müxtəlif sahələri üzrə mövcud olan proqramların ümumi sayı 16-ya çatmışdır. Həyata keçirilən inkişaf proqramları və digər məqsədyönlü tədbirlər nəticəsində ayrı-ayrı təhsil pillələri üzrə bir sıra ciddi nailiyyətlər əldə edilmiş, perspektiv inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

Azərbaycan təhsilinin inkişaf strategiyası gələcək təhsil mərhələləri üçün bir növ təməl rolunu oynayan məktəbəqədər təhsilin düzgün qurulmasına yönəlmiş fəaliyyətdən başlanır. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin təkmilləşdirilməsi üzrə İnkişaf Proqramı qəbul edilmiş, bu proqramın 2006–2010-cu illəri əhatə etməsi nəzərdə tutulmuşdur.

Həmin proqramın tam icrasına qədər də məktəbəqədər təhsil sahəsində bir sıra ciddi uğurlar qazanılmışdı. Sahə üzrə müasir təlim texnologiyalarının tətbiqi praktikası genişlənmiş, bölgələrdə, ayrı-ayrı müəssisələrdə «Addım-addım» texnologiyası tətbiq edilmiş, tərbiyəçilər üçün treninq mərkəzləri yaradılmışdır. Məcburi köçkün uşaqlar üçün 33 Uşaq İnkişaf Mərkəzinin fəaliyyəti təşkil edilmiş, UNİCEF, UNESCO, Ümumdünya Ərzaq Təşkilatı, ACİ və s. bu kimi beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq əlaqələri qurulmuş, əlaqələr daha da inkişaf etdirilmişdir. Məktəbəqədər təhsil sahəsində özəl sektorun fəaliyyətə başlaması və qısa müddət ərzində özünü doğrultması da mütərəqqi yeniliklərdən biridir.

Azərbaycan hökuməti və Asiya İnkişaf Bankı arasında imzalanmış sazişə əsasən «Erkən yaş dövründə uşaqların inkişafı» üzrə kredit layihəsi hazırlanmışdır.

2006-cı il martın 1-də Azərbaycan hökuməti və Asiya İnkişaf Bankı arasında «Erkən yaş dövründə uşaqların inkişafı» layihəsi üzrə memorandum imzalanmışdır.

Həyata keçirilmiş tədbirlərin nəticəsi kimi məktəbəqədər təhsil sahəsində böyük perspektivlər gözlənilir. Beynəlxalq və yerli mütəxəssislərin apardıqları təhlillərin yekunu olaraq müasir tələblərə cavab verən yeni kurikulumun hazırlanması; kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi; məktəbəqədər təhsillə əhatə səviyyəsinin yüksəldilməsi; müəssisələrin maddi-texniki və tədris bazasının genişləndirilməsi, müasir avadanlıq və təlim materialları ilə təchiz olunması; təhsil müəssisələrində şəxsiyyətyönümlü təlim mühitinin yaradılması, maliyyələşmə mexanizminin təkmilləşdirilməsi, icma əsaslı (alternativ) məktəbəqədər təhsil müəssisələrinin yaradılması bu perspektivlər daxilindədir.

Məlumdur ki, hər bir təhsil müəssisəsində, ümumilikdə isə respublikanın təhsil sistemində prosesin səmərəliliyi və effektivliyinin obyektiv meyarı kimi məhz təhsilin keyfiyyət göstəricisi qəbul edilir. Ümumi təh-

sildə keyfiyyət parametrlərinə bilavasitə təsir göstərən əsas faktorlardan biri isə məktəblərin kadr təminatı və müəllim korpusunun peşəkarlıq səviyyəsidir. Məhz elə bunun nəticəsidir ki, təhsil sistemində aparılan islahatların əsas istiqamətləndirici sənədləri kimi qəbul edilən «Təhsil sahəsində İslahat Proqramı»nda və II Kredit Sazişi çərçivəsində nəzərdə tutulmuş fəaliyyət strategiyasında ümumi təhsilin keyfiyyəti və onun real tələbatlara uyğunluğu ilə əlaqədar olan tədbirlər ön plana çəkilmiş, bunlar perspektiv inkişafın əsasını təşkil etmişdir.

Respublikanın ümumtəhsil məktəbləri şəbəkəsində mövcud olan ən ciddi problem təlim-tərbiyə müəssisələrinin pedaqoji kadrlarla təminatı ilə əlaqədardır.

«Kənd yerlərindəki ümumtəhsil məktəblərinə pedaqoji kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 22 iyun tarixli 85 nömrəli qərarına əsasən respublikanın ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr çatışmazlığı probleminin həlli məqsədi ilə «2005–2009-cu illər üçün Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı» təsdiq edilmişdir.

Kadr çatışmazlığı səbəbindən son illərə qədər respublikanın 400-dən yuxarı məktəbində xarici dil tədris edilmir və şagirdlər faktiki olaraq həmin fəndən biliklərə yiyələnmək imkanından tamamilə məhrum olurdular.

Problem başqa bir məqamla da aktual idi. Respublikada həyata keçirilən ən önəmli inkişaf strategiyası ölkədə yoxsulluq səviyyəsinin azaldılmasını, əhalinin maddi rifahının yaxşılaşdırılmasını, işsizliyin aradan qaldırılmasını, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasını, rayon və kənd yerlərində sosial-məişət şəraitinin yaxşılaşdırılmasını, sosial xidməti, o cümlədən də təhsil sahəsində aktual problemlərin həlli kimi strateji əhəmiyyətli istiqamətləri özündə əks etdirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu istiqamətdə imzaladığı fərman və sərəncamların hər birində faktiki olaraq, pedaqoji kadrların işlə təmin edilməsi, kadr tələbatının ödənilməsi, ən nəhayət isə pedaqoji profilli gənc mütəxəssislərin konkret iş yerlərinə göndərilməsi probleminin həlli kimi aktual məsələlər nəzərdə tutulmuşdur. Təsadüfi deyil ki, qarşıya qoyulan əsas vəzifələr sırasında kənd yerlərindəki ümumtəhsil məktəblərinə pedaqoji kadrların cəlbini həvəsləndirmək

məqsədilə konkret tədbirlərin görülməsi, gənc mütəxəssislərin iş yerləri-lə təminatı, nəticə etibarilə növbəti beş il ərzində 15 minə yaxın pedaqoji profilli mütəxəssisin əmək fəaliyyətinə başlaması kimi istiqamətlərdə real nəticələrin əldə edilməsi nəzərdə tutulmuşdur. Təbii ki, bütün bunların reallaşdırılması üçün əsaslandırılmış dəqiq proqnoz modullarına uyğun perspektiv illəri əhatə edən xüsusi inkişaf proqramına zəruri ehtiyac vardır.

Ümumiyyətlə, təhsil sektorunun ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr çatışmazlığı, pedaqoji profilli gənc mütəxəssislərin konkret iş yerlərilə təminatı problemlərinin həlli son nəticədə Azərbaycan təhsilinin keyfiyyət parametrlərinə öz müsbət təsirini göstərməklə gələcək inkişafa təkan verəcək mühüm fəaliyyət istiqaməti kimi qiymətləndirilir. Bu mənada, 2005–2009-cu illər üçün Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatının inkişaf proqramı xüsusi əhəmiyyət kəsb edir və problemlərin həllində, eləcə də qarşıya qoyulmuş məqsədlərə nail olmaqda tam istiqamətləndirici və tənzimləyici xarakter daşıyır.

Proqramın əsas məqsədi Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində mövcud olan pedaqoji kadr çatışmazlığı probleminin növbəti 5 il ərzində müvəffəqiyyətli həllindən ibarətdir. Bununla yanaşı perspektiv fəaliyyət özündə digər bir neçə problemin də həllini əks etdirir. Faktiki olaraq bir çox ümumtəhsil məktəbləri şəbəkəsində fəaliyyət göstərən qeyri-ixtisaslı kadr korpusunun staj səviyyəsi nəzərə alınmaqla xüsusi təlimə-yenidənhazırlanma və ixtisasartırma təhsilinə cəlb edilməsi, eləcə də onların kənd yerlərindəki məktəblərdə işləmələrinin maddi stimullaşdırılması həm kadr təminatı işinə, həm də keyfiyyət göstəricilərinin yüksəldilməsi istiqamətində fəaliyyət perspektivlərinə yönəldilir. Eyni zamanda kiçik mütəxəssis hazırlığının gələcəkdə çoxsaylı vətəndaşların konkret iş yerləri ilə təmin olunmasına yönəldilməsi də əsas məqsəd kimi qarşıya qoyulur.

Vətəndaşların konkret iş yerləri ilə təminatı, ümumtəhsil məktəbləri şəbəkəsində kadrlarla bağlı dövlət sifarişinin təmin olunması, tədris keyfiyyətinin yüksəldilməsi, kadr hazırlığı üçün qəbulun planlaşdırılmasında əsaslandırılmış proqnoz mexanizmlərinin tətbiqi, ucqar zonalarda yerləşən ümumtəhsil məktəblərində konkret iş yerlərinə göndəriş almış gənc mütəxəssislər üçün müvafiq həvəsləndirmə sisteminin yaradılması,

kənd yerlərinə əhali axınının çoxaldılması, müəllim korpusunun maddi və sosial təminatının yaxşılaşdırılması, yoxsulluğun və işsizliyin azaldılması bu proqramda qarşıya qoyulmuş vəzifələr sırasındadır.

Ümumtəhsil məktəblərində kadr çatışmazlığı və işlə təmin olunma probleminin həlli üçün həyata keçiriləcək siyasətin əsas strateji istiqamətləri respublikanın ümumtəhsil məktəbləri şəbəkəsində kadr təminatı problemlərinin həllini, pedaqoji profilli ali və orta ixtisas təhsili almış gənc mütəxəssislərin konkret iş yerləri ilə təminatını, qeyri-ixtisaslı kadr korpusunun xüsusi təlimə cəlbini, kiçik mütəxəssislərin kadrlara olan real tələbatın ödənilməsi prosesində iştirakını, eləcə də kənd yerlərinə işəgöndərmənin həvəsləndirilməsini təmin etmək məqsədi ilə 5 illik müddət üzrə bir sıra strateji fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.

Mütəxəssis hazırlığının yekununda dövlət sifarişinə uyğun olaraq kadr tələbatı olan tədris müəssisələrinə göndəriş almış və dərhal əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər, eləcə də ciddi kadr tələbatı olan zonalarda işləmək istəyən pedaqoji kadrlar üçün «Kənd yerlərindəki ümumtəhsil məktəblərinə pedaqoji kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 22 iyun tarixli 85 nömrəli qərarında nəzərdə tutulmuş xüsusi həvəsləndirmə tədbirlərinin həyata keçirilməsi; ciddi kadr tələbatı olan zonalarda (rayon mərkəzlərindən 20 km-dən artıq məsafədə yerləşən tədris müəssisələrində) işləmək üçün pedaqoji kadrların göndərilmə prosesinin tənzimlənməsi; 5 ilə qədər pedaqoji fəaliyyətlə məşğul olan qeyri-ixtisaslı kadr korpusunun yenidənhazırlanma təhsilinə cəlb edilməsi, xarici dil fənni üzrə hazırlığı həyata keçirilən kiçik mütəxəssis statuslu kontingentin ilkin təhsili başa çatdıqdan sonra xüsusi təlimə cəlb edilməsi; pedaqoji iş stajı 5 ildən artıq olan, hazırda qeyri-ixtisas fənlərini tədris edən pedaqoji kadr korpusunun xüsusi proqramlar çərçivəsində ixtisasartırma təhsilinə cəlbi proqramın strateji fəaliyyət istiqamətlərini təşkil edir.

Hər 5 istiqamət üzrə növbəti illərdə fəaliyyətin həyata keçirilməsi üçün xüsusi tədbirlər müəyyənləşdirilərək buna sərf olunacaq maliyyə vəsaiti hesablanmış, kontingent bölgüsü aparılmış, bütün yanaşmalarda dəqiq proqnozlara istinad edilmişdir.

Müasir mərhələdə Azərbaycan Respublikasında perspektiv inkişaf üçün ayrı-ayrı sahələr üzrə xüsusi inkişaf proqramlarının işlənib hazır-

lanması cənab İlham Əliyevin dövlətə rəhbərlik fəaliyyətini səciyyə-ləndirən ən əsas əlamətlərdən biridir. Bu strateji əhəmiyyətli sənədlər xüsusi proqnozlaşdırma metodlarının tətbiqi ilə sosial infrastrukturun real tələbatının perspektiv illərdə təminatı məqsədini daşıyaraq qarşıya çıxan problemlərin operativ həlli yollarının, əsasən də tələb olunan maliyyə vəsaitinin həcmi və dəqiq mənbəyinin müəyyənləşdirilməsi ilə həyata keçirilir. Həqiqətən də bu və ya digər qlobal xarakter daşıyan problemin perspektiv illərdə müvəffəqiyyətli həlli əvvəlcədən düzgün planlaşdırılmış fəaliyyətin nəticəsində mümkündür. Odur ki, respublikanın ümumtəhsil məktəbləri şəbəkəsində mövcud olan ciddi kadr çatışmazlığı probleminin kompleks şəkildə həllini özündə əks etdirən bu inkişaf proqramının qəbul edilərək perspektiv illərdə onun real prosesə tətbiqi və pozitiv nəticələrin əldə edilməsinə zəruri ehtiyac vardır.

Faktiki olaraq ölkə üzrə mütəxəssislərin işlə təmin edilməsi, yoxsulluq səviyyəsinin azaldılması, vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, işsizlik problemlərinin həlli kimi istiqamətlərdə intensiv fəaliyyət Azərbaycan dövlətinin perspektiv fəaliyyət üçün müəyyənləşdirdiyi əsas strateji istiqamətlərdən biri hesab edilir. Məhz elə bu mənada inkişaf proqramı xüsusi əhəmiyyət kəsb etməklə yanaşı, təhsil sistemi iştirakçılarının maddi stimullaşdırılması, ümumi təhsildə keyfiyyət göstəricilərinin yüksəldilməsi, mütənasib bölünmə prinsiplərini tətbiq etməklə müəllim-şagird nisbətinin tənzimlənməsi, kənd yerlərinə əhali axınının çoxaldılması, sosial sektorun inkişaf etdirilməsi, son nəticədə isə 15 min nəfərə yaxın pedaqoji profilli mütəxəssislərin konkret iş yerləri ilə təminatı kimi məsələlərin həllinə yönəldilmişdir.

Bu proqramın uğurla həyata keçirilməsi hesabına Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri şəbəkəsinə daxil olan bütün məktəblər pedaqoji kadrlarla tam təmin olunmuş, keyfiyyət göstəriciləri yüksəlmiş, qeyri-ixtisaslı kadr korpusu yenidən hazırlanmış, xüsusi proqramlar çərçivəsində onların ixtisası artırılmış, 15 min nəfərə yaxın pedaqoji ixtisaslı vətəndaşlar konkret iş yerləri ilə təmin edilmişlər. Peşə-ixtisas təhsili müəssisələrində marketinq strukturları yaradılmaqla əmək bazarının tələbatı əhəmiyyətli dərəcədə ödənilmişdir. Yerlərdə gənc mütəxəssislər üçün müvafiq iş şəraiti yaradılmış, onların sosial-məişət problemləri həll olunmuş, kənd yerlərinə əhali axını artaraq demoqrafik göstəricilər

yaxşılaşmış, yoxsulluq səviyyəsi aşağı düşmüş, təhsil sektorunda işsizlik probleminin həll edilməsində ciddi tədbirlər həyata keçirilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqlar da Azərbaycan Prezidentinin diqqətindədir. «Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar proqram (2005–2009-cu illər)» bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bu proqrama uyğun olaraq beynəlxalq təşkilatlarla birlikdə 3 inklüziv təhsil layihəsi həyata keçirilməyə başlanmış, ümumilikdə 30-dək təhsil müəssisəsini, 100-dən artıq məktəbəqədər və məktəb yaşlı xüsusi qayğıya ehtiyacı olan uşağı əhatə etmişdir.

Proqrama əsasən, bir neçə müəssisədə əlavə korpuslar, idman zalları tikilmiş, bir sıra müəssisələrdə əsaslı təmir işləri aparılmış, bu profildən olan məktəblər zəruri ehtiyac olan avadanlıqla, müasir kompyuterlərlə, nəqliyyat vasitələri ilə təmin olunmuşdur.

Təhsil sektorunun inkişafı layihəsi (2003–2007-ci illər) də son dərəcə önəmli bir layihədir. Layihə çərçivəsində islahatlar əsasən ümumi təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu, səmərəlilik və maliyyə islahatları, idarəetmə, planlaşdırma və monitorinq komponentlərini əhatə etmişdir.

Ümumi təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu komponenti daxilində kurikulum islahatı, müəllim hazırlığı, dərsliklər və oxu materialları üzrə ciddi islahatlar aparılır.

Səmərəlilik və maliyyə islahatları komponenti çərçivəsində maliyyələşdirmə və büdcə islahatları, rasionallaşdırma və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə tədbirlər həyata keçirilir. Məktəb qrantı proqramı komponenti çərçivəsində ümumi təhsildə bərabər imkanların yaradılması və məktəblərdə innovasiyaların tətbiqi istiqamətində qrant layihələri reallaşdırılır.

İdarəetmə, planlaşdırma və monitorinq komponenti daxilində şagird nailiyyətlərinin qiymətləndirilməsi, təhsilin idarəolunmasının məlumat sistemi, idarəetmə və planlaşdırma imkanlarının gücləndirilməsi ilə bağlı işlər görülür. Məzmun islahatları çərçivəsində ümumi orta təhsilin milli kurikulumu sənədinin layihəsi hazırlanmış və təsdiq edilmişdir. Bu sənəd təhsil sisteminin, xüsusilə də ölkəmizin ümumi təhsil sisteminin gələcək inkişafı, ümumi təhsilin məzmununun müasir tələblər səviyyəsində qurulması baxımından son dərəcə müstəsna əhəmiyyət kəsb edir.

3.2. Milli Kurikulum

Azərbaycan Respublikasında konseptual xarakterli sənədin – ümumi təhsilin Konsepsiyası – Milli Kurikulumunun qəbulu da Prezident İlham Əliyevin məqsədyönlü inkişaf strategiyası sayəsində milli təhsilimizin əldə etdiyi ən ciddi nailiyyətlərindən biridir.

Milli Kurikulum çərçivə sənədi olub ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri, fənn kurikulumlarının strukturunu əhatə edir.

Milli Kurikulum ictimai-siyasi, mədəni və sosial həyatın qloballaşdığı və universallaşdığı, informasiya-kommunikasiya texnologiyalarının rolunun artdığı, rəqabətin gücləndiyi müasir dövrdə hər bir şəxsin istedad və qabiliyyətinin müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, müstəqil qərarlar qəbul etməsi üçün onun zəruri təhsil səviyyəsinə və bacarıqlara malik olmasına, cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi olan insanın formalaşdırılmasına və problemlərin həllinə yönəlmişdir.

Milli Kurikulum ümumi təhsilin pillələri, bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi, fənlərin məzmununun cəmiyyətin tələbatına uyğun daim təkmilləşdirilməsi və yeniləşdirilməsi, təlim texnologiyalarının çevikliyi və interaktivliyinin təmin olunması, nəticəyönümlü fənn kurikulumlarının hazırlanıb tətbiq edilməsi, təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təlimin inkişafetdirici və qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında müəyyənləşdirilməsinin təmin olunması, şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi və stimullaşdırılmasının təmin olunması kimi konkret funksiyaları əhatə edir.

Bu sənəd milli və ümumbəşəri dəyərlərin nəzərə alınması, ümumi inkişafı, meyil və maraqları nəzərə alınmaqla bütün şagirdlərə əlverişli təlim şəraitinin yaradılması, tələbyönümlülük, nəticəyönümlülük, inteqrativlik prinsipləri əsasında hazırlanmışdır.

Milli Kurikulumda ümumi təhsil – insanın, ailənin, cəmiyyətin və dövlətin marağına, milli və ümumbəşəri dəyərlərə, dünyəvilik, sistemlilik, varislik, inteqrativlik, demokratiklik prinsiplərinə əsaslanan, nəzəri

və təcrübi fəaliyyət vasitəsilə şəxsiyyətin formalaşmasına, onun intellektual, sosial və fiziki inkişafına, təhsilini davam etdirməsinə, əmək fəaliyyətinə başlaması üçün zəmin yaradılmasına yönəlmiş məqsədəuyğun proses olub şagirdlərin yaş, fizioloji, psixoloji, fərdi xüsusiyyətləri və potensial imkanları nəzərə alınmaqla sürətlə dəyişən dünyada gedən prosesləri, problemləri və inkişaf tendensiyalarını başa düşmək və qiymətləndirmək, zəruri bilik, bacarıq və vərdişlər əldə etmək, öyrəndiklərini tətbiq etmək, sərbəst surətdə əlavə biliklər almaq bacarıqlarını, bazar münasibətləri şəraitində cəmiyyətin məhsuldar üzvünə çevrilə bilmələrini, şəxsiyyətin azad inkişafını təmin edən vasitə kimi səciyyələndirilir.

Ümumi orta təhsilli şəxs isə ana dilini dərindən bilən, Vətəninin tarixi və mədəniyyəti haqda ətraflı məlumatlara malik olan, incəsənəti, ədəbiyyatı, elmi nailiyyətləri, insan əməyini, vətəndaşların hüquq və azadlıqlarını dəyərləndirməyi bacaran, demokratik prinsiplərə hörmətlə yanaşan, dövlətçiliyə və dövlət mənafeyinə sadiqlik nümayiş etdirən, müasir texnika və kommunikasiya vasitələrindən səriştəli istifadə edən, insanlara, milli adət-ənənələrə, təbiətə, əxlaqi-mənəvi dəyərlərə tolerant, həssas və ədalətli münasibət bəsləyən, təhsillənməyi və məlumatlanmağı bacaran, bazar iqtisadiyyatı şəraitində rəqabətə davamlı olmaq və həyatda müstəqil yaşayıb fəaliyyət göstərmək, inkişaf etmək, sağlam həyat tərzi qurmaq, müstəqil mövqeli olmaq kimi keyfiyyətlərə yiyələnən, cəmiyyətin tələbatına uyğun zəruri bilik, bacarıq və vərdişlər qazanan, ana dili ilə yanaşı, xarici dillərdən birində və ya bir neçəsində ünsiyyət saxlamağı bacaran şəxsdir.

Milli Kurikulumda hər bir təhsil mərhələsinin məqsədi aydın göstərilir, bu sənədə görə ibtidai təhsilin məqsədi uşaqlarda oxu, yazı və hesablama vərdişləri yaratmaq və möhkəmləndirməkdən, uşaqlara insan, cəmiyyət, təbiət və onlar arasındakı qanunauyğunluqlar haqqında ilkin həyati biliklərin verilməsini təmin etməkdən, uşaqlarda məntiqi və yaradıcı təfəkkür elementlərini formalaşdırmaq, istedadlı uşaqların erkən yaşdan üzə çıxarılmasını və inkişafını təmin etməkdən, uşaqlara həssaslıq, estetik və bədii zövq, əxlaqi-mənəvi keyfiyyətlər, fiziki mədəniyyət və özünəxidmət bacarıqları aşılamaqdan ibarətdir.

Zəruri riyazi bilikləri həyatda tətbiq etməyi və sadə alqoritmləri yerinə yetirməyi, kompyuter texnikasından istifadə etməyi, müşahidə

etdiyi obyekt və hadisələri təsvir etməyi, onları səciyyəvi əlamətlərinə görə fərqləndirməyi, müstəqil və məntiqi düşünməyi, münasibət bildirməyi, ünsiyyət qurmağı, əməkdaşlıq etməyi, fikirlərini aydın ifadə etməyi, mədəni davranış, şəxsi gigiyena və müvafiq təhlükəsizlik qaydalarına əməl etməyi, tapşırılan işi, habelə yaradıcılıq tələb edən işləri müstəqil yerinə yetirməyi, sadə əmək vərdişlərini tətbiq etməyi bacarmaq ibtidai təhsil sayəsində əldə edilən nəticələrdir. Həmçinin körpə vətəndaşın öz vəzifələrini yerinə yetirməyi, özünün və digərlərinin hüquqlarına hörmət etməyi, Azərbaycan xalqının dili, əxlaqi-mənəvi dəyərləri, milli adət-ənənələri, tarixi, mədəniyyəti, incəsənəti haqqında qazandığı ilkin bilikləri sadə formada təqdim etməyi, yaşına uyğun bədii, elmi-kütləvi və məlumat xarakterli mətnləri oxumağı, mətndəki əsas məzmunu ayırmağı və ona öz fikrini bildirməyi, lüğətlərdən, məlumat xarakterli kitablardan istifadə etməyi, insanlara, təbiətə, əməyə, şəxsi və dövlət əmlakına ədalətli, qayğıkeş və tolerant münasibət bəsləməyi, gerçəkliyi olduğu kimi qavramağı bacarması da ibtidai təhsil üzrə ümumi təlimin nəticələri sırasındadır.

İbtidai təhsil pilləsində «Ana dili», «Azərbaycan dili», «Xarici dil», «Riyaziyyat», «Informatika», «Həyat bilgisi», «Texnologiya», «Fiziki tərbiyə», «Musiqi», «Təsviri incəsənət» fənləri tədris olunur. Milli Kurikulumda hər bir fənn əsaslandırılmış, hər bir fənnin tədrisi nəticəsində əldə ediləcək nəticələr konkret göstərilmişdir.

Şagirdlərdə kommunikativ bacarıqların, şifahi və yazılı nitq vərdişlərinin formalaşdırılması, əqli fəallığın gücləndirilməsinin təminatı, Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti, incəsənəti, təbiəti, sosial-iqtisadi imkanları və inkişafı, ayrı-ayrı ölkələrin bəşər sivilizasiyasının yaranmasındakı rolu haqqında təsəvvürlərin və məlumatların genişləndirilməsi, şagirdlərdə təhlil və tətbiq, araşdırma və ümumiləşdirmə aparmaq, informasiya-kommunikasiya texnologiyalarından istifadə, müxtəlif mənbələrlə işləmək, özünün fəaliyyət istiqamətlərini müəyyənləşdirmək, hadisələri və mahiyyətləri dəyərləndirmək, problemləri həll etmək bacarıqlarının formalaşdırılması isə əsas təhsilin məqsədlərini təşkil edir. Şagirdlərdə sağlam həyat tərzi, fiziki və estetik mədəniyyət, əməkdaşlıq, hüquqlara hörmət keyfiyyətlərinin formalaşdırılmasının təmin edilməsi də əsas təhsilin məqsədlərinə daxildir.

Əsas təhsil üzrə ümumi təlim nəticəsində şagird ətraf aləmi dərk etmək üçün müxtəlif üsul, vasitə və metodlardan, o cümlədən müşahidə,

ölçmə, hesablama, təcrübə və qiymətləndirmədən istifadə etməyi, təlim tapşırığını yerinə yetirmək üçün müvafiq üsullar seçməyi və verilmiş alqoritm əsasında onları həll etməyi, müxtəlif faktları, fikirləri, dəlilləri bir-birindən fərqləndirməyi, onları müqayisə, təsnif və təqdim etməyi, təlim prosesində yaradıcılıq tələb edən müxtəlif işləri müstəqil olaraq yerinə yetirməyi, nitqin monoloq və dialoq formalarından istifadə etməyi, dinlədiyi və oxuduğu müxtəlif üslubda və janrda olan materialları təhlil etməyi, onların məzmununu yığcam və geniş formada başqasına çatdırmağı, plan, tezis, icmal tərtib etməyi, layihə, rəy hazırlamağı, nümunələr göstərməyi, dəlillər gətirməyi və nəticələri ümumiləşdirməyi bacarmalıdır. O, əqli və kommunikativ yönümlü tapşırıqları yerinə yetirmək üçün müxtəlif informasiya mənbələrindən (lüğətlər, ensiklopediyalar, kompyuter, internet, dövri mətbuat və s.) istifadə etmək, öz imkanlarını, meyil və marağını şüurlu olaraq müəyyənləşdirmək, iradi və qeyri-iradi keyfiyyətlərini nümayiş etdirmək, gördüyü işlərin nəticəsini qiymətləndirmək, qarşıya çıxan problemlərin optimal həllini tapmaq vərdişinə yiyələnməlidir. İctimai davranış, habelə müvafiq təhlükəsizlik və tibbi-gigiyena qaydalarına, sağlam həyat tərzi normalarına əməl etməyi öyrənməli, öz fəaliyyətində əxlaqi-mənəvi, hüquqi, etik, estetik dəyərlərə, vətəndaşlıq mövqeyinə malik olduğunu nümayiş etdirməyi, problemlərin həllində birgə fəaliyyət göstərməyi, kollektiv iş prosesində özünün və başqalarının fəaliyyətini qiymətləndirməyi, xarici dildə ünsiyyət qurmağı bilməlidir.

Milli Kurikuluma görə əsas təhsil pilləsində «Ana dili», «Azərbaycan dili», «Ədəbiyyat», «Xarici dil», «Riyaziyyat», «İnformatika», «Azərbaycan tarixi», «Ümumi tarix», «Fizika», «Kimya», «Biologiya», «Coğrafiya», «Həyat bilgisi», «Texnologiya», «Fiziki tərbiyə», «Musiqi», «Təsviri incəsənət» fənləri tədris olunur və sənəddə hər bir fənn və onun tədrisi nəticəsində əldə edilən nəticələr dəqiq əsaslandırılır.

Məlumdur ki, şagird nailiyyətlərinin qiymətləndirilməsi ardıcıl və sistemli proses olub təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi bilavasitə təhsilin keyfiyyətinin dəyərləndirilməsinə və nəticə etibarı ilə onun yüksəlməsinə xidmət edir. Milli Kurikulumda bununla bağlı konkret məqamlar da öz əksini tapmışdır.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi təhsilin keyfiyyəti və inkişafı haqqında müvafiq məlumatların toplanılması və onların təhlili

ilə müşayiət olunur. Məlumatların toplanılması test tapşırıqlarının verilməsi və yoxlanılması, sinifdə müsahibələrin aparılması, fənn kurikulumlarının icra vəziyyətinin, şagird və müəllimlərin fəaliyyətinin müşahidə olunması, qiymət cədvəllərinin və digər məktəb sənədlərinin təhlili və s. üsullarla həyata keçirilir. Toplanmış məlumatlar, bir qayda olaraq, şagirdlərin təlimə münasibətlərini və onların nailiyyətlərini, müəllimlərin hazırlıq səviyyəsini, kurikulumların məqsədəmüvafiqliyini, təlim resursları ilə təminatını və idarəetmə üsullarını əhatə edir. Məlumatların təhlilinə görə aparılmış qiymətləndirmənin nəticələri ölkədə təhsil siyasətinin qurulması və gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi üçün etibarlı mənbə hesab edilir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi məqsədəuyğunluq, qarşılıqlı dəyərləndirmə, müvafiqlik və etibarlılıq, inkişafyönümlülük, şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi məktəbdaxili, milli və beynəlxalq istiqamətdə aparılır. Məktəbdaxili qiymətləndirmə 3 komponentdən ibarətdir:

Şagird irəliləyişlərinin monitorinqi – məktəb səviyyəsində müəllimlər və məktəb rəhbərləri tərəfindən həyata keçirilir. Bu mərhələdə şagirdlərin nailiyyətləri formativ (müntəzəm, davamlı), mikrosummativ (bəhs və bölmələr üzrə) və makrosummativ (yarımilliklər üzrə) formalarda yazılı və şifahi qiymətləndirilir;

Kurrikulum üzrə qiymətləndirmə – şagirdin təlim nəticələrinin müvafiq məzmun standartlarına uyğunluğunu müəyyənləşdirmək məqsədilə aparılır.

Təhsil pillələri (əsas və orta) üzrə yekun qiymətləndirmə – mərkəzləşmiş qaydada aparılan buraxılış imtahanları formasında həyata keçirilir və müvafiq təhsil sənədinin verilməsi ilə başa çatır.

Orta təhsil pilləsində şagirdlərin müvafiq təmayüllər üzrə, yaxud minimum standartlara uyğun təhsil almaları əsas təhsil pilləsində keçirilmiş yekun qiymətləndirmənin nəticələrinə görə müəyyən olunur.

Milli qiymətləndirmə, bir qayda olaraq, 4–5 ildən bir təhsil prosesinin təşkili, planlaşdırılması və aparıldığı şərait haqqında toplanmış məlumatlar vasitəsilə kurikulumların keyfiyyətini və ümumi təhsil sistemində baş verən dəyişiklikləri dəyərləndirmək məqsədi ilə həyata keçirilir.

Beynəlxalq qiymətləndirmə, bir qayda olaraq, hər 3 ildən bir seçmə yolla şagirdlərin təlim göstəriciləri əsasında təhsilin vəziyyəti barədə təsəvvür əldə etmək, müvafiq məlumatları təhlil etməklə problemləri aşkara çıxarmaq və onların həlli yollarını müəyyənləşdirmək, perspektiv inkişaf istiqamətlərini proqnozlaşdırmaq və mövcud vəziyyəti digər ölkələrlə müqayisə etmək məqsədi ilə aparılır.

Göründüyü kimi islahat çərçivəsində elə bir konseptual sənəd hazırlanmışdır ki, üzərində təhsil alanlar üçün zəruri kompetensiyaları, məzmun və qiymətləndirmə standartlarını, hazırki tədris planı və proqramlarını, şagirdə və onun hazırlıq səviyyəsinə verilən tələbləri, hər bir dərsin konkret inkişafetdirici məqsədlərini, metodik təminatı, dəyərləndirmə modelini, texniki təchizatını və s. təsvir etsin, müəllim və məktəb qarşısında duran vəzifələri və onların konkret həlli yollarını göstərsin.

Müəllim hazırlığı üzrə də yeni konsepsiya və strategiya işlənib hazırlanmışdır. Müvafiq alt-komponent çərçivəsində müəllim hazırlığı şəbəkəsinə daxil olan müəssisələr müasir avadanlıqlarla təchiz olunmuşdur.

Təhsilin idarə olunmasının məlumat sistemi alt-komponentinin əsas məqsədi rəhbərlərin cavabdeh olduqları sistemin monitorinqini həyata keçirmək, dəqiq və cari məlumatlar əsasında strategiya və fəaliyyət planlarını hazırlamaq üçün geniş, əhatəli TİMS-in (Təhsilin İdarə olunmasının məlumat sistemi) yaradılmasında Təhsil Nazirliyinə yardım etməkdən ibarətdir.

TİMS qrupu üçün müvafiq kadrların və digər resursların müəyyənləşdirilməsi və təmin edilməsi, TİMS-in planlaşdırılmasına və əməliyyatlarına dair siyasətin müəyyənləşdirilməsi, TİMS-in Baş Planının hazırlanması, məktəblərin kodlaşdırılması prosedurlarının planlaşdırılması, hazırlanması və həyata keçirilməsi, TİMS-in avadanlığı və kompyuter proqramları üçün texniki şərtlər və tender sənədlərinin hazırlanması, avadanlıq və kompyuter proqramlarının satın alınması, TİMS-in məktəblərin xəritələşdirilməsi üzrə alt sistemi üçün məlumat toplama sisteminin hazırlanması, həmin alt-sistemin sınaqdan keçirilməsi və dəyişdirilməsi, məktəblərin xəritələşdirilməsi üçün məlumat toplamaq məqsədilə sistemin həyata keçirilməsi, məktəblərin xəritələşdirilməsi üzrə alt-sistemin işlənməsi, sınaqdan keçirilməsi və dəyişdirilməsi, alt-sistemin hazırlanması və onun istifadəsi üzrə ixtisasartırmanın həyata keçirilməsi bu altkomponent üzrə həyata keçirilən vəzifələrdəndir.

Təhsil Nazirliyinin və TİMS qrupunun seçimi əsasında TİMS üçün 2-ci, 3-cü və 4-cü alt-sistemin işlənməsi, sınaqdan keçirilməsi və dəyişdirilməsi, həmin alt-sistemlərdə işləmək və onun istifadəsi üzrə ixtisasartırma keçirilməsi, TİMS-lə əlaqədar heyət üşün ixtisasartırma planının hazırlanması və həyata keçirilməsi, rayonların təhsil şöbələri daxilində kompyuterlərdən səmərəli istifadə üçün plan hazırlanması və tətbiqi, TİMS üçün etibarlı sistem proqramının müəyyənləşdirilməsi bu altkomponent üzrə həyata keçirilən vəzifələrdəndir.

3.3. Dərslik siyasəti

Ümumtəhsil məktəbləri üçün yeni dərsliklərin hazırlanması məsələsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təhsil siyasətində xüsusi önəm verdiyi ən əsas məsələlərdən idi. Ulu öndər bu sahədə aparılan işlərlə müntəzəm maraqlanır, Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi dərsliklərinin təhsil sistemində müstəsna əhəmiyyətə malik olduğunu xüsusi vurğulayırdı.

Eyni münasibət Prezident İlham Əliyevin təhsil strategiyasında da özünü göstərməkdədir. İlham Əliyev hər bir yeni dərsliklə maraqlanır, hətta çap olunmuş dərslikləri nəzərdən keçirir və öz fikrini bildirir.

Son illər təlim Azərbaycan və rus dillərində aparılan ümumtəhsil məktəblərinin şagirdləri üçün 147 adda yeni dərslik və 36 adda dərs vəsaiti hazırlanmışdır. Bu o deməkdir ki, hazırda ümumtəhsil məktəblərində istifadə edilən 182 adda dərslik və dərs vəsaitindən 80 faizindən çoxu yeniləşdirilmişdir. Bununla da milli dərsliklərin hazırlanmasının birinci mərhələsi başa çatmışdır.

Nəzərə alsaq ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə hazırlanan İslahat Proqramına qədər 1998-ci ildə ümumi orta təhsil sistemində istifadə edilən dərsliklərdən yalnız Azərbaycan dili, ədəbiyyat, ibtidai sinif dərslikləri milli zəminə uyğun hazırlanmışdı, bu sahədə aparılan işlərin miqyası daha aydın nəzərə çarpar.

«Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramına (2003–2005-ci illər)» uyğun olaraq 2003-cü ildə I–V siniflərdə təhsil alan bütün şagirdlər və məcburi köçkünlərin təhsil aldığı müstəqil məktəblərin VI–XI sinif şagirdləri dərsliklərlə pul-

suz təmin olunmuşdur. 2004-cü ildə isə I siniflər üçün «Əlifba», VI–VII siniflər üçün 34 adda yeni dərslik hazırlanmış, çap olunaraq şagirdlərə pulsuz paylanmışdır.

2003-cü ildə təlim Azərbaycan dilində olan məktəblər üçün 19 adda, təlim rus dilində olan məktəblər üçün 14 adda yeni dərslik çap edilərək şagirdlərin istifadəsinə verilmişdir. O cümlədən V–IX siniflər üçün Azərbaycan dili, VII–XI siniflər üçün cəbr və həndəsə, V–VII siniflər üçün ingilis dili, fransız dili, VII–VIII siniflər üçün fizika, X–XI siniflər üçün ümumi biologiya dərslikləri müasir tələblər səviyyəsində hazırlanmışdır.

2004-cü ildə isə V–VII və IX siniflər üçün ədəbiyyat, VIII–IX siniflər üçün ingilis dili, IX siniflər üçün fizika, X–XI siniflər üçün Azərbaycan dili, XI siniflər üçün astronomiya dərslikləri istifadəyə verilmişdir. Təlim rus dilində olan məktəblərin VII sinifləri üçün fizika, VII–IX siniflər üçün cəbr və həndəsə, X–XI siniflər üçün biologiya dərslikləri tərcümə edilərək çap edilmişdir.

2005-ci ildən başlayaraq isə Dövlət Proqramına müvafiq olaraq ümumtəhsil məktəblərinin bütün I–XI sinif şagirdləri də dərsliklərlə pulsuz təmin edilmiş, beləliklə Azərbaycan postsovet məkanında orta məktəb şagirdlərinin dərsliklərlə pulsuz təmin edilməsini reallaşdıran yeganə ölkə olmuşdur.

Son illərə qədər əsas problemlərdən biri latın qrafikası ilə çap edilmiş dərs vəsaitlərinin çatışmaması idi. Bu məsələ barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi sərəncamı da olmuşdur.

Bununla əlaqədar Dünya Bankının krediti hesabına məktəb kitabxanaları üçün 18 adda 1,7 milyon ABŞ dolları dəyərində ensiklopedik lüğətin 846 min nüsxədə çap edilməsi və bütün ümumtəhsil məktəblərinə pulsuz verilməsi uğurla həyata keçirilmiş, nəticədə Azərbaycanın hər bir məktəbinin kitabxanası orta hesabla 190 nüsxə ensiklopedik lüğətlə təmin olunmuşdur. Dövlət rəhbərinin hər il imzaladığı sərəncamlar əsasında əlavə oxu materialı kimi Azərbaycan və dünya ədəbiyyatının klassik və müasir ədəbi nümunələri seriyasından latın qrafikası ilə çap olunan kitablar da təhsil müəssisələri kitabxanalarını zənginləşdirir, yeni nəslin dünyagörüşünün genişlənməsinə, onların böyük ədəbi incilərlə tanışlığına şərait yaradır.

Ümumiyyətlə, ümumtəhsil sistemində dərslik siyasəti Azərbaycan hökumətinin strateji fəaliyyət dairəsinə daxil olan təhsil sahəsində prioritet istiqamətlərdən biridir. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən bu siyasətin məqsədi məktəbliləri müasir standartlara uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək, Vətəninə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir.

Dərslik siyasəti bu işdə əsas icra orqanı funksiyasını yerinə yetirən Təhsil Nazirliyinin, onun müvafiq strukturlarının, elmi qurumların, özəl təşkilatların və ictimai orqanların vasitəsilə həyata keçirilir.

Dərslik siyasətinin əsas prinsipləri Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin bütün şagirdlərinin «Ümumtəhsil məktəbləri üçün dərsliklərin nəşri, çapı və paylanması qaydaları»na uyğun olaraq dərsliklərlə pulsuz təmin olunması, dərsliklərin hazırlanmasında, qiymətləndirilməsində, təsdiqində və nəşrində Azərbaycan Respublikasının dövlət mənafeyi gözlənilməklə, alimlərin, mütəxəssislərin, müəlliflərin, müəllimlərin və valideynlərin rəyinin nəzərə alınması, bu prosesdə antiinhisar və sağlam rəqabətin təmin olunmasından ibarətdir.

Mülkiyyət formasından asılı olmayaraq hər bir nəşriyyat müəlliflərlə birlikdə istənilən dərsliyi hazırlayıb, mövcud qaydalara uyğun olaraq DQŞ-yə təqdim edə bilər. Ümumtəhsil məktəbləri dərsliklərinin müəllifləri əsasən Azərbaycan Respublikasının vətəndaşı olmalıdır. Ümumtəhsil məktəblərinin dərslikləri, əsasən, variativ şəkildə nəşr olunur. Variativ dərsliklərdən istifadə üçün seçim hüququ məktəb pedaqoji şuralarına, fənn müəllimlərinə və valideyn-müəllim assosasiyalarına məxsusdur. Hər bir müəllifin və nəşriyyatın öz dərsliyini məktəblərdə təbliğ etmək hüququ vardır.

Ulu öndərimiz Heydər Əliyev tərəfindən formalaşdırılmış ənənələrə Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi təhsil strategiyasına uyğun olaraq dərsliklərin məzmununa verilən tələblər də kifayət qədər ciddidir.

Dərsliklərdə şagirdlərin Azərbaycan xalqının milli, mənəvi və mədəni dəyərləri ruhunda tərbiyə olunmasına, onların öz ailəsini, xalqını, Vətənini sevməsinə, insan haqlarına və bəşəri dəyərlərə hörmət etməsi-

nə yönələn ideyalar olmalı, şagirdlərin yaş psixologiyası və fizioloji xüsusiyyətləri nəzərə alınmalı, dünyəvilik prinsipinə riayət edilməli, elmin, texnikanın və mədəniyyətin müasir nailiyyətləri haqqında yoxlanılması mümkün olan və səlahiyyətli mənbələrdən götürülmüş məlumatlar öz əksini tapmalı, illüstrasiyalar yığcam və mövzulara uyğun olmalı, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, ölkənin qoşulduğu beynəlxalq hüquqi aktlara zidd olan fikirlərə yer verilməməlidir.

Dərsliklərdə milli, dini, irqi, cinsi və siyasi ayrı-seçkilik təbliğ edən fikirlərin, mübahisə doğuran məlumatların olmaması, elmi mübahisə doğuran məsələlərə yer verilməməsi, onların Dövlət Təhsil Standarları əsasında hazırlanmış kurikulumlara uyğun olması, şagirdlərdə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişləri aşılaması, onları düşünməyə sövq etməsi, məntiqi təfəkkürü inkişaf etdirməsi, tətbiqi xarakter daşıyaraq interqrativ xüsusiyyətə malik olması, şagirdlərdə demokratik dünyagörüşü formalaşdırması da qarşıya qoyulan əsas tələblərdəndir.

Ümumtəhsil məktəbləri şagirdlərinə veriləcək dərsliklərin maliyyə vəsaiti Təhsil Nazirliyinə ayrılır. Həmin vəsait hesabına alınan dərsliklər məktəblərə pulsuz paylanır.

Azərbaycandan kənarda yaşayan soydaşlarımızın da dərsliklərlə təminatı diqqət mərkəzindədir. Bu məqsədlə Gürcüstanın Azərbaycan məktəblərinə hər il böyük həcmdə dərslik humanitar yardım kimi aparılır və 11 rayonda kompakt yaşayan azərbaycanlıların təhsil aldığı məktəblər üçün rayon təhsil şöbələrinin rəhbərlərinə təhvil verilir. Dağıstanın Azərbaycan məktəblərinə də 12 minə yaxın dərslik ayrılmışdır.

Moskva, Surqut, Donetsk və Orta Asiyanın bir sıra şəhərlərində, Nyu-Yorkda, Londonda və s. fəaliyyət göstərən «Bazar günü» məktəblərinə onların müraciətləri əsasında dərsliklər göndərilmişdir.

3.4. İnformasiya əsrinin meyarları

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı, cəmiyyətlərin informasiyalılıq səviyyəsi bəşəriyyətin mədəni yüksəlişinin ən başlıca amillərindən birinə çevrilmişdir. İnformasiya cəmiyyətinin əsas məqsədi, bütövlükdə cəmiyyətin və ayrı-ayrı şəxslərin informasiya tələbatını ödəmək üçün müasir informasiya texnologiyaları bazasında

müxtəlif təyinatlı informasiya resurs və fəzalarının formalaşdırılmasından ibarətdir.

Azərbaycanda da informasiya cəmiyyətinin qurulması dövlət siyasətinin əsas prioritetlərindən biri kimi qəbul edilmişdir. İnformasiya cəmiyyətinin qurulmasının əsas vəzifələrinə İC-nin hüquqi əsaslarının yaradılması, insan amilinin inkişafı, vətəndaşların məlumat almaq, onu yaymaq və istifadə etmək hüquqları, şəffaf dövlət və yerli özünüidarəetmənin, elektron hökumətin, elektron ticarətin formalaşması, ölkənin iqtisadi, sosial və intellektual potensialının möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan, rəqabətə davamlı iqtisadiyyatının qurulması, informasiya və bilik bazarının yaradılması, tarixi, ədəbi-mədəni irsin saxlanması, müasir informasiya-kommunikasiya infrastrukturunun yaradılması, vahid milli elektron informasiya məkanının formalaşdırılması, informasiya təhlükəsizliyinin təmini, qlobal informasiya fəzasına inteqrasiya, milli İKT məhsullarının istehsalı, ölkənin elektron geriliyinin aradan qaldırılması və digər vacib məsələlər daxildir.

Ümumiyyətlə, İnformasiya cəmiyyəti fərdi biliklərin İnternet-mühitin köməyi ilə ictimailəşməsi – kollektiv təfəkkürün formalaşması üçün misilsiz imkanlar yaradır. İnformasiya cəmiyyəti eyni zamanda yeni növ iqtisadiyyatı – ən ali əmtəə forması olan biliklərə və informasiyalara əsaslanan iqtisadiyyatı formalaşdırır.

Dünyada baş verən qloballaşma prosesi, ölkələrarası inteqrativ münasibətlərin meydana gəlməsi və inkişafında İnformasiya cəmiyyəti müstəsna əhəmiyyətə malikdir. Belə bir şəraitdə, bazar iqtisadiyyatının tələblərinə müvafiq elmin idarə olunması, intellektual mülkiyyətin formalaşması, qorunması və kommersiyalaşdırılması, vaxtilə «beyin axını» – alimlərin inkişaf etmiş ölkələrə getməsi prosesinin yerinə onların biliklərinin İnternet üzərində miqrasiyası və digər problemlərin həlli yeni konseptual baxışlar, yanaşmalar, təşkilati və iqtisadi hüquqi mexanizmlər tələb edir.

Məlum olduğu kimi, ümummilli lider Heydər Əliyev 2003-cü ilin fevral ayında respublikamızda informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunması və inkişaf etdirilməsi haqqında «Azərbaycanın inkişafı naminə İKT üzrə Milli Strategiya»nı (2003–2012-ci illər) təsdiq etmişdir. Milli Strategiyanın qəbulundan keçən müddət ərzində Azər-

baycan hökuməti tərəfindən bu sahədə bir sıra kompleks tədbirlər həyata keçirilmişdir.

Azərbaycanda «Elektron imza və elektron sənəd haqqında» qanunun qüvvəyə minməsi ölkədə elektron sənəd dövriyyəsinin yaradılmasına və elektron imza tətbiq edilən yeni proseslərin, o cümlədən yeni iqtisadi fəaliyyət sahələrinin inkişafına şərait yaratdı. Qanunun qəbulu elektron formada münasibətlərin təşkili ilə bağlı digər qanunvericilik aktları üçün hüquqi əsas yaratdı.

«Elektron ticarət haqqında» qanun şəbəkə mühitində alqı-satqı əməliyyatların həyata keçirilməsi, müxtəlif növ ticarət xidmətlərin göstərilməsi, yerinə yetiriləcək müqavilələrin elektron üsulla bağlanılması qloballaşan dünyada ölkələrarası iqtisadi əlaqələrin inkişafına xidmət edir.

«Telekommunikasiya haqqında» qanun telekommunikasiya şəbəkələri və operatorları, onlar arasında münasibətləri, həmçinin bu sahənin idarə olunması mexanizmini özündə əks etdirir.

«İnformasiya əldə etmək haqqında» qanun vətəndaşın məlumat əldə etmək hüququnun demokratik hüquqi dövlətin prinsipləri əsasında reallaşdırılmasını tənzimləyən normativ aktdır. Qanunun tələblərinə uyğun olaraq hökumət və yerli özünüidarəetmə orqanları İnternet resurslarından istifadəni təmin etməli və öz veb resursunu yaratmalıdır.

Elm müəssisələrinin, məktəblərin kompyuterləşdirilməsi, gənc vətəndaşlarımızın virtual dünyaya çıxışının təmin edilməsi, onların informasiya texnologiyaları ilə işləmək vərdişlərinə yiyələnmələri üçün atılan məqsədyönlü addımlar Azərbaycanda insan kapitalının inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Dövlət başçısı informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi yolu ilə respublikanın zəngin iqtisadi potensialının insan kapitalı ilə əvəzlənməsini son dərəcə vacib sayır. Təsadüfi deyil ki, cənab İlham Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra ilk xarici səfərə BMT-nin mandatı altında Cenevrədə təşkil edilmiş İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirakla başlamışdır.

Prezident İlham Əliyevin həmin sammitdə qeyd etdiyi kimi, respublikamızın Cənubi Qafqazda bu sahədə liderlik etməsi kifayət qədər ciddi zəminə əsaslanır. Azərbaycan neftdən qazanılan gəlirlərin qeyri-neft sektoruna, o cümlədən rabitə və informasiya texnologiyalarının inkişafına yönəltməyi son dərəcə vacib sayır. Dövlət başçısının apardığı məqsədyönlü siyasətin

məqsədi respublikamızı regionda rabitə və informasiya texnologiyaları sahəsində tranzit və mərkəzi ölkəyə çevirməkdir. Azərbaycanın yaxın illərdə informasiya ixrac edən ölkələrdən birinə çevrilməsi də aparılan islahatların başlıca qayəsini təşkil edir. Azərbaycan fibro-optik kanalların keçdiyi əlverişli coğrafi məkanda yerləşir və bu baxımdan, respublikanın Şərqlə-Qərb arasında əlverişli informasiya tranziti məkanına çevrilməsi ehtimalı kifayət qədər yüksəkdir.

Azərbaycan Prezidentinin 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» və 11 fevral 2004-cü il tarixli «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda bir sıra sahələrlə yanaşı, informasiya texnologiyalarının inkişafına da xüsusi diqqət ayrılmışdır.

Əsas məqsəd Azərbaycanda XXI əsrin tələblərinə cavab verə bilən müasir informasiya infrastrukturunun, habelə iqtisadiyyatımızda əsaslı və prioritet yer tutan informasiya və kommunikasiya məhsulları sektorunun yaradılmasıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, elmtutumlu bu sahələrin inkişafı bilavasitə insan kapitalının formalaşmasını təmin edir və cənab İlham Əliyev də bu amili ciddiliklə nəzərə alır.

Dövlət başçısının 22 oktyabr 2005-ci il tarixli fərmanı ilə «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005–2008-ci illər üçün Dövlət Proqramı»nın (Elektron Azərbaycan) imzalanması rabitə və informasiya texnologiyalarını hökumətin fəaliyyətində geniş tətbiqinə imkan yaradan təkmil konsepsiya kimi diqqəti çəkir. Proqramda nəzərdə tutulmuş tədbirlər nəticəsində 2008-ci ildə Azərbaycan informasiya texnologiyalarının inkişafı sahəsində ümumdünya orta göstəricilərinə çatacaq, bu sektorun inkişafına 150 milyon ABŞ dolları yönəldilməsi nəzərdə tutulmuşdur. İnformasiya texnologiyalarının geniş tətbiqinə xidmət edən sözügedən Dövlət Proqramının imzalanması, şübhəsiz, ölkənin ümumi sosial-iqtisadi inkişaf tepmindən irəli gəlmişdir.

Bütün sahələrdə inkişaf edən Azərbaycanda idarəetmənin müasir texnologiyalar əsasında qurulması, ilk növbədə, zamanın tələbindən irəli gəlir. Dövlət Proqramı eyni zamanda «rəqəmsal uçurum»un, yəni informasiya uçurumu təhlükəsinin aradan qaldırılmasına xidmət edir. Yəni paytaxtda və digər iri şəhərlərdə müasir texnologiyalar sürətlə inkişaf etdiyi halda, rayonlarda bu proses yubanır. Bu baxımdan, regionlarda rəqəmsal sistemin

tətbiqi, internetin, müasir rabitə və kommunikasiya texnologiyalarının inkişafı olduqca vacibdir. Bu təkcə sosial-iqtisadi deyil, həm də mədəni-intellektual inkişafa, insan kapitalının inkişafına xidmət edir.

2005-ci il noyabrın 16-18-də Tunisdə İnformasiya Cəmiyyəti üzrə sammitin 2-ci fazası keçirilmişdir. Azərbaycan bu sammitə xüsusi fəallıqla hazırlaşmış, respublikamız sammitin Təşkilat Komitəsinin üzvü və sponsorlarından biri olmuşdur. Bu sammitdə XXI əsrin yeni çağırışı «İnformasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin demokratikləşməsində və insan hüquqlarının qorunmasında rolu» elan olunmuşdur. Həmin tezisin əsas müəlliflərindən biri də məhz Azərbaycandır. Bu tədbir Azərbaycanda insan kapitalının inkişafına mühüm töhfə vermişdir.

«BAKUTEL–2006» Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi-konfransının açılışı mərasimində çıxış edən dövlət başçısı cənab İlham Əliyev bu sahənin ölkəmiz üçün strateji əhəmiyyət kəsb etdiyini bir daha vurğulamışdır. «...Bizim gənc nəslimiz bilikli, dünyada gedən proseslərə bələd olmalıdır, izləməlidir. Ən qabaqcıl texnologiyalar Azərbaycana gəlməlidir. Bir sözlə, ölkənin inkişafı məhz bu istiqamətdə davam etməlidir. Dünyada uğur qazanmış, inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, görərik ki, o inkişafın, tərəqqinin əsas səbəbləri təbii ehtiyatlar deyildir. Məhz bilik, məhz savad, yeni texnologiyalar – bütün bunlar ölkəyə uğur, rifah gətirir, inkişaf, müasirlik gətirir», – deyə ölkə başçısı bildirmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəmizdə elm və təhsilin inkişafı istiqamətində atdığı mühüm addımlardan biri kimi təhsil müəssisələrinin informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi proqramı bu baxımdan xüsusilə müstəsna əhəmiyyət kəsb edir.

Dövlət başçısının 2004-cü il 21 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı (2005–2007-ci illər)» ölkəmizdə yeni informasiya texnologiyalarından istifadə olunmaqla, təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən və dünya təhsil sisteminə inteqrasiya imkanı verən vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiya cəmiyyətinə hazırlamaq məqsədi daşıyır.

Bu proqrama uyğun olaraq təhsil sisteminin informasiyalaşdırılmasının təmin edilməsi məqsədilə bu sferada vahid informasiya məkanının qurulması, kompyuter texnikası əsasında qurulan yeni informasiya texnologi-

yalarının mənimsənilməsinin və onun bütün imkanlarından istifadə olunmasının təmin edilməsi, ölkənin təhsil sisteminin səmərəli idarə olunmasının təmin edilməsi, elmi-metodiki işlərin səmərəliliyinin artırılması, beynəlxalq informasiya şəbəkələri vasitəsilə dünya ölkələrinin təhsil müəssisələri ilə səmərəli əlaqələrin yaradılması kimi məqsədyönlü tədbirlər nəzərdə tutulmuş, proqramda qarşıya qoyulan məqsədə çatmaq və vahid informasiya mühitindən səmərəli istifadənin təmin edilməsi üçün bir sıra vəzifələrin kompleks həlli təmin edilmişdir. Ümumtəhsil məktəblərinin müasir tipli kompyuter avadanlıqları ilə təchizatı, ümumtəhsil məktəbləri müəllimlərinin, inzibati və texniki işçilərin yeni informasiya və kommunikasiya texnologiyalarından öz fəaliyyət sahələrində istifadə etməsinin öyrədilməsi, təhsildə informasiya və kommunikasiya texno-logiyalarından istifadə üzrə normativ və metodiki bazanın inkişafı, tədris prosesində Azərbaycan dilində istifadə edilən müasir elektron tədris materiallarının, elektron dərsliklərin, elektron kitabxanaların, rəqəmli tədris resurslarının işlənilib hazırlanması, yayılması və tətbiqi, Azərbaycan Respublikası təhsil sisteminin informasiya infrastrukturunun (elmi-metodik, elmi-tədqiqat, ixtisasartırmanın bütün səviyyələrdəki resurs və informasiya sistemləri daxil olmaqla) yaradılması, informasiya texnologiyaları əsasında müasir təhsilin metodologiyasının işlənib hazırlanması, informasiyalaşdırma prosesinin elmi-metodiki təminatı, şagirdlər üçün distant təhsil xidmətinin yaradılması, təhsil portalının və saytlarının tərtibi, Azərbaycan dilində olan tədris və elmi-metodiki nəşrlərdə informasiya və kommunikasiya texnologiyaları sahəsi üzrə terminologiyanın hazırlanması və elmi dövriyyəyə daxil edilməsi bu proqram çərçivəsində yerinə yetirilən vəzifələrdəndir. Layihənin icrası üçün məktəblərdəki kompyuter siniflərinin hazırlığı, kompyuter sinfində lazımi proqram təminatının yüklənməsi, bu sahə üzrə kadrların hazırlığı, dərs deyən müəllimlərə kömək üçün kompyuter siniflərində tədris köməkçi heyətin formalaşdırılması kompyuter siniflərinin köməkçi heyətlə təmin olunması işi də uğurla yerinə yetirilməkdədir. Bu layihə 2005–2007-ci illər ərzində ölkədə on minə yaxın yeni iş yerinin açılmasına şərait yaratmış, 4521 məktəb kompyuter avadanlığı ilə təchiz olunaraq internetə qoşulmuş, təhsildə informasiya və kommunikasiya texnologiyalarından istifadə yeni səviyyəyə yüksəlmiş, tədris prosesinin dəyişkən

təşkili (internet-məktəb, distant təhsil) mümkün olmuş, şagird və müəllimlərin ümumi informasiya mədəniyyəti formalaşmış, respublikamızda yeni informasiya təhsil mühiti yaradılmış, Prezident İlham Əliyevin imzaladığı bu proqram bütün cəhətləri ilə yanaşı həm də Azərbaycanda informasiya cəmiyyətinə keçid üçün əsaslı addıma çevrilmişdir.

Məktəblərin İKT ilə təminatının əhəmiyyəti Prezident tərəfindən dəqiq ifadə olunmuşdur: **«İndi kompyuterləşmə proqramı həyata keçirilir. Bütün məktəblərdə kompyuter sinifləri yaradılacaqdır və əminəm ki, təhsil sahəsində ciddi irəliləyiş olacaqdır. Biz Azərbaycanda bütün məktəbləri ən yüksək səviyyəyə çatdırmalıyıq. Əlbəttə, onlarda, necə deyərlər, həm gözəl şərait yaradılmalıdır, eyni zamanda infrastruktur da olmalıdır.**

Qarşıya belə bir vəzifə qoyulubdur ki, bütün məktəblərdə kompyuter sinifləri yaradılsın və uşaqlar bilavasitə internetə çıxış əldə etsinlər, dünyada gedən proseslərlə tanış olsunlar. Azərbaycan dünya birliyinə inteqrasiya siyasətini aparır və dünyada gedən bütün hadisələr, yeniliklər, yaranan yeni texnologiyalar-bunların hamısı internet, kompyuter vasitəsilə bizim uşaqlarımızın ixtiyarında olmalıdır».

Əvvəlki iqtisadi nəzəriyyələrə görə, istehsal amillərinin gəlirləri bütün bölgələrdə tarazlanana qədər əmək ehtiyatları əmək haqlarının daha aşağı olduğu bölgələrdən daha yüksək olduğu bölgələrə doğru, kapital ehtiyatları da bunun tərsi yöndə hərəkət edərdi. Yəni Azərbaycan kimi ölkələrdə əmək haqları hələlik aşağı olduğundan, məsələn, ABŞ şirkətləri öz vətənlərində deyil, gəlib Azərbaycanda istehsalla məşğul olmalı idilər. Beləcə ölkələrarası kəskin rifah fərqləri də azalmış olacaqdı.

Lakin yeni nəzəriyyələr bu fikirləri alt-üst etdi. Məlum oldu ki, həm kapital və investisiyalar, həm də əmək ehtiyatları əsasən yoxsul iqtisadiyyata sahib ölkələrdən zəngin iqtisadiyyata sahib ölkələrə doğru yönəlir. Çünki bilgi (informasiya) çağını yaşayan zəngin iqtisadiyyata sahib ölkələrdə təhsilin və ən yeni texnologiyaların istehsal prosesinə tətbiqi sayəsində çox yüksək məhsuldarlıq həddi əldə edilməkdədir. Bunu belə başa düşmək olar: ABŞ-da 3000 dollar əmək haqqı alan bir işçi Azərbaycanda 100 dollar əmək haqqı alan 30 işçidən daha artıq əlavə dəyər yaradır. Ona görə də bu gün dünyanın maliyyə bazarlarında dolaşan və həcmi trilyon dollarlarla ölçülən kapitaldan Azərbaycan kimi

keyfiyyətli əmək ehtiyatları və mütəxəssis sarıdan sıxıntı çəkən ölkələr (enerji sektoru istisna olmaqla) yetəri qədər pay ala bilmir.

Macarıstan təcrübəsi isə göstərdi ki, ölkə zəruri hazırlıqları görmədən xarici sərmayə cəlb eləsə belə bu ölkədaxili rifah səviyyəsini arzu olunan səviyyədə yüksəltməyə də bilər. Əgər həm ölkəyə xarici sərmayə cəlb etmək, həm də bunun rifah üzərində pozitiv effektini görmək istəyiriksə bu işə İrlandiya kimi ciddi hazırlaşmalı və xarici sərmayə mövzusunda seçici qazanmalıyıq. Məsələn, kənd təsərrüfatına cəlb edilən xarici sərmayənin rifah üzərində təsiri çox məhdud olduğu halda, informasiya və telekommunikasiya sektoruna cəlb edilən xarici sərmayə rifah üzərində qat-qat yüksək pozitiv effekt yaratmaqdadır. İrlandiya hazırlığa məhz təhsil sahəsində ciddi islahatlarla başlamışdı. Bu islahatlar çərçivəsində İrlandiya universitetləri hər il İKT üzrə mütəxəssislər, çoxsaylı mühəndislər hazırlayır.

Minilliyin ən vacib İnkişaf Məqsədlərindən olan insan inkişafı və yoxsulluğun azaldılması, eləcə də İKT-dən və digər müasir texnologiyalardan istifadə məsələləri Azərbaycanda da vətəndaş cəmiyyətinin inkişafı zəminində dövlətin prioriteti olaraq qalır. Bu məqsədlərin əhəmiyyətinin daha dərindən başa düşülməsi iqtisadiyyatın və ictimai həyatın müxtəlif sektorları üçün tərtib edilmiş proqramlarda öz əksini tapmış, Azərbaycan bu məqsədlə bağlı artıq müəyyən nailiyyətlər əldə etmişdir.

İnsan inkişafında ən mühüm amil təbii ki, təhsil nəticəsində əldə edilən bilikdir. İKT də daxil olmaqla, müasir texnologiyalardan bilik və informasiyanın ötürülməsi üçün istifadə olunması Minilliyin İnkişaf Məqsədlərində bərabərlik, milli və qlobal səviyyədə inkişaf istiqamətində bir vasitə kimi müəyyən edilmişdir. Azərbaycan zəngin neft və qaz ehtiyatlarına malik olduğundan bu baxımdan xüsusi mövqeyə malikdir. Azərbaycan tükənən sərvət olan «qara qızıl»ın tükənməz kapital olan «insan qızılı»na çevrilməsi yolunda getdikcə analoji inkişaf yolunda olan bütün dünya ölkələri üçün parlaq bir örnəyə çevrilir.

İnsan qızılının formalaşması prosesi dedikdə, insan kapitalının inkişafının yalnız texniki sahələrin iqtisadi imkanlarının inkişafına deyil, həm də müasir texnologiyaların istehsal, planlaşdırma və idarəetmə sahələrində istifadəsinə xidmət edən bir proses başa düşülür.

İnsan qızılının formalaşması ən son bilik və texnologiyalara yiyələnmə prosesində insan inkişafının ən mühüm şərtini təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı» haqqında sərəncamında da təhsilin keyfiyyətinin yüksəldilməsində, gənclərin inkişafında və bütövlükdə Azərbaycanın gələcəyi üçün müasir texnologiyaların rolu bir daha göstərilmişdir. Dünyanın dinamik dəyişməsi, getdikcə mürəkkəbləşən texnologiyaların daim inkişafı və geniş istifadə olunması şəraitində təhsil sahəsində aparılan islahatlar fundamental əhəmiyyətə malikdir. Təhsilin məzmunu və keyfiyyəti, həlledici səviyyədə konkret şəxsiyyətin tələblərinə uyğunluğu müasir cəmiyyətin intellektual potensialının vəziyyətini müəyyənləşdirir. İnformasiya və telekommunikasiya texnologiyalarından istifadə edilməsi əsasında təhsilin bütün sferalarının intensiv inkişafı vacib milli prioritetə çevrilir.

Azərbaycan Prezidentinin imzaladığı və icrası prosesini ciddi nəzarətdə saxladığı bu proqram da ölkəmizdə mövcud iqtisadi potensialın insan kapitalına çevrilməsi, gələcək inkişaf yolumuzun məhz bu xətt üzrə müəyyənləşdirilməsi məqsədini əsas götürmüşdür.

Azərbaycan Respublikasında elm və təhsil sahəsində aparılan islahatların yüksək keyfiyyətlə həyata keçirilməsində, Azərbaycan elminin və təhsilinin səviyyəsinin dünya standartlarının tələblərinə uyğunlaşdırılmasında, milli kadrlarımızın inkişaf etmiş dövlətlərin aparıcı elmi-tədqiqat və təhsil mərkəzlərinin qabaqcıl təcrübəsindən və potensialından istifadə etməsində «Virtual İpək Yolu» layihəsinin müstəsna rolunu da qeyd etmək lazımdır.

3.5. Azərbaycanda distant təhsil

Təhsildə informasiya texnologiyalarının inkişafı baxımından əldə edilmiş bütün bu nailiyyətlər cəmiyyətimiz üçün hələ xeyli yeni olan distant təhsil anlayışını da gündəmə gətirir. Qloballaşma şəraitində ali təhsil almaq get-gedə insanların daha çox hissəsi üçün ümdə zərurətə çevrilir. Bu qədər tələbənin ənənəvi formalar üzrə təhsil alması hətta təhsil sahəsində tanınmış liderlər olan inkişaf etmiş ölkələr üçün də çox mürəkkəbdir. Ona görə də təhsilin ən yeni və effektiv texnologiyalarına, o cümlədən distant təhsil texnologiyalarına tələbat get-gedə artacaqdır. Son illərdə təhsil xid-

mətlərinin təqdim edilməsinin yeni forması – təhsil sahəsində bir növ texnoloji inqilab sayılan distant təhsil (DT, şəbəkə təhsili) intensiv inkişaf etmişdir. Distant təhsilin tarixi əyani şəkildə göstərir ki, o, dünyanın müxtəlif ölkələrində cəmiyyətin təhsil sahəsində yeni tələblərinə adekvat, relevant təhsil formasıdır. Təhsil xidmətlərinin təqdim edilməsinin yüksək operativliyini təmin edən distant təhsil XXI əsrdə təhsilin ən səmərəli forması olacaqdır. DT mobil virtual təhsil mühiti yaradılması və hər bir müdavim üçün çəkilən xərclərin ənənəvi təhsil sistemləri ilə müqayisədə 2–3 dəfə azaldılması hesabına təhsilin yüksək keyfiyyətini saxlamaqla təhsil xidmətlərinin əlyetərli olmasını təmin etməyə imkan verir. WEB-texnologiyaların potensialı bütün dünyanın təhsil resurslarını akkumulyasiya etməyə imkan verir. Qloballaşma, təhsil məkanının inteqrasiyası, təqdim edilən təhsil xidmətlərinin mobilliyinin, açıqlığının və operativliyinin təmin edilməsi şəraitində bu resursların bir yerə cəmlənməsi xüsusi əhəmiyyət kəsb edir. Distant təhsilin açıqlığı, yəni qəbul imtahanları vermədən ali təhsil almağın mümkünlüyünə təminat verilməsi də şəbəkə təhsil xidmətlərinin potensial istifadəçiləri üçün mühüm amildir.

Hazırda dünyanın bir sıra ölkələrinin ali məktəblərində öyrədici kompyuter proqramlarından səmərəli istifadə edilməsi üzrə, nəzəri fənlərin öyrədilməsinin ənənəvi metodlarının dəyişdirilməsi istiqamətində iş aparılır. Bu fakt onunla izah edilir ki, nəzəri tədris kurslarının az qala hər birini elektron variantda təqdim etmək mümkündür. Bu isə bir tərəfdən, mətn, qrafiklər, düsturlar və şəkillərdən ibarət ənənəvi tədris vəsaitlərinin analoqu olan müxtəlif multimedia vasitələrindən – videofilmlərdən, multiplikasiyadan, musiqidən və şifahi nitqdən istifadə etməyə, digər tərəfdən – laboratoriya işlərinin və praktiki işlərin məzmununu kompyuterdə modelləşdirməyə imkan verir, müasir dövrdə zəruri olan mürəkkəb qurğularla işləmək vərdişləri yaradır. Öyrədici kompyuter proqramlarının əlyetərli olması onunla təmin edilir ki, distant təhsil prosesində bu proqramlar disketlərdə və lazer kompakt disklərində (CD, DVD) yerlərə çatdırıla bilər. Parametrləri minimal tələblərə uyğun olan hər bir kompyuterdə bu proqramlardan istifadə etmək mümkündür. Yeni texnologiyalara əsaslanan distant təhsil sistemində qiyabi təhsil sahəsində toplanmış bütün təcrübədən istifadə edilir. DT əyani, əyani-qiyabi (axşam), qiyabi təhsil almaq, eksternat və bu formaların əlaqələndirilməsi şəklində həyata keçirilə bilər. Ali məktəb distant təhsili

həm müstəqil şəkildə, həm də öz struktur bölmələri – filiallar və nümayəndəliklər şəbəkəsi vasitəsilə təşkil edə bilər. «Bəs distant təhsilin həyata keçiriləcəyi informasiya mühitinə təqdim edilən zəruri tələblər nədən ibarət olmalıdır? Bu mühit: prosesin iqtisadi effektivliyini, mövcud təhsil formaları ilə müqayisədə onun ucuz və rəqabət qabiliyyətli olmasını təmin etməli; təhsil prosesinin bütün iştirakçılarının – şagirdin, müəllimin və təhsil müəssisəsinin şəbəkədə bərabərhüquqlu və tamdəyərli iştirakına təminat verməli; onlayn rejimində istifadə edilməsi rahat olan kompakt didaktik materialın operativ yaradılması və redaktə edilməsi imkanını təmin etməli; təhsil müəssisəsinin cəmiyyətdə tələbat olan ən müxtəlif təhsil resurslarını akkumulyasiya edən və onlardan istifadə edən dinamik və mobil struktura çevrilməsinə şərait yaratmalıdır». Distant təhsil prosesində telekommunikasiya vasitələrinin tətbiq edilməsi, pedaqoji baxımdan mütəşəkkil informasiya texnologiyaları kompleksindən istifadə edilməsi müdavimin və müəllimin olduğu yerlərdən asılı olmayaraq dolayı vasitələrlə onların qarşılıqlı təsirini tamamilə və ya qismən təmin etməyə imkan verir. Distant təhsil müdavimin fərdi kompyuterdən, interaktiv öyrədici təhsil proqramlarından və tütor ilə (müdavimin müəllimlə əlaqəsini təmin edən şəbəkə administratoru ilə) operativ əlaqə saxlamaq üçün elektron kompyuter şəbəkələrindən istifadə etməsini nəzərdə tutur. Dünyanın inkişaf etmiş ölkələrində ənənəvi asinxron (qiyabi) təhsil prosesi informasiya vasitələri paketini təqdim edir, təhsil müəssisəsi tərəfindən sistematik nəzarət edilməklə biliklər qazanılması, bacarıq və vərdişlər kompleksinin formalaşması təmin edilir. Sinxron (distant) təhsil formasının mahiyyəti ondan ibarətdir ki, öyrədilən şəxs tütor ilə, məxsusi işlənib hazırlanmış distant informasiya bazası ilə, elektron testləşdirmə vasitələri sistemi ilə sinxron qarşılıqlı əlaqədə təhsil alır. Müasir dövrdə təhsilin bu forması asinxron təhsil formasını tədricən sıxışdırır.

«Distant təhsil prosesinin təmin edilməsi üçün ənənəvi resurslarla yanaşı, distant təhsilin aşağıdakı vasitələrindən də istifadə edilir: multimedia müşahidə vasitələri ilə təchiz olunmuş ixtisaslaşdırılmış dərsliklər, elektron dərsliklərin, tədris vəsaitlərinin, kompyuter treninq proqramlarının daxil olduğu elektron tədris-metodik komplekslər, kompyuter laboratoriya praktikumları, nəzarət-testləşdirmə dəstləri, tədris videofilmləri, audioyazılar və s. Tədris prosesində əsas informasiya resursu kimi metodik (didaktik) baxımdan işlənmiş distant təhsil informasiya bazalarından istifadə edilməsi

onların tətbiq edildiyi vaxt üçün müasir tələblər səviyyəsinə uyğun olmasını, həcminə və məzmununa görə müəyyən səviyyəli əsas tədris proqramlarına təqdim edilən dövlət təhsil standartlarının tələblərinə müvafiq və ya əlavə peşəkar tədris proqramlarının məzmunu barədə tələblərə uyğun olmasını təmin edir. Distant təhsil üçün məlumat bazasına müxtəlif tipli daşıyıcılarda hazırlanmış nəşrlər şəklində əsas tədris ədəbiyyatı və tədris-metodik ədəbiyyat fondu; kadrların hazırlan-ması profillərinə müvafiq dövri nəşrlər, sorğu-biblioqrafik xarakterli nəşrlər, eləcə də mərkəzi və yerli kütləvi ictimai-siyasi nəşrlər fondu; hər bir təhsil proqramının profili üzrə monoqrafiyalar və dövri elmi nəşrlərlə təmsil olunmuş elmi ədəbiyyat fondu daxildir». DT üçün tədris materialının təşkil edilməsinin ən populyar forması – «internet kitabları»dır. Bu, mühazirələrin və kitabların elektron versiyaları olub, çox əlyetərlidir, çünki onlardan istifadə edilməsi üçün proqramlaşdırma üzrə xüsusi biliklər, o cümlədən Hypertext Markup Language (HTML) və ya JAVA kimi dilləri bilmək tələb olunmur. Bu onunla əlaqədardır ki, köməkçi proqramlar bütün zəruri materialların demək olar ki, hamısını istənilən mətn redaktorundan HTML formatına çevirməyə imkan verir.

Distant təhsil o halda tam həcmdə həyata keçirilə bilər ki, tədris planı üzrə nəzərdə tutulan saatların və tədris proqramlarının həcminin ən azı 70%-i müdavimlər tərəfindən distant təhsil texnologiyalarının köməyi ilə mənimsənilmiş olsun. Distant təhsil texnologiyalarının keys, İnternet və telekommunikasiya texnologiyaları kimi növləri vardır.

Keys texnologiyasından istifadə edən ali məktəbin sərəncamında İnternetə çıxış imkanı, müəllimlərlə tələbələr arasında tamdəyərli ikitərəfli əlaqəni təmin edən bütün zəruri tədris-metodik və təhsil-inzibati informasiyanı əks etdirən məxsusi WEB-sayt olmalıdır. WEB-saytın mövcud olması URL-in göstərilməsi, xidmət provayderi ilə müqavilə və saytın istismara buraxılmasını təsdiq edən sənədlər paketi ilə təsdiqlənir. Ali məktəbin WEB-saytının ayrıca bir bölməsində həmin ali məktəbə daxil olmaq qaydaları, sənədlərin rəsmiləşdirilməsi, təhsil haqqının ödənilməsi qaydaları, təhsil prosesinin təşkil edilməsi formaları və s. barədə tez-tez verilən suallara cavabların əks etdirildiyi informasiya olmalıdır. Tədris-metodik keysi aşağıdakı komponentlərdən ibarət olmalıdır: hər bir ixtisas üzrə tədris planı, müdavimin hər semestr üçün fərdi iş planı; dövlət təhsil standartlarının tələblərinə müvafiq olaraq həmin ixtisasın bütün nəzəri modul-kurslarının

məzmununun qısa annotasiyalı siyahısı (buraya bütün fənlər üzrə tədris proqramları, mühazirələrin elektron versiyaları, iş dəftərləri, laboratoriya praktikumları üzrə vəsaitlər, tələbənin interaktiv rejimdə müstəqil işinin idarə olunmasını təmin etməyə imkan verən metodik tövsiyələr, özünənəzarət üçün testlər və çalışmalar, sxemlər, cədvəllər; müdavimin mənimsəməli olduğu terminlərin qlossarisi, yerinə yetirilməsi attestasiya üçün zəruri olan tapşırıq və çalışmalar məcmuəsi, elektron kitabxana və s. daxildir). Tədris ədəbiyyatı disketlərdə, CD və ya DVD-lərdə, hipermətn və ya hipermediya formatında, video və audio proqramlar formasında nəşr edilir. Keysə həm də aşağıdakı tədbirlərin hansı formalarda reallaşdırılması barədə tövsiyələr daxildir: 1) ali məktəbin müdiriyyəti və tütor ilə müdavimin interaktiv kommunikasiyası; 2) tədris vaxtının planlaşdırılması; 3) ixtisas üzrə praktika keçilməsi barədə hesabat sistemi; 4) test treninqləri. Keys texnologiyası müdavimlərin ali məktəbin WEB-saytında yerləşdirilmiş İnternet resursları kompleksindən qeyri-məhdud istifadə etməsini, onların təxirə salınmış vaxt rejimində keçirilən internet-forumlarda iştirak etmək imkanına malik olmasını nəzərdə tutur. Bundan əlavə, real vaxt rejimində virtual konfransın tətbiq edilməsi, bu prosesdə eyni vaxtda bir neçə dinləyici ilə internet-seminarlar, məsləhətlər və treninqlər keçiriməsi də sınaqdan çıxarılır; müdavimlə müəllimin «təkbətək» real vaxt rejimində fərdi distant məsləhətlər keçirilməsi üçün İCQ resurslarından istifadə edilməsi.

İnternet (şəbəkə) texnologiyalarından istifadə edildikdə təhsil onun subyektlərinin harada olmasından asılı olmayaraq, tədris-informasiya resurslarından istifadə edilməsinə əsaslanır və tədris prosesinin reallaşdırılmasının və idarə edilməsinin metodik, təşkilati, texniki və proqram vasitələrinin mövcud olmasını nəzərdə tutur. Ali məktəb şəbəkə texnologiyaları üzrə distant təhsilin əyani formasından istifadə edərkən hər bir müdavimi bu cür iş yeri ilə təmin etməyə (onun özünün məxsusi və ya icarəyə götürülmüş fərdi iş yeri olmadıqda) borcludur. Əyani təhsil formasında İnternet texnologiyanın tətbiq edilməsi təhsil iş yerlərinin hökmən yaradılmasını tələb etmir: bu halda tədris məşğələlərinin effektiv keçirilməsi, biliklərə cari nəzarət, həmçinin aralıq və yekun attestasiya üçün İnternetə çıxışı olan kompyuter sinifləri yaradılması ilə kifayətlənmək olar. Bu halda hər bir müəllim müdavimlərlə həm sinxron, həm də asinxron rejimlərdə qarşılıqlı əlaqə saxlamaq, eləcə də distant təhsilin tədris-informasiya resursları ilə işləmək

və tədris prosesini idarə etmək imkanına malik olur. Tələbənin internet texnologiyası üzrə təhsil alması üçün o, kompyuterdən yararlanmaq, telefona sahib olmaq, internetdən istifadə etmək imkanına malik olmalıdır.

Distant təhsilin İnternet texnologiyaları əsasında reallaşdırılmasının spesifik cəhəti ondan ibarətdir ki, hər bir müdavimin təhsil almaq üçün iş yerində istifadə etdiyi kompyuter buraxıcılıq qabiliyyəti ən azı 30 Kbit/c olan rabitə kanalları vasitəsilə qlobal İnternet şəbəkəsinə qoşulmalı, bir müdavim üçün informasiya resursları isə buraxıcılıq qabiliyyəti ən azı 1 Kbit/c olan xarici və ya məxsusi kanallara malik portallarda yerləşdirilməlidir. Şəbəkə texnologiyalarından istifadə edilməklə distant təhsil halında ali məktəb müdavimlər üçün təlim-tədris fəaliyyətinin tam informasiya təminatını işləyib hazırlamalıdır. Bu halda informasiya resursları müxtəlif daşıyıcılarda yerləşməli və kompyuter şəbəkələrinə, kompyuter texnologiyalarına əsaslanan operativ istifadə vasitələrini əhatə etməlidir. Şəbəkə texnologiyaları həm də tədris prosesinin idarə edilməsi üçün effektiv avtomatlaşdırılmış idarəetmə sisteminin mövcud olmasını nəzərdə tutur. Bu sistem tədris prosesinin sənədləşdirilməsi barədə tam əhatəli informasiyanın, bəzi tədris materiallarına, məsələn, kontrol tapşırıqlarına müraciətin məhdudlaşdırılması şərtilə tədrislə bağlı informasiyadan ibarət məlumat bazalarını əhatə edir. İnternet-texnologiya üzrə təhsil xidmətlərinin təqdim edilməsi yalnız o şərtlə tamdəyərli ola bilər ki, öyrənilməsi tədris planında nəzərdə tutulmuş bütün fənlər üzrə elektron dərsliklər, elektron məsələ kitabları, elektron praktikumlar, metodik vəsaitlər, tətbiqi multimedia vasitələri mövcud olsun. Tədris materiallarının xeyli hissəsi tələbənin fərdi işi üçün, qalan hissəsi, məsələn, multimediya-əlavələr isə kiçik qruplarla (hər biri 8 nəfərdən çox olmamaqla) iş rejimində istifadə edilmək üçün nəzərdə tutulmalıdır.

Telekommunikasiya (informasiya-peyk) texnologiyası əsasən informasiya-tədris resurslarının translyasiya edilməsi üçün kosmik peyk vasitələrindən, eləcə də müəllimin və tələbələrin effektiv kontraktlarının təmin edilməsi, tələbələrin ali məktəbin rəqəmsal kitabxanalar, videomühazirələr və s. məlumatları əhatə edən informasiya bazalarından istifadə imkanını təmin etmək üçün qlobal və lokal şəbəkələrdən istifadə edilməsinə əsaslanır. Distant təhsilin telekommunikasiya modeli həm poçt e-mail protokollarına (POP3 və İMAP4) əsaslanan off-line rejimində, həm də interaktiv öyrədici texnologiyalardan istifadə etməyə imkan verən http, ftp, gopher və başqa

protokollara əsaslanan on-line rejimində reallaşdırıla bilər. Telekommunikasiya (informasiya-peyk) texnologiyaları əsasında təlimin effektiv olması üçün aşağıdakı şərtlərin təmin edilməsi zəruridir: müdavimə yönəlmiş rabitə kanallarının buraxıcılıq qabiliyyəti ən azı 1 Mbit/c, müdavimdən kənara yönəlmiş rabitə kanallarının buraxıcılıq qabiliyyəti isə ən azı 8Kbit/c olmalıdır. Bu halda kompyuter iş yerinin konfiqurasiyası tədris fəaliyyətinin müxtəlif növlərinin effektiv şəkildə həyata keçirilməsi üçün real imkanları təmin etməlidir. Hər bir iş yerində CD, DVD qurğusunun, səs kartının və qulaqlıqların olması da zəruridir. Tədris prosesinin telekommunikasiya (informasiya-peyk) texnologiyaları üzrə təşkil edilməsi üçün dərslərin növbəliliyi nəzərə alınmaqla fərdi kompyuterlərlə, testləmə qurğuları ilə, videoyazılar aparılması və onların göstərilməsi üçün xüsusi aparatlarla təchiz olunmuş təhsil-iş yerlərinin təmin edilməsi zəruridir. Bundan əlavə, həmin iş yerlərində videoproyeksiya və telemühazirə studiyalarının olması bütün tələbələrin telekonfranslarda iştirak etməsinə, kompyuter və televiziya proqramlarına, videofilmlərə kollektiv halda baxmağa imkan verir.

Konkret ali məktəblərin hər biri distant təhsil sistemində tətbiq edilən sadaladığımız təhsil proqramlarının hamısından fərdi qaydada istifadə edir. Bu halda, bir tərəfdən ən effektiv texnologiyalara, digər tərəfdən – təhsil xidmətlərinin təqdim edilməsinin istifadəçilər tərəfindən daha çox tələbat olan formasına üstünlük verilir.

Distant təhsil sisteminin formalaşması postsovet məkanı ərazisində də ali təhsilin modernləşdirilməsinin strateji istiqamətlərindən biridir. Keçmiş SSRİ-nin tərkibinə daxil olan dövlətlərin təhsil praktikasının təhlili göstərir ki, bu ölkələrdə distant təhsilin inkişafında müəyyən ümumi meyillər müşahidə olunur. Məsələn, Rusiyada distant təhsilin inkişafının müasir mərhələsinin səciyyəvi cəhəti – dünya praktikasında qəbul edilmiş müxtəlif müasir təhsil texnologiyalarından geniş istifadə edilməsidir. Bu proses 90-cı illərin birinci yarısında başlamışdır. Rusiya Federasiyasının Ümumi və Peşə Təhsili Nazirliyi 23 may 1993-cü ildə qəbul etdiyi qərara əsasən, tədris materiallarının və informasiyanın istifadəçisinin harada olmasından asılı olmayaraq bilavasitə ona çatdırılması üçün ən yeni vasitələrdən və informasiya texnologiyalarından istifadə olunmasını təmin edən distant ümumtəhsil müəssisələri şəbəkəsi Rusiya Federasiyasının ali təhsil sisteminin ayrılmaz tərkib hissəsinə çevrilməlidir. Belə bir şəbəkənin yaradılması milyonlarla Rusiya

vətəndaşı üçün təhsil xidmətlərinin reallaşdırılmasının yeni bir kanalını təmin etməklə, təhsil sahəsində dövlət siyasətinin təhsilin humanist xarakteri, təhsil məkanının vəhdəti, təhsilin hamı üçün əlyetərli və demokratik olması, onun tələbələrin inkişaf və hazırlıq səviyyəsinin xüsusiyyətlərinə adaptiv olması, şəxsiyyətin sərbəst inkişafı deməkdir. Rusiyanın sosial-iqtisadi inkişaf yolları, ölkədə ali məktəbin humanitarlaşdırılması bu ölkədə humanitar distant təhsil sistemi yaradılmasını zəruri edir. Distant təhsil sistemi yalnız o halda səmərəli ola bilər ki, onun əsas struktur elementlərinin mərkəzləşdirilməsi müəyyən səviyyədə olsun və bu mərkəzləşdirmə regional mərkəzlərin müstəqilliyi ilə əlaqələndirilsin. Ona görə də distant təhsil sistemi ümumdövlət xarakteri daşımalı və Rusiya Federasiyasının Ali Təhsil üzrə Dövlət Komitəsi vasitəsilə idarə edilməlidir. 1994-cü ildə RF Distant Təlim İnstitutu yaradılmışdır. 1997–1999-cu illərdə RF Təhsil Na-zirliyinin distant təhsil sahəsində keçirdiyi eksperimentin nəticələri distant təhsil sahəsində birinci dərəcəli vəzifələri və çoxsaylı problemləri aşkar etməyə, eləcə də təhsil xidmətlərinin bu formasının təqdim edilməsinin hüquqi aspektlərini tənzimləyən normativ-hüquqi baza yaradılmasının əsası kimi, distant təhsil sahəsində dövlət standartlarının işlənib hazırlanmasının zəruri olmasını müəyyən etməyə imkan vermişdir. RF-nin bəzi aparıcı ali məktəbləri distant təhsilin təşkilində artıq müəyyən uğurlar qazanmışlar.

Müasir Azərbaycan əhalisinin yeni təhsilə tələbatını, ölkədə baş verən siyasi dəyişiklikləri, müvafiq təhsil texnologiyalarına tələbatı, beynəlxalq əlaqələrin, o cümlədən təhsil sahəsində əlaqələrin genişlənməsini; təhsil prosesinin iştirakçıları arasında informasiya mübadiləsinin keyfiyyətcə yeni texniki vasitələrinin intensiv inkişafını; təhsil xidmətləri üzrə dünya bazarlarında rəqabətin güclənməsi şəraitində təhsildə beynəlxalq inteqrasiyanın artmasını, dünya miqyaslı vahid təhsil məkanının formalaşmasını nəzərə alsaq, distant təhsilin üstünlükləri aşkardır, distant təhsilin inkişafı isə Azərbaycanın təhsil sistemi üçün də xüsusi aktuallıq kəsb edir.

Azərbaycanda kompyuter şəbəkələrində iş təcrübəsinin az olması, maliyyələşdirmə ilə bağlı çətinliklər, eləcə də kifayət qədər yüksək hazırlığa malik kadrların olmaması ona gətirib çıxarmışdır ki, indiyə qədər qəbul edilmiş proqramlar və planlar telekommunikasiya vasitələrinə əsaslanan distant təhsil sisteminin praktiki gerçəkləşdirilməsi ilə nəticələnməmişdir. Praktiki olaraq, ölkədə şəbəkə texnologiyalarından istifadə edilməsinə əsaslanan

distant təhsil sistemi yoxdur. Ali məktəblərdə peşəkarlıq səviyyəsi o qədər aşağıdır ki, tələbələrin çoxu kompyuter texnologiyalarını öz müəllimlərindən qat-qat yaxşı bilirlər.

Ölkədə distant təhsil sisteminin işlənib hazırlanmasının zəruriliyi həm də onunla izah edilir ki, elmi-tədris potensialının yüksək dərəcədə təmərküzləşdiyi ayrı-ayrı şəhərlər təhsil xidmətlərinin potensial istifadəçilərindən xeyli uzaqda yerləşir. Lakin distant təhsil sisteminin yaradılması ali məktəblərin heç də hər birində təşkil edilə bilməz, çünki yeni təhsil texnologiyaları yalnız müəyyən maliyyə, kadr, texnoloji və texniki təchizat səviyyəsinə çatdıqdan sonra tətbiq edilə bilər.

Azərbaycanın ali təhsil sisteminə təlimin yeni formasının tətbiq edilməsi mərhələsində həll edilməli olan ən mühüm məsələ distant təhsilin əlyetərli olmasının təmin edilməsi, onun rəqabət qabiliyyətli və şəbəkə təhsil proqramlarının keyfiyyətli olmasıdır. Aşkardır ki, distant təhsilin davametmə müddəti, təhsilin məzmunu və tədris prosesinin təşkil edilməsinin formaları dövlət təhsil standartlarının, tədris proqramlarının tələblərinə müvafiq olaraq tərtib edilmiş konkret fənlərin tədris planları çərçivəsində müəyyən edilməlidir; müdavimlərin kursdan kursa keçməsi təhsil işinə cari nəzarətin, zaçotların və imtahanların nəticələrinə əsasən həyata keçirilməlidir; təhsilin yekunlarına görə ali məktəbi distant təhsil sistemi üzrə bitirmiş məzun diplom işi müdafiə etdikdən sonra ona bakalavr elmi dərəcəsi və dövlət nümunəli diplom verilməlidir.

Azərbaycanda distant təhsil təşkil edilərkən təhsil xidmətlərinin bu növünün potensial istifadəçiləri olan konkret sosial qruplara oriyentasiya nəzərə alınmalıdır. Bu qruplara ölkənin təhsil mərkəzlərindən uzaqda yerləşən bölgələrdə yaşayan ən müxtəlif yaşlı şəxsləri; artıq təhsil almış və peşə hazırlığının səviyyəsini artırmaq arzusunda olan mütəxəssislər; paralel olaraq ikinci təhsil almaq istəyən tələbələr; məşğulluq xidmətlərində qeydiyyata alınmış şəxslər; DİN və sərhəd qoşunları sisteminin zabitləri və müddətli xidmət keçən əsgərləri; təhsil sisteminin buraxıcılıq qabiliyyətinin məhdud olması, təhsili iş ilə birləşdirmək zərurəti üzündən ənənəvi sistem üzrə təhsil almağa imkanı olmayan gənclər; ölkənin Silahlı Qüvvələrində xidmətdə olan şəxslər; ixtisasın spesifik xüsusiyyətləri üzündən ənənəvi təhsil texnologiyaları üzrə təhsil ala bilməyən şəxslər; azadlıqdan məhrumetmə yerlərində olan şəxslər; ənənəvi formalardan da təhsil almaq üçün tibbi əks

göstəriciləri olan şəxslər bu sosial qruplara aid edilə bilər. Yuxarıda sadalanan bütün sosial kateqoriyaların nümayəndələri üçün təhsil almağın ən mühüm şərtləri – işdən ayrılmadan təhsil almaq imkanı, təhsil xidmətlərinin ənənəvi formaları ilə müqayisədə maya dəyərinin daha aşağı olması, bu xidmətlərin keyfiyyəti və başqa amillərdir.

Distant təhsil kurslarının işlənib hazırlanması ilk növbədə Azərbaycanın milli mentalitetinə görə təhsil xidmətləri prestijli sayılan ixtisaslar üçün, eləcə də təhsil xidmətlərini ixrac etməyə real şansı olan ali məktəblər üçün, xüsusən Neft Akademiyası və İqtisad Universiteti üçün həyata keçirilə bilər. Bu sırada Azərbaycan Beynəlxalq Universitetinin riyaziyyat ixtisası üzrə təcrübəsi önəmlidir.

Hazırda ölkənin ali məktəblərinin dünya distant təhsil şəbəkələrinə qoşulması, distant təhsil kurslarının və təhsil şəbəkələrinin kifayət qədər genişlənməsini təmin etməli olan telekommunikasiya tədris layihələrinin işlənib hazırlanması məsələsi ön plana keçir. Lakin bütün qüvvə və vəsaitlər əsasən texniki məsələlərin, o cümlədən şəbəkədə informasiya nəql edilməsinin əsasının yaradılması məsələsinin həlli üzərində cəmləşməməlidir, çünki təhsil-metodik vasitələrin işlənib hazırlanması və kadrların yenidən hazırlanması distant təhsilin daha çox əmək məsrəfləri və maddi xərclər tələb edən cəhətidir. Tələb edilən sayda tütorların, yəni distant təhsilin effektivliyini təmin edə biləcək şəbəkə administratorlarının olmasının təmin edilməsi son dərəcə vacibdir. Distant təlimin tam həcmdə təşkil edilməsi üçün Azərbaycanın ali məktəbləri aşağıdakı amilləri təmin etməklə məxsusi fərdi virtual təhsil mühiti yaratmalıdırlar: həm hər bir müdavim üçün, həm də təhsilin bir və ya bir neçə qrupa istiqamətlənməsi variantı üçün spesifik informasiya-təhsil mühitində işləmək vərdişlərinə yiyələnmiş müəllimlərin hazırlanması; bütün tədris fənləri üzrə elektron tədris-metodik komplekslər və ya multimedia vasitələrindən istifadə edilməklə fərdi tədris-metodik materiallar dəstini əhatə edən xüsusi keyslərin olması; tədris prosesinin müvafiq tələblərə uyğun tamdəyərli inzibati tənzimlənməsini təmin edən xüsusi (o cümlədən elektron) informasiya-sənəd dövriyyəsinin mövcud olması; televiziya, kompyuter və şəbəkə vasitələrinin köməyilə məşğələlərin effektiv keçirilməsi üçün didaktik təminatın yaradılması; bütün fənlər üzrə tədris prosesini dövlət təhsil standartlarına müvafiq olaraq səmərəli təşkil etməyə imkan verən xüsusi avadanlıqla təchiz olunmuş otaqların olması. Ali mək-

təbdə distant təhsilin informasiya-təhsil mühiti müdavimlərin təhsil ilə bağlı tələbatının təmin edilməsinə yönəlmiş məlumatlar kompleksinin, informasiya resurslarının, qarşılıqlı təsir protokollarının, aparat-proqram və təşkilati-metodik təminatın sistemli şəkildə təşkil edilmiş məcmusu olmalıdır.

Ali məktəbdə distant təlimin təşkil edilməsi prosesində iki əsas məsələnin həll edilməsi zəruridir: təhsilin təşkili məsələsi və elmi-metodik məsələ. Təşkilati məsələ mərkəzdə və ölkənin regionlarında ali məktəbin aşağıdakı funksiyaları həyata keçirən təhsil-metodik filiallarının yaradılması yolu ilə həll edilir: regionda təhsil xidmətlərinin marketinqi, reklam kampaniyası və abituriyentlərin cəlb edilməsi, qəbul imtahanlarının təşkil edilməsi və ali məktəbə qəbulun rəsmiləşdirilməsi, təhsil prosesinin təşkili (başlanğıc və məsləhət məşğələləri, cari nəzarətin və yekun nəzarətinin müxtəlif formaları: imtahan-zaçot tədbirləri, kurs işlərinin və buraxılış işlərinin müdafiəsi). Bu mərkəzlər həm də elektron məlumat bazası – «elektron dekanlıq» (tələbə kadrlarının uçotu və təhsil prosesinin nəzarətin tələbələr haqda zəruri informasiyanı: onların pasport məlumatlarını, baza təhsili və müvəffəqiyyəti barədə məlumatları əhatə edən sistem) yaradılmasını nəzərdə tutan keyfiyyətli sənəd dövriyyəsini təmin etməlidirlər. Distant təlim prosesinin interaktivliyi informasiyanın müdavimlər tərəfindən hansı səviyyədə mənimsənilməsinin yoxlanması funksiyalarını da əhatə edir. Müdavimlər kompyuter proqramı ilə qarşılıqlı təsir prosesində yoxlama tapşırıqları kompleksini yerinə yetirməli, test suallarına cavab verməlidirlər. Material tam mənimsənilmiş olmadıqda proqram həmin müdavimi avtomatik olaraq onun qənaətbəxş səviyyədə anlamadığı və mənimsəmədiyi bölməyə və ya mövzuya qaytarır.

Azərbaycanda distant təhsilin effektiv modeli yaradılarkən həll edilməli mühüm məsələlərdən biri də həm tələbələrin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsinə ənənəvi yanaşmalardan, həm də şəxsiyyətin identifikasiyasını təmin edən təlimin keyfiyyətinə nəzarətin elektron formalarından (elektron testləşdirmə və s.) istifadə edilməklə müdavimlərin təhsilinə cari nəzarətin və aralıq attestasiyanın optimal və effektiv formalarının müəyyən edilməsidir (məsələn, ABŞ-da ixtira edilmiş xüsusi cihazlar tələbənin çap işini hansı sürətlə və hansı metodla görməsinə əsasən onun şəxsiyyətini identifikasiya etməyə imkan verir). Distant təhsil sistemində aralıq attestasiya müdavimlərin biliklərinin qiymətləndirilməsinin reytinq (yığım) prinsipinə əsaslanmalı və imtahanların, zaçotların, test yoxlama işlərinin, yoxlama

attestasiyası aparılmasını və kurs işlərinin, fərdi layihələrin yerinə yetirilməsini nəzərdə tutmalıdır. Hər tədris ilinin sonunda tədris planının tələblərinə müvafiq olaraq bütün fənlər üzrə yekun yazılı inteqrasiya edilmiş imtahan keçirilməlidir. Bu, attestasiyanın təşkil edilməsi və aparılması ilə əlaqədar ali məktəbin məsrəflərini xeyli azaltmağa imkan verər. Məzunların yekun attestasiyası isə qiymətləndirmənin yalnız ənənəvi metodları ilə həyata keçirilməlidir.

Ali məktəb distant təhsili təşkil etmək üçün konkret tədris kurslarının öyrənilməsində hər bir tələbə üçün təhsil-metodik materialların xüsusi dəstini tərtib etməlidir. Buraya kursun baza fənləri üzrə dərsliklər; CD və DVD-də yazılmış müntəxəbat; elektron daşıyıcılara (CD, DVD) yazılmış mühazirə kursları; metodik tövsiyələr, tapşırıqlar, xüsusi testlər və özünüyoxlama üçün suallar, yoxlama və kurs işlərinin, referatların mövzuları, sorğu ədəbiyyatının siyahısı və tələbənin təhsil prosesində qarşılaşacağı terminlərin qlossarisi, ali məktəbin elektron kitabxanasında olan ədəbiyyat barədə məlumatlar daxildir.

Distant təhsil texnologiyaları işlənib hazırlanarkən aşağıdakı komponentlər də nəzərdə tutulmalıdır: hipermətnlə – virtual dərsliklə iş, öyrənilən materialın elmi-nəzəri icmalı, təhlili və referatlaşdırılması, ev tapşırığının yerinə yetirilməsi; imprintinq mühazirə-videofilmə baxış; peyk televiziya mühazirəsinə baxış; kompyuter siniflərində iş, diskussiyalar, işgüzar və rol oyunları formasında interaktiv seminarlar, şifahi və yazılı kurs işlərinin yerinə yetirilməsi; fərdiləşdirilmiş orijinal metodika üzrə qlossarinin öyrənilməsi; İnternet şəbəkəsində fərdi məşğələlər; laboratoriya işlərinin və praktiki məşğələlərin aparılması üçün universal modullar, elektron kitabxana fondları ilə iş; cari modul testləşdirmə və yazılı buraxılış imtahanları. Offlayn təlim texnologiyasından istifadə edilən halda müdavim İnternetə daxil olmadan, e-mail vasitəsilə bütün tədris materiallarını əldə edə bilər. Distant təhsil sistemində geniş informasiya bazasından istifadə edilməsi informasiyanın qorunması, istifadə edilən proqram vasitələrini işləyib hazırlayanların müəlliflik və əmlak hüquqlarına riayət edilməsi, həmin vasitələrin testləşdirilməsi və sertifikatlaşdırılması ilə bağlı bir sıra əlavə problemlərin həll edilməsi zəruridir.

Distant təhsildə tədris fəaliyyətinin təşkil edilməsinin dünya praktikasında geniş yayılmış formalarından – telekonfranslardan, işgüzar oyunlardan,

qrup halında diskussiyalardan, interaktiv tədris materialları ilə iş metodlarından, case study üsullarından istifadə edilməsi məqsədəuyğundur. Bir faktı da nəzərə almaq lazımdır ki, distant təhsil sistemində tədris məşğələlərinin keçirilməsi forması tamamilə dəyişir: bu halda aktiv və intensiv məşğələlər (işgüzar oyunlar, «beyin hücumu», «konkret halın öyrənilməsi») formasında aparılan tütoriallara, praktiki məşğələlərə və laboratoriya işlərinə üstünlük verilir. Distant təhsildən istifadə edildikdə təhsil prosesinin təşkilinin daha bir səmərəli forması qrup halında və fərdi məsləhətlərdir. Tələbələrin qarşılaşdığı müxtəlif problemlərin həlli prosesində bu formaya da xüsusi yer verilir.

Distant təhsil üçün nəzərdə tutulmuş tədris materialları aşağıdakı tələblərə cavab verməlidir: informasiya şəffaflığı, tədris materiallarının zorla qəbul etdirilməməsi, onların qavrayış üçün sadə olması, redaktə və referatlaşdırma işlərinin asanlığı, qənaətcillik, özünənəzarətin yüksək dərəcəsi, əks əlaqə yaratmaq üçün interaktiv imkanların mövcud olması. İstər bütövlükdə distant təhsil prosesi, istərsə də hər bir təhsil kursu başlanğıc məşğələlərdən, şərhlərdən başlanmalıdır. Bu məşğələlərdə tələbə müəllim barədə məlumat alır, tədris kursunun xülasəsi, məqsədləri və vəzifələri ilə tanış olur, hər bir konkret kursun öyrənilməsində hansı dərsliklərdən və əlavə tədris materiallarından istifadə edə biləcəyi, eləcə də cari və yekun nəzarətin hansı formada həyata keçiriləcəyi barədə məlumat alır. Tədris kursuna müvafiq terminlərin qlossarisi əlavə edilməlidir. Qlossaridə həmin bilik sahəsində istifadə edilən, tələbə təhsil kursunu keçərkən onun işləməli olacağı bütün yeni terminlərin mənası izah edilir.

Ölkəmizdə pedaqogika elminin distant pedaqogika istiqamətinin inkişafı da təxirə salınmadan həll olunması tələb edilən birinci dərəcəli məsələlər qisminə aid edilməlidir. «Distant şəbəkə təlimi problemi kompleks xarakter daşıyır: burada psixoloji-pedaqoji, sosioloji və iqtisadi elementlər vardır. Təhsilin bizim gözlərimiz qarşısında yaranmaqda olan bu sahəsini distant pedaqogika adlandırmaq ən düzgün variant olardı. Artıq bu gün inamla deyə bilərik ki, distant pedaqogikanın həll etməli olduğu ən mürəkkəb məsələ yeni dövrə xas olan konveyer pedaqogikasını fərdiləşdirilmiş modellərlə əvəz etməkdən ibarətdir və bu cür modellərin texnoloji baxımdan cilalanması artıq gündəmdədir. Bu halda «avadanlıq + proqram» probleminin həllinə ənənəvi yanaşma o qədər də məqbul deyildir, çünki distant təhsilin fəlsəfəsi yaradılmadan, bu prosesi tam təfsilatı ilə təsəvvür etmədən pərakəndə

funksional elementlərin öz-özünə nə şəkildəsə ahəngdar işləməyə başlayacağına ümid etməklə distant təhsilin ideyasını yalnız hörmətdən salmaq olar. Hansı avadanlığın zəruri olmasını və ondan necə istifadə ediləcəyini; alınan proqram təminatının real imkanlarını və həmin proqram təminatının təhsil müəssisəsinin üzləşdiyi yeni məsələlərin məhz hansı hissəsini həll edəcəyini; təhsil prosesinin hər bir iştirakçısının rolunun nədən ibarət olmasını bilmək vacibdir». DT-də müəllimin rolu əsaslı şəkildə dəyişir. Artıq o, əsas informasiya mənbəyi deyil, müdavimlər üçün informasiya məkanında bir növ bələdçiyə çevrilir.

Yuxarıda deyilənləri yekunlaşdıraraq bu nəticəyə gəlmək olar ki, DT sisteminin Azərbaycanda təhsil praktikasına səmərəli tətbiq edilə bilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir: 1) sosial sifarişi, yəni Azərbaycanda DT-yə tələbatı, onun vəziyyətini və inkişaf perspektivlərini öyrənmək; 2) inkişaf etmiş dövlətlərin DT sistemlərinin inkişafının aparıcı meyillərini aşkar etmək; 3) DT-nin inkişafı üzrə dövlət proqramı yaratmaq; 4) ali təhsilin müxtəlif səviyyələri üçün baza tədris fənləri üzrə DT-nin tədris-metodik, elmi-metodik və proqram-texniki təminatını işləyib hazırlamaq: aparıcı müəllimlərin mühazirələrinin videoçəkilişi, təhsil prosesində istifadə edilən ədəbiyyatın videobankının, CD-bankının, CD-surətlərinin, distant təhsil texnolo-giyaları əsasında öyrəniləcək təhsil fənləri üzrə kompyuter tester-trenajorları bankının yaradılması işlərinə başlamaq; 5) DT üçün kadrlar hazırlanması, onların təkrar hazırlanması və ixtisasartırma sistemini yaratmaq; 6) DT-nin normativ-hüquqi, informasiya-analitik və marketinq təminatını inkişaf etdirmək; 7) DT sistemində işləyəcək mütəxəssislər hazırlanmasını təşkil etmək; 8) ölkədə DT sisteminin inkişafını təmin edən maliyyə mexanizmlərini müəyyənləşdirmək və təşkilati-idarəetmə strukturlarını formalaşdırmaq; 9) həm ənənəvi – cari və yekun nəzarət mexanizmlərini, həm də DT sistemi üçün spesifik elektron nəzarət mexanizmlərini yaratmaq; 10) DT-nin informasiya və təhsil texnologiyalarının reallaşdırılması üçün kommunikasiya infrastrukturunu təkmilləşdirmək; 11) DT sahəsində beynəlxalq əməkdaşlığın inkişafını, beynəlxalq təhsil layihələrində iştirakı fəallaşdırmaq; 12) ölkəmizdə təhsilin ən yaxşı ənənələri, qabaqcıl beynəlxalq təcrübə, ən yeni psixoloji-pedaqoji, informasiya, kommunikasiya və digər texnologiyalar nəzərə alınmaqla tərtib edilmiş kompleks inteqrasiyalı təhsil proqramlarından istifadə edilməsi yolu ilə təhsilin yüksək stan-

dartlarını və keyfiyyətini təmin etmək; 13) müdavimlərin kontingentinin spesifikası, onların həll etdiyi sosial və təhsil məsələlərinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla DT-nin məzmununun konkret və ünvanlı olması prinsipini reallaşdırmaq; 14) ölkədə DT haqqında müsbət ictimai rəy, DT sisteminin inkişafında iştirak etmək arzusunu bildirmiş təşkilatlar və şəxslər üçün əlverişli investisiya şəraiti yaratmaq; 15) DT-nin maliyyə-ləşdirilməsinin çoxkanallı olmasını, DT sisteminin formasının başlanğıc mərhələsində dövlətin start maliyyələşdirməsindən sonra tədricən özünümaliyyələşdirmə rejiminə keçidi təmin etmək.

Yuxarıda sadalanan tədbirlərin həyata keçirilməsi DT-ni müasir dövrün sosial kontekstinə daxil etməyə imkan verəcəkdir. Bu, ümdə zərurət və Azərbaycan Respublikasının ali təhsil sisteminin modernləşdirilməsinin strateji istiqamətlərindən biridir.

3.6. Təhsil yoxsulluğa qarşı

Ulu öndərimiz Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasını uğurla gerçəkləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət hesabına cəmiyyət həyatının ən müxtəlif sferalarında əsaslı irəliləyişlər əldə edilir. Ölkəmizdə özəl sektor inkişaf edir, milli iqtisadiyyatımızın yaxın gələcəkdə qeyri-neft sektoru üzərində qurulması üçün böyük proqramlar hazırlanır, respublikamızın ən müxtəlif bölgələrində yeni profilli istehsal-emal müəssisələri yaradılır, maşınqayırma, metallurgiya, yüngül sənaye, turizm sənayesi və sənayenin digər sahələrinin inkişafı istiqamətində mühüm addımlar atılır. Bütün bunlar təbii ki, həm də böyük kadr potensialı tələb edir və bu kadr potensialının əsas hissəsi qeyd edilən profillər üzrə ixtisaslı mütəxəssislər hazırlayan texniki peşə məktəblərində yetişməlidir.

Bu baxımdan Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişaf proqramı (2006–2009-cu illər) mühüm əhəmiyyət daşıyır. Məlumdur ki, Azərbaycan Respublikasının təhsil sisteminin tərkib hissəsi olan texniki peşə təhsili cəmiyyətin müxtəlif mərhələlərində formalaşaraq tarixi yol keçmiş, respublika iqtisadiyyatının bütün sahələrinin ixtisaslı fəhlə kadrlarına olan ehtiyacının ödənilməsində mühüm rol oynamışdır.

Peşə məktəbi və peşə liseyləri elmi-texniki tərəqqinin inkişafı və müasir texnologiyaların tətbiqi ilə əlaqədar daha mürəkkəb və geniş profilli, yüksək intellektə malik olan ixtisaslı kadrları hazırlayan təhsil müəssisələrinə çevrilmişlər.

Azərbaycanda texniki peşə təhsili ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969–1982-ci illərdə daha surətlə inkişaf etmiş, həmin dövrün 100-dən çox texniki peşə məktəbi yaradılmış və bunlarda təhsil alan şagirdlərin sayı 40,9 mindən 109 minə çatdırılmışdır. 1988–1993-cü illərdə Azərbaycanda yaranmış mürəkkəb şərait bütün sahələrdə olduğu kimi texniki peşə təhsilinin inkişafına da mənfi təsir göstərmişdir.

1993-cü ilin ortalarında ümummilli lider Heydər Əliyevin Azərbaycana yenidən hakimiyyətə qayıdışından sonra ölkənin siyasi-ictimai həyatında qeyri-sabitliyə son qoyulmuş və peşə məktəblərinin fəaliyyəti ölkədə sosial-iqtisadi sahələrin inkişafına yönəldilmiş və iqtisadiyyatın bütün sahələrində olduğu kimi, texniki peşə təhsilində də köklü islahatların aparılmasına şərait yaranmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında peşə təhsili sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında» 1996-cı il 23 avqust tarixli 116 №-li qərarı ilə respublikada fəaliyyət göstərən texniki peşə təhsili müəssisələrinə peşə məktəbi və peşə liseyi statusu verilmişdir.

1994-cü ildən sonra maddi-texniki bazası zəif və yüksək ixtisaslı kadrlar hazırlamaq imkanları məhdud olan 58 texniki peşə məktəbi ləğv edilmiş və ya birləşdirilmişdir.

«Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı»nın təsdiq edilməsi texniki peşə təhsilində yeni siyasətin məqsədyönlü həyata keçirilməsinə şərait yaratmışdır. Proqrama müvafiq olaraq texniki peşə təhsili məzmununun yeniləşdirilməsi sahəsində xeyli iş görülmüşdür. Tədris plan və proqramlarının məzmunu və quruluşu təkmilləşdirilmiş, ayrı-ayrı fənlər inteqrasiya edilmiş, şagirdlərin bilik və bacarıqlarının səviyyəsinə təsir etmədən artıq həftəlik dərs yükü azaldılmış, «Ümumtəhsil fənləri» bölməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında ümumorta təhsilin dövlət standartlarının təsdiq edilməsi haqqında» 1999-cu il 29 aprel tarixli 72 nömrəli qərarına uyğun yenidən işlənmişdir.

İslahat proqramı qəbul edildikdən sonra texniki peşə təhsili müəssisələrinin fəaliyyətini tənzimləyən 26 adda hüquqi-normativ sənəd yenidən işlənmiş və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş, kitabça şəklində nəşr olunmuşdur.

Texniki peşə təhsili sahəsində informasiya, tədris, elmi- pedaqoji və metodiki təminatı yaxşılaşdırmaq məqsədilə 2000-ci ildən «Sənətkar» jurnalının nəşrinə başlanmışdır.

Peşə məktəbi və peşə liseylərində təlim-tərbiyə prosesinin səmərəliliyini yüksəltmək, şagirdlərin peşə və fənlərə olan maraq və meyillərini artırmaq, istedadlı şagirdləri üzə çıxarmaq, onlarla işin forma və metodlarını təkmilləşdirmək məqsədilə fənn olimpiada və peşə müsabiqələrinin keçirilməsinə diqqət xeyli artırılmışdır.

Texniki peşə təhsili müəssisələri fəaliyyət göstərdiyi illərdə maşınqayırma və cihazqayırma, neft və neft kimya, elektronika və elektron sənayesi, inşaat, nəqliyyat, rabitə, kənd təsərrüfatı və meliorasiya, ticarət və ictimai iaşə, yüngül və yeyinti sənayesi, xidmət və digər sahələr üçün bir milyondan artıq yüksək ixtisaslı kadrlar hazırlayaraq istehsalata göndərmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003–2005-ci illər)» çərçivəsində də «Peşə hazırlığı sisteminin yenidən qurulması», «Peşəyönümü, peşə hazırlıgı və yenidən hazırlıq sisteminin təkmilləşdirilməsi», «Qadınlar arasında işsizliyin azaldılması məqsədilə təlim kurslarının təşkili», «Fermerlərin idarəetmə və texniki biliklərinin artırılması», «Ətraf mühit üzrə təhsil proqramlarının hazırlanması və əhalinin maarifləndirilməsi», «Turizm üzrə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması» və s. kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Digər tərəfdən, «Azərbaycan Respublikasında Kiçik və Orta Sahibkarlığın inkişafının Dövlət Proqramı (2002–2005-ci illər)», «Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004–2008-ci illər)», «Azərbaycan Respublikasının inkişafı Naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)», «Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006–2015-ci illər)» barədə Respublika Prezidentinin fərman və sərəncamlarında peşələr üzrə kadr hazırlığının təkmil-

ləşdirilməsinə, texniki peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında əlaqələrin daha da yaxşılaşdırılmasına və müasir tələblərə cavab verməsinə ciddi ehtiyac olduğu göstərilmişdir.

Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişaf proqramı (2006–2009-cu illər) isə bu sahədə mövcud olan problemlərin həllinə yönəlməklə texniki peşə təhsili müəssisələrinin maddi-texniki müasir təlim avadanlığı hesabına (dəzgah, kənd təsərrüfatı texnikası, maşın, mexanizm və s.) yeniləşdirilməsi, tədris prosesinin kompyuterləşdirilməsi, yeni təhsil texnologiyalarının tətbiqi üçün tədbirlərin görülməsi, ölkə iqtisadiyyatının inkişafına və əmək bazarının tələblərinə uyğun yüksək texnologiyalı istehsal və xidmət sahələri üçün kadr hazırlığının genişləndirilməsi, texniki peşə təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması, əmək bazarında rəqabətədavamlı, yüksək ixtisaslı kadrlar hazırlayan yeni tip pilləli komplekslərin yaradılması və bu işlərin təşkilində müvafiq beynəlxalq və yerli müəssisələrin təcrübəsindən geniş istifadə, dövlət standartlarına uygun tədris plan və proqramlarının, dərslik və dərs vəsaitlərinin hazırlanması və nəşri, təlim-tərbiyə prosesinin səmərəliliyini artırmağa, şagirdlərin dərin və möhkəm biliklərə, yüksək peşə ustalığına yiyələnmələri, onlarda müasir iqtisadi təfəkkürün formalaşması, yeni texnika və texnologiyaları idarə etmək bacarıqlarının aşılanması üçün mühəndis – pedaqoji işçilərin ixtisasının artırılması və yenidən hazırlanması işinin təkmilləşdirilməsi məqsədinə hesablanmışdır.

Proqramda həmçinin texniki peşə təhsilinin əmək bazarının dəyişən tələbinə uyğunlaşdırılması məqsədilə bu sahə üzrə yeni ixtisas və ixtisaslaşma klassifikatorunun hazırlanması, kadr hazırlığı ilə mövcud iş yerlərinin sayı arasında tarazlığın təmin edilməsi, kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və ixtisasartırma şəbəkəsinin fəaliyyətinin əmək bazarının tələblərinə uyğunlaşdırılması, iqtisadiyyatın qeyri-dövlət bölməsi üçün kadr hazırlığına xüsusi diqqət yetirilməsi, əmək bazarında kadrlara olan tələbatın strukturuna və onun proqnozuna uygun olaraq müxtəlif ixtisaslı kadrlara olan tələbatın müəyyənləşdirilməsi, mütərəqqi təhsil formalarından istifadə etməklə fasiləsiz peşə təhsili sistemini daha da təkmilləşdirmək və bu yolla işçilərə öz iş yerində təhsilini davam etdirmək üçün şərait yaradılması barədə konkret müddəalar nəzərdə tutulmuşdur.

Ölkədə qeyri-neft sektorunu sürətlə inkişaf etdirməkdən ötrü kənd təsərrüfatı, turizm, emal və xidmət sahələri üçün kadr hazırlığının genişləndirilməsi, cəzaçəkmə müəssisələrində şəxslərin əmək bazarında işçi qüvvələrinə olan tələbata uygun peşələrə yiyələnmələrinin təmin edilməsi, ölkədə özəl sektorun payının artması, kiçik və orta sahibkarlığın sürətli inkişafı ilə əlaqədar özəl texniki peşə təhsili müəssisələrinin yaradılmasına kömək göstərilməsi, işəgötürənlərlə texniki peşə təhsili müəssisələri arasında sosial partnyorluq əlaqələrinin təşkili və bu prosesi tənzimləmək məqsədilə dövlət səviyyəsində əlaqələndirmə şurasının yaradılması, informasiya texnologiyalarından daha səmərəli istifadə etməklə inkişaf etmiş ölkələrdən məlumatlar toplamaq üçün texniki peşə təhsili müəssisələrinin internetə və digər informasiya kanallarına qoşulmasının təmin edilməsi və bunun əsasında məlumat bankının yaradılması, «Texniki peşə təhsili haqqında» Azərbaycan Respublikası Qanununun hazırlanması da proqramda qarşıya qoyulan məqsədlər sırasındadır. Azərbaycan Respublikasının Konstitusiyası, «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanunu, «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 №-li Fərmanı ilə təsdiq edilmiş «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə», 2002-ci il 17 avqust tarixli 753 №-li Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002–2005-ci illər)», 2003-cü il 20 fevral tarixli 854 №-li Fərmanı ilə təsdiq edilmiş «2003–2005-ci illər üçün «Yoxsulluğun azaldılması və iqtisadi inkişafı üzrə Dövlət Proqramı», 2004-cü il 11 fevral tarixli 24№-li Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004– 2008)», 2004-cü il 21 avqust tarixli 114 №-li Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Bilik günü»nün təsdiq edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında», 1999-cu il 15 iyun tarixli 168 №-li Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı», Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1994-cü il 3 avqust tarixli 291 №-li qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası peşə məktəbi və peşə liseyinin nümunəvi Əsasnaməsi»,

1996-cı il 23 avqust tarixli 116 №-li qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında peşə təhsili sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında», 2002-ci il 17 iyun tarixli 96 №-li qərarı ilə təsdiq edilmiş «Peşə təhsili sahəsində ixtisas və ixtisaslaşma klassifikatoru» bu proqramın qanunvericilik bazasını təşkil edir.

Bu proqramın həyata keçirilməsi nəticəsində texniki peşə təhsilinin hüquqi-normativ bazası təkmilləşəcək, texniki peşə təhsili müəssisələrinin maddi-texniki və tədris bazası müasir avadanlıqlarla təmin olunacaq, təlim prosesinin səmərəliliyi artacaq, müasir tələblərə cavab verən sənətkarların hazırlanlanması üçün əlverişli şərait yaranacaq, texniki peşə təhsili strateji istiqamətlər üzrə daha da inkişaf edəcək, texniki peşə təhsilinin yeni hüquqi, iqtisadi və informasiya bazası yaranacaq, texniki peşə təhsili müəssisələrinin elmi-metodiki və informasiya təminatı yaxşılaşacaq. Müasir texnika və texnologiyalara dair tədris materiallarını özündə əks etdirən proqramların, dərslik və dərs vəsaitlərinin hazırlanması və nəşri sahəsində əsaslı dönüş yaranacaq. Təlim-tərbiyənin məzmunu şagirdlərin imkanlarına uyğun dövlətin, ictimaiyyətin və şəxsin tələbatı əsasında qurulacaq.

Kadr hazırlığının planlaşdırılmasının çevik mexanizmi yaradılacaq, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşacaq, dövlət və qeyri-dövlət müəssisələrinin kadrlara olan tələbatı tam ödəniləcək.

Şagird kontingentinin tərkibi keyfiyyətçə yaxşılaşacaq, yeni yaranan sahələr üçün kadr hazırlığı artacaq. Peşə məktəbi və peşə liseylərinin strukturu və idarə edilməsi mexanizmi təkmilləşəcək, regionlarda yeni tip dövlət və özəl peşətəhsili müəssisələri yaradılacaq.

Regionların tələbatına cavab verməyən texniki peşə təhsili müəssisələrinin profili dəyişdiriləcək, maddi-texniki bazası zəif olan peşə məktəbi və peşə liseyləri ləğv ediləcək. Şagirdlərin sosial müdafiəsi gücləncək, onlar üçün müxtəlif mədəni-kütləvi və idman-sağlamlıq tədbirlərinin təşkili üçün geniş imkanlar təmin ediləcək.

Texniki peşə təhsilinin maliyyələşdirilməsinin yeni mexanizmini əks etdirən iqtisadi model formalaşacaq. Mühəndis-pedaqoji işçilərin sosial müdafiəsi yaxşılaşacaq, onların pedaqoji ustalığının və metodiki hazırlığının yüksəlməsinə, ixtisas biliyinin genişlənməsinə səbəb olacaq. Bütün bunlar Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan

təhsilinin əldə etdiyi çox ciddi irəliləyişlərdir ki, cəmiyyətimiz bunların bəhrəsini qısa bir zamanda görəcəkdir.

Musiqi və ümumilikdə incəsənət təhsili sahəsində də son illər bir sıra ciddi nəticələr əldə edilib. Məlumdur ki, mədəniyyətin, incəsənətin inkişafı sahəsində zəngin ənənələrə malik Azərbaycan xalqı yüz illər boyu dünya mədəni irsinə öz layiqli töhfələrini vermiş, bəşəriyyət digər mədəni incilərimiz kimi milli musiqimizin də ecazkarlığına heyran qalmışdır. Azərbaycanda incəsənət ənənələrinin indiki səviyyədə inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin bu istiqamətdə atdığı addımlar Azərbaycan mədəniyyətinin inkişafı tarixində sözün əsl mənasında intibah mərhələsinin əsasını qoymuşdur. Ölkəmizdə incəsənət təmayüllü təhsil müəssisələrinin əksəriyyəti məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrlərində yaradılmışdır. Ümummilli lider yaradıcı ziyalıların, mədəniyyətimizin inkişafında xüsusi xidmətləri olan sənət adamlarının əməyini də həmişə yüksək qiymətləndirirdi. Yüzlərlə musiqi xadimi, bəstəkar, dirijor, sənətçi məhz Heydər Əliyevin səyləri nəticəsində keçmiş SSRİ-nin və Azərbaycanın ən yüksək təltiflərinə, fəxri adlarına layiq görülmüşlər. Ayrı-ayrı mədəniyyət xadimlərinin Azərbaycanın dövlət mükafatları ilə şərəfləndirilmələri, Prezident təqaüdünün təsis edilməsi, incəsənət, o cümlədən musiqi sahəsində xüsusi istedadı olan gənclərin adlarının «Qızıl kitab»a salınması Azərbaycan mədəniyyətinin inkişafı yolunda tarixi addımlardır. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş bu mütərəqqi ənənənin ümummilli liderin mənəvi irsinin ən layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən daha böyük əzmlə davam etdirilməsi isə hər birimizin uğurumuzdur. Milli mədəniyyətimizin, o cümlədən musiqimizin inkişafında xüsusi xidmətləri olan insanlar bu gün də dövlət qayğısı ilə əhatələnmişlər. İstedadlı gənclərin təhsilinə dövlət hər cür şərait yaratmış, bu məqsədlə xüsusi proqram qəbul olunmuşdur. Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafında musiqi, incəsənət təmayüllü ali və orta ixtisas təhsili müəssisələrinin rolu danılmaz olduğundan dövlət rəhbərliyinin bu sahəyə diqqəti xüsusi əhəmiyyətə malikdir. Qeyd edək ki, hazırda musiqi və incəsənət təmayüllü ixtisaslar respublikamızın 7 ali, 18 orta ixtisas təhsili müəssisəsində və 1 incəsənət gimnaziyasında öyrədilir. Ali məktəblərdə 18913, orta ixtisas məktəblərində 18816, incəsənət gimnaziyasında 1438 nəfər olmaqla ümumilikdə 39167 tələbə həmin ixtisaslar üzrə

təhsil alır. Ali məktəblərin magistratura pilləsində isə 1326 tələbə təhsilini davam etdirir. Bu tipli təhsil müəssisələrində ümumilikdə 5626 müəllim çalışır. Müvafiq təmayüllü təhsil müəssisələrinin fəaliyyəti nəticəsində xalqımızın musiqi mədəniyyəti bu günə qədər özünəməxsusluğunu qoruyub saxlaya bilmiş və daha da inkişaf etmişdir. Musiqi, incəsənət təhsilli peşə ixtisas hazırlığı respublikamızın bütün bölgələrində aparılır. Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Ağcabədi, Şamaxı, Ağdam şəhərlərində bu sahədə kadr hazırlığı aparılan tədris müəssisələri mövcuddur. Bu təmayüldən olan Şuşa Musiqi və Mədəni-Maarif texnikumları da fəaliyyətini davam etdirməkdədir. Dövlət başçısının həyata keçirdiyi humanitar siyasətə uyğun olaraq son illər Təhsil Nazirliyi musiqi təmayüllü təhsil müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi istiqamətində səyləri gücləndirmişdir. Bakı Musiqi Akademiyası, Şəki, Gəncə, Sumqayıt musiqi məktəblərində təmir işləri aparılmış, Azərbaycan Musiqi Akademiyası nəzdində Musiqi kolleci yeni bina ilə təmin olunmuşdur. Orta təhsilin kurikulumunda ümumtəhsil məktəblərində musiqi və nəğmə, təsviri incəsənət fənlərinin rolu xeyli artırılmış, şəxsiyyətin formalaşmasında bu fənlərin imkanlarından daha geniş və səmərəli istifadə nəzərdə tutulmuşdur. Məlum kollegiya iclasının qərarından sonra dövlət rəhbərliyinin dəstəyi ilə bu problemlərin də qısa zaman ərzində həllini tapacağına artıq yetərincə əsaslarımız vardır. Təhsil Nazirliyi ölkədə musiqi təhsilini təkmilləşdirmək üçün yeni perspektivlər müəyyən etmişdir. Ən səriştəli pedaqoqlardan, musiqi xadimlərindən ibarət komissiya yaradılmış, musiqi təhsilimizin inkişafı üçün həmin komissiya beş illik Dövlət Proqramının hazırlanması istiqamətində aktiv fəaliyyətə başlamışdır.

3.7. Azərbaycanda ali təhsilin inkişaf perspektivləri

Ali və orta ixtisas təhsili məktəblərinə tələbə qəbulu, bu prosesin tam obyektiv, şəffaf şəraitdə aparılması dövlət rəhbərliyinin təhsil sahəsində apardığı siyasətin strateji əhəmiyyətli istiqamətlərindən birini təşkil edir.

Bu proses artıq uzun illərdir ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) tərəfindən mərkəzləşdirilmiş qaydada, test üsulu ilə həya-

ta keçirilir. Dövlət Komissiyası yarandığı vaxtdan həmişə üzərinə düşən vəzifənin məsuliyyətini dərindən dərk edərək bütün istiqamətlər üzrə fəaliyyətini elmi əsaslar üzərində qurmağa, onu fasiləsiz surətdə təkmilləşdirməyə çalışmış və bu yöndə əsaslı nailiyyətlər əldə etmişdir. Bu nailiyyətlərin əldə olunmasında ulu öndər Heydər Əliyevin və ümummilli liderimizin mənəvi-siyasi irsinin ən layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Komissiyaya göstərdiyi diqqət və qayğının rolu müstəsnadır.

Hazırda Tələbə Qəbulu üzrə Dövlət Komissiyası müasir kompyuter texnologiyalarını nəinki yalnız tələbə qəbulu işinə, hətta tamamilə fərqli xarakterli kütləvi proseslərə də tətbiq etməyi təcrübədə sübuta yetirmişdir.

Dövlət Komissiyası tərəfindən keçirilən fənn olimpiadaları, monitorinq imtahanları, məhkəmə və prokurorluq orqanlarına namizədlərin test üsulu ilə seçilməsi, digər dövlət qurumlarında kadrların attestasiyasının aparılması və s. bu təcrübənin əyani nümunələridir.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının yaxından iştirakı ilə Mərkəzi Seçki Komissiyasının seçkilərin avtomatlaşdırılmış informasiya sisteminin yaradılması onun bu yöndəki fəaliyyətinin ən mühüm tərəflərindən sayıla bilər.

Fəaliyyət göstərdiyi dövr ərzində TQDK böyük bir inkişaf yolu keçmiş, ötən hər il komissiyanın fəaliyyətində bir sıra mühüm nailiyyətlərlə müşayiət olunmuşdur. Yada salaq ki, 1992-ci ildə komissiya hələ yenicə təşkil edilərkən ali və orta ixtisas məktəblərinə tələbə qəbulu birlikdə aparılırdı: abituriyentlər ərizələrində bu iki təhsil pilləsinin yalnız beş ixtisasını göstərə bilərdilər. Ərizələrdəki məlumatları 20–30 nəfərdən ibarət xüsusi operatorlar qrupu 15–20 gün ərzində kompyuterə daxil edir, cavab kartları Türkiyə Respublikasında çap edilir, imtahandan sonra onlar yenidən qardaş ölkəyə aparılıb optik oxuyucu qurğu vasitəsilə oxunur və ixtisaslar üzrə yerləşdirmə aparılırdı. Həmin il Komissiyaya cəmi 5 ədəd IBM 286 kompyuteri alınmışdı. İmtahan üçün test tapşırıqları bunkerdə bilavasitə müəllimlər tərəfindən bir variantda tərtib edilirdi.

1993-cü ildə isə abituriyentlərə ali və orta ixtisas məktəblərinin 10-a qədər ixtisasını seçmək imkanı yaradıldı, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası iki ədəd optik oxuyucu qurğu aldı, abituriyentlərin biliklərinin dəyərləndirilməsi və ixtisaslar üzrə yerləşdirilməsi TQDK-da yaradılmış

proqram təminatı vasitəsilə aparılmağa başladı. Test tapşırıqları bunkerdə müəllimlər tərəfindən əvvəlki ildəkindən fərqli olaraq iki variantda tərtib edildi.

1994-cü ildə ilk dəfə olaraq optik oxuyucu qurğunun tələblərini ödəyən «Abituriyentin ərizəsi» forması hazırlandı və ərizələrdəki məlumatlar optik oxuyucu qurğu vasitəsilə kompyuterə daxil edildi və emal olundu. Abituriyentlərə ali məktəblərin ödənişsiz əsaslarla 10-a qədər, ödənişli əsaslarla – 5-ə qədər və orta ixtisas məktəblərinin 5-ə qədər ixtisasını seçmək imkanı yaradıldı.

Qəbul imtahanlarının nəticələri 15 gün müddətinə elan olundu, hərbi məktəblərə qəbul imtahanlarının da mərkəzləşdirilmiş qaydada aparılması təşkil edildi. İlk dəfə olaraq bütün imtahan fənləri üzrə qəbul proqramları hazırlandı və abituriyentlərə çatdırıldı.

Test tərtibi metodikasını təkmilləşdirmək məqsədilə fənlər üzrə elmi-metodiki fənn seminarları təşkil edildi və onun işinə respublikanın tanınmış elm xadimləri, ali və orta məktəb müəllimləri, elmi və metodiki mərkəzlərin mütəxəssisləri cəlb olundu.

1995-ci ildə imtahan fənlərinin differensasiyası aparıldı və 8 fənn bloku formalaşdırıldı. Qabiliyyət imtahanı tələb edən ixtisaslara da yerləşdirmə TQDK tərəfindən aparıldı. Sürətli printerlər alındı. Artıq «Abituriyentin ərizəsi» və «Cavab kartı» formalarının kodlaşdırılaraq hazırlanması və emalı Türkiyə Respublikasında deyil, bilavasitə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında həyata keçirilməyə başlandı. Qəbul imtahanlarının nəticələri operativ şəkildə emal edildi və bir həftə ərzində ictimaiyyətə elan olundu. Komissiyada ekspert şuraları və testlər bankı təşkil edildi. TQDK-ya daxil olan test tapşırıqlarının ekspert şuraları tərəfindən ekspertizadan keçirildikdən sonra testlər bankında toplanılmasına keçildi.

TQDK-nın mətbuat orqanı olan «Abituriyent» jurnalı təsis edildi və ilk nömrələri ictimaiyyətə çatdırıldı. «Abituriyent» televiziya verilişləri hazırlandı. Komissiyaya bina verildi və onda əsaslı təmir işləri aparıldı.

Qəbul imtahanlarının nəticələrinin geniş elmi-statistik təhlili təşkil edildi. Əldə olunan materiallar çap edilərək abituriyentlərin, müəllimlərin və təhsili idarəetmə orqanlarının istifadəsinə verildi və bu cür araşdırma o vaxtdan indiyədək hər il aparılır.

1996-cı ildə isə TQDK-nın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində daha bir mühüm addım atılmış, test bankının idarə edilməsi və bankdan testlərin seçilməsi prosesi avtomatlaşdırılmışdır. Bunkerdə imtahan üçün test tapşırıqlarının formalaşdırılması ilk dəfə olaraq kompyuter vasitəsilə həyata keçirilmiş, hərbi məktəblərə qəbulun nəticələri cəmi bir gün sonra elan edilmişdir. Təhsil Nazirliyinin sifarişinə əsasən test üsulu ilə eksternat imtahanları və fənn olimpiadaları keçirilmişdir.

Abituriyentlərə aid məlumatlarda məntiqi yoxlamalar aparılması və saxta attestatların olması hallarının aşkarlanması üçün avtomatlaşdırılmış sistem yaradılmışdır. Abituriyentlərə öz bilik səviyyələrini yoxlamaq və onları test imtahanlarının texnologiyası ilə tanış etmək məqsədilə TQDK-da və bölgə mərkəzlərində sınaq imtahanlarının keçirilməsinə başlanmışdır. «Abituriyent» jurnalı müntəzəm nəşr olunmağa başlamış, həmin il jurnalın 10 sayı çapdan çıxmışdır.

1997-ci ildə təhsili ödənişsiz və ödənişli əsaslarla olan ixtisaslara tələbə qəbulu eyni zamanda aparılmışdır. İmtahan nəzarətçilərinin zallar üzrə paylanması və vəsiqələrin hazırlanması prosesi avtomatlaşdırılmışdır.

İmtahanların gedişinə operativ qaydada nəzarət etmək, baş verən müxtəlif halları araşdırmaq məqsədilə xüsusi proqram tərtib edilmiş, imtahan zallarında köçürmə hallarının aşkar edilməsi və qarşısının alınması üçün yeni texnoloji sxem tətbiq edilmiş və 4 variantlı test tapşırıqları hazırlanmışdır.

Kompyuterlərarası böyük həcmli informasiya mübadiləsinin operativliyini artırmaq məqsədilə lokal şəbəkə yaradılmışdır. TQDK-nın mətbəəsi təşkil olunmuş, qəbul imtahanlarında istifadə edilən test kitabçaları ilk dəfə olaraq TQDK-nın öz mətbəəsində hazırlanış və bununla da sistemin məxfiliyi və etibarlılığı tam təmin olunmuşdur. Abituriyentlərin qəbul imtahanlarına hazırlaşmasına kömək məqsədilə TQDK-da hazırlıq kursları təşkil edilmişdir.

1998–2000-ci illər ərzində isə abituriyentlərin ali məktəbə sənəd qəbulu zamanı rahatlığını təmin etmək məqsədilə respublikanın bütün rayon və şəhər təhsil şöbələrində Sənəd Qəbulu Komissiyaları yaradılmış, yeni yüksək sürətli optik oxuyucu qurğu alınmışdır.

Çap işlərini sürətləndirmək məqsədilə əlavə olaraq 2 ədəd MANNESMAN tipli sürətli çap qurğusu, 25 ədəd «Pentium» prosessorlu yüksək sürətli müasir kompyuter əldə edilmişdir.

Qəbul qaydalarını pozaraq abituriyentlərin əvəzinə başqalarının imtahan verməsi hallarının aşkar olunması üçün yeni mükəmməl texnologiya işlənib hazırlanmış və bunun tətbiqi sayəsində 53 abituriyentin əvəzinə başqa şəxslərin imtahan verməsi halları aşkarlanmışdır. Təqsirkarlar barədə ölçü götürülməsi üçün müvafiq inzibati orqanlar qarşısında məsələ qaldırılmışdır. Abituriyentlərin qəbula daha səmərəli hazırlaşmalarına kömək məqsədilə 1992–1998-ci illərdə qəbul imtahanlarında istifadə olunmuş test tapşırıqları ayrıca kitabçalar – test topluları şəklində çap edilmiş, hər bir topluda təxminən 1000 test tapşırığı dərc olunmuşdur.

Hər bir rayon və məktəb üzrə abituriyentlərin imtahan göstəricilərini əks etdirən kitabçalar hazırlanıb dərc edilmiş, əvəzsiz olaraq respublikanın məktəblərinə paylanmışdır.

TQDK-nın fasiləsiz surətdə enerji ilə təchiz olunması üçün binada generator quraşdırılmış, binanın 5-ci mərtəbəsi tamamilə qapalı iş rejiminə uyğunlaşdırılmışdır. Qapalı iş rejiminə tam nəzarəti həyata keçirmək məqsədilə binada videonəzarət qurğuları quraşdırılmışdır.

Müasir videokamera və kompyuterə əlavə edilmiş «fotoblaster» hesabına «nəzarətçilərin və abituriyentlərin şəkilləri bazası» yaradılmışdır ki, bu da imtahanda onların şəxsiyyətlərinin daha etibarlı yoxlanışını təmin etmişdir.

Məktəblilərin testlərlə işləmək vərdişlərinin artırılması və keçilən mövzuları daha yaxşı mənimsəməsi üçün «Abituriyent» jurnalının xüsusi buraxılışları olan fənlər və siniflər üzrə test taşırıqları toplularının çapına başlanmışdır.

Abituriyentləri ali məktəblərimizin ixtisaslar şəbəkəsi, maddi-texniki bazası, elmi-pedaqoji kadr potensialı, gələcək perspektivləri, nailiyyətləri, əlaqələri, sosial-mədəni həyatına dair məlumatlarla tanış etmək və onlara ixtisas seçimində yardımçı olmaq məqsədilə «Ali təhsil ocaqlarımız» adlı kitab çap olunmuşdur.

TQDK nəzdindəki «İNİKAS» Elm-İstehsalat Mərkəzi ölkənin ali məktəblərinin birinci kurs tələbələri arasında sosioloji sorğu keçirmiş, bu tədqiqat test sisteminin bir sıra sahələrdə təzahür edən problemlərinə Azərbaycan tələbə gənclərinin münasibətlərini öyrənməyə kömək etmişdir.

TQDK Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanına əsasən respublikada ilk dəfə olaraq məhkəmə hakimi vəzifəsinə

namizədlərin seçilməsi üçün test üsulu ilə imtahan keçirmişdir. İmtahanın təşkili və keçirilməsini izləyən yerli və xarici müşahidəçilər onun beynəlxalq standartlara uyğun şəffaf və obyektiv keçirilməsi barədə müsbət rəy vermişlər.

Dövlət Komissiyası bir çox qlobal miqyaslı tədbirlərin həllinə qoşulmağa, beynəlxalq təşkilatların iştirak etdiyi problemlərin həllində ölkəmizi təmsil etməyə başlamışdır. Həmin il Komissiya geniş miqyaslı təzahür sahələrinə malik olan və bütün dünya dövlətlərini əhatə edən «2000-ci il problemi»nin həllində Milli Qurum statusu ilə fəal iştirak etmişdir.

TQDK Mərkəzi Seçki Komissiyası ilə birlikdə Milli Məclisə seçkilərin avtomatlaşdırılmış informasiya sisteminin yaradılması və tətbiqində yaxından iştirak etmişdir.

2001–2002-ci illər ərzində Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında 1994-cü ildən formalaşan və qapalı şəkildə saxlanılan testlər bankı – hər bir fənn üzrə orta hesabla 4 mindən 8 minədək, bütövlükdə isə 100 minədək test tapşırığından ibarət olan bu zəngin mənbə çap edilib abituriyentlərin və müəllimlərin istifadəsinə verilmişdir.

TQDK İnternet şəbəkəsinə qoşulmuş və bununla bağlı əməkdaşların İnternetdən istifadə imkanlarının genişləndirilməsi məqsədilə Komissiya İnternet-servislə təmin olunmuşdur.

TQDK-nın İnternet saytı istifadəyə verilmişdir. Saytın köməyilə abituriyentlər öz biliklərini sınaqdan keçirmək, sənədlərin qəbulu, imtahanlara hazırlıq və onların gedişi barədə operativ məlumatlar əldə etmək imkanı qazanmışlar. Təkcə həmin il imtahanlara hazırlıq və bilavasitə imtahanlar ərəfəsində abituriyentlərdən və ümumilikdə ictimaiyyətdən TQDK-nın saytına 100 minədək müraciət daxil olmuşdur.

Çap işlərini sürətləndirmək məqsədilə TQDK-ya Printronix tipli sürətli çap dəzgahları alınmışdır. Qurulmuş müasir mətbəənin köməyilə ölkəmizdə optik formaların çapı mümkün olmuşdur.

Beynəlxalq layihələrin həyata keçirilməsində müsbət təcrübəsi və müasir informasiya texnologiyalarının tətbiq edilməsi sahəsindəki yüksək potensialı nəzərə alınaraq, TQDK «informasiya-kommunikasiya texnologiyalarının inkişafı üzrə milli strategiyanın işlənib hazırlanması və ilkin mərhələdə həyata keçirilməsi» layihəsinin icraedici orqanı, onun sədri isə – Layihənin Milli Koordinatoru təyin edilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 9 yanvar 2002-ci il tarixli

sərəncamı ilə TQDK-nın sədrinə Layihəni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti verilmişdir.

2002-ci il fevralın 7-də Bakıda Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMT İP) ilə Azərbaycan hökuməti arasında İKTMS-in hazırlanması və ilkin mərhələdə tətbiq edilməsi layihəsi imzalanmışdır.

Dövlət Komissiyası sentyabrın 10-da Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi haqqında» Əsasnaməyə uyğun olaraq Prokurorluq orqanlarına işə qəbul olunmaq istəyən şəxslərin test üsulu ilə imtahanı keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanına uyğun olaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyası Məhkəmə-Hüquq Şurası ilə birlikdə 2002-ci il oktyabrın 17-də Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasında vakant olan hakim vəzifələrinə namizədlərin seçilməsi məqsədilə test imtahanı keçirmiş, imtahanı beynəlxalq müşahidəçilər, o cümlədən BMT-nin Azərbaycandakı nümayəndələri və digər beynəlxalq təşkilatların təmsilçiləri, habelə kütləvi informasiya vasitələrinin nümayəndələri müşahidə etmişlər.

2003–2004-cü illərdə isə Sumqayıt şəhərində XI sinif şagirdlərinin bilik səviyyəsini yoxlamaq məqsədilə TQDK tərəfindən Respublikada ilk dəfə monitorinq tipli yoxlama – test imtahanı keçirilmiş, imtahana şəhərin məktəblərində təhsil alan 4 mindən artıq şagird qatılmış, imtahan prosesinə 350-dən artıq müəllim nəzarət etmişdir.

Şagirdlərin və abituriyentlərin proqram materiallarını mənimsəmə səviyyəsinin yoxlanılması, biliklərinin möhkəmləndirilməsi, testlərlə işləmək vərdişlərinin artırılması məqsədilə TQDK xüsusi metodika əsasında ayrı-ayrı fənlər və siniflər üzrə test kitabçaları hazırlayıb çap etməyə başlamışdır. Yeni tədris proqramları və dərsliklər əsasında tərtib edilən bu kitabçalar orta məktəb üçün dərs vəsaitləri statusu almışdır.

Təhsil Nazirliyində təhsil ictimaiyyəti nümayəndələrinin iştirakı ilə bu vəsaitin və TQDK-nın yeni internet saytlarının – «Mənim məktəbim» layihəsi, «Poliqlot» elektron lüğəti, «Əlaçı» layihəsi və «Abituriyent» jurnalının saytının təqdimat mərasimi keçirilmişdir.

Respublika Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı ilə «Azərbaycan Respublikasının İnkişafı naminə İnformasiya və Kommu-

nikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003–2013-cü illər)» təsdiq edilmiş və Respublika Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırığı verilmişdir.

TQDK aprelin 6-da Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi haqqında» Əsasnaməyə uyğun olaraq Naxçıvan şəhərində Muxtar Respublikanın prokurorluq orqanlarına işə qəbul olmaq istəyən 94 namizəd arasında test imtahanı keçirmişdir. İmtahanın nəticələri aprelin 7-də emal edilmiş və həmin gün faks və elektron poçt vasitəsilə Naxçıvana göndərilmişdir.

«Azərbaycan Respublikasında Dövlət Dili haqqında» Azərbaycan Respublikasının qanununa müvafiq olaraq abituriyentlərin Azərbaycan dili və ədəbiyyat fənnindən biliyinin daha dərindən yoxlanılmasını təmin etmək məqsədilə Azərbaycan bölməsində Azərbaycan dili və ədəbiyyat fənn blokunda sualların sayı 25-dən 35-ə qədər artırılmış, rus bölməsində isə dil və ədəbiyyat fənn blokuna Azərbaycan dili fənni üzrə 10 suldan ibarət testlər əlavə edilmişdir.

TQDK Azərbaycan Respublikası Müdafiə Nazirliyinin müraciətinə əsasən avqustun 28-də C.Naxçıvanski adına Hərbi Liseydə həmin təhsil müəssisəsində dərs demək arzusunda olan müəllimlər üçün test üsulu ilə imtahan keçirmişdir. İmtahanda həm liseydə çalışan pedaqoqlar, həm də şəhərin digər məktəblərində işləyən müəllimlər iştirak etmişlər.

Respublika Prezidentinin sərəncamı ilə vətəndaşların dövlət qulluğuna işə qəbulu zamanı test üsulu ilə yoxlamadan istifadə olunması nəzərdə tutulmuş və bu işin aparılması TQDK-ya həvalə olunmuşdur.

Orta məktəb şagirdləri və abituriyentlərin öz biliklərini kompyuter vasitəsilə yoxlaması üçün TQDK tərəfindən respublikada ilk dəfə olaraq «Elektron test» tədris-metodiki vəsaitlərinin hazırlanmasına və onların kütləvi tirajla buraxılmasına başlanılmışdır. Kompakt disklər şəklində buraxılan bu vəsaitlərin hər birində 11 fənn üzrə yeni tədris proqramlarını əhatə edən test tapşırıqları yerləşdirilmişdir.

TQDK 2004-cü ildə xüsusi texnoloji proqramlardan istifadə etməklə ali məktəbə qəbul imtahanı verən abituriyentlərin cavablarının ekspertizasını keçirmiş və müəyyənləşdirmişdir ki, III ixtisas qrupunun bir qisim abituriyenti imtahan zamanı hazır cavablardan (şparqalkalardan) isti-

fadə etmişdir. TQDK Tələbə Qəbulu Qaydalarının 12-ci bəndinə əsasən 99 nəfər abituriyentin imtahan nəticələrini ləğv etmiş və bundan sonra III ixtisas qrupunda yeni yerləşdirmə aparmışdır. Nəticədə 403 abituriyent ərizəsində göstərdiyi və daha çox arzuladığı ixtisasa yerləşdirilmiş, müsabiqəyə buraxılan 34 abituriyent isə tələbə adı qazanmışdır. Qəbul Qaydalarının pozulması ilə əlaqədar aparılan ilkin araşdırmanın nəticələri Respublika Prezidentinə məruzə olunmuşdur. Ölkə başçısı məsələnin sonrakı araşdırılmasını MTN-ə tapşırmışdır. MTN-nin apardığı əməliyyat-istintaq tədbirləri nəticəsində imtahan suallarının çap olunduğu kitabçaları Komissiyanın qapalı rejimdə işləyən mətbəəsindən çıxarmağa müvəffəq olan, onların əsasında cavab variantları hazırlayıb çoxaldan və onları valideynlərə və abituriyentlərə paylayan bir qrup şəxs həbs edilmişdir. MTN-nin apardığı yoxlamalar nəticəsində o da müəyyən edilmişdir ki, TQDK-nın informasiya bazasına heç bir müdaxilə olmamışdır və yaradılmış sistem özünü intellektual səviyyədə etibarlı şəkildə qoruya bilmişdir.

2004-cü ilin noyabr ayında ölkədə ilk dəfə olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin vakant yerlərinə işçi qəbul etmək məqsədilə test imtahanı keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında» Əsasnaməyə uyğun olaraq Respublikanın Baş Prokurorluğu Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə birlikdə prokurorluq orqanlarına qəbul olunmaq arzusunda olan şəxslər üçün test imtahanlarından və söhbətdən ibarət müsabiqə keçirmişdir.

Ali məktəblərə ən yüksək balla qəbul olan tələbələrin Prezident təqaüdünə layiq görülməsi ənənəsi Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə də uğurla davam etdirilmiş, Prezidentin 30 sentyabr 2004-cü il tarixli sərəncamı ilə ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 100 nəfər tələbəyə hər biri beş yüz min manat (yəni 150 AZN) məbləğində olmaqla Prezident təqaüdü verilmişdir. Ölkə başçısının 30 sentyabr 2004-cü il tarixli fərmanı ilə Prezident təqaüdçülərinin sayı 25-dən 100 nəfərə, təqaüdlərin məbləği isə 200 min manatdan 500 min manata (yəni 1000 AZN) qaldırılmışdır.

TQDK universitet təhsili almaq üçün ərizə ilə müraciət edən məzunların bilik səviyyəsini ümumtəhsil məktəbləri üçün proqram və kurslar çərçivəsin-

də hazırlanan standartlara əsasən qiymətləndirir. Qəbul imtahanları prosesinə testlər üçün istifadə olunan vizual formaların tərtib olunması, ərizə ilə müraciət edən məzunların bilik səviyyəsini qiymətləndirmək üçün milli standartların hazırlanması, məzunlar, kadrlar, mütəxəssislər, təhsil müəssisələri üçün məlumat bazasının yaradılması və onun tənzimlənməsi, test imtahanlar prosesinə cəlb olunan kadrların seçilməsi və onlara təlimlərin keçirilməsi, hər bir məzuna onun göstərdiyi nəticələr, hər bir təhsil müəssisəsinə isə onun qabaqcıl məzunları barədə məlumat vermək, nəticələrin statistik təhlili və prosesin gələcək inkişafı barədə tövsiyələrin hazırlanması daxildir. Qeyd edilən bütün bu mərhələlər tam avtomatlaşdırılmış texnoloji prosedurlar vasitəsilə açıq sosial texniki sistem kimi hazırlanmışdır.

Müasir texnologiyaların tətbiqi ilə həyata keçirilən qəbul imtahanlarının əsas tərkib hissəsi ondan ibarətdir ki, bu texnologiyalar yalnız ixtisaslara uyğun surətdə həyata keçirilən qısamüddətli test imtahanları vasitəsilə məzunların biliyini deyil, həm də ümummilli və əyalət, şəhər, kənd, məktəb və vətəndaş səviyyəsində ümumi təhsil səviyyəsini qiymətləndirməyə imkan verir. İnformasiya texnologiyalarından istifadə vaxta və insan resurslarına qənaət etməyə, həmçinin test imtahanları zamanı obyektivliyin saxlanılmasına imkan yaradır.

İnformasiya və Kommunikasiya Texnologiyalarının istifadəsi aşağıda göstərilən prosesləri təmin edir: test imtahanı prosesinin şəffaflığını; nəticələrin hazırlanması prosesinin sürətləndirilməsini; biliyin qiymətləndirilməsində obyektivliyin qorunmasını; əhalinin müxtəlif təbəqələrinin təhsilə bərabər qovuşmasını; hökumətin test imtahanları prosesi üçün ayırdığı maliyyə və insan resurslarının azaldılmasını; təhsil prosesi üçün daha böyük stimul yaradılmasını.

Tələbələr və Test sistemi («Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan birinci kurs tələbələri arasında sosioloji sorğu» adlı hesabatda deyilir: «Test sisteminə münasibətlə bağlı suala verilmiş cavabların təhlili göstərmişdir ki, valideynləri xüsusi ixtisas tələb etməyən və kənd təsərrüfatı işlərində çalışan tələbələrin 70 faizi test imtahanının onların biliklərini geniş səviyyədə nümayiş etdirdiyinə inandıqlarını bildirmişlər. Bu fakt bir daha sübut edir ki, test sistemi sosial statusundan asılı olmayaraq bütün məzunlar üçün eyni şərait yaradır. Buna görə də yoxsul ailələrdən olan tələbələrin böyük bir qismi əhalinin digər sosial qruplarından fərqli olaraq test sisteminə üstünlük verirlər».

3.8. Boloniya prosesi – reallıqlar, problemlər, perspektivlər

Son illər Azərbaycanda ali təhsilin inkişafı ilə bağlı əldə edilən ən ciddi nailiyyətlər sırasında respublikamızın təhsil sahəsində Boloniya prosesinə qoşulması faktının özünəməxsus yeri var. Azərbaycan 19 may 2005-ci il tarixdə Boloniya prosesinə qoşulmaqla faktiki olaraq, yaxın gələcəkdə ali təhsil sistemimizdə aparılacaq islahatların əsas istiqamətləri müəyyənləşdirilmiş, Təhsil Nazirliyi, Avropanın norma və standartlarına müvafiq olaraq ali təhsil sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, bu sektorda islahatların aparılması, vahid Avropa təhsil məkanına inteqrasiyanı sürətləndirmək məqsədilə informasiya və təcrübə mübadiləsi kimi öhdəliklər götürmüşdür.

Bu gün Azərbaycan öz təhsil sisteminin inkişaf prioritetlərini dünyada, o cümlədən Avropa məkanında gedən proseslərə inteqrasiya olunmaqla müəyyənləşdirir. Hazırda ali təhsil sahəsində həyata keçirilən islahatların əsas istiqamətini də məhz bu prinsip təşkil edir. Müasir dövrdə Avropa ölkələri təhsil sistemlərinin inteqrasiyası və ümumavropa ali təhsil məkanının formalaşdırılması xüsusi aktuallıq kəsb edir. Bu istiqamətdə dünyanın 45 ölkəsinin qoşulduğu Boloniya prosesi müstəsna əhəmiyyət daşımaqdadır.

Təhsildə də «Avropa standartları» var və bu standartlar «Boloniya prosesi» çərçivəsində formalaşır. «Boloniya prosesi» ilə Avropa Ali Təhsil Zonası yaranır. 1999-cu ildə 29 Avropa ölkəsinin təhsil nazirləri 2010-cu ilə qədər konsensus və əməkdaşlıq içərisində Avropa Ali Təhsil Zonasını yaratmaq məqsədilə Boloniya Deklarasiyasını imzalamışlar. Boloniya Deklarasiyasının əsas məqsədləri – asanlıqla başa düşülən və müqayisə edilə bilən dərəcələr sisteminin adaptasiya edilməsi, iki əsas pillə üzərində qurulan bir sistemin adaptasiya edilməsi (bakalavr magistratura), kredit sisteminin qurulması, çətinlikləri aşaraq sərbəst hərəkət imkanlarının tətbiqi üçün dinamiz-min dəstəklənməsi, keyfiyyət təminatı kimi Avropa əməkdaşlığının təqdimi, ali təhsil proqramlarında Avropa aspektlərinin dəstəklənməsi şəklindədir.

2001-ci ildə Boloniya Deklarasiyasına Praqa Deklarasiyası çərçivəsində ömür boyu təhsil, ali təhsil qurumlarını və tələbələri aktiv olaraq

«Boloniya prosesi»nə qoşmaq, Avropa Ali Təhsil Zonasının cazibəsini artırmaq hədəfləri əlavə edilmişdir. «Boloniya prosesi» 2003-cü ildə imzalanan Berlin Deklarasiyası və 2005-ci il Bergen Deklarasiyası ilə daha da inkişaf etdirilmişdir.

«Boloniya prosesi»ndən gözlənilən əsas faydalar universitetlərin öz potensiallarını ölçə bilmələri, universitetlərin akademik dünya tərəfindən daha yaxşı tanınması, universitetlərin Avropada və dünyada rəqabət qabiliyyətinin artması, Avropa Birliyinin çalışmalarını əldə edə bilmə, şəbəkələrə daxil olma və müvəffəqiyyətli çalışmalardan nümunə götürə bilmə imkanının təmini və bu çalışmalar üçün Avropa Birliyindən maliyyə dəstəyinin təminindən ibarətdir.

Bəs biz Boloniya prosesinə qoşulmaqla ali təhsildə hansı nəticələrin əldə edilməsini gözləyirik? Fikrimizcə, ilk növbədə təhsilin məzmunu aparıcı ölkələrin universitetlərinin tələblərinə uyğunlaşdırılacaq, xarici ölkə mütəxəssis və alimlərinin respublikanın ali məktəblərinə cəlb olunma imkanları genişlənəcək, hər bir tələbə üçün fərdi təhsil trayektoriyası müəyyənləşdirilməklə ali təhsilin demokratikləşdirilməsinə nail olunacaq, tələbə və müəllimlərin mobilliyi təmin ediləcək, ali təhsil sistemimiz xarici ölkə vətəndaşları üçün daha cəlbedici olacaq, ali məktəblərimizin diplomları Avropa ali məktəblərinin diplomlarına uyğunlaşacaq, beynəlxalq tələblərə müvafiq meyarlar müəyyənləşdirilməklə ali təhsilin keyfiyyəti yüksələcək, hazırladığımız mütəxəssislər beynəlxalq aləmdə rəqabətə davamlı olacaq və s.

Boloniya prosesinin tələblərinə müvafiq olaraq 2006-cı ildən diplomların (blankların) tələbələrə pulsuz verilməsi barədə qərar qəbul edilmişdir. Boloniya deklarasiyasının öhdəlikləri ilə bağlı normativ sənədlərin hazırlanması məqsədilə işçi qrupu yaradılmış və 2006–2010-cu illər üçün fəaliyyət planı hazırlanmışdır.

İkipilləli ali təhsil sisteminin (bakalavriat, magistratura) məzmununun təkmilləşdirilməsi işi davam etdirilmişdir. Ali və orta ixtisas təhsili müəssisələrinin attestasiyası və akkreditasiyası haqqında əsasnamə təsdiq edilmişdir. Buna müvafiq hazırlanmış qaydalar Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.

Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi əsasnamə layihəsi hazırlanmış və bu sistemin icrasına başlanmışdır.

Ötən müddət ərzində Boloniya prosesinin tələbləri istiqamətində Təhsil Nazirliyi və ali məktəblər tərəfindən ali təhsildə mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsi, çoxpilləli təhsil sisteminə keçid və bununla bağlı verilən ixtisas dərəcələrinin eyniləşdirilməsi, tələbələrin biliyinin qiymətləndirilməsində çoxballı sistemin tətbiqi, təhsilin keyfiyyətinə nəzarətin müasir mexanizmi kimi attestasiya və akkreditasiyanın tətbiqi və sair sahələrdə də müəyyən işlər görülmüşdür.

Ali təhsil sistemində etdiyimiz əsaslı dəyişikliklərdən biri də bütün istiqamətlər üzrə yeni nəsil dövlət təhsil standartlarının hazırlanmasıdır. Beynəlxalq təcrübəyə müvafiq olaraq yeni standartlarda auditoriya saatlarının miqdarı azaldılmış (20 faizədək), seçmə fənlərə ayrılan saatların miqdarı xeyli çoxaldılmışdır. Boloniya prosesinin tələblərinə uyğun olaraq nəzəri həftələrin sayı azaldılmış, təcrübənin müddəti ixtisaslardan asılı olaraq artırılmışdır.

Bildiyiniz kimi, Boloniya prosesinin əsas tələblərindən biri ali təhsildə kredit sisteminin tətbiqidir. Dünya təcrübəsində kredit sisteminə müxtəlif yanaşmalar mövcuddur. Ayrı-ayrı ölkələrdə təhsilin məzmunu və təşkili formalarından asılı olaraq, kredit sistemi müxtəlif formalarda tətbiq olunur. Lakin yanaşmalar müxtəlif olsa da, məqsəd birdir – ali təhsildə demokratik prinsiplərin bərqərar olması və təhsilin keyfiyyətinin yüksəldilməsi.

Əlbəttə, kredit sisteminin tətbiqi, ilk növbədə, onun böyük üstünlüklərə malik olması ilə bağlıdır. Bu sistemin bir sıra üstünlüklərini nəzərə çatdıraq:

Bu sistemdə hər bir tələbə özünün fərdi tədris planını tərtib edir və ona fənlərin öyrənilməsi ardıcıllığını müəyyənləşdirməyə imkan yaradılır, beləliklə, tələbələrin tədris prosesinin təşkilində bilavasitə iştirakı təmin olunur.

Hər bir tələbə ayrı-ayrı fənlərdən ali məktəbin imkanları daxilində müəllimi seçmək hüququna malik olur, bu da müəllim-tələbə münasibətlərinin daha səmərəli qurulmasına xidmət etməklə bu günədək mövcud olan neqativ halların qarşısını ala bilər.

Akademik borcların ləğvinə hazırda mövcud olan qaydaların əksinə az müddət keçdikdən sonra deyil, yalnız təkrar dinlədikdən sonra icazə verilir ki, bu da fənni mənimsəmədən tələbələrə qiymət yazılmasının

qarşısını alır və bir sıra neqativ halları aradan qaldırır. Müəllimlərin dərs yükü tələbələrin fərdi tədris planları əsasında müəyyənləşdirilir ki, bu da müəllimlərin məsuliyyətini xeyli artırır. Mühazirə və seminarların bir müəllim tərəfindən aparılması tələbi tədris prosesinə yüksək ixtisaslı mütəxəssislərin cəlb olunmasına və tədris yükünün optimal formalaşmasına şərait yaradır. Bu da tədrisin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərir.

Tədris plan və proqramlarının ümumavropa məkanının ali məktəblərinin müvafiq sənədləri ilə uyğunlaşdırılması təmin olunur. Bu da öz növbəsində tələbələrin həm ölkə daxilində, həm də ümumavropa məkanında mobilliyini təmin edir. Belə ki, ali məktəblər arasında bağlanmış müqavilələrə uyğun olaraq respublika ali məktəblərinin tələbələri Avropa ali məktəblərinə göndərilə bilər və onların qazandıqları kreditlər ali məktəblər tərəfindən qarşılıqlı tanınar. Beləliklə, tələbələrin ikili və ya iki diplom almalarına da şərait yaradılar. Bununla yanaşı, diplomların Avropa məkanında tanınmasına, xarici ölkə vətəndaşlarının Azərbaycan ali məktəblərində təhsil almalarına da geniş imkanlar təmin olunur.

Tələbələrin bir təhsil müddətində digər yaxın ixtisasa yiyələnə bilməsinə də şərait yaradılır. Məsələn, riyaziyyat ixtisası üzrə təhsil alan şəxslər qohum fənn götürməklə informatika, filologiya ixtisasının tələbələri isə jurnalistika ixtisasına da yiyələnə bilərlər və s.

Bundan başqa, istedadlı gənclərin təhsillərini müəyyən olunmuş müddətdən əvvəl başa vurmalarına şərait yaradılır. Tələbələrə öz seçimləri əsasında fənni mənimsəmək və təkrar dinləmək imkanı verildiyindən, onlar ali məktəbdən xaric olunmadan müəyyən müddət ərzində təhsillərini başa vura bilirlər. Diplomalara əlavənin yeni formada tərtibi və burada tədris olunan fənlərin məzmununun öz əksini tapması, hər fənnə kreditin müəyyənləşdirilməsi və qiymətləndirmənin Avropa standartlarına uyğun yazılması diplomların həmin məkanda tanınmasını xeyli asanlaşdırır.

Hər bir fənnin ayrıca bir blok (modul) şəklində müəyyənləşdirilməsi bu fənni tədris edən müəllimlərin işlədiyi ali məktəbin xarici partnyor ali təhsil müəssisələrində bir semestr, yaxud bir il həmin fənni tədris etməsinə şərait yaradır ki, bu da onun xarici təcrübəni öyrənməklə təkmilləşməsini təmin edir.

Yuxarıda sadalananlar kredit sisteminə keçidin nə qədər vacib olduğunu göstərən amillərdir. Lakin bu sistem Azərbaycan üçün yeni oluğundan bu yeniliklərin mənimsənilməsi üçün bir sıra addımlara da ehtiyac vardır. Bu məqsədlə ali məktəb tələbələrinin, müəllimlərin və valideynlərin geniş maarifləndirilməsi işi həyata keçirilməlidir.

Digər çətinliklər isə eksperiment aparılan istiqamətlər üzrə dövlət təhsil standartlarının və buna müvafiq tədris planlarının kredit vahidləri əsasında yenidən hazırlanması, müəllimlərin dərs yükünün kredit vahidlərinə uyğun müəyyənləşdirilməsi, eksperiment aparılan müddətdə tədris prosesini təmin edən normativ sənədlərin hazırlanması və tətbiqi ilə bağlıdır.

Bütün bu kimi problemlərin həlli zərurətindən irəli gələrək həmin vəzifələrin yerinə yetirilməsi, ali məktəblərimizdə kredit sisteminin tətbiqi ilə bağlı vahid qaydaların hazırlanması və buna müvafiq normativ sənədlərin işlənməsi üçün Təhsil Nazirliyində ali məktəb mütəxəssislərindən ibarət işçi qrupu yaradılmış, işçi qrup tərəfindən kredit sisteminin tətbiqi üzrə bir sıra xarici ölkələrin təcrübəsi öyrənilmiş, beynəlxalq ekspertlərin iştirakı ilə seminarlar, konfranslar, dəyirmi masalar keçirilmiş, ali məktəb rəhbərləri ilə müzakirələr aparılmışdır. Nəticədə «Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi əsasnamə» hazırlanaraq Təhsil Nazirliyi tərəfindən təsdiqlənmişdir.

2006–2007-ci tədris ilinin sentyabrından ölkənin 8 ali təhsil müəssisəsində (Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti) bir neçə ixtisas üzrə kredit sisteminin tətbiqinə başlanmışdır.

Qeyd etmək lazımdır ki, ali məktəblər bu işə məsuliyyətlə yanaşmış, ali təhsil müəssisələrində professor-müəllim heyəti, tələbələr və onların valideynlərinin iştirakı ilə konfranslar, seminarlar, dəyirmi masalar, treninqlər keçirilmiş, kredit sistemi tətbiq olunacaq istiqamətlər, tədris qrupları müəyyənləşdirilmiş, tyutor (tədris məsləhətçisi) xidməti yaradılmışdır.

Bununla yanaşı, Nazirliyin təsdiq etdiyi nümunəvi əsasnaməyə müvafiq olaraq ali məktəblərin profilinə uyğun əsasnamə, tədris planı, müəl-

limlərin işçi tədris planları, tələbələrin fərdi və işçi tədris planları hazırlanıb təsdiq edilmişdir.

Kredit sisteminin tətbiqində ən vacib amillərdən biri də tələbələrin biliyinin və fənnin mənimsənilməsinin obyektiv qiymətləndirilməsini təmin edən çoxballı sistemdir. Hələ 1999-cu ildən Təhsil Nazirliyi tərəfindən əksər ali məktəblərdə eksperiment şəklində tələbələrin biliyinin çoxballı sistemlə qiymətləndirilməsinin tətbiqinə başlanılmışdır. Qeyd edək ki, həmin sistemi təmin edən normativ sənədlər hazırlanmış və təcrübə toplandıqca bu sənədlərdə müvafiq dəyişikliklər aparılmışdır. Bu gün məsuliyyətlə demək olar ki, əksər ali məktəblərimiz bu sistemin tətbiqi üzrə müəyyən təcrübə əldə etmişlər. Buna görə də ali məktəblərimizdə sınaqdan keçirilmiş çoxballı sistem kredit sistemi ilə tədrisin təşkilində artıq öz yerini tapmışdır. Kredit sisteminə keçidlə bağlı təbii ki, tələbələrin biliyinin çoxballı sistemlə qiymətləndirilməsinin təkmilləşdirilməsinə ehtiyac duyulur və prosesin gedişində bu məsələnin həlli təmin olunacaqdır.

Görülmüş işlər qarşıda duran böyük işlərin kiçik bir hissəsidir. Bu sistem tətbiq olunduqca qarşıya bir çox problemlər çıxır və gələcəkdə də belə problemlər istisna edilmir. Belə ki, tələbələrə təqaüdlərin verilməsi, müəllimlərin dərs yükünün müəyyənləşdirilməsi, yay semestrlərinin təşkili və bununla bağlı müəllimlərin əmək haqqının verilməsi, seçmə fənlər üzrə tələbələrin minimum sayına görə qrupların formalaşdırılması, tələbənin fənni təkrar dinləməsi reqlamentlərinin müəyyənləşdirilməsi, professor-müəllim heyətinin vaxt normasını müəyyənləşdirən mövcud normativlərə kredit sisteminin tələblərinə uyğun əlavələrin edilməsi və s. məsələlərlə bağlı problemlər artıq özünü büruzə verməkdədir.

Amma bu problemlərin həlli imkanları da kifayət qədər genişdir və bu imkanlardan getdikcə daha intensiv şəkildə istifadə edilir.

Azərbaycanın Boloniya prosesinə qoşulması «Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu»nun və buna müvafiq yeni standartların hazırlanması zərurətini yaratmışdır. Bununla bağlı bakalavr hazırlığını təmin edən baza təhsil proqramlarının yeni struktur layihəsi hazırlanmışdır.

Layihədə auditoriya saatlarının miqdarı 4140-dan orta hesabla 3305 saata qədər azaldılmışdır (20 faiz), humanitar fənlər bölümündə məcburi tədris olunan fənlərin sayı 10-dan 3-ə endirilmişdir. Burada yalnız məc-

buri fənn kimi nəzərdə tutulan Azərbaycan tarixi, Azərbaycan dili (təlimi digər dillərdə olanlar üçün), xarici dil saxlanılmışdır. Digər fənlər isə seçmə fənn kimi təklif formasında müəyyən edilmişdir.

Seçmə fənlərə ayrılan saatların miqdarı beynəlxalq təcrübəyə müvafiq olaraq 5 faizdən 20 faizə qədər çoxaldılmışdır. Boloniya prosesinin tələblərinə uyğun olaraq gələcəkdə kredit sisteminin tətbiqi ilə bağlı və ölkə Prezidentinin fərmanına əsasən dərslərin 15 sentyabrdan başlandığı nəzərə alınaraq həftələrin sayı 133-dən 115-ə qədər azaldılmışdır. Pedaqoji təcrübənin müddəti 10 həftədən 18 həftəyədək artırılmışdır.

Boloniya prosesi çərçivəsində çoxpilləli kadr hazırlığının təkmilləşdirilməsi, təhsilin keyfiyyətinə nəzarət (akkreditasiya), tələbələrin və müəllimlərin mobilliyinin artırılması, diplomların tanınması, ali məktəb məzunlarının işlə təmin olunması, yaşlıların təhsili və digər məsələlərin həlli istiqa-mətində tədbirlər həyata keçirilir.

Ali və orta ixtisas təhsili müəssisələrinin attestasiyası və akkreditasiyası haqqında əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 15 aprel tarixli 49 nömrəli qərarı ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasının Təh-sil Qanununa və digər qanunvericilik aktlarına uyğun hazırlanan və tabeliyindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün ali və orta ixtisas təhsili müəssisələrinin, onların filial və şöbələrinin attestasiyası və akkreditasiya qaydalarını müəyyən edən bu sənədə uyğun olaraq attestasiyanın və akkreditasiyanın əsas məqsədi vətəndaşların təhsil sahəsində Konstitusiya ilə müəyyən edilmiş hüquqlarını və təhsil müəssisələrinin fəaliyyətinin təhsil qanunvericiliyi və dövlət təhsil standartlarının tələbləri səviyyəsində qurulmasını təmin etməkdən ibarətdir.

Azərbaycan Respublikası ərazisində yerləşən bütün təhsil müəssisələrinin (o cümlədən digər ölkələrin təhsil müəssisələrinin Azərbaycanda fəaliyyət göstərən filial və şöbələrinin) attestasiyası və akkreditasiyası tabeliyindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Bu məqsədlə Təhsil Nazirliyi tərəfindən daimi fəaliyyət göstərən akkreditasiya komissiyası yaranmışdır.

Akkreditasiya komissiyasının tərkibinə təhsil naziri (sədr), onun müavinləri, müvafiq aparıcı idarə və şöbələrin rəhbərləri və mütəxəssis-

ləri, Təhsil Problemləri İnstitutunun rəhbəri, tabeliyində ali və orta ixtisas təhsili müəssisəsi olan nazirliklərin, təşkilatların və idarələrin nümayəndələri daxil ola bilərlər.

Ali və orta ixtisas təhsili müəssisələrinin attestasiyası təhsil müəssisələrində təhsilin keyfiyyətinə dövlət-ictimai nəzarətin əsas forması olaraq, mütəxəssis hazırlığının dövlət təhsil standartlarının tələblərinə uyğunluğunu müəyyənləşdirən prosedurdur.

Təhsil müəssisələrinin attestasiyası bir qayda olaraq, hər dörd ildən bir Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Yeni yaradılmış təhsil müəssisəsinin, həmçinin fəaliyyətdə olan təhsil müəssisəsinin yeni açılmış istiqamətlərinin (ixtisaslarının) attestasiyası ilə mütəxəssis buraxılışından sonra aparılır. Zərurət (təhsilin keyfiyyəti ilə bağlı təhsil alanların müraciəti və s.) olduqda və ya təhsil müəssisəsinin ərazisi əsasında növbədənkənar attestasiya da keçirilə bilər.

Təhsil müəssisələri attestasiyaya qədər müəyyən edilmiş qaydalara əsasən özünütəhlil prosedurunu həyata keçirə bilər. Özünütəhlilin nəticəsi dəqiqləşdirildikdən sonra attestasiya zamanı nəzərə alınır.

Attestasiya zamanı təhsil müəssisəsində təhsilin məzmun və keyfiyyətinin dövlət standartlarına uyğunluğu, tədris plan və proqramlarının yerinə yetirilməsi, təhsil alanların ayrı-ayrı fənləri mənimsəmə səviyyəsi və dövlət imtahanlarının nəticələri, təhsil müəssisəsinin attestasiyası üçün yaradılmış komissiya tərəfindən təhsil alanların biliyinin attestasiyasının yekunları, tədrisin elmi, pedaqoji, elmi-metodik təminatı, pedaqoji kadrların yerləşdirilməsi, onların ixtisas xüsusiyyətləri, təhsil müəssisəsinin tibbi-sosial şəraiti, maddi-texniki bazası, inkişaf dinamikası və s. məsələlər öyrənilir. Bu zaman özünütəhlilin nəticələri haqqında məlumatlar da dəqiqləşdirilir.

Təhsil müəssisəsinin və onun müvafiq struktur bölmələrinin, ayrı-ayrı istiqamətlər və ixtisasların attestasiyadan keçməsinin əsas şərti təhsil müəssisəsinin attestasiyası üçün yaradılmış komissiya tərəfindən təhsil alanların yarıdan çoxunun biliyinin müsbət qiymətləndirilməsidir.

Təhsil alanların biliyinin attestasiya forması Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilir.

Attestasiyadan keçə bilməyən təhsil müəssisəsi bir ildən sonra təkrar attestasiyadan keçə bilər. Attestasiyadan keçməyən təhsil müəssisəsinə

və ya kadr hazırlığı aparılan ayrı-ayrı istiqamətlər (ixtisaslar) üzrə həmin ilə tələbə qəbulu planlaşdırılmır.

Təhsil müəssisəsi təkrar attestasiyadan keçə bilmədikdə, onun təhsil fəaliyyəti dayandırılır və orada təhsil alan tələbələrin təhsillərini davam etdirməsi üçün Təhsil Nazirliyi və tabeliyində ali və orta ixtisas tədris müəssisələri olan nazirlik, komitə və idarə birgə müvafiq tədbirlər həyata keçirirlər.

Təhsil müəssisəsinin attestasiya olunması haqqında Təhsil Nazirliyinin müsbət əmri həmin müəssisənin akkreditasiya olunması üçün əsas şərtdir. Təhsil müəssisəsinin attestasiydan keçməsi barədə Təhsil Nazirliyinin müsbət əmri olduqda, müvafiq sənədlər toplusu bir həftə müddətində akkreditasiya komissiyasına təqdim olunur.

Akkreditasiya isə təhsil müəssisəsinin statusunun (tipinin və növünün) və onun təhsil haqqında dövlət nümunəli sənəd vermək hüququ olan təhsil proqramları siyahısının müəyyənləşdirilməsi prosedurudur.

Akkreditasiya komissiyası təqdim olunmuş sənədlər toplusuna bir həftə ərzində baxaraq müvafiq qərar qəbul edir. Həmin qərarın əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyi təhsil müəssisəsinin akkreditasiyası haqqında əmr verir. Təhsil müəssisəsinin akkreditə olunması barədə məlumatlar mətbu orqanlarında dərc edilir.

Təhsil müəssisəsinin mövcud statusu (tipi və növü) həmin statuslu təhsil müəssisələri üçün müəyyən olunmuş müvafiq normalara uyğun gəlmədikdə, onun akkreditasiyası haqqında mənfi qərar verilə bilər. Bu halda təhsil müəssisəsi yalnız akkreditasiya komissiyasının müəyyən etdiyi statusla fəaliyyət göstərə bilər.

Təhsil müəssisələri bir qayda olaraq 4 il müddətinə akkreditasiya olunur.

Təhsil müəssisəsinin akkreditasiya müddəti başa çatdıqda, təhsil müəssisəsinin müvafiq müraciəti olduqda, təhsil müəssisəsi vaxtından əvvəl attestasiyadan keçirilməsindən imtina etdikdə, təhsil müəssisəsinin lisenziyası ləğv edildikdə, təhsil müəssisəsi yenidən təşkil olunduqda onun akkreditasiyası haqqında əmr öz qüvvəsini itirir. Attestasiya və akkreditasiya artıq ölkənin bir neçə ali təhsil ocağında həyata keçirilmiş və özünü doğrultmuşdur.

Təhsil sahəsində həyata keçirilən daha bir yenilik isə xarici ölkələrdə təhsilini başa vurmuş Azərbaycan vətəndaşlarının diplomlarının tanınması-nostrifikasiyası prosesinin başlanmasıdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin «Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Qaydaları»nın təsdiq edilməsi haqqında qərarı da vardır. Bu Qaydalar «Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 346 nömrəli Sərəncamının 1-ci bəndinə əsasən hazırlanmışdır.

Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması dedikdə, xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən verilmiş, ali təhsil proqramının uğurla bitirilməsini təsdiq edən, bu və ya digər dərəcə verən hər hansı sənədin, diplomun, yaxud başqa bir şəhadətnamənin Azərbaycan Respublikasının ərazisində qüvvədə olmasının təsdiqi başa düşülür.

Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının ekvivalentliyinin müəyyən edilməsi xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən bu ixtisasların alındığını təsdiq edən sənədlərin sahiblərinə Azərbaycan Respublikasında verilmiş ali təhsil haqqında sənədlərin sahiblərinin malik olduqları eyni akademik və peşə hüquqlarının verilməsi deməkdir.

Xarici dövlətlərin ali təhsil sahəsində ixtisasının tanınması və ekvivalentliyi haqqında Şəhadətnamə onun sahibinə əlavə (ikinci) ixtisas almaq, ixtisasını artırmaq, diplomdan sonrakı hazırlıq pilləsinə qəbul olunmaq, habelə müvafiq peşə fəaliyyəti göstərmək hüququ verir.

Xarici dövlətlərin ali təhsil sahəsində ixtisasının tanınması və ekvivalentliyinin müəyyən edilməsi bu ixtisasın alındığını təsdiq edən sənədlərin sahiblərini Azərbaycan Respublikasında işə qəbul zamanı bu respublikanın qanunvericiliyində müəyyən edilmiş ümumi tələbləri gözləməkdən azad etmir.

Xarici dövlətlərin ali təhsil sahəsində ixtisasının tanınması və tanınma haqqında Şəhadətnamənin verilməsi bu qaydalar əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının ekvivalentliyinin müəyyən edilməsi haqqında Şəhadətnamə mövcud qaydalarda nəzərdə tutulmuş müddəalar əsasında keçirilən ekspertizadan sonra Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən verilir.

Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələrdə və dövlətlərarası razılaşmalarda ekvivalentlik müəyyən edilibsə, ekvivalentlik haqqında Şəhadətnamə ekspertiza keçirilmədən verilir.

Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması, ekvivalentliyinin müəyyən edilməsi və müvafiq Şəhadətnamənin verilməsi sənəd sahibinin ərizəsi və ya maraqlı olan təşkilatın, hüquqi və fiziki şəxslərin müraciəti əsasında həyata keçirilir.

Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması proseduru mövcud beynəlxalq sazişlər və tövsiyələr, təhsilin dövlət standartları və Azərbaycan Respublikasının təhsil sistemini tənzimləyən normativ hüquqi aktlar əsasında aparılır.

Ali təhsil sahəsində ixtisasların tanınması üçün ali təhsil haqqında sənədin onun verildiyi ölkədə tanınması, təhsil sahəsində ixtisasların tanınmasının Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulması zəruridir.

Ekspertiza zamanı tədris planının və proqramlarının məzmunu, attestasiya sistemləri, öyrənilmiş fənlərin həcmi, fənlər üzrə attestasiyanın nəticələri, istehsalat təcrübəsi və onun müddəti, yekun attestasiyanın nəticəsi nəzərə alınır.

Xarici ölkələrdə alınmış təhsilin məzmununun Azərbaycan Respublikasında təhsilin dövlət standartlarına uyğun olması və aşkar olunan uyğunsuzluğun aradan qaldırılmasının mümkün üsulları haqqında ekspert rəyi Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim olunur.

Mənfi rəyin verilməsinə gətirib çıxaran əsaslar da qaydalarda dəqiq şəkildə öz əksini tapmışdır. Tanınmadan və ekvivalentlik haqqında Şəhadətnamə verilməsindən imtina olunması səbəbləri müraciət edəni qane etməzsə, o, müvafiq qaydada şikayət edə bilər.

3.9. Azərbaycan təhsilində yeni istiqamətlər

Yeni ictimai-iqtisadi münasibətlər sisteminin cəmiyyətimizdə özünə möhkəm dayaqlar tapması, demokratik inkişaf yolu tutan Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyası, ümumilikdə dünyanın özünün dəyişən tələbləri milli təhsilimizdə yeni istiqamətlərin ortaya çıxmasına gətirmişdir.

Azərbaycan üçün hələ yeni olan bu istiqamətlərdən biri magistratura təhsili və doktoranturadır.

Magistratura təhsilinin təkmilləşdirilməsi Azərbaycanda qarşıya qoyulan ən əsas məqsədlərdən birinə çevrilmişdir. Hazırda respublikamızın 39 ali məktəbində magistratura pilləsi fəaliyyət göstərir. Magistratura pilləsində 10 mindən artıq tələbə təhsil alır. Magistraturaya qəbul prosesində şəffaflığın təmin edilməsi məqsədilə bu prosesin Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən aparılmasına başlanmışdır.

Magistraturada təhsil əyani və qiyabi formalarda həyata keçirilir. Magistr təhsilinin normativ müddəti magistr təhsil proqramları ilə müəyyən edilir və ixtisasdan asılı olaraq 1.5–2 (qiyabidə 2.5) il müəyyənləşdirilir.

Magistraturanın sonuncu semestrində tələbələr ixtisaslaşdırılmış Elmi Şura qarşısında magistrlik dissertasiyası müdafiə edirlər. Magistr proqramı üzrə fərdi planı yerinə yetirmiş və magistrlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş şəxslərə «magistr» ixtisas və elmi dərəcəsi, vahid formada dövlət nümunəli magistr diplomu verilir. Bu təhsil mərhələsində tədris prosesinin təkmilləşdirilməsi, Azərbaycanda magistratura təhsilinin inkişaf etmiş bir sıra Avropa ölkələrinin təhsil standartları ilə uyğunluq təşkil etməsi günün tələbidir.

Müasir dövrün həyatımıza gətirdiyi ən maraqlı anlayışlardan biri də təbii ki, özəl təhsil anlayışıdır. Özəl təhsilin sərbəst bazar iqtisadiyyatı, azad sahibkarlar mühiti ilə birbaşa bağlı olduğunu isə xüsusi vurğulamağa ehtiyac yoxdur.

Azərbaycan hökuməti respublikada azad sahibkarlıq fəaliyyəti üçün mövcud olan şəraitin daha da yaxşılaşdırılması, özəl sektorun inkişafı, cəmiyyətimizdə orta təbəqənin formalaşması üçün sahibkarlara maliyyə dəstəyi siyasətini də uğurla davam etdirməkdədir. Sahibkarlığın inkişafı istiqamətində atılmış addımlar sistemli və ardıcıl fəaliyyət konsepsiyasına əsaslanır.

İnkişaf etmiş dövlətlərin mütərəqqi təcrübəsi belə bir həqiqəti çoxdan sübuta yetirib ki, bazar iqtisadiyyatına keçid dövründə özəl sektorun fəaliyyətinə normal şərait yaratmadan cəmiyyət qarşısında dayanmış bir sıra strateji vəzifələri həyata keçirmək, iqtisadi yüksəlişi təmin etmək, işsizlik səviyyəsini aşağı salmaq, infrastrukturu yeniləşdirmək, eləcə də sosial xarakterli digər problemlərin həllinə nail olmaq çətindir. Azərbaycan Prezidenti İlham Əliyev dövlətə rəhbərliyinin ilk günlərindən bu reallığı düzgün qiymətləndirmiş, respublikamızda azad sahibkarlığın inkişafına

yönələn tədbirlər son illər daha intensiv şəkil almağa başlamışdır. Dövlət rəhbəri iqtisadiyyatın liberallaşdırılması, bazarın inhisardan, haqsız rəqabətdən azad olunması, özəl sektorun dəstəklənməsi, sahibkarlara güzəştli kreditlərin verilməsi məsələsinə xüsusi diqqət yetirir. Bütün bunlar Azərbaycanda özəl təhsilin inkişafına da yol açır. Bu sahədə böyük nailiyyətlər əldə edilir. Ölkəmizdə fəaliyyət göstərən özəl universitetlərdə tədrisin keyfiyyətinin artırılmasına xüsusi diqqət yetirilir. Ötən əsrin 90-cı illərinin əvvəllərində mövcud olan hüquqi boşluqların nəticəsi kimi ortaya çıxmış adı var, özü yox qondarma «universitetlər»in fəaliyyətinə yenidən baxılır. Bu sahədə mövcud olan problemlər tədricən aradan qaldırılır. Təhsil sahəsində inkişafa xidmət edən azad rəqabət mühitinin formalaşdırılması üçün müvafiq addımlar atılır. Özəl universitetlər ən aparıcı dövlət universitetləriylə rəqabət aparacaq qədər inkişaf edir, onların maddi-texniki bazası yaxşılaşır. Kadr kontingenti güclənir. Vətəndaşların özəl təhsilə münasibəti dəyişir.

Ümumi təhsil sahəsində də özəl sektorun inkişafı istiqamətində müsbət tendensiyalar müşahidə olunur. İnsanlarımız öz övladlarının təhsilinə qoyulan investisiyanı gələcəyə yönəlmiş ən səmərəli investisiya kimi qəbul edir və onlara daha yaxşı təhsil vermək üçün maddi imkanlarını əsirgəmirlər.

Ali təhsil üzrə qarşıda böyük perspektivlər dayanıb. Ali təhsilin məzmununda islahatların aparılması, təsdiq olunmuş baza təhsil proqramının strukturuna müvafiq olaraq ayrı-ayrı istiqamət (ixtisaslar) üzrə yeni nəsil dövlət təhsil standartlarının hazırlanması, Boloniya prosesi çərçivəsində Avropa təhsil sisteminə inteqrasiya istiqamətində tədbirlərin həyata keçirilməsi, ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili və kredit sisteminin tətbiqinin genişləndirilməsi, ali təhsil müəssisələrinin attestasiyası və akkreditasiyası prosesinin davam etdirilməsi və bu prosesə beynəlxalq təşkilatların cəlb edilməsi, ali təhsil sahəsində elektron dərsliklərin və elektron kitabxanaların yaradılması, ali təhsil müəssisələrində idarəetmə və planlaşdırma imkanlarının gücləndirilməsi, ali təhsil müəssisələrində marketinq xidmətinin təşkili, müəllimlərin ixtisasartırma təhsili üzrə yeni kurikulumların hazırlanması, ali təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının gücləndirilməsi, müasir standartlara cavab verən dövlət təhsil standartları və ali baza təhsil proqramlarına tam keçidin təmin olunması bu perspektivlərə daxildir.

Peşə-ixtisas təhsilində mütəxəssis hazırlığının əmək bazarının tələblərinə və ehtiyacına uyğun proqnozlaşdırılması sisteminin yaradılması, mütəxəssis hazırlığını təmin edən yeni klassifikatorun hazırlanması, müəllim hazırlığı üzrə hazırlanmış yeni strategiya və konsepsiyaya uyğun olaraq ibtidai sinif müəllimlərinin hazırlığı və «Təhsilin əsasları» fənni üzrə kurikulumların və müvafiq dərsliyin işlənməsi, təhsilin bir pilləsindən digərinə keçid mexanizminin təkmilləşdirilməsi, Azərbaycanın təhsil sektoru üçün menecerlərin hazırlanması da yaxın gələcək üçün nəzərdə tutulan ən aktual məsələlərdəndir.

Ölkəmizdə vətəndaşların sərbəst surətdə təhsil ala bilmələri üçün xalq universitetlərinin, mühazirə salonlarının, kitabxanaların, məlumat mərkəzlərinin, klubların, tele və radio tədris proqramlarının fəaliyyəti də təmin olunmuşdur. Sərbəst təhsil alan vətəndaşlara müvafiq icazə əsasında müxtəlif təhsil müəssisələrində mühazirə dinləmək və praktiki məşğələlərdə iştirak etmək imkanı yaradılmışdır.

Əlavə təhsil sahəsində «sifariş-təklif» prinsipinə əsaslanan yeni ixtisasartırma modeli işlənmişdir və hazırda tətbiq olunur. İxtisasartırma sahəsində «dayaq məntəqəsi» mexanizminə keçilmiş, 6 fənn üzrə 20 yeni kurikulum hazırlanmış və tətbiq edilmişdir. Fəal/interaktiv təlim texnologiyasının müəllimlərə aşılanması üzrə nazirliyin strategiyası işlənmiş, müəllimlərin ixtisasartırması sahəsində səmərəli beynəlxalq əməkdaşlıq əlaqələri yaradılmışdır (UNİCEF, Britaniya Şurası, ACİ, Norveç Qaçqınlar Şurası, Beynəlxalq Qırmızı Xaç Komitəsi və s.). Yaşlıların təhsili, diplomdansonrakı təhsil, distant təhsil konsepsiyaları hazırlanmış, ixtisasartırma məzmununa İKT-dən istifadə kursu daxil edilmiş, ixtisasartırma təhsilini tənzimləyən reqlamentləşdirici sənədlər paketi hazırlanmışdır.

İxtisasartırma və kadrların yenidən hazırlığı müəssisələrinin fəaliyyəti cəmiyyətin tələbi əsasında sifariş prinsipi ilə qurulur, dövlət sifarişi nəzərə alınmaqla müəssisə, təşkilat, idarə və tək-tək vətəndaşlarla bağlanılmış müqavilələr əsasında həyata keçirilir. Təlimin forması, müddəti və məzmunu sifarişçi ilə razılıq əsasında müəyyən olunur. Pedaqoji təhsili olmadan tədris müəssisələrində işləyən müəllim heyətinin pedaqogika və psixologiya elmləri üzrə yenidən hazırlanması təmin olunur. Əlavə təhsil sahəsində perspektivlər də kifayət qədər böyükdür. İxtisasartırma

təhsili üzrə yeni kurikulumların hazırlanması, ixtisasartırma və yenidənhazırlanma təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının gücləndirilməsi, distant təhsil praktikasının genişləndirilməsi, yaşlıların təhsili sisteminin inkişaf etdirilməsi məqsədilə qanunvericilik bazasının gücləndirilməsi, Boloniya prosesinin şərtlərinə uyğun olaraq ömür boyu-fasiləsiz təhsilin inkişaf etdirilməsi, ixtisasartırma təhsili üzrə beynəlxalq layihələrdə iştirak, ixtisasartırma üzrə kurikulumlara fəal/interaktiv və digər yeni təlim texnologiyalarının daxil edilməsi, «öyrədən»lərin peşəkarlıq səviyyəsinin artırılması, ixtisasartırma təhsili müəssisələrinin strukturunun təkmilləşdirilməsi son dərəcə vacib məsələlər kimi xüsusi aktuallıq kəsb edir.

Bu perspektivlərin tərkib hissəsi kimi beynəlxalq təcrübənin, müasir texnologiyaların öyrənilməsi və tətbiqi imkanlarının artırılması, ixtisasartırma təhsili üzrə monitorinq və qiymətləndirmə mexanizminin yaradılması, fəal/interaktiv və digər təlim texnologiyalarının tətbiqinin genişləndirilməsi, ixtisasartırma üzrə kurikulumlara fəal/interaktiv və digər yeni təlim texnologiyalarının daxil edilməsi də əhəmiyyətlidir.

Təbii ki, təhsil sahəsində problemlər də az deyildir. Məsələn, ölkədə bütün özəl orta ixtisas məktəblərinin fəaliyyəti nədənsə dayandırılmışdır. Lakin həyata keçirilən tədbirlər və təhsilə göstərilən yüksək dövlət qayğısı, ilk növbədə, mövcud problemlərin aradan qaldırılmasına yönəldilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mövcud problemlərin həlli və təhsilin inkişaf strategiyası ilə bağlı qarşıda mühüm vəzifələr qoymuşdur: **«Bütövlükdə, təhsil sahəsində mövcud olan problemlər də öz həllini tapacaqdır. Mən buna şübhə etmirəm. İlk növbədə, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi işində artıq müsbət nəticələr görünməkdədir. Bunu etmək vacibdir və biz bunu edəcəyik. Eyni zamanda bunu etmək üçün gərək iqtisadi potensial olsun. O da var və artır. Ancaq eyni zamanda tədris prosesinin səviyyəsinin yüksəldilməsi məsələləri də çox önəmlidir. Bu sahəyə də çox böyük diqqət göstərilməli və təhsilin keyfiyyəti daha da artmalıdır. Orta məktəblərdə oxuyan, ali məktəblərdə oxuyan gənclər yüksək savad almalı, yüksək biliyə malik olmalıdır ki, doğma Vətənimizə, ölkəmizə səmərəli xidmət göstərsinlər».**

3.10. Yaşlıların təhsili

Azərbaycan son illər hazırda bütün dünyada ən aktual məsələlərdən biri kimi gündəmə gəlmiş yaşlıların təhsili sahəsində də müəyyən nailiyyətlər əldə etməkdədir.

Yaşlıların təhsili («Obrazovanie vzroslıx», «Adult Education», «Erwachsenenbildung») – ömür boyu təhsil sisteminin tərkib hissəsi olmaqla, vətəndaşların cəmiyyətdə və iqtisadiyyatda daim baş verən dəyişikliklərə uyğunlaşmasını təmin etmək məqsədilə çevik tədris proqramları əsasında həyata keçirilən təhsil prosesidir.

Olduqca geniş bir sahə olsa da, onun ən qisa tərifini belə vermək olar: yaşlıların təhsili iqtisadiyyatda və cəmiyyətdə (daim) baş verən dəyişikliklərə adekvat və çevik uyğunlaşmanı təmin edən təhsil prosesidir. Hədəf qrupu artıq yetkinlik yaşını keçmiş, müstəqil həyatı ilə yaşayan, həyat təcrübəsi və bir çox hallarda peşəsi olan insanlardır (şərti olaraq 18 yaşından yuxarı).

Bu təhsil sahəsinin elmi əsaslarını andraqogika elmi öyrənir. Yaşlıların Təhsilində (YT) hədəf qrupun xüsusiyyətlərini nəzərə alaraq xüsusi metodika və didaktika tətbiq olunur. Avropa ölkələrində YT insanların davamlı məşğulluğunu və fəal vətəndaş mövqeyini təmin edən təhsil sistemi kimi qəbul edilmişdir. YT Ömür Boyu Təhsil (ÖBT) sisteminin dördüncü (ümumi, peşə, ali və YT) tərkib hissəsini və keçid/inkişaf mərhələsini yaşayan ölkələr üçün birinci dərəcəli prioritet təşkil edir.

ÖBT konsepsiyası keçmiş sovet məkanında həyata keçirilən «fasiləsiz təhsil» konsepsiyasından əsas etibarilə onunla fərqlənir ki, burada təhsil prosesi yalniz şaquli yox, həmçinin üfqi istiqamətdə baş verir. Yəni insanlar nəinki öz ixtisaslarına birbaşa aid olan, həmçinin əlavə sahələrdən də biliklər əldə edirlər. Bu isə vətəndaşlara iqtisadiyyatda və cəmiyyətdə (daim) baş verən dəyişikliklərə adekvat və çevik uyğunlaşmasına imkan yaradır. Digər bir fərq ondan ibarətdir ki, ÖBT sahəsi dövlətin böyük qayğısı olmaqla (qismən maliyyələşdirmə, inkişaf üçün münasib şərait və dövlət tərəfindən müəyyən edilmiş ümumi çərçivə qaydalara uyğun olmasına nəzarət) müstəqildir, birbaşa cəmiyyətin (vətəndaşlıq təhsili, şəxsi keyfiyyətlərin inkişafı üzrə təhsil və s.) və əmək bazarının (ixtisas bilikləri) tələbatlarına istiqamətlənir, baş verən dəyişikliklərə çevik

reaksiya verir və buna görə də sovet məkanında mövcud fasiləsiz təhsil sisteminə xas olan formalizmdən olduqca uzaqdır.

Biliklər əsri adlandırılan müasir dövrdə iş və həyat modelləri çox sürətli templərlə dəyişir. Vətəndaşların cəmiyyətdə və iqtisadiyyatda mütəmadi olaraq baş verən bu dəyişikliklərə müvəffəqiyyətlə uygunlaşması isə yalnız Ömür Boyu Təhsilin vasitəsilə mümkündür. Əgər XIX əsrdə arqar cəmiyyəti, XX əsrdə sənaye cəmiyyəti mövcud idisə, XXI əsr bilik/informasiya cəmiyyəti adlandırılır. Yəni cəmiyyət artıq kənd təsərrüfatı və ya sənaye məhsullarının istehsalından əldə edilən gəlirin hesabına yox, intellektual məhsulların hesabına özünü təmin edib inkişaf etməlidir, əks halda o cəmiyyət tənəzzülə uğrayacaq. Bu səbəbdən Avropa Birliyi Yaşlıların Təhsilini XXI əsrin qapılarını açan açarlardan biri kimi qəbul etmişdir.

Ənənəvi təhsil sahəsi olduqca inertdir və Azərbaycanda bu günə kimi formalaşma/islahatlar prosesi başa çatmadığından iqtisadiyyatın/cəmiyyətın tələb etdiyi mütəxəssisi/vətəndaşı yetişdirə bilmir. Bu proses bir müddət də davam edəcək. Lakin qeyd etmək lazımdır ki, ÖBT-nin və onun əsas tərkib hissəsi olan YT-nın məqsədi ənənəvi təhsil sisteminin boşluqlarını və ya səhvlərini düzəltmək deyil.

Dünyada bilik və məlumatların köhnəlmə sürəti ildən-ilə artır, bir dəfə alınmış təhsil insanları ömürlərinin axırına kimi təmin edə bilmir. O səbəbdən ki, hətta ən mükəmməl bir təhsil sisteminin verdiyi biliklərin bir çox hissəsi bu proses başa çatdıqda artıq yararsız, aktuallığını itirmiş bir məlumat olur. Digər sözlə, hər bir insan cəmiyyətin iqtisadi, sosial, mədəni və siyasi həyatında aktiv iştirak etmək məqsədilə öz peşə bilik və bacarıqlarını, şəxsi keyfiyyətlərini kəmiyyət və keyfiyyət baxımından daim yeniləşdirməli, zənginləşdirməli və zamanın tələblərinə uyğunlaşdırmalıdır.

Ölkəmizin hazırkı dinamik inkişafı artıq bu gün, bu saat rəqabətqabiliyyətli, yeni biliklərə malik, çevik, peşə bilik və bacarıqlarından əlavə «əsas kompetensiyalar»a malik bir mütəxəssisi, fəal vətəndaşı tələb edir. Əks halda heç bir sahədə davamlı inkişafı təmin etmək mümkün olmayacaq.

Hazırda bu problem inkişaf səviyyəsindən asılı olmayaraq hər bir ölkə üçün aktualdır. Məsələn, müasir Avropada elm və texnologiya elə sürətlə inkişaf edir ki, biliklərin hər il orta hesabla 20%-i aktuallığını iti-

rir və beləliklə də 5–8 il ərzində peşələrin məzmunu tamamilə köhnəlir. Təsadüfi deyil ki, məşğulluq üzrə Avropa strategiyası çərçivəsində ÖBT bilik və bacarıqların, peşə səriştəsinin artırılması məqsədi ilə və daimi əsaslarla aparılan hərtərəfli təlim fəaliyyəti kimi müəyyən edilmişdir. Bu kimi sənədlərin sayı çoxdur – Fasiləsiz Təhsil haqqında Avropa Memorandumu, Hamburq Bəyannaməsi, Dakar Bəyannaməsi, Sofiya Bəyannaməsi və s. {(http://www. iiz-dvv.az/ob.html).} Lakin bu fikir və ideyalar yalnız sənəd üstündə qalmır, bu istiqamətdə iri layihələr və qeniş miqyaslı islahatlar həyata keçirilir.

Qeyd olunanların Azərbaycan kimi keçid iqtisadiyyatlı ölkələr üçün aktuallığı daha böyükdür. Belə ki, bir ictimai-iqtisadi formasiyadan digərinə keçid nəticəsində bu ölkələrdə sosial-siyasi quruluşun dəyişməsi prosesi dünyada postsənaye cəmiyyətə keçid ilə eyni zamana düşmüşdür. Buna görə də ölkədə gedən hüquqi dövlət, demokratik cəmiyyət quruculuğu və sosial-iqtisadi inkişaf prosesləri daha mürəkkəb problemlərlə müşayiət olunur. Yəni Azərbaycanda uzun müddətli dövr ərzində mövcud olmuş planlı iqtisadiyyat şəraitində və totalitar ideoloji mühitdə qazanılmış ixtisasların və əldə edilmiş peşə vərdişlərinin müasir dövrün tələblərinə uyğunlaşmasını təmin etmək vacibdir.

Təkcə bir faktı göstərmək kifayətdir ki, hazırda ölkədə mövcud olan əməkqabiliyyətli əhalinin təqribən 60–70% inzibati-amirlik münasibətləri sistemində təhsil almış və ya çalışmışdır. O dövrdə bir dəfə əldə edilmiş ixtisas insanın ömrü boyu işlə təmin olunmasına imkan verirdi. Lakin indi bazar iqtisadiyyatı şəraitində texnologiyaların sürətlə dəyişməsi çevik və dinamik şəkildə peşə və ixtisasların artırılmasını, yeni ixtisaslara yiyələnməni tələb edir.

Elə bu proseslərin Azərbaycanda zəif getməsinin nəticəsidir ki, müstəqil həyata qədəm qoyan və müəyyən peşə və ixtisaslar üzrə təhsilə malik olan çox sayda insanlar kəskin işsizlik problemi və beləliklə də yoxsulluq problemi ilə üzləşmişdir. Çünki aparılan tədqiqatlar birmənalı şəkildə sübut edir ki, hazırda ölkədə mövcud olan işsizlik problemi təkcə iş yerlərinin olmaması səbəbindən deyil, eyni zamanda işsiz və işaxtaran vətəndaşların ixtisas təhsilinin və vərdişlərinin müasir əmək bazarının tələblərinə cavab verməməsi səbəbindəndir. Məsələn, bu bir faktdır ki, ölkədə fəaliyyət göstərən bazar strukturları (və hətta dövlət strukturları

da) iş təcrübəsi olan və bazar iqtisadiyyatı prinsiplərini bilən mütəxəssislər axtarışındadır, digər tərəfdən isə ölkədə ali təhsilli işsizlər ordusu mövcuddur. Buna görə də, ölkədə işsiz və işaxtaran vətəndaşların məşğulluğunun təmin edilməsi, onların əmək bazarında rəqabətədavamlı və müasir tələblərə cavab verən müvafiq peşə və ixtisaslara yiyələnməsini zəruri edir.

Digər bir fakt, hər il ölkədə təqribən 140.000-dən çox gənc orta məktəbi (IX və XI siniflər) bitirir. Onların təqribən 28.000-i ali, 16.000-i orta ixtisas və 14.000-i texniki peşə təhsili müəssisələrinə qəbul olunur, yerdə qalan təqribən 82.000 gənc peşəsiz-sənətsiz əmək bazarında və cəmiyyətdə özünə yer axtarmağa məcburdur. Və ölkədə ağır sosial-iqtisadi vəziyyət səbəbindən əmək bazarında yaranmış güclü rəqabət şəraitində bu kimi ixtisassız insanların öz məşğulluğunu təmin edə bilməməsi artıq aydındır.

Yaşlıların təhsili ilə ənənəvi təhsilin arasında müəyyən fərqlər mövcuddur. Belə ki, ənənəvi təhsil sisteminin vəzifəsi cəmiyyət üçün layiqli vətəndaş və iqtisadiyyat üçün lazımi kadr hazırlamaqdırsa, konkret olaraq yaşlıların təhsilinin vəzifəsi artıq ənənəvi təhsil sistemindən çıxmış vətəndaşların cəmiyyətdə və iqtisadiyyatda daim baş verən dəyişikliklərə uyğunlaşmasını təmin etməkdir. Bu təhsilin daha bir spesifik əlaməti isə (androqoji prinsiplərə əsaslanan) çevik tədris proqramları vasitəsilə həyata keçirilməsidir.

Yaşlıların təhsili kontingentinə aşağıdakı sosial-demoqrafik qruplar aid edilə bilər:

- əmək funksiyalarının məzmununda baş vermiş dəyişikliklər və yeniliklərlə əlaqədar ixtisasartırmaya və ixtisasdəyişməyə cəlb edilən peşəkar əmək sahəsi işçiləri;
- şəxsi təsərrüfatla və fərdi əmək fəaliyyəti ilə məşğul olanlar;
- məşğuliyyət sahəsini və ya peşəsini dəyişmək fikrində olan şəxslər;
- uzunmüddətli fasilədən sonra, o cümlədən analıq məzuniyyətindən sonra peşəkar əmək fəaliyyətinə qayıdanlar;
- müstəqil həyata yeni başlamış mütəxəssislər;
- peşəsi olmayanlar;
- yeni peşəyə yiyələnməyə və ya ixtisasını artırmağa ehtiyacı olan işsizlər;
- hərbi xidmətdən tərxis olunanlar;

– həbsdə olanlar və keçmiş məhbuslar;
– məcburi köçkünlər və qaçqınlar, o cümlədən miqrantlar;
– adi şəraitdə tədris materiallarını qavraya bilməyən və sağlamlığı məhdud olan şəxslər;
– müxtəlif səbəblərdən yeni sosial-mədəni şəraitə uyğunlaşmağa məcbur olan şəxslər;
– şəxsi keyfiyyətlərini inkişaf etdirmək və ya bilik dairəsini genişləndirmək arzusunda olan şəxslər və s.

Ümumiyyətlə, Azərbaycanda yaşlıların təhsili problemini aktual edən səbəblər aşağıdakılardır:

– Ölkədə mövcud olan işsizlik problemi təkcə iş yerlərinin olmaması səbəbindən deyil, eyni zamanda işsiz və işaxtaran vətəndaşların peşə-ixtisas təhsilinin və əmək vərdişlərinin müasir əmək bazarının tələblərinə cavab verməməsi səbəbindəndir. İlk öncə o səbəbdən ki, hazırda ölkədə mövcud olan əməkqabiliyyətli əhalinin təqribən 60–70% inzibati-amirlik münasibətləri sistemində təhsil almış və ya çalışmış insanlardır. Deməli, Azərbaycanda əməkqabiliyyətli əhalinin böyük bir hissəsinin əmək bazarında rəqabətqabiliyyətli olmaları üçün yenidən ixtisaslaşmasına ehtiyac vardır ki, bu da ölkədə yaşlıların təhsili problemini aktuallaşdırır;
– Bir milyona qədər qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarını itirməklə yanaşı, mövcud iş yerlərini də itirmələrinə görə onların (müvəqqəti də olsa) yeni şəraitə uyğunlaşdırılması və onlara yeni iş imkanlarının yaradılması zəruridir. Başqa sözlə, yaşlıların təhsili ölkənin ağrılı problemi olan qaçqın və məcburi köçkünlər problemi baxımından da aktualdır;
– Azərbaycanda kiçik və orta sahibkarlıq fəaliyyəti ilə məşğul olanların (xüsusilə kənd regionlarında fəaliyyət göstərənlərin) əksəriyyətinin sivil bazar ənənələrinə uyğun və uğurlu fəaliyyət göstərmələri üçün sahibkarlıq üzrə təhsilə ehtiyacları vardır. Sahibkarlıqla məşğul olanların 60%-i 40 yaşından yuxarı olanlardır. Bu isə o deməkdir ki, bu insanlar SSRİ dövründə təhsillərini aldıqlarına görə sahibkarlıq üzrə heç bir əsaslı biliklərə malik deyillər. Başqa sözlə, yaşlıların təhsili problemi ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir;

– Ölkədə həyata keçirilən idarəetmə prosesində iştirak edən çoxsaylı məmurlar ordusunun nəzəri biliklərinin və praktiki bacarıqlarının müasir dövrün tələblərinə uyğun daha da təkmilləşdirilməsi problemi də qarşıda duran mühüm vəzifələrdəndir. Buna görə də, yaşlıların təhsili demokratik idarəetmə sistemi üçün də mühüm əhəmiyyət kəsb edir;
– Ölkədə informasiya texnologiyalarının tətbiqi sferalarının genişləndirilməsi dövlət siyasətinin prioritetlərindən birinə çevrilib. Bu isə informasiya texnologiyalarının yeni tətbiq olunduğu müəssisə və təşkilatların əməkdaşlarının və əhalinin bu istiqamətdə bacarıqlarının artırılmasına yönəldilmiş təlimlərin keçirilməsini zəruri edir;
– Ölkədə ciddi ekoloji problemlərin mövcud olmasının müqabilində əhalinin bu istiqamətdə maarifləndirilməsi səviyyəsi aşağıdır. Bu isə həmin istiqamət üzrə yaşlıların təhsili prosesini zəruri edir;
– Ümumiyyətlə, ölkə əhalisinin demokratik vətəndaş cəmiyyəti quruculuğu istiqamətində ciddi maariflənməyə ehtiyacı vardır ki, bu istiqamətdə yaşlıların təhsili prosesi bir üsul kimi effektli ola bilər;
– Ənənəvi təhsil sahəsində islahatların başa çatmaması səbəbindən kadrların hazırlanması və əmək bazarının tələbləri arasında uyğunsuzluqlar movcuddur. Bu səbəbdən hətta yenicə hazırlanmış kadrlarda çevik və qısamüddətli əlavə təhsilə ehtiyac yaranır;
– Hər il orta məktəbləri bitirən gənclərin 80.000-dən çoxu təhsilini davam etdirmək, peşə əldə etmək imkanından məhrumdur. Beləliklə, onlara alternativ təhsil imkanları yaratmaq üçün yaşlıların təhsili sistemindən istifadə etmək vacibdir;
– Təəccüblü olsa da, Azərbaycanın əhalisi Avropanın əhalisi kimi yaşlanmaya başlayıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, son 10 il ərzində doğum indeksi 2 dəfə azalmış, lakin insanların orta ömür uzunluğu isə 2 il artmışdır. Bu isə o deməkdir ki, getdikcə yaşlı əhalinin payı artacaq və onların davamlı məşğulluğunun təmin olunması üçün yaşlıların təhsili sisteminə ehtiyac yaranacaq;
– Avropaya inteqrasiya Azərbaycanın hər bir vətəndaşına yeni tələblər irəli sürür. Bu ilk növbədə onun təhsilinin Avropa və beləliklə beynəlxalq standartlara cavab verməsi, demokratik dəyərlərin

düzgün başa düşüb gündəlik həyatında istifadə etməsi, rəqabət qabiliyətliyini davamlı qorumaq məqsədilə «Ömür Boyu Təshil» konsepsiyasına riayət etməsidir və s.

Azərbaycanda bütün sahələrdə davamlı inkişaf üçün yalnız bir faktor çatışmır – rəqabətqabiliyyətli, çevik və aktiv vətəndaş mövqeyi tutan müxtəlif peşə sahibləri. Başqa sözlə desək, insan resurslarına investisiyalar Azərbaycan üçün həlledici bir problemdir. Təsadüf deyil ki, ölkədə ÜDM indeksinə xass olan sürətli yüksəlişi insan inkişafı indeskinə aid etmək olmur. Bu onun göstəricisidir ki, «qara qızılı insan qızılına» daha operativ və sürətlə çevirmək tələb olunur. Davamlı inkişafı yalnız infrastrukturların yaradılması ilə təmin etmək mümkün deyil. O səbəbdən ki, insan faktoru hər bir inkişafın həlledici elementidir. İnsan isə yalnız təhsil vasitəsilə bu inkişafda katalizator rolunu oynaya bilir. Əks halda o bu proseslərdən kənarda qalmaqla inkişafda davamlılıq xarakterini itirir və qısamüddətli olur. Heç bir mükəmməl infrastruktur, yeni istehsal və ya xidmət sahəsi insan faktoru olmadan inkişafa öz töhfəsini verə bilmir.

Avropada artıq «insan resurslarına daha iri investisiyalar» proqramları dedikdə yaşlıların təhsili və ömür boyu təhsil sisteminə yardım başa düşülür.

Dünyada Yaşlıların Təhsilinə dəstək verən ən mühüm təşkilatlar bunlardır: Avropa Birliyi (Eropean Union, http://europa. eu.int/comm/education/index_en.html); Avropa Şurası (Council of Europe, http://ue.eu.int); Avropa Təhsil Fondu (ETF, www.etf.eu.int); İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD, www.oecd.org By department – Directorate for Education); YUNESCO-nun Təhsil İnstitutu (www.unesco. org/education/uie/); Dünya Bankı (World Bank, http://www. worldbank.org/ – Learning); Avropa Yaşlıların Təhsili Assosiasiyası (EAEA, www.eaea.org, http://www.nepfoiskola.hu/ eaea/ EAEA_ru/index_ru.html); Almaniya Xalq Universitetləri Birliyinin Beynəlxalq Əməkdaşlıq İnstitutu (İİZ/DVV, www.iiz-dvv.az). Təşkilatlar arasında vəzifələr sadə üsul üzrə bölüşdürülmüşdür. Hər bir təşkilat öz profilinə uyğun sahələrə dəstək verir:

Avropa Birliyi – peşə təhsili, gənclərin təhsili, ÖBT sistemnin inkişafına xidmət edən beynəlxalq mübadilə proqramları, Avropa Şurası – qloballaşma və harmonizasiya ilə bağlı təhsil məsələləri, milli azlıqların problemləri və onların hüquqlarının qorunması, Avropa Təhsil Fondu – peşə təhsili və ÖBT sisteminin inkişafına xidmət edən layihələr, İqtisadi

Əməkdaşlıq və İnkişaf Təşkilatı – təkrar təhsil, təcrübə keçmə, YT-i sisteminin qiymətləndirilməsi, ÖBT, YUNESCO – savadlılığın yayılması, baza təhsili, peşə təhsili sahəsində araşdırmalar və YT sisteminin inkişafı, Dünya Bankı – yoxsulluğun azaldılması və davamlı inkişafın təmin olunması kontekstində təhsil məsələləri, Avropa Yaşlıların Təhsili Assosiasiyası – 34 Avropa ölkəsinin 100-dən çox YT təşkilatlarının birliyi kimi YT və ÖBT ilə bağlı bütün məsələlər, Almaniya Xalq Universitetləri Birliyinin Beynəlxalq Əməkdaşlıq İnstitutu – Almaniyanın 1000 Xalq Universitetinin (YT müəssisələri) YT və ÖBT sahəsi üzrə geniş təcrübəsinə əsaslanaraq dünyanın 54 ölkəsində geniş spektrdə məsələlərə dəstək verir.

Hazırda Azərbaycanda bu təşkilatların yalnız bir neçəsinin YT və ÖBT sahəsidə dəstək layihələri həyata keçirilir. Avropa Birliyi öz Agentliyi olan Avropa Təhsil Fondu vasitəsi ilə 2004-cü ildən Azərbaycanda peşə təhsili və ÖBT sahələrinə dəstək layihəsini həyata keçirməkdədir. Hazırda bu sahələrin problem və perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə araşdırmalar aparılır, müvafiq strukturlarla əməkdaşlıq əlaqələri qurulur. Avropa Yaşlıların Təhsili Assosiasiyası isə Azərbaycanda fəaliyyət göstərən YT təşkilatlarına öz dəstəyini bildirmiş bu Assosiasiyaya üzv olmaq təklifini irəli sürmüşdür. Azərbaycandan 3 təşkilat artıq bu beynəlxalq qurumun üzvüdür (http://www.eaea.org/index.php?k=7197).

Almaniya Xalq Universitetləri Birliyinin Beynəlxalq Əməkdaşlıq İnstitutudur (İİZ/DVV). İİZ/DVV-nin fəaliyyətini əsas bir neçə istiqamətə ayırmaq olar:

YT və ÖBT ideyalarının cəmiyyət və dövlət arasında yayılması və təbliği;

YT və ÖBT sahələrin inkişafına şərait yaradan qanunvericilik bazasının yaradılması;

YT təşkilatlarına metodiki, maliyyə, məsləhətçi yardımlarının göstərilməsi;

YT üzrə elmi-metodiki və müəllim potensiallarının yaradılması;

Davamlılığı təmin edilən YT üzrə model layihələrin işlənib həyata keçirilməsi.

Azərbaycanda Yaşlıların Təhsili sahəsində əldə olunmuş nailiyyətlər ilk növbədə Yaşlıların Təhsili üzrə qeyri-formal Koordinasiya Şurasının fəaliyyət göstərməsindən, Təhsil Nazirliyinin Yaşlıların Təhsilinə dair konsepsiya qəbul etməsindən, Yaşlıların Təhsilinə dair qanun layihəsinin

ölkə parlamentinin birinci oxunuşundan keçməsindən ibarətdir. Bu yöndə görülən işlərin tərkib hissəsi kimi həmçinin Azərbaycan Müəllimlər İnstitutu nəznində YT kabineti yaradılmış, YT-nin aktuallığı artıq dövlət, təhsil sahəsi, QHT və ictimaiyyətin bir sıra nümayəndələri tərəfindən aydın şəkildə dərk edilmiş, YT üzrə yerli qurumlar beynəlxalq şəbəkəyə üzv olmuşdur.

Azərbaycanda da Yaşlıların Təhsili sahəsini sistemli şəkildə tənzimləyəcək liberal və demokratik qanunvericilik bazasının yaradılmasına, Yaşlıların Təhsili sisteminin institusional inkişafını tənzimləyəcək nazirliklərarası dövlət-ictimai qurumunun formalaşdırılmasına, yaşlıların təhsili prosesi üzrə mövcud vəziyyəti sistemli şəkildə qiymətləndirmək üçün informasiya bazasının yaradılmasına və statistikanın təkmilləşdirilməsinə ciddi ehtiyac vardır.

Dövlətin vasitəçi rolunu oynayaraq YT sahəsində sosial tərəfdaşlığın qurulmasına yardım göstərməsi (kadr hazırlığı prosesində işəgötürənlərin, əmək bazarı nümayəndələrinin iştirakının mexanizminin müəyyənləşdirilməsi, bu sahədə informasiya-maarifləndirmə kampaniyasının aparılması, həmkarlar ittifaqlarının aktivləşdirilməsi məqsədi ilə onlara yardımların göstərməsi, müəssisə və təşkilatların kadr hazırlığına investisiya qoyuluşunu stimullaşdıran mexanizmlərin müəyyənləşdirilməsi və həyata keçirilməsi, təhsil xidmətləri, o cümlədən də kadr hazırlığı üzrə xidmətlər sosial xidmətlər kateqoriyasına daxil olan fəaliyyət kimi qəbul edilməsi, bu xidmətlərin adi kommersiya işindən fərqləndirilməsi, vergi və digər imtiyazların verilməsi, təhsil müəssisələri səviyyəsində əmək bazarının tələbatının öyrənilməsi üçün bu müəssisələr sistemində marketinq xidmətinin yaradılması və inkişaf etdirilməsi, Yaşlıların Təhsili üzrə elmi-metodiki və kadr bazasının yaradılması (metodiki kabinetlər, elmi dərəcələr, ixtisasartırma kursları, fakültələr, tədqiqatlar, elmi işlər və s.) vacibdir. Yaşlıların Təhsili üzrə resurs mərkəzlərinin yaradılması (məlumat, peşəyönümü, tədris, maarifləndirmə, təbliğat və s. funksiyaların icrası üçün), mövcud olan ixtisasartırma və yenidənhazırlanma tədris müəssisələrinin maddi-texniki və tədris bazasının gücləndirilməsi, onlardan ibarət şəbəkənin genişləndirilməsi, yoxsul və aztəminatlı insanların YT-də iştirakının dövlət tərəfindən təmin edilməsi, peşə fəaliyyətləri ilə məşğul olanların öz ixtisaslarının daim artırılmasını stimullaş-

dıran tədbirlərin həyata keçirilməsi (maaşlara əlavələr, imtiyazlar, təhsil məzuniyyətləri və s.), peşə bilik və bacarıqlarının artırılması ilə yanaşı, yaşlı vətəndaşların şəxsi keyfiyyətlərinin inkişafı üçün geniş imkanların yaradılması, bələdiyyələrin, ictimai təşkilatların, icmaların YT-nin inkişaf prosesinə cəlb olunması (birgə layihələr, sifarişlər, digər tədbirlər), YT-nin inkişafı prosesində İKT-nin imkanlarından geniş istifadə edilməsi (distant təhsil, elektron kitabxanalar, laboratoriyalar, məlumat bazaları, veb-portallar və s.), qeyri-formal əldə edilmiş bilik və bacarıqların akkreditasiyası (rəsmi tanınması) mexanizminin yaradılması, YT və Ömür Boyu Təhsil (ÖBT) sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi bu günün zərurətidir.

3.11. İnsan kapitalı

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son illər əldə etdiyi tərəqqinin əhatəsi ölkəmizin sosial-iqtisadi inkişafı, insanlarımızın maddi-rifah halının yaxşılaşması, respublikamızın inkişaf göstəricilərinə görə bütün dünyada liderə çevrilməsi reallığından daha genişdir. Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasını təmin edən əsaslar son illərdə daha da möhkəmləndirilmiş, Azərbaycanda bütün dünyanın örnək kimi qəbul etdiyi milli, dini, mədəni tolerantlıq mühiti daha da yaxşılaşdırılmışdır.

Prezident İlham Əliyev eyni zamanda xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasət xəttinə də sadiq qalaraq xarici siyasətdə varislik ənənələrini dəqiq şəkildə həyata keçirməklə yanaşı müasir dövrün, çağdaş siyasi mənzərənin şərtlərinə uyğun bir sıra praqmatik addımlar da atmışdır.

İlham Əliyevin həyata keçirdiyi xarici siyasət xəttinin təməlində milli müstəqillik ideyası dayanır. Məlumdur ki, hər hansı müstəqil dövlətin diplomatik münasibətlər müstəvisində manevretmə imkanlarını şərtləndirən ən mühüm amil ölkə daxilində sosial və iqtisadi sabitliyin təmin olunmasıdır. Amma ölkədaxili siyasi sabitlikdə xarici siyasi kursun balanslaşdırılması amilinin rolu da istisna edilməməlidir.

Azərbaycanın xarici siyasət kursu çoxqütblü dünya prinsipi üzərində müəyyənləşib. Bu prioritetlər balanslaşdırılmış xarici siyasət, regionda sülh və sabitliyin təmin olunması, bölgədə xarici ölkələrin hərbi bazalarının yer-

ləşdirilməsinin qarşısının alınması, qlobal enerji-kommunikasiya layihələrinin həyata keçirilməsi zamanı Azərbaycanın milli maraqlarının qorunması, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının azad edilməsi və s. bu kimi məqsədlərdən ibarətdir. Rəsmi Bakı dünya siyasi müstəvisində tutduğu yerdən, mövqedən asılı olmayaraq Azərbaycanın müstəqil dövlətçilik idealına hörmətlə yanaşan, ölkəmizin inkişafına, mövcud problemlərimizin həllinə hər hansı formada fayda verə biləcək bütün əməkdaşlıq təşəbbüslərində iştirakı hazır olduğunu bəyan edir. Eyni zamanda bu təşəbbüslərdə iştirak o qədər yüksək diplomatik məharətlə həyata keçirilir ki, proses kiminsə maraqlarına qarşı yönəlmir. Əksinə Azərbaycan getdikcə bütün geostrateji maraqların balanslaşdığı, geopolitik çəkişmələrin diskussiya məcrasına yönəldiyi dialoq, əməkdaşlıq məkanına çevrilir. Bu, son illərin nailiyyətlərini təhlil edən xarici və yerli politoloqların da qənaətidir ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən illər ərzində çoxqütblü dünyanın formalaşması konsepsiyasının heç olmasa ayrıca götürülmüş region miqyasında özünü doğrultmasına nail olmuşdur. Bu nailiyyət cəmiyyət həyatının digər əhəmiyyətli sferaları kimi Azərbaycan təhsilinin getdikcə genişlənməkdə olan beynəlxalq əlaqələrində də özünü göstərir.

Azərbaycan Respublikasının təhsil sahəsində beynəlxalq əlaqələrinin əsas istiqamətləri tələbə, şagird və magistr mübadiləsi, birgə elmi tədqiqatlar, beynəlxalq və regionlararası təhsil proqramlarına qoşulma və onların işində yaxından iştirak etməkdən ibarətdir.

Azərbaycan Prezidentinin həyata keçirdiyi məqsədyönlü xarici siyasət kursunun uğurları və ölkənin təhsil sahəsində beynəlxalq əlaqələrin əsas koordinasiya mərkəzi olan Təhsil Nazirliyinin səmərəli fəaliyyətinin nəticəsi olaraq Azərbaycan Respublikası təhsil sahəsində bir sıra beynəlxalq konvensiyalara qoşulmuş, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığın həyata keçirilməsi təmin edilmişdir.

Bunun nəticəsidir ki, Azərbaycanın təhsil müəssisələri YUNESKO, YUNİSEF, YUNEVOK, İSESKO, Avropa Təhsil Fondu, Avropa Şurası və Avropa İttifaqı kimi nüfuzlu beynəlxalq təşkilatların təhsil problemləri ilə məşğul olan qurumlarının işində fəal iştirak edirlər.

Beynəlxalq təşkilatlarla aparılan səmərəli əməkdaşlığın nəticələrindən biri Avropa İttifaqı tərəfindən maliyyələşdirilən TEMPUS/TASİS proqramına Azərbaycan ali məktəblərinin fəal cəlb olunmasıdır.

Son illər ərzində Avropa Birliyinin TEMPUS proqramı çərçivəsində ölkəmizin 16 ali məktəbini əhatə edən 4,4 milyon avro məbləğində 21 layihə həyata keçirilmişdir. Layihə çərçivəsində tələbə mübadiləsi, mütəxəssis hazırlığı, müəllimlərin xaricdə staj keçməsinin təşkili, ali təhsil müəssisələrinin müasir informasiya texnologiyaları və tədris avadanlıqları ilə təchizatı üzrə tədbirlər reallaşdırılmışdır. 2005–2006-cı illərdə müxtəlif layihələrə 2 milyon avro həcmində vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

Bu proqramın maliyyə-texniki yardımı ilə Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Dillər Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, o cümlədən Qərb, Xəzər, Azərbaycan Beynəlxalq Universiteti və Odlar Yurdu kimi özəl ali məktəblərdə bir sıra məqsədyönlü işlər görülmüşdür.

Təhsil Nazirliyinin çox sıx və səmərəli əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlardan biri YUNİSEF-dir. Azərbaycan hökuməti ilə YUNİSEF arasında imzalanmış Əməkdaşlıq Proqramı çərçivəsində 2000–2004-cü illər arasında «Erkən uşaqlıq dövründə inkişaf və daha yaxşı valideynlik təşəbbüsü», «Fəal təlim və məktəb rəhbərliyi», «İnkişaf üçün təhsil və Uşaq Hüquqları Konvensiyası (UHK)», «Təhsil sistemində məlumatların və təhlillərin təkmilləşdirilməsi», «Gənclərin sağlamlığı və inkişafı», «Valideyn-Müəllim Assosiasiyasının yaradılması», «Mina Təhlükəsinə dair Maarifləndirmə» kimi layihələr üzrə müvəffəqiyyətlə iş aparılmışdır. Son illərdə əməkdaşlıq proqramı çərçivəsində həyata keçirilən tədbirlərə ildə 300 min ABŞ dolları olmaqla ümumilikdə 1,5 milyon ABŞ dolları həcmində vəsait sərf edilmişdir.

Azərbaycan hökuməti ilə YUNİSEF arasında imzalanmış Əməkdaşlıq Proqramı çərçivəsində 2004-cü ilin noyabrında Təhsil Nazirliyi və YUNİSEF-in Azərbaycandakı nümayəndəliyi tərəfindən «Fəal/interaktiv təlimin Azərbaycanda tətbiqinə dair milli siyasətin hazırlanması» mövzusunda 2 günlük konfrans keçirilmiş, «Fəal/interaktiv təlim texnologiyasının (FİTT) Azərbaycanda tətbiqi ilə bağlı fəaliyyət istiqamətləri» adlı sənəd hazırlanmışdır.

Bunlarla yanaşı, Təhsil Nazirliyi ABŞ, Fransa, Böyük Britaniya, Qazaxıstan, Almaniya, Rusiya, Çin, Yaponiya, İsrail, Cənubi Koreya, Səudiy-

yə Ərəbistanı Krallığı, Türkiyə, İran, Misir, Hindistan, Ukrayna, Gürcüstan, Moldova, Çexiya, Slovakiya, Özbəkistan və Polşa kimi ölkələrlə birbaşa təhsil əlaqələri yaratmışdır və bu əməkdaşlıq hazırda da uğurla davam etdirilir.

Təhsil Nazirliyinin rəhbərliyi Fransa, Türkiyə, Böyük Britaniya, Rusiya, İran, ABŞ və Almaniyavə digər ölkələr ilə təhsil sahəsində birbaşa əməkdaşlıq proqramı çərçivəsində həmin ölkələrdə olmuş, qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirilməsini nəzərdə tutan protokollar imzalamışdır.

Əvvəlki fəsildə də qeyd etdiyimiz kimi Azərbaycan Respublikasının ali məktəbləri xarici ölkələr üçün kadr hazırlığı sahəsində böyük ənənə və təcrübəyə malikdir. Hələ keçmiş SSRİ dövründən güclü maddi-texniki bazası və geniş potensiala malik olan respublikanın ali məktəblərində XX əsrin 70-ci illərindən başlayaraq dünyanın müxtəlif ölkələrindən minlərlə əcnəbi vətəndaş ayrı-ayrı ixtisaslar üzrə təhsil almışdır. Bu ənənə bu gün də davam etməkdədir.

Ali təhsil sistemində aparılan məqsədyönlü işlərin nəticəsidir ki, hazırda Azərbaycanın ali məktəblərində 40-a yaxın ölkədən 6,7 mindən çox əcnəbi tələbə təhsil alır. Bu nəticə ali təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi, ən başlıcası isə ölkə daxilində yaradılmış sabit və sağlam mühit sayəsində əldə edilmişdir.

Azərbaycan Respublikası ali məktəblərində əcnəbi vətəndaşlar bakalavr, magistratura və doktorantura pillələrində dövlət hesabına və ya ödənişli əsaslarla təhsil alırlar.

Ölkəmizdə fəaliyyət göstərən təhsil müəssisələrinə, xüsusilə ali məktəblərə əcnəbilərin şəxsi müqavilə əsasında cəlb olunması sahəsində problemlərə baxmayaraq bir sıra uğurlar da əldə edilmişdir. Xarici vətəndaşlarla təhsil müəssisəsi arasında imzalanan müqavilələr əsasında həyata keçirilən belə təhsil ödənişli olduğu üçün ölkəyə xaricdən böyük həcmdə valyuta vəsaitinin cəlb olunmasına zəmin yaradır. Bütün bunlar ali məktəblərimizdə onilliklər boyu əldə edilmiş elmi nailiyyətlərin və təcrübənin səmərəli şəkildə istifadə olunması kimi qiymətləndirilməlidir.

Bu gün Azərbaycanın təhsil sistemində Açıq Cəmiyyət İnstitutu – Yardım Fondunun «Addım-addım» və «Tənqidi təfəkkürün inkişafı» texno-

logiyaları, BMT-nin «Davamlı insan inkişafı», ABŞ-ın «Proyekt Harmoniya» təşkilatının, YUNESKO-nun «Assosiativ məktəblər», «Qardaşlaşmış məktəblər» layihələri, «Alman Akademik Mübadilə Xidməti», «Gənclərin nailiyyəti» təşkilatlarının proqramları ümumi-likdə 200-dən çox təhsil müəssisəsində uğurla tətbiq edilir.

Azərbaycan təhsilinin beynəlxalq əlaqələrini tənzimləmək və daha da inkişaf etdirmək üçün lazımi hüquqi baza formalaşdırılmışdır. Azərbaycan Respublikası ali təhsil sahəsində təhsil sənədlərinin və elmi dərəcələrin tanınması ilə bağlı «Avropa regionu dövlətlərində ali tədris kurslarının, ali təhsil diplomlarının və elmi dərəcələrin tanınması haqqında YUNESKO-nun 1979-cu il Paris Konvensiyası», «Asiya və Sakit Okean ölkələrində tədris kurslarının, ali təhsil sahəsində diplomların və elmi dərəcələrin tanınması haqqında YUNESKO-nun 1983-cü il Banqkok Regional Konvensiyası», «Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında 1997-ci il Lissabon Konvensiyası» kimi bir sıra beynəlxalq sənədlərə qoşulmuşdur.

Təhsil Nazirliyi tərəfindən hazırda bir sıra beynəlxalq təşkilatlarla birgə layihə və proqramlar həyata keçirilir və gələcəkdə də davam etdiriləcəkdir. «MDB ölkələri ilə ABŞ-ın qardaşlaşmış məktəblər» layihəsi, Azərbaycanda peşə təhsilinin inkişafı sahəsində Avropa Təhsil Fondunun Təhsil Nazirliyi ilə birgə layihəsi, Azərbaycanın təhsil müəssisələrində ingilis dilinin tədrisi metodikasının təkmilləşdirilməsi üzrə Britaniya Şurasının Təhsil Nazirliyi ilə birgə proqramı, Avropa Şurası ilə «Tbilisi təşəbbüsü» birgə regional layihəsi, Avropa Şurası ilə «Demokratik vətəndaşlıq üzrə təhsil» mövzusunda birgə Regional Layihə, Avropa Şurası ilə «Milli azlıqların təhsili sahəsində siyasət» birgə layihəsi, ABŞ-ın Montana Dövlət Universiteti və Təhsil Nazirliyi ilə Azərbaycan təhsil sistemində demokratiyanın əsasları və vətəndaşşünaslığın tədrisi sahəsində yüksək hazırlıqlı kadrların, tədris proqramı və dərs vəsaitinin hazırlanması üzrə birgə layihə bu sıradadır.

Eyni zamanda ABŞ-ın ACCELS təşkilatı ilə birgə layihə, ABŞ-ın İREX şirkəti ilə əməkdaşlıq proqramı, ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən «Proyekt Harmoniya» proqramı, Almaniya Akademik Mübadilə Xidməti – DAAD ilə birgə proqram, Təhsil Nazirliyi, YUNİSEF və «Dünyaya baxış» təşkilatının xüsusi qayğıya ehtiyacı olan uşaqların

inteqrasiyalı təlimi üzrə birgə layihəsi, Xüsusi qayğıya ehtiyacı olan uşaqların inteqrasiyalı təlimi üzrə YUNESKO-nun Təhsil Nazirliyi ilə birgə layihəsi də uğurla həyata keçirilməkdədir.

Təhsil Nazirliyi ilə ABŞ-ın CISCO SYSTEMS təşkilatı arasında imzalanmış anlaşma memorandumu çərçivəsində 2006-cı ildə Bakı və Sumqayıt şəhərlərində kompyuterlə təmin olunmuş 204 məktəbi internet şəbəkəsinə qoşulmuşdur.

Azərbaycan Asiya İnkişaf Bankının «Ümumi təhsildə informasiya və kommunikasiya texnologiyaları» Subregional Texniki Dəstək Layihəsinin də fəal iştirakçısıdır. Bu layihədə əsas məqsəd üzv ölkələrin (Azərbaycan, Monqolustan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan) təhsil sistemində İKT-nin tətbiqi imkanlarının və istifadəsinin, elektron dərsliklərin hazırlığı, məktəblərin internetə çıxışının, İKT ilə bağlı aparılan təhsil islahatlarının vəziyyətini öyrənməkdən, bütün şagirdlər üçün təhsil almaq imkanlarının yaxşılaşdırılması və təhsili əmək bazarının tələbləri ilə uyğunlaşdırmaq üçün təhsildə İKT-nin tətbiqinə investisiya qoyuluşunun effektivliyini artırmaq yollarını araşdırmaq və həmin ölkələrə lazımi tövsiyələr verməkdən ibarətdir.

Prezident İlham Əliyevin elmə diqqət və qayğısı həm də respublikanın gələcəyi baxımından vacib olan intellektual kadr potensialının formalaşdırılması niyyətindən irəli gəlir. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi zərurəti nəinki yüksək peşəkarlıq və zəka, həmçinin, yüksək əxlaqi və mənəvi keyfiyyətləri, vətənpərvərliyi, Vətənə hədsiz sədaqəti ilə seçilən kadrların hazırlanmasını diktə edir. Dövlət başçısı müasir qloballaşma əsrində dünya elminə, təhsilinə inteqrasiyanı vacib sayaraq azərbaycanlı gənclərin xaricdə təhsil almasına da xüsusi əhəmiyyət verir.

Kadr hazırlığı heç vaxt rəqabət qabiliyyətini itirmir, əksinə, getdikcə daha da artırır. İnkişaf etmiş ölkələrin təcrübəsindən məlumdur ki, dünya bazarında gedən rəqabət prosesində yalnız yüksək səviyyəli kadrlara malik olan ölkələr qalib gəlirlər. Hazırda Qərbi Avropa, ABŞ, Yaponiya kimi ölkələrdə təhsilin yüksək səviyyədə təşkil olunması onların dünya miqyasında liderlik etmələrində əsas rol oynayır. Bu ölkələrin təcrübəsi göstərir ki, elm və təhsil sahəsində mövcud olan qlobal problemlərin həlli ölkənin təhlükəsizliyinin təmin olunması ilə üzvi şəkildə bağlıdır. Məhz bunun nəticəsidir ki, hazırda ölkələr və təşkilatlar arasında «beyin oğurluğu»

genişlənir. İnkişaf etmiş ölkələr ali məktəbi yüksək səviyyədə bitirmiş kadrları müxtəlif üsul və vasitələrlə öz ölkələrinə cəlb edirlər.

İxtisaslı kadrların hazırlanmasına qoyulan investisiyalar insanın formalaşmasına qoyulan investisiya sayılır. Başqa formada bu, insana kapital qoyuluşu da adlandırılır və belə investisiyalar insan kapitalı yaradır. Müasir dövrdə bu növ investisiyalar rəqabətdə üstun olmağın həlledici amili hesab olunur. İnsana kapital qoyuluşu – insanların mütəxəssis kimi hazırlanmasına qoyulan investisiyadır. Dünya təcrübəsində insana kapital qoyuluşu ən çox gəlir gətirən investisiya hesab olunur. İnsan kapitalı – cəmiyyətə məxsus olan keyfiyyətlərin insana təsirinin məhsulu kimi təsvir edilir. Belə təsirlərin səviyyəsi onu xarakterizə edən dəyərlər toplusu ilə müəyyənləşdirilir. Cəmiyyətin sivillik meyarı nə dərəcədə yüksək olsa, onun insanlara təsiri daha məhsuldar, insan kapitalı daha dəyərli olar. Hər hansı kapital kimi insan kapitalı da öz inkişafı üçün həm dövlət tərəfindən, həm də onu işə götürən sahibkar tərəfindən daim investisiya qoyuluşu tələb edir.

Yüksək səviyyədə hazırlanmış kadr potensialı, elmi-texniki, sosial-iqtisadi inkişafda əhəmiyyətli rol oynayır. Nəzərə almaq lazımdır ki, ixtisaslı kadrların əməyi intellektual əmək hesab olunur. İntellektual əmək işçisi isə hər hansı müəssisə və ya təşkilatın ən vacib və dəyərli resursları sayılır. Çünki intellektual əmək və ya ixtisaslı kadrların əməyi, onların bilik və bacarığı başlıca istehsal resursu kimi meydana çıxır. Ona görə də müasir dövrdə yeni iqtisadi anlayış «bilik iqtisadiyyatı» və ya «biliklərə əsaslanan iqtisadiyyat» anlayışları meydana gəlmişdir. Buna əsaslanaraq məşhur iqtisadçı alim D.Bell qeyd edir ki, **«Gələcəkdə əhalinin yüksək sosial təbəqələrə aid olan və aid olmayan hissələrə bölünməsi onların maddi vəziyyətləri ilə deyil, yeni biliklər yaratmaq iqtidarında olan intellektual potensialı – bilik daşıyıcıları ilə müəyyənləşəcəkdir»**.

Müasir bazar iqtisadiyyatı şəraitində təhsilin keyfiyyətini artırmaqla dövlətin iqtisadi və mənəvi dəyərlərinin qorunmasına, inkişaf etdirilməsinə, respublikamızda əmək qabiliyyətli əhalinin tam və səmərəli məşğulluğunun təminatına nail olmaq olar. Bunun üçün, ilk növbədə, respublika vətəndaşlarının ümumi inkişaf səviyyəsinin, intellektual potensialının, peşə ixtisas dərəcəsinin və təhsil səviyyəsinin artırılması vacibdir. Çünki hər bir insanın mütəxəssis kimi yetişdirilməsi, formalaşdırılması və cəmiyyətdə rolunun artırılmasına qısa vaxta nail olmaq mümkün deyil. Buna görə də yüksək hə-

yat səviyyəsinə nail olmaq üçün hər kəsin təhsilin yüksək pillələrində təhsil almasına münbit şərait yaradılmalıdır.

Bu reallıqları nəzərə alan Prezident İlham Əliyev test imtahanlarında yüksək bal toplamış magistr tələbələrin xaricdə təhsil almasına maliyyə vəsaiti ayrılması üçün ARDNŞ rəhbərliyinə göstəriş vermişdir. Bunda məqsəd, şübhəsiz, bütün sahələrdə sürətlə inkişaf edən Azərbaycan üçün yüksək səviyyəli kadrların hazırlanmasıdır. Azərbaycan Prezidentinin 19 oktyabr 2006-cı il tarixli **«Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında»** sərəncamı isə bu sahədə həyata keçirilən dövlət siyasətində ardıcıllığının və sistemliliyin təmin olunması baxımından təqdirəlayiqdir. Sərəncamda göstərilir ki, XX əsrin 70–80-ci illərində minlərlə Azərbaycan gənci respublikadan kənarda yerləşən nüfuzlu ali məktəblərdə müxtəlif ixtisaslar üzrə təhsil alaraq ölkəmizin iqtisadi, mədəni və elmi potensialının gücləndirilməsinə öz layiqli töhfələrini vermişlər. Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra azərbaycanlı gənclərin dünyanın müxtəlif ali məktəblərinə göndərilmə siyasəti formalaşmağa başlamışdır. Hazırda azərbaycanlı tələbələr həm dövlət, həm də müxtəlif fondlar hesabına bir sıra dövlətlərin nüfuzlu ali məktəblərində yüksək təhsil alırlar. Bu proqramın həyata keçirilməsi nəticəsində Azərbaycanda insan kapitalının formalaşması prosesi daha da sürətlənəcəkdir. 2006-cı ilin 9 ayının yekunları ilə bağlı Nazirlər Kabinetində keçirilən müşavirədə Azərbaycan Prezidenti cənab İlham Əliyev bu məsələyə xüsusi diqqət ayırmışdır: **«Bizim indi nadir imkanlarımız var... Böyük valyuta axını gözlənilir. Biz bunu hansı sahələrə yönəltməliyik?! İlk növbədə, təhsilə, səhiyyəyə, sosial sahəyə, bir də mənfəət gətirən sahələrə. Təhsil bu sahədə birinci yerdə dayanan istiqamətdir... Mən bu yaxınlarda gənclərimizin xaricdə təhsil alması üçün sərəncam imzalamışam. Əminəm ki, geniş proqram hazırlanacaqdır. Bu, Azərbaycanın intellektual potensialını daha da gücləndirəcəkdir. Bu proqram, bəlkə də, beş ildən, on ildən, on beş ildən sonra bəhrəsini verəcək, amma mütləq verəcəkdir. Çünki bizim gənclərimiz dünyanın ən tanınmış, mötəbər təhsil ocaqlarında təhsil almalı, öz biliklərini artırmalıdırlar. Azərbaycanda aldığı təhsili xaricdə təkmilləşdirməlidirlər. Əminəm ki, bir neçə ildən sonra Azərbaycanın hərtərəfli inkişafında rol oynayan insanlar çoxalacaqdır».**

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün respublikamızda həyata keçirilən genişmiqyaslı islahatların qayəsində məhz

insan faktoru dayanır. Dövlət başçısı ölkənin gələcəyini zəngin maddi sərvətlərdə deyil, haqlı olaraq məhz insan kapitalının formalaşmasında görür və bu da cənab İlham Əliyevin dünyadakı müasir inkişaf meyillərini düzgün qiymətləndirməsindən xəbər verir. Həyata keçirilən tədbirlər deməyə əsas verir ki, respublikamız yaxın gələcəkdə dayanıqlı iqtisadi inkişaf tempini heç də neft gəlirləri hesabına deyil, məhz bilik, müasir informasiya texnologiyaları, elm tutumlu sahələrin dinamik inkişafı, güclü insan kapitalının formalaşması sayəsində təmin edəcəkdir.

Azərbaycanlı gənclərin xaricdə təhsil alması üçün şəraitin yaxşılaşdırılmasına dair müvafiq sərəncam imzalayan Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizin ən ucqar guşəsində adi bir kəndli ailəsində böyüyüb yaxşı qiymətlərlə ali məktəbə qəbul olunan hər bir gənc dünyanın istənilən ölkəsində, istənilən nüfuzlu ali təhsil ocağında tələbə adını daşımaq şərəfinə nail olmaq imkanındadır. Onlar dünyanın sivil ölkələrinin pedaqoqlarından, alimlərindən, mütəxəssislərindən dərs alaraq yüksək səviyyəli kadr kimi vətənə dönəcəklər. Beləliklə, bir neçə ildən sonra ölkənin mütəxəssis mühiti tamamilə yeniləşəcək, bütün sahələrdə peşəkarlar çalışacaq, ictimai-siyasi həyatda fəallıq artacaqdır.

Elm-təhsil sahəsində mövcud olan problemlərin həlli təbii ki, ilk növbədə bu sahədə fəaliyyət göstərən mütəxəssislərin sosial vəziyyətinin yaxşılaşdırılmasından keçir. Cənab İlham Əliyevin dövlət rəhbərliyinə gəlişindən sonra bu istiqamətdə də əsaslı addımlar atılmışdır. «Alimlik dərəcələrinə görə vəzifə maaşlarına əlavələrin artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2004-cü il tarixli sərəncamına uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyası sistemində, elmi-tədqiqat və təhsil müəsissələrində, habelə digər sahələrdə çalışan işçilərin elmlər doktoru və elmlər namizədi alimlik dərəcələrinə görə vahid tarif cədvəli üzrə vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin məbləği 2004-cü ilin iyulun 1-dən 5 dəfə artırılmışdır.

2004-cü il aprel ayının 19-da isə Prezident İlham Əliyev elmin və təhsilin inkişafına xidmət edən daha bir mühüm sənədə imza atmış, dövlət başçısının «Aspirantlara, ali, orta ixtisas və peşə məktəblərinin və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında» sərəncamı yetişməkdə olan gənc nəslin intellektual potensialını yüksəltmək, onların elmə olan marağını daha da gücləndirmək məqsədinə doğru böyük irəli-

ləyiş olmuşdur. Dövlət başçısının digər bir sərəncamı ilə 25 cildlik Milli Ensiklopediyanın hazırlanması prosesinə başlanılmışdır. 2005-ci ilin sentyabr ayından isə tələbə və aspirantların təqaüdü təxminən 10 dəfə artırılmış, bu illər ərzində təhsil işçilərinin əmək haqlarında da ardıcıl artımlar baş vermiş, ömrünü gənc nəslin maarifləmməsinə sərf etmiş müəllimlərimizin, elm sahəsində çalışan insanlarımızın sosial problemləri həllini tapmış, onların məvacibləri ardıcıl olaraq artırılmış, elmi-pedaqoji kontingent dövlət qayğısı ilə əhatə olunmuş, şərəfli ictimai status sayılan alim-müəllim adının cəmiyyətdəki nüfuzu yenidən bərpa edilmişdir.

Elm və təhsilin inkişafı üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin ildən-ilə artması da bu sahənin Azərbaycanın ümumi inkişafı və dövlət siyasəti ilə ayrılmaz vəhdət təşkil etdiyini deməyə ciddi əsaslar verir. 2004-cü ildə təhsilə büdcə xərclərinin 19 faizi qədər vəsait ayrılmışdırsa, 2005-ci ildə bu rəqəm 20,5 faizə yüksəlmişdir. 2006-cı ilin dövlət büdcəsində isə təhsil xərcləri əvvəlki illə müqayisədə 33 faiz artmışdır. 2010-cu ildə isə dövlət büdcəsindən təhsilə 1 milyard 200 milyondan çox vəsait ayrılmışdır. İnvestisiya xərclərinə 20 faizədək çox vəsait nəzərdə tutulmuş, aspirantların və tələbələrin təqaüdləri 2,5 dəfə, minimum əmək haqqının qaldırılması ilə əlaqədar 320 mindən artıq təhsil işçisinin əmək haqqı orta hesabla 50 faiz artırılmışdır. Təhsilin səviyyəsini müasir standartlara uyğunlaşdırmaq, təhsil müəssisələrində təhsilin keyfiyyətinin monitorinqini həyata keçirmək, təhsil sahəsində mövcud problemləri vaxtaşırı təhlil edərək müvafiq tədbirlərin görülməsini təmin etmək məqsədi ilə dövlət başçısı 30 may 2005-ci il tarixdə **«Azərbaycan Respublikasının Prezidenti yanında təhsil üzrə xüsusi komissiyanın yaradılması haqqında»** sərəncam imzalamışdır.

Müqəddəs elm ocağı olan Azərbaycan Milli Elmlər Akademiyasının 60 illik yubileyi ilə əlaqədar dövlət başçısının xüsusi sərəncamlar imzalaması və görkəmli elm xadimlərini yüksək dövlət mükafatları ilə təltif etməsi, bir sıra alimlərə elmi adların və Prezident təqaüdünün verilməsi cənab İlham Əliyevin bu sahəyə yüksək qayğısını əyani surətdə əks etdirir. Milli Elmlər Akademiyasının 60 illik yubiley mərasimində çıxış edən dövlət başçısı ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi ənənələrinə sadiq qalacağını bir daha bəyan etmişdir: **«Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi işində əlavə addımlar atılacaqdır. Biz gərək bu maddi-texniki bazanı möhkəmləndirək. Akademiyanın nəz-**

dində fəaliyyət göstərən institutlara daha böyük həcmdə kömək göstərək. Əlbəttə, akademiya sistemində çalışan insanların maaşları, əmək haqları qaldırılmalıdır və biz bunu edəcəyik».

Akademiyadakı çıxışında cənab İlham Əliyev bu elm məbədinin qarşısında duran başlıca vəzifələrdən danışmaqla yanaşı, ermənilərin cəfəng iddialarına qarşı elmi-ideoloji mübarizənin gücləndirilməsini də zəruri amil kimi önə çəkmişdir. Azərbaycan Prezidenti çıxışında həm də elm adamlarına yüksək hörmət və ehtiramını ifadə etmişdir. **«Mən çox şadam ki, bu bayramda sizinlə birlikdəyəm. Çalışacağam ki, akademiyanın inkişafında bundan sonra da öz əməyimi əsirgəməyim. Mən bir daha demək istəyirəm, bu, qəti fikrimdir ki, hər bir ölkənin normal inkişafı üçün ilk növbədə, bilik, savad, elmin inkişafı lazımdır. Azərbaycanda çox güclü elmi potensial vardır. Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri çox dəyərli şəxslərdir. Həm elm sahəsində, həm də ictimai həyatda xalqın hörmətini qazanmış insanlardır və biz bu insanlarla fəxr edə bilərik. Mən də fəxr edirəm ki, Azərbaycan Milli Elmlər Akademiyası bu gün çox yüksək səviyyədədir»** – deyən cənab İlham Əliyev elmin inkişafı naminə bundan sonra da əzmlə çalışacağını bəyan etmişdir.

Azərbaycan Prezidentinin tariximizin, milli-mənəvi dəyərlərimizin daha böyük həssaslıqla öyrənilməsi, bütün dünyada təbliği, virtual qüdrəti ilə çağdaş dünyamızı sərhədsizləşdirmiş informasiya texnologiyalarının ölkəmizdə səmərəli tətbiqi sahəsində elmi-tədqiqatların daha da gücləndirilməsi və sair bu kimi məsələlər AMEA-nın gələcək fəaliyyət planlarında əsas prioritetlərə çevrilməlidir. Dövlət başçısının söylədiyi kimi, bu gün yeni imkanlar mövcuddur. İnformasiya-kommunikasiya texnologiyaları vasitəsilə indi biz Azərbaycan həqiqətlərini istənilən auditoriyaya çatdıra, Vətənimizi dünyaya daha yaxşı tanıda, sivilizasiyalararası dialoq prosesinə daha fəal şəkildə qoşula bilərik. Dövlət rəhbəri bütün bu işlərin proqram şəklində aparılması zəruriliyini qeyd etdi. Bu vəzifələr bizim hər birimizə aiddir və üzərimizə düşən vəzifələri yerinə yetirmək üçün daha böyük səylə çalışmalıyıq.

Bu tədbirlər həm də ölkə başçısının Azərbaycan vətəndaşlarının maarifləndirilməsi işinə qayğısının təzahürüdür. Bu fəaliyyət Azərbaycanın hər bir vətəndaşı tərəfindən, o cümlədən elm adamları tərəfindən dəstəklənir. Gənc nəslin elmə, təhsilə marağını artırır.

Bu gün respublikamızda hazırlanması mümkün olmayan yeni ixtisaslar üzrə elmlər namizədləri və elmlər doktorlarının ölkədən kənarda – xarici dövlətlərin aparıcı ali məktəblərində hazırlanmasına şərait yaradılır. AMEA-nın elmi-tədqiqat institutlarında, ali məktəblərin kafedralarında çalışan alimlər tərəfindən respublikada üstün sayılan istiqamətlər üzrə fundamental və tətbiqi elmi-tədqiqat işləri yerinə yetirilir, mühüm nəticələr əldə edilir. Azərbaycanda nüfuzlu elmi toplantılar keçirilir.

Azərbaycan alimlərinin iqtisadiyyatın və kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı çoxsaylı tətbiqi xarakter daşıyan elmi işlərinin həyata keçirilməsinə şərati yaradılır. Alimlərlə özəl sektor arasında qarşılıqlı əlaqə təmin edilir.

Yeni ixtiraların ictimaiyyətə çatdırılması və onların istehsalının təşkili məqsədilə elmi-praktiki konfranslar keçirilir.

Alimlərimiz Azərbaycan elmini müxtəlif beynəlxalq elmi konfranslarda və simpoziumlarda yüksək səviyyədə təmsil edir, onların məqalələri xarici ölkələrin aparıcı beynəlxalq elmi jurnallarında nəşr olunur. Azərbaycan elmi, təhsili faktiki olaraq yeni inkişaf mərhələsinə qədəm qoyur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin ulu öndərimizin formalaşdırdığı ənənələrə əsaslanan elm və təhsil strategiyası Azərbaycan elmini, Azərbaycan gəncliyini daha nurlu, daha işıqlı sabahlara istiqamətləndirir.

Ölkə vətəndaşları Azərbaycan Prezidentinin rəhbərliyi altında ulu öndərimizin bütün ideallarının, böyük arzularının reallaşacağına, Azərbaycanın güclü və qüdrətli dövlətə çevriləcəyinə ürəkdən inanır və gələcəyə böyük ümidlə baxır.

Son illərdə milli elmimizin və təhsilimizin inkişafı, bu sahədə aparılan məqsədyönlü islahatlar, həyata keçirilən məqsədli proqramlar, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq, xüsusilə ölkə Prezidentinin elmə və təhsilə böyük diqqət və qayğısı bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan elmi və təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurla davam etdirdiyi strateji kursla inkişaf edəcəkdir.

IV FƏSİL

VƏTƏNPƏRVƏRLİYİN VƏ XEYİRXAHLIĞIN ALİ UNVANI

Mənim həmyaşıdlarım həyatlarındakı Heydər Əliyev mərhələsinin bu gününü yaşayır, yenə də həyat dərsi keçir. Bu dərs onun timsalında ruhun, iradənin gücünə, insanın məğlubedilməzliyinə inam dərsidir.

Mehriban ƏLİYEVA

Azərbaycan təhsilinin, elminin inkişafına, milli-mənəvi dəyərlərimizin qorunmasına, bütün dünyada təbliğinə verdiyi töhfələrlə bu əminliyi möhkəmləndirən bir şəxsiyyət, görkəmli ictimai xadim haqqında da söhbət açmaq istərdik. O, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevadır.

Mehriban Əliyeva

HƏYAT DƏRSİ

XX əsr Azərbaycan tarixinin önəmli, əlamətdar bir mərhələsi var: 60-cı illərin sonlarından başlanan və XXI əsrə adlayan tarixi zaman. İlk baxışda quru statistika və faktlarla dolu, möhtəşəm, ziddiyyətli, enişli-yoxuşlu bir dövrün mənzərəsi yaranacaq. Lakin ikicə kəlmə söz tarix səhifələrini canlandırıb, uğurları, itkiləri, tərəqqi və inkişafı onlarca müfəssəl cədvəldən, araşdırmalardan qat-qat tutumlu əks etdirə bilər. Heydər Əliyev. Tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı. 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Lider. Mənim də mənsub olduğum nəsil üçün – dünyaya 60-cı illərdə göz açanlara – o, ailə üzvü qədər yaxın və doğmadır. Və bu yaxınlıq tamamilə təbiidir.

Hələ məktəb illərindən universitetə qədər, oradan da müstəqil həyata vəsiqə alanlar üçün Heydər Əliyev möhkəm iradəsi, təşkilatçılıq və dövlətçilik vərdişlərinin unikal virtuozluğu ilə heyran edən, geniş erudisiyası, qibtəedəcək işgüzarlığı, sənətə vurğunluğu və sənət adamlarına himayədarlığı ilə örnək bir lider olmaqla yanaşı, həm də bizim gündəlik həyatımızın, məişətimizin təcridedilməz bir hissəsi idi.

O zamanın qanunlarına görə yaşayan bir cəmiyyətdə respublika başçısının, sözün yaxşı mənasında, millətpərəst bir insan olması onun həyatının nə qədər maneələrlə, üstüörtülü təhlükələrlə, daxili sarsıntılarla dolu olduğunu göstərir. Başqa cür ola da bilməzdi! Axı Azərbaycan üçün Heydər Əliyev möhkəm sipər, dayaqdır. Bunu bizim nəslimiz 80-ci illərin sonunda Vətənin üstünü qara buludlar alanda – Qarabağ savaşında, 20 Yanvar faciəsində haqsızlıq və laqeydlik ilə üz-üzə qalanda hiss etdi. Onun Azərbaycan üçün varlığının taleyin Tanrı payı olduğunu o zaman dərindən duyduq. Hiss etdik ki, «Azərbaycan və Heydər Əliyev qırılmaz tellərdir» kəlmələrinin ifadəsi adi ritorika deyil.

Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətən – Azərbaycan taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı.

Hüseyn Cavidi uzaq soyuq Sibirdən Vətəninə qaytaranda, dahi həmvətənlərinin xatirəsini əbədiləşdirmək üçün bir-birindən əhəmiyyətli tarixi-mədəni layihələri reallaşdıranda, yüzlərlə gənci keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə oxumağa göndərəndə, mənəvi irsimizin qorunması, təbliği ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlayanda o, bizlərə «Bu Vətən sənin, mənim, hamımızındır» kəlməsinin əsl mahiyyətini anladan həyat dərsi keçirdi. 1993-cü ildə yenidən Azərbaycan tarixini yaradan Heydər Əliyevi dəstəkləmək üçün meydanlara yığışın, onun səsinə səs verən milyonlarla azərbaycanlı arasında biz də – dünyaya 60-cı illərdə göz açanlar da var idik.

Mənim həmyaşıdlarım həyatlarındakı Heydər Əliyev mərhələsinin bu gününü yaşayır, yenə də həyat dərsi keçir. Bu dərs onun timsalında ruhun, iradənin gücünə, insanın məğlubedilməzliyinə inam dərsidir.

HEYDƏR ƏLİYEV FONDU MİLLİ MAARİFÇİLİK ƏNƏNƏLƏRİNİN DAVAMÇISIDIR

Azərbaycan qadınların ictimai həyatdakı fəallığına görə dünyanın bir çox ölkələri üçün örnək sayıla bilər. Cəmiyyətimizdə maarifçilik ənənələrinin formalaşdırılması və inkişafı baxımından Azərbaycan qadınlarının əməyi müstəsnadır. Bəşəriyyət tarixində güman ki, maarif, bilik, informasiya əsri kimi tədqiq ediləcək XXI əsrin ilk illərində də məhz Azərbaycan qadını təhsilin inkişafını ölkədə milli hərəkata çevirdi.

Azərbaycanın milli dövlətçilik tarixində bu ənənəni elə bir şəxs formalaşdırdı ki, o, dunyaya göz açıb tərbiyə aldığı ailə, bütün ömrü boyu əhatə olunduğu mühit, üz tutduğu dəyərlər etibarilə əsl Azərbaycan qadınının simvolu sayıla bilər.

Mehriban xanım Əliyeva akademik Arif Paşayevin və tanınmış şərqşünas alim, mərhum professor Aida xanım İmanquliyevanın ailəsində dünyaya göz açmış, XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından olan Mir Cəlal Paşayevin və milli mətbuatımızın patriarxı, minlərlə Azərbaycan jurnalistinin ustadı olan tanınmış jurnalist Nəsir İmanquliyevin ocağında boybaşa çatmışdır. Onun həyat müəllimləri özünün də yazılarında qeyd etdiyi kimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, Zərifə xanım Əliyeva olmuşdur.

Bu gün ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təhsilə göstərdiyi diqqət və qayğısı, bu sahədə həyata keçirdiyi layihələr, humanitar yönümlü proqramlar hər bir Azərbaycan vətəndaşı tərəfindən böyük rəğbətlə qarşılanır.

4.1.Gələcəyə körpü

Ümumbəşəri və qlobal problemlərin həlli ayrılıqda götürülmüş bir və bir neçə dövlətin fəaliyyətindən deyil, dünya dövlətlərinin bu istiqamətdəki birgə səylərindən asılı olduğundan müasir dövrdə dövlətlərarası təşkilatların rolunun günbəgün artdığını xüsusi vurğulamağa ehtiyac yoxdur. Belə təşkilatlardan ən böyüyü və mötəbəri olan BMT-nin əsas məqsədləri də beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, xalqların bərabərliyi və öz müqəddəratını təyin etmək prinsiplərini rəhbər tutaraq millətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək, iqtisadi, sosial, mədəni və humanitar xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirmək kimi vacib məsələləri özündə birləşdirir. BMT və onun sisteminə daxil olan bütün digər təşkilatların fəaliyyəti məhz bu məqsədlərə xidmət göstərir. Beynəlxalq aləmdə baş verən proseslərə fəal inteqrasiya, ümumbəşəri və qlobal problemlərin həllindən kənarda qalmamaq üçün BMT-nin üzvü olmaq əsas amillərdən biri kimi meydana çıxır. BMT-nin tribunası dövlətin öz məqsəd və məramlarını dünyaya bəyan etmək, istər xarici, istərsə də daxili problemlərin həlli üçün ölkələri əməkdaşlığa çağırmaq məqsədilə istifadə edə biləcəyi ali kürsülərdən biridir.

Azərbaycan 1992-ci il martın 2-də BMT-yə üzv qəbul olunmuşdur. Ümummilli liderimiz Heydər Əliyev BMT-nin Baş Məclisindəki çıxışında demişdir: **«Bütövlükdə Azərbaycan Respublikası gələcək üçün BMT-nin perspektivlərini nikbinliklə qiymətləndirir və bundan sonra da Birləşmiş Millətlər Təşkilatının yüksək prinsiplərini müdafiə etmək, təşkilatın nüfuzunun və səmərəsinin artırılmasına nail olmaq əzmindədir».**

BMT ilə əməkdaşlığın həyata keçirilməsinin əsas yollarından biri də bu təşkilatın ixtisaslaşmış qurumları ilə əlaqələri gücləndirmək, onlarda layiqincə təmsil olunmaqdan ibarətdir. BMT-nin bütün dünyada geniş tanınan ixtisaslaşmış qurumu YUNESKO (United Nations Educational, Scientific and Cultural Organization – BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Üzrə Təşkilatı) 1946-cı ildə yaradılmışdır. Onun əsas məqsədləri təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığı həvəsləndirməklə sülhün və təhlükəsizliyin təmin olunmasına yardım göstərmək-

dən, BMT-nin Nizamnaməsinə uyğun olaraq irqinə, cinsinə, dilinə və dininə fərq qoymadan bütün insan hüquq və azadlıqlarına nail olmaqdan ibarətdir. Bu məqsədləri həyata keçirmək üçün YUNESKO xalq təhsilini həvəsləndirir, biliklərin artırılması, saxlanması və yayılmasına xidmət edir. Mədəniyyətin yayılmasına və təbliğinə kömək göstərir. Kütləvi informasiya vasitələrinin köməyi ilə xalqlar arasında qarşılıqlı anlaşmanı təmin edir.

Azərbaycan Respublikası 3 iyun 1992-ci ildə YUNESKO-ya üzv qəbul edilmiş, 1996-cı ildə isə YUNESKO və Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev 1993-cü ilin dekabr ayında Fransaya səfəri zamanı YUNESKO-nun iqamətgahında olmuş və təşkilatın Baş Direktoru ilə görüşmüşdür. Keçən dövr ərzində Azərbaycan UNESCO-nun aşağıdakı Konvensiyalarına qoşulmuşdur:

1. Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında 14 may 1954-cü il Konvensiyası (1993) və ona dair İkinci Protokol (2000);

2. Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında 16 noyabr 1972-ci il Konvensiyası (1993);

3. Avropa regionu dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması haqqında 21 dekabr 1979-cu il Konvensiyası (1994);

4. Asiya və Sakit Okean dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması haqqında 16 dekabr 1983-cü il regional Konvensiyası (1995);

5. Müəlliflik hüququ haqqında 6 sentyabr 1952-ci il Ümumdünya Konvensiyası (1997);

6. Avropa regionunda ali təhsil ixtisaslarının tanınması haqqında Konvensiya (1998);

7. Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında 14 noyabr 1970-ci il Konvensiyası (1997);

8. Başlıca olaraq su quşlarının məskəni kimi beynəlxalq əhəmiyyətə malik su-bataqlıq yerləri haqqında 2 fevral 1971-ci il Konvensiyası (2001);

9. Fonoqram istehsalçılarının mənafelərinin onların fonoqramlarının qanunsuz istehsalında mühafizəsi haqqında 29 oktyabr 1971-ci il Konvensiyası (2001);

10.Beynəlxalq xüsusi hüquqi unifikasiya institutunun (UNIDROIT) oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəni dəyərlər haqqında 1995-ci il Konvensiyası (2003).

Azərbaycan YUNESKO-nun üç ixtisaslaşmış qurumunun üzvüdür:

1. Hüquq Komitəsi
2. Bioetika üzrə Hökumətlərarası Komitə (İBC)
3. Mədəni dəyərlərin qeyri-qanuni mənimsənilməsi təqdirində onların öz vətəninə qaytarılması Hökumətlərarası Komitəsi UNDPUNESCO əməkdaşlıq çərçivəsində Bakıda, Sumqayıtda və Naxçıvanda informatika sahəsində elmi-tədris mərkəzləri yaradılmışdır. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində radio-televiziya tədris studiyası yaradılmışdır.

Bakıda YUNESKO-nun köməyi ilə 15 konfrans və seminar keçirilmişdir:

1. 1996 – M.Füzulinin anadan olmasının 500 illik yubileyi ilə əlaqədar;
2. 1997 – texniki peşə təhsilinin problemlərinə dair;
3. 1999 – tərcüməçilik problemlərinə dair;
4. 2000 – «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyi ilə əlaqədar;
5. 2001 – Qafqaz dövlətlərinin Pedaqoji ali məktəblərinin ikinci regional toplantısı;
6. 2001 – N.Tusinin anadan olmasının 800 illik yubileyi ilə əlaqədar;
7. 2001 – Mədəni irsin qorunmasına dair normativ aktlara həsr olunmuş beynəlxalq seminar;
8. 2001 – «Rəqəmli ipək yolu» regional seminar;
9. 2002 – XX əsrin ən mühüm hadisələri haqqında ;
10. 2003 – Mirzə Kazımbəyin 200 illik yubileyinə dair;
11. 2003 – GUAM ölkələri arasında mədəni dəhlizə dair;
12. 2003 – YUNESKO Türk Dövlətlərinin Kosmik Nəsil Forumu;
13. 2003 – Professional fəaliyyətdə İnformasiya və Kommunikasiya Texnologiyalarının istifadə edilməsində professional təcrübənin artırılmasına dair seminar;

14. 2004 – Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında konvensiyanın 50 illiyinə dair;
15. 2004 – YUNESKO (ASPnet) üzrə milli koordinator və bu şəbəkəyə daxil olmuş məktəblərin müəllimləri üçün «Keyfiyyətli təhsil təcrübədə» mövzusunda regional seminar.

YUNESKO-nun kafedraları aşağıdakılardır:

1. İnsan hüquqları, demokratiya və sülh;
2. Tərcüməçilik, dilmanclıq və terminologiya.

Aşağıdakı sahələr üzrə Milli Komitələr yaradılmışdır:

1. Muzeylərin Beynəlxalq Şurası (İCOM);
2. Sosial Dəyişikliklərin İdarə edilməsi (MOST);
3. Beynəlxalq Hidroloji Proqram (İHP);
4. İnsan və Biosfer Proqramı (MAB);
5. Beynəlxalq Bioetika Komitəsi (İBC);
6. Beynəlxalq Musiqi Şurası;
7. Beynəlxalq Teatr İnstitutu.

Göründüyü kimi, öz fəaliyyətini tərbiyə, elm, mədəniyyət, kommunikasiya, xüsusi elmlər və inkişaf, sülh və insan hüquqları kimi əsas istiqamətlərə yönəldən YUNESKO həmin məqsədlə müxtəlif proqramların həyata keçirilməsinə çalışır. Ümumi informasiya, kommunikasiyanın inkişaf etdirilməsi, savadsızlığın ləğvi, tərcümələr, okeanoqrafik tədqiqatlar və sahil ərazilərinə nəzarət və s. beynəlxalq proqramlar da bu sıraya daxildir.

YUNESKO-nun fəaliyyət sferasında mədəniyyət və təhsil məsələləri xüsusi yer tutur. Təşkilat dünya xalqlarının mədəniyyətinin öyrənilməsi və yayılması ilə yanaşı, bütün dünyada tanınan, yüksək nüfuz sahibi olan şəxsiyyətlərlə əməkdaşlığa, belə nüfuzlu şəxsiyyətlərin köməyi ilə qlobal problemlərin həllinə xüsusi diqqət verir.

YUNESKO-nun xoşməramlı səfiri adı da dünyanın humanist idealların gerçəkləşməsində böyük xidmətləri olan nüfuzlu şəxsiyyətlərini bir araya toplamaq, onlarla əməkdaşlıq etmək məqsədi ilə təsis edilmişdir. YUNESKO-nun fəaliyyəti görkəmli bir qrup olan və dünyanın diqqətinin bu təşkilatın işinə cəlb edilməsinə kömək etmək üçün öz istedad və statuslarından istifadə etməyə razılıq vermiş xoşməramlı səfirlər tərəfin-

dən yayılır və təbliğ edilir. Bu xüsusi şəxslər – YUNESKO-nun xoşməramlı səfirləri dünyanın bütün nöqtələrini təmsil etməklə ən müxtəlif şəxsi və ixtisas göstəricilərinə malikdirlər. Bu şəxsləri əlaqələndirən bir öhdəlik də var – onların hər biri həmrəylik məsuliyyəti daşımaqla bərabər ümumi dünyamızın vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər görmək səlahiyyətindədir. Onları sülh, ədalət, həmrəylik və qarşılıqlı anlaşma kimi meyarların qorunması naminə YUNESKO-nun missiyasını dünyanın hər yerində insanların qəlblərinə və şüurlarına aşılamaq vəzifəsi birləşdirir.

YUNESKO-nun xoşməramlı səfirləri tanınmış vəkillərdən ibarət olan, dünyanın bu nüfuzlu qurumunun ideallarını öz adları və nüfuzları vasitəsilə təbliğ edən görkəmli bir qrupdur. Bu xüsusi şəxslər YUNESKO-nun işini, missiyasını yayır və təbliğ edirlər. Onlar dünyanın diqqətini YUNESKO-nun işinə cəlb edilməsinə kömək üçün öz istedad və statuslarından istifadə etməyə razılıq vermişlər.

Artıq bir neçə müddətdir ki, Azərbaycan cəmiyyətinin istifadə etdiyi mədəni və siyasi anlamlar çərçivəsinə mənası ilə tamamilə yeni, əvvəllər rastlaşmadığımız bir ifadə daxil olmuşdur: YUNESKO-nun xoşməramlı səfiri. Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya ölkəmizdə apardığı ictimai fəaliyyətin beynəlxalq miqyasda qiymətləndirilməsi nəticəsində verilmiş bu statusun şərəf və nüfuz çəkisini müəyyənləşdirmək üçün, zənnimizcə, YUNESKO-nun daha bir neçə xoşməramlı səfirinin adlarını çəkmək kifayətdir: dünya şöhrətli musiqiçilər Monserrat Kabalye, Mstislav Rostropoviç, fransız kosmonavtı Patrik Bodri, İordaniya şahzadəsi Firyal, məşhur afrikalı alim Modibo Diarra, Türkiyə Böyük Millət Məclisinin deputatı, tanınmış musiqiçi və bəstəkar Ömər Zülfi Livanelli, tanınmış fransız musiqiçisi Jan Mişel Jar, ispaniyalı səyahətçi-alim Kitin Minyos, Fransanın nəhəng «L'Oreal» şirkətinin baş direktorunun xanımı Kristina Ouen-Cons, iş adamı Şeyx Həsən Şakir, Rusiyanın tanınmış rəssamı Zurab Sereteli, Latın Amerikasının təmsilçisi xanım Mariya de Lurdes Exidiyo Villela.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun üzvü, filologiya elmləri doktoru, professor Nərgiz xanım Paşayeva Xoşməramlı səfir statusunun mahiyyəti haqqında yazır: «İngiliscə qudvil («goodwill») kimi səslənən bu sözün məna çalarları çoxdur. Belə ki iqtisadiyyatda, siyasətdə, mədəniy-

yət və elmdə, ictimai həyatda hər sahənin məzmununa uyğun işlədilir. Lakin onun bir dəyişməz mənası var: mövcudluğu ilə insanlarda etibar, inam oyadan xoş məram, xoş niyyət. Bu sözün arxasında narahat, ziddiyyətli dünyanın insanlarını mənən yaxşılaşdırmaq, gözəlləşdirmək, əsrlərin miras qoyduğu mənəvi və mədəni sərvətləri bu gün də yaşatmaq amalı durur. YUNESKO-nun xoşməramlı səfirləri ailəsində artıq öz yerini tutmuş Mehriban xanım Əliyevanın Vətənimiz üçün gördüyü işlərin mahiyyəti, bəlkə də, hələ tam dərk edilmir. Lakin tarixdə elə hadisələr olur ki, onların tarixi dəyəri təkcə gələcək nəsillərə ünvanlanmır, əksinə, elə ilk gündən müəyyənləşir. Azərbaycanın tarixində ilk xoşməramlı səfir Mehriban xanım Əliyevanın Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti kimi çoxşaxəli və çoxillik fəaliyyəti məhz bu tarixi dəyərə malikdir».

Bu fəaliyyət bir qədər də əvvəldən – 1995-ci ildən başlanmış və milli inkişafa böyük töhfələr vermişdir: Azərbaycan Mədəniyyətinin Dostları Xeyriyyə Fondunu yaradan Mehriban xanım Əliyeva bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə ağır böhran keçirən milli mədəniyyətimizin böyük hamisi kimi çıxış etmiş, son bir neçə ildə musiqi təhsilinin inkişafı, gələcək nəslin maarifləndirilməsi, milli mədəniyyət incilərinin qorunaraq gələcək nəsillərə ötürülməsi işi bu fondun xüsusi diqqət mərkəzində olmuş, müntəzəm surətdə keçirilən xeyriyyə konsertləri və digər bu səpkili tədbirlər milli musiqimizin zəngin ənənələrinin qorunmasına imkan yaratmışdır. Bu dövrdən etibarən musiqi gimnaziyasının və məktəbinin əsaslı təmir edilməsi, minlərlə yeniyetmə və gəncin, xüsusən də imkansız ailələrdən olan gənclərin yüksək musiqi təhsili alması da fondun gördüyü işlər sırasındadır.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 1996-cı ildən Azərbaycan, ingilis və rus dillərində çap olunan «Azərbaycan-İrs» jurnalının da bu baxımdan mühüm xidmətləri vardır. Jurnalın səhifələrində musiqimizin, mədəniyyətimizin, tarixi-milli irsimizin qorunub saxlanılması, milli genefondun qorunması vacibliyi fikri ana xətt kimi önə çəkilmişdir. Bu jurnalın nəşri ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması və təbliği baxımından da müstəsna əhəmiyyət daşıyır.

Mehriban xanım Əliyevanın Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri kimi uzun illər ərzində həyata keçirdiyi missiyanın miqyasını

və əhəmiyyətini nəzərə alan YUNESKO rəhbərliyinin Azərbaycanın birinci xanımını da YUNESKO-nun xoşməramlı səfiri statusuna layiq görməsi isə Azərbaycanın 2004-cü il tarixinin ən əhəmiyyətli hadisələrindən birinə çevrilmişdir.

2004-cü il sentyabrın 9-da Parisdə – YUNESKO-nun iqamətgahında Mehriban xanım Əliyevaya BMT-nin bu ixtisaslaşmış təşkilatının Xoşməramlı səfiri fəxri adı verilməsinə həsr olunmuş mərasim keçirilmiş, Azərbaycanın birinci xanımının qazandığı nailiyyətlərə verilən obyektiv qiymət kimi, YUNESKO-nun baş direktoru Koisiro Matsuura Mehriban Əliyevanın gördüyü işlərin təkcə Azərbaycan üçün deyil, bütövlükdə dünya üçün müstəsna əhəmiyyətə malik olduğunu dilə gətir-mişdir.

Mərasimdə Mehriban Əliyevanın gələcək uğurlarına, YUNESKO tərəfindən dəstəklənən əsas məsələlərə olan şəxsi marağı, mediya sahəsində malik olduğu populyarlığı, karyera və reputasiyası ilə ictimaiyyəti daha ədalətli dünya naminə səfərbər olunmasına gələcək köməyinə böyük inam ifadə edilmişdir. Bildirilmişdir ki, Mehriban xanımın vəzifəsi təhlükə altında olan dəyərlərin və sülh mədəniyyətinin yaradılmasında YUNESKO-nun oynaya biləcəyi rolun əhəmiyyəti barədə insanları daha geniş miqyasda xəbərdar etməkdən ibarətdir. Mehriban xanım isə təqdimat mərasimindəki çıxışında vurğulamışdır ki, YUNESKO-nun əsas prinsiplərindən biri dünya mədəniyyətinin nadirliyini gələcək nəsillər üçün qoruyub saxlamaqdır: **«Mən də öz fəaliyyətimdə bu prinsipi əsas tuturam. Ona görə mənə bu yüksək adın verilməsi mənim üçün həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Bu, mədəniyyətlər və sivilizasiyalar arasında, keçmişlə bu gün arasında əlaqə yaratmaq məsuliyyətidir».**

Azərbaycanı çox vaxt Qərblə Şərq arasında körpü adlandırıldığını yada salan xoşməramlı səfir, bunun hələ tarixi Böyük İpək yolu dövründən ölkəmizin əlverişli coğrafi-siyasi mövqeyi ilə bağlı olduğunu bildirmişdir: «Azərbaycan özünün çoxəsrlik tarixi boyunca təkcə nəqliyyat dəhlizi kimi deyil, həm də mədəniyyətlərin dialoqunda öz sözünü deməyə qadir olan bir ölkə kimi tanınır. Mən fəxr edirəm ki, ölkəmizdə tamamilə bənzərsiz bir mədəni məkan yaranmışdır. Biz öz mədəniyyətimizin, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq, dünya mədəniyyətinin nümunələrini qəbul edə bilmişik. Bu

gün biz müxtəlif xalqların mədəniyyət elementləri ilə milli mədəniyyətimizin tərkib hissəsi arasında oxşarlığın şahidi oluruq. Bu isə heç də təsadüfi deyildir. Belə ki, bu proseslərin arxasında öz tolerantlığı, xeyirxahlığı, öyrənib-öyrətmək bacarığı ilə seçilən və mədəniyyətlər arasında körpülər yaradan azərbaycanlıların neçə-neçə nəsli durur».

Mehriban xanım Əliyeva YUNESKO-nun xoşməramlı səfiri kimi ilk çıxışında Azərbaycanın Üzeyir Hacıbəyov, Qara Qarayev, Səttar Bəhlulzadə, Mstislav Rostropoviç və onlarla belə dünya şöhrətli mədəniyyət xadiminin Vətəni olduğunu vurğulamış, bu cür şəxsiyyətlərin yetişməsinə şərait yaradan Azərbaycan xalqının həqiqətən də, böyük xalq olduğunu önə çəkmişdir: **«Öz milli mənliyimizi, mədəniyyətimizi qoruyub saxlamaqla yanaşı, biz dünya mədəniyyəti xəzinəsinə 1300 illiyi YUNESKO çərçivəsində qeyd olunmuş «Kitabi-Dədə Qorqud» eposu, şifahi və qeyri-maddi irs inciləri siyahısına daxil edilmiş Azərbaycan muğamı kimi töhfələr verə bilmişik. Bu gün yüksək texnologiyalar, qloballaşma və informasiya inteqrasiyası dövründə qeyri-maddi irsin qorunub saxlanılması xüsusi əhəmiyyət kəsb edir. Bütün bəşəriyyət qeyri-maddi irsin qorunmasında çox maraqlıdır. Bu məsələdə YUNESKO-nun rolu, şübhəsiz ki, çox böyükdür. Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da Azərbaycan xalqının bu günə qədər qoruyub saxladığı və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyəti məhz bu məqsədə xidmət edir. Xoşməramlı səfir kimi mənim bütün gələcək fəaliyyətim də bu məqsədə xidmət edəcəkdir».**

Mehriban xanım bildirmişdir ki, Azərbaycan xalqı öz yaddaşını, dilini, musiqisini, eposlar yaratmaq bacarığını bir çox nəsillər boyu yaşadıb. Bu gün Azərbaycan mədəniyyətinin və incəsənətinin dəyərli nümunələri bütün bəşəriyyətin sərvəti hesab olunur: **«Mənə verilən fəxri adı, hər şeydən əvvəl, YUNESKO-nun prinsiplərinə sadiq olmağımın ifadəsi kimi qəbul edirəm. Sizi əmin etmək istəyirəm ki, bu yüksək mükafat məni və başçılıq etdiyim Azərbaycan Mədəniyyətinin Dostları Fondunu mədəni irsimizin qorunması naminə daha böyük səylə çalışmağa sövq edəcəkdir».**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə Azərbaycan nümayəndəsinin xoşməramlı səfir adına layiq görülməsini mədəniyyə-

timizin həyatında mühüm hadisə kimi dəyərləndirmiş və bu faktın YUNESKO, ümumilikdə dünya birliyi ilə mədəni əlaqələrimizin daha da inkişafına dəlalət etdiyini bildirmişdir. Azərbaycanla YUNESKO arasında çox uğurlu əməkdaşlıq əlaqələrinin qurulduğunu və hazırda da birgə layihələrin, proqramların həyata keçirildiyini diqqətə çatdıran Prezident bildirmişdir ki, Azərbaycanın çox zəngin mədəni irsi var və bu qarşılıqlı əməkdaşlıq gələcəkdə ölkəmizin YUNESKO ilə daha da yaxınlaşmasına imkan yaradacaqdır.

Dünyanın ən nüfuzlu mədəniyyət qurumunun Mehriban Əliyevaya göstərdiyi bu yüksək etimad təbii ki, təkcə bir fərdin deyil, ümumilikdə bizim hər birimizin uğurumuz olmaqla bərabər həm də dünyanın, Mehriban xanım Əliyevanın timsalında bütün Azərbaycan xalqına, milli mədəniyyətimizə, folklorumuza, tariximizə, dilimizə, incəsənətimizə göstərdiyi diqqətin ifadəsidir. Bu təyinat eyni zamanda Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının öz fədakarlığını və bacarığını beynəlxalq miqyasda təsdiq etməsinə daha bir əyani sübut sayıla bilər. Ən nəhayət, bu ad Mehriban xanım Əliyevanın şifahi irsin və musiqi yaradıcılığı irsinin qorunub saxlanması, inkişafı sahəsində ortaya qoyduğu zəhmətin xoş bəhrəsidir.

Bütün dünyanın informasiya əsrinə qədəm qoyması, informasiya texnologiyalarının inkişafı sahəsində əldə olunan fantastik nailiyyətlərin az qala hər gün həyatımızda hər hansısa bir dəyişikliyə səbəb olması müasir dünyamızda nə qədər mütərəqqi meyil sayılsa belə, bu inkişaf milli tarixi-mədəni irsə müəyyən təhlükə meyillərini də istisna etmir. Belə bir vaxtda Azərbaycan və ümumilikdə Cənubi Qafqaz mədəniyyətinin YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın timsalında özünə etibarlı bir hami, xilaskar tapması son dərəcə sevindirici haldır. **«İndi, kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu bir şəraitdə, milli ənənələrin qorunub saxlanılması, onlara qayğı ilə, düşünülmüş münasibət göstərilməsi son dərəcə vacibdir. YUNESKO-nun çoxsaylı vəzifələrindən biri də insanın mənəvi dünyasını qorumaqdır. Odur ki, planetimizdə məskunlaşmış xalqlardan hər birinin milli «Mən»ini daha parlaq əks etdirən qeyri-maddi irs incilərinin qorunması ən aktual vəzifəyə çevrilir»,** – söyləyən Mehriban Əliyeva üzərinə düşən missiyanı şərəflə həyata keçirir.

Elmi ədəbiyyatlarda mədəniyyət anlayışına verilən bütün təriflər forma fərqindən asılı olmayaraq yekunda bir məzmun üzərində qərar tutur: insan-

ların əldə etmiş olduqları bütün maddi və mənəvi nailiyyətlərin məcmusu. Bu nailiyyətlər yalnız dünən əldə edilməyib və yalnız bu gün də qazanılmır. Böyük insan toplumlarının taleyindən yalnız xırdaca elementlər götürən bu mənəvi dəyərlərin arxasında min illərin zəhmət və iztirabları dayanır. Bu nailiyyətləri qazanmaq dünən insanlar üçün nə qədər çətin idisə, bu gün onun ən gözəl nümunələrini seçib ayırd etmək, göz bəbəyi kimi qorumaq və bəşər mədəniyyətinin ardıcıllığının təminatı naminə gələcək nəsillərə yetirmək də bir o qədər məsuliyyətli və şərəfli işdir. Mədəniyyətlər və sivilizasiyalar, keçmişlə bu gün arasında əlaqə yaratmaq işinin məsuliyyəti hamıdan daha çox YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın özünə məlumdur. Qarşıya qoyduğu amalların gerçəkləşməsi üçün o, dəqiq fəaliyyət konsepsiyasına malikdir. Mehriban Əliyeva YUNESKO rəhbərliyilə görüşü zamanı Bakıda «Qafqaz xalq ənənələri evi»nin yaradılması təşəbbüsü ilə çıxış edib. Belə bir qurumun təşkili Qafqaz xalqlarına məxsus mədəni irsin qorunması və təbliği sahəsində son dərəcə mühüm addım ola bilər. Mehriban Əliyevanın **«Qafqaz xalq ənənələri evi»**nin yaradılması təşəbbüsünü irəli sürməsi, həmçinin dünyada maddi və qeyri maddi-mədəni irsin qorunub saxlanması vəzifəsini yerinə yetirən YUNESKO-nu bu layihədə əməkdaşlığa dəvət etməsi bir neçə cəhəti ilə mühüm önəm daşıyır. Mehriban xanım Əliyeva bununla ilk növbədə təkcə Azərbaycanın deyil, bütün Qafqaz xalqlarının mədəniyyət hamisi olmaq missiyasını öz üzərinə götürüb. Digər tərəfdən, «Qafqaz xalq ənənələri evi»nin yaradılması zaman-zaman Azərbaycan və eləcə də digər Qafqaz xalqlarının mədəniyyət nümunələrinə şərik çıxan, mədəni incilərimizi həyasızcasına oğurlayıb bütün dünyada öz adlarına çıxmağa çalışan mənfur ermənilərin və onların daşnak xislətli havadarlarının bu cür imkanlarını sıfra endirə bilər ki, bu da ümumilikdə Qafqaz xalqlarını «erməni cibgir»liyindən xilas etmiş olar. Bu təşəbbüs həmçinin siyasi yükə malikdir. «Qafqaz xalq ənənələri evi»nin yaradılması Avropa Birliyinin təşəbbüsü ilə Cənubi Qafqaz regionunda həyata keçirilən «Yeni Qonşuluq Siyasəti»nin effektivliyi baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Mehriban xanım Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri təyin edilməsindən sonra bu mötəbər beynəlxalq təşkilatla Azərbaycan arasındakı münasibətlər yeni mərhələyə qədəm qoymuşdur. Onun xoşməramlı səfir

kimi fəaliyyəti Azərbaycanla YUNESKO arasındakı münasibətlərin inkişafını müəyyən edən bir sıra əlamətdar məqamlarla yadda qalmışdır. Görkəmli Azərbaycan alimlərinin, yazıçı və bəstəkarların yubileylərinin, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyinin beynəlxalq miqyasda keçirilməsi, YUNESKO-nun «Dünya irs siyahısı»na İçərişəhərin Şirvanşahlar Saray Kompleksi ilə birgə daxil edilməsi, hazırda həmin siyahıya Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil olmasını buna nümunə göstərə bilərik.

Təsadüfi deyil ki, Mehriban xanım Əliyevanın böyük səyləri nəticəsində YUNESKO-nun hələ 2003-cü il oktyabrında keçirilmiş Baş Konfransında Azərbaycan muğamları ümumbəşəri dəyərlər sırasına daxil edildi. Ümumiyyətlə, Mehriban Əliyevanın Azərbaycan musiqisinin inciləri olan muğamların öyrənilməsi və təbliği ilə bağlı fəaliyyəti geniş tədqiqat mövzusudur. Həmin sahədə önəmli addımlar atan Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri seçildikdən sonra onun bu istiqamətdə gördüyü işlər daha ardıcıl və effektli xarakter aldı. Muğam sənətinin inkişafı sahəsində bir sıra layihələr həyata keçirildi. Mehriban Əliyeva Azərbaycan xalqının kökü çox qədimlərə gedən sənət xəzinəsinə, ulu muğamatımıza, sözün əsl mənasında, sahib çıxdı. Azərbaycan xalqının genetik kodu hesab etdiyi muğamlarımıza himayədarlığı boynuna çəkdi. Bu istiqamətdə ilk nailiyyətlərdən biri kimi «Qarabağ xanəndələri» adlı albom nəfis tərtibatla hazırlanaraq dinləyicilərin ixtiyarına buraxıldı. Qeyd edək ki, «Qarabağ xanəndələri» albomu Azərbaycan Mədəniyyətinin Dostları və Heydər Əliyev Fondlarının həyata keçirdiyi «Muğam-irs» layihəsinin ilk albomudur. Albomun təqdimat mərasimində Mehriban xanım demişdir: **«Mən inanıram ki, bu albomla tanış olanda hiss etmisiniz ki, biz onu nə qədər məsuliyyətlə, digər tərəfdən də böyük məhəbbətlə hazırlamışıq. Heç də təsadüfi deyil ki, bizim ilk layihəmiz Qarabağ xanəndələrinə həsr olunmuşdur. Biz Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini muğam vasitəsilə bütün dünyaya çatdırırıq»**. Albom ilk dəfə YUNESKO-nun qərargahında xoşməramlı səfirlərin illik toplantısında təqdim olunmuş və çox böyük diqqət və maraq kəsb etmişdi. Mehriban xanım Əliyeva hesab edir ki, muğam artıq təkcə Azərbaycanın yox, ümumilikdə bütün dünyanın sərvətidir: **«Bizim məqsədimiz muğamı qorumaq, inkişaf etdirmək, muğamın gözəlliyini, onun dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaqdır. ...Muğam hər bir**

azərbaycanlının genetik kodudur. Hətta müəyyən səbəblər üzündən muğamı hələ başa düşməyən və dinləməyən, amma buna hökmən, mütləq gəlib çıxacaq ən gənc azərbaycanlının da genetik kodudur».

«Qarabağ xanəndələri» albomunda 24 sənətçinin muğam ifaları toplanmışdır. Şərqin əvəzsiz ifaçılarından Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məhəmmədin, Məşədi Məhəmməd Fərzəliyevin, Məcid Behbudovun, Seyid Şuşinskinin, Xan Şuşinskinin, İslam Abdullayevin, Bülbülün, Zülfü Adıgözəlovun, Əbülfət Əliyevin ifasında səslənən bənzərsiz muğam sənəti nümunələri bütün dinləyicilərin zövqünü oxşayır. Muğam ustalarının ürəkləri riqqətə gətirən ifası layihə çərçivəsində «Salnamə» studiyasında, rejissor Xamis Muradovun rəhbərliyi ilə hazırlanmış sənədli filmin kadrlarının nümayişi ilə müşayiət olunur. Belə nadir sənətkarlar yetirən Azərbaycan torpağının misilsiz gözəllikləri bir daha göz önündə canlanır. Bizləri yağı tapdağında, işğal altında olan doğma torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə səsləyir.

Əslində bütün Azərbaycana məxsus muğamlarımızın toplandığı alboma ad kimi niyə məhz «Qarabağ xanəndələri» adının seçilməsinin arxasında dayanan incə siyasi məqamı sezməmək mümkün deyil. YUNESKO xətti ilə hazırlanmış alboma «Qarabağ xanəndələri» adının seçilməsi ilə bütün dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğu, muğamın isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsi sayıldığı nümayiş etdirildi. Mehriban Əliyevanın rəhbərliyi altında «Qarabağ» kitabının çapa hazırlanması Azərbaycanın, Qarabağın tarixi keçmişinin öyrənilməsi və təbliği baxımından son dərəcə böyük əhəmiyyət daşıyır. Azərbaycanda bir neçə muğam məktəbinin olduğunu və Qarabağ muğam məktəbinin də aparıcı muğam məktəblərindən sayıldığını diqqətə çatdıran Mehriban xanım Əliyeva bu məktəbin hazırda böyük təhlükə qarşısında olduğunu, bu janrın gənc ifaçılarının sayının xeyli azaldığını bildirir. Bu mənada «Qarabağ xanəndələri» layihəsi əslində həm də siyasi bir layihədir: **«Balaca muğam ifaçılarını, adətən, «Qarabağ bülbülləri» adlandırırlar. Bu gün Qarabağın sakinləri olan məcburi köçkünlərin düşərgələrində böyüyən uşaqlar daha muğam oxumurlar, onların arasında belə Qarabağ bülbülləri son dərəcə azdır. Oxumaq üçün onlara Qarabağ dağları, Qarabağ təbiəti, Qarabağ torpağı lazımdır. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyov və Bülbül**

kimi belə böyük korifeylərinin Şuşada doğulduqlarını demək kifayətdir. Bax, beləcə, sırf musiqi layihəsindən siyasi layihə yarandı».

Məlumdur ki, dünyanın ən iri beynəlxalq mədəni-humanitar təşkilatı kimi YUNESKO siyasi problemlərin müzakirəsi ilə məşğul olmur. O, siyasi müstəvidən, siyasət kürsüsündən bir növ uzaqdır. Lakin o da təkzibedilməz həqiqətdir ki, müasir, qloballaşan dünyada hər şey siyasi gerçəkliklərə bağlıdır və çox zaman onların işığına boyanır. İlk baxışda siyasətlə birbaşa əlaqəsi olmayan addımlar, təşəbbüslər isə bu siyasətə cüzi də olsa düzəliş etmək iqtidarında ola bilir. YUNESKO-nun məramı, iş prinsipləri sırf humanitar xarakterli, siyasət baxımından bitərəf bəyan edilsə də, onun Birləşmiş Millətlər Təşkilatının bir struktur bölməsi kimi real beynəlxalq siyasətdən təcrid edilməsini də düşünmək sadəlövhlük olardı. Dünya obyektiv olaraq mövcuddur və o, müharibələr, toqquşmalar, iqtisadi, siyasi və mənəvi böhranlardan xali deyildir.

Müharibələrdən əziyyət çəkən, müharibələr üzündən inkişaf və tərəqqi yolunda maneələrlə rastlaşan ölkələr sırasında Azərbaycan da var. Ərazisinin 20 faizi işğal olunan, bir milyona yaxın qaçqın-köçkünü mənən və maddi baxımdan yaşadan kiçik bir ölkənin birinci dərəcəli problemi də elə bunlardır. Erməni işğalına son qoymaq üçün ölkəmizin rəhbərliyi bütün siyasi səviyyələrdə intensiv iş aparır.

Təbiidir ki, YUNESKO-nun ənənəsi, fəaliyyət istiqaməti və xarakteri ilə əlaqədar olaraq Mehriban xanım bu təşkilat çərçivəsində keçirilən toplantılardakı çıxışlarında siyasi problemlərdən yan keçməlidir. Lakin Azərbaycanın birinci xanımı bu problemləri beynəlxalq təşkilatın məramına uyğun deyim və təbliğat vasitələrindən istifadə etməklə, bir daha nüfuzlu tədbirlərdə mədəniyyət layihəsi çərçivəsində qaldırır. YUNESKO-nun xoşməramlı səfirlərinin ənənəvi illik iclasları, Azərbaycan, onun mədəniyyəti, dünyəvi əhəmiyyətli ənənələri haqda məlumat vermək üçün, informasiya məkanı kimi mühüm əhəmiyyətə malikdir.

Bu təşkilatın toplantıları çərçivəsində müxtəlif problemlərin müzakirəsi zamanı Mehriban xanım Əliyevanın vaxtaşırı Dağlıq Qarabağ problemini gündəmə gətirdiyini, Azərbaycan həqiqətlərini bütün dünyanın nəzərinə çatdırdığını dəfələrlə müşahidə etmişik. O, YUNESKO-nun Parisdə keçirilən toplantısında demişdir: **«Biz işğal probleminə toxunmuruq, biz siyasi prob-**

lemlərə toxunmuruq, lakin axı bir milyon qaçqın-köçkün çadır şəhərciklərində yaşayır, uşaqlar təhsil almırlar. Dövlət bütün bu problemləri həll etmək iqtidarında deyildir. Təhsil YUNESKO-nun fəaliyyət sahəsidirmi? Bəli. Onda bəs, uşaqlarla nə etməli? Axı onlar böyüyürlər. Onlar üçün vaxt itirilmişdir, onlar lazımi təhsil almırlar».

Kazanda YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair regional seminarında da Mehriban xanım Əliyeva Azərbaycan muğamının vətəni olan Şuşanın, ölkəmizin digər şəhər və rayonlarının, – ümumən, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistanın işğalı altında olduğunu iştirakçıların diqqətinə çatdırmışdır. Vurğulamışdır ki, adətən, «Qarabağ bülbülləri» adlandırılan ən yaxşı muğam ifaçılarının doğulduqları və formalaşdıqları şəhərlər indi tamamilə dağıdılıb. Yer üzündən silinib. Azərbaycan xalqının qədim memarlıq və mədəniyyət abidələri məhv edilib. Natiq bununla əlaqədar beynəlxalq təşkilatların və ümumən, dünya birliyinin münaqişə zonalarında olan mədəniyyət və tarix abidələrinin taleyinə daha ciddi diqqət yetirməsinin zəruriliyini vurğulayaraq əlavə etmişdir ki, bu münaqişələrin tezliklə həlli mədəni irsin dağılmasının qarşısını almağa kömək edərdi.

Müasir dünyamızda məhz informasiyanın təqdimi bəzən dövlətlərin real iqtisadi, maliyyə gücü qədər təsirli və bəlkə də, daha səmərəli olur. Təsadüfi deyil ki, çox zaman informasiya məkanında müxtəlif dövlətlərin maraqları «görüşür» və bu «görüşün» nəticələri siyasətdə də əks-səda doğurur.

Çoxları bu sətirləri oxuyanda düşünə bilər ki, işğal kimi qlobal problemi belə sadə vasitələrlə nə dərəcədə həll etmək olar və yaxud ilk baxışda, bəlkə də, kifayət qədər «təsirli siyasi gücü» olmayan belə sadə vasitələr nəyisə həll etmək iqtidarında deyildir. Lakin müasir tariximiz bəzən ilk baxışda sadə görünən vasitələrin də siyasi müstəvidə önəmli rol oynamasına dəlalət edən hadisələrlə doludur. Bəzən məhz mədəniyyət siyasətçilərdən bir addım öndə gedərək, onların gördüyü ağır işlərin xoşməramlı, əlverişli fonunu yaradır.

Hər bir ölkənin siyasi aurası mürəkkəb bir konstruksiyanı xatırladır. Bəzən bu konstruksiyanın ümumi planında xırda, ilk baxışda nəzərə

çarpmayan, gözəgörünməz detallar onun bütövlüyünü, möhkəmliyini təmin edir. Müasir dünya nə qədər praqmatik, maddiləşmiş olsa da, mənəvi dəyərlər aktuallığını itirmir, insan amili, şəxsi münasibətlər, mədəni-mənəvi ənənələr böyük təsir gücünə malikdir. Tarix həmişə kiçik dövlətləri böyük sınaqlara çəkir. Bu sınaqlardan çıxmaq yollarında aparıcı amal, məram, vətəndaşlıq həmrəyliyi, milli və ümumbəşəri mənəvi dəyərlər, mədəni ənənələrə sadiqlik və müasir dünya ilə ayaqlaşmaq, özünü qloballaşan dünyanın bənzərsiz bir hissəsi kimi dərk etməkdir. Tarix sübut edir ki, öz vətəndaşlarının qədrini bilən, onlarla fəxr edən, dünyada öz yerini milli siyasəti, iqtisadiyyatı, mədəniyyəti ilə özü müəyyənləşdirən ölkənin gələcəyi vardır.

Mehriban Əliyevanın rəhbərliyi ilə dahi Azərbaycan bəstəkarı Uzeyir Hacıbəyovun bütün əsərlərinin yenidən çap olunması ilə yanaşı, onların SD və DVD variantlarının buraxılması layihəsinin həyata keçirilməsi, «Qarabağ xanəndələri» albomunun ardınca yeni muğam layihələrinin üzərində işlərin davam etdirilməsi, Azərbaycan, bütövlükdə ümumtürk musiqi sənətinin əhəmiyyətinə görə muğamdan əsla geri qalmayan başqa bir qolu, aşıq sənətinə də diqqətin artırılması, bu sənətin YUNESKO-nun qeyri-maddi irs siyahısına salınması yönündə ortaya qoyulan səylər də YUNESKO ilə əməkdaşlıq çevrəsində görülən işlərin bir hissəsi kimi nəzərdən keçirilə bilər.

2005-ci il avqustun 24-də isə məlum olduğu kimi, YUNESKO-nun Baş katibinin iştirakı ilə Bakıda Beynəlxalq Muğam mərkəzinin təməli qoyuldu. Belə bir musiqi mərkəzinin yaradılması ideyası nəinki musiqiçilərin, həm də musiqisevərlərin bu mərkəzə gələrək musiqi dinləməsi, ənənəvi musiqimiz barədə polemikaların aparılması və yaşlı nəsildən olan sənətkarların öz təcrübə, bilik və ustalıqlarını yeni nəsillə bölüşdürməsi məqsədini əsas götürmüşdür. Bu mərkəz həm də müxtəlif ölkələrdən olan insanların görüş yerinə çevriləcək, dünya mədəni irsinin qorunub saxlanması yolunda daha bir addım olacaqdır.

Mehriban xanım Əliyevanın rəhbəri olduğu Azərbaycan Mədəniyyətinin Dostları Fondu dünyanın bu mötəbər mədəniyyət qurumu ilə əməkdaşlıq çərçivəsində ölkəmizdəki tarixi abidələrin qorunması üçün həyata keçirilən tədbirlərdə də fəal iştirak edir. Gəncə şəhərində Cavadxan türbəsinin, Comərd Qəssabın məqbərəsinin, Bakının Şüvəlan qəsəbəsində

yerləşən Pirhəsən ziyarətgahının, Həzrəti Zeynəb məqbərəsinin, Abdulla Şaiqin ev-muzeyinin təmiri buna parlaq nümunə sayıla bilər. Mehriban xanım bütün bu işlərin qayəsini belə əsaslandırır: *«Biz ölkənin maraq dairəsində baş verən hadisələri diqqətlə izləyir və yaranan problemlərin həlli üçün bütün səyləri göstəririk. Mən Azərbaycanın tanınmış oğul və qızlarının adı ilə bağlı tarixi abidələrin bərpasını yalnız keçmişə hörmət və tarixi həqiqətin bərpası kimi deyil, eyni zamanda gənc nəsli milli-vətənpərvərlik ruhunda tərbiyə etməyin əsas elementi, Heydər Əliyevin «azərbaycançılıq» ideologiyasının inkişafı kimi qiymətləndirirəm».*

Mehriban xanım Əliyeva YUNESKO-nun xoşməramlı səfiri təyin edildikdən sonra Azərbaycanla bu qurum arasında təhsil sahəsində əməkdaşlıq əlaqələri daha da güclənmişdir. YUNESKO ilə birgə Azərbaycan təhsilinin inkişafına yönələn bir neçə layihənin icrasına start verilmişdir. YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan Təhsil Nazirliyi bu qurumla birgə təhsil problemlərinə həsr olunmuş beynəlxalq konfrans keçirmişdir. 2005-ci ilin 24 avqustunda Bakıda, Gülüstan sarayında «YUNESKO – Azərbaycan: gələcəyə körpü» devizi altında təşkil olunan və YUNESKO-nun baş katibinin də şəxsən iştirak etdiyi bu beynəlxalq konfrans YUNESKO-nun tarixində ayrıca bir ölkəyə həsr olunmuş ilk belə tədbir idi. Bunun YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Təhsil Nazirliyinin YUNESKO ilə birgə keçirdiyi ikinci konfrans olduğu da qeyd edilməlidir. İlk belə tədbir Parisdə olmuşdu.

Bakıda keçirilən konfransda Azərbaycanın dövlət və hökumət rəsmiləri ilə birgə BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Marko Borsotti də çıxış etmiş, vurğulamışdır ki, təhsillə yoxsulluğun azaldılması arasında aşkar əlaqə vardır. Çünki təhsil səviyyəsi artdıqca, işsizlik azalır. Azərbaycanın istər elmdə, istərsə də təhsildə çox gözəl və müsbət tarixi ənənələri vardır. Məsələn, Dövlət Neft Akademiyası və Bakı Dövlət Universiteti dünya miqyasında şöhrət qazanmış tədris ocaqlarıdır. Azərbaycan cəmiyyətində həmişə təhsilə çox böyük diqqət yetirilmiş, burada çox böyük mədəni mühit yaradılmışdır.

Marko Borsotti Azərbaycanın dünyanın ən sürətlə inkişaf edən ölkəsi olduğunu bildirmiş və qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezi-

denti tərəfindən təhsil komissiyasının yaradılması, sözsüz ki, gələcəkdə bu sahədə işlərin aparılması üçün çox gözəl zəmin yaradır. Təhsilin keyfiyyətinin artırılması ciddi məsələdir. Azərbaycanın say göstəriciləri çox gözəldir. Lakin indi keyfiyyətə fikir verilməlidir. Bu baxımdan idarəetmənin yaxşılaşdırılması əsas prinsiplərdən biridir. Təhsil sistemində idarəetməyə diqqət yetirilməsi və bu sistemin daha səmərəli, daha yüksək nəticələrə yönəldilməsi böyük önəm kəsb edir.

BMT-nin Bakıdakı rezident əlaqələndiricisi iqtisadi sistemin tələblərinə uyğun olaraq təhsil sisteminin yenidən qurulması məsələsini önə çəkmişdir. Onun sözlərinə görə, müxtəlif amillərin iqtisadi tələblərə uyğun olaraq nəzərə alınması ölkənin xeyrinə olacaqdır. Azərbaycan üçün bəzi məsələlər birinci dərəcəli məqsəd deyildir. Məsələn, Azərbaycan üçün ibtidai məktəblərə uşaqların az gəlməsi problemi yoxdur. Lakin bununla belə təhsil sahəsində problemlər mövcuddur. Orta məktəblərin şagirdlərinin sayında qızların səviyyəsinin saxlanması çox vacibdir.

Eyni zamanda tədris proqramlarının təkmilləşdirilməsi mühüm məsələlərdəndir. Bu, qlobal iqtisadiyyata inteqrasiyanın çox vacib amillərindən biridir. Bundan əlavə, informasiya texnologiyalarının təhsilin bütün sahələrində, bütün mərhələlərdə tətbiq edilməsi ölkənin və iqtisadiyyatın gələcək ehtiyaclarını ödəmək üçün çox vacibdir. Universitetlərlə tədqiqat mərkəzləri arasında əməkdaşlığa təkan verilməlidir. Azərbaycandan xaricə göndərilən tələbələrin sayını artırmaq lazımdır. Bu da ölkənin gələcək inkişafına müsbət təsir göstərər.

Gözəl ənənələrə malik ölkə kimi Azərbaycanın gələcəkdə öz təhsil və mədəni səviyyəsini daha da artırması üçün bütün imkanlara malik olduğunu vurğulayan cənab Borsotti demişdir ki, bu, gələcəyə nikbin baxmağa imkan verir. Bununla yanaşı, digər ölkələrin də bu sahədə təcrübəsinə diqqət yetirilməlidir. Çünki təhsil gələcək nəsillərin yaradılmasına yönəldilmiş əsas sahədir.

Qurumun baş direktorunun da iştirak etdiyi həmin konfransda YUNESKO ilə təhsil sahəsində Memorandum imzalandı. Bununla da Azərbaycan–YUNESKO əməkdaşlığında yeni bir mərhələnin əsası qoyuldu. Memoranduma görə Təhsil Nazirliyi və YUNESKO-nun birgə komissiyası prioritet istiqamətlər üzrə səmərəli əməkdaşlığın həyata keçiril-

məsi ilə məşğul olur. Təhsil sahəsində Azərbaycan-YUNESKO əməkdaşlığı başqa bir cəhəti ilə də mühüm aktuallığa malikdir: bu əməkdaşlıq Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün, torpaqlarımızın Ermənistan silahlı birləşmələri tərəfindən işğalının Azərbaycan təhsilində yaratmış olduğu ağır problemlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün geniş imkanlar yaradır. Bütün dünyada təhsil, maarifçilik hərəkatının geniş vüsət aldığı indiki günlərimizdə Dağlıq Qarabağ probleminin mahiyyəti, miqyası barədə beynəlxalq aləmdə obyektiv təsəvvür yaratmaqdan ötrü bu məqam da təbliğati baxımdan xüsusi əhəmiyyətə malikdir.

Hazırda bütün dünyadakı 19 milyon nəfərdən çox qaçqın və məcburi köçkünün düz 5 faizi məhz Azərbaycanın payına düşür. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinə vurduğu ziyan təxminən 60 milyard ABŞ dolları həcmində hesablanır. Təhsil sahəsinə də çox ciddi zərbə dəymişdir. 1000-dən çox təhsil müəssisəsi işğal zonasında qalmış və dağıdılmışdır. Bu gün əraziləri işğal olunmuş rayonlar üzrə 687 məktəb, 61 məktəbəqədər və 31 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərir. Həmin tədris ocaqlarında 93 min şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 17 min müəllim məşğul olur. Bu məktəblərdə təhsil alan şagirdlərin hamısı pulsuz dərsliklərlə təmin olunur. Məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə 3200 yerlik 18 orta məktəb, 600 yerlik 18 uşaq bağçası tikilib istifadəyə verilib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən məcburi köçkün ailələri üçün yeni salınan 13 qəsəbədə 2 min şagird yerlik 15 məktəb, 175 yerlik 5 uşaq bağçası da inşa edilib.

Məcburi köçkün məktəblərinin maddi-texniki bazalarının yaxşılaşdırılmasında ABŞ-ın, Yaponiyanın Azərbaycandakı səfirlikləri, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının, YUNİSEF-in, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin, digər beynəlxalq humanitar təşkilatların Azərbaycandakı nümayəndəlikləri də yaxından iştirak edir. Bütün bunlarla yanaşı, əraziləri işğal olunmuş rayonların ümumtəhsil məktəblərində çox ciddi problemlər də mövcuddur. Baxmayaraq ki, dövlət başçısının bilavasitə gəstərişi ilə yeni məktəb binaları inşa edilir. Lakin onların böyük əksəriyyəti yerli məktəblərin nəzdində, eləcə də tədris üçün yararlı

olmayan binalarda fəaliyyət göstərir. Maddi-texniki bazası xeyli aşağıdır. Məktəb avadanlığı, sinif otaqları çatışmır.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qaçqın və məcburi köçkün uşaqların təhsil problemləri ilə əlaqədar məruzə hazırlamaq məqsədi ilə 2005-ci ilin mayında ölkəmizdə səfərdə olan YUNESKO-nun nümayəndələri Sabirabad, Saatlı və İmişli rayonlarında məcburi köçkün məktəblərinin fəaliyyəti ilə tanışlıq zamanı bütün bu problemlərin canlı şahidi olmuşlar. Eyni zamanda bunu da müşahidə etmişlər ki, şəraitin dözülməzliyinə rəğmən məcburi köçkün şagirdlərin təhsilə həvəsi yüksək olaraq qalır. Məhz bunun nəticəsidir ki, məcburi köçkün məktəblərinin məzunları arasında ali və orta ixtisas təhsili ocaqlarına qəbul olunanların sayı digər məktəblərlə müqayisədə heç də aşağı səviyyədə deyildir.

Mehriban xanım Əliyeva həmin konfransda da Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ problemini iştirakçıların diqqətinə çatdırmışdır: **«Azərbaycan 1 milyondan artıq qaçqın və məcburi köçkünü olan ölkədir. Ərazimizin 20 faizi işğal altındadır. Məcburi köçkünlərin təhsilinin təşkili ilə bağlı ölkəmizdə nadir təcrübə qazanılmışdır. Biz işğala məruz qalan ərazilərdə əvvəllər mövcud olan təhsil infrastrukturunu qoruyub saxlaya bilmişik. Bu məktəblər qaçqın-köçkünlər yaşayan düşərgələrdə yerləşir. Biz həm də müəllim kollektivlərini saxlamağı bacarmışıq və onlar düşərgələrdə uşaqların təlim-tərbiyəsi ilə məşğul olurlar. Bu, doğrudan da nadir bir təcrübədir. Mən inanıram ki, bu təcrübədən bütün münaqişə zonalarında istifadə oluna bilər. Hamımızın ən böyük arzusu odur ki, torpaqlarımız azad olunandan sonra bu məktəblər öz doğma yerlərinə qayıtsın və fəaliyyətini artıq normal şəraitdə davam etdirə bilsin. Ümidvaram ki, YUNESKO ilə birlikdə hazırlanan yeni proqramlar məcburi köçkün və qaçqın uşaqlarının təhsilinə öz müsbət təsirini göstərəcəkdir».**

Azərbaycan təhsilinin beynəlxalq əlaqələrinin inkişafında təbii ki, YUNESKO ilə əməkdaşlığın xüsusi rolu vardır. Bu sahə üzrə əməkdaşlıq 5 istiqaməti əhatə edir. Azərbaycan təhsilinin Avropa ali təhsil sisteminə inteqrasiyasında, Boloniya prosesinin ölkəmizdə uğurla həyata keçirilməsində bu təşkilatla əməkdaşlıq əlaqələrinin müstəsna əhəmiyyəti vardır.

Xoşməramlı səfir Mehriban Əliyeva YUNESKO ilə təkcə mədəniyyət sahəsində deyil, digər sahələrdə də əməkdaşlığın inkişafına nail olmuşdur. Azərbaycan bu mötəbər qurumun bir sıra beynəlxalq konfranslarında yüksək fəallıq nümayiş etdirmiş, eyni zamanda Azərbaycanda YUNESKO-nun xətti və dəstəyi ilə Mədəni İrsin Qorunmasına dair bu təşkilatın beynəlxalq, hüquqi, normativ aktlarına həsr olunmuş seminar-konfrans, «Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunmasına dair» Haaqa Konvensiyasının (1954) qəbul edilməsinin 50 illiyinə həsr edilmiş dəyirmi masa və s. tədbirlər keçirilmişdir. Azərbaycan YUNESKO münasibətləri bu gün də yüksələn xətt üzrə inkişaf edir. Bu əlaqələrdən, YUNESKO ilə əməkdaşlıq çərçivəsində görülmüş işlərdən ən çox fayda götürən isə Azərbaycan xalqıdır.

Mehriban xanımın bu fəaliyyəti təkcə Azərbaycanda deyil, bütün dünyada diqqətlə izlənir və öz layiqli qiymətini alır. Dünyanın 57 ölkəsini birləşdirən, 24 il ərzində çox nəcib bir missiyanı yerinə yetirən İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESCO) təşkilatı da Azərbaycanda həyata keçirilən proqram və layihələri məhz olduğu kimi qəbul edərək özünün ədalətli qərarını vermiş, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva İSESCO-nun da xoşməramlı səfiri elan edilmişdir. Bu hadisə hər bir azərbaycanlıda qürur doğurur.

Çünki indiyə qədər İSESKO-nun 3 xoşməramlı səfiri seçilmiş, onların hamısı dövlət xadimləri olmuşlar. Mehriban xanım Əliyeva isə bu yüksək adı almış ilk qadındır.

Bu beynəlxalq təşkilatın nümayəndələri yeni xoşməramlı səfirin cəmiyyət qarşısındakı xidmətlərini xarakterizə edərkən obyektiv fikir söyləmişlər: «Münaqişələrin qarşısının alınmasında, sivilizasiyalararası dialoqun aparılmasında xidmətlərinə, İslam aləmində görülən işlərə, qayğıya ehtiyacı olan uşaq-lara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına, təhsilə verdiyi böyük dəstəyinə görə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) xoşməramlı səfiri adına layiq görülür».

Dünyanın 57 ölkəsini birləşdirən İSESCO çox nəcib bir missiyanı həyata keçirir. Təşkilatın başlıca məqsədi dünya ölkələrinin elm, təhsil

və mədəniyyət sahələrində əlaqələrinin yaradılması və xalqlararası dialoqun qurulmasıdır. Bu isə öz növbəsində sülhün, təhlükəsizliyin və əmin-amanlığın təminatından keçir. İslam Ölkələri, Təhsil, Elm və Mədəniyyət Təşkilatı fəaliyyət göstərdiyi 24 il ərzində çox böyük işlər görmüş, böyük uğurlar əldə etmişdir. Bu təşkilatın xətti ilə müsəlman ölkələrində elmin, təhsilin və mədəniyyətin inkişafı üçün irimiqyaslı layihələr, proqramlar həyata keçirilmişdir.

Onu da qeyd etmək lazımdır ki, İSESCO öz fəaliyyətini sırf müsəlman ölkələri ilə məhdudlaşdırmır. Dünyada elə ölkələr, elə dövlətlər vardır ki, onların əhalisinin tərkibində müsəlmanların ümumi sayı 30, 20 və hətta 10 faizdən çox deyil. Lakin İSESCO bu ölkələrlə də çox sıx əməkdaşlıq edir, elmin, mədəniyyətin və təhsilin inkişafı üçün proqramlar hazırlayır, kreditlər, qrantlar ayırır.

İSESCO-nun fəaliyyətinin digər çox mühüm istiqaməti islam dünyasının zəngin tarixi irsinin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsidir. Bu gün müharibə ilə üzləşmiş müsəlman dövlətlərinin olması bu fəaliyyətə xüsusi önəm verir. İraqda müharibə zamanı dini abidələrin dağıdılmasına dair təşkilatın verdiyi bəyanat Azərbaycanda da çox yüksək qiymətləndirildi. Çünki eyni problemi bu gün Azərbaycan da öz həyatında yaşayır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır. Kəlbəcər tarix diyarşünaslıq muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspoziyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, XIX əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır.

Şuşadakı tarix muzeyinin, Ağdamdakı çörək muzeyinin, Zəngilandakı Daş Abidələr muzeyinin də taleyi belə olmuşdur. Ermənistan Respublikası «Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında» Haaqa Konvensiyasının və «Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında» Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamışdır. Bu kimi faktların

reallıqların dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara çatdırılmasında İSESCO-nun və ümumən İslam Konfransı Təşkilatının dəstəyini çox yüksək qiymətləndiririk.

Ümumiyyətlə, tarixi keçmişi, dini, mədəni və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanın islam dünyası ilə əlaqələri yalnız dini xarakter daşımır. Azərbaycan 1991-ci ilin dekabr ayında İslam Konfransı Təşkilatına (İKT) üzv olmuş İKT və ona üzv dövlətlərin ardıcıl dəstəyini əldə etmiş, ilkin vaxtlarında İKT baş katibliyi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, daha sonrakı mərhələdə İKT konfransları bu münaqişə haqqında kəsərli qətnamələr ortaya qoymuşdur. Bu qətnamələrdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü kimi qiymətləndirilir.

İKT xarici işlər nazirlərinin 1993-cü ildə Karaçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etmişdir. İKT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişilməz qalmışdır.

Əvvəlki qətnamələrdən fərqli olaraq, son qətnamələr xeyli təkmilləşdirilmiş, yeni bəndlər əlavə edilmişdir: «Bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır; İKT-yə üzv dövlətin ərazisi hərbi təchizatın tranziti üçün istifadə edilməməlidir; İKT-yə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistan təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; hesab edir ki, Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyəti Ermənistanın üzərinə qoyur; bu məsələ

üzrə İKT-yə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırkı sədrinə məlumat verməsini İKT Baş katibindən tələb edir» və s.

Respublikamızla bağlı bütün qətnamə layihələrinin heç bir düzəliş və təftişə məruz qalmadan qəbul olunması bir daha təsdiq edir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin elmi prinsiplərə əsaslanan praqmatik xarici siyasət kursu sayəsində islam aləmi problemlərimizlə yaxından tanışdır və dövlətimizin haqq mövqeyinə daim dəstək verir.

Bir məqamı da vurğulayaq ki, İKT-nin qətnamələri Azərbaycan üçün yalnız siyasi əhəmiyyət daşımır, respublikamıza müsəlman ölkələri tərəfindən göstərilən humanitar, texniki və s. yardımın böyük bir hissəsi İKT konfranslarının qəbul etdiyi bu kimi mühüm sənədlər əsasında həyata keçirilir. Təsadüfi deyil ki, İslam İnkişaf Bankı 1994-cü ildən etibarən Qurban bayramı ərəfəsində ölkəmizə müxtəlif təyinatlı yardım göndərir.

Respublikamızın sosial-inkişaf layihələrinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına İİB təmənnasız olaraq 142 milyon dollar vəsait sərf etmiş, İİB-in respublikamıza təqdim etdiyi güzəştli kreditin ümumi məbləği 74 milyon dolları ötmüşdür. Səudiyyə Ərəbistanının humanitar müəssisələri, Kral Fəhd adına yardım proqramı, körfəz ölkələrinin bir sıra humanitar təşkilatlarının və fondlarının yardımı da İslam Konfransı Təşkilatı ilə zaman keçdikcə daha da inkişaf etməkdə olan münasibətlərimizin töhfələri sırasındadır. Müstəqil Azərbaycan Respublikası İslam Konfransı təşkilatı ilə yanaşı, bu quruma daxil olan ayrı-ayrı ölkələrlə də ikitərəfli əməkdaşlığın inkişafında, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək məqsədilə bu dövlətlərin imkanlarından istifadə edilməsi istiqamətində də geniş iş aparır.

İslam Konfransı Təşkilatının xarici işlər nazirlərinin daha bir görüşü də Bakıda keçirilmiş, Azərbaycanın təşəbbüsü ilə İslam Konfransı Təşkilatının gənclər forumu yaradılmış, bütün bunlar ölkəmizin islam aləmi ilə, müsəlman dövlətləri ilə əməkdaşlığının möhkəmlənməsinə çox böyük diqqət göstərdiyini bir daha sübuta yetirmişdir.

İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatı ilə Heydər Əliyev Fondu arasında inkişafda olan əməkdaşlıq münasibətləri də Avropaya inteqrasiya yolunu tutan Azərbaycanın eyni zamanda tarixi köklərə sadiqliyindən, çoxqütblü dünyanın formalaşdırılmasının fəal tərəfdarı olmasından irəli gəlir.

Heydər Əliyev Fondu İSESCO-nun və YUNESKO-nun prinsiplərinə əsaslanaraq hesab edir ki, çətinliklərlə üzləşmiş digər dövlətlərə və xalqlara da kömək etmək çox vacibdir. Məhz buna görə Pakistanın zəlzələdən zərər çəkmiş Müzəffərabad şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü ilə ümumtəhsil məktəbi inşa olunmuşdur.

Mükafatın təqdimatı mərasimində İSESCO-nun baş direktoru Əbdüləziz bin Osmanəl-Tuveycri demişdir: «İSESCO-nun tarixində ilk dəfədir ki, bu ad xanıma verilir. Mehriban xanım sivilizasiyalararası dialoq və digər cəsarətli fəaliyyətləri çərçivəsində gördüyü geniş miqyaslı işlərə görə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə verdiyi dəstəyə görə bu ada tam layiqdir. Cəmi 4 nəfər bu adı alıbdır. Dünyanın bu ağır günlərində, cəsarətli insanlara ehtiyac duyulduğu bir zamanda, münaqişələrin qarşısının alınmasında, sivilizasiyalararası dialoqun aparılmasında xidmətlərinə, islam aləmində görülən işlərə böyük dəstəyinə görə Mehriban xanıma İSESCO-nun ən yüksək adını veririk. Bu, İSESCO-ya da, islam aləminə də şərəf gətirəcəkdir».

Səmərəli əməkdaşlıq əlaqələrinə söykənən strategiyanın tərkib hissəsi kimi Bakıda Heydər Əliyev Fondu, Təhsil Nazirliyi, Beynəlxalq İslam Xeyriyyə Təşkilatı və Küveyt Dövlət Vəqflər və İslam İşləri Nazirliyinin birgə təşkilatçılığı ilə «İslam və gənclik: təhsil, elm və maariflənmə» mövzusunda beynəlxalq konfrans təşkil edilmiş, islamda gənclərin rolu, müsəlman ölkələrində elm və təhsil məsələləri, gənclərin ayrı-seçkilik, zorakılıq, terrorizm və digər mənfi əməllərdən yayınması yollarına dair müzakirələr aparılmışdır. Görkəmli şərqşünas alim, ərəb ədəbiyyatının yorulmaz tədqiqatçısı Aida xanım İmanquliyevanın İSESCO-nun təşəbbüsü əsasında ərəb dilinə tərcümə edilərək yüksək tərtibatla çapdan çıxmış «Yeni ərəb ədəbiyyatının korifeyləri» kitabının Bakıda təqdimat mərasiminin keçirilməsi də bu qurumla əməkdaşlığın tərkib hissəsidir.

4.2. Yeniləşən ölkənin yeni məktəbləri

Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı bu qurumun yerləşdiyi əzəmətli bina artıq bir neçə ildir ki, Azərbaycan vətəndaşları üçün sözün əsl mənasında mənəviyyat, mədəniyyət məbədinə çevrilmişdir. Heydər Əliyev

Fondunun bu cür ictimai nüfuzunu müəyyən edən ən başlıca amil isə heç şübhəsiz ki, bu qurumun ulu öndərin amallarına sadiqliyi, bu amalların işığında Azərbaycan xalqına göstərdiyi təmənnasız xidmətdir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə yaradılmış bu ictimai təşkilatın əsas məqsədləri hər şeydən öncə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irsinin öyrənilməsinə xidmət edən irimiqyaslı proqramların həyata keçirilməsinə dəstək vermək, Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş layihələrin həyata keçirilməsini dəstəkləmək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, ölkənin iqtisadi potensialını möhkəmləndirmək, milli-mənəvi dəyərlərə sadiq gənclər yetişdirmək, Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqdan və bu kimi xeyirxah məqamlardan ibarətdir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu sosial sferaya aid aktual məsələləri – qaçqın və məcburi köçkünlərin, uşaq evlərinin, internat-məktəblərinin, müxtəlif ağır xəstəliklərdən əziyyət çəkən insanların problemlərini daim diqqətdə saxlayır.

Fondun həyata keçirdiyi «Uşaq evləri və internat-məktəblərinin inkişafı proqramı» bilavasitə Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış və Fondun həyata keçirdiyi ilk proqramlardan biridir. Bu proqram çərçivəsində qurumun əməkdaşları Bakıda və Abşeronda yerləşən, bütün uşaq evi və internat-məktəblərində olmuşlar. Mövcud problemləri dəqiqliyinə qədər öyrənmiş, onların aradan qaldırılması üçün tədbirlər müəyyənləşdirmişlər.

Proqram üzrə uşaq evləri və internat-məktəblərində mövcud problemlərin həlli üçün 4 əsas istiqamət müəyyən edilmişdir: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq. Proqram çərçivəsində yaradılmış işçi qrupu respublikada fəaliyyət göstərən uşaq evləri və internat-məktəblərindəki mövcud vəziyyətin monitorinqini apararaq uşaqların sayı, aylıq, illik dövlət təminatına daxil olan qida, geyim, texniki vəsait normativləri, ümumi şərait (təhsil, səhiyyə, yaşayış, istirahət) kimi göstəriciləri müəyyən etmişdir. Belə uşaq müəssisələrinin böyük əksəriyyətinin ilkin mərhələdə əsaslı təmirə və texniki təchizata daha çox ehtiyacı olduğu üzə çıxmış, Heydər Əliyev Fondunun rəhbəri Bakı və ölkəmizin əksər rayonlarındakı uşaq evləri və internat-məktəblərinə şəxsən baş çəkərək, proqramın texniki dəstək istiqaməti üzrə işlərin başlanması üçün öz tapşırıqlarını vermişdir.

Heydər Əliyev Fondunun 2005-ci ildə gördüyü işlərə dair yekun hesabat «Uşaq evləri və internat-məktəblərinin inkişafı proqramı» çərçivəsində görülmüş işləri tam miqyası ilə göz önündə canlandırır. Proqram çərçivəsində həyata keçirilən tədbirlər yalnız bu kateqoriyadan olan təlim-tərbiyə müəssisələrinə texniki dəstəklə məhdudlaşmamışdır. Uşaq evlərində kitab-xanalar yaradılmış və bu kitabxanalar müvafiq tədris vəsaiti və bədii ədəbiyyatla təmin olunmuşdur. Əksər uşaq evləri və internat-məktəblərində kompyuter avadanlığı quraşdırılmışdır. Sinif otaqları interaktiv təhsil üçün zəruri vasitələrlə təchiz edilmişdir. Bir çox internatlarda, həmçinin uşaq evlərində həkim və psixoloq otaqları yaradılmışdır. Bu təhsil müəssisələrində qida normativlərinin dəyişdirilməsi məqsədi ilə təkliflər paketi də hazırlanmışdır. 2004-cü ilin sentyabr ayında bu kateqoriyaya aid uşaqlar arasında keçirilmiş «Mən Azərbaycanı sevirəm» mövzusunda rəsm sərgisi də bu baxımdan yaddaqalan faktdır.

Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü əsasında uşaqların asudə vaxtının və istirahətinin səmərəli təşkili məqsədi ilə pilot layihəsi kimi, Nizami rayonundakı 1 nömrəli uşaq evi üçün Şüvəlan qəsəbəsində yay düşərgəsinin, paytaxtda Resurs Mərkəzi yaradılması layihəsinin icrası ilə uşaq evləri və internat-məktəblərinin müəllim və tərbiyəçiləri üçün müasir tədris və tərbiyə metodikasının tətbiqinə dair treninqlərin təşkili, uşaq alveri, uşaq əməyindən istifadə, onlara qarşı zorakılıq və s. aradan qaldırmaq istiqamətində daha davamlı tədbirlərin həyata keçirilməsi imkanları genişlənmişdir.

«Elə problemlər var ki, onları dərhal və nisbətən asanlıqla həll etmək olur», – söyləyir xoşməramlı səfir: «Əlbəttə, bu, təmir, təchizat və təminat problemləridir. Lakin konkret problemləri həll edərkən, qlobal problemləri də unutmaq olmaz. Məsələn, uşaq evləri və internat-məktəblərinin bütün sisteminin sovet pedaqogikası və təhsilin sovet sistemi ilə idarə olunması çərçivəsində yarandığını nəzərə almaq son dərəcə vacibdir. Ona görə də digər ölkələrin təcrübəsindən faydalanmaq və istifadə etmək üçün qapıları açmaq zəruridir».

Onun təşəbbüsü ilə təhsil işçiləri, Azərbaycanda təmsil olunan müxtəlif ictimai təşkilatların nümayəndələri, ayrı-ayrı ölkələrin Azərbaycandakı səfirlərinin xanımları dəfələrlə bir yerə toplaşaraq, problemləri müzakirə etmişlər. Təkliflər çoxsaylıdır – mövcud sistemi ləğv edib «ailəvi uşaq evləri»nə keçməkdən tutmuş konkret dərs vəsaiti yardımınadək.

Önəmlisi odur ki, problemlərə heç kəs biganə deyildir. İndi bir çox qurumlar və insanlar Fondla bu istiqamətdə əməkdaşlıq əlaqələri yaradırlar. Lakin daha qlobal vəzifələr son dərəcə çətin həll olunur.

Mehriban xanım hesab edir ki, heç bir dövlət müəssisəsi, ən müasir, gözəl təmir olunmuş, avadanlıqla təmin edilən məktəb belə heç zaman ailə mühitini əvəz edə bilməz. Ona görə Fondun ən vacib və böyük məqsədlərindən biri də bundan ibarətdir ki, bu təhsil müəssisələrindəki uşaqlar ailə şəraitində tərbiyə alsınlar.

Məhz buna görə Heydər Əliyev Fondu YUNİSEF-lə birlikdə «deinstitutlaşma proqramı»nı uğurla həyata keçirir. Mehriban xanım Əliyevanın istər xeyriyyəçilik, istərsə də ictimai fəaliyyətinin əsas istiqamətləri sırasında təhsilin mühüm yer tutması **«Azərbaycanın gələcəyi təhsilli insanların çiyinləri üzərində qurulacaq»** reallığını cəmiyyətə təlqin edən böyük öndər Heydər Əliyevin bu sarsılmaz inamına söykənmişdir. Bu sahəyə yönələn diqqət və qayğının ölkənin gələcəyi baxımından nə dərəcədə önəmli olduğunu bir daha qeyd etməyə, yəqin ki, ehtiyac yoxdur. Təhsilin inkişafı, yeni nəslin təlim-tərbiyəsinin yüksək səviyyədə qurulması, bu günün uşaqlarının sabahın layiqli vətəndaşları kimi yetişməsi yolunda konkret və məqsədyönlü işlər görmək ilk növbədə həqiqi vətənpərvərlik nümunəsidir. Yalnız vətənpərvərlik hissi, vətən sevgisindən qaynaqlanan ali duyğular insanı olduqca çətin, lakin xalqın, dövlətin gələcəyi baxımından strateji əhəmiyyətli işlər həyata keçirməyə sövq edə bilər.

İqtisadi inkişaf yolu tutan, yeniləşən Azərbaycan cəmiyyətində bərabər təhsil imkanlarının yaradılması, gənc nəslin biliyə yiyələnməsi, dünya təhsil sisteminə inteqrasiyasına dəstək verilməsi Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet sahələrindəndir. Heydər Əliyev Fondunun prezidenti kimi, Mehriban Əliyevanın son dövrdə atdığı addımlar sırasında konkret olaraq, təhsilə yönəltdiyi böyük diqqət onun gerçək vətəndaşlıq mövqeyində dayanmasının, nümunəvi vətənpərvərliyinin danılmaz sübutu sayıla bilər. Ölkəmizin inkişafında təhsilin böyük əhəmiyyət kəsb etdiyini nəzərə alan Heydər Əliyev Fondu 2005-ci ildə bu sahədə bir neçə irimiqyaslı layihə hazırlayaraq həyata keçirmişdir.

Bunlardan ən mühümü heç şübhəsiz ki, ölkəmizdə çox böyük əks-səda doğurmuş «Yeniləşən Azərbaycana yeni məktəb» proqramıdır. Fond mütəxəssisləri bir araya gətirib Mehriban xanım Əliyevanın təşəbbüsü əsa-

sında hazırlanan bu proqramı cəmiyyətə təqdim edəndə, Azərbaycan üzrə üç-dörd ay ərzində 132 məktəb tikiləcəyinə, özü də bu məktəblərin əksəriyyətinin ucqar bölgələrdə, dağlıq rayonlarda inşa olunacağına etiraf edək ki, çox az adam inanırdı. Lakin Mehriban xanım Əliyeva sübut etdi ki, inam, iradə, əzmkarlıq, işləri düzgün qurmaq bacarığı olan yerdə həlli mümkünsüz sayıla biləcək heç bir problem yoxdur.

Fondun 2005-ci ildən həyata keçirməyə başladığı və artıq iki mərhələsi başa çatan «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı məhz bu sahədə mövcud problemlərin həllinə doğru istiqamətləndirilmişdir. Bu sahədə real vəziyyəti qiymətləndirmək üçün Fondun prezidentinin təşəbbüsü ilə respublika üzrə orta məktəblərin monitorinqi keçirilmiş və ən müxtəlif bölgələrdə 132 məktəb binasının tam yararsız olduğu müəyyənləşdirilmişdi.

Cəmiyyətin müxtəlif təbəqələrinin diqqətini bu məsələyə yönəltmək məqsədi ilə müvafiq qurumların, ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların iştirakı ilə keçirilən dəyirmi masada 100, 200 və 240 şagird yerlik məktəb binalarının layihələri təqdim olunmuşdu. YUNESKO-nun xoşməramlı səfirinin layihə ilə bağlı cəmiyyətə ünvanladığı əməkdaşlıq çağırışı geniş əks-səda doğurmuş, Azərbaycanın bölgələrində – dağ kəndlərində, ən ucqar yaşayış məntəqələrində məktəb tikintisi geniş vüsət almış, qısa müddətdə layihələr əsasında yeni, müasir tələblərə cavab verən binalar istifadəyə verilmişdir.

Məktəblər müasir avadanlıq, istilik sistemi, zəngin kitabxanalar, əyani vəsait və kompyuterlərlə təchiz olunmuş, bütün layihə iştirakçılarının gərgin əməyi, yorulmaz səyi nəticəsində minlərlə məktəbli yeni tədris ilini yaraşıqlı, gözoxşayan təhsil ocaqlarında qarşılamışlar.

2005-ci ildə müxtəlif mənbələr hesabına ümumilikdə 49 min 732 yerlik 328 yeni məktəb və əlavə korpuslar, o cümlədən 36016 şagird yerlik 194 yeni məktəb, 134 məktəbdə 13 min 716 yerlik əlavə korpuslar inşa edilmiş, istifadəyə verilən 194 yeni məktəbdən 3 min 836 şagird yerlik 20 məktəb Dövlət proqramına əsasən, 10 min 120 yerlik 42 məktəb ayrı-ayrı nazirliklər, beynəlxalq və yerli təşkilatlar, bələdiyyələr, iş adamları tərəfindən, yeni məktəblərdən 22060 yerlik 132 məktəb, yəni məktəblərin 70 faizi isə bilavasitə Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilmişdir.

Bu, təhsil tariximizdə analoqu olmayan bir hadisədir və bütün ictimaiyyət, o cümlədən təhsil işçiləri tərəfindən böyük rəğbətlə qarşılanmış-

dır. On illərlə təmir edilməmiş, tam yararsız və qəza vəziyyətində olan, təlim-tərbiyə üçün heç bir şəraiti olmayan məktəblərin yerində müasir standartlara uyğun yeni binalar tikilmiş, keyfiyyətli avadanlıqla təmin edilmiş və şagirdlərin istifadəsinə verilmişdir.

Proqrama əsasən Naxçıvan Muxtar Respublikasında 6, Quba rayonunda 14, Yardımlı rayonunda 6, Ağcabədi rayonunda 5, Cəlilabad, Şəmkir, Şamaxı, Qusar, Oğuz rayonlarının hər birində 4, Goranboy, Xaçmaz, Şəki, Tovuz, Ağstafa, İsmayıllı, Kürdəmir, Xanlar, Dəvəçi, Samux, Biləsuvar, Bərdə, Siyəzən, Astara rayonlarının hər birində 3, Qəbələ, Qazax, Sabirabad, Hacıqabul, Beyləqan, Tərtər, Lənkəran, İmişli, Yevlax, Salyan, Masallı, Ağsu, Lerik, Qobustan rayonlarının hər birində 2, Gədəbəy, Neftçala, Saatlı, Daşkəsən, Göyçay, Ağdaş, Zərdab, Zaqatala, Qax, Balakən, Ucar rayonlarının hərəsində 1 məktəb üçün yeni binalar inşa edilmişdir.

Eyni zamanda 2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda Şahtaxtı kənd məktəbi əsaslı təmir edilmiş, Sabunçu rayonundakı 112 nömrəli məktəb üçün 350 yerlik əlavə korpus tikilmişdir.

Son illərdə 350 min şagird yerlik 1300-dək yeni məktəb binasının tikilməsi çağdaş təhsil tariximizin ən parlaq səhifələrindən biridir. Cari ildə 191 yeni məktəb istifadəyə verilmiş, 129 məktəb əsaslı təmir edilmişdir. Ümumilikdə, son illərdə 700 mindən çox şagird, yəni bütün şagirdlərin təxminən 50 faizi müasir tələblərə cavab verən məktəblərdə təhsil almaq imkanı əldə etmişdir.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi sahəsində Heydər Əliyev Fondunun, şəxsən onun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri xüsusi qeyd edilməlidir. Məhz Fondun təşəbbüsü ilə reallaşdırılan «Yeniləşən Azərbaycana yeni məktəb» və «Uşaq evləri və internat məktəbləri» proqramları çərçivəsində son illərdə 226 yeni məktəb tikilmiş, 39 məktəb, 10 uşaq bağçası əsaslı təmir olunmuşdur.

İnşaat prosesində ən keyfiyyətli materiallardan istifadə edildiyi, işin ən yüksək normativlərə uyğun həyata keçirildiyi tikintini aparan mütəxəssislər tərəfindən də vurğulanmışdır. Mehriban xanım Əliyeva bütün məktəblərdə mərkəzi istilik sisteminin qurulması, məktəblərin dam örtüyündə yalnız metal və keramikadan – yəni ekoloji baxımdan zərərsiz materiallardan istifadə edilməsi barədə inşaatçılara xüsusi tapşırıq vermişdir. Məktəblərin tam əksəriyyətində idman zalları və digər əlavə otaqlar da inşa edilmişdir.

Azərbaycan məktəblərinin maddi-texniki təminatının yüksək keyfiyyətlə həyata keçirilməsi hələ sovet dövründən də müəyyən problemlər doğururdu. O vaxtlar Baltikyanı ölkələrdən gətirilən partalar ən yaxşı avadanlıq sayılsa da, standartlara cavab vermirdi. Ancaq xüsusi olaraq Fond tərəfindən alınan avadanlıq isə ən müasir tələblərə uyğundur.

Məktəblərin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi sahəsində həyata keçirilən tədbirlər, xüsusilə Heydər Əliyev Fondunun təşəbbüsü ilə yeni məktəb binalarının inşası ölkəmizdə yoxsulluğun azaldılmasına və iqtisadi inkişafa da müsbət təsir göstərmiş, ölkənin müxtəlif regionlarında kasıb ailələrdən olan uşaqlar üçün bərabər təhsil imkanlarının yaradılmasına səbəb olmuşdur.

Heydər Əliyev Fondu tərəfindən xüsusi qayğıya ehtiyacı olan, kimsəsiz, valideyn himayəsindən məhrum, müəyyən mənada cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində də məqsədyönlü işlər görülmüşdür.

2004–2005-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı ilə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı 23 müəssisədə (3 xüsusi məktəb, 16 xüsusi və ümumtəhsil internat məktəbi, 4 uşaq evi) müasir standartlara uyğun əsaslı təmir, bərpa və yenidənqurma işləri aparılmışdır. Həmin müəssisələr avadanlıqla təmin edilmiş, burada tərbiyə və təhsil alan 6759 uşaq yüksək diqqət və qayğı ilə əhatə olunmuş, onlar üçün bərabər imkanlar yaradılmışdır.

Fond «Yeniləşən Azərbaycana yeni məktəb» proqramının ikinci mərhələsini də həyata keçirməyə başlamış, 2006-cı ilin aprelində Heydər Əliyev Fondunda «Yeniləşən Azərbaycana yeni məktəb» proqramının ikinci mərhələsinin təqdimatına həsr olunan və Respublika hökumətinin, xarici ölkələrin səfirliklərinin, beynəlxalq humanitar təşkilatların və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirak etdikləri tədbirdə Mehriban xanım Əliyeva demişdir: ***«Müasir dünyada hər bir ölkənin inkişafı, onun dünya birliyinə inteqrasiyası üçün təhsilin rolu əvəzsizdir. Məhz buna görə də Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsilə yardımı öz fəaliyyətinin prioritet istiqaməti elan etmişdir. Əgər xatırlayırsınızsa, ötən ilin iyun ayında Heydər Əliyev Fondu tərəfindən təhsil sahəsində hazırlanmış ən iri layihə olan «Yeniləşən Azər-***

baycana yeni məktəb» proqramının təqdimat mərasimində iştirak etmişdik.

Bizim məqsədimiz yeniləşən təhsil sisteminə yardım etmək, müasir təhsil komplekslərinin yaradılması, ölkəmizin hər bir yerində, ən ucqar kəndində də məktəbə gedən hər bir şagird üçün normal, gözəl şərait yaradılması idi. Bununla yanaşı, biz təhsildə olan problemlərə bütün cəmiyyətimizin diqqəti-ni cəlb etməklə, bunların həllində fəal iştiraka dəvət edirdik. Həmin görüş-də biz belə təklif səsləndirdik və ölkəmizdə fəaliyyət göstərən iş adamlarına, sahibkarlara, yerli və xarici şirkətlərə, qeyri-hökumət təşkilatlarına, diplo-matik korpusa müraciət etdik və onları bu layihədə fəal iştiraka dəvət etdik. Ondan çox az bir vaxt keçdi və bu təklif ölkədə böyük əks-səda, rezonans ya-ratdı. Bizi dəstəkləyən, təşəbbüsümüzə qoşulan insanların və Heydər Əliyev Fondunun birgə səyləri nəticəsində «Yeniləşən Azərbaycana yeni məktəb» proqramının ilk mərhələsi çox böyük uğurla başa çatdı. Ötən il ərzində ölkəmizin 52 rayonunda 132 yeni məktəb inşa olunub istifadəyə verildi, ən müasir avadanlıqla təmin edildi. 22 mindən artıq yeni şagird yeri açıldı».

Heydər Əliyev Fondunun prezidenti ölkəmizin müxtəlif rayonlarında inşaat işlərinin gedişi ilə şəxsən tanış olduğunu diqqətə çatdırmış, 2005-ci il ərzində 132 məktəbin tikintisini bütün Azərbaycanın, bütün cəmiy-yətin uğuru, qazancı kimi qiymətləndirmişdir: «Belə böyük nailiyyətlə yanaşı, bu mühüm layihəni həyata keçirərkən biz böyük təcrübə də qa-zandıq. İnanıram ki, gələcəkdə Heydər Əliyev Fondu tərəfindən hazır-lanıb həyata keçiriləcək başqa proqramlarda, layihələrdə də bu təcrü-bədən səmərəli istifadə olunacaqdır».

Mehriban xanım Əliyeva ölkəmizdə yeni tədris binasına, müasir ava-danlığa ehtiyacı olan yüzlərlə məktəbin mövcudluğunu diqqətə çatdırmış, bildirmişdir ki, istilik sistemi olmayan, dam örtüyü axan, qış zamanı bağ-lanan, tədrisə yararsız olan məktəblərdə, əlbəttə ki, təhsilin də səviyyəsi heç kəsi qane edə bilməz. Ona görə Heydər Əliyev Fondu bu istiqamət-də işləri davam etdirməyi qərara alaraq «Yeniləşən Azərbaycana yeni məktəb» proqramının ikinci mərhələsinə başlamışdır. Fond tərəfindən hazırlanmış işçi qrupu 100 məktəbdən ibarət yeni siyahı hazırlamış, bu siyahıya Bakıda, Abşeronda və respublikamızın müxtəlif rayonlarında yerləşən məktəblər daxil edilmiş, həmin məktəblərin yeni tədris ilinin başlanmasına qədər istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Fond prezidenti bu siyahıda olan məktəblərin çoxunun Bakıətrafı qəsəbələrdə yerləşən, 500 və daha çox şagirdlik məktəblər olduğunu xüsusi vurğulamış, bu proqramın ikinci mərhələsinin də uğurla həyata keçiriləcəyinə əminliyini ifadə etmişdir. YUNİSEF-in Azərbaycandakı nümayəndəsi Hana Singer və xarici ölkələrin Azərbaycandakı səfirləri də məktəb tikintisinin Azərbaycanda ümummilli hərəkata çevrilməsini yüksək qiymətləndirmişlər.

«Yeniləşən Azərbaycana yeni məktəb» proqramının ikinci mərhələsi də uğurla həyata keçirilmiş, bu proqram da ölkənin bütün regionlarını əhatə etmişdir.

Proqrama uyğun olaraq Naxçıvan Muxtar Respublikasında 4, Şəki rayonunda 3, Salyan, Biləsuvar, Yardımlı, Masallı, Daşkəsən, Quba, Qobustan, Qusar, Xızı, İsmayıllı, Şamaxı, Qazax, Tərtər, Goranboy, Tovuz, Oğuz, Zərdab, Göyçay, Ağsu, Ağstafa, Qax, Abşeron rayonlarının hər birində 2, Yevlax, Bərdə, Beyləqan, İmişli, Sabirabad, Saatlı, Hacıqabul, Neftçala, Ağcabədi, Kürdəmir, Ağdaş, Astara, Cəlilabad, Lerik, Lənkəran, Xanlar, Samux, Xaçmaz, Dəvəçi, Siyəzən, Gədəbəy, Ucar, Şəmkir, Zaqatala, Balakən, Qəbələ rayonlarının hərəsində və Bakı şəhərinin Əzizbəyov rayonunda bir məktəb binası inşa edilmişdir.

Eyni zamanda proqram çərçivəsində Abşeron rayonunda, Bakı şəhərinin Binəqədi, Sabunçu, Əzizbəyov, Suraxanı və Qaradağ rayonlarında ümumilikdə 12 məktəbin yanında əlavə korpuslar inşa olunmuş və 12 məktəb əsaslı təmir edilmişdir.

Təhsillə bağlı qarşıya qoyulan əsas məqsəd, izlənilən başlıca qayə Azərbaycanda bu sahənin çağdaş dünyanın tələb etdiyi səviyyəyə yüksəldilməsidir. Qısa vaxt ərzində ölkəmizdə bu qədər məktəb binasının tikilməsi dövlət müstəqilliyinə cəmi bir neçə ildir ki, qovuşan, müharibə vəziyyətində olan, iqtisadiyyatı yeni inkişaf etməyə başlayan istənilən ölkə üçün fövqəladə göstərici sayıla bilər. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu məhz belə bir layihəni tezliklə həqiqətə çevirmiş, yaxın və uzaq xaricdə indiyədək analoqu olmayan bu layihənin reallaşması təkcə Azərbaycanda deyil, bütün dünyada geniş əks-səda doğurmuşdur.

Heydər Əliyev Fondu ölkəmizdə təhsilin səviyyəsinin yüksəldilməsi məqsədilə müstəqil şəkildə həyata keçirdiyi çoxsaylı layihələrlə yanaşı,

bəzi özəl qurumlarla birgə proqramlar da reallaşdırır. Həmin proqramlardan biri də «Pedaqogika» nəşriyyatı ilə icrasına başlanmış «Təhsilə dəstək» proqramıdır. Böyük siyasi, hüquqi və mənəvi əhəmiyyəti olan bu sənəd ölkədə yaşayan azsaylı xalqların dilində təhsil alan şagirdlərimizin dərsliklərlə təmin edilməsini nəzərdə tutur. 2005–2006-cı tədris ilində «Təhsilə dəstək» proqramına uyğun olaraq, təhsil tariximizdə ilk dəfə olaraq təlimi gürcü dilində aparılan məktəblərimizin I sinif şagirdləri milli dərsliklərlə təmin edilmişdir.

Bu dərsliklər aşağıdakılardır:

«Dedaena» («Əlifba»);

«Matematika» («Riyaziyyat») – 4 hissəli;

«Qaresamğaro» («Həyat bilgisi»).

Yüksək səviyyədə həyata keçirilən bu iş, təlimi gürcü dilində olan məktəblərimizin qonşu Gürcüstan Respublikasından dərslik asılılığını aradan qaldırmaqla yanaşı, gürcü millətindən olan şagirdlərimizin əsl Azərbaycan vətəndaşı kimi yetişməsinə və cəmiyyətimizə normal inteqrasiya olunmasına kömək edəcəkdir.

Respublikamızın görkəmli alimlərinin müəllifliyi ilə çapa hazırlanan və «Pedaqogika» nəşriyyatında nəşr olunan «Ana dili», «Riyaziyyat» və «Həyat bilgisi» dərslikləri milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin, tarix və mədəniyyətimizin öyrədilməsi və təbliği baxımından əvvəlki dərsliklərdən xeyli fərqlənir.

Heydər Əliyev Fondunun nümayəndələri «Təhsilə dəstək» layihəsi çərçivəsində Rusiya paytaxtındakı 157 saylı etno-mədəni təmayüllü məktəbdə olmuş, təhsil ocağına 10 ədəd kompyuter dəsti, rəngli printer, 2 ədəd surətçıxarma aparatı hədiyyə etmişlər.

Moskvadakı bu təhsil ocağı tarixi vətənindən uzaqda yaşayan yeni nəsillərin öz dillərinə, mədəniyyətlərinə yiyələnmək imkanı baxımından mühüm əhəmiyyət daşıyır. Təhsilə xüsusi önəm verən Heydər Əliyev Fondunun köməyi sayəsində bu məktəbdə oxuyan hər bir uşaq Azərbaycan mədəniyyəti, ədəbiyyatı, tarixi, təbiəti, eləcə də Ermənistanın Azərbaycana hərbi təcavüzü barədə ətraflı məlumatlar da əldə edə biləcəkdir. Fond məktəb kitabxanasına müxtəlif nəşrlər, habelə yurdumuzun təbiətini əks etdirən böyük fotoekspozisiya da təqdim etmişdir. Demək olar ki, artıq məktəbdə Azərbaycanın kiçik bir guşəsi vardır.

Məktəbin özfəaliyyət kollektivinin üzvləri isə bundan sonra Heydər Əliyev Fondunun hədiyyə etdiyi milli geyimlərimizdə, milli musiqi alətlərimizin müşayiəti ilə çıxış edəcəklər.

Heydər Əliyev Fondunun fəaliyyəti çoxşaxəlidir. Təhsil, səhiyyə, elm və texnologiya, mədəniyyət, ekologiya, idman, sosial problemlər – bütün bu sferalarda Fond tərəfindən proqramlar hazırlanaraq həyata keçirilir. Ümumiyyətlə, bu ictimai təşkilat öz fəaliyyətini müasir zamanın tələbinə cavab verən şəkildə qurmağa – cəmiyyətdə olan, insanları narahat edən problemləri üzə çıxarmağa, bu problemlərin həlli yolunda lazımi tədbirləri hazırlamağa, həyata keçirməyə və uğurlu nəticələr əldə etməyə çalışır.

Heydər Əliyev Fondu kimsəsiz, valideyn himayəsindən məhrum, fiziki imkanları məhdud, habelə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində qaçqın-köçkün hə-yatı yaşayan uşaqlara qayğı göstərmək baxımından da bütün digər qurumlar üçün layiqli örnəkdir.

Heydər Əliyev Fondu «Gülüstan» sarayında Bakının müxtəlif orta məktəblərində təhsildə xüsusilə fərqlənən, uşaq evlərində və internat-məktəblərində tərbiyə alan, şəhid, qaçqın və məcburi köçkün ailələrindən olan, yetim və valideyn himayəsindən məhrum uşaqlar üçün Yeni il şənliklərinin keçirilməsini öz fəaliyyətində bir neçə ildir ki, xoş ənənəyə çevirmişdir. Mehriban xanım Əliyevanın şəxsən iştirak etdiyi bu cür mərasimlər bu bayram şənliklərinin iştirakçısı olmuş hər bir uşağın yaddaşında silinməz xatirəyə çevrilir. Heydər Əliyev Fondunun prezidenti uşaqlara müraciətində demişdir:

«Əziz uşaqlar, siz doğma Azərbaycanımızın gələcəyisiniz, sabahısınız. Azərbaycanın da gələcəyi elm, təhsil və yüksək texnologiyalarla bağlıdır. Ona görə siz gərək çox yaxşı oxuyasınız, hərtərəfli biliyə malik olasınız. Biz valideynlər üçün sizləri savadlı, sağlam, bacarıqlı, ləyaqətli insan görmək ən boyük xoşbəxtlikdir».

Fond tərəfindən həyata keçirilən layihələr sırasında talassemiya xəstəliyi ilə bağlı tədbirlər də xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizdə belə xəstələrin sayı, onların vəziyyəti mütəmadi qaydada ətraflı təhlil olunur. Talassemiyanın müalicəsi və profilaktikası üçün milli proqramlar hazırlanır.

Təkcə 2005-ci ildə Heydər Əliyev Fondunun dəstəyilə 500-dən çox soydaşımıza yardım göstərilməsi Mehriban Əliyevanın xeyirxah fəaliyyətinin nəticəsidir. Azərbaycan talassemiya xəstəliyinə düçar olmuş

xəstələrin sayına görə dünyada aparıcı yerlərdən birini tutur. Ölkəmizdə 2 mindən artıq belə xəstə qeydə alınmışdır. Son illərə qədər tibb müəssisələrimizin professional-texniki imkanları talassemiya kimi qorxulu düşmənlə mübarizə aparmağa imkan vermirdi. Digər ölkələrdə isə bu xəstəliklə mübarizə sahəsində müsbət nəticələr əldə edilmişdir. Heydər Əliyev Fondu genişmiqyaslı profilaktik tədbirlər həyata keçirməklə xarici ölkələrin təcrübəsini Azərbaycana gətirmişdir. Talassemiya Mərkəzinin inşası və bu ağır xəstəliyə düçar olmuş xəstələrin problemlərinin Heydər Əliyev Fondu tərəfindən həlli insan həyatına verilən qiymətin nişanəsidir. Mehriban xanım Əliyeva deyir: «Tibb işçisi kimi çox gözəl başa düşürəm ki, psixi və fiziki qüsurları olan uşaqlar yalnız nəticədir, çox mürəkkəb ictimai proseslər zəncirində axırıncı halqadır. Bunun arxasında yoxsulluq, zərərli adətlər və bəzən də sadəcə, müəyyən zəruri tibbi biliklərin yoxluğu dayanır. Bütün bunlar uzunmüddətli proqramların gerçəkləşdirilməsini tələb edir. Biz reallaşdırılması illərlə çəkəcək layihələrdən qorxmuruq, lakin eyni zamanda gözəl anlayırıq ki, bizdən ani tezliklə yardım və fayda gözləyirlər. Bütün bunları vəhdət halında birləşdirmək mürəkkəb vəzifədir, lakin necə deyərlər, yolun öhdəsindən yolçu gələr».

Fondun həyata keçirdiyi proqramlar sırasında «Diabetli uşaqlara ən yüksək qayğı» layihəsini də xüsusi qeyd etməliyik. Bu layihə çərçivəsində diabetli uşaqların problemlərinin həllinə həsr olunmuş konfrans keçirilmiş, 310 nəfər şəkərli diabetə düçar olmuş 14 yaşınadək uşaq himayəyə götürülmüşdür. Onlar daimi olaraq insulinlə təmin edilirlər. Fondun prezidentinin təşəbbüsü ilə Diaqnostika Mərkəzinin də inşası nəzərdə tutulur.

Heydər Əliyev Fondunun beynəlxalq fəaliyyətə başlaması, 2005-ci ilin dekabrında Fondla BMT-nin İnkişaf Proqramı arasında kor və zəif görən insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsinə dair layihə sənədi və əməkdaşlıq sazişinin imzalanması da kifayət qədər aktuallığa malik sosial problemin həllinə yönəlmiş əhəmiyyətli bir addımdır. 2005-ci ilin məlumatına görə, ölkəmizdə 320 min əlil yaşayır. Onlardan 40 min nəfəri kor və görmə qabiliyyəti zəif olan şəxslərdir. Layihə bu insanların həyata qoşulmasına, onların informasiya kommunikasiyaları vasitələri ilə bilik və məlumat əldə etmək imkanlarının genişləndirilməsinə, bu şəxslərin faydalı məşğulluğunun artırılması-

na, ümumən bu kateqoriyadan olan insanların yaşayış tərzinin yaxşılaşdırılması məqsədini əldə rəhbər tutmağa xidmət edir.

Layihənin icrası prosesinin ilkin mərhələsində gözdən əlil insanlar üçün Rəqəmsal fərqin aradan qaldırılması üzrə milli strategiya hazırlayıb həyata keçirmək məqsədi ilə Azərbaycanda həmin insanların İKT ehtiyaclarının üzə çıxarılması əsasdır. Növbəti mərhələdə isə texniki mütəxəssislər qrupu vasitəsilə xüsusi kompyuter avadanlıqlarının quraşdırılması, proqram təminatı sisteminin lokallaşdırılması, bu kateqoriyadan olan əlil insanların internetə çıxışının təmin edilməsi, tədris-təlim proqramlarını hazırlamaq üçün təhsil sahəsində yerli və xarici ekspertlərin təcrübəsindən istifadə məqsədilə Model informasiya-kommunikasiya texnologiyaları sinfinin yaradılmasının planlaşdırılması ehtiyacların hərtərəfli təminatına yönəlib. Üçüncü mərhələdə də kor və görmə qabiliyyəti zəif olan insanlar üçün yaradılmış kitabxana və Təlim mərkəzində onların audio materiallar və Brayl şriftli kitablardan istifadə imkanları təmin edilmişdir. Bu layihənin imkanlarından bütün əlil insanlar faydalanmaqdadırlar.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə eyni zamanda Azərbaycanda müasir texnologiyaların inkişafı istiqamətində də əhəmiyyətli addımlar atılmaqdadır. Həcminə-keyfiyyətinə görə ölkədə analoqu olmayan «Azərbaycan» informasiya portalının yaradılması internet reallığının həyatımızın ayrılmaz tərkib hissəsinə çevrildiyi indiki günlərdə Azərbaycan mədəniyyətinə ən böyük töhfə sayıla bilər. Bu layihənin reallaşmasına Azərbaycanın aparıcı mütəxəssisləri cəlb edilmiş, çoxsaylı arxivlərdən, kitabxanalardan və dövlət müəssisələrindən toplanmış dəyərli materiallar, sənədli bilgilər burada öz əksini tapmışdır.

Portalın üzərində işə başlamazdan əvvəl Fondun mütəxəssisləri «Azərbaycan və internet» adlanan araşdırma aparmışlar. Azərbaycanın dünya informasiya məkanına inteqrasiya olunması, Azərbaycan dilində internet resursları ilə maraqlanmışlar. Bəzi mənbələrə görə, Azərbaycanda internetdən istifadə edənlərin sayı 300 min, digərlərinə görə isə 400–450 min nəfərə çatır. Yer kürəsində internet istifadəçilərinin sayı təxminən 1 milyard nəfərdir ki, bu da dünya əhalisinin təxminən 14 faizini təşkil edir. Məlumdur ki, Azərbaycanda internet poçt sistemi 1991-ci ildən fəaliyyətə başlamışdır. Bu gün artıq Azərbaycanda internet resurslarının mövcudluğu barədə danışmaq olar. 2005-ci ilin sonlarına olan məlumatlara görə, ölkə-

mizdə 3145 azərbaycandilli, 830 türkdilli, 1300 ingilisdilli, 1600 rusdilli sayt mövcuddur. Saytların məzmununu təhlil etsək, onların 150-si dövlət qurumlarına, nazirliklərə, siyasi partiyalara, ictimai təşkilatlara məxsusdur. Azərbaycanın rayonları barədə ümumi məlumatları əks etdirən cəmi 15 sayt vardır. Qarabağ müharibəsinə, Xocalı soyqırımına, erməni vəhşiliklərinə həsr olunmuş 17 sayt mövcuddur. 26 sayt diasporla bağlı məsələləri əhatə edir.

Dünyada gedən qloballaşma prosesinin hərəkətverici qüvvələrindən biri olan informasiya və kommunikasiya texnologiyalarının artıq Azərbaycanda da özünə yer tutması son dərəcə mütərəqqi haldır. İnternet ölkəmizdə dinamik inkişaf edir. Yeni texnologiyalarla məşğul olan təşkilatların sayı günbəgün artır. Bizdə indi kifayət qədər internet resursu vardır. Amma məsələni daha dərindən öyrənəndə bir sıra daha ciddi nöqsanların mövcudluğu da faktdır. Şəbəkənin abbreviaturası ilə bağlı problemlər, yüksək səviyyəli axtarış sistemlərinin olmaması, saytların yeni informasiyalarla təmin edilməməsi, konkret bir problemə həsr olunmuş saytlarla yanaşı, çox formal, müasir tələblərə cavab verməyən saytlar da vardır. Ölkəmizin beynəlxalq imicinə zərbə vuran, böhtan, yalan yayan, yanlış mövqeli, o cümlədən xalqımızın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsi barədə Ermənistanın mövqeyini əks etdirən külli miqdarda müxtəlif dilli saytlar da mövcuddur. Məhz bütün bunlara görə Heydər Əliyev Fondu «Azərbaycan» portalının yaradılmasını çox zəruri saymış və ölkə ictimaiyyəti bunu vaxtında atılmış bir addım kimi qiymətləndirmişdir. Ölkəmizin ən qədim tarixindən tutmuş bugünkü reallığına qədər bütün dövrləri özündə əks etdirən bu portal çox problemlərin həllində mühüm rol oynayır.

Azərbaycan, ingilis və rus dillərində tərtib olunan portalın alman, fransız, ərəb versiyaları da hazırlanmaqdadır. Təqdimat mərasimi 2005-ci ildə keçirilən «Azərbaycan» internet portalı «Azərbaycan Elektron kontent-2005 mükafatı» milli müsabiqəsində Elektron-cəlbetmə nominasiyası üzrə qalib gəlmişdir.

Fondun BMT-nin İnkişaf Proqramı ilə görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair əməkdaşlıq sazişi və layihə sənədi çərçivəsində gördüyü işlərin əhəmiyyəti də son dərəcə böyükdür.

Bu saziş layihələri BMT-nin «Minilliyin Bəyannaməsi»ndə dövlət və hökumət başçıları tərəfindən yeni texnologiyaların, xüsusilə informasiya-kommunikasiya texnologiyalarının (İKT) hamı üçün təmin olunması barədə götürülmüş öhdəliyə və Azərbaycan hökumətinin İKT üzrə Milli Strategiyasına uyğun hazırlanmışdır.

Layihə üç mərhələdə həyata keçirilmişdir. İlk mərhələ kor və görmə qabiliyyəti zəif insanların İKT-yə ehtiyaclarını müəyyən etmək, onlar üçün rəqəmsal fərqin aradan qaldırılması üzrə ayrıca proqram layihəsi hazırlamaqdan ibarət olmuş, bu məqsədlə sorğular, müzakirələr keçirilmiş, təcrübə mübadiləsi aparılmış, alınacaq avadanlığın növləri müəyyən edilmişdir.

İkinci mərhələdə isə kor və görmə qabiliyyəti zəif uşaqlar üçün internat-məktəbində model İKT sinfinin yaradılması istiqamətində işlər aparılmış, burada kompyuter avadanlığının alınıb quraşdırılması, proqram təminatının lokallaşdırılması, internetə çıxışın təmin edilməsi və xüsusi tədris-təlim proqramlarının hazırlanması başlıca vəzifələr olmuşdur.

Audiokitabxanaların hazırlanması, təlim mərkəzlərinin yaradılması, kitabxana fondunun audioformata çevrilməsi üçün səsyazma studiyasının qurulması, bu studiyanın yardımı ilə mövcud kitabxanalarda Brayl şriftli və audiokitabların bərpası, internetə çıxış, informasiya texnologiya əsaslı təlim kursları, internetdə informasiyanın tapılması, əldə edilməsi kimi xidmətləri təmin edən kompyuter mərkəzinin yaradılması, təlim kurslarında dərs deyən müəllimlərin, təlimçilərin hazırlığı üçüncü mərhələdə həyata keçirilmiş, bu layihə də Heydər Əliyev Fondunun gördüyü digər işlər kimi Azərbaycan cəmiyyəti və beynəlxalq ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Fond Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə də bir sıra layihələr həyata keçirir. 2005-ci ildə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı Azərbaycan, ingilis və rus dillərində iki internet-portalı yaradılmışdır. Portalda ulu öndərin müxtəlif nitqləri, kütləvi informasiya vasitələrinə müsahibələri toplanıb.

Heydər Əliyev Fondu ingilis dilində «Qarabağ həqiqətləri» toplusunu da buraxıb. Bu nəşr fransız, alman, ərəb və rus dillərində hazırlanan və «Qarabağın tarixi haqqında məlumat», «Qarabağ münaqişəsinin başlanması», «Xocalı soyqırımı», «Azərbaycana qarşı erməni təcavüzünün nəticələri», «Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti» adları altında nəşr olunan bukletlərdən ibarətdir.

Yaradıldığı ilk gündən Azərbaycanın firavan gələcəyi naminə, Azərbaycan xalqının bu günü və xoşbəxt sabahı naminə fəaliyyət göstərəcəyini, cəmiyyətimizin ən aktual, ən vacib problemlərini diqqət mərkəzində saxlayacağını bəyan edən Heydər Əliyev Fondunun bu amala sadiqliyi qurumun Dağlıq Qarabağ probleminə münasibətində də üzə çıxır. Bu gün Azərbaycanın ən böyük, ən ağrılı problemi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Ölkəmizin qarşısında duran ən mühüm məsələ budur. Min il öncə olduğu kimi, bu gün də hər bir millətin qarşılaşa biləcəyi ən böyük haqsızlıq, ən böyük faciə təcavüz və torpağının işğalıdır. Azərbaycan xalqı artıq 17 ildir ki, belə bir haqsızlıqla üzləşib. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilib. Birinci Qarabağ müharibəsində 20 mindən artıq insan həlak olub. 50 mindən çox adam yaralanıb və əlilə çevrilib. 1 milyondan artıq insan öz doğma torpağından didərgin düşərək, qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Azərbaycanlılar ermənilər tərəfindən soyqırıma və etnik təmizləmə siyasətinə məruz qalıblar. 1 milyondan çox soydaşımızın insan hüquqları tapdanıb. Ümumilikdə, bəşəriyyətə qarşı tarixi cinayət olan Xocalı soyqırımı təkcə Azərbaycanın deyil, bütövlükdə dünya-nın XX əsr tarixinin ən ağır faciəsidir.

Bütün bu reallıqlar, həqiqətlər bizim ən ağır problemimizdir və biz artıq bu reallıqlarla, bu həqiqətlərlə XXI əsrə qədəm qoymuşuq. Bütün bu həqiqətləri, bütün bu hadisələri, faktları, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəb və nəticələrini beynəlxalq ictimaiyyətə çatdırmaq, informasiya blokadasını yarmaq, on illərdir erməni diasporu tərəfindən yayılan yalan və uydurmaların qarşısını almaq Heydər Əliyev siyasətinin ayrılmaz bir hissəsi idi. Heydər Əliyev hər bir xarici səfərinə Azərbaycanın xəritəsini də aparardı. Keçirdiyi görüşlər zamanı rastlaşdığı insanlara əsl həqiqətləri, faktları çatdırır və bunu hər bir azərbaycanlıya tövsiyə edirdi.

Azərbaycan Prezidenti cənab İlham Əliyev 2005-ci ildə Milli Elmlər Akademiyasının 60 illik yubileyinə həsr olunmuş toplantıdakı çıxışında demişdir ki, Qarabağ mövzusunda çoxsaylı elmi işlər yaradılmalı, kitablar yazılmalı, müxtəlif dillərə tərcümə edilib dünyaya yayılmalıdır. Heydər Əliyev Fondu da ulu öndərimizin ideyalarına sadiq qalaraq, bu işi davam etdirməyi özünə mənəvi borc bilmiş, bu istiqamətdə əhəmiyyətli addımlardan biri kimi «Qarabağ həqiqətləri» layihəsini həyata keçirmişdir.

İdeoloji işin ardıcıl, intensiv və zamanın tələblərinə cavab verən fəaliyyət tələb etdiyini xüsusi vurğulamağa bəlkə də lüzum yoxdur. Müasir dünyada böyük həcmli kitablara marağın azaldığını nəzərə alaraq, Fond daha qısa formata üstünlük verməklə adıçəkilən toplunu beş buklet formasında hazırlamışdır. Bunlarda Qarabağın tarixi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanması, onun nəticəsində ölkəmizə vurulan ziyan, Xocalı soyqırımı və ermənilərin törətdiyi terror aktları haqqında çox dəqiq məlumat toplanıb. Bukletləri əldə edən hər kəs çox az vaxt sərf etməklə ədalətli və düzgün faktlara əsaslanan məlumat əldə edə bilir. «Qarabağ həqiqətləri» silsiləsi Xocalı soyqırımının ildönümləri ərəfəsində dünyanın ən müxtəlif ölkələrində təşkil edilən kütləvi tədbirlər zamanı Azərbaycanın haqq sözünü bütün dünya ictimaiyyətinə çatdırmaq üçün effektiv bir vasitəyə çevrilmiş oldu.

Heydər Əliyev Fondunun Azərbaycan Milli Akademiyasının İnsan Hüquqları İnstitutunun mütəxəssisləri ilə birgə hazırladığı «Pirlər və müharibə» kitabında da Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli və digər rayonlarında düşmən tapdağı altında qalan ziyarətgahlar, dağıdılmış tarixi memarlıq abidələri, pirlər haqqında ətraflı məlumatlar öz əksini tapıb.

2005-ci ildən başlayaraq Fond bir sıra xarici nəşrlərin Azərbaycan dilinə tərcüməsi üzərində də işlər aparır. Orduda xidmət edən gənclərimizin hərbi hazırlığına və maarifləndirilməsinə töhfə olaraq, «Hərbçinin qeyd-yaddaş kitabçası» və «Hərbi and» qəzeti nəşrə başlamışdır.

Son illərdə əsası qoyulan irimiqyaslı layihələrdən biri də Heydər Əliyev Fondunda Azərbaycan Regional Muzeyinin yaradılmasından ibarətdir. Layihə ilə bağlı Böyük Britaniyanın SMA Design şirkəti ilə birgə yerli mütəxəssislərdən ibarət işçi qrupu yaradılıb. Məqsəd Azərbaycanın müxtəlif bölgələrinin özəlliklərini – tarixi keçmişini, sosial-iqtisadi vəziyyətini, flora və faunasını, mədəni-dini abidələrini, təsərrüfat həyatını, yerli adət-ənənələrini, etnik qruplarını əks etdirməklə yanaşı, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində bu regionların inkişafı üçün görülmüş işləri, nəsillərə miras qalmış zəngin irsin təbliğindən ibarətdir. Ölkəmizə səfəri əsnasında Fondu ziyarət edən hər bir qonaq bu muzeyə baş çəkməklə Azərbaycanın müxtəlif region-

larının tarixi, mədəniyyəti, sərvətləri, iqtisadiyyatı barədə doğru məlumatlar əldə edə bilir.

Bütün bu layihələrlə yanaşı, Heydər Əliyev Fondu ölkəmizdə sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində də geniş tədbirlər həyata keçirir. Fondun təşəbbüsü ilə yeni avtomobil yolları çəkilib. Ayrı-ayrı yaşayış məntəqələrində elektrik təchizatı yaxşılaşdırılıb. Kanalizasiya sistemi yenidən qurulub. Su boruları təzələnib.

Qaçqın və məcburi köçkünlərin sosial problemləri Fondun xüsusi diqqət mərkəzindədir. Mehriban xanım Əliyeva onların problemlərini həssaslıqla duyur və imkan daxilində maddi və mənəvi yardımlarla onlara təsəlli verməyə çalışır. Xarici mətbuata müsahibələrinin birində Xoşməramlı səfir qaçqın və məcburi köçkünlərimizin ağır vəziyyətindən söhbət açmış, onların ilk növbədə köməyə və həyanlığa ehtiyacının olduğunu vurğulamışdır: «Görəydiniz ki, hər bir nümayəndə heyətini necə ümidlə qarşılayırlar. Düşünürlər ki, bəlkə bunlar doğma yerlərə qayıtmaqda nə iləsə kömək edəcəklər. Çox vaxt isə onları narahat edən problemləri, sadəcə, kiməsə danışaraq ürəklərini boşaltmağa ehtiyac duyurlar. Bu elə bir problemdir ki, hətta hər şey nizama salındıqdan sonra belə onu unutmaq çətin olacaqdır. Mən inanıram ki, həqiqət zəfər çalacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Dağlıq Qarabağ münaqişəsi, ilk növbədə, görünməmiş humanitar fəlakətdir. Bir milyon qaçqın-köçkünün hər birinin öz şəxsi faciəsi var. ...Bəli, biz bu gün Azərbaycan dövlətinin və Azərbaycan cəmiyyətinin imkanı çatan hər şeyi edirik. Neft Fondundan ilk vəsait məhz qaçqın-köçkünlər üçün şəhərciklərin tikintisinə və onların çadır düşərgələrindən köçürülməsinə xərclənmişdir. Onlarla ünsiyyət zamanı bu insanların hədsiz dözümlülüyü və elə bir o qədər də hədsiz inamı adamı heyrətə gətirir. Onlar ədalətin zəfər çalacağına, işğal olunmuş torpaqların azad ediləcəyinə və yenidən ev-eşik sahibi olacaqlarına inanırlar».

Ulu öndər Heydər Əliyevin müharibə və əmək veteranlarına göstərdiyi böyük diqqət və qayğıya sadiq qalaraq Fondda müharibə veteranları ilə də səmimi görüş keçirilmişdir. Həmçinin dahi bəstəkarımız Üzeyir Hacıbəyovun 120, akademik Yusif Məmmədəliyevin 100 illik yubileyləri qeyd olunmuş, dünya şöhrətli sənətçilər Mstislav Rostropoviçin və onun

həyat yoldaşı Qalina Vişnevskayanın 50 illik birgə ömür yoluna, fəaliyyətinə həsr edilmiş albom və disklər buraxılmış, görkəmli bəstəkar D.Şostakoviçin 100 illiyinə həsr olunmuş festival təşkil edilmişdir.

Heydər Əliyev Fondunda Rusiyanın «Puşkin kitabxanası» Fondundan kitabların hədiyyə edilməsi mərasimi də ölkə həyatında baş vermiş ən əhəmiyyətli mədəniyyət hadisələrindən biri idi. Mərasimdə Mehriban xanım Əliyeva son illər bir sıra ölkələr kimi Azərbaycan üçün də müstəsna aktuallıq kəsb edən bir məsələyə toxunmuş, Sovet İttifaqı dağıldıqdan sonra postsovet məkanında özünü göstərməyə başlayan kitab aclığı problemini gündəmə gətirmişdir. **«Kitab nəşrinin dirçəldilməsi bir tərəfdən kitabların xeyli bahalaşması ilə, digər tərəfdən isə belə bir narahatlıqla müşayiət edilirdi ki, bundan sonra biz ancaq detektivləri, eşq-məhəbbət romanlarını, kulinariya kitablarını və qoroskopları oxumağa məhkumuq»** – deyən Mehriban xanım xoşbəxtlikdən, cəmiyyətdə bu çox dərin böhranı aradan qaldırmağa qadir qüvvələr tapıldığını və Heydər Əliyev Fondunda keçirilmiş sərginin də buna əyani sübut olduğunu bildirmişdir.

Onun fikrincə, əsl ədəbiyyat, həqiqi bədii və elmi ədəbiyyatdır ki, onsuz nəinki təhsil və elmi, həm də, ümumən, cəmiyyəti təsəvvür etmək belə çətindir. Bu sırada dərsliklərin xüsusi yeri var. Aydındır ki, müstəqil dövlətlərdəki yeni ictimai-siyasi şəraitdə dərsliklərin tamamilə yeni növünü yaratmaq məsələsi qarşıya çıxmışdır. Rusiyada «Puşkin kitabxanası» bu proqramın işlənib hazırlanmasını fəal dəstəkləyən və onda iştirak edən bir neçə qurumdan biri olmuşdur. Puşkin kitabxanasının hədiyyəsi olan kitabların 800-dən çoxu də məhz dərslikdir.

Mehriban xanım Azərbaycanın bütün postsovet məkanında istər orta, istərsə də ali məktəbdə rus dilində təhsilin belə böyük həcmdə qorunub saxlandığı yeganə ölkə olduğunu xüsusi vurğulamış, eyni zamanda əlavə etmişdir ki, bəzi həmsərhəd respublikalardan fərqli olaraq, bu təhsil Azərbaycan Respublikasının büdcəsindən maliyyələşdirilir. Ölkəmizdə artıq uzun müddətdir fəaliyyət göstərən Slavyan Universitetində, əslində, bütün slavyan dilləri üzrə mütəxəssislər hazırlayırlar. Bu gün hər birimiz fəxr edirik ki, böyük rus ədəbiyyatının mədəni məkanını saxlamağa müvəffəq olmuşuq. Şübhəsiz, bu, Azərbaycanla Rusiya arasında mədəni körpüdür.

Heydər Əliyev Fondu respublikamızın ali məktəblərinə müxtəlif elm sahələrinə aid Rusiyada yüksək poliqrafik səviyyədə çap olunmuş 4 mindən çox kitab hədiyyə etmiş ki, bu da ümummilli lider, ulu öndər Heydər Əliyevin ölməz ruhuna böyük ehtiramın sübutudur.

Qloballaşma dövründə, informasiya cəmiyyətinin bərqərar olduğu müasir internet əsrində digər ölkələrlə elmi-mədəni əməkdaşlığın, ümumbəşəri nailiyyətlərin öyrənilməsinin rolu mühümdür. Bu baxımdan Rusiyanın tanınmış alimlərinin yazdıqları elmi-nəzəri əsərlərin, dərsliklərin Azərbaycana gətirilib təmənnasız olaraq ali məktəblərə paylanılması son dərəcə mühüm əhəmiyyət daşıyır.

Bakıda Vaşinqton Akademiyası ilə birlikdə «Orta əsr əlyazmalarında tibb və əczaçılıq» mövzusunda 1-ci beynəlxalq konfransın, Latın Mədəniyyət Akademiyası ilə birlikdə «Avrasiyada mədəniyyət müxtəlifliyi: Azərbaycan – sivilizasiyalararası dialoqun keçmişi və bu günü» mövzusunda XIII beynəlxalq konfransın keçirilməsi də Heydər Əliyev Fondunun sivilizasiyalararası dialoqa xidmətinin, dünya şöhrətli alimlərin dəvət olunduğu bu cür möhtəşəm tədbirlər vasitəsilə Azərbaycan reallıqlarının dünyaya obyektiv çatdırılması məramının tərkib hissəsidir.

Təhsil, mədəniyyət sahəsində əməkdaşlıq əlaqələrinin inkişafı Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın 2006-cı ilin dekabrında ABŞ-a səfəri zamanı da diqqət mərkəzində dayanan ən əsas məsələlərdən olmuşdur. Mehriban xanım Əliyeva səfər zamanı Ağ evdə ABŞ-ın birinci xanımı Loura Buş ilə görüşmüş, səmimi şəraitdə keçən söhbətdə hər iki ölkənin birinci xanımı Azərbaycan–ABŞ münasibətlərinin möhkəmləndirilməsində təhsil, səhiyyə, mədəniyyət sahələrinin rolundan danışmışdır. Mehriban xanım Əliyeva və Loura Buş bu sahələrdə öz ölkələrində həyata keçirilən proqram və layihələr barədə bir-birilərinə məlumat vermişlər. Azərbaycanda Heydər Əliyev Fondu tərəfindən təhsil sahəsində həyata keçirilən layihələr ABŞ-ın birinci xanımında xüsusi maraq doğurmuşdur. Görüşdə vurğulanmışdır ki, hər iki ölkənin gələcəyi baxımından təhsil sahəsinə yönəldilən sərmayə ən dəyərlisidir. Bu sahədə birgə səylərin görülməsinin əhəmiyyəti barədə də söhbət açılmışdır.

Səfər çərçivəsində Mehriban xanım Əliyeva ABŞ senatoru Key Beyli Hatçinson və Konqresin üzvü Şila Sikula Qibs ilə görüşmüş, Heydər Əliyev Fondu və senator Hatçinsonun həmsədri olduğu «Vital Voice» qeyri-hökumət humanitar təşkilatı arasında əməkdaşlığa dair memorandum imzalanmışdır.

Mehriban xanım Əliyevanın səfər zamanı Azərbaycanın ABŞ-dakı səfirliyində Amerikanın müxtəlif ştatlarında təhsil alan azərbaycanlı tələbələrlə görüşü bu baxımdan xüsusilə maraq doğurur. Heydər Əliyev Fondunun fəaliyyətində təhsil layihələrinin prioritet yer tutduğunu qeyd edən Mehriban xanım Əliyeva Fondun bu istiqamətdə apardığı konkret işlərdən danışmışdır. O, Prezident İlham Əliyev tərəfindən imzalanmış Fərmanın Azərbaycanın istedadlı tələbələrinin xarici ölkələrdə təhsil almasına geniş imkanlar açacağını bildirmişdir. Azərbaycanın birinci xanımı tələbələri, ABŞ-da təhsillərini bitirdikdən sonra Vətənə qayıdıb biliklərini ölkənin inkişafı naminə sərf etməyə çağırmışdır.

Mehriban xanım Əliyeva Corc Buş Prezident Kitabxanası Fondunun rəhbəri, ABŞ-ın Milli təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri, general Brent Skoukroftla da görüşmüş, söhbət zamanı Heydər Əliyev Fondu ilə Corc Buş Prezident Kitabxanası Fondu arasında əməkdaşlığın perspektivləri və birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə edilmişdir.

Azərbaycanın birinci xanımı Vaşinqtonun nüfuzlu təhlil və tədqiqat mərkəzlərinin, universitetlərinin nümayəndələri ilə də görüşlər keçirmişdir. Bu görüşlərdə ABŞ-ın tanınmış alim və ictimai xadimləri, o cümlədən Syuzan Eyzenhauer, Frederik Star, Svanta Kornel, Ancela Stend, Ceyms Beyker, Rob Sobhani, Roald Saqdeyev, Ariel Koen iştirak etmişlər. ABŞ–Azərbaycan münasibətlərinin inkişafını yaxından izləyən alimlər Azərbaycanın hazırkı mərhələsinə dair öz mülahizələrini söyləmiş və bu münasibətlərin dinamikasına yeni ahəng vermək üçün fikirlərini bildirmişlər.

Səfər zamanı Mehriban Əliyeva həmçinin «Volter Rid» adına hərbi tibb mərkəzində və VaşinqtondakıToxuculuq muzeyində olmuşdur. Toxuculuq muzeyində Azərbaycan xalçaçılıq muzeyi ilə uğurla həyata keçirilən layihələr barədə Azərbaycanın birinci xanımına məlumat verilmişdir.

Heydər Əliyev Fondunun prezidenti ABŞ–Azərbaycan Ticarət Palatası nəzdində olan Azərbaycan Ticarət və Mədəniyyət Mərkəzində Amerikada yaşayıb fəaliyyət göstərən azərbaycanlı və amerikalı incəsənət xadimləri ilə də görüşmüşdür. Azərbaycan ilə ABŞ arasında münasibətlərin yüksək səviyyəsindən danışan Mehriban Əliyeva vurğulamışdır ki, zəngin mədəni irsimizin Amerikada tanıdılmasına dair layihələrin həyata keçirilməsinə ehtiyac var. Azərbaycanın birinci xanımı bu işdə ABŞ-da yaşayan azərbaycanlı incəsənət xadimlərinin dəstəyinin vacib olduğunu bildirmişdir.

ABŞ–Azərbaycan Ticarət Palatasının onun səfəri münasibətilə təşkil etdiyi təntənəli toplantıda isə Mehriban xanım Əliyeva Azərbaycanda təhsilə verilən önəmdən danışmışdır: «Bu gün biz gənclərimizin təhsilinə xüsusi diqqət yetiririk. Son üç il ərzində 735 orta məktəb binası tikilmişdir. Azərbaycan Prezidenti gənc istedadlı azərbaycanlıların xaricdə təhsil alması üçün tələbə təqaüdlərinin artırılması ilə bağlı «Dövlət proqramı haqqında» Fərman imzalamışdır. Bu, hökumətin neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna sərf edilməsi strategiyasının bir hissəsidir. Hesab edirəm ki, təhsilimizə, gələcəyimizə və yeni nəsillərə sərmayə qoymaq ən münasib sərmayə formasıdır». Mehriban xanım əmin olduğunu bildirmişdir ki, tələbələrin böyük hissəsi təhsil üçün Amerikaya gələcəkdir.

O, həmçinin Azərbaycanı Amerika ilə birləşdirən ortaq dəyərlər haqqında söhbət açmış və bildirmişdir: «Azərbaycan olduqca zəngin mədəni irsə və ənənələrə malik qədim diyardır. Uzun əsrlər boyu ölkəmiz Qərblə Şərq arasında körpü olmuşdur. Biz öz müxtəlifliyimizdən fərəhlənirik. Bu gün bizim çoxmilli və çoxdinli cəmiyyətimiz var və burada müsəlmanlar, xristianlar, yəhudilər və digər dinlərin nümayəndələri yan-yana, anlaşma şəraitində bir ailədəki kimi yaşayırlar. Biz dözümlülük, ləyaqət, digər mədəniyyətlərə hörmət, ailəyə sadiqlik, uşaq və yaşlılara qayğı kimi dəyərlərimizi vacib hesab edirik. Bütün bu dəyərlər həmçinin Amerikanın da dəyərləridir. Ona görə də hesab edirəm ki, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq bizim ümumi uğurumuz üçün olduqca vacibdir. Dialoq vasitəsilə biz bir çox işlər görə və bir-birimizi daha yaxşı başa düşə bilərik və nəhayət, uzun müddətli əlaqələrimizi qura bilərik».

Səfər zamanı Azərbaycanın birinci xanımına ABŞ-Azərbaycan Ticarət Palatasının «2006-cı ilin Xoşməramlı səfiri» mükafatı təqdim edilmiş, Mehriban xanım bu mükafatla mədəniyyət, təhsil, xeyriyyəçilik sahəsindəki xidmətlərinə görə təltif olunmuşdur.

Bu gün Heydər Əliyev Fondu bir sıra dövlət strukturlarından müraciətlərinə cavab ala, problemlərinin həllinə nail ola bilməyən Azərbaycan vətəndaşlarının sonuncu pənahına, xeyirxahlığın və mərhəmətin ali ünvanına çevrilmişdir. Fond bu ictimai quruma üz tutan hər bir insanın müraciətinə böyük diqqətlə yanaşır. Heydər Əliyev Fonduna ən müxtəlif məsələlərlə bağlı məktub göndərən insanlar minlərlədir. Bəs o insanların problemlərinə həssas münasibəti, Fonda üz tutan hər bir vətəndaşa mövcud imkanlar daxilində kömək əlinin uzadılmasını, bu misilsiz mərhəmət, xeyirxahlıq nümunəsini hansı həyat kredosu, hansı prinsiplər diqtə edir? Düşünürük ki, bu sualın ən dolğun cavabı Mehriban xanım Əliyevanın bu fikirlərində əks olunmuşdur: **«İndi biz elə bir dünyada yaşayırıq ki, ətrafda diqqət yetirilməsi və düzgün dərk olunması tələb edilən problem və məsələlər lap çoxdur. Biz bugünkü gündən danışdıqda «qloballaşma», «inteqrasiya», «elmi-texniki tərəqqi», «yüksək texnologiyalar» kimi sözləri daha tez-tez eşidirik və siz mənimlə razılaşarsınız ki, bu sözlər həqiqi insanpərvərlik, mərhəmət, xeyirxahlıq, mənəviyyat kimi anlayışlardan daha tez-tez səslənir. Biz bu ümumbəşəri və əbədi dəyərləri ikinci sıraya keçirmirikmi? Xeyriyyəçilik missiyası bu gün həmişəkindən daha vacibdir. Vaxt vardı, Azərbaycanda xeyriyyəçilik ümummilli ideya, ümummilli miqyaslı iş idi. Bu gün mən iftixarla deyə bilərəm ki, siz bu ənənənin dirçəlməsinin şahidisiniz. Bizim təcrübəmiz, Fondumuzun təcrübəsi göstərdi ki, ölkəmizdə çağırışa hay verməyə, təmənnasız yardım göstərməyə, kömək əli uzatmağa hazır olan insanlar çox-çoxdur. Yaxşılıq yaxşılıq doğurur, yəqin ki, bu, Fondumuzun, fəaliyyətimizin əsas xidmətidir».**

Azərbaycan xalqının ölkənin birinci xanımına olan böyük rəğbət və ehtiramının sirri də elə bundadır. Başqalarına yaxşılığı, mərhəmət hislərini ömrü boyu özü üçün ümdə anlayışlara, ən ülvi insani keyfiyyətlərə çevirən Mehriban Əliyevanın yüksək humanizmi, insanlara məhəbbəti ona böyük xalq sevgisi qazandırmışdır. Əlbəttə, onun Azərbaycan xalqı, ümumilikdə bəşəriyyət üçün etdiklərinin gözə çarpdırılmaması, xeyirxahlıq missiyasının

arxasında həm də təmənnasızlıq prinsipi dayanan xoşməramlı səfir üçün daha arzuedilən olardı. Çünki «**etmək istədiyin yaxşılıqları heç vəchlə gözə çarpdırmaq olmaz**» düşüncəsi onun əsas həyat amalıdır. Lakin Mehriban xanım indi özünün də söylədiyi kimi belə bir imkandan müsbət mənada məhrumdur. O, birinci xanım statusunda elə bir xeyriyyə aksiyası keçirə bilmir ki, bu ictimaiyyətin diqqətini cəlb etməsin: «**Bu, kütləvilik amili məni sıxsa da, yaşayışıma bəzi yeniliklər gətirir və mən bunu olduğu kimi qəbul edirəm. Bu isə özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur**».

Azərbaycan xalqı ölkənin birinci xanımının həyata keçirdiyi xeyriyyə aksiyalarını, reallaşdırdığı mədəni-sosial yönümlü layihələri diqqətlə izləyir, onun xeyirxah missiyasını təqdir edir və Mehriban xanım Əliyevanın şəxsiyyətinə böyük xalq rəğbəti bir çox hallarda konkret reytinq göstəricilərində öz ifadəsini tapır.

Mehriban xanım özünün fəaliyyət konsepsiyasını belə şərh etmişdir: «**Bu gün biz müasir texnika, yüksək texnologiya və qloballaşma dövründə yaşayırıq. Fikrimcə, zəmanənin ən böyük təzadlarından biri ondan ibarətdir ki, əldə edilən tərəqqi, kommunikasiya imkanları insanların birləşməsinə, daha sıx ünsiyyət qurmasına şərait yaratsa da, gerçək həyatda biganəlik, insanlar arasında uçurum artır. Bəzən nəinki bəşəriyyətin səsini eşitmirik, hətta qonşu qonşunu eşitmir, qardaş qardaşa kömək əlini uzatmaq istəmir. Bu gün bütün dünyanın qarşılaşdığı ən ağrılı problemlərdən biri mənəvi idealların ucuzlaşması, onların saxta ideallarla əvəz edilməsidir. Bəzən cəmiyyətdə insan elə bir vəziyyətə düşür ki, bütün döydüyü qapılar onun üzünə bağlı qalır. O, öz dərdi ilə, öz problemi ilə təkbaşına qalır və ona elə gəlir ki, heç bir şey və heç kəs ona kömək edə bilməz. Bu halda o, üzünü bizim Fonda tutur. Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəliklə, nə soyuq münasibətlə rastlaşmaz və hökmən onun probleminin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və bu gün biz Heydər Əliyev Fondu olaraq, bu ənənələri davam etdirməyə çalışırıq».**

Hər bir insanın öz həyat fəlsəfəsinin olduğunu deyən Mehriban xanım Əliyevanın fikrincə, heç də vacib deyil ki, şəxs bu fəlsəfəni sözlərlə izah etsin. Bu həyat fəlsəfəsi istər-istəməz onun hərəkətlərində, əməllərində özünü büruzə verəcəkdir. Heydər Əliyev Fondunun da belə bir fəlsəfəsi vardır. Bu fəlsəfənin əsasında çox sadə bir ideya, əməl durur: insanlara yaxşılıq etmək. Hər bir insan nəinki çətin anlarında, həm də gündəlik həyatında özünə qarşı xoş münasibəti hiss etsə, bu, onun ömrünü başqa bir məna ilə doldurmağa qadirdir. Mehriban xanım hesab edir ki, xoş əməllərlə dünyada çox şeyi yaxşılığa doğru dəyişdirmək mümkündür.

Azərbaycan Respublikası regionlarının sosial iqtisadi inkişafı məqsədilə imzalanmış dövlət proqramlarının icrası vəziyyəti ilə tanış olmaq, yerli sakinlərlə birbaşa ünsiyyət quraraq mövcud problemlər barədə məlumatları ilkin mənbədən almaq üçün Azərbaycan regionlarına ardıcıl səfərləri özü üçün fəaliyyət üslubuna çevirmiş Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu səfərlərində diqqəti çəkən bir əsas məqam elə ondan ibarətdir ki, bütün səfərlərdə ölkənin birinci xanımı da cənab Prezidenti müşayiət edir.

Mehriban xanım Əliyeva ayrı-ayrı ucqar əyalətlərə səfərlər əsnasında məktəblərə, xəstəxanalara, uşaq təhsil-tərbiyə müəssisələrinə baş çəkir. Yerli sakinlərlə görüşüb onların problemlərini dinləyir. Həmin görüşlər zamanı diqqətə çatdırılan sosial-mədəni problemlər az sonra Heydər Əliyev Fondunun həyata keçirdiyi hər hansı proqramın tərkib elementinə çevrilir.

Azərbaycan xalqına, dövlətinə xidmət missiyası sanki bu ailənin bütün üzvlərinin taleyinə yazılmışdır. Bu vətənpərvər ailənin gənc nümayəndəsi, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun magistri, MDBMİ-nin Azərbaycanlı Gənclər Klubunun prezidenti Leyla xanım Əliyeva da eyni missiyanı uğurla davam etdirir.

Azərbaycan gənclərinin vətən mənafeləri ətrafında birləşərək öz gənclik enerjilərini milli mənafelərə sərf etməsində, gəncliyimizin xüsusilə diaspor quruculuğu işində aparıcı qüvvəyə çevrilməsində Leyla xanım Əliyevanın rolu böyükdür.

2006-cı il dekabrın 21-də Leyla xanımın təşəbbüsü ilə Moskvadakı «Forum holl»un şənliklər salonunda Dünya azərbaycanlılarının Həmrəyliyi günü münasibətilə keçirilən tədbir də bu istiqamətdə görülən işlərin tərkib hissəsidir.

Gənclər hərəkatının lideri Leyla Əliyeva tədbirin açılış nitqində milli birlik və həmrəylik gününün ölkəmiz üçün əhəmiyyətindən danışmış, hazırda dünyada 50 milyon azərbaycanlının yaşadığını, xaricdəki Azərbaycan diaspor təşkilatları ilə yaxşı münasibətlərin qurulduğunu diqqətə çatdırmışdır. Leyla Əliyeva xüsusi vurğulamışdır ki, dünya azərbaycanlılarının 2001-ci və 2006-cı ildə birinci və ikinci qurultayları keçirildikdən sonra bu münasibətlər daha möhkəm və intensiv olmuşdur, bütün dünyada azərbaycanlılar daha fəal əməkdaşlıq etməyə başlamışlar.

Leyla Əliyeva demişdir: «Zənnimcə, xalqlar arasında, həmvətənlər arasında, ölkələr və mədəniyyətlər arasında dialoq sülhün və firavanlığın qorunub saxlanması üçün çox mühüm vasitədir. Biz bir-birimizi daha yaxından tanımaqla, öz aramızda ünsiyyət yaratmaqla, bir-birimizə kömək etməklə, bir tərəfdən, millət kimi möhkəmlənərik, digər tərəfdən isə, dünyaya müasir Azərbaycanı daha çox tanıda və onun haqqında daha çox məlumat verə bilərik».

O, gecənin iştirakçılarını müasir Azərbaycanın nailiyyətləri ilə tanış edərək bildirmişdir ki, indi Vətənimiz iqtisadiyyatı sürətlə inkişafda olan, təhsil, mədəniyyət və elm sahəsində sərmayələrin artırıldığı ölkədir, dövlət sosial problemlərə böyük diqqət yetirir. Leyla xanım Əliyeva Azərbaycanın bütün dünyada lider dövlət olduğunu demiş, bölgələrimizin inkişaf etdiyini, yeni sənaye obyektlərinin, xəstəxanaların, diaqnostika mərkəzlərinin, məktəb və uşaq bağçalarının tikildiyini, yolların çəkildiyini vurğulamış, son üç ildə 735 məktəbin tikildiyini, onların hər birinin öz kompyuter sinfinə və ən müasir avadanlığa malik oluğunu diqqətə çatdırmış, əlavə etmişdir ki, bütün bunlar neftdən əldə olunan gəlirlərin qeyri-neft sektorunda istifadə edilməsinə dair dövlət proqramının bir hissəsidir: «Məncə, təhsilə qoyulan sərmayələr ən sərfəli sərmayələrdir. Hər hansı digər ölkə kimi, Azərbaycanın da gələcəyi təhsilin, elm və müasir texnologiyaların uğurlu inkişafından asılıdır. İndi biz, MDBMİ-nin tələbələri, Vətənimizi Rusiyanın paytaxtı Moskvada təmsil edirik. MDBMİ-dəki Azərbaycanlılar klubu 60 tələbədən ibarətdir. Bizə dünyanın aparıcı ali məktəblərindən birində təhsil almaq imkanı qismət olmuşdur. Əminəm ki, biz bu elmi məktəbin çox böyük potensialından uğurla bəhrələnəcək və Vətənimizi layiqincə təmsil edəcəyik».

Gənclər hərəkatının lideri həmçinin bu gün Rusiya ilə Azərbaycanı möhkəm dostluq tellərinin bağladığını, Azərbaycanın postsovet məkanında rusdilli məktəblərin əvvəlki sayda saxlandığı dövlətdən biri olduğunu diqqətə çatdırmışdır. «Azərbaycanlılar bənzərsiz rus ədəbiyyatına, mədəniyyəti və incəsənətinə böyük hörmətlə yanaşırlar. Rusiyada Azərbaycan ilinin və Azərbaycanda Rusiya ilinin müvəffəqiyyətlə keçirilməsi bu dostluq münasibətlərinin daha bir təsdiqidir. Azərbaycan əsrlər boyu özünün tolerantlığı və müxtəlif xalqlara, dinlərə hörmətcil münasibətilə məşhur olmuşdur. Bu gün Azərbaycan çoxmilli və çoxdinli dövlətdir, burada müxtəlif millətlərin və dinlərin nümayəndələri bir ailə kimi sülh və həmrəylik şəraitində yaşayırlar. Əminəm ki, öz adət-ənənələrini və mədəniyyətini qiymətləndirən və onlara hörmət edən millət hər hansı digər dünya mədəniyyətini də qiymətləndirməli və ona hörmətlə yanaşmalıdır».

Leyla xanım Əliyeva bütün bunlara rəğmən müasir dünyada münaqişə ocaqlarının qaldığını təəssüf hissi ilə vurğulamış, burada insan tələfatı ilə yanaşı, dünya əhəmiyyətli mədəni və tarixi dəyərlərin də yer üzündən silindiyini bildirmiş, diqqəti Ermənistanın Azərbaycana hərbi təcavüzü faktına yönəltmişdir: «Bildiyiniz kimi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır. İşğalçılar bu ərazidə minlərlə tarix, mədəniyyət abidələrini və dini ocaqları məhv etmişlər. Ölkədə bir milyon qaçqın və məcburi köçkün var, onların bir hissəsi on ildən çoxdur çadırlarda və qaçqın düşərgələrində yaşayır. Bu, həm də çox böyük humanitar fəlakətdir. Odur ki, bütün azərbaycanlılar bu faktları və reallıqları dünya birliyinə çatdırmalıdırlar. Biz hamımız bu münaqişənin tezliklə və ədalətlə həll ediləcəyinə ümid bəsləyirik».

2007-ci il fevralın 25-də isə MDBMİ-nin Azərbaycanlı Gənclər Klubu və Rusiyanın Azərbaycanlı Gənclərinin Koordinasiya Şurası Moskvada Heydər Əliyev Fondunun dəstəyi ilə «Xocalısız 15 il» mövzusunda anım gecəsi keçirmişdir.

Matəm mərasiminin əvvəlində Azərbaycan Respublikasının himni səslənmiş, sonra Heydər Əliyev Fondunun Ermənistan–Azərbaycan münaqişəsi və Xocalı faciəsinin tarixi haqqında təqdim etdiyi sənədli film nümayiş etdirilmişdir.

MDBMİ-nin Azərbaycan klubunun prezidenti Leyla Əliyeva öz çıxışında bu faciənin tarixinə ekskurs etmiş, bildirmişdir, Ermənistan–Azərbaycan münaqişəsi artıq 15 ildir ki, davam edir və bunun nəticəsində Azərbaycanın 20 faiz ərazisi işğal altındadır, ölkəmizdə milyondan çox qaçqın və məcburi köçkün var, on minlərlə tarixi və memarlıq abidəsi məhv edilib.

«Hər bir müharibədə olduğu kimi, əvəzi olmayan ən böyük itki və böyük faciə insan qurbanlarıdır. 1992-ci il fevralın 26-sı, erməni təcavüzkarlarının Xocalı şəhərində azərbaycanlıları qəddarcasına məhv etdikləri gün, ən faciəvi və ağır anlardan biri kimi tariximizə daxil olub. Xocalıdakı qırğın xalqımız üçün ən ağır sınaq olub. O hər bir ailənin taleyindən keçdi, hamıya toxundu», – deyən Leyla xanım Əliyeva onu da vurğulayıb ki, bu faciəni qəddarlığı və kütləviliyinə görə bütün bəşəriyyətə qarşı törədilmiş ağır cinayətlərlə bir sıraya qoymaq olar. 15 il ötüb, lakin Azərbaycan heç vaxt bu qorxulu fevral gününü unutmayacaq. Həmin günün şahidləri hələ sağdırlar, bu dünya miqyaslı cinayəti təsdiq edən sənədlər, foto və videomateriallar var. «Heydər Əliyev Fondunun dəstəyi ilə keçirdiyimiz tədbirin məqsədi dünya ictimaiyyətinin bu soyqırım haqqında obyektiv şəkildə məlumatlandırılmasıdır, eləcə də bizim məqsədimiz belə faciənin təkrarlanmaması çağırışı ilə dünya ictimaiyyətinə müraciət etməkdən ibarətdir. Xocalıdakı hadisələr beynəlxalq hüquq normalarına və ikiqat standartlar siyasətinə riayət edilməmənin nəyə gətirib çıxardığını bir daha bütün bəşəriyyətə göstərdi. Bununla yanaşı, Xocalı dünyada bütün Azərbaycan xalqını birləşdirdi. Biz əminik ki, Ermənistan–Azərbaycan münaqişəsi ədalətli şəkildə həll olunacaq, Xocalı haqqında acı həqiqət isə öz hüquqi qiymətini alacaq. XXI əsrdə bəşəriyyət, nəhayət, zorakılıq və müharibələrdən ümumi dəyərlərə, həmrəyliyə, dözümlülüyə və hər bir insanın hüququna əsaslanmış yeni mədəniyyətə keçməlidir», – deyə MDBMİ-nin Azərbaycan klubunun prezidenti Leyla Əliyeva bildirmişdir.

Göründüyü kimi, şahidi olduğum Leyla xanım Əliyevanın fəaliyyətində, Heydər Əliyev Fondunun Rusiya nümuyəndəliyinin rəhbəri müxtəlif tədbirdə çıxışları zamanı irəli sürdüyü fikirlərdə ölkəmizin gələcəyi olan müasir Azərbaycan gənclərinin təfəkkürü əks olunub. Vətənimizin sabahı məhz bu gənclərin əli ilə qurulacaq.

Qeydlərimizin tamamında xəyalən orta məktəb illərinə qayıdıb, Azərbaycanda maarifçi nəslinin ilk qaranquşlarının taleyini əks etdirən ədəbi nümunələri yenidən xatırlayırıq . Düşüncələrimizdə Nəriman Nərimanovun Məhəmməd ağasının, Ömərinin, Nəcəf bəy Vəzirovun Fəxrəddininin, Əbdürrəhim bəy Haqverdiyevin Fərhadının və öz obrazlarında maarif çırağı yandıran onlarla digər belə ədəbi qəhrəmanın mənəvi heykəlləri ucalır.

Aradan cəmi bircə əsr keçib. O qədər böyük müddət deyil. Ən azı o dövrdə yaşamış insanlardan bəziləri bu gün bizimlə də eyni vaxtı bölüşürlər.

Amma bu bircə əsrdə Azərbaycan vətəndaşının təfəkküründə , həyat tərzində baş vermiş tərəqqinin yaşı yalnız minilliklərlə ölçülə bilər.

Bu, əsrin böyüklüyü deyil, bizimlə eyni əsrdə yaşayıb Azərbaycan xalqına, ümumilikdə bəşəriyyətə verdikləri mənəvi töhfələrlə əsri minilliklərə çevirmiş şəxsiyyətlərin ucalığıdır.

Biz də bu əsərlə məhz həmin ucalıqlara nəzər salmaq istədik.

Buna nə dərəcədə nail olduğumuzu isə hörmətli oxucu müəyyənləşdirəcək...



AZƏRBAYCAN MAARİFİNƏ – TƏHSİLİNƏ RƏHBƏRLİK EDƏNLƏR

Nəsib bəy Yusifbəyli
(28.05.1918–14.03.1919)

Azərbaycan Xalq Cümhuriyyətinin
I, II, III Hökumət Kabinetində
ilk maarif naziri



Rəşid xan Kaplanov
(14.03.1919–22.12.1919)

Azərbaycan Xalq Cümhuriyyətinin
IV Hökumət Kabinetində
maarif naziri



Həmid bəy Şaxtaxtinski
I dəfə (16.04.1919–16.05.1919)
II dəfə (24.12.1919–05.03.1920)

Azərbaycan Xalq Cümhuriyyətinin
V Hökumət Kabineti istefa verdikdən sonra
müvəqqəti maarif naziri



Nurməhəmməd bəy Şahsuvarov
I dəfə (11.06.1919–22.06.1919)
II dəfə (05.03.1920–30.03.1920)

Azərbaycan Xalq Cümhuriyyətinin
V Hökumət Kabineti istefa verdikdən sonra
müvəqqəti maarif naziri



Dadaş Bünyadzadə
(1920–1922)
Azərbaycan SSR-in maarif komissarı



Mustafa Quliyev
(1922–1927)
Maarif komissarı



Ruhulla Axundov
(1927–1930)
Maarif komissarı




Maqsud Məmmədov
(1930–1931)
Maarif komissarı



Ağa Sultanov
(1931–1933)
Maarif komissarı



Mahmud Ağayev
(1934)
Maarif komissarı




Məhəmməd Cuvarlinski
(Cuvarlı)
(1934–1935)
Maarif komissarı



Müseyib Şahbazov
(1935–1936)
Maarif komissarı



Ayna Sultanova
(1937)
Maarif komissarı



Məmmədsadıq Əfəndiyev
(1937)
Maarif komissarı




Mirzə Məmmədov
(1938–1942)
Maarif komissarı;

(1954–1959)
Maarif naziri



Mirzə İbrahimov
(1942–1946)
Maarif komissarı




Məmməd Ələkbərov
(Ələkbərli)
(1946–1952)
Maarif komissarı



Mehdi Mehdizadə
(1952–1959)
Maarif komissarı;

(1961–1980)
Maarif naziri



Rəhim Rəhimov
(1959–1961)
Maarif naziri



Elmira Qafarova
(1980–1983)
Maarif naziri



Kamran Rəhimov
(1983–1988)
Maarif naziri



Şirəli Məmmədov
(1959-1961)
Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri



Abdulla Qarayev
(1961–1963)
Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri



Züleyxa Hüseynova
(1963–1965)
Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri;

(1965–1970)
Ali və Orta İxtisas Təhsili naziri



Danil Quliyev
(1970–1971)
Ali və Orta İxtisas
Təhsili naziri



Qurban Əliyev
(1971–1987)
Ali və Orta İxtisas
Təhsili naziri



Ağalar Abbasov
(Abbasbəyli)
(1987–1988)
Ali və Orta İxtisas
Təhsili naziri



Ələkbər Ənnağıyev
(1959–1961)

Texniki Peşə Təhsili Komitəsinin sədri



Musa Ağayev
(1961-1964)

Texniki Peşə Təhsili Komitəsinin sədri;

(*Həsən Ağayev* 1964-1965-*ci illərdə sədr əvəzi*)



Tofiq Allahverdiyev
(1966–1982)

Texniki Peşə Təhsili Komitəsinin sədri;

(*Zülfüqar Abdullayev* 1982-1983-*cü illərdə sədr vəzifəsini icra edib*)



Heydər İsayev
(1983–1988)

Texniki Peşə Təhsili Komitəsinin sədri




Müslüm Məmmədov
(1988–1989)
Xalq təhsili naziri



Rafiq Feyzullayev
(1989–1992)
Xalq təhsili naziri



Firudin Cəlilov
(1992–1993)
Azərbaycan Respublikasının
Xalq təhsili naziri



Tofiq Hacıyev
(1993)
Xalq maarifi naziri



Lidiya Rəsulova
(1993–1997)
Təhsil naziri



Misir Mərdanov
1998
Təhsil naziri

ƏLAVƏLƏR

TƏHSİL SAHƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNLARI

Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında yüksək ixtisaslı elmi və elmi -pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında Saziş təsdiq edilsin.

2. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 8 *dekabr* 1998-*ci il*

Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında 1997-ci il noyabrın 27-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 8 *dekabr* 1998-*ci il*, *№* 579-1 *Q*

Azərbaycan Respublikasında Dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli -mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır.

Bu qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır.

I FƏSİL
ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Dövlət dilinin hüquqi statusu

1.1. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinin I hissəsinə müvafiq olaraq Azərbaycan dilidir. Dövlət dilini bilmək hər bir Azərbaycan Respublikası vətəndaşının borcudur.

1.2. Azərbaycan Respublikasının dövlət dili kimi Azərbaycan dili ölkənin siyasi, ictimai, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində işlədilir.

1.3. Azərbaycan Respublikası dövlət dilinin işlənməsini, qorunmasını və inkişafını təmin edir.

1.4. Azərbaycan Respublikasında dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında, dövlət qurumlarında, siyasi partiyalarda, qeyri -hökumət təşkilatlarında (ictimai birlik və fondlarda), həmkarlar təşkilatlarında, digər hüquqi şəxslərdə , onların nümayəndəliklərində və filiallarında, idarələrdə dövlət dilinin tətbiqi ilə bağlı fəaliyyət bu qanuna uyğun olaraq həyata keçirilir, o cümlədən kargüzarlıq işləri dövlət dilində aparılır.

1.5. Dövlət dilinin tətbiqinin normaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1.6. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla (və ya onların nümayəndəlikləri ilə) və xarici dövlətlərin diplomatik nümayəndəlikləri ilə yazışmalar Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq xarici dildə Azərbaycan dilinə tərcümə olunmaq şərtilə aparıla bilər.

Maddə 2. Azərbaycan Respublikasında dövlət dili haqqında qanunvericilik

Azərbaycan Respublikasında dövlət dili haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Maddə 3. Dövlət dilinin işlənməsi, qorunması və inkişafı sahəsində dövlətin əsas vəzifələri

3.0. Dövlət dilinin işlənməsi, qorunması və inkişafı sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:

3.0.1. Azərbaycan Respublikası Konstitusiyasının və bu Qanunun tələblərinə uyğun olaraq dövlət dili ilə bağlı hüquq qaydalarının müəyyənləşdirilməsi;

3.0.2. dövlət dilinin tətbiqi işinə, bu dilin işlənməsi və qorun-ması ilə bağlı qanunvericiliyin müddəalarına riayət olunmasının təmin edilməsi;

3.0.3. dövlət dilinin inkişaf proqramının hazırlanması və dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsinin təmin edilməsi;

3.0.4. dövlət dilinin saflığının qorunması, dilçilik elminin nəzəriyyəsi və praktikasının inkişafı üçün müvafiq şəraitin yaradılması və tədbirlərin həyata keçirilməsi;

3.0.5. dövlət dilinin işlənməsi üçün zəruri olan maddi bazanın yaradılması;

3.0.6. xarici ölkələrdə yaşayan azərbaycanlıların Azərbaycan dilində təhsil almalarına, bu dildən sərbəst istifadə etmələrinə köməklik göstərilməsi.

II FƏSİL
DÖVLƏT DİLİNİN İŞLƏNMƏSİ, QORUNMASI VƏ İNKİŞAFI

Maddə 4. Dövlət dilinin rəsmi mərasimlərdə işlənməsi

4.1. Azərbaycan Respublikasının dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, dövlət qurumlarının keçirdiyi bütün rəsmi mərasim və tədbirlər Azərbaycan Respublikasının dövlət dilində aparılır.

4.2. Bu qanunun 4.1-ci maddəsinin tələbləri Azərbaycan Respublikasının təşkil etdiyi beynəlxalq səviyyəli rəsmi mərasimlərə və tədbirlərə, habelə

müvafiq icra hakimiyyəti orqanları tərəfindən digər ölkələrdə keçirilən hər hansı mərasim və tədbirə şamil olunmur.

Maddə 5. Dövlət dilinin təhsil sahəsində işlənməsi

5.1. Azərbaycan Respublikasında təhsil dövlət dilində aparılır.

5.2. Azərbaycan Respublikasında başqa dillərdə təhsil müəssisələrinin fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir. Belə müəssisələrdə dövlət dilinin tədrisi məcburidir.

5.3. Azərbaycan Respublikasında ali və orta peşə-ixtisas təhsili müəssisələrinə qəbul zamanı Azərbaycan dili fənnindən imtahan verilməlidir.

Maddə 6. Dövlət dilinin televiziya və radio yayımlarında işlənməsi

6.1. Azərbaycan Respublikasının ərazisində təsis edilən və fəaliyyət göstərən mülkiyyət formasından asılı olmayaraq bütün televiziya və radio yayımları dövlət dilində aparılır.

6.2. Azərbaycan Respublikasının ərazisində təsis edilən və fəaliyyət göstərən mülkiyyət formasından asılı olmayaraq dövlət dilində yayımlanan bütün televiziya və radio kanallarının aparıcıları dövlət dilini mükəmməl bilməlidirlər və onların səlis danışıq qabiliyyəti olmalıdır. Televiziya və radio kanallarında dublyaj olunan filmlər və verilişlər dövlətin müəyyən etdiyi dil normalarına uyğun olmalıdır.

Maddə 7. Dövlət dilinin xidmət sahələrində, reklam və elanlarda işlənməsi

7.1. Azərbaycan Respublikası ərazisində bütün xidmət sahələrində, reklam və elanlarda dövlət dili işlənilir. Əcənbilərə xidmət göstərilməsi ilə bağlı müvafiq xidmət sahələrində dövlət dili ilə yanaşı, digər dillər də tətbiq oluna bilər. Zəruri hallarda reklam və elanlarda (lövhələrdə, tablolarda, plakatlarda və sair) dövlət dili ilə yanaşı, digər dillər də istifadə oluna bilər. Lakin onların tutduğu sahə Azərbaycan dilindəki qarşılığının tutduğu sahədən böyük olmamalı və Azərbaycan dilindəki yazıdan sonra gəlməlidir.

7.2. Azərbaycan Respublikasının ərazisində bütün xidmət sahələrində, reklam və elanlarda dövlət dili dövlət dilinin normalarına uyğun olaraq tətbiq edilməlidir.

7.3. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə ixrac edilən malların üzərindəki etiketlər və digər yazılar müvafiq xarici dillərlə yanaşı, dövlət dilində də olmalıdır.

7.4. Azərbaycan Respublikasına idxal edilən mal və məhsulların üzərindəki etiketlər və adlar, onlardan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərlə yanaşı, Azərbaycan dilinə tərcüməsi ilə müşayiət olunmalıdır.

Maddə 8. Dövlət dilinin xüsusi adlarda işlənməsi

Azərbaycan Respublikası vətəndaşlarının adları, atalarının adları və soyadları dövlət dilində yazılır. Azərbaycan Respublikası vətəndaşlarının adları və soyadlarının dəyişdirilməsi müvafiq qanunvericiliklə tənzimlənir.

Maddə 9. İnzibati ərazi bölgüsü ilə əlaqədar dövlət dilindən istifadə

«Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünü təşkil edən inzibati ərazi vahidlərinin – şəhər, rayon, inzibati ərazi dairəsi, qəsəbə və kəndlərin adları dövlət dilində yazılmalıdır, onların dövlət dilinin normalarına uyğun olaraq yazılışı müvafiq qurum tərəfindən müəyyənləşdirilir. Bu maddədə göstərilən inzibati ərazi vahidlərinin adları dövlət dili ilə yanaşı, xarici dillərdə də yazıla bilər. Belə olan halda inzibati ərazi vahidinin adı əvvəlcə dövlət dilində və ondan sonra xarici dildə verilməlidir.

Maddə 10. Coğrafi obyektlərin adlarında dövlət dilinin işlədilməsi

10.1. Azərbaycan Respublikasında coğrafi obyektlərin adlarının dövlət dilinin normalarına uyğun olaraq yazılışı müvafiq qurum tərəfindən müəyyənləşdirilir.

10.2. Azərbaycan coğrafi adlarının xarici dillərdə verilməsi Azərbaycan dilində səslənməsinə, coğrafi adların beynəlxalq yazılış qaydalarına uyğun olaraq müəyyən edilir.

Maddə 11. Dövlət dilinin hüquq-mühafizə orqanlarında, Silahlı Qüvvələrdə, notariat fəaliyyətində, məhkəmə icraatında və inzibati xətalar üzrə icraatda işlənməsi

11.1. Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarında Azərbaycan Respublikasının dövlət dili işlənir. Dövlət dilini bilməyən şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada tərcüməçidən istifadə edə bilərlər.

11.2. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, sərhəd qoşunlarında və daxili qoşunlarda qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, dövlət dili işlənilir.

11.3. Azərbaycan Respublikasının notariat fəaliyyəti üzrə kargüzarlıq dövlət dilində aparılır. «Notariat haqqında» Azərbaycan Respublikası Qanu-

nuna müvafiq olaraq notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxs dövlət dilini bilmirsə və ya notariat hərəkətinin hər hansı başqa dildə aparılmasını xahiş edirsə, notarius imkan daxilində tərəfindən rəsmiləşdirilən sənədlərin mətnlərini arzu edilən dildə tərtib edə bilər və ya mətn tərcüməçi tərəfindən ona tərcümə edilə bilər.

11.4. Azərbaycan Respublikası məhkəmələrində cinayət mühakimə icraatı dövlət dilində aparılır. Azərbaycan Respublikası Cinayət-Prosesual Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada məhkəmələrdə cinayət mühakimə icraatı digər dillərdə aparıla bilər.

11.5. Azərbaycan Respublikası məhkəmələrində mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatı dövlət dilində aparılır. Azərbaycan Respublikası Mülki-Prosesual Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada bütün növ məhkəmə icraatları digər dillərdə aparıla bilər.

11.6. Azərbaycan Respublikasında inzibati xətalar üzrə icraat dövlət dilində aparılır. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada inzibati xətalar üzrə icraat digər dillərdə aparıla bilər.

Maddə 12. Dövlət dilinin beynəlxalq yazışmalarda işlənməsi

12.1. Azərbaycan Respublikasının beynəlxalq yazışmaları dövlət dilində aparılır. Bu yazışmalar zəruri hallarda dövlət dili ilə yanaşı, müvafiq xarici dillərdən birində də aparıla bilər.

12.2. Azərbaycan Respublikasının ikitərəfli beynəlxalq müqavilələri dövlət dilində də, çoxtərəfli beynəlxalq müqavilələr isə müqavilə bağlayan tərəflərin razılığı ilə müəyyən edilən dildə (dillərdə) tərtib olunmalıdır.

12.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr (sazişlər və s.) və qoşulduğu beynəlxalq konvensiyalar (protokollar və s.) dövlət dilində nəşr edilməlidir.

Maddə 13. Dövlət dilinin normaları

13.1. Azərbaycan dilinin orfoqrafiya və orfoepiya normaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Hüquqi, fiziki və vəzifəli şəxslər həmin normalara əməl etməlidirlər.

13.2. Müvafiq icra hakimiyyəti orqanı 5 ildə bir dəfədən az olmayaraq yazı dili normalarını təsbit edən lüğətin (orfoqrafiya lüğətinin) nəşr olunmasını təmin edir.

Maddə 14. Dövlət dilinin əlifbası

Azərbaycan Respublikasının dövlət dilinin əlifbası latın qrafikalı Azərbaycan əlifbasıdır.

Maddə 15. Dövlət dilinin nəşriyyat işində işlənməsi

15.1. Dövlət dilinin nəşriyyat işində işlənməsi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən həyata keçirilir.

15.2. Azərbaycan Respublikasında dövlət dilində nəşr olunan çap məhsulları latın qrafikalı Azərbaycan əlifbasında buraxılmalıdır.

15.3. Azərbaycan yazı mədəniyyətinin tarixində mühüm rol oynamış ərəb və kiril əlifbalarından xüsusi hallarda (lüğətlərdə, elmi nəşrlərdə ədəbiyyat göstəricisi və s.) istifadə edilə bilər.

Maddə 16. Dövlət dilinin vətəndaşların şəxsiyyətini təsdiq edən rəsmi və vahid nümunəli sənədlərdə işlədilməsi

16.1. Azərbaycan Respublikası vətəndaşlarının doğum və nikah haqqında şəhadətnamələri, şəxsiyyət vəsiqəsi, əmək kitabçası, hərbi bileti və yalnız ölkə daxilində etibarlı sayılan digər rəsmi və vahid nümunəli sənədlər dövlət dilində tərtib edilir.

16.2. Azərbaycan Respublikası vətəndaşlarının pasport və təhsil haqqında sənədləri, zəruri hallarda digər sənədləri dövlət dili ilə yanaşı, xarici dillərdə də tərtib edilir.

Maddə 17. Dövlət dilinin dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, hüquqi şəxslərin, onların nümayəndəliklərinin və filiallarının, idarələrin adında işlədilməsi

Azərbaycan Respublikasının dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, hüquqi şəxslərin, onların nümayəndəliklərinin və filiallarının, idarələrin adları Azərbaycan dilinin normalarına uyğun olaraq yazılır. Göstərilən təşkilatların adını əks etdirən lövhələr, blanklar, möhürlər və kargüzarlıqla bağlı rəsmi xarakterli bütün digər ləvazimatlar dövlət dilində tərtib olunur.

Maddə 18. Dövlət dilinin qorunması və inkişafı

18.1. Azərbaycan Respublikasında dövlət dilinə qarşı gizli, yaxud açıq təbliğat aparmaq, bu dilin işlənməsinə müqavimət göstərmək, onun tarixən müəyyənləşmiş hüquqlarını məhdudlaşdırmağa cəhd etmək qadağandır.

18.2. Azərbaycan Respublikasının ərazisindəki bütün kütləvi informasiya vasitələri (mətbuat, televiziya, radio və s.) kitab nəşri və digər nəşriyyat işi ilə məşğul olan qurumlar Azərbaycan dilinin normalarına riayət olunmasını təmin etməlidirlər.

III FƏSİL
YEKUN MÜDDƏALARI

Maddə 19. Qanunun pozulmasına görə məsuliyyət

Bu qanunu pozan hüquqi, fiziki və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Maddə 20. Qanunun qüvvəyə minməsi

20.1. Bu qanun dərc olunduğu gündən qüvvəyə minir.

20.2. Bu qanun qüvvəyə mindiyi gündən «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikasının 22 dekabr 1992-ci il tarixli 413 nömrəli qanunu qüvvədən düşmüş hesab edilir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 sentyabr 2002-ci il

«Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında təhsil, elmi dərəcə və elmi adlar haqqında sənədlərin qarşılıqlı tanınması sahəsində əməkdaşlıq haqqında» Sazişin təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında təhsil, elmi dərəcə və elmi adlar haqqında sənədlərin qarşılıqlı tanınması sahəsində əməkdaşlıq haqqında» 2002-ci il sentyabrın 23-də Moskva şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 13 may 2003-cü il

«Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi və «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə» Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 22 dekabr tarixli 414 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995-ci il, N 23-24, maddə 368; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddələr 676, 683, 686; 2002-ci il, № 5, maddə

241; 2003-cü il, № 1, maddə 1) 13-cü maddəsinin 1-ci bəndinə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

«Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə ixrac edilən malların üzərindəki etiketlər və digər yazılar müvafiq xarici dillərlə yanaşı, dövlət dilində də olmalıdır. Azərbaycan Respublikasına idxal edilən mal və məhsulların üzərindəki etiketlər və adlar, onlardan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərlə yanaşı, Azərbaycan dilinə tərcüməsi ilə müşayiət olunmalıdır».

II. «Reklam haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 1, maddə 12; 1999-cu il, № 4, maddə 225; 2000-ci il, № 8 (III kitab), maddə 587; 2001-ci il, № 3, maddələr 142, 145, № 5, maddələr 295, 298, № 11, maddə 683) 6-cı maddəsinə aşağıdakı məzmunda 8-ci bənd əlavə edilsin:

«8. Azərbaycan Respublikasının ərazisində reklamda dövlət dili işlənilir və bu, dövlət dilinin normalarına uyğun olaraq tətbiq edilməlidir. Zəruri hallarda reklamda dövlət dili ilə yanaşı, digər dillər də istifadə oluna bilər. Lakin onların tutduğu sahə Azərbaycan dilindəki qarşılığının tutduğu sahədən böyük olmamalı və Azərbaycan dilindəki yazıdan sonra gəlməlidir».

III. «Geodeziya və kartoqrafiya haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №7, maddə 443) 8-ci maddəsinin 12-ci abzasında «coğrafi adların» sözlərindən sonra «dövlət dilinin normalarına uyğun olaraq» sözləri əlavə edilsin.

IV. «Yeyinti məhsulları haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 8; 2001-ci il, № 12, maddə 736; 2003-cü il, № 1, maddə 7) aşağıdakı dəyişikliklər edilsin:

a) 11-ci maddənin üçüncü hissəsindən «Azərbaycan dilində və (və ya) xarici dildə» sözləri çıxarılsın;

b) 11-ci maddənin dördüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

«Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə ixrac edilən malların üzərindəki etiketlər və digər yazılar müvafiq xarici dillərlə yanaşı, dövlət dilində də olmalıdır. Azərbaycan Respublikasına idxal edilən yeyinti məhsullarının üzərindəki etiketlər və adlar, onlardan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərlə yanaşı, Azərbaycan dilinə tərcüməsi ilə müşayiət olunmalıdır».

V. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, (I kitab), maddə 584, № 12, maddə 835; 2001-ci il, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002-ci il, № 1, maddə 9, № 4, (I kitab), maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003-cü il, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279; Azərbaycan Respublikasının 7 noyabr 2003-cü il tarixli 512-II QD nömrəli qanunu) 315-1-ci maddəsində «vəzifəli şəxslər sözlərindən əvvəl» «fiziki şəxslər şərti maliyyə vahidinin iyirmi mislindən qırx mislinədək miqdarda» sözləri əlavə edilsin.

VI. «Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 10, maddə 709) aşağıdakı məzmunda 9.9-cu maddə əlavə edilsin:

«9.9. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünü təşkil edən inzibati ərazi vahidlərinin adları dövlət dilində yazılmalıdır, onların dövlət dilinin normalarına uyğun olaraq yazılışı müvafiq qurum tərəfindən müəyyənləşdirilir. İnzibati ərazi vahidlərinin adları dövlət dili ilə yanaşı, xarici dillərdə də yazıla bilər. Belə olan halda inzibati ərazi vahidinin adı əvvəlcə dövlət dilində və ondan sonra xarici dildə verilməlidir».

VII. «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə» Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 22 dekabr tarixli 414 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

VIII. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 5 dekabr 2003-cü il

«Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. «Reklam haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 1, maddə 12; 1999-cu il, № 4, maddə 225; 2000-ci il, № 8 (III kitab), maddə 587; 2001-ci il, № 3, maddələr 142, 145, № 5, maddələr 295, 298, № 11, maddə 683; Azərbaycan Respublikasının 5 dekabr 2003-cü il tarixli 538-II QD nömrəli Qanunu) 17-ci maddəsinə aşağıdakı məzmunda 9-cu bənd əlavə edilsin:

«9. Körpələr və erkən yaşlı uşaqlar üçün süni qida məhsullarının reklamında aşağıdakı hallara yol verilmir:

– süni qida məhsullarında körpələrin təsvir olunmasına;

– qida formulları barədə məlumatların elmi və uşaqlara qayğı məsələləri üzrə ixtisaslaşmış nəşrlərdən başqa digər nəşrlərdə verilməsinə;

– süni qida məhsulları ilə bağlı reklam xarakterli materialların tibb müəssisələrində yayılmasına;

– süni qida məhsullarının reklamında süni qidalanmanın ana südünə bərabər və ya ondan üstün olması təsəvvürünün yaradılmasına və ya ana südünün üstünlüyünün qeyd olunmamasına;

– süni qida məhsulları ilə bağlı məlumatların hamilə qadınlar və analar arasında yayılmasına».

II. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8 (I kitab), maddə 584; 2001-ci il, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002-ci il, N 1, maddə 9, № 4 (I kitab), maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, №12, maddə 692; 2003-cü il, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425; Azərbaycan Respublikasının 2003-cü il 5 dekabr tarixli 536-II QD, 9 dekabr tarixli 556-II QD və 557-II QD nömrəli qanunları) aşağıdakı məzmunda 65-1-ci maddə əlavə edilsin:

«Maddə 65–1. Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında qanunvericiliyin pozulması

65–1.0. Süni qida məhsullarının istehsalçıları və distribütorları tərəfindən körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında qanunvericiliyin pozulmasına, yəni:

65–1.0.1. süni qida məhsullarının satış-sərgisinin və xüsusi nümayişinin reklam məqsədi ilə təşkil edilməsinə;

65–1.0.2. uşaqların qidalanması ilə bağlı elmi-tədqiqat işlərinin müvafiq icra hakimiyyəti orqanının müsbət rəyi olmadan maliyyələşdirilməsinə;

65–1.0.3. səhiyyə sistemi işçilərinin elmi və praktik konfranslarda, sessiyalarda, tibbi təhsil təcrübəsində iştirakına, tibb assosiasiyalarının fəaliyyətinə müvafiq icra hakimiyyəti orqanının müsbət rəyi olmadan sponsorluq edilməsinə görə – fiziki şəxslər şərti maliyyə vahidinin on beş mislindən iyirmi mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidinin qırx mislindən altmış mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidinin iki yüz mislindən iki yüz əlli mislinədək miqdarda cərimə edilir».

III. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 6 yanvar 2004-cü il

Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair» Konvensiyaya (onun müddəalarını tamamlayan 190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulmaq barəsində

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I.Azərbaycan Respublikası 1999-cu il iyunun 17-də Cenevrə şəhərində Beynəlxalq Əmək Təşkilatının Baş konfransı tərəfindən qəbul edilmiş «Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan

qaldırılması üçün təcili tədbirlərə dair» Konvensiyaya (onun müddəalarını tamamlayan 190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulsun.

II.Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 13 yanvar 2004-cü il

«Azərbaycan Respublikası hökuməti və Qazaxıstan Respublikası hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq haqqında» proqramın təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 1-də Qazaxıstan Respublikasının Astana şəhərində imzalanmış «Azərbaycan Respublikası hökuməti və Qazaxıstan Respublikası hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq haqqında» proqram təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 may 2004-cü il

«Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında» Konvensiyada iştirak edən dövlətlər arasında meydana çıxa bilən ixtilafları həll etmək üçün barışıq və xeyirxah xidmət komissiyasının təsis edilməsi haqqında protokolun təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır: I. «Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında» Konvensiyada iştirak edən dövlətlər arasında meydana çıxa bilən ixtilafları həll etmək üçün barışıq və xeyirxah xidmət komissiyasının təsis edilməsi haqqında»1962-ci il 10 dekabr tarixli protokol Azərbaycan Respublikasının ona dair bəyanatı ilə (bəyanatın mətni əlavə olunur) təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 2 oktyabr 2006-cı il

«Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında» Konvensiyanın təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. «Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında» 1960-cı il 14 dekabr tarixli Konvensiya Azərbaycan Respublikasının ona dair bəyanatı ilə (bəyanatın mətni əlavə olunur) təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 2 oktyabr 2006-cı il

«Türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə toplantısı Antalya bəyannaməsi»nin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2006-cı il noyabrın 17-də Antalya şəhərində imzalanmış «Türkdilli ölkələrin Dövlət Başçılarının VIII Zirvə Toplantısı Antalya Bəyannaməsi» təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 1 fevral 2007-ci il

«Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının ali təhsil nazirliyi arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında» memorandumun təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. «Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Ali Təhsil Nazirliyi arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında» 2007-ci il yanvarın 15-də Bakı şəhərində imzalanmış Memorandum təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 mart 2007-ci il

«Azərbaycan Respublikası hökuməti və Birləşmiş Ərəb Əmirlikləri hökuməti arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında» sazişin təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. «Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında» 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 aprel 2007-ci il

«Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq haqqında» 1995-ci il iyulun 2-də Buxarest şəhərində imzalanmış sazişə dəyişikliklər edilməsi barədə» əlavə protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının

Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. «Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq haqqında» 1995-ci il iyulun 2-də Buxarest şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə» 2006-cı il oktyabrın 11-də Bakı şəhərində imzalanmış Əlavə Protokol təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 aprel 2007-ci il

«Azərbaycan Respublikası hökuməti ilə Qazaxıstan Respublikası hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və elmi-texniki sahələrdə kooperasiyası haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının

Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. «Azərbaycan Respublikası hökuməti ilə Qazaxıstan Respublikası hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və elmi-texniki sahələrdə kooperasiyası haqqında» 2007-ci il avqustun 7-də Astana şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 oktyabr 2007-ci il

Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Bu qanun əhalinin ekoloji təhsili və maarifləndirilməsi ilə bağlı dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir, bu sahədə münasibətləri tənzimləyir

I FƏSİL
Ümumi müddəalar

Maddə 1. Əsas anlayışlar

1.0. Bu qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. Ekoloji təhsil – ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə normaların, xüsusi biliklərin, təcrübənin tədrisi və öyrənilməsi prosesi;

1.0.2. Ekoloji biliklər – ətraf mühitə, ekologiyaya, insan və təbiət arasında qarşılıqlı əlaqələrə dair məlumatlar;

1.0.3. Ekoloji maarifləndirmə – ekoloji mədəniyyətin formalaşmasına yönəldilmiş ekoloji bilik və təcrübənin yayılması;

1.0.4. Ekoloji mədəniyyət – əhalinin və ölkənin ekoloji təhlükəsizliyinə, insanın ətraf mühitlə qarşılıqlı əlaqəsinə dair bilik və təcrübənin məcmusu.

Maddə 2. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında qanunvericilik

Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu qanundan, təhsil və ətraf mühitin mühafizəsi ilə bağlı qanunlardan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən və digər müvafiq normativ hüquqi aktlardan ibarətdir.

Maddə 3. Qanunun təsir dairəsi

3.1. Bu qanunun təsir dairəsinə ekoloji təhsil prinsiplərini özündə əks etdirən və dövlət təhsil standartlarına uyğun fasiləsiz ekoloji təhsil və maarifləndirmə sistemi, həmçinin təhsil müəssisələrində ekoloji təhsilə aid informasiya məkanı daxildir.

3.2. Bu qanun ekoloji təhsil və maarifləndirmə sahəsində idarəetməni həyata keçirən dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına, təhsil müəssisələrinə, əhalinin maarifləndirilməsi ilə məşğul olan, həmçinin digər aidiyyəti hüquqi və fiziki şəxslərə şamil edilir.

Maddə 4. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində dövlət siyasətinin əsas prinsipləri

4.1. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində dövlət siyasəti ətraf mühitin mühafizəsi və təhsil haqqında qanunvericiliyin tələblərinə, müvafiq dövlət proqramlarına, habelə bunlara dair ölkədə və beynəlxalq təcrübədə mövcud olan prinsiplərə uyğun həyata keçirilir.

4.2. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində dövlət siyasətinin prinsiplərinə aşağıdakılar aiddir:

4.2.1. Ümumi ekoloji biliklərə yiyələnməsi üçün hər kəsə bərabər şəraitin yaradılması;

4.2.2. Orta təhsil sistemində ekoloji biliklərin tədrisinin icbariliyi;

4.2.3. Ekoloji təhsil və maarifləndirmə prosesinin fasiləsizliyi;

4.2.4. Ekoloji təhsil və maarifləndirmə sahəsində aşkarlığın təmin olunması;

4.2.5. Ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət siyasətinin həyata keçirilməsində əhalinin və qeyri-hökumət təşkilatlarının iştirakına şərait yaradılması.

II FƏSİL

Əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində idarəetmə

Maddə 5. Ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət hakimiyyəti orqanlarının hüquqları və vəzifələri

5.1. Ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət hakimiyyəti orqanlarının hüquqları və vəzifələri aşağıdakılardır:

5.1.1. Ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsi və onların həyata keçirilməsi;

5.1.2. Ekoloji təhsil və maarifləndirmə sisteminin təşkil edilməsi;

5.1.3. Ekoloji təhsil və maarifləndirmə sisteminin informasiya və elmi-metodik təminatı;

5.1.4. Sahə qanunvericiliyinin digər normativ hüquqi aktlara uyğunluğunun təmin edilməsi;

5.1.5. Təhsil və ekoloji təhsil proqramlarının uyğunluğunu təmin etmək üçün dövlət ekspertizasının aparılması;

5.1.6. Ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət və yerli özünüidarəetmə orqanlarının, qeyri-hökumət təşkilatlarının, müvafiq hüquqi və fiziki şəxslərin fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi;

5.1.7. Ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət ekoloji proqramların hazırlanması, təsdiqi və həyata keçirilməsi;

5.1.8. Ekoloji təhsil və maarifləndirmə sistemi üçün mütəxəssis-ekoloqların, elmi, pedaqoji və digər kadrların hazırlanması və ixtisaslarının artırılması;

5.1.9. Ekoloji təhsil sahəsində beynəlxalq müqavilələrin və proqramların, dövlətlərarası sazişlərin hazırlanması və yerinə yetirilməsi;

5.1.10. Ekoloji təhsil və maarifləndirmə sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin, o cümlədən qeyri-hökumət təşkilatlarının fəaliyyətlərinin stimullaşdırılması.

5.1.11. Ekoloji təhsilin və maarifləndirmənin təbii ehtiyatlardan səmərəli istifadəsi, ətraf mühitin mühafizəsi və onun bərpa edilməsi üzrə fəaliyyətin təmin edilməsi;

5.1.12. Ekoloji təhsil və maarifləndirmə məsələlərinin müvafiq dövlət proqramlarına daxil edilməsi;

5.2. Ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada hazırlanır, qəbul edilir və dərc olunur.

Maddə 6. Ekoloji təhsil və maarifləndirmə sahəsində yerli özünüidarəetmə orqanlarının hüquqları və vəzifələri

6.0. Yerli özünüidarəetmə orqanlarının bu qanuna uyğun olaraq öz səlahiyyətləri daxilində ekoloji təhsili və maarifləndirmə sahəsində aşağıdakı hüquqları və vəzifələri vardır:

6.0.1. Ərazi hüdudları daxilində ekoloji təhsilin idarə edilməsi üzrə strukturların yaradılmasında iştirak etmək;

6.0.2. Qanunvericiliyə uyğun olaraq ekoloji təhsil və maarifləndirməni təşkil etmək, bu sahədə tədris fəaliyyətini həyata keçirən hüquqi şəxslər yaratmaq, dövlət və bələdiyyə təhsil müəssisələrindən, məlumat-tədris bazasından istifadə etmək;

6.0.3. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi üzrə dövlət və regional proqramların işlənməsi və təkmilləşdirilməsi baxımından təkliflər irəli sürmək, qanunvericilikdə nəzərdə tutulan qaydada bu proqramların həyata keçirilməsində iştirak etmək, ekoloji təhsilin inkişafına kömək etmək.

Maddə 7. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində fiziki şəxslərin, qeyri-hökumət təşkilatlarının və digər hüquqi şəxslərin hüquqları və vəzifələri

7.1. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində fiziki şəxslərin, qeyri-hökumət təşkilatlarının və digər hüquqi şəxslərin hüquqları və vəzifələri;

7.1.1. Dövlət siyasətinə dair təklif və layihələrin, dövlət proqramlarının hazırlanmasında, ekoloji təhsilin keyfiyyəti üzrə aparılan monitorinqdə, sahə üzrə beynəlxalq əməkdaşlıq proqramlarının işlənməsində və həyata keçirilməsində iştirak etmək;

7.1.2. Təhsil prosesini təmin etmək məqsədilə tələb olunan ekoloji məlumatlara dair sorğu göndərmək və onu əldə etmək;

7.1.3. Məlumat-tədris və ekoloji təhsil bazasını yaratmaq və ondan istifadə etmək;

7.1.4. Ekoloji biliklərə yiyələnmək;

7.1.5. Ekoloji təhsili qanunvericiliyə müvafiq olaraq dövlət təhsil standartlarına uyğun həyata keçirmək;

7.1.6. Hər kəsi təbiətə qayğı və məsuliyyətli münasibət bəsləmək ruhunda tərbiyə etmək.

7.2. Ekoloji təhsil ilə məşğul olan hüquqi və fiziki şəxslər bu sahə üzrə müvafiq sənədə malik olmalıdırlar.

Maddə 8. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində fəaliyyətin əlaqələndirilməsi

8.1. Dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları əhalinin ekoloji təhsili və maarifləndirilməsinin təşkili, onun həyata keçirilməsi sahəsində öz fəaliyyətlərini əlaqələndirirlər.

8.2. Bu fəaliyyətlərin əlaqələndirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən sahələrarası komissiya yaradılır. Bu komissiyanın fəaliyyəti həmin orqanın təsdiq etdiyi əsasnamə ilə tənzimlənir.

8.3. Sahələrarası komissiyanın tərkibinə ətraf mühitin mühafizəsi, qanunvericilik, elm, təhsil, mədəniyyət, kütləvi informasiya vasitələri, iqtisadiyyat, səhiyyə, hüquq-mühafizə və digər dövlət orqanlarının, habelə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının nümayəndələri daxil ola bilərlər.

Maddə 9. Ekoloji təhsil və maarifləndirmə üzrə məsləhət şuralarının yaradılması

9.1. Ekoloji təhsil və maarifləndirmə sahəsində hüquqi və fiziki şəxslərin ekoloji təhsili, ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə məsələləri üzrə məlumatlandırılması. onlara elmi-metodik məsləhətlərin verilməsi məqsədilə məsləhət şuraları yaradılır.

9.2. Məsləhət şuraları ekoloji təhsilin və maarifləndirmənin təşkili və icrası ilə məşğul olan müvafiq hüquqi şəxslərin, icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının nəzdində yaradılır.

9.3. Məsləhət şuralarının fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi əsasnamə ilə tənzimlənir.

III FƏSİL

Ekoloji təhsil və maarifləndirmə sahəsində standartlar və iqtisadi tənzimlənmə

Maddə 10. Ekoloji təhsil sahəsində dövlət təhsil standartları

10.1. Ekoloji təhsil üzrə dövlət təhsil standartları müvafiq icra hakimiyyəti orqanı tərəfindən əlaqədar dövlət orqanlarının iştirakı ilə hazırlanır və təsdiq edilir.

10.2. Ekoloji təhsil sahəsində təhsil müəssisələrinin tipləri, təhsilalma formaları və mərhələləri üçün nəzərdə tutulan icbari ekoloji təhsil proqramlarının məzmunu müvafiq dövlət təhsil standartlarına uyğun müəyyənləşdirilir.

10.3. Ekoloji təhsil üzrə dövlətin təhsil standartları ekoloji təhsilin keyfiyyətinin yüksəldilməsi, bu sahədə mütəxəssislərin bilik səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə aparılan attestasiya sənədlərində əsas götürülür.

Maddə 11. Ekoloji təhsil və maarifləndirmə sahəsində iqtisadi tənzimlənmə

11.1. Ekoloji təhsil və maarifləndirmə ilə bağlı fəaliyyətin maliyyə mənbələri aşağıdakılardır:

11.1.1. Dövlət və yerli büdcələrdən ayırmalar;

11.1.2. Dövlət ekoloji fondların vəsaitləri;

11.1.3. Qrantlar, ianələr və qanuna zidd olmayan digər daxilolmalar.

11.2. Maliyyə vəsaitləri aşağıdakı məqsədlər üçün istifadə olunur:

11.2.1. Ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan səmərəli istifadə ilə bağlı dövlət, regional və digər proqramlar üzrə ekoloji təhsilin və maarifləndirmənin maliyyələşdirilməsinə;

11.2.2. Ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət siyasətini yerinə yetirən hüquqi və fiziki şəxslər üçün maddi və mənəvi stimullaşdırma sisteminin təşkilinə.

IV FƏSİL

Əhalinin ekoloji təhsil və maarifləndirilməsi sahəsində qanunvericiliyin tələblərinin yerinə yetirilməsinə nəzarət

Maddə 12. Qanunun yerinə yetirilməsinə nəzarət

12.1. Bu qanunun yerinə yetirilməsinə dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

12.2. Müvafiq icra hakimiyyəti orqanları hər il əhalinin ekoloji təhsili və maarifləndirilməsinə dair hesabat hazırlayır və onu dərc edirlr.

12.3. Qeyri-hökumət təşkilatları bu qanunun icrası ilə bağlı ictimai nəzarətin həyata keçirilməsində iştirak edə, həmçinin sahələrarası komissiyaya və məsləhət şuralarına bu sahəyə aid təkliflər verə bilərlər.

Maddə 13. Qanunun pozulmasına görə məsuliyyət

13.1. Bu qanunun pozulmasına görə məsuliyyət müvafiq qanunvericiliklə müəyyən edilir..

13.2. Ekoloji təhsil və maarifləndirmə sahəsində mübahisələrə qanunvericiliklə müəyyən edilən qaydada baxılır.

V FƏSİL

Beynəlxalq əməkdaşlıq

Maddə 14. Ekoloji təhsil və maarifləndirmə sahəsində beynəlxalq əməkdaşlıq

14.1. Ekoloji təhsilin və maarifləndirmənin səmərəli təşkil edilməsi məqsədi ilə dünya təcrübəsindən istifadə, ölkənin ümumdünya ekoloji təhsil və maarifləndirmə, informasiya məkanına daxil edilməsi məsələləri ekoloji təhsil sahəsində beynəlxalq əməkdaşlıq prinsiplərinə əsaslanır.

14.2. Ekoloji təhsil və maarifləndirmə sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının qanunvericiliyi, beynəlxalq müqavilələr və sazişlər əsasında həyata keçirilir.

14.3. Beynəlxalq əməkdaşlıq dövlət hakimiyyəti orqanları tərəfindən bağlanan müqavilələrə, sazişlərə, konvensiyalara, habelə Azərbaycan Respublikasının və xarici ölkələrin hüquqi və fiziki şəxsləri arasında razılaşmalara uyğun həyata keçirilir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 dekabr 2002-ci il

Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu

Bu Qanun vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir, təhsilin ayrı-ayrı pillələri üzrə müvafiq qanunların və digər normativ hüquqi aktların qəbul edilməsində baza rolunu oynayır. Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir. Azərbaycan Respublikasında təhsil insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbay-

can Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf edir.

I FƏSİL

Ümumi müddəalar

Maddə 1. Əsas anlayışlar

1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. abituriyent – ali təhsil və ya orta peşə-ixtisas təhsili müəssisəsinə qəbul olunmaq üçün müvafiq sənədləri təqdim etmiş şəxs;

1.0.2. adlı təqaüd – təhsildə uğurlu nəticələri ilə xüsusi fərqlənən, təhsil müəssisəsinin ictimai-mədəni həyatında fəal iştirak edən təhsilalanların həvəsləndirilməsi üçün dövlət, hüquqi və fiziki şəxslər tərəfindən konkret şəxsin adına təsis olunan təqaüd;

1.0.3. adyunktura – hərbi təhsil müəssisəsində doktoranturaya bərabər tutulan yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması forması;

1.0.4. akademiya – müəyyən sahə üzrə ali və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi-tədqiqatlar aparan ali təhsil müəssisəsi;

1.0.5. akkreditasiya – təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunun və onun statusunun müəyyənləşdirilib təsdiq edilməsi proseduru;

1.0.6. attestasiya – hər bir təhsil pilləsində və səviyyəsində təhsilalanların təhsildə nailiyyətlərinin və təhsilverənlərin fəaliyyətinin qiymətləndirilməsi proseduru;

1.0.7. bakalavr – bakalavriatı bitirmiş şəxslərə verilən ali peşə-ixtisas dərəcəsi;

1.0.8. bakalavriat – müvafiq ixtisaslar üzrə geniş profilli mütəxəssis hazırlığını həyata keçirən ali təhsilin birinci səviyyəsi;

1.0.9. distant (məsafədən) təhsil – tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma forması;

1.0.10. dissertasiya – müvafiq elmi dərəcə almaq üçün təqdim edilən elmi-tədqiqat işi;

1.0.11. dissertant – dissertasiya işini yerinə yetirən şəxs;

1.0.12. doktorant – doktoranturada təhsil alan şəxs;

1.0.13. doktorantura – ali təhsilin ən yüksək səviyyəsi, doktorluq elmi dərəcəsinin alınmasını həyata keçirən yüksək səviyyəli elmi-pedaqoji kadr hazırlığı forması;

1.0.14. dosent – ali təhsil müəssisəsində müəllimlərə verilən elmi ad və seçkili vəzifə;

1.0.15. elmlər doktoru – elm sahələri üzrə doktoranturada verilən ən yüksək elmi dərəcə;

1.0.16. evdə təhsil – müvafiq təhsil proqramlarına uyğun olaraq ümumi təhsilin evdə təşkili forması;

1.0.17. əlavə təhsil – vətəndaşların hərtərəfli təhsil tələbatını ödəmək məqsədi ilə əlavə təhsil proqramları əsasında verilən təhsil;

1.0.18. fəlsəfə doktoru – elm sahələri üzrə doktoranturada verilən yüksək elmi dərəcə;

1.0.19. fərdi təhsil – müxtəlif səbəblərdən uzun müddət təhsildən kənarda qalmış şəxslər, habelə müəyyən bir sahə üzrə xüsusi istedadı ilə fərqlənən şagirdlər üçün tətbiq edilən təhsil forması;

1.0.20. fəxri professor (doktor) – elmi-pedaqoji təcrübəsi və fəaliyyəti ilə fərqlənən professorlara və dosentlərə, eləcə də dünya elminin və təhsilinin inkişafında xüsusi xidmətləri olan xarici ölkə alimlərinə və ictimai xadimlərinə ali təhsil müəssisəsi tərəfindən verilən akademik ad (dərəcə);

1.0.21. formal təhsil – dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil forması;

1.0.22. gimnaziya – əsasən humanitar sahədə istedad və qabiliyyəti ilə fərqlənən şagirdlər üçün təmayüllər üzrə təhsil xidmətləri göstərən ümumtəhsil müəssisəsi;

1.0.23. informal təhsil – özünütəhsil yolu ilə biliklərə yiyələnmənin forması;

1.0.24. innovasiya – müxtəlif təşəbbüslər, elmi-tədqiqatlar əsasında formalaşan mütərəqqi xarakterli yeniliklər;

1.0.25. institut (ali məktəb) – müstəqil və ya universitetlərin struktur bölməsi olaraq, konkret ixtisaslar üzrə ali təhsilli mütəxəssis hazırlığını və əlavə təhsil proqramlarını həyata keçirən, tətbiqi tədqiqatlar aparan ali təhsil müəssisəsi;

1.0.26. ixtisas – müvafiq təhsil sənədində təsbit olunan peşə, bir peşə daxilində fəaliyyət növü;

1.0.27. ixtisaslaşma – müvafiq peşə-ixtisas təhsili istiqamətinin tərkib hissələrindən biri üzrə alınan peşə ixtisası;

1.0.28. kampus – müvafiq maddi-texniki bazaya və infrastruktura malik təhsil kompleksi (şəhərciyi);

1.0.29. kollec – orta ixtisas proqramları əsasında təhsil xidmətləri göstərən və subbakalavr peşə-ixtisas dərəcəsi vermək hüququ olan təhsil müəssisəsi;

1.0.30. konservatoriya – musiqi sahəsi üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlayan ali təhsil müəssisəsi;

1.0.31. qeyri-formal təhsil – müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan təhsil forması;

1.0.32. lisenziya – təhsil fəaliyyətinə dövlət tərəfindən verilən xüsusi razılıq;

1.0.33. lisey – ümumi və tam orta təhsil səviyyələrində istedadlı şagirdlər üçün müvafiq təmayüllər üzrə təhsil xidmətləri göstərən ümumtəhsil müəssisəsi;

1.0.34. magistratura – ali təhsilin ikinci səviyyəsi;

1.0.35. magistr – magistraturanı bitirmiş şəxslərə verilən ali elmi-ixtisas dərəcəsi;

1.0.36. nostrifikasiya – təhsil haqqında sənədin ekvivalentliyinin müəyyən edilməsi proseduru;

1.0.37. professor – yüksək elm və təhsil göstəricilərinə (xüsusi qabiliyyət tələb edən sahələr istisna olmaqla) nail olan təcrübəli elmlər doktorlarına verilən elmi ad, ali təhsil müəssisəsində seçkili vəzifə;

1.0.38. rezidentura – tibb ixtisasları üzrə baza ali təhsili əsasında həkim-mütəxəssis hazırlığı forması;

1.0.39. sərbəst (eksternat) təhsil – müxtəlif səbəblərdən ümumi təhsildən kənarda qalan şəxslərə təhsil almaq və ya təhsilalana ümumi təhsilin hər hansı pilləsini vaxtından əvvəl bitirmək hüququ verən təhsilalma forması;

1.0.40. subbakalavr – orta ixtisas təhsili pilləsində məzunlara verilən peşə-ixtisas dərəcəsi;

1.0.41. təhsil krediti – fənnin məzmununa və həcminə uyğun olaraq onun mənimsənilməsinə ayrılan vaxtın ölçü vahidi;

1.0.42. tədris planı – müvafiq təhsil pilləsində tədris olunan fənlərə və dərsdənkənar məşğələlərə ayrılan saatların miqdarını müəyyən edən əsas tənzimləyici sənəd;

1.0.43. təhsil – sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsi;

1.0.44. təhsil investisiyası – təhsilin inkişafına sərmayə qoyuluşu;

1.0.45. təhsil proqramı (kurikulum) – təhsilin hər bir pilləsi üzrə təlim nəticələri və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədi;

1.0.46. təhsil məhsulu – təhsil sahəsində innovasiyalar, orijinal təhsil və fənn proqramları, təlim metodları sistemi, təhsil modulları, təhsil layihələri;

1.0.47. təhsil müəssisəsi – müvafiq təhsil proqramları əsasında təhsil prosesini həyata keçirən və məzunlara müvafiq təhsil haqqında dövlət sənədi verən qurum;

1.0.48. təhsil müəssisəsinin muxtariyyəti – müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət təhsil müəssisəsinə verilən müstəqillik;

1.0.49. təhsil françayzinqi – təhsil məhsullarının müvafiq şərtlərlə (təhsil müəssisəsinin rəsmi adının və fərqləndirici nişanlarının saxlanılması, müəlliflik hüququnun qorunması və s.) daxili və ya beynəlxalq təhsil bazarında reallaşdırılması üzrə kompleks xidmətlər sistemi;

1.0.50. həkim – baza ali tibb təhsili almış məzunlara verilən ali peşə-ixtisas dərəcəsi;

1.0.51. həkim-mütəxəssis – müvafiq təhsil proqramlarına əsasən rezidenturanı bitirmiş şəxslərə verilən ali peşə-ixtisas dərəcəsi;

1.0.52. tyutor – ali təhsil müəssisəsində akademik məsləhətçi;

1.0.53. universitet – ali təhsilin bütün səviyyələri üzrə geniş spektrli mütəxəssislər hazırlığını, əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi-tədqiqatlar aparan çoxprofilli aparıcı ali təhsil müəssisəsi.

Maddə 2. Təhsil haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

2.1. Təhsil haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, təhsil sahəsinə aid olan digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

2.2. Təhsil qanunvericiliyinin əsas məqsədi təhsil sahəsində vətəndaşların konstitusiya hüququnun təmin edilməsindən və qorunmasından, icra strukturlarının, təhsilalanların və təhsilverənlərin, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrinin düzgün müəyyən edilməsindən, onlar arasında münasibətlərin tənzimlənməsindən, təhsil sisteminin sərbəst fəaliyyəti və inkişafı üçün hüquqi təminatların yaradılmasından ibarətdir.

2.3. Bu Qanun Azərbaycan Respublikasında fəaliyyət göstərən dini təhsil müəssisələrinə, xarici dövlətlərin diplomatik nümayəndəlikləri və konsulluqları yanında təhsil müəssisələrinə şamil edilmir.

Maddə 3. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri

3.0. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

3.0.1. humanistlik – milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması;

3.0.2. demokratiklik – təhsilalanların azad düşüncə ruhunda tərbiyə edilməsi, təhsilin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində səlahiyyət və azadlıqların genişləndirilməsi, təhsil müəssisələrinin muxtariyyətinin artırılması;

3.0.3. bərabərlik – bütün vətəndaşların bərabər şərtlər əsasında təhsil almasına imkanlar yaradılması və təhsil hüququnun təmin olunması;

3.0.4. millilik və dünyəvilik – milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi;

3.0.5. keyfiyyətlilik – təhsilin mövcud standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu;

3.0.6. səmərəlilik – təhsilin və elmi yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkili;

3.0.7. fasiləsizlik, vəhdətlik, daimilik – mövcud təhsil standartları, tədris proqramları və planları əsasında təhsilin bir neçə səviyyədə əldə edilməsi imkanı, təhsilin ayrı-ayrı pillələri arasında sıx dialektik qarşılıqlı əlaqənin təmin olunması və onun insanın bütün həyatı boyu ardıcıl davam etməsi;

3.0.8. varislik – təhsil sahəsində əldə olunmuş bilik və təcrübənin ardıcıl olaraq növbəti nəslə (dövrə) ötürülməsi;

3.0.9. liberallaşma – təhsil sahəsinin və təhsil fəaliyyətinin açıqlığının genişləndirilməsi;

3.0.10. inteqrasiya – milli təhsil sisteminin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı.

Maddə 4. Təhsilin əsas məqsədi

4.0. Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakılardır:

4.0.1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

4.0.2. milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq;

4.0.3. sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq.

Maddə 5. Təhsil hüququna dövlət təminatı

5.1. Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir.

5.2. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

5.3. Dövlət mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinə işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, təhsil müəssisələrinə qəbul olunmada, təhsilalanların təqaüdlə təmin edilməsində, ixtisasların seçilməsində, biliyin qiymətləndirilməsində, məzunların işlə təmin edilməsində, təhsilin növbəti pillədə davam etdirilməsində, ixtisasın artırılmasında və təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir.

5.4. Dövlət hər bir vətəndaşın icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Dövlət təhsil müəssisələrində hər bir təhsilalan pulsuz ümumi təhsil almaq hüququna malikdir. Dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

5.5. Dövlət əmək bazarının tələblərinə uyğun olaraq təhsil müəssisələrinə ixtisaslı kadr hazırlığı üçün dövlət sifarişləri verir və məzunların müvafiq işlə təmin olunmasına şərait yaradır.

5.6. Dövlət maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsilini davam etdirməsinə təminat verir, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına şərait yaradır.

5.7. Dövlət milli təhsil ənənələrinin qorunmasına, inkişafına və innovasiyaların tətbiqinə təminat verir.

5.8. Dövlət xaricdə yaşayan azərbaycanlıların təhsili ilə bağlı xüsusi layihələr və proqramlar həyata keçirir.

Maddə 6. Təhsil sahəsində dövlət standartları

6.1. Təhsil sahəsində dövlət standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr (5 ildən az olmayaraq) üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusudur.

6.2. Dövlət təhsil standartları təhsil sahəsində sınanmış mütərəqqi beynəlxalq meyarlar, milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla müəyyən edilir.

6.3. Dövlət təhsil standartları və onların qüvvədə olma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

6.4. Dövlət təhsil standartları təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir.

6.5. Bütün təhsil müəssisələrində təhsilin müvafiq dövlət standartlarına uyğun təşkili təmin olunur.

6.6. Təhsil müəssisəsinin fəaliyyətinin, təhsilin səviyyəsinin və təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində, akkreditasiyada və attestasiyada müvafiq dövlət təhsil standartları əsas götürülür.

6.7. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün xüsusi dövlət standartları müəyyən edilir.

Maddə 7. Tədris dili

7.1. Azərbaycan Respublikasının təhsil müəssisələrində tədris dili dövlət dili – Azərbaycan dilidir.

7.2. Vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq, xüsusi hallarda (Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ya müvafiq icra hakimiyyəti orqanı ilə razılaşma əsasında) ümumi təhsil müəssisəsində Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi və Azərbaycan coğrafiyası fənləri tədris olunmaqla tədris müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə də aparıla bilər.

7.3. Azərbaycan dilini zəif bilən təhsilalanlar üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və təhsil proqramlarına uyğun hazırlıq sinifləri və kursları təşkil olunur.

II FƏSİL

Azərbaycan Respublikasının Təhsil sistemi

Maddə 8. Təhsil sisteminin quruluşu

8.0. Təhsil sisteminə aşağıdakılar daxildir:

8.0.1. bütün təhsil müəssisələri, təlim-tərbiyə prosesi ilə məşğul olan və təhsil xidmətləri göstərən digər qurumlar, təhsil fəaliyyətini və onun inkişafını təmin edən elmi-tədqiqat institutları və informasiya mərkəzləri, layihə, istehsal, kliniki, ictimai iaşə, tibbi-profilaktik və əczaçılıq strukturları, idman, istirahət və sağlamlıq kompleksləri, kampuslar, mədəni-maarif müəssisələri və təşkilatları, kitabxanalar, yataqxanalar, düşərgələr və digər infrastruktur obyektləri;

8.0.2. təhsili idarəetmə orqanları və onların tabeliyində fəaliyyət göstərən müəssisə və təşkilatlar;

8.0.3. təhsil sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, assosiasiyalar, cəmiyyətlər, elmi-metodik şuralar və digər qurumlar.

Maddə 9. Təhsilin keyfiyyət səviyyəsi

9.1. Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir.

9.2. Təhsil müəssisəsində kadr hazırlığının keyfiyyət səviyyəsi məzunların milli və beynəlxalq əmək bazarında rəqabət qabiliyyəti, ölkənin sosial və iqtisadi inkişafında rolu ilə müəyyən edilir.

9.3. Təhsilin keyfiyyət səviyyəsi hər bir tarixi mərhələdə ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni inkişafla bağlı tələblərdən irəli gəlir və akkreditasiya xidməti tərəfindən müvafiq qaydada qiymətləndirilir.

Maddə 10. Təhsil proqramı (kurikulum)

10.1. Təhsil proqramı dövlət təhsil standartlarına uyğun ayrı-ayrı təhsil pillələri və səviyyələri üzrə təhsilin məzmununu və mənimsənilmə qaydalarını müəyyən edir.

10.2. Təhsil proqramına tədris planı, fənlər üzrə tədris proqramları, metodik təminatla bağlı tövsiyələr, qiymətləndirmə və digər müvafiq təhsil texnologiyaları daxildir.

10.3. Azərbaycan Respublikasında təhsilin bütün pillələrini və səviyyələrini əhatə edən təhsil proqramları həyata keçirilir.

10.4. Təhsil proqramlarının yerinə yetirilməsi müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

10.5. Əlavə təhsil, distant təhsil və digər xüsusi təhsilalma formaları üçün müvafiq təhsil proqramları tətbiq edilir.

10.6. Sağlamlıq imkanları məhdud olan, uzun müddət müalicəyə ehtiyacı olan təhsilalanların təhsilini, müalicəsini, sosial adaptasiyasını və ictimai həyata inteqrasiyasını nəzərdə tutan xüsusi ümumtəhsil proqramları müəyyən edilir və həyata keçirilir.

10.7. Azərbaycan Respublikasında beynəlxalq təhsil proqramları da həyata keçirilir. Beynəlxalq təhsil proqramları üzrə mütəxəssis hazırlığı müvafiq qanunvericiliyə və təhsil müəssisəsinin nizamnaməsinə əsasən tənzimlənir.

Maddə 11. Təhsilin məzmununa və təşkilinə dair ümumi tələblər

11.1. Təhsilin məzmununa və təşkilinə dair ümumi tələblər aşağıdakılardır:

11.1.1. təhsilalanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq bacarığını formalaşdırmaq;

11.1.2. öz üzərinə məsuliyyət götürmək, kollegial qərarların qəbulunda, demokratik təsisatların fəaliyyətində və inkişafında iştirak etmək keyfiyyətlərinə malik müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq;

11.1.3. təhsilalanların fasiləsiz təhsil almasını, daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə yiyələnməsini, cəmiyyətin tələbatını daha səmərəli ödəməsini, şəxsiyyət kimi inkişaf etməsini və ömür boyu təhsilin hamı üçün açıq və bərabər imkanlı olmasını təmin etmək;

11.1.4. yüksək intellektual səviyyəyə və praktiki iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmaq;

11.1.5. cəmiyyətin yüksək səviyyəli və rəqabət qabiliyyətli kadr potensialına tələbatının ödənilməsi üçün real zəmin yaratmaq;

11.1.6. təhsil müəssisəsində tədris prosesinin təhsilalanların və təhsilverənlərin insan ləyaqətinə hörmət etməsi əsasında qurulmasını təmin etmək və təhsilalana qarşı hər hansı fiziki və psixoloji zorakılığa yol verməmək.

11.2. Təhsilin məzmununa və təşkilinə dair ümumi tələblər bu Qanunla və digər normativ hüquqi aktlarla tənzimlənir.

Maddə 12. Təhsilin formaları

12.1. Azərbaycan Respublikasında aşağıdakı təhsil formaları tətbiq olunur:

12.1.1. formal;

12,1.2. qeyri-formal;

12.1.3. informal.

12.2. Formal təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 13. Təhsilalma formaları

13.1. Azərbaycan Respublikasında aşağıdakı təhsilalma formaları müəyyən edilir:

13.1.1. əyani;

13.1.2. qiyabi;

13.1.3. distant (məsafədən);

13.1.4. sərbəst (eksternat).

13.2. Azərbaycan Respublikasında müəyyən edilmiş təhsilalma formaları çərçivəsində evdə təhsil və fərdi təhsil təşkil oluna bilər.

13.3. Zəruri hallarda, müasir təhsil texnologiyalarından istifadə etməklə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada digər təhsilalma formaları da tətbiq edilə bilər.

Maddə 14. Təhsil müəssisəsi

14.1. Təhsil müəssisəsinin təşkilati-hüquqi forması və statusu müvafiq qanunvericiliyə uyğun müəyyən edilir.

14.2. Azərbaycan Respublikasında mülkiyyət növünə görə aşağıdakı təhsil müəssisələri fəaliyyət göstərir:

14.2.1. dövlət;

14.2.2. bələdiyyə;

14.2.3. özəl.

14.3. Azərbaycan Respublikasında dövlət təhsil müəssisələri bilavasitə mənfəət əldə etmək məqsədi güdmür.

14.4. Təhsil müəssisəsinin fəaliyyəti, hüquq və vəzifələri bu Qanun və Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları nəzərə alınmaqla onun nizamnaməsi ilə müəyyən edilir.

14.5. Təhsil müəssisəsinin aşağıdakı tipləri və növləri müəyyən edilir:

14.5.1. məktəbəqədər təhsil müəssisələri (körpələr evi, körpələr evi-uşaq bağçası, uşaq bağçası, xüsusi uşaq bağçası);

14.5.2. ümumi təhsil müəssisələri (ibtidai, orta və tam orta ümumtəhsil məktəbləri, ümumtəhsil internat-məktəbləri, xüsusi məktəblər və xüsusi internat-məktəbləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat-məktəbləri, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisələr, istedadlı şagirdlər üçün məktəblər, gimnaziyalar, liseylər və digər müəssisələr);

14.5.3. məktəbdənkənar təhsil müəssisələri (uşaq yaradıcılıq mərkəzləri, uşaq-gənclər idman məktəbləri, uşaq-gənclər şahmat məktəbləri, ekoloji tərbiyə və təcrübə mərkəzləri, texniki yaradıcılıq mərkəzləri, turizm və diyarşünaslıq mərkəzləri, məktəbdənkənar iş mərkəzləri, estetik tərbiyə və bədii yaradıcılıq mərkəzləri və s.);

14.5.4. ilk peşə-ixtisas təhsili müəssisələri (peşə məktəbləri, peşə liseyləri);
14.5.5. orta ixtisas təhsili müəssisələri (kolleclər);
14.5.6. ali təhsil müəssisələri (universitetlər, akademiyalar, institutlar və s.);
14.5.7. əlavə təhsil müəssisələri (universitetlər, institutlar, mərkəzlər və s.);
14.5.8. təhsil fəaliyyətini həyata keçirən digər müəssisələr.
14.6. Müxtəlif tipli təhsil müəssisələri təhsil kompleksi və kampus formasında da fəaliyyət göstərə bilər.
14.7. İbtidai və ümumi orta təhsil müəssisələri azkomplektli formada da fəaliyyət göstərə bilər.
14.8. Təhsil müəssisəsində təhsil dövlət hesabına və (və ya) ödənişli əsaslarla həyata keçirilir. Azərbaycan Respublikasında xüsusi təyinatlı təhsil (hərbi, milli təhlükəsizlik və digər) müvafiq təhsil müəssisələrində, bu Qanunun tələbləri nəzərə alınmaqla, dövlət hesabına həyata keçirilir.
14.9. Təhsil müəssisəsində, təhsili idarəetmə və digər təhsil orqanlarında siyasi partiyaların və dini qurumların strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.
14.10. Azərbaycan Respublikasında bütün təhsil müəssisələrində təhsilalanların geyim formaları təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.
14.11. Dövlət ali təhsil müəssisəsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səlahiyyətlər çərçivəsində muxtariyyət hüququ (statusu) verilə bilər. Muxtariyyət hüququna malik təhsil müəssisəsi qanunvericiliyə və öz nizamnaməsinə uyğun olaraq, tədris, elmi-tədqiqat, kadr, maliyyə-təsərrüfat və digər fəaliyyəti həyata keçirməkdə sərbəstdir.
14.12. Təhsil müəssisəsinin yaradılması, yenidən təşkili və ləğvi qanunvericilikdə müəyyən edilmiş qaydada həyata keçirilir.
14.13. Dövlət bütün təhsil müəssisələrinin, o cümlədən özəl təhsil müəssisələrinin inkişafını qanunvericiliyə uyğun kreditlər vermək, qrantlar ayırmaq və dövlət təhsil müəssisələrinə güzəştlər tətbiq etməklə təmin edir.
14.14. Təhsil müəssisəsinin maddi-texniki bazası və təhsil infrastrukturu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi normativlərdən aşağı olmamalıdır.

14.15. Təhsil müəssisəsi hüquqi şəxsdir və müstəqil balansa malikdir. Təhsil müəssisəsinin müvafiq qanunvericiliyə uyğun olaraq banklarda hesablaşma hesabı və digər hesabları ola bilər. Təhsil müəssisəsi mövcud qanunvericilik çərçivəsində inzibati və maliyyə-təsərrüfat fəaliyyətini həyata keçirməkdə sərbəstdir.

14.16. Təhsil müəssisəsi qanunvericiliyə və öz nizamnaməsinə uyğun olaraq ölkənin və xarici dövlətlərin ərazisində filiallar açmaq (dövlət təhsil müəssisəsi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaq şərti ilə), habelə təhsilin inkişafı və təkmilləşdirilməsi məqsədi ilə ictimai təşkilatlarla təhsil birlikləri, assosiasiyaları və ittifaqları yaratmaq, eləcə də bu kimi təşkilatlara üzv olmaq hüququna malikdir.

14.17. Təhsil müəssisəsi öz fəaliyyətinə görə vətəndaşlar, cəmiyyət və dövlət qarşısında məsuliyyət daşıyır.

14.18. Azərbaycan Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri qanunvericiliyə uyğun olaraq «Tələbə-məzun» dövlət elektron məlumat sisteminə qoşulmalıdır.

Maddə 15. Təhsil müəssisəsinin təsisçisi

15.1. Təhsil müəssisəsinin təsisçisi (təsisçiləri) dövlət, bələdiyyələr, Azərbaycan Respublikasının və xarici dövlətlərin hüquqi şəxsləri, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ola bilərlər.

15.2. Təsisçiləri əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər olan təhsil müəssisələrinin professor-müəllim heyətinin azı 80 faizini Azərbaycan Respublikasının vətəndaşları təşkil etməlidir.

15.3. Xüsusi təyinatlı təhsil müəssisələrinin təsis edilməsi qaydaları və onların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

15.4. Təsisçinin məsuliyyəti, səlahiyyət dairəsi, təhsil müəssisəsi ilə qarşılıqlı öhdəlikləri Azərbaycan Respublikasının qanunvericiliyi, təsis müqaviləsi və təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

Maddə 16. Təhsil fəaliyyətinin lisenziyalaşdırılması və təhsil müəssisəsinin akkreditasiyası

16.1. Azərbaycan Respublikasında hər bir təhsil müəssisəsi təhsil fəaliyyəti göstərmək üçün qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanından xüsusi razılıq (lisenziya) almalıdır. Dövlət təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) müddətsiz verilir. Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən təsis edilmiş bələdiyyə və özəl təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) beş il müddətinə verilir. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) üç il müddətinə verilir.

16.2. Xarici hüquqi şəxslərin, onların filiallarının və nümayəndəliklərinin, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin öz ölkələrində təhsil fəaliyyəti ilə məşğul olmaq üçün aldıqları lisenziyaların Azərbaycan Respublikasında tanınması dövlətlərarası müqavilələrlə müəyyən edilir.

16.3. Təhsil müəssisəsinin akkreditasiyası təhsil prosesinin təşkilinin, maddi-texniki bazasının, təhsil proqramlarının, kadr potensialının, maliyyə resurslarının və təhsil infrastrukturunun qəbul olunmuş dövlət standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədi ilə aparılır və təhsil müəssisəsinin statusunun müəyyən edilməsi, onun fəaliyyətinin növbəti müddətə (müvafiq olaraq bu Qanunun 16.1-ci maddəsində nəzərdə tutulmuş müddətlərdən az olmamaq şərti ilə) uzadılması üçün hüquqi təminat yaradır.

16.4. Təhsil müəssisəsinin akkreditasiyasını müvafiq icra hakimiyyəti orqanının müəyyən edilmiş qaydada yaratdığı dövlət akkreditasiya xidməti həyata keçirir. Akkreditasiya müvafiq keyfiyyət sənədinin – sertifikatın verilməsi ilə başa çatır.

16.5. Azərbaycan Respublikasında hüquqi şəxs kimi dövlət qeydiyyatına alınmış, fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilmiş və akkreditasiya olunmuş təhsil müəssisəsinin fəaliyyətinə hüquqi təminat verilir.

Maddə 17. Təhsilin pillələri və səviyyələri

17.1. Azərbaycan Respublikasında aşağıdakı təhsil pillələri və səviyyələri müəyyən olunur:

17.1.1. Məktəbəqədər təhsil.

17.1.2. Ümumi təhsil:

17.1.2.1. ibtidai təhsil;

17.1.2.2. ümumi orta təhsil;

17.1.2.3. tam orta təhsil.

17.1.3. İlk peşə-ixtisas təhsili.

17.1.4. Orta ixtisas təhsili.

17.1.5. Ali təhsil:

17.1.5.1. bakalavriat;

17.1.5.2. magistratura;

17.1.5.3. doktorantura.

17.2. Təhsilin pillələri və səviyyələri arasında qarşılıqlı əlaqə və varislik təmin olunur. Hər bir təhsil pilləsi (məktəbəqədər təhsil istisna olmaqla) yekun qiymətləndirmənin və ya attestasiyanın nəticələrinə uyğun olaraq məzunlara dövlət nümunəli sənədin verilməsi ilə başa çatır.

17.3. Təhsilin pillələri və səviyyələri üzrə fəaliyyət müvafiq qanunvericilik aktları ilə tənzimlənir. Təhsilalanın əvvəlki pillədə və səviyyədə əldə etdiyi nailiyyətlər növbəti pillədə və səviyyədə təhsilin davam etdirilməsində nəzərə alınır.

Maddə 18. Məktəbəqədər təhsil

18.1. Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir.

18.2. Məktəbəqədər təhsil müvafiq təhsil proqramı əsasında həyata keçirilir.

18.3. Azərbaycan Respublikasında məktəbəqədər təhsil üç yaşdan başlayır.

18.4. Beş yaşlı uşaqlar üçün məktəbə hazırlıq zəruridir. Məktəbə hazırlığın təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

18.5. Məktəbəqədər təhsil uşağın valideynlərinin və ya digər qanuni nümayəndələrinin arzusu ilə məktəbəqədər təhsil müəssisələrində, ümumtəhsil müəssisələrinin müvafiq strukturlarında və ya ailədə həyata keçirilə bilər.

18.6. Məktəbəqədər yaşlı uşaqları evdə tərbiyə edən ailələr üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq qaydada metodiki və diaqnostik məsləhət və əlaqələndirmə xidməti təşkil edilir.

Maddə 19. Ümumi təhsil

19.1. Ümumi təhsil təhsilalanlara elmlərin ümumi əsaslarının öyrədilməsini, zəruri bilik, bacarıq və vərdişlərin aşılanmasını, onların həyata və əmək fəaliyyətinə hazırlanmasını təmin edir.

19.2. Ümumi təhsil təhsilalanların fiziki və intellektual inkişafına, zəruri biliklərə yiyələnməsinə, onlarda sağlam həyat tərzinə və sivil dəyərlərə əsaslanan vətəndaş təfəkkürünün formalaşmasına, milli və dünyəvi dəyərlərə hörmət hissinin aşılanmasına, ailə, cəmiyyət, dövlət və ətraf mühit qarşısında hüquq və vəzifələrinin müəyyən edilməsinə imkan yaradır.

19.3. Ümumi təhsil müvafiq təhsil proqramları əsasında həyata keçirilir.

19.4. Azərbaycan Respublikasında ümumi təhsil ibtidai təhsil, ümumi orta təhsil və tam orta təhsildən ibarətdir.

19.5. Ümumi təhsilin təhsil səviyyələri üzrə müddəti, bir səviyyəsindən digər səviyyəsinə keçid qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

19.6. Ümumi təhsil ümumtəhsil məktəblərində, xüsusi təmayüllü təhsil müəssisələrində, gimnaziyalarda, liseylərdə, ilk peşə-ixtisas və orta ixtisas təhsili müəssisələrində, habelə ali təhsil müəssisələrinin tabeliyində yaradılan məktəblərdə həyata keçirilə bilər.

19.7. Ümumi təhsil sistemində təhsilalanların fiziki inkişafını təmin etmək və müxtəlif yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədi ilə məktəbdənkənar təhsil proqramları tətbiq olunur.

19.8. Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qızıl və ya gümüş medalla təltif olunurlar.

19.9. İbtidai təhsilin məqsədi təhsilalanlara oxumaq, yazmaq və hesablama bacarıqları aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətlər formalaşdırmaqdan ibarətdir.

19.10. İbtidai təhsil müvafiq təhsil proqramına əsasən həyata keçirilir.

19.11. Azərbaycan Respublikasında ibtidai təhsil altı yaşdan başlanır.

19.12. Valideynlərin və ya uşaqların digər qanuni nümayəndələrinin arzusu ilə təhsil müəssisəsi xüsusi istedadlı uşaqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada daha erkən yaşda qəbul edə bilər.

19.13. Ümumi orta təhsilin məqsədi təhsilalanların şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrak fəallığının və məntiqi təfəkküründün inkişafını, təhsil proqramına daxil olan fənlər üzrə və eləcə də dünya sivilizasiyasının inkişafı haqqında müvafiq bilik və təsəvvürlərinin formalaşdırılmasını, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə etmək qabiliyyətini, hadisələri qiymətləndirmək və öz gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirmək bacarığını təmin etməkdən ibarətdir.

19.14. Azərbaycan Respublikasında ümumi orta təhsil icbaridir.

19.15. Ümumi orta təhsil müvafiq təhsil proqramına əsasən həyata keçirilir.

19.16. Ümumi orta təhsil səviyyəsində yekun qiymətləndirmə aparılır və təhsili başa vuran təhsilalanlara müvafiq dövlət sənədi verilir. Ümumi orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə və səviyyədə davam etdirilməsi üçün əsas sayılır.

19.17. Tam orta təhsil səviyyəsində təhsilalanların istedad və qabiliyyətinin reallaşdırılması, müstəqil həyata və peşə seçiminə hazırlanması, fəal vətəndaş mövqeyinin, milli və ümumbəşəri dəyərlərə, insan hüquqlarına və azadlıqlarına hörmət hissinin və tolerantlığın formalaşdırılması, müasir informasiya-kommunikasiya texnologiyalarından və digər texniki vasitələrdən sərbəst istifadə etməsi, iqtisadi biliklərin əsaslarına yiyələnməsi, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur.

19.18. Tam orta təhsil ümumi təhsilin hər üç səviyyəsini əhatə edən təhsil proqramlarının tam mənimsənilməsini nəzərdə tutur. Dövlət təhsil müəssisələrində tam orta təhsil pulsuzdur.

19.19. Tam orta təhsil səviyyəsində təhsilin təmayülləşməsi (humanitar, texniki, təbiət və digər) təmin olunur.

19.20. Tam orta təhsil umumi təhsilin sonuncu səviyyəsini təşkil edir və bu səviyyədə təhsilalanların biliyinin qiymətləndirilməsinin yekun dövlət attestasiyası həyata keçirilir. Attestasiyanın nəticələrinə görə məzunlara müvafiq qaydada dövlət nümunəli sənəd – attestat verilir.

19.21. Tam orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə davam etdirilməsi üçün əsas sayılır.

Maddə 20. İlk peşə-ixtisas təhsili

20.1. İlk peşə-ixtisas təhsili əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında müxtəlif sənətlər və kütləvi peşələr üzrə ixtisaslı işçi kadrların hazırlanmasını təmin edir.

20.2. İlk peşə-ixtisas təhsili mülkiyyət formasından asılı olmayaraq peşə-ixtisas təhsili müəssisələrində və təhsil fəaliyyəti üçün xüsusi razılığı (lisenziyası) olan ayrı-ayrı təşkilatların, müəssisələrin, əmək birjalarının, məşğulluq idarələrinin və digər müvafiq qurumların təhsil strukturlarında həyata keçirilir və məzunlara müvafiq istiqamətlər üzrə ilk peşə dərəcələrinin verilməsi ilə başa çatır.

20.3. İlk peşə-ixtisas təhsili müvafiq təhsil proqramları əsasında təşkil olunur.

20.4. İlk peşə-ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında qəbul olunanlar peşə ixtisası ilə yanaşı, tam orta təhsil almaq hüququna malikdirlər.

Maddə 21. Orta ixtisas təhsili

21.1. Orta ixtisas təhsili cəmiyyətin və əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında ayrı-ayrı fəaliyyət sahələri üçün müxtəlif ixtisaslar üzrə orta ixtisas təhsilli mütəxəssis hazırlığını təmin edir.

21.2. Orta ixtisas təhsili əsasən kolleclərdə və ali təhsil müəssisələrinin tabeliyində yaradılan müvafiq strukturlarda həyata keçirilir və subbakalavr ixtisas dərəcəsinin verilməsi ilə başa çatır. Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə daxil olanlar həm də tam orta təhsil alırlar.

21.3. Orta ixtisas təhsili müvafiq təhsil proqramları əsasında təşkil olunur. Orta ixtisas təhsilini başa vuran məzunlara müvafiq qaydada dövlət nümunəli sənəd – diplom verilir.

21.4. Orta ixtisas təhsili haqqında sənəd ali təhsil müəssisəsinə daxil olmaq hüququ yaradır və növbəti təhsil pilləsində ali təhsil almaq üçün əsas sayılır.

21.5. Orta ixtisas təhsili proqramlarının müvafiq ixtisaslar üzrə ali təhsil proqramlarına uyğunluğu təmin edilir və bu təhsil pilləsini yüksək nəticələrlə başa vuran məzunların – subbakalavrların topladıqları kreditlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrində nəzərə alınır.

Maddə 22. Ali təhsil

22.1. Ali təhsil pilləsində cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yüksək ixtisaslı mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlığı həyata keçirilir.

22.2. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində mütəxəssislər və elmi-pedaqoji kadrlar hazırlığı üç səviyyəlidir:

22.2.1. bakalavriat (tibb təhsili istisna olmaqla);

22.2.2. magistratura (tibb təhsili istisna olmaqla);

22.2.3. doktorantura.

22.3. Bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə geniş profilli ali təhsilli mütəxəssislər hazırlanır. Bakalavriat təhsili başa çatmış ali təhsildir. Bakalavriatı bitirən məzunlara «bakalavr» ali peşə-ixtisas dərəcəsi verilir. Bakalavriat təhsili almış məzunların əmək fəaliyyəti sahəsi elmi-tədqiqat və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyət istisna olmaqla, bütün digər sahələri əhatə edir. Bakalavriat təhsilinin məzmunu və təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

22.4. Magistratura təhsili ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi-tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsini nəzərdə tutur və məzunlara peşəkar fəaliyyətlə, elmi-tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verir. Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

22.5. Magistratura elmi-pedaqoji kadr potensialı, maddi-texniki bazası və təhsil infrastrukturu kifayət qədər yüksək olan ali təhsil müəssisələrində yaradıla bilər.

22.6. Tibb təhsili təhsil proqramlarına və dövlət təhsil standartlarına uyğun olaraq, əsas təhsilə və rezidenturaya ayrılır, məzunlara müvafiq olaraq həkim və həkim-mütəxəssis ali peşə-ixtisas dərəcələri verilir. Rezidentura təhsilinin məzmunu və təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

22.7. Xüsusi qabiliyyət tələb edən və öz xüsusiyyətləri ilə fərqlənən mədəniyyət, musiqi, incəsənət, idman, memarlıq, dizayn və bu kimi digər sahələr üzrə magistr hazırlığı yalnız nəzəri hazırlıq və tədqiqat tələb edən sahələr üzrə həyata keçirilir. Bu ixtisasların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 23. Doktorantura

23.1. Doktorantura ali təhsilin ən yüksək səviyyəsi olmaqla elmi və elmi-pedaqoji kadrların hazırlanmasını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir.

23.2. Doktorantura təhsili ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalarda (hərbi təhsil müəssisələrində adyunkturalarda) həyata keçirilir və müvafiq elmi dərəcənin verilməsi ilə başa çatır. Elmi dərəcələr ali təhsil müəssisələrində və elmi təşkilatlarda fəaliyyət göstərən dissertasiya şuralarının vəsatəti əsasında qanunvericiliyə uyğun olaraq verilir.

23.3. Azərbaycan Respublikasında aşağıdakı elmi dərəcələr müəyyən edilir:

23.3.1. Fəlsəfə doktoru – elm sahələri göstərilməklə;

23.3.2. Elmlər doktoru – elm sahələri göstərilməklə.

23.4. Doktoranturaların yaradılması, doktoranturaya qəbul və elmi dərəcələrin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

23.5. Ali təhsil müəssisələrinin və elmi təşkilatların doktoranturalarına əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qəbulu Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, habelə ali təhsil müəssisəsi ilə əcnəbi və ya vətəndaşlığı olmayan şəxs arasında ödənişli əsaslarla bağlanan müqavilə əsasında həyata keçirilir.

23.6. Doktoranturada təhsilini başa vurmuş və müvafiq elmi dərəcə almış şəxslərə müəyyən edilmiş qaydada həmin elmi dərəcəni təsdiq edən vahid formada dövlət nümunəli sənəd – diplom verilir.

23.7. Ali təhsil müəssisəsində, elmi və digər təşkilatlarda çalışan elmi-pedaqoji kadrlara elmi dərəcələrin verilməsi dissertantlıq yolu ilə də reallaşdırılır. Ali təhsil müəssisələrinin müvafiq kafedralarına və elmi-tədqiqat müəssisələrinə dissertantların təhkim olunması və elmi dərəcələrin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

23.8. Ali təhsil müəssisələrinin kadrlarına elmi və pedaqoji fəaliyyət sahəsində əldə etdikləri nəticələrə görə müəyyən edilmiş qaydada elmi adlar verilir. Azərbaycan Respublikasında aşağıdakı elmi adlar müəyyən edilir:

23.8.1. dosent;

23.8.2. professor.

23.9. Dosent və professor elmi adlarının verilməsi qaydaları və şərtləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

23.10. Azərbaycan Respublikasında ali təhsil müəssisəsinin fəxri professor (doktor) adı vermək hüququ vardır. Fəxri professor (doktor) adının verilməsi qaydaları və şərtləri ali təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

Maddə 24. Əlavə təhsil

24.1. Əlavə təhsil fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafı, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi, onların daim dəyişən və

yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifəsini daşıyır.

24.2. Azərbaycan Respublikasında əlavə təhsil aşağıdakı istiqamətləri əhatə edir:

24.2.1. ixtisasartırma;

24.2.2. kadrların yenidən hazırlanması;

24.2.3. stajkeçmə və kadrların təkmilləşdirilməsi;

24.2.4. təkrar ali təhsil və orta ixtisas təhsili;

24.2.5. dərəcələrin yüksəldilməsi;

24.2.6. yaşlıların təhsili.

24.3. Əlavə təhsilin məzmunu və təşkili qaydaları xüsusi təhsil proqramlarına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

24.4. Əlavə təhsil ixtisasartırma və yenidənhazırlanma qurumlarında, peşə-ixtisas təhsili müəssisələrində yaradılmış müvafiq strukturlarda, stajkeçmə və peşə hazırlığı kurslarında və bu sahə üzrə fəaliyyətinə xüsusi razılıq verilmiş digər müəssisələrdə həyata keçirilir.

24.5. Müvafiq təhsil proqramları əsasında əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq sənəd verilir. İxtisasartırma kurslarını bitirmiş şəxslər barəsində stimullaşdırıcı tədbirlər tətbiq edilir.

Maddə 25. Təhsil sistemində elmi araşdırmalar

25.1. Təhsil sistemində elmi araşdırmalar təhsili idarəetmə orqanları tabeliyində fəaliyyət göstərən elmi-tədqiqat strukturlarında, ali təhsil müəssisələrində və onların müvafiq qurumlarında və ya bölmələrində (elmi-tədqiqat institutları, mərkəzlər, kafedralar, laboratoriyalar və s.) aparılır.

25.2. Təhsil sistemində aparılan elmi-tədqiqat işləri fundamental və tətbiqi xarakter daşıyır.

25.3. Təhsil sistemində elmi araşdırmalar dövlət büdcəsinin vəsaitləri, qrantlar, müxtəlif fondların vəsaitləri, təhsil müəssisəsinin büdcədənkənar vəsaitləri, habelə sifarişlər əsasında daxil olan vəsaitlər hesabına həyata keçirilir.

25.4. Təhsilin inkişaf problemləri ilə bağlı elmi araşdırmalar innovasiya xarakteri daşımaqla, təhsil tarixinin öyrənilməsinə, təhsilin təşkilinin və idarə olunmasının təkmilləşdirilməsinə, tədris prosesinin müasir metodlarla qurulmasına, tədrisin yeni texnologiyalarının və digər istiqamətlər üzrə pedaqoji innovasiyaların hazırlanmasına və tətbiqinə yönəldilir.

Maddə 26. Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun ümumi qaydaları

26.1. Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu vətəndaşların təhsil hüququnu tam təmin etməklə, müvafiq təhsil səviyyəsinə uyğun olan təhsil proqramlarını daha yaxşı mənimsəmiş qabiliyyətli və hazırlıqlı abituriyentlərin ixtisası və təhsil müəssisəsini sərbəst seçimi əsasında, bu Qanunun 26.5-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, müsabiqə yolu ilə həyata keçirilir.

26.2. Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

26.3. Hər bir təhsilalan, valideyn və ya digər qanuni nümayəndə ali və orta ixtisas təhsili müəssisəsində tədris prosesini tənzimləyən aşağıdakı hüquqi sənədlərlə tanış ola bilər:

26.3.1. təhsil müəssisəsinin nizamnaməsi;

26.3.2. təhsil sahəsində fəaliyyət üçün xüsusi razılıq (lisenziya);

26.3.3. təhsil müəssisəsinin dövlət akkreditasiyası haqqında sənəd.

26.4. Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu zamanı abituriyentlərin əvvəlki təhsil pilləsində əldə etdikləri nailiyyətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada nəzərə alınır.

26.5. Dünya fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların qalibləri müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunurlar. Bu olimpiadaların, beynəlxalq müsabiqələrin və yarışların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

26.6. Ali təhsil müəssisələrinin magistraturalarına bakalavrların və digər ali təhsilli şəxslərin qəbulu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

Maddə 27. Təhsil haqqında dövlət sənədi

27.1. Azərbaycan Respublikasında təhsil fəaliyyəti üçün xüsusi razılığı (lisenziyası) olan və dövlət akkreditasiyasından keçmiş təhsil müəssisəsində təhsilin hər hansı pilləsini və səviyyəsini bitirən şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq təhsil haqqında dövlət sənədi verilir.

27.2. Təhsil haqqında dövlət sənədi növbəti pillədə və səviyyədə təhsili davam etdirmək və ya ixtisas üzrə əmək fəaliyyətinə başlamaq üçün əsas sayılır.

27.3. Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada arayış verilir.

27.4. Xarici ölkələrdə verilən təhsil haqqında sənədlərin tanınması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

Maddə 28. Təhsil müəssisəsində iaşə və tibb xidməti

28.1. Təhsil müəssisəsində iaşə və tibb xidməti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada və normalara uyğun təşkil olunur.

28.2. Təhsil müəssisəsində iaşə xidməti təhsil müəssisəsi ilə iaşə xidməti göstərən hüquqi və fiziki şəxslər arasında bağlanan müqavilə əsasında həyata keçirilir.

28.3. Təhsil müəssisəsində təhsilalanlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada pulsuz tibbi xidmət göstərilir.

III FƏSİL

Təhsil sisteminin idarə olunması, təhsil subyektlərinin hüquqları, vəzifələri və sosial müdafiəsi

Maddə 29. Təhsil sahəsində dövlətin vəzifələri

29.0. Təhsil sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

29.0.1. təhsil sahəsində vahid dövlət siyasətini müəyyənləşdirmək və onun həyata keçirilməsini təmin etmək;

29.0.2. milli təhsil sisteminin inkişaf konsepsiyasını və əsas prioritetlərini müəyyən etmək;

29.0.3. milli təhsil sisteminin inkişafı üçün müxtəlif istiqamətli dövlət proqramlarını təsdiq etmək və onların icrasına nəzarəti həyata keçirmək;

29.0.4. kadr hazırlığının prioritetlərini və istiqamətlərini, yüksək dərəcəli elmi-pedaqoji kadr hazırlığı proqramlarını müəyyən etmək;

29.0.5. təhsil sahəsində dövlət siyasətinin və dövlət proqramlarının həyata keçirilməsinin monitorinqini aparmaq;

29.0.6. milli təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasını, beynəlxalq standartlara cavab verən təhsil şəraitinin və mühitinin yaradılmasını təmin etmək;

29.0.7. təhsil sahəsinin inkişafına ayrılan dövlət büdcəsi vəsaitlərinin həcmini və dövlət təhsil qrantlarının məbləğini müəyyən etmək və dövlət təhsil müəssisələrinin maliyyələşdirilməsini həyata keçirmək;

29.0.8. hər büdcə ili üzrə dövlət təhsil sisteminin maliyyələşdirilməsi məqsədilə hər bir təhsilalana (şagirdə, tələbəyə, doktoranta və s.) düşən təhsil xərclərinin miqdarını və maliyyə normativlərini müəyyən etmək;

29.0.9. ilk peşə-ixtisas, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu planını müəyyənləşdirmək;

29.0.10. müəyyən edilmiş qaydada abituriyentlərin biliyinin qiymətləndirilməsini həyata keçirmək;

29.0.11. «Tələbə-məzun» dövlət elektron məlumat sistemini yaratmaq və ondan istifadəni təmin etmək;

29.0.12. təhsil pillələri üzrə dövlət təhsil standartlarını və proqramlarını (kurikulumları) təsdiq etmək və təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarəti həyata keçirmək;

29.0.13. dövlət təhsil müəssisələrinin rəhbərlərini qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifəyə təyin etmək və vəzifədən azad etmək;

29.0.14. dövlət təhsil müəssisəsində çalışan professor-müəllim heyəti üçün akademik və inzibati vəzifə tutmanın yaş həddini müəyyən etmək;

29.0.15. təhsil səviyyəsinə uyğun olaraq təhsil müəssisələrinin nümunəvi nizamnamələrini təsdiq etmək;

29.0.16. dövlət təhsil müəssisələrinin nizamnaməsini təsdiq etmək, bələdiyyə və özəl təhsil müəssisələrinin nizamnamələrinə rəy vermək;

29.0.17. təhsil prosesinin təşkilinə dair ümumi tələbləri müəyyən etmək;

29.0.18. təhsil sahəsində dövlətlərarası, regional və beynəlxalq inkişaf proqramlarının həyata keçirilməsini təmin etmək;

29.0.19. təhsil sahəsində vahid statistik məlumat sisteminin yaradılmasını təmin etmək;

29.0.20. təhsil haqqında dövlət sənədlərinin nümunələrini və onların verilməsi qaydalarını təsdiq etmək;

29.0.21. xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) qaydalarını müəyyən etmək, ixtisasların tanınmasını və nostrifikasiyanı həyata keçirmək;

29.0.22. təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarını müəyyən etmək;

29.0.23. təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normaları təsdiq etmək, ümumi sanitariya-gigiyena tələblərini, şagird yerləri ilə təminat normativlərini müəyyənləşdirmək;

29.0.24. təhsil müəssisəsinin fəaliyyətinə xüsusi razılıq (lisenziya) vermək və onu ləğv etmək;

29.0.25. ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil üzrə ixtisasların təsnifatını təsdiq etmək;

29.0.26. təhsil müəssisələrinə elmi-metodik rəhbərliyi və nəzarəti həyata keçirmək;

29.0.27. təhsil müəssisələrində təhsilin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək;

29.0.28. təhsil müəssisələrinin akkreditasiyası qaydalarını müəyyən etmək və akkreditasiyanı həyata keçirmək;

29.0.29. təhsil müəssisələrində təhsilverənlərin və təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının aparılması qaydalarını müəyyən etmək və attestasiyanı həyata keçirmək;

29.0.30. təhsili idarəetmə orqanlarının, təhsil müəssisələrinin, təhsillə bağlı ictimai birliklərin və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsini təşkil etmək;

29.0.31. təhsil müəssisələrində aparılan elmi araşdırmaları əlaqələndirmək;

29.0.32. təhsil sisteminin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar qəbul etmək, onları dəyişdirmək və ləğv etmək;

29.0.33. təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris vasitələrinin hazırlanmasını, təsdiqlənməsini və nəşrini təmin etmək;

29.0.34. elmi dərəcələrin və elmi adların verilməsi qaydalarını və şərtlərini müəyyən etmək;

29.0.35. dövlət təhsil müəssisələri işçilərinin əməyinin stimullaşdırılmasını, o cümlədən mükafatlandırılmasını həyata keçirmək, xüsusi istedadı ilə fərqlənən təhsilalanlar üçün adlı və məqsədli təqaüdlər təsis etmək;

29.0.36. dövlət təhsil müəssisələrinin tədris, elmi, elmi-metodik, informasiya-kommunikasiya texnologiyaları və digər texniki vasitələrlə təminatını həyata keçirmək;

29.0.37. baza tədris planlarını və proqramlarını təsdiq etmək;

29.0.38. mütəxəssis-kadrlara, o cümlədən pedaqoji kadrlara olan real tələbatı müəyyənləşdirmək və onların iş yerləri ilə təmin olunmasını tənzimləmək;

29.0.39. icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət etmək;

29.0.40. dövlət təhsil müəssisələrində pulsuz tibbi xidməti təmin etmək;

29.0.41. valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş yetkinlik yaşına çatmayan uşaqların qəyyumluğa (himayəyə) götürülməsini, internat tipli dövlət müəssisələrinə göndərilməsini təşkil etmək, qəyyumların və himayəçilərin öz funksiyalarını yerinə yetirməsinə nəzarət etmək, sağlamlıq imkanları məhdud uşaqların müvafiq olaraq xüsusi təhsil və sosial müdafiə müəssisələrinə göndərilməsini təmin etmək;

29.0.42. təhsil sahəsində planlaşdırma, proqnozlaşdırma, əlaqələndirmə, təminat, təchizat və qiymətləndirməni təmin etmək.

Maddə 30. Təhsil müəssisəsinin idarə olunması

30.1. Təhsil müəssisəsi aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsasında bu Qanuna, digər normativ hüquqi aktlara və öz nizamnaməsinə uyğun idarə edilir.

30.2. Dövlət təhsil müəssisəsinə rəhbərliyi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin edilmiş dövlət təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir. Dövlət təhsil müəssisəsinin ali idarəetmə orqanı elmi və pedaqoji şuralardır. Elmi və pedaqoji şuraların yaradılması və fəaliyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş əsasnaməyə və təhsil müəssisəsinin nizamnaməsinə əsasən müəyyən edilir.

30.3. Bələdiyyə təhsil müəssisəsinə rəhbərliyi bələdiyyə tərəfindən təyin edilmiş bələdiyyə təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir.

30.4. Özəl təhsil müəssisəsinə rəhbərliyi həmin təhsil müəssisəsinin təsisçilər (himayəçilər, qəyyumlar) şurası tərəfindən təyin edilmiş özəl təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir.

30.5. Təsisçisi (təsisçiləri) əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər, o cümlədən nizamnamə kapitalının və ya səhmlərinin 51%-dən çoxu əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və ya xarici hüquqi şəxslərə məxsus təhsil müəssisəsinin rəhbərinin müavini Azərbaycan Respublikasının vətəndaşı olmalıdır. Göstərilən təhsil müəssisəsinin rəhbərinin və onun müavininin namizədliyi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılır. Həmin təhsil müəssisəsinin dövlət qeydiyyatına alınması təhsil müəssisəsi rəhbərinin və onun müavininin namizədliyi razılaşdırıldıqdan sonra həyata keçirilə bilər.

30.6. Təhsil müəssisəsinin idarə olunmasının demokratikliyini və şəffaflığını təmin etmək məqsədi ilə təhsil müəssisəsində idarə və özünüidarə orqanları (ümumi yığıncaq, himayəçilər, elmi, elmi-metodiki, pedaqoji, məktəb, valideynlər, təhsilalanlar, qəyyumlar şuraları və s.) yaradıla bilər. Bu qurumların yaradılması qaydaları və səlahiyyətləri təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

30.7. Təhsil müəssisəsinə rəhbərlik həmin müəssisənin statusuna uyğun olaraq rektor, direktor, müdir tərəfindən təhsil müəssisəsinin nizamnaməsinə uyğun həyata keçirilir.

30.8. Dövlət təhsil müəssisəsində akademik və inzibati vəzifələrin tutulmasının yaş həddi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Bu yaş həddinə çatan pedaqoji işçilərin akademik və inzibati vəzifə tutmamaq şərti ilə, təhsil müəssisəsinin tədris və elmi fəaliyyətində tam iştirak etmək hüququ təmin edilir.

30.9. Təhsil müəssisəsinin idarə edilməsi ilə bağlı məsələlərə təhsili idarəetmə orqanları istisna olmaqla, dövlət və yerli özünüidarəetmə orqanlarının və digər təşkilatların müdaxiləsinə yol verilmir.

Maddə 31. Təhsil prosesinin iştirakçıları

31.0. Təhsil prosesinin iştirakçıları aşağıdakılardır:

31.0.1. təhsilalanlar – uşaqlar, şagirdlər, tələbələr, kursantlar, müdavimlər, magistrantlar, doktorantlar və başqaları;

31.0.2. təhsilverənlər (pedaqoji işçilər) – müəllimlər, assistentlər, məsləhətçilər, tyutorlar, tərbiyəçilər, müəllim köməkçiləri, tərbiyəçi köməkçiləri, çağırışaqədərki hazırlıq rəhbərləri, defektoloqlar, loqopedlər, istehsalat təlimi ustaları, praktik psixoloqlar, sosioloq-pedaqoqlar, məktəb uşaq birliklərinin rəhbərləri, metodistlər, təhsil müəssisəsinin dərnək və musiqi rəhbərləri, təhsil müəssisəsinin elmi işçiləri, bilavasitə pedaqoji proseslə məşğul olan mühəndis-texniki, tədris-köməkçi işçilər, dayələr, təlimatçılar, təhsil müəssisəsinin kitabxanaçıları, nəşriyyat-redaksiya işçiləri, təhsili idarəetmə orqanlarının aparıcı struktur bölmələrinin əməkdaşları, təhsil müəssisələrinin və orqanlarının təlim-tərbiyə işi ilə məşğul olan rəhbərləri, təhsil müəssisəsində çalışan konsertmeystrlər və məşqçilər, sosial müdafiə, səhiyyə və digər orqanların bilavasitə pedaqoji fəaliyyətlə məşğul olan işçiləri;

31.0.3. valideynlər və ya digər qanuni nümayəndələr;

31.0.4. təhsili idarəetmə orqanları və bələdiyyələr;

31.0.5. təlim-tərbiyə prosesində iştirak edən digər fiziki və hüquqi şəxslər.

Maddə 32. Təhsilalanların hüquq və vəzifələri

32.1. Təhsilalanların hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və digər normativ hüquqi aktlara, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun müəyyən edilir.

32.2. Bütün təhsil müəssisələrinin təhsilalanları və məzunları bərabər hüquqlara malikdirlər.

32.3. Təhsilalanların hüquqları aşağıdakılardır:

32.3.1. qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil müəssisəsinə qəbul olunmaq;

32.3.2. təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisası, təhsilalma formasını və təhsil dilini sərbəst seçmək;

32.3.3. dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

32.3.4. müvafiq qaydada təhsilin təmayülünü, təhsil proqramlarını və sinifdənkənar məşğuliyyəti seçmək;

32.3.5. ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;

32.3.6. təhsil müəssisəsinin mövcud infrastrukturundan (tədris-istehsalat, elmi-tədqiqat, informasiya, mədəni-məişət, idman, sağlamlıq mərkəzlərindən, kitabxanalardan və s.) istifadə etmək;

32.3.7. müəyyən edilmiş qaydada təhsil müəssisəsini və ixtisasını dəyişmək;

32.3.8. elmi tədqiqat fəaliyyəti ilə məşğul olmaq;

32.3.9. fasiləsiz təhsil almaq;

32.3.10. sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;

32.3.11. insan ləyaqətini və şərəfini alçaldan, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

32.3.12. müəyyən edilmiş qaydada təhsil müəssisəsində təhsilini müvəqqəti dayandırmaq;

32.3.13. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;

32.3.14. dövlət orta peşə-ixtisas təhsili pilləsində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq yalnız bir dəfə pulsuz təhsil almaq;

32.3.15. dövlət və bələdiyyə ümumi təhsil müəssisələrində dərsliklərlə pulsuz təmin olunmaq;

32.3.16. təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;

32.3.17. təhsil müəssisəsinin elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq;

32.3.18. elmi-praktik konfransların, seminarların, yığıncaqların və görüşlərin, habelə təhsil həyatı ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək;

32.3.19. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

32.4. Təhsil müəssisəsində qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, təhsilalanların təhsil prosesi ilə bağlı olmayan işlərə və tədbirlərə cəlb edilməsinə yol verilmir.

32.5. Təhsilalanların vəzifələri aşağıdakılardır:

32.5.1. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

32.5.2. pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

32.5.3. təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə riayət etmək;

32.5.4. dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;

32.5.5. təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;

32.5.6. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Maddə 33. Təhsilverənlərin hüquq və vəzifələri

33.1. Təhsilverənlərin hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyası, bu Qanun və digər normativ hüquqi aktlar, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, təhsil müəssisəsinin nizamnaməsi və daxili intizam qaydaları, eləcə də işəgötürənlərlə təhsilverənlər arasında bağlanılan əmək müqavilələri ilə tənzimlənir.

33.2. Təhsilverənlərin hüquqları aşağıdakılardır:

33.2.1. normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;

33.2.2. təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək;

33.2.3. tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək;

33.2.4. şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;

33.2.5. təhsil müəssisəsində vəzifə tutmaq və müvafiq hallarda seçkili vəzifələrə seçmək və seçilmək;

33.2.6. ixtisasını artırmaq, yeni ixtisas almaq, staj keçmək, ixtisas və elmi dərəcəsini yüksəltmək;

33.2.7. müəyyən edilmiş hallarda və qaydada mükafatlandırılmaq və təltif olunmaq;

33.2.8. təhsil müəssisəsində uzun müddət qüsursuz çalışan və onun elmi-pedaqoji həyatında mühüm xidmətləri olan professorlara aylıq əmək

haqqı və əlavələr, digər güzəştlər və imtiyazlar saxlanılmaqla, akademik və inzibati vəzifədən azad olunmaq şərti ilə məsləhətçi-professor vəzifəsini tutmaq;

33.2.9. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

33.3. Təhsilverənlərin vəzifələri aşağıdakılardır:

33.3.1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

33.3.2. təhsil proqramlarının mənimsənilməsini təmin etmək;

33.3.3. təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;

33.3.4. şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hisləri aşılamaq;

33.3.5. pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;

33.3.6. təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək;

33.3.7. uşaq və gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;

33.3.8. ixtisas və elmi-pedaqoji səviyyəsini yüksəltmək, elmi araşdırmalar aparmaq, əlavə məşğələlər, sinifdənkənar və məktəbdənkənar tədbirlər keçirmək;

33.3.9. qanunvericiliklə müəyyən edilmiş qaydada attestasiyadan keçmək;

33.3.10. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Maddə 34. Valideynlərin və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri

34.1. Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində hüquqları aşağıdakılardır:

34.1.1. yetkinlik yaşına çatmayan övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) üçün təlim-tərbiyə müəssisəsini seçmək;

34.1.2. təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq;

34.1.3. təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək;

34.1.4. təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək;

4.1.5. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

34.2. Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində vəzifələri aşağıdakılardır:

34.2.1. övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) erkən yaşlarından fiziki, əxlaqi və intellektual inkişafına şərait yaratmaq, onların icbari ümumi orta təhsil almasının təmin olunması və mənəvi yetkinliyi üçün məsuliyyət daşımaq;

34.2.2. övladlarını (qəyyumluğunda və ya himayəsində olan şəxsləri) humanistlik, vətənpərvərlik, azərbaycançılıq, əməksevərlik, öz dilinə, ədəbiyyatına və tarixinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək;

34.2.3. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Maddə 35. Təhsilalanların sosial müdafiəsi

35.1. Dövlət ümumi təhsil müəssisələrində təhsilalanlar dərsliklərlə müəyyən edilmiş qaydada dövlət hesabına təmin olunurlar.

35.2. Dövlət ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil müəssisələrində təhsilalanların fəaliyyətini stimullaşdırmaq məqsədi ilə onlara qanunvericiliklə müəyyən edilmiş qaydada təqaüdlər, o cümlədən adlı təqaüdlər verilir və yardımlar göstərilir.

35.3. Təhsilalanlar üçün qanunvericiliyə uyğun olaraq digər sosial müdafiə tədbirləri də tətbiq edilə bilər.

35.4. Özəl təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi müəssisənin nizamnaməsi ilə tənzimlənir.

Maddə 36. Təhsilverənlərin sosial müdafiəsi

36.1. Dövlət təhsilverənlərin sosial müdafiəsinə təminat verir. Təhsil işçilərinin əmək haqqı və vəzifə (tarif) maaşları işçilərin funksional öhdəlikləri, peşə xüsusiyyətləri, ixtisas dərəcəsi və iş stajı nəzərə alınaraq təyin edilir.

36.2. Dövlət və bələdiyyə təhsil müəssisəsi öz sərəncamında olan büdcədənkənar vəsaitlər hesabına işçilərin əmək haqqına əlavələr və digər stimullaşdırıcı ödənişlər təyin edə bilər.

36.3. Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə əlavələrin həcmi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

36.4. Sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum, ciddi tərbiyə şəraitinə ehtiyacı olan uşaqlar üçün xüsusi təhsil müəssisələrinin, istedadlı uşaqlar üçün təhsil müəssisələrinin, eləcə də yüksək dağlıq və sərhədyanı ərazilərdə, ucqar yaşayış məntəqələrində çalışan təhsil işçilərinin əmək haqlarına və vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş qaydada əlavələr olunur.

36.5. Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

36.6. Təhsilverənlərə qanunvericiliklə müəyyən edilmiş qaydada təhsil və yaradıcılıq məzuniyyətləri verilir.

IV FƏSİL

Təhsilin iqtisadiyyatı

Maddə 37. Təhsil sistemində mülkiyyət münasibətləri

37.1. Təhsil müəssisəsinin əmlakı dövlət, bələdiyyə, təsisçilər, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən, eləcə də qanunvericiliklə qadağan olunmayan fəaliyyəti nəticəsində əldə etdiyi əmlakdan, o cümlədən ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir.

37.2. Təhsil müəssisəsi təsisçi tərəfindən torpaq sahəsi, bina və qurğular, avadanlıq, təhsil, istehsal, sosial, mədəni, tibb, iaşə və idman obyektləri, maddi-texniki baza və digər əmlakla təmin edilir.

37.3. Təhsil müəssisəsi mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır. Təhsil müəssisəsinin əmlakının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarəti təsisçi və ya onun səlahiyyət verdiyi şəxs həyata keçirir.

37.4. Dövlət təhsil müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi və genişləndirilməsi dövlət büdcəsinin vəsaitləri və büdcədənkənar vəsaitlər hesabına həyata keçirilir.

37.5. Təhsil müəssisəsi göstərdiyi xidmətlər (tədris, elmi-tədqiqat, məsləhət-konsaltinq, müalicə-profilaktik və digər xidmətlər) nəticəsində daşınar və daşınmaz əmlak, o cümlədən bina, avadanlıq, yeni texnologiya, nəqliyyat vasitələri və s. əldə edə bilər.

37.6. Dövlət mülkiyyətində olan təhsil müəssisəsinin (məktəbəqədər təhsil müəssisələri istisna olunmaqla) özəlləşdirilməsi qadağandır.

37.7. Dövlət təhsil müəssisəsinin büdcədənkənar mənbələrdən daxil olan vəsaitlər hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxil edilir.

37.8. Dövlət təhsil müəssisəsinin istifadəsinə verilmiş əmlakın geri qaytarılması qanunvericiliklə tənzimlənir.

37.9. Təhsil müəssisəsinin müflis elan edilməsi müvafiq qanunvericiliyə uyğun həyata keçirilir.

Maddə 38. Təhsil müəssisəsinin maliyyələşdirilməsi

38.1. Dövlət təhsilin inkişafına dövlət büdcəsindən və digər mənbələrdən vəsaitlər ayırır.

38.2. Təhsil müəssisəsi qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə müxtəlif ödənişli təhsil xidmətləri göstərmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, hüquqi və fiziki şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak dövlət təhsil müəssisəsinə büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq sərbəst istifadə edilir.

38.3. Dövlət ali və orta ixtisas təhsili müəssisələrinin əldə etdiyi mənfəət yalnız təhsilin inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilə bilər.

38.4. Dövlət təhsil müəssisəsinin maliyyələşdirilməsi təhsilin hər pilləsi üzrə müəyyən edilmiş maliyyə normativlərinə əsasən həyata keçirilir. Bu normativlər təhsil müəssisəsinin tipinə, növünə və kateqoriyasına uyğun olaraq hər bir təhsilalana düşən məsrəf məbləği nəzərə alınmaqla müəyyən edilir.

38.5. Zəruri hallarda müvafiq icra hakimiyyəti orqanının qərarı ilə azkomplektli dövlət ümumi təhsil müəssisələri mövcud normativlərdən üstün maliyyələşdirilə bilər.

38.6. Dövlət təhsil müəssisəsi nizamnaməsinə uyğun olaraq, ödənişli təhsildən əldə olunan və digər büdcədənkənar vəsaitlərin xərclənməsi istiqamətlərini və işçilərin maddi həvəsləndirilməsinə ayırmaların xüsusi çəkisini sərbəst müəyyən edir, təhsilverənlərə və təhsilalanlara maddi yardımlar göstərir.

38.7. Dövlət təhsil müəssisəsinin inkişafına, təhsilalanların təhsil haqlarının və təhsillə bağlı xərclərinin ödənilməsinə uzunmüddətli və fərdi kreditlər verilməsini, elmi-tədqiqat işlərinin aparılması, doktorantura proqramlarının maliyyələşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və digər məqsədlər üçün müvafiq qaydada qrantlar ayrılmasını təmin edir. Kreditlərin və qrantların verilməsi qaydaları və şərtləri müvafiq qanunvericilik aktları ilə müəyyən edilir. Dövlət təhsil və elmi-tədqiqat qrantları təhsil müəssisəsinin digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə yönəldilə bilməz.

38.8. Dövlət təhsil sahəsinə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi məqsədi ilə əlverişli investisiya mühitinin yaradılmasını təmin edir və bu məqsədlə sərmayəçilərə qanunvericiliklə müəyyən edilmiş qaydada güzəştlər verilir.

38.9. Təhsil sisteminə xarici investisiya qoyuluşu qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

Maddə 39. Dövlət və bələdiyyə təhsil müəssisələrinin maliyyələşdirilməsi mənbələri

39.0. Dövlət və bələdiyyə təhsil müəssisələri aşağıdakı mənbələrdən maliyyələşdirilir:

39.0.1. qanunvericiliyə uyğun olaraq dövlət büdcəsinin və yerli büdcənin vəsaitləri;

39.0.2. ödənişli təhsildən daxil olan vəsaitlər;

39.0.3. hüquqi və fiziki şəxslərin, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin qanunvericiliyə uyğun olaraq verilən qrantları, vəsiyyət olunan vəsaitləri, ianələri və yardımları;

39.0.4. müsabiqə əsasında dövlət tərəfindən ayrılan elmi-tədqiqat qrantları;

39.0.5. təhsil müəssisəsinin təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə etdiyi vəsaitlər;

39.0.6. hüquqi və fiziki şəxslərin müqavilə əsasında mütəxəssis hazırlığı, ixtisasartırma və kadrların yenidən hazırlanması üçün ayırdıqları vəsait;

39.0.7. dövlət orqanları tərəfindən maliyyələşdirilən məqsədli proqramlar və layihələr üzrə əldə olunan vəsaitlər;

39.0.8. təhsil müəssisəsinin mülkiyyətində olan fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığın, nəqliyyat vasitələrinin və təhsil məqsədləri üçün yararsız olan digər əmlakın satışından qanunvericiliyə uyğun olaraq əldə edilən vəsaitlər;

39.0.9. təhsil müəssisəsinin beynəxalq əməkdaşlıq nəticəsində qanunvericiliyə uyğun olaraq əldə etdiyi qrantlar və vəsaitlər;

39.0.10. qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən əldə olunan vəsaitlər.

Maddə 40. Özəl təhsil müəssisəsinin maliyyələşdirilməsi

40.1. Özəl təhsil müəssisəsi aşağıdakı mənbələrdən maliyyələşdirilir:

40.1.1. təhsil xidmətlərinə görə əldə etdiyi vəsaitlər;

40.1.2. təsisçilərin (himayəçilərin) vəsaitləri;

40.1.3. qanunvericiliyə uyğun olaraq aldıqları qrantların və kreditlərin məbləğləri;

40.1.4. hüquqi və fiziki şəxslərin ianələri, yardımları, vəsiyyət etdikləri əmlak və bağışladıqları hədiyyələr;

40.1.5. təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə etdikləri vəsaitlər;

40.1.6. qanunvericiliklə qadağan edilməyən digər mənbələr hesabına əldə olunan vəsaitlər.

40.2. Özəl təhsil müəssisəsi öz maliyyə vəsaitlərini sərbəst idarə edir.

40.3. Özəl təhsil müəssisəsi təhsil haqqının məbləğini hər bir təhsil pilləsi üzrə təhsil proqramlarına uyğun olaraq sərbəst müəyyən edir.

40.4. Özəl təhsil müəssisəsi ilə təhsilalanlar, valideynlər və ya digər qanuni nümayəndələr arasında münasibətlər müqavilə ilə tənzimlənir.

Maddə 41. Təhsil müəssisəsinin sahibkarlıq fəaliyyəti

41.1. Təhsil müəssisəsi əlavə gəlir əldə etmək məqsədi ilə nizamnaməsində nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilər.

41.2. Təhsil müəssisəsi sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlərdən sərbəst istifadə etmək hüququna malikdir. Dövlət təhsil müəssisəsinin sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlər bilavasitə təhsilin inkişafına və işçilərin sosial müdafiəsinə yönəldilir.

41.3. Təhsil müəssisəsi sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi şəxslər yarada bilər və ya başqa hüquqi şəxslərin fəaliyyətində iştirak edə bilər.

Maddə 42. Keyfiyyətsiz təhsilə görə vurulan zərərin ödənilməsi

42.1. Təhsil müəssisəsində təhsilin dövlət təhsil standartlarına uyğun təşkil olunmaması nəticəsində təhsilalanların keyfiyyətsiz hazırlığı müəyyən edildiyi halda vurulmuş zərərin, o cümlədən təhsilalanların başqa təhsil müəssisələrində yenidən hazırlanması üçün zəruri olan xərclərin həmin təhsil müəssisəsi tərəfindən ödənilməsi barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən məhkəmədə iddia qaldırıla bilər.

42.2. Bu Qanunun 42.1-ci maddəsinə uyğun olaraq iddia yalnız akkreditasiya olunmuş təhsil müəssisəsi barədə akkreditasiya xidməti tərəfindən verilən mənfi rəyə əsasən qaldırıla bilər.

V FƏSİL

Təhsil sahəsində beynəlxalq əlaqələr

Maddə 43. Təhsil sahəsində beynəlxalq əməkdaşlıq və xarici əlaqələr

43.1. Təhsil sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir.

43.2. Təhsil müəssisəsi qanunvericiliyə və özünün fəaliyyət xüsusiyyətlərinə uyğun olaraq xarici ölkələrin elm və təhsil müəssisələri, təşkilatları, beynəlxalq qurumlar və fondlarla birbaşa əlaqələr yarada, əməkdaşlıq haqqında ikitərəfli və çoxtərəfli müqavilələr bağlaya, təhsil sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət qurumlarına (ittifaqlar, birliklər, assosiasiyalar və s.) daxil ola və əməkdaşlığın digər formalarını həyata keçirə bilər.

43.3. Təhsil müəssisəsi beynəlxalq səviyyəli birgə elm və təhsil layihələrinin hazırlanması, fundamental elmi-tədqiqat və layihə-konstruktor işlərinin, elmi-praktik konfransların, simpoziumların keçirilməsi, tələbələrin, magistrlərin, doktorantların, müəllimlərin və elmi işçilərin mübadiləsi, iddia sənədi, patent və ya onlarla bağlı hüquqların özgəninkiləşdirilməsi və bu qəbildən olan digər fəaliyyətlə müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada müstəqil məşğul olmaq hüququna malikdir.

43.4. Təhsil müəssisəsinin (xüsusi təyinatlı təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinin keyfiyyətini yüksəltmək və beynəlxalq əlaqələrini genişləndirmək məqsədi ilə Azərbaycan Respublikasının mövcud normativ hüquqi aktlarının tələblərini gözləməklə müstəqil olaraq xarici tərəfdaşlarla birlikdə ölkə daxilində və xarici dövlətlərdə müştərək struktur bölmələri (mərkəzlər, filiallar, laboratoriyalar, texnoparklar və s.) yaratmaq hüququ vardır.

43.5. Təhsil müəssisəsinin birbaşa beynəlxalq əməkdaşlıq müqavilələrinə dövlət tərəfindən zəmanət verilmir.

Maddə 44. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil almaq hüququ

44.1. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsilin hər hansı pilləsində təhsil alması və ya ixtisas artırması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, dövlət tərəfindən müəyyən edilmiş kvota və təhsil müəssisəsinin, hüquqi və fiziki şəxslərin birbaşa bağladıqları müqavilələr əsasında həyata keçirilir.

44.2. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması qaydaları, xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativ hüquqi aktlarla tənzimlənir.

44.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan hallar istisna olmaqla, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almaq hüququ yoxdur.

VI FƏSİL

Keçid və yekun müddəaları

Maddə 45. Qanunun pozulmasına görə məsuliyyət

Bu Qanunu pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Maddə 46. Keçid müddəaları

46.1. Bu Qanun qüvvəyə minənədək verilmiş elmlər namizədi alimlik dərəcəsi müvafiq sahə üzrə fəlsəfə doktoru dərəcəsinə bərabər tutulur.

46.2. Bu Qanun qüvvəyə minənədək aspiranturada təhsil alan şəxs doktorant statusu əldə edir.

Maddə 47. Qanunun qüvvəyə minməsi

47.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

47.2. Bu Qanunun qüvvəyə mindiyi gündən Azərbaycan Respublikasının 1992-ci il 7 oktyabr tarixli, 324 nömrəli Təhsil Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 24, maddə 1031; 1994-cü il, № 16, maddə 216; 1995-ci il, № 7, maddə 123; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 3, maddə 226, № 4, maddələr 287, 294, № 6, maddə 450; 1998-ci il, № 1, maddə 16; 1999-cu il, № 5, maddələr 285, 286; 2001-ci il, № 3, maddə 138, № 11, maddə 672, № 12, maddələr 731, 736; 2003-cü il, № 1, maddə 1; 2004-cü il, № 4, maddə 202, № 6, maddə 415; 2007-ci il, №11, maddə 1049) qüvvədən düşmüş hesab edilir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 iyun 2009-cu il

TƏHSİL SAHƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI

M.C.Mərdanovun Azərbaycan Respublikasının təhsil naziri təyin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:

Mərdanov Misir Cumayıl oğlu Azərbaycan Respublikasının təhsil naziri təyin edilsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 mart 1998-ci il

«Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

– qüvvədə olan qanunvericilik aktlarının «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

– Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

– Uşaq hüquqları haqqında Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

– öz səlahiyyətləri daxilində «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

– «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində nəzərdə tutulmuş uşaq hüquqlarının müdafiəsini Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında və rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti orqanları yanında, Yetkinlik yaşına çatmamışların işləri üzrə komissiyalar, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Övladlığa Götürmə Məsələləri Komissiyası, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və öz səlahiyyətləri daxilində digər icra hakimiyyəti orqanları həyata keçirirlər;

– həmin qanunun 12-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında və rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti orqanları yanında Yetkinlik yaşına çatmamışların işləri üzrə Komissiyalar, habelə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;

– həmin qanunun 29-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

– həmin qanunun 43-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında və rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti orqanları yanında Yetkinlik yaşına çatmamışların işləri üzrə Komissiyalar həyata keçirirlər.

Heydər ƏLIYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 24 avqust 1998-ci il

M.C.Mərdanovun Azərbaycan Respublikasının təhsil naziri təyin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:

Mərdanov Misir Cumayıl oğlu Azərbaycan Respublikasının təhsil naziri təyin edilsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 17 noyabr 1998-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Dövlət idarəçilik sahəsi üçün mütəxəssislər hazırlanması işinin müasir tələblərə uyğun qurulması, onların peşəkarlıq səviyyələrinin artırılması, dövlət idarəçilik sahəsində elmi-tədqiqatların aparılmasının təşkili və həmin sahənin analitik-informasiya təminatının möhkəmləndirilməsi məqsədi ilə qərara alıram:

1. Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradılsın.

2. Akademiyanın fəaliyyətinə ümumi rəhbərlik və təşkilati məsələlərin həlli Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına, elmi-metodik rəhbərlik isə Azərbaycan Respublikasının Təhsil Nazirliyinə həvalə olunsun.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nizamnaməsi təsdiq edilsin.

4. Dövlət İdarəçilik Akademiyasında təhsil prosesi 1999-cu il sentyabrın 1-dən başlansın.

5. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılsın ki, keçmiş Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda təhsil alan tələbələrin müvafiq dövlət təhsil müəssisələrinə köçürülmələrini təmin etsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri 1999-cu ilin sentyabrın 1-dək həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 3 yanvar 1999-cu il

«Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

– qüvvədə olan qanunvericilik aktlarının «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
– «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
– bu fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş məsələlərə dair müvafiq normativ-hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

– öz səlahiyyətləri daxilində «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

– «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

– həmin qanunun 3-cü maddəsinin üçüncü və dördüncü hissələrində, 5-ci maddəsinin üçüncü və altıncı hissələrində, 8-ci maddəsinin dördüncü və yeddinci hissələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

– həmin qanunun 7-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

– həmin qanunun 7-ci maddəsinin dördüncü, beşinci və altıncı hissələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti orqanları yanında Yetkinlik Yaşına Çatmamışların İşləri üzrə Komissiyalar həyata keçirirlər;

– həmin qanunun 8-ci maddəsinin birinci və üçüncü hissələrində və beşinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi təhsil nazirliyi ilə birlikdə həyata keçirirlər;

– həmin qanunun 8-ci maddəsinin beşinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 avqust 1999-cu il

Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Müstəqil Azərbaycan Respublikasında təhsil sahəsində genişmiqyaslı islahatlar həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş İslahat Proqramından irəli gələn məsələlərin həlli, o cümlədən təhsilin idarə olunmasından yeni prinsiplərin bərqərar olması, təhsilin dünya standartlarına uyğunlaşdırılması, onun məzmununda köklü keyfiyyət dəyişikliklərinin aparılması təhsil sisteminin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoyur.

Azərbaycan vətəndaşlarının təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə qərara alıram:

1. Müəyyən edilsin ki, mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrinə tədris-metodiki rəhbərlik, təlim və tədris prosesinin keyfiyyətinə nəzarət Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

2. Azərbaycan Respublikasında ayrı-ayrı nazirliklərin, dövlət komitələrinin, konsernlərinin, şirkətlərinin, birliklərinin və digər dövlət qurumlarının tabeliyində olan təlim-tərbiyə və təhsil müəssisələri (Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin tabeliyində olan təhsil müəssisələri istisna olmaqla) Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilsin.

3. Təhsil Nazirliyinin Bakı Baş Təhsil İdarəsi ləğv edilsin, respublikanın bütün şəhər və rayon təhsil şöbələri bilavasitə Təhsil Nazirliyinin tabeliyinə verilsin. Cari ildən başlayaraq hər il dövlət büdcəsinin layihəsi hazırlanarkən orada şəhər və rayon təhsil şöbələrinin maliyyələşdirilməsi üçün müəyyən edilən vəsaitin birbaşa Təhsil Nazirliyinə ayrılması nəzərdə tutulsun. Müəy-

yən edilsin ki, ləğv edilmiş Bakı Baş Təhsil İdarəsinin maddi-texniki bazası və bütün qurumları Təhsil Nazirliyinin sərəncamına keçir.

4. Dövlət ali və orta ixtisas təhsili müəssisələrinin filialları ləğv edilsin.

5. Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət ali və orta ixtisas təhsili müəssisələrindən şəxs adları götürülsün.

6. Müəyyən edilsin ki, Bakı Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası və Azərbaycan Kənd Təsərrüfatı Akademiyası özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərir və onların maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsi hazırlanarkən ayrıca sətirlə verilir.

7. Azərbaycan Dövlət İqtisad İnstitutunun, Bakı Əmtəəşünaslıq və Kommersiya İnstitutunun, Azərittifaqın müraciətini nəzərə alaraq Azərbaycan Kooperasiya İnstitutu və Bakı Kooperativ Texnikumunun bazasında Azərbaycan Dövlət İqtisad Universiteti yaradılsın.

8. Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin təsviri sənət profilli fakültələrinin və Azərbaycan Dövlət Rəssamlıq Texnikumunun bazasında Azərbaycan Rəssamlıq Akademiyası təsis edilsin. Akademiyanın nəzdində fəaliyyət göstərən İncəsənət Kolleci yaradılsın.

9. Bakı Musiqi Akademiyasının xalq musiqisi profilli ixtisaslarının və Azərbaycan Dövlət Musiqi Texnikumunun bazasında Azərbaycan Milli Konservatoriyası təsis edilsin, Konservatoriyanın nəzdində fəaliyyət göstərən Musiqi Kolleci yaradılsın.

10. Məktəbəqədər tərbiyə müəssisələri və məktəblərin ibtidai sinifləri üçün pedaqoji kadrlar hazırlamaq, habelə müəllimlərin ixtisaslarının artırılması, təkmilləşdirilməsi və yenidən hazırlanmasını təmin etmək məqsədi ilə Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun bazasında Azərbaycan Müəllimlər İnstitutu yaradılsın. İnstitutun Ağcabədi (Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialı, Bakı Mədəni-Maarif Texnikumunun Ağcabədi şöbəsi və Ağdaş Pedaqoji Texnikumunun Ağcabədi şöbəsinin bazasında), Cəlilabad (Cəlilabad Kənd Təsərrüfatı Texnikumunun bazasında), Gəncə (Gəncə Zona Müəllimləri Təkmilləşdirmə İnstitutunun və Gəncə şəhəri təsərrüfat hesablı Məişət Kollecinin bazasında), Qazax (Gəncə Dövlət Pedaqoji İnstitutunun filialının bazasında), Quba (Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin Quba filialının bazasında), Mingəçevir (Mingəçevir Politexnik Texnikumunun və

Azərbaycan Maliyyə-İqtisad Kollecinin Xocalı filialının bazasında), Naxçıvan (Naxçıvan Politexnik Texnikumunun bazasında), Salyan (Salyan Kənd Təsərrüfatı Texnikumunun bazasında), Sumqayıt (Sumqayıt Politexnik Texnikumunun bazasında), Şamaxı (Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının bazasında), Şəki (Bakı Dövlət Universitetinin Şəki filialının və Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun Şəki filialının bazasında) filialları açılsın. Təhsil Nazirliyi respublikanın bölgələrində pedaqoji yönlü təhsil mərkəzləri şəbəkəsinin genişləndirilməsi və onun imkanlarından regionlarda müəllimlərin təkmilləşdirilməsi, ixtisaslarının artırılması və yenidən hazırlanması sistemi üçün dayaq məntəqələri kimi istifadə olunması haqqında təkliflərini bir ay müddətində hazırlayıb Nazirlər Kabinetinə təqdim etsin.

11. Azərbaycan Sənaye İnstitutunun bazasında Sumqayıt Dövlət Universiteti yaradılsın.

12. Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun profili genişləndirilməklə Bakı Slavyan Universiteti yaradılsın.

13. Azərbaycan Dövlət Dillər İnstitutunun profili genişləndirilməklə Azərbaycan Dillər Universiteti yaradılsın.

14. Gəncə Dövlət Pedaqoji İnstitutunun profili genişləndirilməklə Gəncə Dövlət Universiteti yaradılsın.

15. Azərbaycan Texnologiya İnstitutunun profili genişləndirilməklə Azərbaycan Texnologiya Universiteti yaradılsın.

16. Azərbaycan İnşaat Mühəndisləri Universiteti Azərbaycan Memarlıq və İnşaat Universiteti adlandırılsın.

17. Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdindəki Elmi-Metodik Mərkəz və Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun bazasında Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu yaradılsın.

18. Təhsil Nazirliyinin nəzdində müasir informasiya texnologiyalarının, audio-video materialların təhsildə tətbiqi, məsafədən təhsil üsullarının, tərbiyə və təlimin günün tələblərinə uyğun digər metodlarının həyata keçirilməsi məqsədi ilə təsərrüfat hesablı Təhsil Texnologiyaları Mərkəzi yaradılsın.

19. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Təhsil Nazirliyi və digər aidiyyəti orqanlarla birlikdə:

– müəllimlərin müasir tələblərə cavab verən attestasiya mexanizmini iki ay müddətində hazırlayıb təsdiq etsin;

- təhsil sistemində yeni şəraitə uyğun idarəetmə mexanizmini, o cümlədən təhsil müəssisələrinin özünüidarəetmə əsasında fəaliyyətini tənzimləyən sənədləri bir ay müddətində hazırlayıb təsdiq etsin;
- təhsil müəssisələrində verilən təqaüdlərin stimullaşdırıcı rolunu artırmaq məqsədilə bu sahədə mövcud qaydaların təkmilləşdirilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- tədris prosesinin səmərəliliyini artırmaq məqsədi ilə icbari ümumi orta təhsilin optimal müddətinə dair, müəllimlərin illik və həftəlik tədris yükünün minimum həddinin müəyyənləşdirilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- bu fərmanın icrası nəticəsində qənaət olunan maliyyə vəsaitinin təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsinə və təhsil işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilməsini təmin etsin;
- təhsil qurumlarının ləğv olunması və ya birləşdirilməsi nəticəsində onların azad olmuş maddi-texniki bazasından yalnız təhsil məqsədləri üçün istifadə olunmasını təmin etsin;
- Bakı Dövlət Universitetinin, Azərbaycan Memarlıq və İnşaat Universitetinin, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Kollecinin ərazisində yerləşən natamam tikililərin müvafiq olaraq onların balansına verilməsini və tikintisi yarımçıq qalmış binaların inşasının başa çatdırılmasını maliyyələşdirmək üçün dövlət büdcəsinin layihəsi hazırlanarkən onların daxili imkanlarını nəzərə almaqla lazımi vəsaitin ayrılmasını təmin etsin;
- Azərbaycan Respublikasında təhsilin keyfiyyətinə nəzarət mexanizmini iki ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Azərbaycan Respublikasında təhsilin bütün pillələrindəki qeyri-dövlət müəssisələrinin fəaliyyətinin müvafiq standartlara uyğunluğunu təmin etmək məqsədi ilə tədbirlər görsün və nəticəsi barədə 2000-ci il avqustun 1-nə kimi Azərbaycan Respublikasının Prezidentinə məruzə etsin;
- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi, Mədəniyyət Nazirliyi və Azər-

baycan Dövlət Dəmiryolu İdarəsinin strukturunda təhsillə bilavasitə bağlı olan qurumların ştat vahidlərinin və maliyyə vəsaitinin Təhsil Nazirliyinin sərəncamına verilməsini təmin etsin;
– Təhsil Nazirliyinin yeni strukturu, ştat cədvəli və Əsasnaməsinin 2 ay ərzində hazırlanıb təsdiq olunmasını təmin etsin;
– bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

20. Bu fərman dərc olunduğu gündən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 13 iyun 2000-ci il

«Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli 349 nömrəli fərmanına dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli 349 nömrəli fərmanında aşağıdakı dəyişikliklər edilsin:

1. Fərmanın 2-ci bəndindəki «Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin» sözlərindən sonra «Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin, Azərbaycan Hava Yolları Dövlət Konserninin» sözləri əlavə edilsin.

2. Fərmanın 3-cü və 7-ci bəndləri aşağıdakı redaksiyada verilsin:

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti Bakı şəhərində orta təhsil sisteminin idarə edilməsinin təkmilləşdirilməsi barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Azərbaycan Dövlət İqtisad İnstitutunun, Bakı Əmtəəşünaslıq və Kommersiya İnstitutunun bazasında Azərbaycan Dövlət İqtisad Universiteti yaradılsın.

Ölkədə iqtisadi profilli mütəxəssislərin hazırlanması işinin təkmilləşdirilməsi zərurətini nəzərə alaraq Azərittifaqa tövsiyə olunsun ki, Azərbaycan Kooperasiya İnstitutunun gələcək fəaliyyəti və Bakı Kooperativ Texnikumunun profilinin dəyişdirilməsi məsələsini Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə baxıb həll etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti təhsilin və elmin inteqrasiyası barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 avqust 2000-ci il

Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin geniş tətbiq edilməsi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin nəticələrinin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur. Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir.

Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur.

Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün hər hansı xalqa bir neçə minillik tarix yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan zalqı dünyanın ən qədim xalqlarındandır.

Azərbaycan dilinin dünya dilləri arasında ən kamil dillərdən biri olduğu həqiqətini bir çox xalqların görkəmli nümayəndələri də dönə-dönə etiraf etmişlər. Onlar öz əsərlərində bu dili XIX əsrdə Avropada geniş yayılmış fransız dili ilə müqayisə edərək onu Avrasiyanın hər tərəfində işlənilən bir dil kimi yüksək qiymətləndirmişlər. Milyonlarla azərbaycanlının hazırda mədəni inkişaf vasitəsi olan bu dil tarixən nəinki Qafqazda yayılmışdır, hətta müəyyən dövrlərdə daha geniş məkanda müxtəlif dilli xalqların da istifadə etdikləri ümumi bir dil olmuşdur.

Neçə-neçə böyük mədəniyyətin yaradıcısı olan xalqımızın tarixi qədər onun dilinin təşəkkülü tarixi də olduqca qədimdir. Azərbaycan dili türk mənşəli ümumxalq canlı danışıq dili zəminində əmələ gəlib şifahi ədəbi dilə çevrilənədək və sonradan bu əsasda Azərbaycan ədəbi dilinin yazılı qolu təşəkkül tapana qədər yüzillər boyunca mürəkkəb bir yol keçmişdir.

Qədim və zəngin tarixə malik türk dili ailəsinin Oğuz qrupuna daxil olan Azərbaycan dilinin tarixi miladdan əvvəlki dövrlərə gedib çıxır. Ayrı-ayrı türk boy birləşmələrinin ümumi anlaşma vasitəsi olan bu dil IV–V əsrlərdən etibarən ümumxalq danışıq dili kimi fəaliyyət göstərməyə başlamışdır. Dilimizin özəyini ta qədimlərdən Azərbaycan torpaqlarındakı türk əsilli boyların və soyların dili təşkil etmişdir.

Azərbaycan dili dialekt və şivələrinin geniş Avrasiya məkanına yayılan türk xalqlarının az qala bütün dil xüsusiyyətlərini əks etdirəcək qədər rəngarəng olmasının da başlıca səbəbi ta qədimlərdən bu torpaqlarda etnik baxımdan eyni köklü türk etnoslarının mövcud olmasıdır. Şifahi şəkildə yayılan ilkin ədəbiyyat nümunələri – dastanlar, nağıllar, bayatılar, laylalar və sair Azərbaycan şifahi ədəbi dilinin erkən formalaşması və təkamülə zərurətini yaratmışdır.

Azərbaycan ədəbi dilinin yazılı qolu da əlverişli tarixi şəraitdə ümumxalq dili əsasında təşəkkül tapmışdır. Xalq şifahi şəkildə yaratdıqlarını əbədiləşdirmək üçün sonradan onları yazıya köçürmüşdür. Bu prosesin də yazı dilinin təşəkkülü və sabitləşməsində böyük əhəmiyyəti olmuşdur. Bu baxımdan

«Kitabi-Dədə Qorqud» eposu olduqca səciyyəvidir. Abidənin bədii dilinin özünəməxsus səlisliyi bir daha göstərir ki, «Kitabi-Dədə Qorqud»un meydana çıxa bilməsi üçün Azərbaycan dili böyük tarixi ədəbi hazırlıq mərhələsi keçməli idi.

Qaynağını uzaq keçmişdən alan Azərbaycan dilinin ilk və ən qədim yazılı nümunələri günümüzədək gəlib çatmasa belə, ölkəmizin ərazisində bədii məna kamilliyi və digər amillər bu dilin dərin tarixi köklərə malik olduğunu sübuta yetirir. Həsənoğlu, Qazi Bürhanəddin, Nəsimi kimi söz sənətkarları Azərbaycan ədəbi dilinin belə bir bünövrəsi üzərində yüksəlmişlər.

XVI əsr Azərbaycan dilinin mövqelərinin möhkəmlənməsi ilə əlamətdardır. Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan dili dövlət dili səviyyəsinə qalxaraq rəsmi və dövlətlərarası yarışmalarda işlədilməyə başlandı. Səfəvilər dövründə Azərbaycan dili sarayda və orduda tam hakim mövqe tutaraq dövlət dili kimi rəsmiləşdi. Anadilli ədəbiyyatın böyük ustadları Şah İsmayıl Xətai və Məhəmməd Füzuli, xalq ədəbiyyatımızın adı bizə bəlli ilk qüdrətli nümayəndəsi Aşıq Qurbani bu dövrdə yetişmişdir. Əgər şifahi şeir dili Qurbaninin əsərlərində əks olunmuşdusa, xalq şeiri dilinin yazılı qolu Şah İsmayıl Xətai və Məhəmməd Əmaninin yaradıcılığı ilə təmsil olunmuşdu. Füzulinin dolğun dili isə elmi və fəlsəfi olduğu qədər də xəlqi idi.

XVII əsrin xalq şeirində cərəyan edən proseslər XVIII əsrdə şifahi xalq ədəbiyyatının bədii dilə təsiri şəklində özünü göstərir. Ədəbi dildə sadəliyə, canlı danışıq elementlərinə meyilin gücləndiyi bu dövrdə Azərbaycan dilinin yeni inkişaf mərhələsi məhz Molla Pənah Vaqifin yaradıcılığı ilə başlanır.

XVIII əsrdə Azərbaycan ədəbi dilində üslub baxımından da zənginləşmə prosesi gedir. Elmi üslubun təşəkkülü üçün şərait yaranır, ayrı-ayrı elm sahələrinə dair bir çox əsərlər yazılır.

XIX əsr ədəbi dilimizin inkişafı xalqımızın həyatında baş verən köklü bir hadisə ilə yaxından bağlıdır. Bu, Azərbaycanın ikiyə parçalanması nəticəsində iki ayrı dövlətin tabeçiliyinə, bir-birindən fərqli mədəni mühitdə yaşamağa məhkum olması hadisəsidir. Müstəmləkəçilik siyasəti ilə yanaşı, Rusiyanın Şimali Azərbaycanda oynadığı mədəniləşdirici rol başqa elm sahələri kimi, dilçiliyin də inkişafına zəmin yaratmışdır. XIX əsrin ortalarından etibarən Azərbaycan dilinə aid bir sıra dərsliklər və dərs vəsaitləri yazılıb nəşr olunmuşdur. Milli maarifçi ziyalılar özləri ana dilini öyrənməyin, onu qoruyub saxlamağın ən əsas yolunu məktəblərdə tədrisin ana dilində aparılmasında

gördüklərindən, Azərbaycan dilinə aid dərsliklər və lüğətlər yazmağa başlamışdılar. Azərbaycan dilinə dair ilk dərsliklərin yazılmasında o dövrün görkəmli maarifçiləri Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, Seyid Əzim Şirvani, Aleksey Çernyayevski, Mirzə Əbülhəsən bəy Vəzirov, Seyid Ünsizadə, Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə, Məmmədtağı Sidqi, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov. Abdulla Şaiq və başqalarının xidmətlərini qeyd etmək lazımdır.

Zaman keçdikcə dövrün tələbinə uyğun olaraq Azərbaycan dilinin istifadə dairəsi də genişlənmiş, onun tətbiqinin və inkişafının elmi əsaslar üzərində aparılması ehtiyacı meydana çıxmışdır. Rusca-azərbaycanca və azərbaycanca-rusca lüğətlər, təcrübi-tədris kitabları nəşr olunmuşdur. Məhz bu dövrdən başlayaraq Azərbaycan ədəbi dilinin normalarının müəyyənləşdirilməsində nəzəri-dilçilik idcyaları təzahür edir. Bu baxımdan Mirzə Fətəli Axundovun ədəbi dil haqqında milli ədəbiyyatın realist məzmununa uyğun gələn tezisləri xüsusilə diqqəti cəlb edir.

Dram, satira, realist nəsr dilinin yarandığı XIX əsrdə elmi üslubun əsası kimi müasir elmi-fəlsəfi dilin ilk nümunələrinə də rast gəlirik. Mətbuat dili də bu əsrin məhsuludur. «Əkinçi»dən başlayaraq yaranmış milli mətbuat bu dilin inkişafında mühüm rol oynamışdır.

XX yüzillik isə Azərbaycan ədəbi dilinin ən sürətli tərəqqisi və çiçəklənməsi dövrüdür. Ədəbi dil məsələsi hələ əsrin əvvəlindən ictimai-siyasi mübarizənin tərkib hissəsi olmuşdur. Həmin dövrdə ana dili kitabları hazırlanmış, dərsliklər buraxılmış, müntəxəbatlar tərtib olunmuşdur. Azərbaycan dilinin səs quruluşuna və qrammatik sisteminə dair kitablar yazılmışdır.

Mətbuat ana dili, ədəbi dil uğrunda mübarizənin önündə gedirdi. Ədəbi dil normasının müəyyənləşməsində bütün görkəmli ziyalılar iştirak edirdilər. Xalq dili xəzinəsinin qapıları «Molla Nəsrəddin» vasitəsilə ədəbi dilin üzünə açılırdı. Bu dövrdə yaranan səhnə sənəti də yeni milli-mədəni şəraitdə ədəbi dilə bədii nitq vasitəsilə öz töhfəsini vermişdir.

Ana dilinin talcyinə heç bir ziyalının laqeyd qalmadığı bu dövrdə Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyov, Ömər Faiq Nemanzadə kimi görkəmli söz ustaları Azərbaycan dilinin saflığı və onun yad ünsürlərdən qorunması uğrunda fədakarcasına mübarizə aparırdılar.

Azərbaycan ədəbi dilinin tarixində bundan sonrakı yeni mərhələ sovet dövrü ilə başlayır. Ərəb əlifbasını daha uyğun bir əlifba ilə əvəz etmək məq-

sədi ilə 1921-ci ildə əlifba komitəsi yaradıldı və həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtib etmək tapşırıldı. Bir qədər sonra isə yeni əlifbaya keçildi. 1926-cı ildə Bakıda birinci beynəlxalq türkoloji qurultay çağırıldı. Bu, türk dünyası üçün böyük tarixi əhəmiyyəti olan bir hadisə idi. Qurultayın Bakıda keçirilməsini 20-30-cu illər Azərbaycanın dilçilik sahəsindəki elmi potensialına verilən qiymət kimi səciyyələndirmək olar.

Təəssüflə qeyd etmək lazımdır ki, sonralar qurultayın qərarlarının yerinə yetirilməsi yolunda süni maneələr yaradıldı, türkdilli xalqların mədəni inteqrasiyasına yönəldilmiş bu nəcib iş siyasi məqsədlərə qurban verildi. Azərbaycanın dilçi alimlərinin böyük əksəriyyəti isə totalitar rejimin repressiyalarına məruz qaldı. 1939-cu ildə latın qrafikalı əlifbadan kiril qrafikası əsasında yaradılmış yeni Azərbaycan yazısına qəti və məcburi keçmək haqqında qərar verildi. Beləliklə, 1924-cü ildən 1939-cu ilə qədər keçən on beş il ərzində xalqın yazı mədəniyyətinə bir-birinin ardınca iki ağır zərbə dəydi. Buna baxmayaraq, Azərbaycan dili çətinliklə də olsa, bütün bu illər ərzində yenə öz saflığını qoruya bilmiş, elmi və bədii ədəbiyyatda, publisistikada böyük imkanlara malik olduğunu nümayiş etdirmişdir.

1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının tərkibində müstəqil Dilçilik İnstitutunun yaranması dilçiliyimizin bir elm kimi inkişafına təkan verdi. Dilçilik elmimiz XX əsrdə sürətli inkişaf dövrü yaşamışdır. Həmin dövrdə ədəbi dilimizi tədqiq edən Bəkir Çobanzadə, Məmmədağa Şirəliyev, Əbüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Əliheydər Orucov, Səlim Cəfərov, Əlövsət Abdullayev, Fərhad Zeynalov və başqa dilçi alimlərimizin böyük ordusu yaranmışdır. Dərin qürur və fərəh hissi ilə demək olar ki, Azərbaycan dilçilərinin gərgin əməyi sayəsində dilçiliyin bütün sahələrində səmərəli işlər görülmüş, dil tarixi, dialektologiya, müasir dil, lüğətçilik sahələrində dəyərli tədqiqatlar aparılmışdır. Keçmiş sovet məkanında, eləcə də beynəlxalq miqyasda Azərbaycan türkoloji araşdırmaların önəmli mərkəzlərindən biri olmuşdur. Beləliklə, XX əsr bütövlükdə Azərbaycan dilinin yazı mədəniyyətinin əsl inkişaf yoluna qədəm qoyduğu bir dövrdür. Məhz bu dövrdə dilimizin funksional imkanları genişlənmiş, üslubları zənginləşmiş, dilin daxili inkişaf meyilləri əsasında yazı qaydaları cilalanmışdır.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər

bir dövlətin bir dövlət kimi formalaşması ilə bilavasitə bağlıdır. Azərbaycan xalqının tarixində Azərbaycan dili XVI əsrdə Səfəvilər hakimiyyəti dövründə dövlət dili səviyyəsinə qalxsa da, milli dövlətçiliyin itirilməsi nəticəsində həmin ənənə uzun müddət qırılmışdır. Yalnız 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Azərbaycan dilinin geniş tətbiq olunması yolunda böyük imkanlar açıldı. Bu sahədə bəzi addımlar atılsa da, gənc respublikanın ömrünün qısa olması Azərbaycan dilinin cəmiyyətdə dövlət dili kimi mövqelərinin tam bərqərar edilməsinə imkan vermədi.

Azərbaycanda sovet hakimiyyəti yaradıldıqdan sonra qəbul edilmiş ilk Konstitusiyada, ümumiyyətlə dövlət dili haqqında heç bir maddə olmamışdır. SSRİ-nin tərkibinə daxil olduqdan sonra qəbul edilmiş Konstitusiyasında da belə bir maddə yox idi. Yalnız 1956-cı ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə 1937-ci il Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barədə maddə əlavə edildi. Lakin respublikanın o dövrdəki rəhbərliyinin mövcud siyasi vəziyyəti lazımınca qiymətləndirə bilməyərək hadisələri sürətləndirmək cəhdləri bu nəcib işi uğursuzluğa düçar etdi.

Nəhayət, mərkəzin bütün maneələrinə baxmayaraq, respublikanın 1978-ci ildə qəbul edilən Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barədə maddənin daxil edilməsi müyəssər oldu. Bu, həmin dövr üçün çox cəsarətli və qətiyyətli bir addım idi.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dilinin daha da inkişaf etdirilməsi yolunda geniş üfüqlər açıldı. Təəssüflər olsun ki, respublikanın o zamankı rəhbərliyinin səriştəsizliyi nəticəsində, xalqın iradəsinə zidd olaraq dövlət dilinin adı qeyri-qanuni şəkildə dəyişdirildi və məsələyə dolaşıqlıq, anlaşılmazlıq gətirildi. Dövlət dili haqda müzakirə edildi və dövlət dilinin adının dəyişdirilməsini nəzərdə tutan antikonstitusion qanun qəbul edildi. Təəssüf ki, belə taleyüklü məsələnin həlli üçün o zaman Milli Məclisdə cəmi 26 nəfərin lehinə səs verməsi kifayət edirdi. Halbuki dövlət dili haqqında müddəa Konstitusiyada nəzərdə tutulduğuna görə, ona hər hansı dəyişiklik edilməsi ümumxalq müzakirəsi, ali qanunvericilik orqanı üzvlərinin ən azı üçdə iki səs çoxluğu ilə edilə bilərdi. Lakin o zaman adi qanunvericilik qaydalarına zidd olan məsuliyyətsiz bir qərar qəbul edilmişdir.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının layihəsinə baxılarkən dövlət dili, daha doğrusu, dövlət dilinin adı haqqında müddəa geniş müzakirə obyckti oldu. Həmin məsələ yeni Konstitusiya layihəsini hazır-

layan komissiyada, kütləvi informasiya vasitələrində, müxtəlif elmi forumlarda, yığıncaqlarda, idarə, təşkilat və müəssisələrdə sərbəst, demokratik şəraitdə hərtərəfli müzakirə olundu. Nəhayət, xalq 1995-ci il noyabrın 12-də referendum yolu ilə öz mövqeyini nümayiş etdirərək Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması müddəasına tərəfdar olduğunu bildirdi. Ana dilimizə qarşı edilmiş haqsızlıq mövqeləri tam bərpa edildi.

İndi Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları var. Hazırda ölkəmizdə cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, Azərbaycan dili orada rahat işlədilə bilməsin.

Bununla yanaşı, Azərbaycan Respublikasının onillik inkişaf yolunun təcrübəsi göstərir ki, digər sahələrdə olduğu kimi, ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur. Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tariximizin tələblərinə cavab verən tədrisi işinin təkmilləşdirilməsinə ehtiyac var. Bir çox kütləvi informasiya vasitələrində, rəsmi yarışmalarda, kargüzarlıq və s. sahələrdə Azərbaycan ədəbi dilinin normalarına lazımınca əməl edilmir. Azərbaycan dilinin reklam işində istifadə edilməsində ciddi qüsurlar müşahidə olunur. Kəskin tənqidlərə baxmayaraq, reklam vasitələrinin hazırlanmasında bir çox hallarda xarici dillərə əsassız olaraq üstünlük verilir. Şəhər və qəsəbələrimizin görkəminə xələl gətirən əcnəbi dilli lövhələr gənc nəslin azərbaycançılıq ruhunda tərbiyəsinə mənfi psixoloji təsir göstərir. Ölkə ərazisində yayımlanan televiziya kanallarının əksəriyyəti xarici dillərdə fəaliyyət göstərir. Kino və televiziya ekranlarında Azərbaycan dilinə dublyaj edilmiş xarici filmlərə nadir hallarda rast gəlmək olar, dublyaj edilmiş ekran əsərlərinin tərcümə səviyyəsi isə olduqca aşağıdır. Azərbaycan Respublikasının xarici siyasət sahələrində, xüsusilə ölkəmizdə fəaliyyət göstərən səfirlik, xarici nümayəndəlik və şirkətlərdə Azərbaycan dilinin işlənməsi yarıtmaz vəziyyətdədir. Xaricdə yaşayan soydaşlarımızın Azərbaycan dili dərslikləri, tədris vəsaiti, ana dilində elmi və bədii ədəbiyyat, mətbuat və s. ilə təmin olunması qənaətbəxş deyildir.

Çox qəribə görünsə də, Azərbaycan dilçiliyinin sovet dövründə əldə edilmiş sürətli inkişaf tempi son illərdə aşağı düşmüşdür və bu sahədə bir durğunluq müşahidə olunur. Azərbaycanda nitq mədəniyyəti məsələlərinin tədqiqinə və nizamlanmasına kəskin ehtiyac duyulur. Azərbaycan dilinin tətbiq dairəsi bəzən

süni olaraq məhdudlaşdırılır. Rəsmi və elmi üslubun vəziyyəti heç də ürəkaçan deyil. Azərbaycan dilinin orfoqrafik, izahlı, terminoloji və s. lüğətlərinin yenidən latın qrafikası ilə hazırlanıb çap olunması, ikidilli tərcümə lüğətlərinin tərtibi və nəşri məsələləri yubadılır. Latın qrafikasının bərpa olunması barədə qanunun qəbul edilməsindən on ilə yaxın bir müddət keçməsinə baxmayaraq, onun həyata keçirilməsi olduqca ləng gedir. Bütün bu və digər məsələlərin əlaqələndirilməsi və tənzimlənməsinin, onların həlli prosesinə nəzarətin vahid mərkəzləşdirilmiş bir qurum tərəfindən həyata keçirilməsinə ehtiyac var.

Azərbaycanın dövlət müstəqilliyinin başlıca rəmzlərindən sayılan Azərbaycan dilinin tətbiq və inkişaf etdirilməsinə dövlət qayğısının artırılması, ana dilimizin öyrənilməsi, elmi tədqiqinin fəallaşdırılması, dilimizin cəmiyyətdə tətbiq dairəsinin genişləndirilməsi və bu işə nəzarətin gücləndirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət Dil Komissiyası yaradılsın. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, komissiya haqqında əsasnaməni bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, «Azərbaycan Respublikasında dövlət dili haqqında» qanun layihəsini bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının nazirlik, idarə, təşkilat və müəssisə rəhbərləri öz tabeliklərində olan qurumlarda dövlət dilinin və latın qrafikasının tətbiqi işinin yaxşılaşdırılması ilə bağlı uzunmüddətli kompleks planlar hazırlayıb həyata keçirsinlər və 2001-ci il avqustun 1-nə qədər ilkin nəticələr haqqında Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

4. Azərbaycan Respublikasının Təhsil Nazirliyi orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi və Azərbaycan dilində təhsilin keyfiyyəti ilə bağlı əsaslı dönüş yaratmaq istiqamətində qəti tədbirlər həyata keçirsin və müvafiq təkliflər proqramını bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

5. Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi Yazıçılar Birliyi ilə birlikdə latın qrafikası ilə yenidən çap olunması təklif olunan elmi və bədii əsərlərin, lüğət və dərsliklərin çap proqramını bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

6. Azərbaycan Milli Elmlər Akademiyası bir ay ərzində Azərbaycan dilçiliyinin müxtəlif sahələri üzrə elmi araşdırmaların cari və perspektiv plan-

larına yenidən baxıb təsdiq etsin və onların yerinə yetirilməsinin gedişi barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

7. Respublikanın şəhər və rayon icra hakimiyyəti başçılarına tapşırılsın ki:
– yerlərdə istifadə olunan lövhə, reklam tabloları, şüarlar, plakatlar və digər əyani vasitələrin Azərbaycan ədəbi dilinin qaydalarına uyğunlaşdırılması baxımından tədbirlər görsünlər və bu tapşırığın yerinə yetirilməsi haqqında 2001-ci il avqustun 1-nə qədər Azərbaycan Respublikasının Prezidentinə arayış versinlər;
– yerlərdə Azərbaycan dilinin və latın qrafikasının tətbiqi işinə nəzarəti gücləndirsinlər və bu işin gedişi barədə 2001-ci il avqustun 1-nə qədər Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

8. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə, Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə tapşırılsın ki, əcnəbi ölkələrdə istehsal edilmiş və Azərbaycanda nümayiş etdirilmək üçün alınmış kino və televiziya məmulatının Azərbaycan dilinə dublyaj işinin lazımi səviyyədə qurulması və ölkə ərazisində xarici kino və telefilmlərin Azərbaycan dilində nümayiş etdirilməsi məsələləri barədə təkliflərini bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

9. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:
– ölkədə Azərbaycan dilində çap olunan qəzet, jurnal, bülleten, kitab və digər çap məhsullarının istehsalının 2001-ci il avqustun 1-nə qədər bütövlükdə latın qrafikasına keçməsini təmin etsin;
– Azərbaycan Respublikasında dövlət dilinə qarşı gizli, yaxud açıq təbliğat aparmaq, Azərbaycan dilinin işlənməsinə və inkişafına müqavimət göstərmək, onun hüquqlarının məhdudlaşdırılmasına cəhd etmək kimi hallara, latın qrafikasının tətbiq olunmasına maneələr törədilməsinə görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini bir ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
– mərkəzi və yerli icra hakimiyyəti orqanlarında kargüzarlığın latın qrafikası ilə aparılmasını 2001-ci il avqustun 1-nə qədər təmin etsin;
– bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 iyun 2001-ci il

«Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

– qüvvədə olan qanunvericilik aktlarının «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

– Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

– həmin qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

– həmin qanunun 4.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

– həmin qanunun 9-cu və 10.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq qurumun səlahiyyətlərini həyata keçirən orqana dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

– «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

2. Müəyyən edilsin ki, «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun 1.5-ci, 13.1-ci və 13.2-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası həyata keçirir.

3. Bu fərman dərc olunduğu gündən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 2 yanvar 2003-cü il

Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Milli Elmlər Akademiyasının statusunun müəyyən olunması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycan Respublikasındakı bütün elmi müəssisələrin və ali məktəblərin elmi-tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən, Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilatıdır.

2. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akademiyanın ümumi yığıncağında seçilir və Azərbaycan Respublikasının prezidenti tərəfindən təsdiq olunur.

3. Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağında qəbul olunmuş Nizamnaməsi və strukturu, habelə onlara dəyişikliklər Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunur.

4. Azərbaycan Milli Elmlər Akademiyasının illik elmi-tədqiqat fəaliyyətinin nəticələri haqqında hesabatı hər il aprelin 20-də Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin. Həmin hesabatda Azərbaycanda elmin perspektiv inkişaf istiqamətləri haqqında təkliflər də verilir.

5. Müəyyən edilsin ki, Azərbaycan Milli Elmlər Akademiyasının maliyyələşdirilməsi hər il Azərbaycan Respublikasının dövlət büdcəsində ayrıca sətirlə göstərilir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 yanvar 2003-cü il

Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Milli Elmlər Akademiyası haqqında» 15 may 2001-ci il tarixli 484 nömrəli fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi təsdiq edilsin (əlavə olunur).

2. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 yanvar 2003-cü il

M.K.Kərimov haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağında Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçilmiş Mahmud Kərim oğlu Kərimov bu vəzifəyə təsdiq edilsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 yanvar 2003-cü il

Azərbaycan Milli Aerokosmik Agentliyi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasında elmi-tədqiqatlar aparılması işinin daha səmərəli təşkil edilməsi və təkmilləşdirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Acrokosmik Agentliyi Azərbaycan Respublikasının Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tərkibindən çıxarılıb Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyinə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 yanvar 2003-cü il

«Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki, «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu və 10.1-ci maddələrində nəzərdə tutulmuş «müvafiq qurum»un səlahiyyətlərini Azərbaycan Respublikasında Dövlət Dil Komissiyası həyata keçirir.

2. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
27 sentyabr 2003-cü il

«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi məqsədilə qərara alıram:

Müəyyən edilsin ki, «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi həyata keçirir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
27 sentyabr 2003-cü il

«Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi və «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə «Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 22 dekabr tarixli 414 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi və «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə «Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 22 dekabr tarixli 414 nömrəli Qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında»

Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Müəyyən edilsin ki, «Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında» Azərbaycan Respublikası Qanununun 9.9-cu maddəsində nəzərdə tutulmuş «müvafiq qurum»un səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası həyata keçirir.

2. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 yanvar 2004-cü il

«Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Müəyyən edilsin ki, «Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun 5.2-ci və 9.2-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi həyata keçirir.

2. Bu fərman dərc olunduğu gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 yanvar 2004-cü il

«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi məqsədilə qərara alıram:

Müəyyən edilsin ki, «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi həyata keçirir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
27 sentyabr 2003-cü il

«Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 3 sentyabr 2001-ci il tarixli 564 nömrəli fərmanının 1-ci bəndi aşağıdakı şəkildə verilsin:

1. Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 100 nəfər tələbə üçün hər biri 500.000 (beş yüz min) manat məbləğində Prezident təqaüdü təsis edilsin».

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 sentyabr 2004-cü il

Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin normativ hüquqi əsaslarını təkmilləşdirmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə təsdiq edilsin (əlavə edilsin).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu fərman dərc olunduğu gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 sentyabr 2004-cü il

Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi haqqında» 1992-ci il 27 oktyabr tarixli 283 nömrəli fərmanı qüvvədən düşmüş hesab edilsin, «Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 19 avqust tarixli 183 nömrəli fərmanının qüvvədən düşmüş hesab edilməsi haqqında» 2002-ci il 26 dekabr tarixli 831 nömrəli fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 12, maddə 726) I bəndinin 2-ci yarımbəndi çıxarılsın.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 6 aprel 2005-ci il

«İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına əlavələr və dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 529 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Bələdiyyə sifarişlərinin verilməsi Qaydaları»nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci

il, №7, maddə 466; 2002-ci il, №12, maddə 725) 10-cu bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«Bələdiyyələr bələdiyyə sifarişlərinin şərtləri və nəticəsi barədə məlumatları qanunvericiliklə müəyyən edilmiş üsullarla açıqlayır».

2. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 934 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında Əsasnamə»nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 9 maddə 485; № 10, maddə 910) 8.21-ci bəndində «şəxsi həyatı (onların sağlamlığı, ailə və şəxsi həyatı, əmlak vəziyyəti)» sözləri «şəxsi və ailə həyatı» sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Əhalisinin Dövlət Registrinin aparılması qaydası haqqında Əsasnamə»yə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №10, maddə 790) aşağıdakı əlavələr edilsin:

3.1. 20-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən fərdi məlumat hesab edilən informasiya yalnız qanunvericiliklə nəzərdə tutulmuş hallarda və bu informasiyanı əldə etmək hüququna malik şəxslərə təqdim edilir»;

3.2. 25-ci bənddə «12-ci maddəsinə «sözlərindən sonra» və «İnformasiya əldə etmək haqqında»Azərbaycan Respublikasının Qanununa» sözləri əlavə edilsin.

4. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 27 sentyabr 2006-cı il

«Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının icrası ilə bağlı əlavə tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı»na (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il № 8, III kitab, maddə 606; 2001-ci il, № 10, maddə 640; 2002-ci il, № 4, II kitab, maddə 189, № 10, maddə 592; 2003-cü il, № 10, maddələr 566, 569; 2004-cü il, № 6, maddə 432; 2005-ci il, № 5, maddələr 400, 403, 405; Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 iyul tarixli 426 nömrəli və 23 avqust tarixli 453 nömrəli fərmanları) aşağıdakı məzmunda 16.6-cı bənd əlavə edilsin:

«16.6. Telekommunikasiya şəbəkələri, qurğuları və vasitələrinin özəlləşdirilməsinə onların mövcud maddi-texniki bazasını zəiflətməmək və texnoloji fəaliyyəti pozmamaq, habelə fiziki və hüquqi şəxslərin telekommunikasiya xidmətlərindən istifadə etmək hüquqlarını əsassız məhdudlaşdırmamaq şərti ilə yol verilir».

2. Müəyyən edilsin ki, «Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun 39.1-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirir.

3. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 27 sentyabr 2006-cı il

«Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 6 aprel tarixli 219 nömrəli fərmanına əlavə və dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının maliyyə-təsərrüfat fəaliyyətini yaxşılaşdırmaq məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 6 aprel tarixli 219 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 4, maddə 294) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə»yə aşağıdakı əlavə və dəyişiklik edilsin:

1.1. 5-ci bənddə «dövlət büdcəsi» sözlərindən sonra, «büdcədənkənar daxilolmalar» sözləri əlavə edilsin;

1.2. 8-ci bənd çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 dekabr 2006-cı il

«Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli fərmanına dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. «Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin

2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 579; 2004-cü il, № 9, maddə 684) birinci bəndində «100» rəqəmi «102» rəqəmi ilə əvəz edilsin.

2. Müəyyən edilsin ki, bu fərmanın 1-ci bəndi ilə əlavə edilən 2 Prezident təqaüdü Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərdiklərinə görə Prezident təqaüdünə layiq görülmüş 100 tələbədən sonra Naxçıvan Muxtar Respublikası məktəblərinin məzunları sırasından ən yüksək bal toplamış 2 nəfər tələbəyə verilir.

3. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 dekabr 2006-cı il

«Ən yaxşı ümumtəhsil məktəbi müsabiqəsinin keçirilməsi qaydaları və ümumtəhsil məktəblərinə verilmiş mükafatın istifadə istiqamətləri»nin və «Ən yaxşı müəllim müsabiqəsinin keçirilməsi qaydaları»nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 4 sentyabr tarixli 2373 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. «Ən yaxşı ümumtəhsil məktəbi müsabiqəsinin keçirilməsi qaydaları və ümumtəhsil məktəblərinə verilmiş mükafatın istifadə istiqamətləri» təsdiq edilsin (əlavə olunur).

2. «Ən yaxşı müəllim müsabiqəsinin keçirilməsi qaydaları» təsdiq edilsin (əlavə olunur).

3. Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatları üçün tələb olunan xərclərin ödənilməsi dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Azərbaycan Respublikasının Təhsil Nazirliyi üzrə nəzərdə tutulmuş vəsait hesabına təmin edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

5. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 fevral 2008-ci il

Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında «Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 580-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 580-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 580-IIIQD nömrəli Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 580-IIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 5-ci bəndində, 17-ci maddəsinin 3-cü bəndində və 32-ci maddəsinin 5-ci bəndinin ikinci cümləsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin Qanunun 9-cu maddəsinin yeddinci hissəsində, 32-ci maddəsinin 5-ci bəndinin birinci cümləsində və 41-ci maddəsinin 3-cü bəndinin birinci, ikinci və üçüncü cümlələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müəlliflik Hüquqları Agentliyi həyata keçirir.

3. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 7 may 2008-ci il

Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək və onların təhsilə olan həvəsini artırmaq məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş tələbələr üçün Prezident təqaüdünün məbləği 50 faiz artırılaraq 150 (yüz əlli) manat müəyyən edilsin.

2. «Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 579; 2004-cü il, № 9, maddə 684; 2006-cı il, № 12, maddə 1056) 1-ci bəndində «500.000 (beş yüz min) manat» sözləri 150 (yüz əlli) manat» sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu fərman 2008-ci il sentyabrın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 sentyabr 2008-ci il

«Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 274 nömrəli fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2006-cı il 29 dekabr tarixli 221-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar qərara alıram:

1. «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 274 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 706) 1-ci bəndinin 1.8-ci yarımbəndi çıxarılsın.

2. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 mart 2007-ci il

«Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli fərmanına dəyişikliklər və əlavələr edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2007-ci il 8 may tarixli 331-IIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 264; 2004-cü il, № 1, maddə 19; 2006-cı il, № 9, maddə 743) 2-ci bəndinə aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1.1. ikinci abzasda «7.3-cü maddəsində» sözləri «5.5-ci və 7.3-cü maddələrində» sözləri ilə əvəz edilsin;

1.2. beşinci abzasda «Daxili İşlər Nazirliyi» sözlərindən sonra «Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi» sözləri əlavə edilsin;

1.3. doqquzuncu və onuncu abzaslar müvafiq olaraq onuncu və on ikinci abzaslar hesab edilsin və bəndə aşağıdakı məzmunda doqquzuncu və on birinci abzaslar əlavə edilsin:

həmin Qanunun 8.1-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanları öz əsasnamələrinə uyğun olaraq həyata keçirirlər;

həmin Qanunun 9.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi öz əsasnamələrinə uyğun olaraq həyata keçirirlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

2.1. qüvvədə olan qanunvericilik aktlarının bu fərmana uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 26 dekabr 2007-ci il

TƏHSİL SAHƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 25 illiyinin keçirilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

25 illik fəaliyyəti dövründə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin respublikada hərbi kadrlar hazırlaması sahəsində böyük xidmətləri olmuşdur.

Məktəbin məzunları Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunələri göstərmiş, Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüş, müxtəlif orden və medallarla təltif olunmuşlar.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 25 illiyinin müstəqil Azərbaycan Respublikasında ordu quruculuğu işində və orduda vətənpərvərlik ruhunun yüksəldilməsi sahəsində böyük əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 25 illiyi respublikada təntənəli surətdə keçirilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 25 illiyinin respublikada təntənəli qeyd olunması üçün tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 13 mart 1998-ci il

Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların aparılması, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün Ümumdünya Bankının vəsait qoyuluşunu təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının təhsil sahəsində islahatların aparılmasını təşkil etmək məqsədilə aşağıdakı tərkibdə dövlət komissiyası yaradılsın:

Dövlət komissiyasının sədri:

Misir Mərdanov – Azərbaycan Respublikasının təhsil naziri;

Dövlət komissiyası sədrinin müavini:

Namiq Nəsrullayev – Azərbaycan Respublikasının iqtisadiyyat naziri;

Dövlət komissiyasının üzvləri:

Rəfael Allahverdiyev – Bakı Şəhər icra hakimiyyətinin başçısı;
Fərəməz Maqsudov – Azərbaycan Elmlər Akademiyasının prezidenti;
Fikrət Yusifov – Azərbaycan Respublikasının maliyyə naziri;
Südabə Həsənova – Azərbaycan Respublikasının ədliyyə naziri;
Əli İnsanov – Azərbaycan Respublikasının səhiyyə naziri;
Əbülfəz Qarayev – Azərbaycan Respublikasının gənclər və idman naziri;
İsmayıl Sadıqov – Nazirlər Kabineti İşlər İdarəsinin elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinin müdiri;
Elman Rüstəmov – Milli Bankın sədri;
Səttar Mehbalıyev – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri;
Əvəz Ələkbərov – Azərbaycan Respublikası dövlət sosial müdafiə fondunun sədri;
Arif Vəliyev – Azərbaycan Respublikası dövlət statistika komitəsinin sədri;
Barat Nuriyev – Azərbaycan Respublikası dövlət əmək komitəsi sədrinin müavini

2. Dövlət komissiyasına tapşırılsın ki, ümumdünya Bankı ilə birlikdə təhsil sahəsində islahat proqramının hazırlanması üçün öz nəzdində işçi orqanı yaratsın və onun rəhbərini təyin etsin.

3. Nazirlər Kabineti bu sərəncamın icrası ilə bağlı məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 mart 1998-ci il

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında «İnkişaf üçün kredit haqqında Saziş»i (Təhsil sahəsində İslahatlar Layihəsi) Azərbaycan Respublikasının adından imzalamaq səlahiyyətlərinin verilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında «İnkişaf üçün kredit haqqında Saziş»i (Təhsil sahəsində İslahatlar Layihəsi) Azərbaycan Respublikasının adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 15 iyun 1999-cu il

«Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı»nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası tərəfindən hazırlanmış «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı»nın müzakirələrinin nəticələrini nəzərə alaraq qərara alıram:

1. «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı» təsdiq edilsin (əlavə olunur).

2. Nazirlər Kabineti və Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası bu sərəncamın icrası ilə bağlı məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 15 iyun 1999-cu il

Dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələri işçilərinin əməkhaqlarının artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində işləyən pedaqoji və digər kateqoriyalara aid olan işçilərin sosial müdafiəsini gücləndirmək, onlara dövlət qayğısını daha da artırmaq məqsədi ilə qərara alıram:

1. Dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində işləyən pedaqoji və digər kateqoriyalara aid olan işçilərin vahid tarif cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları 2000-ci il yanvar ayının 1-dən 25 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 dekabr 1999-cu il

«Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

«Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanununun həyata keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi «Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiya»da nəzərdə tutulmuş ali təhsil sahəsində xarici ixtisasların tanınması məsələləri üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan təyin edilsin.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi «Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiya» ilə təsis olunmuş

Avropa regionunda ali təhsil ixtisaslarının tanınması haqqında Konvensiya Komitəsində Azərbaycan Respublikasını təmsil etsin.

3. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasında ali təhsil sistemi və ali təhsil ixtisaslarına dair ətraflı məlumatların həmin Konvensiyanın tərəfləri olan digər dövlətlərin müvafiq orqanlarına çatdırılmasını təmin etsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, sərəncamın 1–3-cü bəndləri ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyinə verilmiş səlahiyyətlər barədə Avropa Şurasının baş katibinə və Birləşmiş Millətlər Təşkilatının təhsil, elm və mədəniyyət məsələləri üzrə baş direktoruna (Konvensiyanın depozitariyalarına) müvafiq bildiriş göndərsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 6 mart 2000-ci il

«Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)»nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 9 yanvar 2002-ci il tarixli 865 nömrəli sərəncamına əsasən, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birlikdə hazırlanmış, müvafiq milli və beynəlxalq qurumların müsbət rəyini almış «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)»nın Azərbaycan Respublikası üçün əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)» təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 17 fevral 2003-cü il

«Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqram (2003–2007-ci illər)»ın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında» 4 oktyabr 2002-ci il tarixli 1051 nömrəli sərəncamına uyğun olaraq qərara alıram:

«Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqram (2003–2007-ci illər)» təsdiq edilsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 17 fevral 2003-cü il

Təhsil müəssisələri işçilərinin əmək haqlarının artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində işləyən pedaqoji və digər kateqoriyalara aid olan işçilərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədilə qərara alıram:

1. Dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində işləyən pedaqoji və digər kateqoriyalara aid olan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2003-cü ilin iyun ayının 1-dən 50 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 15 may 2003-cü il

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası işçilərinin vəzifə maaşlarının artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorunun aylıq vəzifə maaşı nazirin 1-ci müavininin aylıq vəzifə maaşı, prorektorun aylıq vəzifə maaşı nazir müavininin aylıq vəzifə maaşı, digər işçilərin aylıq vəzifə maaşları isə nazirliklərin mərkəzi aparat işçilərinin aylıq vəzifə maaşları səviyyəsində müəyyən edilsin.

2. Müəyyən edilsin ki:

– 2004-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının maliyyələşdirilməsi hər il dövlət büdcəsində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına ayrılan vəsait çərçivəsində ayrıca sətirlə göstərilir;

– Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası işçilərinin sayının yuxarı həddi Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri tərəfindən təsdiq edilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı bu sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 9 iyun 2003-cü il

Elm sahəsində çalışan işçilərin əmək haqlarının artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkədə elmin inkişafını stimullaşdırmaq, bu sahədə çalışan işçilərə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədi ilə qərara alıram:

1. Dövlət büdcəsinin «Elm xərcləri» bölməsindən maliyyələşən müəssisə və təşkilatlarda (Azərbaycan Milli Elmlər Akademiyası istisna olmaqla) çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 50 faiz artırılsın.

2. Azərbaycan Milli Elmlər Akademiyasında, elmi-tədqiqat və təhsil müəssisələrində, habelə digər sahələrdə çalışan işçilərin elmlər doktoru və elmlər namizədi alimlik dərəcələrinə görə vəzifə maaşlarına təyin edilmiş əlavələrin məbləği 2 dəfə artırılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam 2003-cü il iyulun 1-dən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 23 iyun 2003-cü il

Dövlət ali və orta ixtisas təhsil müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlərin təhsil haqqını ödəməkdən azad edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məcburi köçkün ailələrinin sosial iqtisadi vəziyyətini nəzərə alaraq və onların uşaqlarının ali və orta ixtisas təhsil müəssisələrində təhsillərinin davam etdirilməsinə dövlət köməyi göstərmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının dövlət ali və orta ixtisas təhsil müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlər 2002/03-cü tədris ilindən etibarən təhsillərini başa çatdıranadək təhsil haqqını ödəməkdən azad edilsinlər.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
4 avqust 2003-cü il

Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Müstəqil Azərbaycan Respublikasında həyatın müxtəlif sahələrində aparılan islahatlar içərisində latın qrafikalı Azərbaycan əlifbasının bərpa edilməsi böyük tarixi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001-ci il tarixli və «Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında» 9 avqust 2001-ci il tarixli fərmanları ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olmuş və latın qrafikalı Azərbaycan əlifbasına keçidi bütövlükdə təmin etmişdir. Latın qrafikalı Azərbaycan əlifbası artıq həyatımızın bütün sahələrində tam yerini tutmuşdur. Bununla yanaşı, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşr olunması günün ən vacib məsələlərindən biri olaraq qalır.

Dövlət müstəqilliyinin başlıca rəmzlərindən biri sayılan ana dilinə dövlət qayğısının daha da artırılmasını təmin etmək, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin ən gözəl nümunələrini müasir dövrdə təbliğ etmək və gələcək nəsillərə çatdırmaq məqsədilə Azərbaycan dilində əvvəllər kiril qrafikasında çap olunmuş əsərlərin latın qrafikası ilə yenidən nəşrinin kütləvi şəkildə həyata keçirilməsi zərurətini nəzərə alaraq qərara alıram:

1. 2004-cü ildə latın qrafikası ilə ilk mərhələdə çapı nəzərdə tutulan əsərlərin siyahısı təsdiq olunsun (siyahı əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2004-cü ildə Azərbaycan Respublikasının bütün kütləvi kitabxanalarına və orta tədris müəssisələrindəki kitabxanalara latın qrafikası ilə yenidən çap olunmuş kitabların alınması üçün zəruri vəsaitin ayrılmasını təmin etsin.

3. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki,

– Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə 2005–2008-ci illərdə latın qrafikası ilə yenidən çapı nəzərdə tutulan əsərlərin siyahısını bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

– Azərbaycan Respublikasının Nazirlər Kabineti respublikanın maliyyə qurumları ilə birlikdə müvafiq plan-qrafik tərtib edib latın qrafikası ilə yenidən nəşr olunması nəzərdə tutulan kitabların çapını təmin etsin;
– Azərbaycan Respublikasının aidiyyəti qurumları ilə birlikdə yenidən çapı nəzərdə tutulan kitabların mətnlərinin elektron daşıyıcıları və internet vasitələrilə yayılmasını, latın qrafikasında «Azərbaycan ədəbiyyatının virtual kitabxanası»nın yaradılmasını təmin etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 12 yanvar 2004-cü il

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2004-cü ildə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı

Lüğət və ensiklopediyalar:
Azərbaycan dilinin izahlı lüğəti
Azərbaycan dilinin orfoqrafiya lüğəti
«Azərbaycan Xalq Cümhuriyyəti» ensiklopediyası
Azərbaycanca–ingiliscə lüğət
Azərbaycanca–rusca lüğət
«Ədəbiyyat və incəsənət» ensiklopediyası
İngiliscə–Azərbaycanca lüğət
Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti
Rusca–Azərbaycanca lüğət
Azərbaycan xalq ədəbiyyatı:
Aşıq ədəbiyyatından seçmələr, 3 cilddə
Atalar sözü və məsəllər
Azərbaycan dastanları, 5 cilddə
Azərbaycan folkloru (məktəblilər üçün seçmələr)
Azərbaycan xalq ədəbiyyatından seçmələr (qaravəllilər, xalq tamaşaları və oyunlar)
Azərbaycan xalq mahnıları (not yazıları ilə), 3 cilddə

Azərbaycan nağılları, 5 cilddə
Bayatılar
Bunu əzbərləməyə dəyər (folklor poeziyasından seçmələr)
Əfsanə, əsatir və rəvayətlər
«Kitabi-Dədə Qorqud», 3 cilddə
«Koroğlu» dastanı, 2 cilddə
«Qaçaq Nəbi» dastanı
Molla Nəsrəddin lətifələri
Tapmacalar

Klassik və müasir Azərbaycan ədəbiyyatı:

Abbas Səhhət. Əsərlər, 2 cilddə
Abdulla Şaiq. Əsərlər, 3 cilddə
Axundov Süleyman Sani. Seçilmiş əsərlər
Axundzadə Mirzə Fətəli. Əsərlər, 3 cilddə
Almas İldırım. Əsərlər
Anar. Seçilmiş əsərlər
Aşıq Ələsgər. Əsərlər, 2 cilddə
Azərbaycan şeri antologiyası (XIX əsr)
Azərbaycan şeri antologiyası (XX əsr)
Azərbaycan uşaq ədəbiyyatı antologiyası, 3 cilddə
Azərbaycanın qadın şairləri antologiyası
Azəroğlu Balaş. Əsərlər
Bakıxanov Abbasqulu ağa. Seçilmiş əsərlər
Cabbarzadə Zeynal. Əsərlər
Cabir Novruz. Əsərlər
Cəfər Cabbarlı. Əsərlər, 4 cilddə
Çəmənzəminli Yusif Vəzir. Əsərlər, 3 cilddə «Dastani-Əhməd Hərami»
Dilbazi Mirvarid. Əsərlər
Elçin. Seçilmiş əsərlər
Əfəndiyev İlyas. Əsərlər, 3 cilddə
Əhməd Cavad. Əsərlər
Əkrəm Əylisli. Seçilmiş əsərlər
Əlağa Vahid. Əsərlər
Əli Kərim. Əsərlər
Əlibəyli Ənvər. Əsərlər

Əvhədi Marağalı. «Cami-Cəm»
Fədai. «Bəxtiyarnamə»
Fikrət Qoca. Əsərlər
Hacıbəyov Üzeyir. Əsərlər, 2 cilddə
Hadi Məhəmməd. Əsərlər, 2 cilddə
Haqverdiyev Əbdürrəhim bəy. Əsərlər, 2 cilddə
Həbib Sahir. Əsərlər
Həmid Nitqi. Əsərlər
Həsənzadə Nəriman. Seçilmiş əsərlər
Hökumə Billuri. Əsərlər
Hüseyn Arif. Əsərlər
Hüseyn Cavid. Əsərlər, 4 cilddə
Hüseyn Mehdi. Əsərlər, 3 cilddə
Hüseynov İsa. Seçilmiş əsərlər
Xaqani Şirvani. Əsərlər
Xəlil Rza. Əsərlər, 2 cilddə
Xətai Şah İsmayıl. Əsərlər, 2 cilddə
İbrahimov Hüseyn. Seçilmiş əsərlər
İbrahimov Mirzə. Əsərlər, 3 cilddə
İmadəddin Nəsimi. Əsərlər, 2 cilddə
Kəsəmənli Nüsrət. Əsərlər
Kişvəri. Əsərlər
Klassik Azərbaycan ədəbiyyatından seçmələr, 3 cilddə
Köçərli Firidun bəy. Əsərlər, 2 cilddə
Kürçaylı Əlağa. Əsərlər
Qabil. Əsərlər
Qasımzadə Qasım. Əsərlər
Qazi Bürhanəddin. «Divan»
Qövsi Təbrizi. Əsərlər
Qul Əli. «Qisseyi-Yusif»
Qutqaşınlı İsmayıl bəy. Əsərlər
Mədinə Gülgün. Əsərlər
Məhəmməd Əmani. Əsərlər
Məhəmməd Füzuli. Əsərlər, 6 cilddə
Məhsəti Gəncəvi. Əsərlər

Məlikzadə İsi. Əsərlər
Məmməd Araz. Əsərlər, 2 cilddə
Məmmədxanlı Ənvər. Seçilmiş əsərlər
Məmmədquluzadə Cəlil. Əsərlər, 4 cilddə
Məsihi. «Vərqa və Gülşa»
Mikayıl Müşfiq. Əsərlər
Mir Cəlal. Əsərlər
Mirzə Ələkbər Sabir. «Hophopnamə»
Natəvan Xurşidbanu. Əsərlər
Nəbati Seyid Əbülqasim. Əsərlər
Nəbi Xəzri. Əsərlər, 2 cilddə
Nərimanov Nəriman. Seçilmiş əsərlər
Nəsirəddin Tusi. «Əxlaqi-Nasiri»
Nizami Gəncəvi. Əsərlər, 7 cilddə
Ordubadi Məmməd Səid. Seçilmiş əsərlər, 2 cilddə
Osman Sarıvəlli. Əsərlər
Rəfibəyli Nigar. Əsərlər
Rəfiq Zəka. Əsərlər
Rəhimov Süleyman. Seçilmiş əsərlər.
Rəsul Rza. Əsərlər, 5 cilddə
Rüstəmxanlı Sabir. Seçilmiş əsərlər
Sabit Rəhman. Əsərlər, 2 cilddə
Saib Təbrizi. Əsərlər
Səfərli İslam. Əsərlər
Səməd Vurğun. Əsərlər, 5 cilddə
Səmədoğlu Vaqif. Seçilmiş əsərlər
Səmədoğlu Yusif. Əsərlər
Söhrab Tahir. Seçilmiş əsərlər
Süleyman Rüstəm. Əsərlər, 5 cilddə
Şəhriyar Məhəmmədhüseyn. Əsərlər, 2 cilddə
Şıxlı İsmayıl. Əsərlər, 2 cilddə
Şirvani Seyid Əzim. Seçilmiş əsərlər, 3 cilddə
Tofiq Bayram. Əsərlər
Vahabzadə Bəxtiyar. Əsərlər, 2 cilddə
Vaqif Molla Pənah. Əsərlər

Vazeh Mirzə Şəfi. Əsərlər
Vəliyev Əli. Seçilmiş əsərlər
Vəzirov Nəcəf bəy. Seçilmiş əsərlər
Vidadi Molla Vəli. Əsərlər
Zakir Qasım bəy. Əsərlər
Zeynal Xəlil. Əsərlər
Zərdabi Həsən bəy. «Əkinçi»
Dünya ədəbiyyatı:
Andersen Hans Kristian. «Nağıllar»
Aytmatov Çingiz. Əsərlər
Cami Əbdürrəhman. Seçilmiş əsərlər
Çexov Anton. Seçilmiş əsərlər
Dante Aligyeri. «İlahi komediya»
Defo Daniel. «Robinzon Kruzo»
Dostoyevski Fyodor. Seçilmiş əsərlər
Düma Aleksandr. Seçilmiş əsərlər
Dünya uşaq ədəbiyyatından seçmələr, 10 cilddə
Ellada qəhrəmanları
Əlişir Nəvai. Seçilmiş əsərlər
Firdovsi Əbülqasım. «Şahnamə»
Hafiz Şirazi. Əsərlər
Homer. «İliada», «Odisseya»
Höte İohann Volfqanq. «Faust»
Hüqo Viktor. Seçilmiş əsərlər
Jül Vern. Seçilmiş əsərlər
«Kəlilə və Dimnə»
Lermontov Mixail. Seçilmiş əsərlər
London Cek. Seçilmiş əsərlər
Mark Tven. Seçilmiş əsərlər
Ömər Xəyyam. Rübailər
Puşkin Aleksandr. Seçilmiş əsərlər
Servantes Saavedra. «Don Kixot»
Sədi Şirazi. «Bustan», «Gülüstan»
Stivenson Robert. Seçilmiş əsərlər
Svift Conatan. «Qulliverin səyahəti»

Şekspir Uilyam. Seçilmiş əsərlər
Şiller Fridrix. Seçilmiş əsərlər
Tolstoy Lev. Seçilmiş əsərlər
Yunus İmrə. Əsərlər

Heydər Əliyev adına Hərbi Liseyin yaradılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və Milli Ordunun peşəkar kadrlara olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədi ilə qərara alıram:

1. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı ləğv edilsin və onun əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılsın.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bir ay müddətində Heydər Əliyev adına Hərbi Liseyin Əsasnaməsinin layihəsini hazırlayıb təsdiq etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 27 fevral 2004-cü il

Azərbaycan Respublikasının elm, mədəniyyət və ədəbiyyat üzrə dövlət mükafatlarının təsis edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında elm, mədəniyyət və ədəbiyyat sahələrində ən yaxşı əsərləri qiymətləndirmək və yaradıcı ziyalıları müasir tələblərə cavab verən yüksək səviyyəli əsərlər yaratmağa təşviq etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının elm, mədəniyyət və ədəbiyyat üzrə dövlət mükafatları təsis edilsin.

2. Mükafatlara təqdim olunan əsərlərin seçilib müəyyən edilməsi üçün Elm, Mədəniyyət və Ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyası yaradılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

– Elm, Mədəniyyət və Ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının tərkibi və Əsasnaməsinin layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

– bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 3 mart 2004-cü il

Alimlik dərəcələrinə görə vəzifə maaşlarına əlavələrin artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkədə elmin inkişafını stimullaşdırmaq və bu sahədə çalışan işçilərə dövlət qayğısını artırmaq məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası sistemində, elmi-tədqiqat və təhsil müəssisələrində, habelə digər sahələrdə çalışan işçilərin elmlər doktoru və elmlər namizədi alimlik dərəcələrinə görə Vahid Tarif Cədvəli üzrə vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin məbləği 2004-cü il iyulun 1-dən 5 dəfə artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 16 aprel 2004-cü il

Aspirantura, ali, orta ixtisas və peşə məktəblərinin və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dövlət büdcəsi hesabına təhsil alan aspirantlara, dövlət ali, orta ixtisas, peşə məktəblərinin və peşə liseylərinin tələbələrinə və şagirdlərinə dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:

1. Dövlət büdcəsi hesabına təhsil alan aspirantlara, dövlət ali, orta ixtisas, peşə məktəblərinin və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən aylıq təqaüdlər 2004-cü il mayın 1-dən artırılaraq aşağıdakı məbləğlərdə müəyyən edilsin:

1.1. Aspirantlara	– 100000 manat
1.2. Ali məktəblərdə:	
adlı təqaüd alan tələbələrə	– 100000 manat
– Magistr pilləsi üzrə:	
əla qiymətlərlə oxuyan tələbələrə	– 90000 manat
əla və yaxşı qiymətlərlə oxuyan tələbələrə	– 70000 manat
yaxşı-kafi qiymətlərlə oxuyan tələbələrə	– 40000 manat
– Bakalavr pilləsi üzrə:	
əla qiymətlərlə oxuyan tələbələrə	– 70000 manat
əla və yaxşı qiymətlərlə oxuyan tələbələrə	– 50000 manat
yaxşı-kafi qiymətlərlə oxuyan tələbələrə	– 30000 manat
1.3. Orta ixtisas məktəblərində:	
əla qiymətlərlə oxuyan tələbələrə	– 25000 manat
əla və yaxşı qiymətlərlə oxuyan tələbələrə	– 20000 manat
yaxşı-kafi qiymətlərlə oxuyan tələbələrə	– 18000 manat
1.4. Peşə məktəblərinin və peşə liseylərinin şagirdlərinə	– 18000 manat

2. Təqaüdlərin ödənilməsi dövlət büdcəsində həmin məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

3. Azərbaycan Rcspublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, aspirantlara dövlət ali, orta ixtisas, peşə məktəblərinin və peşə liseylərinin tələbələrinə və şagirdlərinə təqaüdlərin təyin edilməsi və ödənilməsinin yeni qaydalarını bir ay müddətində hazırlayıb təsdiq etsin.

4. «Aspirantlara, ali, orta ixtisas və texniki peşə məktəblərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 may tarixli 316 nömrəli sərəncamı qüvvədən düşmüş hesab edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 aprel 2004-cü il

«Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzinin yaradılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Milli Ensiklopcdiyasının yüksək elmi səviyyədə hazırlanıb nəşr olunmasını və dövlət əhəmiyyətli bu işin həyata keçirilməsi üçün tələb olunan maddi-texniki bazanın yaradılmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyasının «Azərbaycan Milli Ensiklopediyası» nəşriyyat-poliqrafiya birliyinin bazasında Azərbaycan Milli Elmlər Akademiyasının «Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzi yaradılsın.

2. «Azərbaycan Milli Ensiklopcdiyası» Elmi Mərkəzi dövlət büdcəsindən maliyyələşdirilsin və onun maliyyələşdirilməsi dövlət büdcəsində ayrıca sətirlə göstərilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:
– «Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzinin binasının əsaslı təmiri, lazımi avadanlıqla, o cümlədən müasir kompyuter texnikası ilə təchiz olunması məsələsini həll etsin;
– Azərbaycan Milli Ensiklopediyası məqalələrinin müvafiq müəllif haqları məbləğinin «Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzinin büdcəsinə daxil olmasını təmin etsin;
– bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 5 may 2004-cü il

2004-cü il martın 4-də Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş»in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il martın 4-də Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş» təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Gürcüstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 may 2004-cü il

2004-cü il martın 1-də Astana şəhərində imzalanmış sənədlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il martın 1-də Astana şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti və Qazaxıstan Respublikasının Astana Şəhər Akiməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında saziş;

2) Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının aviasiya hakimiyyətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında protokol.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qazaxıstan Respublikasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 may 2004-cü il

Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005–2007-ci illər) təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində informasiya və kommunikasiya texnologiyalarından müasir tələblərə uyğun istifadə olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005–2007-ci illər) təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, Proqramın baş icraçısı və nəzərdə tutulan tədbirlərin əlaqələndiricisi Azərbaycan Respublikasının Təhsil Nazirliyidir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam dərc olunduğu gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 21 avqust 2004-cü il

2005–2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il tarixli 56 nömrəli sərəncamına uyğun olaraq qərara alıram:

1. 2005–2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Təhsil Nazirliyi, habelə tabeçiliyində ali və orta ixtisas məktəbləri olan digər nazirliklərlə birlikdə ali və orta məktəblər üçün latın qrafikası ilə nəşri zəruri olan dərsliklərin çapını nəzərdə tutan «Dərslik» proqramını üç ay ərzində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 27 dekabr 2004-cü il

2005–2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2004-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş siyahısı 172 adda kitabı əhatə edir. Siyahı dörd bölmədən – «Lüğət və ensiklopediyalar», «Azərbaycan dili və tarixi», «Klassik və müasir Azərbaycan ədəbiyyatı» və «Dünya ədəbiyyatı» bölmələrindən ibarətdir.

«Lüğət və ensiklopediyalar» bölməsində ikidilli lüğətlərlə yanaşı, Azərbaycan dilinin antonimlər, omonimlər, sinonimlər lüğətlərinin, Azərbaycan dilinin dialektoloji lüğətinin və Azərbaycan dilinin tarixi lüğətinin yenidən nəşri nəzərdə tutulmuşdur. Bu bölməyə kütləvi tibb ensiklopediyası, politologiya ensiklopediyası, Azərbaycan kulinariyası ensiklopediyası, Azərbaycan toponimləri ensiklopedik lüğəti, on cilddə uşaq ensiklopediyası, habelə «Üzeyir Hacıbəyli», «Mirzə Cəlil Məmmədquluzadə» və «Novruz» ensiklopediyaları da daxildir. «Azərbaycan dili və tarixi» bölməsi Azərbaycan tarixi, dilçiliyi, arxeologiyası, etnoqrafiyası, fəlsəfəsi, incəsənətinə dair bir neçə elmi əsəri əhatə edir.

«Klassik və müasir Azərbaycan ədəbiyyatı» bölməsi Əmin Abid, Əssar Təbrizi, Həbibi, Heyran xanım, Zeynalabdin Marağai, Mir Möhsün Nəvvab kimi klassiklərin əsərlərinin yenidən nəşrini nəzərdə tutur.

Müasirlərimizdən Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov, Qılman İlkin, Məmməd Aslan, Mövlud Süleymanlı, Zəlimxan Yaqub və başqalarının əsərləri də bu bölməyə daxildir. Buraya XIX–XX əsrlər Azərbaycan dramaturgiyası, Azərbaycan nəsri antologiyaları və XX əsrin əvvəllərində Azərbaycan publisistikası antologiyası da daxil edilmişdir.

Siyahının «Dünya ədəbiyyatı» bölməsi dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri ilə yanaşı, ingilis, fransız, ispan, rus ədəbiyyatları antologiyalarının, dünya fantastikası antologiyasının da yenidən nəşrini nəzərdə tutur.

«Azərbaycan Milli Elmlər Akademiyası işçilərinin əmək haqlarının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1 iyul 2002-ci il tarixli 967 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. «Azərbaycan Milli Elmlər Akademiyası işçilərinin əmək haqlarının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1 iyul 2002-ci il tarixli 967 nömrəli sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 7, maddə 414; 2004-cü il, №10, maddə 829) 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

«2. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərinin aylıq rütbə maaşları 2 milyon 500 min manat və müxbir üzvlərinin aylıq rütbə maaşları 1 milyon 700 min manat məbləğində müəyyən edilsin».

2. Bu sərəncam 2005-ci il aprelin 1-dən qüvvəyə minir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 16 mart 2005-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın yaradılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının təhsil sisteminin müxtəlif pillələrində təhsilin səviyyəsini müasir standartlara uyğunlaşdırmaq, təhsil müəssisələrində təhsilin keyfiyyətinin monitorinqini həyata keçirmək, təhsil sahəsində mövcud problemləri vaxtaşırı təhlil edərək müvafiq tədbirlər görülməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya yaradılsın.

2. Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın aşağıdakı tərkibi təsdiq edilsin:

Komissiyanın sədri:
Ramiz MEHDİYEV – Azərbaycan Respublikası Prezidentinin icra aparatının rəhbəri

Komissiyanın üzvləri:
Mahmud KƏRİMOV – Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
Fatma ABDULLAZADƏ – Azərbaycan Respublikası Prezidentinin icra aparatının humanitar siyasət şöbəsinin müdiri
Fikrət MƏMMƏDOV – Azərbaycan Respublikasının ədliyyə naziri
Misir MƏRDANOV – Azərbaycan Respublikasının təhsil naziri
Məleykə ABBASZADƏ – Azərbaycan Respublikasının tələbə qəbulu üzrə dövlət komissiyasının sədri
Cəmil HƏSƏNLİ – Bakı Dövlət Universitetinin professoru
Hamlet İSAXANLI – Xəzər Universitetinin rektoru
Elmina KAZIMZADƏ – «Müasir Təhsil İnnovasiyaları Mərkəzi» qeyri-hökumət təşkilatının proqram direktoru

3. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya haqqında Əsasnamənin layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 may 2005-ci il

Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005–2009-cu illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

«Dövlət gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli 169 nömrəli fərmanı dövlət gənclər siyasətinin həyata keçirilməsinə, uşaq və gənclərlə işləyən kadrların hazırlanmasına, gənclərin həyatında baş verən proseslərin elmi şəkildə öyrənilməsinə, ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsində əlaqəli və məqsədyönlü fəaliyyət göstərməsinə, uşaq, yeniyetmə və gənclərin üzləşdikləri problemlərin həlli istiqamətində əməli tədbirlərin görülməsinə şərait yaratmışdır.

Həmin fərmanla müəyyənləşdirilmiş vəzifələrin icrasını təmin etmək məqsədi ilə 1999–2004-cü illər ərzində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmiş, o cümlədən normativ hüquqi aktlar qəbul edilmiş, Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin nəzdində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi və Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi yaradılmışdır.

Uşaq və gənclərin hərtərəfli inkişafını təmin etmək, onların problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək, həyata keçirilən gənclər siyasətini tənzimləmək məqsədi ilə 2002-ci ildə «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Qanunda gənclər siyasətinin əsas prinsipləri öz əksini tapmış, gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, onların yaradıcılıq potensialının ölkənin inkişafına və ümummilli problemlərin həllinə səfərbər olunması, hüquq və azadlıqlarının hər hansı şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi əsas istiqamətlər kimi müəyyənləşdirilmişdir.

Son illər həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait və təminatların yaradılmasını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına kömək etmişdir. Eyni zamanda bu sahədə hələ də öz həllini gözləyən bir sıra məsələlər mövcuddur. Yeniyetmə və gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin daha da gücləndirilməsi, gənclərin məşğulluğunun təmin

edilməsi, onların sahibkarlıq fəaliyyətinə kömək göstərilməsi, sosial problemlərinin həlli, yaradıcı və istedadlı gənclərə, gənc ailələrə dövlət qayğısının artırılması, o cümlədən onların mənzil şəraitinin yaxşılaşdırılması, gənclərin dövlət siyasəti çərçivəsində bir sıra tədbirlərin həyata keçirilməsini zəruri edir.

Azərbaycan Respublikasında dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gəncləri dövlət idarəçiliyində aparıcı yerlərdən birini tutan qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədi ilə qərara alıram:

1. «Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005–2009-cu illər)» təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Dövlət Proq-ramında həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin illər üzrə müəyyənləşdirilməsini iki ay müddətində müəyyənləşdirib təsdiq etsin;

2.2. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 avqust 2005-ci il

Aspirantlara, ali, orta ixtisas və peşə məktəbləri və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dövlət büdcəsi hesabına təhsil alan aspirantlara, dövlət ali, orta ixtisas, peşə məktəbləri və peşə liseylərinin tələbələrinə və şagirdlərinə dövlət qayğısını artırmaq məqsədi ilə qərara alıram:

1. «Aspirantlara, dövlət ali, orta ixtisas və peşə məktəblərinin və peşə liseylərinin tələblərinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 19 aprel tarixli 187 nömrəli sərəncamına əsasən dövlət büdcəsi hesabına təhsil alan aspirantlara,

dövlət ali, orta ixtisas, peşə məktəbləri və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən aylıq təqaüdlərin miqdarı 2,5 dəfə artırılsın.

2. Təqaüdlərin ödənilməsi dövlət büdcəsində həmin məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam 1 sentyabr 2005-ci il tarixindən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 avqust 2005-ci il

«Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006–2010-cu illər)»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İstedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi və səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılması məqsədi ilə qərara alıram:

1. «Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006–2010-cu illər)» təsdiq edilsin (əlavə olunur).

2. Bu sərəncamın 1-ci bəndi ilə təsdiq edilmiş Dövlət Proqramının əlaqələndirici orqanı Azərbaycan Respublikasının Təhsil Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 17 aprel 2006-cı il

«Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün Kompleks Tədbirlər Planı»nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası hazırda iqtisadi yüksəliş dövrünü yaşayır. Ölkənin geniş sosial-iqtisadi islahatlara söykənən ümumi inkişaf konsepsiyasında ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqın rifahının yaxşılaşması naminə istifadəsi məsələləri mühüm yer tutur.

Son illər iqtisadiyyatın, o cümlədən mədənçıxarma və emal sənayesi sahələrinin, tikinti kompleksinin sürətli inkişafı ətraf mühitə antropogen təsirin artması ilə müşahidə olunur. Belə ki, ayrı-ayrı regionlarda torpaqların, su hövzələrinin və atmosferin çirklənməsi yol verilən normativ göstəricilərdən yüksəkdir, eyni zamanda içməli şirin suyun azalması, meşələrin seyrəkləşməsi, torpaqların eroziyası, sürüşmə və səhralaşma prosesləri fəallaşmışdır. Abşeron yarımadasında, Kür-Araz ovalığında, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Əli Bayramlı kimi sənaye mərkəzlərində ərazilərin neft, neft məhsulları, aqrokimyəvi maddələr və məişət tullantıları ilə çirkləndirilməsi halları güclənmişdir. Sənaye və məişət tullantı sularının ətraf ərazilərə axıdılması Abşeron yarımadasında süni gölməçələrin sayını artırmış və mövcud göllərin sahəsini xeyli genişləndirmişdir. Antropogen təsirlər nəticəsində meşə massivlərinin azalması və təbii biosenozların yoxa çıxması təhlükəsi yaranmışdır.

Ölkədə ətraf mühitə mənfi təsir edən amillərin qarşısının alınması və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün bir sıra vacib tədbirlər həyata keçirilməli, o cümlədən Xəzər dənizinin sahilboyu zolağında, Abşeron yarımadasında və ölkənin digər regionlarında su hövzələrinin, havanın, torpağın təbii keyfiyyətinin bərpa olunması üçün tullantı suları təmizlənməli, kanalizasiya şəbəkələri yenidən qurulmalı, çirklənmiş torpaqlar rekultivasiya edilməli, geniş sahələrdə meşələr və yaşıllıqlar salınmalı, abadlaşdırma işləri aparılmalı və digər zəruri tədbirlər həyata keçirilməlidir.

Təbii mühitə zərərli antropogen təsirlərin azaldılması, mövcud ekoloji problemlərin aradan qaldırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi məqsədi ilə qərara alıram:

1. «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün Kompleks Tədbirlər Planı» təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

2.1. bu sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin qiymətləndirilməsini təmin etsin və maliyyələşdirmə mənbələrini müəyyənləşdirib təsdiq etsin;

2.2. bu sərəncamın 1-ci bəndi ilə təsdiq edilmiş Tədbirlər Planının həyata keçirilməsinə rəhbərliyi və müvafiq dövlət qurumları arasında əlaqələndirməni həyata keçirsin;

2.3. bu sərəncamın 1-ci bəndi ilə təsdiq edilmiş Tədbirlər Planının icrası barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 28 sentyabr 2006-cı il

Təhsil işçilərinin əmək haqlarının artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Təhsil müəssisələrində çalışan işçilərə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədi ilə qərara alıram:

1. Dövlət büdcəsindən maliyyələşən təhsil müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları orta hesabla 25 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu sərəncam 2006-cı il oktyabrın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 28 sentyabr 2006-cı il

Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası və Latviya Respublikası arasında əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

Komissiyanın həmsədri:

Heydər Babayev	–	Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov	–	Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini
İlqar Fətizadə	–	Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini
Gülməmməd Cavadov	–	Azərbaycan Respublikasının sənaye və energetika nazirinin müavini
Musa Pənahov	–	Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini
Sevda Məmmədəliyeva	–	Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini
Elmar Qasımov	–	Azərbaycan Respublikasının təhsil nazirinin müavini
İltimas Məmmədov	–	Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları nazirinin müavini
Səfər Mehdiyev	–	Azərbaycan Respublikasının dövlət gömrük komitəsi sədrinin birinci müavini
Rüfət Aslanlı	–	Azərbaycan Respublikasının Milli Bankının idarə heyətinin üzvü, baş direktor

2. Bu sərəncamın 1-ci bəndi ilə tərkibi təsdiq edilmiş Hökumətlərarası Komissiyaya tapşırılsın ki, Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və onların daha da genişlənməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 3 oktyabr 2006-cı il

Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

XX əsrin 70–80-ci illərində minlərlə Azərbaycan gənci respublikadan kənarda yerləşən nüfuzlu ali məktəblərdə müxtəlif ixtisaslar üzrə təhsil alaraq ölkəmizin iqtisadi, mədəni və elmi potensialının gücləndirilməsinə öz layiqli töhfələrini vermişlər.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra azərbaycanlı gənclərin dünyanın müxtəlif ali məktəblərinə göndərilmə siyasəti yenidən formalaşmağa başlamışdır.

Ötən illər ərzində ölkəmizin yüzlərlə vətəndaşı xarici ölkələrin ali təhsil müəssisələrində dövlət hesabına təhsil almışdır. Bu ölkələr sırasında Türkiyə Cümhuriyyəti ilə müstəqilliyin ilk illərindən etibarən həyata keçirilən tələbə mübadiləsi xüsusi yer tutur. Azərbaycanlı tələbələr həmçinin bir sıra digər ölkələrin universitetlərində dövlət, eləcə də müxtəlif beynəlxalq fondlar hesabına ali təhsil alırlar. Lakin bu sahədə mövcud olan pərakəndəlik göstərir ki, ölkənin gələcək inkişaf strategiyası baxımından xaricdə təhsillə bağlı xüsusi proqramın həyata keçirilməsinə zərurət yaranmışdır.

Xarici ölkələrin nüfuzlu ali məktəblərində azərbaycanlı gənclərin təhsil almalarını və onların müstəqil Azərbaycanın inkişafı üçün güclü amilə çevrilmələrini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Təhsil Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə Azərbaycan gənclərinin xarici ölkələr-

də təhsil almalarına dair Dövlət Proqramını üç ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 oktyabr 2006-cı il

Hərbi təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Silahlı Qüvvələri, həmçinin qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələr üçün zabit kadrlarının hazırlanması və peşə hazırlığının yüksəldilməsi, habelə onların sosial vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə qərara alıram:

1. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsinin, Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının kursantlarının aylıq müavinətləri noyabrın 1-dən 70 manat müəyyən edilsin.

2. Heydər Əliyev adına Hərbi Liseyin və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarının aylıq müavinətləri noyabrın 1-dən 35 manat müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamdan irəli gələn maliyyələşdirmə məsələlərini həll etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 noyabr 2006-cı il

«Azərbaycan Respublikasında Məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər)»nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda məktəbəqədər təhsil sisteminin müasir tələblər səviyyəsində qurulması, məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və psixoloji inkişafı üçün lazımi şəraitin yaradılması, onların şəxsiyyətinin formalaşması və məktəbə hazırlanması işinin qabaqcıl beynəlxalq standartlara uyğun təmin edilməsi məqsədi ilə qərara alıram:

1. «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər)» təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, bu sərəncamın 1-ci bəndi ilə təsdiq edilmiş Dövlət Proqramının əlaqələndirici orqanı Azərbaycan Respublikasının Təhsil Nazirliyidir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 12 aprel 2007-ci il

Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan elm və elmi-tədqiqat müəssisələrində çalışan işçilərin əmək haqlarının artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Milli Elmlər Akademiyası sistemində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan dövlət büdcəsindən maliyyələşən elm və elmi-tədqiqat müəssisələrində çalışan işçilərin

Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2007-ci il fevralın 1-dən orta hesabla 50 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 23 yanvar 2007-ci il

«Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2006-cı il 29 dekabr tarixli 221-IIIQD nömrəli qanununun tətbiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

«Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2006-cı il 29 dekabr tarixli 221-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2006-cı il 29 dekabr tarixli 221-IIIQD nömrəli Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2006-cı il 29 dekabr tarixli 221-IIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 23 yanvar 2007-ci il

Elm və elmi-tədqiqat müəssisələrində (Azərbaycan Milli Elmlər Akademiyası istisna olmaqla) çalışan işçilərin əmək haqlarının artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Elm sahəsində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə qərara alıram:

1. Dövlət büdcəsindən maliyyələşən elm və elmi-tədqiqat müəssisələrində (Azərbaycan Milli Elmlər Akademiyası istisna olmaqla) çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2007-ci il fevralın 1-dən orta hesabla 25 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 yanvar 2007-ci il

Təhsil işçilərinin əmək haqlarının artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Təhsil müəssisələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə qərara alıram:

1. Dövlət büdcəsindən maliyyələşən təhsil müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2007-ci il fevralın 1-dən orta hesabla 25 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 yanvar 2007-ci il

«Azərbaycan Milli Elmlər Akademiyası işçilərinin əmək haqlarının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 1 iyul tarixli 967 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. «Azərbaycan Milli Elmlər Akademiyası işçilərinin əmək haqlarının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 1 iyul tarixli 967 nömrəli sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №7, maddə 414; 2004-cü il, №10, maddə 829; 2005-ci il, №3, maddə 209) 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

2. «Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərinin aylıq rütbə maaşları 1000 manat və müxbir üzvlərinin aylıq rütbə maaşları 700 manat məbləğində müəyyən edilsin».

3. Bu sərəncam 2007-ci il 1 may tarixindən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 aprel 2007-ci il

Azərbaycan Milli Elmlər Akademiyasının müşaviri vəzifəsinin təsis edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Milli Elmlər Akademiyasının təklifini nəzərə alaraq, Azərbaycanın nüfuzlu elmi məktəblərinin qorunub saxlanılması və elmi kadrların yetişdirilməsi işinin təkmilləşdirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyasında yuxarı say həddi 10 nəfərdən çox olmamaqla, Azərbaycan Milli Elmlər Akademiyasının müşaviri vəzifəsi təsis edilsin.

2. Azərbaycan Milli Elmlər Akademiyasının müşavirlərinin aylıq vəzifə maaşları 600 manat məbləğində müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 aprel 2007-ci il

«Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə dövlət proqramı (2007–2012-ci illər)»nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında dinamik inkişaf edən iqtisadiyyatın peşə-ixtisas kadrlarına tələbatının daha dolğun ödənilməsi, əhaliyə göstərilən texniki peşə təhsili xidmətlərinin günün tələbləri səviyyəsində qurulmasının təmin edilməsi məqsədi ilə qərara alıram:

1. «Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007–2012-ci illər)» təsdiq edilsin (əlavə olunur).

2. Bu sərəncamın 1-ci bəndi ilə təsdiq edilmiş Dövlət Proqramının əlaqələndirici orqanı Azərbaycan Respublikasının Təhsil Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 3 iyul 2007-ci il

Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

«Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 24 avqust tarixli 2354 nömrəli sərəncamına uyğun olaraq qərara alıram:

1. Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərindən ibarət 150 cildlik «Dünya ədəbiyyatı kitabxanası»na daxil olunmuş əsərlərin siyahısı təsdiq edilsin (siyahı əlavə olunur).

2. Azərbaycan Milli Elmlər Akademiyası bu sərəncamın 1-ci bəndi ilə təsdiq olunmuş siyahıya daxil edilmiş əsərlərin tərcüməsi, tərtibatı və çapa

hazırlanması barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 dekabr 2007-ci il

Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2001-ci ildən etibarən Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması ölkəmizin Avropa məkanına inteqrasiyasını sürətləndirmişdir. Bu proseslərin tərkib hissəsi kimi Azərbaycan Respublikası Avropa ölkələrinin təhsil nazirləri tərəfindən qəbul edilmiş Bolonya deklarasiyasını imzalamaqla respublikanın ali təhsil müəssisələrinin Avropa təhsil sisteminə inteqrasiyası yolunda mühüm addım atmışdır. Azərbaycanın dünyada analoqu olmayan iqtisadi inkişafı ümumavropa təhsil məkanına inteqrasiya proseslərinin daha da sürətləndirilməsini və bu sahədə həyata keçirilən işlərin intensivləşdirilməsini tələb edir. Ölkənin intellektual potensialının gücləndirilməsinin Azərbaycanın inkişaf strategiyasının əsas müddəalarından biri olması ali təhsil sistemində islahatlara dair müvafiq dövlət proqramının hazırlanması zərurətini meydana çıxarmışdır.

Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası proseslərini sürətləndirmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, tabeçiliyində ali təhsil müəssisələri olan digər qurumlarla birlikdə «2008–2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı» layihəsini 2008-ci il mart ayının 30-dək hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası məqsədilə Bolonya prosesinin ölkəmizdə reallaşdırılmasına xidmət edən beynəlxalq müqavilələrin imzalanması üçün müvafiq tədbirlər həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifləri nəzərə alınmaqla, ali təhsilin bakalavr pilləsində ixtisasların (proqramların) siyahısının YUNESKO-nun və digər beynəlxalq qurumların qəbul etdiyi müvafiq sənədlərə uyğunlaşdırılmasını təmin etsin və bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 31 yanvar 2008-ci il

YUNESKO-nun 2008–2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramı çərçivəsində YUNESKO Baş Konfransının 34-cü sessiyası 2008–2009-cu illərdə «Leyli və Məcnun» operasının ilk tamaşasının, xalq rəssamı Səttar Bəhlulzadənin, yazıçı Mir Cəlal Paşayevin və akademik Musa Əliyevin 100 illik yubileylərinin rəsmi qeyd olunması ilə bağlı qərar qəbul etmişdir.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» əsərinin 1908-ci ildə birinci tamaşası milli musiqi mədəniyyəti tarixində yeni dövr açmışdır. Muğamla Avropa operasının üzvi vəhdəti əsasında yaradılan «Leyli və Məcnun» Azərbaycan musiqisinin həqiqi ensiklopediyasıdır. Müsəlman Şərqində opera janrının əsası da muğam operasının bu ilk nümunəsi ilə qoyulmuşdur.

Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlulzadənin adı Azərbaycan boyakarlıq sənəti tarixinə mənzərə janrının yaradıcılarından biri kimi həmişəlik həkk olunmuşdur. Səttar Bəhlulzadə müxtəlif rənglərin yeni çalarlarını kəşf edərək onların ahəngindən gözəl lövhələr yaratmışdır. Rəssamın rəng palitrasının zənginliyi, poetik əhval-ruhiyyə və kolorit gözəlliyi ilə seçilən orijinal üslublu əsərləri milli təsviri sənətin ən qiymətli inciləri sırasındadır.

XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır. Xalq yaradıcılığı ilə klassik bədii irsin qabaqcıl ənənələrinin vəhdətini yeni formada yaşadan və ədəbiyyata həyat gətirmiş yazıçı kimi tanınan Mir Cəlal Paşayev eyni zamanda görkəmli tədqiqatçı-alim olmuşdur.

Tanınmış geoloq-alim, 1939–1941-ci illərdə indiki Azərbaycan Dövlət Neft Akademiyasının rektoru, 1950–1958-ci illərdə Azərbaycan Elmlər Akademiyasının prezidenti olmuş akademik Musa Əliyev ölkəmizdə elmin inkişafı naminə müstəsna xidmətlər göstərmişdir.

2008–2009-cu illərdə «Leyli və Məcnun» operasının ilk tamaşasının, xalq rəssamı Səttar Bəhlulzadənin, yazıçı Mir Cəlal Paşayevin və akademik Musa Əliyevin 100 illik yubileylərinin Azərbaycanda dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Bəstəkarlar İttifaqının, Azərbaycan Rəssamlar İttifaqının və Azərbaycan Yazıçılar Birliyinin təklifləri müvafiq şəkildə nəzərə alınmaqla, «Leyli və Məcnun» operasının ilk tamaşasının, xalq rəssamı Səttar Bəhlulzadənin, yazıçı Mir Cəlal Paşayevin və akademik Musa Əliyevin respublikada, xarici ölkələrdə və YUNESKO miqyasında 100 illik yubileylərinin təşkili ilə bağlı tədbirlər planlarını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 31 yanvar 2008-ci il

Bakı şəhərində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının açılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə təhsil sahəsində genişmiqyaslı islahatlar proqramı həyata keçirilir, özəl sektor formalaşır, respublikanın beynəlxalq təhsil məkanına inteqrasiyası prosesi sürətlənir.

Azərbaycan vətəndaşlarının Rusiya Federasiyasının nüfuzlu ali məktəblərində təhsil almaq istəyi respublikada yüksək səviyyədə tədris həyata keçirən mötəbər bir universitetin filialının açılmasına zərurət yaratmışdır.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rəhbərliyinin Bakı şəhərində universitetin filialının açılması ilə bağlı təklifini nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti öz səlahiyyətləri daxilində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının açılması və onun maddi-texniki bazasının yaradılması ilə bağlı məsələləri həll etsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 15 yanvar 2008-ci il

Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2008-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi tamam olur. Müasir Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa edərək, Xalq Cümhuriyyətinin siyasi varisi kimi onun bayrağını, gerbini, himnini qəbul etmişdir. İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 may günü hazırda Respublika günü kimi qeyd olunur.

Müsəlman Şərqində ilk parlament respublikası – Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olmuşdu. Milli parlamentarizmin təşəkkül tarixi isə Azərbaycan parlamentinin 1918-ci il dekabr ayının 7-də keçirilmiş ilk iclasından başlayır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu idi. Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və digər görkəmli şəxsiyyətlər tərəfindən təməli qoyulmuş proseslər Azərbaycanda yeni tipli teatrın, məktəbin və mətbuatın yaranması ilə nəticələnmiş, milli özünüdərkin gerçəkləşməsinə böyük təsir göstərmişdir. Bakının neft paytaxtına çevrilməsi milli sahibkarlar təbəqəsinin formalaşması ilə yanaşı, dünyanın aparıcı universitetlərində təhsil almış ziyalılar nəslinin yetişməsinə şərait yaratmışdır. Əlimərdan bəy Topçubaşov və başqa ziyalıların siyasi proseslərə qatılması, Dumaya seçilməsi və Rusiya müsəlmanlarının təşkilatlanmasında oynadıqları rol tariximizin unudulmaz səhifələrindəndir.

Rusiyada çar üsul-idarəsinin ləğvi, baş verən fevral və oktyabr çevrilişləri, Birinci dünya müharibəsinin fəsadları və bir sıra digər amillər Qafqazı ayrı-ayrı siyasi qüvvələrin qarşıdurma meydanına çevirmişdi. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə göstərdiyi maraq vəziyyəti daha da gərginləşdirirdi.

İlk qərarı ilə milliyyəti, dini, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verən Cümhuriyyətin yaranması çox mürəkkəb şəraitdə elan olunmuşdur. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir səhifəsi bütün azərbaycanlılar üçün olduqca əzizdir. Bununla belə, bu tarixdə ürəyimizi qürur hissi ilə dolduran hadisələrlə yanaşı, ümummilli faciələrə yol açan səhifələr də vardır.

Azərbaycan Xalq Cümhuriyyətinin öz dövlətçilik atributlarını qəbul etməsi, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahələrində atdığı addımlar xalqımız üçün taleyüklü əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətin böyük uğurlarından biri Paris sülh konfransında 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqil dövlət kimi tanınması olmuşdur. Lakin ölkənin öz neftini xarici bazarlara çıxarmaqdan təcrid edilməsi nəticəsində yaranmış siyasi, iqtisadi və sosial böhran güclənirdi. Həmçinin parlament daxilində hökm sürən hərc-mərclik, Qarabağda və Zəngəzurdakı erməni silahlı dəstələri ilə qarşıdurmalar gündən-günə dərinləşirdi. Əhalinin əsas hissəsinin ağır durumu isə bolşevik təbliğatı üçün münbit zəmin yaradırdı. İrəvanın ermənilərə paytaxt kimi verilməsindən sonra İrəvan mahalından qaçqın düşmüş 150 mindən artıq soydaşımızın vəziyyəti olduqca gərgin idi. Belə bir vəziyyətdə parlamentin son iclasında bolşevik ultimatumunun qəbul edilməsi aprel işğalı ilə nəticələndi.

Aprel işğalı Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin bir qismini Məmməd Əmin Rəsulzadə kimi mühacir həyatı yaşamağa məhkum etdi, digər qismini Fətəli xan Xoyski və Həsən bəy Ağayev kimi erməni terrorunun qurbanına çevirdi, qalanlarını da bolşevizmin amansız repressiyalarına məruz qoydu.

1920-ci il aprelin 28-də ikinci respublika – Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. İki il ərzində öz müstəqilliyini qoruyub saxlamağa nail olan respublika 1922-ci ildə SSRİ-nin tərkibinə daxil olduqdan sonra öz müstəqilliyinin ancaq formal atributlarını saxlaya bilmişdi. Yalnız onu əvəz edən dördüncü respublika müstəqillik ideyasını yaşatmış və Azərbaycan bütün sərvətlərinin, o cümlədən neftinin tam sahibi kimi çıxış edə bilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sanballı əsərlər, hətta ikicildlik ensiklopediya nəşr edilsə də, tariximizin bu mərhələsi ilə bağlı çox sayda sənədlər hələ xarici ölkələrin qapalı arxivlərində saxlanılır və öz tədqiqatçılarını gözləyir.

Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizdə milli dövlətçilik tarixində xüsusi yer tutduğunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi respublikada geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin yaranmasının 90 illiyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə olunsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 15 fevral 2008-ci il

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2008-ci il may ayının 10-da müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin 85 illiyi tamam olur.

Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu otuz ildən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir.

1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən etibarən respublikamızın həyatında geniş vüsət alan ictimai-siyasi proseslər və iqtisadi islahatlar müsbətə doğru radikal dəyişikliklərə təkan vermişdir. Qısa müddətdə iqtisadiyyat sahəsində nailiyyətlər əldə olunmuş, mədəniyyətin yüksəlişi və milli-mənəvi dəyərlərin dirçəlişi istiqamətində mühüm addımlar atılmışdır. O illərdə Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərkin güclənməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir.

Heydər Əliyev həmin dövrdə özünün dövlət idarəçiliyi strateji proqramında mədəni və mənəvi intibahı həmişə iqtisadiyyatda və sənayedəki uğurlarla əlaqələndirərək, vahid məcrada həyata keçirmişdir. 1969–1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına dərin inteqrasiyası prosesləri-

nin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır.

Heydər Əliyevin idarəçilik istedadı, tükənməz enerjisi və misilsiz işgüzarlığı 1982-ci ildən SSRİ-nin dövlət başçılarından biri kimi fəaliyyət göstərdiyi və irimiqyaslı layihələrə rəhbərlik etdiyi vaxtlarda özünü xüsusilə parlaq surətdə təzahür etdirmişdir. Həmin dövrdə Heydər Əliyev fenomeni ümumittifaq miqyasında etiraf olunurdu. O, ölkədə baş verən ən ekstremal vəziyyətlərin aradan qaldırılmasının bilavasitə iştirakçısı olması sayəsində dövlətin ən nüfuzlu siyasi xadimlərindən birinə çevrilmişdi.

Qanlı Yanvar faciəsi ilə bağlı Heydər Əliyev tərəfindən verilən kəskin bəyanat artıq Azərbaycan tarixində yeni siyasi dövrün başlanmasını bildirirdi. O, Kommunist partiyası sıralarından çıxmasına dair ərizəsində kommunist rejiminin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq bəyan etmişdi.

Heydər Əliyevin Azərbaycan parlamentindəki çıxışları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən qəbul etdiyi qərarlar və Naxçıvan Ali Məclisinin binası üzərində üçrəngli bayrağımızı ucaltması suverenliyin qazanılması istiqamətində atılmış ilk addımlardandır.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən az sonra, xarici təzyiqlər və daxili çəkişmələr nəticəsində 1993-cü ilin iyununda vətəndaş qarşıdurması ilə üz-üzə qaldığı bir vaxtda xalqımız öz taleyini yalnız Heydər Əliyevə etibar etmişdir. Onun təkidli istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai-siyasi pərakəndəlikdən qurtarmış, qanunçuluğu bərpa etmiş və cəmiyyəti vahid məfkurə ətrafında birləşdirmişdir. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə milli birliyin təmin edildiyi günü xalq özünün əsl xilaskarı şərəfinə Azərbaycanın ən yeni tarixinə Milli Qurtuluş günü kimi yazmışdır.

Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin müvəffəqiyyətli həlli şəxsən Heydər Əliyevin xidmətləridir.

1994-cü ildə Heydər Əliyevin neft strategiyasının reallaşdırılmasını təmin edən «Əsrin müqaviləsi»nin imzalanması Azərbaycan xalqının öz maddi

sərvətlərinin, o cümlədən neftinin həqiqi sahibi kimi çıxış etməsinin təntənəsinə çevrilmişdir. Bu müqavilə ölkəmizin tarixində yeni dövr açmış, dinamik inkişafın təməlini təşkil edərək müstəqilliyimizin iqtisadi bünövrəsinin möhkəmlənməsi və Azərbaycanın bu gün dünyada analoqu olmayan templə davamlı inkişafı üçün zəmin yaratmışdır. Hazırda Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri xalqımızın ümummilli liderinin ideyalarının gerçəkləşməsinin parlaq təcəssümüdür.

Müstəqil dövlətçiliyimizin Heydər Əliyev tərəfindən formalaşdırılan mənəvi-ideoloji əsası dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində həlledici rol oynamışdır. Azərbaycan ziyalısını son əsrlərdə ciddi düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin fəaliyyəti sayəsində strateji dövlət siyasətinə, əməli siyasi müstəviyə keçmiş və nəticədə azərbaycançılıq məfkurəsi şüurlara hakim kəsilmişdir. İki əsrin və iki minilliyin qovuşuğunda xalqımız məhz onun sayəsində milli-mənəvi dəyərləri layiqincə qoruyaraq, üçüncü minilliyə inamla qədəm qoymuşdur. Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir.

2003-cü il dekabrın 12-də əbədiyyətə qovuşmuş Heydər Əliyevi son mənzilə yola salmağa yüz minlərlə soydaşımız gəlmişdi. Vida mərasimində ardıarası kəsilməyən həmin insan seli isə on il əvvəl – 1993-cü ildə Vətən darda ikən millətin nicat yolunu Heydər Əliyevin simasında görənlərin birliyindən yaranmışdı. Bu möhtəşəm izdihamı ilə xalq ən kədərli günündə həmrəylik nümayiş etdirməklə Heydər Əliyevin ruhu qarşısında mənəvi borcunu ödəyir, Heydər Əliyev ideyalarına sonsuz sədaqətini ifadə edirdi.

Çoxəsrlik dövlətçiliyimiz tarixində xüsusi yeri olan Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxır. Beynəlxalq aləmdə cərəyan edən proseslərə təsiri baxımından həmişə seçilən və qlobal dünyanın ən aktual çağırışlarına cavab verən Azərbaycan rəhbəri zəmanəmizin tanınmış siyasi xadimləri sırasında şərəfli yer tutmuşdur.

Özünün zəngin siyasi fəaliyyəti sayəsində ölkəmizin hərtərəfli inkişafı prosesinə qüvvətli təkan verərək, onu daimi yüksəliş yoluna çıxaran Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz tarixi xidmətlərini, o cümlədən xalqımızın müstəqillik arzusunun həyata keçməsində, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsində və müasir Azərbaycan dövlətinin yaşadılmasında müstəsna rolunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı və Azərbaycan Respublikasının Nazirlər Kabineti aidiyyəti qurumlarla birlikdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyinin keçirilməsi ilə bağlı tədbirlər planını hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 mart 2008-ci il

2007-ci il oktyabrın 26-da Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş»in təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il oktyabrın 26-da Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş» təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Litva Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 mart 2008-ci il

Uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən müavinətin artırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 127-ci maddəsinə uyğun olaraq və uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanların sosial müdafiəsini gücləndirmək məqsədi ilə qərara alıram:

1. Bir yaş yarımadək uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən aylıq müavinətin məbləği 20 manat, bir yaş yarımdan üç yaşınadək uşağa qulluğa görə isə həmin müavinətin məbləği 10 manat miqdarında müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. «Uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən müavinətin məbləğinin artırılması barədə» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 yanvar tarixli 613 nömrəli sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 45) qüvvədən düşmüş hesab edilsin.

4. Bu sərəncam 2008-ci il sentyabrın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 27 avqust 2008-ci il

«Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008–2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması, elmi-mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya təminatının artırılması, eləcə də Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi məqsədi ilə qərara alıram:

1. «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008–2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı» təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 6 oktyabr 2008-ci il

2009-cu ilin «Uşaq ili» elan edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə qərara alıram:

1. 2009-cu il Azərbaycan Respublikasında «Uşaq ili» elan edilsin.

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi və digər aidiyyəti qurumlarla birlikdə 2009-cu ilin «Uşaq ili» elan edilməsi ilə bağlı tədbirlər planını bir ay ərzində hazırlayıb təsdiq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 dekabr 2008-ci il

«2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə dövlət Proqramı»nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin
Sərəncamı

Azərbaycan Respublikasında müasir informasiya və kommunikasiya texnologiyalarını geniş tətbiq etməklə vahid ümummilli təhsil mühitinin yaradılması və əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının təmin edilməsi məqsədi ilə

QƏRARA ALIRAM:

1. «2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı» təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilmiş Dövlət Proqramının əlaqələndirici orqanı Azərbaycan Respublikasının Təhsil Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 iyun 2008-ci il

«2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə dövlət proqramı»nın təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası proseslərinin sürətləndirilməsi, ali təhsilin məzmununun Bolonya prinsiplərinə uyğun qurulması, ölkə iqtisadiyyatının inkişaf meyillərinə müvafiq olaraq yüksək hazırlıqlı kadrlara tələbatın ödənilməsi, həmçinin əhaliyə müasir standartlar səviyyəsində ali təhsil almaq imkanı yaradan səmərəli ali təhsil sisteminin formalaşdırılması məqsədi ilə

QƏRARA ALIRAM:

1. «2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı» təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 may 2009-cu il

«Azərbaycan Respublikasında Məktəbəqədər Təhsilin Yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər)»nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin
Sərəncamı

Azərbaycanda məktəbəqədər təhsil sisteminin müasir tələblər səviyyəsində qurulması, məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və psixoloji inkişafı üçün lazımi şəraitin yaradılması, onların şəxsiyyətinin formalaşması və məktəbə hazırlanması işinin qabaqcıl beynəlxalq standartlara uyğun təmin edilməsi məqsədilə

QƏRARA ALIRAM:

1. «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər)» təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilmiş Dövlət Proqramının əlaqələndirici orqanı Azərbaycan Respublikasının Təhsil Nazirliyidir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 12 aprel 2007-ci il, № 2089

Azərbaycan Respublikasının Ali Təhsil Müəssisələrinin Avropa Ali Təhsil Məkanına İnteqrasiya ilə bağlı bəzi tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2001-ci ildən etibarən Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması ölkəmizin Avropa məkanına inteqrasiyasını sürətləndirmişdir. Bu proseslərin tərkib hissəsi kimi Azərbaycan Respublikası Avropa ölkələrinin təhsil nazirləri tərəfindən qəbul edilmiş Bolonya deklarasiyasını imzalamaqla respublikanın ali təhsil müəssisələrinin Avropa təhsil sisteminə inteqrasiyası yolunda mühüm addım atmışdır. Azərbaycanın dünyada analoqu olmayan iqtisadi inkişafı ümumavropa təhsil məkanına inteqrasiya proseslərini. daha da sürətləndirilməsini və bu sahədə həyata keçirilən işlərin intensivləşdirilməsini tələb edir. Ölkənin intellektual potensialının gücləndirilməsinin Azərbaycanın inkişaf strategiyasının əsas müddəalarından biri olması ali təhsil sistemində islahatlara dair müvafiq dövlət proqramının hazırlanması zərurətini meydana çıxarmışdır.

Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası proseslərini sürətləndirmək məqsədilə

QƏRARA ALIRAM:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, tabeçiliyində ali təhsil müəssisələri olan digər qurumlarla birlikdə «2008–2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı» layihəsini 2008-ci il mart ayının 30-dək hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası məqsədilə Bolonya prosesinin ölkəmizdə reallaşdırılmasına xidmət edən beynəlxalq müqavilələrin imzalanması üçün müvafiq tədbirlər həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifləri nəzərə alınmaqla, ali təhsilin bakalavr pilləsində ixtisasların (proqramların) siyahısının YUNESKO-nun və digər beynəlxalq qurumların qəbul etdiyi müvafiq sənədlərə uyğunlaşdırılmasını təmin etsin və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 31 yanvar 2008-ci il

Məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə əlaqədar əlavə tədbirlər barədə

Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı

Ölkəmizdə məktəbəqədər təhsil sisteminin müasir səviyyədə qurulması, uşaqların intellektual, fiziki və psixoloji inkişafı üçün lazımi şəraitin yaradılması, onların şəxsiyyətinin formalaşması, təlim-tərbiyə prosesinin məzmunca yeniləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

Hazırda respublikada 100 mindən çox uşağı əhatə edən 1604 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir.

«Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər)»nda nəzərdə tutulmuş tədbirlərin icrasını sürətləndirmək məqsədi ilə

QƏRARA ALIRAM:

1. Ölkədə məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulması işlərinin davam etdirilməsi üçün 2009-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə 2,0 (iki) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin maliyyələşdirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 sentyabr 2009-cu il

TƏHSİL SAHƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN DÖVLƏT PROQRAMLARI

«Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı»

GİRİŞ

Cəmiyyətin tərəqqisinin vacib amilləri olan elm və mədəniyyətin, xalqın intellektual potensialının formalaşması onun təhsil sistemi ilə təmin edilir.

Azərbaycan qədim sivilizasiya, mədəniyyət ocağı kimi hələ tarixin lap qədim qatlarında özünün təhsil sistemini formalaşdırmışdır. Bu gün ölkəmiz geniş təhsil sisteminə, elmləri, bilikləri, təcrübəni nəsildən-nəsilə ötürməyə əsas verən mükəmməl ali, orta ixtisas və orta təhsil məktəbləri şəbəkəsinə malikdir.

Müstəqilliyin çətin yolları ilə irəliləyən Azərbaycan bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də böyük vəzifələr yerinə yetirmək zərurəti ilə üz-üzə dayanmışdır. Ölkəmizdə start götürmüş yeni islahatçılıq hərəkatı çərçivəsində təhsil sahəsində də mühüm dəyişikliklərin, yeniliklərin həyata keçirilməsi obyektiv tələbatdır.

Azərbaycanın XX əsrdə siyasi, iqtisadi, mənəvi inkişafının ən mühüm yekunlarından biri ölkədə müasir təhsil sisteminin yaradılmasıdır.

Respublikada yeni tipli məktəblərin açılması, çoxsaylı kadrların yetişdirilməsi sahəsində ciddi dəyişikliklər 20-ci illərdən, Azərbaycan sovetləşəndən sonra başlandı. Yalnız bu dövrdən etibarən savadsızlığın aradan qaldırılması, bütün kənd və şəhərlərdə dünyəvi təhsil məktəblərinin açılması dövlət siyasətinin vacib istiqaməti oldu. Qısa vaxtda geniş məktəblər şəbəkəsinin yaradılması və ibtidai təhsildə icbarilik elementlərinin təsdiq edilməsi əhalinin böyük bir hissəsinin təlim-tərbiyə prosesinə cəlb olunmasına zəmin yaratdı.

Xalqımız sovet təhsil sistemi vasitəsilə dünya mədəniyyətinə qovuşmaq, qabaqcıl nailiyyətlərini mənimsəyərək gənc nəslə ötürmək, müxtəlif sahələrdə qabaqcıl elmi ideyalarla silahlanmış yüksək ixtisaslı milli kadrlar hazırlamaq imkanını əldə etmişdir.

Bununla yanaşı, sovet hakimiyyəti illərində Azərbaycanda təhsilin inkişafı bütövlükdə Sovet İttifaqında qəbul edilmiş təhsil strategiyasının ruhuna və tələblərinə uyğun olaraq mərkəzləşdirilmiş qaydada həyata keçirilirdi. Müəyyən edilmiş strategiyadan kənara çıxmaq, milli xüsusiyyətlərə cavab verən təhsil konsepsiyası hazırlamaq, təbii ki, inzibati-amirilik idarəetmə metodlarını əldə rəhbər tutan bir cəmiyyətdə qeyri-müəyyən idi.

Lakin mövcud strateji kurs daxilində təhsilin maddi bazasını möhkəmləndirmək, maarifə qayğını gücləndirmək imkanları da yox deyildi. Bu isə daha çox respublika rəhbərliyinin elmin və maarifin rolunu qiymətləndirmək bacarığı, xalqın milli-mədəni tərəqqisinə sədaqətlə xilmət etmək istəyi ilə bağlı idi.

1969-cu ildə respublika rəhbərliyinə irəli çəkilən Heydər Əliyev mövcud rejimin sərt qanunları çərçivəsində Azərbaycanın tərəqqisi, elm, təhsil və mədəniyyətin yüksəlməsi üçün çox məharətlə düşünülmüş strategiya və taktika seçməyə nail oldu. Bu illər ərzində Azərbaycanda təhsilin inkişafı geniş vüsət almışdı. Məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə çıxaraq Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində böyük rol oynadı. 1988-ci ildən etibarən isə Azərbaycanda bütün sahələrdə olduğu kimi, təhsildə də mənfi, dağıdıcı tendensiyalar özünü büruzə verdi. Ən başlıcası isə təhsilə qayğı unuduldu, onun cəmiyyətdə aparıcı rolu lazımınca qiymətləndirilmədi. Eyni zamanda həmin ildən Ermənistanın Azərbaycana torpaq iddiaları əsasında başlanmış müharibə nəticəsində Dağlıq Qarabağ və onun ətraf rayonları zəbt olundu, bir milyondan çox soydaşımız öz doğma yurdundan qovuldu, ərazimizin 20 faizi işğal olundu, 220 körpələr evi, 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 11 peşə məktəbi, 4 orta ixtisas məktəbi, 1 ali məktəb filialı dağıdıldı. Bu təcavüz Azərbaycan xalqını, Azərbaycan məktəbini, Azərbaycan pedaqoji ictimaiyyətini tarixdə analoqu olmayan pedaqoji-psixoloji «eksperimentə» məhkum etdi.

Doxsanıncı illərin başlanğıcında Sovet İttifaqının süqut etməsi ilə Azərbaycan Respublikası öz müstəqilliyini təsdiq edən Konstitusiya aktını qəbul etmişdir.

Müstəqillik yoluna qədəm qoyulması təhsil, təlim-tərbiyə sahəsində də bir sıra perspektivlər açmış, yeni vəzifələr irəli sürmüşdür. Azərbaycan məktəbi dünya mədəniyyət xəzinəsinin inciləri ilə yanaşı, xalqımızın elm, mədəniyyət, incəsənət sahələrində qazandığı nailiyyətləri, tariximizin, ənənələrimizi gənc oğlan və qızlara mənimsədən təlim-tərbiyə mərkəzlərinə, Azərbaycan mənəviyyatının, Azərbaycan milli psixologiyasının, dünyagörüşü sisteminin qorunub saxlanıldığı və nəsildən-nəslə ötürüldüyü məbədə çevirmək imkanı əldə etdi. Təəssüf ki, həmin dövrdə təhsil sistemi müstəqil dövlət quruculuğunda yaxından iştirak etməli olan milli ruhlu kadrlar hazırlamaq, vətəni sevən, onun mənafeyi ilə yaşayan vətəndaşlar tərbiyə etmək kimi tarixi

vəzifənin öhdəsindən gələ bilmək üçün zəruri, düşünülmüş islahatçılıq hərəkatı ilə əhatə oluna bilmədi.

Yalnız 1993-cü ilin iyunundan bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də tənəzzülün, təhlükəli dağıdıcılıq hallarının qarşısı alındı, milli təhsil sisteminin bərpası və yeni şəraitin tələblərinə uyğun olaraq daha da inkişaf etdirilməsi üçün əlverişli siyasi, iqtisadi, hüquqi, əxlaqi-mənəvi mühit yarandı.

Təhsil sistemində islahatların zəruriliyi respublikanın sosial-iqtisadi, ictimai-siyasi və dövlət quruluşunda baş vermiş köklü dəyişikliklərlə bağlıdır. İndiki mərhələdə təhsil sistemi inzibati-amirlik prinsipinə əsaslanan totalitarizmdən azad, açıq, demokratik və çoxşaxəli formada qurulmalıdır.

Təhsilin inkişafı müasir şəraitdə yalnız dövlətin vəzifəsi olmayıb, demokratik cəmiyyətin bütün ünsürlərinin, təhsil alanların və onların ailələrinin, dövlət və qeyri-dövlət təhsil müəssisələrinin, elmi-pedaqoji birliklərin, mütəxəssislərlə təmin olunmağa ehtiyacı olan potensial tələbatçıların, ictimai və dini birliklərin çoxşaxəli və çoxaspektli əməkdaşlıq sahəsidir. Bu sahədə islahatların aparılması indiyə qədər bir sıra obyektiv və subyektiv səbəblərdən asılı olaraq həyata keçirilmişdir. İctimai-siyasi həyatımızdakı qeyri-sabitlik, iqtisadi sistemin bütün sahələrində istehsalın aşağı düşməsi və milli gəlirin azalması həm təhsilin büdcə təminatını aşağı salmış, həm də bütövlükdə təhsil sisteminin yeni iqtisadi mexanizminin yaranmasına imkan verməmişdir.

İqtisadi inkişafın indiki mərhələsində müşahidə olunan dirçəliş, yaranmış maliyyə sabitliyi, qeyri-büdcə sferasından əlavə vəsaitlərin cəlb olunma imkanlarının mövcudluğu həm qeyd olunan çətinlikləri aradan qaldırmağa, həm də bütövlükdə təhsil sistemində köklü islahatlara başlamağa əlverişli şərait yaratmışdır.

Təhsil sisteminin islahatı ilə təhsil müəssisələrinin fəaliyyətində, bütövlükdə təhsil sisteminin strukturu, idarə sistemi və iqtisadiyyatında köklü yeniləşmənin həyata keçirilməsini nəzərdə tutur. İslahatın gedişində elmi-tədqiqat işlərinin aparılması və onun nəticələrinin təhsil prosesinə tətbiqinə əlverişli şərait yaradılmasına, təhsil sistemi işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və təhsil alanların sağlamlığının və sanitar-gigiyenasının təşkilinə xüsusi diqqət yetirilməsi nəzərdə tutulur.

Aparılacaq islahatlar nəticə etibarilə təhsil sisteminin müasir bazar iqtisadiyyatı şəraitinə cavab verən yeni iqtisadi-təşkilati və idarəetmə mexanizminin yaradılmasını təmin etməlidir.

İslahatın məqsədi və prinsipləri

Təhsil sahəsində islahat proqramının əsas məqsədi – məktəbəqədər, orta, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ-hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikası Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatının demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarətdir. Göstərilən tələblərə cavab verən təhsil sisteminin strukturunun, məzmununun, kadr hazırlığı və təminatının, tədris, elmi-metodiki və informasiya təminatının, idarə olunmasının, maddi-texniki bazasının və iqtisadiyyatının islahatı prinsipləri əhatə etməlidir:

- müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün təhsil sisteminin üstün inkişaf etdirilməli sahə olduğunu təsbit etməyə imkan verən bazanın yaradılması, ölkədə elmin və mədəniyyətin inkişafı, demokratik vətəndaş cəmiyyətinin qurulması, modernləşdirilmiş, istehsalat-mülkiyyət sistemi əsasında sabit iqtisadi artıma nail olunsun;
- demokratikləşdirilmə, humanistləşdirilmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirilmə, humanitarlaşdırılma prinsiplərinə əsaslanaraq təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsil alanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması;
- islahatın humanitar xarakterli olması, onun insanların yaradıcı və keyfiyyətli fəaliyyətinin hərtərəfli açılmasına yönəldilməsi, islahatda şəxsiyyətin hüquq və azadlıqlarının təmin edilməsi;
- islahatın praktiki yönümlülüyü – dövlətin və cəmiyyətin malik olduğu vəsaitlə təmin oluna bilən məqsəd və tədbirlərin, yenilik və dəyişikliklərin həyata keçirilməsinə yönəldilməsi;
- təhsil sisteminin mütənasib inkişafının təmin edilməsi;
- mövcud təhsil sistemində toplanmış təcrübənin mütərəqqi əsaslarını saxlamaqla müstəqil Azərbaycan Respublikasının strateji məqsədlərini həyata keçirməyə qadir olan intellektual potensialın formalaşdırılmasında inkişaf etmiş ölkələrin özünü doğrultmuş və mövcud elmi-peda-

qoji ictimayyətin qəbul etdiyi təcrübəsindən istifadə olunması;
- təhsil sisteminin əhatə imkanlarının genişləndirilməsi, onun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsi;
- təhsil sisteminin idarəetmə orqanlarının fəaliyyətinin respublikanın digər dövlət orqanları və qeyri-dövlət təşkilatlarının fəaliyyəti, eləcə də ölkənin iqtisadi mühiti ilə əlaqələndi-rilməsi və təhsil siyasətini həyata keçirən orqan və şəxslərin səlahiyyətlərinin Azərbaycan Respublikasının Təhsil Qanununa və digər qanunvericilik aktlarına uyğun tənzimlənməsi;
- idarəetmənin dövlət-ictimai prinsipləri əsasında həyata keçirilməsi. Müəllim və digər işçilərin fəaliyyəti üçün ən əlverişli şəraitin yaradılması, onların sosial müdafiəsinin təmin olunması. Perspektivdə ictimai-dövlət idarəetmə sisteminə keçirilməsi;
- təhsil sisteminin yeni iqtisadi modelinin qurulması, resurs təminatının möhkəmləndirilməsi və optimallaşdırılması.

Mərhələlər:

Təhsil sistemində islahatların üç mərhələdə aparılması nəzərdə tutulur.

Bir il müddətini əhatə edən birinci mərhələ – hazırlıq mərhələsi (1999-cu il) Azərbaycan Respublikası vətəndaşlarının Konstitusiyada müəyyən olunmuş təhsil almaq hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ-hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlərin aparılmasını, eləcə də onun infrastrukturu və kommunikasiya sisteminin müəyyən edilməsini nəzərdə tutur.

Qısamüddətli perspektivi əhatə edən ikinci mərhələdə (2000– 2003-cü illər) təhsil sahəsinin sosial-iqtisadi sabitliyini təmin edən təxirəsalınmaz problemlərin həll olunması və genişmiqyaslı islahatın aparılması üçün təşkilati-hüquqi, kadr, maliyyə, maddi-texniki təminatının və yeni idarəetmə modelinin yaradılması nəzərdə tutulur.

Üçüncü mərhələ (2004-cü ildən) proqramda nəzərdə tutulan bütün tədbirlərin həyata keçirilməsini əhatə edir.

Azərbaycan Respublikası Prezidentinin
2005-ci il 30 avqust tarixli sərəncamı ilə
təsdiq edilmişdir

Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005–2009-cu illər)

1. Dövlət Proqramının məqsədi

Dövlət Proqramının məqsədi Azərbaycan Respublikasında gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək üçün sosial-iqtisadi və təşkilati-hüquqi şərait yaratmaqdır.

2. Dövlət proqramının vəzifələri

Dövlət Proqramının məqsədinə uyğun olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

– gənc nəslin vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması;
– gənclərin hərbi vətənpərlik tərbiyəsi işinin gücləndirilməsi, onların hərbi xidmətə hazırlanması;
– istedadlı gənclərin aşkar edilməsi, onların öz qabiliyyətlərini inkişaf etdirə bilmələri üçün şəraitin yaradılması;
– gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, bazar iqtisadiyyatının əsaslarına dair biliklərə yiyələnməsi, peşə hazırlığının yüksəldilməsi və məşğulluğunun təmin edilməsi məqsədi ilə tədbirlərin həyata keçirilməsi;
– sosial müdafiəyə ehtiyacı olan gənclərin, o cümlədən gənc ailələrin problemlərinin həllinə köməklik göstərilməsi;
– gənclərin sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsi, kütləvi bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi;
– ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, uşaq və gənclər üzrə təşkilatların formalaşması və inkişafı üçün şəraitin yaradılması;
– gənclərin beynəlxalq əməkdaşlığı sahəsində layihələrin həyata keçirilməsinə, gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin qurulmasına, onların nümayəndələrinin beynəlxalq tədbirlərdə iştirakına köməklik göstərilməsi.

3. Dövlət Proqramının həyata keçirilmə müddəti

Proqram 2005-ci il sentyabrın 1-dən 2009-cu il dekabrın 31-dək olan dövrü əhatə edir.

4. Dövlət Proqramı üzrə həyata keçiriləcək tədbirlərin əlaqələndirilməsi

Dövlət Proqramının icrasına məsul olan təşkilatlar tərəfindən nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi əlaqələndirir.

Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi Dövlət Proqramının həyata keçirilməsinə aidiyyəti qeyri-hökumət təşkilatlarının cəlb edilməsini təmin edir.

5. Dövlət Proqramının həyata keçirilməsinin maliyyə mənbələri

Dövlət Proqramının həyata keçirilməsi üçün əsas maliyyə mənbəyi dövlət büdcəsidir. Eyni zamanda büdcədənkənar vəsaitlərin (sponsorların ayırdığı vəsait, qrantlar və s.) cəlb olunması nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin
2007-ci il 16 aprel tarixli
sərəncamı ilə təsdiq edilmişdir

2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı

1. Giriş

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dövlət quruculuğu istiqamətində uğurlu addımlar atılmışdır. Beynəlxalq təşkilatlar və qurumlarla əməkdaşlıq inkişaf etməyə başlamış, qabaqcıl dünya ölkələri ilə ayrı-ayrı sahələrdə inteqrasiya prosesləri geniş vüsət almışdır. Ölkənin daxili və xarici siyasətini təmin edən təsisatların fəaliyyəti, müxtəlif sahələrdə yeni iş yerlərinin açılması, regionların inkişaf səviyyəsindəki fərqlərin aradan qaldırılması və iqtisadiyyatın yeni infrastrukturunun formalaşdırılması məqsədi ilə hökumət tərəfindən həyata keçirilən tədbirlər respublikamızda bir sıra ixtisaslar üzrə kadr çatışmazlığı probleminin həllini zəruri etmişdir.

Qloballaşma proseslərinin fəal iştirakçısı olan Azərbaycan Respublikasında iqtisadiyyatın dünya iqtisadi sisteminin tərkib hissəsinə çevrilməsi öz növbəsində yeni tipli iqtisadçı kadrlar hazırlanmasına tələbat yaratmışdır. Biliklərə əsaslanan iqtisadiyyata transformasiya yolunda aparılan işlər informasiya cəmiyyətinin tələblərinə uyğun yüksək hazırlığa malik mütəxəssislərə ehtiyacı artırmışdır. İnformasiya cəmiyyəti üzrə ümumdünya sammitində ölkənin «qara qızıl»ının insan potensialının gücləndirilməsinə yönəldilməsi ilə bağlı Azərbaycanın qaldırdığı problem informasiya texnologiyaları və innovasiya sektorunda kadr hazırlığı işinin təkmilləşdirilməsini vacib etmişdir.

Azərbaycanda elm və təhsilin maddi-texniki bazası və kadr potensialı əsasən XX əsr ərzində formalaşmışdır. 1970–1980-ci illərdə SSRİ-nin müxtəlif ali məktəblərinə gənclərin kütləvi şəkildə göndərilməsi yüksək ixtisaslı mütəxəssislərlə təminat baxımından respublikanın qabaqcıl mövqelərə çıxmasına imkan vermişdir. Bununla belə, 1990-cı illərdən sonra müəyyən obyektiv və subyektiv amillər nəticəsində bir sıra sahələrdə çalışanların dünyada baş verən müasir proseslərlə ayaqlaşa bilməməsi reallığa çevrilmişdir.

Təəssüf ki, fundamental elmlərin kadr təminatı problemləri ilə yanaşı, Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənətinin zəngin irsinə dair araşdırmaların azərbaycançılıq məfkurəsi çərçivəsində aparılması üçün mövcud kadr potensialı kifayət qədər deyildir. Dünyanın müxtəlif kitabxanalarında, arxivlərində və əlyazma fondlarında saxlanılan milli-mədəni sərvətlərimizin üzə çıxarılaraq tədqiq olunması aktuallıq kəsb etsə də, müvafiq hazırlığa malik kadrların çatışmazlığı hiss olunur. Bu gün Azərbaycanın ali təhsil müəssisələrinin imkanlarının məhdudluğu elm və təhsilimizin əsaslı problemlərinin həlli işinin tam həcmdə həyata keçirilməsini çətinləşdirir.

Son vaxtlar Azərbaycanın iqtisadiyyatı kimi Azərbaycan elmi, təhsili və mədəniyyəti də geniş inteqrasiya proseslərinə cəlb olunmuşdur. Elm və təhsil sahələrində alim, müəllim və tələbələrin mübadiləsi geniş vüsət almışdır. Bu proseslərin dövlət sazişləri çərçivəsində yalnız bir qismi tənzimlənir. Lakin müasir mərhələdə ölkəmizin iqtisadi qüdrəti gənclərimizin yeni bilik, informasiya və texnologiyaları qavraması qabiliyyəti ilə bilavasitə bağlıdır. Mövcud intellektual potensialın zənginləşdirilməsi ölkəmizdəki elm və təhsil ocaqları ilə bərabər, xarici ölkələrdə kadr hazırlığı məsələsini aktuallaşdırır, xarici dilləri mükəmməl bilən, informasiya-kommunikasiya texnologiyalarına

yiyələnən və beynəlxalq diplomatik təcrübəni yaxşı mənimsəyən yüksək hazırlıqlı mütəxəssislərə olan ehtiyacın ödənilməsini tələb edir.

Respublikanın inkişaf perspektivləri ictimai-iqtisadi və elmi-mədəni sahələrdə fəaliyyət göstərəcək kadrlar qarşısında ölkə daxilində və xaricində müxtəlif dövlət qurumlarında, beynəlxalq təşkilatlarda, bank-maliyyə sistemlərində, eləcə də özəl sektorda çalışaraq Azərbaycanda idarəetmənin və mədəniyyətin, elmin, təhsilin və səhiyyənin müasir standartlara cavab verən yeni bir mərhələyə keçidini təmin etmək vəzifəsini qoyur.

Bütün bunlar Azərbaycanda dövlət qurumlarının işinin təkmilləşdirilməsi, iqtisadiyyatın yeni yüksək səviyyəyə qaldırılması, ölkənin elm və təhsil potensialının zənginləşdirilməsi naminə dünyanın qabaqcıl mötəbər təhsil ocaqlarında mütəxəssis hazırlanması zərurətini meydana gətirmişdir.

Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi ilə «Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında» Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 oktyabr tarixli 1746 nömrəli sərəncamı imzalanmışdır. Həmin sərəncama uyğun olaraq hazırlanmış «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nda (bundan sonra Dövlət Proqramı) istedadlı Azərbaycan gənclərinin xaricdə təhsilinin təşkili istiqamətində vahid sistemin yaradılması nəzərdə tutulur.

2. Xaricdə təhsilalmanın cari vəziyyətinin təhlili

XX əsrin 70–80-ci illərində minlərlə Azərbaycan gənci respublikadan kənarda yerləşən nüfuzlu ali məktəblərdə müxtəlif ixtisaslar üzrə təhsil alaraq ölkəmizin iqtisadi, mədəni və elmi potensialının gücləndirilməsinə öz layiqli töhfələrini vermişlər. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra azərbaycanlı gənclərin dünyanın müxtəlif ali məktəblərinə göndərilməsi siyasəti yenidən formalaşmağa başlanmış, müxtəlif ölkələrlə əməkdaşlıq müqavilələri çərçivəsində ayrılmış təqaüd yerləri hesabına gənclərimizin müvafiq ölkələrdə ali təhsil almağa göndərilməsinə təkan verilmişdir.

Hazırda dövlət xətti ilə xarici ölkələrin ali təhsil müəssisələrindəki 1000-ə yaxın azərbaycanlı tələbədən təqribən 700 nəfəri Türkiyə Respublikasında, 180 şəxs Rusiya Federasiyasında, 50-yə yaxın şəxs Misir Ərəb Respubli-

kasında, 20-yə yaxın şəxs Çin Xalq Respublikasında, qalanları isə hər ölkədə bir neçə nəfər olmaqla Çexiya, Slovakiya, Rumıniya və Malayziyada təhsil alırlar. Bu tələbələrin yarıdan çoxu magistratura, aspirantura, kliniki ordinatura, doktorantura və digər diplomdansonrakı proqramlar üzrə təhsil alanlardır.

Azərbaycan gəncləri həmçinin respublikada fəaliyyət göstərən müxtəlif təhsil mübadilə proqramları çərçivəsində ABŞ, Böyük Britaniya, Almaniya, Fransa və başqa ölkələrdə də təhsil alırlar. Xaricdə təhsil alan Azərbaycan Respublikası vətəndaşlarının əsas hissəsini isə öz vəsaitləri hesabına təhsil alanlar təşkil edir. Hazırda hansı yolla təhsil almasından asılı olmayaraq müxtəlif proqramlar üzrə xaricdə təhsillərini bitirib Azərbaycana qayıtmış yüzlərlə məzun müxtəlif sahələrdə çalışaraq ölkəmizin iqtisadi, mədəni və elmi potensialının gücləndirilməsinə öz layiqli töhfələrini verməkdədirlər.

Göründüyü kimi, tələbələrin böyük əksəriyyəti əsasən Türkiyə Respublikasında və Rusiya Federasiyasında təhsil alır. Qərb ölkələrində təhsil alanların xüsusi çəkisi isə bir neçə faiz təşkil edir. Xaricdəki ən yaxşı təhsil ocaqlarında təhsil ala bilməyən əksəriyyətin yiyələndiyi ixtisas da bir sıra hallarda müasir qlobal və ölkədaxili inkişaf prosesləri ilə uyğunlaşmır. Həmçinin ikitərəfli tələbə mübadiləsi üzrə təklif olunan universitet səviyyəsi və ixtisaslar Azərbaycanın tələblərinə tam şəkildə cavab vermir. Təhsillərini başa vurmuş tələbələrin ölkəyə gələrək öz ixtisasları üzrə iş tapa bilməmələri, başqa dövlətlərdə qalaraq işləmələri və ya yiyələndikləri ixtisaslar üzrə deyil, tamamilə başqa ixtisaslar üzrə çalışmaları kimi hallar da mövcuddur.

Ölkəmizin gələcək inkişaf strategiyası baxımından təhsil sisteminin müasir tələblərə cavab verən kadr bazasının gücləndirilməsi, modern idarəetmə və istehsal texnologiyaları əsasında fəaliyyət göstərən sahələrin kadr ehtiyacının ödənilməsi, qeyri-neft sektorunun inkişafının gələcəkdə sürətləndirilməsinin təmin olunması Azərbaycan vətəndaşlarının dünyanın qabaqcıl ali təhsil ocaqlarında təhsil almaları prosesinin daha sistemli və səmərəli aparılmasının təmin edilməsi ilə bağlı xüsusi proqramın həyata keçirilməsi zərurətini meydana çıxartmışdır.

3. Dövlət Proqramının məqsəd və vəzifələri

Dövlət Proqramının əsas məqsədi ölkədə rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkənin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi, Azər-

baycan gənclərinin ümumbəşəri dəyərlər əsasında layiqli ali təhsil almaları üçün lazımi şəraitin yaradılması, istedadlı gənclərin dünyanın aparıcı ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin mütəşəkkilliyi və səmərəliliyinin artırılmasını təmin etməkdən ibarətdir.

Həmin məqsədlərin reallaşdırılması üçün Dövlət Proqramı çərçivəsində aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

3.1. Gənclərin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsili prosesinin normativ hüquqi bazasının yaradılması

Gənclərin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil alması və məzun olduqdan sonra Azərbaycan Respublikasında işlə təmin olunması prosesinin tənzimlənməsi və bu sahədə vahid sistemin yaradılması məqsədi ilə normativ hüquqi baza təkmilləşdirilir.

Gənclərin xarici ölkə ali məktəblərində təhsil almalarının təşkili prosesi dövlət, ictimai və özəl təşkilatların qarşılıqlı əlaqələri – sosial tərəfdaşlıq prinsipi üzərində qurulur. Gənclərin xarici ölkələrin ali məktəblərində təhsil almalarının maliyyələşdirilməsi mexanizmləri və təhsil alacaq gənclərin seçim meyarları şəffaflıq prinsipi əsasında müəyyənləşdirilir. Bu məqsədlə xaricdə təhsilalma prosesi ilə bağlı ildə bir dəfə müvafiq dövlət orqanları və ölkə ictimaiyyəti qarşısında geniş hesabat verilir.

3.2. Gənclərin xarici ölkələrin ali məktəblərində təhsili prosesinin maliyyələşdirilməsi mexanizmlərinin yaradılması

Gənclərin xaricdə təhsil almaları ilə bağlı təhsil haqlarının və tələbələrin sosial, mədəni-məişət xərclərinin ödənilməsi üzrə qayda və normativlər hazırlanaraq təsdiq edilir, tələb olunan maliyyə vəsaiti və maliyyə mənbələri müəyyənləşdirilir, maliyyə vəsaitlərindən istifadənin səmərəliliyinin qiymətləndirilməsi və monitorinqi aparılır.

Maliyyələşdirmə prosesində tələbələrin bütün xərcləri – viza məsələləri və qəbul edən ölkədə onların qeydiyyata alınması, təhsil haqqı, yaşayış, yemək, tədris ədəbiyyatı ilə təminat, tibbi sığorta, gediş-gəliş biletlərinin alınması təmin olunur.

3.3. İxtisas və təhsil proqramları üzrə ölkənin ehtiyaclarının müəyyənləşdirilməsi

Xarici ölkələrə tələbə göndərilməsi məqsədi ilə ixtisaslar seçilərkən ölkə iqtisadiyyatının davamlı inkişaf strategiyası, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin güclənməsi, kadrların idarə edilməsi, informasiya və kommunikasiya

texnologiyalarına əsaslanan «bilik iqtisadiyyatı»nın formalaşması, sənaye, aqrar və nəqliyyat sektorları, turizm və mədəniyyət, ticarət və xidmət sahələrinin inkişafı, ətraf mühit və ekologiya siyasətinin təkmilləşdirilməsi, idarəetmə sistemində aparılan islahatların ehtiyaclarının ödənilməsi, sosial-mədəni (səhiyyə, elm, təhsil və s.) sahələrin fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılması kimi prioritet istiqamətlər nəzərə alınır.

Ümumi prioritetlər nəzərə alınmaqla ixtisaslar üzrə tələbatın öyrənilməsi üçün tövsiyələr hazırlanır, sahələr və təhsil pillələri üzrə ölkənin ehtiyacları müəyyənləşdirilərək hər tədris ili üçün xaricdə təhsil alacaq gənclərin hazırlanması planı tərtib edilir və Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya tərəfindən təsdiq edilərək ictimaiyyətə çatdırılır.

3.4. Ölkənin ehtiyaclarına uyğun olaraq, xarici ölkələrin ali məktəblərinin müəyyənləşdirilməsi

Məhdud resurslardan səmərəli istifadə prinsipinə əsasən, tələbə göndəriləcək xarici təhsil qurumları arasında seçim edilməsi zamanı həmin təhsil qurumunun dünya üzrə reytinqi, müəyyənləşdirilmiş prioritet istiqamətlər üzrə tələb edilən təhsilin səviyyəsi, tələbənin təhsil, sosial təminat və digər xərcləri nəzərə alınmaqla ən optimal variantlara üstünlük verilir.

Ölkənin tələbatına uyğun olaraq dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən və müvafiq ixtisas üzrə regionda ali təhsil ocaqlarının reytinq cədvəlində aparıcı yerləri tutan universitetlərlə əlaqə yaradılır, onlarla əməkdaşlıq edilir və müqavilələr bağlanılır. Tələbata uyğun olaraq xarici ölkə ali təhsil müəssisələri üzrə məlumatlar hər il yeniləşdirilir və ictimaiyyətə çatdırılır. Dövlət Proqramının təsir dairəsinin genişləndirilməsi məqsədi ilə məsafədən təhsil alma imkanlarından istifadə, qabaqcıl xarici və Azərbaycan təhsil ocaqları ilə müvafiq elmi-metodoloji təcrübə mübadiləsi (tvinninq) proqramları təşkil oluna bilər.

3.5. Seçim meyarlarının müəyyənləşdirilməsi

Xaricdə təhsil alacaq gənclərin seçim meyarları müvafiq təhsil proqramları üzrə Dövlət Proqramında müəyyən edilən prinsiplər əsasında müəyyənləşdirilir və müvafiq qaydalar hazırlanır.

Xarici ölkələrin ali məktəblərində təhsil alacaq gənclərin seçimində başlıca meyar onların istedadı, bilik və bacarığıdır.

Xüsusi istedadlı, lakin xarici dil problemi olan gənclər üçün müvafiq xarici dil təlimləri təşkil edilə bilər.

Yalnız müəyyən olunmuş prioritet sahələr (ixtisaslar) üzrə təsdiq edilmiş siyahıdakı nüfuzlu xarici təhsil ocaqları tərəfindən qəbul olunanlar Dövlət Proqramı çərçivəsində maliyyələşdirilə bilər.

Hər tədris ili üçün Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almaq üçün seçilmiş gənclərin siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya tərəfindən təsdiq edilir.

3.6. Xaricdə təhsil alan gənclərin təhsilalma keyfiyyətinin monitorinq və qiymətləndirilməsinin aparılması və müvafiq məlumat bazasının yaradılması

Tələbələrin müvəffəqiyyət dərəcəsinin yoxlanılması məqsədi ilə monitorinq və qiymətləndirmə mexanizmi hazırlanır və tətbiq olunur, tələbə və məzunlar haqqında məlumat bazası yaradılır.

Təhsil nəticələri qənaətbəxş olmayan tələbələrin Dövlət Proqramında iştirakı dayandırılır və onlara gələcəkdə həmin proqramda təkrar iştirak etmək hüququ verilmir.

3.7. Məzunların potensialından səmərəli istifadə edilməsi mexanizminin yaradılması

Dövlət Proqramı çərçivəsində təhsil alan şəxslərlə məcburi xidmət prinsipi əsasında təhsillərini başa vurduqdan sonra Azərbaycan Respublikasına qayıdıb ən azı beş il işləmələrini nəzərdə tutan müqavilə imzalanır. Öhdəlik müqaviləsində təhsil alan şəxslərin təhsillərini başa vurduqdan sonra altı ay müddətində ölkəyə qayıtmadıqları təqdirdə təhsilə görə ödənilmiş xərclərinin tam şəkildə geri ödənilməsi məsuliyyəti nəzərdə tutulur.

Məzunların işlə təmin edilməsi məqsədi ilə işəgötürənlərlə səmərəli əlaqələr yaradılır və bu sahədə aparıcı ölkələrin təcrübəsi öyrənilərək təkmil sistem qurulur.

4. Dövlət Proqramının əsas hədəfləri

Xaricdə dövlət hesabına təhsil almağa göndərilən Azərbaycan gənclərinin təhsilin bütün pillələri üzrə illik sayının 2015-ci ildə 1000 nəfərə, onların ümumi sayının isə 2007–2015-ci illərdə 5000 nəfərə çatdırılması, ayrılan maliyyə vəsaitləri çərçivəsində bakalavriat, magistratura, rezidentura, doktorantura pillələri, eləcə də ixtisasartırma və yenidənhazırlanma təhsili üzrə bölünməsi, hökumətlərarası müqavilələr və ali təhsil müəssisələri arasında beynəlxalq tələbə mübadiləsi əsasında mütəxəssis hazırlığının respublikanın

iqtisadi inkişaf prioritetləri nəzərə alınmaqla təmin edilməsi Dövlət Proqramının əsas hədəfləridir.

5. Dövlət Proqramının maliyyələşdirmə mənbələri

Dövlət Proqramının ölkənin sosial-iqtisadi inkişafında strateji əhəmiyyəti nəzərə alınaraq onun icrasında Azərbaycan Respublikasının Dövlət Neft Fondunun vəsaitindən, dövlət büdcəsindən ayırmalardan, beynəlxalq təşkilatların (fondların) texniki-maliyyə yardımlarından, kreditlərindən və qrantlarından, mülkiyyət formasından asılı olmayaraq xarici və yerli hüquqi və fiziki şəxslərin ianələrindən və qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən daxil olan vəsaitlərdən istifadə oluna bilər.

6. Dövlət Proqramının icrasının monitorinqi və qiymətləndirilməsi

Dövlət Proqramının icrası müddətində bütün istiqamətlər üzrə həyata keçirilən tədbirlərin yerinə yetirilmə vəziyyətinin və əldə olunan nəticələrin müvafiq göstəricilər sistemi üzrə monitorinqinin müntəzəm aparılması nəzərdə tutulur ki, bu da hər bir istiqamət üzrə işlərin gedişini izləməyə, lazım gəldikdə zəruri dəqiqləşdirmələr aparmağa və əlavə tədbirlər görməyə imkan verəcəkdir. Dövlət Proqramının icrası ilə bağlı illik hesabatlar ictimaiyyətə çatdırılır.

7. Gözlənilən nəticələr

Dövlət Proqramının icrası aşağıdakı nəticələrin əldə olunmasına imkan yaradacaqdır:

- gənclərin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsili prosesinin normativ hüquqi bazasının yaradılması nəticəsində prioritet istiqamətlər üzrə xaricə tələbə göndərilməsi işi təkmilləşəcəkdir;
- xaricdə təhsil almağa göndərilən istedadlı gənclərin seçilməsi mexanizmi təkmilləşəcəkdir;
- Azərbaycan Respublikasında iqtisadi inkişafın və əmək bazarının tələblərinə uyğun ixtisaslar müəyyən ediləcəkdir;
- ortamüddətli perspektivdə ölkənin əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı kadrlarla təmin olunması probleminin həlli istiqamətində ciddi irəliləyiş əldə olunacaqdır;

– ölkənin elmi və elmi-pedaqoji potensialı güclənəcək, intellektual mülkiyyətinin ixrac potensialı artacaqdır;
– Azərbaycan Respublikasında beynəlxalq standartlar səviyyəsində mütəxəssislərin hazırlanması üçün pedaqoji kadrlar yetişəcəkdir;
– ölkədən kənarda təhsil alan mütəxəssislərin məlumat-informasiya bazası yaradılacaqdır;
– Azərbaycan Respublikasında insan kapitalı inkişaf etdiriləcək ki, bu da öz növbəsində əmək məhsuldarlığının artması vasitəsilə ölkənin rəqabət qabiliyyətinin yüksəlməsinə və davamlı inkişafının təmin olunmasına səbəb olacaqdır.

Azərbaycan Respublikası Prezidentinin
2007-ci il 12 aprel tarixli sərəncamı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında Məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı
(2007–2010-cu illər)

1. Giriş

Məktəbəqədər təhsil vahid təhsil sisteminin ilk pilləsi olmaqla uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malikdir.

Hazırda Azərbaycan Respublikasında 110017 uşağı əhatə edən 1764 məktəbəqədər təhsil müəssisəsi, o cümlədən 545 uşaq bağçası, 1192 körpələr evi-uşaq bağçası, 38 körpələr evi, 4 məktəb-bağça fəaliyyət göstərir. 104533 uşağı əhatə edən 1696 müəssisə Təhsil Nazirliyi sistemində, ikisi isə bilavasitə Təhsil Nazirliyinin tabeliyindədir. Bununla yanaşı, ölkədə müxtəlif nazirlik, şirkət, idarə və təşkilatların tabeliyində olan təhsil müəssisələri, habelə müvafiq qaydada lisenziya almış 3 özəl məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 5 məktəbəqədər xüsusi təhsil müəssisəsi, ümumi təyinatlı 9 müəssisədə 18 xüsusi təyinatlı qrup və 5 sanator tipli məktəbəqədər təhsil müəssisəsi mövcuddur.

Keçən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş verən köklü ictimai-siyasi dəyişikliklər nəticəsində mövcud sosial-iqtisadi infrastrukturun

dağılması məktəbəqədər təhsil sisteminin də səmərəliliyinin nəzərəçarpacaq dərəcədə aşağı düşməsinə səbəb olmuşdur. Həmin dövrdə ölkə iqtisadiyyatının iflic vəziyyətinə düşməsi, əhali arasında kütləvi işsizlik və büdcə gəlirlərinin kəskin azalması bu sahənin fəaliyyətinə mənfi təsir göstərmiş, onun tənəzzülə uğrama meyillərini gücləndirmişdir.

Son 15 ildə Azərbaycanın müxtəlif bölgələrində 85 məktəbəqədər təhsil müəssisəsi bağlanmışdır ki, onların da 45-i Bakı şəhərinin payına düşür.

Məktəbəqədər təhsil müəssisələrinin sayının azalmasının səbəblərindən biri də ölkəmizdə gedən müharibə nəticəsində 242 məktəbəqədər müəssisənin işğal bölgələrində qalması və dağıdılmasıdır. Bununla yanaşı, təcavüzkar erməni millətçilərinin soyqırımı təqibinə məruz qalan 1683 qaçqın və məcburi köçkün ailəsi öz yurdlarını tərk edərək müxtəlif şəhər və rayonlarımızda məktəbəqədər təhsil müəssisələrində məskunlaşmışdır.

Son onillikdə aparılan uğurlu iqtisadi siyasət, həyata keçirilən məqsədyönlü neft strategiyası və bazar yönümlü islahatların dərinləşməsi ölkənin sosial-iqtisadi inkişafında dönüşün əldə olunmasına imkan vermiş, xalqımızın maddi rifah halının get-gedə yaxşılaşdırılmasına şərait yaratmışdır. Bu illər ərzində, xüsusilə də XXI əsrin ilk illərindən iqtisadiyyatın dinamik inkişafı sosial sahələrə dövlət qayğısının gücləndirilməsi və bu sahələrə yönəldilən diqqət və resursların önəmli artımı ilə müşayiət olunmuşdur.

Təkcə onu demək kifayətdir ki, 2006-cı ildə dövlət büdcəsindən məktəbəqədər təhsil sahəsinə ayrılan maliyyə vəsaitlərinin həcmi 33299111 manat təşkil etmiş və 2005-ci ilə nisbətən 35,7 faiz, 2004-cü ilə nisbətən isə 50 faizdən çox artırılmışdır. Cari ildə məktəbəqədər təhsil üçün dövlət büdcəsindən nəzərdə tutulan vəsaitin həcmi 46987867 manata çatdırılmışdır ki, bu da 2006-cı il səviyyəsindən 41,1 faiz, 2005-ci ildəkindən isə 89,6 faiz çoxdur.

Bütün bunlarla bərabər, məktəbəqədər təhsil sisteminin bugünkü vəziyyəti istər ölkənin mövcud iqtisadi inkişaf səviyyəsi, istərsə də sosial sahədə, o cümlədən əhalinin rifah halının yüksəldilməsində qarşıya qoyulan perspektiv məqsədlər baxımından qənaətbəxş hesab edilə bilməz.

Uzun müddət ərzində məktəbəqədər təhsil sistemində diqqətçəkən irəliləyişə nail olunmamış, bu sahənin inkişafına əngəl törədən problemlərin həllinə istiqamətlənmiş addımlar atılmamışdır. Məktəbəqədər təhsillə əhatə olunmuş hər uşağa düşən maliyyələşmə həddinə görə Azərbaycan orta inkişaf səviyyəli ölkələrlə müqayisə oluna biləcək göstəricilərə nail olsa da,

bu gün mövcud olan təşkilati, hüquqi və iqtisadi mexanizmlərin məktəbəqədər təhsil müəssisələrinin yeni şəraitə və bazar iqtisadiyyatının prinsiplərinə uyğun yetərincə səmərəli fəaliyyətini təmin edə bilmədiyi bir reallıq olaraq özünü büruzə verməkdədir.

Hazırda ölkə üzrə məktəbəqədər müəssisələrə uşaqların cəlb edilməsi ümumilikdə 19,6 faiz, şəhər yerlərində 27,6 faiz, kənd yerlərində isə cəmi 8,6 faiz təşkil edir ki, bu da müvafiq göstəricinin 60–90 faiz təşkil etdiyi qabaqcıl ölkələrlə müqayisədə xeyli aşağıdır. Sağlamlıq imkanları məhdud məktəbəqədər yaşlı uşaqların müvafiq xüsusi müəssisələrə cəlb olunması daha aşağı vəziyyətdədir. Ölkədə belə uşaqların sayı 6000-dən artıq olduğu halda, onların yalnız 500 nəfəri (8,3 faiz) məktəbəqədər xüsusi təhsillə əhatə olunmuşdur.

Təəssüf hissi doğuran odur ki, ölkədə mövcud olan məktəbəqədər təhsil müəssisələrindəki uşaq yerlərinin ancaq 70 faizindən istifadə olunur.

Məktəbəqədəryaşlı uşaqların ictimai tərbiyəyə zəif cəlb edilməsi qismən valideynlər arasında işsizliyin olması və bu səbəbdən uşaq bağçaları və körpə evlərinə üz tutulmaması ilə izah oluna bilər. Lakin bu hal daha çox məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının valideynləri qane etməməsi və təlim-tərbiyə işinin tələb olunan səviyyədə qurulmamasından irəli gəlir.

Araşdırmalar göstərir ki, ölkənin kənd rayonları üzrə 130 məktəbəqədər müəssisə yararsız binalarda yerləşir, müəssisələrin 70 faizdən çoxunun əsaslı, 20 faizinin isə cari təmirə ehtiyacı vardır. Bu müəssisələrin əksəriyyətində istilik sistemi işləmir, bərk, yumşaq inventar, uşaq mebeli, idman avadanlığı, müxtəlif oyuncaqlar çatışmır. Bir çox hallarda ərzaq təminatı qənaətbəxşlikdən uzaqdır.

Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilində mövcud olan çatışmazlıqlar nəticə etibarilə uşaqların ibtidai məktəbə hazırlıq səviyyəsinin aşağı düşməsində özünü göstərir. Peşəkar pedaqoji kadrların çatışmaması, çoxvariantlı alternativ proqramların, metodik işləmə və vəsaitlərin olmaması, əyani vəsaitlərin, illüstrasiyalı kitab və təlim vəsaitlərinin, didaktik materialların və təlimin texniki vasitələrinin qıtlığı və günün tələbləri səviyyəsində olmaması məktəbəqədər müəssisələrdə təlimə məzmunca mənfi təsir göstərən başlıca amillərdir.

Qeyd olunan nöqsanların aradan qaldırılması və problemlərin səmərəli həlli, ölkəmizdə məktəbəqədər təhsilin günün tələbləri səviyyəsində

qurulmasının təmin olunması məqsədi ilə kompleks məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutan Dövlət Proqramı hazırlanmışdır.

2. Proqramın məqsəd və vəzifələri

Proqramın əsas məqsədi ölkədə bütün əhali təbəqələri üçün əlçatan və müasir tələblər səviyyəsində qurulmuş məktəbəqədər təhsil xidmətlərinin göstərilməsini təmin edə biləcək maddi-texniki, təşkilati-hüquqi, iqtisadi və tədris-metodiki şərait yaratmaq və bu zəmində məktəbəqədər təhsil sisteminin yüksək sosial-iqtisadi səmərəliliyinə nail olmaqdır.

Proqramın uğurla həyata keçirilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması və maddi-texniki bazasının möhkəmləndirilməsi;
- məktəbəqədər təhsil sistemində idarəetmənin müasir sosial-iqtisadi şəraitə uyğun olmaqla ölkədə təşəkkül tapmış yeni iqtisadi münasibətlər zəminində təkmilləşdirilməsi;
- məktəbəqədər təhsil sistemində yetərli maliyyələşmə səviyyəsini və bu sahəyə yönəldilən resursların rasional istifadəsini təmin edən yeni iqtisadi münasibətlər modelinin formalaşdırılması;
- məktəbəqədər təhsilin əhatə dairəsinin genişlənməsinə nail olunması, bütün sosial təbəqələr, o cümlədən aztəminatlı ailələr üçün müasir tələblərə uyğun məktəbəqədər təhsil xidmətlərinin əlçatan olmasının gerçəkləşdirilməsi;
- məktəbəqədər təlim-tərbiyə prosesinin məzmunca yeniləşdirilməsi, uşaqların fiziki, əqli və psixoloji inkişafı, onların məktəbə hazırlığı baxımından beynəlxalq təhsil məkanında son mütərəqqi təcrübənin öyrənilməsi və tətbiqi;
- məktəbəqədər təhsil sahəsinin peşəkar, səriştəli pedaqoji kadrlarla təmin olunması məqsədi ilə bu sahədə kadr siyasətinin günün tələblərinə uyğun qurulması;
- məktəbəqədər təhsilin ictimai statusunun yüksəldilməsi, dövlət qayğısının daha da artırılması ilə yanaşı, vətəndaşların, qeyri-dövlət və ictimai qurumların, işgüzar dairələrin bu sahəyə diqqətinin artırılmasına nail olunması.

3. Məktəbəqədər təhsilin yeniləşdirilməsinin əsas istiqamətləri

Məktəbəqədər təhsil sisteminin günün tələblərinə uyğun modernləşdirilməsi, bu sahədə qarşıda duran vəzifələrin uğurlu həlli aşağıdakı başlıca istiqamətlərdə ardıcıl və əsaslandırılmış tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması və maddi-texniki bazasının təkmilləşdirilməsi:

– məktəbəqədər təhsil müəssisələrinin mövcud şəbəkəsinin optimallaşdırılması, səmərəlilik baxımından dövlət büdcəsi vəsaitləri hesabına maliyyələşdirilməsi məqsədəmüvafiq hesab olunmayan məktəbəqədər təhsil müəssisələrinin Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 23 avqust tarixli 1635 nömrəli sərəncamına uyğun olaraq profili saxlanılmaqla özəlləşdirilməsi;

– məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının qabaqcıl standartlara uyğun inkişaf etdirilməsi və möhkəmləndirilməsi;

– əhalinin məktəbəqədər təhsilə olan tələbatlarının ödənilməsində ehtiyac duyulan şəhər, kənd və qəsəbələrdə müasir səviyyədə yeni məktəbəqədər müəssisələrin yaradılması.

Məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi:

– məktəbəqədər təhsil sisteminin idarə edilməsində mərkəzləşdirilmiş təsərrüfatçılığa və resursların yuxarıdan bölgüsünə əsaslanan inzibati-amirlikdən imtina edilməsi, ölkə üzrə vahid məktəbəqədər təhsil məkanında tənzimləyici idarəetmə üslubunun formalaşdırılması, bu məqsədlə normativ-hüquqi, iqtisadi və keyfiyyət tənzimlənməsinə əsaslanan dövlət idarəetmə mexanizmlərinin qurulması;

– məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin səmərəli şəkildə formalaşdırılması və həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə idarəetmənin müxtəlif pillələri (mərkəzi və yerli hakimiyyət orqanları, yerli özünüidarəetmə orqanları (bələdiyyələr), məktəbəqədər təhsil müəssisələri) arasında vəzifə, məsuliyyət və səlahiyyətlərin optimal bölüşdürülməsi, idarəetmə üzrə fəaliyyətin sıx koordinasiyasına nail olunması;

– ictimai idarəetmə və nəzarət mexanizmlərindən daha geniş istifadə olunması, cəmiyyətin maraqlı qruplarının, valideynlərin (qəyyumlar və

validcynlər şuraları vasitəsilə) məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətində yaxından iştirak etməsinin dəstəklənməsi.

Məktəbəqədər təhsildə yeni iqtisadi münasibətlər modelinin formalaşdırılması:

– məktəbəqədər təhsil sahəsində bazar münasibətlərinin və azad rəqabət prinsiplərinin təsir dairəsinin genişləndirilməsi, qeyri-dövlət mülkiyyət formalarına və sahibkar təşəbbüsünə əsaslanan müəssisələr şəbəkəsinin genişlənməsi üçün cəlbedici investisiya mühitinin yaradılması üzrə tədbirlərin həyata keçirilməsi;
– dövlət büdcəsindən maliyyələşən məktəbəqədər təhsil müəssisələrinin maliyyə-təsərrüfat müstəqilliyinin genişləndirilməsi və onlara xərclər smetasının müstəqil təsdiq etmək və dəyişdirmək hüquqlarının verilməsi istiqamətində tədbirlərin görülməsi;
– məktəbəqədər təhsil müəssisələrinin dövlət büdcəsindən maliyyələşməsində subyektiv amillərin aradan qaldırılması, büdcədən ayrılan vəsaitlərin uşaqbaşına normativ maliyyələşdirmə prinsipi ilə müəyyən olunması;
– normativ maliyyələşdirmə şəraitində ölkənin ucqar rayonlarında və kəndlərində. həmçinin azsaylı yaşayış məntəqələrində yerləşən məktəbəqədər təhsil müəssisələrinin dayanıqlığının təmin olunmasına istiqamətlənmiş xüsusi maliyyə dəstəyi mexanizmlərinin qurulması;
– məktəbəqədər təhsil müəssisələri tərəfindən malların və xidmətlərin satınalmasında tender və müsabiqələr vasitəsilə seçimə əsaslanan şəffaf xərclənmə prosedurlarının tətbiqi, onların maliyyə fəaliyyətinə səmərəli ictimai (qəyyumlar və valideynlər şuraları vasitəsilə) və dövlət nəzarət mexanizmlərinin qurulması;
– məktəbəqədər təhsil müəssisələrində çoxmənbəli maliyyələşmə sxemlərinin tətbiq olunması, dövlət tərəfindən müəyyənləşdirilən və büdcədən maliyyələşdirilən əsas təhsil xidmətləri ilə yanaşı, ödənişli əlavə təhsil xidmətləri göstərilməsinin təşviqləndirilməsi;
– məktəbəqədər təhsil xidmətlərinin valideynlərlə kontrakt (müqavilə) münasibətləri əsasında göstərilməsinin tətbiq olunması;
– məktəbəqədər təhsil müəssisələri arasında dövlət büdcəsinin vəsaitləri uğrunda sağlam yarışma mühitinin yaradılması;

– dövlət və qeyri-dövlət təhsil müəssisələrinin fəaliyyəti üçün bərabər şəraitin təmin olunması, tədricən vahid məktəbəqədər təhsil məkanının formalaşdırılması.

Məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi:

– məktəbəqədər təhsil xidmətlərinə tələbatın təmin edilməsi baxımından ölkə üzrə orta göstəricilərə uyğun olmayan yaşayış ərazilərində dövlət vəsaitləri hesabına məktəbəqədər təhsil müəssisələrinin yaradılması, qeyri-dövlət mənbələrindən bu sahəyə investisiya qoyuluşunun mərkəzi və yerli hakimiyyət orqanları, yerli özünüidarəetmə orqanları (bələdiyyələr) tərəfindən dəstəklənməsi;
– məktəbəqədər təhsilin təşkilati diversifikasiyası vasitəsilə ictimai təlim-tərbiyənin müxtəlif sosial təbəqələr üçün əlçatan olmasının gerçəkləşdirilməsi;
– məktəbəqədər təhsil müəssisələrində qısamüddətli və çevik vaxt cədvəli üzrə yerləşdirilməsinə əsaslanan yeni məktəbəqədər təhsil formalarının təşkili;
– inklüziv təhsilə cəlb olunan məktəbəqədər təhsil müəssisələrinin işinin səmərəli qurulması;
– məktəbəqədər təhsil müəssisələrinə getməyən uşaqların ailə şəraitində təlim keçmələri üçün valideynlərə tədris-metodiki köməklik göstərilməsi (mövcud uşaq bağçaları və orta məktəblər bazasında məktəbəqədər məsləhət-metodiki mərkəzlərin yaradılması, ailə şəraitində təlim alan uşaqlar üçün xüsusi proqram və vəsaitlərin işlənilməsi, valideynlər üçün seminar və treninqlərin təşkil olunması və s.);
– bazar münasibətləri şəraitində müasir məktəbəqədər təhsil xidmətlərinin aztəminatlı ailələr üçün əlçatan olmasını təmin etmək məqsədi ilə ünvanlı dövlət sosial yardım sisteminin müvafiq istiqamətdə təkmilləşdirilməsi;
– ödənişli məktəbəqədər təhsil xidmətlərin ödənilməsi üzrə valideynlərə vergi güzəştləri mexanizmlərinin tətbiqi;
– ölkə üzrə icbari məktəbəqədər təhsilin tətbiqi imkanlarının araşdırılması və bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsi;
– məktəbəqədər təhsillə əhatə səviyyəsinin daha da yüksəldilməsi, bu sahədə beynəlxalq təcrübənin tətbiqi, müasir model və mexanizmlərin işlənib hazırlanması.

Məktəbəqədər təhsilin məzmunca yeniləşdirilməsi:
- məktəbə hazırlıq baxımından uşaqların fiziki, sosial-mənəvi, estetik və psixoloji inkişafı, dərketmə və nitq qabiliyyətinin yüksəldilməsi üzrə əsas tələbləri özündə ehtiva edən, həmçinin pedaqoji prosesin humanistləşməsini nəzərdə tutan məktəbəqədər təhsil üzrə milli kurikulumun hazırlanması və müvafiq qaydada təsdiq olunması;
- məktəbəqədər təhsil üzrə milli kurikuluma uyğun olaraq qabaqcıl beynəlxalq təcrübəyə əsaslanmaqla dövlət məktəbəqədər təhsil proqramının və variativ proqramların tərtib olunması və tətbiqi;
- xüsusi təyinatlı məktəbəqədər təhsil müəssisələri üçün xüsusi proqramların hazırlanması və tətbiq olunması;
- dövlət məktəbəqədər təhsil proqramı, həmçinin variativ və xüsusi proqramlara uyğun təlim vəsaitlərinin, digər dərs vəsaitlərinin və əyani vəsaitlərin hazırlanması, nəşr olunması, məktəbəqədər təhsil müəssisələrinin bu vəsaitlərlə təmin olunması;
- məktəbəqədər təhsil sistemində qabaqcıl beynəlxalq təcrübə əsasında yeni təhsil texnologiyalarının tətbiqinin dəstəklənməsi;
- məktəbəqədər təhsilin ölkədə vahid təhsil sisteminin digər pillələri ilə əlaqəsinin gücləndirilməsi və sıx inteqrasiyasının təmin olunması;
- ölkədə məktəbəqədər təhsil üzrə monitorinq və qiymətləndirmə sisteminin yaradılması və tətbiq olunması.

Kadr siyasətinin təkmilləşdirilməsi:
- məktəbəqədər təhsil sisteminin pedaqoji kadrlara və digər mütəxəssislərə tələbatının proqnozlaşdırılması işinin müasir tələblərə uyğun qurulması;
- yeni şəraitdə məktəbəqədər təhsil sistemi üçün kadr hazırlığının, ixtisasartırma təhsilinin təkmilləşdirilməsi, məktəbəqədər təhsil müəssisələri üçün menecerlərin və idarəetmə heyəti kadrlarının yetişdirilməsi işinin təşkili;
- məktəbəqədər təhsildə peşəkar, səriştəli pedaqoji kadrların çoxluq təşkil etməsinə nail olunması;
- məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji və digər işçilərin sosial statusunun və maddi rifah halının yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin görülməsi, onların iqtisadi cəhətdən təşviqləndirilməsində məktəbəqədər təhsil müəssisələrinin müstəqilliyinin əhəmiyyətli dərəcədə artırılması;

– kənd yerlərində məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji işçilərə maliyyə və sosial dəstək tədbirlərinin hazırlanması və tətbiq olunması;
– kənd yerlərində və ucqar rayonlarda yerləşən məktəbəqədər təhsil müəssisələri üçün yerli əhali arasından kadr hazırlığını təmin etmək məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi.

Məktəbəqədər təhsilin ictimai statusunun qaldırılması:
– məktəbəqədər təhsilin problemlərinə ictimaiyyətin müxtəlif təbəqələrinin diqqətinin artırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi, kütləvi informasiya vasitələrinin, qlobal internet şəbəkəsinin imkanlarından bu məqsədlə daha geniş istifadə olunması;
– məktəbəqədər təhsil barədə statistik göstəricilər sisteminin beynəlxalq standartlar nəzərə alınmaqla təkmilləşdirilməsi;
– məktəbəqədər təhsil sisteminin mütəmadi monitorinqinin keçirilməsinə nail olunması, monitorinqin nəticələrinin kütləvi informasiya vasitələrində dərc olunması və ictimaiyyətə catdırılması;
– yaxşı nəticələr əldə etmiş məktəbəqədər təhsil müəssisələrinin qabaqcıl iş təcrübəsinin kütləvi informasiya vasitələri ilə geniş işıqlandırılması və yayılmasının dəstəklənməsi.

4. Proqramın maliyyə təminatı

Proqramın maliyyə təminatını bu məqsədlər üçün nəzərdə tutulan dövlət büdcəsi vəsaitləri, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər mənbələr təşkil edir.

5. Gözlənilən nəticələr

Proqramın yerinə yetirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:
– məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki və tədris bazası möhkəmlənəcək, tədris-metodiki təminatı yeniləşdiriləcək;
– məktəbəqədər təhsilin sosial-iqtisadi səmərəliliyi artacaq, məktəbəqədər təhsil müəssisələrinin maliyyə təminatının dayanıqlığına imkan yaranacaq;

– əhalinin məktəbəqədər təhsil xidmətlərinə tələbatı daha dolğun təmin ediləcək;
– bütün əhali təbəqələri üçün müasir standartlara uyğun məktəbəqədər təhsil xidmətlərinin əlçatan olması təmin olunacaq;
– məktəbəqədər təhsilin əhatə dairəsi genişlənəcək, məktəbəqədər təhsil müəssisələrinə cəlb edilən uşaqların sayı artacaq;
– uşaqların təlim-tərbiyəsi, sağlamlığının qorunması, fiziki, intellektual və psixoloji inkişafı üçün əlverişli şərait yaradılacaq;
– kadr təminatı yaxşılaşacaq, kadrların peşəkarlıq səviyyəsi yüksələcək;
– məktəbəqədər təhsilin keyfiyyəti yüksələcək.

Azərbaycan Respublikası Prezidentinin
2004-cü il 21 avqust tarixli sərəncamı ilə təsdiq edilmişdir

«Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005–2007-ci illər)»

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005–2007-ci illər)» ölkəmizdə yeni informasiya texnologiyalarından istifadə olunmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən, dünya təhsil sisteminə inteqrasiya imkanı verən vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiya cəmiyyətinə hazırlamaq məqsədi daşıyır. Proqram çərçivəsində kompyuter texnikası əsasında qurulan yeni informasiya texnologiyalarının mənimsənilməsi və onun bütün imkanlarından istifadə olunması, ölkənin təhsil sisteminin səmərəli idarə olunmasının təmin edilməsi, beynəlxalq informasiya şəbəkəsi vasitəsilə dünya ölkələrinin təhsil müəssisələri ilə səmərəli əlaqələrin yaradılması nəzərdə tutulur.

Proqramın əsas vəzifələri ümumtəhsil məktəblərini müasir tipli kompyuter avadanlığı ilə təchiz etməkdən, ümumtəhsil məktəbləri müəllimlərinin, inzibati və texniki işçilərinin öz fəaliyyət sahələrində yeni informasiya və

kommunikasiya texnologiyalarından istifadə etmələrindən, təhsildə informasiya və kommunikasiya texnologiyalarından istifadə üzrə normativ və metodiki bazanın inkişaf etdirilməsindən, tədris prosesində Azərbaycan dilində istifadə olunan müasir elektron tədris materiallarının, elektron dərsliklərin, elektron kitabxanaların, rəqəmli tədris resurslarının işlənib hazırlanması, yayılması və tətbiqindən, təhsil sisteminin informasiya infrastrukturunun yaradılmasından, informasiya texnologiyaları əsasında müasir təhsilin metodologiyasının işlənib hazırlanmasından, informasiyalaşdırma prosesinin elmi-metodiki təminatından, şagirdlər üçün məsafədən təhsil xidmətinin, təhsil portalının və saytlarının yaradılmasından, Azərbaycan dilində olan tədris nəşrlərində və elmi-metodiki nəşrlərdə informasiya və kommunikasiya texnologiyaları sahəsi üzrə terminologiyanın hazırlanmasından ibarətdir.

Bu Proqramın həyata keçirilməsi nəticəsində 4521 məktəb kompyuter avadanlığı ilə təchiz olunacaq, beləliklə, ölkənin ümumtəhsil məktəblərində hər 33 şagirdə bir müasir kompyuter düşəcək, təhsildə informasiya və kommunikasiya texnologiyalarından istifadə yeni səviyyəyə yüksələcək, üç il ərzində ölkədə təqribən 10 min yeni iş yeri açılacaq, tədrisdə internet-məktəblərin yaradılması, məsafədən təhsilin təşkili mümkün olacaq, yeni informasiya mühiti yaradılacaq, informasiya cəmiyyətinə keçid reallaşacaqdır.

Azərbaycan Respublikası Prezidentinin
2006-cı il 17 aprel tarixli sərəncamı ilə təsdiq edilmişdir

Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006–2010-cu illər)

1. Giriş

İstedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi ötən əsrin 70-ci illərindən etibarən diqqət mərkəzində olmuş, bu vacib iş sahəsinin mühüm prioritetlərdən biri kimi irəli sürülərək reallaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra, xüsusən 1993-cü il iyunun 15-də görkəmli dövlət xadimi Heydər Əliyevin respublikamızda siyasi rəhbərliyə qayıdışı ilə milli-mənəvi dəyərlərin dirçəlişinə, iqtisadiyyatın, sosial sahələrin inkişafına güclü stimul verilmiş, bunlarla bərabər, ölkənin təhsil sisteminin yenidən qurulmasına, qabaqcıl dövlətlərin təhsil sistemlərinə inteqrasiya olunmasına geniş imkanlar açılmış, istedadlı uşaq və gənclərə diqqət və qayğının artırılması ölkə Konstitusiyasında təsbit edilərək, təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Son illər Azərbaycanda istedadlı uşaq və gənclərin səmərəli təhsil almasını təmin etmək məqsədi ilə yeni tipli tədris müəssisələrinin şəbəkəsi xeyli genişləndirilmiş, liscy və gimnaziyalarda təhsilin məzmununun müasir tələblərə uyğunlaşdırılması məqsədi ilə yeni tədris plan və proqramları hazırlanaraq tətbiq edilməyə başlanmış, pedaqoji kadr heyətinin tərkibi ilbəil yaxşılaşdırılmışdır. 1999-cu ildən qüvvəyə minən ümumi orta təhsilin dövlət standartları çərçivəsində təsdiq olunmuş ümumtəhsil məktəblərinin Bazis tədris planında seçmə fənlərə ayrıca saatların ayrılması da istedad potensialının aşkara çıxarılıb formalaşdırılmasına, həmin uşaq və gənclərlə iş sisteminin təkmilləşdirilməsinə müəyyən dərəcədə müsbət təsir göstərmişdir.

Bütün bunlarla yanaşı, respublikada xüsusi istedad və qabiliyyətə malik uşaq və gənclərlə işin təşkili sahəsində bir sıra həlli vacib problemlər hələ də qalmaqdadır. Bunlar əsasən aşağıdakılardır:

– istedadlı uşaq və gənclərin inkişaf perspektivlərini müəyyənləşdirən sosial-psixoloji tədqiqatların aşağı səviyyədə aparılması;
– istedadlı uşaq və gənclərin aşkara çıxarılması üzrə və belə uşaqlarla iş sahəsində elmi-pedaqoji və psixoloji cəhətdən əsaslandırılmış ardıcıl sistemin, səmərəli fəaliyyət mexanizminin yaradılmaması;
– ümumtəhsil məktəblərində məktəb psixoloqu kadrlarına ehtiyac səbəbindən psixoloji xidmətin zəif həyata keçirilməsi;
– pedaqoji ali və orta ixtisas məktəblərində müəllimlik peşəsinə hazırlanan tələbələrə istedadlı uşaqlarla iş sahəsində nəzəri biliklərin, xüsusi metodikaların aşılanmaması;
– Milli Elmlər Akademiyası və ali məktəblərlə yeni tipli təhsil müəssisələri arasında əlaqələrin zəif olması, tanınmış elm, təhsil, mədəniyyət və incəsənət xadimlərinin istedadlı uşaq və gənclərlə aparılan işlərə cəlb edilməməsi;
– respublikanın bir çox bölgələrində istedad və qabiliyyəti ilə fərqlənən uşaq və gənclər üçün yeni tipli tədris ocaqlarının əlçatan olmaması;
– uşaq və gənclərin bu və ya digər sahələr üzrə istedadının müəyyən edilməsində mühüm rol oynayan diaqnostik metodikaların, xüsusi testlərin, o cümlədən psixometrik testlərin hazırlanıb çap olunmaması;
– istedadlı uşaq və gənclərin fənn olimpiadalarına daha geniş surətdə cəlb edilməsi üçün olimpiada qaliblərinə müəyyən imtiyazların təsis edilməməsi, onları hazırlayan müəllim və mütəxəssislərin əməyinin stimullaşdırılmaması;
– istedadlı uşaq və gənclərin təhsil aldıqları yeni tipli tədris müəssisələri barədə tədris-pedaqoji və normativ hüquqi bazanın zəif olması;
– beynəlxalq təcrübənin tətbiq olunmaması.

2. Məqsəd və vəzifələr

«Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006–2010-cu illər)»nın (bundan sonra – Proqram) əsas məqsədi respublikanın ümumtəhsil müəssisələrində mövcud olan istedad potensialını vaxtında müəyyənləşdirib onun inkişafını təmin etmək üçün xüsusi tədbirlər həyata keçirməkdən, ölkə ictimaiyyətinin diqqətini bu vacib məsələnin həllində yaxından iştiraka yönəltməkdən, istedadlı uşaq və gənclərin inkişafına dövlət qayğısını gücləndirməkdən ibarətdir.

Proqramda irəli sürülən başlıca vəzifələr aşağıdakılardır:

– istedadlı uşaq və gənclərin aşkara çıxarılmasının optimal yollarını müəyyənləşdirmək;
– istedadlı uşaq və gənclərlə iş sahəsində müasir tələblərə uyğun səmərəli fəaliyyət mexanizmi yaratmaq;
– həmin uşaq və gənclərlə işin təkmilləşdirilməsi istiqamətində fundamental tədqiqatların aparılmasını təmin etmək;
– respublikanın hər bir bölgəsində istedadlı uşaq və gənclər üçün yeni tipli təhsil müəssisələrinin açılmasına nail olmaq;
– hazırda fəaliyyət göstərən yeni tipli təhsil müəssisələrinin maddi-tədris bazasının möhkəmləndirilməsi üçün lazımi tədbirlər həyata keçirmək;
– istedadlı uşaq və gənclərlə iş sahəsində xarici ölkələrdə mövcud olan qabaqcıl təcrübəni öyrənib tətbiq etmək;
– istedadlı uşaq və gənclərin təhsilinin məzmununun təkmilləşdirilməsi və yeniləşdirilməsi ilə bağlı kompleks tədbirlər həyata keçirmək;
– yeni tipli tədris ocaqları ilə bağlı müasir tələblərə cavab verən normativ hüquqi bazanın yaradılmasını, istedadlı uşaq və gənclər, habelə onlarla işləyən pedaqoji işçilər üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsini, olimpiada hərəkatının gücləndirilməsini təmin etmək.

3. Maliyyə təminatı

Proqramın maliyyə təminatı aşağıdakı maliyyə mənbələri hesabına həyata keçiriləcəkdir:

– nəzərdə tutulan dövlət büdcə təxsisatları üzrə ayırmalar;
– beynəlxalq və qeyri-hökumət təşkilatlarının maliyyə dəstəyi;
– qanunvericiliyə zidd olmayan digər mənbələr.

4. Gözlənilən nəticələr

Proqramın həyata keçirilməsi ilə aşağıdakı nəticələr əldə ediləcəkdir:

- istedadlı uşaq və gənclərin aşkara çıxarılması və onların potensial imkanları nəzərə alınmaqla inkişaflarının təmin olunması sahəsində müasir tələblərə cavab verən səmərəli fəaliyyət mexanizmi yaradılacaq;
- istedadlı uşaq və gənclərlə iş sahəsində fəaliyyətləri tənzimləyən normativ hüquqi baza yaradılıb tətbiq ediləcək, psixoloji xidmət sahəsi üzrə mövcud problemlər tədricən təmin ediləcək;
- həmin kateqoriyadan olan uşaqların təhsilinə, onların inkişaf edib formalaşmasına dövlət qayğısı daha da gücləcək, ictimaiyyətin, o cümlədən beynəlxalq və qeyri-hökumət təşkilatlarının, xeyriyyəçilərin, sponsorların diqqəti bu vacib məsələyə daha çox yönələcək;
- istedadlı uşaq və gənclərlə aparılan işlərin daha da təkmilləşdirilməsi və yaxşılaşdırılmasına yönələn elmi-pedaqoji tədqiqatlara geniş imkanlar açılacaq, uşaq və gənclərin müxtəlif sahələr üzrə istedadının müəyyən edilməsinə zəmin yaradan test toplulları və diaqnostik metodikalar hazırlanıb çap olunacaq;
- bölgələrdə xüsusi istedad və qabiliyyətə malik uşaqlar üçün yeni tipli təhsil müəssisələri yaradılacaq, hər bir istedadlı uşaq və gəncin vaxtında aşkara çıxarılıb xüsusi proqramlarla təhsilə cəlb edilməsi üçün lazımi tədbirlər görüləcək;
- istedadlı uşaq və gənclərin hazırda təhsil aldıqları lisey, gimnaziya və digər müvafiq müəssisələrin maddi-tədris bazası möhkəmləndiriləcək, bu tədris ocaqlarının elmi mərkəzlər və ali məktəblərlə sıx işgüzar əlaqələri təmin olunacaq, tanınmış elm, təhsil, mədəniyyət və incəsənət xadimləri istedadlı uşaq və gənclərlə aparılan işlərə cəlb ediləcək;
- istedadlı uşaq və gənclərin iştirakı ilə keçirilən olimpiada hərəkatı genişlənəcək, xüsusi istedada və qabiliyyətə malik uşaqlar, o cümlədən olimpiada qalibləri üçün imtiyazların müəyyənləşdirilməsi, habelə onların müəllimlərinin əməyinin stimullaşdırılması sahəsində əlavə tədbirlər həyata keçiriləcək;
- pedaqoji ali və orta ixtisas məktəblərində tələbələrin istedadlı uşaq və gənclərlə iş metodikasına yiyələnmələri təmin ediləcək;
- istedadlı uşaq və gənclərlə aparılan işlərin əsas xüsusiyyətlərini əhatə edən ixtisasartırma kursları və məqsədli treninqlər keçirilməklə

müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə nail olunacaq;
- istedadlı uşaq və gənclərin təhsilini daha səmərəli və məzmunlu qurmaq üçün yeni tədris plan və proqramları, dərslik və dərs vəsaitləri yaradılacaq;
- istedadlı uşaq və gənclərlə iş sahəsində xarici ölkələrdəki qabaqcıl təcrübə öyrənilib tətbiq ediləcək;
- həmin qəbildən olan uşaq və gənclərlə aparılan işlərin təbliği və işıqlandırılması ardıcıl təmin ediləcək.

Azərbaycan Respublikası Prezidentinin
3 iyul 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı
(2007–2012-ci illər)

I. Giriş

Azərbaycan Respublikasında texniki peşə təhsili müxtəlif inkişaf mərhələlərində formalaşaraq, ölkə iqtisadiyyatının peşə-ixtisas kadrlarına olan ehtiyacının ödənilməsində mühüm rol oynamışdır.

1988–1993-cü illərdə Azərbaycanda yaranmış mürəkkəb iqtisadi-siyasi şərait bütün sahələrdə olduğu kimi, texniki peşə təhsilinin inkişafına da öz mənfi təsirini göstərmişdir. Bu dövrdə hökm sürən ictimai və sosial-iqtisadi sabitsizlik, istehsal həcminin kəskin azalması və nəticə etibarilə əmək bazarında ixtisaslı işçi qüvvəsinə tələbatın aşağı düşməsi, büdcədən maliyyələşmənin sıxılması, həmçinin təhsil təşkilatları ilə müəssisələr arasında ənənəvi əlaqələrin qırılması texniki peşə təhsili sistemini iflic vəziyyətinə salmış və tamamilə dağılmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

1990-cı illərin ortalarından başlayaraq, ölkədə texniki peşə təhsilinə diqqət artırılmış, onun zamanın tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində müvafiq addımlar atılmışdır. Bazar münasibətləri əsasında formalaşan iqtisadi reallıqlar texniki peşə təhsili sistemində, ilk növbədə təşkilati dəyişikliklərə yol açmışdır. Maddi-texniki bazası zəif və yüksək ixtisaslı kadrlar hazırlamaq imkanları məhdud olan texniki peşə məktəbləri ləğv edilmiş və ya birləşdirilmiş, texniki peşə təhsili müəssisələrinə peşə məktəbi və peşə liseyi statusu verilmişdir.

Bununla bərabər, texniki peşə təhsilinin məzmununun yeniləşdirilməsi sahəsində xeyli iş görülmüş, tədris plan və proqramlarının məzmunu və quruluşunun təkmilləşdirilməsi istiqamətində əməli addımlar atılmışdır.

Hazırda respublikada 114 texniki peşə təhsili müəssisəsi mövcuddur. Onlardan 7-si işğal olunmuş ərazilərdə fəaliyyət göstərmiş və hazırda fəaliyyəti dayandırılmış peşə məktəbləridir. Fəaliyyət göstərən texniki peşə təhsili müəssisələrindən 47-si peşə liseyi, 60-ı isə peşə məktəbidir. Respublikanın

peşə məktəbi və peşə liseylərində 101 peşə üzrə 23 mindən artıq şagird təhsil alır. Hər il texniki peşə təhsili müəssisələrinə orta hesabla 13 mindən yuxarı şagird qəbul olunur.

Son illər ölkədə iqtisadiyyatın inkişafının dinamikliyi daha da artmaqdadır. Azərbaycan Respublikasının iqtisadi potensialının sürətlə yüksəlişi, bazaryönümlü islahatların dərinləşməsi və regionların inkişafındakı müsbət dəyişikliklər, bütövlükdə ölkə iqtisadiyyatında müşahidə olunan müasir meyillər texniki peşə sistemi qarşısında yeni tələblər irəli sürür. Hazırda əmək bazarında rəqabətə davamlı yüksək ixtisaslı kadrlara yaranan və gündən-günə artan tələbatı ödəmək qabiliyyətli yeni tip pilləli təhsil komplekslərinin yaradılması ən vacib məsələ kimi ön plana çəkilir.

Ölkədə neft-qaz sənayesi sahələrinin güclü inkişafı ilə yanaşı, qeyri-neft, yüksək əlavə dəyər tutumlu sahələrin də təkamülü dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindəndir. Texniki peşə təhsilinin profil strukturu bir tərəfdən, sosial-iqtisadi inkişafının müasir istiqamətlərini çevik şəkildə özündə əks etdirmək və peşə təhsili proqramların müvafiq şaxələndirilməsinə əsaslanmaq, digər tərəfdən isə, müasir texnologiyaların tətbiqi üçün tələb olunan qabaqlayıcı kadr hazırlığını təmin etmək qabiliyyətinə malik olmalıdır.

Regionların hərtərəfli sosial-iqtisadi inkişafı ixtisaslı işçi qüvvəsi probleminin regional əmək resursları baxımından və yerli xüsusiyyətləri nəzərə almaqla həllini qarşıya qoyur. Texniki peşə təhsili sisteminin vahid dövlət siyasəti çərçivəsində idarə olunması istər respublika səviyyəsində, istərsə də regionlar üzrə əmək bazarı ilə əlaqənin daha da sıx qurulmasını və azad iqtisadi münasibətlər şəraitində müxtəlif sahələrdə ixtisaslı işçi qüvvəsinə yaranan tələbatın çevik şəkildə ödənilməsini zəruri edir.

Bununla yanaşı, hazırda geniş vüsət alan qloballaşma prosesləri və ölkə iqtisadiyyatının ümumdünya təsərrüfat sisteminə inteqrasiyasının get-gedə dərinləşməsi mövcud texniki peşə təhsili sisteminin yeniləşdirilməsi istiqamətində zəruri addımların atılmasını tələb edir.

Respublikada sosial-iqtisadi infrastrukturun qurulmasında müstəsna əhəmiyyət kəsb edən texniki peşə təhsili sistemində şəbəkənin optimallaşdırılması istiqamətində müəyyən tədbirlər həyata keçirilsə də, bu müəssisələrin bina şəraiti, maddi-texniki və tədris bazası, onların idarəetmə strukturu, maliyyələşdirilmə səviyyəsi, mexanizmi, təhsilin məzmunu və təlim-tədris proses-

lərinin təşkili bir çox hallarda yüksək ixtisaslı kadrların hazırlanması baxımından müasir tələblərə cavab vermir.

Bu gün Azərbaycan Respublikasında texniki peşə təhsili sahəsində mövcud problemlər sırasında aşağıdakılar xüsusilə qeyd olunmalıdır:

– texniki peşə təhsili müəssisələrinin maddi-texniki və tədris bazası müasir tələblərə cavab vermir. 1990-cı ildən keçən dövr ərzində peşə məktəbi və peşə liseylərinin binaları əsaslı təmir edilməmiş, son 20 ildə müəssisələrə texnika, avadanlıq, əyani və texniki vasitələr verilməmişdir. Hazırda peşə məktəbi və peşə liseylərində istifadə edilən tədris avadanlığının çox hissəsi fiziki və mənəvi cəhətdən köhnələrək sıradan çıxmışdır. Tədris prosesinin kompyuterləşdirilməsi sahəsində vəziyyət qənaətbəxş deyildir;

– texniki peşə təhsilinin mövcud idarəolunma strukturu bazar iqtisadiyyatı prinsipləri ilə tam uzlaşmır, onun dövlət büdcəsindən maliyyələşdirilməsi mexanizmi kifayət qədər səmərəli deyildir. Son illərdə dövlət büdcəsindən ayrılan vəsait artsa da, tədris-maddi bazanın inkişafı və möhkəmləndirilməsi, xammal, yanacaq-sürtkü materiallarının alınması, şagirdlərin sosial müdafiəsi, bina, qurğu və digər tikililərin əsaslı təmiri, mühəndis-pedaqoji işçilərin və digər mütəxəssislərin ixtisasının artırılması üçün tələb olunan xərcləri tam ödəmir;

– kadr hazırlığı əmək bazarının tələbləri ilə uzlaşmır, texniki peşə təhsili sistemində kadr hazırlığının planlaşdırılması işi müasir tələblər səviyyəsində qurulmamışdır, iqtisadiyyatın inkişaf perspektivlərinə uyğun olaraq, əmək bazarının tələbatlarının uzunmüddətli elmi əsaslandırılmış proqnozlaşdırılması sistemi yoxdur;

– texniki peşə təhsili sistemində istifadə olunan proqramlar, ixtisas fənləri üzrə dərslik və dərs vəsaitləri müasir tələblərə cavab vermir, texniki peşə təhsili müəssisələrinin fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi üzrə yeni mexanizmlər tam tətbiq edilmir;

– texniki peşə təhsili sistemində ixtisaslı kadrlar çatışmır, mühəndis-pedaqoji heyətin hazırlıq səviyyəsi qənaətbəxş deyildir.

Son illərdə qəbul edilmiş bir sıra sənədlərdə texniki peşə təhsilinin inkişafına yönəlmiş tədbirlərin həyata kecirilməsinin vacibliyi xüsusilə vurğulanır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı

(2003–2005-ci illər)», «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002–2005-ci illər)», «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004–2008-ci illər)», «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)», «Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006–2015-ci illər)» və «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007–2010-cu illər)» kimi normativ hüquqi aktlarda peşə-ixtisas təhsilinin təkmilləşdirilməsinə, texniki peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında əlaqələrin daha da yaxşılaşdırılmasına və müasir tələblərə cavab verməsinə ciddi ehtiyac olduğu göstərilmiş və müvafiq tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Ölkənin dinamik inkişaf edən iqtisadiyyatının peşə-ixtisas kadrlarına tələbatının daha dolğun ödənilməsinin vacibliyi, həmçinin, müasir peşə təhsilinin əhalinin maddi və sosial durumunun müəyyənləşdirilməsində malik olduğu mühümlük texniki peşə təhsili sisteminin bu gün üzləşdiyi problemlərin kompleks həllini və onun müasir əsaslarda daha səmərəli təşkilini təxirəsalınmaz edir.

2. Məqsəd və vəzifələr

«Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramının (2007–2012-ci illər)» (bundan sonra – Proqram) əsas məqsədi ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun peşə ixtisas kadrlarına yaranan tələbatının ödənilməsi, habelə əhalinin müasir peşə təhsili almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli texniki peşə təhsili sisteminin formalaşdırılmasıdır.

Proqramın əsas məqsədinin gerçəkləşdirilməsi aşağıdakı vəzifələrin həllinə nail olunmaqla müvafiq istiqamətlərdə məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

2.1. Texniki peşə təhsili sistemində maddi-texniki bazanın möhkəmləndirilməsi

– texniki peşə təhsili müəssisələrinin yerləşdiyi bina və tikililərin müasir tələblərə uyğun əsaslı və cari təmiri;

– texniki peşə təhsili müəssisələrinin maddi-texniki bazasının qabaqcıl standartlara uyğun inkişaf etdirilməsi və təkmilləşdirilməsi, müasir texnika, texnologiya və vasitələrlə təmin edilməsi;
– texniki peşə təhsili müəssisələrinin maddi-texniki bazasının müasir təlim avadanlığı (dəzgah, kənd təsərrüfatı texnikası, maşın, mexanizm və s.) hesabına yeniləşdirilməsi, tədris prosesində yeni təhsil texnologiyalarının tətbiqinə nail olunması;
– əhalinin texniki peşə təhsilinə tələbatının ödənilməsində ehtiyac duyulan regionlarda müasir səviyyədə yeni texniki peşə təhsili müəssisələrinin yaradılması və bu işlərin təşkilində beynəlxalq və yerli təcrübədən istifadə edilməsi.

2.2. Texniki peşə təhsili sistemində yeni iqtisadi münasibətlərin formalaşdırılması və idarəetmənin təkmilləşdirilməsi

– dövlət büdcəsindən maliyyələşən təhsil müəssisələrinin maliyyə-təsərrüfat müstəqilliyinin artırılması, bazar münasibətlərinin, rəqabət prinsiplərinin daha geniş istifadə olunması;
– müxtəlif mülkiyyət formalarına əsaslanan təhsil müəssisələrinin yaradılması və inkişafı üçün müvafiq iqtisadi-təşkilati şəraitin və investisiya mühitinin dəstəklənməsi;
– texniki peşə təhsili sahəsində səmərəli dövlət tənzimlənməsi mexanizmlərinin qurulması, ictimai idarəetmə və nəzarət vasitə və üsullarından daha geniş istifadə olunması, texniki peşə təhsili sisteminin idarə olunması sahəsində informasiya və kommunikasiya texnologiyalarının imkanlarından səmərəli istifadə olunması;
– kadr hazırlığı ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən sistemin yaradılması, kadr hazırlığı sistemini, o cümlədən peşə hazırlığı və ixtisasartırma şəbəkəsinin fəaliyyətinin əmək bazarının tələblərinə uyğunlaşdırılması, əmək bazarında kadrlara olan tələbatın strukturuna və proqnozuna uyğun olaraq, müxtəlif ixtisaslı kadrlara olan tələbatın müəyyənləşdirilməsinin optimal mexanizmlərinin qurulması;
– texniki peşə təhsilinin dövlət büdcəsindən maliyyələşməsində normativ maliyyələşmə prinsiplərinin tətbiq olunması, büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın və yüksək səmərəliliyin təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsi;

– texniki peşə təhsili müəssisələrinin dayanıqlı və yetərli səviyyədə maliyyələşməsinə nail olmaq məqsədi ilə çoxmənbəli maliyyələşmə sxemlərinin tətbiqi, bu müəssisələr tərəfindən əlavə təhsil xidmətlərinin göstərilməsinin və büdcədənkənar vəsaitlərin qazanılmasının təsdiqlənməsi.

2.3. Texniki peşə təhsilin məzmunca müasir tələblər səviyyəsində yeniləşdirilməsi

– texniki peşə təhsilini əmək bazarının dəyişən tələbinə uyğunlaşdırmaq məqsədi ilə bu sahə üzrə yeni ixtisas və ixtisaslaşma təsnifatının hazırlanması;
– texniki peşə təhsili üzrə yeni dövlət standartlarının hazırlanması və bu standartlar əsasında, həmçinin beynəlxalq təcrübədən istifadə olunmaqla yeni tədris proqramlarının tərtib olunması və tətbiqi, təlim-tədris prosesində müasir üsul və metodlardan istifadə olunması;
– texniki peşə təhsili üzrə yeni dövlət standartlarına və tədris proqramlarına uyğun dərsliklərin, dərs vəsaitlərinin hazırlanması və nəşri, texniki peşə təhsili müəssisələrinin bu vəsaitlərlə təmin olunması;
– texniki peşə təhsili sistemində təhsilin keyfiyyətinin idarə olunması üzrə tədbirlərin həyata keçirilməsi, səmərəli monitorinq və qiymətləndirmə mexanizmlərinin hazırlanması və tətbiqi;
– texniki peşə müəssisələrində tədris prosesində müasir informasiya və kommunikasiya texnologiyalarının geniş istifadəsinə nail olunması, modul təhsili, məsafədən təhsil kimi müasir təhsil formalarından istifadə imkanlarının araşdırılması, onların real praktikada həyata keçirilməsi;
– mütərəqqi təhsil formalarından istifadə etməklə peşə təhsili sisteminin daha da təkmilləşdirilməsi və bu yolla işçilərin iş yerində təhsillərini davam etdirmələrinə şərait yaratmaqla ömür boyu təhsil imkanlarının genişləndirilməsi;
– ölkədə qeyri-neft sektorunu sürətli inkişaf etdirmək məqsədi ilə kənd təsərrüfatı, turizm, emal və xidmət sahələri üçün kadr hazırlığının genişləndirilməsi;
– cəzaçəkmə müəssisələrində şəxslərin əmək bazarında işçi qüvvələrinə olan tələbata uyğun peşələri öyrənmələrinin təmin edilməsi;

– texniki peşə təhsili sahəsində beynəlxalq əməkdaşlıq əlaqələrinin gücləndirilməsi, təcrübə mübadiləsi, təhsil müəssisələri arasında birbaşa əlaqə mexanizmlərindən səmərəli şəkildə istifadə olunması.

2.4. Texniki peşə təhsili sistemi üçün kadr hazırlığı işinin təkmilləşdirilməsi

– texniki peşə təhsili sisteminin mühəndis-pedaqoji kadrlara və digər mütəxəssislərə tələbatının proqnozlaşdırılması sisteminin yaradılması;
– texniki peşə təhsili sistemi üçün kadr hazırlığının, ixtisasartırma və yenidənhazırlanma təhsilinin daha da təkmilləşdirilməsi, texniki peşə təhsili sahəsində yüksək ixtisaslı kadrların çoxluq təşkil etməsinə nail olunması;
– texniki peşə təhsili müəssisələrində çalışan mühəndis-pedaqoji və digər işçilərin sosial statusunun və maddi rifahının yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin görülməsi, onların iqtisadi cəhətdən təşviqləndirilməsində texniki peşə təhsili müəssisələrinin müstəqilliyinin əhəmiyyətli dərəcədə artırılması.

2.5. Texniki peşə təhsilinin ictimai statusunun yüksəldilməsi

– texniki peşə təhsilinin problemlərinə ictimaiyyətin müxtəlif təbəqələrinin diqqətinin artırlmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi, kütləvi informasiya vasitələrinin, qlobal internet şəbəkəsinin imkanlarından bu məqsədlə daha geniş istifadə olunması;
– texniki peşə təhsili sisteminin monitorinqlərinin keçirilməsinə nail olunması, bu məqsədlə texniki peşə təhsili barədə statistik məlumatlar sisteminin təkmilləşdirilməsi, müsbət nəticələr əldə etmiş texniki peşə təhsili müəssisələrinin iş təcrübəsinin, pedaqoji nailiyyətlərin və şagirdlərin peşəkar bacarığının kütləvi informasiya vasitələrində geniş işıqlandırılması və yayılmasının dəstəklənməsi;
– texniki peşə təhsili müəssisələrinin dövlət, qeyri-dövlət qurumları və xüsusilə də işəgötürənlərlə tərəfdaşlıq əlaqələrinin təşkil edilməsi və bu prosesin tənzimlənməsi məqsədi ilə institusional tədbirlərin həyata keçirilməsi.

3. Proqramın maliyyə təminatı

Proqramın maliyyə təminatını dövlət büdcə vəsaitləri və Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər mənbələr təşkil edir.

4. Gözlənilən nəticələr

Proqramın yerinə yetirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:

- texniki peşə təhsilinin normativ-hüquqi, iqtisadi və informasiya bazası təkmilləşəcək;
- texniki peşə təhsili müəssisələrinin maddi-texniki və tədris bazası təkmilləşəcək, onlar müasir avadanlıqla təmin olunacaq, təlim prosesinin səmərəsi artacaq, müasir tələblərə cavab verən ixtisaslı kadrların hazırlanması üçün əlverişli şərait yaranacaq;
- texniki peşə təhsili müəssisələrinin strukturu və idarə edilməsi mexanizmi təkmilləşəcək, şəbəkə optimallaşacaq, regionlarda sosial-iqtisadi potensial nəzərə alınmaqla yeni tip peşə təhsili müəssisələri yaradılacaq;
- texniki peşə təhsilinin maliyyələşdirilməsinin yeni mexanizmini əks etdirən iqtisadi model formalaşacaq;
- texniki peşə təhsilinin məzmunu müasir tələblərə uyğun yeniləşəcək;
- texniki peşə təhsili müəssisələrinin elmi-metodik və informasiya təminatı yaxşılaşacaq, müasir texnika və texnologiyalara dair tədris materiallarını özündə əks etdirən proqramların, dərslik və dərs vəsaitlərinin hazırlanması və nəşri sahəsində əsaslı dönüş yaranacaq, təlim-tərbiyənin məzmunu şagirdlərin imkanlarına uyğun dövlətin, ictimaiyyətin və şəxsin tələbatı əsasında qurulacaq;
- peşə-ixtisas kadrları hazırlığının əmək bazarının tələblərinə və ehtiyacına uyğun proqnozlaşdırılması sistemi yaradılacaq;
- kadr hazırlığının planlaşdırılması üzrə çevik mexanizm yaradılacaq, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşacaq, dövlət və qeyri-dövlət müəssisələrinin kadrlara olan tələbatı ödəniləcək;
- əhalinin və əmək bazarının ehtiyaclarına uyğun olaraq, peşə-ixtisas kadrlarının hazırlığının həcmi və profil strukturu formalaşdırılacaq.

5. Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planı

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti
5.1.	Ölkənin zəruri ehtiyac duyulan regionlarında yeni texniki peşə təhsili müəssisələrinin inşası, mövcud texniki peşə təhsili müəssisələri binalarının cari və əsaslı təmiri tədbirlərinin 2008–2012-ci illər üzrə həyata keçirilməsi cədvəlinin və maliyyə-smeta sənədlərinin tərtib edilərək təsdiq edilməsi	Nazirlər Kabineti, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi	2007
5.2.	Təsdiq olunmuş plana əsasən texniki peşə təhsili müəssisələrinin əsaslı təmiri və yeni binaların inşası işlərinin həyata keçirilməsi	Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi	2008–2012
5.3.	Hər il üçün təsdiq edilmiş plana əsasən dövlət büdcəsindən maliyyələşən texniki peşə təhsili müəssisələrinin müasir təlim avadanlıqları ilə təmin edilməsi	Təhsil Nazirliyi, Maliyyə Nazirliyi	2008–2012
5.4.	Texniki peşə təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması, müasir tipli və profilli peşə təhsili müəssisələrinin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi	2008–2012
5.5.	Texniki peşə təhsili müəssisələrinin maliyyə-təsərrüfat müstəqilliyinin artırılmasına dair təkliflərin hazırlanması və Azərbaycan Respublikası Prezidentinə təqdim olunması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi	2007–2008

5.6.	Texniki peşə təhsili sahəsində cəlbedici investisiya mühitinin yaradılması üzrə təkliflərin hazırlan-\ması və Azərbaycan Respublikası Prezidentinə təqdim olunması	Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Təhsil Nazirliyi	2008
5.7.	Texniki peşə təhsilinin dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması və Azərbaycan Respublikası Prezidentinə təqdim olunması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi	2007–2008
5.8.	Texniki peşə təhsilinin keyfiyyətinə dövlət nəzarətinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması və Nazirlər Kabinetinə təqdim olunması	Təhsil Nazirliyi	2008
5.9.	Texniki peşə təhsili müəssisələrinin büdcə təminatı normativlərinin hesablanması metodikasının və tətbiq olunma qaydalarının hazırlanması və təsdiq olunması	Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Təhsil Nazirliyi	2008
5.10.	Texniki peşə təhsili müəssisələrinin büdcədənkənar gəlirlərinin artırılması üzrə təşviqləndirici tədbirlərin görülməsi, tədris emalatxanaları və təlim təsərrüfatlarının fəaliyyətinin təkmilləşdirilməsi	Təhsil Nazirliyi	2008–2012
5.11.	Texniki peşə təhsilini əmək bazarının dəyişən tələbinə uyğunlaşdırmaq məqsədi ilə bu sahə üzrə yeni ixtisas və ixtisaslaşma klassifikatorunun hazırlanması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2008
5.12.	Texniki peşə təhsili üzrə yeni dövlət standartlarının hazırlanması və təsdiq edilməsi	Nazirlər Kabineti, Təhsil Nazirliyi	2007–2008

5.13.	İşəgötürənlərlə texniki peşə təhsili müəssisələri arasında tərəfdaşlıq əlaqələrinin təşkil edilməsi və bu prosesin tənzimlənməsi məqsədi ilə Əlaqələndirmə Şurasının yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi işəgötürənləri cəlb etməklə	2008
5.14.	Texniki peşə təhsilinin məzmununun təkmilləşdirilməsi istiqamətində yeni dövlət standartlarına uyğun tədris plan və proqramlarının hazırlanması	Təhsil Nazirliyi	2008–2009
5.15.	Texniki peşə təhsili sahəsində dünyada mövcud olan təhsil texnologiyalarının öyrənilməsi və tətbiqi	Təhsil Nazirliyi	2008–2012
5.16.	Regionların inkişaf istiqamətlərinə və yeni yaranacaq istehsal və xidmət müəssisələrinin tələbatına uyğun peşə ixtisas kadrlarının hazırlanması proqnozlarının işlənib hazırlanması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi	2008–2012
5.17.	Peşə ixtisas fənləri üzrə yeni texnika və texnologiyaları əks etdirən dərsliklərin və dərs vəsaitlərinin hazırlanması və nəşr edilməsi	Təhsil Nazirliyi	2008–2012
5.18.	Texniki peşə təhsili üzrə vahid monitorinq və qiymətləndirmə sisteminin yaradılması və tətbiqi	Təhsil Nazirliyi	2008–2009
5.19.	Texniki peşə təhsili sisteminin mühəndis-pedaqoji işçilərə və digər mütəxəssislərə tələbatının proqnozlaşdırılması sisteminin yaradılması	Təhsil Nazirliyi	2008–2009
5.20.	Texniki peşə təhsili sistemi üçün kadr hazırlığının, ixtisasartırma və yenidənhazırlanma təhsilinin təkmilləşdirilməsi, istehsalat təlimi ustalarının yeni texnika və mütərəqqi texnologiyalarla işləyən müəssisələrdə staj keçmələrinin təmin edilməsi	Təhsil Nazirliyi	2008–2009

5.21.	Texniki peşə təhsili müəssisələrində çalışan pedaqoji və digər işçilərin sosial statusunun və maddi rifahının yüksəldilməsi üzrə təkliflərin hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2008
5.22.	Texniki peşə təhsili müəssisələrində çalışan pedaqoji və digər işçilərin iqtisadi təşviqləndirilməsində texniki peşə təhsili müəssisələrinin müstəqilliyinin artırılması üzrə təkliflərin hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması	Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2008
5.23.	Texniki peşə təhsili sisteminin monitorinqinin keçirilməsi üzrə tədbirlərin həyata keçirilməsi, texniki peşə təhsili barədə statistik məlumatlar sisteminin təkmilləşdirilməsi	Təhsil Nazirliyi, Dövlət Statistika Komitəsi	2008–2012
5.24.	Qabaqcıl texniki peşə təhsili müəssisələrinin iş təcrübəsinin, pedagoji nailiyyətlərin və şagirdlərinin peşəkar bacarığının təbliğ olunması və yayılması üzrə tədbirlərin həyata keçirilməsi	Təhsil Nazirliyi, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti	Mütəmadi
5.25.	Texniki-peşə təhsili barədə ölkə üzrə informativ və analitik məlumatları əks etdirən vahid internet saytının yaradılması	Təhsil Nazirliyi	2008

Azərbaycan Respublikası Prezidentinin
2008-ci il 10 iyun tarixli Sərəncamı ilə təsdiq edilmişdir

2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı

1.Ümumi Əsaslar

1.1. Mövcud vəziyyət

Biliklərə əsaslanmış iqtisadiyyatın təşəkkül tapdığı şəraitdə informasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir. Tam əminliklə demək olar ki, bu gün qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti, ilk növbədə, onların İKT-dən səmərəli istifadəsi ilə müəyyənləşməklə formalaşır.

İKT-nin təhsildə tətbiqi və inteqrasiyası Azərbaycan vətəndaşlarının müasir biliklərə və bacarıqlara malik olan yeni nəslinin formalaşmasına birbaşa təsir edən yüksək mahiyyətli məsələdir.

Son illər təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə İKT-nin tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə prioritet istiqamətlərdən biri olmuşdur. Bu dövrdə təhsil sistemində İKT-nin tətbiqi sahəsində müxtəlif layihələr və tədbirlər hazırlanıb həyata keçirilmişdir ki, bu da ölkənin təhsil sahəsində aparılan islahatların çox vacib mərhələlərdən biri olmaqla təhsil ocaqlarında İKT infrastrukturunun qurulmasına yönəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 avqust tarixli, 355 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005–2007-ci illər)» xüsusi əhəmiyyətə malik olmuşdur. Proqramın həyata keçirilməsi nəticəsində ölkənin ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təmin olunmasında müsbət dinamikaya nail olunmuş, ümumilikdə təhsil sisteminin İKT əsasında qurulmasına diqqət xeyli artmışdır.

Hazırda respublikanın 4562 ümumtəhsil məktəbinin 82 faizi, 107 texniki peşə müəssisəsinin 45-i və ya 42 faizi, 56 dövlət orta ixtisas təhsil müəssisəsinin 51-i və ya 91 faizi, ali məktəblərin hamısı kompyuter ava-

danlığı ilə təmin olunmuşdur. 2007-ci ilin sonuna olan məlumata görə, ümumtəhsil məktəblərində orta hesabla V–XI siniflər üzrə hər 29 şagirdə 1 kompyuter, dövlət ali məktəblərində hər 28 tələbəyə 1 kompyuter düşür.

Pedaqoji kadrların İKT üzrə hazırlığı diqqət mərkəzində olan məsələlərdən olmuşdur. Son 3 ildə ümumtəhsil məktəblərində 12232 nəfər müəllim informasiya və kommunikasiya texnologiyalarına dair xüsusi hazırlıq kursları keçmişdir ki, bu da pedaqoji kadrların 7 faizini təşkil edir. Dövlət ali məktəblərinin 12367 professor-müəllim heyətindən 391 nəfəri (3,2%), orta ixtisas təhsil müəssisələrinin 90 müəllimi (1,3%) son 5 il ərzində informasiya və kommunikasiya texnologiyalarına dair xüsusi hazırlıq kursları keçmişdir.

Ötən dövr ərzində ölkədə informasiya və kommunikasiya texnologiyalarının təhsil sisteminə inteqrasiyası və təhsil prosesinin məzmunca modernləşməsi sahəsində də bir sıra əməli işlər görülmüşdür. Bütün təhsil pillələri üçün İKT üzrə proqramlar hazırlanıb təsdiq edilmiş, distant təhsil üzrə ilk eksperimentlər aparılmağa başlanılmışdır. Hazırda təhsil portalının informasiya resursları formalaşmaqdadır, bəzi təhsil müəssisələrinin saytları yaradılmış və aktiv halda saxlanılır. Təhsilin idarə olunmasının məlumat sistemlərinin yaradılması, informasiya və kommunikasiya texnologiyalarının ümumtəhsil məktəblərində tətbiqi və ümumtəhsil məktəbləri üçün informasiya və kommunikasiya texnologiyaları sahəsində ixtisaslı pedaqoji, həmçinin köməkçi heyət (laborant) kadrlarının hazırlanması üzrə işlərə başlanılmışdır.

Bütün bunlarla bərabər, ölkənin təhsil sistemində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin hazırkı səviyyəsi istər dinamik inkişaf edən iqtisadiyyatımızın mövcud imkanları, istərsə də dünya təhsil məkanına inteqrasiya baxımından qənaətbəxş hesab edilə bilməz. Ölkədə təhsil ocaqlarının kompyuter avadanlığı ilə təminatındakı irəliləyişlərə rəğmən, bütövlükdə təhsil sisteminin informasiya infrastrukturunun səviyyəsi günün tələblərindən uzaqdır.

Müasir təhsil texnologiyalarının genişmiqyaslı tətbiqi, ilk növbədə, təhsil müəssisələrinin kompyuter avadanlığı ilə təminatının köklü şəkildə yaxşılaşdırılmasını nəzərdə tutur. Şagird (tələbə)/kompyuter nisbətinin bütövlükdə ölkə üzrə, xüsusilə də bölgələrdə və kənd yerlərində optimallaşdırılması qarşıda duran ən vacib problemlər sırasındadır. Lakin bu gün ölkənin təhsil sisteminin bütün pillələrində kompyuterlərə çıxış imkanlarının genişləndirilməsi zərurəti ilə yanaşı, İKT avadanlığının daha səmə-

rəli istifadə olunmasının, o cümlədən texniki nəzarət və dəstək sisteminin təkmilləşdirilməsinin aktuallığı qabarıq şəkildə hiss olunur. Xüsusən də rayon səviyyəsində texniki nəzarət və dəstək sisteminin mövcud olmaması, yaxud günün tələbləri səviyyəsində qurulmaması artıq quraşdırılmış kompyuter avadanlığından, rəqəmsal təhsil resurslarından tam səmərəli şəkildə bəhrələnmək imkanlarını məhdudlaşdırır.

Araşdırmalar göstərir ki, respublikada təhsil prosesində rəqəmsal texnologiyaların geniş istifadəsinə maneçilik törədən əsas amillərdən biri rəqəmsal şəbəkə infrastrukturunun zəif inkişaf etməsi, təhsil ocaqlarının ölkədaxili internet şəbəkəsi ilə yetərli səviyyədə əhatə olunmaması və yüksək sürətli internet əlaqəsi ilə təmin olunmamasıdır. Belə ki, hazırda respublikanın ali məktəblərində internet əlaqəsi tam təmin olunsa da, orta təhsil məktəblərinin təxminən 3 faizi, orta ixtisas məktəblərinin isə 12 faizi internetə çıxış imkanlarına malikdir. Təhsil müəssisələrinin böyük əksərinin veb-səhifələri yaradılmamış, müəssisədaxili rəqəmsal şəbəkələri, həmçinin vahid ölkədaxili təhsil portalı formalaşdırılmamışdır.

Bununla yanaşı, multimedia xarakterli dərsliklərin və digər tədris vasitələrinin işlənilməsi, yayılması və təhsil prosesində tətbiq olunması ləngiməkdədir. Son dövrdə bu sahədə bir sıra tədbirlər həyata keçirilmiş, elektron tədris sistemlərinin formalaşdırılması istiqamətində əməli addımlar atılmışdır. Lakin İKT tətbiqi üzrə elmi-metodiki bazanın təkmilləşdirilməsi, ümummilli səviyyədə vahid elektron təhsil məkanının təşəkkül tapması günün əsas tələbi olaraq qalır.

Azərbaycan Respublikasında təhsil sisteminin islahatları ilə bağlı ən aktual məsələlərdən biri İKT tətbiq etməklə təhsilin idarə olunmasının təkmilləşdirilməsidir. Bu sırada təhsildə İKT-nin tətbiqi sahəsində yerli özünüidarə və dövlət orqanlarının fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın təkmilləşdirilməsi, təhsil sahəsində effektiv idarəetmə üçün zəruri olan və bu sahənin vəziyyətini xarakterizə edən elektron məlumat bazası sisteminin hazırlanıb tamamlanması xüsusi diqqət tələb edir. Həmçinin ölkənin təhsil sisteminin yüksək İKT bilik və bacarıqlarına malik pedaqoji və inzibati kadrlarla təminatının müasir standartlar səviyyəsinə çatdırılması təxirəsalınmaz məsələ kimi qarşıda durur.

«2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı» (bundan sonra – Dövlət

Proqramı) qeyd olunan məsələlərin səmərəli və kompleks şəkildə həllinə yönəlmişdir. Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 17 fevral tarixli, 1146 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə milli strategiya (2003-2012-ci illər)» əsasında hazırlanmışdır.

1.2. Məqsəd və vəzifələr

Dövlət Proqramının əsas məqsədi təhsilin bütün pillələrində müasir informasiya və kommunikasiya texnologiyalarının səmərəli tətbiqi və istifadəsi ilə vahid ümummilli təhsil mühitinin formalaşdırılması və bu zəmində əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının təmin edilməsi, habelə ölkənin təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya olunması üçün şərait yaradılmasıdır.

Bu məqsədə nail olmaq üçün aşağıdakı istiqamətlərdə müvafiq vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur.

Təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi:

- təhsil müəssisələrinin informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompyuter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminat işinin yaxşılaşdırılması;
- təhsil müəssisələrində İKT avadanlığına texniki nəzarət və dəstək sisteminin təkmilləşdirilməsi, bu məqsədlə müəssisələrarası əlaqə və əməkdaşlığın inkişaf etdirilməsi;
- təhsil müəssisələrinin korporativ şəbəkə infrastrukturunun, habelə şəbəkə infrastrukturunun idarəetmə və nəzarət sisteminin yaradılması;
- internet xidmətlərinin işlənilməsi və internet şəbəkəsinə çıxışının təmin olunması.

Elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi:

- bütün fənlər üzrə müasir elektron elmi-metodiki vəsaitlər kompleksinin işlənilməsi və yayılması;
- elektron təhsil (e-Learning) resursları bazasının yaradılması və tədris prosesinə inteqrasiyası;
- ölkə daxilində distant təhsilin inkişaf etdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi;
- təhsildə İKT-nin tətbiqi üzrə məlumat və resurs mərkəzinin yaradılması;
- vahid təhsil portalının yaradılması və mütəmadi dəstəklənməsinin təmin olunması;

– təhsildə dünya informasiya resurslarından səmərəli istifadənin təşkili, interaktiv tədris imkanlarından daha geniş istifadə olunmasının dəstəklənməsi.

Təhsil sistemində idarəetmənin informasiyalaşdırılması:

– təhsil sahəsinin idarə olunmasında və tənzimlənməsində vahid informasiya infrastrukturunun yaradılması, təhsilin idarə edilməsində informasiya sistemləri və texnologiyaların səmərəli tətbiqinin təmin edilməsi;
– təhsilin idarə olunmasının məlumat sistemlərinin (TİMS) inkişaf etdirilməsi, «elektron hökumət» prinsiplərinin tətbiqinin genişləndirilməsi;
– təhsilin idarə olunması funksiyalarını yerinə yetirən dövlət orqanlarının İKT avadanlığı və müvafiq proqram vasitələri ilə təmin olunması.

Kadr potensialının gücləndirilməsi:

– təhsil sisteminin pedaqoji və inzibati-idarəetmə heyətinin İKT üzrə savadlılığının artırılmasına yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi;
– yeni metod və texnologiyalar vasitəsilə pedaqoji heyətin hazırlanma və ixtisasartırma sisteminin təkmilləşdirilməsi;
– bölgələrdə və xüsusilə də kənd yerlərində və ucqar rayonlarda təhsil müəssisələrinin İKT üzrə kadr təminatının yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi;
– yaradıcı və innovativ müəllimlərin obyektiv qiymətləndirilməsi və səmərəli motivasiyası sisteminin yaradılması.

Normativ-hüquqi bazanın təkmilləşdirilməsi:

– informasiya və kommunikasiya texnologiyalarının təhsil sistemində istifadəsi və tətbiqi ilə bağlı mövcud normativ-hüquqi aktların və normativ sənədlərin monitorinqinin aparılması;
– təhsilin idarəedilməsi və tədris prosesinin informasiyalaşdırılması sahəsində zəruri norma və standartların işlənilməsi və həyata keçirilməsi;
– Dövlət Proqramının məqsəd və vəzifələri baxımından İKT vasitələrinin istifadəsi və təhsildə tətbiqi məsələləri ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi üzrə müvafiq tədbirlərin həyata keçirilməsi.

1.3. Dövlət Proqramının maliyyə təminatı

Dövlət Proqramının icrası üçün tələb olunan maliyyə vəsaitləri Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına təmin edilir.

1.4. Dövlət Proqramının icrasından gözlənilən nəticələr

Dövlət Proqramının həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:

- təhsil müəssisələrinin İKT avadanlığı ilə təminat göstəriciləri köklü şəkildə yaxşılaşdırılacaq, bütün təhsil müəssisələrində hər bir şagirdə düşən kompyuter nisbəti ən azı 20:1-ə çatdırılacaq;
- bütün fənlər üzrə elektron tədris və metodiki resurslar yaradılacaq;
- bütün fənlər üzrə tədris planlarında və kurrikulumlarda İKT-dən istifadə əks etdiriləcək;
- ümumtəhsil müəssisələrinin yeni nəsil rəqəmsal tədris resurslarından istifadə imkanları yaranacaq, proqram resurslarından səmərəli istifadə olunacaq;
- yeni təlim formaları (distant təhsil daxil olmaqla) tətbiq və istifadə olunacaq;
- bütün təhsil müəssisələrini əhatə edən ölkədaxili korporativ və yüksək sürətli internet şəbəkəsinə çıxış imkanı təmin ediləcək;
- cəmiyyətin təhsil sistemində mövcud proseslərə cəlb edilməsi və maarifləndirilməsi üçün vahid təhsil portalı yaradılacaq;
- İKT-nin təhsilin idarəedilməsinə səmərəli inteqrasiyası təmin ediləcək, təhsilin idarə olunmasının və monitorinqinin effektivliyi artırılacaq;
- təhsil prosesinin idarə edilməsi üçün təhsil müəssisələri avtomatlaşdırılmış iş yerləri ilə təchiz olunacaq;
- təhsil sisteminin pedaqoji və inzibati-idarəetmə kadrlarının İKT üzrə bilik və bacarıqları yüksələcək, yerli eks-pert potensialı gücləndiriləcək;
- bütün təhsil pillələri üzrə məzunların sosial, peşə və mədəni həyatında İKT üzrə uzun illər istifadə edəcəyi bilik və bacarıqlar qazanılacaq;
- innovativ və yaradıcı müəllimlər dəstəklənəcək;
- əhalinin bütün təbəqələri üçün keyfiyyətli və İKT əsaslı tədris proqramı ilə təhsil almaq imkanları təmin olunacaq;

İKT-nin təhsil sisteminə inteqrasiyası sahəsində hüquqi, normativ, elmi-metodiki və sənədlərin bazası formalaşacaq.

2. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı

Sıra №-si	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər)
Təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi			
2.1.	Təhsil müəssisələrinin informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompyuter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminat işinin yaxşılaşdırılması	Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, aidiyyəti orqanlar	2008–2012
2.2.	Təhsil müəssisələrində İKT avadanlığına texniki nəzarət və dəstək sisteminin təkmilləşdirilməsi, bu məqsədlə müəssisələrarası əlaqə və əməkdaşlığın inkişaf etdirilməsi		2008–2010
2.3.	Təhsil müəssisələrinin korporativ şəbəkə infrastrukturunun, habelə şəbəkə infrastrukturunun idarəetmə və texniki nəzarət sisteminin yaradılması		2008–2010
2.4.	İnternet xidmətlərinin işlənilməsi və internet şəbəkəsinə çıxışının təmin olunması		2008–2011
Elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi			
2.5.	Bütün fənlər üzrə müasir elektron elmi-metodiki vəsaitlər kompleksinin işlənilməsi və yayılması	Təhsil Nazirliyi, aidiyyəti orqanlar	2008–2012
2.6.	Elektron təhsil (e-Learning) resursları bazasının yaradılması və tədris prosesinə inteqrasiyası		2008–2010
2.7.	Ölkə daxilində distant təhsilin inkişaf etdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi		2008–2012
2.8.	Təhsildə İKT-nin tətbiqi üzrə məlumat və resurs mərkəzinin yaradılması		2008–2009
2.9.	Vahid təhsil portalının yaradılması və mütəmadi dəstəklənməsinin təmin olunması		2008–2009
2.10.	Təhsildə dünya informasiya resurslarından səmərəli istifadənin təşkili, interaktiv tədris imkanlarından daha geniş istifadə olunmasının dəstəklənməsi		2010–2012

Sıra №-si	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər)
Təhsil sistemində idarəetmənin informasiyalaşdırılması			
2.11.	Təhsil sahəsinin idarə olunmasında və tənzimlənməsində vahid informasiya infrastrukturunun yaradılması, təhsilin idarə edilməsində informasiya sistemləri və texnologiyaların səmərəli tətbiqinin təmin edilməsi	Təhsil Nazirliyi	2009–2010
2.12.	Təhsilin idarə olunmasının məlumat sistemlərinin (TİMS) inkişaf etdirilməsi, «elektron hökumət» prinsiplərinin tətbiqinin genişləndirilməsi		2010–2012
2.13.	Təhsilin idarə olunması funksiyalarını yerinə yetirən dövlət orqanlarının İKT avadanlığı və müvafiq proqram vasitələri ilə təmin olunması		2009–2010
Kadr potensialının gücləndirilməsi			
2.14.	Təhsil sisteminin pedaqoji və inzibati-idarəetmə heyətinin İKT üzrə savadlılığının artırılmasına yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi	Təhsil Nazirliyi, aidiyyəti orqanlar	2008–2012
2.15.	Yeni metod və texnologiyalar vasitəsilə pedaqoji heyətin hazırlanma və ixtisasartırma sisteminin təkmilləşdirilməsi		2008–2009
2.16.	Bölgələrdə və xüsusilə də kənd yerlərində və ucqar rayonlarda təhsil müəssisələrinin İKT üzrə kadr təminatının yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi		2008–2012
2.17.	Yaradıcı və innovativ müəllimlərin obyektiv qiymətləndirilməsi və səmərəli motivasiyası sisteminin yaradılması		2008–2009
Normativ hüquqi bazanın təkmilləşdirilməsi			
2.18.	İKT-nin təhsil sistemində istifadəsi və tətbiqi ilə bağlı mövcud normativ hüquqi aktların və normativ sənədlərin monitorinqinin aparılması	Təhsil Nazirliyi, aidiyyəti orqanlar	2008–2010
2.19.	Təhsilin idarəedilməsi və tədris prosesinin informasiyalaşdırılması sahəsində zəruri normativ və standartların işlənilməsi və həyata keçirilməsi		
2.20.	Dövlət Proqramının məqsəd və vəzifələri baxımından İKT vasitələrinin istifadəsi və təhsildə tətbiqi məsələləri ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi üzrə müvafiq tədbirlərin həyata keçirilməsi		

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 295 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir

2009–2013-cü illərdə Azərbaycan Respublikasının Ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı

1. Ümumi Əsaslar

1.1. Giriş

Bütün dövrlərdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olmuşdur. Cəmiyyətin tələbatı təhsilin inkişafını sürətləndirmiş, elmi və texnoloji nailiyyətlər isə təhsil sistemi qarşısında həlli vacib olan daha mürəkkəb vəzifələr qoymuşdur. Qloballaşmanın geniş vüsət aldığı hazırkı mərhələdə, informasiya cəmiyyətində sosial-iqtisadi fəaliyyət sahələrindəki rəqabətin gücləndiyi, habelə təbii resursların tədricən tükəndiyi bir vaxtda təhsilin rolu artmaqdadır. Birləşmiş Millətlər Təşkilatı XXI əsri «təhsil əsri» elan etmişdir. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında xüsusilə ali təhsilin rolu mühüm əhəmiyyət kəsb edir.

Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə müəyyən olunur. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, indiki mərhələdə təhsil sisteminin ən zəruri vəzifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələr malik olduqları maddi resurslardan daha çox təhsil sisteminin yetişdirdiyi insan kapitalından böyük gəlirlər əldə etmişlər. Bu ölkələrdə inkişafa təsir göstərən amillər içərisində təhsilin çəkisi əhəmiyyətli dərəcədə yüksək olub təxminən 70 faiz təşkil edir.

Hal-hazırda dünyada aşağıdakı inkişaf meyilləri müşahidə olunmaqdadır:

– cəmiyyətin inkişaf tempinin sürətlənməsi, siyasi və sosial seçim imkanlarının genişlənməsi;

– informasiya cəmiyyətinə keçid, ünsiyyət və dözümlülük amillərinin vacib əhəmiyyət kəsb etməsi, mədəniyyətlərarası əlaqələrin miqyasının genişlənməsi;
– yeni nəsildə müasir təfəkkürün formalaşmasını tələb edən və yalnız beynəlxalq əməkdaşlıq çərçivəsində həll edilə bilən qlobal problemlərin sayının artması;
– iqtisadiyyatın dinamik inkişafı, rəqabətin güclənməsi, sadə əmək sferasının məhdudlaşması, mütəmadi olaraq peşə ixtisasının artırılmasını və yenidən hazırlanmasını tələb edən ciddi struktur dəyişikliyi;
– gənclərin və yaşlı nəslin təhsilinin artırılması nəticəsində formalaşan insan kapitalının rolunun yüksəlməsi;
– təhsilin ölkənin aparıcı dövlətlər sırasına daxil olmasını təmin edən əsas faktor olması;
– vətəndaşların xaricdə təhsil almasının dəstəklənməsi.

Bütün bu amillər respublikada ali təhsil sahəsində islahatların istiqamətlərinin, milli maraqları əks etdirməklə, qeyd olunan tendensiyalara uyğun müəyyənləşdirilməsi zərurətini yaradır.

1.2. Mövcud vəziyyət

Azərbaycan Respublikasında ali təhsilin tədris proqramlarını həyata keçirən, 34-ü dövlət və 15-i qeyri-dövlət olmaqla 49 ali təhsil müəssisəsi fəaliyyət göstərir.

Ali təhsil müəssisələrinin bakalavr pilləsində hazırda 128650, magistratura pilləsində isə 7940 tələbə təhsil alır. Dövlət ali təhsil müəssisələrində tələbələrin təlim-tərbiyəsi ilə 22427 nəfər professor-müəllim heyəti məşğul olur. Onların 1000-dən çoxu elmlər doktoru, 6 minə qədəri dosentdir.

Ali məktəblərdə 121 fakültə, 688 kafedra, 100-ə qədər elmi-tədqiqat laboratoriyası və 4 elmi-tədqiqat institutu mövcuddur.

Ali məktəblərin kitabxanalarında 20 milyon nüsxədən ibarət kitab fondu vardır.

Son illərdə təhsilin maliyyələşdirilməsi sahəsində ciddi irəliləyişə nail olunmuşdur. Belə ki, yalnız dövlət büdcəsindən bu sahəyə ayrılan ümumi xərclər 2004-cü ildəki 308,2 milyon manatdan 2008-ci ildə 1165,8 milyon manatadək artmışdır. Bu göstəricilər ali təhsil üzrə müvafiq olaraq 20,4

milyon manatdan 100,7 milyon manata qədər yüksəlmişdir. Bununla yanaşı digər mənbələrdən də ali təhsilə kifayət qədər vəsait daxil olur.

Son beş ildə təhsilə qoyulan investisiya da kifayət qədər artmışdır. Əgər 2005-ci ildə təhsilə 8,3 milyon investisiya yönəldilmişdirsə, bu rəqəm 2008-ci ildə 223,5 milyon təşkil etmişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərindən Azərbaycanda təhsil sahəsində islahatlar haqqında bir çox müzakirələr aparılsa da, islahatın konsepsiyası, həyata keçirilmə mexanizmi olmadığı üçün bu istiqamətdə işlər sistemli, planlı şəkildə aparılmamış və epizodik xarakter daşımışdır. Yalnız 1999-cu ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı» təsdiq olunduqdan sonra bütün təhsil sistemində, o cümlədən ali təhsil pilləsində islahatların məqsədyönlü və planauyğun aparılmasına başlanılmışdır.

Həmin Proqrama müvafiq olaraq digər pillələrdə olduğu kimi ali təhsildə də struktur dəyişiklikləri aparılmış, müəssisələrin şəbəkəsi optimallaşdırılmış, mütəxəssis hazırlığının strukturuna yeni ixtisaslar əlavə olunmuşdur.

Təhsil müəssisələrinə xeyli müstəqillik və geniş səlahiyyətlər verilmiş, bir sıra ali məktəblər öz fəaliyyətlərini özünüidarəetmə prinsipi əsasında qurmuşdur. Həmin ali məktəblərin dövlət büdcəsindən ayrıca sətirlə maliyyələşdirilməsi 2001-ci ildən etibarən həyata keçirilir.

«Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 iyun tarixli Fərmanına müvafiq surətdə mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, təhsilin keyfiyyətinə nəzarət səlahiyyəti Azərbaycan Respublikasının Təhsil Nazirliyinə verildikdən və ali və orta ixtisas təhsili müəssisələrinin attestasiyası və akkreditasiyasını tənzimləyən müvafiq normativ-hüquqi akt təsdiq edildikdən sonra qısa müddət ərzində təhsilin keyfiyyətinə nəzarət mexanizmi yaradılmış, ilk mərhələdə tələbələrin biliyinin qiymətləndirilməsi üzrə yeni mexanizmin tətbiqinə eksperiment şəklində başlanılmışdır. Hazırda bu sistem, demək olar ki, bütün ali təhsil müəssisələrini əhatə edir.

Müasir tələblərə cavab verən, dərin təfəkkürə, pedaqoji və metodik ustalığa malik olan müəllim kadrları hazırlığı daim diqqət mərkəzində olmuşdur. Belə ki, Azərbaycan Respublikasının Təhsil Nazirliyi Dünya Bankı

ilə birgə Təhsil Sektorunun İnkişafı Layihəsi çərçivəsində «Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası»nı hazırlamış, həmin sənəd 2007-ci ildə təsdiq edilmişdir. Konsepsiya təsdiq edildikdən sonra pedaqoji kadr hazırlığının məzmununda islahatların aparılması işinə başlanılmışdır.

Müasir dövrdə Avropa ölkələri təhsil sistemlərinin inteqrasiyası və ümumavropa ali təhsil məkanının formalaşdırılması xüsusi aktuallıq kəsb edir. Bu baxımdan həyata keçirilən tədbirlər arasında Bolonya prosesi önəmli yer tutur.

Azərbaycan 2005-ci ildə Bolonya prosesinə qoşulmuş və bununla da faktiki olaraq ali təhsildə aparılacaq islahatların konturları müəyyənləşdirilmişdir. Bolonya Bəyannaməsinin müddəalarını həyata keçirmək üçün 2006–2010-cu illəri əhatə edən müvafiq Tədbirlər Planı hazırlanıb təsdiq edilmişdir. Tədbirlər Planına uyğun olaraq, «Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu» təsdiq edilmiş və buna müvafiq istiqamətlər üzrə yeni dövlət təhsil standartları hazırlanmışdır. Beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanmış bu standartlarda fənlərin sayı, auditoriya saatlarının miqdarı (4140 saatdan orta hesabla 3305 saata qədər) azaldılmış, seçmə fənlərə ayrılan saatların miqdarı 10 faizdən 20 faizədək artırılmış və tələbələrin müstəqil işinə xeyli vaxt ayrılmışdır.

Azərbaycanın Bolonya prosesinə qoşulması ilə əlaqədar ali təhsildə kredit sisteminin tətbiqinə zərurət yaranmışdır. Bu sistemin tətbiqi ilə bağlı hüquqi normativ bazanın yaradılması istiqamətində bir çox xarici ölkələrin təcrübəsi öyrənilmiş, «Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi Əsasnamə» hazırlanıb təsdiq edilmiş, görüləcək işlərin həcminin genişliyi nəzərə alınaraq, ilkin mərhələdə bir neçə ali məktəbdə eksperiment şəklində kredit sisteminin tətbiq olunması qərara alınmışdır. 2006–2007-ci tədris ilində 10 ali məktəbdə başlanan eksperiment 2007–2008-ci tədris ilində artıq 21 dövlət ali məktəbini əhatə etmişdir.

Bundan əlavə xarici ölkələrdə təhsil alanların diplomlarının Azərbaycanda tanınması üzrə müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, «Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) qaydaları»na uyğun olaraq

Azərbaycan Respublikasının Təhsil Nazirliyində Daimi Komissiya yaradılmışdır.

Görülmüş işlərlə yanaşı ali təhsil sahəsində hələ də öz həllini tapmayan çox ciddi problemlər mövcuddur. Respublikada ali təhsilin kütləviliyi sahəsində həm inkişaf etmiş ölkələrlə, həm də MDB ölkələri ilə müqayisədə gerilik müşahidə olunur. Son illərdə hər 10 min vətəndaşa inkişaf etmiş ölkələrdən ABŞ-da–445, Böyük Britaniyada–276, Almaniyada–240, Yaponiyada–233, MDB ölkələrindən Qazaxıstanda – 510, Rusiyada–449, Qırğızıstanda–447, Moldovada–351, Gürcüstanda– 321, Ermənistanda–304, Tacikistanda–192, Azərbaycanda isə –156 tələbə düşür. Həmin ölkələr üzrə əhalinin sayına tələbə nisbəti isə (faizlə) Rusiyada–5,1; Qazaxıstanda–5,0; Gürcüstanda– 3,2; Ermənistanda–3,0; Azərbaycanda–1,6; Özbəkistanda–1,1 və Türkmənistanda 0,2 faiz təşkil edir. Bu rəqəmlər ali təhsil sisteminin təşkilində kifayət qədər həllini gözləyən problemin olduğunu göstərir.

Respublikanın ali təhsil sisteminə cəlb olunmuş insan resurslarında da müəyyən disproporsiya aradan qaldırılmalıdır. Belə ki, Qara dəniz regionu ölkələri üzrə ali təhsildə çalışan işçilər və tələbələrin sayı arasında olan nisbət uyğun olaraq Gürcüstanda–25,5, Türkiyədə–23,8, Moldovada–21,3, Albaniyada–19,0, Yunanıstanda–16,8, Ermənistanda–11,7, Rusiyada–10,1 faiz olduğu halda Azərbaycanda bu rəqəm 7,3 faiz təşkil edir.

Son illərdə ali təhsilin işəgötürənlərlə əlaqəsinin genişləndirilməsi, xüsusilə də onların həm qanunvericilik və həm də təhsil proqramlarının inkişafı sahəsində iştirakı xeyli qənaətbəxşdir. Lakin sosial-praktiki və iqtisadi sahədə mövcud vəziyyətin təhlili göstərir ki, ali təhsilin məzmunu ilə tələb olunan biliklər arasındakı uyğunsuzluq dünyada qlobal böhran səviyyəsi kimi xarakterizə olunur, hətta bir çox inkişaf etmiş ölkələrdə ən yaxşı halda kadr hazırlığı iqtisadiyyatın keçmiş mərhələsinə uyğun aparılır.

Bununla əlaqədar ali təhsil sisteminin inkişafı üçün bütün mümkün innovasiya potensialını və resursları zəruri inkişaf istiqamətlərinə səfərbər etmədən mövcud vəziyyətin dəyişdirilməsinə nail olmaq qeyri-mümkündür.

Bu baxımdan təhlil göstərir ki, respublikanın ali təhsil sistemində aşağıdakı problemlər mövcuddur:

– kadr hazırlığı strukturu əmək bazarının tələbatını tam ödəmir;
– elmi-tədqiqatların nəticələri ali təhsilə zəif inteqrasiya olunur;
– ali təhsilə ayrılan vəsaitlər səmərəsiz istifadə olunur;
– ali təhsil müəssisələri şəbəkəsi təkmil deyil;
– ali məktəblərin kadr potensialı və müəllimlərin ixtisasartırma təhsili müasir tələblərə cavab vermir;
– ali məktəb tələbələri və məzunlarının hazırlıq səviyyəsi onların dünya təhsil məkanına çevik inteqrasiyasına imkan vermir;
– ali və orta ixtisas təhsili istiqamətlərinin və magistr proqramlarının siyahılarının təsdiqindən xeyli müddət keçdiyinə görə onların yeniləşdirilməsinə ehtiyac duyulur;
– istiqamətlər üzrə standartların yeniləşməsinə baxmayaraq, tədris planlarında hələ də lüzumsuz qeyri-ixtisas fənləri mövcuddur;
– bakalavr və magistratura pillələrində bir çox ixtisaslar üzrə dərsliklər çatışmır, bəzən isə məzmunca köhnəlmiş ədəbiyyatdan istifadə edilir;
– tələbələrin tədris olunan fənləri mənimsəmə səviyyəsini müəyyənləşdirən monitorinq mexanizmi olmadığından onların biliyinin qiymətləndirilməsində qeyri-obyektivliyə yol verilir;
– pedaqoji təhsilin məzmunu ümumtəhsil məktəblərinin tələbatı ilə kifayət qədər uzlaşmır;
– magistr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu təkmilləşdirilməli və buna müvafiq istiqamətlər üzrə dövlət təhsil standartları hazırlanmalıdır;
– yeni pedaqoji təlim texnologiyaları ləng işlənilir, mövcud texnologiyalar isə tədris prosesinə zəif tətbiq olunur;
– ali məktəblərdə kadr hazırlığında informasiya-kommunikasiya texnologiyalarından, fəal interaktiv təlim metodlarından kifayət qədər istifadə edilmir;
– kadr hazırlığı üzrə uzunmüddətli, elmi cəhətdən əsaslandırılmış proqnozlaşdırma mexanizmi yoxdur;
– ali məktəb müəllimlərinin peşəkarlıq səviyyəsini müəyyən edən mexanizm yaradılmamışdır;
– ali məktəblərdə dərs yükünün optimal müəyyənləşdirilməməsi, azsaylı qrup və birləşmələrin yaradılması, dərs yükünün minimal

hədlə müəyyən edilməsi tələbə-müəllim nisbətinin dünyadakı göstəricilərə uyğunlaşdırılmasına imkan vermir;
- ali məktəblərin maddi-texniki bazası (tədris laboratoriyalarının təchizatı, tədris prosesini təmin edən cihaz və avadanlıqlarla təminatı və s.) müasir tələblərə cavab vermir;
- ali məktəb kitabxanaları və onların təminatı günün tələblərinə cavab vermir, elektron kitabxanaların və dərsliklərin yaradılması işi çox ləng aparılır;
- ali təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən normativ sənədlər kredit sisteminin tətbiqi ilə bağlı müvafiq sənədlərə uyğunlaşdırılmamışdır.

1.3. Dövlət Proqramının məqsədi

«2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı»nın (bundan sonra – Dövlət Proqramı) əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır.

1. 4. Dövlət Proqramının icrasının əsas istiqamətləri

Dövlət Proqramı çərçivəsində aşağıdakı istiqamətlər üzrə islahatların aparılması müəyyənləşdirilir:
- Bolonya Bəyannaməsinə və beynəlxalq təhsil təcrübəsinə uyğun olaraq, ali təhsilin normativ hüquqi bazasının yeniləşdirilməsi: burada nəzərdə tutulacaq müddəalar ali təhsil sisteminin Avropa və mütərəqqi dünya ölkələrinin ali təhsil məkanına inteqrasiyası üçün hüquqi baza yaratmalıdır;
- ali təhsilin məzmununun və təlim texnologiyalarının təkmilləşdirilməsi: burada ilk növbədə ali təhsil ixtisaslarının Avropa ixtisas təsni-

fatma və əmək bazarının tələblərinə uyğunlaşdırılması, tədris planı və proqramlarının, təhsil resurslarının, müasir fənn proqramlarının, yeni təlim və informasiya texnologiyalarını təmin edən elmi-metodiki tövsiyələrin hazırlanması və tətbiqi nəzərdə tutulmalıdır;

– ali təhsil müəssisələrinin strukturunun və bütövlükdə onun idarə olunması sisteminin müasir tələblər baxımından modernləşdirilməsi: ilk növbədə idarəçilik strukturunun əsaslı təkmilləşdirilməsi, kadr istehlakçılarının ali təhsil müəssisələrinin idarə olunmasında və inkişafında iştirakını təmin edən strukturların yaradılması, aidiyyəti müəssisələri baza kimi müəyyənləşdirməklə sıx əlaqələrin yaradılması (məsələn, müəllim hazırlığı sahəsində məktəb və təhsil şöbələri ilə, digər sahələrdə isə müvafiq istehsal sahələri ilə əlaqələrin qurulması), tələbə özünüidarə sisteminin inkişafı nəzərdə tutulmalıdır;

– ali təhsildə keyfiyyətin təmin olunması: ali təhsil müəssisələrinin akkreditasiyasına beynəlxalq ekspertlərin cəlb edilməsi təmin olunmalı, universitetlərin reytinqini müəyyənləşdirən sistem yaradılmalı, tələbələrin biliyinin qiymətləndirilməsi sistemi Avropa Kredit Transfer Sisteminin tələblərinə uyğunlaşdırılmalı, dövlət proqramının özəl ali təhsil müəssisələrinə də şamil olunması məqsədi ilə müvafiq tədbirlər görülməli, ali təhsil müəssisələrinin fəaliyyətinin işıqlandırılmasında müasir informasiya texnologiyalarından geniş istifadə olunmaqla tam şəffaflıq təmin edilməlidir;

– ali təhsildə kadr hazırlığı: bu məqsədlə elmi, elmi-pedaqoji və pedaqoji kadrların attestasiyasının, müəllim fəaliyyətinə başlamaq üçün sertifikatlaşdırılma mexanizmlərinin, ali təhsil müəssisələrində keyfiyyəti təmin edən menecment sisteminin, əmək bazarının monitorinqinin və işədüzəltmə mərkəzlərinin, professor-müəllim heyətinin ölkə daxilində və xaricdə treninqlərinin təmin olunma sistemlərinin yaradılması nəzərdə tutulmalıdır;

– ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin müasir tələblərə uyğun qurulması: ölkənin elmi-tədqiqat institutlarının ali təhsil müəssisələri ilə birgə fəaliyyəti, onların potensialından kadr hazırlığı sistemində istifadə olunması, bəzilərinin müvafiq ali təhsil müəssisələri tərkibinə verilməsi məsələlərinə baxılması nəzərdə tutulmalıdır;

– ali təhsilin maddi-texniki bazasının müasirləşdirilməsi: universitet kampuslarının (şəhərciklərinin, təhsil infrastrukturlarının) qurulması, ali təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları mərkəzlərinin, tədris, elmi-tədqiqat, təcrübə-sınaq laboratoriyalarının, resurs, treninq və digər mərkəzlərinin yaradılması, onların müvafiq tədris-metodiki və elmi avadanlıqlarla təchizatı, elektron kitabxanaların yaradılması nəzərdə tutulmalıdır;
– ali təhsilin iqtisadiyyatının yeni mexanizmlərinin yaradılması və tətbiqi: burada ali təhsil müəssisələrinin maliy-yələşdirilməsinin yalnız dövlət büdcəsindən deyil, təhsil alan subyektlərin maliyyəsi hesabına həyata keçirilməsi, alternativ maliyyələşmə mənbələrinin formalaşdırılması sisteminin yaradılması tədbirləri nəzərdə tutulmalıdır.

1.5. Dövlət Proqramının maliyyə mənbələri

Dövlət Proqramının maliyyə təminatını dövlət büdcəsinin vəsaitləri və Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər mənbələr təşkil edir.

1.6. Gözlənilən nəticələr

Dövlət Proqramının yerinə yetirilməsində gözlənilən nəticələr aşağıdakılardır:

– ali təhsilin normativ hüquqi bazası yeniləşəcək;
– ali təhsildə beynəlxalq ixtisas təsnifatına uyğun mütəxəssis hazırlığına keçiləcək;
– beynəlxalq standartlara uyğun kadr hazırlığı təmin ediləcək;
– ali təhsil sisteminin tədris-metodiki təminatı müasirləşəcək;
– beynəlxalq tələblərə uyğun müasir tipli elektron kitabxanalar və elektron versiyalı dərslik fondu yaradılacaq;
– interaktiv təlimi təmin edən yeni metodikalar hazırlanacaq;
– tədris prosesində informasiya texnologiyalarının tətbiqinin elmi-metodiki təminatı yaradılacaq;
– Bolonya prosesinin tətbiqini təmin edən tədris-metodiki vəsaitlər hazırlanacaq;
– ali təhsildə Bolonya Bəyannaməsinin müddəalarına uyğun vahid terminlər tətbiq ediləcək;

– kredit sisteminin tətbiqi ilə bağlı yeniliklərin yayılması və mənimsənilməsi təmin olunacaq;
– ali təhsilin keyfiyyəti yüksələcək;
– ömür boyu təhsil almaq üçün fasiləsizlik təmin olunacaq;
– ali təhsil sistemi beynəlxalq tələblərə cavab verən tədris sənədləri ilə təmin ediləcək;
– ali təhsil üzrə tədris sənədlərinin beynəlxalq ekspertizası təmin olunacaq;
– ali təhsil müəssisələrinin optimal şəbəkəsi yaradılacaq;
– ali təhsil müəssisələrinin davamlı inkişafı təmin ediləcək;
– universitetlərin idarə edilməsində tələbələrin geniş iştirakı təmin olunacaq;
– ali təhsilin idarə olunmasında elektron hökumət qurulacaq;
– ali təhsilin beynəlxalq təhsil məkanına inteqrasiyası sürətlənəcək;
– beynəlxalq tələblərə cavab verən qiymətləndirmə və nəzarət mexanizmi yaradılacaq;
– beynəlxalq ekspertizadan keçmiş yeni akkreditasiya qaydaları yaradılacaq;
– kadr istehlakçılarının təhsilin keyfiyyətinə nəzarət prosesində bilavasitə iştirakı təmin olunacaq;
– ali təhsildə tədrisin təşkili Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğun qurulacaq;
– müəllim və tələbə mübadiləsi sahəsində ali məktəblərin imkanları genişlənəcək;
– tələbə və mütəxəssislərin diplomlarının və müvafiq təhsil sənədlərinin qarşılıqlı tanınması asanlaşacaq;
– ali təhsil müəssisələrinin fəaliyyəti haqqında məlumatlanma prosesi müasir texnologiyalar əsasında qurulacaq;
– tədris prosesində tələbələrin fəal iştirakı təmin olunacaq;
– elmi və elmi-pedaqoji kadrların fəaliyyətini qiymətləndirən attestasiya mexanizmi yeniləşdiriləcək;
– dünya təcrübəsinə və Bolonya Bəyannaməsinin prinsiplərinə uyğun yeni ixtisas təsnifatı hazırlanacaq;
– ali təhsil müəssisələrinin müasir tələblərə cavab verən kadr potensialı formalaşacaq və yeni rotasiya sistemi yaradılacaq;

– ümumtəhsil sistemi peşəkar kadrlarla təmin olunacaq;
– iqtisadiyyat, sosial və digər sahələr rəqabətə davamlı kadrlarla təmin ediləcək;
– ali məktəb məzunlarının əmək bazarında işlə təmin olunma imkanları artacaq;
– ali təhsil müəssisələrində funksional idarəetmə modelini həyata keçirən menecerlər heyəti formalaşdırılacaq;
– ali təhsil müəssisələrinin elmi və elmi-pedaqoji potensialından səmərəli istifadə təmin olunacaq;
– ali təhsil müəssisələrində elmi-pedaqoji kadrların beynəlxalq nüfuzu artacaq;
– ali təhsil müəssisələrinin elmi-tədqiqat sahəsində beynəlxalq əməkdaşlıq imkanları genişlənəcək;
– elmi-tədqiqat işlərinin nəticələrinin tətbiqi ali təhsil müəssisələrinin əlavə maliyyə mənbəyinə çevriləcək;
– müasir tipli universitet şəhərcikləri salınacaq, təhsil infrastrukturu yaxşılaşacaq;
– təhsilin məzmununu müasirləşdirmək üçün maddi-texniki baza təmin yaradılacaq;
– ali təhsil müəssisələrinin beynəlxalq informasiya-kommunikasiya şəbəkəsinə qoşulması təmin ediləcək;
– ali təhsil müəssisələri müasir tipli avadanlıqlarla təchiz olunacaq;
– müasir tipli informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və zəruri avadanlıqlarla təchizatı ali təhsil müəssisələrində idarəetmənin səmərəliliyini artıracaq;
– ali təhsil subyektlərinin zəruri informasiya əldə etmək imkanları genişlənəcək və sürətlənəcək;
– ali təhsil müəssisələrinə yeni maliyyə mənbələri cəlb olunacaq;
– ali təhsil müəssisələrinin maliyyələşdirilmə mexanizmi təkmilləşdiriləcək;
– Bolonya Bəyannaməsinin müddəalarının tətbiqi sürətləndiriləcək və buraya əlavə maliyyə resursları cəlb olunacaqdır.

2. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
Ali təhsilin normativ hüquqi bazası			
2.1.	Ali təhsilin mövcud normativ hüquqi bazasının Bolonya Bəyannaməsinin müddəalarına və beynəlxalq təcrübəyə uyğunlaşdırılması	Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları	2009-2013
2.2.	Ali məktəblərdə elmi-tədqiqat işlərinə investisiyaların və büdcədənkənar vəsaitlərin cəlb olunmasını təmin edən normativ hüquqi bazanın yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi	2009-2010
2.3.	Dövlət ali təhsil müəssisələri üzrə nümunəvi ştat normativlərinin hazırlanması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi	2009-2010
Ali təhsilin məzmunu və təlim texnologiyaları			
2.4.	Ali təhsil pillələri (bakalavriat və magistratura) üzrə ixtisasların (proqramların) beynəlxalq təcrübəyə, Avropa ixtisas kataloquna və əmək bazarının tələblərinə uyğun yeni təsnifatının hazırlanması	Nazirlər Kabineti, Təhsil Nazirliyi	2009-2010
2.5	İxtisaslar (proqramlar) üzrə Avropada tətbiq olunan Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğunlaşdırılmış yeni dövlət təhsil standartlarının hazırlanması	Təhsil Nazirliyi	2009-2010
2.6.	Tədris plan və proqramlarının, təhsil resurslarının (dərsliklərin, dərs vəsaitlərinin və s.) hazırlanması, zəruri hallarda alınması, onların tərcüməsi və tətbiqi	Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2009-2013

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.7.	Baza və əlavə təhsil (ixtisasartırma və yenidənhazırlanma) üçün tədrisin innovasiya metodikalarının, materiallarının və tətbiqi proqram təminatının hazırlanması	Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2009-2013
2.8.	Zəruri ədəbiyyatların və interaktiv tədris kurslarının elektron versiyasının hazırlanması	Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, ali təhsil müəssisələri	2009-2013
2.9.	Məsafədən (distant) təhsilin təşkili	Təhsil Nazirliyi, ali təhsil müəssisələri	2009-2013
2.10.	Tədris prosesində informasiya texnologiyalarının tətbiqi üçün elmi-metodiki tövsiyələrin hazırlanması	Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası	2009-2013
2.11.	Bolonya Bəyannaməsinin əsas prinsiplərinin tətbiqi ilə bağlı müasir informasiya və elmi-metodiki təminatın (Təhsil Nazirliyinin xüsusi veb-portalının, dərslik, dərs və elmi-metodiki vəsaitlərin və s.) yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, ali təhsil müəssisələri	2009-2013
2.12.	Bolonya prosesinin əsas sənədlərinin mütəmadi tərcüməsi, nəşri və ali məktəblər arasında yayılmasının təmin edilməsi və müvafiq məcmuənin nəşrinin təşkili	Təhsil Nazirliyi, ali təhsil müəssisələri	2010
2.13.	Ali təhsil sisteminin dünya və Avropa məkanına inteqrasiyası ilə bağlı hüquqi normativ və tədris sənədlərində istifadə ediləcək əsas anlayışların və terminlərin unifikasiyasının təmin olunması	Təhsil Nazirliyi, ali təhsil müəssisələri	2009-2013
2.14.	Ali məktəblərdə kredit sisteminin tətbiqi ilə bağlı tədbirlərin (simpozium, konfrans, seminar, treninqlər və s.) həyata keçirilməsi	Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2009-2013

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.15.	Müasir fənn proqramlarının hazırlanması	Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2009-2013
2.16.	Fasiləsiz təhsili təmin edən zəruri tədris-metodiki sənədlərin hazırlanması	Təhsil Nazirliyi, ali təhsil müəssisələri	2009-2013
2.17.	Ali təhsil müəssisələrində mövcud ştat vahidləri çərçivəsində kurrikulum və qiymətləndirmə mərkəzlərinin yaradılması	Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2009-2013
2.18.	Ali təhsil üzrə tədris sənədlərinin beynəlxalq ekspertizasının keçirilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi	Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, ali təhsil müəssisələri	2009-2013
2.19.	Kadr hazırlığının məzmununun əmək bazarının tələblərinə uyğunlaşdırılması	Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2009-2013
2.20.	Bolonya Bəyannaməsinin əsas müddəalarının tətbiqi ilə bağlı maarifləndirmə işini gücləndirmək və müsbət təcrübənin yayılmasını təmin etmək məqsədi ilə dövri xəbərlər məcmuəsinin nəşrinin təşkili	Təhsil Nazirliyi	2009
	Ali təhsilin strukturu və idarə olunması		
2.21.	Ali təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması və onların kadr hazırlığı strukturunun Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının perspektiv tələblərinə və regionların inkişafına dair Dövlət Proqramına uyğunlaşdırılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi,İqtisadi İnkişaf Nazirliyi	2009-2010

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.22.	Ali təhsil müəssisələrinin inkişafına yardım edən strukturların (himayədarlar şurası, məzunlar assosiasiyası, inkişaf fondu və s.) yaradılmasının dəstəklənməsi	Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2010
2.22.1.	Ali təhsil müəssisələrinin mövcud idarəetmə strukturunun dünyanın qabaqcıl universitetlərinin strukturuna uyğunlaşdırılması ilə əlaqədar təkliflərin hazırlanması	Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2010
2.22.2.	Ali təhsil müəssisələrində mövcud ştat vahidləri çərçivəsində müvafiq struktur dəyişikliyi hesabına uyğun ixtisasları cəmləşdirən müasir tipli qurumların (biznes məktəbləri, hüquq məktəbləri, təbiət elmləri məktəbləri, kompyuter məktəbləri və s.) yaradılması ilə bağlı təkliflərin hazırlanması	Təhsil Nazirliyi, Maliyyə Nazirliyi,Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2011
2.22.3.	Ali məktəb və biznes subyektlərinin əlaqələr sisteminin strateji menecment prinsiplərinə əsaslanan iqtisadi və hüquqi bazasının yaradılması	Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2013
2.25.	Ali təhsil müəssisələrinin idarə edilməsində tələbə özünüidarəetmə qurumlarının geniş iştirakına şəraitin yaradılması	Təhsil Nazirliyi, ali təhsil müəssisələri	2009–2013
2.26.	Ali təhsildə elektron idarəetmə sisteminin («Elektron Universitet») qurulması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi	2013

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.26.1.	Ali təhsil sistemində qarşılıqlı informasiya şəbəkəsinin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi	2013
2.26.2.	Ali təhsilin informasiya məkanının inkişafını əhatə edən proqram təminatının yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi	2011
2.26.3.	İnternetə çıxışı təmin edən vahid nəql şəbəkənin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi	2011
2.27.	Ali təhsilin vahid informasiya bazasının yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları	2009–2013
2.28.	Ali təhsil müəssisələrinin beynəlxalq təhsil assosiasiyaları və təşkilatlarına üzvlüyünün, onların qabaqcıl ali təhsil müəssisələri ilə birlikdə beynəlxalq proqramlar əsasında mütəxəssis hazırlığı aparmasının təmin olunması	Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2009–2013
Ali təhsildə keyfiyyətin təmin olunması			
2.29.	Ali təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi və keyfiyyətə nəzarət mexanizminin təkmilləşdirilməsi	Nazirlər Kabineti, Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları	2009–2011
2.29.1.	Ali təhsil müəssisəsinin özünüqiymətləndirmə modelinin formalaşdırılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları	2010
2.29.2.	Ali təhsil müəssisəsinin reytinqini müəyyənləşdirən mexanizmin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları	2010

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.30.	Ali təhsil müəssisələrinin akkreditasiya sisteminin təkmilləşdirilməsi	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi	2009
2.30.1.	Ali təhsil müəssisələrinin akkreditasiyası ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi	Nazirlər Kabineti, Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları	2009-2010
2.30.2.	Təhsil Nazirliyinin strukturunda ali təhsil müəssisələrinin akkreditasiyasını aparan qurumun yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları	2009
2.30.3.	Ali təhsil müəssisələrinin akkreditasiyasına müvafiq beynəlxalq qurum və müstəqil ekspertlərin cəlb olunması	Nazirlər Kabineti, Təhsil Nazirliyi və aidiyyəti dövlət qurumları	2009-2010
2.31.	İşəgötürənlərin, məzunların və valideynlərin təhsilin keyfiyyətinə nəzarət sisteminin normativ hüquqi bazasının yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları	2010-2011
2.32.	Ali təhsildə tədrisin təşkilinin Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğunlaşdırılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2009-2011
2.32.1.	Ali təhsil müəssisələrində tətbiq olunan kredit sisteminin Avropa Kredit Transferi Sistemi tələblərinə tam uyğunlaşdırılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2009-2011
2.32.2.	Tələbələrin biliyinin qiymətləndirilmə sisteminin Avropa Kredit Transferi Sistemi tələblərinə uyğunlaşdırılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2009-2011

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.32.3.	Azərbaycanın bütün ali təhsil müəssisələrində kredit sisteminin tətbiqi	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri	2009-2011
2.33.	Ali təhsil sistemində müəllim və tələbə mobilliyinə şəraitin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, ali təhsil müəssisələri	2009-2013
2.34.	Ali təhsil haqqında sənədlərin qarşılıqlı tanınması mexanizminin təkmilləşdirilməsi (Bolonya Bəyannaməsinin prinsiplərinə uyğun diploma əlavənin yeni formasının yaradılması)	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, ali təhsil müəssisələri	2010
2.35.	Ali təhsil müəssisələrinin fəaliyyəti haqqında ictimai hesabat sisteminin yaradılması	Təhsil Nazirliyi, ali təhsil müəssisələri	2010
2.36.	Tədris prosesində tələbələrin fəallığının artırılmasını təmin edən motivasiyalar sisteminin yaradılması	Təhsil Nazirliyi, ali təhsil müəssisələri	2010
2.37.	Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin tədris yükünün optimallaşdırılması barədə təkliflərin hazırlanması	Təhsil Nazirliyi, Maliyyə Nazirliyi	2009
Ali təhsildə kadr hazırlığı			
2.38.	Ali təhsil sisteminin kadr potensialının Avropa standartlarına uyğun formalaşdırılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009–2013

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.38.1.	Elmi-pedaqoji kadr hazırlığı ixtisaslarının monitorinqinin aparılması və Bolonya Bəyannaməsinin prinsiplərinə uyğun yeni təsnifatın hazırlanması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2010
2.38.2.	Yeni təsnifata uyğun ayrı-ayrı ixtisasların məzmununu müəyyənləşdirən standartların hazırlanması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2010
2.38.3.	İxtisaslar üzrə elmi-pedaqoji kadrlara olan tələbatın müəyyənləşdirilməsi	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009-2013
2.38.4.	Elmi və elmi-pedaqoji kadrların attestasiyasının yeni mexanizminin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009-2010
2.38.5.	Ölkədə və xaricdə tələbata uyğun magistr, doktor və tibb sahəsində rezident hazırlığının təmin edilməsi	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009-2013

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.38.6.	Mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada zəruri sahələr üzrə xaricdə professor-müəllim heyətinin ixtisasartırma və yenidən hazırlanmasının təşkili	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009-2013
2.38.7.	Ali məktəblərə elmi-pedaqoji kadrların seçilib yerləşdirilməsinin yeni qaydalarının hazırlanması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009–2013
2.38.8.	Müəllimlik fəaliyyətinə başlamaq üçün sertifikatlaşdırma mexanizminin yaradılması və tətbiqi	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009–2010
2.38.9.	Gənc mütəxəssislərin ucqar rayonlarda çalışmasını stimullaşdıran proqramın həyata keçirilməsi	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009–2013
2.38.10.	Ümumtəhsil məktəbləri müəllimlərinin müasir tələblərə uyğun təkmilləşdirilmə sisteminin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009–2013

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.39.	İqtisadiyyatın kadr potensialının yeni tələblərə uyğun formalaşdırılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009–2013
2.39.1.	Kadr tələbatını müəyyənləşdirmək məqsədi ilə əmək bazarının monitorinqinin təşkili	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009–2013
2.39.2.	Kadr hazırlığına olan tələbatı müəyyənləşdirən metodikanın hazırlanması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009–2013
2.39.3	Tələbələrin təcrübə keçmə prosesini təkmilləşdirmək məqsədi ilə ali məktəb və kadr istehlakçılarının qarşılıqlı münasibətlərini tənzimləyən mütərəqqi və çevik mexanizmin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009–2013
2.39.4.	İstehsalatda çalışan kadrların ali təhsil sistemində ixtisasartırma və yenidən hazırlanmasının təşkili məqsədi ilə mövcud şəbəkə və ştat vahidləri çərçivəsində treninq mərkəzlərinin yaradılması və mövcud olanların təkmilləşdirilməsi	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009–2013
2.39.5.	Dövlət və biznes strukturlarının sifarişləri əsasında məqsədli mütəxəssis hazırlığı mexanizminin işlənib hazırlanması və tətbiqi	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2009–2013

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.40.	Ali məktəblərdə əmək bazarının monitorinqi və mövcud ştat vahidləri çərçivəsində işədüzəltmə mərkəzlərinin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, ali təhsil müəssisələri	2010–2011
2.41.	Ali təhsil üzrə idarəetməni təmin edən menecer sisteminin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, ali təhsil müəssisələri	2009–2013
2.42.	Məzun yarmarkalarının təşkili	Ali təhsil müəssisələri	2009–2013
Elmi-tədqiqat işləri			
2.43.	Elmi-tədqiqat işlərinin ali təhsil müəssisələrinin yönümünə uyğunlaşdırılması	Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları	2009–2013
2.43.1.	Ali təhsil müəssisələrində aparılan elmi-tədqiqat işlərinin monitorinqi, onların kadr hazırlığı və əmək bazarının tələblərinə uyğunlaşdırılması	Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları	2009–2013
2.43.2.	Elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqinin təşkili	Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları	2009–2013
2.44.	Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərini inkişaf etdirmək və onların beynəlxalq nüfuzlu jurnallarda dərc olunmasını stimullaşdırmaq məqsədi ilə Təhsil Nazirliyinin Təhsil Problemləri İnstitutunun elmi araşdırmalar fondunun yaradılması	Təhsil Nazirliyi və Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi	2011
2.45.	Elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması mexanizminin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi və Maliyyə Nazirliyi	2010–2011
2.46.	Tələbələrin elmi-tədqiqat işinə cəlb olunmasını təmin edən yeni mexanizmin hazırlanması	Təhsil Nazirliyi	2009–2010

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.47.	Ali təhsil müəssisələri, Azərbaycan Milli Elmlər Akademiyası və sahə institutları arasında koordinasiyanın gücləndirilməsi	Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, aidiyyəti dövlət qurumları	2009–2013
2.48.	Ali məktəblərdə elmi-tədqiqat işlərinin dövlət sifarişi formasında təşkilinin hüquqi bazasının yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi	2009–2013
2.49.	Ali təhsil müəssisələri tərkibində olan elmi-tədqiqat institutlarının və mərkəzlərin inkişaf etdirilməsi	Nazirlər Kabineti, Təhsil Nazirliyi	2009–2013
Təhsilin maddi-texniki bazası və strukturu			
2.50.	Müasir tipli universitet şəhərciklərinin yaradılması barədə təkliflərin hazırlanması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi	2009–2013
2.50.1.	Universitetlərin maddi-texniki bazasının monitorinqinin aparılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi	2009–2013
2.50.2.	. Bakının mərkəzində infrastruktur baxımından genişlənmə imkanları məhdud olan ali təhsil müəssisələri üçün şəhər kənarında universitet şəhərciklərinin qurulması ilə bağlı təkliflərin hazırlanması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi	2009–2013
2.51.	Mövcud təhsil proqramlarının müasirləşdirilməsi və yenilərinin hazırlanması üçün maddi-texniki təminatın təşkili	Təhsil Nazirliyi, ali təhsil müəssisələri	2009–2013
2.52.	Ali təhsil müəssisələrində mövcud ştat vahidləri çərçivəsində informasiya-kommunikasiya texnologiyaları mərkəzlərinin yaradılması	Nazirlər Kabineti, Təhsil Nazirliyi. ali təhsil müəssisələri	2010–2011

Sıra №-si	İstiqamətlər üzrə tədbirlər	İcraçılar	İcra müddəti (illər)
2.53.	Mövcud büdcə və büdcədənkənar xüsusi vəsaitlərdən daha səmərəli istifadə olunmasına nəzarətin gücləndirilməsi, ayrılmış vəsaitin təhsilin nüfuzunun və maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilməsinə nail olunması	Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, Maliyyə Nazirliyi, ali təhsil müəssisələri	2009–2013
2.54.	Ali təhsil müəssisələrində elektron kitabxanaların yaradılması	Təhsil Nazirliyi, ali təhsil müəssisələri	2009–2013
2.55.	Ali təhsilin maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi	Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi	2012–2013
2.55.1.	Ali təhsilin maliyyələşdirilməsi ilə bağlı mövcud normativ sənədlərin monitorinqi və təhlili	Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi	2012–2013
2.55.2.	Ali təhsilə müxtəlif maliyyə mənbələrinin cəlb edilməsinə imkan yaradan təkliflərin hazırlanması	Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi	2012–2013
2.55.3.	Ali təhsil müəssisələrinin inkişaf etdirilməsi məqsədi ilə qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına vəsaitin əldə edilməsinə imkan verən təkliflərin hazırlanması	Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi	2012–2013
2.55.4.	Adambaşına maliyyələşdirmə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiq edilməsi	Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi	2009–2013
2.56.	Mövcud qanunvericilik çərçivəsində ali təhsil müəssisələrinin maliyyələşdirilməsində yeni modelin yaradılması barədə təkliflərin hazırlanması	Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi	2013

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 13 yanvar tarixli 6 nömrəli qərarı ilə
təsdiq edilmişdir.

2010–2013-cü illərdə Azərbaycan Respublikasının orta ixtisas təhsili sistemində islahatlar üzrə Tədbirlər Proqramı

1. ÜMUMİ MÜDDƏALAR

1.1. Giriş

Ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı məsələlərin həllində, formalaşan bazar münasibətləri şəraitində şəxsiyyətin və cəmiyyətin təhsilə olan tələbatının ödənilməsində orta ixtisas təhsilinin özünəməxsus yeri vardır. Təhsilin bu pilləsi təhsil sisteminin müəyyən səviyyəsi olmaqla, iqtisadiyyatın müxtəlif sahələrinin ixtisaslı kadrlarla təmin olunmasında mühüm rol oynayır.

Orta ixtisas təhsili fasiləsiz təhsil sisteminin tərkib hissəsi olmaqla, bir-biri ilə bağlı iki məsələni – gənclərin müxtəlif peşələrə yiyələnməsini və eyni zamanda onların ümumi icbari təhsil almalarını həll edir.

Orta ixtisas təhsili ölkədə milli təhsil sisteminin nüfuzunun yüksəlməsində və cəmiyyətin intellektual potensialının formalaşmasında da əhəmiyyətli rola malikdir. Bu təhsil kifayət qədər kütləvi ixtisas təhsili kimi vətəndaşların təhsil və mədəni səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Hazırda orta ixtisas təhsili müəssisələrinin sayının kifayət qədər olması, onların ölkə ərazisi üzrə bərabər paylanması, bu təhsil pilləsində mütəxəssis hazırlığının nisbətən az müddət və xərc tələb etməsi ölkə iqtisadiyyatının və sosial sahənin tələbatına uyğun orta ixtisaslı kadrların hazırlanmasına geniş imkan yaradır.

1.2. Mövcud vəziyyət

Bazar münasibətləri şəraitində iqtisadiyyatın infrastrukturu orta ixtisaslı mütəxəssislərdən yeni peşəkarlıq keyfiyyətləri, sistemli təfəkkür, düşüncə, ekoloji, hüquqi, informasiya bilikləri, kommunikativ mədəniyyət, sahibkarlıq mədəniyyəti, öz fəaliyyətini şüurlu şəkildə təhliletmə

qabiliyyəti, qeyri-müəyyənlik şəraitində müstəqil fəaliyyət, məsuliyyət və s. tələb edir.

Bu keyfiyyətləri özündə ehtiva edən mütəxəssislər hazırlamaq üçün orta ixtisas təhsili sahəsində müvafiq islahatların aparılması bu sistemin şəbəkəsinin və daxili strukturunun təkmilləşdirilməsi, mövcud orta ixtisas təhsili müəssisələrinin bazasında yeni tipli tədris müəssisələrinin yaradılması və təhsilin məzmununa qoyulan tələblərin yenidən müəyyənləşdirilməsi kimi vəzifələrin həll edilməsi zərurətini yaradır.

Son illər dövlət tərəfindən təhsil sahəsində aparılan islahatlar nəticəsində orta ixtisas təhsili müəssisələrinin müstəqil fəaliyyəti və inkişafı üçün hüquqi, iqtisadi və digər zəminlər yaradılmış, onların şəbəkəsi xeyli təkmilləşdirilmişdir. Ancaq bir sıra orta ixtisas məktəblərinin ayrı-ayrı nazirlik, konsern və birliklərin tabeliyində olması bu sahənin işində müəyyən qədər pərakəndəlik yaradırdı. Ona görə də «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 iyun tarixli, 349 nömrəli Fərmanı ilə bir sıra dövlət qurumlarının tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilməsi orta ixtisas təhsilinin məzmununda köklü dəyişikliklərin aparılmasına, kadr hazırlığı strukturunun və təhsil müəssisələri şəbəkəsinin təkmilləşdirilməsinə geniş imkan yaratmışdır. Belə ki, respublikada bir sıra texnikumların birləşdirilməsi nəticəsində onların maddi-texniki bazası, pedaqoji kadr potensialı və bu sahədə olan beynəlxalq təcrübə nəzərə alınmaqla, yeni tipli orta ixtisas təhsil müəssisələri – kolleclər yaradılmışdır. Bu tipli təhsil müəssisələrinin sayı artaraq, hazırda orta ixtisas təhsili müəssisələrinin ümumi sayının yarıdan çoxunu təşkil edir.

Eyni zamanda ölkədə təhsil komplekslərinin yaradılması sahəsində də 2000-ci ildən başlayaraq, müəyyən işlər görülmüş, Milli Rəssamlıq Akademiyasının nəzdində İncəsənət Kolleci, Milli Konservatoriyanın nəzdində Musiqi Kolleci, Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində isə İnşaat Kolleci yaradılmışdır.

Beləliklə, hazırda ölkədə orta ixtisas təhsili proqramlarını həyata keçirən 57 dövlət və 3 qeyri-dövlət təhsil müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdə 121 ixtisas üzrə 52579 tələbə (o cümlədən 983 tələbə qeyri-dövlət məktəblərində) təhsil alır. Onların təlim-tərbiyəsi ilə 7003 müəllim

məşğul olur. Ölkə iqtisadiyyatının müxtəlif sahələrində 540 min nəfərə yaxın orta ixtisas təhsilli mütəxəssis çalışır ki, bu da ölkənin əmək qabiliyyətli əhalisinin 10 faizə qədərini əhatə edir.

Son illərdə orta ixtisas təhsili müəssisələrində kadr hazırlığının strukturunda da zəruri dəyişikliklər aparılmışdır. Belə ki, yeni şəraitdə əmək bazarının tələbatına və gənclərin marağına uyğun olaraq neft və energetika, maşınqayırma, informasiya, nəqliyyat və kommunikasiya, sosial-mədəni servis, iqtisadiyyat, biznesin təşkili, marketinq və menecment, iqtisadi və humanitar profilli ixtisaslar üzrə mütəxəssis hazırlığı əhəmiyyətli dərəcədə artmışdır.

Orta ixtisas təhsilinin məzmununda da dəyişikliklər aparılmışdır. Belə ki, orta ixtisas təhsili müəssisələrində kadr hazırlığı aparılan ixtisaslar və istiqamətlər üzrə kiçik mütəxəssis hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum tələblərə cavab verən orta ixtisas təhsilinin dövlət standartları tətbiq olunmuş və buna müvafiq yeni tədris plan və proqramları hazırlanmışdır.

«Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları»nın tərkib hissəsi olan «Ümumtəhsilin bazis tədris planı»nın tələblərinə əsasən Təhsil Nazirliyi tərəfindən orta ixtisas təhsilinin baza təhsil proqramlarının nümunəvi strukturu təsdiq edilmiş və buna müvafiq olaraq tədris plan və proqramlarında lazımi dəyişikliklər aparılmışdır.

Ötən illər ərzində orta ixtisas təhsilinin normativ hüquqi bazası, demək olar ki, tam formalaşdırılmışdır.

Ümumiyyətlə, son illərdə orta ixtisas təhsili sahəsində aparılan dövlət siyasəti onun məzmunca yeniləşməsinə, dəyişən sosial-iqtisadi şəraitə uyğun mütəxəssis hazırlığının strukturunun təkmilləşdirilməsinə imkan yaratmışdır.

Bunlarla yanaşı, orta ixtisas təhsili sahəsində hələ də həllini tapmayan aşağıdakı problemlər mövcuddur:

– orta ixtisas təhsili müəssisələrinin maddi-texniki bazası müasir tələblərə tam cavab vermir;
– tədrisdə istifadə olunan avadanlıqlar, laboratoriya, cihaz və dəzgahlar mənəvi cəhətdən köhnəlmişdir;
– orta ixtisas təhsili müəssisələrinin kompyuter texnikası ilə təminatı qənaətbəxş deyildir;

– latın qrafikası ilə çap olunmuş müasir dərslik və dərs vəsaitləri çatışmır;
– orta ixtisas məktəblərinin kitabxanaları və onların təminatı günün tələblərinə cavab vermir;
– yeni pedaqoji təlim texnologiyaları tədris prosesinə zəif tətbiq olunur;
– kadr hazırlığı strukturu əmək bazarının tələblərini tam ödəmir;
– orta ixtisas təhsili müəssisələrinin şəbəkəsi təkmil deyildir;
– kadr potensialı və müəllimlərin ixtisasartırma, yenidənhazırlanma təhsili müasir tələblərə cavab vermir;
– orta ixtisas təhsili ixtisaslarının siyahısının təsdiqindən xeyli müddət keçdiyinə görə onların yeniləşməsinə ehtiyac duyulur;
– bəzi ixtisasların tədris planlarında hələ də lüzumsuz fənlər mövcuddur;
– orta ixtisaslı kadr hazırlığı üzrə uzunmüddətli, elmi cəhətdən əsaslandırılmış proqnozlaşdırma mexanizmi yoxdur;
– tədris müəssisələrinin işəgötürənlərlə ənənəvi əlaqələrinin pozulması məzunların işlə təmin olunmasını məhdudlaşdırır;
– əksər orta ixtisas təhsili müəssisələrinin yataqxanalarının olmaması respublikanın ucqar regionlarında yaşayan gənclərin təhsilə cəlb olunmasında çətinlik yaradır;
– tələbələrin asudə vaxtlarını səmərəli keçirməsi üçün lazımi şərait yoxdur;
– orta ixtisas təhsil müəssisələrində mövcud maliyyələşdirmə mexanizmi təkmil deyildir;
– tələbələrin ixtisas üzrə təcrübə keçməsi üçün lazımi şərait yaradılmır.

1.3. Tədbirlər Proqramının məqsədi

«2010–2013-cü illərdə Azərbaycan Respublikasının orta ixtisas təhsili sistemində islahatlar üzrə Tədbirlər Proqramı»nın (bundan sonra – Proqram) əsas məqsədi orta ixtisas təhsili sisteminin inkişaf etdirilməsi, ölkə iqtisadiyyatının inkişaf istiqamətlərinə əsasən əmək bazarının tələbatına uyğun olaraq istehsal və xidmət sahələrinin yüksək keyfiyyətli orta ixtisaslı kadrlarla təmin edilməsindən ibarətdir.

1.4. Tədbirlər Proqramının icrasının əsas istiqamətləri

Respublikada iqtisadiyyatın inkişaf perspektivlərinə uyğun olaraq orta ixtisas təhsilli mütəxəssislərə tələbatın artması prosesi gedir. Onların rolu, yeri və funksiyaları dəyişir, səriştəliyə, mədəniyyətə və əməyin keyfiyyətinə tələbat yüksəlir.

Bununla əlaqədar olaraq, orta ixtisas təhsilinin inkişafı üzrə aşağıdakı əsas prinsiplər müəyyənləşdirilir:

- orta ixtisas təhsilinin çevikliyi;
- orta ixtisas təhsili müəssisələrinin fəaliyyətinin yerləşdiyi regionun sosial-iqtisadi inkişafına, əmək bazarına və əhalinin mənafeyinə yönəldilməsi;
- təhsilin fasiləsizliyi (orta ixtisas təhsilinin məzmun və strukturunun digər təhsil səviyyələri ilə varisliyi);
- orta ixtisas təhsilinin ali təhsillə qarşılıqlı inteqrasiyasının inkişafı.

Qeyd olunanlarla yanaşı, bu Proqram çərçivəsində orta ixtisas təhsilində aşağıdakı istiqamətlər üzrə islahatların aparılması nəzərdə tutulur:

- orta ixtisas təhsilinin normativ hüquqi bazasının təkmilləşdirilməsi;
- mövcud normativ hüquqi baza beynəlxalq təcrübəyə əsaslanaraq yeniləşdiriləcəkdir;
- orta ixtisas təhsilinin məzmununun və təlim texnologiyalarının yeniləşdirilməsi.

Burada, ilk növbədə, orta ixtisas təhsili ixtisaslarının əmək bazarının tələblərinə və ali təhsilin bakalavr pilləsinin ixtisaslarına uyğunlaşdırılması, tədris plan və proqramlarının, müasir fənn proqramlarının, yeni təlim və informasiya texnologiyalarının və digər təhsil resurslarının tətbiqini təmin edən elmi-metodiki tövsiyələrin hazırlanması nəzərdə tutulur;

- orta ixtisas təhsili strukturunun və idarə olunması sisteminin modernləşdirilməsi

İlk növbədə, idarəçilik strukturunun əsaslı təkmilləşdirilməsi, işəgötürənlərin orta ixtisas təhsili müəssisələrinin idarə olunmasında və inkişafında iştirakının təmin edilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi, orta ixtisas təhsili müəssisələri üçün aidiyyəti istehsal və tədris müəssisələrini baza kimi müəyyənləşdirməklə, onlar arasında sıx əlaqələrin yaradılması (məsələn, müəllim hazırlığı sahəsində məktəb və təhsil şöbə-

ləri ilə, digər sahələrdə isə müvafiq istehsal qurumları ilə əlaqələrin yaradılması), tələbə özünüidarəetmə sisteminin inkişafı nəzərdə tutulur;

– orta ixtisas təhsilində keyfiyyətin təmin olunması

Orta ixtisas təhsili müəssisələrinin akkreditasiyasına müstəqil ekspertlərin cəlb edilməsi təmin olunacaq, tələbələrin biliyinin qiymətləndirilməsi üçün çoxballı sistem və kredit sistem tətbiq ediləcək, orta ixtisas təhsili müəssisələrinin fəaliyyətləri haqqında ictimaiyyətə müntəzəm hesabatvermə sistemi yaradılacaqdır;

– orta ixtisas təhsilində kadr hazırlığı

Burada pedaqoji kadrların attestasiyasının yeni mexanizminin, orta ixtisas təhsili müəssisələrində keyfiyyəti təmin edən menecment sisteminin, əmək bazarının monitorinqi və işədüzəltmə-karyera mərkəzlərinin, dövlət və biznes strukturlarının sifarişləri əsasında məqsədli mütəxəssis hazırlığı mexanizminin və müəllimlərin ixtisaslarının artırılması üçün müvafiq treninqlər sisteminin yaradılması nəzərdə tutulur;

– orta ixtisas təhsilinin maddi-texniki bazasının müasir tələblərə uyğun qurulması

Orta ixtisas təhsili müəssisələrinin yerləşdiyi bina və tikililərin müasir tələblərə uyğun əsaslı və cari təmir olunması, müasir texnika, texnologiya vasitələri ilə təmin edilməsi, təlim avadanlıqlarının yeniləşdirilməsi, tədris prosesində yeni təlim texnologiyalarının tətbiqinə nail olunması, elmi-metodik və informasiya təminatının yaxşılaşdırılması nəzərdə tutulur;

– orta ixtisas təhsilinin maliyyələşdirilməsinin yeni mexanizmlərinin yaradılması

Burada orta ixtisas təhsili müəssisələrinin maliyyələşdirilməsinin yalnız dövlət büdcəsindən deyil, təhsil alan subyektlərin maliyyəsi hesabına həyata keçirilməsi, təhsil xidmətlərinin sahələrini genişləndirməklə, alternativ maliyyələşmə mənbələrinin formalaşdırılması sisteminin yaradılması nəzərdə tutulur.

1.5. Tədbirlər Proqramının maliyyə təminatı

Proqramın dövlət orta ixtisas müəssisələri üzrə maliyyə təminatını dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Təhsil Nazirliyinin xərclər smetasında nəzərdə tutulmuş vəsaitlər və Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər mənbələr təşkil edir.

1.6. Gözlənilən nəticələr

Proqramın reallaşması aşağıdakı nəticələri əldə etməyə imkan verəcəkdir:

- orta ixtisas təhsilində dövlət təhsil standartları ilə müəyyənləşdirilən keyfiyyətlərin əldə olunması;
- məzunların əmək bazarında rəqabət qabiliyyətinin və peşə çevikliyinin yüksəldilməsi;
- orta ixtisas təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması;
- şəxsiyyətin tərbiyəsində, onun yaradıcılıq fəallığında orta ixtisas təhsili müəssisələrinin rolunun artması;
- şəxsiyyətin təhsilə və peşəyə olan marağının artması;
- əmək bazarının ehtiyacları ilə mütəxəssis hazırlığının aparılmasında uyğunluğun əldə olunması;
- orta ixtisas təhsili müəssisələrində mütəxəssis hazırlığı strukturunun onun yerləşdiyi regionun tələbatı ilə uyğunlaşdırılması;
- orta ixtisas təhsili müəssisələri tərəfindən əhaliyə göstərilən təhsil xidmətlərinin genişləndirilməsi;
- orta ixtisas təhsilində dövlət ictimai idarəetmə sisteminin yaradılması;
- orta ixtisas təhsili sisteminin istehsal və xidmət sahələri ilə əlaqəsinin möhkəmləndirilməsi, sosial tərəfdaşlıq subyektləri arasında əməkdaşlığın səmərəliliyinin yüksəldilməsi;
- təhsil prosesinin təminatının, təhsil alanların və işçilərin sosial müdafiəsinin, tədris müəssisələrinin maddi-texniki bazasının inkişafı üçün orta ixtisas təhsili müəssisələrinin maliyyələşdirmə imkanlarının genişləndirilməsi;
- orta ixtisas təhsili müəssisələri müəllim və rəhbər işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədi ilə orta ixtisas təhsilli kadrların ixtisaslarının artırılması və yenidən hazırlanması sisteminin təkmilləşdirilməsi;
- dövlət təhsil standartlarının tələblərinə uyğun olaraq yeni nəsil dərsliklərin, tədris-metodik ədəbiyyatın və təlim vasitələrinin yaradılması;
- tədris prosesində informasiya sistemlərindən və texnologiyalarından, telekommunikasiya şəbəkələrindən istifadənin inkişaf etdirilməsi;
- orta ixtisas təhsili sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi;
- beynəlxalq standartlara uyğun mütəxəssislərin hazırlanması.

2. Tədbirlər Proqramının həyata keçirilməsinin əsas istiqamətləri

Sıra №-si	İslahatların əsas istiqamətləri üzrə tədbirlər	İcra müddəti (illər üzrə)	İcraçılar
1. Orta ixtisas təhsilinin normativ hüquqi bazası			
1.1.	Orta ixtisas təhsili müəssisələri üzrə nümunəvi ştat normativlərinin hazırlanması	2010	Təhsil Nazirliyi
1.2.	Orta ixtisas təhsilinin mövcud normativ hüquqi bazasının yeniləşdirilməsi	mütəmadi	Təhsil Nazirliyi, aidiyyəti nazirlik, komitə və idarələr
2. Orta ixtisas təhsilinin məzmunu və təlim texnologiyaları			
2.1.	Orta ixtisas təhsili üzrə ixtisasların (proqramların) beynəlxalq təcrübəyə əsaslanaraq, peşə ixtisasları üzrə standartların tələblərinə uyğun yeni təsnifatının hazırlanması	2010	Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
2.2.	İxtisaslar üzrə Avropada tətbiq olunan Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğunlaşdırılmış yeni dövlət təhsil standartlarının hazırlanması	2011	Təhsil Nazirliyi
2.3.	Tədris plan və proqramlarının, təhsil resurslarının (dərsliklərin, dərs vəsaitlərinin və s.) hazırlanması ilə bağlı təkliflərin hazırlanması	2010–2011	Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, orta ixtisas təhsili müəssisələri
2.4.	Tədris prosesində yeni informasiya texnologiyalarının tətbiqi üçün metodiki bazanın hazırlanması	2011	Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
2.5.	Zəruri ədəbiyyatların və interaktiv tədris kurslarının elektron versiyasının hazırlanması	mütəmadi	Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, orta ixtisas təhsili müəssisələri

Sıra №-si	İslahatların əsas istiqamətləri üzrə tədbirlər	İcra müddəti (illər üzrə)	İcraçılar
2.6.	Məsafədən (distant) təhsilin təşkili	2011	Təhsil Nazirliyi, orta ixtisas təhsili müəssisələri
2.7.	Müasir informasiya və metodiki təminatın (Təhsil Nazirliyinin xüsusi veb-portalının, dərslik, dərs və elmi-metodiki vəsaitlərin və s.) yaradılması	mütəmadi	Təhsil Nazirliyi, orta ixtisas təhsili müəssisələri
2.8.	Orta ixtisas məktəblərində kredit sisteminin tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi	mütəmadi	Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, orta ixtisas təhsili müəssisələri
2.9.	Müasir fənn proqramlarının hazırlanması	mütəmadi	Təhsil Nazirliyi, orta ixtisas təhsili müəssisələri
2.10.	Orta ixtisas təhsili müəssisələrində mövcud ştat vahidləri çərçivəsində kurikulum və qiymətləndirmə mexanizmlərinin yaradılması	2010	Təhsil Nazirliyi, orta ixtisas təhsili müəssisələri
2.11.	Ayrı-ayrı ixtisaslar üzrə kadr hazırlığı və tədris proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması	mütəmadi	Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, orta ixtisas təhsili müəssisələri
2.12.	Sağlamlıq imkanı məhdud olan şəxslərin orta ixtisas təhsilinə cəlb edilməsi üçün tədbirlərin görülməsi	mütəmadi	Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi
3. Orta ixtisas təhsilinin strukturu və idarə olunması			
3.1.	Orta ixtisas təhsili müəssisələri şəbəkəsinin optimallaşdırılması və kadr hazırlığı strukturunun Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının perspektiv tələblərinə uyğunlaşdırılması	2010	Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, tabeliyində orta ixtisas təhsili müəssisələri olan digər dövlət qurumları, orta ixtisas təhsili müəssisələri

Sıra №-si	İslahatların əsas istiqamətləri üzrə tədbirlər	İcra müddəti (illər üzrə)	İcraçılar
3.2.	Orta ixtisas təhsili müəssisələrinin inkişafına yardım edən və ictimai əsaslarla fəaliyyət göstərən strukturların (himayədarlar şurası, məzunlar assosiasiyası, inkişaf fondu və s.) yaradılması:	2010	Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, tabeliyində orta ixtisas təhsili müəssisələri olan digər dövlət qurumları, orta ixtisas təhsili müəssisələri
3.2.1.	Orta ixtisas təhsili müəssisələrinin mövcud idarəetmə strukturunun aparıcı xarici ölkələrin müvafiq orta ixtisas məktəblərinin strukturuna uyğunlaşdırılması	2010	Təhsil Nazirliyi, tabeliyində orta ixtisas təhsili olan digər dövlət qurumları
3.3.	Ayrı-ayrı orta ixtisas təhsili müəssisələrinin strateji inkişaf proqramının hazırlanması	2010	orta ixtisas təhsili müəssisələri
3.4.	Direktorlar Şurasının fəaliyyətinin gücləndirilməsi	mütəmadi	Təhsil Nazirliyi
3.5.	Orta ixtisas təhsili müəssisələrinin idarə edilməsində tələbə özünüidarəetmə qurumlarının geniş iştirakına şərait yaradılması	mütəmadi	Təhsil Nazirliyi, orta ixtisas təhsili müəssisələri
3.6.	Orta ixtisas təhsilində elektron idarəetmə sisteminin qurulması («Elektron kollec»):	2013	Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
3.6.1.	Orta ixtisas təhsili sistemində qarşılıqlı informasiya şəbəkəsinin yaradılması	2013	Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
3.6.2.	Orta ixtisas təhsili informasiya məkanının inkişafını əhatə edən proqram təminatının yaradılması	2011	Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
3.6.3.	İnternetə çıxışı təmin edən vahid nəql şəbəkəsinin yaradılması	2011	Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi

Sıra №-si	İslahatların əsas istiqamətləri üzrə tədbirlər	İcra müddəti (illər üzrə)	İcraçılar
3.7.	Orta ixtisas təhsilinin vahid informasiya bazasının yaradılması	mütəmadi	Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, tabeliyində orta ixtisas təhsili müəssisələri olan digər dövlət qurumları
4. Orta ixtisas təhsilində keyfiyyətin təmin olunması			
4.1.	Orta ixtisas təhsili müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi və keyfiyyətə nəzarət mexanizminin yaradılması:	2010–2011	Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi və digər aidiyyəti dövlət qurumları
4.1.1.	Orta ixtisas təhsili müəssisəsinin özünüqiymətləndirmə modelinin yaradılması	2010	Təhsil Nazirliyi
4.1.2.	Orta ixtisas təhsili müəssisəsinin reytinqini müəyyənləşdirən mexanizmin yaradılması	2010	Təhsil Nazirliyi
4.2.	Orta ixtisas təhsili müəssisələrinin akkreditasiya sisteminin təkmilləşdirilməsi:	2010	Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi
4.2.1.	Orta ixtisas təhsili müəssisələrinin akkreditasiyası haqqında Əsasnamənin təkmilləşdirilməsi	2010	Təhsil Nazirliyi
4.3.	İşəgötürənlərin, məzunların və valideynlərin təhsilin keyfiyyətinə müşahidə sisteminin normativ hüquqi bazasının yaradılması	2010–2011	Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, tabeliyində orta ixtisas təhsili müəssisələri olan dövlət qurumları
4.4.	Orta ixtisas təhsili müəssisələrinin fəaliyyəti haqqında ictimai hesabat sisteminin yaradılması	2010	Təhsil Nazirliyi, orta ixtisas təhsili müəssisələri
4.5.	Tədris prosesində tələbələrin fəallığının artırılmasını təmin edən motivasiyalar sisteminin yaradılması	2010	Təhsil Nazirliyi, orta ixtisas təhsili müəssisələri

Sıra №-si	İslahatların əsas istiqamətləri üzrə tədbirlər	İcra müddəti (illər üzrə)	İcraçılar
5. Orta ixtisas təhsilində kadr hazırlığı			
5.1.	Orta ixtisas təhsilinin kadr potensialının formalaşdırılması:	mütəmadi	Təhsil Nazirliyi, tabeliyində orta ixtisas təhsili müəssisələri olan dövlət qurumları
5.1.1.	İxtisaslar üzrə pedaqoji kadrlara olan tələbatın müəyyənləşdirilməsi	2010	Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
5.1.2.	Pedaqoji kadrların attestasiyasının yeni mexanizminin yaradılması	2010–2011	Təhsil Nazirliyi
5.1.3.	Orta ixtisas məktəblərinə pedaqoji kadrların seçilib yerləşdirilməsinin yeni qaydalarının hazırlanması	2011	Təhsil Nazirliyi, tabeliyində orta ixtisas təhsili müəssisələri olan dövlət qurumları
5.1.4.	Pedaqoji-müəllim heyətinin ixtisasartırma, təkmilləşdirmə və yenidən hazırlanmasının yeni mexanizminin yaradılması	2011	Təhsil Nazirliyi
5.2.	İqtisadiyyatın kadr potensialının yeni tələblərə uyğun formalaşdırılması:	mütəmadi	Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
5.2.1.	Kadr tələbatını müəyyənləşdirmək məqsədi ilə əmək bazarının monitorinqinin təşkili	2010	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Dövlət Statistika Komitəsi
5.2.2.	Kadr hazırlığına tələbata dair proqnozun müəyyənləşdirilməsi üzrə metodikanın hazırlanması	2010–2011	İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
5.2.3.	Tələbələrin təcrübəkeçmə prosesini təkmilləşdirmək məqsədi ilə orta ixtisas məktəbi və işəgötürənlərin qarşılıqlı münasibətlərini tənzimləyən mütərəqqi və çevik mexanizmin yaradılması	2011	Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

Sıra №-si	İslahatların əsas istiqamətləri üzrə tədbirlər	İcra müddəti (illər üzrə)	İcraçılar
5.2.4.	İstehsalatda çalışan kadrların orta ixtisas təhsili sistemində ixtisasartırma və yenidən hazırlanmasının yeni mexanizminin yaradılması	2011	Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi
5.2.5.	Dövlət və özəl müəssisələrin sifarişləri əsasında məqsədli mütəxəssis hazırlığı mexanizminin işlənib hazırlanması və tətbiqi	2011	Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
5.3.	Orta ixtisas məktəblərində əmək bazarının monitorinqi və mövcud ştat vahidləri çərçivəsində müvafiq struktur dəyişikliyi hesabına işədüzəltmə-karyera mərkəzlərinin yaradılması	2010–2011	Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, orta ixtisas təhsili müəssisələri
5.4.	Məzunlar üçün əmək yarmarkalarının təşkili	mütəmadi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, orta ixtisas təhsili müəssisələri
6. Təhsilin maddi-texniki bazası və strukturu			
6.1.	Orta ixtisas təhsili müəssisələrində mövcud ştat vahidləri çərçivəsində informasiya-kommunikasiya texnologiyaları strukturlarının yaradılması	2011–2012	Təhsil Nazirliyi, orta ixtisas təhsili müəssisələri
6.2.	Dövlət təhsil müəssisələrində mövcud büdcə və büdcədənkənar xüsusi vəsaitlərdən daha səmərəli istifadə olunmasına nəzarətin gücləndirilməsi	mütəmadi	Təhsil Nazirliyi, tabeliyində orta ixtisas təhsil müəssisələri olan dövlət qurumları, Maliyyə Nazirliyi, orta ixtisas təhsili müəssisələri
6.3.	Orta ixtisas təhsili müəssisələrində elektron kitabxanaların yaradılması	2012	Təhsil Nazirliyi, orta ixtisas təhsili müəssisələri

Sıra №-si	İslahatların əsas istiqamətləri üzrə tədbirlər	İcra müddəti (illər üzrə)	İcraçılar
7. Orta ixtisas təhsilinin iqtisadiyyatı			
7.1.	Orta ixtisas təhsilinin maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi	2012	Təhsil Nazirliyi, Maliyyə Nazirliyi
7.2.	Orta ixtisas təhsilinin maliyyələşdirilməsi ilə bağlı mövcud normativ sənədlərin monitorinqi və təhlili	2011	Təhsil Nazirliyi
7.3.	Orta ixtisas təhsilinin müxtəlif maliyyə mənbələrinin cəlb edilməsinə imkan yaradan yeni normativ sənədlərin hazırlanması	2011	Təhsil Nazirliyi, tabeliyində orta ixtisas təhsili müəssisələri olan dövlət qurumları
7.4.	Orta ixtisas təhsili müəssisələrində adambaşına maliyyələşdirmə sahəsində təcrübənin öyrənilməsi və müvafiq təkliflərin hazırlanması	2012	İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi
7.4.1.	Beynəlxalq norma və mexanizmlərə uyğun adambaşına maliyyələşmə sisteminin yaradılması və tətbiqi	2013	Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, tabeliyində orta ixtisas təhsili müəssisələri olan dövlət qurumları

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL SAHƏSİNDƏ ƏSASNAMƏLƏRİ VƏ DIGƏR SƏNƏDLƏR

Azərbaycan Respublikası Prezidentinin
2005-ci il 1 mart tarixli fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə

I. Ümumi müddəalar

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, təhsil prosesinə ümumi metodiki rəhbərliyi həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

3. Nazirlik bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyaların yerinə yetirilməsində Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları ilə, habelə beynəlxalq və ictimai təşkilatlarla, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı fəaliyyət göstərir.

4. Nazirlik müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

5. Nazirliyin saxlanması xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

6. Nazirlik Bakı şəhərində yerləşir.

II. Nazirliyin əsas vəzifələri

7. Nazirliyin əsas vəzifələri aşağıdakılardır:

7.1. Təhsil sahəsində vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasəti həyata keçirmək;

7.2. Azərbaycan Respublikasında təhsil sisteminin müəyyən edilmiş istiqamətlər üzrə inkişafını təmin etmək;

7.3. təhsil sahəsində dövlət tənzimlənməsini həyata keçirmək, təhsilin keyfiyyətinə dövlət nəzarətini təmin etmək;

7.4. vətəndaşların təhsil almaları ilə bağlı konstitusiya hüquqlarını qorumaq məqsədilə təhsildə bərabər imkanların yaradılmasına nail olmaq;

7.5. mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün təhsil müəssisələrinə elmi, tədris-metodiki rəhbərliyi həyata keçirmək;

7.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə Nazirliyə həvalə olunmuş digər vəzifələri yerinə yetirmək.

III. Nazirliyin funksiyaları

8. Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

8.1. təhsil sisteminin fəaliyyətini və onun inkişafını təmin edən normativ hüquqi bazanın yaradılmasında iştirak edir və müvafiq sahə standartları hazırlayır;

8.2. təhsilin inkişafı ilə bağlı proqramların hazırlanıb həyata keçirilməsini təmin edir, bu sahədə digər orqanlarına fəaliyyətini əlaqələndirir;

8.3. təhsil müəssisələrinin şəbəkəsini və onların inkişaf perspektivlərini müəyyənləşdirir;

8.4. təlim və tədris prosesinin keyfiyyətinə, təhsil qanunvericiliyinin icrasına, təhsilin dövlət standartlarına riayət olunmasına nəzarət edir;

8.5. təhsil sisteminin inkişafı sahəsində analitik təhlillər aparır və monitorinqlər keçirir;

8.6. təhsil sistemində biliyin qiymətləndirilməsi meyarlarını, qiymətləndirmənin bal sistemini müəyyənləşdirir;

8.7. qanunvericiliyə uyğun olaraq təhsil sistemində demokratik idarəetmənin tətbiqini təmin edir;

8.8. mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq müəyyən olunmuş qaydalar əsasında təhsil müəssisələrinin attestasiyasını və akkreditasiyasını aparır;

8.9. təhsilin keyfiyyətini yüksəltmək və tədrisin təşkilində mütərəqqi forma və metodların tətbiqi məqsədilə eksperimentlər aparır;

8.10. dövlət təhsil standartlarının tələblərinə uyğun olaraq baza təhsil proqramlarını təsdiq edir, dərslik, dərs vəsaiti, tədris və tədris-metodik ədəbiyyatın siyahısını tərtib edir, onlara qrif (nəşr hüququ) verir;

8.11. icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət edir;

8.12. xüsusi istedada malik uşaq, şagird və tələbələrin təhsillərini davam etdirmək üçün lazımi tədbirlər görür;

8.13. ümumtəhsil məktəblərində sinifdən-sinfə keçirmə və buraxılış imtahanlarının sayını, formasını və qiymətləndirmə mexanizmini, təhsil alanların bir tədris müəssisəsindən digərinə köçürülməsi qaydalarını müəyyən edir;

8.14. müxtəlif səviyyəli və miqyaslı fənn olimpiadaları təşkil edir;

8.15. tədris müəssisələrinin kompyuterləşdirilməsi, şagirdlər üçün təhsil portalının və saytlarının yaradılması istiqamətində müvafiq proqramlar hazırlayıb həyata keçirir;

8.16. aidiyyəti icra hakimiyyəti orqanlarının iştirakı ilə ciddi tərbiyə şəraitinə ehtiyacı olan, sağlamlıq imkanları məhdud (xüsusi qayğıya ehtiyacı olan) uşaq və yeniyetmələrin təhsilini təşkil edir;

8.17. qəyyumluq və himayə orqanlarına metodiki kömək göstərir, valideyn himayəsindən məhrum uşaqların müəyyənləşdirilməsini və onların təhsilə cəlb edilməsini təşkil edir;

8.18. müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə təhsil müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı lazımi tədbirlər görür, uşaq, şagird və tələbələrin idman yarışlarını, turist yürüşlərini, özfəaliyyətlərinə, texniki və bədii yaradıcılıqlarına baxışları və bu kimi digər tədbirləri həyata keçirir;

8.19. müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədris müəssisələrində təhsil alanların, pedaqoji və texniki-yardımçı heyət işçilərinin tibbi müayinədən keçirilməsini təmin edir;

8.20. tabeliyində olan təhsil müəssisələrinin və təşkilatların digər elmi müəssisə və təşkilatlarla elm və təhsil sahəsində fəaliyyətini əlaqələndirir;

8.21. elmi-texniki konfransların, simpoziumların və müsabiqələrin keçirilməsini, şagirdlərin, tələbə, aspirant və müəllimlərin xarici ölkələrdə keçirilən bu kimi tədbirlərdə iştirakını təşkil edir;

8.22. ali, orta ixtisas və peşə-ixtisas təhsili üzrə ixtisasların təsnifatı barədə təklif verir;

8.23. mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq təhsil müəssisələrinin nümunəvi əsasnamələrinin layihələrini hazırlayır, təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə rəy və təkliflər verir;

8.24. təhsil müəssisələri məzunlarının yekun dövlət attestasiyası qaydalarını və imtahan prosesilə əlaqədar müvafiq reqlamentləşdirici sənədləri təsdiq edir.

8.25. müxtəlif səbəblərə görə pedaqoji fəaliyyət göstərməsi qadağan olunan şəxslərin kateqoriyası, sağlamlıq imkanlarına görə məhdudiyyət qoyulan,

eləcə də eksternat yolu ilə mütəxəssis hazırlığı qadağan edilən ixtisasların siyahısı barədə təkliflər verir;

8.26. mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq təhsil müəssisələrində məzunlara verilən dövlət təhsil sənədinin nümunəsini hazırlayır, onun verilmə qaydalarını müəyyənləşdirir, buraxılış kontingentinin sayına uyğun təhsil müəssisələrini dövlət təhsil sənədi blankları ilə təmin edir;

8.27. təhsil sənədlərinin tanınması və ekvivalentliyi ilə bağlı məsələləri həll edir;

8.28. xarici dövlətlərdə alınmış təhsil sənədlərinin nostrifikasiyası qaydalarına uyğun müvafiq komissiya yaradır, vətəndaşlara sənədlərin ekvivalentliyi haqqında şəhadətnamələr verir;

8.29. təhsil alanlar üçün adlı təqaüdlərin təsis edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırır;

8.30. əmək bazarı tələbatının öyrənilməsi və mütəxəssis hazırlığının proqnozlaşdırılmasında iştirak edir;

8.31. ali, orta ixtisas və texniki peşə məktəblərinə illik tələbə və şagird qəbulu barədə təklif hazırlayır;

8.32. müvafiq təhsil müəssisələrində magistratura və doktoranturaların asılması məsələsini həll edir;

8.33. pedaqoji kadrların və təhsil işçilərinin hazırlanması, ixtisasının artırılması və yenidən hazırlanması işini təşkil edir;

8.34. distant təhsili üçün müvafiq şərait yaradır;

8.35. aidiyyəti icra hakimiyyəti orqanları, müəssisə və təşkilatlarla birlikdə əhalinin işləməyən təbəqəsinin peşə hazırlığını, ixtisasartırmasını və yenidən hazırlanmasını təmin edir;

8.36. pedaqoji kadrların təsdiq olunmuş qaydalara uyğun attestasiyasının keçirilməsini təşkil edir;

8.37. təhsil müəssisələrində pedaqoji və elmi-pedaqoji kadr vəzifələrinin tutulması qaydalarını müəyyən edir;

8.38. nazirlik sistemində olan təhsil müəssisələrində rəhbər kadrların nomenklaturasını müəyyənləşdirir;

8.39. pedaqoji kadrlara olan tələbatın ödənilməsi üçün tədbirlər görür, gənc mütəxəssislərin iş yerləri ilə təminatı prosesinə əməli köməklik göstərir, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə lazımi işlər aparır;

8.40. təhsil müəssisələrinin tədris-maddi bazasını inkişaf etdirir, onların tikintisinə, maddi-texniki təchizatına dair vahid normaları, şagird yerləri ilə təminat normativlərini müəyyənləşdirir;

8.41. təhsil sistemində maliyyələşdirmə normativlərinin hazırlanmasında iştirak edir;

8.42. təhsil sistemində «attestasiya-maddi stimullaşdırma» mexanizminin tətbiqilə əlaqədar təkliflər hazırlayır;

8.43. təhsil işçilərinin həvəsləndirilməsi və mükafatlandırılması tədbirlərini həyata keçirir, onlara mövcud qanunvericilik çərçivəsində «Əmək veteranı» adının verilməsini təmin edir;

8.44. təhsil sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görür;

8.45. təhsil sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığı həyata keçirir;

8.46. xarici ölkələrdə yaşayan azərbaycanlıların öz ana dilində ümumi təhsil almalarına, habelə Azərbaycan dili və ədəbiyyatının, Azərbaycan tarixi və coğrafiyasının öyrənilməsinə yardım göstərir;

8.47. Azərbaycan Respublikası vətəndaşlarının mövcud qaydalara uyğun dövlət xətti ilə xaricdə təhsil almaları və elmi-tədqiqat işləri aparmaları üçün tədbirlər görür;

8.48. təsdiq olunmuş formada statistik məlumatların və hesabatların toplanılmasını, onların təhlilinin və nəticələrinin müvafiq orqanlara təqdim edilməsini həyata keçirir;

8.49. qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

IV. Nazirliyin hüquqları

9. Nazirlik öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, bələdiyyələrdən, fiziki və hüquqi şəxslərdən müəyyən olunmuş qaydada təhsilin inkişafı ilə bağlı zəruri məlumatlar və arayışlar tələb etmək;

9.2. qanunvericiliklə müəyyən edilmiş qaydada təhsil üzrə müvafiq normativ hüquqi aktlar qəbul etmək;

9.3. səlahiyyətləri daxilində təhsil müəssisələri tərəfindən icrası məcburi olan göstərişlər, əmr və sərəncamlar vermək, onların icrasına nəzarət etmək;

9.4. mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən təlim-tərbiyə müəssisələrində monitorinqlər keçirmək, tədrisin keyfiyyətinə dövlət nəzarətini təşkil edir;

9.5. qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil fəaliyyəti üçün xüsusi razılıq (lisenziya) vermək, lisenziya tələblərinə və şərtlərinə riayət olunmasına müntəzəm nəzarət etmək;

9.6. mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq tenderlər keçirmək, texniki şərtləri müəyyənləşdirmək, onların icrasına nəzarəti təmin etmək;

9.7. qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil məsələləri ilə bağlı beynəlxalq və dövlətlərarası münasibətlərdə Azərbaycan Respublikasını təmsil etmək, qarşılıqlı əməkdaşlıq haqqında müqavilələr (sazişlər, memorandumlar, bəyannamələr və s.) imzalamaq;

9.8. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

V. Nazirliyin fəaliyyətinin təşkili

10. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən nazir rəhbərlik edir.

11. Təhsil naziri Nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

12. Təhsil nazirinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan üç müavini vardır. Nazir müavinləri onların arasında nazir tərəfindən aparılmış vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyırlar.

13. təhsil naziri:

13.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona ümumi rəhbərliyi həyata keçirir;

13.2. nazir müavinləri arasında vəzifə bölgüsü aparır;

13.3. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Nazirliyin mərkəzi aparatının, habelə birbaşa tabeliyində olan büdcədən maliyyələşən qurumların strukturunu təsdiq edir;

13.4. Nazirliyin mərkəzi aparatının işçilərini və təsdiq olunmuş nomenklatura çərçivəsində kadrları vəzifəyə təyin edir və vəzifədən azad edir, onlarla əmək müqavilələri bağlayır, müqavilələri ləğv edir, işçilər barəsində qanunvericiliklə müəyyən olunmuş qaydada mükafatlandırma, həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

13.5. səlahiyyətləri daxilində Nazirliyin mərkəzi aparatının, habelə tabeliyində olan qurumların fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir, normativ hüquqi aktları təsdiq edir (imzalayır), onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

13.6. bilavasitə tabeliyində olan təhsil müəssisələrinin, idarə və təşkilatların nizamnamələrini (əsasnamələrini), eləcə də mərkəzi aparatın struktur bölmələrinin əsasnamə və iş planlarını təsdiq edir;

13.7. təhsilin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi, monitorinqlərin aparılması, strateji fəaliyyət proqramlarının hazırlanması məqsədilə mütəxəssislərdən ibarət işçi qrupları, eləcə də koordinasiya və idarəetmə şuraları yaradır;

13.8. qanunvericiliklə müəyyən edilmiş qaydada xarici ölkələrin dövlət orqanları, qeyri-hökumət təşkilatları və hüquqi şəxslərlə, beynəlxalq təşkilatlarla danışıqlar aparır;

13.9. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

14. Nazirlikdə nazirdən (kollegiyanın sədri), nazir müavinlərindən, Naxçıvan Muxtar Respublikasının təhsil nazirindən, nazirliyin mərkəzi aparatının, tabeliyində olan qurumların rəhbər işçilərindən və alimlərdən ibarət kollegiya yaradılır.

15. Nazirliyin kollegiyasının sayı və şəxsi tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunur.

16. Nazirliyin kollegiyası öz iclaslarında təhsillə bağlı aktual məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir.

17. Nazirliyin kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

18. Kollegiya qərarı onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir, protokollarla rəsmiləşdirilir və bir qayda olaraq nazirin müvafiq əmrləri və sərəncamları ilə həyata keçirilir.

19. Zəruri hallarda kollegiya iclaslarına iştirak etmək üçün digər icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, habelə ictimai təşkilatların nümayəndələri də dəvət edilə bilərlər.

Azərbaycan Respublikası Prezidentinin
6 aprel 2005-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə

I. Umumi müddəalar

1. Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (bundan sonra – Komissiya) müasir kompyuter texnologiyalarından istifadə etməklə test üsulu ilə ali və orta ixtisas məktəblərinin müxtəlif pillələrinə tələbə qəbulunu aparan orqandır.

Komissiya Azərbaycan Respublikasının Prezidenti nəzdində fəaliyyət göstərir.

2. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

3. Komissiya bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyaları yerinə yetirərkən Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər aidiyyəti təşkilatlarla qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Komissiya müstəqil balansa, sərəncamında olan dövlət əmlakına, bank hesablarına, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamp və blanklara malikdir.

5. Komissiyanın fəaliyyətinin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə qadağan olmayan digər mənbələr hesabına həyata keçirilir.

II. Komissiyanın əsas vəzifələri

6. Komissiyanın əsas vəzifələri aşağıdakılardır:

6.1. təşkilati-hüquqi mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikasının bütün ali və orta ixtisas məktəblərinin müxtəlif pillələrinə mərkəzləşdirilmiş qaydada tələbə qəbulunun həyata keçirilməsi;

6.2. dövlətlərarası razılaşmalara əsasən Azərbaycan Respublikası vətəndaşlarının xarici dövlətlərin ali məktəblərinə, əcnəbilərin və xaricdə yaşayan, vətəndaşlığı olmayan şəxslərin isə Azərbaycan Respublikasının ali məktəblərinə qəbulunun aparılması;

6.3. Azərbaycan Respublikasının bütün ali məktəblərinin bakalavr və magistr pillələrinə mərkəzləşdirilmiş qaydada tələbə qəbulunun həyata keçirilməsi;

6.4. Tələbələrin və magistrlərin dövlət elektron məlumat bazasının yaradılması, zənginləşdirilməsi və ondan səmərəli istifadə olunması;

6.5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə Komissiyaya həvalə edilmiş digər vəzifələrin yerinə yetirilməsi.

III. Komissiyanın əsas funksiyaları

7. Komissiya ona həvalə olunmuş əsas vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir;

7.1. Azərbaycan Respublikasının dövlət siyasətinə uyğun olaraq tələbə qəbulu prosesini və onun strukturunu layihələşdirir, tələbə qəbulunu mərkəzləşdirilmiş qaydada həyata keçirir;

7.2. imtahan fənləri üzrə qəbul proqramlarını hazırlayır və təsdiq edir;

7.3. ali və orta ixtisas məktəblərinə qəbul qaydaları, sənədlərin qəbulu və imtahanların keçirilməsi haqqında müvafiq qərarlar qəbul edir;

7.4. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı ilə razılaşdırılmış tələbə qəbulu planını elan edir və onun əsasında sənədlərin qəbulunu təşkil edir;

7.5. tələbə qəbulu kampaniyası ilə bağlı bütün təşkilati və metodiki işləri aparır, proqram və texniki təminatı layihələşdirir və tətbiq edir, bu məqsədlə müxtəlif daimi və mütərəqqi qurumlar yaradır;

7.6. Azərbaycan Respublikasının Prezidentinə tələbə qəbulu ilə bağlı vaxtaşırı məlumat və hesabatlar təqdim edir;

7.7. qəbul imtahanlarının yekunlarına dair elmi-statistik təhlil aparır və nəticələri ictimaiyyətə çatdırır;

7.8. sistemli analiz və proqnozlaşdırma əsasında təhsilin strukturunun və ixtisas nomenklaturasının dəyişdirilməsi, təkmilləşdirilməsi haqqında təkliflər verir, müvaifq dövlət orqanları qarşısında vəsatətlər qaldırır;

7.9. qəbul kampaniyasının keçirildiyi müddətdə müxtəlif bölgələrdə sənəd qəbulu komissiyaları yaradır, onların fəaliyyətini tənzimləyir və nəzarət edir;

7.10. test bankının formalaşdırılması, elmi-metodiki və proqram təminatının yaradılması və təkmilləşdirilməsi məqsədi ilə işçi qrupları, ekspert şuraları və elmi-metodiki seminarlar təşkil edir;

7.11. qəbul kampaniyasının keçirilməsi üçün müqavilə yolu ilə mütəxəssislər və ekspertlər cəlb edir;

7.12. abituriyentlərin test üsulu ilə imtahanlara hazırlaşmasına kömək məqsədi ilə müqavilə əsasında hazırlıq kursları təşkil edir;

7.13. test imtahanlarının məzmunu və mahiyyəti haqqında müxtəlif metodiki vəsaitlər və test hazırlayır və dərc edir;

7.14. yaradılmış test bankının mütəmadi təftişini aparır;

7.15. həyata keçirilən tədbirlərlə bağlı ictimaiyyətin məlumatlandırılması, abituriyentlərə metodiki materialların çatdırılması üçün özünün mətbu orqanını təsis edir, jurnal, bülleten və digər nəşrlər dərc edir;

7.16. müasir informasiya texnologiyalarını tətbiq etməklə tələbələr və magistrlər haqqında informasiya resurslarını formalaşdırır və analitik təhlilini aparır;

7.17. Azərbaycan Respublikasının qanunvericiliyi ilə Komissiyaya həvalə edilmiş vəzifələrin həyata keçirilməsi üçün digər funksiyaları yerinə yetirir.

8. Bu Əsasnamənin 7-ci bəndində nəzərdə tutulmuş funksiyaların yerinə yetirilməsi nəticəsində əldə olunan gəlirlər bütövlükdə dövlət büdcəsinə köçürülür.

IV. Komissiyanın hüquqları

9. Komissiya öz vəzifə və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. öz səlahiyyətlərinə aid olan məsələlərin həll edilməsi üçün mərkəzi icra hakimiyyəti orqanlarından və digər təşkilatlardan zəruri sənədlər, statistik məlumatlar və sair materiallar tələb etmək və onlara lazım olan zəruri sənədləri və materialları müəyyən olunmuş qaydada təqdim etmək;

9.2. Komissiyanın səlahiyyətlərinə aid olan məsələlər üzrə normativ hüquqi aktlar qəbul etmək və onların icra olunmasına nəzarət etmək;

9.3. qanunvericilikdə müəyyən olunmuş qaydada tabeliyində qurumlar, regional bölmələr yaratmaq, onları yenidən təşkil etmək və ləğv etmək;

9.4. Komissiyanın səlahiyyətində olan işlərin həyata keçirilməsi üçün qanunvericiliyə müvafiq qaydada müqavilə əsasında mütəxəssislər və ekspertlər cəlb etmək:

9.5. əlaqədar icra hakimiyyəti orqanları ilə fəaliyyət sahəsi üzrə idarələrarası komissiyalar, ekspert şuraları, habelə işçi qrupları yaratmaq;

9.6. Komissiyanın səlahiyyətlərinə aid edilmiş məsələlərə dair normativ hüquqi aktların hazırlanmasına və təkmilləşdirilməsinə dair təkliflərlə Azərbaycan Respublikasının Prezidentinə müraciət etmək;

9.7. imtahanların keçirilməsi ilə bağlı xüsusi halların araşdırılması üçün müvəqqəti komissiyalar yaratmaq;

9.8. qəbul qaydalarının abituriyentlər, tədris müəssisələri, təşkilatlar və onların vəzifəli şəxsləri tərəfindən yol verilmiş pozulması və saxtakarlıq halları ilə əlaqədar qərarlar qəbul etmək, bu şəxslərin məsuliyyətə cəlb edilməsinə dair müvafiq dövlət orqanları qarşısında vəsatətlər qaldırmaq;

9.9. öz səlahiyyətləri daxilində konfranslar, müşavirələr keçirmək və digər tədbirlər təşkil etmək;

9.10. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

V. Komissiyanın işinin təşkili

10. Komissiyaya Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən sədr rəhbərlik edir. Komissiyanın sədri Komissiyaya həvalə olunmuş vəzifələrin həyata keçirilməsinə şəxsən məsuliyyət daşıyır.

11. Komissiya sədrinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən bir müavini var.

12. Komissiyanın sədri:

12.1. Komissiyanın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

12.2. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Komissiya aparatının strukturunu və ştat cədvəlini, struktur bölmələrinin və Komissiya tərəfindən yaradılan qurumların əsasnamələrini təsdiq edir;

12.3. səlahiyyətləri çərçivəsində Komissiyanın aparatının və tabeliyində olan qurumların fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir, onların icrasına nəzarət edir;

12.4. Komissiya sədri müavinin vəzifə səlahiyyətlərini müəyyən edir;

12.5. imtahanların keçirilməsi ilə bağlı xüsusi halların araşdırılması üçün müvəqqəti komissiyalar yaradır, onların say və şəxsi tərkibini, iş reqlamentini müəyyən edir;

12.6. Komissiya aparatının işçilərini və tabeliyində olan qurumların rəhbərlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, onlar barəsində qanunvericilikdə müəyyən edilmiş qaydada həvəsləndirmə və intizam-tənbeh tədbirlərini görür;

12.7. öz səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən edilmiş qaydada beynəlxalq əlaqələrdə iştirak edir, beynəlxalq əməkdaşlığa dair danışıqlar aparır, idarələrarası sazişlər bağlayır, beynəlxalq tədbirlərdə iştirak edir;

12.8. Komissiyanın fəaliyyəti barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi olaraq hesabatlar və məlumatlar verir;

12.9. Komissiyanın maliyyə vəsaitləri və əmlakı barəsində sərəncam verir;

12.10. qanunvericiliyə uyğun digər səlahiyyətləri həyata keçirir.

13. Komissiyada Komissiyanın sədrindən (Kollegiyanın sədri), onun müavinindən, habelə Komissiyanın digər rəhbər işçilərindən ibarət Kollegiya yaradılır.

14. Kollegiyanın üzvlərinin sayı və şəxsi tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

15. Kollegiya öz iclaslarında Komissiyanın fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir.

16. Kollegiyanın iclasları Kollegiyanın üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

17. Kollegiyanın qərarları Kollegiyanın üzvlərinin adi səs çoxluğu ilə qəbul edilir. Kollegiyanın qərarları protokollarla rəsmiləşdirilir və bir qayda olaraq sədrin əmrləri və ya sərəncamları ilə həyata keçirilir.

18. Zəruri hallarda, Kollegiyanın iclaslarında iştirak etmək üçün müzakirə olunan məsələlərlə bilavasitə əlaqəli olan icra hakimiyyəti orqanlarının, tədris müəssisələrinin və digər təşkilatların nümayəndələri Kollegiyanın iclaslarına dəvət oluna bilərlər.

19. Komissiyanın nəzdində məsləhət-məşvərət orqanı olan Ekspert Şurası yaradıla bilər. Ekspert şurasının tərkibinə müvafiq icra hakimiyyəti orqanlarının, tədris müəssisələrinin nümayəndələri və müstəqil ekspertlər daxil edilir.

Azərbaycan Respublikası Prezidentinin
12 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq edilmişdir

Qrant alınmasına (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması Qaydaları

I. Ümumi müddəalar

1.1. Bu qaydalar «Qrant haqqında» Azərbaycan Respublikasının Qanununa, «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 2 yanvar tarixli 834 nömrəli fərmanına və digər normativ hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

1.2. Bu qaydalar Azərbaycan Respublikasının hüquqi şəxsləri tərəfindən qrant alınmasına (verilməsinə) dair müqavilələrin (qərarların) (bundan sonra – müqavilə (qərar)) qeydiyyata alınmasını tənzimləyir.

1.3. Müqavilələrin (qərarların) qeydiyyata alınması qeyri-kommersiya hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, dini təşkilatlara və qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, kommersiya hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən həyata keçirilir.

1.4. Müqavilələrin və ya qərarların qeydiyyatdan keçirilməsi bir qayda olaraq həmin qrantın istifadə edilməsi və onlara dair bank əməliyyatlarının aparılması üçün mütləq şərt hesab edilə bilməz.

1.5. Azərbaycan Respublikasında fəaliyyət göstərən dini təşkilatlar və qurumlar yalnız xarici ölkələrin hüquqi və fiziki şəxslərindən qrantın alınması (verilməsi) haqqında müqavilə (qərar) qeydiyyata alındıqdan sonra həmin qrantları istifadə edə və onlar üzrə əməliyyatlar apara bilərlər.

II. Müqavilələrin (qərarların) qeydiyyata alınması

2.1. Müqavilə (qərar) bağlandığı (verildiyi) andan ən geci bir ay müddətində müqavilənin (qərarın) surəti qeydiyyata alınmaq üçün Azərbaycan Respublikasının qeyri-kommersiya hüquqi şəxsləri Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, dini təşkilatlar və qurumlar Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə, kommersiya hüquqi şəxslər Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə ərizə ilə müraciət etməlidirlər.

Ərizəyə müqavilələrin (qərarın) notarial qaydada təsdiq olunmuş surəti əlavə olunur.

2.2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, İqtisadi İnkişaf Nazirliyi ərizə və müqavilə (qərar) təqdim edildiyi andan bir həftə ərzində həmin müqaviləni (qərarı) qeydə alır və bu barədə müraciət edən hüquqi şəxsə bildiriş verir.

Bildirişdə aşağıdakılar qeyd edilir:

– donorun adı;

– resipiyentin adı;

– qrantın məqsədi;

– qrantın məbləği;

– müqavilənin (qərarın) qeydiyyat tarixi.

Müqavilənin (qərarın) qeydiyyatı illər üzrə tərtib edilən qeydiyyat kitabında bu iş üçün məsul olan mütəxəssis tərəfindən aparılır.

2.3. Müqavilələrin (qərarın) qeydiyyat məlumatları açıqdır və hər bir şəxs həmin məlumatlarla tanış ola, müvafiq arayışlar əldə edə bilər.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi aidiyyəti üzrə Azərbaycan Respublikasının hüquqi şəxsləri tərəfindən verilmiş və alınmış qrantlar haqqında ildə bir dəfədən az olmayaraq kütləvi informasiya vasitələrinə ümumiləşdirilmiş məlumat verməlidirlər.

Azərbaycan Respublikası Prezidentinin
2006-cı il 17 aprel tarixli fərmanı ilə təsdiq edilmişdir

texniki yardım və qrant alınmasına dair sazişlərin bağlanması və təsdiq edilməsi Qaydaları

I. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası hökuməti adından texniki yardım və ya qrant alınmasına dair sazişlərin (bundan sonra – sazişlər) bağlanması və təsdiq edilməsi proseduru tənzimləyir.

1.2. Bu Qaydaların əsas məqsədi 1.1-ci bənddə nəzərdə tutulan sazişlərin mühüm əhəmiyyət kəsb edən iqtisadi-sosial, institusional və struktur dəyişikliklərinə yönəldilməsini, habelə hərtərəfli əsaslandırılmış layihələrin hazırlanmasını təmin etməkdən ibarətdir.

II. Sazişlərin bağlanması və təsdiq edilməsi

2.1. Mərkəzi və digər icra hakimiyyəti orqanları tərəfindən sazişlərə dair danışıqlara başlanması haqqında təkliflər həmin sazişlərin layihələri əlavə olunmaqla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

2.2. Bu Qaydaların 2.1-ci bəndində nəzərdə tutulan təkliflərə sazişlərin bağlanmasının məqsədəuyğunluğunu təsdiqləyən və bu sazişlərin bağlanmasının maliyyə-iqtisadi və ya institusional-texniki nəticələrini qiymətləndirən sənədlər və əldə olunacaq nəticələrə dair məlumatlar da əlavə olunur.

2.3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Qaydaların 2.1-ci və 2.2-ci bəndlərində göstərilən təkliflərə bir ay müddətində baxır.

2.4. Bu Qaydaların 2.3-cü bəndində göstərilən müddətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti layihələri iqtisadi və hüquqi ekspertizaya göndərir. Layihələrin iqtisadi və hüquqi ekspertizaları müvafiq olaraq Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir. Zərurət olduqda, göstərilən nazirliklər iqtisadi və hüquqi ekspertizanın keçirilməsi üçün müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının, habelə bu sahədə ixtisaslaşmış təşkilatların xidmətlərindən istifadə edə bilərlər.

2.5. Azərbaycan Respublikasının Nazirlər Kabineti texniki yardım və ya qrant alınmasını məqsədəuyğun hesab edərsə, müvafiq icra hakimiyyəti orqanlarının rəhbərlərinə müvafiq donorla danışıqlara başlanmasına dair razılıq verir.

2.6. Layihələr Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olmalı, ölkənin qanunları və digər qanunvericilik aktları ilə əsasən ziddiyyət təşkil etməməlidir.

2.7. Saziş layihələri tərəflərlə razılaşdırıldıqdan sonra layihənin yekun mətni Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

2.8. Sazişi imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müvafiq icra hakimiyyəti orqanının rəhbərinə verilir.

2.9. Müvafiq qaydada tərəflər arasında imzalanmış saziş onu imzalamış icra hakimiyyəti orqanının rəhbəri tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilir və bu Qaydaların 2.10-cu və 2.11-ci bəndlərində müəyyən edilmiş tələblər gözlənilməklə, bir ay ərzində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunur.

2.10. Texniki yardım və qrant alınmasına dair sazişdə Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydalardan fərqli qaydalar nəzərdə tutularsa, saziş Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir. Həmin saziş Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilir.

2.11. Texniki yardım və qrant alınmasına dair sazişdə Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə müəyyən edilmiş qaydalardan fərqli qaydalar nəzərdə tutularsa, həmin saziş Azərbaycan Respublikası Nazirlər

Kabinetinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

2.12. Azərbaycan Respublikasının Nazirlər Kabineti texniki yardım və qrantların məqsədli və səmərəli istifadəsinə dair məlumatı ildə bir dəfədən az olmayaraq və zəruri hallarda tələb olunduqda, layihə tam başa çatdıqdan sonra isə yekun hesabatı Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 28 sentyabr tarixli 167 nömrəli
qərarı ilə təsdiq edilmişdir

Təhsil müəssisələrinin akkreditasiyası qaydaları

1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır və tabeliyindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində bütün təhsil pillələri üzrə fəaliyyət göstərən təhsil müəssisələrinin (o cümlədən, digər ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrinin, filial və nümayəndəliklərinin) akkreditasiyası məsələlərini tənzimləyir.

1.2. Təhsil müəssisəsinin akkreditasiyası təhsil prosesinin təşkilinin, müəssisənin maddi-texniki bazasının, təhsil proqramlarının, kadr potensialının, maliyyə resurslarının və təhsil infrastrukturunun qəbul olunmış dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədi ilə aparılır və təhsil müəssisəsinin statusunun müəyyən edilməsi, onun fəaliyyətinin növbəti 5 il müddətinə (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş təhsil müəssisələrinə 3 il müddətinə) uzadılması üçün hüquqi təminat yaradır.

1.3. Təhsil müəssisəsinin akkreditasiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

1.4. Akkreditasiyanın keçirilməsinə qoyulan tələblər və meyarlar Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilir.

1.5. Təhsil müəssisələrinin akkreditasiyası aşağıdakı mərhələlərdən ibarətdir:
– akkreditasiyanın keçirilməsinə hazırlıq;
– təhsil müəssisəsinin özünütəhlili;
– Akkreditasiya Komissiyasının təhlil aparması;
– akkreditasiya haqqında yekun arayışın hazırlanması;
– təhsil müəssisəsinin statusunun müəyyən edilməsi və müvafiq keyfiyyət sənədinin – sertifikatın verilməsi.

2. Akkreditasiyanın keçirilməsinə hazırlıq

2.1. Təhsil müəssisəsinin akkreditasiyası hər 5 ildə (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş təhsil müəssisələrinin akkreditasiyası 3 ildə) bir dəfə həyata keçirilir. Bu proses tədris ili üzrə hazırlanmış və aprel ayından gec olmayaraq, Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş qrafik üzrə həyata keçirilir.

2.2. Yeni yaradılmış, həmçinin fəaliyyətdə olan təhsil müəssisəsində yeni təhsil proqramlarının akkreditasiyası ilk buraxılış olduqdan sonra həyata keçirilir.

2.3. Akkreditasiyanın vaxtı barədə məlumat təhsil müəssisəsinə rəsmi qaydada onun keçirilməsinə ən azı 6 ay qalmış bildirilir.

2.4. Təhsil müəssisəsi akkreditasiyanın başlanmasına ən azı bir ay qalmış Azərbaycan Respublikasının Təhsil Nazirliyinə aşağıdakı sənədləri təqdim edir:
– təhsil müəssisəsinin nizamnaməsi və təhsil fəaliyyəti üçün verilmiş sənədin (lisenziyanın) surəti;
– bütövlükdə təhsil müəssisəsi və onun filialları üzrə özünütəhlil haqqında hesabat;
– akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin proqramlarının siyahısı və bu proqramlara uyğun hazırlanmış suallar;
– akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və kadr potensialı haqqında məlumat, təhsilalanların qəbulu, köçürülməsi, bərpası və xaric olunması haqqında əmrlərin surəti;

– tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
– proqramlar üzrə bütün imtahanların nəticələri haqqında məlumat.

2.5. Təhsil müəssisəsinin özünütəhlil barədə hesabatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim olunduqdan sonra Nazirliyin müvafiq əmri ilə Akkreditasiya Komissiyası yaradılır. Komissiyanın sədri həmin əmrlə onun üzvləri arasından təyin edilir. Sədr Komissiyanın işini əlaqələndirir, onun iclaslarını çağırır, bütün zəruri sənədlərin Komissiya üzvlərinə çatdırılmasını, akkreditasiyanın nəticəsi haqqında yekun arayışın hazırlanmasını və iclas protokollarının tərtibini təmin edir.

2.6. Hər bir akkreditasiya olunan təhsil müəssisəsi üzrə yaradılan Akkreditasiya Komissiyasının tərkibinə təhsil müəssisəsinin maddi-texniki bazası və təhsilin idarə edilməsi sahəsində təcrübəsi olan mütəxəssislər (akkreditasiya olunan təhsil müəssisəsində işləyənlər istisna olmaqla) daxil edilirlər.

2.7. Nazirlik təhsil müəssisəsinin müvafiq sənədlərini Akkreditasiya Komissiyasının sədrinə təqdim edir.

2.8. Akkreditasiya Komissiyası təhsil müəssisəsinin müvafiq fəaliyyətinə aid olan sənədləri (kadr təminatı, elmi tədqiqat fəaliyyəti, beynəlxalq əməkdaşlıq, maddi-texniki baza və sair haqqında) 1 ay müddətində təhlil edir və buraxılış qruplarında (siniflərində) təhsil alanların biliyinin attestasiyasını keçirir.

2.9. Təhsil müəssisəsinin rəhbəri Akkreditasiya Komissiyasına onun normal fəaliyyəti üçün şərait yaradır, təhlil aparılması üçün zəruri olan sənədləri təqdim edir.

3. Təhsil müəssisəsinin özünütəhlili

3.1. Özünütəhlilin əsas məqsədi aşağıdakılardır:
– akkreditasiyada təhsil müəssisəsinin bilavasitə iştirakını təmin etmək;
– təhsil proqramları üzrə hazırlığın məzmununa və keyfiyyətinə daxili nəzarət mexanizmini yaratmaq;
– təhsil müəssisəsinin özünüqiymətləndirməsini təmin etmək.

3.2. Təhsil müəssisəsinin rəhbəri Elmi (Pedaqoji) Şuranın qərarı əsasında özünütəhlilin aparılması və bu proseduru həyata keçirəcək komissiyanın yaradılması haqqında müvafiq əmr verir. Təhsil müəssisəsinin rəhbərinin müavinlərindən biri komissiyaya sədr təyin edilir. Komissiya bu Qaydaların 2.6-cı bəndinə uyğun təşkil olunur.

Komissiya müvafiq əmrlə müəyyən olunmuş müddətdə özünütəhlilin nəticəsinə dair hesabat hazırlayır və onu Elmi (Pedaqoji) Şuranın müzakirəsinə təqdim edir. Həmin hesabat Şuranın qərarı əsasında müəssisənin rəhbəri tərəfindən təsdiq edilir.

3.3. Özünütəhlilin nəticələrinə dair hesabatın strukturu

3.3.1. Təhsil fəaliyyətinin təşkilati-hüquqi təminatı

Təhsil müəssisəsinin fəaliyyətinin təşkilati-hüquqi təminatını müəyyənləşdirmək üçün onun fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğunluğunun təhlili aparılır.

3.3.2. Təhsil müəssisəsinin idarə olunması

Təhsil müəssisəsinin idarəetmə sisteminin qiymətləndirilməsi üçün aşağıdakılar nəzərə alınır:

- idarəetmənin müəssisənin nizamnaməsinin tələblərinə uyğunluğu;
- təhsil müəssisəsində hazırlanmış tədris sənədlərinin mövcud qanunvericiliyə və bu Qaydaların tələblərinə uyğunluğu;
- təhsil müəssisəsinin struktur bölmələrinin qarşılıqlı fəaliyyətinin təşkili;
- təhsil müəssisəsinin idarə edilməsinin 4 funksiyasının (qiymətləndirmə, tənzimləmə, informasiya təminatı, nəzarət) həyata keçirilməsinin vəziyyəti.

3.3.3. Təhsil proqramları üzrə hazırlığın məzmunu və strukturu

Təhsil proqramları üzrə hazırlığın məzmunu onun dövlət təhsil standartlarının tələblərinə uyğunluğu və bu hazırlığı təmin edən müvafiq tədris-metodik sənədlərin təhlili əsasında qiymətləndirilir. Bu zaman aşağıdakılar təhlil olunur:

- tədris planlarının baza təhsil proqramlarına uyğun hazırlanması və təsdiqi;
- tədris planlarında olan fənlərin və onların proqramlarının məzmununun dövlət təhsil standartlarının tələblərinə uyğunluğu;
- tədris olunan fənlərə ayrılmış saatların miqdarının tədris planlarına uyğunluğu;

– tədris planlarında nəzərdə tutulmuş fənlərə dair tədris-informasiya mənbələrinin kifayət qədər olub-olmaması və müasirliyi. Bu məqsədlə aşağıdakılar müəyyən olunmalıdır:
– fənn proqramlarında tövsiyə olunan tədris-metodik vəsaitlər və onların nüsxələrinin mövcud normalara uyğun kitabxana fondunda olması;
– tədris planında nəzərdə tutulmuş fənlər üzrə proqram təminatı;
– təhsil müəssisəsinin beynəlxalq informasiya şəbəkəsinə çıxışı;
– son beş ildə təhsil müəssisəsinin hazırladığı tədris-metodik materiallar, o cümlədən Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi dərsliklər və dərs vəsaitləri;
– təhsilalanların kurs işləri, təcrübələrin (istehsalat və pedaqoji) aparılmasına dair sənədlər, məzunların buraxılış işlərinin və dövlət imtahanlarının (buraxılış imtahanlarının) nəticələri.

Təhsil proqramları üzrə hazırlığın məzmununu təhsil müəssisəsi aşağıdakı kimi qiymətləndirir:
– uyğundur;
– əsasən uyğundur;
– uyğun deyildir.

Qiymətləndirmə təsdiqedici sənədlərlə əsaslandırılmalıdır.

Təhsil proqramları üzrə hazırlığın strukturunun təhlili təhsil müəssisəsinin gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək məqsədi ilə aparılır.

Təhlil təhsil müəssisəsinin cari tədris ilinin oktyabr ayının 1-nə olan məlumatları əsasında aparılır. Bu zaman aşağıdakılar müəyyən edilməlidir:
– son beş il ərzində mütəxəssis hazırlığının strukturunda aparılmış dəyişikliklər və onların təhsil müəssisəsinin profilinə və əmək bazarının tələbatına uyğunluğu;
– son beş il ərzində təhsil müəssisəsini bitirənlərin (dövlət hesabına və ödənişli əsaslarla) nəticələrinin təhlili.

3.3.4. Tədris prosesinin təşkilinin qiymətləndirilməsi

Tədris prosesinin təşkilinin qiymətləndirilməsi üçün aşağıdakılar müəyyən edilməlidir:
– tədris prosesinin təşkilinin tədris planlarına uyğunluğu;
– təhsilalanların fəallığını artıran yeni təlim, texnologiya və metodların tətbiqi;

– təhsilalanların elmi tədqiqat işlərinin təşkili;
– tədris-laboratoriya bazasının mövcud tələblərə uyğunluğu;
– tədris prosesində yeni informasiya texnologiyalarının və hesablama texnikasının tətbiqi.

3.3.5. Təhsil proqramları üzrə hazırlığın keyfiyyəti

Təhsil proqramları üzrə hazırlığın keyfiyyəti ayrı-ayrı proqramlar üzrə təhsilalanların imtahanlarının, buraxılış işlərinin, dövlət və ya buraxılış imtahanlarının, eləcə də özünütəhlil zamanı təhsilalanların attestasiyasının nəticələrinin təhlili əsasında müəyyən edilir. Bu zaman ayrı-ayrı təhsil proqramlarının, kadr təminatının, maddi-texniki bazanın, beynəlxalq əməkdaşlığın, sosial-məişət şəraitinin təhlili də verilməlidir.

Təhsilalanların müvafiq proqramları mənimsəmə səviyyəsi və təhsil proqramları üzrə hazırlığının keyfiyyəti aşağıdakılarla müəyyənləşdirilir:

– təhsilalanların imtahanlarının nəticələri;
– təhsil müəssisəsinin keçirdiyi monitorinqin nəticələri (buraxılış qruplarında və ya siniflərində təhsilalanların bilik səviyyəsi təhsil müəssisəsində hazırlanmış suallar əsasında müəyyənləşdirilir və qiymətləndirilir);
– məzunların buraxılış işlərinin, dövlət və ya buraxılış imtahanlarının nəticələri (buraxılış işlərinin mövzularının təhlili, onların məzmununun təhsil proqramlarının profilinə uyğunluğu, dövlət və ya buraxılış imtahanlarının təşkili və keçirilməsi);
– attestasiya komissiyası sədrlərinin verdikləri hesabatların təhlilinin nəticələri;
– təhsil proqramları üzrə aparılan hazırlığa dair şikayətlərin (təhsilalanların, idarə və təşkilatların və sair) olub-olmaması.

Ayrı-ayrı təhsil proqramları üzrə hazırlığın keyfiyyəti və təhsilalanların mənimsəmə səviyyəsi aşağıdakı kimi qiymətləndirilir:

– yoxlama zamanı təhsilalanların 91-100 faizi müsbət qiymət aldıqda – əla;
– 71–90 faizi müsbət qiymət aldıqda – yaxşı;
– 51–70 faizi müsbət qiymət aldıqda – kafi;
– 50 faizdən az (50 faiz də daxil olmaqla) hissəsi müsbət qiymət aldıqda – qeyri-kafi.

Yoxlama zamanı sorğu aparılacaq tədris qruplarında təhsilalanların 90 faizinin iştirakı vacibdir.

Özünütəhlil zamanı yoxlama üçün istifadə olunmuş suallar hesabatla birlikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim edilir.

3.3.6. Kadr təminatı

Təhsil müəssisəsinin kadr təminatının vəziyyəti müəyyənləş-dirilərkən aşağıdakılar nəzərə alınır:

– kadr potensialının mövcud vəziyyəti və dinamikası;
– müəllimlərin ixtisaslarını artırması işinin təşkilinin vəziyyəti;
– müəllimlərin yaş tərkibinin təhlili.

3.3.7. Elmi tədqiqat fəaliyyəti

Təhsil müəssisəsinin elmi tədqiqat fəaliyyəti müəyyənləşdirilərkən aşağıdakılar nəzərə alınır:

– elmi tədqiqat işlərinin vəziyyəti, inkişaf dinamikası və mütəxəssis hazırlığının profilinə uyğunluğu;
– elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində tətbiqi;
– elmi tədqiqat işlərinin maliyyə mənbələrinin təhlili;
– təhsil proqramları üzrə elmi tədqiqat işlərinin təşkilinin vəziyyəti;
– aparılan elmi tədqiqat işlərinin səmərəliliyi (elmi və tədris ədəbiyyatlarının nəşri, elmi-pedaqoji kadrların hazırlanması, doktorantu-ranın, ixtisaslaşmış şuraların işi);
– müəllimlərin və təhsilalanların elmi tədqiqat işlərində iştirakı;
– elmi-metodik və praktik konfransların keçirilməsi;
– təhsil müəssisəsinin beynəlxalq və respublika müsabiqələrində, sərgilərində iştirakı.

3.3.8. Beynəlxalq əməkdaşlıq

Beynəlxalq əməkdaşlıq fəaliyyəti aşağıdakılarla qiymətləndirilir:

– beynəlxalq əlaqələrin yaradılması;
– təhsil müəssisəsinin verdiyi diplomların başqa ölkələrdə tanınması;
– beynəlxalq proqramlarda iştirak;
– təhsil müəssisəsində başqa ölkə vətəndaşlarının təhsil alması;
– təhsil müəssisəsinin təhsilalanlarının başqa ölkələrdə təhsil alması;
– elmi-pedaqoji kadrların xarici ölkələrdə ixtisaslarını artırması;
– müəllimlərin xarici ölkələrdə tədris və elmi tədqiqat fəaliyyətləri;
– müəllimlərin xarici ölkələrdə nəşr etdirdikləri elmi tədqiqat işləri.

3.3.9. Maddi-texniki baza

Ayrı-ayrı təhsil proqramları üzrə lazım olan maddi-texniki bazanın qiymətləndirilməsində aşağıdakılar nəzərə alınır:

– təhsil müəssisəsinin ayrı-ayrı təhsil proqramları üzrə və bütövlükdə maddi-texniki bazasının vəziyyəti;
– tədris-laboratoriya bazası, onun lazımi avadanlıqlarla təchizatının vəziyyəti.

3.3.10. Sosial-məişət şəraiti

Sosial-məişət şəraitinin qiymətləndirilməsində aşağıdakılar nəzərə alınır:
– yataqxana təminatı;
– tibbi xidmət;
– iaşə xidməti;
– istirahətin təşkili.

3.3.11. Təhsil müəssisəsinin maliyyə təminatı

Təhsil müəssisəsinin maliyyə təminatı aşağıdakılarla müəyyən olunur:
– büdcədən maliyyələşdirmə;
– müxtəlif növ fəaliyyətdən (elmi, pedaqoji, müqavilə əsasında həyata keçirilən digər fəaliyyətlərdən) əldə olunan gəlirlər.

Özünütəhlil hesabatına əvvəlki akkreditasiya zamanı aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması barədə məlumatlar əlavə olunur.

4. Akkreditasiya Komissiyasının apardığı təhlil

4.1. Akkreditasiya Komissiyasının vəzifəsi özünütəhlil sənədlərində göstərilənləri təhlil etmək, yerlərdə dəqiqləşdirmə aparmaq, buraxılış qruplarında (siniflərində) təhsil alanların bilik səviyyəsini qiymətləndirmək, nəticədə təhsilin məzmununun və mütəxəssis hazırlığı səviyyəsinin dövlət təhsil standartlarının tələblərinə uyğunluğunu müəyyənləşdirməkdən ibarətdir.

Akkreditasiya Komissiyası təhlili bu Qaydaların 2.4-cü bəndinə uyğun təqdim edilmiş sənədlər əsasında aparır.

Təhsilalanların biliyinin ayrı-ayrı təhsil proqramları üzrə attestasiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən hazırlanan yoxlama tapşırıqları əsasında Akkreditasiya Komissiyası tərəfindən yazılı formada keçirilir. Həmin tapşırıqlar təhsil müəssisəsinin təqdim etdiyi müvafiq fənn proqramlarına uyğun şəkildə hazırlanmış suallar üzrə tərtib olunur. Təhsilalanların müvafiq proqram üzrə bilik səviyyəsi bu tapşırıqlar əsasında müəyyənləşdirilir. Tapşırıqlar 6 fənni əhatə etməklə, yaddaş

biliyinin müəyyənləşdirilməsi prinsipi əsasında hazırlanmış 60 sualdan, ali təhsil pilləsinin magistratura səviyyəsində isə 4 fənni əhatə etməklə 40 sualdan ibarət olur. Suallara düzgün cavabların sayı 50 faizdən az (50 faiz də daxil olmaqla) olduqda, təhsilalanların mənimsəmə səviyyəsi «qeyri-kafi», 51–70 faiz olduqda «kafi», 71–90 faiz olduqda «yaxşı», 91–100 faiz olduqda «əla» qiymətləndirilir.

Yoxlamanın aparılmasına 2 akademik saat vaxt ayrılır. Yoxlama işləri şifrlənir və müvafiq fənlər üzrə Akkreditasiya Komissiyasının üzvləri tərəfindən qiymətləndirilir.

Buraxılış qruplarında (siniflərində) təhsil alanlar təhsil proqramları üzrə yoxlamadan keçməlidirlər. Yoxlamada qruplarda təhsilalanların 90 faizinin iştirakı vacibdir.

Təhsil müəssisəsinin və onun müvafiq struktur bölmələrinin, ayrı-ayrı təhsil proqramlarının akkreditasiyadan keçməsinin əsas şərtlərindən biri Akkreditasiya Komissiyasının təhsilalanların yarıdan çoxunun biliyini müsbət qiymətləndirməsidir.

4.2. Akkreditasiya Komissiyası təhlil apardıqdan sonra təhsil müəssisəsinin fəaliyyəti barədə yekun arayış hazırlayır.

Yekun arayış təhsil müəssisəsinin özünütəhlilinin nəticələrinə dair hesabatının strukturuna uyğun tərtib olunur. Arayışda təhsil müəssisəsinin idarə olunması, mütəxəssis hazırlığının məzmunu, strukturu, keyfiyyəti, kadr təminatı, beynəlxalq əməkdaşlığı, elmi tədqiqat fəaliyyəti, maddi-texniki bazası, sosial-məişət şəraiti, maliyyə təminatı, bütövlükdə və ayrı-ayrı təhsil proqramları üzrə hazırlığın məzmunu, strukturu və keyfiyyəti təhlil edilərək qiymətləndirilməlidir.

Təhlil və qiymətləndirmə Akkreditasiya Komissiyasına təqdim olunmuş sənədlərin araşdırılması, yerlərdə aparılmış təhlilin, eləcə də təhsilalanların biliyinin yoxlanmasının nəticəsi əsasında həyata keçirilir.

Yekun arayışa əvvəlki akkreditasiya zamanı aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması barədə məlumatlar da daxil edilir.

Yekun arayış təhsil müəssisəsinin nəzərdə tutulmuş akkreditasiyası müddətində (bir ay) Akkreditasiya Komissiyasının iclasında müzakirə edilir və Komissiyanın üzvləri tərəfindən imzalanır. Əlavə araşdırmaların aparılması zərurəti yarandığı halda, bu müddət bir aya qədər uzadıla bilər.

Yekun arayış tanış olmaq üçün təhsil müəssisəsinin rəhbərinə təqdim edilir.

Arayış təhsil müəssisəsinin rəhbərinə təqdim edildikdən bir həftə sonra Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq şöbəsində aidiyyəti olan digər şöbələrin rəhbərlərinin və Akkreditasiya Komissiyası üzvlərinin iştirakı ilə müzakirə edilir. Müzakirə zamanı təklif olunan rəy və təklifləri də nəzərə almaqla, yekun arayışın Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə yaradılan və daimi fəaliyyət göstərən Akkreditasiya Şurasının müzakirəsinə çıxarılması barədə təqdimat hazırlanır.

5. Təhsil müəssisəsinin akkreditasiyasının nəticəsi

5.1. Akkreditasiya Şurasına Azərbaycan Respublikasının təhsil naziri rəhbərlik edir. Şuranın tərkibinə akkreditasiya şöbəsinin müdiri (sədr müavini) və əməkdaşı (məsul katib), təhsil sahəsində müstəqil ekspertlər daxil edilirlər. Şuranın tərkibinə qeyri-hökumət təşkilatlarının və tabeliyində təhsil müəssisəsi olan nazirliklərin, təşkilatların və idarələrin nümayəndələri də daxil edilə bilər.

5.2. Şuranın iclası onun üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətli sayılır. Şuranın qərarı iclasda iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər bölündükdə, Şuranın sədrinin səsi həlledici olur.

5.3. Şura dövlət təhsil standartlarının tələblərinə uyğun hazırlanmış və Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş tələb və meyarlar əsasında təhsil müəssisəsinin statusunu müəyyənləşdirir, onun tam şəkildə və ya ayrı-ayrı təhsil proqramları üzrə akkreditasiyadan keçib-keçməməsi barədə qərar qəbul edir. Bu qərarın əsasında Azərbaycan Respublikasının təhsil naziri təhsil müəssisəsinin akkreditasiyası barədə əmr verir. Həmin əmrlə təhsil müəssisəsinin statusu (tipi, növü) və həyata keçirilən təhsil proqramları təsdiq olunur. Akkreditə olunmuş təhsil müəssisəsinə müvafiq keyfiyyət sənədi – sertifikat verilir.

Təhsil müəssisəsinin akkreditə olunması barədə məlumatlar mətbuatda dərc edilir.

5.4. Təhsil müəssisəsinin mövcud statusu müəyyən olunmuş tələb və meyarlara uyğun gəlmədikdə, Şura onun akkreditasiyası haqqında mənfi

qərar qəbul edə bilər. Bu halda təhsil müəssisəsi Şuranın müəyyən etdiyi statusla fəaliyyət göstərə bilər.

5.5. Akkreditasiyadan keçməyən təhsil müəssisəsinə və ya ayrı-ayrı proqramlar üzrə kadr hazırlığına növbəti tədris ili üçün qəbul planlaşdırılmır.

5.6. Akkreditasiyadan keçməyən təhsil müəssisəsi və ya onun ayrı-ayrı təhsil proqramları 1 ildən sonra təkrar akkreditasiyadan keçə bilər. Təhsil müəssisəsi və ya onun ayrı-ayrı təhsil proqramları təkrar akkreditasiyadan keçmədikdə, onun təhsil fəaliyyəti dayandırılır və təhsilalanların digər təhsil müəssisələrində təhsilinin davam etdirilməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Akkreditasiyadan keçməyən təhsil müəssisəsinin əvvəllər verdiyi təhsil haqqında dövlət sənədi öz qüvvəsində qalır.

5.7. Təhsil müəssisəsi Akkreditasiya Şurasının onun akkreditasiyası barədə çıxardığı mənfi qərarla bağlı qanunvericiliyə uyğun olaraq məhkəmə qarşısında iddia qaldıra bilər.

5.8. Akkreditasiyanın aparıldığı təhsil müəssisəsi üçün müvafiq sənədlər toplusu (akkreditasiya işi) tərtib olunur. Bu topluya aşağıdakılar daxil edilir:

– təhsil müəssisəsinin Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim etdiyi sənədlər;
– təhsil müəssisəsinin akkreditasiya olunması üçün Akkreditasiya Komissiyasının yaradılması haqqında əmr;
– Akkreditasiya Komissiyasının arayışı;
– təhsil müəssisəsinin akkreditasiyasının nəticəsi barədə Azərbaycan Respublikası təhsil nazirinin əmri.

Zəruri hallarda topluya digər sənədlər də əlavə oluna bilər.

Sənədlər toplusu Azərbaycan Respublikasının Təhsil Nazirliyində xüsusi qovluqda saxlanılır.

Təhsil müəssisəsinin akkreditasiyası haqqında əmr aşağıdakı hallarda öz qüvvəsini itirir:

– təhsil müəssisəsinin akkreditasiya müddəti başa çatdıqda;
– təhsil müəssisəsinin müvafiq müraciəti olduqda;
– təhsil müəssisəsinin lisenziyası ləğv edildikdə və ya lisenziya müddəti bitdikdə və uzadılmadıqda;
– təhsil müəssisəsi yenidən təşkil olunduqda.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 6 avqust tarixli 147 nömrəli
qərarı ilə təsdiq edilmişdir

Formal təhsilin təşkili qaydaları

1. Bu Qaydalar «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən hazırlanmışdır və formal təhsilin təşkili məsələlərini tənzimləyir.

2. Formal təhsil dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil formasıdır.

3. Ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili, ali təhsil, yenidənhazırlanma təhsili, təkrar ali və ya orta ixtisas təhsili dövlət təhsil sənədinin verilməsi ilə başa çatdığı üçün formal təhsil hesab edilir.

4. Formal təhsil qanunvericiliklə müəyyən edilmiş əyani, qiyabi, distant (məsafədən), sərbəst (eksternat) təhsilalma formaları vasitəsilə həyata keçirilir.

5. Təhsil pillələri və səviyyələrində təhsilalma formalarının tətbiqi aşağıdakı kimi müəyyən edilir:

5.1. ümumi təhsil pilləsi üzrə:
– ibtidai təhsil səviyyəsində – əyani;
– ümumi orta təhsil səviyyəsində – əyani, sərbəst (eksternat);
– tam orta təhsil səviyyəsində – əyani, sərbəst (eksternat);

5.2. ilk peşə-ixtisas təhsili pilləsi üzrə:
– əyani;

5.3. orta ixtisas təhsili pilləsi üzrə:
– əyani, qiyabi, distant (məsafədən);

5.4. ali təhsil pilləsi üzrə:
– bakalavriat səviyyəsində – əyani, qiyabi, distant (məsafədən);
– magistratura səviyyəsində – əyani, qiyabi;
– doktorantura səviyyəsində – əyani;

5.5. yenidənhazırlanma təhsili üzrə:
– əyani;

5.6. təkrar ali və ya orta ixtisas təhsili üzrə:
– əyani, qiyabi.

6. Ümumi təhsil pilləsində qanunvericiliyə uyğun təşkil edilən şagirdlərin evdə təhsili və fərdi təhsili də formal təhsil hesab edilir.

7. Evdə təhsil, fərdi təhsil və sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsili yalnız əyani formada təşkil olunur.

8. Formal təhsil ümumi, ilk peşə-ixtisas, orta ixtisas, ali və əlavə təhsil müəssisələrində həyata keçirilir.

9. Formal təhsil Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən müvafiq dövlət təhsil standartlarına uyğun hazırlanmış təhsil proqramları (kurikulumları) əsasında təşkil olunur.

10. Formal təhsilin təhsilalma formaları üzrə müddəti təhsil proqramları (kurikulumları) ilə müəyyən edilir.

11. Sərbəst (eksternat) təhsilalma forması üçün təhsil proqramı (kurikulumu) müvafiq təhsil səviyyəsi üzrə əyani təhsilalma formasının təhsil proqramı (kurikulumu) hesab olunur.

TƏHSİL SAHƏSİNDƏ DÖVLƏT VƏ HÖKUMƏT SƏNƏDLƏRİ

№ 102

Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyasının təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin QƏRARI

Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı və Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası (Dünya Bankı) arasında bağlanmış Kredit Sazişi çərçivəsində həyata keçirilən Təhsil Sektorunun İnkişafı Layihəsinə uyğun olaraq, təhsil sektorunun bütün sahələrinin səriştəli, yüksək peşəkarlığa malik pedaqoji kadrlarla təmin edilməsi və ümumi təhsilin keyfiyyətinin artırılması məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

QƏRARA ALIR:

1. «Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası» təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.Rasizadə,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 25 iyun tarixli 102 nomrəli
qərarı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası

Giriş

Müasir şəraitdə cəmiyyətin sosial-iqtisadi və elmi-texniki inkişafının əsas xüsusiyyəti istehsal fəaliyyətinin məzmununun və onun subyektləri arasında qarşılıqlı əlaqələrin sürətlə dəyişməsindən ibarətdir. Öz növbəsində bu, insanın müəyyən qədər bilik və bacarıqlar almasi istiqamətinə yönəlmiş təhsil növündən bir şəxsiyyət kimi, yaradıcı fəaliyyətin və davranışın subyekti kimi inkişaf etməsinə imkan verən təhsil növünə keçilməsini tələb edir. Yalnız şəxsiyyətə yönəlmiş təhsil insanın dinamik dəyişən ictimai və iqtisadi həyatın tələblərinə cavab verən bir şəxsiyyət kimi inkişaf etməsinə imkan yarada bilər.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də köklü islahatlar aparılmış, cəmiyyətin yeni sifarişlərinin, ehtiyaclarının və tələbatlarının ödənilməsi məqsədi ilə çoxlu sayda yeni tipli təhsil müəssisələri (liseylər, gimnaziyalar, kolleclər, seminariyalar, mərkəzlər, təhsil kompleksləri və s.) və təhsil formaları yaradılmışdır. Lakin pedaqoji təhsil üzrə mövcud olan strukturlar hələ də müasir standartlara uyğun qabiliyyətlərin formalaşdırılmasına deyil, əsasən biliyin verilməsinə istiqamətlənmişdir.

Eyni zamanda diplomdan sonrakı və əlavə təhsil də daxil olmaqla pedaqoji təhsil sisteminin müxtəlif strukturları arasında məzmunca və təşkilati baxımdan kifayət qədər qarşılıqlı əlaqələrin olmaması müəllimin, tərbiyəçinin və ümumiyyətlə, öyrədənin fasiləsiz olaraq bir şəxsiyyət kimi inkişaf etməsinə imkan vermir. YUNESKO-nun 35-ci sessiyasında təşkil edilmiş təhsil məsələlərinə dair xüsusi beynəlxalq konfransda qeyd edildiyi kimi, müasir şəraitdə müəllimə verilən birdəfəlik ilkin pedaqoji təhsil onun bütün həyatı boyu peşə fəaliyyətinə kifayət etmir və artıq pedaqoji təhsilə fasiləsiz bir proses kimi baxmaq lazımdır. Bir tərəfdən, bu, ümumi pedaqoji biliklərin daim yeniləşməsi və inkişaf etməsi, digər tərəfdən, pedaqoji sistemdə tez-tez baş verən dəyişikliklər və pedaqoji fəaliyyətin yaradıcı xarakterinin artması ilə əlaqədardır.

Hazırda ilkin pedaqoji təhsil fasiləsiz müəllim hazırlığının yalnız bir fundamental mərhələsi kimi qəbul edilməli və müəllim hazırlığı müxtəlif

üsullarla fasiləsiz olaraq davam etdirilməlidir. Ona görə də Azərbaycan Respublikasında müəllim hazırlığının və pedaqoji təhsilin fasiləsizlik prinsipləri baxımından inkişaf etdirilməsi üçün konseptual yanaşmaların işlənilməsinə və fasiləsiz pedaqoji təhsil sisteminin inkişaf etdirilməsi üçün strateji fəaliyyət proqramının hazırlanmasına ehtiyac yaranmışdır. Bu Konsepsiya və Strategiya sənədi respublikada növbəti 10–15 il ərzində fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı tədbirlərini istiqamətləndirmək üçün nəzərdə tutulmuşdur. Sənədin əsas məzmunu fasiləsiz pedaqoji təhsil sisteminə daxil olan müəssisələrin sosial statusunun gücləndirilməsinə, uzun illər ərzində formalaşmış milli ənənələr və müasir beynəlxalq təcrübə əsasında pedaqoji təhsilin məzmununun və strukturunun yeniləşdirilməsinə, təlim və tərbiyənin vahidliyinin, sistemin dövlət, ictimai və şəxsi prioritetlərinin balanslaşdırılmasının təmin edilməsinə yönəlmişdir.

Konsepsiya və Strategiya sənədi 5 hissədən ibarətdir. Birinci hissədə Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının real vəziyyəti təsvir edilmiş və strateji fəaliyyət istiqamətləri (prioritet sahələr) müəyyən edilmişdir. İkinci hissədə fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı Konsepsiyası verilmişdir. Üçüncu hissədə Konsepsiyanın reallaşdırılması üzrə strateji yanaşma və prioritet sahələr üzrə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər öz əksini tapmışdır. Dördüncü hissədə Konsepsiya və Strategiya sənədinin və bu sənəd əsasında hazırlanmış Tədbirlər Planının həyata keçirilməsi nəticəsində əldə ediləcək nailiyyətlər qısa şəkildə təsvir edilmişdir. Beşinci hissədə 2006–2015-ci illər üçün fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı üzrə Tədbirlər Planı verilmişdir.

I HİSSƏ

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının real vəziyyəti və strateji fəaliyyət istiqamətləri 1.1. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemi Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemini bütün tiplərdən olan ümumtəhsil məktəbləri, orta ixtisas, ali, diplomdan sonrakı və əlavə təhsil üzrə pedaqoji təhsil proqramlarını həyata keçirən tədris müəssisələri əhatə edir.

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı aparan ali və orta ixtisas təhsili müəssisələri 110774 məktəbəqədər yaşlı uşağı əhatə edən 1777 məktəbəqədər tərbiyə müəssisəsini, 689676 şagirdin təhsil aldığı bütün tiplərdən olan 4565 ümumtəhsil məktəbini, 21677 şagirdi olan 110 texniki peşə məktəbini, 53694 tələbənin təhsil aldığı 60 orta ixtisas, 121535 tələbənin təhsil aldığı 47 ali və 1 ixtisasartırma təhsil müəssisəsini pedaqoji kadrlarla təmin edir. Bütövlükdə, onlar 2 milyona yaxın ölkə vətəndaşının təhsil aldığı 6560 təhsil müəssisəsi üçün pedaqoji kadr hazırlayır. Bu müəssisələrdə 200000-dən çox pedaqoji işçi çalışır.

Hazırda Azərbaycanda bütün tiplərdən olan 4565 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Onlardan 4554-ü dövlət (4542-si gündüz ümumtəhsil məktəbi, 12-si axşam və qiyabi məktəb), 11-i qeyri-dövlət ümumtəhsil məktəbidir. 4542 dövlət gündüz ümumtəhsil məktəbindən 419-u ibtidai, 915-i əsas və 3188-i orta ümumtəhsil məktəbidir. Onlardan 43-ü lisey, 6-sı gimnaziya və 20-si sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəblərdir. Bütün tiplərdən olan 4565 ümumtəhsil məktəbində çalışan 171479 müəllim 1689676 şagirdin təlim və tərbiyəsi ilə məşğul olur. Respublika üzrə bir məktəbə düşən şagirdlərin orta say həddi 370, müəllimlərin orta say həddi 37,5, bir müəllimə düşən şagirdlərin orta say həddi isə 9,85-dir.

Azərbaycan Respublikasında pedaqoji kadrların ilkin hazırlığı orta ixtisas təhsili müəssisələrində (kolleclər və texnikumlar), ali təhsil müəssisələrində (universitetlər, akademiyalar, institutlar, seminariyalar, ali kolleclər və konservatoriyalar) aparılır. Pedaqoji işçilərin diplomdan sonrakı hazırlığı və əlavə təhsili ali təhsil müəssisələrində, ali təhsil müəssisələrinin ixtisasartırma və yenidənhazırlama fakültələrində, Azərbaycan Müəllimlər İnstitutunda və onun filiallarında, o cümlədən Bakı Pedaqoji Kadrların İxtisasartırma İnstitutunda (BPKİAİ) həyata keçirilir. Pedaqoji kadr hazırlığı aparılan bütün təhsil müəssisələri mülkiyyət münasibətləri baxımından dövlət və özəl sektorlara bölünür. Dövlət sektorunda pedaqoji kadr hazırlığı ödənişli və ödənişsiz, özəl sektorlarda yalnız ödənişli formada həyata keçirilir.

Ümumiyyətlə, respublikada pedaqoji kadrların fasiləsiz hazırlığı 22 ali (10 dövlət, 12 qeyri-dövlət), 26 orta ixtisas (23 dövlət və 3 qeyri-dövlət) və 1 ixtisasartırma təhsili müəssisəsində aparılır. Son illər pedaqoji kadr ha-

zırlığı aparılan ali və orta ixtisas təhsili müəssisələrinin şəbəkəsi genişlənmiş və onların bir sıra rayon mərkəzlərində filialları açılmaqla, ərazi üzrə paylanması təmin edilmişdir. Hazırda Azərbaycan Müəllimlər İnstitutunun respublikanın müxtəlif zonalarında 11 filialı fəaliyyət göstərir. Həmçinin məktəbəqədər tərbiyə, ümumi orta, orta ixtisas, ali, diplomdan sonrakı və əlavə təhsil proqramlarını həyata keçirən elmi-pedaqoji tədris kompleksləri yaradılır və fasiləsiz pedaqoji təhsil sistemi daxilində inteqrasiya prosesi baş verir. Pedaqoji kadrların ixtisasının artırılması şəbəkəsinə aşağıdakılar daxildir:

4 institut (Azərbaycan Müəllimlər İnstitutu, Bakı Pedaqoji Kadrların İxtisasartırma İnstitutu, Naxçıvan Müəllimlər İnstitutu, Azərbaycan Neft Akademiyası nəzdində İxtisasartırma İnstitutu);

Azərbaycan Müəllimlər İnstitutunun 11 filialı;

Pedaqoji kadrların ixtisasartırma və yenidənhazırlanma təhsili ilə məşğul olan 1 ali məktəb fakültəsi;

Ali məktəblərdə 68 baza kafedrası.

Bu müəssisələr hər il 40 minə qədər müəllimin ixtisasartırma kurslarından keçməsinə imkan verir. Hazırda bu müəssisələrdə ildə 20000-dən çox pedaqoji kadr ixtisasını artırır. Müəllimlərin kurslararası təkmilləşməsi bütün rayonlar üzrə ümumtəhsil məktəblərində müvafiq fənlər üzrə yaradılmış 2000-dən çox dayaq məntəqəsi, müəllim assosiasiyaları, məqsədli tematik kurslar, konfranslar və seminarlar vasitəsilə həyata keçirilir. İxtisasartırma təhsilinin elmi əsaslarını hazırlamaq və inkişaf etdirmək, təhsilin keyfiyyət və səmərəliliyini artırmaq məqsədi ilə elmi-tədqiqat işlərinin aparılması və metodiki bazanın yaradılması Təhsil Problemləri İnstitutunda, o cümlədən həmin İnstitutun nəzdində fəaliyyət göstərən Tətbiqi Tədqiqatlar Mərkəzində həyata keçirilir. İxtisasartırma təhsilinin müəyyən aspektlərinin həyata keçirilməsi üçün bir çox ali məktəblərdə baza kafedraları şəbəkəsi yaradılmışdır.

Pedaqoji kadrların yenidən hazırlanması 6 ali və 5 orta ixtisas təhsili müəssisəsində həyata keçirilir. Hər il bu müəssisələrdə 1000–1500 nəfər pedaqoji kadr bu və ya digər ixtisas üzrə yenidən hazırlanır.

1.2. Strateji fəaliyyət istiqamətləri

Bu Konsepsiya və Strategiya sənədini hazırlamaq və strateji fəaliyyət istiqamətlərini müəyyən etmək məqsədi ilə Azərbaycanda fasiləsiz

pedaqoji təhsil və müəllim hazırlığı sisteminin ətraflı monitorinqi aparılmış, bu sahədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi, o cümlədən bir sıra beynəlxalq və yerli qurumlar tərəfindən həyata keçirilmiş tədbirlər nəzərdən keçirilmiş, sistemin güclü və zəif cəhətləri müəyyən edilmişdir. Aparılan monitorinq nəticəsində aydın olmuşdur ki, müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasına kohnə Sovet sistemindən güclü və hərtərəfli inkişaf etmiş təhsil sistemi miras qalmışdır. 1989-cu ildə keçirilən siyahıyaalınmaya əsasən onbirillik icbari və pulsuz təhsil, bütün rayon və kəndlərin məktəblərlə və kifayət qədər səriştəli müəllimlərlə təmin olunması hesabına əhalinin savadlılıq dərəcəsi yüksək səviyyəyə qalxmışdır. Belə ki, bu sistem uşaqlara son dərəcə yüksək səviyyəli biliklər vermiş və xüsusilə dəqiq elmlərin və riyaziyyatın tədrisi daha üstün olmuşdur. Bu güclü tədris ənənələri hələ də davam edir və bir sıra beynəlxalq təşkilatların (Dünya Bankı, UNİSEF) hesabatlarında qeyd edildiyi kimi, hətta ən kasıb ailələr belə öz uşaqlarının təhsil almasına böyük əhəmiyyət verirlər. Lakin, bununla yanaşı, bəzi çətinliklər də miras qalmışdır. O dövrlərdə başqa sahələrdə olduğu kimi, təhsil də mərkəzləşmiş şəkildə həyata keçirilirdi və tədris metodlarına daha çox ehkam kimi yanaşılırdı. Digər bir problem müəllimlərin son dərəcə dar ixtisaslaşması ilə əlaqədar idi. Müəllimlər əsasən müəyyən ixtisas fənnini tədris etmək üçün işə götürülürdülər.

Bu da təhsil büdcəsinin səmərəsiz istifadə edilməsinə səbəb olurdu və müəllimlərin müxtəlif bilik sahələrini əlaqələndirmək bacarıqlarını azaldırdı. Sovet sistemi dağıldıqdan sonra əldə edilən nailiyyətləri itirməmək şərti ilə, suveren və demokratik bir dövlət kimi, Azərbaycanda uşaqları və müəllimləri müstəqil və yaradıcı düşünməyə həvəsləndirən yeni təlim yanaşmalarına ehtiyac duyulurdu. Bununla əlaqədar Azərbaycanda bir sıra beynəlxalq təşkilatların dəstəyi ilə təhsil sahəsində, o cümlədən müəllim hazırlığı sahəsində müəyyən islahatlar aparılmağa başlanıldı. Hazırda müəllim hazırlığı sahəsində islahatlar Avropa Şurasına üzv olan 45 ölkənin, o cümlədən artıq Azərbaycanın da daxil olduğu Bolonya Bəyannaməsinin tələblərinə və dünya təhsil sisteminə uyğunlaşmaq kontekstində aparılır.

Sistemin ətraflı təhlilindən aydın olur ki, artıq Azərbaycanda aparılmış bir sıra təhsil islahatları (çoxpilləli ali təhsil sisteminə keçid, tələbə-

lərin qiymətləndirilməsinin çoxballı sisteminin tətbiqi, yeni Təhsil Qanununun layihəsində dərəcə üzrə Avropa modelinə keçidin nəzərdə tutulması, Azərbaycan hökuməti tərəfindən ali və orta ixtisas təhsili müəssisələrinin attestasiya və akkreditasiyası haqqında Əsasnamənin qəbul edilməsi, təhsil mütəxəssisələrinin xarici ölkələrlə əlaqələrinin genişləndirilməsi, Azərbaycanın təhsil sənədlərinin tanınması üzrə Avropa Konvensiyasına qoşulması, Azərbaycanlıların xarici ölkələrdə və bir sıra xarici ölkə vətəndaşlarının Azərbaycanda təhsil alması, «Yaşlıların təhsili» Konsepsiyasının qəbul edilməsi, fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı üzrə bu sənədin hazırlanması və s.) ölkənin yaxın gələcəkdə Bolonya Bəyannaməsinin tələblərinə tam şəkildə uyğunlaşmasına, Azərbaycanın təhsil sisteminin Avropa və ümumiyyətlə, dünya təhsil sisteminə inteqrasiyasına daha çox zəmin yaradır. Lakin bunun üçün yuxarıda qeyd edilən müsbət cəhətlərlə yanaşı, ali və orta ixtisas təhsili sistemində, o cümlədən pedaqoji təhsil və müəllim hazırlığı sahəsində əlavə islahatların aparılması, müəllim hazırlığında fasiləsizliyi təmin etmək məqsədilə sistemin ayrı-ayrı istiqamətləri arasında əlaqələrin genişləndirilməsi və müəllim hazırlığı sisteminin vahid bir şəbəkə şəklində fəaliyyət göstərməsi tələb olunur.

Qeyd olunanları nəzərə alaraq, Dünya Bankı və digər beynəlxalq və yerli qurumlar tərəfindən tərtib olunmuş əvvəlki hesabatlara və monitorinq nəticəsində əldə edilmiş məlumatlara əsaslanaraq, beynəlxalq standartlara uyğun gələn, yüksək keyfiyyətli fasiləsiz müəllim hazırlığı sisteminin uğurla formalaşdırılması və tətbiqi üçün vacib olan aşağıdakı altı strateji fəaliyyət istiqaməti müəyyən edilmişdir:

1) müəllim hazırlığı kurikulumunun keyfiyyəti;

2) müəllimlərin hazırlanması və təhsil sisteminin müəllimlərlə təmin edilməsi;

3) fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı müəssisələrinin təşkilati strukturu və funksiyaları;

4) fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığında monitorinq və keyfiyyətin təminatı;

5) müəllimlərin hazırlanmasının və təkmilləşdirilməsinin həyata keçirilməsi modelləri;

6) fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin idarə olunması və menecer hazırlığı.

II HİSSƏ

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı Konsepsiyası

2.1. Ümumi müddəalar.

Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı (ilkin pedaqoji təhsil, ixtisasartırma və yenidənhazırlanma) Konsepsiyası (bundan sonra – Konsepsiya) Azərbaycan Respublikasının Təhsil Qanununun, Təhsil sahəsində İslahat Proqramının tələblərinə və dövlətin təhsil siyasətinə, o cümlədən Bolonya Bəyannaməsinin əsas müddəalarına və fasiləsiz müəllim hazırlığı üzrə müasir dünya standartlarına uyğun olaraq hazırlanmışdır.

Konsepsiyada fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının məzmununu, mahiyyətini və texnologiyasını əks etdirən əsas müddəalar, fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının prinsipləri, strukturu, pillələri, səviyyələri, əsas mərhələləri, maliyyələşdirilməsi və idarəedilmə mexanizmləri ümumi şəkildə şərh edilir.

Konsepsiyada fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı hər bir vətəndaşın ilkin və əlavə pedaqoji təhsil almaq və peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün müxtəlif üsullarla fasiləsiz təhsil almaq imkanlarını əhatə edən vahid təhsil sistemi kimi başa düşülür.

Konsepsiyada müəllimin (pedaqoji işçinin) hazırlanmasına və inkişafına yönələn, təhsilin humanistliyini və demokratikliyini, şəxsiyyətə yönümlülüyünü, çevikliyə, yeniliyə və qabaqcıllığa istiqamətlənməsini, təhsil sahəsində dövlət siyasətinə və ictimai həyatın ehtiyaclarına uyğunluğunu, hər bir vətəndaşın və pedaqoji işçinin bərabər fasiləsiz təhsil almaq imkanlarını müəyyənləşdirən əsas prinsiplər şərh edilir.

Konsepsiyanın məqsədi Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq müəllimin fasiləsiz hazırlığı sisteminin əsas istiqamətlərinin, məzmununun və inkişafının müəyyən edilməsindən, fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının inkişaf etdirilməsi üçün hüquqi, iqtisadi və təşkilati şəraitin yaradılmasından ibarətdir.

Konsepsiyada, həmçinin distant pedaqoji təhsil və fasiləsiz müəllim hazırlığı sistemində keyfiyyətin təminatı, idarə olunması və monitorinqi məsələləri də öz əksini tapmışdır.

2.2. Konsepsiyanın yaradılması üçün zəruri səbəblər

Konsepsiyanın yaradılmasının zəruri səbəbləri aşağıdakı amillərlə əlaqədardır:

müasir dünyada və uyğun olaraq respublikada baş verən müvafiq dəyişikliklər;

müasir dövrdə müəllimin peşəkarlığına və fəaliyyətinə verilən tələblər;

Azərbaycanda fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində mövcud vəziyyətin təhlili zamanı aşkar edilən problemlər və nöqsanlar.

Hazırda müasir dünyanın əsas xarakterik xüsusiyyətləri aşağıdakı kimi səsiyyələndirilir:

qloballaşma (mədəniyyətlərin inteqrasiyası, texnogen mühitin fasiləsiz olaraq dinamik yeniləşməsi, genişlənməsi və köçürülməsi, vahid mədəni, iqtisadi, informasiya və təhsil məkanının formalaşması);

hər bir fəaliyyətin texnologiyalaşdırılması (alqoritmləşdirilməsi);

təhsilin əhəmiyyətinin artması;

intellektin rolunun və yeni biliklərin əldə edilməsinin əhəmiyyətinin artması;

insanların, sosial, peşə və qeyri-peşə birliklərinin bir-biri ilə qarşılıqlı təsirinin konstruktiv və pozuculuq xarakteri;

insanın, cəmiyyətin, mühitin, elmin, şüurun, mədəniyyətin, həyat şəraitinin və s. dəyişmə sürətinin artması;

insan həyatının qeyri-müəyyənliyinin və qeyri-stabilliyinin artması;

konsepsiyaların, yanaşmaların, baxışların, düşüncələrin, mədəniyyətlərin və s. çoxcəhətliliyi, rəngarəngliyi.

Müasir gənclər sürətlə inkişaf edən bir cəmiyyətdə böyüyürlər və gələcəkdə bir çoxlarının yaşayış və iş tərzi öz valideynlərinin yaşayış və iş tərzindən əsaslı şəkildə fərqlənəcəkdir. Millət, cəmiyyət, iş, vətəndaşlıq və ailə kimi ənənəvi anlayışlar daim dəyişikliklərə məruz qalır. Bazar iqtisadiyyatına keçid, yeni iqtisadi münasibətlərin formalaşması, müasir informasiya və kommunikasiya texnologiyalarının meydana gəlməsi ilə əlaqədar cəmiyyət sosial, iqtisadi və mədəni sahələrdə əsaslı dəyişikliklərin iştirakçısına çevrilir. Yeni qlobal iqtisadi strukturlar iş, bilik və bacarıqların yeni formalarını tələb edir və qiymətləndirir, üstünlüyü maddi resurslara deyil, əmək ehtiyatlarına və sosial kapitala verir. Hazırda «orta işçi» əmək fəaliyyətinin sonuna qədər eyni yerdə işləyəcəyinə və

sonda dövlətdən təqaüd alacağına ümid etmir. İşçilərin öz əmək fəaliyyəti dövründə bir neçə peşəyə və ya vəzifəyə sahib olması təbii bir prosesə çevrilir.

Yeni texnologiyaların meydana gəlməsi çoxdan formalaşmış zaman və məkan əlaqələrinin dəyişməsinə, həmçinin tam məşğulluğun, natamam məşğulluğun, yoxsulluğun və ailənin yeni formalarının yaranmasına, onların strukturunun və xarakterinin dəyişməsinə səbəb olmuşdur.

Eyni zamanda biz müxtəlif mədəniyyətlərin mövcudluğu şəraitində yaşayırıq. Bizim milli dəyərlərimizin, adət və ənənələrimizin qorunub saxlanılmasında və milli mənliyimizin formalaşmasında qədim mədəni dəyərlərimizin dərk edilməsi, nəzərə alınması və həyatımızdakı müxtəliflik böyük rol oynayır. Bütün bunlar təlim prosesində, müəllimlərin və ümumiyyətlə, pedaqoji işçilərin hazırlanmasında və onların gündəlik fəaliyyətlərində əsaslı dəyişikliklərin aparılmasını tələb edir.

Qeyd edilən dəyişikliklərin baş verdiyi bir şəraitdə əhalinin təhsilə artan ehtiyacları ənənəvi təhsil formaları ilə təmin edilə bilmir. Cəmiyyətin informasiyalaşması, dünyada gedən qloballaşma prosesləri yeni təhsil modellərini formalaşdırır. Bu modellərin əsasını dünya təcrübəsi, cəmiyyət, insan idrakı və təhsilin dinamik olması, birdəfəlik təhsildən fasiləsiz təhsil prinsipinə keçid ideyası təşkil edir. İnkişaf etmiş ölkələrdə ənənəvi təhsil formaları yeni təhsil modellərinə inteqrasiya olunur və vahid təhsil məkanı yaranır. Cəmiyyətin informasiyalaşması, demokratikləşməsi, cəmiyyətdə təhsilin rolunun artması, Azərbaycan Respublikasının Avropa və dünya təhsil məkanına inteqrasiyası, Bolonya prosesinə qoşulması bütövlükdə təhsil sistemində, o cümlədən fasiləsiz pedaqoji təhsil sistemində əsaslı islahatların aparılması zərurətini yaradır.

Aydındır ki, bütövlükdə təhsil sistemində aparılan islahatların keyfiyyəti və səmərəliliyi ilk növbədə pedaqoji kadr hazırlığı sferasında aparılan islahatlarla əlaqədardır. Cunki son nəticədə bütün təhsil sisteminin və onun ayrı-ayrı sahələrinin inkişafı və səmərəliliyi pedaqoji kadrların fəaliyyəti ilə təmin olunur.

2.3. Müasir dövrdə müəllimin peşəkarlığına və fəaliyyətinə qoyulan tələblər

Müasir dövrdə müəllim əxlaqi cəhətdən inkişaf etmiş, yaradıcı şəxsiyyət olmalı, refleksiya qabiliyyətinə, peşə vərdişlərinə, pedaqoji ustalığa

malik olmalı və yenilikçiliyə meyilli olmalıdır. Müəllim təhsilin əhəmiyyətini dərk etməli, mədəni olmalı, öz fənnini, pedaqogika və psixologiyanı gözəl bilməli, şəxsiyyətyönümlü pedaqoji üsullardan istifadə etməli, öz intellektual səviyyəsini daim inkişaf etdirmək üçün çalışmalıdır. Təcrübəli müəllim öz fənnini bilməklə yanaşı, pedaqoji prosesdə hər bir iştirakçının yerini görməli, şagirdlərin fəaliyyətini təşkil etməli, onun nəticələrini qiymətləndirməli, düzəlişlər etməyi bacarmalıdır. Müəllimin bacarığı aşağıdakı amillərlə təyin olunur:

metodoloji (pedaqoji-psixoloji) bacarıqlar;
ümumi mədəni səviyyəni əks etdirən bacarıqlar;
fənyönümlü bacarıqlar.

Müəllim yenilikçi, yaradıcı düşüncəyə malik olmalıdır. Pedaqoji fəaliyyətin yaradıcı istiqamətlənməsi müəllimdən aşağıdakıları tələb edir:

- öz imkanlarını obyektiv qiymətləndirmək, öz sənəti üçün əhəmiyyətli olan zəif və güclü cəhətlərini müəyyən edə bilmək (özünüidarə, özünüqiymətləndirmə, emosionallıq, kommunikativ, didaktik qabiliyyətlər və s.);
- intellektual fəaliyyət (düşüncə, yaddaş, qavrama, təsvir, diqqət) mədəniyyətinə, davranış mədəniyyətinə, ünsiyyət mədəniyyətinə, o cümlədən pedaqoji mədəniyyətə malik olmaq;
- inteqrasiya proseslərinə, dünya təhsil məkanının inkişaf tendensiyasına uyğunlaşa bilmək.

Müəllimlər yeni, mürəkkəb, müxtəlif və qeyri-müəyyən sosial-iqtisadi şəraitdə həyatın yeni bünövrəsinin qurulması sahəsində xüsusi rolu olan insanlardır. Onlar yeni fərdilikləri və xüsusiyyətləri, yeni texnologiyaları və sistemləri nəzərə almalı, öyrənənlərə yeni bilik və bacarıqların əldə edilməsində, yeni cəmiyyətin tələblərinə uyğunlaşmaqda və fasiləsiz təhsil almaqda kömək etməlidirlər. Hazırda öyrənənlərin sosial və emosional dəstəklə əhatə edilməsi, fasiləsiz təhsil üçün əlverişli mühitin yaradılması, həmçinin öyrənənlərin müxtəlif mədəni mühitlərdə fəaliyyətə hazırlanması prioritet məsələdir. Müəllimlər təhsilin hamı üçün əlçatan olmasının təmin edilməsinə, həmçinin yaş, bacarıq, mədəni, dil, cins, coğrafi və sosial-iqtisadi fərqlər üzündən yaranmış məhdudiyyətlərin aradan qaldırılmasına çalışmalıdırlar.

Müəllimlərin işi gündən-günə cəmiyyətin fəaliyyəti ilə sıx şəkildə birləşir. Təhsilin müasirləşməsi şəraitində müəllimin ənənəvi funksiyaları ilə

(təlim, tərbiyə, inkişafa kömək, təlim nəticələrinin qiymətləndirilməsi, valideynlərlə iş və s.) yanaşı, həm məzmun cəhətdən, həm də prosesin təşkili baxımından təhsilin və sosial-mədəni mühitin proqnozlaşdırılması, layihələndirilməsi və təşkili kimi peşə funksiyaları aktuallaşır. İdarəçilik, iqtisadi, hüquqi, sosial, ekoloji və s. fəaliyyətlə əlaqədar olaraq müasir şəraitdə kommunikativ funksiyalara (sosial dialoq aparmaq bacarığı, sosial tərəfdaşlığın təmin edilməsi və s.) tələbat artır. Ona görə də əsrin tələblərinə cavab vermək üçün müəllim öz fəaliyyətini sinif otağı ilə məhdudlaşdırmamalıdır.

Hər bir müəllim tədrisin müxtəlif tərəflərini dərk etməli, təhsil sisteminin digər iştirakçıları ilə anlaşma əldə etməli, pedaqoji peşənin çalarlarını nəzərə almalı və peşəkarlıq səviyyəsinin fasiləsiz yüksəldilməsinə çalışmalıdır. Eyni zamanda biliklərin həcminin daim artması ilə xarakterizə olunan informasiya cəmiyyətinə keçid müəllimdən müstəqil elmi-tədqiqat işi aparmaq bacarığı tələb edir, onun peşə motivasiyasının əhəmiyyəti artır.

2.4. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sahəsində mövcud olan problemlər

Konsepsiyanın yaradılmasının zəruri səbəblərindən biri də Azərbaycanda müəllim hazırlığı sistemində mövcud vəziyyətin tənqidi təhlili zamanı aşkar edilən problemlər və nöqsanlardır.

Daha çox aktual olan ümumi problemlər aşağıdakılardır:

- pedaqoji təhsilin nüfuzunun və müəllimin sosial statusunun aşağı düşməsi;
- fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı Konsepsiyasının olmaması;
- pedaqoji təhsilin keyfiyyətinin diaqnostikası üçün elmi və elmi-metodiki əsasların işlənilməməsi;
- pedaqoji kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi üçün səmərəli mexanizmin olmaması;
- pedaqoji təhsilin məzmununun formalaşdırılması zamanı ümumtəhsil məktəblərinin sifarişlərinin kifayət qədər nəzərə alınmaması;
- orta ixtisas, ali, diplomdan sonrakı və əlavə pedaqoji təhsil müəssisələrində, o cümlədən ümumtəhsil məktəblərində təhsilin varislik prinsipinə uyğun forma və üsullarının mexanizminin pozulması;

– pedaqoji kadrların variativ təhsil proqramları və dərsliklərin olduğu şəraitdə işləmək üçün hazırlığına kifayət qədər diqqət yetirilməməsi;
– ümumtəhsil məktəblərində və pedaqoji təhsil müəssisələrində peşəyönümü üzrə işlərin aparılmaması və bunun üçün lazımi mexanizmin olmaması;
– pedaqoji təhsilin varislik prinsipinə əsaslanan standartların və proqramların yaradılması üçün elmi əsaslandırılmış yanaşmaların olmaması;
– azkomplektli kənd məktəblərində işləmək üçün müəllim hazırlığında nəzəri, elmi-metodiki və praktiki yanaşmaların olmaması;
– şəxsiyyətin və cəmiyyətin sifarişlərinə uyğun pedaqoji xidmət bazarının tələbatlarının uzunmüddətli elmi əsaslandırılmış proqnozlaşdırılmasının olmaması;
– son illər müəllimin ümumi və peşə mədəniyyətinin aşağı düşməsi;
– pedaqoji təhsil sistemində informasiya mühitinin inkişaf etməməsi;
– fasiləsiz pedaqoji təhsil sisteminin informasiyalaşdırılması problemlərinə kifayət qədər diqqət verilməməsi, pedaqoji kadr hazırlığında müasir informasiya və kommunikasiya texnologiyalarının, fəal və interaktiv təlim metodlarının tətbiq edilməməsi və ya az tətbiq edilməsi;
– pedaqoji təhsil sistemində fundamental və tətbiqi tədqiqatların aparılmasının, elmi məktəblərin və elmi istiqamətlərin inkişaf etdirilməsinin stimullaşdırılması və dəstəklənməsinin aşağı səviyyədə olması;
– fasiləsiz pedaqoji təhsil sisteminin sosial-iqtisadi bazasının aşağı səviyyədə olması və normativ-hüquqi bazanın işlənilməməsi;
– fasiləsiz pedaqoji təhsil sisteminin ayrı-ayrı pillələri arasındakı əlaqələrin çox zəif olması;
– fasiləsiz müəllim hazırlığının alternativ modellərindən, o cümlədən distant təhsildən istifadə edilməməsi;
– fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin səmərəli idarə edilməməsi;
– təhsil menecerləri hazırlığının aparılmaması;
– müəllimlərin əməkhaqlarının aşağı olması; bununla əlaqədar müəllimin əlavə vəsait əldə etmək məqsədi ilə digər fəaliyyətlərlə məşğul olması və müəllimlik sənətinə tam bağlanmaması.

Aparılan monitorinq nəticəsində fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının ayrı-ayrı prioritet sahələri üzrə aşağıdakı problemlərin mövcudluğu aşkar edilmişdir:

- ilkin müəllim hazırlığı proqramlarında müəllimlərlə tələbələrin təmas vaxtının (dərs yükünün) beynəlxalq normalarla müqayisədə çox olması;
- ilkin müəllim hazırlığı proqramlarının birbaşa olaraq müəllim hazırlığı ilə bağlı olmayan fənlərlə yüklənməsi;
- ilkin müəllim hazırlığı proqramlarında praktiki müəllim hazırlığını təmin edən fənlərə verilən saatların həddindən az olması;
- ilkin müəllim hazırlığı proqramlarında pedaqoji təcrübəyə kifayət qədər yer verilməməsi;
- ixtisasartırma təhsilinə marağın artırılması və ümumiyyətlə, müəllimlərin peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi üçün stimullaşdırıcı mexanizmlərin olmaması və ya zəif olması;
- ilkin müəllim hazırlığı proqramları və ixtisasartırma təhsili proqramları arasında bağlılığın olmaması;
- qoşa ixtisas üzrə mütəxəssis hazırlığının zəifliyi;
- kicik mütəxəssislərin bakalavr səviyyəsinə qaldırılması üçün qısamüddətli hazırlıq proqramlarının olmaması;
- hər il hazırlanan və pedaqoji işlə təmin olunan (peşəyə daxil olan) müəllimlərin sayı arasında kəskin fərqin mövcudluğu, bunun da müəllim hazırlığına ayrılan vəsaitin səmərəsiz istifadəsinə səbəb olması;
- müəllimlərin həftəlik orta dərs yükünün az olması və bunun nəticəsində müəllim-şagird nisbətinin aşağı (təxminən 1/10) düşməsi; müəllimlik peşəsinin yarımştat peşəyə çevrilməsi, bunun da müəllimlərin öz peşəsinə tam bağlanmasına mane olması;
- müəllimlərin peşə birliklərinin müəllim hazırlığı prosesində iştirakının zəifliyi və buna lazımi şəraitin yaradılmaması;
- müəllim hazırlığı müəssisələrinin çoxunda keyfiyyətin təminatı sisteminin olmaması və onların fəaliyyətində şəffaflıq prinsipinin tam gözlənilməməsi;
- ayrı-ayrı müəssisələr arasında əlaqələrin və birgə proqramların yerinə yetirilməsinin zəif olması;

– ümumtəhsil məktəblərinin ilkin müəllim hazırlığında lazı-mi dərəcədə iştirak etməməsi;
– pedaqoji təhsil müəssisələrində maddi-texniki bazanın, kadr potensialının lazımi səviyyədə olmaması;
– müəllimlərin akkreditasiyası və sertifikatlaşdırılması sisteminin olmaması;
– əsasən sistemdaxili qiymətləndirmə üsullarına üstünlük verilməsi;
– kənar qiymətləndirmə mexanizminin olmaması;
– ilkin müəllim hazırlığında tələbələrin daha çox nəzəri hazırlığının yoxlanılması; onların müəllimlik üçün vacib olan bilik və bacarıqlarının yoxlanılmasına diqqətin zəif olması;
– ixtisasartırmada dayaq məntəqələrinin fəaliyyətindən az istifadə edilməsi;
– universitet-məktəb əlaqələrinin qurulması və onların birgə fəaliyyəti üçün təkmil mexanizmin yoxluğu;
– təhsil menecerlərinin hazırlığının həyata keçirilməməsi;
– yalnız ixtisasartırma təhsili pilləsində müəyyən kateqoriyalı rəhbər pedaqoji kadrlar üçün nəzərdə tutulmuş ixtisasartırma kurslarının təşkil edilməsi;
– ilkin pedaqoji təhsil proqramlarında təhsilin idarə edilməsinə dair fənlərin olmaması;
– təhsilin idarə edilməsinə dair bakalavr və magistr hazırlığının həyata keçirilməməsi;
– təhsilin idarə olunması üzrə tətbiqi tədqiqatların aparılmaması və elmi-pedaqoji kadr hazırlığının zəif olması.

2.5. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının beynəlxalq inkişaf tendensiyaları

XX əsrin sonlarında və XXI əsrin əvvəllərində inkişaf etmiş qabaqcıl dünya ölkələrində fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının aşağıdakı inkişaf tendensiyaları müşahidə edilir:

– pedaqoji təhsil sistemində əmək haqqının artırılması yolu ilə müəllim və tərbiyəçilərin sosial statusunun və həyat səviyyəsinin yüksəldilməsi;
– müəllim hazırlığında universitetlərin rolunun artması;
– pedaqoji təhsil müəssisələrinə qəbul üçün tələblərin artması;

– tələbələrlə təmas vaxtının azaldılması və onlara sərbəst düşünmək və müstəqil fəaliyyət aparmaq üçün daha çox vaxt verilməsi;
– məktəbdə, ailədə və pedaqoji təhsil müəssisələrində müəllim sənəti üzrə peşəyönümünə diqqətin artırılması;
– pedaqoji təhsilin təkmilləşdirilməsi üzrə bütün elmi nailiyyətləri əks etdirən səmərəli təlim proqramlarının işlənilməsi;
– pedaqoji təhsil müəssisələrində tədris edilən pedaqoji-psixoloji fənlərin sayının artması, bu halda seçmə və inteqrativlik prinsipindən daha geniş istifadə edilməsi;
– təlim prosesində informasiya-kommunikasiya texnologiyalarından, müasir təlim metodlarından və yeni pedaqoji texnologiyalardan istifadə edilməsi;
– pedaqoji təcrübə müddətinin artırılması və bu müddətdə gələcək müəllimlərdə öz sənətinə uyğun praktiki vərdişlərin əldə edilməsi üçün müstəqilliyin və fəallığın inkişaf etdirilməsinə diqqətin gücləndirilməsi;
– yeni işə qəbul edilən gənc müəllimlərin peşə fəaliyyətinə himayədarlıq edilməsi;
– müəllimlərin ixtisasartırma təhsilinə diqqətin artırılması, bu prosesdə şəxsiyyətyönümlü təlim üsullarından istifadə edilməsi və ixtisasartırma təhsili proqramlarının müəllimlərin ehtiyaclarına, arzu və istəklərinə uyğun olaraq hazırlanması;
– məktəb əsaslı ixtisasartırma modelinin daha geniş tətbiq edilməsi;
– fasiləsiz pedaqoji təhsil sistemində mərkəzləşmə və əks-mərkəzləşmə prinsipləri arasında balans yaradılması (təhsilin qlobal problemlərinin həlli üzrə mərkəzləşmə, yerli və regional problemlərin həlli üzrə əks-mərkəzləşmə prinsiplərindən istifadə edilməsi).

2.6. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin mahiyyəti

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı təhsil sferası-nın prioritet və vahid sistem, şəbəkə şəklində fəaliyyət göstərən sahəsidir. Bu sistem:

– müəllimin müxtəlif peşə məsələlərini müstəqil və yaradıcı şəkildə həll etməsinə, pedaqoji fəaliyyətin şəxsi və ictimai əhəmiyyətini dərk etməsinə, onun nəticələrinə görə məsuliyyət daşımasına imkan verən şəxsiyyətin peşə səriştəliyinin formalaşmasını təmin edir;
– cəmiyyətin sosial stabilliyini və inkişafını şərtləndirir;

– cəmiyyətin və dövlətin bütün fəaliyyət sahələri üçün kadr hazırlığının keyfiyyətini təyin edir.

Azərbaycanda pedaqoji təhsil və müəllim hazırlığı sistemi:

– varislik prinsipinə malik olan orta, orta ixtisas, ali, diplomdan sonrakı və əlavə pedaqoji təhsili əhatə edən peşə təhsili proqramları toplusunu;
– bir-biri ilə qarşılıqlı əlaqədə olan orta, orta ixtisas, ali, diplomdan sonrakı və əlavə pedaqoji təhsili həyata keçirən təhsil müəssisələri və təşkilatları şəbəkəsini;
– pedaqoji təhsilin və müəllim hazırlığının idarə olunması sistemini əhatə edir.

Bütün bu keyfiyyətlər pedaqoji təhsil və müəllim hazırlığı sisteminin fasiləsizliyini təmin edir.

Müasir fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemi acıqlığı, şəffaflığı, çoxpilləliyi, çoxfunksiyalılığı, çevikliyi və dinamikliyi ilə xarakterizə olunur.

Fasiləsiz pedaqoji təhsilə insanın inkişafının ümumi ictimai forması və bir-biri ilə qarşılıqlı əlaqədə olan təlim, tərbiyə və insan şüurunun inkişafı kimi üç prosesi əhatə edən bir sistem kimi baxılır. Təlim prosesində bu və ya digər fəaliyyətin mahiyyəti və həyata keçirilmə yolları öyrənilir, tərbiyə prosesində insan bir şəxsiyyət kimi formalaşır, şüurun inkişafı isə onun uzun illər ərzində bəşəriyyətin əldə etdiyi maddi, mənəvi və mədəni dəyərlərə yiyələnməsi kimi başa düşülür.

Fasiləsiz təhsil dedikdə şəxsiyyətin inkişafının, təhsil prosesinin, təhsil xidmətlərinin və təhsilin təşkilinin fasiləsizliyi nəzərdə tutulur.

Fasiləsiz təhsilin əsasını insanın bütün ömrü boyu inkişaf prosesi, onun təhsil məkanında hərtərəfli hərəkəti və bu hərəkət üçün optimal şəraitin yaradılması təşkil edir. Fasiləsizliyin mənası şəxsiyyətin qabiliyyətinin və tələbatının inkişafından, hər bir adama şəxsi təhsil almaq imkanı verilməsindən və təhsil funksiyalarının tam həyata keçirilməsindən ibarətdir.

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemi dövlət, ictimai və digər təhsil müəssisələri şəbəkəsi, həmçinin özünütəhsil vasitəsi ilə müəllimin fəaliyyət və şüurunun inkişaf yollarını, üsul və vasitələr toplusunu əhatə edir. Fasiləsiz təhsil sistemi peşəkarlığın inkişafının müstəqil, ictimai və dövlət formalarını özündə birləşdirir və pedaqoji təhsilə qoyulan

standartların ödənilməsi üçün vahid məqsədə yönəlməsi ilə xarakterizə olunur. Bu standartlar müəllimin şüurunun, şəxsiyyətinin və fəaliyyətinin inkişaf səviyyəsinə qoyulan tələbləri müəyyən edir.

2.7. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının əsas dəyərləri

Təhsilə şəxsiyyətin, şüurun və fəaliyyətin inkişafının üsul və vasitəsi kimi baxdıqda, fasiləsiz pedaqoji təhsilin və müəllim hazırlığının əsas dəyəri peşə fəaliyyətinin subyekti kimi müəllimin inkişafı üçün mühitin yaradılması ilə təyin olunur.

Pedaqoji peşə fəaliyyəti həmişə sosial əhəmiyyətə, sosial statusa və sosial təşkilat üsullarına malik olan ictimai fəaliyyətdir. Bununla əlaqədar olaraq təhsilin komponentləri kimi çıxış edən təlimin, tərbiyənin və şüurun inkişafının mahiyyəti dəqiqləşdirilir.

Pedaqoji təhsil xüsusi formalı sosial həyatın subyekti kimi müəllimin şüurunun, fəaliyyətinin və şəxsiyyətinin inkişaf formasıdır. Eyni zamanda o, mədəni dəyərlərin əldə edilməsi və ötürülməsi üçün müəllimin qabiliyyətinin, yeni sosial-iqtisadi şəraitdə fəaliyyətinin, vətəndaşlıq keyfiyyətlərinin inkişaf etdirilməsi formasıdır. Bütün bu dəyərlər fasiləsiz pedaqoji təhsilin əsas prinsiplərini, məzmununu, texnologiyasını və strukturunu müəyyən edir.

2.8. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının əsas prinsipləri

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının məzmunu təhsil sahəsində dövlət siyasətini və təhsil sisteminin islahatını təyin edən humanistlik, demokratiklik, bərabər şərait, millilik və dünyəvilik, keyfiyyətlilik, səmərəlilik və fasiləsizlik meyarları gözlənilməklə, aşağıdakı əsas prinsiplərlə müəyyən edilir:

- şəxsiyyətyönümlülük prinsipi: fasiləsiz pedaqoji təhsilin məqsədi müəllimin peşə fəaliyyətinin subyekti kimi inkişaf etdirilməsidir, ona görə də pedaqoji təhsilin əsas məzmunu özünütəhsilin üsul və vasitələrinə malik olmaqdan və öz peşəkarlığını inkişaf etdirməkdən ibarətdir;
- bu prinsipə uyğun olaraq pedaqoji təhsil standartlarına pedaqoji fəaliyyətin layihələndirilməsi, həyata keçirilməsi və özünütəhlil üçün qabiliyyətlər toplusu kimi baxıla bilər;
- fundamentallıq prinsipi: bu prinsip müəllimin fənn üzrə, pedaqoji-psixoloji, sosial-humanitar və ümumi mədəni hazırlığının yüksək keyfiyyətinin təmin olunmasını və elmi əsaslandırılmasını nəzərdə tutur;

– universallıq prinsipi: bu prinsip peşəkarlığı və ümumi mədəni səviyyəni əks etdirən elementləri birlikdə əks etdirən baza hazırlığının təmin edilməsi üçün fənlər toplusunun tamlığını ifadə edir;
– inteqrativlik prinsipi: bu prinsip dünyanın tam mənzərəsini formalaşdırmağa istiqamətlənmiş, məqsəd və tələblərin vahidliyinin və məzmununun bir-birini qarşılıqlı tamamlaması əsasında kompleks baza fənləri ilə yaradılan fənlərarası əlaqəni nəzərdə tutur.
– variativlik və çeviklik prinsipi: bu prinsip zəruri olan baza fənlərinin, ixtisas fənlərinin, seçmə fənlərin, əlavə fənlərin və təlim üsullarının bir-biri ilə çevik əlaqələndirilməsi deməkdir; fasiləsiz pedaqoji təhsil sistemində təlim prosesinin məzmunu və texnologiyası şəxsiyyətə dinamik dəyişən dünyada özünün şəxsi həyat tərzinin və peşə fəaliyyətinin istiqamətini əsaslandırılmış şəkildə seçmək üçün imkanlarını genişləndirməyə kömək etməlidir;
– elmilik və praktiklik prinsipi: bu prinsipə görə fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin bütün fəaliyyəti elmi olaraq əsaslandırılır və praktiki istiqamətdə yönəldilir;
– müasirlik prinsipi: bu prinsipə görə fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində təlim və tədris prosesi ən müasir tələblərə uyğun qurulur; tətbiq olunan tədris plan və proqramları daim yeniləşdirilib müasirləşdirilir, mütəmadi şəkildə tələbata uyğunlaşdırılır;
– şəffaflıq prinsipi: bu prinsipə görə fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində bütün fəaliyyətlər tam şəffaf şəkildə həyata keçirilir; hər bir subyektin fasiləsiz pedaqoji təhsil müəssisələri, bu müəssisələrdə keyfiyyətin təminatı sistemi, təklif edilən tədris plan və proqramları, onların həyata keçirilmə forma və üsulları haqqında tam məlumat almaq imkanı olur;
– fərdiləşdirilmə prinsipi: bu prinsip təhsil prosesinin subyektləri arasında münasibətlərin dialoqlaşdırılmasını, təlim alanın fəallaşdırılması üçün prosesin problemləşdirilməsini, təlim prosesinə hər bir öyrənənin real şəxsi təcrübəsinin daxil edilməsini və təlimin subyektin fərdiy aradıcılığının inkişaf etdirilməsinə yönəldilməsini – fərdiləşdirilməsini nəzərdə tutur;
– varislik prinsipi: bu prinsip fasiləsiz pedaqoji təhsilin təmin edilməsi üçün zəruri şərtlərdən biridir və fasiləsiz təhsilin bütün səviyyə-

lərində məzmunun reallaşdırılması üçün ümumi konseptual yanaşmanı nəzərdə tutur;
– alternativlik və rəqabət prinsipi: bu prinsipə görə fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı alternativ modellər və proqramlar vasitəsilə həyata keçirilir, alternativ model və proqramların təklifi pedaqoji təhsil müəssisələri və onların struktur bölmələri arasında sağlam rəqabət yaradır;
– diversifikasiya prinsipi: bu prinsip pedaqoji təhsil sisteminin fəaliyyət növlərinin genişləndirilməsini və əvvəllər mövcud olmayan yeni forma və funksiyaların əldə edilməsini nəzərdə tutur; fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində diversifikasiya proseslərinin inkişaf etdirilməsi daha yüksək səviyyəli peşə təhsili üzrə sosial tələbatın artmasını, əhalinin müxtəlif təbəqələrinin təhsil tələbatlarının ödənilməsini, alternativ təhsil proqramlarının və təlim üsullarının işlənilməsini və cəmiyyətin pedaqoji kadrlara olan tələbatının ödənilməsini təmin edir.

2.9. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının məzmunu və texnologiyası

Fasiləsiz pedaqoji təhsilin və müəllim hazırlığının prinsiplərinin və dəyər əlamətlərinin reallaşdırılması bir tərəfdən təhsil prosesinin və onun məzmununun diferensiallaşdırılmasını, digər tərəfdən isə əsas diqqətin gələcək müəllimin peşə baxımından öz müqəddəratını təyin etməsi (özünütəyini), peşə fəaliyyətində onun özünütəşkili və özünüinkişafı üçün qabiliyyətlərinin formalaşdırılmasına yönəldilməsini nəzərdə tutur. Bu baxımdan vahid fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemi bir-biri ilə qarşılıqlı əlaqədə olan beş mərhələdən ibarətdir:

– peşə baxımından müəllimin özünütəyini (öz gələcək müqəddəratını təyin etməsi);
– özünütəşkil;
– elmi-pedaqoji təşəkkül;
– elmi-pedaqoji cəhətdən özünütəkmilləşdirmə;
– pedaqoji yenilikçiliyə meyilli olmaq baxımından özünürealizə (subyektin daxili imkanlarının həyata keçirilməsi, özünütəsdiqi).

Birinci mərhələ nəticəsində təhsil alan artıq özünü pedaqoji fəaliyyətin subyekti kimi dərk edir, bu fəaliyyətin həyata keçirilməsi üçün özünü hazırlayır və pedaqoji praktikanın ən sadə modeli və ya real forması ilə tanış olur.

İkinci mərhələdə təhsil alan pedaqoji əmək mədəniyyəti və onun özünütəşkili sferasına daxil olur, əldə etdiyi bilikləri tətbiq etməklə özünün pedaqoji-peşə fəaliyyətini layihələndirmək, həyata keçirmək və təkmilləşdirmək üçün qabiliyyətlərini inkişaf etdirir. Nəticədə subyekt özünü növbəti təhsil mərhələsi üçün hazırlanmış peşəkar müəllim kimi hiss edir.

Üçüncu mərhələdə subyektin elmi-pedaqoji fəaliyyət üçün pedaqoji qabiliyyəti inkişaf etdirilir.

Dördüncü mərhələdə yeni biliklərin alınması və onların əsasında pedaqoji fəaliyyətin modelləşdirilməsi, konkret pedaqoji texnologiyaların və üsulların yaradılma prosesinin və həyata keçirilməsinin konseptual təsviri üçün qabiliyyətlər formalaşdırılır.

Beşinci mərhələdə isə müəllimin təhsil sahəsində yenilikçi fəaliyyətinin layihələndirilməsi və həyata keçirilməsi üçün qabiliyyəti inkişaf etdirilir.

Fasiləsiz pedaqoji təhsilin həyata keçirilməsi prosesində təhsil alanın sosial həyatın subyekti kimi özünü inkişaf etdirməsi üçün şəraitin yaradılması təhsil prosesinin xarakterinin dəyişdirilməsini tələb edir. Bu prosesin bütün mərhələlərində problemin və ya hər hansı bir məsələnin kollektiv həlli üçün vərdişlər, öz fikrindən daşınaraq dialoqa girmək və başqalarının fikri ilə razılaşmaq bacarıqları əldə edilir. Ona görə fasiləsiz pedaqoji təhsil prosesində subyektin sosial şəxsiyyət kimi inkişaf etdirilməsi üçün təlimin kollektiv formalarından istifadə edilir, təhsil alanın təhsil prosesinin digər subyektləri ilə qarşılıqlı münasibətlərinin özünütəhlili üçün şərait yaradılır. Təhsil prosesinin texnologiyasına təlim prosesində sosial qarşılıqlı təsir mədəniyyətinin əks etdirilməsi daxil edilir. Bununla yanaşı, elə şərait yaradılır ki, real pedaqoji təcrübə zamanı subyekt özünü konkret sosial sifarişi (məktəbin, şəhərin, ölkənin və s) yerinə yetirən bir şəxs kimi hiss edir. Belə bir şəraitin yaradılması baza pedaqoji təhsil prosesində təhsil alanın özünü sosial əhəmiyyətli və sosial məsuliyyətli bir şəxs kimi hiss etməsinə, cəmiyyətin dinamik sosial-iqtisadi həyat şəraitinə uyğunlaşması üçün müəyyən qabiliyyətlərinin inkişaf etdirilməsinə kömək edir.

2.10. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının pillələri və quruluşu

Fasiləsiz pedaqoji təhsil sistemi özündə beş pilləni birləşdirir:

– peşə təhsilinə qədərki pedaqoji təhsil;
– pedaqoji baza – peşə təhsili;
– ali təhsildən sonrakı pedaqoji təhsil;

– əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi;
– sosial peşəkarlığın inkişaf etdirilməsi (özünütəsdiqi, özünürealizəsi).

Fasiləsiz pedaqoji təhsil sisteminin məzmunca vahidliyi təhsil proqramlarının və texnologiyalarının varisliyi, müəyyən qabiliyyətlərin inkişaf etdirilməsi, müvafiq təhsil standartlarının ödənilməsi kimi prosesləri özündə cəmləşdirir. Sistemin quruluşca vahidliyi isə regional təhsil məkanının yaradılması ilə əldə edilir. Bu məkanın ayrı-ayrı struktur vahidləri müəllimin hazırlanmasını, ixtisasının artırılmasını, təkmilləşməsini, yenidən hazırlanmasını, sosial uyğunlaşmasını və peşəkarlıq baxımından özünütəsdiqini təmin edən müxtəlif növlü təhsil müəssisələridir.

2.10.1. Peşə təhsilinə qədərki pedaqoji təhsil

Peşə təhsilinə qədərki pedaqoji təhsilin məqsədi gələcək müəllimin peşə fəaliyyəti və pedaqoji təhsil üzrə öz müqəddəratını təyin etməsi üçün əsaslar yaratmaqdan ibarətdir. Uyğun olaraq bu mərhələdə aşağıdakı vəzifələr müəyyən edilir:

– təlim prosesində elə şərait yaradılır ki, gələcək müəllim pedaqoji fəaliyyət barədə ümumi təsəvvur əldə etsin, özünün istinad etdiyi dəlillərə, qabiliyyətlərinə və fərdi psixo-fiziki keyfiyyətlərinə uyğun olaraq, özünü fasiləsiz pedaqoji təhsil sisteminin subyekti kimi hiss edə bilsin;
– artıq qəbul imtahanlarına qədər ümumtəhsil məktəblərində şagirdin fasiləsiz təhsil sistemində təhsil almağa hazır olması diaqnostik olaraq müəyyən edilə bilsin.

Peşə təhsilinə qədərki təhsil müxtəlif təhsil strukturları və təhsil formaları ilə əldə edilə bilər.

Məsələn, bu məqsədlə pedaqoji yönümlü siniflər, liseylər, fakültələr, məktəblər, hazırlıq kursları, hazırlıq şöbələri və s. yaradıla bilər. Belə struktur bölmələrin ali təhsil müəssisələrinin (universitetlərin) özləri tərəfindən də yaradılması mümkündür. Alternativ variant olaraq aşağıdakı tədbirlər həyata keçirilə bilər:

– pedaqoji ali və ya orta-ixtisas təhsil müəssisələrində peşəyönümü üzrə məsləhətçi kadrların hazırlanması;
– orta ümumtəhsil məktəblərində peşəyönümü üzrə məsləhətçi vəzifələrinin təsis edilməsi; belə məsləhətçilər şagirdləri müxtəlif peşə növləri ilə, o cümlədən pedaqoji peşə ilə tanış edir, peşə seçimində

onlara fərdi və ya qrup şəklində məsləhətlər verir, şagirdlər haqqında zəruri məlumatlar toplayır və bu məlumatların təhlili əsasında daha məqsədəuyğun peşə seçimi haqqında xarakteristika-tövsiyə hazırlayır;
- məsləhətçi peşəyönümü işini şagirdlərlə, onların valideynləri ilə, müəllimlərlə, məktəb psixoloqları ilə, kollec və universitetlərin peşəyönümü işinə məsul olan müəllimləri ilə sıx əlaqəli şəkildə aparır;
- uyğun vəzifələrin pedaqoji baza təhsili verən orta ixtisas və ali təhsil müəssisələrində təsis edilməsi;
- pedaqoji ixtisaslara qəbul olan tələbələrin ilk günlərdən müqavilə əsasında seçilmiş ümumtəhsil məktəblərinə təhkim olunması və onların müxtəlif üsullarla məktəb həyatında iştirakının təmin edilməsi;
- hər bir şagird haqqında tam məlumat toplanılması (onun şəxsiyyətinin, maraqlarının, tələbatının, meyilinin, qabiliyyətinin, peşə istiqamətinin və peşə seçmək istəyinin, ayrı-ayrı fənlərin öyrənilməsində əldə etdiyi xüsusi nailiyyətlərin, xasiyyətinin, temperamentinin, sağlamlıq vəziyyətinin və s. öyrənilməsi) məqsədi ilə ümumtəhsil məktəblərinin və pedaqoji təhsil müəssisələrinin kompyuterləşdirilməsi və vahid şəbəkə şəklində birləşdirilməsi.

2.10.2. Pedaqoji baza-peşə təhsili

Pedaqoji baza-peşə təhsilinin əsas məqsədi məzunu müs-təqil peşə və elmi-pedaqoji fəaliyyətə hazırlamaqdan ibarətdir. Bu pillənin əsas vəzifələri aşağıdakılardır:
- subyektin ümumi və pedaqoji mədəniyyət əldə etməsi, təhsil sferasında tədqiqatlar aparması üçün qabiliyyətlərin formalaşdırılması məqsədi ilə prosesin kompleks (təşkilati-pedaqoji, elmi-metodiki, informativ və s.) fəaliyyətinin təmin edilməsi;
- təlim alanın pedaqoji təcrübəyə qoşulması üçün təşkilati-pedaqoji şəraitin yaradılması və subyektdə peşə fəaliyyəti üzrə öz müqəddəratını təyin etməsi, pedaqoji fəaliyyətdə özünütəşkili, peşəkarlıq səviyyəsini inkişaf etdirməsi üçün qabiliyyətlərin formalaşdırılması;
- şəxsi pedaqoji və elmi-tədqiqat fəaliyyətinin layihələndirilməsi, elmi əsaslandırılması və təhlili üçün qabiliyyətlərin inkişaf etdirilməsi prosesinin elmi cəhətdən əsaslandırılmış sistematik diaqnostikasının təşkili.

Pedaqoji baza-peşə təhsili pilləsində aşağıdakıların müəyyənləşdirilməsi ilə əlaqədar məsələlər həll edilir:

– öz vəzifələrini yerinə yetirmək üçün gələcək müəllim hansı bilik və bacarıqları əldə etməlidir;
– bu bilik və bacarıqları peşə fəaliyyətində necə tətbiq etməlidir;
– bilik və bacarıqların tətbiqinin daha səmərəli olması üçün müəllim hansı şəxsi keyfiyyətlərə malik olmalıdır.

Yüksək keyfiyyətin təmin edilməsi peşə hazırlığının bu üç aspektinin qarşılıqlı əlaqəsi və vəhdəti ilə bağlıdır.

Pedaqoji baza-peşə təhsili pilləsində əsas məqsədə nail olunması üçün təhsil proqramlarına aşağıdakı fənlər bloku daxil edilir:

– ümumi mədəni səviyyəni formalaşdıran fənlər;
– bir və ya bir neçə (qoşa ixtisaslar üzrə) ixtisas fənləri;
– praktiki müəllim hazırlığını təmin edən fənlər (bu bloka pedaqoji-psixoloji fənlər, uşaqlar haqqında biliklər, tədrisin peşəkarlıq bilikləri, təhsilin idarə edilməsi, məktəb həyatını əks etdirən fənlər və s. daxil edilir);
– tədris təcrübəsi.

Praktiki müəllim hazırlığını təmin edən fənlər bloku tədris təcrübəsi də daxil olmaqla, ümumitədris müddətinin ən azı 40 faizini əhatə edir. Tədris təcrübəsi 18 həftədən az olmayaraq təşkil olunur.

Pedaqoji baza-peşə təhsili paralel, ardıcıl, ardıcıl-paralel modellər və digər alternativ yollarla həyata keçirilir.

Fasiləsiz pedaqoji təhsil sistemi subyektin əvvəlki təhsil səviyyəsini nəzərə alaraq, ali pedaqoji təhsilin bütün səviyyələrində baza-peşə təhsili proqramları üzrə qısaldılmış müddətdə təhsil almaq imkanını, o cümlədən orta ixtisas təhsili almış pedaqoji kadrların və ali təhsilli fənn mütəxəssislərinin qısamüddətli ali pedaqoji təhsil almaq imkanını təmin edir.

Təhsil Qanununa uyğun olaraq pedaqoji baza-peşə təhsili əyani, qiyabi, axşam, həmin formaların birləşdirilməsi, eksternat və distant yolla həyata keçirilir.

Pedaqoji baza-peşə təhsilinin əyani formasında tələbələrlə müəllimlərin təmas vaxtının tədricən azaldılmasına, tələbələrə sərbəst düşünmək, məktəblərə baş çəkmək, tədqiqatlar aparmaq və müstəqil fəaliyyət üçün daha çox vaxt ayrılmasına səy göstərilir.

2.10.3. Ali təhsildən sonrakı pedaqoji təhsil

Ali təhsildən sonrakı pedaqoji təhsil peşə-ixtisas müəssisəsini bitirən və ali pedaqoji təhsil haqqında dövlət sənədi olan hər bir vətəndaşın təhsil səviyyəsinin və elmi dərəcəsinin yüksəldilməsini nəzərdə tutur və doktorantura vasitəsilə həyata keçirilir.

2.10.4. Əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi

Əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının bir pilləsi olmaqla, peşə-ixtisas müəssisəsini bitirən və təhsil haqqında dövlət sənədi olan hər bir vətəndaşın fasiləsiz pedaqoji təhsil almaq imkanları sistemi kimi başa düşülür. Bu pillə bir tərəfdən müəllimin yaradıcı potensialının inkişaf etdirilməsinə və onun peşə şəxsiyyətinin özünütəsdiqinə, digər tərəfdən təhsilin və təhsilin idarə edilməsinin müasirləşdirilməsi məqsədi ilə pedaqoji işçilərin və rəhbər pedaqoji kadrların peşə hazırlığının, elmi-pedaqoji qabiliyyətlərinin və peşəkarlıq səviyyəsinin müxtəlif yollarla inkişaf etdirilməsinə xidmət edir. Əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi pedaqoji kadrların, cəmiyyətin və dövlətin təhsil tələbatlarının hərtərəfli ödənilməsi məqsədi ilə peşə-ixtisas təhsilinə əlavə olaraq təhsil proqramları və xidmətləri vasitəsilə həyata keçirilir. Fasiləsiz pedaqoji təhsilin hər bir mərhələsində əlavə pedaqoji təhsilin əsas məqsədi şəxsiyyətin inkişafından, intellektual və peşə baxımından onun fasiləsiz təkmilləşdirilməsindən ibarətdir.

Əlavə təhsil proqramlarına ümumtəhsil, pedaqoji peşə-ixtisas və əlavə təhsil müəssisələrində, dayaq məntəqələrində və ümumiyyətlə, müvafiq lisenziyası olan digər müəssisələrdə həyata keçirilən müxtəlif yönümlü təhsil proqramları daxildir.

Əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin digər pillələri ilə uyğunlaşdırılmış və qarşılıqlı əlaqəli şəkildə həyata keçirilir, pedaqoji əmək bazarında «peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi – attestasiya-stimul» mexanizminin reallaşdırılması üçün zəmin yaradır.

Pedaqoji kadrlar əlavə pedaqoji təhsilə onların pedaqoji standartlara uyğun gələn ehtiyaclarının və tələbatlarının ödənilməsi məqsədi ilə könüllü olaraq cəlb edilirlər.

2.10.4.1. Əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsinin tərkib hissələri

Əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin aşağıdakı tərkib hissələrini özündə birləşdirir:

– ixtisasartırma təhsili;
– yenidənhazırlanma təhsili;
– stajkeçmə;
– kadrların təkmilləşdirilməsi prosesi;
– dərəcələrin yüksəldilməsi;
– ikinci pedaqoji təhsil.

İxtisasartırma təhsili dedikdə, pedaqoji kadrların və rəhbər pedaqoji işçilərin öz peşə fəaliyyəti dövründə (və ya müəyyən müddət pedaqoji fəaliyyətdə olmayan dövrdə) mütəmadi olaraq peşəkarlıq səviyyəsini, peşə ustalığını, elmi-nəzəri biliklərini artırmaq məqsədi ilə şəxsi ehtiyac və tələbatlarına uyğun gələn, o cümlədən yenilikləri və dəyişiklikləri əks etdirən tədris plan və proqramları üzrə təhsil almaları nəzərdə tutulur.

Yenidənhazırlanma təhsili ilkin baza təhsili proqramı ilə yenidən əldə ediləcək pedaqoji ixtisasın baza təhsil proqramı arasındakı fərqin bir tədris ilinə hesablanmış saatdan çox olmaması şərtilə, mütəxəssislərə verilən əlavə təhsilə deyilir. Yenidənhazırlanma təhsili aşağıdakı spesifik halları əhatə edir:

– peşə-ixtisas təhsilində yeni açılmış ixtisaslar üzrə pedaqoji kadrların yenidən hazırlanması;
– inteqrativ fənlərin tədrisi üçün pedaqoji kadrların yenidən hazırlanması;
– əvvəllər aldığı ixtisas üzrə iş tapa bilməyən və işləməyən pedaqoji kadrların yenidən hazırlanması;
– ilkin kadr hazırlığı keçirilməyən pedaqoji ixtisaslar üzrə yenidən hazırlanma;
– müəyyən müddət pedaqoji fəaliyyətlə məşğul olan qeyri-pedaqoji təhsilli müəllimlərin tədris etdiyi fənlər üzrə yenidən hazırlanması;
– pedaqoji təhsil sistemi üçün menecerlərin yenidən hazırlanması.

Stajkeçmə xüsusi ayrılmış müəssisələrdə yüksək ixtisaslı mütəxəssisin rəhbərliyi altında nəzəri biliklərin təcrübi bacarıq və vərdişlərlə əlaqələn-

dirilməsini nəzərdə tutur. Peşə-ixtisas müəssisələri üzrə pedaqoji heyətin ixtisasının artırılması üçün nəzərdə tutulan tədris plan və proqramlarına, lazım gəldikdə, stajkeçməyə dair ayrıca blok əlavə olunur. Bununla belə, nəzəri hazırlıq planlaşdırılmadan da qabaqcıl texnika və texnologiya ilə tanış olmaq məqsədi ilə elmi laboratoriya və emalatxanalarda stajkeçmə tədbirləri təşkil edilə bilər. Pedaqoji işçilərin stajkeçməsi pedaqogika, psixologiya və metodika sahələri üzrə bilik və bacarıqların artırılması ilə tamamlanaraq, həmin kateqoriyadan olan müəllimlərin tam ixtisasartırmasını təmin edir.

Stajkeçmə ikimərhələli proses olmaqla, peşə-ixtisas təhsili müəssisələrində çalışan professor-müəllim, pedaqoji kadr, mühəndis-müəllim kimi kateqoriyalı işçilərin ixtisasartırma təhsili pilləsidir. Bu cür təhsil şəbəkəsinə ali məktəblərin baza kafedraları, müvafiq ixtisasartırma müəssisələri və fakültələri, ixtisas profilinə uyğun elm, təhsil və istehsalat müəssisələri, təcrübə-sınaq stansiyaları aiddir.

Kadrların təkmilləşdirilməsi prosesi əlavə pedaqoji təhsildə gedən bir proses olmaqla, tədrisin keyfiyyətinin yaxşılaşdırılması məqsədi daşıyır və aşağıdakı proseslərin və ya tədbirlərin vəhdətini özündə ehtiva edir:

- pedaqoji, psixoloji, metodiki sahədə, dərs vəsaiti və dərsliklərdə, eləcə də tədris plan və proqramlarında, təlimin texniki vasitələrində olan yeniliklərlə operativ tanışlıq, öz həmkarları ilə təcrübə mübadiləsi;
- distant-məsafədən ötürmə vasitəsilə yeni materialların əldə olunması, bu istiqamətdə fikir mubadilələrinin aparılması;
- aktual mövzuların dinlənilməsi üçün sahə üzrə qabaqcıl mütəxəssislərin dayaq məntəqələrinə dəvət olunması, problem mövzular ətrafında təhlillərin təşkili;
- dərslərdə kollektiv iştirak, konkret metodikanın aprobasiyası, nəticələrin təşkili;
- kadr hazırlığı, ixtisasartırma və yenidənhazırlanma təhsilində tətbiq olunan plan və proqramlara, eləcə də yeni dərslik və dərs vəsaitlərinə dair əsaslandırılmış təkliflərin verilməsi;
- «öyrədənləri öyrədən» statuslu müəllim və metodistlərlə diskusiyaların keçirilməsi;
- daimi özünütəhsil.

Təkmilləşdirmə daha geniş anlayış olmaqla, əlavə pedaqoji təhsilin yuxarıda göstərilən digər tərkib hissələrinə təkanverici proses xarakteri daşıyır, özünütəhsil formasında müəllim hazırlığının fasiləsizliyini təmin edir. Pedaqoji kadrların mütəmadi olaraq təkmilləşdirilməsi gələcək ixtisasartırma və yenidənhazırlanma təhsilini formalaşdırır, müəllimlərin ilkin hazırlığı prosesində mövcud olan çatışmazlıqların aradan qaldırılmasını və onların hazırlığının keyfiyyətcə yüksək səviyyədə olmasını təmin edir.

Dərəcələrin yüksəldilməsi dedikdə, pedaqoji orta-ixtisas müəssisələrini bitirmiş və kiçik mütəxəssis dərəcəsi almış pedaqoji kadrların uyğun ixtisaslar üzrə qısamüddətli təhsil proqramları (təhsil müddəti bir tədris ilindən çox olmamaqla) vasitəsilə bakalavr səviyyəsinə yüksəldilməsi nəzərdə tutulur. Dərəcələrin yüksəldilməsi üzrə təhsil proqramları pedaqoji ali təhsil müəssisələri və ali kateqoriyalı əlavə pedaqoji təhsil müəssisələri tərəfindən həyata keçirilir.

İkinci pedaqoji təhsil ilkin baza peşə-təhsili proqramı ilə yenidən əldə ediləcək pedaqoji ixtisasın baza təhsil proqramı arasındakı fərq bir tədris ilinə hesablanmış saatdan çox olduqda, mütəxəssislərə verilən əlavə pedaqoji təhsilə deyilir. İkinci pedaqoji təhsil əlavə ali (orta) ixtisas təhsili almaq haqqında Əsasnamə ilə tənzimlənir. Lakin bu halda da təhsil proqramlarına pedaqoji baza-peşə təhsili proqramlarında olan fənn blokları daxil edilir.

2.10.4.2. Əlavə pedaqoji təhsilin məqsəd və vəzifələri

Əlavə pedaqoji təhsil sisteminin fəaliyyəti aşağıdakı əsas məqsədlərin yerinə yetirilməsinə yönəldilir:

- təhsil xidmətləri sistemi və şəxsi təhsil yolu ilə hər bir pedaqoji kadrın fasiləsiz pedaqoji təhsilə olan tələbatının müntəzəm formalaşdırılması və təmin edilməsi;
- pedaqoji kadrların yaradıcı potensialının inkişaf etdirilməsi və onların peşə-şəxsiyyətinin özünütəsdiqi;
- cəmiyyətin yüksək səviyyəyə malik pedaqoji kadrlar və rəhbər pedaqoji işçilərlə təmin edilməsi;
- pedaqoji işçilərin sosial müdafiəsi və sosial reabilitasiyasının təminatı;

– pedaqoji kadrların və rəhbər pedaqoji işçilərin ixtisasının artırılması və yenidən hazırlanması yolu ilə hər cür funksional savadsızlığın ləğv edilməsi;
– təhsilin digər pillələri ilə birlikdə cəmiyyətin intellektual və mənəvi potensialının yüksəldilməsi;
– cəmiyyətin hər bir üzvünün pedaqoji təhsillə bağlı konstitusion hüquqlarının qorunması;
– ölkənin elmi-pedaqoji və rəhbər pedaqoji kadr potensialının gücləndirilməsi.

Bu məqsədlərə nail olunması üçün əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi sisteminin vəzifələri aşağıdakılardır:
– əlavə pedaqoji peşə təhsilinin diferensiallaşdırılmış şəkildə təşkil edilməsinə, müəllimlərin dərəcələrinin yüksəldilməsinə, ixtisaslarının artırılmasına və yenidən hazırlanmasına, peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədi ilə özünütəhsilinə və özünütərbiyəsinə, eyni zamanda elmi cəhətdən püxtələşməsinə, stajkeçməsinə imkan verən təhsil müəssisələri və strukturları sisteminin yaradılması və ya inkişaf etdirilməsi;
– pedaqoji fəaliyyətin (elmi-metodiki, pedaqoji, informasiya və s.) özünütəhlilinin kompleks təmin edilməsi;
– müəllimlərin tədqiqatçılıq fəaliyyətinin elmi-metodiki təminatı.

2.10.4.3. Əlavə pedaqoji təhsil sisteminin fəaliyyət formaları

Əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi müəllimlərin və pedaqoji təhsil sferasının digər subyektlərinin təhsildə yaradıcı fəaliyyətə dörd səviyyədə hazırlanması şəklində həyata keçirilir:
– müəllimlərin, metodistlərin, rəhbər işçilərin və digər pedaqoji kadrların praktiki fəaliyyət istiqaməti üzrə ixtisasının artırılması və təkmilləşdirilməsi;
– pedaqoji kadrların elmi tədqiqatçılıq fəaliyyəti sahəsində ixtisasının artırılması və təkmilləşdirilməsi;
– pedaqoji və qeyri-pedaqoji ixtisaslı kadrların pedaqoji ixtisaslar üzrə yenidən hazırlanması;
– qısamüddətli pedaqoji təhsil proqramları üzrə təhsil səviyyəsinin və dərəcənin yüksəldilməsi.

Əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi aşağıdakı modellər üzrə həyata keçirilir:

– ixtisasartırma və ya baza peşə-ixtisas təhsili müəssisələrində treninqlər;
– məktəb şəraitində treninqlər;
– kaskad modeli üzrə treninqlər (öyrədənlərin öyrədilməsi və müəllimlərin dayaq məntəqələri vasitəsilə ixtisasartırma və təkmilləşmə proseslərinə cəlb edilməsi);
– texnologiyalara əsaslanan treninqlər (video, radio, televiziya və s);
– məsafədən (distant) təhsil;
– mentorluq;
– şəxsi tədqiqata əsaslanan ixtisasartırma və təkmilləşmə;
– müxtəlif təşkilatlar tərəfindən ixtisasartırma sistemindən kənar keçirilən kurslar və treninqlər.

Əlavə pedaqoji təhsil sistemi, həmçinin ümumtəhsil məktəblərinin yuxarı sinifləri üzrə aparılan peşəyönümü işlərini də əhatə edir.

2.10.5. Sosial peşəkarlığın inkişaf etdirilməsi (özünütəsdiq, özünüreallizə)

Bu mərhələnin məqsədi yenilikçiliyə meyilli pedaqoji fəaliyyət vasitələri ilə sosial mühitə təsir edərək, onu dəyişmək üçün müəllimin qabiliyyətlərinin formalaşdırılmasından ibarətdir.

Bu mərhələnin vəzifələri aşağıdakılardan ibarətdir:

– təhsilin inkişafı problemlərinin həll edilməsi üçün təhsil müəssisələrinin kolektivlərinin, sosial-pedaqoji mühitin ayrı-ayrı qruplarının, elmi-pedaqoji və digər kollektivlərin kollektiv yaradıcı fəaliyyətlərinin təşkili və elmi-metodiki cəhətdən təmin edilməsi;
– təhsilin inkişafının birgə idarə edilməsi üçün müəllimlərin, təhsil sisteminin rəhbərlərinin, sosial pedaqoji mühitin subyektlərinin peşə hazırlığı ilə məşğul ola biləcək təhsil strukturları (müəssisələr, komplekslər və s.) sisteminin yaradılması.

2.11. Müəssisələr arasında əlaqələr

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində ümumtəhsil məktəbləri ilə pedaqoji təhsil müəssisələri, həmçinin fasiləsiz pedaqoji təhsil müəssisələrinin özləri arasındakı əlaqələrin gücləndirilməsi aşağıdakı yollarla həyata keçirilir:

1) ümumtəhsil məktəbləri və ilkin müəllim hazırlığı müəssisələri arasında:
– pedaqogika və metodika kafedralarının pedaqoji təcrübə həyata keçirilən məktəblərlə əlaqələrinin genişləndirilməsi;
– qabaqcıl müəllimlərin ictimai əsaslarla pedaqoji təcrübə prosesinə cəlb edilməsi;
– gənc müəllimlərin fəaliyyətinin dəstəklənməsi və nəzarətdə saxlanılması məqsədi ilə qabaqcıl müəllimlərin və universitet metodistlərinin ictimai əsaslarla prosesə cəlb edilməsi;
– universitet müəllimlərinin məktəblərdə tətbiqi tədqiqatlar aparması, o cümlədən ixtisas fənləri və seçmə fənlər üzrə mühazirələr oxuması;
– proqramların uyğunlaşdırılması;
2) ilkin müəllim hazırlığı və əlavə pedaqoji təhsil müəssisələri arasında:
– baza kafedralarının fəaliyyətinin stimullaşdırılması və gücləndirilməsi;
– universitet müəllimlərinin ixtisasartırma və yenidənhazırlanma təhsili prosesinə cəlb edilməsi;
– ixtisasartırma mentorlarının baza kafedraları və universitet metodistlərinin ixtisasartırma müəssisələri ilə əlaqələrinin genişləndirilməsi;
– proqramların uyğunlaşdırılması;
3) ümumtəhsil məktəbləri və əlavə pedaqoji təhsil müəssisələri arasında:
– dayaq məntəqələrinin rolunun gücləndirilməsi və onlara ixtisasartırma müəssisələri tərəfindən maliyyə dəstəyinin və əlavə səlahiyyətlərin verilməsi;
– metodiki kabinetlərin məktəblərdə yerləşdirilməsi;
– təcrübəli müəllimlərin və mentorların prosesə cəlb edilməsi;
– məktəb əsaslı ixtisasartırma modelinin inkişaf etdirilməsi;
– proqramların uyğunlaşdırılması.

2.12. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığında distant təhsil məsələləri

2.12.1. Distant pedaqoji təhsilin ümumi xarakteristikası

Distant pedaqoji təhsil (DPT) distant təhsilin (DT) tərkib hissəsi olmaqla, fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı prosesində distant təhsilin texnologiyalarının tətbiqini nəzərdə tutur.

DPT-in texnologiyasından fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının bütün səviyyələrində, pillələrində və formalarında istifadə edilə bilər.

DPT-in 3 əsas texnologiyası mövcuddur:

– Keys texnologiyasında tədris-metodik materiallar ciddi strukturlaşdırılır, xüsusi «keys» formasında komplektləşdirilir, müstəqil mənimsənilməsi üçün öyrənənə göndərilir; öyrənənlə məsləhətçi-müəllim, tyutor arasında müntəzəm məsləhətləşmə aparılır;
– TV texnologiyasında tədris prosesi telemühazirələr əsasında həyata keçirilir, müəllim və tyutorla sistematik məsləhətləşmələr aparılır;
– şəbəkə texnologiyasında öyrənənləri tədris-metodiki materiallarla təmin etmək, həmçinin öyrənən və öyrədən arasında interaktiv əlaqə yaratmaq məqsədi ilə internet şəbəkəsindən istifadə edilir; bu halda lokal və qlobal şəbəkə texnologiyalarından istifadə edilir.

Sonuncu halda distant dialoq internet resursları vasitəsilə həyata keçirilir. Təlim ünsiyyətinin əsasını xüsusi hazırlanmış və distant təhsil kursu şəklində tərtib edilmiş vasitələr təşkil edir.

DPT sistemində bu texnologiyaların hər üçünuün tətbiqi mümkündür. Azərbaycan Respublikasında DPT sisteminin inkişafının ilkin mərhələsində əsasən Keys texnologiyasının tətbiqi nəzərdə tutulur. DPT sistemində Keys texnologiyasının tətbiqi üzrə təcrübə toplandıqdan sonra, bu əsasda DPT-nin internet və TV texnologiyası yaradılır və inkişaf etdirilir.

DPT-də öyrənənlərə informasiyalar aşağıdakı formalarda təqdim edilir:

– çap materialları;
– elektron materialları (kompyuter təhsil-mühiti, elektron dərslik və s.);
– audio-video məhsulları;
– televerilişlər.

Bu tədris informasiyaları aşağıdakı daşıyıcılarda yerləşdirilir:

– kitablar;
– disklər;
– audio-video kasetlər.

DPT-də tədris metodik kompleks («Keys»), kompyuter, televizor, audio-video maqnitofon və multimediya texnikası kimi təlim vasitələrindən istifadə olunur:

– DPT-də təhsil məlumatlarının ötürülməsində əsasən müasir telekommunikasiya və onların nəqli vasitələrindən istifadə olunur. Bunlar vasitəsi ilə təlim prosesi aşağıdakılarla təmin edilir: zəruri tədris-metodik materiallar;

– öyrədən və öyrənən arasında interaktiv əlaqə;
– distant təhsil sistemi daxilində idarəedici informasiya mübadiləsi;
– beynəlxalq informasiya şəbəkəsinə çıxış.

2.12.2. Distant pedaqoji təhsilin tətbiqinin məqsəd və vəzifələri

Ümumiyyətlə, DT sisteminin yaradılmasının əsas məqsədi mərkəzdə və regionlarda əhalinin müxtəlif təbəqələrinə bərabər təhsil imkanları yaratmaq, qabaqcıl universitetlərin elmi-pedaqoji potensialından səmərəli istifadə etməklə, təhsilin keyfiyyətini yüksəltməkdir. DT sistemi öyrənənlərə həm baza təhsili almağa, həm də əsas fəaliyyəti ilə paralel əlavə təhsil almağa imkan yaradır. Nəticə etibarı ilə DT sistemi cəmiyyətdə təhsil mühitinin yeniləşməsini, vətəndaşların təhsil ehtiyaclarının və təhsil hüquqlarının bərqərar olmasını təmin edir.

Yuxarıda qeyd edilənlərlə yanaşı, distant pedaqoji təhsilin tətbiqinin əsas məqsədi həm də gələcək müəllimləri yeni informasiya mühiti, yeni təlim texnologiyaları ilə bilavasitə təlim prosesində tanış etməkdən, bu texnologiyalar vasitəsi ilə onlara pedaqoji bilikləri daha səmərəli üsullarla mənimsətməkdən və onları gələcəkdə öz pedaqoji fəaliyyətlərində bu texnologiyalardan sistemli istifadə etməyə hazırlamaqdan ibarətdir.

DPT müəllim hazırlığı texnologiyası olaraq, təhsilin keyfiyyətini müasir İKT vasitələrinin intensiv tətbiqi ilə daha da yüksəldir. DPT sistemi informasiya cəmiyyətində işləməyə hazır olan yeni tip müəllimin – yüksək informasiya mədəniyyətinə malik, müstəqil şəkildə öz informasiya ehtiyaclarını təmin etməyə qadir, müasir İKT vasitələrindən sərbəst istifadə edə bilən pedaqoji kadrların hazırlanmasında mühüm rol oynayır. Bu təlim texnologiyası təbii olaraq fasiləsiz müəllim hazırlığının mövcud sistemlərinə inteqrasiya edilir, onları təkmilləşdirir, ümumiyyətlə fasiləsiz təhsil prosesini bütövlükdə inkişaf etdirir.

2.12.3. Distant pedaqoji təhsilin tətbiqinin mərhələləri DPT-in tətbiqi 4 əsas mərhələdə həyata keçirilir

1. Təşkilati mərhələ. Bu mərhələdə DPT-in fəaliyyətini təmin edən strukturlar və DPT-in mərhələli İnkişaf Proqramı yaradılır, DPT üçün kadr hazırlığı aparılır.

2. İlkin mərhələ. Bu mərhələdə İnkişaf Proqramının icrasına başlanılır, DPT kursları üçün mərkəzi fond yaradılır, ayrı-ayrı pilot layihələrdə bu kursların eksperimental tətbiqi həyata keçirilir. Proqramın hər mərhə-

ləsinin sonunda aşağıdakı göstəricilər üzrə nəticələrin dinamik artımı gözlənilir:

– DPT tədris kurslarının sayı;
– distant formada təhsil alanların sayı;
– DPT üzrə inzibati və texniki işçilərin sayı;
– DPT-yə müvəqqəti cəlb edilmiş professor-müəllim heyətinin sayı;
– regionlar üzrə DPT qurumlarının sayı.

3. Aralıq mərhələ. Bu mərhələdə DPT-in respublikada əhatəli inkişafı üçün şərait və müvafiq infrastruktur yaradılır, müxtəlif səviyyəli DPT kurslarının sayı artırılır, zəruri bilik-bacarığa malik pedaqoji və texniki kadrlar hazırlanır.

4. Vahid DT sisteminin tam inkişaf mərhələsi. Bu mərhələ DPT-in qismən özünümaliyyələşdirmə rejiminə keçməsi ilə xarakterizə olunur və təhsil xidmətlərinin bir qismi müsabiqə əsasında həyata keçirilir.

2.13. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində keyfiyyətin təminatı və idarə olunması fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində keyfiyyətin təminatı və idarə olunması respublikanın təhsil sahəsində keyfiyyətin təminatı və idarə olunması sisteminin tərkib hissəsi olmaqla, pedaqoji təhsilin keyfiyyətinin yüksəldilməsini və müəllimlərin peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsini, ümumiyyətlə, təlim və tədris prosesinin keyfiyyətinin yüksəldilməsini təmin edir.

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində keyfiyyətin təminatı aşağıdakı elementləri əks etdirir:

– müəllim hazırlığı ilə məşğul olan təhsil müəssisələrinin öz fəaliyyətləri, onun məzmunu, malik olduqları ehtiyatlar barədə maraqlanan tərəflərə, xususən də, öyrənənlərə düzgün və dəqiq məlumat verməsi;
– həmin təhsil müəssisələrinin öyrənənlər üçün təmin etdikləri imkanların təsvir olunması;
– davranış, təhsil və qiymətləndirilmə baxımından öyrənənlərdən tələb olunan keyfiyyətlərin müəyyən olunması;
– təhsil müəssisələrinin bütün işçi heyətinin yüksək səviyyədə təkmilləşdirmədə iştirakının təmin edilməsi;
– müəllim hazırlığı ilə məşğul olan təhsil müəssisələrində öyrədənlər üçün müxtəlif metodlardan istifadə imkanlarının təmin olunması və onların göstərdikləri fəaliyyətə görə qiymətləndirilməsi;

– keçilən dərslərin, proqramların öyrənənlər tərəfindən qiymətləndirilməsi.

Keyfiyyətin təminatı sisteminə əsasən pedaqoji təhsil müəssisələrinin müəllim heyətinin peşəkarlıq səviyyəsi inkişaf etdirilir.

Keyfiyyətin idarə olunması aşağıdakı proseslərin bir-biri ilə əlaqəli və ardıcıl həyata keçirilməsi yolu ilə əldə edilir:

– məlumatların toplanılması və təhlili;
– keyfiyyətin monitorinqi, attestasiya və akkreditasiya prosesləri;
– qiymətləndirmə və dəyərləndirmə;
– qərarların qəbul edilməsi, stimullaşdırma və gələcək fəaliyyətin inkişaf etdirilməsi üzrə layihələndirmə.

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində keyfiyyətin monitorinqi və qiymətləndirilməsi fasiləsiz və davamlı olaraq həyata keçirilir və onun nəticələri dərhal əks əlaqəni təmin etməklə, növbəti mərhələdə hansı dəyişikliklərin edilməsini bilməyə imkan yaradır. Müəllim hazırlığı prosesində öyrənmə fəaliyyətlərinin qiymətləndirmə fəaliyyətləri ilə əlaqəli surətdə birləşdirilməsi yolu ilə müsbət irəliləyiş mühiti yaradılır. Müəllim hazırlığının nəticələri qiymətləndirilərkən öyrənənlərin nailiyyətlərinin diaqnostik, aralıq və yekun qiymətləndirilmə üsullarının nə dərəcədə mənimsənilməsi əsas meyarlardan biri kimi qəbul edilir.

2.13.1. Məlumatların toplanılması və təhlili

Monitorinq, təhlil və qiymətləndirmənin aparılması üçün məlumatların toplanılmasında daxili və xarici mexanizmlərdən istifadə edilir. Məlumatların doğruluğu, düzgünlüyü və dəqiq təhlili məlumatlandırıcı qaynaqların və toplanılan məlumatların kifayət qədər çox olması ilə təmin edilir. Məlumatlar maraqlı tərəflərin standartlaşdırılmış məlumatverici sistemi, müşahidələri və sair əsasında, həmçinin 2-ci dərəcəli mənbələr (məsələn, kadrlar şöbəsinin məlumatları, elmi məqalələrə verilən qiymət, valideynlərin və şagirdlərin proqramlara və təlim yanaşmalarına dair fikirləri və s.) əsasında toplanılır. Məlumatların toplanılması və təhlili üzrə lazım olan bilik və bacarıqlar müvafiq işçi heyəti üçün treninqlər keçirilməsi yolu ilə əldə edilir.

2.13.2. Keyfiyyətin monitorinqi, qiymətləndirilməsi və dəyərləndirilməsi

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində keyfiyyətin monitorinqi və qiymətləndirilməsi həm bir-biri ilə, həm də müəllimlərin

fəaliyyətlərinin keyfiyyətinin yüksəldilməsi ilə birbaşa əlaqədar olan aşağıdakı səviyyələrdə aparılır:

– təhsil müəssisələrinin monitorinqi və qiymətləndirilməsi;
– təhsil proqramlarının monitorinqi və qiymətləndirilməsi;
– müəllim fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi.

Hər üç səviyyədə monitorinq fasiləsiz, ümumiləşdirilmiş və bir-biri ilə əlaqələndirilmiş şəkildə aparılır. Monitorinq hər bir səviyyə üzrə aşağıdakıların müəyyən edilməsi məqsədi ilə keçirilir:

– təhsil müəssisələri üzrə:
– fiziki və texniki resursların, o cümlədən kadr potensialının əvvəlcədən müəyyən edilmiş milli normalara (standartlara) uyğunluğunun müəyyənləşdirilməsi;
– fəaliyyətin milli normalara uyğunluğunun müəyyən edilməsi;
– müəssisələrarası qarşılıqlı əlaqələrin müəyyən edilməsi üçün müqayisəli təhlillərin aparılması;
– keyfiyyətin və fəaliyyətin beynəlxalq standartlara uyğunluğuna zəmanət verilməsi məqsədi ilə resurslar və fəaliyyətlər üzrə milli normaların beynəlxalq normalarla müqayisə edilməsi;
– təhsil proqramları üzrə:
– proqramın strukturunun, fənn bloklarına, ayrı-ayrı fənlərə və praktiki tədrisə ayrılan vaxtın müəyyən edilməsi;
– öyrənənlərin və öyrədənlərin iş yükünün nəzərdən keçirilməsi və Bolonya Bəyannaməsinin tələblərinə uyğun düzəlişlərin edilməsi;
– pedaqoji ixtisaslar üzrə qəbul kriteriyalarının müəyyən edilməsi və yüksəldilməsi;
– ilkin hazırlıq, diplomdan sonrakı və əlavə pedaqoji təhsil proqramları arasındakı varisliyin və ardıcıllığın müəyyən edilməsi;
– kurikulumun məzmununu nəzərdən keçirməklə, onların müəllim hazırlığına və məktəbdə tədris edilən fənlərə nə dərəcədə uyğun olmasının müəyyən edilməsi;
– mövcud sistemi nəzərdən keçirməklə, ixtisasartırma modullarına olan ehtiyacların müəyyənləşdirilməsi;
– müəllim fəaliyyəti üzrə:
– müəllimlərin, professor-müəllim heyətinin və təlimatçıların fənn və yeni tədris metodları üzrə biliklərinin, pedaqoji peşəkarlıqlarının,

sinif tədqiqatlarının nəzərdən keçirilməsi və çatışmazlıqların treninqlər yolu ilə aradan qaldırılması;
- yaxşı fəaliyyətin təsdiqi kimi, öyrənənlərin fəaliyyətlərinin və bacarıqlarının yekun dəyərləndirilməsi;
- ixtisasartırma, peşə birlikləri, cəmiyyətlə ünsiyyət və sair yollarla özünüinkişaf imkanlarının nəzərdən keçirilməsi və bunun üçün standartların təsis edilməsi;
- elmi-tədqiqatların aparılması və məqalələrin çap edilməsi, bu nəticələrin monitorinq prosesinə daxil edilməsi.

Hər üç səviyyədə monitorinq sistemin və işçi heyətinin fəaliyyətinin inkişafına kömək etmək və məsləhət vermək məqsədi daşıyır. Monitorinq bazar iqtisadiyyatının tələblərinə uyğun aparılır.

Monitorinqin nəticələri hər bir səviyyə üzrə ətraflı və dəqiq məlumatların əldə edilməsinə, sistemin güclü və zəif cəhətlərinin dövlət və cəmiyyət tərəfindən başa düşülməsinə və obyektiv qiymətləndirilməsinə imkan yaradır. Ehtiyacların öyrənilməsi və fəaliyyətin planlaşdırılması məqsədi ilə diaqnostik qiymətləndirmədən, güclü və zəif cəhətlərin əvvəlcədən müəyyən edilərək maraqlı tərəflərə məsləhətlər verilməsi üçün aralıq qiymətləndirmədən (prosesin qiymətləndirilməsi), əldə edilən nailiyyətlərin və gələcək fəaliyyətin müəyyən edilməsi üçün yekun dəyərləndirmədən istifadə edilir. Monitorinq və qiymətləndirmə prosesi və vasitələrinin fasiləsiz nəzərdən keçirilməsi, təkmilləşdirilməsi və uyğunlaşdırılması üçün metaqiymətləndirmədən (monitorinq və qiymətləndirmə sisteminin özünün qiymətləndirilməsi) istifadə edilir.

Monitorinq və qiymətləndirmənin aparılması üçün aşağıdakı sahələr üzrə milli standartlar və indikatorlar hazırlanır:
- müəssisələr üçün yerli kontekstə uyğun gələn minimum standartlar və indikatorlar: sinif otaqları, kitabxana, tələbələrin dərsə davamiyyəti, təhsil haqqı, məzunların işlə təmin olunmaları, tələbə və professorların elmi məqalələri, bu məqalələrin təsir faktoru və s.;
- məktəbəqədər müəssisə tərbiyəçilərinin, ibtidai, əsas və orta məktəb müəllimlərinin ilkin hazırlıq kurikulumları üzrə minimum standartlar və indikatorlar;
- müxtəlif səviyyələr və fənlər üzrə ümumi bacarıq və vərdişlərin inkişaf etdirilməsi üzrə standartlar və indikatorlar;

– məktəblərdə və pedaqoji təhsil müəssisələrində çalışan müəllimlərin, təlimatçıların və professor-müəllim heyətinin özünüqiymətləndirməsinin, yenilikçi təşəbbüslərinin, ictimai fəaliyyətlərdə iştirakının və öyrənənlərin nailiyyətlərinin fasiləsiz monitorinqi üçün standartlar;
– müqayisəli təhlillərin aparılması üçün dünya praktikasında olan minimum standartlar və indikatorlar. Monitorinq və qiymətləndirmə prosesində sistemdaxili monitorinq və qiymətləndirmə ilə yanaşı, kənar monitorinq və qiymətləndirmə üsullarından da istifadə edilir. Kənar monitorinq və qiymətləndirmə prosedurları müvafiq lisenziyası olan dövlət və qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilir.

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığında attestasi-ya və akkreditasiya prosesləri respublikada təhsil sahəsində vahid milli attestasiya və akkreditasiya sisteminin tərkib hissəsi olmaqla, müəllimlərin akkreditasiyasını da nəzərdə tutur.

2.14. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin idarə edilməsi və resurslarla təmin olunması

2.14.1. Sistemin idarə edilməsinin və resurslarla təmin olunmasının ümumi konseptual əsasları.

Fasiləsiz pedaqoji təhsil sisteminin yaradılması təhsilin idarə edilməsi, maliyyələşdirilməsi, maddi-texniki, elmi-metodiki, hüquqi, təşkilati və kadr potensialı ilə təmin edilməsi üçün yeni prinsiplərin tətbiqini tələb edir.

Fasiləsiz pedaqoji təhsilin idarə edilməsinin əsas məqsədi ölkə üçün pedaqoji kadr hazırlığında sosial sifarişin müəyyənləşdirilməsi və onun həyata keçirilməsi üçün şərait yaradılmasından, fasiləsiz pedaqoji təhsil sisteminin təhsil strukturunun fəaliyyətinin və fasiləsiz pedaqoji təhsil problemləri üzrə elmi-tədqiqatların koordinasiyasından və inteqrasiyasından ibarətdir.

İdarəetmənin vəzifələri aşağıdakılardır:

– ölkənin təhsil praktikasının (təhsil sahəsi üzrə əldə edilmiş nailiyyətlərin) təhlili və onun kadrlarla təmin edilməsi;
– sifarişin müəyyən edilməsi və fasiləsiz pedaqoji təhsilin məzmununun dəyişdirilməsi üçün şərait yaradılması;
– fasiləsiz pedaqoji təhsilin vahid sisteminin yaradılması;

– fasiləsiz pedaqoji təhsil sistemində zəruri struktur dəyişikliklərinin aparılması;
– fasiləsiz pedaqoji təhsil üzrə dövlət siyasətinin reallaşdırılması üçün iqtisadi və idarəetmə mexanizmlərinin işlənilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
– fasiləsiz pedaqoji təhsilin bütün pillələrində pedaqoji kadr hazırlığının keyfiyyətinin idarə edilməsi.

Bu vəzifələrin həll edilməsi üçün idarəetmə orqanları aşağıdakıları həyata keçirir:

– təhsil sferasının kadrlarla təmin edilməsinin mövcud vəziyyətinin monitorinqini aparır;
– fasiləsiz pedaqoji təhsilin həyata keçirilməsi və inkişafı problemləri üzrə proqramların və məqsədli layihələrin işlənilməsini, koordinasiyasını və reallaşdırılmasını təşkil edir;
– məqsədli layihələrin icraçılarını müəyyən edir və maliyyələşdirir;
– pedaqoji təhsil müəssisələrinin rəhbərləri və təhsilin ərazi idarəetmə orqanları ilə əlaqə yaradır;
– vaxtaşırı proqramların həyata keçirilməsini qiymətləndirir və korrektə edir.

Fasiləsiz pedaqoji təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi şəxsiyyətin fasiləsiz pedaqoji təhsilin bir mərhələsindən digərinə keçməsini, onun maddi və mənəvi cəhətdən fasiləsiz təhsilə həvəsləndirilməsini təmin etmək üçün yeni normativ aktların, təhsil siyasətinin və təşkilati qərarların qəbul edilməsini tələb edir.

Müəllimin fasiləsiz təhsilinin təmin edilməsi üçün təhsil prosesinin məzmununun və texnologiyasının işlənilməsi fasiləsiz təhsil sisteminin bütün işçiləri arasında əlaqəli fəaliyyətin aparılmasını tələb edir. Belə əlaqəli fəaliyyətin təşkili və subyektlər arasında qarşılıqlı əlaqə mexanizminin işlənilməsi onların rəsmi və qeyri-rəsmi birləşməsini, hüquqlarının və statuslarının müəyyən edilməsini və təşkilati cəhətdən maliyyələşdirilməsini nəzərdə tutur.

Təşkilati cəhətdən bu problem fasiləsiz pedaqoji təhsil sisteminə daxil olan təhsil müəssisələrinin elmi-pedaqoji tədris birliklərinin və Fasiləsiz Pedaqoji Təhsil üzrə Koordinasiya Şurasının (FPTKŞ) yaradılması yolu ilə həll edilir.

Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil sistemi Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, həmçinin dövlət-ictimai və ictimai birliklər və təşkilatlar (Təhsil Problemləri İnstitutu, Əlavə Təhsil Problemləri üzrə Tədris-Koordinasiya Şurası, Fasiləsiz Pedaqoji Təhsil üzrə Koordinasiya Şurası, Ali Təhsil Müəssisələrinin Rektorlar Şurası və s.) tərəfindən idarə olunur.

Fasiləsiz pedaqoji təhsil sisteminin maddi-texniki və informasiya təchizatı dedikdə, hər şeydən əvvəl, vahid pedaqoji-informasiya mühitinin yaradılması, təhsil müəssisələrinin maddi-texniki bazasının inkişaf etdirilməsi, həmin sistemin informasiya texnologiyaları və çoxpilləli biliklər sisteminə uyğun olan tədris-metodiki komplekslərlə təmin edilməsi nəzərdə tutulur. Bu tədbirlər dövlət tərəfindən dəstəklənir. Eyni zamanda dövlət müəllim sənətinin prestijinin, müəllimlərin və digər pedaqoji işçilərin sosial statusunun yüksəldilməsi üçün şərait yaradır.

2.14.2. Rəhbər pedaqoji kadr (menecer) hazırlığı

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin səmərəli idarə olunması üçün rəhbər pedaqoji kadr (menecer) hazırlığı fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı proqramının vacib tərkib hissəsi kimi təşkil edilir. Bu vəzifənin həyata keçirilməsi üçün fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində təhsil menecerlərinin hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması həyata keçirilir. Fasiləsiz pedaqoji təhsilin baza peşə-ixtisas təhsili pilləsində təhsil menecerlərinin hazırlanması pedaqoji ali təhsil müəssisələrində müvafiq ixtisasların açılması və müəllim hazırlığı proqramlarına təhsilin idarə olunması üzrə fənlərin daxil edilməsi ilə həyata keçirilir. Fasiləsiz pedaqoji təhsilin diplomdan sonrakı və əlavə təhsil pillələrində təhsil menecerlərinin hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması pedaqoji ali təhsil müəssisələrində və əlavə pedaqoji təhsil müəssisələrində həyata keçirilir.

2.14.3. Distant pedaqoji təhsilin yaradılması və idarə edilməsi Respublikada DT sisteminin yaradılmasında ilk addım Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən DPT üzrə komissiyanın yaradılmasıdır

DPT üzrə komissiya bu Konsepsiya əsasında fəaliyyət göstərərək, fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sahəsində DT texnologiyalarını

tətbiq edir. DPT komissiyasının fəaliyyəti Fasiləsiz Pedaqoji Təhsil üzrə Koordinasiya Şurası tərəfindən əlaqələndirilir.

DPT komissiyasının fəaliyyətinin əsas istiqamətlərindən biri DPT portalının yaradılması, təkmilləşdirilməsi və normal fəaliyyəti üçün tövsiyələr hazırlamaqdır. Komissiyanın rəhbərliyi ilə yerlərdə DPT-in praktiki tətbiqi ilə məşğul olan qurumlar yaradılır. Həmin qurumlar Komissiyanın rəhbərliyi ilə, bu Konsepsiya və DPT-nin İnkişaf Proqramı çərçivəsində fəaliyyət göstərərək, respublika üzrə DPT-in inkişafı, cari idarə edilməsi ilə məşğul olub, aşağıdakı əsas funksiyaları icra edirlər:

- DPT üzrə kadrların hazırlanması və yenidən hazırlanması ilə məşğul olan strukturların yaradılması üçün tövsiyələr vermək;
- DPT strukturlarının fəaliyyətinə verilən tələbləri müəyyənləşdirmək, onların attestasiyadan keçməsini təmin etmək;
- DPT kadrlarının attestasiyasının meyar və prinsiplərini müəyyənləşdirmək, bu əsasda kadrları attestasiya etmək;
- gələcəkdə vahid informasiya təhsil mühitinin altsistemi kimi fəaliyyət göstərəcək DPT testləşdirmə sistemi modulunun tələblərini formalaşdırmaq;
- DPT kurslarının hazırlanması məqsədi ilə fiziki və hüquqi şəxslərə sifarişlər vermək üçün təkliflər hazırlamaq, DPT kurslarını sertifikatlaşdırmaq, onların çoxaldılması və istifadəsi əsasında DPT kurslarının mərkəzi fondunu formalaşdırmaq, mərkəzi fondun strateji marketinqini və inkişafını planlaşdırmaq;
- DPT-in elmi-metodiki, texniki, texnoloji, hüquqi, təşkilati və sair təminatı sahəsində elmi-tədqiqat və mühəndis-texniki işləri əlaqələndirmək;
- DPT-in inkişafı üçün büdcədənkənar investisiyalar cəlb etmək;
- DPT-in ilkin fəaliyyətini qurmaq üçün zəruri hüquqi baza yaratmaq.

DPT Komissiyası elmi və elmi-metodiki fəaliyyətlə məşğul olmaq məqsəqdi ilə xüsusi elmi-metodiki komissiyalar yaradır. Bu komissiyalar DPT komissiyasının rəhbərliyi altında aşağıdakı funksiyaları yerinə yetirir:

DPT kadrlarının hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması məqsədi ilə tədris planı və proqramlarının attestasiya qaydasını, tərtib kriteriyalarını müəyyən edir.

DPT kurs və proqramlarının hazırlanması, yayılması, səmərəliliyinə nəzarətin vahid metodiki tələblərinin tətbiqinə nəzarət edir.

DPT-in tətbiqi ilə əlaqədar yaranan psixoloji-pedaqoji çətinlikləri aradan qaldırmaq üçün təkliflər verir.

2.15. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin maliyyələşdirilməsi

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemi dövlət büdcəsinin «Təhsil» bölməsində məqsədli şəkildə nəzərdə tutulmuş vəsaitlər və qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

2.16. Konsepsiyanın həyata keçirilməsi

Konsepsiyanın həyata keçirilməsi bu məqsədlə yaradılmış Fasiləsiz Pedaqoji Təhsil üzrə Koordinasiya Şurası (FPTKŞ) tərəfindən təmin edilir. Bu Şuraya Azərbaycan Respublikası Təhsil Nazirliyinin və təhsili idarəetmə orqanlarının nümayəndələri, fasiləsiz pedaqoji təhsil müəssisələrinin rəhbər işçiləri, Təhsil Problemləri İnstitutunun, təhsil sisteminə aid olan dövlət və ictimai təşkilatların nümayəndələri və ayrı-ayrı təhsil mütəxəssisləri daxil edilir.

Konsepsiyanın həyata keçirilməsi müddətində FPTKŞ-nın tərkibi və Nizamnaməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təşkil edilir və təsdiq olunur.

Konsepsiyanın aşağıdakı mərhələlər üzrə həyata keçirilməsi nəzərdə tutulur:

- I mərhələ – Konsepsiyanın həyata keçirilməsi üçün lazımi normativ-hüquqi bazanın yaradılması;
- II mərhələ – fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində struktur dəyişikliklərinin aparılması;
- III mərhələ – fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin bütün pillələrində varislik prinsipinə əsaslanan yeni kurikulumların hazırlanması;
- IV mərhələ – fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının yeni sisteminin pilot müəssisələrində tətbiqi və qiymətləndirilməsi;
- V mərhələ – fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının yeni sisteminin kütləvi tətbiqi.

Konsepsiyanın həyata keçirilməsi mexanizmi hər il aşağıdakı işçi sənədlərin hazırlanmasını nəzərdə tutur:

– Konsepsiyanın bütün icraçılarının birgə fəaliyyəti üçün koordinasiya planı;
– icraçıların funksiyaları, maliyyə mənbələri və həcmi göstərilməklə tədbirlər planından irəli gələn, həlli daha vacib işlərin siyahisi.
– Konsepsiyanın həyata keçirilməsinə nəzarəti Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir.

2.17. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının respublikanın təhsil sektorunun inkişafındakı rolu

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının respublikanın təhsil sektorunun inkişafındakı rolu aşağıdakılardan ibarətdir:

– təhsil sektorunun bütün sahələrinin səriştəli və yüksək peşəkarlığa malik pedaqoji kadrlarla təmin olunması üçün imkan yaranır;
– müəllimlərin peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi ümumi təhsilin keyfiyyətini yüksəldir;
– təhsilin idarə edilməsi üzrə yüksək səriştəli kadr potensialı hazırlanır və təhsil sektorunun bütün sahələri səmərəli idarə olunur;
– təhsil sektorunun digər sahələrində islahatların aparılması üçün stimul və zəmin yaranır;
– təhsil sektorunun Bolonya Bəyannaməsinin tələblərinə uyğunlaşdırılması prosesi ürətləndirilir;
– təhsil sahəsində tətbiqi tədqiqatlar genişləndirilir və təhsilin elmi, elmi-pedaqoji və elmi-metodiki təminatı gücləndirilir;
– distant pedaqoji təhsilin tətbiqi respublikada distant təhsilin yaradılması və inkişafı üçün sınaq və təcrübə mərhələsi rolunu oynayır. Bu mərhələdə yaradılması nəzərdə tutulan informasiya-təhsil mühiti, pedaqoji təhsil portalı, bəzi normativ-hüquqi sənədlər, distant təhsil üçün kadrların hazırlanması kursları, Keys texnologiyasının tətbiqi təcrübəsi, müxtəlif elektron kurslarının yaradılması, proqram və kursların attestasiyası və sair işlərin görülməsi gələcəkdə respublikada distant təhsilin sürətli inkişafına zəmin yaradır;

DPT-in inkişafı nəticəsində regionlarda və mərkəzi şəhərlərdə pedaqoji kadrlar müasir metodikalarla tanış olur və distant təhsil kurslarına cəlb edilirlər.

2.18. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının respublikanın sosial-iqtisadi inkişafındakı rolu

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının respublikanın sosial-iqtisadi inkişafındakı rolu aşağıdakı kimi xarakterizə olunur:

– ilkin pedaqoji təhsilin və müəllim hazırlığının tələbata uyğun düzgün planlaşdırılması və idarə olunması maliyyə vəsaitinin səmərəli istifadə edilməsinə imkan yaradır və faydasız maliyyə sərfini azaldır;
– müəllimlik sənətinin nüfuzu yüksəlir və müəllimlik peşəkar fəaliyyət növünə çevrilir;
– müəllimlərin sosial statusu güclənir və maddi vəziyyəti yaxşılaşır;
– ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, ölkənin sosial-iqtisadi, o cümlədən regionların və əmək bazarının inkişafının sürətləndirilməsi üçün zəmin yaradır;
– müəllimlər inkişaf edən cəmiyyətdə bazar iqtisadiyyatının tez-tez dəyişən tələblərinə və yeni sosial-iqtisadi şəraitə uyğunlaşmaq üçün fasiləsiz təhsil almaq imkanına malik olurlar;
– distant təhsilin və distant pedaqoji təhsilin inkişafı yeni iş yerlərinin yaradılmasına səbəb olur;
– distant təhsilin və distant pedaqoji təhsilin inkişafı vətəndaşların bir sıra xarici təhsil müəssisələrində və xaricdə yaşayan Azərbaycanlıların milli təhsil proqramları üzrə təhsil almasına imkan yaradır.

III HİSSƏ

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının strategiyası.

Bu hissədə fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində islahatların aparılması üçün prioritet sahələr üzrə həyata keçirilməsi nəzərdə tutulan strateji yanaşma və tədbirlər müəyyən edilmişdir.

3.1. Strateji yanaşma.

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı Konsepsiyasının həyata keçirilməsi və prioritet sahələr üzrə görüləcək işlərin müəyyən edilməsi üçün strateji yanaşma olaraq aşağıdakı prinsiplər əsas kimi qəbul edilmişdir:

– müəllim hazırlığına fasiləsiz bir proses kimi baxılması;
– kifayət qədər uzun müddəti əhatə edən mərhələli Tədbirlər Planının hazırlanması;

– islahatların bütün sistem miqyasında aparılması;
– baxılan sahədə islahatlar aparmaq üçün yerli təşəbbüslərin qəbul edilərək beynəlxalq təcrübəyə uyğunlaşdırılması;
– bütün prioritet sahələr üzrə idarəetmə imkanlarının yaradılması;
– mərkəzləşmə və əks-mərkəzləşmə prosesləri arasında balans yaradılması.

3.2. Prioritet sahələr üzrə həyata keçirilməsi nəzərdə tutulan strateji tədbirlər

3.2.1. Müəllim hazırlığı kurikulumunun keyfiyyəti

1. Kurikulumun quruluşu üzrə:
– müəllim hazırlığının ümumi iş yükü (dərs saatları) beynəlxalq standartlarla müqayisədə çox yüksəkdir və azaldılmalıdır;
– müəllim hazırlığı müəssisələrində təhsil alan tələbələrin dərs saatları nəzərdən keçirilməli və praktiki müəllim hazırlığını təmin edən fənlərə kifayət qədər vaxt ayrılmalıdır; dərs saatlarının təxminən 40 faizi praktiki müəllim hazırlığını təmin edən fənlərə, 45 faizi ixtisas fənlərinə və 15 faizi ümumi mədəni səviyyəni yüksəldən fənlərə ayrılmalıdır;
– müəllim hazırlığı proqramlarının quruluşuna və iş yükünə dair Bolonya Bəyannaməsinin əsas normativ məlumatları nəzərdən keçirilməli və proqramlar bu Bəyannamənin tələblərinə uyğunlaşdırılmalıdır;
– ekvivalentliyin təmin edilməsi məqsədi ilə bütün müəllim hazırlığı müəssisələrinin proqramlarının quruluşu və məzmunu yenidən nəzərdən keçirilməlidir;
– proqramların yeni strukturunun hazırlanması və Bolonya Bəyannaməsinin tələblərinə uyğun olaraq, kredit sistemi haqqında məlumatların verilməsi məqsədi ilə müvafiq müəllim hazırlığı müəssisələrinin kadrları üçün treninqlər keçirilməlidir.

2. Kurikulumun məzmunu üzrə:
– ümumiyyətlə, fənlərin, o cümlədən pedaqoji fənlərin məzmunu çox vaxt müəllimin məktəbdəki fəaliyyəti üçün faydalı olmadığından, yenidən nəzərdən keçirilməli və düzəlişlər edilməlidir;
– ilkin müəllim hazırlığı, diplomdan sonrakı və əlavə pedaqoji təhsil proqramlarında təhsilin idarə edilməsi və rəhbərlik (liderlik) üzrə biliklərin təmin edilməsi üçün məzmunda müvafiq dəyişikliklər aparılmalıdır;

– kurikulum müəllim standartlarının tələblərinə uyğun olaraq hazırlanmalı, müəllimin keyfiyyətini və peşəkarlıq səviyyəsini müəyyən edən monitorinq indikatorları bu standartlara uyğunlaşdırılmalıdır;
– fənlərin inteqrativ formada tədrisinə diqqət artırılmalıdır; bu, həm də müəllim hazırlığında hal-hazırda tədris olunan çoxlu sayda fənlərin sayının azaldılması üçün bir vasitə ola bilər;
– ilkin müəllim hazırlığı və ixtisasartırma kurikulumları arasında bağlılıq yaradılmalıdır;
– ixtisasartırma təhsili üzrə ilkin müəllim hazırlığında əldə edilmiş bilik və bacarıqlara əlavə olunanlar aydın müəyyən edilməlidir;
– proqramlar ictimaiyyət tərəfindən əldə edilə bilən, məntiqi və şəffaf olmalıdır;
– müəllim hazırlığının bütün səviyyələrində və pillələrində təlim üsulları yenidən nəzərdən keçirilməli, təlim və tədris praktikasına İKT də daxil olmaqla, yeni təlim üsulları və texnologiyaları daxil edilməlidir;
– az komplektli ucqar kənd məktəblərinin tələbatının ödənilməsi məqsədi ilə ibtidai sinif müəllimlərinin hazırlıq kurikulumuna çoxsinifli tədris elementləri də daxil edilməlidir;
– orta və əsas təhsil məktəbləri üçün müəllim hazırlığı kurikulumlarında qoşa fənlər üzrə müəllim hazırlığı imkanları genişləndirilməlidir;
– bu, həm ilkin müəllim hazırlığında, həm də ixtisasartırma təhsilində nəzərə alınmalıdır;
– pedaqoji orta ixtisas və ali təhsil müəssisələrinin uyğun ixtisaslar üzrə tədris proqramları arasındakı fərqlər və eyniliklər aydın ifadə olunmalıdır; bu, dərəcənin yüksəldilməsi üzrə kurikulumların hazırlanmasını asanlaşdırar;
– yeni kurikulumda pedaqoji təcrübənin artırılması, onun strukturunun və aparılma mexanizminin müəyyən edilməsi və hazırlanması nəzərdə tutulmalıdır.

3.2.2. Müəllimlərin hazırlanması və təhsil sisteminin müəllimlərlə təmin edilməsi

1. Müəllimlərə olan tələb və təklifin qabaqcadan öyrənilməsi və idarə olunması üçün mövcud planlaşdırma imkanlarının nəzərdən keçirilməsi və gücləndirilməsi üzrə:

– müəllimlərə olan tələb və təklifin idarə edilməsi üçün ciddi təhlillərin aparılmasını, dəqiq və təfsilatlı məlumatların toplanılmasını təmin edən sistem hazırlanmalıdır; bu sistem həmçinin fasiləsiz olaraq müxtəlif mənbələrdən müxtəlif növ məlumatların toplanılmasını təmin etməlidir;
– Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsilin İdarə Olunmasının Məlumat Sisteminin (TİMS) ilkin müəllim hazırlığı pilləsində əlavə vəsait sərfinin azaldılması məqsədi ilə düzgün məlumatlar toplamaq imkanları nəzərdən keçirilməli və gücləndirilməlidir;
– kurikulumun tədqiq edilməsi üsullarına və siyasətin hazırlanması üçün müvafiq təhlillərin aparılmasına dair Azərbaycan Respublikası Təhsil Nazirliyinin və əlaqədar müəssisələrin müvafiq kadrlarına treninqlər keçirilməlidir.

2. Təhsil sisteminə səmərəlilik gətirmək üçün bacarıqlı müəllimlərin işə cəlb edilməsinin və digərlərinin sistemi tərk etməsinin idarə edilməsi üzrə:

– seçim sistemin tələbatları əsasında aparılmalıdır;
– işə göturmə əsasən ucqar kənd yerləri və müəyyən fənlər üzrə müəllim catışmazlığı olan hallara şamil edilməlidir;
– ilkin müəllim hazırlığına ümumi qəbul azaldılmalıdır;
– pedaqoji ixtisaslara tələbələrin seçilməsi və qəbul edilməsi üçün meyarlar hazırlanmalıdır;
– pedaqoji təhsil müəssisələrində və orta ümumtəhsil məktəblərində peşəyönümü üzrə məsləhətçi ştatları təsis edilməlidir;
– peşəyönümü üzrə məsləhətçilərin ilkin və yenidən hazırlanması üçün yeni ixtisaslar açılmalıdır;
– ixtisasartırma və yenidənhazırlanma təhsilindən istifadə etməklə, müəllimlərin tələb olunan bacarıqları artırılmalı və vakant yerlər doldurulmalıdır;
– sistemdə çalışan natamam ali təhsilli pedaqoji kadrlar müəyyən müddət üzrə dəstəklənməli və onların təhsillərini davam etdirməsi üçün şərait yaradılmalıdır.

3. Müəllimlik peşəsini tam ştatlı işə çevirməklə və müəllimin vəzifə borclarını dəqiq müəyyən etməklə müəllimlərin nüfuzunun və statusunun gücləndirilməsi üzrə:

– cəmiyyətdə müəllimlərin nüfuzunu qaldırmaqla, yüksək səviyyəli müəllimlərin təhsil sisteminə cəlb olunmasına və saxlanılmasına nail olunmalıdır;
– tam ştatlı müəllimlərin həftəlik iş yükü yalnız şagirdlərlə təmas vaxtlarını deyil, müəllimin bütün fəaliyyət sahəsini (dərsə hazırlıq, sinif tədqiqatı, qiymətləndirmə və s.) əks etdirməlidir;
– ucqar kənd yerlərində çalışan müəllimlərin həvəsləndirilməsi üzrə mövcud sistem daha da genişləndirilməlidir;
– bu Konsepsiyanın reallaşdırılması prosesində mövcud ştat vahidlərinin sayı artırılmır, əlavə kadrlara olan tələbat təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması nəticəsində ixtisar olunacaq ştat vahidləri hesabına təmin olunur.

4. Müəllimlərin peşə birliklərinin və müəllim assosiasiyalarının dəstəklənməsi və prosesə cəlb edilməsi üzrə:

müəllimlərin peşə birliklərinin və müəllim assosiasiyalarının yaradılmasına kömək edilməlidir;

bu məqsədlə dayaq məntəqələrinin işi gücləndirilməli və müəllimlərin peşə birliklərinin yaradılmasında və fəaliyyət göstərməsində onların rolu artırılmalıdır;

fasiləsiz müəllim hazırlığı üzrə Konsepsiya və Strategiya sənədində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsində müəllimlərin peşə birliklərinin və müəllim assosiasiyalarının fəal iştirakının təmin edilməsi üçün şərait yaradılmalı və onlara müəyyən səlahiyyətlər verilməlidir.

3.2.3. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı müəssisələrinin təşkilati strukturu və funksiyaları

1. Mövcud müəllim hazırlığı müəssisələrinin rolunun və funksiyalarının nəzərdən keçirilməsi üzrə:

– respublikada yüksək keyfiyyətli müəllim hazırlığını təmin edən milli sistemin hazırlanması və bu sistemin əsas məqsədi keyfiyyətdə səmərəlilik və ekvivalentlik əldə etməklə yanaşı, həm də müxtəlif təhsil müəssisələrinin müəllim hazırlığı proqramları təklif etməsi üçün meyarlar hazılamaqdan və proqramları qiymətləndirməkdən ibarət olmalıdır;

– klassik universitetlərdə müəllim hazırlığı üzrə ixtisas fənlərinin və praktiki müəllim hazırlığını təmin edən fənlərin ardıcıl tədrisini nəzərdə tutan «2+2» (və ya «3+1») proqramları əsasında həyata keçirilməlidir; proqramın strukturu fərqli olsa da, məzmun təqribən eyni olmalıdır;
– alternativ variant kimi klassik universitetlərdə pedaqoji fakültələr yaradılmalıdır;
– sinifdaxili tədqiqatın aparılması, məktəb kurikulumuna yenilikçi təşəbbüslərin əlavə edilməsi və müəllimlərin, direktorların, peşə birliklərinin idarəetmə bacarıqlarının təkmilləşdirilməsinə kömək etmək məqsədi ilə təhsil müəssisələrinin səlahiyyətləri genişləndirilməlidir.

2. Müəllim hazırlığı müəssisələrinin təklif etdikləri proqramların keyfiyyətini təmin edən mexanizmlər üzrə:

keyfiyyəti yüksəltmək üçün müxtəlif təhsil müəssisələrinin fəaliyyətləri arasında müqayisəli təhlillər aparılmalıdır;

orta ixtisas müəssisələrinin məzunlarının müvafiq ixtisaslar üzrə ardıcıl olaraq bakalavr, magistr və diplomdan sonrakı təhsil dərəcələrinə yüksəlməsinə imkan verən şəffaf mexanizmin hazırlanması məqsədi ilə universitetlər və orta ixtisas müəssisələri arasında əməkdaşlıq təşkil edilməlidir.

3. Müəllim hazırlığı institutlarının işçi heyətinin iş şəraitinin nəzərdən keçirilməsi üzrə:

– məktəb müəllimləri ilə yanaşı, müəllim hazırlığı müəssisələrinin pedaqoji heyətinin də tam ştatlı iş üzrə vəzifə borcları (iş profilləri) dəqiq müəyyən edilməlidir;
– müəssisələr üçün nəticələrə əsaslanan stimulaşdırma sxemləri nəzərdən keçirilməli və tətbiq edilməlidir; bu sxem müəssisələrarası rəqabəti daha da gücləndirə bilər;
– ilkin müəllim hazırlığı və ixtisasartırma təhsili üçün yeni sahələrin müəyyənləşdirilməsi məqsədi ilə tədqiqatlar aparılmalıdır;
– müəllim hazırlığı müəssisələrinin kadrlarının yeni kurikulum, monitorinq, idarəçilik və sair haqqında bilik və bacarıqlarının artırılması məqsədi ilə səmərəli treninqlər keçilməlidir.

3.2.4. Fasiləz pedaqoji təhsil və müəllim hazırlığında monitorinq və keyfiyyətin təminatı

1. Keyfiyyətin monitorinqi üzrə

Keyfiyyətin monitorinqi aşağıdakı 3 səviyyədə aparılmalıdır:

– təhsil müəssisələrinin monitorinqi;
– müəllim hazırlığı proqramlarının (ilkin müəllim hazırlığı, ixtisasartırma və təkmilləşdirmə) monitorinqi;
– sistemdəki müəllimlərin, təlimatçıların və professor-müəllim heyətinin monitorinqi.

Təhsil müəssisələrinin monitorinqi aşağıdakı məqsədlərlə aparılmalıdır:

– fiziki və texniki resursların, o cümlədən kadr potensialının əvvəlcədən qəbul edilmiş milli normalara (standartlara) uyğunluğunun müəyyən edilməsi;
– müqayisəli təhlillər yolu ilə müəssisələrarası qarşılıqlı əlaqələrin müəyyən edilməsi.

Müəllim hazırlığı proqramlarının monitorinqi aşağıdakı məqsədlərlə aparılmalıdır:

– proqramın strukturunun, praktiki müəllim hazırlığını təmin edən fənlərə, ixtisas fənlərinə və ümumi fənlərə ayrılan vaxtın müəyyən edilməsi;
– kurikulumun məzmununu – ümumiyyətlə, fənləri və bəzi fənlərin məzmununu nəzərdən keçirməklə onların müəllim hazırlığına və məktəbdə tədris edilən fənlərə nə dərəcədə aid olduğunun müəyyən edilməsi;
– ilkin hazırlıq və ixtisasartırma arasındakı ardıcıllığın və ixtisasartırma modullarına olan ehtiyacların müəyyən edilməsi;
– pedaqoji ixtisaslara qəbul üzrə meyarların müəyyən edilməsi və yüksəldilməsi.

Sistemdəki müəllimlərin, təlimatçıların və professor-müəllim heyətinin monitorinqi aşağıdakı məqsədlərlə aparılmalıdır:

– müəllimlərin, professor-müəllim heyətinin və təlimatçıların fənn və yeni tədris metodları üzrə biliklərinin, pedaqoji peşəkarlıqlarının, sinif tədqiqatlarının nəzərdən keçirilməsi və çatışmazlıqların treninqlər yolu ilə aradan qaldırılması;

– yaxşı fəaliyyətin əlavə təsdiqi kimi, şagirdlərin (tələbələrin) fəaliyyətlərinin və bacarıqlarının yekun dəyərləndirilməsi;
– ixtisasartırma, peşə birlikləri, cəmiyyətlə ünsiyyət və sair yollarla özünüinkişaf imkanlarının nəzərdən keçirilməsi və bunun üçün yüksək standartların təsis edilməsi;
– elmi-tədqiqatların aparılması, nəticələrin geniş ictimaiyyətə çatdırılması və monitorinq prosesinə daxil edilməsi.

2. Milli standartların və indikatorların hazırlanması üzrə

Milli standartlar və indikatorlar aşağıdakı sahələr üzrə hazırlanmalıdır:

– müəssisələr üçün yerli kontekstə uyğun gələn minimum standartlar və indikatorlar: sinif otaqları, kitabxana, tələbələrin dərsə davamiyyəti, təhsil haqqı, məzunların işlə təmin olunmaları, tələbə və professorların elmi məqalələri, bu məqalələrin təsir faktoru və s.;
– məktəbəqədər, ibtidai, əsas və orta məktəb müəllimlərinin ilkin hazırlığı kurikulumları üzrə minimum standartlar və indikatorlar;
– müxtəlif səviyyələr və fənlər üzrə ümumi bacarıq və vərdişlərin inkişaf etdirilməsi üçün standartlar və indikatorlar;
– məktəblərdə və pedaqoji təhsil müəssisələrində çalışan müəllimlərin, təlimatçıların və professor-müəllim heyətinin özünüqiymətləndirməsinin, yenilikçi təşəbbüslərinin, ictimai fəaliyyətlərdə iştirakının və şagird (tələbə) nailiyyətlərinin fasiləsiz monitorinqi üçün standartlar;
– dünya praktikasında olan minimum standartlar və indikatorlar (müqayisəli təhlil üçün);
– özündə minimum tələbləri əks etdirən müəllim peşəsi üçün standartların hazırlanması.

3. Müəllimlərin attestasiyası və akkreditasiyası üçün yeni mexanizmin yaradılması üzrə:

– müəllimlərin mövcud attestasiya sistemi nəzərdən keçirilməli və onun işləməməsinin səbəbləri müəyyən edilməlidir;
– «ixtisasartırma-attestasiya-stimul» prinsipinin həyata keçirilməsinə imkan yaradan yeni attestasiya mexanizmi yaradılmalıdır;
– müəllimlərin akkreditasiyası və sertifikatlaşdırılması üçün yeni sistem və mexanizm hazırlanmalıdır;

– monitorinq və keyfiyyətin təminatı sahəsində islahatların həyata keçirilməsi üçün lazımi normativ-hüquqi baza yaradılmalıdır.

3.2.5. Müəllimlərin hazırlanmasının və təkmilləşdirilməsinin həyata keçirilməsi modelləri

1. Mövcud distant təhsil imkanlarının, potensial öyrənənlərlə əlaqə sisteminin keyfiyyətinin təhlili üzrə:

Bu məqsədlə aşağıdakılar nəzərdən keçirilməli və təkliflər hazırlanmalıdır:

– İKT proqramlarının həyata keçirilməsi üçün imkanlar – infrastruktur, avadanlıq və elektron resurslar, kapital və ehtiyac duyulan ləvazimatlar üçün ayrılmış vəsait;
– proqramların yerlərdə həyata keçirilməsi üçün imkanlar – dayaq mərkəzləri, resurs mərkəzləri, AMİ-nin filialları və s.;
– müəllimlərin peşəkar bacarıqlarının təkmilləşdirilməsində modullaşdırılmış ixtisasartırma proqramlarından istifadə edilməsi və ilkin müəllim hazırlığında kredit sisteminin tətbiqi.

2. Distant təhsil proqramlarının hazırlanması üzrə:

– kurikulumun məzmunu əyani təhsil proqramları ilə uyğunlaşdırılmalıdır; bu halda kurikulum əyani təhsil proqramlarındakı fənlərin ekvivalentini yerinə yetirən modullar sistemi kimi də hazırlana bilər;
– distant pedaqoji təhsilin hazırlanmasında və həyata keçirilməsində təlimatçılar həm təcrübəkeçmə yolu ilə, həm də interaktiv fəaliyyətləri nəzəriyyə ilə əlaqələndirmək üzrə bilik və bacarıqlarını artırmaq üçün mövcud imkanlardan istifadə etməlidirlər;
– İKT-yə əsaslanan təlim üzrə bilik və bacarıqların əldə edilməsi üçün professor-müəllim heyətinə treninqlər keçirilməlidir;
– distant təhsil alan tələbələrə kömək məqsədi ilə yüksək keyfiyyətli əyani materiallar, kitablar, proqramlar və sair hazırlanmalıdır.

1. Pedaqoji təhsil müəssisələrinin kompyuterləşdirilməsi üzrə:

– pedaqoji təhsil müəssisələri və məktəblərdə olan İKT avadanlıqlarının siyahısı hazırlanmalı və minimum səviyyə üçün lazım olan əlavə avadanlıqların smeta dəyəri müəyyən edilməlidir;
– pedaqoji təhsil müəssisələrinin və məktəblərin mərhələlər üzrə kompyuterləşdirilməsi üçün uzunmüddətli proqram hazırlanmalıdır;
– pedaqoji təhsil müəssisələrində kompyuter təhsilinin tətbiqi üçün müvafiq planlar hazırlanmalıdır;

– fasiləsiz pedaqoji təhsilin bütün pillələrində distant təhsildən istifadə edilməsi üçün lazımi normativ-hüquqi sənədlər hazırlanmalıdır.

3.2.6. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin idarə olunması və menecer hazırlığı

Bu sahə üzrə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

müəllim hazırlığı proqramlarına təhsilin idarə olunması üzrə fənlərin daxil edilməsi;

– bakalavr və magistr təhsili pilləsində təhsil menecerlərinin hazırlanması üzrə yeni ixtisasların açılması;
– təhsil sisteminin idarə olunması üzrə qısamüddətli təhsil proqramlarının hazırlanması və həyata keçirilməsi;
– yenidənhazırlanma təhsili pilləsində müxtəlif kateqoriyalı təhsil menecerlərinin hazırlanması üzrə tədris proqramlarının hazırlanması və prosesə tətbiqi;
– ixtisasartırma təhsili pilləsində müxtəlif kateqoriyalı rəhbər pedaqoji işçilərin ixtisaslarının artırılması üçün tədris proqramlarının hazırlanması və prosesə tətbiqi;
– təhsilin idarə olunması üzrə elmi-pedaqoji kadr hazırlığının həyata keçirilməsi;
– Tətbiqi Tədqiqat Mərkəzində təhsilin idarə olunması problemləri üzrə tətbiqi tədqiqatların aparılmasının təmin edilməsi;
– pedaqoji təhsilin idarə olunmasında müasir yanaşmaları əks etdirən standartların hazırlanması;
– yeni pedaqoji yanaşmalar, fasiləsiz pedaqoji təhsil sisteminin və onun idarə olunmasının problemləri üzrə konfransların, seminarların, müzakirələrin keçirilməsi.

IV HİSSƏ
Gözlənilən nailiyyətlər

Konsepsiya və Strategiya sənədinin və bu sənəd əsasında hazırlanmış Tədbirlər Planının həyata keçirilməsi nəticəsində aşağıdakı nailiyyətlərin əldə edilməsi gözlənilir:

– pedaqoji kadr hazırlığı aparılan orta-ixtisas və ali təhsil müəssisələrində struktur islahatlarının, variativ pedaqoji təhsil proqramlarının hazırlanması və həyata keçirilməsi;


– müəllim hazırlığının alternativ modellərinin prosesə tətbiqi;
– fasiləsiz pedaqoji təhsil sistemində tələb və təklifin düzgün proqnozlaşdırılması və planlaşdırılması;
– pedaqoji təhsilin keyfiyyətinin yüksəldilməsi;
– pedaqoji təhsil müəssisələrinin məzunlarının peşə mobilliyinin artırılması;
– pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsi, onun bütün səviyyələrində və mərhələlərində varisliyin təmin edilməsi;
– pedaqoji təhsildə peşəyönümü mexanizminin yaradılması və fasiləsiz müəllim hazırlığı sisteminin pedaqoji işə həvəsi və peşə qabiliyyətləri olan kadrlarla təmin edilməsi;
– qoşa ixtisaslı və inteqrativ fənləri tədris edə bilən müəllimlərin sayının artması;
– təhsilin müasirləşdirilməsi, variativləşdirilməsi və fərdiləşdirilməsi şəraitində, xüsusi qabiliyyəti olan, əqli və fiziki cəhətdən zəif inkişaf etmiş şagirdlərlə, azkomplektli kənd məktəblərində və şagirdlərin sayı az olan məktəblərdə müxtəlif yaşlı sinif kollektivi ilə işləyə bilən pedaqoji kadrların hazırlanması;
– müəllim-şagird nisbətinin inkişaf etmiş ölkələrdəki səviyyəyə çatdırılması;
– fasiləsiz pedaqoji təhsil sistemində keyfiyyətin idarə olunması və qiymətləndirilməsi üçün yeni mexanizmlərin tətbiqi;
– müasir təlim və informasiya texnologiyalarının həyata keçirilməsi, öyrənənlərdə və öyrədənlərdə özünütəhsil, özünütəşkil və özünənəzarət mədəniyyətinin inkişaf etdirilməsi;
– fasiləsiz pedaqoji təhsil sisteminə ayrılan vəsaitin təyinat üzrə səmərəli sərfi;
– müəllim sənətinin nüfuzunun bərpa edilməsi və möhkəmləndirilməsi;
– fasiləsiz pedaqoji təhsil sistemində çalışanlara və təlim alanlara dövlət tərəfindən sosial qayğının gücləndirilməsi;
– fasiləsiz pedaqoji təhsilin distant formada həyata keçirilməsi mexanizminin yaranması və inkişaf etdirilməsi;
– xaricdə yaşayan Azərbaycanlıların milli təhsil proqramları üzrə distant yolla təhsil almaq imkanlarının genişləndirilməsi;
– hər bir vətəndaşın inkişaf etmiş ölkələrin təhsil proqramları üzrə distant təhsil almaq imkanlarının genişləndirilməsi.

2003–2009-cu illərdə ölkəmizdə əsaslı təmir edilən və yeni inşa olunan məktəblər haqqında məlumat

2003–2009-cu illərdə respublikamızda 2000-dək yeni məktəb inşa olunub. 2008-ci ildə 161 məktəb inşa, 129 məktəb əsaslı təmir edilib. 2009-cu ildə 68 yeni məktəb istifadəyə verilib, 28 məktəbdə əsaslı, 356 məktəbdə isə cari təmir işləri aparılıb.

Ümumilikdə, son illərdə 700 mindən çox şagird, yəni bütün şagirdlərin yarıdan çoxu müasir tələblərə cavab verən məktəblərdə təhsil almaq imkanı əldə edib.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi istiqamətində Heydər Əliyev Fondunun təşəbbüsü ilə son illərdə 300 yeni məktəb, uşaq bağçası, uşaq evləri, internat məktəb binası tikilib, 40 məktəb, 10 uşaq bağçası əsaslı təmir olunaraq müasir avadanlıqlarla təchiz edilmişdir.



«2010–2013-cü illərdə Azərbaycan Respublikasının Orta İxtisas Təhsili Sistemində İslahatlar üzrə Tədbirlər Proqramı»nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin

QƏRARI

Azərbaycan Respublikasının orta ixtisas təhsili sisteminin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi, ölkə iqtisadiyyatının inkişaf istiqamətlərinə əsasən əmək bazarının tələbatına uyğun olaraq istehsal və xidmət sahələrinin yüksək keyfiyyətli orta ixtisaslı kadrlarla təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

QƏRARA ALIR:

1. «2010–2013-cü illərdə Azərbaycan Respublikasının orta ixtisas təhsili sistemində islahatlar üzrə Tədbirlər Proqramı» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.Rasizadə
Azərbaycan Respublikasının Baş naziri
Bakı şəhəri, 13 yanvar 2010-cu il, № 6

Ali və orta ixtisas təhsili sahəsi üzrə 2009-cu ildə görülmüş işlər

Ali və orta ixtisas təhsili şöbəsinin 2009-cu il üçün iş planında aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu:

- ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu planının layihəsinin hazırlanması;
- «Ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) siyahısı»nın təsdiqi. Həmin siyahıya uyğun olaraq dövlət təhsil standartlarının hazırlanması;
- Orta ixtisas təhsili üzrə ixtisasların siyahısının hazırlanması və təsdiqi;
- «Magistr təhsil proqramları»nın yeni siyahısının hazırlanması;
- Magistr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin (Dövlət təhsil standartının) strukturunun müəyyənləşdirilməsi, yeni siyahıya və struktura uyğun Dövlət Təhsil Standartlarının hazırlanması;
- qış və yay imtahan sessiyaları və buraxılış imtahanlarının təşkili, keçirilməsi və nəticələri;
- tədrisdə kredit sisteminin tətbiqinin əhatə dairəsinin genişləndirilməsi;
- 2009–2013-cü illərdə Azərbaycan Respublikası ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramında 2009-cu il üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təşkili;
- «Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası»nın müddəalarının həyata keçirilməsinin davam etdirilməsi və koordinasiya şurasının gördüyü işlər;
- Dünya Bankının dəstəyi ilə həyata keçirilən TSİL-in müəllim hazırlığı alt komponenti çərçivəsində hazırlanmış «İbtidai sinif müəllimi hazırlığı üzrə kurikulum»un eksperiment şəklində üç ali məktəbdə tətbiqinin monitorinqi;
- «Təhsilin əsasları» fənni üzrə dərsliyin hazırlanması və 2009/2010-cu tədris ilindən onun tətbiqi;
- Ali təhsil müəssisələrində təlim prosesinin tədris-metodiki sənədlərlə təminatının vəziyyətinin monitorinqinin aparılması;

– 2009-cu il üçün təsdiq olunmuş qrafik üzrə ali və orta ixtisas təhsili müəssisələrinin attestasiya və akkreditasiyasının təşkili və yekun sənədlərin hazırlanması;
– «Orta ixtisas təhsili müəssisələrində tələbələrin biliyinin qiymətləndirilməsində çoxballı sistemin tətbiqi barədə Əsasnamə»yə uyğun olaraq eksperimentin davam etdirilməsi və onun əhatə dairəsinin genişləndirilməsi və s.;

İş planına müvafiq olaraq 2009-cu ildə ali və orta ixtisas təhsilin təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

I. Ali təhsil üzrə

Əsas statistik göstəricilər.

2009-cu hesabat ilində Azərbaycan Respublikasında 51 ali məktəb fəaliyyət göstərmişdir. Onlardan 36-sı dövlət, 15-i qeyri-dövlət ali təhsil müəssisəsidir.

Təhsil Nazirliyinin tabeliyində 20 ali təhsil müəssisəsi fəaliyyət göstərir.

2009-cu ildə həmin ali məktəblərin bakalavr pilləsinə 20953, magistratura pilləsinə isə 3526 nəfər tələbə qəbul olunmuşdur.

Hazırda ali məktəblərdə (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla) 104.945, o cümlədən bakalavriat səviyyəsində 98.692, magistraturada 6.253 nəfər tələbə təhsil alır.

2009-cu ildə Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisələrində işləyənlərin sayı 24.182 nəfər (professor-müəllim heyəti – 11566, digər işçilər – 12616) təşkil etmişdir.

Təhsil Nazirliyinin tabeliyində olan ali məktəblərin bakalavriat səviyyəsini 2008/09-cu tədris ilində 19673 nəfər məzun bitirmişdir.

Görülmüş işlər

Şöbə tərəfindən 2009-cu il üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələbə qəbulu planı hazırlanmışdır. Əvvəlki illərdə olduğu kimi bu plan respublikanın müvafiq nazirliklərindən, təşkilatlardan və digər qurumlardan mütəxəssislərə olan ehtiyac barədə məlumatlara, təhsil müəssisələrinin təkliflərinə və əmək bazarının tələbatına uyğun müəyyənləşdirilmişdir. Planın layihəsi ali və orta ixtisas təhsili, iqtisadiyyat

şöbələrində təhsil müəssisələrinin rəhbərləri ilə birgə geniş təhlil və müzakirə olunduqdan, habelə müvafiq nazirliklərlə razılaşdırıldıqdan sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuş və təsdiq edilmişdir. Eyni zamanda həmin qaydada ali təhsilin magistratura pilləsi üçün də qəbul planı hazırlanıb təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 31 yanvar 2009-cu il tarixli, 2643 №-li «Azərbaycan Respublikası ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında Sərəncamı»nın icrasını təmin etmək məqsədilə ölkə Prezidenti yanında Təhsil Komissiyasının qərarına əsasən yaradılmış işçi qrupu ilə birgə «Ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) siyahısı»nın yeni layihəsi hazırlanmış və Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il tarixli, 8 nömrəli qərarı ilə təsdiq edilmişdir. Əvvəlki siyahıdan fərqli olaraq yeni təsnifatda istiqamətlər nəzərdə tutulmamış və bu siyahıya 92 istiqamətdə 520 ixtisas əvəzinə cəmi 150 ixtisas daxil edilmişdir. 2009-cu ildən bakalavr səviyyəsində kadr hazırlığı ixtisaslar üzrə aparılmağa başlanmışdır.

Həmin siyahıya uyğun olaraq «İxtisas (proqram) üzrə bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərini müəyyən edən dövlət təhsil standartlarının strukturu hazırlanmış və Təhsil Nazirliyinin 29 mart 2009-cu il tarixli, 342 №-li əmri ilə təsdiq edilmişdir. Yeni struktura müvafiq olaraq ali təhsil müəssisələrində bakalavr hazırlığı aparılan 146 ixtisas üzrə Dövlət Təhsil Standartları hazırlanmış və nazirliyin 05 yanvar 2009-cu il tarixli, 952 №-li əmri ilə təsdiq edilərək ali təhsil müəssisələrinə göndərilmişdir.

Standartlarda auditoriya saatlarının 15–20% humanitar, 80–85%-i isə peşə hazırlığını təmin edən fənlərin tədrisinə ayrılmışdır. Humanitar fənlər bölümünə məcburi fənlər kimi «Azərbaycan tarixi», «Azərbaycan dili (xarici dildə təhsil alanlar üçün)», «Xarici dil» fənləri daxil edilmişdir. Bakalavr təhsil proqramlarının bütün fənn bölümlərində seçmə fənlər nəzərdə tutulmuşdur. Seçmə fənlərə ayrılan saatın həcmi ümumi saat miqdarının 25–30%-ni təşkil edir.

Ali təhsilin bakalavriat səviyyəsinin yeni klasifikatorunun təsdiqi ilə bağlı «Magistr proqramlarının siyahısı»nın yenidən hazırlanması zərurəti yaranmışdır. Bu məqsədlə mütəxəssislərin iştirakı ilə həmin siyahının layihəsi hazırlanmışdır və bu günlərdə təsdiq üçün hökumətə təqdim ediləcəkdir.

Eyni zamanda «Magistr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu»nun yeni layihəsi hazırlanmış və ali məktəblərin müzakirəsinə verilmişdir.

Yeni layihədə humanitar fənlər bölümünə ümumi auditoriya saatlarının 20–25%, ixtisaslaşma fənlərinə 75–80%-i ayrılır. Humanitar fənlər bölümünə «Xarici dil», «Ali məktəb pedaqogikası», «Psixologiya» fənləri daxil edilmişdir. Seçmə fənlərə ayrılan saatın həcmi ümumi saat miqdarının 25–30%-ni təşkil edir.

Ali məktəblərdə qış və yay imtahan sessiyalarının təşkili və gedişi əvvəlki illərdə olduğu kimi 2009-cu ildə də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, 2008/2009-cu tədris ilinin qış və yay imtahan sessiyalarının mütəşəkkil keçirilməsi üçün Təhsil Nazirliyinin müvafiq əmrləri olmuşdur. Həmin əmrlərə uyğun olaraq nazirlikdə Mərkəzi Operativ Qərargah (MOQ), «Qaynar xətt», ali və orta ixtisas təhsili müəssisələrində müvafiq qərargahlar yaradılmış, yol verilmiş neqativ halların aradan qaldırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Belə ki, nazirlikdə ali təhsil müəssisələrinin tədris işləri üzrə prorektorlarının və tədris şöbələri müdirlərinin iştirakı ilə sessiyaların nəticələri müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir.

Bununla yanaşı, ali və orta ixtisas təhsili şöbəsi tərəfindən təhsil müəssisələrindən alınmış təkliflər əsasında hər bir ali məktəbin bakalavr pilləsi üzrə dövlət attestasiya komissiyalarının, magistratura pilləsi üzrə ixtisaslaşdırılmış Elmi şuraların sədrlərinin təsdiqi barədə təqdimatlar hazırlanmışdır.

2006/07-ci tədris ilində respublikanın 10 ali məktəbində tədrisin təşkilində kredit sisteminin tətbiqi ilə bağlı başlanmış eksperiment 2009/10-cu tədris ilində bütün ali məktəblərin birinci kurslarını əhatə etmişdir. Bununla əlaqədar həm təhsil müəssisələrinin rəhbərləri, həm də Təhsil Nazirliyinin əməkdaşları müəllim və tələbələrlə çoxsaylı görüşlər keçirmiş, lazımi izahat işləri aparmış və metodiki köməkliklər göstərmişlər.

Hesabat dövründə Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının ali təhsil sistemində 2006–2010-cu illərdə Bolonya Bəyannaməsinin müddəalarının həyata keçirilməsi üçün tədbirlər planı»na uyğun olaraq bir sıra tədbirlər həyata keçirilmişdir.

Görülmüş işlərin nəticəsi barədə «Bolonya prosesi çərçivəsində ali təhsil sahəsində aparılan islahatlar haqqında Azərbaycan Respublikasının Milli hesabatı (2007–2009-cu illər üzrə)» hazırlanmış və Avropa Şurasına təqdim olunmuşdur. Hesabatda Bolonya prosesinə qoşulması ilə bağlı Azərbaycan Respublikasında həyata keçirilmiş islahatlar və tədbirlər barədə məlumatlar öz əksini tapmışdır.

2009-cu ildə təsdiq olunmuş cədvəl üzrə ali və orta ixtisas təhsili müəssisələrinin akkreditasiyası işi davam etdirilmişdir. Bununla bağlı akkreditasiya olunacaq təhsil müəssisələrinə xəbərdarlıq məktubu göndərilmiş, ayrı-ayrı ali məktəblərin attestasiyasını aparmaq üçün komissiyalar yaradılmış, ali məktəblərdən attestasiyaya dair sənədlər və özünütəhlil hesabatları nazirliyə təqdim olunmuş və onların komissiya üzvləri tərəfindən təhlili təşkil edilmiş, tələbələrin müvafiq istiqamət (ixtisas) üzrə hazırlıq (bilik) səviyyəsini müəyyənləşdirmək məqsədilə çoxvariantlı suallar və test tapşırıqları tərtib olunmuşdur. Həmin test tapşırıqları əsasında attestasiyası keçirilən ali məktəblərin sonuncu kurs tələbələrinin bilik səviyyələri yoxlanılmış, onların struktur bölmələrində monitorinqlər aparılmış və müvafiq arayışlar hazırlanaraq Təhsil Nazirliyinin Akkreditasiya Komissiyasına təqdim olunmuşdur. Bu dövrdə 5 ali məktəb (Azərbaycan Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Universiteti komissiyalar tərəfindən akkreditasiyadan keçmiş və müvafiq sertifikatlar almışlar. Bununla yanaşı, Naxçıvan Dövlət Universitetinin attestasiyası başa çatdırılmışdır və bu günlərdə müvafiq sənədlər hazırlanaraq nazirliyin akkreditasiya komissiyasına təqdim olunacaqdır.

Şöbənin əməkdaşları xarici ölkələrin ali təhsil sahəsində verdiyi ixtisasların tanınması və onların Azərbaycan Respublikasında qüvvədə olan təhsil standartlarına uyğunluğunun müəyyən edilməsi (nostrifikasiyası) prosedurunda yaxından iştirak etmişlər.

Müəllim hazırlığı məsələsi əvvəlki illərdə olduğu kimi hesabat ilində də diqqət mərkəzində saxlanılmışdır.

Belə ki, Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş «2008–2015-ci illər üçün Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyasının həyata keçirilməsi üzrə tədbirlər planı»na uyğun olaraq ixtisas siyahılarında yeniləşmələr aparılmışdır.

Bununla yanaşı, 2009-cu ildən Təhsil Nazirliyinin yanında müstəqil fəaliyyət göstərən məşvərətçi qurum – «Fasiləsiz pedaqoji təhsil üzrə koordinasiya şurası» 2009-cu ildə də fəaliyyətini davam etdirmişdir.

Belə ki, Koordinasiya Şurasının tərkibində yaradılmış alt qrupları («Ümumtəhsil məktəblərində peşəyönümü məsələləri, müəllimlərin peşə bacarıqlarının qiymətləndirilməsi və inkişaf etdirilməsi», «İlkin müəllim hazırlığı», «Əlavə pedaqoji təhsil», «Pedaqoji təhsilin idarə edilməsi») tərəfindən aşağıdakı tədbirlər həyata keçirilmişdir:

- Müəllimlərin peşə bacarıqları və bilik səviyyələrinin qiymətləndirilməsi üçün indikatorlar və testlər hazırlanmışdır.
- Müəllimlərin bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsi üçün müvafiq istiqamətlər üzrə ixtisasartırma kurslarına yönəldilməsi mexanizminin işlənməsinə dair təkliflər hazırlanmışdır.
- İlkin müəllim hazırlığı və xüsusən onun tərkib hissəsi olan pedaqoji təcrübə sahəsində mövcud vəziyyət təhlil edilmiş, bununla bağlı nəzərdə tutulan tədbirlərin reallaşdırılması üçün təklif və tövsiyələr irəli sürülmüşdür.
- Pedaqoji kadr hazırlığı aparılan ali təhsil müəssisələrinə təcrübə keçmək üçün baza məktəbləri müəyyənləşdirilməsi haqqında təkliflər hazırlanmış və Təhsil Nazirliyinə təqdim edilmişdir.
- İxtisasartırma təhsili sahəsində mövcud vəziyyət təhlil olunmuş, onun güclü və zəif cəhətləri müəyyən edilmiş, «Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiyası və strategiyası»nda nəzərdə tutulan tədbirlərin reallaşdırılması məqsədilə təkliflər irəli sürülmüşdür.
- Ali pedaqoji kadr hazırlığında keyfiyyətin təmin olunması və onun səmərəli idarə edilməsinə dair araşdırmalar aparılmışdır. Hesabat dövründə «Azərbaycan Respublikasında təhsil menecerlərinin hazırlanması konsepsiyası» tələblərinə uyğun pedaqoji təhsil sahəsində menecerlərin hazırlanması araşdırılmış, təhsil menecerlərinin professioqramı hazırlanmışdır.

Dünya Bankının dəstəyi ilə həyata keçirilən TSİL-in «Müəllim hazırlığı» alt komponenti çərçivəsində ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı üzrə «Çərçivə kurikulumu»nun tətbiqi 2009-cu ildə eksperiment şəklində 3 pilot ali təhsil müəssisəsində (Azərbaycan

Dövlət Pedaqoji Universiteti, Gəncə Dövlət Universiteti və Azərbaycan Müəllimlər İnstitutu) davam etdirilmişdir.

Bununla bağlı «Təhsilin əsasları» fənninin dərsliyinin hazırlanması və onun tətbiqinə başlanılması məqsədilə Dünya Bankının TSİL üzrə ayırdığı kredit vəsaiti hesabına müvafiq pilot ali məktəblərinin professor-müəllim heyəti üçün 2009-cu il avqustun 24-dən sentyabrın 4-dək Azərbaycan Müəllimlər İnstitutunun bazasında treninq keçirilmişdir. Treninqə üç ali məktəbdən 17 nəfər (ADPU–7, AMİ–6, GDU–4) professor-müəllim cəlb olunmuşdur.

Treninqin dinləyiciləri «Təhsilin əsasları» fənninin əhəmiyyəti, məqsəd və vəzifələri, təhsilin tarixi, fəlsəfi, ictimai, hüquqi, siyasi, elmi-nəzəri, metodoloji, iqtisadi əsasları barədə məlumatlar almış, bu fənnin tədrisi zamanı istifadə edilən forma və üsullarla, habelə qiymətləndirmə meyarları ilə tanış olmuşlar.

Eyni zamanda 2009-cu ilin oktyabr ayında Təhsil Nazirliyi tərəfindən həmin ali məktəblərdə pilot layihə kimi həyata keçirilən «Təhsilin əsasları» fənninin tətbiqi vəziyyətinin monitorinqi aparılmışdır. Monitorinq zamanı fənni tədris edən müəllimlər və tələbələrlə söhbətlər aparılmış, dərslər dinlənilmiş, təlim prosesində tələbə tədqiqatlarının nəticələrinə əsaslanan yazılı və elektron təqdimatlar araşdırılmışdır. Məlum olmuşdur ki, GDU-da və ADPU-da «Təhsilin əsasları» fənninin tədrisində bir sıra müsbət göstəricilərlə yanaşı, problemlər (fənnin tədrisi üçün ayrılmış otağın darısqal olması, tələbələrin təlim materialları ilə kifayət qədər təmin edilməməsi, auditoriyada müəllim üçün kompyuterin və proyektorun olmaması, otağa İnternet şəbəkəsinin çəkilməməsi, kompyuterin internetə qoşulmaması və s.) də vardır. Həmin problemlər diqqətlə öyrənilmiş və yerindəcə aradan qaldırılmışdır.

Cari ilin dekabr ayında həmin məsələ üzrə təkrar monitorinq aparılmışdır.

Kollegiyada müzakirəsi nəzərdə tutulan məsələlər üzrə («Ali təhsil müəssisələrində kredit sisteminin tətbiqi ilə bağlı monitorinqin nəticələri barədə» və «Ali təhsil müəssisələrində təlim prosesinin tədris-metodiki sənədlərlə təminatının vəziyyəti barədə») Təhsil Nazirliyinin müvafiq əmrləri ilə işçi qrupları yaradılmışdır. İşçi qrupları qoyulan məsələlərlə bağlı monitorinqlər aparmış və müvafiq arayışlar hazırlamışlar.

Əvvəlki illərdə olduğu kimi 2009/2010-cu tədris ilində də ölkə prezidentinin 24 sentyabr 2009-cu il tarixli, 493 №-li «2009/2010-cu tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında» sərəncamı olmuşdur. Həmin sərəncama uyğun olaraq 8 ali məktəb (Azərbaycan Dövlət Neft Akademiyası–9, Bakı Dövlət Universiteti–18, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası–29, Azərbaycan Tibb Universiteti–25, Qafqaz Universiteti–12, Azərbaycan Dövlət İqtisad Universiteti-6, Naxçıvan Dövlət Universiteti–1, Xəzər Universiteti–2) üzrə 102 nəfər tələbəyə Prezident təqaüdünün verilməsi barədə nazirliyin 12 noyabr 2009-cu il tarixli, 1269№-li əmri olmuş və həmin əmr icra üçün ali təhsil müəssisələrinə göndərilmişdir.

Bununla yanaşı, 2009-cu ilin qış və yay imtahan sessiyalarında yuxarı kurslarda təhsil alan Prezident təqaüdçülərinin müvəffəqiyyət göstəriciləri barədə ali məktəblərin təklifləri alınmış və təqaüdün verilməsinin davam etdirilməsi barədə nazirliyin müvafiq əmrləri ilə rəsmiləşdirilmişdir.

Azərbaycan ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası proseslərinin sürətləndirilməsi, ali təhsilin məzmununun Bolonya prinsiplərinə uyğun qurulması, ölkə iqtisadiyyatının inkişaf meyillərinə müvafiq olaraq yüksək hazırlıqlı kadrlara tələbatın ödənilməsi, həmçinin əhaliyə müasir standartlar səviyyəsində ali təhsil almaq imkanı yaradan səmərəli ali təhsil sisteminin formalaşdırılması məqsədilə ölkə Prezidentinin 22 may 2009-cu il tarixli, 295 №-li Sərəncamı ilə «2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət proqramı» təsdiq edilmişdir. Onun icrasını təmin etmək məqsədilə Təhsil Nazirliyinin 02 iyun 2009-cu il tarixli, 103S №-li əmri ilə müvafiq fəaliyyət planı hazırlamaq üçün işçi qrupu yaradılmışdır. İşçi qrupu tərəfindən Təhsil Nazirliyinin Fəaliyyət Planı hazırlanmış və nazirliyin 10 iyul 2009-cu il tarixli, 937 №-li əmri ilə təsdiq edilmişdir.

Fəaliyyət planında göstərilən müddəaları vaxtında, daha səmərəli həyata keçirmək və qarşıya çıxacaq problemləri aradan qaldırmaq məqsədilə nazirliyin 2 oktyabr 2009-cu il tarixli, 1103 №-li əmri ilə «Elmi-Koordinasiya Şurası» və aparılacaq islahatların istiqamətləri üzrə işçi qrupları («Ali təhsilin məzmunu, təlim texnologiyaları», «Ali təhsilin strukturu və idarə olunması», «Ali təhsildə keyfiyyətin təmin olunması»,

«Ali təhsildə kadr hazırlığı», «Elmi-tədqiqat işləri», «Təhsilin maddi-texniki bazası və strukturu», «Ali təhsilin iqtisadiyyatı») yaradılmışdır. Həmin əmrlə «Elmi-Koordinasiya Şurasının Əsasnaməsi» də təsdiq olunmuşdur.

Elmi-koordinasiya Şurasının işçi qruplarının «iş planı» hazırlanıb təsdiq olunmuşdur və hazırda həmin planın müddəalarının yerinə yetirilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Bununla yanaşı, Dövlət Proqramı və Fəaliyyət planının icra vəziyyətini öyrənmək məqsədilə Təhsil Nazirliyi 13 oktyabr 2009-cu il tarixli, 46–11–6722/17 №-li məktubla ali təhsil müəssisələrinə müraciət etmişdir. Həmin müraciətlə bağlı ali məktəblərdən alınmış məlumatların təhlili göstərir ki, qısa müddət ərzində təhsil müəssisələri tərəfindən xeyli iş görülmüşdür. Belə ki, Təhsil Nazirliyinin Fəaliyyət Planına müvafiq olaraq hər bir təhsil müəssisəsinin «İş planı» tərtib olunmuş, «Strateji İnkişaf Proqramı»nın hazırlanmasına başlanılmış, yeni standartların tələbləri gözlənilməklə kadr hazırlığı aparılan bütün ixtisaslar üzrə tədris planları təsdiq edilmiş, tədrisdə kredit sisteminin tətbiqinə başlanılmış, əksər ali məktəblərin İnternet şəbəkəsinə qoşulması, bəzi ali məktəblərdə (məsələn, ADPU, ATU və s.) imtahan sessiyasının gedişində kompyuter texnikasından istifadə olunması təmin edilmişdir.

Dövlət proqramının 2.20-ci bəndində Bolonya bəyannaməsinin əsas müddəalarının tətbiqi ilə bağlı maarifləndirmə işini gücləndirmək və müsbət təcrübənin yayılmasını təmin etmək məqsədilə dövri xəbərlər məcmuəsinin nəşrinin təşkili nəzərdə tutulur. Bu məqsədlə Təhsil Nazirliyi «Ali təhsil və cəmiyyət» Elmi-Metodiki Jurnalı Məhdud Məsuliyyətli Cəmiyyətinin təsis olunmasına və Cəmiyyətin nizamnaməsinin dövlət qeydiyyatına alınmasına münasibət bildirilməsi barədə 3 mart 2009-cu il tarixli, 48–11–1383/16№-li məktubla Azərbaycan Respublikası Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinə müraciət etmişdir. Dövlət Komitəsi Təhsil Nazirliyinə ünvanladığı 15 aprel 2009-cu il tarixli, 05–1/2923№-li məktubla «Kütləvi informasiya vasitələri haqqında» Qanunun 14 və 17-ci maddələrinə istinad edərək müvafiq MMC-nin Təhsil Nazirliyi tərəfindən təsis olunmasına və onun Nizamnaməsinin müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alınmasına etiraz etmədiyini bildirmişdir.

Eyni zamanda Təhsil Nazirliyi «Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə və Ədliyyə naziri-

nin 27 iyul 2007-ci il tarixli, 32T№-li əmri ilə təsdiq edilmiş Formaya uyğun olaraq «Ali təhsil və cəmiyyət» Elmi-Metodik Jurnalı Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) qeydiyyata alınması ilə bağlı cari ilin mart ayında Ədliyyə Nazirliyinə müraciət etmişdir.

Ədliyyə Nazirliyi 30 mart 2009-cu il tarixdə həmin jurnalın 01 aprel 2009-cu il tarixdən nəşrinə icazə vermişdir. Jurnal 2900-cü qeydiyyat nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

Bununla yanaşı, jurnalın redaksiyasının fəaliyyət göstərməsi üçün Bakı şəhəri, Təbriz küçəsi 51-də 90 m² sahəsi olan 3 otaq ayrılması nəzərdə tutulmuşdur.

Təhsil Nazirliyinin 7 may 2009-cu il tarixli, 533 №-li əmri ilə «Ali təhsil və cəmiyyət» Elmi-Metodik Jurnalı Məhdud Məsuliyyətli Cəmiyyəti təsis olunmuş, onun Nizamnaməsi və jurnalın redaksiya heyəti təsdiq edilmişdir.

Bundan sonra vergi uçotuna durmaq üçün bütün sənədlər Bakı şəhər Vergilər Departamentinin 2 №-li filialına təqdim olunmuşdur. Filialda sənədlər nəzərdən keçirilmiş, qeydiyyata alınması üçün qəbul edilməmişdir. İzah olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2007-ci il tarixli 586 №-li Fərmanı ilə təsdiq olunmuş «Azərbaycanda dövlət əmlakının təkmilləşdirilməsi üzrə Dövlət Proqramı»nın 7.7 və 7.9.2-ci maddələrinə əsasən dövlət müəssisələrinin və nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərin yaradılması Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilməlidir.

Qeyd edilənlərlə bağlı jurnalın nəşrinə başlanılması məsələsi bu günə kimi ləngiyir.

Dövlət Proqramının 2.37-ci bəndinə uyğun olaraq işçi qrupu tərəfindən «Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin dərs yükü və digər iş növləri üzrə vaxt normalarının layihəsi hazırlanmış və hökumətə təqdim edilmişdir. Layihədə professor-müəllim heyətinin işinin (tədris, tədris-metodik, elmi-tədqiqat və elmi-metodik) həcmi, auditoriya tədris yükünün miqdarı, fərdi iş planının strukturu, tədris işinin növlərinə görə vaxt normaları, akademik patoklarda və qruplarda auditoriya dərslərinin planlaşdırılması, professor-müəllim heyəti arasında dərs yükünün bölgüsü və s. məsələlər öz əksini tapmışdır.

İslahat Proqramına uyğun olaraq Bolonya prosesi çərçivəsində beynəlxalq əməkdaşlığın inkişafı prosesində ali məktəblər haqqında etibarlı

informasiyanın alınmasını təmin etmək məqsədilə şöbə tərəfindən Respublika təhsil müəssisələrinin reytinqini müəyyənləşdirən metodika işlənib hazırlanmış, buna uyğun kompyuter proqramı tutulmuş və ilkin məlumatlar əsasında sınaqdan keçirilmişdir. Metodikada nəzərə alınan indikatorlar təhsil müəssisəsini hərtərəfli ifadə edəcək şəkildə seçilmiş, meyarların vaciblik dərəcəsinə uyğun çəki əmsalları ilə təmin edilmiş və beləliklə də, optimal nəticələrin əldə edilməsi təmin olunmuşdur.

Həmin metodika üzrə təhsil müəssisələrinin reytinqini müəyyən etmək məqsədilə «Respublika ictimaiyyətinin ali təhsil müəssisələrinə münasibəti barədə sorğu anketi» tərtib olunmuş və sorğu aparmaq üçün nazirliyin 22 oktyabr 2009-cu il tarixli, 46–11–6957/16 nömrəli məktubu ilə respublikanın bütün təhsil idarə və şöbələrinə göndərilmişdir.

Eyni zamanda təhsil müəssisələrinin reytinqini müəyyən edən indikatorlar içərisində məzunları işəgötürənlərin onlara verdikləri qiymətin də böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq «İşəgötürənin anketi» hazırlanmış və bütün komitə və nazirliklərə göndərilmişdir.

II. Orta ixtisas təhsili üzrə

Əsas statistik göstəricilər.

2009-cu hesabat ilində Azərbaycanda 61 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərmişdir. Onlardan 58-i dövlət, 3-ü qeyri-dövlət orta ixtisas təhsili müəssisəsidir. Təhsil Nazirliyinin tabeliyində 45 orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir.

Hesabat dövründə orta ixtisas təhsillilər ölkənin əmək qabiliyyətli əhalisinin 12.9%-ni təşkil etmişdir.

2009-cu ildə Təhsil Nazirliyinin tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin 12795 plan yerinə 12335 nəfər tələbə qəbul olunmuşdur.

Hesabat dövründə Təhsil Nazirliyinin tabeliyində olan orta ixtisas təhsili müəssisələrində 43535 nəfər tələbə 117 ixtisas üzrə təhsil almışdır.

2009-cu ildə orta ixtisas təhsili müəssisələrinin müəllim heyəti 5410 nəfər təşkil etmişdir.

2008/09-cu tədris ilində orta ixtisas təhsili müəssisələrini 13253 nəfər məzun bitirmişdir.

Görülmüş işlər

İş planına müvafiq olaraq təhsil müəssisələrindən, müvafiq nazirlik, komitə və təşkilatlardan alınmış təkliflər əsasında «Orta ixtisas təhsili üzrə ixtisasların (proqramların) siyahısı»nın yeni layihəsi hazırlanmış və təsdiq üçün Nazirlər Kabinetinə göndərilmişdir.

Əvvəlki illərdə olduğu kimi, 2009-cu ildə də orta ixtisas təhsili müəssisələrinə həm əsas, həm də orta təhsil bazasından tələbə qəbulu planı hazırlanmışdır. Plan tərtib edilərkən orta ixtisas təhsili müəssisələrinin təklifləri, hər bir ixtisas üzrə nazirlik və təşkilatlardan alınmış tələbat haqqında məlumat, ötən ildəki tələbə qəbulunun nəticələri nəzərə alınmışdır. Orta ixtisas təhsili üzrə hazırlanmış qəbul planının layihəsi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir.

2009-cu ildə orta ixtisas təhsili müəssisələrində imtahan sessiyasının təşkili və gedişi şöbənin diqqət mərkəzində saxlanılmışdır. Belə ki, bütün təhsil müəssisələrində qərargahlar yaradılmış və həmin qərargahlar Təhsil Nazirliyinin «Mərkəzi operativ qərargah»ı ilə əlaqəli fəaliyyət göstərmişdir. Bəzi orta ixtisas təhsili müəssisələrində – (Bakı Kompyuter Kolleci və Sumqayıt Dövlət Texniki Kollecində) yay semestr imtahanlarının mərkəzləşdirilmiş qaydada, test üsulu ilə keçirilməsi təşkil edilmişdir.

Hesabat ilində orta ixtisas təhsili müəssisələrində buraxılış yekun Dövlət Attestasiya Komissiyaları sədrlərinin seçilib təyin olunması işi davam etdirilmişdir.

2009-cu ildə orta ixtisas təhsili müəssisələrinin attestasiya və akkreditasiyası işi təsdiq olunmuş qrafik üzrə davam etdirilmişdir. Belə ki, «Ali və orta ixtisas təhsili müəssisələrinin attestasiya və akkreditasiyasının keçirilməsinə dair tələblər və meyarlar»a uyğun olaraq 2009-cu il üçün orta ixtisas təhsili müəssisələrinin akkreditasiya qrafiki təsdiq edilmiş, attestasiya olunacaq tədris müəssisələrinə xəbərdarlıq məktubu göndərilmiş, həmin orta ixtisas təhsili məktəbləri tələbələrinin bilik səviyyəsini yoxlamaq üçün test tapşırıqları hazırlanmışdır. Hər bir orta ixtisas təhsili müəssisəsi üçün yaradılmış komissiya tərəfindən təhsil müəssisələrinin attestasiyası keçirilmiş, müvafiq arayışlar və rəylər hazırlanmışdır. 2009-cu ildə Mingəçevir və Gəncə Tibb məktəbləri, Lənkəran Dövlət Humanitar Kolleci, Ağcabədi Pedaqoji Texnikumu akreditə olunmuşdur.

Bununla yanaşı, Azərbaycan Dövlət Dəniz-Balıq Sənayesi Texnikumunun attestasiyası başa çatdırılmışdır.

«Orta ixtisas təhsili müəssisələri tələbələrinin biliyinin qiymətləndirilməsinin çoxballı sistemi haqqında müvəqqəti əsasnamə»yə uyğun olaraq, 2008-ci ildən eksperiment şəklində tətbiqinə başlanılmış bu qiymətləndirmə sistemi 2009-cu ildə əksər orta ixtisas təhsili müəssisələrini əhatə etmişdir. Bununla əlaqədar olaraq şöbənin əməkdaşları orta ixtisas təhsili müəssisələrində olmuş, bu sistemin tətbiqi vəziyyətini öyrənmiş, müəllim və tələbələrə lazımi metodiki köməklik göstərmişlər.

Eyni zamanda 2009–2012-ci illər üçün Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinin istahatları üzrə dövlət proqramının layihəsi hazırlanmış və təsdiq üçün Nazirlər Kabinetinə göndərilmişdir. Bununla yanaşı, «Azərbaycanda ali və orta ixtisas musiqi təhsilinin İnkişaf proqramının (2008–2012-ci illər)» layihəsi hazırlanaraq təsdiq üçün hökumətə təqdim edilmişdir.

2009-cu ildə təhsil sahəsində ən əlamətdar hadisələrdən biri «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununun və onun tətbiqi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Fərmanı olmuşdur. Həmin Fərmanın icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti 17 sentyabr 2009-cu il tarixli, 247S №-li sərəncam vermişdir. Bu sərəncamdan irəli gələn vəzifələr 23 sentyabr 2009-cu il tarixdə Təhsil Nazirliyində geniş müzkirə olunmuş, nazirliyin müvafiq qurumlarına lazımi tapşırıqlar verilmişdir. Nəticə olaraq «Təhsil Nazirliyinin Tədbirlər Planı» hazırlanmış və nazirliyin 25 sentyabr 2009-cu il tarixli, 1084 №-li əmri ilə təsdiq edilmişdir. Həmin «Tədbirlər planı»na uyğun olaraq aşağıdakı sənədlərin layihələri hazırlanmış, ali və orta ixtisas təhsili müəssisələri ilə birgə müzakirə olunduqdan sonra təsdiq üçün hökumətə təqdim edilmişdir:

- Ali təhsil pilləsinin dövlət standartı və proqramı;
- Ali təhsil müəssisəsinin nümunəvi nizamnaməsi;
- Orta ixtisas təhsili müəssisəsinin nümunəvi nizamnaməsi;
- Orta ixtisas təhsilinin dövlət standartı və proqramı;
- Ali və orta ixtisas təhsili pilləsində formal təhsilin təşkili qaydaları;
- Bakalavriat təhsilinin məzmunu və təşkili qaydaları;
- Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi qaydaları;

- Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin dərs yükü və digər iş növləri üzrə vaxt normaları;
- Orta ixtisas təhsili müəssisələrinin müəllim heyətinin dərs yükü və digər iş növləri üzrə vaxt normaları;
- Orta ixtisas təhsili pilləsini yüksək nəticələrlə başa vuran məzunların-subbakalavrların topladıqları kreditlərin uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrində nəzərə alınması qaydası;
- Ali təhsil pilləsinin bakalavr və magistr diplomlarının nümunəsi və onların verilməsi qaydası;
- Orta ixtisas təhsili haqqında diplomun nümunəsi və onun verilməsi qaydaları;
- Orta ixtisas təhsili pilləsini müxtəlif səbəblərdən başa vurmayan şəxslərə arayışın verilməsi qaydası;
- Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələri üzrə müxtəlif səbəblərdən təhsilini başa vurmayan şəxslərə arayışın verilməsi qaydası.

Bununla yanaşı, «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq Səhiyyə və Müdafiə Nazirlikləri tərəfindən hazırlanmış aşağıdakı «Qayda»ların layihələrinə rəy verilmişdir:

- Təhsil müəssisələrində təhsil alanlara pulsuz tibbi xidmətin göstərilməsi qaydası;
- Təhsil müəssisələrində iaşə və tibbi xidmətin təşkili qaydası və normaları;
- Xüsusi təyinatlı təhsil müəssisələrinin təsis edilməsi qaydaları və onların siyahısı barədə təkliflər;
- Tibb profilli ali məktəblərdə rezidentura təhsilinin məzmunu və təşkili qaydaları.

Eyni zamada Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Dövlət büdcəsindən maliyyələşdirilən ali təhsil müəssisələrində çalışan işçilərin yeni vəzifə maaşlarının və vəzifə maaşlarına əlavələrin təsdiq edilməsi haqqında» 12 sentyabr 2008-ci il tarixli, 310 №-li qərarının icrası ilə bağlı «Ali təhsil müəssisələrində kafedra müdiri və dekan vəzifələrinin tutulması haqqında Əsasnamə» hazırlanmış və təsdiq üçün hökumətə təqdim edilmişdir.

- Ali təhsil müəssisələrində professor-müəllim heyətinin seçilməsi barədə Əsasnamə»nin layihəsi üzərində iş davam etdirilir.

Şöbənin iş planına uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya»nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planında (2007–2011-ci illərdə) ali və orta ixtisas təhsili sahəsində 2009-cu il üçün nəzərdə tutulan tədbirlər həyata keçirilmişdir.

Hesabat dövründə şöbəyə 1413 ərizə və məktub daxil olmuş, onların hamısına müvafiq cavablar verilmişdir. Eyni zamanda şöbə əməkdaşları tərəfindən vətəndaşların qəbuluna diqqətlə yanaşılmış, nəzarətdə olan məktubların vaxtında icrası təmin olunmuşdur.

III. Mövcud problemlər və onların aradan qaldırılması üzrə təkliflər

- Ali təhsilin mövcud hüquqi-normativ bazası «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Bolonya Bəyannaməsinin müddəalarına və beynəlxalq təcrübəyə uyğunlaşdırılmalıdır;
- «Ali təhsilin bakalavr pilləsində ixtisasların (proqramların) siyahısı»na uyğun hazırlanmış «Magistr proqramlarının siyahısı» təsdiq olunmalıdır;
- Magistr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu təsdiq edilməli və buna müvafiq olaraq ixtisaslaşmalar üzrə yeni nəsl Dövlət təhsil standartları hazırlanmalıdır.
- Ali məktəblərdə təlim prosesinin tədris-metodiki təminatı təkmilləşdirilməlidir.
- «2008–2015-ci illər üçün Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyasının həyata keçirilməsi üzrə tədbirlər planı»nda nəzərdə tutulan məsələlərin ardıcıllıqla həyata keçirilməsi təmin olunmalıdır;
- «Təhsilin əsasları» fənninin dərsliyinin hazırlanması və nəşr olunması başa çatdırılmalıdır;
- Ali təhsil müəssisələrində tədrisin kredit sistemi ilə təşkili ilə bağlı aparılan eksperiment davam etdirilməlidir;
- Ali məktəblərdə kredit sisteminin tətbiqi ilə bağlı tədbirlərin (simpozium, konfrans, seminar, treninqlər və s.) həyata keçirilməsi təmin olunmalıdır;

- Orta ixtisas təhsili üzrə ixtisasların (proqramların) siyahısının təsdiqinə nail olunmalıdır;
- Orta ixtisas təhsili müəssisələrində tələbələrin biliyinin çoxballı sistemlə qiymətləndirilməsi ilə bağlı aparılan eksperimentin əhatə dairəsi genişləndirilməlidir;
- Orta ixtisas təhsili müəssisələrində semestr imtahanlarının mərkəzləşdirilmiş qaydada, test üsulu ilə keçirilməsinin əhatə dairəsi genişləndirilməlidir;
- Orta ixtisas təhsilli mütəxəssislərə real tələbat proqnozu hazırlanmalıdır;
- Təhsildə fasiləsizliyi təmin etmək üçün orta ixtisas təhsilinin digər təhsil pillələri və səviyyələri ilə qarşılıqlı fəaliyyəti təşkil olunmalıdır;
- İstehsalatın müvafiq sahələlərində kifayət qədər təcrübəsi olan, mütəxəssislərin orta ixtisas məktəblərinə cəlb edilməsi təmin olunmalıdır;
- Təhsil müəssisələrinin pedaqoji kadrlarının elmi inkişafının stimullaşdırılması təmin edilməlidir;
- Yeni maliyyələşmə mexanizminə keçilməsi təmin olunmalıdır;
- Orta ixtisas təhsili müəssisələrinin maddi-texniki bazasının yeniləşdirilməsi istiqamətində iş gücləndirilməlidir;
- Müəssisə və təşkilatların müasir istehsal bazasından orta ixtisas məktəbləri tələbələrinin praktik hazırlığı üçün istifadə edilməsi təmin olunmalıdır.

Bax: www.edu.gov.az

*Ali məktəblər üzrə əsas göstəricilər**

İllər	Cəmi ali məktəblərin sayı	O cümlədən		Cəmi tələbələrin sayı	O cümlədən	
		Dövlət	Özəl		Dövlət	Özəl
2000/2001	43	25	18	119683	91019	28664
2001/2002	40	25	15	120453	98959	21494
2002/2003	41	26	15	120039	101676	18363
2003/2004	42	27	15	121535	104009	17526
2004/2005	42	27	15	127248	106020	21228
2005/2006	42	27	15	129948	105997	23951
2006/2007	43	29	14	129141	106882	22259
2007/2008	43	29	14	130430	108238	22192
2008/2009	44	30	14	132357	111764	20593

* xüsusi təyinatlı ali məktəblər istisna olmaqla

Ali Təhsil Layihəsinin (2009–2014-cü illər) Hazırlanması üzrə Qrant

Bütün dövrlərdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olmuşdur. Cəmiyyətin tələbatı təhsilin inkişafını sürətləndirmiş, elmi və texnoloji nailiyyətlər isə təhsil sistemi qarşısında həlli vacib olan daha mürəkkəb vəzifələr qoymuşdur. Qloballaşmanın geniş vüsət aldığı hazırkı mərhələdə, informasiya cəmiyyətində sosial-iqtisadi fəaliyyət sahələrindəki rəqabətin gücləndiyi, habelə təbii resursların tədricən tükəndiyi bir vaxtda təhsilin rolu artmaqdadır. Birləşmiş Millətlər Təşkilatı XXI əsri «təhsil əsri» elan etmişdir. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında xüsusilə ali təhsilin rolu mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2009-cu il 22 may tarixli, 295 nömrəli Sərəncamı ilə «2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı» təsdiq edilmişdir. Dövlət Proqramının əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılması olmuşdur.

Dövlət Proqramında bəyan olunmuş məqsədlərin həyata keçirilməsi üçün 6 fevral 2009-cu il tarixdə Dünya Bankı və Azərbaycan Respublikası Ali təhsildə keyfiyyətin təminatına dəstək layihəsi üzrə Qrant sazişi imzalamışdır (Nazirlər Kabinetinin 30S nömrəli, 5 fevral 2009-cu il tarixli Sərəncamına uyğun olaraq, Qrant Sazişini Azərbaycan Respublikası adından təhsil naziri cənab Misir Mərdanov imzalamışdır). Ali təhsildə keyfiyyətin təminatına dəstək layihəsinin hazırlanması üçün Yaponiyanın Dünya Bankı vasitəsilə Azərbaycan Respublikasına ayırdığı Qrantın məbləği 460 min ABŞ dolları təşkil etmişdir.

Ali Təhsil Layihəsi: (i) ali təhsil sektorunun inkişafını səmərəli şəkildə istiqamətləndirmək məqsədilə Təhsil Nazirliyinin və digər hökumət orqanlarının idarəetmə və planlaşdırma potensialının gücləndirilməsi; (ii) ali təhsilin genişləndirilməsi üçün daha əlverişli və şəffaf mühitin yaradılması və ali təhsil müəssisələrində səmərəliliyin və keyfiyyətin həvəsləndirilməsi üçün stimulların təmin olunması yolu ilə Azərbaycanda ali təhsilin əlçatanlığını, keyfiyyətini və aktuallığını yüksəltmək üçün şəraitin yaradılması və təşviq olunması məqsədi ilə hazırlanmışdır.

Qrantın fəaliyyətlərinə Ali Təhsil Layihəsinin hazırlanması üçün tələb olunan texniki-iqtisadi əsaslandırmaların və təfərrüatlı işçi layihələrin hazırlanması, ekoloji, sosial, iqtisadi və digər araşdırmaların aparılması, Ali Təhsil Layihəsinin icra planlarının hazırlanması, maraqlı tərəflər arasında məsləhətləşmələrin, ölkə daxili təlimlərin, tədqiqatların, seminarların və sorğuların təşkili, texniki məsləhət xidmətlərinin (o cümlədən auditlərin) təmin edilməsi və bu tədbirlər üçün tələb olunan malların təchiz edilməsi aid olmuşdur. Bu fəaliyyətlər Qrantın komponent və alt-komponentləri üzrə maliyyələşdirilmişdir.

Bax: www.edu.gov.az

Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli, 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş «Azəbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramı»nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üzrə Təhsil Nazirliyinin fəaliyyət planı

«Azəbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramı»nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üzrə Təhsil Nazirliyinin Fəaliyyət Planının təsdiq edilməsi barədə əmri

«Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya»nın və «Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli, 255 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə

ƏMR EDİRƏM:

1. Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli, 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramı»nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üzrə Təhsil Nazirliyinin Fəaliyyət Planı təsdiq edilsin (əlavə olunur).

2. Təhsil Nazirliyinin müvafiq şöbələrinə, Təhsil Problemləri İnstitutuna (A.Mehrabov), ali təhsil müəssisələrinin rəhbərlərinə nəzərdə tutulan tədbirlərin müəyyən olunmuş müddətdə həyata keçirilməsinin təmin edilməsi tapşırılsın.

3. Fəaliyyət Planının icrası üzrə şöbələrin işinin əlaqələndirilməsini, görülən işlər barədə şöbə müdirlərinin hesabatlarının dinlənilməsini və müvafiq təkliflərin hazırlanmasını nazir müavini İ.Hüseynova və Aparatın rəhbəri İ.Pirməmmədov həyata keçirsinlər.

4. Hər ilin sonunda aidiyyəti şöbələr tərəfindən görülmüş işlər barədə məlumatların ümumiləşdirilməsi və Nazirliyin rəhbərliyinə təqdim edilməsi Elm şöbəsinə (G.Hüseynova) tapşırılsın.

5. İctimaiyyələ əlaqə şöbəsi (B.Hüseynzadə) bu əmrin «Azərbaycan müəllimi» qəzetində və «Təhsil xəbərləri» məcmuəsində dərc olunmasını təmin etsin.

6. Əmrin çoxaldılaraq yerlərə çatdırılması Ümumi şöbəyə (İ.Mirzəyev) tapşırılsın.

7. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

Misir Mərdanov,
təhsil naziri
10.09.2009, № 994

Təhsil Nazirinin 10.09.2009-cu il tarixli,
994 nömrəli əmri ilə təsdiq edilmişdir

Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli, 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramı»nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üzrə

Təhsil Nazirliyinin Fəaliyyət Planı

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
1.	**Elmi müəssisələrin fəaliyyətinin monitorinqi, ümumi vəziyyət haqqında geniş hesabatın tərtib edilməsi və müvafiq təkliflərin işlənib hazırlanması**	**Elm şöbəsi, Elmi-Metodik Şuranın bölmələri, İşçi qrupları**	**2009–2010**
1.1.	Ali məktəblərdəki elmi müəssisələrin fəaliyyətinin monitorinqini keçirmək məqsədi ilə İşçi qruplarının yaradılması	Elm şöbəsi	2009
1.2	Yoxlama suallarının və yoxlama cədvəlinin hazırlanması	Elm şöbəsi, İşçi qrupları	2009
1.3	Monitorinqin həyata keçirilməsi	İşçi qrupları	2009–2010
1.4	Monitorinqin nəticələri və ümumi vəziyyət haqqında geniş hesabatın tərtib edilməsi	İşçi qrupları	2010
1.5	Hesabatın müzakirə edilməsi və təkliflərin hazırlanması	Elm şöbəsi, İşçi qrupları, Elmi-Metodik Şuranın bölmələri	2010
2.	**Azərbaycan Milli Elmlər Akademiyasında, ölkədə mövcud olan elmi müəssisələrdə və ali məktəblərdə fundamental və tətbiqi elmi-tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi**	**Elm şöbəsi, Ali təhsil müəssisələri**	**2009–2010**

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
2.1.	Ali məktəblər tərəfindən fundamental və tətbiqi elmi-tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi	Ali təhsil müəssisələri	2009–2010
2.2.	Həmin istiqamətlərin Respublika Elmi-Tədqiqatların Təşkili və Əlaqələndirməsi Şurasına təqdim edilməsi	Ali təhsil müəssisələri	2009–2010
3.	**Elm, texnologiya və texnikanın prioritet istiqamətlərinə uyğun aparılan fundamental və tətbiqi elmi- tədqiqatların planlarının hazırlanması**	**Ali təhsil müəssisələri**	2009–2010
3.1.	Elm, texnologiya və texnikanın prioritet istiqamətlərinə uyğun aparılan fundamental və tətbiqi elmi-tədqiqatların planlarının hazırlanması və Elmi-Tədqiqatların Təşkili və Əlaqələndirməsi Şurasına təqdim edilməsi	Ali təhsil müəssisələri	009
3.2.	Həmin planların ali məktəblərin Elmi şuraları tərəfindən təsdiq edilməsi	Ali təhsil müəssisələri	2010
4.	**Elmi müəssisələrin və ali məktəblərin elmi-tədqiqat işlərinin əlaqələndirilməsi və onların yekunlarına dair hesabatların təhlili, Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağında müzakirə olunması və təsdiq edilməsi**	**Elm şöbəsi, Ali təhsil müəssisələri**	**Mütəmadi**
4.1.	Ali məktəblərdə yerinə yetirilən elmi-tədqiqat işlərinin yekunlarına dair hesabatların tərtib edilməsi və Təhsil Nazirliyinə təqdim olunması	Ali təhsil müəssisələri	Hər ilin sonunda

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
4.2.	Ali məktəblərdə yerinə yetirilən elmi-tədqiqat işlərinin yekunlarına dair hesabatların təhlili və ümumiləşdirilməsi	Elm şöbəsi	Hər ilin əvvəlində
4.3.	İl ərzində alınmış mühüm elmi nəticələrin təhlili, ümumiləşdirilməsi və AMEA-ya təqdim edilməsi	Elm şöbəsi, Ali təhsil müəssisələri	Hər ilin sonunda
4.4.	Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat işlərinin yekunlarına dair ümumi yığıncağında təhsil sisteminin təmsil olunmasının təmin edilməsi	Elm şöbəsi, Ali təhsil müəssisələri	İldə bir dəfə
5.	**AMEA-da, ölkədə mövcud olan elmi müəssisələrdə və ali məktəblərdə aparılan fundamental və tətbiqi tədqiqatların nəticələrinin müvafiq dövlət proqramları çərçivəsində tətbiqinin təmin edilməsi**	**Elm şöbəsi, Ali təhsil müəssisələri**	**2009–2015**
5.1.	Ali məktəblərdə aparılan fundamental və tətbiqi tədqiqatların tətbiqə hazır olan nəticələri barədə məlumat bazasının yaradılması	Elm şöbəsi, Ali təhsil müəssisələri	Hər ilin sonunda
5.2.	Fundamental və tətbiqi tədqiqatların nəticələrinin müvafiq dövlət proqramları çərçivəsində tətbiqi barədə təkliflərin hazırlanması	Elm şöbəsi, Ali təhsil müəssisələri	2009–2015
5.3.	Müvafiq təkliflərin Nazirlər Kabinetinə və AMEA-ya təqdim edilməsi	Elm şöbəsi	2009–2015
6.	**Qısa və uzunmüddətli məqsədli kompleks elmi proqramların işlənib hazırlanması və həyata keçirilməsi**	**Ali təhsil müəssisələri**	**2010–2015**
6.1.	Məqsədli kompleks elmi proqramlarda ali məktəbin iştirakını müəyyənləşdirmək üçün ayrı-ayrı elmi sahələr üzrə elmi-tədqiqat qruplarının yaradılması	Ali təhsil müəssisələri	2010–2015

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
6.2.	Məqsədli kompleks elmi proqramlarda ali məktəbin iştirakı barədə təkliflərin və layihələrin hazırlanması, müvafiq təşkilatlara təqdim edilməsi	Ali təhsil müəssisələri	2010–2015
6.3.	Məqsədli kompleks elmi proqramların həyata keçirilməsi	Ali təhsil müəssisələri	2010–2015
7.	**Elmi, sosial-iqtisadi və mənəvi, mədəni inkişaf üzrə strateji əhəmiyyətli dövlət proqramlarının, innovasiya layihələrinin hazırlanmasında və ekspertizasında müvafiq elmi müəssisələrin və aparıcı alimlərin iştirakının təmin edilməsi**	**Elm şöbəsi, Ali təhsil müəssisələri**	**2009–2015**
7.1.	Müvafiq təkliflərin hazırlanıb Nazirlər Kabinetinə təqdim edilməsi	Elm şöbəsi, Ali təhsil müəssisələri	2009–2010
8.	**Elm sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsinə dair təkliflərin işlənib hazırlanması**	**Elm, Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması, Təhsilin idarəolunmasının məlumat sistemləri, İqtisadiyyat şöbələri, Təhsil sisteminin informasiyalaşdırılması idarəsi, Ali təhsil müəssisələri**	**2009-2010**
8.1.	Ali məktəblərdə elm sahəsində mövcud idarəetmə sisteminin monitorinqinin aparılması üçün İşçi qrupunun yaradılması	Elm şöbəsi	2009–2010
8.2.	İşçi qrupu tərəfindən mövcud idarəetmə sisteminin təhlili və onun optimallaşdırılmasına dair təkliflərin hazırlanması	İşçi qrupu	2009–2010
8.3.	Həmin təkliflərin müzakirə edilməsi və müvafiq tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi	Elm, Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması, İqtisadiyyat şöbələri	2010

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
8.4.	Ali məktəblərdə «Elektron elm» idarəetmə sisteminin qurulması	Təhsil sisteminin informasiyalaşdırılması idarəsi, Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsi, Elm şöbəsi, Ali təhsil müəssisələri	2010
9.	**Regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramının həyata keçirilməsində bölgələrdə fəaliyyət göstərən elmi müəssisələrin və ali məktəblərin iştirakını təmin etməklə elmin inkişafına nail olmaq üçün təkliflərin hazırlanması**	**Elm şöbəsi, Ali təhsil müəssisələri**	**2009–2015**
9.1.	Bölgələrdə fəaliyyət göstərən ali məktəblər tərəfindən yerinə yetirilən elmi-tədqiqat işlərinin monitorinqinin aparılması	Ali təhsil müəssisələri	2009
9.2.	Monitorinqin nəticələri barədə Təhsil Nazirliyinə məlumatın təqdim edilməsi	Ali təhsil müəssisələri	2009–2010
9.3.	Elmi-tədqiqat mövzularının Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının perspektiv tələblərinə və Regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramına uyğunlaşdırılması	Ali təhsil müəssisələri	2009–2010
10.	**Elmi əsərlərin nüfuzlu jurnallarda, nəşriyyatlarda çap edilməsi üçün müvafiq mexanizmin işlənib hazırlanması**	**Elm şöbəsi, Təhsil Problemləri İnstitutu**	**2009–2010**
10.1.	Ali təhsil müəssisələrində elmi- tədqiqat işlərini inkişaf etdirmək və onların beynəlxalq nüfuzlu jurnallarda dərc olunmasını stimullaşdırmaq məqsədi ilə Təhsil Problemləri İnstitutunda Elmi araşdırmalar fondunun yaradılması	Elm şöbəsi, Təhsil Problemləri İnstitutu	2009

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
10.2.	Təhsil Problemləri İnstitutunun Elmi araşdırmalar fondu tərəfindən elmi əsərlərin nüfuzlu jurnallarda, nəşriyyatlarda çap edilməsi üçün müvafiq mexanizmin işlənib hazırlanması	Elm şöbəsi, Təhsil Problemləri İnstitutu	2010
11.	**Ali məktəblərin elmi-tədqiqat bölmələrinin fundamental tədqiqatların aparılmasına cəlb olunması və bu tədqiqatların dövlət büdcəsindən müvafiq qaydada maliyyələşdirilməsinin təmin edilməsi**	**Elm, İqtisadiyyat şöbələri, Ali təhsil müəssisələri**	**2009–2015**
11.1	Ali məktəblərdə fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrində aparılan elmi problemlərin və mövzuların monitorinqinin keçirilməsi məqsədi ilə Elmi-Metodik Şuranın bölmələrinə tapşırıqların verilməsi	Elm şöbəsi	2009
11.2	Monitorinqin həyata keçirilməsi	Elmi-Metodik Şuranın bölmələri	2009–2010
11.3	Monitorinqin nəticələrinin müzakirə edilməsi və ali məktəblərə müvafiq tövsiyələrin göndərilməsi	Elm, İqtisadiyyat şöbələri	2010
12.	**Gənc alimlərin elmi fəaliyyətini stimullaşdırmaq və onların fundamental elmi-tədqiqatların aparılmasında yaradıcılıq imkanlarını artırmaq üçün məqsədli proqramların və xüsusi fondların yaradılması**	**Elm şöbəsi, Ali təhsil müəssisələri**	**2009–2015**
12.1.	Bu sahə ilə bağlı normativ hüquqi sənədlərin hazırlanması üçün İşçi qrupunun yaradılması	Elm şöbəsi	2009
12.1.1.	Mövcud normativ hüquqi sənədlərin monitorinqinin aparılması və lazımi sənədlərin hazırlanması	İşçi qrupu	2009–2010

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
12.2.	Fundamental elmi-tədqiqatlar aparan gənc alimlər üçün «İlin gənc alimi» müsabiqəsinin təşkili	Elm şöbəsi	2010–2015
12.2.1.	Müsabiqənin Əsasnaməsinin hazırlanması	Elm şöbəsi, İşçi qrupu	2009
12.3.	Tələbə və magistrantlar üçün elmi konfransların və «Ən yaxşı tələbə elmi-tədqiqat işi» müsabiqəsinin təşkili	Elm şöbəsi	2010–2015
12.3.1.	Konfransın və müsabiqənin Əsasnaməsinin hazırlanması	Elm şöbəsi	2009
12.4.	«Gənc alimlərin inkişaf fondu»nun yaradılması barədə təkliflərin hazırlanması	Elm şöbəsi, İşçi qrupu	2009–2010
12.5.	Gənc alimlərin mobilliyinin təmin edilməsi məqsədilə müxtəlif fondların yardımından istifadə edilməsi	Ali təhsil müəssisələri	2009–2015
13.	**Dövlətlərarası elmi əməkdaşlığın genişləndirilməsi, birgə elmi layihə və proqramların həyata keçirilməsi və elmi-tədqiqatların maliyyələşdirilməsi üçün beynəlxalq fondlardan vəsaitlərin cəlb olunması**	**Elm, Beynəlxalq əlaqələr şöbələri**	**Mütəmadi**
13.1.	Birgə elmi layihə və proqramların həyata keçirilməsinə dair təkliflərin hazırlanması və müvafiq fondlara və təşkilatlara təqdim edilməsi	Elm, Beynəlxalq əlaqələr şöbələri, Ali təhsil müəssisələri	Mütəmadi
14.	**Milli Strategiyaya uyğun olaraq elmi potensialın formalaşdırılması üçün xarici ölkələrdə yüksək ixtisaslı elmi mütəxəssislərin hazırlanması və onların elmi müəssisələrdə müvafiq işlə təmin olunması istiqamətində normativ hüquqi bazanın yaradılması**	**Elm, Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması, Beynəlxalq əlaqələr şöbələri**	**2009–2010**

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
14.1.	Bu sahə ilə bağlı normativ hüquqi sənədlərin hazırlanması üçün İşçi qrupunun yaradılması	Elm, Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması, Beynəlxalq əlaqələr şöbələri	2009
14.2.	Mövcud normativ hüquqi sənədlərin monitorinqinin aparılması və lazımi sənədlərin hazırlanması	İşçi qrupu	2010
14.3.	Hazırlanmış layihələrin təsdiqə təqdim edilməsi	Elm, Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması, Beynəlxalq əlaqələr şöbələri	2010
15.	**Milli Elmlər Akademiyası, sahə elmi- tədqiqat institutları və ali məktəb müəssisələrinin birgə fundamental və tətbiqi elmi-tədqiqat işlərinin aparılması, həmin institutlarda çalışan alimlər tərəfindən tələbələrin buraxılış işlərinə, magistrantların dissertasiyalarına rəhbərliyin həyata keçirilməsi, elmi-texniki bazadan istifadə edilməsi məqsədi ilə elmi-tədqiqat institutlarında və istehsalatda ali məktəblərin bazalarının yaradılması və bu məsələlərin hüquqi əsaslarının işlənib hazırlanması**	**Elm , Ali və orta ixtisas təhsili şöbələri, Ali təhsil müəssisələri**	**2009–2010**
15.1.	Bu sahə ilə bağlı normativ hüquqi sənədlərin hazırlanması üçün İşçi qrupunun yaradılması	Elm , Ali və orta ixtisas təhsili şöbələri	2009
15.1.2.	Mövcud normativ hüquqi sənədlərin monitorinqinin aparılması və lazımi sənədlərin hazırlanması	İşçi qrupu	2009
15.1.3.	Hazırlanmış layihələrin təsdiqə təqdim edilməsi	Elm , Ali və orta ixtisas təhsili şöbələri	
15.2	Milli Elmlər Akademiyasında, sahə elmi-tədqiqat institutlarında çalışan alimlərin tələbələrin buraxılış işlərinə, magistrantların dissertasiyalarına rəhbərliyin həyata keçirilməsinin təmin edilməsi	Ali təhsil müəssisələri	2010–2015

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
15.3.	Birgə fundamental və tətbiqi elmi-tədqiqat işlərinin aparılması barədə təkliflərin hazırlanması	Ali təhsil müəssisələri	2010–2015
15.4.	Elmi-tədqiqat institutlarında və istehsalatda ali məktəblərin bazalarının yaradılması	Elm, Ali və orta ixtisas təhsili şöbələri	2010–2015
16.	«Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji işçilərə alimlik dərəcələri verilməsi üzrə ixtisasların nomenklaturası»nın YUNESKO-nun və digər beynəlxalq təşkilatların qəbul etdiyi elmi ixtisas siyahılarına uyğunlaşdırılması	Elm şöbəsi, İşçi qruru	2009–2010
16.1.	Elmi və elmi-pedaqoji kadr hazırlığı aparılan ixtisasların monitorinqini həyata keçirmək məqsədi ilə İşçi qrupunun yaradılması	Elm şöbəsi	2009
16.2.	Elmi və elmi-pedaqoji kadr hazırlığı ixtisaslarının beynəlxalq təşkilatların qəbul etdiyi elmi ixtisas siyahılarına uyğunlaşdırılması barədə təkliflərin hazırlanması	İşçi qrupu	2010
17.	Elmi-tədqiqat işlərinin yüksək səviyyədə yerinə yetirilməsini təmin etmək üçün elmi müəssisələrin maddi-texniki bazasının müasirləşdirilməsi	Elm, İqtisadiyyat şöbələri, Ali təhsil müəssisələri	Mütəmadi
17.1.	Ali məktəblərdə fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının monitorinqi	Ali məktəblərdə fəaliyyət göstərən elmi- tədqiqat müəssisələrinin maddi-texniki bazasının monitorinqi	2009
17.2.	Elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının müasirləşdirilməsinə dair təkliflərin hazırlanması	Elm, İqtisadiyyat şöbələri, Ali təhsil müəssisələri	2009–2010
17.3.	Elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının müasirləşdirilməsi	Elm, İqtisadiyyat şöbələri, Ali təhsil müəssisələri	Mütəmadi

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
18.	Elmi-tədqiqat işlərinin istehsalata tətbiqini sürətləndirmək üçün texnoparkların yaradılmasına dair təkliflərin və müvafiq normativ hüquqi sənədlərin hazırlanması	Elm, İqtisadiyyat şöbələri, Ali təhsil müəssisələri	2009–2011
18.1.	İşçi qrupunun yaradılması	Elm şöbəsi	2009
18.1.2	Texnoparkların fəaliyyəti ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi	İşçi qrupu	2009
18.1.3	Texnoparklar haqqında əsasnamənin işlənib hazırlanması	İşçi qrupu	2010
18.2.	Texnoparkların yaradılmasına dair təkliflərin hazırlanması	Elm şöbəsi, İşçı qrupları, Ali təhsil müəssisələri	2010
18.3.	Texnoparkların yaradılması	Elm, İqtisadiyyat şöbələri, Ali təhsil müəssisələri	2010–2011
19.	Elmi müəssisələrdə müasir informasiya və telekommunikasiya vasitələrinin geniş tətbiqi, internet şəbəkələrinin inkişafı və elektron kitabxanaların təşkili	Elm, Təhsilin idarəolunmasının məlumat sistemləri şöbələri, Təhsil sisteminin informasiyalaşdırılması idarəsi, Ali təhsil müəssisələri	2009–2015
19.1.	Ali məktəblərin elmi-tədqiqat müəssisələrində müasir informasiya və telekommunikasiya vasitələrinin geniş tətbiqinin təmin olunması	Elm, Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsi, Təhsil sisteminin informasiyalaşdırılması idarəsi, Ali təhsil müəssisələri	2009–2015
19.2.	Ali məktəblərdə elektron kitabxanaların təşkili	Elm, Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsi, Təhsil sisteminin informasiyalaşdırılması idarəsi, Ali təhsil müəssisələri	2009–2015

№	Tədbirlərin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
19.2.1.	Elektron kitabxanaların təşkilinə dair təkliflərin hazırlanması məqsədi ilə İşçi qrupunun yaradılması	Elm, Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsi, Təhsil sisteminin informasiyalaşdırılması idarəsi, Ali təhsil müəssisələri	2009
19.2.2.	Ali məktəbin elektron kitabxanası haqqında nümunəvi əsasnamənin hazırlanması	Elm, Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsi, Təhsil sisteminin informasiyalaşdırılması idarəsi, Ali təhsil müəssisələri	2009–2010
19.2.3.	Kitabxana sistemində məlumat, şəbəkə və internet texnologiyaların inkişaf etdirilməsi	Elm, Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsi, Təhsil sisteminin informasiyalaşdırılması idarəsi, Ali təhsil müəssisələri	2009–2015
19.3	Ali məktəb kitabxanalarının müasir kitabxana-informasiya resurslarına çevrilməsi, internetə, dünya informasiya mərkəzlərinə sərbəst girişinin təmin edilməsi	Elm, Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsi, Təhsil sisteminin informasiyalaşdırılması idarəsi, Ali təhsil müəssisələri	2009–2015
20.	Elmi müəssisələr və kitabxanalar üçün müasir standartlara cavab verən binaların tikilməsi və onların müvafiq avadanlıqla təchiz edilməsi	Elm, İqtisadiyyat şöbələri, Ali təhsil müəssisələri	2009–2015
20.1.	Ali məktəblərdə fəaliyyət göstərən elmi-tədqiqat institutlarının və elmi kitabxanalarının yerləşdirilmə şəraitinin öyrənilməsi	Elm, İqtisadiyyat şöbələri, Ali təhsil müəssisələri	2009
20.2.	Yeni binalara ehtiyacı olan elmi müəssisələrin və kitabxanaların müəyyənləşdirilməsi	Elm, İqtisadiyyat şöbələri, Ali təhsil müəssisələri	2009
20.3.	Müvafiq təkliflərin hazırlanıb Nazirlər Kabinetinə təqdim edilməsi	Elm, İqtisadiyyat şöbələri	2009
20.4.	Müasir standartlara cavab verən binaların tikilməsi ilə əlaqədar lazımi sənədlərin hazırlanması	Elm, İqtisadiyyat şöbələri, Ali təhsil müəssisələri	2010
20.5.	Yeni binaların tikilməsi və onların müvafiq avadanlıqla təchiz edilməsi	İqtisadiyyat şöbəsi, Ali təhsil müəssisələri	2010–2015

*Bax: www.edu.gov.az

Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişaf konsepsiyası (2007–2012-ci illər)

Giriş

Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişaf konsepsiyası Təhsil Qanununun, Təhsil Sahəsində İslahat Proqramının tələblərinə, dövlət təhsil siyasətinə, həmçinin YUNESKO-nun texniki peşə təhsili ilə əlaqədar konseptual prinsiplərinə və inkişaf etmiş ölkələrdə bu sahədə olan qabaqcıl təcrübəyə əsaslanan müddəalara uyğun hazırlanmışdır.

Konsepsiyada respublikada texniki peşə təhsilinin inkişaf mərhələləri, bu təhsil sisteminin məzmunu və vəzifələri, habelə gözlənilən nəticələr öz əksini tapmışdır.

Konsepsiyanın hazırlanmasında fasiləsiz təhsil, davamlı insan inkişafı, təhsilin humanistliyi və demokratikliyi, şəxsiyyətyönümlü, texniki peşə təhsili sahəsində dövlət siyasəti, ölkə iqtisadiyyatının və əmək bazarının tələbatına uyğun ixtisaslı kadrlara olan ehtiyacın ödənilməsi və gənclərin bərabər təhsilalma imkanları prinsipləri əsas götürülmüşdür.

Konsepsiyanın məqsədi

Konsepsiyanın əsas məqsədi ölkə iqtisadiyyatının ixtisaslı fəhlə kadrlarına olan tələbatın ödənilməsində texniki peşə təhsili müəssisələrinin fəaliyyətini bu vəzifələrin icrasına yönəltmək, təhsil sahəsində İslahat Proqramına uyğun olaraq texniki peşə təhsilini müasir tələblər baxımından təkmilləşdirmək, islahat və xidmət sahələri üçün yüksək ixtisaslı kadrlar hazırlamaqdan ibarətdir.

Göstərilənləri reallaşdırmaq üçün təhsil sistemində prioritet istiqaməti dərin biliyə, bacarığa, yüksək peşə hazırlığına, məsuliyyət hissinə, mütəraqqi dünyagörüşə malik və onu daim inkişaf etdirməyə qabil olan şəxsiyyət formalaşdırmaqdan ümumbəşəri dəyərlərə yiyələnən müstəqil və yaradıcı düşünən vətəndaşlar tərbiyə etməkdən ibarət olmalıdır.

Konsepsiyanın yaradılmasını zəruri edən amillər

Qloballaşmanın geniş vüsət aldığı müasir cəmiyyətin formalaşdırdığı intelektə və biliklərə söykənən iqtisadiyyatın yarandığı müasir dövrdə hər bir ölkənin siyasi, iqtisadi və sosial inkişafı onun malik ola biləcəyi yüksək elmi tutumlu texnologiyalara nə dərəcədə sürətlə yiyələnə biləcəyindən, başqa sözlə, səmərəli təhsil sistemindən asılıdır.

Dünyada baş verən regional və qlobal xarakterli problemlər hər bir sivil ölkədə olduğu kimi Azərbaycanda da, ilk növbədə təhsil sistemində köklü dəyişikliklərin aparılmasını aktual etmişdir.

Texniki-peşə təhsili müəssisələrində kadr hazırlığı keyfiyyətinin yüksəldilməsi və onun müasir dövrün tələblərinə cavab verən konseptual yanaşmaların işlənməsini, bu sahədə strateji fəaliyyət proqramının hazırlanmasını, başqa sözlə, texniki peşə təhsilinin inkişaf konsepsiyasının yaradılmasını zəruri etmişdir.

Texniki peşə təhsilinin mövcud vəziyyəti

Azərbaycanda texniki peşə təhsilinin inkişaf tarixinin təhlili göstərir ki, bu təhsil pilləsi cəmiyyətin müxtəlif inkişaf mərhələlərində formalaşaraq tarixi bir yol keçmiş və respublika iqtisadiyyatının bütün sahələrinin ixtisaslı fəhlə kadrlarına olan tələbatının ödənilməsində mühüm rol oynamışdır.

Texniki peşə təhsili ümummilli liderimiz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1982–1996-cı illərdə daha sürətlə inkişaf etmişdir.

Həmin illərdə 100-dən çox texniki peşə məktəbi yaradılmışdır.

Ötən əsrin 80-ci illərində Azərbaycanda 185 texniki peşə məktəbi fəaliyyət göstərirdi ki, bunlarda da 109 min şagird təhsil alırdı.

Azərbaycanın müstəqillik əldə etdiyi ilk illərdə (1991–1993-cü illər) respublikada mövcud olan mürəkkəb ictimai-siyasi şərait və qeyri-sabitlik, səriştəsiz rəhbərlik, bütün sahələrdə olduğu kimi, texniki peşə təhsilinin də inkişafına mənfi təsir göstərmişdir.

Yalnız ümummilli liderimiz Heydər Əliyevin respublikaya rəhbərliyə ikinci dəfə qayıdışından sonra texniki peşə təhsilinin inkişafı üçün real şərait yarandı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında» 23 avqust 1996-cı il tarixli qərarı ilə peşə təhsili müəssisələrinə peşə məktəbi və peşə liseyi statusu verilmiş, peşələrin yeni siyahısı təsdiq edilmiş, şəbəkə optimallaşdırılmış, maddi-texniki bazası müasir tələblərə cavab verməyən bir sıra peşə təhsili müəssisələri ləğv edilmişdir.

2006-cı il 01 tarixində respublikada 114 (bunun 7-si əraziləri işğal olunmuş rayonlarda olan, hazırda fəaliyyəti müvəqqəti dayandırılmış texniki peşə məktəbləridir) texniki peşə təhsili müəssisəsi vardır.

Hazırda fəaliyyət göstərən 107 peşə təhsili müəssisəsinin 47-si peşə liseyi və 60-ı isə peşə məktəbidir.

Naxçıvan Muxtar Respublikasında 4, Bakı şəhərində 35, respublikanın digər şəhər və rayonlarında isə 68 texniki peşə təhsili müəssisəsi vardır.

Respublikanın peşə təhsili müəssisələrində 101 peşə üzrə 23146 şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 6251 nəfər, o cümlədən 4271 nəfər mühəndis-pedaqoji işçi məşğuldur.

Respublikada fəaliyyət göstərən 107 texniki peşə təhsili müəssisəsinin 44-ü komplekslərdə, 45-i uyğunlaşdırılmış binalarda və 8-i cəzaçəkmə müəssisələrində yerləşirlər.

Şagirdlərin peşə və ümumtəhsil hazırlığında tədris kabinetlərindən, peşələr üzrə laboratoriyalardan, tədris-istehsalat emalatxanalarından, metal və ağac emalı dəzgahlarından, təlim-təsərrüfatlarından, xeyli miqdarda tikiş avadanlığı və kompyuterlərdən istifadə olunur.

«Azərbaycan Respublikasında Təhsil Sahəsində İslahat Proqramı»na müvafiq olaraq tədris plan və proqramlarının məzmunu və quruluşu təkmilləşdirilmiş, ayrı-ayrı fənlər inteqrasiya edilmiş, şagirdlərin bilik və bacarıqlarının səviyyəsinə təsir etmədən artıq həftəlik dərs yükü azaldılmış, «Ümumtəhsil fənləri» bölməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında ümumorta təhsilin dövlət standartlarının təsdiq edilməsi haqqında» 1999-cu il 26 aprel tarixli, 72 nömrəli qərarına uyğun yenidən işlənmişdir.

İslahat Proqramı qəbul edildikdən sonra texniki peşə təhsilli müəssisələrinin fəaliyyətini tənzimləyən 26 adda hüquqi-normativ sənəd işlənmiş və Təhsil Nazirliyi tərəfindən təsdiq edilərək kitabça şəklində nəşr olunmuşdur.

Texniki peşə təhsili sahəsində informasiya, tədris, elmi-pedaqoji və metodiki təminatı yaxşılaşdırmaq məqsədi ilə 2000-ci ildən «Sənətkar» jurnalının nəşrinə başlanmışdır.

Peşə məktəbi və peşə liseylərində təlim-tərbiyə prosesinin səmərəliliyini yüksəltmək, şagirdlərin peşə və fənlərə olan maraq və meyillərini artırmaq, istedadlı şagirdlərin üzə çıxaraq, onlarla aparılan işin forma və metodlarını təkmilləşdirmək məqsədi ilə fənn olimpiada və peşə müsabiqələrinin keçirilməsinə diqqət xeyli artmışdır.

Texniki peşə təhsilinin təkmilləşdirilməsi, normativ-hüquqi bazanın yeniləşdirilməsi, təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması, bazar iqtisadiyyatının tələblərinə və əmək bazarında rəqabətə davamlı, yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində bir sıra məqsədyönlü işlər görülmüşdür.

2002-ci ildə Nazirlər Kabinetinin qərarı ilə yeni klassifikator təsdiq edilmiş, buraya müasir texnologiyalara uyğun 40-dan çox yeni ixtisas əlavə olunmuşdur.

Alman Texniki Əməkdaşlıq Cəmiyyətinin xətti ilə texniki peşə təhsili müəssisələrində təlim metodlarını yeniləşdirmək, beynəlxalq təcrübəni öyrənmək məqsədi ilə Azərbaycan daxil olmaqla 7 ölkədə 2004-cü ildən başlayaraq (Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri) mühəndis-pedaqoji işçilərin ixtisasının artırılmasına dair 3 illik layihə həyata keçirilir.

Alman Texniki Əməkdaşlıq Cəmiyyətlə yanaşı, Təhsil Nazirliyi də bir sıra beynəlxalq təşkilatlarla əlaqələr yaratmışdır. Bunlar YUNESKO, Asiya İnkişaf Bankı və Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankıdır.

Təhsil Nazirliyi ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı arasında peşə təhsilinin inkişaf layihəsinin hazırlanması üçün 12 avqust 2005-ci il tarixdə pilot tədqiqatının icra protokolu imzalanmışdır.

Respublikada texniki peşə təhsilinin mövcud vəziyyətini öyrənən tədqiqat qrupu tərəfindən hazırlanmış ilkin yekun hesabat Nazirlər Kabinetinə və Təhsil Nazirliyinə təqdim edilmişdir.

Hesabatda peşə təhsilinin mövcud vəziyyəti təhlil edilmiş, bu sahədə olan problemlər və çətinliklər öz əksini tapmış, sahənin inkişafı üçün təkliflər verilmişdir.

Təhsil Nazirliyi tərəfindən «Azərbaycan Respublikasında texniki peşə təhsilinin İnkişaf Proqramı (2006–2009-cu illər)» və təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir.

Son illərdə texniki peşə təhsilinin inkişafına ayrılan büdcə vəsaiti də artmışdır. Belə ki, bu sahəyə ayrılan vəsait yeni Azərbaycan manatı ilə 2003-cü ildə 4,6; 2004-cü ildə 5,6; 2005-ci ildə 7,0; 2006-cı ildə isə 9,7 milyon manat təşkil etmişdir.

Texniki peşə təhsilinin problemləri

Bazar iqtisadiyyatının tələblərinə müvafiq rəqabətə davamlı ixtisaslı fəhlə kadrlarının hazırlanması üçün texniki peşə təhsili müəssisələrinin əksəriyyətinin maddi-texniki bazası günün tələblərinə cavab vermir. Hazırda istifadə edilən bütün avadanlıq fiziki və mənəvi cəhətdən köhnəlmişdir.

1991-ci ildən peşə məktəbi və peşə liseylərinə tədrisin əyani və təlimin texniki vasitələri, yeni nəsil kompyuterlər, müasir konstruksiyalı dəzgahlar, maşın-mexanizm və cihazlar ayrılmır.

Texniki peşə təhsili müəssisələrində ümumtəhsil və ixtisas fənn kabinetlərində, laboratoriyalarda, kənd təsərrüfatı texnikası, kompyuterlər və digər avadanlığın miqdarı normativ sənədlərdə nəzərdə tutulduğundan azdır.

Respublikanın peşə məktəbi və peşə liseylərində çalışan ixtisas fənn müəllimləri arasında mühəndis-pedaqoqların sayı kifayət qədər deyil.

Son bir neçə ildə respublikanın texniki peşə təhsili müəssisələrində təhsil alan şagirdlərin sayı xeyli azaldılmışdır.

İnkişaf etmiş ölkələrdə əsas təhsil pilləsi məzunlarının 40–60%-i məhz texniki peşə məktəblərinə qəbul olunduğu halda, bu rəqəm Azərbaycanda 5–8% təşkil edir.

Texniki peşə təhsilinin Dövlət standartlarının olmaması yeni tədris plan və proqramlarının, dərslik və dərs vəsaitlərinin hazırlanmasında çətinliklər yaradır.

Dövlət büdcəsindən ayrılan vəsait tədris-maddi bazanın inkişafı və möhkəmləndirilməsi, xammal, yanacaq və sürtgü materillarının alınması, şagirdlərin sosial müdafiəsi (təqaüd, yemək, xüsusi geyim, yataqxana, sağlamlıq – idman və mədəni-kütləvi tədbirlər) kommunal xidmətlər, bina, qurğu və digər tikililərin əsaslı təmiri, mühəndis-pedaqoji işçilərin ixtisasının artırılması üçün tələb olunan xərcləri tam ödəmir.

Peşə təhsili müəssisələrinin 49-nun tədris və yataqxana binalarında məcburi köçkün və qaçqın ailələri məskunlaşmışdır.

Vəzifələr

Texniki peşə təhsilinin inkişaf konsepsiyasının icrası ilə əlaqədar aşağıdakı tədbirlər həyata keçirilməlidir:

– texniki peşə təhsili məzmununu müasir tələblər baxımından yeniləşdirmək üçün normativ-hüquqi bazanı təkmilləşdirmək;
– texniki peşə təhsilinin müəssisələrinin maddi – texniki bazasını yeni təlim avadanlığı hesabına yeniləşdirmək, tədris prosesinin kompyuterləşdirilməsi, yeni təhsil texnologiyalarının tətbiqi üçün tədbirlər görmək;
– texniki peşə təhsilini əmək bazarının dəyişən tələbinə uyğunlaşdırmaq məqsədilə bu sahə üzrə yeni ixtisas və ixtisaslaşma klassifikatorunu hazırlamaq;
– peşə təhsili müəssisələrində kadr hazırlığını ölkə iqtisadiyyatının inkişafına və əmək bazarının tələblərinə uyğun yüksək texnologiyalı istehsal və xidmət sahələrinə istiqamətləndirmək;
– kadr hazırlığı ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şərait yaratmaq;
– iqtisadiyyatın qeyri-dövlət bölməsi üçün kadr hazırlığına xüsusi diqqət yetirmək;
– regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq ölkədə qeyri neft sektorunu sürətli inkişaf etdirmək məqsədi ilə kənd təsərrüfatı, turizm, emal və xidmət sahələri üçün kadr hazırlığını genişləndirmək;
– mütərəqqi təhsil formalarından istifadə etməklə fasiləsiz peşə təhsili sistemini daha da təkmilləşdirmək və bu yolla işçilərin iş yerində təhsilini davam etdirməsi üçün şərait yaratmaq;
– ixtisas fənləri üzrə yeni texnologiyaları özündə əks etdirən, tədris plan və proqramlarını, dərslik və dərs vəsaitlərini hazırlayıb nəşr etdirmək;
– texniki peşə təhsilinin müəssisələrinin şəbəkəsinin optimallaşdırılması, əmək bazarında rəqabətə davamlı, yüksək ixtisaslı kardlar hazırlayan yeni tip – pilləli komplekslər yaratmaq və bu işlərin təşkilində müvafiq beynəlxalq və yerli müəssisələrin təcrübəsindən geniş istifadə etmək;

– texniki peşə təhsili müəssisələrini mühəndis – pedaqoqlarla təmin etmək üçün respublikanın ali təhsil müəssisələrində mühəndis – pedaqoqların, Bakı Sənaye – Pedaqoji Texnikumunda peşə məktəbi və peşə liseylərinin istedadlı məzunlarından istehsalat təlimi ustalarının hazırlanması işini təşkil etmək;
– texniki peşə təhsili müəssisələrinin rəhbər mühəndis
– pedaqoji işçilərinin ixtisasının artırılması və yenidən hazırlanması işini təkmilləşdirmək;
– əmək bazarının tələblərinə uyğun olaraq işsiz və qeyri – məşğul əhaliyə peşə öyrədilməsinə və yenidən hazırlamalarına texniki peşə təhsilinin müəssisələrində lazımi şərait yaratmaq;
– işəgötürənlərlə texniki peşə təhsilinin müəssisələri arasında sosial tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi üçün tədbirlər görmək;
– texniki peşə təhsilinin maliyyələşdirilməsinin yeni iqtisadi modelini hazırlamaq;
– texniki peşə təhsili müəssisələrinin strukturunu və idarəetmə mexanizmini təkmilləşdirmək;
– informasiya texnologiyalarından daha səmərəli istifadə etməklə inkişaf etmiş ölkələrdən məlumatlar toplamaq məqsədi ilə texniki peşə təhsili müəssisələrinin «İNTERNET»ə və digər informasiya kanallarına qoşulmasını təmin etmək və bunun əsasında məlumat bankı yaratmaq;
– «texniki peşə təhsili haqqında» Azərbaycan Respublikası Qanunun layihəsini hazırlamaq.

Gözlənilən nəticələr

Konsepsiyanın yerinə yetirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:

Texniki peşə təhsilinin hüquqi-normativ bazası təkmilləşəcək.

Texniki peşə təhsili müəssisələrinin maddi-texniki və tədris bazası müasir avdanlıqla təmin olunacaq, təlim prosesinin səmərəsi artacaq, müasir tələblərə cavab verən sənətkarların hazırlanması üçün əlverişli şərait yaranacaq.

Texniki peşə təhsili strateji istiqamətlər üzrə daha da inkişaf edəcək, sənətkar şəxsiyyətinin, onda müasir iqtisadi təfəkkürün, yeni texnika və

texnologiyaları idarə etmək bacarığının formalaşması, təhsilin demokratikləşdirilməsi və humanistləşdirilməsi sahəsində geniş imkanlar yaranacaq.

Texniki peşə təhsili müəssisələrinin elmi-metodiki və informasiya təminatı yaxşılaşacaq, müasir texnika və texnologiyalara dair tədris materiallarını özündə əks etdirən proqramların, dərslik və dərs vəsaitlərinin hazırlanması və nəşri sahəsində əsaslı dönüş yaranacaq, təlim – tərbiyənin məzmunu şagirdlərin imkanlarına uyğun dövlətin, ictimaiyyətin və şəxsin tələbatı əsasında qurulacaq.

Planlaşdırmanın çevik mexanizmi yaradılacaq, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşacaq, dövlət və qeyri-dövlət müəssisələrinin kadrlara olan tələbatı tam ödəniləcək.

Şagird kontingentinin tərkibi keyfiyyətcə yaxşılaşacaq, yeni yaranan sahələr üçün kadr hazırlığı artacaq.

Peşə məktəbi və peşə liseylərinin strukturu və idarə edilməsi mexanizmi təkmilləşəcək, regionlarda yeni təhsil müəssisələri yaradılacaq.

Regionların tələbatına cavab verməyən texniki peşə təhsili müəssisələrinin profili dəyişdiriləcək, maddi-texniki bazası zəif olan peşə məktəbi və peşə liseyləri ləğv ediləcək. Şagirdlərin sosial müdafiəsi gücləndiriləcək, onlar üçün müxtəlif mədəni-kütləvi və idman-sağlamlıq tədbirlərinin təşkili üçün geniş imkanlar yaranacaq.

Texniki peşə təhsilin maliyyələşdirilməsinin yeni mexanizmini əks etdirən iqtisadi model formalaşacaq.

Mühəndis-pedaqoji işçilərin sosial müdafiəsi yaxşılaşacaq, onların pedaqoji ustalığının və metodiki hazırlığının yüksəlməsinə, ixtisas biliyinin genişlənməsinə səbəb olacaq.

• *Bax:* www.edu.gov.az

Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)

GİRİŞ

Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası – Milli Kurikulumu (bundan sonra Milli Kurikulum) konseptual xarakterli çərçivə sənədi olub ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri, fənn kurikulumlarının strukturunu əhatə edir.

Milli Kurikulum ictimai-siyasi, mədəni və sosial həyatın qloballaşdığı və universallaşdığı, informasiya-kommunikasiya texnologiyalarının rolunun artdığı, rəqabətin gücləndiyi müasir dövrdə hər bir şəxsin istedad və qabiliyyətinin müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, müstəqil qərarlar qəbul etməsi üçün onun zəruri təhsil səviyyəsinə və bacarıqlara malik olmasına, cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi olan insanın formalaşdırılmasına və problemlərin həllinə yönəlmişdir.

Milli Kurikulum bilavasitə aşağıdakı funksiyaların reallaşdırılmasına xidmət edir:

- ümumi təhsilin pillələri, bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi;
- fənlərin məzmununun cəmiyyətin tələbatına uyğun daim təkmilləşdirilməsi və yeniləşdirilməsi;
- təlim texnologiyalarının çevikliyi və interaktivliyinin təmin olunması;
- nəticəyönümlü fənn kurikulumlarının hazırlanıb tətbiq olunması;
- təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təlimin inkişafetdirici və qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında müəyyənləşdirilməsinin təmin olunması;
- şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi və stimullaşdırılmasının təmin edilməsi.

Milli Kurikulum aşağıdakı ümumi prinsiplərə istinad olunmaqla hazırlanmışdır:

– milli və ümumbəşəri dəyərlərin nəzərə alınması;
– ümumi inkişafı, meyil və maraqları nəzərə alınmaqla bütün şagirdlərə əlverişli təlim şəraitinin yaradılması;
– tələbyönümlülük;
– nəticəyönümlülük;
– şagirdyönümlülük.;
– inteqrativlik.

MÜNDƏRİCAT

I. Ümumi təhsilə və ümumi təhsilli şəxsə verilən tələblər
II. Ümumi təhsilin məzmun standartları
III. Ümumi təhsil müəssisələrində fənlər üzrə həftəlik dərs saatlarının miqdarı
IV. Ümumi təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri
V. Ümumi təhsil sistemində şagird nailiyyətlərinin qiymətləndirilməsi
VI. Fənn kurikulumlarının strukturu

Bax: www.edu.gov.az

«Azərbaycan Respublikasının ümumtəhsil sistemində qiymətləndirmə konsepsiyası»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı və Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası (Dünya Bankı) arasında bağlanmış kredit sazişi çərçivəsində həyata keçirilən Təhsil Sektorunun İnkişaf Layihəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti

QƏRARA ALIR:

1. «Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası» təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.Rasizadə,
Azərbaycan Respublikasının Baş naziri
Bakı şəhəri, 13 yanvar 2009-cu il, № 9

Azərbaycan Respublikasının ümumtəhsil sistemində qiymətləndirmə konsepsiyası

1. Giriş

Hazırda Azərbaycan Respublikasında bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də köklü islahatlar həyata keçirilir. Bu islahatların əsas məqsədi cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla, təhsilin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etməkdir. Bununla əlaqədar təhsilin keyfiyyətini şərtləndirən amillərə, ilk növbədə təhsilin məzmununa, müəllim hazırlığına və qiymətləndirmə sistemlərinə yenidən baxılması zərurəti yaranmışdır.

Yeni qiymətləndirmə sisteminin hazırlanması Təhsil Sektorunun İnkişafı layihəsində prioritet istiqamətlərdən biri kimi müəyyən olunmuşdur. Təlim və tədris prosesinin təkmilləşdirilməsi, ölkə üzrə şagirdlərin nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsi üçün müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm vəzifə kimi irəli sürülür. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur.

Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası (bundan sonra – Konsepsiya) ölkədə yaxın illər ərzində təhsildə qiymətləndirmə məsələləri ilə bağlı tədbirləri idarə etmək üçün nəzərdə tutulmuşdur. Sənədin əsas məzmunu qiymətləndirmə fəaliyyətinin qanuniliyini təmin edən prinsiplərin müəyyənləşdirilməsinə, bu fəaliyyətin aparıcı istiqamətlərinin təyin edilməsinə, qiymətləndirmə tədbirlərini həyata keçirən qurumların sosial statusunun gücləndirilməsinə, qiymətləndirmədən təlim və tədrisin ehtiyaclarını ödəmək üçün istifadə edilməsinə yönəldilmişdir. Bu sənəd çərçivə sənədi kimi, Azərbaycan Respublikasının Təhsil Qanununun, Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramının tələblərinə və dövlətin təhsil siyasətinə, qiymətləndirmənin müasir dünya standartlarına uyğun hazırlanmışdır və yeni qiymətləndirmə sisteminin prinsipləri üçün baza rolunu oynayır. Sənəddə məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmənin əsas prin-

sipləri və fəaliyyət sahələri şərh edilir. Konsepsiyada qiymətləndirmə növlərinin hər birinin etibarlılığını və effektivliyini təmin etmək üçün dəqiq qaydalar və əsasnamələr formasında əlavə sənədlərin hazırlanması da nəzərdə tutulur.

Konsepsiya Azərbaycanda ümumi təhsilin müasirləşdirilməsi və yeniləşdirilməsi məqsədi ilə hazırlanmış milli kurikulum çərçivə sənədi ilə bilavasitə əlaqəlidir və onun tərkib hissəsini təşkil edir. Qiymətləndirmə mexanizmlərinin və vasitələrinin yaradılması təhsilin məzmun standartları və fənn kurikulumları hazırlandıqdan sonra növbəti mərhələlər hesab olunur.

1.2. Müasir dövrdə qiymətləndirmə fəaliyyətinə qoyulan tələblər

Yeni qiymətləndirmə sistemi aşağıdakıları təmin edir:

təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunun yerinə yetirilməsini; təhsilin keyfiyyəti üçün əsas göstərici olan «şagirdin təlim nəticələri» haqqında etibarlı məlumat verilməsini; qiymətləndirmə vasitəsilə şagirdin bilik və bacarıqları haqqında kifayət qədər məlumat əldə edildikdən sonra fənn kurikulumlarında və dərsliklərdə müvafiq dəyişikliklərin aparılmasını; təhsildə olan bəzi neqativ hallara qarşı mübarizə vasitəsi funksiyasını; qiymətləndirmədə yeni yanaşmaların yaddaşa əsaslanan qiymətləndirmənin əksinə olaraq, məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsini.

1.3. Şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində mövcud olan problemlər

Hazırkı qiymətləndirmə sisteminin təhlili zamanı aşkara çıxarılan problem və nöqsanları aşağıdakı kimi qruplaşdırmaq olar:

– dəqiq müəyyənləşdirilmiş qiymətləndirmə standartlarının olmaması səbəbindən qiymətləndirmə prinsiplərinin pozulması;
– qiymətləndirmə üsul və vasitələrinin keyfiyyətlərinin təsvir olunmaması, onların əsas xüsusiyyətlərinin və meyarlarının dəqiqləşdirilməməsi;
– qiymətləndirmə vasitələrinin texniki keyfiyyətlərinə diqqət yetirilməməsi və qeyri-standart vasitələrdən istifadə olunması;

– qiymətləndirməyə və onun üsullarına müxtəlif yanaşmaların mövcudluğu şəraitində dəqiqləşdirmələrin vaxtaşırı aparılmaması;
– nailiyyətlərin qiymətləndirilməsi prosesində şagird fəaliyyətinin nəticələrinin obyektiv əsaslandırılmaması;
– müasir qiymətləndirmə metodlarından istifadə təcrübəsinin məhdudluğu, mütəxəssislərin bu sahədə hazırlıq səviyyəsinin aşağı olması;
– tədris proqramlarını hazırlayan və qiymətləndirmə fəaliyyəti ilə məşğul olan mütəxəssislər arasında qarşılıqlı əlaqənin yaradılmaması;
– inzibati prosedurların qeyri-şəffaflığı, qiymətləndirmə fəaliyyətinin qanuniliyinə zəmanətin verilməməsi;
– qiymətləndirmə nəticələrinin təhlilinin aparılmaması və müvafiq hesabatların hazırlanmaması.

Bu problemlərin uzun müddət həll edilməməsi Azərbaycanın təhsil sistemindəki qiymətləndirmə mexanizmində aşağıdakı xarakterik çatışmazlıqların yaranması ilə nəticələnmişdir:
– mövcud qiymətləndirmə mexanizmi təlim prosesinin ehtiyaclarına kifayətedici səviyyədə yönəlmir, onun tərkib hissəsinə çevrilmir və keyfiyyətinin yüksəldilməsinə xidmət etmir;
– bu mexanizm subyektiv xarakter daşıyır, şagirdi, bir qayda olaraq, əzbərləməyə və əksər şagirdləri qiymət almaq xatirinə oxumağa təhrik edir;
– təlim prosesində yalnız formal biliklər qiymətləndirilir, çox hallarda məqsəd qiymət yazmaqla məhdudlaşır, şagirdlərə özünüqiymətləndirmə imkanı verilmir;
– tədris zamanı müəllim qiymətləndirmə vasitəsilə şagirdlərlə səmərəli əks-əlaqə yarada bilmir;
– mövcud qiymətləndirmə üsullarının məhdudluğu yeni təlim texnologiyalarının səmərəli tətbiqinə imkan vermir.

1.4. Konsepsiyanın yaradılması üçün zəruri səbəblər

Azərbaycanda nəzərdə tutulan təhsil və qiymətləndirmə siyasəti ümummilli maraqları əks etdirməklə yanaşı, əsaslı islahatyönümlü tədbirlərin həyata keçirilməsi zərurətini şərtləndirir. XX əsrin sonlarında dünyada

gedən siyasi, iqtisadi və sosial dəyişikliklər bilavasitə aşağıdakı konkret məqsədlərin reallaşdırılmasını tələb edir:

– idarəetmənin daha demokratik üsullarına keçilməsi;
– ölkədə açıq vətəndaş cəmiyyətinin qurulması;
– inkişaf etmiş ölkələrlə səmərəli əməkdaşlığın təmin edilməsi;
– beynəlxalq bazar münasibətlərinin və iqtisadi rəqabət şəraitinin yaradılması;
– milli özünəqayıdış hislərinin aşılanması.

Hazırda bir çox ölkələrin təhsil sistemlərində yeni qiymətləndirmə modellərinin qurulması, şagirdlərin təhsil nailiyyətlərinin uçotunun aparılması və təhsil pillələri üzrə buraxılış imtahanlarının təşkili ilə bağlı genişmiqyaslı islahatlar aparılır. Bunların əsas xarakterik xüsusiyyətləri aşağıdakı kimi səciyyələndirilir:

– qiymətləndirmə və təhsil siyasətində müasir yanaşmaların tətbiqi və inkişaf etdirilməsi, bununla əlaqədar vaxtı keçmiş mövcud üsullardan imtina edilməsi;
– imtahanların ədalətli və şəffaf keçirilməsi istiqamətində daha mütərəqqi üsulların seçilməsi;
– yeni qiymətləndirmə mexanizmlərinin tətbiqi üzrə təhsil sistemi çərçivəsində müvafiq təşkilatların yaradılması;
– yeni qiymətləndirmə sisteminin təşəkkülünə təhsil islahatlarının tərkib hissəsi, prioritet sahəsi kimi baxılması və onun müasir kurikulumların hazırlanması siyasəti ilə əlaqəli kontekstdə nəzərdə tutulması.

Qiymətləndirmə Konsepsiyasının hazırlanması bu məqsədləri reallaşdırmaq istiqamətində aşağıdakı fəaliyyətlərin həyata keçirilməsinə xidmət edir:

– qiymətləndirməyə və imtahan sistemlərinə yenidən baxmaqla, kurikulumlarda mütərəqqi dəyişikliklərin zəruriliyinin əsaslandırılması, sınaqdan çıxmış mexanizmlər vasitəsilə cəmiyyətdə müasir baxışların, mədəni dəyərlərin, yeni hüquq və vəzifələrin formalaşdırılması;
– yüksək rəqabət və bazar münasibətləri şəraitində milli mütəxəssislərin yetişdirilməsi üçün kurikuluma yeni fənlərin və peşələrin daxil edilməsi, tədris proqramlarında əsas diqqətin praktik vərdişlərin aşılanmasına və problemlərin həllinə yönəldilməsi, bütün şagirdlər tərəfindən minimum standartların mənimsənilməsi;

– təhsil sisteminin səmərəli fəaliyyətini təmin edən məktəbdaxili qiymətləndirmə sisteminin yaradılması məqsədi ilə müasir məzmun standartlarına cavab verən yüksək keyfiyyətli qiymətləndirmə vasitələrinin hazırlanması, təhsil pillələri üzrə buraxılış imtahanları üçün müvafiq prosedurların daha ədalətli və şəffaf tətbiq edilməsi və bu məsələlərin tənzimlənməsi üçün normativ hüquqi bazanın yaradılması;
– təhsilin keyfiyyətinin idarə edilməsi, onun təşkilinin səmərəliliyinin artırılması və təsir dairəsinin genişləndirilməsi istiqamətində hökumətə və digər strukturlara kömək edən milli qiymətləndirmə sisteminin yaradılması, beynəlxalq qiymətləndirmə və müqayisəedilmə tədqiqatlarında ölkənin iştirakının təmin edilməsi.

1.5. Şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin vəzifələri

Qiymətləndirmə sistemindəki islahatlar təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə olduğundan, yeni qiymətləndirmə sisteminin yaradılması prosesinin kurikulum və müəllim hazırlığı sahəsində aparılan islahatlarla sıx əlaqəli şəkildə həyata keçirilməsi, dərslik və təlim materiallarının yaradılmasına yeni yanaşmaların formalaşdırılması ciddi vəzifələrdən hesab olunur. Bu istiqamətdə görülən işlər vasitəsilə aşağıdakıların reallaşdırılması nəzərdə tutulur:

– ölkədə kurikulum hazırlanmasını və qiymətləndirmə fəaliyyətini bir-biri ilə əlaqələndirən tam milli sistemin yaradılması;
– qiymətləndirmədən təlim və tədrisin ehtiyaclarını ödəmək üçün istifadə edilməsi;
– təhsilin keyfiyyəti haqqında obyektiv məlumatları əldə etmək məqsədi ilə səmərəli idarəetmə üçün məktəbdaxili və milli qiymətləndirmə sistemlərinin yaradılması, ölkənin beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirakının təmin edilməsi.

Bu məqsədlərə nail olunması üçün aşağıdakı strateji fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir:

– şagird nailiyyətlərinin qiymətləndirilməsi fəaliyyətinin uzunmüddətli strategiyasının, məktəbdaxili və milli qiymətləndirmə konsepsiyalarının işlənib hazırlanması;

– məktəbdaxili və milli qiymətləndirmənin, habelə yeni imtahan sisteminin yaradılması, şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə beynəlxalq proqramlarda ölkənin iştirakının təmin edilməsi;
– şagird nailiyyətlərinin qiymətləndirilməsi tədbirlərinin səmərəli təşkili üçün təlimatların, metodiki vəsaitlərin, idarəetmə və maddi-texniki təchizat planının hazırlanması;
– kurikulum islahatı çərçivəsində müvafiq qiymətləndirmə üsullarının və vasitələrinin yaradılması üzrə mütəxəssislərin hazırlanması, bu üsul və vasitələrin istifadəsi istiqamətində müəllimlərin təliminin təşkili;
– qiymətləndirmə nəticələrinin təhlilinin aparılması, hesabatların hazırlanması və ölkədə təhsilin keyfiyyətinin qiymətləndirilməsi sisteminin qurulması.

1.6. Şagird nailiyyətlərinin qiymətləndirilməsinin əsas xüsusiyyətləri

Fənlər üzrə məzmun standartlarının müəyyən edilməsində əsas məqsəd həmin standartların şagird tərəfindən mənimsənilməsi istiqamətində hədəflərin təyin edilməsidir. Qəbul edilmiş standartlara uyğun bilik və bacarıqlara nail olmaq üçün şagirdin fəaliyyəti fasiləsiz stimullaşdırılmalı, onların daha yüksək səviyyəli standartları mənimsəməsi üçün müvafiq şərait yaradılmalıdır. Optimal vəziyyətdə heç bir şagirdin tədris ili boyunca geri qalmasına imkan verilməməli, əksinə, hər bir şagirdin nailiyyəti diqqət mərkəzində olmalıdır. Bu baxımdan şagird nailiyyətlərinin qiymətləndirilməsi davamlı, dinamik və rəsmi olmayan prosesdir. Bu prosesdə müəllimlərin şagirdlər üzərində müşahidəsi, şagirdlərin sinif işlərini və ev tapşırıqlarını yerinə yetirmələri, yazılı və şifahi cavabları vacibdir.

Düzgün həyata keçirilmiş qiymətləndirmənin nəticələri müəllimin fəaliyyəti, bu fəaliyyətin şagirdlərin tələbatına nə dərəcədə cavab verməsi, habelə kurikulumda, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etməyə şərait yaradır.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

– şagirdin nailiyyətinin (və ya geriləmələrinin) izlənilməsi (monitorinqi);
– təlim prosesində qərarların qəbulu;
– şagirdin təlim nəticələrinin qiymətləndirilməsi;
– kurikulumun qiymətləndirilməsi.

Qiymətləndirmə və təlim proseslərinə təhsilin qarşılıqlı əlaqədə olan iki tərəfi kimi baxılır. Sistemli proses olan qiymətləndirmə təlim nəticələri ilə maraqlı tərəflər arasında səmərəli əks-əlaqə vasitəsi kimi aşağıdakı komponentləri əhatə etməklə qurulur:

– qiymətləndirmə məlumatları. Bunlara şagirdlərin nailiyyətlərini və təlimə münasibətlərini, müəllimin hazırlıq səviyyəsini, fənn kurikulumlarının xarakterik cəhətlərini, təlim resurslarının bölgüsünü əks etdirən məlumatlar və fəaliyyətlərin icra mexanizmləri daxildir;
– məlumatların toplanması. Bu proses testlərin keçirilməsi, şagird tapşırıqlarının yoxlanılması, sinifdə müsahibələrin aparılması, fənn kurikulumlarının icra keyfiyyətinin, şagirdlərin və müəllimlərin fəaliyyətlərinin müşahidəsi, qiymət cədvəlləri və digər məktəb sənədlərinin təhlil edilməsi kimi üsullarla həyata keçirilir;
– qiymətləndirmə nəticələri. Həmin nəticələrdən tədris prosesinin planlaşdırılması və istiqamətləndirilməsi, qiymət ballarının hesablanması, müqayisələrin aparılması, təhsil sənədlərinin və lisenziyaların verilməsi, təhsilin bir pilləsindən digərinə keçilməsi, pedaqoji nəzəriyyələrin formalaşdırılması, təhsil siyasətinin qurulması və onun təsirliliyinin monitorinqinin aparılması, təlim resurslarının bölgüsü, kurikulumun və tədrisin keyfiyyətinin dəyərləndirilməsi zamanı istifadə olunur, eləcə də geniş ictimaiyyəti məlumatlandırmaq məqsədi daşıyır;
– qiymətləndirmə standartları. Bu standartlar təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətvermə prosesinin qanuniliyinə zəmanət verir;
– şagird nailiyyətlərinin qiymətləndirilməsində əsas prinsiplər.

Bütün növ qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:

– məqsədəuyğunluq. Nəzərdə tutulmuş məqsədlə qiymətləndirmə arasında uzlaşma təmin olunur. Qiymətləndirmə əvvəlcədən plan-

laşdırılır, onun xidmət edəcəyi məqsədlər müəyyənləşdirilir, şagird haqqında toplanılan zəruri məlumatların mahiyyəti, texniki keyfiyyəti və əsas xüsusiyyətləri göstərilir, məlumatların toplanılması və təhlili üsulları seçilir, veriləcək qərarın mahiyyəti təsvir edilir. Qiymətləndirmənin nəticələri müəyyən olunmuş məqsədləri əks etdirir. Qəbul edilmiş qərarlar və toplanılmış məlumatlar arasında əlaqələrin şəffaflığı təmin edilir. Qiymətləndirmə prosedurları daxilən ardıcıl qurulur və vəhdət təşkil edir;

– nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi. Müvafiq indikatorlar vasitəsilə təhsil imkanları haqqında aşağıdakı məlumatlar toplanır: sinifdaxili indikatorlar vasitəsilə – müəllimin peşəkarlıq səviyyəsi, təlimin məzmunu, irəliləyişlərin, qiymətləndirmələrin koordinasiya səviyyəsi, təlim üçün ayrılmış vaxt, şagirdin tələblərini ödəyən resurslar və tədris vasitələrinin keyfiyyəti;
– bilavasitə təhsil sistemi ilə bağlı indikatorlar vasitəsilə – dövlət standartları, tədris proqramları, adambaşına düşən təhsil xərcləri;
– digər indikatorlar vasitəsilə – məişət problemləri ilə bağlı məsələlər;
– toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin edilməsi (validlik və relevantlıq). Məlumatların keyfiyyəti qəbul edilmiş qərar və fəaliyyətlərin münasibliyinə təminat verir. Qiymətləndirmə məqsədləri real seçilir və ölçülə bilən xüsusiyyətlər qiymətləndirilir. Şagirdin nailiyyətləri ona yaradılmış imkan daxilində müəyyən sahədə yerinə yetirdiyi konkret tapşırığın səviyyəsinə görə qiymətləndirilir.
– Qiymətləndirmə məqsədləri və nəzərdə tutulmuş müvafiq məlumatlar müxtəlif vaxtlarda istifadə edildikdə belə, eyni qərar verməyə imkan yaradır və kifayət qədər dayanıqlıdır;
– qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq. Məlumatların toplanılması prosesi, müəllimin istifadə etdiyi qiymətləndirmə meyarları və hətta onun özünün peşəkarlıq səviyyəsi şəffafdır və qiymətləndirmə tapşırıqlarında şablonların, fərziyyələrin, şagirdlərin diqqətini yayındıran digər məsələlərin istifadəsinə yol verilmir. Onlar şagirdlərin maraqlarına və imkanlarına görə müxtəlif kontekstlərdə (etnik xüsusiyyətlər nəzərə alınmamaq şərtilə) qurulur. Sağlamlıq imkanları məhdud uşaqlar üçün qiymət-

ləndirmə tapşırıqları müvafiq qaydada uyğunlaşdırılır. Qiymət mükəmməl və düşünülmüş, məqsədəmüvafiq, tədris proqramlarına və digər normativ sənədlərə müvafiq verilir;

– təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin edilməsi. Nəticələr əsasında sinifdaxili fəaliyyətlər təşkil edilir, kurikulumun hazırlanması və idarə edilməsi (təhsilin məzmun münasibliyinin tənzimlənməsi, məzmunda şagird maraqlarının təmin edilməsi, arzuolunan təlim nəticələrinin mənimsənilməsi üçün fəaliyyətlərin və seçilmiş tapşırıqların səmərəliliyi, onların şagird bacarıqlarının inkişafında əhəmiyyətinin təmin edilməsi) həyata keçirilir. Şagird tədqiqatçılığının inkişaf etdirilməsi, onun idrak qabiliyyətlərinin qiymətləndirilməsi (müəyyən qanunauyğunluğun başa düşüldüyünü əks etdirən hissəni seçmək və ya sorğu keçirmək bacarığı, qavramanın təsdiqini əks etdirən şifahi, yazılı və ya təsviri tapşırıq nümunəsini yerinə yetirmək bacarığı, yerinə yetirilən tapşırıq nümunəsində tənqidi təhlil aparmaq bacarığı, digər şagirdlərin yerinə yetirdiyi tapşırıq nümunələrində səmərəli tənqidi təhlil aparmaq bacarığı) aparılır.

Müəllim tərəfindən qiymətləndirmə meyarları əsasında müəyyən təlim mərhələsinin əvvəlində və sonunda şagirdin tədris proqramının mənimsənilməsi üzrə irəliləyiş səviyyəsi və digər nailiyyətləri barədə hesabatlar verilir.

1.7. Əsas qiymətləndirmə növləri

Məzmun standartlarının mənimsənilməsi istiqamətində əsasən aşağıdakı qiymətləndirmə növlərindən istifadə olunur və onların hər biri qeyd edilən müvafiq məsələlərə aydınlıq gətirmək məqsədi daşıyır:

– ilkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə). Şagirdlər əsas bilik və bacarıqlara müəyyən dərəcədə malikdirlərmi? Şagirdlər tədris edilmiş materialın hansı hissəsini bilirlər?

– irəliləyişlərin monitorinqi (formativ qiymətləndirmə). Standartların mənimsənilməsinə doğru şagirdlər kifayət qədər irəliləyə bilirlərmi?

– yekun (summativ) qiymətləndirmə. Şagirdlər verilmiş standart və ya standartlar qrupunda müəyyən edilmiş məqsədlərə nail olublarmı?

– Qiymətləndirmənin bu növləri şagirdləri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə edilməsinə yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edirlər;
– ilkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə) şagirdin biliyini müəyyən edir və təlimin düzgün qurulmasında müəllimə köməklik göstərir. Təlim prosesində düzgün istiqamətləndirilmiş şagird öyrənilmiş materialın təkrarına vaxt itirmir, həmçinin onun üçün başa düşülməyən və ya tanış olmayan material qalmır. İlkin səviyyə qiymətləndirməsinin sualları bir-biri ilə elə əlaqələndirilib tənzimlənməlidir ki, onların bəziləri şagirdin hansı biliklərə malik olduğunu, digərləri isə yeni materialı mənimsəmiş şagirdləri müəyyən etsin. Əgər ilkin səviyyə qiymətləndirilməsi şagirdlərin sinifdəki fəaliyyətini müqayisə etmək və ya sonrakı inkişafını qiymətləndirmək üçün ilkin məlumat bazasını yaratmaq məqsədi ilə istifadə olunursa, onda bu suallar əsas psixometrik tələblərə cavab verməlidir;
– şagird irəliləyişlərinin monitorinqi (formativ qiymətləndirmə) vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsi həyata keçirilir, alternativ üsul və mənbələrdən istifadə və ya şagirdin daha irəliyə addım atması üçün ona əlavə impulsun verilməsi barədə ehtiyaclar müəyyənləşdirilir.

Qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi (formativ qiymətləndirmə) sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Müəllim yalnız belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək, onlara əlavə köməklik göstərir. Bu mənada şagirdlərin faktiki fəaliyyətinin nəticələri müəllim üçün real indikatorlara çevrilir.

Monitorinqlər müəyyən anlayışların mənimsənildiyini müşahidə etməklə və ev tapşırıqlarını nəzərdən keçirməklə, yaxud daha formal qiymətləndirmə tipindən istifadə etməklə aparıla bilər. Monitorinqlərin hansı formada aparılmasından asılı olmayaraq, onlar müntəzəm xarakter daşımalıdır. Bundan əlavə, hər altı həftədən gec olmayaraq, şagirdlərin standartlar üzrə nailiyyətlərinin daha ümumi monitorinqi təşkil edilməlidir.

Növbəti mərhələdə monitorinq şagirdlərin əldə etdiyi nailiyyətlərin mövcud standartlara uyğunluğunu öyrənmək məqsədi ilə aparılır. Bu prosesdə toplanmış məlumatlar tədris prosesinin tənzimlənməsində mühüm əhəmiyyətə malikdir. Həmin məlumatlar əsasında müəllim aşağıdakı suallara cavab axtarır və müəyyən nəticəyə gəlir:

– Mən irəli getməliyəm, yoxsa hansısa bir hissəyə daha çox vaxt sərf etməliyəm?
– Şagirdlər öyrəndiklərini sərbəst tətbiq edə biləcəklərmi, yoxsa əlavə tədris aparılmasına ehtiyac vardır?
– Planlaşdırılmış tədrisi bir neçə şagird üçün və ya hamı üçün sürətləndirilmiş formada apara bilərəmmi?
– Əgər belədirsə, bunun üçün ən yaxşı yol hansıdır?

İlkin səviyyənin qiymətləndirilməsi ilə oxşar xüsusiyyətləri olan yekun (summativ) qiymətləndirmə standart və ya standartlar qrupunda müəyyən edilmiş məqsədlərə şagirdlərin hansı səviyyədə nail olduqlarını aydınlaşdırır. Yekun (summativ) qiymətləndirmə aşağıdakı suallara cavab verir:

– Şagird materialı mənimsəyə bilirmi?
– Bildiklərini tətbiq edə bilirmi?
– Daha irəli getmək üçün lazımi səviyyədədirmi?

Yekun (summativ) qiymətləndirmə standartların mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə növü mövzunun, bəhs və bölmənin, yaxud da tədris ilinin sonunda eyni qaydada həyata keçirilir. Yekun (summativ) qiymətləndirmənin ən mühüm cəhəti şagirdlərin mənimsədiklərini tətbiqetmə qabiliyyətinə nə dərəcədə malik olduqlarını aşkara çıxarmaqdır.

Yekun (summativ) qiymətləndirmənin bu xüsusiyyəti müəllimlərin testyönümlü tədrislə bağlı narahatlığını aradan qaldırır. Yekun qiymətləndirmə fənnin məzmun standartlarının tərtibi üçün aparıcı rol oynamır, əksinə qiymətləndirmənin bu standartlar əsasında aparılmasını təmin edir. Bundan əlavə, yekun qiymətləndirmə əldə olunan bilikləri tam əks etdirmir, lakin o, mənimsəmə səviyyəsinin etibarlı və adekvat göstəricisidir.

1.8. Qiymətləndirmə standartlarının və qiymətləndirmə vasitələrinin hazırlanması

Hər bir fənn kurikulumunda məzmun standartları və onların mənimsənilməsi üçün istifadə edilən strategiyalarla yanaşı, nail olunmuş təlim nəticələrinin, əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi məqsədi ilə müvafiq qiymətləndirmə standartlarının nümunələrindən də istifadə olunur.

Məzmun standartları inteqrativ təlim nəticələri olub, şagirdin müvafiq bilik, bacarıq və dəyərlərə nail olmaqla səviyyəcə dəyişməsini təmin edir.

Qiymətləndirmə standartları məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaqla, baş vermiş dəyişikliklərin dərəcəsini müəyyən edir.

Qiymətləndirmə standartlarının təyin edilməsində imtahana əsaslanan metod vasitəsilə bütün maraqlı tərəflərin razılığı əsasında müvafiq siniflər üzrə milli səviyyədə yekun qiymətləndirmə (imtahan) keçirilir, nəticələr təhlil olunmaqla, standartlar təyin edilir. Məsələn:

minimum – şagirdlərin 90–100 faizi tərəfindən nail olunan standartlar;

yüksək – şagirdlərin ən yaxşı halda 30 faizi tərəfindən nail olunan standartlar.

Qiymətləndirmə standartlarının təyin edilməsində kurikulumyönümlü metoda daha çox üstünlük verilir. Bu metoda görə:

- qiymətləndirmə standartları milli kurikulumda əks olunmuş nailiyyətlərə (nəticələrə) uyğun hazırlanır və faktiki olaraq şagirdlərin nəyi bacardıqlarına dair ölçmələrə deyil, mütəxəssis mühakimələrinə əsaslanır;
- bütün məktəblərin, müəllimlərin təmsil olunduğu təşkilatların və digər maraqlı tərəflərin müzakirələri əsasında standartlara düzəlişlər edilir və arzuolunan nailiyyət səviyyələrinə dair ortaq fikir yaranır.

Qiymətləndirmə standartları 4 səviyyə üzrə qiymətləndirmə sxemləri şəklində hazırlanır. Qiymətləndirmə sxemləri xüsusi növ qiymətləndirmə şkalasıdır və iki əsas sualı əhatə edir:

1. Mən nəyi qiymətləndirməliyəm (obyekt, məzmun, aspektlər, tərəflər, xüsusiyyətlər)?

2. Aşağı, orta və yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə müəyyənləşdirmək olar?

1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. 1-ci səviyyə və 2-ci səviyyə əksər şagirdlər, 3-cü səviyyə və xüsusilə 4-cü səviyyə isə daha istedadlı şagirdlər üçün nəzərdə tutulur.

Qiymətləndirmə sxemləri qiymətləndirmənin daha ədalətli, obyektiv, etibarlı və ardıcıl həyata keçirilməsinə imkan verir, tədrisin səmərəliliyi ilə bağlı müəllimləri faydalı məlumatlarla təmin edir və tələb edir ki, hər bir müəllim müvafiq şərtlər üzrə öz meyarlarını müəyyənləşdirsin. Qiymətləndirmə sxemləri şagirdin işini qiymətləndirmək üçün müəllimin sərf etdiyi vaxtı azaldır, keyfiyyət səviyyələri vasitəsilə müxtəlif qabiliyyətə malik şagirdlərin təhsil aldığı sinifləri nəzərə almağa şərait yaradır.

Qiymətləndirmə sxemləri fəaliyyətin qiymətləndirilməsi zamanı istifadə edilən meyarlarla bağlı şagirdlərin məlumatlandırılmasını, onların işinin necə qiymətləndiriləcəyini və onlardan nələrin tələb olunduğunu aydın şəkildə göstərməklə, konkret məqsəd və tələbləri (meyarları) müəyyən edir. Bu sxemlər şagird işlərinin keyfiyyətini daha yaxşı qiymətləndirməklə, təlim prosesində irəliləyişlərin qiymətləndirilməsi üçün çərçivə təyin edir, işlərin keyfiyyəti ilə bağlı əks tərəfə məlumat verilməsini təmin edir. Qiymətləndirmə sxemləri mahiyyət etibarı ilə iki növə ayrılır.

Holistik qiymətləndirmə sxemləri şagirdin işi ilə bağlı ümumi təəssürat yaradır və əksər hallarda fəaliyyət səviyyələrini əks etdirən 4–5 ballıq şkalaya əsaslanır. Bu növ sxemlər sürətli qiymətləndirmə aparmaqla, şagird nailiyyətləri üzrə ümumi mənzərəni təsvir edir.

Analitik qiymətləndirmə sxemləri şagirdin ayrı-ayrı fəaliyyət sahələri üzrə qiymətlərini təyin edir. Qiymətləndirmədə, əsasən, 4–5 ballıq şkaladan istifadə edilir. Bu zaman şagirdlərin fəaliyyəti ardıcıl qiymətləndirilməklə, onların nailiyyətləri haqqında daha ətraflı informasiya verilir, lakin qiymətləndirmə üçün daha çox vaxt tələb olunur.

Qiymətləndirmə sxemlərinin elementlərinə qiymətləndiriləcək əsas sahələr, nailiyyətin müxtəlif səviyyələrini dəyərləndirmək üçün qiymətləndirmə şkalası, nailiyyət səviyyəsini təsvir edən söz və ya rəqəm (səviyyə üzrə etiket), nailiyyət səviyyəsini daha müfəssəl təsvir edən söz və ya ifadə (səviyyə deskriptoru), hər bir nailiyyət səviyyəsi üzrə diqqət yetirilən məsələlərə aid konkret nümunələr (səviyyə indikatorları), nail olunması nəzərdə tutulan nəticə (standart) daxildir.

Şagirdlərin məzmun standartlarına nə dərəcədə nail olduqlarını ölçmək və qazanılmış bacarıqlar üzrə yekun (summativ) qiymətləndirmələr aparmaq üçün qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması aşağıdakı ardıcıllıqla aparılır:

– qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması prosesində testlərin məqsədəuyğunluğu (məhz «nəzərdə tutulanı» qiymətləndirməsi) və etibarlılığı (real məlumatlara əsaslanması);
– səmərəlilik üçün hər sinif üzrə nisbətən az (<10) və nisbətən çox (>10) məzmun standartına malik olan iki fənn qrupunun müəyyənləşdirilməsi;
– yekun (summativ) testlərdə bütün standartların reprezentativ (təmsiledici) seçiminin təmin edilməsi;
– yekun (summativ) testlərdə bütün səviyyələr üzrə də reprezentativ seçimin təmin edilməsi (1-ci səviyyə üzrə suallar 20%, 2-ci səviyyə üzrə suallar 30%, 3-cü səviyyə üzrə suallar 30%, 4-cü səviyyə üzrə suallar 20%).

2. Məktəbdaxili qiymətləndirmənin mahiyyəti və məzmunu

Yuxarıda göstərilən qiymətləndirmə növlərinə və qiymətləndirmə vasitələrinə əsaslanan məktəbdaxili qiymətləndirmə aşağıdakı əsas komponentləri əhatə edir:

– şagird nailiyyətlərinin və irəliləyişlərinin monitorinqi;
– şagird fəaliyyətinin təlim standartlarına uyğunluğunun müəyyənləşdirilməsi (kurikulum üzrə qiymətləndirmə);
– ümumtəhsil pillələri üzrə yekun qiymətləndirmənin (buraxılış imtahanlarının) aparılması.

2.1. Şagird nailiyyətlərinin və irəliləyişlərinin monitorinqi sistemi

Şagird nailiyyətləri və irəliləyişlərinin monitorinqi formativ qiymətləndirmə məqsədləri üçün məktəb səviyyəsində müəllimlər və məktəb rəhbərləri tərəfindən aşağıdakı mərhələlərlə həyata keçirilir:

– formativlər, bəhslər və bölmələr üzrə yekun (kiçik summativ) qiymətləndirmə:
– mövcud qiymətləndirmə normalarını və şifahi sorğular əsasında aparılan cari qiymətləndirmə qaydalarını təkmilləşdirmək məqsədi ilə həyata keçirilir;
– şagirdin ayrı-ayrı mövzu və bəhslərin mənimsənilməsi ilə bağlı fəaliyyəti barədə məlumat toplamaq məqsədi ilə müəllim tərəfindən müntəzəm, davamlı olaraq müşahidə və monitorinqlər vasitəsilə aparılır;
– mövzular və fəaliyyət tapşırıqları üzrə əvvəlcədən hazırlanmış qiymətləndirmə sxemlərindən və digər diskriptiv (təsviri) qiymətləndirmə üsullarından istifadə olunmaqla, şagirdin fəaliyyətini təsvir edir;
– hər altı həftədən gec olmayaraq, tədris olunan mövzular üzrə müəllim tərəfindən hazırlanmış testlər və standartlaşdırılmış prosedurlar vasitəsilə şagird nailiyyətlərinin kiçik summativ (bəhslər üzrə yekun) qiymətləndirilməsini nəzərdə tutur;
– yarımillər üzrə yekun (böyük summativ) qiymətləndirmə:
– yarımillər üzrə mövcud qiymətləndirmələri təkmilləşdirmək məqsədi ilə ümumi monitorinqlərin davamı kimi müəllimlər və məktəb rəhbərləri tərəfindən həyata keçirilir;
– yarımil ərzində keçilən tədris materialının mənimsənilməsi barədə şagirdlərə və valideynlərə ümumi məlumat vermək məqsədi ilə aparılır;
– qiymətləndirmə vasitələri (eyni çətinlik dərəcəli və müxtəlif variantlı testlər, yardımçı tədris materialları) nümunələrə və müvafiq təlimatlara əsasən müəllimlər tərəfindən hazırlanır, məktəbin rəhbərliyi tərəfindən təsdiq edilir;
– nəzarətçi və yoxlayıcılar cəlb edilməklə, dekabr və may aylarının sonuncu həftəsində xüsusi cədvəl əsasında aparılır;
– nəticələri təhlil olunur, hesabat verilir, tədris və təlim prosesinin təkmilləşdirilməsində ondan istifadə edilir.

2.2. Kurikulum üzrə qiymətləndirmə (şagird fəaliyyətinin təlim standartlarına uyğunluğunun müəyyənləşdirilməsi)

Kurikulum üzrə qiymətləndirmə şagirdin təlim nəticələrinin məzmun standartlarına uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə aparılır. Qiymətləndirmənin bu növü Milli kurikulum çərçivəsi kontekstində hazırlanmış məzmun standartları və fənn kurikulumları ilə yaxından əlaqəlidir.

Kurikulum üzrə daxili qiymətləndirmə dərs ilinin sonunda hər bir sinifdə şagirdin fəaliyyətinin milli standartlara uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə müəllimlər tərəfindən aparılır.

Kurikulum üzrə xarici qiymətləndirmə şagirdin fəaliyyətinin milli standartlara uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə tam standartlaşdırılmış formada, ibtidai (IV sinfin sonunda), əsas (IX sinfin sonunda) və orta (XI sinfin sonunda) təhsil pillələrinin sonunda müəllim və məktəb rəhbərləri tərəfindən aparılır (II yarımil üzrə yekun qiymətləndirmə ilə birləşdirmək olar).

Kurikulum üzrə qiymətləndirmə vasitəsilə hər ilin sonunda şagirdin fərdi nailiyyətləri ölçülür, təlim-tədris prosesinin hədəfləri təyin olunur və bu hədəflərə doğru irəliləyişlər qiymətləndirilir, məktəblərin, siniflərin və şagirdlərin fəaliyyətləri arasında müqayisələr aparılır. Kurikulum üzrə imtahanların əhəmiyyətinin və etibarlılığının artırılması məqsədi ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən bütün sinifləri əhatə edən təhsil standartlarına əsaslanmış testlər toplusunun və standartlaşdırılmış imtahanlar sisteminin yaradılması, müvafiq təlimatların hazırlanması nəzərdə tutulur.

2.3. Buraxılış imtahanları (ümumtəhsil pillələri üzrə yekun qiymətləndirmə)

Buraxılış imtahanları təhsil pillələri üzrə (X və XI siniflər) testlər vasitəsilə mərkəzləşdirilmiş qaydada aparılır, nəticələri xüsusi prosedurlar və texniki vasitələr tətbiq edilməklə, Azərbaycan Respublikasının Təhsil Nazirliyində qiymətləndirilir, məzunlara şəhadətnamə və attestatların verilməsi təmin edilir.

Bu məqsədlə aşağıdakılar nəzərdə tutulmuşdur:
- IX sinif buraxılış imtahanlarının nəticələri əsasında orta təhsil (X və XI siniflər) pilləsinin profillər üzrə təşkil edilməsi;
- IX və XI sinif buraxılış imtahanlarının iki əsas – Ana dili və riyaziyyat fənləri üzrə müvafiq sayda sualları əhatə edən testlər vasitəsilə aparılması;
- yekun imtahanına Azərbaycan tarixi, coğrafiya, fizika, kimya, biologiya və xarici dil fənləri daxildir. Bu imtahanların hansı formatda, nə vaxt və harada keçirilməsi barədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən qərar qəbul edilməsi;
- imtahanların maksimum təhlükəsizliyin təmin olunduğu şəraitdə keçirilməsi, şagirdlərin nəticələrinin qısa müddətdə optik qurğu və xüsusi kompyuter proqramları tətbiq olunmaqla yoxlanılması, təhlil edilməsi, internet və digər vasitələrlə ictimaiyyətə çatdırılması.

3. Milli qiymətləndirmənin mahiyyəti və məzmunu

Milli qiymətləndirmə təhsilin keyfiyyətinə nəzarət etmək üçün müəyyən tədris dövrünün sonunda mütəmadi olaraq həyata keçirilən və şagird nailiyyətlərinin qiymətləndirilməsini təmin edən sistemdir. Xüsusi təmsiledici seçim etməklə, IV və IX sinif şagirdləri arasında obyektiv testlər, sorğu vərəqələri və müvafiq təlimatlar vasitəsilə bir qayda olaraq, 4–5 ildən bir aparılır və əldə olunan nəticələr kurikulumun, təlim-tədris prosesinin keyfiyyətinin, təhsildə aparılan digər dəyişikliklərin dəyərləndirilməsinə, təhsilin keyfiyyətinə nəzarətin daha səmərəli həyata keçirilməsinə xidmət edir. Təlimin aparıldığı şərait tədris praktikası və təhsil prosesində iştirak edən tərəflərin münasibətində baş verən dəyişikliklər, həmçinin şagird nailiyyətlərinə təsir edən digər amillər barədə əlavə məlumatların əldə edilməsinə imkan verir.

3.1. Milli qiymətləndirmənin məqsədləri

Milli qiymətləndirmənin məqsədləri aşağıdakılardır:
- şagirdlərin təlim nəticələrində zəif və güclü tərəfləri aşkar etməklə, ümumi mənimsəmə səviyyəsini və onun dinamikasını müəyyənləşdirmək;

- şagirdlərin təlim nəticələrinə təsir edən mümkün amilləri təsvir etmək və nəticələr arasındakı fərqləri müqayisə etmək üçün şagirdlərin, onların ailələrinin, təhsil müəssisələri və tədris prosesinin xüsusiyyətlərini öyrənmək;
- ölkədə təhsil siyasətini müəyyənləşdirmək üçün təhsilin vəziyyəti haqqında müvafiq məlumat toplamaq, öyrənilməsi və müzakirəsi tələb olunan problemləri və təhsilin inkişafının prioritet istiqamətlərini təyin etmək;
- şagirdin təlim nəticələrinin və irəliləyişlərinin dəyərləndirilməsi vasitəsilə təhsilin dövlət standartlarının monitorinqini aparmaq, təhsil sisteminin məqsədlərinin müvafiqliyini və səmərəliliyini tənzimləmək, sistemin təsir dairəsini genişləndirmək;
- təhsil siyasətini müəyyən edənlərin cavabdehlik səviyyəsini artırmaq.
- ölkədə təhsilin məzmunu üzrə əsas prioritetlərin ictimaiy-yət tərəfindən geniş müzakirəsini təşkil etmək.

3.2. Milli qiymətləndirmə üzrə təlimatların məqsədi və strukturu

Təhsil siyasəti ilə bağlı qəbul edilmiş qərarların təhsilin keyfiyyətinə uzunmüddətli təsirlərini nəzərə alaraq, onların həqiqi və etibarlı məlumatlara istinad edilməsi diqqət mərkəzində saxlanılır. Milli qiymətləndirmə vasitəsilə əldə edilən həmin məlumatların etibarlılığını təmin etmək üçün nəzərdə tutulmuş prosedurların yüksək keyfiyyətlə planlaşdırılması, qiymətləndirmə mərhələlərinin tam standartlaşdırılması, həmçinin cəlb olunmuş mütəxəssislərin vəzifələrinin tənzimlənməsi müvafiq təlimatlara uyğun olaraq həyata keçirilir.

Milli qiymətləndirmə üzrə təlimatların strukturu ölkə səviyyəsində şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə fəaliyyətləri əks etdirən standartlardan və onların icrası məqsədi ilə seçilmiş üsulları təsvir edən prosedurlardan ibarətdir.

Təlimatlar hazırlanarkən Azərbaycanda həyata keçirilmiş sınaq qiymətləndirmələr zamanı qazanılmış təcrübədən və qiymətləndirmə üzrə qəbul edilmiş bəzi beynəlxalq standartlardan istifadə olunmuşdur.

Təlimatlar aşağıdakı sahələr üzrə hazırlanır:
– planlaşdırma və idarəetmə;
– vasitələrin (alətlərin) hazırlanması;
– məlumatın toplanılması;
– məlumatın işlənilməsi və təhlili;
– nəticələrin ictimaiyyətə çatdırılması.

Bu çərçivə sənədində göstərilən sahələrin qısa icmalı aşağıda verilmişdir:

milli qiymətləndirmənin planlaşdırılması və idarə olunması
– müəyyən fənn/bölmə üzrə milli qiymətləndirmənin planı;
– seçimlərin aparılması planı;
– məlumatların toplanılması üçün metodların seçilməsi;
– məlumatların toplanılması üçün müvafiq planın hazırlanması;
– təhlilin aparılması və nəticələrin nəşr etdirilməsi üzrə plan;

vasitələrin (alətlərin) hazırlanması;
– tədqiqatın konseptual çərçivəsinin hazırlanması;
– vasitələrin (alətlərin) xüsusiyyətlərinin (spesifikasiyasının) hazırlanması (sorğular, siyahılar);
– test məsələlərinin hazırlanması;
– testin ümumi tərtibatı;
– test kitabçalarının tərtibatı;
– sorğuların hazırlanması;
– vasitələrin qrafiki və texniki redaktəsi;
– vasitələrin çap etdirilməsi;
– tədqiqatın aparılması üçün təlimatların hazırlanması;

məlumatların toplanılması
– məktəblər üzrə məlumat bazasının tərtib edilməsi;
– təmsiledici seçimlərin aparılması;
– məktəblərin məlumatlandırılması;
– məlumatları toplayacaq işçilərin seçilməsi və təlimatlandırılması;
– testin və sorğunun keçirilməsi;
– məlumatların toplanması prosesinin keyfiyyət təminatı;

məlumatların işlənməsi və təhlili
– testlərin qiymətləndirilməsi (yoxlanılması);
– məlumatların sənədlərə daxil edilməsi;

– məlumatların dəqiqləşdirilməsi və təhlili;
– tərkib elementlərinin və şkalaların dəqiqləşdirilməsi;
nəticələrin ictimaiyyətə çatdırılması
– nəticələrin təqdim edilməsi;
– sualların açıqlanması;
– nəticələrin yayılması;
– texniki hesabatın yazılması və sənədləşdirmənin aparılması.

Milli qiymətləndirmə sisteminin geniş planı üçün təlimatlar nəzərdə tutulmuş tədbirin əsas məqsədini, bu tədbirin əhatə etdiyi standartları, bu standartlara nail olmaq üçün istifadə olunan prosesləri və onların icra prosedurlarını təsvir etməklə hazırlanır.

4. Beynəlxalq qiymətləndirmənin mahiyyəti və məzmunu

Beynəlxalq qiymətləndirmə ilə bağlı qeyd etmək lazımdır ki, artıq bu sahədə konkret tədbirlərə başlanılmışdır. Azərbaycan Respublikası Təhsil Sektorunun İslahatı Layihəsi çərçivəsində PISA-2006 Proqramında iştirak edir.

Beynəlxalq qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsi və qiymətləndirilməsi funksiyalarını yerinə yetirir. Burada müqayisəetmə tədqiqatları, monitorinqlər vasitəsilə aparılır, ölkədə təhsilin vəziyyəti haqqında məlumat əldə etmək, həlli tələb olunan daha əhəmiyyətli problemləri üzə çıxarmaq, onları araşdırmaq, nəticələri xarici ölkələrlə müqayisə etmək imkanı yaradılır. Bu qiymətləndirmə şagirdlərin qazanılmış bacarıqlardan istifadəetmə imkanlarının qiymətləndirilməsinə yönəldilmişdir, üç ildən bir həyata keçirilir, iştirakçı ölkələrin şagirdlərinin nəticələri arasındakı fərqləri izah edən amilləri (şagirdlərin və onların ailələrinin, təhsil müəssisələri və tədris prosesinin xüsusiyyətlərini) öyrənməyə, riyazi savadlılıq, oxu savadı, təbiət elmləri savadlılığı və əlavə olaraq müxtəlif tipli problemləri həlletmə bacarıqlarını qiymətləndirməyə xidmət edir.

4.1. Beynəlxalq qiymətləndirmə Proqramının əsas məqsədləri

Beynəlxalq qiymətləndirmə proqramının məqsədləri aşağıdakılardır:
– ölkədə təhsilin vəziyyəti haqqında müvafiq məlumat əldə etmək, beynəlxalq səviyyəli müqayisələr aparmaq, öyrənilməsi və müzakirəsi tələb olunan problemləri, təhsilin inkişafının prioritet istiqamətlərini təyin etmək;
– şagirdlərin nəticələrinə təsir edən mümkün amilləri təsvir etmək, nəticələr arasındakı fərqləri təyin etmək üçün şagirdlərin, onların ailələrinin, təhsil müəssisələri və tədris prosesinin xüsusiyyətlərini öyrənmək;
– təhsilin məzmununun müəyyənləşdirilməsi və nəticəyönümlü yeni kurikulumun hazırlanması üçün əsas təlim məqsədlərini təyin etmək, kompetensiyalara əsaslanan yanaşmanın məqsədəuyğunluğu istiqamətində tədqiqatlar aparmaq, gözlənilən və nail olunan təlim nəticələrini müqayisə etmək;
– pedaqoji ölçmə nəzəriyyəsinin gündəlik təcrübədə istifadə olunan nəzəri və praktiki məsələlərini öyrənmək;
– müasir qiymətləndirmə vasitələrinin hazırlanmasını, nəticələrin təhlili üsullarını və hesabatlar hazırlanması qaydalarını öyrənmək;
– ölkədə təhsilin keyfiyyətinin qiymətləndirilməsi sisteminin qurulması istiqamətində ümumi orta təhsilin məzmunu üzrə əsas prioritetlərin ictimaiyyət tərəfindən geniş müzakirəsini təşkil etmək.

4.2. Beynəlxalq qiymətləndirmə proqramı üzrə həyata keçiriləcək əsas tədbirlər

Beynəlxalq qiymətləndirmənin həyata keçirilməsi istiqamətində nəzərdə tutulan tədbirlər aşağıdakılardır:
– qiymətləndirmə tədqiqatı üçün təlimatların, test və sorğu vərəqələrinin hazırlanması;
– ölkə üzrə bütün məktəblərin siyahısının hazırlanması, məktəblərin və şagirdlərin seçimi qaydalarının təyin edilməsi;

– keçirilən tədqiqat nəticəsində əlavə olunmuş məlumatların qiymətləndirməni həyata keçirən təşkilata göndərilməsini təmin etmək;
– nəticələrin qiymətləndirən təşkilat tərəfindən təhlil edilməsi, müvafiq hesabatların hazırlanması və ictimaiyyətə çatdırılması.

Tədqiqatın qiymətləndirilməsi vasitələri xarici beynəlxalq ekspertlərin və iştirakçı ölkələrin aparıcı mütəxəssislərinin interaktiv birgə fəaliyyəti prosesində yaradılır. Riyazi savadlılığı, oxu savadını, təbiət elmləri üzrə savadlılığı və problemləri həll etmək bacarığını yoxlamaq üçün kompleks şəkildə qurulmuş tapşırıqlar işlənib hazırlanır. Hər bir tapşırıq müəyyən problemi şərh edən ayrıca mətndən və müxtəlif çətinlik dərəcəsi olan bir neçə sualdan ibarət olur. Tapşırıqların yerinə yetirilməsi nəticələrinə görə şagirdlərin mətndəki situasiya ilə bağlı problemləri dərketmə və onları həlletmə qabiliyyətləri qiymətləndirilir.

5. Qiymətləndirmə islahatından gözlənilən nəticələr

Qeyd olunduğu kimi, yeni Qiymətləndirmə Konsepsiyası xüsusilə məktəbdaxili qiymətləndirmə sahəsində yeni Milli Kurikulum çərçivəsi ilə sıx şəkildə əlaqəlidir. Yeni kurikulum və yeni təyin edilmiş standartlar olmadan şagirdlərin kurikulum üzrə fəaliyyətini qiymətləndirmək üçün tələb olunan vasitələri (alətləri) hazırlamaq mümkün olmayacaqdır. Odur ki, qiymətləndirmə fəaliyyəti nəticəsində əldə edilən məlumatların həqiqi və etibarlı olmasını təmin etmək üçün fənn kurikulumlarını hazırlayan və qiymətləndirməni tərtib edən tərəflərin birgə fəaliyyəti təşkil edilməlidir.

Həmçinin, qeyd etmək lazımdır ki, müəllim hazırlığı ilə bağlı ciddi islahatlar və geniş proqramlar həyata keçirmədən nə standartlar və kurikulum, nə də qiymətləndirmə sahəsində arzuolunan nəticələr gözləmək olmaz. Kurikulumu hazırlayan tərəflər, müəllim hazırlığı ilə bağlı qurumlar və qiymətləndirmə mütəxəssisləri arasında sıx əməkdaşlığın olması Azərbaycan Respublikasının ümumi təhsilində uğurlu islahatların aparılması üçün ilkin şərtdir.

Konsepsiya sənədinin və bu sənəd əsasında hazırlanacaq mərhələli İnkişaf Proqramının həyata keçirilməsi nəticəsində aşağıdakı nailiyyətlərin əldə edilməsi gözlənilir:

– təhsildə qiymətləndirmə, imtahanların keçirilməsi sistemində islahat aparılması üçün uzunmüddətli strategiya işlənib hazırlanacaq, bu sahədə yeni mexanizmlər yaradılacaq, onların fəaliyyətləri vahid mövqedən koordinasiya olunacaq;
– təhsil sistemində məktəbdaxili və milli qiymətləndirmələrin keçirilməsi metodologiyası, qiymətləndirmə standartları və vasitələrinin yaradılması, tətbiq edilməsi üçün müvafiq təlimatlar hazırlanacaq və bu fəaliyyət kurikulum islahatı ilə əlaqələndiriləcək;
– şagird nailiyyətlərinin qiymətləndirilməsinin yeni sistemi yaradılacaq, təhsil sistemində yeni monitorinq xidməti təşkil ediləcək, ümumtəhsil pilləsindən professional pilləyə keçiddə mərkəzləşdirilmiş buraxılış imtahanının keçirilməsi təmin olunacaq;
– milli qiymətləndirmə üçün təhsil pillələrinə müvafiq vahid normativ tələbləri, attestasiya prosedurlarını nəzərdə tutan təlimatlar hazırlanacaq;
– milli qiymətləndirmədə şagirdlər tərəfindən nail olunmuş təlim nəticələrinin dəyərləndirilməsi vasitəsilə təhsilin dövlət standartlarının monitorinqi aparılacaq;
– təhsilin məzmununun müəyyənləşdirilməsi və nəticəyönümlü yeni kurikulumun hazırlanması üçün əsas təlim nəticələri təyin olunacaq, kompetensiyalara əsaslanan yanaşmanın məqsədəuyğunluğu istiqamətində tədqiqatlar aparılacaq;
– milli qiymətləndirmənin həyata keçirilməsi və idarə olunmasının monitorinqi aparılacaq, nəticələr təhlil olunacaq və məntiqi əsaslandırılacaq, hesabatvermə prosedurları əsasında nümunəvi hesabatlar, əks-əlaqə sistemləri hazırlanacaq;
– qiymətləndirməni həyata keçirmək məqsədi ilə müəllimlərin ixtisasartırma və maarifləndirilməsi işləri təşkil ediləcək və müvafiq hesabatlar hazırlanacaq;
– beynəlxalq qiymətləndirmə üzrə normativ tələblər, attestasiya prosedurları, təlimatlar əsasında ölkədə şagirdlərin beynəlxalq qiymətləndirilməsi proqramı və digər proqramlar həyata keçiriləcək, qiymətləndirmə sahəsində fəaliyyət göstərən ölkədaxili və beynəlxalq qurumlarla əlaqələr yaradılacaq və məlumat mübadiləsi təmin ediləcəkdir.

Dərslik və nəşriyyat sahəsi üzrə 2009-cu ildə görülmüş işlər

Dərslik və nəşriyyat şöbəsi 2009-cu il üçün fəaliyyətini Nazirliyin təsdiq etdiyi iş planına uyğun yerinə yetirmişdir.

2009/10-cu tədris ilinə II və V–XI siniflər üçün nəşri nəzərdə tutulacaq dərsliklər «Ümumi təhsil sistemində dərslik siyasəti» sənədinə və «Dərsliklərin nəşri, çapı və paylanması qaydalarına» müvafiq respublikanın mövcud şagird kontingenti (X siniflər proqnoz əsasında), eləcə də Gürcüstanın və Dağıstanın təlimi Azərbaycan dilində olan məktəblərinin, xarici ölkələrdəki «Bazar günü» məktəblərinin tələbatı nəzərə alınmaqla müzakirə edilərək onların siyahısı və tirajı dəqiqləşdirilmişdir.

2009/10-cu tədris ilində ümumtəhsil məktəb şagirdlərinin dərsliklərlə pulsuz təminatının davamı olaraq Təhsil Nazirliyinin 08 yanvar 2009-cu il tarixli, 03 nömrəli əmri ilə II və V–XI siniflər üçün 87 adda 4256600 nüsxə dərsliyin və müəllim üçün metodik vəsaitin (Azərbaycan bölməsi üçün 47 adda, 3983300 nüsxə, rus bölməsi üçün 40 adda, 273300 nüsxə) siyahısı, tirajı, həcmi və çap formatları təsdiq edilmişdir.

Beləliklə, əmrdə ümumtəhsil məktəblərinin II sinifləri üçün 19 adda, 1032600 nüsxə dərsliyin şagird kontingentinin 105%-i, 21 adda, 79900 nüsxə müəllim üçün metodik vəsaitin müəllimlərin sayına əsasən 105% həcmində çap olunması və yerlərə çatdırılması bir vəzifə olaraq bizə tapşırıldı.

Ümumtəhsil məktəblərinin V–XI sinifləri üçün nəşri nəzərdə tutulan 47 adda, 3144100 nüsxə dərsliyin 2-si mövcud şagird kontingentinin 30%-i, 4-u 45%-i, 41-i isə 105%-i həcmində çap olunmuşdur. X sinif üçün «İnformatika» dərsliyinin ilk nəşri idi.

2009-cu ildə V–XI sinif dərsliklərinin məzmunca təkmilləşdirilməsi, poliqrafik baxımdan yeniləşdirilməsi istiqamətində ardıcıl iş aparılmışdır. Bu işin daha səmərəli təşkil olunması məqsədilə Təhsil Nazirliyinin «Dəsrliklərin nəşrinə hazırlıq işlərinin yaxşılaşdırılması haqqında» 26 yanvar 2009-cu il tarixli, 41 nömrəli əmri verilmişdir. Həmin əmrə əsasən 2009-cu ildə çap olunacaq 47 adda V–XI sinif dərsliyinin (Azərbaycan və rus bölmələri üçün) nəşrə hazırlanması üçün müvafiq fənlər üzrə praktik müəllimlərdən ibarət işçi qrupları yaradılmışdır. 11 fənn üzrə dərsliklərin

məzmun və poliqrafik keyfiyyətinə nəzarət etmək üçün şöbənin əməkdaşları arasında bölgü aparılmışdır. Orta məktəb müəllimləri tərəfindən dərsliklərə dair verilmiş rəy və təkliflər müəllif, elmi redaktor və nəşriyyat redaktorları ilə birlikdə müzakirə olunmuş, 47 adda dərslikdə müvafiq dəyişikliklər aparılmış və düzəlişlər edilmişdir.

Bütün bunlarla yanaşı, Nazirlikdə nəşriyyat-poliqrafiya müəssisələrinin rəhbərlərinin, bir qrup müəllif və redaktorların iştirakı ilə dərsliklərin həcmi, məzmunu, bədii və texniki tərtibatı barədə məsələlərlə bağlı yığıncaq keçirilmiş və onların rəy və təklifləri dinlənilmiş, müvafiq tövsiyələr verilmişdir.

Ümumtəhsil məktəbləri üçün 2009/10-cu tədris ilinə planlaşdırılmış V–XI sinif dərsliklərinin nəşrə hazırlanmasına, çapa təsdiq edilməsinə və çap prosesinə müəyyən vaxt sərf ediləcəyini, həmin dərsliklərin alternativi və əvəzedicisi olmadığını, görüləcək işlər üçün müvafiq qaydada ödəniləcək maliyyə vəsaitinin açılmasına vaxt tələb olunduğunu, yeni dərs ilinin əvvəlinədək dərsliklərin ümumtəhsil müəssisələrinə çatdırılmasının vacibliyini, onların nəşri və çapının dövlət əhəmiyyətli məsələ olduğunu nəzərə alaraq, bu işin nəşriyyatlarla bağlanacaq birbaşa müqavilə əsasında icra olunması məqsədilə Satınalmalar üzrə Dövlət Agentliyinə müraciət (№48–03–188/16, 12.01.2009-cu il) olunmuşdur.

Satınalmalar üzrə Dövlət Agentliyi qeyd olunanları nəzərə alaraq 2009/10-cu tədris ilinə 47 adda dərsliyin nəşri və çapı işlərinin bu sahədə ixtisaslaşmış və təcrübəsi olan «Çaşıoğlu», «Aspoliqraf», «Bakı», «XXI»YNE, «Xəzər–Etiket» və «Altun-Kitab» nəşriyyat-poliqrafiya müəssisələri ilə birbaşa müqavilə əsasında həyata keçirilməsini mümkün hesab (№ İÇ/34, 15.01.2009-cu il) etmişdir.

Dərsliklərin nəşri və çapının birbaşa müqavilələr əsasında təşkili üçün Təhsil Nazirliyinin 26 yanvar 2009-cu il tarixli, 47 nömrəli əmri ilə satınalma komissiyası yaradılmışdır.

Mövcud qanunvericiliyə uyğun olaraq nəşriyyatlardan alınan qiymət təklifləri əsasında «Çaşıoğlu», «Aspoliqraf», «Bakı», «XXI»YNE, «Xəzər–Etiket» və «Altun–Kitab» nəşriyyat-poliqrafiya müəssisələri ilə birbaşa satınalma müqavilələri bağlanmışdır.

V–XI sinif dərsliklərinin çap faizinə əsasən, respublikanın ümumtəhsil məktəblərinin, internat-məktəblərinin, gimnaziya, lisey və digər ümum-

təhsil müəssisələrinin mövcud şagird kontingenti, Gürcüstan və Dağıstanın təlimi Azərbaycan dilində olan məktəbləri, eləcə də xarici ölkələrdəki «Bazar günü» məktəbləri nəzərə alınmaqla bu dərsliklərin bölgüsü işlənərək təsdiq edilmişdir.

«Ümumi təhsil sistemində dərslik siyasəti» sənədinə və Azərbaycan Respublikasında ümumi təhsilin Milli Kurikulumuna uyğun olaraq 2009-cu ildə II siniflər üçün dərslik komplektlərinin hazırlanması və çap olunması ilə əlaqədar müvafiq işlər görülmüşdür. Təlim dilləri üzrə 19 adda dərsliyin, 19 adda iş dəftərinin və 21 adda müəllim üçün metodik vəsaitin hazırlanması və çapı nəzərdə tutulmuşdur.

Keçən ildə olduğu kimi, dərslik və müəllim üçün metodik vəsaitlərin nəşri və çapı dövlət büdcəsi hesabına, iş dəftərləri isə nəşriyyatların öz vəsaiti hesabına planlaşdırılmışdır.

«Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq II sinif dərslik komplektlərinin hazırlanması və çapı dövri mətbuatda («Xalq qəzeti»nin 06.08.2008-ci il tarixli və «Azərbaycan müəllimi» qəzetinin 01.08.2008-ci il tarixli nömrələrində) verilən elana əsasən 14 lot üzrə açıq tender proseduru ilə həyata keçirilmişdir.

Açıq tenderdə iştirak etmək barədə müraciət edən 12 nəşriyyat-poliqrafiya müəssisəsindən «Pedaqogika» nəşriyyatı Təhsil Nazirliyinin Tender komissiyasının 24.12.2008-ci il tarixli iclasının qərarına əsasən dərsliklərin hazırlanması və çapı ilə əlaqədar keçirilən satınalma prosedurlarında Nazirlik ilə nəşriyyatın əməkdaşlığı qeyri-müəyyən müddətə mümkünsüz hesab edildiyindən tenderdən kənarlaşdırılmışdır. Eləcə də «Letterpress» MMC (Nəşriyyat Evi)-nin ixtisas göstəriciləri «Əsas şərtlər toplusu»nun tələblərinə cavab vermədiyindən tenderdən kənarlaşdırılmışdır. Digər 10 nəşriyyat-poliqrafiya müəssisəsindən isə 20 təklif daxil olmuş və müvafiq qaydada sənədləşdirilmişdir.

Dərslik komplektlərinin qiymətləndirilməsi ilə bağlı Dərsliklər Qiymətləndirmə Şurasının (DQŞ) üzvləri, qiymətləndirici ekspertlər, nəşriyyat işçiləri, dərslik müəllifləri üçün ayrı-ayrılıqda seminar-müşavirələr təşkil olunmuşdur. Dərslik və nəşriyyat şöbəsində isə nəşriyyat-poliqrafiya müəssisələrinin rəhbərlərinin iştirakı ilə iclaslar keçirilmiş və onlara tenderin «Əsas şərtlər toplusu»nun tələbləri, təkliflərin verilmə qaydaları izah edilmiş, təlimati biliklər verilmişdir.

Ümumi təhsilin kurikulumu əsasında 2009/10-cu tədris ilinə hazırlanan dərslik komplektlərinin qiymətləndirilməsi (dəyərləndirilməsi) sahəsində işlərin (təcrübənin) öyrənilməsi məqsədilə Təhsil Nazirliyinin müvafiq əmrləri ilə şöbənin əməkdaşları, DQŞ-nin sədri və üzvləri, dərslik komplektlərini qiymətləndirəcək ekspertlərdən bir qrupu 31.03–05.04.2009-cu il tarixlərində Litvada və 19.04–25.04.2009-cu il tarixlərində Türkiyədə ezamiyyədə olmuşlar.

Hər bir lot üzrə dərslik komplektlərinin maketlərinin (məzmun və keyfiyyətə görə) və eləcə də qiymət (maliyyə) təklifinin zərfləri 06 may 2009-cu il tarixdə qəbul edilmiş və qeydiyyata alınmışdır.

Tender prosedurları 07–19 may, 10 iyun – 02–15 iyul 2009-cu il tarixlərində keçirilmiş, Tender komissiyasının iclaslarının müvafiq qərarlarına əsasən dərslik komplektlərinin məzmun və keyfiyyət qiymətləndirilməsi DQŞ tərəfindən aparılmış, qiymətləndirmənin nəticələri elan olunmuş, həmin qərarlara uyğun olaraq müvafiq tədbirlər görülmüşdür.

İlk olaraq tender proseduru yalnız 7-ci lot üzrə baş tutmuş («İngilis dili» dərslik komplekti), həmin dərslik komplektinin çapı üzrə keçid balını toplamış «Təhsil Nəşriyyat Poliqrafiya» MMC ilə (dərslik, müəllim üçün metodik vəsait) satınalma müqaviləsi bağlanılmışdır. Üçdən az təklif daxil olan və mövcud qanunvericiliyə uyğun olaraq tender proseduru baş tutmayan lotlar üzrə (1–6, 8–14-cü) isə təkliflərin açılaraq qiymətləndirməyə cəlb olunmasına razılıq verilməsi barədə Satınalmalar üzrə Dövlət Agentliyinə müraciət edilmişdir. Agentliyin razılığı əsasında həmin lotlar üzrə təkliflər açılaraq qiymətləndirilməyə cəlb olunmuş, keçid balını toplayan və qiymət təklifi qəbul olunan nəşriyyat-poliqrafiya müəssisələri ilə II siniflər üçün «Azərbaycan dili», «Riyaziyyat», «Həyat bilgisi», «İnformatika», «Texnologiya», «Musiqi», «Təsviri incəsənət», «Rus dili» dərslik və müəllim üçün metodik vəsaitlərin, eləcə də «Fiziki tərbiyə» müəllim üçün metodik vəsaitin çapı üzrə satınalma müqavilələri bağlanmışdır. «Fransız dili» və «Alman dili» dərslik komplektləri keçid balını toplamadıqlarından onların çapı üzrə müqavilə bağlanmamışdır. Beləliklə, II sinif dərslik komplektlərinin nəşri üzrə mövcud qanunvericiliyə uyğun olaraq «Çaşıoğlu», «Təhsil», «Bakı», «Aspoliqraf», «XXI» Yeni Nəşrlər Evi, «Altun-Kitab», «Kövsər» nəşriyyat-poliqrafiya müəssisələri ilə bağlanmış müqavilələrə əsasən çap olunmuş dərslik və müəllim üçün metodik vəsaitlər Nazirliyin

Maddi-Texniki Təchizat İdarəsinə təhvil verilmişdir. Respublikanın ümumtəhsil müəssisələrinin mövcud şagird kontingenti nəzərə alınmaqla onların bölgüsü işlənilərək təsdiq olunmuşdur.

2009-cu ildə ümumtəhsilin kurikulumu əsasında 2010/2011-ci tədris ilinə III siniflər üçün dərslik komplektlərinin hazırlanması və çapı ilə əlaqədar müvafiq işlər görülmüşdür.Dərslik komplektlərinin hazırlanması və çapına dair «Azərbaycan müəllimi» qəzetinin 13 mart 2009-cu il tarixli nömrəsində bildiriş dərc olunmuşdur. «Xalq qəzeti» və «Azərbaycan müəllimi» qəzetlərinin 28 avqust 2009-cu il tarixli nömrələrində tender elanı və «Xalq qəzeti»nin 05 sentyabr 2009-cu il tarixli və «Azərbaycan müəllimi» qəzetinin 11 sentyabr 2009-cu il tarixli nömrələrində bildiriş dərc olunmuşdur. Tender elanına əsasən 14 lot üzrə təlim dilləri üzrə 19 adda dərsliyin, 21 adda müəllim üçün metodik vəsaitin və 19 adda iş dəftərinin hazırlanması və çapı nəzərdə tutulmuşdur.

Ümumtəhsil məktəbləri üçün III sinif dərslik komplektlərinin hazırlanması və çapına dair satınalmanın təşkili və keçirilməsi üçün Təhsil Nazirliyinin 13.08.2009-cu il tarixli, 1001 nömrəli əmri ilə tender komissiyası yaradılmışdır.

Tenderin «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilməsi üçün «Əsas şərtlər toplusu» hazırlanmış və Maliyyə və İqtisadi İnkişaf Nazirliklərinin, Satınalmalar üzrə Dövlət Agentliyinin rəy və təklifləri əsasında müvafiq düzəlişlər aparıldıqdan sonra Tender Komissiyası tərəfindən təsdiq edilmişdir.

Tender elanına əsasən 10 nəşriyyat-poliqrafiya müəssisəsi 23.09.–30.09.2009-cu il tarixlərində Nazirliyə müraciət edərək bu satınalmada neçə lot üzrə iştirak edəcəklərini bildirmiş, müvafiq sənədləri təqdim etmişlər. Həmin sənədlər mövcud qaydalara uyğun olaraq qeydiyyata alınmış və iştirakçılara «Əsas şərtlər toplusu» təqdim olunmuşdur.

Dərslik və dərslik komplektlərinin bölgü əsasında rayon (şəhər) təhsil şöbələrinin vasitəsilə ümumtəhsil məktəblərinə, eləcə də internat-məktəb, gimnaziya, lisey və digər təhsil müəssisələrinə, Gürcüstanın və Dağıstanın təlim Azərbaycan dilində olan məktəblərinə, eləcə də digər xarici ölkələrdə fəaliyyət göstərən «Bazar günü» məktəblərinə çatdırılması və təhvil verilməsini təmin etmək üçün müvafiq işlər görülmüşdür. Belə ki, ilk növbədə işin həcmi müəyyənləşdirilmiş, bu işə xeyli vaxt sərf olunacağı,

yeni dərs ilinin əvvəlinədək dərslik və dərslik komplektlərinin ümumtəhsil müəssisələrinə çatdırılmasının və təhvil verilməsinin dövlət əhəmiyyətli məsələ olduğu nəzərə alınmış və bu işə dair satınalmanın «Bakı ŞN» Məhdud Məsuliyyətli Cəmiyyəti ilə birbaşa müqavilə əsasında icra olunmasına razılıq verilməsi üçün Satınalmalar üzrə Dövlət Agentliyinə müraciət (№ 48–22–2367/16, 13.04.2009-cu il) edilmişdir. Satınalmalar üzrə Dövlət Agentliyinin razılıq məktubuna əsasən (№ İÇ /471, 16.04.2009-cu il), Təhsil Nazirliyinin Satınalma komissiyasının qərarına uyğun olaraq müvafiq işlər görülmüş və «Bakı ŞN» Məhdud Məsuliyyətli Cəmiyyəti ilə 30 aprel 2009-cu il tarixli, DD-01 nömrəli birbaşa satınalma müqaviləsi bağlanmışdır.

Cari ilin hələ iyul ayında dərsliklərin təxminən 70%-i təhsil müəssisələrinə çatdırılmışdır. Qalan dərsliklər isə dərs ili başlananadək yerlərə göndərilmişdir.

Hər il olduğu kimi, bu il də Gürcüstanın təlimi Azərbaycan dilində olan ümumtəhsil məktəbləri üçün Gürcüstan Təhsil və Elm Nazirliyinin sifarişi əsasında 43 adda 40270 ədəd I, III-XI sinif dərsliyi və 80 adda 125 komplekt tədris plakatı şöbənin əməkdaşları tərəfindən Marneuli rayonuna aparılmış, Nazirliyin, Azərbaycanın Gürcüstandakı Səfirliyinin əməkdaşlarının və mətbuat nümayəndələrinin iştirakı ilə 11 rayonun təhsil şöbələrinə təhvil verilmişdir.

Dağıstanın təlim Azərbaycan dilində olan məktəblərinin də «Ədəbiyyat» və «Azərbaycan dili» dərslikləri ilə təmin edilməsi üçün bölgüdə müvafiq miqdarda dərsliklər nəzərdə tutulmuşdur.

Gürcüstanın Təhsil və Elm Nazirliyinin təqdim etdiyi siyahı əsasında bu il respublikanın Qax, Zaqatala və Balakən rayonlarının təlim gürcü dilində olan məktəbləri üçün 11408 ədəd dərsliyə və 1352 ədəd müəllim üçün vəsaitə dair sifariş işlənilmiş və rəsmi qaydada qarşı tərəfə çatdırılmışdır. Həmin məktəblərə ümumtəhsil məktəblərinin rus bölməsi üçün III–XI sinif «Azərbaycan dili» dərslikləri verilmiş, VI–IX siniflər üçün «Azərbaycan tarixi» dərslikləri də gürcü dilində nəşrə hazırlanmışdır.

Bununla yanaşı, MDB və digər xarici ölkələrdəki «Bazar günü» məktəblərinə, o cümlədən Rusiya, Ukrayna, Belarus, Orta Asiya respublikaları, Macarıstan və Almaniyaya, eləcə də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi vasitəsilə Azərbaycan Respublikasının digər xarici ölkə-

lərdəki səfirliklərinə «Əlifba», «Oxu», «Azərbaycan dili», «Ədəbiyyat», «Azərbaycan tarixi», «Azərbaycan coğrafiyası» və s. dərsliklər, coğrafi xəritələr və digər tədris vəsaitləri göndərilmişdir.

Milli azlıqlar üçün dərsliklərin hazırlanması prosesi də davam etməkdədir. Cari ildə udi dilində II sinif «Nanay muz» adlı dərslik nəşrə hazırlanmışdır.

2009-cu ildə respublikanın xüsusi məktəbləri üçün müvafiq dərsliklər çap olunmuşdur. Gözdənəlil uşaqlar üçün 45 adda 3180 ədəd xüsusi (iri şriftlərlə) və brayl əlifbası ilə dərsliklər nəşrə hazırlanmış və çap olunmuşdur.

Bu il ərzində «Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006– 2010-cu illər)»nın icrası ilə bağlı 3 adda 7500 ədəd vəsait (riyaziyyat və kimyadan olimpiada məsələləri) nəşrə hazırlanmış və çap olunmuşdur.

Eləcə də ümumtəhsil məktəblərinin II sinifləri üçün 53 adda dərsliyə, iş dəftərinə və müəllim üçün metodik vəsaitə qrif verilmişdir.

İl ərzində şöbəyə 981 məktub və ərizə daxil olmuşdur. Onlar məzmunundan və mahiyyətindən asılı olaraq araşdırılmış, müvafiq olaraq cavablandırılmışdır. Ali və orta ixtisas təhsili müəssisələrindən daxil olmuş 1522 adda proqram, dərslik və dərs vəsaitinin əlyazması Nazirliyin Elmi-Metodik Şurasının müvafiq bölmələrinə müzakirəyə göndərilmişdir. Həmin müzakirələrdən sonra çapa məsləhət görülən və ya tövsiyə edilən 1420 adda əlyazması mövcud qaydalara uyğun olaraq sənədləşdirilmiş və rəhbərliyə təqdim olunaraq təsdiq edilmişdir. Hesabat dövrü ərzində 953 adda proqrama, 148 adda dərsliyə, 319 adda dərs vəsaitinə Təhsil Nazirliyinin əmri ilə nəşr hüququ (qrifi) verilmişdir.

Ümumtəhsil məktəb kitabxanalarının iş fəaliyyətinin yaxşılaşdırılması, kitabxana fondlarının zənginləşdirilməsi, nümunəvi məktəb kitabxanalarının yaradılması sahəsində də müvafiq işlər görülmüşdür.

Dünya Bankı ilə Təhsil Nazirliyinin birgə layihəsi əsasında 500 ümumtəhsil məktəbi seçilmiş və bu məktəblərin onu nümunəvi kitabxana yaradılması məqsədilə müəyyənləşdirilmişdir.

Yeni tədris materiallarının hazırlanması və məktəb kitabxanalarının müasirləşdirilməsi alt-komponentinin icra planı hazırlanmış, həmin plana uyğun olaraq ümumtəhsil məktəb kitabxanalarına təlim və oxu materiallarının seçilməsi üçün göndəriləcək kataloqun tərtib edilməsi məqsədilə

Texniki Tapşırıq hazırlanmış, tender elan edilmiş, tender qalibi ilə müqavilə imzalanmış, kataloqun ilkin variantı hazırlanaraq Təhsil Nazirliyinə rəyə verilmişdir.

«Ümumtəhsil məktəb kitabxanalarına dair siyasət» sənədinin hazırlanması məqsədilə Nazirliyin 08 iyul 2009-cu il tarixli, 863 nömrəli əmri ilə işçi qrupu yaradılmış, qrupun üzvləri Dünya Bankının TSİİL üzrə LƏQ tərəfindən dəvət olunmuş beynəlxalq məsləhətçilərlə keçirilən müzakirələrdə iştirak etmiş, müasir kitabxanalara dair beynəlxalq təcrübə və müvafiq sənədlərlə tanış olmuşlar. Artıq «Ümumtəhsil məktəb kitabxanalarına dair siyasət» sənədinin yekun variantı hazırlanmışdır.

Ümumtəhsil məktəb kitabxanalarında təlim və oxu materiallarından istifadənin monitorinqinin keçirilməsi məqsədilə təsadüfi seçilmiş 200 ümumtəhsil məktəbinə «Ay ərzində kitabxana istifadəçiləri haqqında məlumat» forması tərtib edilərək yerlərə göndərilmiş, müvafiq məlumatlar toplanılmış, beynəlxalq məsləhətçilərin tövsiyələri nəzərə alınmaqla ümumiləşdirilmişdir.

Təhsilin bütün pillələri üçün hazırlanan və təsdiq edilən (qrif verilən) fənn proqramları, dərslik və dərs vəsaitlərinin Elmi-Metodik Şuranın bölmələrində müzakirələrinin bir çox hallarda düzgün aparılmadığını, həmin əsərlərə bəzən səthi rəylər verildiyini, buna görə də müasir tələblərə cavab verməyən, tədris proqramları ilə uzlaşmayan, dil-üslub xətalı və elmi cəhətdən qüsurlu olan əlyazmaların nəşrinə vəsatət qaldırıldığını, piratçılıq hallarına yol verildiyini nəzərə alaraq bunların qarşısının alınması üçün ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərlərinə, Təhsil Nazirliyi Elmi-Metodik Şurasının bölmə sədrlərinə təlimati məktublar yazılmış, «EMŞ-ın fəaliyyətinin yaxşılaşdırılması barədə» Nazirliyin 18.11.2009-cu il tarixli, 1278 nömrəli əmri verilmiş və yerlərə göndərilmişdir.

Ümumtəhsil məktəblərinin ibtidai sinifləri üçün dərslik komplektlərinin yeni kurikulumun tələblərinə uyğun olaraq hazırlanması, nəşri və çapı ilə əlaqədar, məktəb kitabxana fondlarında olan dərsliklərin, xüsusilə III və IV sinif dərsliklərinin qorunub saxlanılması ilə bağlı təlimati məktub hazırlanmış və rayon (şəhər) təhsil şöbələrinə, digər təhsil müəssisələrinin rəhbərlərinə çatdırılmışdır.

Ümumtəhsil məktəblərinin dərsliklərlə təminatı məsələləri ilə bağlı Nazirliyin «Qaynar xətt»indən şöbəyə daxil olan şikayətlər, rayon (şəhər)

təhsil şöbələrinin müraciətləri diqqətlə araşdırılmış və lazımi tədbirlər görülmüşdür.

Təhsil Nazirliyinin Kollegiyasında baxılması nəzərdə tutulan «2009/10-cu tədris ilinə ümumtəhsil məktəb dərsliklərinin nəşri, çapı və paylanması vəziyyəti» məsələsi daima diqqət mərkəzində olduğundan, bu məsələ Nazirliyin rəhbərliyinin yanında dəfələrlə müzakirə edildiyindən onun Kollegiyaya çıxarılmasına ehtiyac duyulmamışdır.

Ümumtəhsil müəssisələrinin rəhbərlərinə «Təhsil sektorunun inkişafı layihəsi» çərçivəsində yenu kurikulumların və dərsliklərin I siniflərdə tətbiqi ilə bağlı sorğunun keçirilməsi barədə bildiriş göndərilmiş və sorğunun səmərəli təşkili üçün müvafiq şəraitin yaradılması tapşırılmışdır.

Həmin sorğu «SİQMA» İnkişaf və Beynəlxalq Əməkdaşlıq Tədqiqatlar Mərkəzi tərəfindən aparılmış və 19.10.2009-cu il tarixdə Təhsil Nazirliyinin Kollegiyasında müzakirə edilmişdir. Kollegiya qərarının icrası barədə Nazirliyin 30.10.2009-cu il tarixli, 1217 nömrəli əmri olmuşdur.

Ümumtəhsil məktəbləri üçün çap edilmiş və şagirdlərin istifadəsinə verilmiş I və II sinif dərslik komplektlərinin tətbiqinin monitorinqi, qiymətləndirilməsi və müəllimlərə əməli köməyin göstərilməsi məqsədilə bu il Bakı və Sumqayıt şəhərlərinin, bir sıra rayonların ümumtəhsil məktəblərində təhsil işçilərinin, metodistlərin, ibtidai sinif müəllimlərinin, dərslik müəlliflərinin və nəşriyyat redaktorlarının iştirakı ilə müzakirələr keçirilmişdir.

Ümumtəhsil məktəblərinin dərsliklərlə təminatı, dərslik siyasətinin həyata keçirilməsi ilə bağlı dövri mətbuata müntəzəm olaraq məlumatlar verilmiş, televiziya kanalları tərəfindən çəkilişlər aparılmış, çıxışlar edilmişdir. Bu sahədə görülən işlər barədə internetə məlumatlar ötürülmüşdür. Cari ilin dekabr ayında respublikanın ümumtəhsil məktəblərinin kitabxana-dərslik fonduna dair hesabatların toplanmasına başlanılmış və yekun hesabatları araşdırılmışdır.

Hazırda şöbədə «Ümumi təhsil sistemində dərslik siyasəti» sənədinin və onun tərkib hissəsi olan digər sənədlərin təkmilləşdirilməsi üzərində iş aparılır.

Şöbənin əməkdaşları ümumtəhsil məktəblərinin XI siniflərində keçirilən sınaq və buraxılış imtahanlarında imtahan mərkəzinin rəhbəri və «Ən yaxşı müəllim» müsabiqəsində müxtəlif fənn müəllimlərinin açıq dərslərinin təşkili və keçirilməsində nəzarətçi kimi iştirak etmişlər.

Hazırda ümumtəhsil məktəblərinin V–XI sinifləri üçün nəşri nəzərdə tutulan dərsliklərin tirajının, həcminin, çap formatının və faizinin dəqiqləşdirilməsi üzərində müvafiq işlər görülür.

Hesabat dövründə şöbədə 7 nəfər əməkdaş fəaliyyət göstərmişdir.

Şöbənin baş məsləhətçisi Ramiz Xudayarov 50 yaşının tamam olması ilə əlaqədar Təhsil Nazirliyinin «Fəxri Fərmanı» ilə təltif olunmuş və bir aylıq vəzifə maaşı həcmində mükafatlandırılmışdır.

Dərslik və nəşriyyat şöbəsinin qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

- Ümumtəhsil məktəblərinin III sinifləri üçün kurikulum əsasında dərslik komplektlərinin hazırlanması və çapı ilə bağlı tender proseduranun mövcud qanunvericiliyə uyğun keçirilməsini təmin etmək.
- Tender komissiyasına təqdim olunacaq və tender proseduru baş tutacaq təklifləri, dərslik komplektlərini qiymətləndirmək üçün Dərslikləri Qiymətləndirmə Şurasına mövcud qaydada təqdim etmək.
- Keçid balını toplamış, maliyyə təklifi qəbul edilmiş və Tender komissiyasının qərarına əsasən qalib hesab olunmuş dərslik komplektlərinə qrif verilməsi və dərslik komplektlərinin (dərslik və müəllim üçün metodik vəsait) çapı üzrə nəşriyyat-poliqrafiya müəssisələri ilə müvafiq satınalma müqavilələrinin bağlanmasını təmin etmək.
- 2010/11-ci tədris ilinə çapa təsdiq olunmuş I və V–XI sinif dərsliklərinin məzmununun, poliqrafik icra keyfiyyətinin yaxşılaşdırılması məqsədilə orta məktəb müəllimlərindən ibarət yaradılmış işçi qruplarının müəllif, elmi redaktor və nəşriyyatlarla birgə işini təşkil etmək.
- Ümumtəhsil məktəblərinin I və V–XI sinifləri üçün dərsliklərin mövcud qanunvericiliyə uyğun olaraq çapının təşkili və onların ümumtəhsil müəssisələrinə bölgü əsasında yeni dərs ilinin əvvəlinədək çatdırılması ilə bağlı müvafiq tədbirlər görmək.
- «Ümumi təhsil sistemində dərslik siyasəti» və onun tərkib hissəsi olan sənədlərin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlayıb rəhbərliyə təqdim etmək.
- Təhsil Qanunundan irəli gələn məsələlərlə bağlı normativ sənədlərin hazırlanmasında iştirak etmək.

- Məktəb kitabxanalarının oxu materialları, o cümlədən bədii, tədris, ensiklopedik, sorğu xarakterli və digər ədəbiyyatlarla zənginləşdirilməsini təmin etmək.
- Xüsusi tipli məktəblər üçün və milli azlıqların dillərində dərsliklərin hazırlanması, nəşri və çapı ilə bağlı müvafiq tədbirlər görmək.
- Dərslik və dərslik komplektlərinin tətbiqinin nəzəri, təcrübi və texniki parametrlərinə, xüsusilə onlarda verilən materialların kurikulumun tələblərinə, şagirdlərin yaş səviyyəsinə uyğunluğuna, təlim materiallarının planlaşdırılmasına dair vahid proqram və strategiya əsasında treninqlərin keçirilməsinin təşkilini təmin etmək və bu sahədə müvafiq ölkələrin təcrübəsinin öyrənilməsini davam etdirmək.*

*Bax: www.edu.gov.az

Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi layihəsi

(2009–2014-cü illər)

İnfrastruktur iqtisadi artıma şərait yaradan və yoxsulluğu azaldan ən mühüm amillər arasındadır. XXI əsrin birinci onilliyində dövlət infrastruktur layihələrinin həyata keçirilməsinə iri həcmli investisiyalar yatırırdı. Hər il bu layihələrə təxminən 1.1 milyard ABŞ dolları sərf edilirdi. Bu səbəbdən dövlət investisiya layihələrini həyata keçirən nazirliklərin, dövlət strukturlarının kadr resurslarının keyfiyyəti daim hökumətin diqqət mərkəzində idi. Bu istiqamətdə sistemli yanaşma tətbiq olunmaqla ayrı-ayrı sektorlarda kadr potensialına olan ehtiyacların ödənilməsinə yardım göstərilməsi məqsədilə Azərbaycan hökuməti Dünya Bankına müraciət etmişdir. Müraciətə əsasən Dünya Bankının ekspertləri hökumətlə sıx əməkdaşlıq şəraitində müvafiq Layihə hazırlamışlar. Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi adlı bu layihə 1 oktyabr 2009-cu il tarixində Azərbaycan hökuməti (Azərbaycan Respublikası adından təhsil naziri cənab Misir Mərdanov) və Dünya Bankı arasında 4595AZ nömrəli Saziş imzalanmışdır. Layihə üzrə 10 milyon ABŞ dolları məbləğində vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur.

Dünya Bankının Dövlət İnvestisiyaları üzrə Kadr potensialının gücləndirilməsi layihəsinin qiymətləndirmə sənədində qeyd etdiyi əsaslandırmaya görə təhsil sahəsində aparılan islahatlar Təhsil Nazirliyinə sektor üzrə fəaliyyətlərin idarə və monitorinq edilməsi sahəsində institusional potensialını gücləndirməyə kömək etmişdir. Təhsil Nazirliyi icraçı qurum kimi etibarlı tərəfdaş olmuşdur. Eyni zamanda Nazirlik texniki və peşə təhsili sahəsində geniş sektorlararası və təhsil müəssisələrinin təmirinə nəzarət sahəsində təcrübəyə malikdir. Təhsil Nazirliyi tərəfindən keçirilən layihələr peşəkarlıqla icra olunduğu üçün Nazirlər Kabineti bu Layihənin də icrasını Təhsil Nazirliyinə həvalə etmişdir. Layihənin Təhsil Nazirliyinə həvalə edilməsi infrastruktur sektorlarında investisiya layihələrinin hazırlanması və icrasının keyfiyyətinin və səmərəliliyinin artırılmasına xidmət etmişdir.

Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən Layihənin Əlaqələndirmə Qrupu Dünya Bankının maliyyələşdirdiyi layihələrin həyata keçirilməsin-

də geniş təcrübəyə malik idi. Layihənin Əlaqələndirmə Qrupunun layihəni həyata keçirmək üçün zəruri insan və texniki resursları var idi. Layihənin Əlaqələndirmə Qrupunun milli satınalmalar sistemi və Dünya Bankının qaydaları ilə geniş təcrübəsi və satınalmalar funksiyasını icra etmək üçün yaxşı formalaşmış təşkilati strukturu olduğunu nəzərə alaraq hazırkı Layihənin Təhsil Nazirliyinin nəzdindəki Layihənin Əlaqələndirmə Qrupuna həvalə edilməsi məqsədəuyğun hesab edilmişdir.

Layihənin həyata keçirilməsi və əlaqələndirilməsi üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsinin müdiri Fərzəli Qədirov layihənin milli əlaqələndiricisi təyin olunmuşdur. Dünya Bankı tərəfindən layihəyə rəhbərliyi isə Elizabet Vanq həyata keçirmişdir.

Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsinin əsas məqsədi səylərin texniki təlim istiqamətində yönəldilməsi ilə Azərbaycanın investisiya layihələrinin hazırlanması və həyata keçirilməsi sahəsində kadr potensialının gücləndirilməsindən ibarət olmuşdur. Layihə aşağıdakılar vasitəsilə tərəfdaşların geniş dəstəyini təmin etməyi nəzərdə tutmuşdur: (i) iki dövlət infrastruktur qurumuna (Azərsu və Azəryolservis) prioritet verilməsi və ümumi layihə menecmenti təliminin təmin olunması, (ii) Memarlıq və İnşaat Universiteti və inkişaf təşkilatlarının potensialının qurulması sahəsində şəbəkənin yaradılması, (iii) layihə çərçivəsində potensialın gücləndirilməsi ehtiyaclarının təfərrüatlı təhlili, illik icmal və iş proqramlarının hazırlanması vasitəsilə rəhbər işçilərin potensialının gücləndirilməsi fəaliyyəti barədə məlumatların artırılması; (iv) erkən nəticələrin əldə olunması ilə fəaliyyətə impuls verilməsi; (v) hökumət qurumlarının və dövlət müəssisələrinin rəhbərləri və insan resursları ilə işləyərək bu qurumlarda potensialı gücləndirmək tədbirlərini planlaşdırmaq və icra etmək bacarığının formalaşdırılması.

Bu məqsədlə Azərbaycan Memarlıq və İnşaat Universitetində videokonfrans imkanları olan mərkəzin yaradılması da planlaşdırılmışdır.

Eyni zamanda təlim sahəsində bacarıqlar və təcrübə əldə edildikdən sonra digər dövlət qurumları üçün də kadr hazırlığı sahəsində tədbirlər həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Layihə dörd komponentdən ibarət olmuşdur:

Komponent 1: Mövzular üzrə potensialın gücləndirilməsi. Bu komponent çərçivəsində layihələrin hazırlanması və idarə edilməsi sahəsində nazirliklərin və hökumət qurumlarının potensialının gücləndirilməsi nəzərdə tutulmuşdur. Layihə idarəetməsi, investisiya layihələrində keyfiyyətə zəmanət, qeyri-mütəxəssislər üçün maliyyə idarəçiliyi, satınalmalar, maliyyə menecmenti, kadr resurslarının idarə olunması, inkişaf üzrə İKT-nin tətbiqi, layihənin monitorinqi və qiymətləndirilməsi sahələrində təlimlər keçirililmişdir. Ekoloji və sosial normalar sahəsində nazirliklərin və dövlət təşkilatlarının potensialı gücləndirilmişdir. Bu komponent çərçivəsində birinci ildə 3 təlim olmaqla ümumilikdə 9 təlim sessiyası nəzərdə tutulmuşdur. Bakı Dövlət Universiteti də planlaşdırılmış tədbirlərə cəlb edilmişdir.

Komponent 2: Konkret sektorlar üzrə potensialın gücləndirilməsi. Bu komponent çərçivəsində yol, su təchizatı və kanalizasiya xidmətləri sektorlarının inkişafı üçün müvafiq texniki bilik və bacarıqların təmin edilməsini nəzərdə tutmuşdur. Bu komponent yerli və beynəlxalq məsləhətçilərin keçirdiyi kurslar, distant və elektron təhsil, magistratura təhsili, praktika tədbirləri, müvafiq ali təhsil müəssisələrinin kurikulumlarının təkmilləşdirilməsi və digər tədbirləri əhatə etmişdir.

Eyni zamanda ehtiyacların qiymətləndirilməsinə əsaslanan təlim əsasında sonrakı illərdə təhsil, səhiyyə, enerji, ekologiya və digər sektorlarda da bilik və bacarıqların artırılması tədbirləri həyata keçirilmişdir.

Komponent 3: Kadr potensialının gücləndirilməsini dəstəkləyəcək fəaliyyətlər. Bu komponent təlim və kadr potensialının gücləndirilməsi tədbirlərinin səmərəliliyinin artırılmasına yönəlmiş və kadr potensialı ehtiyaclarının qiymətləndirilməsi, akkreditasiya və sertifikatlaşdırma proqramlarının, kadr potensialı strategiyasının hazırlanması, rəhbər vəzifələrdə çalışan dövlət strukturları işçiləri üçün distant təhsil tədbirlərinin və seminarların keçirilməsi, İnternet səhifəsinin hazırlanması və saxlanması, məlumatlandırma tədbirləri, avadanlıq, laboratoriya və texniki işlə əlaqədar xarici dil biliklərinin təkmilləşdirilməsi kimi fəaliyyətləri əhatə etmişdir.

Komponent 4: Bu komponent layihənin icra məsrəflərinin maliyyələşdirilməsini nəzərdə tutmuşdur. Buraya Layihənin idarə edilməsi ilə bağlı LƏQ xərcləri, işçi heyətin xərcləri, cari xərclər, audit yoxlamaları, birinci il planlaşdırılmış təlim tədbirlərinin idarə edilməsi üçün maddi-texniki bazanın yaradılması və digər məsələlər aid olmuşdur.

İki ay sınaq müddəti olmaqla 2010–2013-cü illəri əhatə edən Layihənin maliyyə təminatı 10 milyon ABŞ dolları təşkil etmişdir. Həmin vəsaitdən 8 milyon ABŞ dolları Beynəlxalq İnkişaf Assosiasiyasının Azərbaycan Respublikasına verdiyi uzunmüddətli güzəştli krediti olmuşdur. 2 milyon ABŞ dolları isə Azərbaycan Hökumətinin payı olmuşdur.

Azərbaycan Dünya Bankına 1992-ci ildə üzv olub. Həmin vaxtdan başlayaraq, ölkədə 42 layihənin maliyyələşdirilməsi üçün ümumi öhdəliklər 2.16 milyard ABŞ dolları təşkil etmişdir.

Bax: www.edu.gov.az

Kənd rayonları üzrə ümumi təhsil

2009-cu ildə şöbənin fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin «Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında» 2007-ci il 04 sentyabr tarixli, 2373 nömrəli Sərəncamının icrası, TSİL çərçivəsində «Kurikulum islahatı» alt komponenti üzrə icra planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı və Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı üzrə Dövlət Proqramlarının icrası istiqamətində Fəaliyyət Planlarının reallaşdırılması, beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsində işlərin təşkili, mərkəzləşdirilmiş imtahanların keçirilməsi ilə bağlı qarşıya qoyulmuş vəzifələrin icrası və digər məsələlərin həllinə yönəldilmişdir.

Hesabat dövründə Təhsil Sektorunun İnkişafi Layihəsi çərçivəsində «Kurikulum islahatı» alt-komponenti üzrə görülmüş işlərə dair rüblük hesabatlar hazırlanmış, DB-dən, SİTO beynəlxalq məsləhətçi şirkətindən daxil olan hesabat və digər sənədlər araşdırılıb müvafiq sənədlər tərtib olunmuşdur.

2009/10-cu tədris ilində II siniflərdə yeni kurikulumların tətbiqi ilə əlaqədar hazırlıq işləri aparılmış, tanınmış mütəxəssislərin, müəllimlərin, ümumtəhsil məktəbləri rəhbərlərinin, ictimaiyyətin nümayəndələrinin iştirakı ilə geniş müzakirələr keçirildikdən sonra Nazirliyin 23.07.2007-ci il tarixli, 923 nömrəli əmri ilə respublikanın təlim Azərbaycan və qeyri dillərdə aparılan ümumtəhsil məktəblərinin I–IV siniflər üçün yeni fənn kurikulumları və tədris planları təsdiq edilmişdir.

Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu) əsasında hazırlanıb təsdiq olunmuş fənn kurikulumlarının tətbiqi ilə bağlı 2009/2010-cu dərs ilində II siniflərdə dərs deyəcək 9000-ə yaxın ibtidai sinif müəllimləri üçün respublikanın bütün şəhər və rayonlarında öyrədici treninqlər keçirilmişdir. Kursun sonunda adıçəkilən I sinif müəllimlərinin nailiyyət səviyyəsinin qiymətləndirilməsi, həmin müəllimlərin xüsusi qiymətləndirmə vərəqlərinin yoxlanılması, nəticələrin RTŞ-lərə göndərilməsi təşkil edilmiş, zəif nəticələr nümayiş etdirmiş müəllimlərlə aparılacaq işin yolları ilə bağlı tövsiyələr verilmişdir.

Həmin kursun nəticələri haqqında geniş məlumatı pedaqoji ictimaiyyətə çatdırmaq məqsədi ilə tərəfimizdən «Kurikulum» portalına yerləşdirilmişdir.

I siniflərdə fənn kurikulumlarının tətbiqi vəziyyətini təhlil etmək, problemləri aşkar edib onların aradan qaldırılması ilə bağlı tövsiyələr vermək məqsədi ilə respublikanın 14 rayonunda müvafiq işlər aparılmışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli, 233 №-li qərarı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)» əsasında hazırlanmış fənn kurikulumlarının tətbiqi ilə bağlı maarifləndirmə tədbirlərinin səmərəliliyini yüksəltmək, müəllimlərə metodik köməyi gücləndirmək, ümumi təhsilin məzmununun təkmilləşdirilməsi istiqamətində elmi-tədqiqat işlərini genişləndirmək və bu sahədə qabaqcıl təcrübə nümunələrinin yayılmasını təmin etmək məqsədilə Nazirliyin 27.07.2007-ci il tarixli, 847 nömrəli əmri ilə «Kurikulum» jurnalı təsis edilmişdir. 2009-cu ildə jurnalın 4–8-ci nömrələri çapdan çıxmışdır.

V–XI siniflərdə fiziki tərbiyə və təlimi digər dillərdə olan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənn kurikulumu layihələri hazırlanıb ictimai müzakirəyə verilmişdir.

Şöbənin əməkdaşı 24 aprel – 9 may 2009-cu il tarixlərində qabaqcıl təcrübənin öyrənilməsi məqsədi ilə ABŞ-a səfər etmiş və Harvard Universitetində 2 həftəlik kurslarda təhsilin müasir problemləri ilə bağlı təlimatlanmışdır.

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə (TSİİL) çərçivəsində həyata keçirilən kurikulum islahatlarının təbliği və tətbiqi sahəsində fəaliyyət göstərən təlimçilərin tərkibini genişləndirmək, nəzəri və praktik hazırlığını təmin etmək məqsədilə treninqlər təşkil edilmişdir.

Cari dərs ilinin əvvəlində ibtidai sinif müəllimləri üçün «I-II siniflərdə proqram materiallarının planlaşdırılması» və «Ədəbiyyatdan fəal təlim» kitabları nəşr edilib respublikanın bütün məktəblərinə çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 17.04.2006-cı il tarixli, 1414 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006–2010-cu illər)»nın icrası ilə əlaqədar, respublikanın rayon və şəhərlərindən fizika, riyaziyyat, kimya, biologiya fənlərindən istedadlıların arasından ən istedadlıların seçilməsi məqsədilə həmin fənlər üzrə VIII–X sinif şagirdlərinin may

ayında Bakı şəhərində təkrar seçimi aparılmışdır. Seçimdə riyaziyyatdan 219, fizika və kimyanın hər birindən 131, biologiyadan 140 nəfər iştirak etmişdir. Riyaziyyatdan 4, fizikadan 6, kimyadan 5, biologiyadan 3 nəfər I, riyaziyyatdan 24, fizikadan 9, kimyadan 6, biologiyadan 6 nəfər II, riyaziyyatdan 9, fizikadan 17, kimyadan 5, biologiyadan 23 nəfər III dərəcəli diploma layiq görülmüşdür.

Seçim prosesində fərqlənən 50 nəfər istedadlı uşaq üçün 2009-cu ilin 10–23 avqustunda Bakının Şüvəlan qəsəbəsində təlim-istirahət düşərgəsi təşkil edilmişdir.

Dövlət Proqramında qeyd olunan vacib məqamlardan biri də istedadlı uşaq və gənclərin aşkara çıxarılması və onlarla iş sahəsində mövcud problemlərin həllinə yönəlmiş elmi-tədqiqat işlərinin aparılmasıdır. Uzun illərdən bəri ölkəmizdə müxtəlif yaş dövrlərində əsl istedadın müəyyənləşdirilməsinə, bu məsələnin elmi-psixoloji baxımdan xarakterik cəhətlərinə həsr edilmiş tədqiqatlar lazımi səviyyədə həyata keçirilməmişdir. Ona görə də Təhsil Problemləri İnstitutunda bu problemə müasir yanaşmaları əks etdirən bir neçə istiqamətdə tədqiqatlara başlanılmış, tədqiqatlar üçün praktik baza yaratmaq və nəticələri sınaqdan keçirmək məqsədilə Nazirlik üzrə əmrlə respublikanın 21 bölgəsində 32 pilot məktəbi yaradılmışdır.

Dövlət Proqramına uyğun olaraq, ümumtəhsil məktəblərinin müəllimləri üçün istedadlı uşaq və gənclərlə fəaliyyətin xarakterik xüsusiyyətlərinə həsr edilmiş ixtisasartırma tədbirlərinin həyata keçirilməsi ilə bağlı təşkilati işlər vaxtında başa çatdırılmış, ixtisasartırmaya cəlb olunacaq 6375 nəfər müəyyənləşdirilmişdir. Onların 2007–2010-cu illərdə AMİ-də ixtisasartırma kursuna cəlbi ilə bağlı 4 illik qrafik tərtib edilmişdir. Qrafikə əsasən 2007/08-ci tədris ilində 823 nəfər müəllim kursdan keçmişdir. Bu iş 2009/10-cu tədris ilində də davam etdirilir.

İstedadlı şagirdlərin təhsil aldığı lisey və gimnaziyaların ali təhsil müəssisələri ilə işgüzar əlaqələrinin yaradılması da diqqət mərkəzində saxlanılır. Ötən müddət ərzində lisey və gimnaziyaların müvafiq ali məktəblərə təhkim olunması, bu müəssisələrin ali məktəblərin tədris bazasından istifadə etmələri, şagirdlərin alimlər tərəfindən elmi himayəyə götürülməsi, istedadları ilə fərqlənənlərə ali təhsil müəssisələrinin təqaüdlərinin təsis edilməsi, ali məktəblərin nəzdində yeni tipli ümumtəhsil müəssisələrinin yaradılması və sair bu kimi məsələlər bir neçə dəfə müzakirə olunmuş və təkliflər bildi-

rilmişdir. Hazırda nəzərdə tutulan həmin tədbirlərin sistemli həyata keçirilməsinə başlanılmışdır.

Dövlət Proqramı çərçivəsində həyata keçirilən tədbirlərin sırasında istedadlı uşaq və gənclərlə iş sahəsində müasir dünya təcrübəsinin öyrənilməsi xüsusi yer tutur. Bununla əlaqədar ilkin mərhələdə sistem baxımından ölkəmizə yaxın dövlətlərin qabaqcıl təcrübəsinin öyrənilməsi nəzərdə tutulmuş, bu işdə əməkdaşlıq etmək və köməklik göstərmək üçün Rusiya Federasiyasının, Belarus və Qazaxıstan respublikalarının təhsil nazirliklərinə məktubla müraciət edilmişdir.

Yerli mütəxəssislər tərəfindən müvafiq test və dünya fənn olimpiadaları səviyyəsində tapşırıq toplularının, diaqnostik metodikaların və digər bu kimi vəsaitlərin hazırlanıb nəşr edilməsi də diqqətdə saxlanılmışdır. Belə ki, 2008-ci ilin fevralından etibarən həmin işlərin yerinə yetirilməsinə alim və mütəxəssisləri cəlb etmək məqsədilə kütləvi informasiya vasitələrində elanlar verilmiş, iştirak etmək arzusunda olanların Nazirlikdə rəsmi qeydiyyatı aparılmışdır. Müəyyən olunmuş proseduraya görə, onlarla nəzərdə tutulan işlərin yerinə yetirilməsi mexanizmini əks etdirən müqavilə bağlanmışdır. Nazirliyin «Komissiya yaradılması barədə» 22.10.2007-ci il tarixli, 1047 nömrəli əmri ilə müsabiqənin təşkili və keçirilməsi «şərtlər»i hazırlanmışdır. Müsabiqə qalibi olmuş «Riyaziyyatdan olimpiada iştirakçıları üçün 200 variant» (müəlliflər R.Quliyev, F.Qarayev), «Elementar riyaziyyatın əlavə fəsilləri və olimpiadalar, I kitab» (müəlliflər M.Mərdanov, S.Mirzəyev, E.Məmmədov), «Kimyadan olimpiada məsələləri» (müəlliflər M.Abbasov, T.Mahmudov, N.Abışov, Z.Zeynalov, S.Abbaszadə) vəsaitləri hər biri 3000–3500 nüsxədən ibarət olmaqla «Təhsil» nəşriyyatında çap olunmuş və yerlərə paylanılmışdır. Bu cür vəsaitlərin nəşrində əsas diqqət isə istedadlı uşaq və gənclərin aşkara çıxarılması üzrə işlək sistemin yaradılması, belə şagirdlərlə iş aparan müəllim və məktəb rəhbərlərinə metodik köməklik göstərilməsi kimi vacib məsələlərə yönəldilmişdir.

Məlumdur ki, istedadlı uşaq və gənclərin aşkara çıxarılmasında, onların həvəsləndirilməsi və rəğbətləndirilməsində, təlimdə sağlam rəqabətin yaradılmasında fənn olimpiadaları müstəsna rol oynayır. Dövlət Proqramında bu amil xüsusilə nəzərə alınmış, olimpiada hərəkatının gücləndirilməsi istiqamətində zəruri tədbirlər müəyyənləşdirilmişdir. Bu tədbirlərin icrası ilə bağlı Nazirliyin təlimati məktubu əsasında yerlərdə olimpiadalara

hazırlıq mərkəzləri təşkil olunmuş, bunlara elmi-nəzəri, metodik cəhətdən fərqlənən müəllim və metodistlər cəlb edilmişdir. Aparılmış məqsədyönlü işlərin nəticəsində məktəblərdə ayrı-ayrı fənlər üzrə olimpiadalarda iştiraka layiq xeyli şagird seçilmiş və onların hazırlığına nəzarət gücləndirilmişdir. Dövlət Proqramının tələbinə əsasən, yerlərdə istedadlı şagirdlər üçün təqaüdlərin təsis olunmasına başlanması da olimpiada hərəkatına təkan verən amillərdən birinə çevrilmişdir. Nazirliyin müvafiq əmrləri ilə Dünya fənn olimpiadaları iştirakçıları hər ilin aprel və noyabr aylarında dərs məşğələlərindən azad edilmiş, 2008/09-cu tədris ilində Respublika fənn olimpiadalarında I yeri tutmuş XI sinif şagirdləri buraxılış imtahanlarından azad olunmuşlar. Təhsil Nazirliyində belə bir rəyə gəlinmişdir ki, müvafiq fənn müəllimlərinin rəğbətləndirilməsi, mükafata təqdim olunması zamanı onların istedadlı şagirdləri olimpiadalara hazırlaşdırmaları və bu sahədə əldə etdikləri müsbət nəticələr əsas göstəricilərdən biri kimi nəzərə alınmalıdır.

Yeni tipli təhsil müəssisələri haqqında nümunəvi Əsasnamə layihələrinin hazırlanması məqsədilə Nazirlikdə işçi qrupu yaradılmış, hazırda bu məqsədlə müəyyən iş aparılır.

Dövlət Proqramında diqqətçəkən, təhsilə dövlət qayğısını şərtləndirən məqamlardan biri də yerlərdə, xüsusilə kənd rayonlarında istedadlı şagirdlərin səmərəli təhsil almasına şərait yaradan yeni tipli ümumtəhsil müəssisələrinin təşkil edilməsi ilə əlaqədardır. Dövlət Proqramının tətbiqinə qədər şəhərlərdə, ilk növbədə Bakı, Sumqayıt və Mingəçevirdə bu məsələ ilə bağlı problem olmasa da, 59 kənd rayonundan cəmi 9-da belə müəssisələr fəaliyyət göstərmişdir. Ona görə də Təhsil Nazirliyinin müraciət məktubuna əsasən, icra hakimiyyətləri və təhsil şöbələrindən alınmış məlumatların təhlili aparılaraq rayonlarda yaradılacaq lisey və gimnaziyaların, ümumtəhsil məktəblərinin nəzdində açılacaq lisey siniflərinin 2007-2010-cu illəri əhatə edən qrafik-planı hazırlanmışdır. Dövlət Proqramının yerinə yetirilməsi ilə əlaqədar 2006–2009-cu illərdə Quba şəhər 2 və 4, Salyan şəhər 1 və 7, Ağcabədi şəhər 3, Astara rayonu Pensər kənd 2, Ağsu şəhər 1, Samux rayonu Nəbiağalı qəsəbə 1, Qarayeri qəsəbə 1, Tərtər şəhər 2, Xırdalan şəhər 3, Cəlilabad şəhər 1 və 8, Ucar şəhər 1 nömrəli, Bərdə rayonu akademik Zərifə Əliyeva adına, Xaçmaz şəhər 8, Xudat şəhər 4, İmişli şəhər 1 və 5, Zərdab şəhər 1, Ağdam şəhər 14, Sabirabad şəhər 2, Kürdəmir şəhər 2, Şirvan şəhər 18, Şəmkir şəhər M.Füzuli adına, Tovuz şəhər Tusi adına və

Qovlar qəsəbə, Dəvəçi rayonu şəhər 2, Lerik rayonu şəhər 1, Hacıqabul rayonu şəhər 8 nömrəli orta məktəblərində lisey sinifləri açılmışdır.

Ağdaş rayonu M.Şeyxzadə adına şəhər internat-məktəbinin bazasında texniki, humanitar və təbiət fənləri təmayüllü gimnaziya, Şamaxı rayonu internat məktəbinin bazasında texniki, humanitar və təbiət fənləri təmayüllü, Göygöl rayonunda texniki və təbiət fənləri təmayüllü lisey, Qazax şəhərində humanitar və təbiət fənləri təmayüllü lisey, Beyləqan şəhərində humanitar və təbiət fənləri təmayüllü lisey, Oğuz şəhərində texniki və humanitar fənlər təmayüllü lisey, Füzuli rayonu musiqi təmayüllü gimnaziya, Biləsuvar şəhəri texniki fənlər təmayüllü lisey, Lənkəran rayonunda xarici dillər təmayüllü gimnaziya yaradılmışdır.

Dövlət Proqramında nəzərdə tutulduğu kimi, hazırda fəaliyyət göstərən lisey, gimnaziya və məktəb-liseylərin maddi-tədris bazasının möhkəmləndirilməsi, o cümlədən əsaslı təmir aparılması sahəsində də müəyyən işlər görülmüşdür.

Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramının (2006–2015-ci illər) həyata keçirilməsi ilə əlaqədar yaradılmış Koordinasiya şurasının 2008-ci il üçün fəaliyyət planında nəzərdə tutulan işlər həyata keçirilmişdir.

Respublika psixoloji-tibbi-pedaqoji komissiyasının əsasnaməyə uyğun iclasları keçirilmiş, xüsusi təhsil müəssisələrinə şagird qəbulunun həmin komissiyanın qərarı əsasında həyata keçirilməsi təmin olunmuşdur.

«2009/10-cu tədris ili üçün ümumtəhsil məktəblərinin tədris planları» və «Ümumtəhsil məktəblərinin I və II sinifləri üçün tədris planları» hazırlanmış, Təhsil Nazirliyinin uyğun olaraq 30.06.2009-cu il tarixli, 829 və 828 nömrəli əmrləri ilə təsdiq edilərək nəşr olunmuş, bütün tipdən olan ümumtəhsil məktəblərinə, rayon (şəhər) təhsil şöbələrinə çatdırılmışdır.

Təhsil Nazirliyinin «Xüsusi təhsil müəssisələrinin tədris planlarının təsdiqi haqqında» hər bir müəssisə üçün əmri hazırlanmış, tədris planları çoxaldılaraq xüsusi təhsil müəssisələrinin istifadəsinə verilmişdir.

2009/10-cu tədris ili üçün yeni tipli təhsil müəssisələrinin (lisey və gimnaziyaların) tədris planları təsdiq olunaraq yerlərə göndərilmişdir.

Ölkə Prezidentinin «Ən yaxşı ümumtəhsil məktəbi müsabiqəsinin keçirilməsi Qaydaları və ümumtəhsil məktəblərinə verilmiş mükafatın istifadə

istiqamətlərinin və «Ən yaxşı müəllim müsabiqəsinin keçirilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi» haqqında 2007-ci il 04 sentyabr tarixli, 2372 nömrəli Sərəncamının icrası ilə əlaqədar 2007/08-ci tədris ilində olduğu kimi, 2008/09-cu tədris ilində də müsabiqələrin təşkili və keçirilməsi məqsədilə Təhsil Nazirliyində Təşkilat Komitəsi yaradılmış, onun tərkibinə Təhsil Nazirliyinin rəhbərliyi və məsul əməkdaşları ilə yanaşı, milli və beynəlxalq qeyri-hökumət, digər ictimai təşkilatların nümayəndələri də daxil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin «Ən yaxşı ümumtəhsil məktəbi müsabiqəsinin keçirilməsi Qaydaları və ümumtəhsil məktəblərinə verilmiş mükafatın istifadə istiqamətlərinin və «Ən yaxşı müəllim müsabiqəsinin keçirilməsi Qaydalarının təsdiq edilməsi haqqında» 2008-ci il 25 fevral tarixli, 714 nömrəli Fərmanında qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etmək məqsədilə Təhsil Nazirliyi üzrə əmrlə «Ən yaxşı müəllim» müsabiqəsində iştirak üçün təqdim edilmiş sənədləri qeydiyyata almaq və «Qaydalar»da müəyyən edilmiş şərtlər üzrə onların ekspertizasını aparmaq məqsədilə ekspert qrupu yaradılmış, sənədlərin qəbulunun 2009-cu il fevralın 1-də başa çatdırılması barədə Təşkilat Komitəsində qərar qəbul olunmuşdur.

«Ən yaxşı müəllim» müsabiqəsində iştirak üçün 450 nəfər müəllim sənəd təqdim etmişdir. Müsabiqə şərtlərinə uyğun gəlmədiyi üçün 4 nəfərin sənədləri qəbul edilməmişdir. Beləliklə, 446 nəfərin sənədləri ekspertizadan keçirilmişdir.

«Qaydalar»da təsbit olunmuş şərtlər əsas tutulmaqla iştirakçı müəllimlərin fəaliyyətini əks etdirən 16 parametr üzrə göstəricilər hər birinə müvafiq əmsal tətbiq olunmaqla qiymətləndirilmiş və hər müəllimin birinci mərhələ üçün yekun balı müəyyənləşdirilmişdir. Təşkilat Komitəsinin qərarına əsasən minimum 1.0 bal növbəti mərhələyə keçid üçün məqbul hesab edilmiş, beləliklə 1.0 və daha çox bal toplayan 217 nəfər II mərhələdə iştirak etmək hüququ qazanmışdır. Bunlardan 5 nəfəri obyektiv səbəblərdən ikinci mərhələyə gələ bilməmişdir.

Müsabiqənin ikinci mərhələsi 2009-cu il aprelin 20-də başlanıb 24-də yekunlaşdırılmışdır. Hər bir sınaq dərsi videolentə alınmış, dərs bitdikdən

dərhal sonra onun müzakirəsi aparılmışdır. Sınaq dərsləri «Qaydalar»da qeyd edilmiş istiqamətlər ciddi nəzərə alınmaqla Təşkilat Komitəsində razılaşdırılmış 12 göstərici üzrə qiymətləndirilmişdir. Müvafiq fənn komissiyasının üzvləri hər bir göstərici üzrə iştirakçı müəllimi fərdi qiymətləndirmiş, sonra onların ayrı-ayrı qiymətləri toplanmış və alınan cəm göstəricilərin sayına bölünərək yekun bal müəyyən edilmişdir.

Müsabiqənin üçüncü mərhələsində üzürlü səbəbdən üç nəfər iştirak edə bilməmiş, yekun mərhələdə 209 müəllim iştirak etmişdir. Bu mərhələdə, «Qaydalar»da göstərildiyi kimi, təhsil sahəsində aktual məsələlərə dair Təşkilat Komitəsinin müəyyən etdiyi mövzu ətrafında iştirakçı müəllimlərin təqdimatları dinlənilmiş və komitənin üzvləri tərəfindən qiymətləndirilmişdir.

Müsabiqənin yekununda hər üç mərhələnin balları əsasında müəllimlərə yekun bal müəyyən edilmiş və ən yüksək nəticə göstərən 95 nəfər müəllimin siyahısı hazırlanmışdır.

«Ən yaxşı ümumtəhsil məktəbi» müsabiqəsində 139 ümumtəhsil məktəbinin iştirakı barədə rayon (şəhər) təhsil şöbələrindən (idarələrindən) Təşkilat Komitəsinə rəsmi müraciət daxil olmuşdur.

Bunlardan 38-ni Bakı şəhərinin məktəbləri, 2-si Təhsil Nazirliyinin nəzdindəki lisey və gimnaziyalar təşkil etmişdir. Müsabiqəyə Şirvan şəhəri, Quba və Ağdaş rayonlarının hər birindən 5, Gəncə şəhərindən 4, Sumqayıt şəhəri, Tovuz, Sabirabad, Yevlax, Masallı, İsmayıllı, Zaqatala, Zərdab və Salyan rayonlarının hər birindən 3 məktəb təqdim olunmuşdur. Müraciət edən məktəblərin 53-ü digər rayon və şəhərlərdəndir. Naftalan şəhəri, Daşkəsən, Qəbələ, Gədəbəy və Neftçala rayonlarından, habelə məlum səbəblərə görə Qubadlı rayonu istisna olunmaqla digər məcburi köçkün rayonlarından müsabiqədə iştirak üçün müraciət edilməmişdir.

«Qaydalar»da təsbit edilmiş şərtlər əsas tutulmaqla müsabiqədə iştirak üçün sənədləri qəbul olunmuş məktəblərin göstəriciləri hər birini müvafiq əmsallar tətbiq edilməklə 17 parametr üzrə qiymətləndirilmiş və hər məktəbin birinci mərhələ üçün yekun balı müəyyənləşdirilmişdir. Nəticə etibarı ilə 21 məktəb 10 ballıq sistem üzrə 2,0–4,3 bal, 84 məktəb 1,0–1,9, 24 məktəb 0,8–0,9 bal, 10 məktəb 0,6-0,7 intervalında bal toplamışdır. Təşkilat Komitəsinin qərarına görə minimum 1.0 bal növbəti mərhələyə

keçid üçün məqbul sayılmış və beləliklə, 1.0–4.3 intervalında bal toplayan məktəblər ikinci mərhələdə iştirak etmək hüququ qazanmışdır.

Ekspertizanın nəticələrinə görə, Bakı şəhərindən 34, Nazirlik nəzdindəki 2, Şirvan şəhəri və Quba rayonunun hər birindən 5, Ağdaş rayonundan 4, Sumqayıt şəhəri, İsmayıllı, Tovuz və Masallı rayonlarının hər birindən 3, 13 rayonun hər birindən 2, 17 rayonun (şəhərin) hər birindən 1 məktəb olmaqla 105-i 1,0-dən artıq bal toplamışdır. 34 məktəbin topladığı bal 1,0-dən aşağı olduğu üçün həmin məktəblər müsabiqədə təmsil oluna bilməmişdir.

İkinci mərhələdə iştirakçı məktəblərin IX sinif şagirdləri (10 452 nəfər) Təşkilat Komitəsinin müəyyən etdiyi ana dili və riyaziyyat, XI sinif şagirdləri isə (8 160 nəfər) bu fənlərlə yanaşı, fizika, kimya, biologiya, coğrafiya, Azərbaycan tarixi, xarici dil fənləri üzrə test yoxlamasından keçirilmiş və nəticələrə əsasən həmin məktəblərdə təlim keyfiyyətinin səviyyəsi öyrənilmişdir. Qiymətləndirmə Təşkilat Komitəsinin müəyyən etdiyi prosedura uyğun (fənlər üzrə keyfiyyət faizləri toplanıb fənlərin sayına bölünmüş və alınan orta keyfiyyət faizi 10 ballıq qiymətləndirmə sisteminə normallaşdırılmışdır) aparılmışdır.

Mövcud qaydalara uyğun olaraq, müsabiqənin üçüncü mərhələsində Təşkilat Komitəsinin üzvləri tərəfindən iştirakçı məktəblərin direktorlarının 10 dəqiqəlik təqdimatı dinlənilmişdir. Təqdimatları Təşkilat Komitəsinin hər bir üzvü 10 ballıq qiymətləndirmə sistemi üzrə qiymətləndirmiş, sonra həmin ballar toplanıb üzvlərin sayına bölünərək hər iştirakçı üçün yekun bal müəyyənləşdirilmişdir.

Müsabiqənin yekununda hər üç mərhələdə qazanılmış ballar cəmlənərək ümumi nəticəyə görə daha çox bal toplamış 47 məktəb müəyyən edilmişdir.

Məktəblilərin fənn olimpiadalarının rayon (şəhər) və respublika mərhələsinin keçirilməsi və yekunlaşdırılması üçün müvafiq təşkilati tədbirlər həyata keçirilmişdir. Təhsil Nazirliyinin «Respublika fənn olimpiadalarının qalibləri haqqında» 12.05.2009-cu il tarixli, 545 nömrəli və «Məktəblilərin 2008/09-cu tədris ilində keçirilmiş fənn olimpiadalarının nəticələri barədə» 10.07.2009-cu il tarixli, 884 nömrəli əmri hazırlanmışdır.

Məktəblilərin fizika, riyaziyyat, kimya, biologiya və informatika fənləri üzrə Beynəlxalq olimpiadalarda iştirakı üçün şəhərlər üzrə ümumi

təhsil şöbəsi ilə birgə təşkilati işlər (komandaların tərkibinin müəyyənləşdirilməsi, onların olimpiadalarda iştirakı ilə bağlı əmrlərin hazırlanması, viza və ezamiyyə xərclərinin həlli və s.) görülmüşdür.

Məcburi köçkün rayonlarının ümumtəhsil məktəbləri ilə bağlı statistik məlumatlar toplanılaraq ümumiləşdirilmişdir.

Qax, Zaqatala, Balakən rayonlarının 12 ümumtəhsil məktəbində təhsil alan gürcü uşaqları və onlara dərs deyən gürcü müəllimləri barədə statistik məlumatlar toplanılaraq ümumiləşdirilmişdir.

Respublikanın kənd rayonlarında təhsil alan azsaylı xalqlar (talış, avar, ləzgi, ivrit, zaxur, xınalıq, udin, kürd) barədə statistik məlumatlar toplanılaraq ümumiləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı rəhbərinin 28.02.2009-cu il tarixli, 15 nömrəli sərəncamı ilə təsdiq edilmiş «Gürcüstanda yaşayan azərbaycanlılarla aparılan işin təkmilləşdirilməsinə dair Tədbirlər Planı»nın icrası ilə əlaqədar Gürcüstanda yaşayan azərbaycanlıların təhsili ilə bağlı müxtəlif məlumatlar hazırlanmışdır.

Şöbənin əməkdaşları 2009-cu ilin iyun ayında respublikanın ümumtəhsil məktəblərində buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada keçirilməsində iştirak etmişlər.

«World Hope» ABŞ təşkilatının Respublikanın təhsil qurumları, o cümlədən ümumtəhsil məktəblərində keçirəcəyi tədbirlər, həmçinin Təhsil Nazirliyi ilə əməkdaşlığı sahəsində təşkilatın sənədləri təhlil edilmiş, təşkilatla əməkdaşlığa dair Nazirliyin rəhbərliyinə təqdimatlar və təşkilata müvafiq məktublar hazırlanmışdır.

ABŞ-ın Sülh Korpusunun Azərbaycandakı nümayəndəliyi ilə müntəzəm əlaqə saxlayaraq, təşkilatın könüllülərinin təlimdən əvvəlki treninqləri, könüllülərlə tərəfdaşlarının birgə seminarları, könüllülərin «And-içmə mərasimi»nin təşkili, könüllülərin işləyəcəyi rayon və məktəblərin müəyyənləşdirilməsi və s. barədə təqdimatlar, məktublar hazırlanmış, təşkilatın Bakı və Sumqayıt şəhərlərində keçirdiyi tədbirlərdə iştirak edilmiş, Nazirliyin rəhbərliyinə işin gedişi barədə müntəzəm məlumat verilmişdir.

«For You» (Koreya) təşkilatının Azərbaycan Respublikasındakı təhsil müəssisələri və Təhsil Nazirliyi ilə əməkdaşlığı barədə həm təşkilatın, həm də Nazirlər Kabinetinin məktublarına uyğun olaraq təşkilatın sənəd-

ləri təhlil edilmiş, əməkdaşlıq barədə Nazirliyin rəhbərliyinə təqdimat və təşkilata məktublar hazırlanmışdır.

Azərbaycan İngilis Dili Müəllimləri Assosiasiyası (AzETA) ilə müntəzəm əlaqə saxlanılmış, təşkilatın yerlərdə keçirdiyi tədbirlərin təşkili barədə Nazirlik rəhbərliyinə təqdimatlar, RTŞ-lara və Az.ETA təşkilatına məktublar hazırlanmış, təşkilatın keçirdiyi seminar, müşavirə və konfranslarda şöbənin əməkdaşı iştirak etmişdir.

YFU (Gənclərin Anlaşma Təşkilatı) nümayəndələri ilə Nazirlikdə görüşlər keçirilmişdir. Təşkilatın Nazirlik və yerli qurumlarla əməkdaşlıq üçün təqdim etdiyi sənədlərə hazırda baxılır.

ACCELS (Amerika Təhsil Şurası) təşkilatı ilə müntəzəm əlaqə saxlanılmışdır. Bakı, Naxçıvan, Şəki, Gəncə, Lənkəranda keçirdikləri müsabiqələrin təşkilində köməklik göstərilmiş, seçilmiş qalib şagirdlərin ABŞ-da təhsili və ABŞ-dan qayıtdıqdan sonra təhsillərinin davam etdirilməsi və ya təhsil sənədi almaları barədə yerlərə məktublar hazırlanmışdır.

UNESCO-nun ASP (Assosiativ Məktəblər Layihəsi) təşkilatından daxil olmuş sənədləri respublikada layihəyə üzv tədris müəssisələrinə çatdırılmışdır. Həmin müəssisələrdə layihə ilə bağlı keçirilən tədbirlərin təşkilinə köməklik göstərilmişdir (160, 220, 6 nömrəli məktəblərdə). Respublikada bu layihə üzrə aparılan işlər barədə təşkilata müntəzəm məlumatlar verilmişdir.

UNESCO-nun ASP layihəsi üzrə «İnsan hüquqları məktəblilərin gözü ilə» adlı film layihənin çəkilməsi üçün təşkilatla və XİN-lə daim əlaqə saxlanılmışdır və bu tədbirin həyata keçirilməsi üçün hazırlıq işləri davam edir.

İqtisadi Tədqiqatlar Mərkəzinin Quba şəhər 2 nömrəli orta məktəbdə 2010-cu ilin yanvarında Xaçmaz, Siyəzən, Qusar, Dəvəçi və Quba rayonlarında «İqtisadiyyatın əsasları» fənnini tədris edən müəllimlər üçün seminar keçirilməsi ilə əlaqədar təşkilati işlərdə onlara köməklik göstərilmişdir. RTŞ-larla əlaqə saxlayıb Nazirliyin rəhbərliyinə təqdimat hazırlanmışdır. Hazırlıq işləri davam etdirilir.

«Müasir Təhsil və Tədqiqatlar» Mərkəzinin müəllim hazırlığı ilə bağlı tədqiqatlar aparması üçün təşkilati işlərə köməklik göstərilmişdir.

Milli Məktəb–Valideyn Assosiasiyasının konfransının təşkili və keçirilməsində şöbənin əməkdaşları iştirak etmişdir.

2009-cu ildə şöbəyə daxil olmuş 3200 ərizə, 125 teleqram, o cümlədən yuxarı təşkilatlardan daxil olmuş 665 ərizə və 145 məktub araşdırılmış, müvafiq tədbir görülmüşdür.

Sentyabr konfranslarının yerlərdə keçirilmə vaxtı ilə bağlı məlumatlar toplanmış və şöbənin əməkdaşları həmin konfranslarda iştirak etmişlər.

Əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası vətəndaşlığını qəbul etməsi ilə bağlı 295 nəfərin Azərbaycan dilini bilmə səviyyəsi müəyyənləşdirilmiş və bu barədə Dövlət Miqrasiya Xidmətinə müvafiq məktublar göndərilmişdir.

Bax: www.edu.gov.az

Məktəbəqədər müəssisələr üzrə əsas göstəricilər

İllər	Cəmi məktəbəqədər müəssisələrin sayı	O cümlədən		Onlarda tərbiyə olunan uşaqların sayı	O cümlədən	
		Dövlət	Qeyri-dövlət		Dövlət	Qeyri-dövlət
2000/2001	1790	1790	–	111020	111020	–
2001/2002	1794	1794	–	111352	111325	–
2002/2003	1784	1781	3	111467	111367	100
2003/2004	1780	1777	3	110891	110774	117
2004/2005	1761	1758	3	110081	109925	156
2005/2006	1764	1761	3	110017	109867	150
2006/2007	1760	1757	3	109458	109269	1898
2007/2008	1658	1653	5	103902	103556	346
2008/2009	1619	1607	12	103910	103342	568

Bax: www.edu.gov.az

Məktəbəqədər təhsil sahəsi üzrə 2009-cu ildə görülmüş işlər

I. Sektorun kurasiyasında olan məktəbəqədər sahə üzrə statistik göstəricilər. Hazırda respublika üzrə 103.617 uşağı əhatə edən 1612 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. 98.663 uşağı əhatə edən 1550 məktəbəqədər müəssisə Təhsil Nazirliyi sistemindədir. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 4 məktəbəqədər xüsusi təhsil müəssisəsi, ümumi təyinatlı 9 müəssisədə 18 xüsusi təyinatlı qrup fəaliyyət göstərir. Bununla yanaşı, 5 sanator tipli məktəbəqədər təhsil müəssisəsi də mövcuddur. Təhsil Nazirliyinin sistemində olan məktəbəqədər təhsil müəssisələrindən 240 müəssisə özəlləşdirilməyə açıq elan edilmişdir. Onlardan 113-ü Bakı şəhərinin payına düşür. Son məlumata görə respublika üzrə 83, o cümlədən Bakı şəhərində 47 məktəbəqədər müəssisə artıq özəlləşdirilmişdir. Bundan başqa, Təhsil Nazirliyi tərəfindən lisenziya almış 12 özəl məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdə 659 uşaq təlim-tərbiyə alır.

Ölkə üzrə məktəbəqədər yaşlı uşaqların sayı 656047 nəfərdir. Məktəbəqədər təhsil müəssisələrinə uşaqların cəlbi 15,8% təşkil edir.

II. İl ərzində iş planına müvafiq olaraq görülən işlər, o cümlədən Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə və sektor tərəfindən reallaşdırılan digər proqramlarla əlaqədar həyata keçirilən tədbirlər, kollegiya və digər səviyyələrdə müzakirəyə çıxarılan məsələlər. Cari ildə «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər)»nın icrası ilə bağlı bir sıra işlər görülmüşdür:

- Məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının yaxşılaşdırılması məqsədi ilə 53 məktəbəqədər müəssisə müvafiq bərk avadanlıq, yumşaq inventar, təlim vəsaitləri, idman avadanlıqları və s. ilə təchiz olunmuşdur;
- Təhsil Nazirliyinin sifarişinə əsasən «Çaşıoğlu» nəşriyyatı tərəfindən 137 adda, o cümlədən 2009-cu ildə 37 adda müxtəlif təlim vəsaitləri, uşaqlarda diqqətin, təfəkkürün, nitqin, yaddaşın inkişafı üçün test kitabları, sadə riyazi təsəvvürlərin inkişafı üzrə çalışmalar, savad təlimi üzrə metodik işləmə, ekoloji tərbiyə üzrə təlim vəsaiti, uşaqların məntiqi təfəkkürünü inkişaf etdirmək üçün masaüstü oyunlar,

nümayişetdirici materiallar (plakatlar), uşaqlar üçün nəfis tərtibatlı nağıl kitabları və s. hazırlanmış, bütün məktəbəqədər təhsil müəssisələrinə çatdırılmışdır.

Özəlləşdirilən məktəbəqədər təhsil müəssisələrinin profil üzrə fəaliyyətinin davam etdirilməsinə nəzarətin həyata keçirilməsi məqsədi ilə Bakı şəhərində özəlləşdirilən 47 məktəbəqədər təhsil müəssisəsinin monitorinqi aparılmışdır.

Aparılan monitorinq zamanı məlum olmuşdur ki, yalnız 4 müəssisə Təhsil Nazirliyinin lisenziyasına əsasən profili üzrə fəaliyyət göstərir. 6 məktəbəqədər müəssisə lisenziyasız fəaliyyət göstərir, 11 müəssisənin binasından müxtəlif məqsədlər üçün (market, geyim mağazası, mobil telefon satışı mağazası, müxtəlif şirkətlər və s.) istifadə olunur, 9 müəssisədə qaçqın və məcburi köçkün ailələri yaşayır, 4 müəssisənin binası sökülüb, bunlardan 2-sinin ərazisində çoxmərtəbəli yaşayış binası inşa edilib, 13 müəssisə isə fəaliyyət göstərmir, bağlıdır.

Azərbaycan Respublikası Prezidentinin «Məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə əlaqədar əlavə tədbirlər barədə» 10 sentyabr 2009-cu il tarixli, 473 nömrəli Sərəncamına əsasən «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər)»nda nəzərdə tutulmuş tədbirlərin icrasını sürətləndirmək məqsədilə ölkədə məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulması işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ayrılmış 2,0 (iki) milyon manat məbləğində vəsait hesabına Bakı şəhərinin 8 məktəbəqədər təhsil müəssisəsində əsaslı təmir işləri aparılıb.

«Təhsil haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli, 156 nömrəli Fərmanının və buna müvafiq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 sentyabr 2009-cu il tarixli, 247S nömrəli Sərəncamının 2.1-ci; 2.4-cü bəndlərinin icrasını təmin etmək məqsədi ilə «Azərbaycan Respublikasında Məktəbəqədər təhsilin Dövlət standartı»nın və «Məktəbə hazırlığın təşkili qaydaları»nın layihələri hazırlanmış və Nazirlər Kabinetinə təqdim olunmuşdur. Bununla yanaşı, həmin Sərəncamın 2.10-cu bəndinin icrası ilə bağlı «Məktəbəqədər təhsil müəssisəsinin nümunəvi nizamnaməsi»nin hazırlanması istiqamətində iş gedir.

Azərbaycan Respublikasının iqtisadi və inzibati rayonları üzrə 5 yaşlı uşaqların sayı dəqiqləşdirilmiş və onlardan məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə alanlar haqqında məlumat bankı yardılmışdır.

Respublikanın hər bir rayonu üzrə yaşayış məntəqələrinin və onlarda fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin sayı müəyyənləşdirilmiş, məktəbəqədər təhsil müəssisəsi olmayan yaşayış məntəqələrində yeni məktəbəqədər müəssisələrin inşası nəzərdə tutulub.

İnkluziv təhsil tətbiq olunan pilot məktəbəqədər təhsil müəssisələrində aparılan işin vəziyyəti TPİ-nin əməkdaşları tərəfindən müntəzəm öyrənilmiş və müvafiq köməklik göstərilmişdir.

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihədə Məktəbə hazırlığın inkişaf etdirilməsi komponenti çərçivəsində «Beşyaşlıların qısamüddətli təlim qruplarında məktəbə hazırlanması üçün proqram» və «Valideynlərin maarifləndirilməsi proqramı»nın həyata keçirilməsi ilə bağlı 6 pilot rayonda müvafiq treninqlər keçirilmişdir.

Treninqlərin səmərəli keçirilməsinə köməklik göstərilməsi məqsədilə «Nina» firması ilə bağlanmış 04.12.2009-cu il tarixli müqaviləyə əsasən dəftərxana ləvazimatları pilot rayonlara çatdırılmışdır.

Hazırda «Beşyaşlıların qısamüddətli təlim qruplarında məktəbə hazırlanması üçün proqram» pilot müəssisələrdə sınaqdan keçirilmə mərhələsindədir.

12–13 oktyabr 2009-cu il tarixlərində Moldova Respublikasının Kişinyov şəhərində «Erkən yaşlı uşaqların təhsili, təhsil xidmətlərinin maliyyələşdirilməsinin strateji istiqamətləri, prosesin gedişi, inkişafı, nailiyyətlər və çağırışlar» mövzusunda Beynəlxalq konfrans, konfransın davamı olaraq 14–17 oktyabr 2009-cu il tarixlərində Rumıniyanın Buxarest şəhərində Rumıniya Təhsil və Peşəkar İnkişaf Mərkəzinin dəstəyi ilə «Erkən yaşda uşaqlara sərmayə qoyuluşu: milli resurslardan daha səmərəli istifadə» mövzusunda dəyirmi masa keçirilmişdir. Həmin tədbirlərdə Məktəbəqədər təhsil sektorunun müdiri Nərminə Alnağıyeva iştirak etmişdir.

Təhsil Nazirliyi və YUNİSEF arasında 2009-cu ilə dair imzalanmış illik fəaliyyət planına uyğun olaraq Məktəbəqədər təhsil sektoruna beynəlxalq məsləhətçi tərəfindən xidməti dəstəyin göstərilməsi üçün «Education for Change»-cın aparıcı mütəxəssisi Con Vud təyin olunmuşdur.

Cənab Con Vudun noyabr ayının 13-dən 27-dək Bakıya səfəri zamanı onun təhsil naziri cənab Misir Mərdanovla görüşü təşkil edilmiş, bununla yanaşı, bu müddət ərzində Con Vud Təhsil Problemləri İnstitutunda, Bakı şəhərinin 2 və Şamaxı rayonunun 2 məktəbəqədər təhsil müəssisəsində olmuş, ölkədə məktəbəqədər təhsil sahəsində aparılan işlər, problemlərlə yaxından tanış olmuşdur.

Səfərin sonunda Con Vudun 26 noyabr 2009-cu il tarixdə cənab nazirin iştirakı ilə təqdimetmə mərasimi keçirilmişdir.

2009-cu ilin «Uşaq ili» elan olunması ilə bağlı il çərçivəsinə və 1 İyun – Uşaqların Beynəlxalq Müdafiə gününə həsr olunmuş məktəbəqədər təhsil müəssisələrində silsilə tədbirlər keçirilmişdir.

İl ərzində 16 özəl məktəbəqədər təhsil müəssisəsinin fəaliyyətinə lisenziya verilməsi məsələsinə baxılmış, onlardan yalnız sanitar norma və qaydalara cavab verən 6 özəl müəssisənin (Zərifə Əliyeva adına uşaq bağçası, Binə uşaq bağçası, «Günəş», «Çeburaşka», «Pleyorena» və «Leylək» uşaq bağçaları) fəaliyyətinə lisenziya (xüsusi razılıq) verilmişdir.

2009-cu ilin fevral və aprel aylarında keçirilən mərkəzləşdirilmiş sınaq imtahanlarında, iyun ayında isə orta təhsil üzrə mərkəzləşdirilmiş buraxılış imtahanlarında sektorun əməkdaşları imtahan rəhbəri kimi iştirak etmişdir. İmtahanların təşkili və keçirilməsi barədə hesabatlar hazırlanmış və Nazirliyin rəhbərliyinə təqdim edilmişdir.

Cari ildə müxtəlif məsələlərlə bağlı vətəndaşların 153 ərizə və şikayətlərinə, ayrı-ayrı təşkilatlardan sektora daxil olmuş 77 məktuba baxılmış, müvafiq cavablar verilmişdir.

Nazirliyin «Qaynar xətt» xidmətinə məktəbəqədər sahə ilə bağlı daxil olmuş şikayət və müraciətlər vaxtında araşdırılmış, müvafiq tədbirlər görülmüşdür.

III. Mövcud problemlər və onların aradan qaldırılması üzrə təkliflər.

– Məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının zəif olması;
– əksər müəssisələrin əsaslı təmirə ehtiyacı olması;
– ölkə üzrə yaşayış məntəqələrinin 30 faizində məktəbəqədər təhsil müəssisələrinin olmaması;
– məktəbəqədər müəssisələrin 32 faizində məcburi köçkünlərin yerləşdirilməsi;

– pedaqoji kadrların hazırlıq səviyyəsinin aşağı olması;
– ölkə üzrə məktəbəqədər müəssisələrə uşaqların cəlbi faizinin aşağı olması;
– təlimdə texniki vasitələrin çatışmaması;
– son vaxtlar müxtəlif şəxslər tərəfindən açılan və ya özəlləşdirilən məktəbəqədər təhsil müəssisələrinin lisenziyasız fəaliyyət göstərməsi.

Qeyd olunan problemlərin aradan qaldırılması üçün «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər)»nın icrasının təmin olunmasına nail olmaq.

Lisenziyasız fəaliyyət göstərən özəl məktəbəqədər təhsil müəssisələrinin qanunsuz fəaliyyətinin qarşısının alınması məqsədi ilə aidiyyəti orqanlar qarşısında məsələ qaldırmaq.

IV. Perspektiv fəaliyyət istiqamətləri:
– qısa müddətli qruplar və çevik vaxt cədvəli üzrə fəaliyyət göstərən yeni təşkilati formaların yaradılması;
– təlim-tərbiyənin uşaqların maraq, meyil və qabiliyyətləri əsasında qurulmasına şərait yaradan müxtəlif təmayüllü yeni tipli müəssisələrin yaradılması;
– kadrların peşəkarlıq səviyyələrini artırmaq istiqamətində işin gücləndirilməsi;
– məktəbəqədər təhsil üzrə monitorinq və qiymətləndirmə sisteminin yaradılması;
– məktəbəqədər təhsil müəssisələrinin İKT avadanlığı ilə təmin edilməsi;
– məktəbəqədər təhsil müəssisələrinin pedaqoji heyətinin İKT üzrə savadlılığının artırılması;
– məktəbəqədər təhsil müəssisələrində uşaqların məktəb təliminə hazırlığı vəziyyətinin öyrənilməsi;
– beynəlxalq təcrübənin öyrənilməsi və tətbiq edilməsi.*

Bax: www.edu.gov.az

Monitorinq və qiymətləndirmə sahəsi üzrə 2009-cu ildə görülmüş işlər

Monitorinq və qiymətləndirmə şöbəsi Təhsil Nazirliyinin mərkəzi aparatının struktur bölməsi olaraq, öz fəaliyyətini digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə qurub və fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyası və Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Təhsil haqqında Azərbaycan Respublikasının Qanununu, digər normativ-hüquqi aktları, Təhsil nazirinin əmr və sərəncamlarını və şöbənin Əsasnaməsini əldə rəhbər tutur.

Respublikanın ümumtəhsil məktəblərində yeni qiymətləndirmə siyasətinin həyata keçirilməsi, yeni məktəbdaxili və milli qiymətləndirmə sistemlərinin hazırlanması, ölkənin beynəlxalq qiymətləndirmə proqramlarında iştirakının təmin edilməsi məqsədilə yaradılmış bu şöbə son illər fəaliyyətini daha da genişləndirmişdir. Belə ki, şöbə ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin məktəbdaxili, milli və beynəlxalq qiymətləndirilməsi məsələləri ilə yanaşı, orta təhsil pilləsində keyfiyyətin idarəedilməsinin monitorinqi sistemlərini əhatə edən işlərin aparılmasını da öz fəaliyyət planına daxil etmişdir. Yaxın gələcəkdə bu prosesin təhsilin digər pillələrini də əhatə etməsi nəzərdə tutulub.

Bu istiqamətdə 2008/09-cu tədris ilinin ikinci yarısında Monitorinq və qiymətləndirmə şöbəsində aşağıdakı tədbirlər və alt-tədbirlər həyata keçirilmişdir:

2009-cu ilin 21 fevral–26 aprel tarixlərində Respublikanın (Naxçıvan MR istisna olmaqla) bütün şəhər və rayonlarında 4 bölgə üzrə, bu bölgələrdə məskunlaşmış məcburi köçkün rayonlarını, Təhsil Nazirliyinin birbaşa tabeliyində, ali məktəblərin və peşə liseylərinin nəzdində olan orta məktəbləri əhatə edən mərkəzləşdirilmiş qaydada yoxlama imtahanı keçirilmişdir. İmtahanların keçirilməsi üçün aşağıdakı işlər yerinə yetirilib:

1. Təlimati sirkulyar məktublar və müvafiq əmrlər hazırlanmışdır;
2. Yerlərdə təlimati seminar-treninqlər aparılmışdır;
3. İmtahan nəticələrinin effektli qiymətləndirilməsi məqsədi ilə proqram təminatı təkmilləşdirilmişdir;
4. Şagird siyahıları və kodlaşma məsələləri dəqiqləşdirilmişdir;

5. Fənn işçi qrupları tərəfindən test bankı hazırlanmışdır;
6. Test kitabçalarının və digər imtahan materiallarının hazırlanması prosesində məxfilik təmin olunmuşdur;
7. İmtahan nəticələri ilə bağlı statistik məlumatlar hazırlanmışdır;
8. Keçirilmiş yoxlama test imtahanlarının nəticələrinin təhlili ilə əlaqədar hesabatlar hazırlanmışdır.

Peşə liseylərində və ümumtəhsil məktəblərində keçirilmiş yoxlama imtahanlarının nəticələri bir neçə istiqamətdə təhlil edilmiş və müvafiq nəticələr çıxarıldıqdan sonra 24.04.2009-cu il tarixdə peşə liseylərində, 3–16.06.2009-cu il tarixlərində isə ümumtəhsil məktəblərində mərkəzləşdirilmiş qaydada buraxılış imtahanı aparılmışdır. 102656 nəfər şagirdin cəlb olunduğu bu imtahanların keçirilməsi üçün 324 mərkəz müəyyən edilmişdir.

Bu imtahanlarda 2008–2009-cu dərs ilinin XI sinif şagirdləri ilə yanaşı, ötən tədris ilində müəyyən fənlərdən qeyri-kafi qiymət aldığı üçün attestat almayan 1888 nəfər şagird, həmçinin müxtəlif fənlərdən qeyri-kafi qiymət aldığı üçün buraxılış imtahanlarına buraxılmamış şagirdlərdən 747 nəfəri də mərkəzləşdirilmiş imtahanlara cəlb edilmişdir. Həmin şagirdlər 2008-2009-cu dərs ilinin məzunları ilə bir yerdə deyil, şəhər və rayonlarda yaradılmış əlavə mərkəzlərdə imtahan vermişlər.

Eyni zamanda 23.06.2009-cu il tarixində müəyyən səbəblər üzündən təhsillərini başa vurmayan Respublika vətəndaşlarının əsas və orta təhsil kursu üzrə eksternat qaydasında buraxılış imtahanları keçirilmişdir. Eksternat imtahanlarına imtahan ərəfəsində səhhəti ilə bağlı imtahanda iştirak etməyən və ya imtahanda xəstələnən şagirdlər də cəlb olunmuşlar.

Buraxılış imtahanlarının nəticələrinin qiymətləndirilməsi üçün şöbədə dörd istiqamətdə proqram təminatı hazırlanmışdı. Bu proqramlardan istifadə edilməklə 2008/09-cu tədris ilində XI sinfi bitirən şagirdlərin, orta təhsil kursu üzrə təkrar imtahanda iştirak edən şagirdlərin, peşə liseylərinin buraxılış sinif şagirdlərinin və «İlin məktəbi» müsabiqəsində iştirak etmiş məktəblərin IX sinif şagirdlərinin cavab kartları oxunmuş və qiymətləndirilmişdir. Eyni zamanda eksternat qaydasında imtahan verən şagirdlərin də cavabları optik qurğu tətbiq edilməklə yoxlanılmışdır.

İmtahanlarda Respublikanın 3062 ümumtəhsil məktəbində təhsil alan 99646 nəfər, peşə liseylərinin 4053 nəfər şagirdi iştirak etmişdir.

Dərs ili ərzində şöbənin fəaliyyət planına uyğun olaraq, aşağıdakı işlər görülüb:

- Ümumtəhsil məktəblərindən və peşə liseylərindən şagirdlərin siyahıları alınmış və bazaya daxil olunaraq hər bir şagirdə 10 rəqəmli fərdi kod verilmişdir;
- Şagirdlərin imtahan verəcəyi mərkəzlər, otaqlar, oturacağı yerlər müəyyən edilmiş və hazırlanmış siyahılar şagirdləri məlumatlandırmaq üçün təhsil müəssisələrinə göndərilmişdir;
- Məlumatlar təkrar yoxlanıldıqdan sonra hər bir şagird üçün sual kitabçası variantı müəyyən edilmiş və siyahılar yekunlaşdırılmışdır;
- İmtahanlar keçirildikdən sonra şagirdlərin şöbəyə daxil olan cavab kartları OMR–300 optik qurğusu ilə oxunmuş və nəticələr qiymətləndirilmişdir.
- İmtahanların nəticələrinə əsasən ümumilikdə həm Respublika, həm şəhər və rayonlar, həm də hər bir rayon və şəhərin məktəblər üzrə reytinq cədvəlləri və hər bir şagird üçün fərdi məlumat forması hazırlanmışdır;
- Yoxlama və buraxılış imtahanlarında istifadə olunan test kitabçalarındakı hər bir sualın müvəffəqiyyət faizi müəyyən olunmuşdur.

Bunlarla yanaşı, aşağıdakı işlər də həyata keçirilmişdir:

- əsas təhsil pilləsi üzrə buraxılış imtahanlarının keçirilməsi üçün ana dili və riyaziyyat fənlərini əhatə etməklə 6 variantda Azərbaycan və rus dillərində imtahan materialları hazırlanmışdır;
- «İlin ən yaxşı məktəbi» müsabiqəsinə təqdim edilmiş məktəblərin IX siniflərində ana dili və riyaziyyat fənlərindən şagirdlərin təlim nəticələrini qiymətləndirmək üçün qiymətləndirmə vasitələri hazırlanmış, cavab kartları optik oxuyucu qurğu tətbiq edilməklə yoxlanmış və nəticələri Nazirliyin Təşkilat komitəsinə təqdim olunmuşdur.

Nəzərinizə çatdırırıq ki, Monitorinq və qiymətləndirmə şöbəsinin mərkəzləşdirilmiş qaydada yoxlama və buraxılış imtahanlarının nəticələri Nazirliyin 24.09.2009-cu il tarixində keçirilmiş kollegiya iclasında müzakirə olunmuşdur.

Bunlarla yanaşı, ölkəmizin ümumi təhsil sistemində qiymətləndirmə siyasətinin həyata keçirilməsini tənzimləyən normativ-hüquqi sənədlər hazırlanmışdır:

«Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası» (Respublika Nazirlər Kabinetinin 13.01.2009-cu il tarixli, 9 nömrəli qərarı ilə təsdiq edilmişdir);

«Ümumtəhsil məktəblərində, peşə liseylərində buraxılış imtahanları və şagirdlərin sinifdən-sinfə keçirilməsi haqqında Qaydalar» hazırlanmış və Respublikanın Ədliyyə Nazirliyi tərəfindən 17.02.2009-cu il tarixli, 3434 nömrəli Dövlət qeydiyyatına alınmışdır;

«Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmə Qaydaları» hazırlanmış, Təhsil nazirinin əmri ilə təsdiq edilmiş və Dövlət qeydiyyatına alınmaq üçün Respublikanın Ədliyyə Nazirliyinə təqdim olunmuşdur.

Ölkəmizin ümumtəhsil məktəblərinin I və II siniflərində kurikulumların tətbiqi ilə bağlı şagird nailiyyətlərinin fənlər üzrə məktəbdaxili qiymətləndirilməsinə dair metodik tövsiyələr hazırlanmış və bu istiqamətdə fəaliyyət davam etdirilir.

2009/10-cu tədris ilində imtahan prosesində qarşıya çıxa biləcək çətinliklərin aradan qaldırılması və nizam-intizamın gücləndirilməsi məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

– əsas təhsil pilləsi üzrə 12 variantda yoxlama imtahan test kitabçalarının hazırlanması;
– əsas təhsil pilləsi üzrə cavab kartı nümunəsinin hazırlanması;
– orta təhsil pilləsi üzrə 18 variantda (sinif otağındakı şagirdlərin sayına uyğun) yoxlama imtahan test kitabçalarının hazırlanması;
– işçi-ekspert qrupunun tərkibinin və fəaliyyətinin genişləndirilməsi;
– nəzarətçi müəllimlər bazasının təkmilləşdirilməsi;
– əsas təhsil pilləsi üzrə test bankını və test kitabçasını yığan proqram təminatının yaradılması;
– orta təhsil pilləsi üzrə test bankının təkmilləşdirilməsi və test kitabçasını yığan proqram təminatının yaradılması;
– əsas və orta təhsil pillələri üzrə imtahan aparılacaq fənlərə dair sualların test bankının kitabça şəklində hazırlanaraq yerlərə çatdırılması.

Yuxarıda göstərilənlərin 2, 4–7-ci bəndləri icra olunmuş, digər tədbirlərin yerinə yetirilməsi istiqamətində isə işlər davam etməkdədir.

Eyni zamanda yeni məktəbdaxili qiymətləndirmə sisteminə keçidlə əlaqədar olaraq məktəblərin I və IV siniflərində işləyən müəllimlər üçün

treninqlərin keçirilməsinə dair mühazirə və seminarlar üçün materiallar hazırlanmaqdadır.

Şöbədə milli qiymətləndirmə sahəsində aşağıdakı işlər görülmüşdür:

Cari tədris ilinin aprel-may aylarında Respublikanın 52 bölgəsində milli qiymətləndirmənin sınaq mərhələsi həyata keçirilmişdir. Bu məqsədlə ilkin olaraq coğrafi əlamətlərinə – yerləşmə vəziyyətinə görə 216 məktəb seçilmiş, IV və IX sinif şagirdlərinin sayı (IV siniflər üzrə – 6041 nəfər şagird, IX siniflər üzrə – 5781 nəfər şagird) və siyahısı dəqiqləşdirilmiş, ana dili və riyaziyyat fənlərindən təlim nəticələri müəyyən edilmiş, onları ölçə biləcək müvafiq test variantları, eyni zamanda şagirdlər və onların valideynləri, fənn müəllimləri, məktəb rəhbərləri üçün sorğu vərəqləri hazırlanmışdır. Testlərin prezentativliyini müəyyən etmək məqsədi ilə ilkin olaraq pre-test keçirilmişdir. Milli qiymətləndirmənin nəticələri barədə məlumatlar bazası yaradılmış, təhlil edilmiş və yekun hesabat hazırlanmışdır. Nəticələrin maraqlı tərəflərə çatdırılması üçün son prosedurlar həyata keçirilir.

Şöbədə beynəlxalq qiymətləndirmə sahəsində aşağıdakı işlər aparılmışdır:

Cari tədris ilinin aprel-iyun aylarında PİSA–2009 proqramının əsas mərhələsi həyata keçirilmiş, onun nəticələri milli kodlaşdırıcılar tərəfindən emal edilmiş, məlumat bazası hazırlanmış və qiymətləndirilmək üçün PİSA konsorsiumuna göndərilmişdir.

Proqramın əsas mərhələsi ölkənin 162 əsas və orta ümumtəhsil məktəbinin, peşə liseylərinin 4716 nəfər 15 yaşlı şagirdini əhatə etmişdir. Tədqiqatın tələblərinə uyğun olaraq, Key-Quest kompyuter proqramı vasitəsi ilə PİSA Konsorsiumu tərəfindən müəyyən edilmiş məktəblərin hər birinin 15 yaşlı şagirdlərinin siyahısından 35 nəfər şagird təsadüfi üsulla seçilmişdir. Bu məktəblərin şagirdləri oxu, riyaziyyat və təbiət fənləri üzrə test tapşırıqlarına, direktorları isə sorğulara cavab vermişdir.

Azərbaycan PİSA mərkəzi Təhsil Nazirliyinin Monitorinq və qiymətləndirmə şöbəsi ilə PİSA–2009 Konsorsiumun üzvü olan VESTAT şirkəti arasında aparılan müzakirələrdən sonra məktəblər 13 qrupa (strataya) bölünmüşdür. Qruplar 4 coğrafi əlamətə: I-paytaxtın mərkəz məktəbləri, II-paytaxtın ətraf məktəbləri, III-Respublikanın digər şəhərlərinin məktəbləri, IV-kənd məktəbləri, həmçinin məktəbin tipinə və statusuna görə müəyyən olunmuşdur.

Hazırda nəticələrin təhlili istiqamətində işlər həyata keçirilir.

2009-cu ilin fevralından Azərbaycan Respublikası PİRLS və TİMSS beynəlxalq tədqiqatlarına qoşulmuşdur. Hesabat ilində sınaq mərhələsinə hazırlıq işləri həyata keçirilmişdir. O cümlədən məktəblərin seçimi, sınaq mərhələsinin keçirilməsi üçün PİRLS üzrə test və sorğu kitabçaları tərcümə olunmuş və təsdiq olunmaq üçün beynəlxalq təşkilata göndərilmişdir. Tədqiqat nəticəsində məlumatın toplanması və təhlil olunması üçün xüsusi kompyuter proqramının öyrənilməsi və quraşdırılması prosesi davam edir.

Eyni zamanda şagird nailiyyətlərinin məktəbdaxili, milli və beynəlxalq qiymətləndirilməsini səmərəli şəkildə həyata keçirmək üçün fənn işçi qruplarının (FİQ) fəaliyyəti təmin edilmiş və genişləndirilmişdir. Hazırda bu istiqamətdə işlər, o cümlədən FİQ-lər vasitəsilə qiymətləndirmə standartlarının, vasitələrin (alətlərin) hazırlanması və təhsilin məzmun standartlarına müvafiq nümunəvi testlərin hazırlanması texnologiyası üzrə təlimlər davam etdirilir.

Monitorinq və qiymətləndirmə şöbəsi öz fəaliyyətini Nazirliyin digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə qurmuşdur ki, bu da işin səmərəliliyini artırmaq məqsədi güdür. Belə ki, mərkəzləşdirilmiş qaydada buraxılış imtahanlarının keçirilməsinin təhsilin keyfiyyətinə müsbət təsirini nəzərə alaraq, orta təhsil pilləsi ilə yanaşı əsas təhsil pilləsində də buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada aparılmasını İqtisadiyyat şöbəsi gələn il üçün öz büdcəsində nəzərdə tutmuşdur. Dərslik və nəşriyyat, Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması, həmçinin Şəhərlər üzrə ümumi təhsil və Kənd rayonları üzrə ümumi təhsil şöbələri ilə qurulmuş birgə fəaliyyət nəticəsində hazırlanan ümumi tövsiyələr, tədris planının təkmilləşdirilməsi və digər məsələlərlə bağlı məqsədyönlü işlər aparılır. O cümlədən təhsil nazirinin əmri ilə yaradılmış fənn işçi qrupları tərəfindən «Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmə Qaydaları» hazırlanmış və ibtidai sinif müəllimlərinin istifadəsinə verilmişdir. Hazırda digər fənn işçi qrupu tərəfindən «Müəllim fəaliyyətinin qiymətləndirilməsi Qaydaları»nın hazırlanması istiqamətində işlər davam etdirilir.

Hesabat ilində «Kurikulum» jurnalında və «Azərbaycan müəllimi» qəzetində məktəbdaxili və beynəlxalq qiymətləndirmənin bu və digər problemləri ilə bağlı məqalələr dərc olunmuş, KİV-də və Təhsil Nazir-

liyinin saytında həyata keçirilmiş tədbirlər və onların nəticələri ilə bağlı məlumatlar verilmişdir.

Buraxılış imtahanlarının, milli və beynəlxalq qiymətləndirmələrin nəticələrinin təhlili göstərdi ki, Dərslik və nəşriyyat şöbəsi dərsliklərdə nəzəri biliklərin tətbiqinə yönəlmiş məsələlərə geniş yer verməklə yanaşı, dərslik müəlliflərinin, təhsil ictimaiyyətinin beynəlxalq qiymətləndirmə proqramında riyaziyyat və təbiət elmlərinə aid təklif olunan suallarla tanış olmasını və iş təcrübələrində istifadəsini təmin etməlidir.

Mərkəzləşdirilmiş qaydada orta təhsil pilləsi üzrə keçirilmiş yoxlama və buraxılış imtahanlarında, imtahan prosesində nümunəvi fəaliyyəti ilə fərqlənən nəzarətçilər müəyyən olunmuş və onlara, ümumilikdə təhsil sisteminin inkişafına xidmət edənlərə birgə işimizdə öz əməklərini əsirgəmədiklərinə görə təşəkkür elan olunmuşdur. Məsuliyyətsizliyi ilə fərqlənən nəzarətçilər inzibati qaydada tənbeh olunmuş və adları nəzarətçilərin ümumi siyahısından çıxarılmışdır.

Buraxılış imtahanlarının nəticələri kəmiyyət və keyfiyyət baxımından ətraflı təhlil olunmuş, reytinq cədvəlində aşağı yerləri tutmuş şagirdlərin müvəffəqiyyət göstəricilərinin zəif olmasının səbəbi kimi yerli təhsil orqanlarının, məktəb rəhbərləri və fənn müəllimlərinin zəif təşkilatçılığı və pedaqoji fəaliyyətinin nəticəsi göstərilmişdir. Bu məqsədlə yerlərə məktublar göndərilmiş, cari dərs ilində zəruri təşkilati-pedaqoji işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bununla bağlı 2010-cu ilin əvvəllərində ictimaiyyətə təqdimatın keçirilməsi planlaşdırılmışdır. Eyni zamanda şöbə fəaliyyət göstərdiyi beş ildə həyata keçirdiyi işlər və qarşıda duran vəzifələrlə bağlı hesabat hazırlamış və ilin sonunadək təqdimatla çıxış edəcəkdir.

Məktəblərdə şagirdlərin təlim nailiyyətlərinin obyektiv qiymətləndirilməsinin ciddi nəzarətə götürülməsi və fənn müəllimlərinin, xüsusilə də yuxarı siniflərdə dərs aparan müəllimlərin fəaliyyətinin təhlil edilməsi, vəzifəsinin öhdəsindən gələ bilməyən, elmi-nəzəri səviyyə və peşəkarlıq cəhətdən müasir tələbləri ödəməyən, habelə şagirdləri düzgün qiymətləndirməyən müəllimlər barəsində təsirli tədbirlər görülməsi ilə bağlı rayon (şəhər) Təhsil Şöbələrinə zəruri tövsiyələr verilmişdir. Bunlar Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinin fəaliyyət planında öz əksini tapmışdır.

Əldə edilən təcrübə əsasında yoxlama və buraxılış imtahanlarının daha səmərəli keçirilməsi məqsədilə planauyğun işlər görülür, yeni yanaşmalar və istənilən nəticənin əldə olunması üçün tədbirlər həyata keçirilir.

Perspektiv fəaliyyət istiqamətində cari dərs ilində müəyyən işlər davam edir:

– cavab kartının tərtib edilməsində mərkəzləşdirilmiş qaydada aparılacaq imtahanların sosial statusunun gücləndirilməsi;
– yerlərdə təlimat xarakterli (müvafiq tövsiyələr hazırlanmışdır) tədbirlərin həyata keçirilməsi;
– yoxlama test imtahanlarının, eləcə də buraxılış imtahanlarının daha səmərəli keçirilməsi istiqamətində işlərin aparılması;
– aparılmış imtahan nəticəsində təhsilin keyfiyyətinin dəyərləndirilməsi və bu sahədə strateji istiqamətlərin müəyyən edilməsi;
– təhsil sahəsində nəzərə çarpan ənənələrin və tədrisin keyfiyyətinə təsir edən əsas faktorların müəyyənləşdirilməsi;
– inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınaraq təhsilin keyfiyyətinin idarəolunmasında effektiv metodların tətbiqi;
– qiymətləndirmə standartlarının tətbiqi üsullarının hazırlanması;
– qiymətləndirmə standartları ilə təhsilin keyfiyyətinin əlaqəli təhlili.

Monitorinq və qiymətləndirmə şöbəsinin fəaliyyət planının əsasını təşkil edən yeni qiymətləndirmə sisteminin üstün cəhətləri kimi qeyd etmək lazımdır ki, bu sistem hər bir şagirdin inkişafı, hərtərəfli təhsil alması üçün həlledici komponent kimi çıxış edəcək və eyni zamanda uğur qazana bilməyən şagirdləri də diqqətdən kənarda qoymamaq şərtilə, müxtəlif yanaşmalarla onların ehtiyacları öyrəniləcək və düzgün istiqamətləndirilmələri təmin ediləcəkdir.*

---

*Bax: www.edu.gov.az

Orta ixtisas məktəbləri üzrə əsas göstəricilər*

İllər	Cəmi orta ixtisas məktəblərin sayı	O cümldən		Cəmi tələbələrin sayı	O cümlədən	
		Dövlət	Özəl		Dövlət	Özəl
2000/2001	71	68	3	42612	41173	1439
2001/2002	69	66	3	49203	47726	1477
2002/2003	58	55	3	51410	50266	1144
2003/2004	60	55	5	53694	52256	1438
2004/2005	59	55	4	55794	54173	1621
2005/2006	60	56	4	57896	55028	2868
2006/2007	60	56	4	56872	53745	3127
2007/2008	60	56	4	53489	51482	2007
2008/2009	60	57**	3	52579	51596**	983

* *Bax:* www.edu.gov.az

** xüsusi təyinatlı orta ixtisas məktəblərinin və tələbələrin sayı 2008/09-cu tədris ilindən daxil edilib

Peşə məktəbləri və liseyləri üzrə əsas göstəricilər

İllər	Cəmi peşə məktəblərin və liseylərin sayı	Cəmi şagirdlərin sayı
2000/2001	110	22944
2001/2002	109	21619
2002/2003	109	20753
2003/2004	110	21677
2004/2005	110	21563
2005/2006	107	22189
2006/2007	107	23813
2007/2008	107	24455
2008/2009	108	25184

Şəhərlər üzrə ümumi təhsil

2009-cu il ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatların onuncu ilidir. On il müddətində təhsilin bütün sahələrində yeniləşmə, inkişaf daha intensiv surətdə həyata keçirilmişdir. Bu proseslərdə ŞÜT şöbəsi də yaxından iştirak etmişdir.

İl ərzində şöbənin fəaliyyəti əsasən kurasiyasında olan Naxçıvan MR, respublika tabeliyindəki şəhərlərin təhsili idarəetmə orqanlarına və bilavasitə Təhsil Nazirliyinin tabeliyindəki ümumtəhsil müəssisələrinə təşkilati-pedaqoji cəhətdən rəhbərlik və nəzarəti həyata keçirməkdən ibarət olmuşdur. Kurasiya üzrə 1 Təhsil Nazirliyi, 2 təhsil idarəsi, 4 ŞTŞ-si, 717 ümumtəhsil məktəbi, 4 uşaq evi fəaliyyət göstərmişdir. Qeyd edilən orqan və müəssisələrin fəaliyyətini istiqamətləndirmək məqsədilə direktiv və hüquqi-normativ sənədlərin tələblərinə, Nazirliyin rəhbərliyinin əmr, sərəncam, qərar və göstərişlərinə uyğun olaraq şöbə cari ildə müəyyən işlər görmüşdür.

Yeni təqvim ilinin başlanğıcında – 10.01.2009-cu il tarixdə Nazirlikdə geniş kollegiya iclası keçirilmiş, «2008-ci ilin yekunları və qarşıda duran vəzifələr haqqında» cənab nazir M.Mərdanov ətraflı məruzə etdilər. Məruzədə il ərzində əldə edilən nailiyyətlər, buraxılan nöqsanlar hərtərəfli təhlil edilmiş, problemlərin həlli yolları göstərilmiş, yeni ildə təhsil müəssisələri, təhsili idarəetmə orqanları, ümumən ölkənin təhsil sistemi qarşısında duran vəzifələr müəyyənləşdirilmişdir. İl ərzində şöbə öz səlahiyyətləri çərçivəsində Nazirliyin rəhbərliyi tərəfindən qarşıya qoyulan vəzifələri həyata keçirməyə çalışmışdır.

Dövlət qulluğuna dair qanunun tələblərinə uyğun olaraq şöbənin işçilərinin 2008-ci ildəki fəaliyyətini əks etdirən müvafiq materiallar hazırlanmış və 02.02.2009-cu il tarixdə cənab nazir tərəfindən onların fəaliyyətinin qiymətləndirilməsi keçirilmişdir. Bu prosesdə şöbənin 2009-cu il üçün iş planı və əməkdaşlar arasında vəzifə bölgüsü də nazir tərəfindən təsdiq edilmişdir. 2008-ci ilin sonlarında məktəbəqədər sektorun yaradılması ilə əlaqədar şöbənin yeni əsasnaməsi hazırlanmış və rəhbərliyin təsdiqinə təqdim edilmişdir.

Şöbənin əməkdaşları məktəblilərin fənn olimpiadalarının rayon (şəhər) mərhələsinin ikinci turunun təşkili və keçirilməsi ilə bağlı lazım

olan materialları vaxtında ŞTŞ-nə çatdırmış və əməli köməklik göstərmişlər.

İstedadlı şagirdlərin üzə çıxarılması, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi, gələcəkdə müəyyən ixtisaslar seçmələrinə zəmin yaradılması, habelə Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2007-ci il tarixli, 1414 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcı potensialının inkişafı üzrə Dövlət Proqramı (2006–2010-cu illər)»nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar müvafiq işlər görülmüşdür.

İstedadlı şagirdlərin aşkara çıxarılmasında əhəmiyyətli rol oynayan fənn olimpiadalarının təşkili, keçirilməsi, yekunlaşdırılması və qaliblərin müəyyənləşdirilməsi ilə bağlı işləri yüksək səviyyədə yerinə yetirmək məqsədilə Təhsil Nazirliyinin 07.11.2002-ci il tarixli, 1041 nömrəli əmri ilə təsdiq olunmuş «Məktəblilərin fənn olimpiadaları haqqında Qaydalar»ın tələblərinə müvafiq öz işlərini qurmaq üçün Bakı Şəhəri üzrə Təhsil İdarəsinə, ŞTŞ-lərinə müvafiq köməklik göstərilmişdir. Üç turda keçirilən məktəblilərin fənn olimpiadalarının obyektivliyini və mütəşəkkilliyini təmin etmək üçün təşkilati işlər görülmüş, münsiflər heyətinin tərkibi müəyyənləşdirilmiş, Nazirliyin 11.01.2008-ci il tarixli, 26 nömrəli əmri ilə təsdiq edilmişdir. Respublika turu keçiriləcək 7 fənn (Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan tarixi, riyaziyyat, fizika, kimya, biologiya və informatika) üzrə münsiflər heyəti tərəfindən rayon mərhələsinin II turu üçün tərtib edilmiş mətnlər məxfiliyi gözlənilməklə vaxtında TŞ-lərə çatdırılmışdır. II turun nəticələri ilə bağlı yerlərdən təqdim edilmiş olimpiada işlərinə görə fənn olimpiadalarının Respublika turunun iştirakçıları müəyyənləşdirilmişdir. Görülmüş işlərin nəticəsidir ki, rayon mərhələsinin I turunda respublika üzrə IX–XI siniflərdən 48651 nəfər, II turda 8976 nəfər iştirak etmişdir. Respublika turunda iştirak edən 1105 nəfərin olimpiada işləri yoxlanmış və qaliblər müəyyənləşdirilmişdir. Olimpiada iştirakçılarından 393-ü (35,6%) I–IV yerlərə, o cümlədən I yerə 31 (2,8%), II yerə 44 (4,0%), III yerə 72 (6,5%) , IV yerə 246 (22,3%) nəfər şagird layiq görülmüşdür. I–III yer tutanlara diplomların, IV yer tutanlara tərifnamələrin, I dərəcəli diploma layiq görülən şagirdlərin müəllimlərinə isə pul mükafatlarının verilməsi işi başa çatdırılmış, fənn olimpiadalarının yekunları Nazirliyin 13.07.2009-cu il tarixli, 887 nömrəli əmri ilə rəsmiləşdirilmişdir.

İstər məktəblilərin fənn olimpiadalarının təşkili və keçirilməsi, istərsə də 5 fənn (riyaziyyat, fizika, kimya, biologiya və informatika) üzrə keçirilən Dünya olimpiadalarında ölkəmizin komandalarının iştirakının təmin edilməsi məqsədilə müvafiq təqdimatlar, məktublar və əmrlər hazırlanmışdır.

2009-cu ildə Beynəlxalq olimpiadalarda iştirak etmək üçün 10–22 iyul 2009-cu il tarixlərində riyaziyyat fənnindən Almaniyanın Bremen şəhərinə 8, biologiya fənnindən 12–19 iyul 2009-cu il tarixlərində Yaponiyanın Tsukuba şəhərinə 6, 18–27 iyul 2009-cu il tarixlərində kimya fənnindən İngiltərənin Kembric şəhərinə 5 və 8-15 avqust 2009-cu il tarixlərində informatika fənnindən Bolqarıstan Respublikasının Plovdiv şəhərinə 6 nəfərdən ibarət komanda göndərilmişdir.

25 aprel – 02 may 2009-cu il tarixlərində Türkmənistan Respublikasının paytaxtı Aşqabad şəhərində kimya fənni üzrə 43-cü Beynəlxalq Mendeleyev Olimpiadasında 9 nəfərdən ibarət Azərbaycan komandasının iştirakına şərait yaradılmışdır.

12–19 iyul 2009-cu il tarixlərində Meksikanın Merida şəhərində fizika fənni üzrə keçirilərək Beynəlxalq olimpiadaya Azərbaycan komandasının göndərilməsi üçün lazımi tədbirlər görülsə də, həmin ölkədə donuz qripi yayıldığı üçün komandanın olimpiadada iştirakı mümkün olmamışdır.

Beynəlxalq Mendeleyev Olimpiadasının 2010-cu ilin aprel-may aylarında Azərbaycanda keçirilməsilə əlaqədar Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyindən daxil olmuş məktubla bağlı müvafiq təkliflər hazırlanmış, rəhbərliyə təqdim edilmiş və nazirin tapşırığına əsasən Azərbaycan Respublikası Baş nazirinin adına müvafiq məktub hazırlanıb nazirə təqdim edilmişdir. (NK göndərilən məktub, 12.08.09)

Yuxarıda adıgedən Dövlət Proqramının (2006–2010-cu illər) yerinə yetirilməsi ilə əlaqədar işlər davam etdirilmiş, Respublika İncəsənət gimnaziyasında təhsil alan şagirdlərdən 2 nəfərinə Prezident təqaüdü verilməsinə kömək göstərilməsi barədə həmin təhsil müəssisə rəhbərinin təqdimatına baxılmış, təqdim edilmiş sənədlər araşdırılaraq ölkə Prezidentinə məktub hazırlanmışdır.

Bundan əlavə, Şəhərlər üzrə fizika, riyaziyyat, kimya, biologiya fənlərindən şagirdlər arasında ən istedadlıların seçilməsi məqsədilə bu fənlərdən VII–X sinif şagirdlərinin adlı siyahısı müəyyənləşdirilmiş, yerlərdən göndərilən sənədlər təhlil edilmişdir. 2009-cu ilin may ayında həmin fən-

lərdən istedadlı uşaqlar arasında ən istedadlıların təkrar seçimi aparılmışdır. Həmçinin, həmin ilin avqust ayının 10-dan 24-dək istedadlı uşaqlar üçün Şüvəlan qəsəbəsində yerləşən 16№-li internat-məktəbin bazasında yay təlim-istirahət düşərgəsi təşkil edilmiş və burada 50 nəfərə yaxın istedadlı şagird dincəlmişdir. Bununla əlaqədar Kənd rayonları üzrə ümumtəhsil şöbəsi ilə birlikdə «Xüsusi istedada malik şagirdlərin aşkara çıxarılması tədbirləri haqqında» əmr hazırlanmışdır (19.06.2009, № 736).

BDU-nun nəzdindəki «Gənc istedadlar» liseyinin direktoru və onun müavinləri şöbədə qəbul edilmiş, Liseyin Nizamnaməsi və tədris planlarında aparılacaq yeniliklər haqqında fikir mübadiləsi aparılmış, sonra liseydə olmuş, müəssisənin tərtibatı, siniflərin təmayüllər üzrə komplektləşdirilməsi məsələlərində onlara əməli köməklik göstərilmişdir.

BDU-nun 90 illiyi ərəfəsində liseyin bazasında təşkil edilən «Müasir şəraitdə orta ümumtəhsil məktəblərində tədrisin keyfiyyətini yaxşılaşdırmaq yolları» mövzusuna həsr edilmiş respublika konfransında iştirak etmiş şöbə tərəfindən «Tədrisin keyfiyyətini yüksəltməkdə idarəetmənin rolu» mövzusunda məruzə təqdim edilmişdir.

«Zəngi» liseyində şagirdlərin yaradıcı təfəkkürünün inkişaf etdirilməsi təcrübəsinə həsr edilmiş seminar keçirilmişdir. Seminar iştirakçıları liseyin təcrübəsi ilə yaxından tanış olmuş və geniş fikir mübadiləsi aparmışlar.

İl ərzində Şəhərlər üzrə yeni tipli təhsil müəssisələrinin, xarici dillər dərindən öyrədilən ümumtəhsil məktəblərinin, dövlət və özəl universitetlərin nəzdində fəaliyyət göstərən təhsil müəssisələrinin, Azərbaycanda fəaliyyət göstərən türk liseyləri və gimnaziyaların (50 təhsil müəssisəsindən artıq) 2009/2010-cu tədris ilinə dair tədris planlarına baxılmış, müvafiq düzəlişlər aparılaraq Nazirliyin 31.08.2009-cu il tarixli, 1034 nömrəli əmri ilə təsdiq edilmişdir.

Sağamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəblər və internat-məktəblərin də tədris planları hazırlanmış, Nazirliyin 8/44 nömrəli, 02.07.2009-cu il tarixli əmri ilə təsdiq edilərək həmin müəssisələrə çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin «Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında» 04.09.2007-ci il tarixli Sərəncamının icrası ilə bağlı Nazirlikdə yaradılmış təşkilat komitəsinin və işçi qrupunun işində şöbənin iki əməkdaşı (A.Muradov, M.Səfərov) yaxından iştirak etmişlər.

Cənab nazir M.Mərdanovun təşəbbüsü ilə ölkəmizdə ilk dəfə xalqımızın təhsil tarixinin mükəmməl şəkildə qələmə alınmasına başlanmışdır. Maarifimizin tarixi ilə bağlı-sovet dövrü və müstəqillik illərində ümumtəhsil və təmayüllü internat-məktəblərin, lisey və gimnaziyaların, xüsusi məktəb və internat-məktəblərin yaradılması və inkişaf tendensiyalarını əks etdirən müvafiq materiallar toplanaraq ümumiləşdirilib rəhbərliyə təqdim edilmişdir.

Son illərdə – 2006-cı ildən başlayaraq ölkəmizin orta ümumtəhsil məktəblərində buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada keçirilməsi ilə bağlı bütün tədbirlərdə şöbənin əməkdaşları yaxından iştirak etmiş, 2009-cu il martın 01,15 və 27-də keçirilmiş sınaq yoxlamalarında və iyunda aparılan buraxılış imtahanlarında Nazirliyin müvafiq əmrlərinə uyğun olaraq Bakı, Gəncə, Mingəçevir şəhərlərində imtahan rəhbərləri olmuşlar.

Bakının 1 nömrəli məktəbində şəhərin məktəb direktorlarının, təhsil idarəsinin işçilərinin, ÜTŞ əməkdaşlarının iştirakı ilə geniş müşavirə keçirilmiş, 01.03.2009-cu il tarixdə keçirilən sınaq yoxlamalarının nəticələri barədə cənab Nazir məruzə etmiş, müzakirələr aparılmış, sonda müvafiq qərar qəbul edilmişdir.

Rəhbərliyin tapşırığı ilə Əzizbəyov rayonunun 181, 235, 243 və 136 №- li məktəblərində sınaq imtahanlarında yol verilən nöqsanlar araşdırılmış və nəticələr rəhbərliyə təqdim edilmişdir.

Təhsil Nazirliyinin tabeliyində olan lisey və gimnaziya direktorlarının iştirakı ilə 01.03.2009 tarixdə keçirilən sınaq yoxlamalarının nəticələri və imtahanlara hazırlıqla bağlı müşavirə keçirilmiş və geniş müzakirə aparılmışdır.

Eyni zamanda Nazirliyin tabeliyində olan internat tipli müəssisələrin rəhbərləri ilə imtahanlara hazırlıq və kecirilməsi, yeni dərs ilinə hazırlıq, məktəb sənədlərinin alınması, aparılması və qorunması, dərsliklərin alınması, saxlanılması və vaxtında şagirdlərə çatdırılması və s. məsələlər müzakirə edilmisdir.

Xəstəliyə görə əsas və orta təhsil kursu üzrə buraxılış imtahanlarından azad olunacaq şagirdlər barədə Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Naftalan Şəhər Təhsil Şöbələri, Nazirliyin tabeliyində olan yeni tipli təhsil müəssisələri tərəfindən Nazirliyə təqdim olunmuş 300-ə yaxın şagirdin sənədi nəzərdən keçirilmiş və monitorinq və qiymətləndirmə şöbəsi ilə birlikdə müvafiq əmr layihəsi hazırlanmış, rəhbərliyin təsdiqinə verilmişdir.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 86 illiyi ilə əlaqədar yerlərdə və 25.04.2009-cu il tarixdə Respublika üzrə inşa müsabiqəsinin təşkili və keçirilməsində, 08.05.2009-cu il tarixdə müsabiqə qaliblərinin Gülüstan sarayında mükafatlandırılmasında şöbənin əməkdaşları yaxından iştirak etmiş, yığıncaqda şəhərlər üzrə qalib şagirdlər, onların müəllimləri və bir sıra məktəb rəhbərlərinin iştirakı təmin edilmişdir.

Yubiley ərəfəsində Nazirlik Aparatının işçiləri ilə birlikdə şöbənin əməkdasları da Heydər Əliyev Fondunda olmuş, ümummilli liderin həyat fəaliyyətini əks etdirən sərgiylə və Fondun fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Rəhbərliyin tapşırığına əsasən ümummilli lider Heydər Əliyevin və ölkə başçısı İlham Əliyevin müstəqillik illərində şəhərlərin ümumtəhsil məktəblərində olmaları ilə bağlı müvafiq materiallar toplanmış və rəhbərliyə təqdim edilmişdir.

Naxçıvan MR Təhsil Nazirliyindən, Şəhər təhsil idarələrindən (şöbələrindən) və bilavasitə Nazirliyin tabeliyində olan təhsil müəssisələrindən «Məktəb sənədləri» və «Təhsil sənədləri»nə dair sifarişlər toplanmış, ümumiləşdirilərək rəhbərliyə təqdim edilmişdir.

İl boyu Dərsliklər, Məktəb sənədləri və Təhsil sənədləri ilə bağlı keçirilən tender iclaslarında iştirak etmişik.

Rəhbərliyin tapşırığına əsasən Z.Əliyeva adına məktəbdə tədris prosesində elektron yazı lövhələrinin tətbiqi ilə bağlı TN-nin tabeliyində olan lisey və gimnaziyalarfn rəhbərlərinin iştirakı təmin edilmiş, kimya, fizika və tarix dərslərində elektron yazi lövhələrindən istifadəylə tanış olmuşlar

Rəhbərliyin tapşırığına əsasən Bakının 18№-li məktəbinin və Tusi adına gimnaziyanın «Beynəlxalq tərəfdaşlıq məktəbləri» şəbəkəsinə qoşulması münasibətilə Almaniya səfirliyi və Höte İnstitutunun nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə iştırak və çıxış etdik.

Nazirin TN-nin bilavasitə tabeliyində olan lisey və gimnaziyalarda Valideyn-müəllim assosiasiyası yaradılmasına dair tapşırığı müəssisə rəhbərlərinə çatdırılmış və nəzarətə götürülmüşdür.

6№-li məktəb-liseydə VMA-nın yaradılmasına dair keçirilən tədbirdə TN-nin tabeliyindəki müəssisələrin və bir sıra Bakı məktəblərinin direktorlarının iştirakı təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 06.10.2008 tarixli sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008–2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının icrası ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22.12.2008-ci il tarixli qərarıyla təsdiq edilmiş Tədbirlər Planı ilə əlaqədar TN-in fəaliyyət planının hazırlanması üçün yerlərdən müvafiq materiallar toplanmış, ümumiləşdirilmiş və elm şöbəsinə təqdim edilmişdir.

Rəhbərliyin tapşırığı ilə son 10 ildə Naxçıvan MR, Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Naftalan şəhərlərində tikilən yeni məktəb binaları, əlavə korpuslar və əsaslı təmir olunan məktəblər, məktəbəqədər və məktəbdənkənar müəssisələr haqqında məlumat toplanıb rəhbərliyə təqdim edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin məktubu ilə əlaqədar təhsil müəssisələrində istilik sisteminin vəziyyəti barədə məlumat toplanmış, ümumiləşdirilərək rəhbərliyə təqdim edilmişdir.

Nazirliyin kollegiya iclasında şöbənin təqdimatına əsasən «Təhsil müəssisələri fəaliyyətinin idarə olunmasında davamlı inkisafın təmin edilməsində Sumqayıt ŞTŞ-nin iş təcrübəsi haqqında» məsələ müzakirə edilmiş, müvafiq qərar hazırlanmış (№ 144, 11.03.2009-cu il), əmr verilmiş (№ 344, 29.03.2009-cu il), bu sənədlər «Azərbaycan müəllimi» qəzetində, «Təhsil xəbərləri» məcmuəsində dərc edilmişdir.

Təhsil Nazirliyi və «Space» telekanalının son zənglə bağlı birgə layihəsinə əsasən 30.05.2009 tarixində «Space» kanalının verilişlərində qabaqcıl müəllimlərin və məktəb rəhbərlərinin iştirakı təmin edilmişdir.

Rəhbərliyin tapşırığına əsasən MDU Bakı filialından riyaziyyat müəllimləri arasında anket sorğusu aparmaq üçün göndərilən materiallar Bakı, Gəncə, Sumqayıt və TN tabeliyində olan lisey və gimnaziyalara çatdırılmış və nəticələri toplanaraq, nazirliyin rəhbərliyinə təqdim edilmişdir.

29.06.2009-cu il tarixdə «Gülüstan» sarayında müasir təhsil texnologiyalarına həsr olunmuş konfransda şəhərlərin təhsil şöbə müdirləri və TN tabeliyində olan lisey və gimnaziya rəhbərlərinin iştirakı təmin edilmişdir.

Nazirin tapşırığına əsasən «Tərəqqi» liseyində, Elitar gimnaziyada və Bakının 225 nömrəli məktəbində yapon dilinin 2009/10-cu tədris ilindən tədrisi ilə bağlı Yaponiya səfirliyinin II katibi, BDU-nun 3 nəfər yapon dili müəllimi və adıgedən müəssisələrin rəhbərləri ilə məsələ geniş müzakirə

edilmiş və 05.10.2009-cu il tarixdən yapon dilinin tədrisinə başlamaq qərara alınmısdır. Bu barədə cənab nazirə müvafiq məlumat verilmişdir.

Nazirlər Kabinetinin Təhsil Qanununun tətbiqi ilə bağlı Sərəncamına uyğun Nazirlik üzrə verilmiş əmrlə bağlı orta ümumtəhsil məktəblərini bitirib xüsusi nailiyyətlər əldə edən məzunların qızıl və gümüş medalla təltif edilməsi ilə bağlı Əsasnamələr və onların həyata keçirilməsi qaydları işlənib, rəhbərliyə təqdim edilmişdir.

Nazirliyin tabeliyində olan xüsusi təhsil müəssisələri rəhbərlərinin müşavirəsi keçirilmiş, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən keçirilən sərgidə TN müəssisələrinin iştirakının təminatı, yeni təhsil qanunun öyrənilməsi, yeni dərs ili üçün fəaliyyət planlarının tərtib edilməsi və siniflərin mövcud əsasnamələrə uyğun komplektləşdirilməsi tapşırılmışdır.

Prezident Administrasiyasının ümumi şöbəsinin işçiləri şöbədə olmuş, (15.10.2009) vətəndaşların qəbulu, ərizə və şikayətlərə baxılması məsələləri ilə maraqlanmış, onların qaldırdığı məsələlərə ətraflı cavab verilmişdir.

Kurikulumun yeni – 2009/10-cu tədris ilindən I və II siniflərdə tətbiqinin davam etdirilməsi ilə əlaqədar I və II siniflərdə dərs deyəcək müəllimlərin siyahısı dəqiqləşdirilmiş, onlar Bakıda və yerlərdə keçirilən treninqlərə cəlb edilmiş, nəzəri və praktik cəhətdən kurikulumla tədrisi təşkil etməyə hazırlanmışlar.

05.09.2009-cu il tarixdə «Gülüstan» sarayında rəhbər təhsil işçilərinin cari dərs ilinin yekunlarına, yeni dərs ilində qarşıda duran vəzifələrə həsr edilmiş Respublika konfransı keçirilmiş, bu tədbirdə Şəhər TŞ müdirləri və Təhsil Nazirliyinin tabeliyindəki müəssisələrin direktorlarının iştirakı təmin edilmişdir.

Şöbənin əməkdaşları yeni – 2009/10-cu tədris ili ərəfəsində 07–12.09.2008-ci il tarixlərdə təhsil işçilərinin Balakən, Zaqatala və Qax rayonlarında keçirilən ənənəvi sentyabr konfranslarında iştirak etmiş, yeni dərs ilində qarşıda duran vəzifələrdən danışmışlar.

Cənab nazirin təşəbbüsü ilə sentyabr ayından başlayaraq bilavasitə Nazirliyin tabeliyində olan lisey və gimnaziyalarda, Bakı, Gəncə, Sumqayıt şəhərlərinin qabaqcıl məktəblərində «Dəyirmi masa» zalı (konfrans zalı) yaradılmağa başlamış, noyabr-dekabr aylarında S.Pişəvəri adına humanitar fənlər gimnaziyasında və T.İsmayılov adına 6 №-li məktəb-liseydə təqdimat mərasimi keçirilmişdir.

Hesabat dövründə şöbə Beynəlxalq humanitar təşkilatlarla, YUNİSEF, Dünyaya Baxış, ACİ, Müasir Təhsilə və Tədrisə Yardım Mərkəzi, BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarlığının Azərbaycan nümayəndəliyi və s. eyni zamanda yerli ictimai təşkilatlarla əməkdaşlıq etmişdir.

İl ərzində şöbənin əməkdaşları ölkəmizin telekanallarında və pedaqoji mətbuatda vaxtaşırı təhsilin müəyyən məsələləri üzrə çıxış etmişlər.

Hesabat dövründə vətəndaşların qəbulu, onların ərizə, şikayət və təkliflərinə baxılması da diqqət mərkəzində olmuşdu. Belə ki, şöbənin əməkdaşları tərəfindən 1000-dən artıq vətəndaş qəbul edilmiş, onlar dinlənilmiş və imkan daxilində qaldırdıqları məsələlər həll edilmişdir. Eyni zamanda 1200-dən çox ərizə, şikayət, müəyyən təşkilatlardan daxil olmuş məktub və müraciətlər araşdırılmış və vaxtında cavablandırılmışdır.

Bax: www.edu.gov.az

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə

Təhsil Nazirliyinin Dünya Bankı ilə əməkdaşlığı artıq on ildir ki davam edir. İndiyədək bir neçə birgə layihə artıq həyata keçirilmişdir. Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə Təhsil Nazirliyinin Dünya Bankı ilə 2003-cü ildən başlayaraq həyata keçirdiyi Təhsil İslahatı Proqramının ikinci mərhələsidir. Layihənin ümumi büdcəsi 45.4 milyon dollar təşkil edir. Bu məbləğin 25 milyonu Beynəlxalq İnkişaf Assosiasiyasının (Dünya Bankı) güzəştli krediti, 20.4 milyonu Azərbaycan Hökumətinin payıdır. Layihənin məqsədi Tədrisin keyfiyyətinin yüksəldilməsi, təlim nəticələrinin yaxşılaşdırılması və xərclərin səmərəliliyinin artırılmasıdır. Layihə 3 təhsil pilləsini əhatə etməklə 6 komponentdən ibarət tərtib edilib. Əvvəlki layihələrdə olduğu kimi, bu Layihənin icrasına məsuliyyəti Təhsil Nazirliyinin şöbələri və məsul şəxsləri daşıyır.

Layihə sənədləri:


1. Layihənin dəyərləndirmə sənədi
2. Ətraf Mühitin İdarəolunmasına dair təlimatlar
3. Layihə üzrə hesabatlar
   – I yarım il üzrə hesabat

Təhsilə yönəldilmiş investisiya xərcləri (milyon manatla)

Təhsilə ayrılan büdcə xərcləri 2003-cü illə müqayisədə 5 dəfədən çox artaraq 2008-ci ildə 1,1 milyard manata çatmış, 2009-cu ildə isə dövlət büdcəsinin ümumi xərcləri 12 355 milyon manat, təhsil xərcləri 1 352 milyon manat (ümumi büdcə xərclərinin 10,9%-i) məbləğində nəzərdə tutulmuşdur.

Ayrı-ayrı təhsil pillələri üzrə bir təhsilalana düşən xərc də dinamik inkişaf etmişdir. Belə ki, 2007-ci ilə nisbətən 2009-cu ildə məktəbəqədər təhsil sahəsində bir nəfərə düşən xərc 489 manatdan 884 manata, ümumi orta təhsil sahəsində 321 manatdan 577 manata, texniki peşə təhsili sahəsində 731 manatdan 741 manata, ali təhsil sahəsində 539 manatdan 1117 manata yüksəlmişdir.

İnvestisiya qoyuluşları 2004-cü ildəki 5.8 milyon manatdan 38 dəfə artaraq 222.5 milyon manata yüksəlib. Hazırda təhsil xərcləri dövlət büdcəsində çəkisinə görə ilk yerdə dayanır.



Təhsilin idarəolunmasının məlumat sistemlərinin tətbiqi sahəsi üzrə 2009-cu ildə görülmüş işlər

TİMS şöbəsində 2009-cu il ərzində iş planına uyğun olaraq aşağıdakı istiqamətlərdə işlər görülmüşdür:

1. Rəhbərlik tərəfindən şöbəyə həvalə edilən və şöbənin kurasiyasında olan sahələr üzrə görülən işlər:

Ümumtəhsil məktəblərində (IX və XI siniflərdə) buraxılış imtahanlarının keçirilməsi, qiymətləndirilməsi və məlumatların İnternetdə yerləşdirilməsi üçün proqram təminatının hazırlanmasına kömək göstərilmişdir.

Əsas və orta təhsil kursu üzrə Nazirlik tərəfindən mərkəzləşmiş qaydada keçirilən buraxılış sınaq və yekun imtahanları üzrə

- İmtahanlara hazırlıq işlərinin təşkili ilə bağlı tədbirlərdə iştirak edilmişdir.
- IX və XI siniflərdə təhsil alan şagirdlərlə bağlı məlumatlar yığılmış, yoxlanılmış və dəqiqləşdirilərək Monitorinq və qiymətləndirmə şöbəsinə verilmişdir.
- Şöbə əməkdaşları imtahan rəhbərləri kimi Ağcabədi, Samux, Quba, Qusar, Şəki, Cəlilabad, Goranboy, Ağsu, Dəvəçi, Yevlax, Zaqatala, Astara, Salyan, Daşkəsən, Zərdab, Abşeron rayonlarında və Bakı şəhərində yoxlama və yekun imtahanların aparılmasını təşkil etmişdir.
- 2009/10-cu tədris ilində aparılacaq imtahanlarla bağlı əməkdaşlar koordinator kimi Ucar, Kürdəmir, Zərdab, Ağsu, Ağcabədi, Goranboy rayonlarında və Bakı şəhərinin məktəblərində təlimati seminarlar keçirmişlər.

«İlin məktəbi» müsabiqəsinin II mərhələsində şöbə əməkdaşları Ucar, Kürdəmir rayonlarında IX siniflər üzrə test yoxlamalarının təşkili və keçirilməsinə rəhbərlik və nəzarət etmiş və nəticələri Monitorinq və Qiymətləndirmə şöbəsinə təqdim etmişlər.

«İlin ən yaxşı müəllimi» müsabiqəsinin II turunun təşkili və keçirilməsində şöbənin əməkdaşları iştirak etmiş və tərtib edilmiş müvafiq sənədləri rəhbərliyə təqdim etmişlər.

«Gənc kompyuter istedadları–2009» respublika müsabiqəsinin təşkili, keçirilməsi və qaliblərin mükafatlandırılmasında yaxından iştirak edilmişdir.

«Məktəb uşağın dostudur» standartlarının hazırlanması üçün yaradılmış işçi qurupun tərkibində fəaliyyət göstərilmişdir.

Təhsil sektorunun İnkişafı Layihəsinə əsasən «Ümumi təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu» komponenti çərçivəsində «Kurikulum islahatı» alt komponenti üzrə icra planına uyğun olaraq V–XI siniflər üçün İnformatika kurikulumunun layihəsinin hazırlanmasında

Şöbə əməkdaşları aşağıdakı seminar, treninq, sərgi və dəyirmi masalarda iştirak və çıxışlar etmişlər:

- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin «Azərbaycan Respublikasında Rabitə və İnformasiya Texnologiyalarının inkişafı üzrə 2005–2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)»nın yerinə yetirilməsinə həsr olunmuş rayonlararası seminarlar;
- Bakı Mətbuat Mərkəzində «Uşaqların İnternetdə təhlükəsizliyi: mövcud vəziyyət və problemlər» və «Dövlət orqanlarının saytlarının monitorinqi» mövzusunda dəyirmi masalar;
- Rabitə və İnformasiya Texnologiyaları və Xarici İşlər Nazirliklərinin birgə keçirdikləri «İKT-nin hüquqi aspektləri» mövzusunda seminar;
- Təhsil Nazirliyi ilə «Mədəd» təşkilatının təşkil etdiyi «Təhsildə İKT, müəllimlər və texnologiyalar» mövzusunda seminar;
- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən «İnternetin yaranmasının 40 illiyinə və Rabitə və informasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramına» həsr olunmuş tədbir;
- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında yaradılmış İnternetin inkişafı üzrə koordinasiya şurasının tədbirləri;
- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən «İnternetdə uşaqların hüquqlarının qorunması» mövzusunda dəyirmi masa;
- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Beynəlxalq Telekommunikasiya İttifaqının birgə təşkilatçılığı ilə keçirilən «Cəmiyyətin informasiyalaşdırılmasının effektiv qiymətləndirmə üsulları, İKT-nin inkişaf səviyyəsinin və şəraitinin qiymətləndirilmə göstəriciləri və indikatorları sistemi» mövzusunda seminar;
- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Rusiya Federasiyası Federal Gömrük Xidməti ilə birgə keçirdikləri «Gömrük

işində İnformasiya sistemləri və texnologiyaları» mövzusunda 1-ci Beynəlxalq elmi-praktiki konfrans.

2. İş planına müvafiq olaraq Təhsil Sektorunun İnkişafı Layihəsi üzrə şöbə tərəfindən görülmüş işlər aşağıdakılardır:

2.1. «Məktəb şəbəkəsi» hesabat formasına uyğun təlim dilləri üzrə (siniflər göstərilməklə) 2008/09-cu tədris ilinə dair məlumatlar bazaya daxil edilmişdir. 2009/10-cu tədris ili üçün məlumatlar isə hal-hazırda bazaya daxil edilir.

2.2. Respublikanın ümumtəhsil məktəblərinin 2008/09-cu tədris ili üçün «Statistika hesabatı» (1-ÜM №-li forma) ilə bağlı məlumatlar bazaya daxil edilmişdir. 2009/10-cu tədris ili üçün məlumatlar isə hal-hazırda bazaya daxil edilir. Yığılmış məlumatlar əsasında məktəblərdə şagird sıxlığı, müəllim-şagird nisbəti, pedaqoji işçilərin, şagirdlərin və siniflərin sayı, məktəb binasının vəziyyəti və İKT avadanlıqlarının sayı ilə bağlı hesabat almaq mümkündür.

2.3. 2008/2009-cu tədris ili üçün TİMS məlumat bazasında olan məlumatlar mütəmadi olaraq dəqiqləşdirilmişdir.

2.4. 2008/2009-cu tədris ilində IX və XI sinfi bitirən şagirdlərə verilmiş şəhadətnamə və attestatların seriyaları və nömrələri TN-nin mərkəzi məlumat bazasına daxil edilmişdir.

2.5. 2009/10-cu tədris ili üçün Respublikanın ümumtəhsil məktəblərinin kadrları (Soyadı, adı və atasının adı, tutduğu vəzifə, əmək kitabçasından bəzi məlumatlar, şəxsiyyət vəsiqəsindəki məlumatlar, ümumi və fənlər üzrə dərs saatı, bitirdiyi ali məktəb və ixtisası, bildiyi xarici dil və s.) və məktəbdə təhsil alan şagirdlər haqqında məlumatlar bazaya daxil edilmişdir və mütəmadi olaraq bu məlumatlar yenilənir.

2.6. 2009/10-cu tədris ili üçün «Əsas və orta təhsil kursu» üzrə mərkəzləşdirilmiş qaydada keçiriləcək imtahanlarla bağlı IX və XI sinif şagirdlərinin adlı siyahısı məlumat bazası əsasında dəqiqləşdirilərək Monitorinq və qiymətləndirmə şöbəsinə təqdim edilmişdir.

2.7. Məktəbəqədər tərbiyə, orta ixtisas, ali təhsil pillələri və Təhsil şöbələri üzrə TİMS modullarının artırılması məqsədilə müvafiq qurumların tələbatları öyrənilmişdir.

2.8. TİMS-in məktəbəqədər, orta ixtisas və ali təhsil modulunun hazırlanması və tətbiqi üçün proqram təminatı hazırlanır.

2.9. Texniki peşə təhsili müəssisələrinin şagirdləri və kadr heyəti haqqında (adlı siyahı daxil olmaqla) 200/10-cu tədris ili üçün məlumatlar bazaya daxil edilir.

2.10. TİMS-in idarəetmə strukturu təkmilləşdirilməsi istiqamətində R(Ş)T şöbələrində TİMS üzrə əlaqələndirici şəxslər müəyyənləşdirilmiş və onlara müvafiq treninqlər keçirilmişdir.

2.11. Şöbədə hazırlanmış «TİMS-məktəb» proqramının təkmilləşdirilməsi ilə bağlı Respublikanın bütün təhsil şöbələrinin, peşə liseylərinin, Nazirliyin tabeliyində olan orta ümumtəhsil məktəblərinin, Bakı şəhərinin bütün ümumtəhsil məktəblərinin İKT üzrə məsul şəxslərinə treninq-seminarlar keçirilmişdir.

2.12. Nazirliyin mərkəzi aparatının şöbələri TİMS-in mərkəzi bazasına birləşdirilmişdir.

2.13. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Dövlət Statistika Komitəsi və digər dövlət qurumlarının təhsillə bağlı informasiya sistemlərinə və toplanmış məlumatlar əsasında hazırlanacaq hesabatlara olan tələbatlar öyrənilmişdir.

2.14. TİMS-in illik iş planı, rüblük hesabatları və İcra Planı hazırlanaraq LƏQ-ə təqdim edilmişdir.

3. Mövcud problemlər və onların aradan qaldırılması üçün təkliflər aşağıdakılardır:

3.1. Problemlər:

- Rayon (şəhər) təhsil şöbələrində və məktəblərdə İKT üzrə mütəxəssislərin kifayət qədər olmaması.
- TİMS alt komponentin əsası olan proqram təminatının hazırlanmasına nəzərdə tutulmuş vəsaitin ayrılmaması.
- Şəbəkə infrastrukturunun zəif olması.
- Xarici ölkələrin təcrübəsinin öyrənilməsi məqsədilə TİMS şöbəsinin əməkdaşlarının tədris səfərlərinin təşkil olunmaması.

3.2. Təkliflər:

- Respublikanın bütün təhsil şöbələrində TİMS üzrə ştat vahidinin ayrılması.
- TİMS üçün istifadə edilməsi məqsədilə təhsil şöbələrinin İKT avadanlıqları ilə təchizatı.

- Bütün tədris müəssisələrində (ümumtəhsil məktəbləri, texniki peşə, orta ixtisas və ali təhsil müəssisələri) TİMS üzrə əlaqələndiricinin təyin olunması.
- Məktəb hesabatlarının yeni dərs ilindən bilavasitə verilənlər bazası şəklində formalaşdırılmasını nəzərə alaraq Dövlət Statistika Komitəsi ilə həmin hesabat formalarının təkmilləşdirilməsi istiqamətində işlərin aparılması.

4. Perspektiv fəaliyyət istiqamətləri:

4.1. Mövcud TİMS-in yeni platformaya keçirilməsi – müştəri-server arxitekturası, UNİCODE və s.

4.2. TİMS modullarının artırılması və sistemin təkmilləşdirilməsi – müxtəlif təhsil pillələri (məktəbəqədər tərbiyə, orta ixtisas, peşə təhsili, ali təhsil) və təhsil şöbələri üzrə yeni modulların artırılması.

4.3. TİMS şəbəkəsinin qurulması – TN və R(Ş)TŞ üçün lazım olan avadanlıqların alınıb quraşdırılması, tələb olunan sistem proqramların və verilənlər bazasının idarəolunması sisteminin alınıb istifadəyə hazırlanması.

4.4. Sistemin istifadəçilərinin hazırlığı – treninqlərin keçirilməsi.

4.5. TİMS-in idarəetmə strukturunun təkmilləşdirilməsi – R(Ş)TŞ-də TİMS-ə cavabdeh olan İKT üzrə mütəxəssis ştatının ayrılması, TİMS-in fəaliyyəti üçün cavabdehlik sisteminin qurulması.

4.6. Məktəb idarəetmə sisteminin qurulması.*

---

*Bax: www.edu.gov.az

Təhsilin iqtisadiyyatı, maliyyələşdirilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsi üzrə 2009-cu ildə görülmüş işlər

1. 2009-cu ildə iqtisadi durum, dövlət büdcəsindən təhsilə ayrılan xərclər. Başa çatmaqda olan il dünya iqtisadiyyatı tarixində daha çox qlobal maliyyə böhranının özünün zirvə nöqtəsinə çatması və əksər ölkələrdə iqtisadi geriləmə, əhalinin maddi gəlirlərinin azalması, sosial sahədə vəziyyətin pisləşməsi, işsizlik səviyyəsinin yüksəlməsi kimi amillərlə yadda qaldı. Böhranın təsirlərinin hələ də tam aradan qaldırılmaması bir sıra dünya dövlətlərini gələn il üçün də iqtisadi sahədə ciddi problemlərlə üzüzə qoyur.

Lakin böhran dövründə iqtisadi inkişaf tempini qoruyub saxlaya bilən, ümumi daxili məhsulun artımını təmin edən, əhalisinin maddi gəlirlərinin artımına və beləliklə də, ümumi rifah halının yüksəlməsinə nail olan az sayda dövlət vardır. Buna əyani misal olaraq beynəlxalq sferada indi tez-tez Azərbaycanın adı hallanır. Bir məqama da xüsusi diqqət yetirilir ki, 2009-cu il ərzində dünya bazarlarında neftin qiymətinin ötən illə müqayisədə kəskin ucuzlaşmasına baxmayaraq, «qara qızıl» ixracı ilə məşğul olan əksər ölkələrdən fərqli olaraq, bu, Azərbaycanın iqtisadi inkişaf tempinə təsir göstərməyib. Bu, ölkəmizdə iqtisadi sahədə həyata keçirilən siyasətin kifayət qədər praqmatik və reallıqlara əsaslandığını, ən xırda detallarına qədər uzaqgörənliklə düşünüldüyünü bir daha göstərir.

2009-cu ildə dövlət büdcəsinin ümumi xərcləri 12.355.000,0 min manat, təhsil xərcləri 1.097.180,7 min manat (ümumi büdcə xərclərinin 8,9 %-i) məbləğində nəzərdə tutulmuşdur.

Təhsil xərclərinin tərkibində Təhsil Nazirliyinə 419.293,1 min manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur ki, bu da ümumi təhsil xərclərinin 38,2 %-ni təşkil edir.

Məlumat üçün bildirilir ki, 2008-ci ilə nisbətən 2009-cu ildə dövlət büdcəsindən Təhsil Nazirliyinə 90.382,2 min manat və yaxud 27,4% çox vəsait proqnozlaşdırılmışdır.

Təhsil Nazirliyinə ayrılması nəzərdə tutulmuş 419.293,1 min manat vəsaitin tərkibində:

– 306.678,5 min manat və ya 73,1 % təhsil işçilərinin əmək haqqı, əmək haqqına üstəliklər, təqaüdlər və müavinətlər, yəni sosial yönümlü xərclər;
– 17.826,1 min manat və ya 4,3 % kommunal xərclər;
– 47.478,2 min manat və ya 11,3 % təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilən xərclər;
– 47.310,3 min manat və ya 11,3 % sair cari xərclər (dəftərxana, mətbəə, mühafizə, ezamiyyə, yanacaq, dərman alınması və sair) təşkil edir.

2009-cu ilin dövlət büdcəsindən Təhsil Nazirliyinin bilavasitə tabeliyində olan və mərkəzləşdirilmiş xərclərdən maliyyələşən təhsil müəssisə, idarə və təşkilatların saxlanılması məqsədi ilə 419.293,1min manat məbləğində nəzərdə tutulmuş vəsaitin təhsilin səviyyələri nöqteyi-nəzərindən struktur tərkibi aşağıdakı kimidir: məktəbəqədər və ibtidai təhsil üzrə 32.851,0 manat, natamam və orta təhsil üzrə 191.580,5 min manat, texniki-peşə məktəbləri və liseylər üzrə 26.092,0 min manat, orta ixtisas təhsili müəssisələri üzrə 29.391,8 min manat, ali məktəblər üzrə 69.772,6 min manat, təhsil sahəsində tətbiqi tədqiqatlar və digər xidmətlər üzrə 69.605,2 min manat.

Təhsil sahəsində həyata keçirilən bir sıra dövlət proqramlarının və xüsusi əhəmiyyətli tədbirlərin icrası ilə bağlı Təhsil Nazirliyinin 2009-cu ilə proqnozlaşdırılmış büdcəsinin 8,5 %-i həcmində və yaxud 34.518,1 min manat məbləğində vəsait nəzərdə tutulmuşdur.

Həmin Proqramların icrası və tədbirlərin keçirilməsi ilə bağlı 2010-cu ilin proqnoz göstəriciləri aşağıdakı kimidir:
– 8.529,0 min manat Respublikanın ümumtəhsil məktəblərində oxuyan şagirdlərin pulsuz dərsliklərlə təmin olunması üçün;
– 16.000,0 min manat Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2008-ci il tarixli, 2856 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı»nın icrası üçün;
– 187,0 min manat Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli, 20 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005–2009-cu illər)»na əsasən nəzərdə tutulan tədbirlər üçün;

– 601,7 min manat Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli, 1414 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006–2010-cu illər)»nın icrası üçün ;
– 400,0 min manat Azərbaycan Respublikası Prezidentinin 29 mart 2006-cı il tarixli, 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006–2015-ci illər)» üçün;
– 199,4 min manat yeni dərslik və dərs vəsaitlərinin hazırlanması üçün;
– 3.637,0 min manat «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər)»nın icrası üçün;
– 892,5 manat məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir informasiya texnologiyaları ilə təchizatına dair tədbirlər üçün;
– 895,0 min manat Azərbaycan Respublikası Prezidentinin 03 iyul 2007-ci il tarixli, 2282 nömrəli Sərəncamı ilə təsdiq olunmuş «Texniki peşə təhsilinin İnkişaf Proqramı (2007–2012-ci illər)»nın icrası üçün;
– 176,5 min manat Respublika Prezidentinin müvafiq sərəncam və fərmanlarına əsasən gənc istedadlara xüsusi təqaüdlərin ödənilməsi üçün;
– 1.000,0 min manat «İlin ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllimi» mükafatlarının ödənilməsi üçün;
– 2.000,0 min manat ümumtəhsil məktəblərinə tədris laboratoriya (fizika, kimya, biologiya) avadanlıqlarının alınması üçün.

2010-cu ildə dövlət büdcəsinin xərcləri 2009-cu illə müqayisədə 1.091.000,0 min manat və ya 8,8 % az olmaqla 11.264.000,0 min manat məbləğində proqnozlaşdırılır .

Dövlət büdcəsi xərclərinin azalmasına baxmayaraq 2010-cu ildə təhsil xərclərinin maliyyələşdirilməsi məqsədi ilə dövlət büdcəsində 1.276.755,0 min manat və ya ümumi büdcə xərclərinin 11,3 %-i nəzərdə tutulmuşdur ki, bu da 2009-cu ilə nisbətən 179.574,9 min manat və ya 16,4 % çoxdur.

Təhsil xərclərinin artımla proqnozlaşdırıldığına baxmayaraq 2010-cu ildə Təhsil Nazirliyinə 405.543,1 min manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur ki, bu da təhsil xərclərinin 31,8%-ni təşkil etməklə, 2009-cu ilə nisbətən 13.750,0 min manat və ya 3,3 % azdır.

Təhsil Nazirliyinə 2010-cu ildə ayrılması nəzərdə tutulmuş 405543,1 min manat vəsaitin tərkibində:

– 291.524,7 min manat və ya 71,8 % təhsil işçilərinin əmək haqqı, əməkhaqqına üstəliklər, təqaüdlər və müavinətlər, yəni sosialyönümlü xərclər;
– 17.913,9 min manat və ya 4,4 % kommunal xərclər;
– 48.470,9 min manat və ya 12,0 % təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilən xərclər;
– 47.633,6 min manat və ya 11,8 % sair cari xərclər (dəftərxana, mətbəə, mühafizə, ezamiyyə, yanacaq, dərman alınması və sair) təşkil edir.

Yuxarıda qeyd olunduğu kimi, Təhsil Nazirliyinə ayrılması nəzərdə tutulmuş vəsaitin məbləği 2010-cu ildə 2009-cu ilə nisbətən azalmışdır.

Bu azalma əsasən təhsil müəssisələrinin maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsinə yönəldilən vəsaitlərin azalması hesabına olacaqdır.

Təhsil sahəsində həyata keçirilən bir sıra dövlət proqramlarının və xüsusi əhəmiyyətli tədbirlərin icrası ilə bağlı Təhsil Nazirliyinin 2010-cu ilə proqnozlaşdırılmış büdcəsinin 9,5 %-i həcmində və yaxud 38.650,6 min manat məbləğində vəsait nəzərdə tutulmuşdur.

2. Proqnozlaşdırma və maliyyələşdirmə. Dövlət büdcəsinin Təhsil Nazirliyinə aid hissəsinin icrası məqsədi ilə hesabat dövrü ərzində təhsil müəssisələrinin vaxtlı-vaxtında maliyyələşdirilməsi təmin olunmuşdur. Bu məqsədlə hər ay kredit açılmasına dair sifarişlər, məxaric cədvəlləri və xəzinəarası köçürmə sərəncamları hazırlanmış, Nazirliyin rəhbərliyi tərəfindən təsdiq edilmiş və Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Nazirliyin müvafiq əmr və sərəncamları ilə rəsmiləşdirilməklə mərkəzləşdirilmiş tədbirlərin maliyyələşdirilməsi təmin olunmuşdur.

Nazirliyin mərkəzləşdirmiş xərclərinin ayrı-ayrı bölmə və paraqrafları üzrə 2010–2013-cü illər üçün icmal büdcə layihəsi və 2010–2013-cü illərdə proqnozlaşdırılan büdcədənkənar vəsaitlər üzrə icmal gəlir və xərclər smetasının layihəsi hazırlanmış və Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşən ayrı-ayrı təhsil müəssisə, idarə və təşkilatları üzrə 2009-cu ilin yanvar ayında icmal və fərdi xərclər smetaları, daha sonra il ərzində mütəmadi olaraq

dürüstləşdirilmiş icmal və fərdi xərclər smetaları hazırlanmış, rəhbərlik tərəfindən təsdiq olunmuş, Maliyyə Nazirliyinə təqdim olunmuş və təhsil müəssisələrinə işlərində rəhbərlik və icra üçün çatdırılmışdır.

Bundan başqa, Nazirliyin məktəbdənkənar tədbirlər üzrə mərkəzləşdirilmiş vəsaitləri hesabına Respublika daxilində müxtəlif olimpiadaların, konfransların, seminarların, baxış-müsabiqələrin və digər tədbirlərin keçirilməsi ilə bağlı, Respublika nümayəndə heyətlərinin beynəlxalq olimpiadalarda və yarışlarda iştirakı ilə bağlı, Türkiyə, Rusiya Federasiyası və Ukraynadan başqa digər xarici ölkələrdə Azərbaycan Respublikasında dövlət xətti ilə təhsil alan tələbələrin təhsil yerinə getmələri və Vətənə dönmələri ilə əlaqədar yol xərclərinin ödənilməsi ilə bağlı, Türkiyədə, Rusiya Federasiyasında, Ukraynada və digər ölkələrdə Azərbaycan Respublikasında dövlət xətti ilə təhsil alan tələbələrin təhsil yerinə getmələri və Vətənə dönmələri ilə əlaqədar yol xərclərinin «Azərbaycan Hava Yolları Dövlət Konserni»nə ödənilməsi ilə bağlı, digər mərkəzləşdirilmiş məktəbdənkənar tədbirlər üzrə xərclərlə bağlı, Azərbaycan Respublikası Prezidentinin müvafiq Ffərman və sərəncamlarına əsasən 57 nəfər istedadlı şagirdə xüsusi təqaüdün ödənilməsi ilə bağlı, Rusiya Federasiyasının, Ukraynanın, Türkiyənin və Misir Ərəb Respublikasının ali məktəblərində Azərbaycan Respublikasında dövlət xətti ilə təhsil alan tələbələrə təqaüdün ödənilməsi ilə bağlı, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanlarına əsasən qəbul imtahanlarında yüksək bal toplamış Qafqaz Universitetinə və Xəzər Universitetinə daxil olmuş tələbələrə Prezident təqaüdünün ödənilməsi ilə bağlı sərəncam layihələri hazırlanmışdır. Bu məqsədlə mərkəzi xəzinədarlıq tərəfindən kredit açılması üçün müvafiq sifarişlər, məxaric cədvəlləri, xəzinəarası köçürmə sərəncamları hazırlanmış Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Təhsil müəssisələrinin əsaslı tikintisi və yenidən qurulması məqsədi ilə 2009-cu ilin büdcəsində 64.931,2 min manat, o cümlədən 44.931,2 min manat İnvestisiya Proqramı çərçivəsində və 20000,0 min manat Azərbaycan Respublikası Prezidentinin Ehtiyat fondunun vəsaiti hesabına ayrılmışdır.

Bununla yanaşı, Nazirliyin mərkəzləşdirilmiş vəsaitlərinin 2009-cu ilə xərclər smetası hazırlanmış və müvafiq hesablamalar da əlavə olunaraq təsdiqə təqdim olunmuşdur. Eyni zamanda Təhsil Nazirliyinə «Təhsil xərcləri» bölməsi üzrə dövlət büdcəsindən 225411 «İnventarın alınması»

və 225200 «Yumşaq inventar, yataq ləvazimatı və xüsusi geyimlərin alınması» xərc maddələri üzrə 2009-cu ilə ayrılmış vəsait hesabına təhsil müəssisələrinin Maddi-Texniki Təchizat İdarəsi tərəfindən mərkəzləşdirilmiş qaydada yumşaq inventar və paltarlarla, bərk inventar və avadanlıqlarla təminatının bölgüsü layihəsi hazırlanmış və təsdiq olunmuşdur.

Təhsil Nazirliyi sistemi üzrə 2009-cu ildə büdcənin gözlənilən icrası, 2010-cu ilə proqnozlaşdırılan büdcə göstəriciləri barədə müxtəlif arayışların hazırlanması təmin olunmuşdur.

Təhsilin iqtisadiyyatına aid (adambaşına düşən xərc və sair) hesablamalar aparılmış və müxtəlif məlumatlar hazırlanmışdır.

Təhsil sistemi üzrə büdcənin formalaşdırılması və icrası ilə bağlı daxil olan sənədlər təhlil olunmuş, lazımi hallarda irad və təkliflər hazırlanmışdır.

2009-cu ildə tədris müəssisələrinin, idarələrin və təşkilatların büdcədənkənar vəsaitləri üzrə gəlir və xərclər smetalarının layihələrinə baxılmış, Maliyyə Nazirliyi tərəfindən təqdim olunmuş 2009-cu ilin dövlət büdcəsinin ayrı-ayrı bölmələrinin layihəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi üzrə büdcədənkənar vəsaitlərin göstəricilərini əks etdirən protokola müvafiq olaraq «Təhsil xərcləri» bölməsi, «Elm xərcləri» və «Mədəniyyət və incəsənət sahəsində fəaliyyət» köməkçi bölmələrinin büdcədənkənar vəsaitlər üzrə icmal gəlir və xərclər smetası Maliyyə Nazirliyinə təqdim edilmişdir. Maliyyə Nazirliyi tərəfindən büdcədənkənar vəsaitlərin təsdiq edilmiş icmal gəlir və xərclər smetası əsasında ayrı-ayrı təhsil müəssisələri və təşkilatları üçün fərdi smetaların hazırlanaraq təsdiq edilib yerlərə çatdırılması təmin edilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 25 may 2007-ci il tarixli, 2167 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007–2010-cu illər)»nın icrası ilə əlaqədar cəzaçəkmə müəssisələrindən azad ediləcək şəxslərin məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsi məqsədilə həmin müəssisələrdə peşə hazırlığı kurslarının təşkil edilməsi ilə bağlı peşə təhsili müəssisələrində 2009-cu ildə tapşırıqlar üzrə məbləğin gəlir və xərclər smetası Maliyyə Nazirliyinə təqdim olunmuş, fərdi smetaların hazırlanaraq təşkilatlara təqdim edilməsi təmin edilmişdir.

Təhsil Nazirliyinin 2009-cu ildə «Təhsil» bölməsi üzrə büdcədənkənar vəsaitlər üzrə gəlir və xərclər smetası 18000000 manat, «Elm» köməkçi bölməsi üzrə büdcədənkənar vəsaitlər üzrə gəlir və xərclər smetası 250000 manat və «Mədəniyyət və incəsənət sahəsində fəaliyyət» köməkçi bölməsi üzrə isə 27762 manat təsdiq edilmişdir.

2008-ci ildə ödənişli əsaslarla təhsil alan tələbələrin sayı 43516 nəfər olmuşdur. Büdcədənkənar vəsaitlər üzrə bir tələbəyə düşən xərc 447,8 manat, o cümlədən ali məktəblərdə 595,3 manat, ixtisasartırma institutlarında 579,2 manat, texnikum və kolleclərdə isə 160,5 manat təşkil etmişdir. 2009-cu ildə isə ödənişli əsaslarla təhsil alan tələbələrin sayı 45149 nəfər olmuşdur. Büdcədənkənar vəsaitlər üzrə bir tələbəyə düşən xərc cəmi 398,9 manat, o cümlədən ali məktəblərdə 540,2 manat, ixtisasartırma institutlarında 500,7 manat, texnikum və kolleclərdə isə 138,4 manat təşkil etmişdir.

«Təhsil» bölməsi üzrə 2009-cu ilə təsdiq edilmiş büdcədənkənar vəsaitlərin 58,3%-i əməyin ödənişinə, 3,7%-i kommunal və kommunikasiya xidmətlərinin ödənilməsinə, 5,1%-i inventar və avadanlığın alınmasına, 16,4%-i cari və əsaslı təmirə, 4,1%-i dəftərxana və təsərrüfat xərclərinə, 0,2%-i nəqliyyat vasitələrinin alınmasına, 12,2%-i isə sair cari xərclərə yönəldilmişdir.

2008–2013-cü illərdə proqnozlaşdırılan xüsusi vəsaitlər haqqında məlumat (ayrı-ayrı bölmələr və paraqraflar üzrə) büdcə təsnifatına uyğun hazırlanmış və Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

2009-cu ildə Bakının Xətai rayonu, Binəqədi rayonu, Gəncə şəhəri və Xaçmaz rayonunun ərazisində yerləşən ali məktəblərin, texnikumların, peşə liseylərinin və peşə məktəblərinin büdcədənkənar vəsaitləri üzrə aylıq sifarişləri hazırlanaraq Maliyyə Nazirliyinə təqdim edilmişdir.

«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının 2007-ci il 9 noyabr tarixli, 489–III QD nömrəli qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 dekabr tarixli, 683 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Təhsil Nazirliyinə tabe olan müəssisə və təşkilatlarda hüquqi və fiziki şəxslərə göstərilən ödənişli xidmətlər ilə əlaqədar olaraq Maliyyə Nazirliyi ilə birgə məlumatlar işlənilmişdir.

Nazirliyin mərkəzi aparatının normal maliyyə-təsərrüfat fəaliyyətinin təmin olunması məqsədi ilə il ərzində xərclər smetasında dəyişikliklərlə bağlı təkliflər hazırlanmış, Maliyyə Nazirliyinə təqdim olunmuş və əldə olunmuş razılığa əsasən xərclər smetasında dəyişikliklər aparılmışdır.

Həmçinin mərkəzi aparatın 2009-cu ilə strukturu, ştat cədvəli və xərclər smetası, ştat cədvəlində dəyişikliklərlə bağlı sənədlər vaxtlı-vaxtında hazırlanmış və icra üçün Nazirliyin aidiyyəti struktur bölmələrinə çatdırılmışdır.

Tədris müəssisə, idarə və təşkilatların ştat cədvəlləri, pedaqoji işçilərin tarifləşmə siyahıları yoxlanılmış, yol verilmiş nöqsanların qüvvədə olan təlimati-normativ sənədlərə uyğun aradan qaldırılması məqsədi ilə təkliflər irəli sürülmüş və digər müvafiq tədbirlər görülmüşdür.

Hesabat dövründə mütəmadi aparılan işlərdən biri də Nazirliyin tabeliyində olan tədris müəssisələrinin, idarələrin, təşkilatların 2008-ci il, 2009-cu ilin I yarımilliyi və 9 ayı üçün mühasibat hesabatlarının qəbulu və təhlili olmuşdur. Təhlilin nəticəsində aşkar olunmuş nöqsanların aradan qaldırılması məqsədi ilə təhsil müəssisələri ilə müvafiq izahat işləri aparılmış, təkliflər hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 05.09.2009-cu il tarixli, 156 №-li Fərmanı ilə təsdiq edilmiş «Təhsil haqqında» Azərbaycan Respublikası Qanunun 14.14-cü, 28.1-ci və 28.3-cü maddələrinin icrası məqsədi ilə «Təhsil müəssisələrinin avadanlıq və inventarla təminatı normaları», «Dövlət təminatında olan uşaqların (şagirdlərin) geyim, ayaqqabı və yumşaq inventarla təminatı normaları», «Uşaq evlərində təlim-tərbiyə və təhsil alan uşaqların, ümumtəhsil və xüsusi rejimli internat-məktəblərində, internat tipli lisey və gimnaziyalarda, peşə lisey və məktəblərində oxuyan, dövlət təminatında olan uşaqların və şagirdlərin qida normaları», həmçinin təhsil müəssisələrində iaşə və tibbi xidmətin təşkili qaydaları ilə bağlı təkliflər hazırlanmış, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti nazirliklərə baxılmaq üçün təqdim olunmuşdur.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən hazırlanmış «Təhsil müəssisələrində iaşənin və tibbi xidmətin təşkili qaydaları və normaları», «Təhsil müəssisələrində təhsilalanlara pulsuz tibbi xidmətin göstərilməsi qaydası» və «Orta ümumtəhsil müəssisələrində sanitariya-epidemioloji tələblərinə dair qaydalar»ın layihələrinə baxılmış, müvafiq düzəliş və əlavələrin edilməsi ilə bağlı təkliflər hazırlanmışdır.

Nazirliyin rəsmi internet saytında yerləşdirilməsi məqsədi ilə təhsilin iqtisadiyyatı, onun əhatə dairəsi və əsas istiqamətləri barədə məlumatı əks edən arayış hazırlanmışdır.

İnternat tipli təhsil müəssisələrində təhsil alan, dövlət təminatında olan şagirdlərin yeməklə təmin olunması məqsədi ilə keçirilən satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun aparılması məqsədi ilə müxtəlif protokollar, Əsas Şərtlər Toplusu, müqavilələr tərtib olunmuş, hesablamalar aparılmışdır.

İnkluziv təhsil layihəsi həyata keçirilən tədris müəssisələrinə müəllim və tərbiyəçi köməkçisi ştatlarının ayrılması ilə bağlı müvafiq direktiv orqanlarına müraciətlər hazırlanmış, əldə olunmuş razılığa əsasən həmin ştatların verilməsi ilə bağlı qərar layihələri və əmrlər hazırlanmışdır.

Günərzi qayğı mərkəzlərinin və Reabilitasiya inkişaf mərkəzlərin nümunəvi ştatlarının layihələrinə baxılmış, bir sıra düzəliş və əlavələrin edilməsi ilə bağlı təkliflər verilmişdir.

3.Təhsil müəssisələrində aparılmış təftiş-nəzarət işlərinin nəticələri. 2009-cu ildə Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Hesablama Palatası tərəfindən dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi üzərində nəzarəti təmin etmək məqsədi ilə büdcə təşkilatlarında büdcə və büdcədənkənar vəsaitlər üzrə xərclər smetalarının təftişinin nəticələri araşdırılmışdır. Belə ki, 2009-cu ildə Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən Sumqayıt 1№-li Peşə Liseyində, Salyan, Qazax, Cəlilabad, Astara, Tovuz, Ağdam, İmişli, Siyəzən, Şəmkir, Goranboy rayon Təhsil şöbələrində, Şirvan Peşə Liseyində, Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecində dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi üzərində nəzarəti təmin etmək məqsədilə büdcə və büdcədənkənar vəsaitlər üzrə xərc smetalarının təftişinin nəticələri Təhsil Nazirliyində araşdırılmışdır.

Təftiş aparılmış müəssisə, idarə və təşkilatlarda aşkar olunmuş nöqsan və çatışmazlıqların tam aradan qaldırılması və gələcəkdə onların təkrarına yol verilməməsi məqsədi ilə müvafiq əmrlər hazırlanmışdır. Təftiş və yoxlamalar nəticəsində aşkar olunmuş nöqsan və pozuntularla bağlı məsuliyyətli olan bütün şəxslər öz vəzifə borclarına qeyri-ciddi yanaşdıqları üçün Əmək Məcəlləsinin müvafiq bəndlərinə uyğun olaraq cəzalandırılmışlar.

Respublika direktiv orqanlarından və müxtəlif təşkilatlardan, eləcə də tabelikdə olan tədris müəssisə, idarə və təşkilatlarından əlavə dövlət büdcə vəsaitinə olan tələbat, əlavə ştat vahidlərinin ayrılması və digər iqtisadi məsələlərlə bağlı şöbəyə daxil olmuş çoxsaylı məktub və ərizələrlə bağlı təkliflər hazırlanmışdır.

Respublika Təhsil Nazirliyi sisteminin tədris müəssisələri, idarələri və təşkilatlarına maliyyələşmə və digər iqtisadi məsələlər üzrə metodik köməkliklər göstərilmişdir.

4. Uçot və hesabat. Şöbədə Nazirliyin mərkəzi aparatının fəaliyyəti ilə bağlı ayrılmış büdcə vəsaitləri üzrə əməliyyatların hərəkətinin uçotu və hesabatının təmin edilməsi, Nazirliyin Mərkəzləşdirilmiş vəsaitlər hesabı üzrə (ümumtəhsil məktəblərinin şagirdləri üçün dərsliklərin nəşri və çapı, texniki-peşə təhsili haqqında diplom və attestatların, orta təhsil haqqında attestat və şəhadətnamələrin hazırlanması, məktəb sənədlərinin hazırlanması, digər metodiki iş, texniki təbliğat və təhsil üzrə mərkəzləşdirilmiş tədbirlərlə bağlı konkret məqsədlər üçün açılmış maliyyələşmələrə əsasən xərclərin ödənilməsi, dövlət proqramları ilə müəyyən olunmuş mərkəzləşdirilmiş tədbirlərin və layihələrin icrası ilə bağlı xərclərin ödənilməsi, təhsil müəssisələrinin mərkəzləşdirilmiş qaydada yumşaq inventar və geyimlərlə təmin edilməsi, təhsil müəssisələrinin mərkəzləşdirilmiş qaydada bərk inventar və avadanlıqla təmin olunması, ümumtəhsil məktəblərin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı, mərkəzləşmiş vəsait hesabına məktəb tikintisi ilə bağlı verilmiş konkret sərəncamlar əsasında köçürmələrin aparılması və bu əməliyyatların mühasibat uçotunun təmin edilməsi, məktəb tikintisi ilə bağlı debitor və kreditor borclarının uçotunun təmin edilməsi və bu sahə üzrə rüblük və illik hesabatın hazırlanması, Respublika daxilində müxtəlif olimpiadaların, konfransların, seminarların, baxış-müsabiqələrinin, qaliblərin mükafatlandırılması, diplomların, döş nişanlarının hazırlanması Rusiyada, Türkiyədə, Ukraynada, Çində, Amerikada, İngiltərədə və s. digər xarici ölkələrdə dövlət xətti ilə və dövlət proqramı əsasında təhsil alan tələbələrə çəkilən xərclərin hərəkətinin uçotu və hesabatı) uçot və hesabat işlərinin aparılması, Nazirliyin mal-material qiymətlilərinin hərəkətinin uçotu və hesabatının aparılması, Nazirliyin kassa və bank əməliyyatlarının hərəkətinin uçotu və hesabatı, xəzinədarlıqla və bankla əlaqəli işinin aparılması,

Təhsil Nazirliyinin tabeliyində olan müəssisələr üzrə rüblük və illik mühasibat hesabatların qəbulu, Nazirlik üzrə yekun mühasibat hesabatın tərtibi və direktiv orqanlara təqdim edilməsi və qeyd edilən bütün məsələlər üzrə avtomatlaşdırma işlərinin həyata keçirilməsi və onlara nəzarətin təmin edilməsi istiqamətində işlər aparılmışdır.

4.1. Nazirliyin Mərkəzi aparatı üzrə uçot və hesabat.

Nazirliyin mərkəzi aparatı üzrə aparılan mühasibat uçot və hesabat işlərini iki hissəyə ayırmaq olar:

1) Nazirliyin mərkəzi aparatı üçün təsdiq edilmiş ştat cədvəlinə və il ərzində edilmiş müvafiq dəyişikliklərə əsasən ştatda olan və ştatdankənar işçilərə əmək haqlarının hər ay hesablanıb, plastik kartlar üzrə əməkdaşların şəxsi hesablarına köçürülməsi və bu əməliyyatların uçot və hesabatının aparılması, eyni zamanda Nazirliyin müvafiq əmrlərinə əsasən işçilərə müvafiq əmək dövrlərinə uyğun məzuniyyət haqqının, məzuniyyətlə bağlı müavinətin, mükafatın, maddi yardımın, fəxri adlara və siyasi təmsilçiliyə görə haqların, ölkədaxili və xarici ezamiyyələrin, Həmkarlar İttifaqı Komitəsinin təqdim etdiyi protokollara əsasən müvəqqəti iş qabiliyyətini itirən işçilərə müvafiq qaydada müavinətin, habelə «Dövlət Qulluğu haqqında» Azərbaycan Respublikası Qanununun müvafiq maddələrinə əsasən işdən pensiyaya çıxan işçilərə lazımi arayışların hazırlanması, onlara son haqq-hesabın hesablanması və təyin olunmuş pensiya məbləğlərinin 6 misli məbləğində birdəfəlik haqqın hesablanması və ödənilməsi əməliyyatlarının uçotunun aparılması və hesabatının tərtib edilməsi.

2) Nazirliyin maliyyə-təsərrüfat fəaliyyətinin təmin edilməsi ilə bağlı aparılan kassa-bank-xəzinədarlıq əməliyyatlarının uçotu və bu əməliyyatlarla bağlı rüblük və illik hesabatların tərtib edilməsi və mövcud qaydada direktiv orqanlara təqdim edilməsi.

İkinci sahə üzrə işlər əsasən Nazirliyin Ümumi şöbəsinin xətti ilə Nazirliyin mərkəzi aparatında aparılan təsərrüfat işləri, təminat və kommunal xidmətlərlə bağlıdır. Belə ki, Nazirliyin mərkəzi aparatına hesabat ilində təsdiq olunan xərclər smetasının müvafiq xərc maddələrinə uyğun ayrılmış vəsaitə görə Nazirlik malların (iş və xidmətlərin) alınması üçün keçirilmiş tender, kotirovka sorğusu qalibləri olan müəssisə və təşkilatlarla bağlanmış müqavilələrə, eyni zamanda Nazirliyin inzibati binasının əsaslı və cari

təmiri, mal-materiallarla və avadanlıqlarla təminatı ilə bağlı müqavilələrin, kommunal xidmət sahələri ilə bağlanmış müqavilələrə əsasən mühasibatlığa rəhbərliyin müvafiq dərkənarı ilə daxil olan konkret hesab-fakturalara, təqdimatlara, əmr və sərəncamlara uyğun işlərin təşkil edilməsi, sənədlərin araşdırılması, icra üçün ödəmə sənədlərinin hazırlanması və xəzinədarlığa təqdim edilməsi əməliyyatları aparılır.

2009-cu il ərzində mərkəzi aparat üzrə tədbirlərin həyata keçirilməsi üçün dürüstləşdirilmiş xərclər smetasında 2255306,0 manat vəsaitin ayrılması planlaşdırılmışdır. Nəzərdə tutulan bu vəsaitə qarşı aparılmış maliyyələşmə məbləği 2179679,0 manat təşkil etmiş və ya icra 96,65% olmuşdur. Faktiki kassa icrası isə 2001624.61 manat olmuşdur ki, bu da açılmış maliyyələşməyə görə 91,83% təşkil etmişdir.

Açılan vəsait aşağıdakı iş və xidmətlərin yerinə yetirilməsinə yönəldilmişdir:

- Əmək haqqı və ona üstəlik xərclərin ödənilməsi üçün 1684798,0 manat (bunun 1528956,24 manatı kassa xərci edilmişdir);
- İdarənin saxlanılması xərclərinin ödənilməsi üçün 148184,0 manat (bunun 143352,74 manatı kassa xərci edilmişdir);
- Ezamiyyə xərclərinin ödənilməsi üçün 91740,0 manat (bunun 90076,92 manatı kassa xərci edilmişdir);
- Nəqliyyat xidmətləri haqlarının ödənilməsi üçün 21016,0 manat (bunun 19339,70 manatı kassa xərci edilmişdir);
- Kommunal və kommunikasiya xidmətlərinin ödənilməsi üçün 95691,0 manat (bunun 87017,75 manatı kassa xərci edilmişdir);
- İnventar və avadanlığın alınması üçün 79460,0 manat (bunun 78321,70 manatı kassa xərci edilmişdir);
- Əsas vəsaitlərin alınması üçün 29000,0 manat (bunun 28991,32 manatı kassa xərci edilmişdir);
- Sair müxtəlif xərclərin ödənilməsi üçün 10350,0 manat (bunun 7483,85 manatı kassa xərci edilmişdir);
- Təqaüdlər və sosial müavinətlərin ödənilməsi üçün 19440,0 manat (bunun 18084,39 manatı kassa xərci edilmişdir).

Yuxarıda adları qeyd olunan aparılmış əməliyyatların icra sənədlərinə əsasən mühasibat uçotunun aparılması təmin edilmiş və müvafiq dövrlər üzrə yekun hesabatların tərtib edilib, aidiyyəti orqanlara təqdim edilməsi

həyata keçirilmişdir. Belə ki, Nazirliyin mərkəzi aparat işçilərinin aylıq əmək haqları hər bir ay üçün verilmiş tabel əsasında, mükafatları, məzuniyyətləri, məzuniyyətə görə verilən müavinatlar Nazirliyin müvafiq əmrləri əsasında, işçilərin pensiya və müavinatları müvafiq sənədlər əsasında hesablanılmışdır. Bu ödənişlərin və işçilərin ezamiyyələrinin, xidməti avtomaşınların saxlanması ilə bağlı sürücülərə verilən vəsaitlərin plastik kartlar vasitəsilə ödənilməsinin həyata keçirilməsi üçün həmin vəsaitlərin əməkdaşların şəxsi hesablarına köçürülməsi təmin edilmişdir.

Nazirliyin təmir, təsərrüfat fəaliyyətinin təmin edilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər həyata keçirilmiş, kommunal xidməti sahələrinin fəaliyyəti üzrə xərclər və bu xərclərin uçotu təmin edilmişdir.

Mərkəzi aparat üzrə bank və kassa uçotu təmin edilmiş, aparılmış əməliyyatlar üzrə rüblük və illik hesabatlar tərtib edilərək direktiv orqanlara təqdim edilmişdir.

Nazirliyin mərkəzi aparatının büdcədənkənar vəsaitləri üzrə gəlirlərinin hər birinin ayrıca hərəkətinin uçotu təmin edilmişdir. Belə ki, diplomların və digər ciddi uçot və hesabat sənədlərinin, blankların tədris müəssisələrinə ödənişli əsaslarla verilməsindən əldə olunan vəsaitin hər bir konkret mədaxil üzrə hərəkətinin, tenderdə iştirak etmək üçün tender iştirakçılarının Nazirliyə vəsait köçürülməsindən əldə edilən məbləğlərin və bu vəsaitin Nazirliyin büdcədənkənar xərclər smetasına əsasən xərclənilməsinin, mühasibat hesabat uçot blanklarının ödənişli əsaslarla tabe müəssisələrə verilməsindən əldə olunan vəsaitin hərəkətinin uçotu aparılmış və tələb olunan dövrlərdə müvafiq hesabat hazırlanaraq rəhbərliyə və digər direktiv orqanlara təqdim edilmişdir.

4.2. Nazirliyin mərkəzi aparatında mal-material qiymətlilərinin hərəkəti və anbar uçotu.

2009-cu ildə Nazirliyin Mərkəzi aparatının balans uçotunda olan əsas vəsaitlərin və digər mal-material qiymətlilərin hərəkətinin (mal-materialın dövriyyəsi, balansdan balansa əvəzsiz verilməsi, köhnəlmə və qalıqların hesablanması) uçotu təmin edilmişdir.

İllik, rüblük hesabatların tərtibində əsas vəsaitlərin hərəkəti barədə və mal-material qiymətlilərinin hərəkəti barədə hesabatlar hazırlanılmış (illik hesabatlarda), müvafiq material qalıqları barədə məlumatlar Xərclər smetasının icrası balansında əks etdirilmişdir.

Nazirliyin mərkəzi aparatında hər il 1 noyabr vəziyyətinə mal-material qiymətlilərinin maddi məsul şəxslər üzrə faktiki inventarizasiyası aparılır. Hesabat dövründə Nazirliyin mal-material qiymətlilərinin qorunub saxlanılması məqsədilə Təhsil Nazirliyinin 1193№-li, 27 oktyabr 2009-cu il tarixli əmri əsasında inventarizasiya komissiyası yaradılaraq maddi qiymətlilərin inventarizasiyası aparılmışdır.

4.3. Nazirliyin Mərkəzləşdirilmiş tədbirlər üzrə əməliyyatların mühasibat uçotu və hesabat.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəhbərliyi tərəfindən 2009-cu ilə təsdiq olunmuş mərkəzləşmiş vəsaitlərin xərclər smetası əsasında edilmiş maliyyə əməliyyatlarının hərəkətinin uçotunun aparılması, Təhsil Nazirliyinin rəhbərliyinin konkret sərəncamlarına əsasən ümumtəhsil məktəblə-rinin şagirdləri üçün dərsliklərin nəşri və çapı, texniki-peşə təhsili haqqında diplom və attestatların, orta təhsil haqqında attestat və şəhadətnamələrin hazırlanması, məktəb sənədlərinin hazırlanması, digər metodiki iş, texniki təbliğat və təhsil üzrə mərkəzləşdirilmiş tədbirlərlə bağlı konkret məqsədlər üçün açılmış maliyyələşmələrə əsasən çap xərclərin ödənilməsi, təhsil müəssisələrinin mərkəzləşdirilmiş qaydada yumşaq inventar və geyimlərlə təmin edilməsi, təhsil müəssisələrinin mərkəzləşdirilmiş qaydada bərk inventar və avadanlıqla təmin olunması və uçotunun aparılması, mərkəzləşmiş vəsait hesabına məktəb tikintisi və əsaslı təmiri ilə bağlı verilmiş konkret sərəncamlar əsasında köçürmələrin aparılması və bu əməliyyatların mühasibat uçotunun təmin edilməsi, məktəb tikintisi ilə bağlı debitor və kreditor borclarının uçotunun təmin edilməsi, məktəbdəndənkənar tədbirlərin və Türkiyədə, Ukraynada, Misirdə, Rusiyada, Amerikada, İngiltərədə və digər xarici ölkələrdə dövlət xətti ilə və dövlət proqramları əsasında təhsil alan tələbələrin təhsil, yaşayış, tibbi sığorta, yol xərclərinin uçotunun aparılması və bu sahə üzrə rüblük və illik hesabatın hazırlanması kimi işlər görülmüşdür.

Belə ki, hesabat dövründə 4-cü «Təhsil» bölməsinin 7-ci köməkçi bölməsinin hesabat dövründə smeta xərcləri 42761108,0 manat, aparılmış maliyyələşmə 42663616,0 manat təşkil etmiş, Nazirliyin müvafiq sərəncamlarına əsasən mərkəzləşdirilmiş tədbirlərin maliyyələşməsinə isə faktiki olaraq 42579379,66 manat xərclənilmişdir. Aparılan xərclər maliyyələşməyə nəzərən 99,80 % təşkil etmişdir.

2009-cu ildə Təhsil Nazirliyində Dövlət Proqramların maliyyələşdirməsi üçün 29313200,0 manat vəsaitin ayrılması nəzərdə tutulmuş, hesabat ərzində nəzərdə tutulan vəsaitin 29269164,0 manatı Nazirliyə ayrılmışdır. Ayrılan vəsaitin 29234728,10 manatı aidiyyəti üzrə xərclənilmişdir. Hər bir proqram üzrə nəzərdə tutulan, Maliyyə Nazirliyi tərəfindən ayrılan və xərclənən vəsait barədə məlumat aşağıdakı cədvəldə göstərilmişdir:

Dövlət Proqramları	**2009-cu ilin büdcəsində nəzərdə tutulmuşdur**	**Ayrılan vəsait**	**2009-cu ildə icra olunmuşdur**	**Xərc maddəsi**
«Texniki peşə təhsilinin inkişaf proqramı (2007–2010-cu illər)»na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər	340000,0	340000,0	339585,0	225411
	210000,0	208561,0	208559,10	225412
	200000,0	200000,0	200000,0	225413
	25000,0	25000,0	25000,0	311220
	320000,0	320000,0	320000,0	282100
CƏMİ	**1095000,00**	**1093561,00**	**1093144,10**	

Dövlət Proqramları	2009-cu ilin büdcəsində nəzərdə tutulmuşdur	Ayrılan vəsait	2009-cu ildə icra olunmuşdur	Xərc maddəsi
Hesabat ilində bu proqram çərçivəsində texniki peşə liseyləri və məktəbləri üçün kitab şkafları, stol, stul, elektrik pilətələri, tikiş maşınları və digər inventar və avadanlıqlar alınmışdır.				
Məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir informasiya texnologiyaları ilə təchizatına dair tədbirlərlə bağlı xərclər	210000,0	210000,0	208985.90	225411
	52500,0	52500,0	52479,10	225412
	525000,0	525000,0	524823,40	225413
	105000,0	105000,0	104998,90	282100
CƏMİ	**892500,00**	**892500,00**	**891287,30**	
Bu proqram çərçivəsində məktəb kitabxanaları üçün kitab şkafları, kartotekalar, hərf ayırıcıları, stellajlar, digər inventar və avadanlıqlar, kitabxana ləvazimatları - kataloqlar, oxucu biletləri, inventar kitabları və s. alınmışdır.				
«Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007– 2010-cu illər)»na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər	887000,0	887000,0	886639,0	225200
	1000000,0	1000000,0	999563,0	225411
	500000,0	500000,0	499665,0	225412
	750000,0	749997,0	749996,60	225413
	1000000,0	999530,0	999455,0	282100
CƏMİ:	**4137000,00**	**4136527,00**	**4135318,60**	

Dövlət Proqramları	2009-cu ilin büdcəsində nəzərdə tutulmuşdur	Ayrılan vəsait	2009-cu ildə icra olunmuşdur	Xərc maddəsi
Bu proqram çərçivəsində uşaq bağçaları və körpələr evi üçün divan və kreslolar, mətbəx mebel dəstləri, elektrik peçləri, elektrik xəmir yoğuranları, ətçəkən maşınlar, balışlar, dəsmallar, digər yumşaq inventarlar, plakatlar, digər inventar və avadanlıqlar alınmış, test və təlim kitabçaları, metodiki vəsaitlər hazırlanmış və onların daşınması xərcləri ödənilmişdir.				
Azərbaycan Respublikası Prezidentinin 29.03.2006-cı il tarixli, 1386 №-li Sərəncamı ilə təsdiq edilmiş «Dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (Deinstusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006– 2015-ci illər)» na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər	30000,0	30000,0	30000,0	221200
	10000,0			222100
	20000,0	16622,0	16487,88	222200
	25000,0	25000,0	25000,0	225411
	25000,0	25000,0	25000,0	225412
	50000,0	50000,0	50000,0	225413
	240000,0	229967,0	224633,12	282100
CƏMİ	**400000,00**	**376589,00**	**371121,00**	
Bu proqram çərçivəsində yetim və valideyn himayəsindən məhrum uşaqlar üçün internat tipli məktəblərə fortepianolar, qarmonlar, tar və digər musiqi alətləri, noutbuklar, çap qurğuları, televizorlar, digər inventar və avadanlıqlar alınmışdır. «Hər kəs üçün icma-Azərbaycan» layihəsi üzrə işə cəlb olunmuş milli ekspertə əmək haqqı ödənilmiş və məktəbəqədər müəssisələr üçün metodiki vəsaitlər hazırlanılmışdır. Həmçinin bu proqramla bağlı yaranmış işçi qrupunun saxlanılması xərcləri ödənilmişdir.				

Dövlət Proqramları	2009-cu ilin büdcəsində nəzərdə tutulmuşdur	Ayrılan vəsait	2009-cu ildə icra olunmuşdur	Xərc maddəsi
Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2008-ci il tarixli, 2856 №-li Sərəncamı ilə təsdiq edilmiş «2008– 2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı»na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər	1384135,0	1384135,0	1384135,0	224920
	3175372,0	3175372,0	3175372,0	225413
	1000000,0	1000000,0	1000000,0	282230
	4440493,0	4440493,0	4440493,0	311220
	6000000,0	6000000,0	6000000,0	282100
CƏMİ	**16000000,00**	**16000000,00**	**15989365,00**	
Proqram çərçivəsində rayon məktəblərinin kompyuter avadanlıqları ilə təminatı, məktəblərdə internet şəbəkələrinin quraşdırılması və əsaslı təmir işləri aparılmışdır.				
Azərbaycan Respublikası Prezidentinin 17.04.2006-ci il tarixli, 1414 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı «2006–2010-cu illər)»na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər	97300,0	97300,0	97300,0	225411
	309650,0	309650,0	309650,0	225412
	148000,0	139884,0	139883,10	225413
	46750,0	41153,0	41153,0	282100
CƏMİ	**601700,00**	**587987,00**	**587986,10**	

Dövlət Proqramları	2009-cu ilin büdcəsində nəzərdə tutul-muşdur	Ayrılan vəsait	2009-cu ildə icra olunmuş-dur	Xərc mad-dəsi
Bu proqram çərçivəsində bağça, məktəb və liseylərə kitab və paltar şkafları, çarpayılar, tikiş maşınları, kondisionerlər, digər inventar və avadanlıqlar alınmış və kitablar çap edilmişdir. Onların yay istirahət düşərgələrinin xidmət haqları və «Gənc istedad» jurnalının çapı xərcləri ödənilmişdir.				
	152000,0	152000,0	152000,0	225412
	5000,0			225413
Azərbaycan Respublikası NK-nin 03.02.2005-ci il tarixli, 20№-li qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə inkişaf Proqramı (2005–2009-cu illər)»na əsasən nə-zərdə tutulan tədbir-lərlə bağlı xərclər	30000,0	30000,0	30000,0	311220
CƏMİ	**187000,00**	**182000,00**	**182000,00**	

Dövlət Proqramları	2009-cu ilin büdcəsində nəzərdə tutulmuşdur	Ayrılan vəsait	2009-cu ildə icra olunmuşdur	Xərc maddəsi
Bu proqram çərçivəsində sağlamlıq imkanları məhdud uşaqlar üçün internat tipli məktəblərə fortepianolar, kompyuter və kompyuter dəstləri, çap qurğuları, kondisionerlər, digər inventar və avadanlıqlar alınmışdır.				
«Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təminatı Proqramı (2005–2009-cu illər)»na əsasən nəzərdə tutulan tədbirlərlə bağlı xərclər	4000000,0	4000000,0	3997206,0	225411
CƏMİ	**4000000,0**	**4000000,0**	**3997206,00**	
Bu proqram çərçivəsində ümumtəhsil məktəblərinə yazı lövhələri, partalar, müəllim üçün stollar və stullar, digər inventarlar alınmışdır.				
Ümumtəhsil məktəblərinə tədris laboratoriya (fizika, kimya, biologiya) avadanlıqlarının alınması xərcləri	2000000,0	2000000,0	1987300,0	311220
CƏMİ	**4000000,0**	**4000000,0**	**3997206,00**	
Bu proqram çərçivəsində orta ümumtəhsil məktəbləri üçün fizika və kimya laboratoriya avadanlıqları alınmışdır.				
Proqramlar üzrə cəmi	**29313200,00**	**29269164,00**	**29234728,100**	

Təhsil müəssisələrinə mərkəzləşmiş qaydada yumşaq inventar, inventar və avadanlıqlarla təmin olunması məqsədilə 2009-cu ildə 800000,0 manat vəsaitin ayrılması nəzərdə tutulmuş və nəzərdə tutulan bu vəsaitə qarşı aparılan maliyyələşmələr 800000,0 manat təşkil etmişdir. Açılan vəsaitin 799990,61 manatı hesabat dövründə xərclənilmişdir.

Nazirliyin mərkəzləşdirilmiş vəsaitlər hesabına aparılan tədbirlərindən biri ümumtəhsil məktəbləri üçün dərsliklərin nəşri, çapı və daşınması, yeni dərslik və dərs vəsaitlərinin hazırlanması, tərcüməsi və nəşri, kor və zəif görən uşaqlar üçün Respublika internat-məktəblərində təhsil alan zəif görən şagirdlər üçün iri şriftli və kor uşaqlar üçün brayl əlifbasının çap edilməsidir. Bu işlərin yerinə yetirilməsi xərclərinin ödənilməsi üçün 8868162,0 manat vəsaitin ayrılması planlaşdırılmış, planlaşdırılan vəsaitə qarşı açılan vəsait 8866852,0 manat təşkil etmişdir. Qeyd edilən tədbirlər üçün 8842279,3 manat xərclənilmişdir.

Məktəb sənədlərinin hazırlanması, digər metodiki iş, texniki təbliğat və təhsil üzrə sair mərkəzləşdirilmiş tədbirlərin xərcləri üçün 931646,0 manat vəsaitin ayrılması planlaşdırılmış, nəzərdə tutulan vəsaitə qarşı 921119,0 manat məbləğində maliyyələşmə aparılmışdır. Həmin tədbirlər üçün hesabat dövründə 921113,09 manat məbləğində vəsait xərclənilmişdir.

Hesabat dövrü ərzində ali, orta ixtisas təhsili və yenidənhazırlanma təhsili haqqında diplomların, ixtisasartırma vəsiqələrinin və sürücülük təlim kursları, texniki peşə təhsili haqqında şəhadətnamələrin hazırlanması üzrə təsdiq edilmiş xərclər smetasına əsasən Təhsil Nazirliyinə Maliyyə Nazirliyi tərəfindən 431247,00 manat məbləğində maliyyələşmə edilmiş, Nazirliyin müvafiq sərəncamlarına əsasən faktiki xərclənilən vəsaitin məbləği isə 431245,75 manat və ya maliyyələşmə məbləğinə nəzərən icra 99,99 % təşkil etmişdir.

Hesabat dövründə ali məktəblərə daxil olmuş və yüksək bal toplamış tələbələrə və istedadlı şagirdlərə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamları əsasında Prezident təqaüdünün ödənilməsinin uçot və hesabatı aparılmışdır. Aşağıdakı cədvəldə həmin işlərin yerinə yetirilməsinin açıqlaması verilmişdir.

Tədbirlərin adı	Dürüstləşmiş smeta (manatla)	Ayrılmış vəsait (manatla)	Xərclənmiş vəsait (manatla)
Qəbul imtahanlarında yüksək bal toplamış Qafqaz və Xəzər Universitetlərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün ödənilməsi	50000,0	42450,0	42450,0
Adları qızıl kitaba düşmüş istedadlı şagirdlərə xüsusi Prezident təqaüdünün ödənilməsi	197000,0	196950,0	194850,0
Cəmi	**247000,00**	**239400,00**	**237300,00**

Hesabat dövrü ərzində Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanlarına əsasən qəbul imtahanlarında yüksək bal toplamış Qafqaz Universitetinə və Xəzər Universitetinə daxil olmuş tələbələrin (31 nəfərə) hər birinə ayda 150 manat hesabı ilə və 55 nəfər istedadlı gəncin hər birinə ayda 300 manat hesabı ilə xüsusi Prezident təqaüdünün ödənilməsi onların hər birinin bankda açdığı şəxsi hesablarına köçürülməsi yolu ilə həyata keçirilmişdir.

Hesabat ilində təsdiq olunmuş xərclər smetasına əsasən Maliyyə Nazirliyi tərəfindən Respublika daxilində müxtəlif olimpiadaların, konfransların, seminarların, baxış müsabiqələrin və sair tədbirlərin keçirilməsi, «Ən yaxşı müəllim» və «Ən yaxşı məktəb» müsabiqəsinin qaliblərinə mükafatların ödənilməsi, Respublika nümayəndə heyətlərinin beynəlxalq olimpiadalarda və yarışlarda iştirakı xərclərinin ödənilməsi, məktəbdənkənar tədbirlər üzrə mərkəzləşdirilmiş xərclərin ödənilməsi üçün 1136600.0 manat vəsait nəzərdə tutulmuş, bu məqsədlərə görə 1136417.0 manat vəsait ayrılmışdır ki, bunun da 1134768.35 manatı xərclənilmişdir.

Tədbirlərin adı	2009-cu il üzrə təsdiq olunmuş dürüstləşmiş smetaya əsasən	Maliyyə Nazirliyi tərəfindən ayrılmış vəsait	Hesabat dövrü ərzində xərclənmiş vəsait
Respublika daxilində müxtəlif olimpiadaların, konfransların, seminarların, baxış-müsabiqələrin və sair tədbirlərin keçirilməsi	75600,0	75549,0	74479,16
«Ən yaxşı müəllim» və «Ən yaxşı məktəb» müsabiqəsinin qaliblərinə mükafatın ödənilməsi	1000000,0	1000000,0	1000000,0
Respublika nümayəndə heyət-lərinin beynəlxalq olimpiadalarda və yarışlarda iştirakı xərclərinin ödənilməsi	27000,0	26870,0	26403,12
Məktəbdənkənar tədbirlər üzrə mərkəzləşdirilmiş xərclərinin ödənilməsi	34000,0	33998,0	33886,07
Cəmi	**1136600,00**	**1136417,00**	**1134768,35**

2009-cu il ərzində keçirilmiş «Ən yaxşı müəllim» müsabiqəsinin 100 nəfər qalibinin hər birinə 5000,00 manat hesabı ilə mükafat bu müəllim-lərin şəxsi bank hesablarına, «Ən yaxşı məktəb» müsabiqəsinin 50 qalibi olan hər bir məktəbə 10000,00 manat hesabı ilə mükafat təyinatı üzrə Təhsil Şöbələrinin müvafiq hesablarına köçürülmüşdür.

2008/09-cu tədris ilində Respublikanın bütün ümumtəhsil məktəb-lərində və peşə liseylərində orta təhsil kursu üzrə buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada keçirilməsini təmin etmək məqsədi ilə bütün fənlər üzrə 22 nəfər və 2009/10-cu tədris ili üçün 36 nəfər test mütəxəs-sisindən ibarət işçi qrupu yaradılmışdır. Həmin test mütəxəssisləri ilə Təhsil Nazirliyi arasında 29 dekabr 2008-ci il tarixdən etibarən 6 ay müd-dətinə və 02.11.09 tarixdən 8 ay müddətinə əmək müqaviləsi bağlan-

mışdır və işçi qrupu Nazirliyin Monitorinq və Qiymətləndirmə şöbəsi ilə birgə fəaliyyətə başlamışdır. Bu məqsədlə Maliyyə Nazirliyi tərəfindən 71980,00 manat məbləğində vəsait ayrılmışdır. Ayrılmış vəsaitdən hər ay gəlir vergisi və sosial-müdafiə fonduna ayrılmalar tutularaq test tərtib edən müəllimlərin aylıq əmək haqqı onların şəxsi bank hesablarına köçürülüb. Əmək haqqından tutulmuş gəlir vergisi və Sosial-müdafiə ayırmaları təyinatı üzrə vaxtında köçürülmüş və hər rüb ərzində Departamentə hesabat verilmişdir.

2009-cu ilin fevral ayında Bakı şəhərində keçirilən I Respublika Muğam müsabiqəsi ilə bağlı 20860,00 manat məbləğində vəsait müsabiqənin tərtibat işlərinə, müşayiətçi musiqiçilərin, müsabiqənin aparıcılarının, münsiflər heyətinin xərclərinə və 4–10-cu yerləri tutan iştirakçılara verilən həvəsləndirici mükafatların ödənilməsinə sərf olunmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 1–86 №-li 08.07.2009-cu il tarixli əmrinə və ona əlavə olunmuş bölgüyə əsasən bəzi təhsil müəssisələrinin əsaslı təmir işlərinin aparılmasının tənzimlənməsi ilə bağlı vəsaitin bölgüsü haqqında «Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 dekabr tarixli, 37№-li Fərmanının 2-ci bəndindəki cədvəlin 2.4.9.-cu bəndində «İstehsalat, sosial-mədəni məişət təyinatlı, inzibati və idarəetmə obyektlərinin yenidən qurulması və əsaslı təmiri» ilə bağlı xərclər üzrə nəzərdə tutulmuş vəsait hesabına Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrində əsaslı təmir işlərinin aparılması məqsədilə «Təhsil» bölməsi üzrə mərkəzləşdirilmiş vəsaitlərin 2009-cu il üçün dürüstləşdirilmiş xərclər smetasından əlavə 4000000,0 manat vəsait ayrılmış və bu vəsait təhsil müəssisələrinin mərkəzləşdirilmiş qaydada əsaslı təmir işləri üçün Təhsil Nazirliyinin təmir olunacaq obyektlər üzrə təsdiq olunmuş bölgüsünə və Nazirliyin müvafiq Sərəncamlarına əsasən Nazirliyin nəzdində olan Əsaslı Tikinti idarəsinin hesabına köçürülmüşdür.

2009-cu il ərzində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19.02.2007-ci il tarixli, 42(s) nömrəli, 25.06.2007-ci il tarixli, 168(s) nömrəli, 02.08.2007-ci il tarixli, 209(s) nömrəli, 06.11.2007-ci il tarixli, 342 (s) nömrəli sərəncamlarına əsasən Dövlət Büdcəsindən Dövlət Əsaslı vəsait qoyuluşu üzrə nəzərdə tutulan (investisiya) vəsait hesabına təhsil müəssi-

sələrinin tikintisi xərclərinin, əlavə sinif otaqlarının, idman zalı və uşaq bağçalarının tikintisi üçün Təhsil Nazirliyinə 43739752,49 manat vəsait ayrılmışdır. Bu vəsaitin təyinatı üzrə xərclənilməsi üçün qeyd edilən məbləğin 40839752,49 manatı Nazirliyin nəzdindəki Əsaslı Tikinti İdarəsinin, 1900000,0 manatı Azər-baycan Müəllimlər İnstitutunun, 1000000,0 manat isə Azərbaycan Milli Konservatoriyasının hesabına Nazirliyin müvafiq Sərəncamlarına əsasən köçürülmüşdür.

Köçürülmüş bu vəsaitin konkret obyektlər üzrə icrasının mühasibat, bank uçotu və hesabatı təmin edilmişdir.

2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin 16 avqust 2007-ci il tarixli, 2339 nömrəli Sərəncamına əsasən «Qəza vəziyyətində olan bir sıra ümumtəhsil məktəblərinə yeni binaların tikilməsi, mövcud binalarda bərpa və əsaslı təmir işlərinin aparılması» xərclərinin ödənilməsi üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Təhsil Nazirliyinə 19941843,01 manat vəsait ayrılmış və həmin vəsaitin təyinatı üzrə icra edilməsi üçün 19441843,01 manatı Təhsil Nazirliyinin nəzdindəki Əsaslı Tikinti İdarəsinə, 500000,0 manatı isə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə köçürülmüşdür.

Qeyd etmək lazımdır ki, «Qəza vəziyyətində olan ümumtəhsil məktəblərinin yenidənqurulması ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 04 dekabr 2009-cu il tarixli Sərəncamı ilə Prezidentin Ehtiyat Fondundan əlavə olaraq 3000000.0 manat vəsait ayrılmışdır.

4.4. Uçot və hesabat işlərinin avtomatlaşdırılması.

Hesabat ilində Nazirliyin Mərkəzi aparatında «Mühasibat Uçotu» adlanan paket proqramı («Əmək haqqı», «Bank», «Kassa», «Material Uçotu», «Sair debitor və kreditorlarla hesablaşmalar (178)», «Təhtəlhesab şəxslərlə hesablaşmalar (160), «Ödəmə tapşırığı», «200 və 211 balans hesabları», «Baş kitab» proqramları) işlənib hazırlanılmışdır. Paketin hazırlanılması üçün «211-ci balans hesabı», «Birləşdirici proqram»larının alqoritmi hazırlanılmış və onların proqram təminatı aparılmışdır. «Xərclər smetasının icrası balansı» , «Əsas vəsaitlərin hərəkəti barədə», «Malmaterial qiymətlilərinin hərəkəti barədə» hesabat formalarına çıxış üçün «Baş kitab», «Material Uçotu» proqramlarında əlavə modullar işlənilib hazırlanılmışdır.

2006–2008-ci illər ərzində Təhsil Nazirliyinin hər bir əməkdaşı üçün əmək haqqı üzrə hesablaşmalar və onlardan 25 faiz həcmində (3 faiz əmək haqqından tutulmalar, 22 faiz isə hesablanılmış əmək haqqına üstəlik üçün ayrılmalar) tutulmalar barədə məlumatın hazırlanılması məqsədilə «Əmək haqqı» proqramına əlavə modullar daxil edilmişdir. Belə ki, alınan nəticələrin Dövlət Sosial Müdafiə Fondunda istifadə olunan «B3 Editor» proqramı ilə əlaqələndirilməsi məqsədilə «Əmək haqqı» proqramının çıxış formalarının nəticələri qeyd edilən proqramın strukturuna uyğun tərtib edilmiş və onun Excel elektron cədvəlinə ötürülməsinin proqram təminatı aparılmışdır.

Hesabat ilində «Ödəmə tapşırığı» proqramında da ciddi dəyişikliklər aparılmışdır. Belə ki, sənədin ümumi forması və çap (virtual çap) formatı tamamilə dəyişdirilmişdir.

Təhsil Nazirliyinin mərkəzi aparatının 2009-cu ilin 6 aylıq real göstəriciləri əsasında «Mühasibat Uçotu» paket proqramının köməyi ilə «Xərclər smetasının icrası balansı», «Əsas vəsaitlərin hərəkəti barədə», «Mal-material qiymətlilərinin hərəkəti barədə» hesabat formaları tərtib edilmişdir.

«MS DOS» əməliyyat sistemində işləyən «Yekun balans» proqramında da dəyişiklər aparılmışdır. Belə ki, «İdarələrin smeta xərclərinin icrası haqqında» 2№-li, «Büdcədənkənar vəsaitlərin smeta xərclərinin icrası haqqında» 4-icmal formalarında, debitor və kreditor borcları barədə məlumat formalarında «Ölkədaxili ezamiyyələr» və «Xarici ezamiyyələr» xərc maddələrinin alt maddələri ləğv edilmiş və onlara uyğun uzlaşmaların proqramlarında dəyişiklər aparılmışdır.

Qeyd edək ki, hesabat ilində vergi bəyannamələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Vergi hesabatının elektron sənəd formasında göndərilməsi Qaydası» barədə 27.07.2007-ci il tarixli, 120 N-li qərarına uyğun olaraq elektron sənəd formasında Azərbaycan Respublikası Vergilər Nazirliyinin müvafiq saytı vasitəsilə Bakı şəhər Vergilər Departamentinin 2№-li filialına göndərilmişdir.

Hesabat dövründə Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 20 fevral 2009-cu il tarixli, 119№-li əmri ilə Dövlət Sosial Müdafiə Fonduna hesabatvermənin yeni formasına keçirilmişdir.

5. Xaricdə təhsil.

5.1. Dövlət xətti ilə təhsil sahəsində əməkdaşlıq haqqında ikitərəfli razılaşmalar əsasında xaricdə təhsil.

Nazirliyin Mərkəzləşdirilmiş vəsaitlər hesabı üzrə görülən işlərdən biri də dövlət xətti ilə xarici ölkələrin ali məktəblərində təhsil alan tələbələrin xərclərinin (təhsil haqqı, yaşayış, tibbi sığorta, yol və s.) ödənilməsinin uçotu və hesabatının aparılmasıdır.

Belə ki, 31.12.2009-cu il tarixə xarici ölkələrin ali məktəblərində dövlət xətti ilə 811 nəfər tələbə, aspirant və doktorant təhsil alır ki, onlardan 513 nəfəri Türkiyə Respublikasının, 234 nəfəri Rusiya Federasiyasının, 25 nəfəri Çin Xalq Respublikasının, 21 nəfəri Misir Ərəb Respublikasının, 8 nəfəri Koreya Respublikasının, 3 nəfəri Ukrayna Respublikasının, 3 nəfəri Çexiya Respublikasının, 2 nəfəri Slovakiya Respublikasının, 1 nəfəri Rumıniya Respublikasının və 1 nəfəri isə ABŞ-ın ali məktəblərinin payına düşür.

Bu vətəndaşların təhsil almaları ilə bağlı hesabat dövrü ərzində Maliyyə Nazirliyi tərəfindən dəqiqləşdirilmiş xərclər smetasına əsasən 865037,0 manat məbləğində vəsait ayrılmış, Nazirliyin müvafiq sərəncamlarına əsasən faktiki xərclənilən vəsaitin məbləği isə 855825,28 manat və ya maliyyələşmə məbləğinə nəzərən icra 98,93% təşkil etmişdir. Aşağıdakı cədvəldə dövlət xətti ilə xarici ölkələrdə təhsil alan tələbə, aspirant və doktorantlara çəkilən xərclərin təsnifatı verilmişdir.

Tədbirlərin adı	**Nəzərdə tutulan vəsaitin məbləği (manatla)**	**Ayrılmış vəsaitin məbləği (manatla)**	**Xərclənilmiş vəsaitin məbləği (manatla)**
Təhsil haqqı və yaşayış xərcləri	7400,0	2600,0	2493,74
Təqaüdün ödənilməsi	469094,0	443877,0	436838,29
Tələbələrin yol xərcinin ödənilməsi	424000,0	418560,0	416493,25
Cəmi	**900494,00**	**865037,00**	**855825,28**

Hesabat dövründə Türkiyənin ali məktəblərində təhsil alan 516 tələbənin (İstanbul zonası üzrə 338 nəfərə və Ankara zonası üzrə 178 nəfərə) hər birinə ayda 50 ABŞ dolları məzənnəsi ilə İstanbuldakı

Konsulluğunun və Azərbaycan Respublikasının Ankaradakı Səfirliyinin köməkliyi ilə 216174,61 manat, Misir Ərəb Respublikasının ali məktəblərində təhsil alan 21 nəfər tələbələrin hər birinə ayda 50 ABŞ dollarının məzənnəsi ilə Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı Səfirliyinin köməkliyi ilə 10729,11 manat, Ukrayna Respublikasında təhsil alan 4 nəfər aspirantın hər birinə 150 ABŞ dollarının məzənnəsi ilə Azərbaycan Respublikasının Ukraynadakı Səfirliyinin köməkliyi ilə 5545,33 manat, Rusiya Federasiyasının ali məktəblərində təhsil alan 101 nəfər tələbənin hər birinə 100 ABŞ dolları məzənnəsi ilə Ümumrusiya Azərbaycan Konqresinin köməkliyi ilə 81300,89 manat təqaüdün ödənilməsi həyata keçirilmişdir.

Bu dövr ərzində vaxtaşırı olaraq təqaüdün paylanması barədə köməklik göstərən təşkilatlardan (Səfirlik, Konsulluq, RF Azərbaycan Konqresi) hesabatlar və məktublar alınmış və onların müvafiq hesablarında müəyyən səbəblərə görə istifadə olunmamış qalan təqaüd barədə məlumatlara görə lazımi tədbirlər görülmüşdür.

Bundan başqa, Rusiya Federasiyasının ali məktəblərində təhsil alan 234 nəfər vətəndaşın şəxsi ərizələrinə əsasən hər bir tələbəyə ayda 100 ABŞ dolları, hər bir aspiranta ayda 150 ABŞ dolları, hər bir doktoranta ayda 200 ABŞ dolları məzənnəsi ilə 133817,46 manat məbləğində təqaüd onların Beynəlxalq və ya Standart banklarda açdıqları şəxsi bank hesablarına köçürülmüşdür. Bu köçürmələrlə bağlı yaranmış problemlər vaxtında aradan qaldırılmışdır.

Maliyyə Nazirliyi tərəfindən təhsil haqqının ödənilməsi üçün ayrılmış 2600.0 manat vəsaitdən 2493,74 manatı Rusiya Federasiyasının Seçenov adına Tibb Akademiyasında dövlət xətti ilə təhsil alan 1 nəfər tələbə üçün təhsil haqqı ödənilmişdir.

Dövlət xətti ilə təhsil alan tələbələrin tətil dövründə təhsil yerindən Vətənə dönmələri və təhsil yerinə getmələri ilə bağlı yol xərclərinin ödənilməsi üçün Maliyyə Nazirliyi tərəfindən ayrılmış vəsaitdən 121180,14 manatı ilin əvvəlində tələbələrin daşınması ilə bağlı Nazirliyin «Azərbaycan hava yolları» Qapalı Səhmdar Cəmiyyətinə yaranmış kreditor borcunun ödənilməsinə, 217441,51 manatı Təhsil Nazirliyi və «STİ-Azərbaycan» MMC-i arasında bağlanmış 19 avqust 2008-ci il tarixli müqaviləyə əsasən xarici ölkələrin (Türkiyə, Rusiya Federasiyası, Ukrayna, Çexiya,

Koreya, Slovakiya, Çin və Misirin) ali məktəblərində təhsil alan 485 nəfər tələbə və aspirantın yol xərclərinin Nazirliyin Beynəlxalq əlaqələr şöbəsi tərəfindən tələbələrə verilən məktublar əsasında (hesablar və biletlərin surətlərinə əsasən üzləşmə işləri aparıldıqdan sonra) «STİ-Azərbaycan» MMC-n hesabına köçürülməsinə, 77871,60 manat isə 382 nəfər tələbənin şəxsi ərizəsinə və biletinə əsasən onların şəxsi bank hesablarına köçürülməsinə istifadə olunmuşdur.

5.2. «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın icrası.

2007-ci ildən başlayaraq «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı» çərçivəsində dünyanın 23 ölkəsinə (ABŞ, Almaniya FR., Avstraliya, Avstriya, B.Britaniya, Belçika K., C.Koreya, Çexiya R., Finlandiya, Fransa, İrlandiya, İspaniya, İsveç K., İsveçrə, İtaliya, Kanada, Malayziya, Niderland K., Rusiya F., Sinqapur, Türkiyə R., Y.Zellandiya və Yaponiya) təhsil almaq üçün 483 nəfər tələbə göndərilmişdir. Göndərilən tələbələrin 307 nəfəri 2009-cu ilin payına düşür.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın icrası ilə bağlı əlavə tədbirlər barədə 07 aprel tarixli, 2746 nömrəli Sərəncamına uyğun olaraq 2009-cu il ərzində Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili ilə bağlı xərclərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının Dövlət Neft Fondunun büdcəsinin hesabına həyata keçirilmişdir.

Hesabat dövrü ərzində Təhsil Nazirliyinin Dövlət Neft Fonduna ünvanlanmış konkret xərclərə dair 45 Sifarişinə əsasən xaricdə təhsil alanların təhsil xərclərinin ödənilməsi üçün Neft Fondu tərəfindən Təhsil Nazirliyinin hesabına 7939013,07 manat məbləğində vəsait ayrılmışdır. Ayrılan vəsaitdən 7897116,52 manatı hesabat dövrü ərzində xərclənmişdir. 01.01.2010-cu il vəziyyətində Təhsil Nazirliyinin hesabında 41896,55 manat vəsait qalığı olmuşdur ki, bu da 2009-cu ilin dekabr ayında xaricdə təhsil alan tələbələrin təhsil xərclərinin ödənilməsinə xərclənəcəkdir.

Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alanlar və onların təhsil aldıqları müəssisələr tərəfindən təhsil haqları, yol, qeydiyyat, yaşayış, viza və sığorta xərclərinə dair təqdim olunmuş maliyyə sənədləri əsasında

müvafiq sifarişlər hazırlanmış və qeyd edilən xərclərin maliyyələşdirilməsi üçün bu sifarişlər Neft Fonduna təqdim olunmuşdur. Neft Fondu tərəfindən təhsil haqlarının maliyyələşdirilməsi məqsədi ilə açılmış vəsaitin qeyd olunan ölkələrin müvafiq ali məktəblərinin hesablarına, yaşayış, viza, qeydiyyat və sığorta xərclərinin maliyyələşdirilməsi üçün açılmış vəsaitin isə təhsil alanların şəxsi hesablarına köçürülməsi təmin edilmişdir.

Ümumi qayda ilə təhsil haqları konkret təhsil müəssisələri tərəfindən təqdim olunmuş müvafiq maliyyə sənədlərinə əsasən həmin təhsil müəssisələrinin hesablaşma hesabına köçürülür. Təhsil haqları təhsil alanların öz şəxsi vəsaitləri hesabına ödənildiyi hallarda, həmin tələbələr tərəfindən Nazirliyə təqdim olunmuş müvafiq təsdiqedici ödəniş sənədləri əsasında ödənilmiş vəsait məbləğində pul, Nazirlik tərəfindən bu tələbələrin şəxsi hesablarına köçürülür.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 261 nömrəli, 27.11.2008-ci il tarixli Qərarı ilə «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»na əsasən Azərbaycan gənclərinin xarici ölkələrin ali məktəblərində təhsil xərclərinin ödənilməsi qaydaları təsdiq edilmişdir. Bu qayda ilə təsdiq olunmuş aylıq yaşayış normalarına və təhsil müəssisələri tərəfindən təhsil alan tələbələrin tədrisə başladıqları tarixlərə dair təqdim olunmuş arayışlara əsasən hər bir tələbəyə 2010-cu ilin fevral ayına kimi yaşayış xərcləri hesablanıb ödənilmişdir.

Hesabat dövründə tələbələrin xaricdə təhsil aldığı ölkələrə getmələri və Vətənə dönmələrini təmin etmək üçün Təhsil Nazirliyi və STİ Azərbaycan Şirkəti arasında müvafiq müqavilə imzalanmışdır. İmzalanmış müqaviləyə uyğun olaraq STİ Azərbaycan Şirkəti Təhsil Nazirliyinin Şirkətə ünvanlandığı məktublar əsasında hesabat dövründə 220 nəfər tələbəni aviabilet ilə təmin etmişdir.

Hər ildə olduğu kimi cari hesabat ilində də Neft Fondu tərəfindən daxil olmuş vəsaitin təyinatı üzrə icrası barədə mühasibat hesabatı tərtib olunmuşdur.

İlin sonunda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən daxil olan vəsaitin təyinatı üzrə icrası barədə illik hesabat Dövlət Neft Fonduna və Azərbaycan Respublikası Prezident Administrasiyası yanında Təhsil üzrə Komissiyaya təqdim olunacaqdır.

6. Təhsil Nazirliyinin rüblük və illik hesabatlarının qəbulu, icmallaşdırılması və təhlili. İş planına uyğun olaraq 2009-cu ilin yanvar, fevral, mart

aylarında Təhsil Nazirliyi tərəfindən maliyyələşən tabe müəssisə və təşkilatlar üzrə 2008-ci ilin illik hesabatları, 2009-cu ilin iyul, avqust aylarında 2009-cu ilin yarımillik və oktyabr, noyabr aylarında isə 2009-cu ilin 9 aylıq mühasibat hesabatları hər bir tədris müəssisəsinin «Xərclər smetasının icra balansı» və ona əlavə edilən hər bir hesabat forması və sənədləri ilə birlikdə təhlil edilmiş, balans və ona əlavə edilən digər hesabat formalarının daxili və bir-biri ilə əlaqəli uzlaşmaları yoxlanılmış, bütün hesabat formaları üzrə informasiyalar kompyuterə yığılmış və əlavə olaraq kompyuterdə yoxlanıldıqdan sonra ayrı-ayrı sahələr üzrə yekun hesabatlar tərtib edilmişdir. Ayrı-ayrı sahələr üzrə hazırlanmış hesabatlar əsasında Nazirlik üzrə yekun hesabat hazırlanılmışdır. Belə ki, hesabat formalarının elektron variantının hazırlanılması üçün emal olunmuş informasiyaların yekun nəticələri avtomatik qaydada EXCEL elektron cədvəlinə ötürülmüş və Exceldə hazırlanılmış hesabat formaları müvafiq göstəricilərlə doldurulmuşdur. Alınmış yekun hesabatlar təhlil edilmiş, balans və ona əlavə edilən digər hesabat formalarının daxili və bir-biri ilə əlaqəli uzlaşmaları yoxlanılmışdır. Aşkar edilmiş nöqsanların, səhvlərin tapılması üçün əlavə kiçik proqram modulları yaradılmış və informasiyaların emalı zamanı buraxılmış səhvlərin səbəbləri aşkarlanaraq həmin səhvlər aradan qaldırılmışdır.

Tərtib edilmiş yekun hesabatın Maliyyə Nazirliyinə təqdim edilməsi üçün izahatlar hazırlanılmış və Rəhbərlik tərəfindən hesabat imzalandıqdan sonra direktiv orqanlara verilməsi təmin edilmişdir. Başqa sözlə, direktiv orqanlar tərəfindən aparılmış təhlil əsasında ortaya çıxan suallara vaxtında müvafiq cavablar və izahatlar verilmişdir.

Şöbənin iş planına uyğun olaraq Təhsil Nazirliyinin Kollegiyasında müzakirəsi tələb olunan «Təhsil Nazirliyinin 2008-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunları» mövzusunda kollegiya materialı üçün Nazirlik sistemi üzrə tərtib edilmiş 2008-ci ilin yekun mühasibat hesabatı əsasında müvafiq arayış və PowerPoint proqramında təqdimat (prezentasiya) hazırlanılmış, sektor müdiri ilə birlikdə baxılaraq tərtib edilmiş arayış müzakirə və təhlil edilmiş, Kollegiyanın müvafiq qərar layihəsi hazırlanaraq rəhbərliyə təqdim edilmişdir.

Təhsil Nazirliyi tərəfindən maliyyələşən və Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən təhsil müəssisələrinin baş mühasib-

lərinin iştirakı ilə 05 may 2009-cu il tarixdə Təhsil Nazirliyinin 2008-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına həsr edilmiş müşavirə keçirilmişdir. 12 may 2009-cu il tarixdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasında «2008-ci ildə Təhsil Nazirliyinin maliyyə təsərrüfat fəaliyyətinin yekunları barədə» məsələ müzakirə olunmuş və bu barədə Kollegiyanın 109№-li qərarı olmuşdur. Qeyd edilən Kollegiya qərarının icrasının təmin edilməsi məqsədilə qəbul edilmiş Qərar əsasında 684№-li, 11.06.2009-cu il tarixli əmr hazırlanılmış və bu əmr rəhbərlik tərəfindən imzalandıqdan sonra onun surətinin çoxaldılaraq Nazirliyin tabeliyində olan tabe-tədris müəssisələrinə göndərilməsi təmin edilmişdir.

20–21 may tarixlərində Quba–Xaçmaz zonasında: Quba, Xaçmaz, Siyəzən, Dəvəçi, Xızı rayonlarında yerləşən, 25–26 may tarixlərində isə Lənkəran–Astara zonasında – Lənkəran şəhəri, Masallı, Cəlilabad, Lerik, Astara, Yardımlı rayonlarında yerləşən təhsil müəssisələrinin müəssisə rəhbərlərinin və baş mühasiblərinin iştirakı ilə «2008-ci ildə Təhsil Nazirliyinin maliyyə-təsərrüfat fəaliyyətinin yekunları barədə» kollegiya məsələsinin müzakirəsi və «Mühasibat Uçotu haqqında Azərbaycan Respublikası Qanunu»na uyğun təhsil müəssisələrinin Milli Mühasibat Uçotu Standartlarına keçidi ilə əlaqədar yaranmış real vəziyyət və qarışda duran vəzifələr barədə zona müşavirələri keçirilmişdir.

Bu istiqamətdə tədbirlərin genişləndirməsi, Milli Mühasibat Uçotu Standartlarına keçidlə əlaqədar tabe təşkilatların mühasibat işçilərinin maarifləndirilməsi məqsədilə dövri mətbuatda çıxışlar edilmiş («Azərbaycan müəllimi» qəzeti, «Azərbaycan məktəbi» jurnalı) və Milli Mühasibat Uçotu Standartlarına keçilməsi və onun öyrənilməsi barədə yerlərə təlimatı məktublar göndərilmişdir.

«Mühasibat Uçotu haqqında Azərbaycan Respublikası Qanunu»na uyğun təhsil müəssisələrinin Milli Mühasibat Uçotu Standartlarına keçidi ilə əlaqədar Təhsil Nazirliyinin tabe təşkilatlarının və Nazirliyin mərkəzi aparatının yekun rüblük balans hesabatları əsasında yeni hesabat forması «Maliyyə vəziyyəti haqqında hesabat» tərtib edilərək Maliyyə Nazirliyinə təqdim edilmişdir.

7. Statistik hesabatlar və onların təhlili. Hesabat dövrü ərzində məktəbəqədər tərbiyə, ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələrin şəbəkə üzrə proqnoz göstəriciləri hazırlanmışdır.

Dövlət Statistika Komitəsinin təsdiq etdiyi qrafik üzrə il ərzində Təhsil Nazirliyi sistemində mövcud olan 4525 ümumtəhsil məktəbi, 1550 məktəbəqədər tərbiyə müəssisəsi, 386 məktəbdənkənar müəssisəsi və 6 uşaq evindən 16 adda müxtəlif statistik hesabat formaları qəbul edilmişdir.

Hesabat göstəricilərinin düzgünlüyü yoxlanıldıqdan sonra həmin məlumatlar Exsel, FoxPro-6 formatında tərtib edilmiş, cədvəllərə yığılmış, işlənilmiş və əldə olunmuş göstəricilərin əvvəlki dövrlərlə müqayisədə artma, azalma tendensiyaları təhlil olunmuşdur.

2009/2010-cu dərs ilinin əvvəlinə Təhsil Nazirliyi üzrə 4525 ümumtəhsil məktəbində şagirdlərin sayı 357196 nəfər təşkil etmişdir. Şagirdlərin sayı 4499 gündüz ümumtəhsil məktəbində 1347786 nəfər, 7 axşam (qiyabi) ümumtəhsil məktəbində 2927 nəfər, 19 sağlamlıq imkanları məhdud olan uşaqlar üçün məktəb və internat-məktəbində 6483 nəfər təşkil etmişdir. Məktəblərin ümumi sayı üzrə şagirdlərin sayı 13 gimnaziyada 9417 nəfər, 57 liseydə 31869 nəfər, 22 internat-məktəbində isə 6429 nəfər şagird təşkil etmişdir. Keçən illə müqayisədə 12 gündüz ümumtəhsil məktəbi, şagirdlərin sayı isə 64382 nəfər azalmışdır. I siniflərdə şagirdlərin sayı 118025 nəfər təşkil etmişdir ki, bu da keçən ilə nisbətən 1575 nəfər azdır. Bundan əlavə, hal-hazırda gündüz ümumtəhsil məktəblərində 80345 sinif komplekti fəaliyyət göstərir ki, bu da keçən dərs ili ilə müqayisədə 2225 sinif azdır. Siniflərdə şagirdlərin orta sıxlığı 2008/09-cu tədris ilində 17,1 olduğu halda 2009/10-cu tədris ilində 16,8 olmuşdur. 2008/09-cu tədris ilinin sonuna IX sinifləri 148314 nəfər bitirmişdir. Onlardan 111318 nəfəri X sinifdə təhsillərini davam etdirir ki, bu da ümumi sayın 75,1%-ni təşkil edir. Orta ümumtəhsil məktəblərini 107512 nəfər bitirmişdir. Onlardan 83653 nəfəri orta təhsil haqqında attestat almışdır.

Hazırlanmış yekun hesabatlar qrafik üzrə Dövlət Statistika Komitəsinə təqdim edilmişdir.

Statistik hesabat formalarının daha da təkmilləşdirilməsi məqsədilə şəhər və kənd rayonları üzrə ümumtəhsil şöbələri, Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsi və Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsi birlikdə Dövlət Statistika Komitəsi ilə razılaşdırılaraq statistik hesabat formalarında müəyyən dəyişikliklər edilmişdir.

Şöbə tərəfindən mütəmadi olaraq aparılan işlərdən biri də, yeni məktəblərin açılması, fəaliyyət göstərən məktəblərin tipinin dəyişdirilməsi,

məktəb şəbəkəsində dəyişikliklərin aparılması, bu məsələlərlə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 may 2003-cü il tarixli, 67 nömrəli qərarı ilə təsdiq edilmiş «Dövlət büdcəsindən maliyyələşən təlim-tərbiyə və təhsil müəssisələrinin yaradılması, genişləndirilməsi, yenidən təşkili və ləğv edilməsi Qaydaları»na müvafiq olaraq Maliyyə Nazirliyi və Dövlət Əmlakının İdarə Edilməsi Dövlət Komitəsi qarşısında vəsatətlərin qaldırılması olmuşdur.

Hesabat ilində Maliyyə Nazirliyinin və Dövlət Əmlakının İdarəolunması üzə Dövlət Komitəsinin razılığına əsasən Təhsil Nazirliyinin müvafiq əmrləri ilə 14 uşaq bağçası, 2 orta ümumtəhsil məktəbi, 1 lisey açılmış, 1 ibtidai məktəb əsas məktəbə, 1 əsas məktəb orta məktəbə çevrilmişdir. Belə ki, Xocavənd rayonu üzrə 2 , Füzuli rayonu üzrə 4, Cəbrayıl rayonu üzrə 5, Zaqatala rayonunda 1 uşaq bağçası, Ağdam rayonu üzrə 2 körpələr evi – uşaq bağçası, Abşeron rayonunda 1 orta, Xocalı rayonu üzrə 1 orta məktəb, Nazirliyin tabeliyində Humanitar fənlər təmayüllü məktəb-liseyi açılmışdır, Masallı rayonunda 1 ibtidai məktəb əsas məktəbə, Bakı şəhərində 1 əsas məktəb orta məktəbə çevrilmişdir.

Bununla bərabər, 3 əsas məktəb ibtidai məktəbə, 3 orta məktəb əsas məktəbə çevrilmiş, 6 ibtidai, 6 əsas və 4 orta məktəbin fəaliyyəti dayandırılmışdır. Belə ki, Ağsu rayonunda 1 əsas, Xocavənd rayonu üzrə 1 əsas məktəb, Ağdam rayonu üzrə 1 əsas məktəb ibtidai məktəbə, Xocavənd rayonu üzrə 1 orta məktəb, Şuşa rayonu üzrə 2 orta məktəb əsas məktəbə çevrilmiş, Ağdam rayonu üzrə 2 ibtidai, Xocavənd rayonu üzrə 2 ibtidai, Cəlilabad rayonunda 2 ibtidai, Naxçıvan MR-da 1 əsas, Laçın rayonu üzrə 2 əsas, Cəbrayıl rayonu üzrə 1 əsas, Ağdam rayonu üzrə 2 əsas və 2 orta, Qubadlı rayonu üzrə 1 orta, Cəbrayıl rayonu üzrə 1 orta məktəbin fəaliyyəti dayandırılmışdır.

Mütəmadi olaraq Nazirliyin şöbələrinə, Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin «Məktəb şəbəkələrinin rasionallaşdırılması və maliyyə islahatlarının qiymətləndirilməsi» alt-komponent kordinatoruna və rəhbərliyə təhsil sahəsinin müxtəlif sahələrinə aid statistik məlumatlar verilmişdir.

İş planına uyğun olaraq mərkəzi aparat üzrə aylıq, rüblük və illik statistik hesabatları hazırlanıb Nərimanov rayon statistika şöbəsinə təqdim edilmişdir.

2009/10-cu tədris ilinin əvvəlinə 20 dövlət və 15 qeyri-dövlət ali, 45 dövlət və 3 qeyri-dövlət orta ixtisas müəssisələrinin 1-ali məktəb bakalavr, magistratura və 1-orta ixtisas statistik hesabatları qəbul edilərək, bölmə-

lər üzrə icmallaşdırıb və təhlil aparılıb. 108 peşə təhsili müəssisəsinin 1 «a» hesabat forması qəbul edilərək bölmələr üzrə icmallaşdırılıb. Bu məlumatların Nazirliyin tədris müəssisələri haqqında statistik məcmuəsinə, bir qisminin isə Nazirliyin internet səhifəsinə daxil edilməsi nəzərdə tutulub.

Təhlil zamanı məlum olmuşdur ki, 2009/10-cu tədris ilində ali məktəblərdə təhsil alan tələbələrin sayı 95145 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 42146 nəfər, ödənişli əsaslarla təhsil alanlar 52999 nəfər) təşkil etmişdir. 2008/2009-cu tədris ilində ali məktəblərdə təhsil alan tələbələrin sayı 91490 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 41208 nəfər, ödənişli əsaslarla təhsil alanlar 50282 nəfər) olmuşdur. Ötən tədris ilinə nisbətən tələbələrin sayı 4,0% (3655 nəfər) artmışdır.

Göründüyü kimi, 2009/2010-cu tədris ilində dövlət hesabına təhsil alan tələbələrin xüsusi çəkisi 44,3%, 2008/09-cu tədris ilində isə bu göstərici 45% təşkil etmişdir. Belə ki, ötən ilə nisbətən dövlət hesabına təhsil alan tələbələrin sayı 2,3% (938 nəfər), ödənişli əsaslarla təhsil alan tələbələrin sayı isə 5,4% (2717 nəfər) artmışdır.

2009/10-cu tədris ilində bakalavr pilləsi üzrə qəbul planı 98,5% yerinə yetirildiyi halda, ötən tədris ilində bu göstərici 99,2% təşkil etmişdir. 2009/10-cu tədris ilində magistratura pilləsinə qəbul planı isə 81% yerinə yetirilmişdir ki, burada da ötən tədris ili ilə müqayisədə 9% artım müşahidə olunur (ötən il bu göstərici 72 % təşkil etmişdir).

2009/10-cu tədris ilində orta ixtisas məktəblərində təhsil alan tələbələrin sayı 43641 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 27131 nəfər, ödənişli əsaslarla təhsil alanlar 16510 nəfər) təşkil etmişdir. 2008/009-cu tədris ilində orta ixtisas məktəblərində tələbələrin sayı 43533 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 27640 nəfər, ödənişli əsaslarla təhsil alanlar 15893 nəfər) olmuşdur. Ötən tədris ilinə nisbətən tələbələrin sayı 0,2% (108 nəfər) artmışdır.

Göründüyü kimi, 2009/2010-cu tədris ilində dövlət hesabına təhsil alan tələbələrin xüsusi çəkisi 62,2%, 2008/09-cu tədris ilində isə bu göstərici 63,5% təşkil etmişdir. Belə ki, ötən ilə nisbətən dövlət hesabına təhsil alan tələbələrin sayı 1,8% (509 nəfər) azalmışdır, ödənişli əsaslarla təhsil alan tələbələrin sayı isə 3,9% (617 nəfər) artmışdır.

2009/10-cu tədris ilində orta ixtisas məktəbləri üzrə qəbul planı 96,4% yerinə yetirildiyi halda, ötən tədris ilində bu göstərici 97,4 % təşkil etmişdir.

2009/10-cu tədris ilində peşə məktəblərində və peşə liseylərində təhsil alan şagirdlərin sayı 25741 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 24230 nəfər, ödənişli əsaslarla təhsil alanlar 1511 nəfər) təşkil etmişdir. 2008/09-cu tədris ilində peşə məktəblərində və peşə liseylərində şagirdlərin sayı 25188 nəfər (o cümlədən: dövlət hesabına təhsil alanlar 23614 nəfər, ödənişli əsaslarla təhsil alanlar 1574 nəfər) olmuşdur. Ötən tədris ilinə nisbətən şagirdlərin sayı 2,2% (553 nəfər) artmışdır.

2009/10-cu tədris ilində peşə məktəbləri və peşə liseyləri üzrə qəbul planı 96% yerinə yetirildiyi halda, ötən tədris ilində bu göstərici 97,3% təşkil etmişdir.

45 orta ixtisas məktəbin və 20 ali məktəbin 2009/10-cu tədris ilin qəbul planları ilə bağlı təkliflər toplanılıb. Bu təkliflər əsasında icmal sənədlər hazırlanıb. Ali və orta ixtisas təhsili şöbəsi ilə birgə təhlil apardıqdan sonra təkliflər Nazirlər Kabinetinə təqdim edilib.

Nazirliyin müvafiq şöbələri ilə birlikdə 2009-cu il gözlənilən və 2010–2013-cü illər üçün proqnoz göstəriciləri hazırlanıb İqtisadi İnkişaf Nazirliyinə təqdim edilib.

2009-cu ilin sentyabr konfransı üçün iqtisadi və statistik məlumatlar hazırlanıb. Həmçinin il ərzində müxtəlif statistik göstəricilər hazırlanaraq rəhbərliyə təqdim edilib.

Belə ki, Nazirliyin Peşə Təhsili şöbəsi ilə birlikdə 1-peşə təhsili illik hesabat formasının layihəsinə baxılmış, layihə yeni təsdiq olunmuş Təhsil Qanununa uyğunlaşdırılmış və təsdiq üçün Dövlət Statistika Komitəsinə təqdim edilmişdir. Hesabat forması Dövlət Statistika Komitəsi ilə birlikdə müzakirə edildikdən sonra Təhsil Nazirliyinin təklifləri nəzərə alınmaqla təsdiq olunmuşdur.

Nazirliyin internet səhifəsinə il ərzində şöbə əməkdaşlarının iştirak etdiyi seminar və iclaslarla bağlı məlumatlar daxil edilmişdir. Həmçinin Təhsil Nazirliyinin internet saytının yeni təkmilləşdirilmiş versiyasına dövlət büdcəsinin tərkibində təhsilə ayrılan ümumi xərclər, təhsilə yönəldilmiş investisiya xərcləri, ölkəmizdə təmir edilən və yeni inşa olunan məktəblər haqqında məlumat və məktəbəqədər, ümumtəhsil, orta ixtisas, ali, peşə məktəbləri və peşə liseyləri üzrə əsas göstəricilər təqdim olunmuşdur və tədricən toplanan yeni məlumatlar İnternet səhifəyə təqdim olunacaqdır.

8. Əmək haqqı məsələləri. 2009-cu ilin yanvar–fevral aylarında Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələri tərəfindən təqdim edilən

illik hesabatlarda işçilərin tutduqları vəzifə üzrə əməkhaqlarının qüvvədə olan normativ sənədlərə uyğun ödənilməsi ilə bağlı məsələlər araşdırılmış və aşkar olunan nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülmüşdür. Əməkhaqqının ödənilməsi ilə əlaqədar ayrılan vəsaitin xərclənilməsi məsələsinə diqqət yetirilmişdir.

İlin əvvəlində peşə məktəbləri və peşə liseyləri üzrə şagirdlərin hərəkətinə dair təqdim olunan statistik hesabatların dəqiqliyinə nəzarət edilmişdir.

Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilən ümumtəhsil, internat, lisey, gimnaziya və peşə məktəbləri tərəfindən tərtib edilib təqdim edilən ştat cədvəllərinin qüvvədə olan nümunəvi ştatlara uyğun hazırlanmasına baxılmış, ali və orta ixtisas məktəbləri tərəfindən təqdim edilən ştat cədvəllərində isə vəzifələr üzrə dərəcələrin və vəzifə maaşlarının düzgünlüyünə diqqət yetirilmişdir.

Təhsil Nazirliyi tərəfindən birbaşa maliyyələşdirilən təhsil müəssisələrinin baş mühasibləri ilə keçirilən toplantılarda ştat cədvəllərinin düzgün tərtibinə, ödəniş dərəcələrinin Vahid Tarif İxtisas sorğu kitabçasına uyğun tətbiqi ilə bağlı izahatlar verilmişdir.

İş yerlərindən məhrum olmuş və özlərindən asılı olmayan səbəblərə görə işləməyən məcburi köçkün müəllimlərə orta aylıq əməkhaqqının ödənilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarına əsasən Təhsil Nazirliyi üzrə müvafiq əmr layihəsi hazırlanıb rəhbərliyə təqdim edilmiş, imzalandıqdan sonra müvafiq təhsil şöbələrinə göndərilmişdir.

Pedaqoji işçilərin əmək məzuniyyəti ilə əlaqədar Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalar müvafiq izahatlarla birlikdə yerlərə çatdırılmışdır.

Hesabat ilində təhsil işçilərinin əməkhaqqı, aspirant, tələbə və şagirdlərin təqaüdlərinin ödənilməsi ilə bağlı nazirliyin rəhbərliyinə müvafiq məlumatlar hazırlanıb təqdim edilmişdir.

Ali məktəblərdə tyutor vəzifəsinin əmək funksiyası ilə əlaqədar təklif hazırlanmış və hazırlanmış təklif rəhbərlik tərəfindən razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunmuşdur.

Bəzi təhsil işçilərinin və əvəzçiliklə işləyən pedaqoji işçilərin əməkhaqqı və əməkhaqqına əlavələrlə bağlı məsələlərə aydınlıq gətirilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciətlər hazırlanıb göndərilmiş və müvafiq cavablar alınmışdır.

Ali məktəblərdə çalışan professor-müəllim heyətinin əməkhaqqına əlavələrin təkmilləşdirilməsi ilə əlaqədar təkliflər hazırlanıb müvafiq orqanlara təqdim edilmişdir.

Maliyyə Nazirliyi və Hesablama Palatası tərəfindən təhsil orqanlarında aparılan yoxlamalarla əlaqədar yaranan mübahisəli məsələlərin araşdırılması məqsədilə yerlərdən daxil olan sorğu məzmunlu məktublara cavab hazırlanmışdır. Rəhbərliyin tapşırığı ilə təhsil sistemində çalışan ayrı-ayrı kateqoriya işçilərin mövcud əməkhaqqına dair arayışlar və analitik cədvəllər hazırlanıb təqdim edilmişdir.

Yeni Təhsil haqqında Qanununun qəbulu ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli, 247S nömrəli qərarının icrası ilə əlaqədar ümumtəhsil, məktəbdənkənar, məktəbəqədər, peşə, orta ixtisas və ali təhsil müəssisələrində çalışan işçilərin iş vaxtı, dərs yükü və s. məsələlər üzrə bir sıra təkliflər hazırlanıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Maliyyə və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliklərinə təqdim edilmişdir.

2009-cu ildə nazirliyin rəhbərliyinin tapşırığına əsasən təhsil sisteminin iqtisadiyyatına aid bir sıra məlumatlar hazırlanıb təqdim edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasından, Milli Məclisindən, Azərbaycan Respublikası Nazirlər Kabinetindən, İnsan Hüquqları üzrə Müvəkkilliyindən (Ombudsman), müxtəlif nazirliklərdən daxil olan məktublara vaxtında cavab verilmişdir.

Hesabat ilində təhsil müəssisələrindən və ayrı-ayrı təhsil işçilərindən daxil olan müxtəlif məzmunlu sorğulara cavab verilib. Xeyli sayda təhsil işçisi fərdi qaydada qəbul olunmuş və onları maraqlandıran məsələlərə aydınlıq gətirilmişdir.

İl ərzində yüzlərlə ərizə, sorğu və müxtəlif məzmunlu məktuba cavab hazırlanmışdır.

9. Əsaslı tikinti, təmir işləri, əmlak və yanacaq məsələləri. Respublikanın Dövlət Tikinti Proqramlarında nəzərdə tutulmuş yeni məktəblər, əlavə sinif otağının tikintisi və əsaslı təmiri üzrə faktiki materiallar toplanmış, ümumiləşdirilərək rəhbərliyə məlumat verilmişdir.

2009-cu ildə Respublikada tikintisi aparılmış yeni məktəblər və əlavə sinif otaqları (o cümlədən cari və əsaslı təmir üzrə) barədə hər bir rayon üzrə məlumatlar toplanmış və baxılmışdır.

Dövlət Proqramına müvafiq olaraq Respublikanın ərazisində 2009-cu ildə tikiləcək yeni məktəblər üçün yerlərdə torpaq sahəsinin ayrılmasına nail olunmuşdur.

Bununla bağlı aidiyyəti Rayon İcra Hakimiyyətlərinə müvafiq məktublar göndərilmiş, bu barədə arayışlar toplanmış, cizgilər araşdırılmış və təkrarən yoxlanılmışdır.

Təhsil Nazirliyinin tabeliyində olan tədris müəssisələrinin mövcud daşınmaz əmlakının vəziyyəti və hərəkəti barədə məlumatların Əmlak Məsələləri Dövlət Komitəsinə vaxtında verilməsi, bunun üçün müvafiq tədbirlərin görülməsi, yerlərə çatdırılması və bu məsələnin nəzarətdə saxlanılması təmin olunmuşdur.

Tədris müəssisələrində enerji ehtiyatlarından qənaətlə istifadə olunmasına nəzarət edilməsinin mütəmadi olaraq diqqət mərkəzində saxlanılması, müəssisələrin rəhbərlərinə tapşırılmışdır.

2009-cu ildə Respublikada yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlığı ilə təmin olunmasına dair Dövlət Tikinti Proqramına uyğun olaraq bütün rayonlarla daim əlaqə yaradılmış və mövcud vəziyyət nəzarətdə saxlanılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin tapşırığı ilə tikinti proqramlarında baş verilən dəyişikliklərlə bağlı müvafiq rayonlarla əlaqələr yaradılmış zəruri dəyişikliklər aparılmış və onların icrasına nəzarət edilmişdir.

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun həyata keçirdikləri layihələr barədə məlumatlar toplanılmış və rəhbərliyə təqdim olunmuşdur.

Respublikanın tabeliyində olan tədris müəssisə, idarə və təşkilatların payız-qış mövsümünə hazırlanmasına nail olmaq üçün əmr hazırlanmış, yerlərə göndərilmiş və nəzarətdə saxlanılmışdır.

Eyni ilə tədris müəssisələrində yanğından mühafizə sahəsinə baxan məsul şəxslərin əmrlə ayrılması üçün müəssisələrə müvafiq məktublar göndərilmiş və bu məsələ nəzarətdə saxlanılmışdır.

Tədris müəssisə, idarə və təşkilatlarının maddi-texniki bazasına aid olan mülkiyyətin (əsas fondların) balansdan silinməsinə dair Nazirlər Kabineti tərəfindən 04.11.2004-cü il tarixli, 177 nömrəli Sərəncamla təsdiq edilmiş «Qaydalar»a müvafiq olaraq zəruri işlər həyata keçirilmişdir.

Respublikanın ərazisində tam yararsız vəziyyətdə olan məktəblərin siyahısı toplanmış, rəhbərliyə və Nazirlər Kabinetinə təqdim edilmişdir.

Heydər Əliyev Fondu tərəfindən «Yeniləşən Azərbaycana Yeni Məktəb» layihəsi çərçivəsində Qax, Göyçay, Zaqatala, Balakən və Şəki rayonlarında inşa edilmiş yeni məktəb binalarının sənədləşdirilməsi həyata keçirilmişdir.

Təhsil Nazirliyinin 09.02.2009-cu il tarixli, 154 nömrəli əmrinə müvafiq olaraq Nazirliyin tabeliyində olan bütün tədris müəssisələrinə bədbəxt hadisələrin baş verməsinin qarşısının alınması məqsədi ilə qısa müddət ərzində istifadə edilən qaz cihazlarına baxış keçirilməsi, aşkar edilən çatışmazlıqlar aradan qaldırılaraq qəti tədbirlər görülməsi və Təhsil Nazirliyinə məlumat verilməsi tapşırılmış və əmrin icrası nəzarətdə saxlanılmışdır.

Mingəçevir şəhər 16 nömrəli körpələr evi-uşaq bağçası və onun nəzdində fəaliyyət göstərən Uşaq və Ailəyə Dəstək Mərkəzinin daşınan və daşınmaz əmlakının Təhsil Nazirliyinin balansına qəbul edilməsi ilə bağlı 11.02.2009-cu il tarixli, 166 nömrəli əmrinə əsasən təmin olunmuşdur.

Bundan əlavə Təhsil Nazirliyinin Əsaslı Tikinti İdarəsi tərəfindən yeni inşa edilmiş Xalq Təhsili Muzeyinin binasının balansa götürülməsi ilə əlaqədar 28.04.2009-cu il tarixli 477 nömrəli əmrin icrası olunmuşdur.

28.09.2009-cu il tarixli, 1091 nömrəli əmrə müvafiq olaraq Estetik tərbiyə üzrə Respublika Tədris Metodik Mərkəzin köçürülməsi barədə, onun Xətai rayonu 8 nömrəli körpələr evi-uşaq bağçasının binasında yerləşdirilməsi ilə əlaqədar yaradılmış komissiyanın işində iştirak təmin olunmuş və bununla bağlı zəruri tədbirlər həyata keçirilmişdir.

Təhsil Nazirliyinin 07.12.2009-cu il tarixli, 17/758 nömrəli əmrinə müvafiq olaraq Ağdaş Humanitar Kollecin binalarının texniki vəziyyətinə, həmçinin Balakən rayon Qaysa kənd məktəbinin köhnə binasına baxış keçirərək rəy verilməsi məqsədi ilə şöbə əməkdaşları Ağdaş və Balakən şəhərlərinə ezamiyyə olunmuş və verilən tapşırıqlar yerinə yetirilmişdir.

Bir neçə məsələlərlə bağlı sirkulyar məktublar hazırlanmış, Təhsil Nazirliyinin tabeliyində olan bütün tədris müəssisələrinin rəhbərlərinə göndərilmiş, onların qəbul edilməsinə, icrasına nəzarət olunmuşdur. Belə ki, daşınmaz dövlət əmlakı barəsində baş verən bütün dəyişikliklər haqqında məlumatların Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim edilməsi vacibliyinə aid 06.04.2009-cu il tarixli, 46–17–2225/16 nömrəli və 2009-cu ildə Respublikanın bütün şəhər və rayon Təhsil Şöbələrinə ümumtəhsil məktəbləri üçün tikilmiş yeni binalar və əlavə sinif otaqları, həm-

çinin əsaslı və cari təmir işləri barədə məlumatların göndərilməsi barədə 27.04.2009-cu il tarixli, 46–17–2599/16 nömrəli məktublar göndərilmiş və əldə olunan məlumatlar araşdırılmış, ümumiləşdirilərək rəhbərliyə təqdim edilmişdir.

Rayon (şəhər) təhsil şöbələrinə 01.09.2009-cu il tarixli, 46–17–5454/16 nömrəli sirkulyar məktub göndərilərək gündüz ümumtəhsil məktəblərinin qış mövsümünə hazırlığı, onların maddi-texniki bazası və pedaqoji kadrlarla təminatına dair statistik məlumatların (sorğu anketinin) DSK-ya vaxtında təqdim edilməsi tapşırılmış, məsələnin icrası nəzarətdə saxlanılmışdır.

Təhsil Nazirliyinin 09 dekabr 2009-cu il tarixli ümumtəhsil məktəblərində və uşaq bağçalarında istilik təchizatının vəziyyəti barədə Telefonoqramın bütün rayon (şəhər) Təhsil Şöbələrinə çatdırılmasını təşkil etmiş, təsdiq edilmiş cədvələ uyğun olaraq bütün məlumatlar toplanmış, yoxlanılmış, araşdırılmış və ümumiləşdirilərək rəhbərliyə çatdırılmışdır.

03.12.2009-cu il tarxili, 46–17–8183/16 nömrəli sirkulyar məktubla Təhsil Nazirliyinin bütün tədris müəssisələrinə müraciət olunmuş və 2010-cu il üçün yanacaq və sürtgü materiallarının, təbii və mayeləşdirilmiş qazların istifadəsi və itkilərin proqnoz normalarını təsdiq etmək üçün Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinə təqdim edilməsi tapşırılmışdır.

10. İnzibati, metodiki və digər işlər. Nazirliyin Mərkəzi aparatının fəaliyyəti ilə bağlı ayrı-ayrı illər üçün təsdiq olunmuş xərclər smetasının göstəriciləri və il ərzində Respublika Maliyyə Nazirliyi tərəfindən ayrılmış maliyyələşmə çərçivəsində Nazirliyin normal fəaliyyətinin təmin olunması məqsədi ilə şöbəyə daxil olmuş əmrlər, sərəncamlar, təqdimatlar, müəssisə və təşkilatlar tərəfindən və ümumi şöbə xətti ilə müvafiq dərkənarlarla verilən hesab-fakturalar, müqavilələr, aktlar və digər ödəmə sənədləri əsasında aparılan maliyyə, mühasibat, uçot və bank əməliyyatları kompyuterlərdə işlənib hazırlanılmışdır.

Aparılan işlərin daha səmərəli üsullarla təşkil edilməsi, tabe təşkilatların hesabatlarında şəffaflığın təmin edilməsi, bu sahədə aparılan avtomatlaşdırma işlərinin təkmilləşdirilməsi barədə mütəmadi olaraq elmi mətbuatda («Maliyyə və Uçot», «Auidit» jurnalları) məqalələr və tezislər şəklində çıxışlar edilmişdir.*

**Bax:* www.edu.gov.az

Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş sahəsi üzrə 2009-cu ildə görülmüş işlər

Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətində uşaqların və gənclərin tərbiyəsi xüsusi yer tutur. Qloballaşan dünya prosesləri bizdən həyati bacarıqlara yiyələnən insanın tərbiyə olunmasını tələb edir. Təhsil alan uşaq və gənclərin dövlətçilik ruhunda tərbiyəsi prioritet sahələrdəndir. Bu baxımdan, təhsil müəssisələrində aparılan tərbiyə işlərini aşağıdakı istiqamətlər üzrə qruplaşdırmaq olar.

Azərbaycan dövlətinin qurucusu olan ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinin təhsil müəssisələrində tədrisi, onun nümunəsində tərbiyə olunması istiqamətində «Heydər Əliyev irsinin təhsil sistemində təbliğ edilməsi yolları», «Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanın iqtisadi inkişafı», «Heydər Əliyev və Azərbaycan» mövzularında elmi-praktik konfranslar, dərslər keçirilmiş, yazılar, müsabiqələr təşkil olunmuşdur.

Hər bir təhsil müəssisəsində ümummilli liderimizin fəaliyyətini əks etdirən foto guşələr və onun fəaliyyəti ilə bağlı dərslər aparılan otaqlar yaradılmışdır. Ənənəvi olaraq bütün tip təhsil müəssisələrində Azərbaycan Respublikasının atributları təbliğ olunur, məktəblilərdə onlara məhəbbət hissi aşılanır. Dövlət bayrağının, gerbinin, himninin yaranması və qorunub saxlanmasında, tətbiqində ulu öndərimiz Heydər Əliyevin fəaliyyəti məktəblilərə öyrədilir.

Dövlətçilik tərbiyəsinin mahiyyətini daha da zənginləşdirmək baxımından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının sərəncam və çıxışlarından irəli gələn vəzifələr təhsil müəssisələrində pedaqoji ictimaiyyətə çatdırılır.

Təlim prosesində və məktəbdənkənar tədbirlərdə diqqət yetirilən əsas məsələlərdən biri milli-mənəvi tərbiyədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə, musiqimizlə, ədəbiyyatımızla, tariximizlə bağlı çıxışlarına istinad olunaraq, məktəblilərlə bu istiqamətdə aparılan işin konsepsiyası işlənmişdir. «Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi»nin məzmunu, forması, metodları və yolları yeniləşdirilmişdir.

Vətənpərvərlik tərbiyəsi öz vətəninə sevgi, məhəbbət hissinin, məsuliyyət hissinin, hər an öz vətəninin, öz xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşmasıdır.

Azərbaycan Respublikasının ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsi daha böyük aktuallıq tələb edir. Qloballaşan dünyamızda milli-mənəvi dəyərlərin qorunmasının əhəmiyyəti məktəblilərə aşılanır.

İlkin hərbi bilik, bacarıq və vərdişlərin gənclərin inkişafına böyük təsiri olur. Bu məqsədlə məktəblərdə ənənəvi olaraq «Cəsurlar», «Şahin», «Sərhəd» hərbi-idman və turizm respublika oyunları keçirilir. Təhsil Nazirliyinin Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti ilə birgə həyata keçirdiyi bu tədbirlərə məktəblərdə böyük maraq yaradılmışdır.

Uşaqların tərbiyəsində ailənin əsas rol oynadığı nəzərə alınaraq BMT, UNİSEF, İnsan Hüquqları üzrə Müvəkkilliklə birgə ailə tərbiyəsi sahəsində fəaliyyət planı hazırlanmış və müvəffəqiyyətlə yerinə yetirilir.

Tərbiyə sahəsində millilik gücləndirilmiş, yeni variantlarda tərbiyə proqramlarının layihələri işlənmişdir. Layihədə tərbiyə prosesinin bütün sahələri: fiziki, əqli, mənəvi, estetik, əmək, hərbi-vətənpərvərlik və s. əhatə olunmuşdur.

Tərbiyə işləri üzrə direktor müavinlərinin, sinif rəhbərlərinin, uşaq birliyi rəhbərlərinin iştirakı ilə bölgələrdə seminarlar keçirilərək, Uşaq Hüquqları Konvensiyasının və «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun öyrədilməsi yolları müzakirə olunmuşdur. Müzakirə olunan mövzular «Sinif rəhbərinin illik tərbiyəvi iş planı»na, məktəbin pedaqoji şurasının iş planına daxil edilmiş və sistemli hüquqi biliklər verilmişdir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili ilə birlikdə 2009–2010-cu illərdə Uşaq hüquqlarının tədrisinə aid birgə tədbirlər planı hazırlanıb həyata keçirilir.

Məktəblərimizdə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə nəzərdə tutulmuş tarixi günlər, bayramlar, yubileylər yüksək səviyyədə həyata keçirilir.

Ölkədə idmana göstərilən diqqət və qayğı nəticəsində son illər Azərbaycan idmançıları beynəlxalq yarışlarda böyük uğurlar əldə edirlər. Məhz buna görə də ölkəmizdə çoxlu sayda Avropa, dünya birinciliklər,

olimpiya təsnifat turnirləri keçirilməkdədir. Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində 158 Uşaq Gənclər İdman və Şahmat Məktəbləri fəaliyyət göstərir. Onlardan: 83-ü uşaq gənclər idman məktəbi, 9-u ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq gənclər idman məktəbi, 63-ü uşaq gənclər şahmat məktəbi, 3-ü ixisaslaşdırılmış olimpiya ehtiyatları uşaq gənclər şahmat məktəbidir.

Gənclərin narkomaniyadan, QİÇS-dən və digər zərərli vərdişlərdən qorunması istiqamətində praktik işlər aparmaqla yanaşı, həm də təhsil müəssisələrinə metodik tövsiyə və kitabçalar, əyani təşviqat vasitələri: plakatlar, bukletlər paylanmışdır. Mətbuatda pedaqoji və tibbi maarifləndirməyə xidmət göstərən məqalələr çap olunmuşdur. Müəllimlərin, valideynlərin bu sahələrdə maarifləndirilməsi əsas məsələlərdən biri olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev göstərirdi ki, «Asudə vaxt problemdir, bunun həll edilməsi ailə və şəxsiyyətin, kollektivin və bütövlükdə cəmiyyətin mənəvi sağlamlığını möhkəmləndirməyə kömək edir». Bu baxımdan məktəblilərin asudə vaxtının düzgün qurulmasında məktəbdənkənar təhsil müəssisələrinin böyük rolu vardır. Hazırda Respublikamızın 380 məktəbdənkənar təhsil müəssisəsində 400 minə yaxın şagird məşğul olur.

Texniki yaradıcılıq mərkəzlərinin direktorlarının iştirakı ilə respublika müşavirəsi keçirilmiş, uşaqların mərkəzlərə cəlbi, onların işinin təkmilləşdirilməsi, nöqsanların aradan qaldırılması yolları müzakirə edilmişdir. Bu sahədə aparılan işləri daha da canlandırmaq məqsədilə təhsil nazirinin müvafiq əmri ilə 2009-cu ildə «Uşaq və yeniyetmələrin elmi-texniki yaradıcılıq işlərinə Respublika baxış-müsabiqəsi» keçirilmişdir.

Fiziki tərbiyə və idman dövlət üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Məhz bunun nəticəsidir ki, Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi dövrlərdə ölkədə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi dövlət qayğısı olmuşdur. Hazırda Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının fəaliyyətində bu sistem prioritet sahələrdən birini təşkil etməkdədir.

Azərbaycan Respublikası Prezidentinin «2005–2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında» 10 oktyabr

2005-ci il tarixli, 1038 nömrəli Sərəncamının icrası ilə bağlı 2009-cu ildə bir sıra tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Ümumi təhsil, orta ixtisas və ali təhsil müəssisələrində yeniyetmə və gənclərin idmanla məşğul olması üçün əlverişli şərait yaradılmış, futbolun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində şagird və tələbələr arasında idmanın bu növünə maraq xeyli artmışdır.

Uşaq, yeniyetmə və gənclər arasında futbol idman növünü təbliğ etmək, onların ustalıqlarını artırmaq, perspektivli futbolçuları üzə çıxarmaq məqsədilə Təhsil Nazirliyi tərəfindən il ərzində uşaq-gənclər idman məktəbləri, ümumtəhsil, texniki peşə, orta ixtisas və ali təhsil müəssisələrinin şagird və tələbələri arasında mütəmadi olaraq müxtəlif yaş qrupları üzrə məktəbdaxili, rayon, şəhər və respublika səviyyəli yarış, birincilik və çempionatlar keçirilmişdir.

Dövlət Proqramından irəli gələn vəzifələri yerinə yetirmək məqsədilə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə birgə ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümünə həsr olunan Universitet tələbələri arasında futbol üzrə II Respublika çempionatı keçirilmişdir. Çempionatda 33 ali təhsil müəssisəsinin futbol komandaları iştirak etmişdir.

Cari ilin noyabr ayında Təhsil Nazirliyinin əmri ilə uşaq-gənclər idman məktəblərinin 13–14 yaşlı futbolçulardan ibarət komandaları arasında I respublika turniri keçirilmiş, qaliblər Təhsil Nazirliyinin diplomu və hədiyyələri ilə mükafatlandırılmışdır.

Eyni zamanda Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş təqvim planına uyğun olaraq uşaq, yeniyetmə və gənclər arasında il ərzində futbol idman növü üzrə müxtəlif səviyyəli yarış, birincilik və çempionatlar keçirilmişdir.

Futbolun inkişafına dair Dövlət Proqramının icrası ilə əlaqədar yeni idman meydançalarının salınması, futbolun yeniyetmələr və gənclər arasında kütləviliyinə nail olunması, onların ustalıqlarının artırılması istiqamətində işlər davam etdirilmişdir.

Cari tədris ilində Gəncə şəhər 1 nömrəli əsas internat-məktəbinin bazasında futbol təmayüllü internat tipli gimnaziya yaradılmışdır. «Təhsil» Respublika İdman Mərkəzinin Bakı filialının bazasında uşaq-gənclər futbol məktəbinin yaradılması ilə bağlı aidiyyəti dövlət qurumlarına rəsmi müraciət edilmişdir.

Təhsil Nazirliyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının birgə təşkilatçılığı ilə Bakı şəhəri ümumtəhsil məktəblərinin qabaqcıl fiziki tərbiyə müəllimləri üçün seminar keçirilmişdir.

Bakı şəhərinin 51, 171, 237, 239, 136 nömrəli orta, Makarenko adına internat, Füzuli rayonu 27 nömrəli orta məktəblərində və «Təhsil» Respublika İdman Mərkəzinin Bakı filialında yeni süni örtüklü futbol meydançaları yaradılmışdır. Qeyd olunan ümumtəhsil məktəblərində AFFA-nın mütəxəssislərinin iştirakı ilə futbol dərsləri tədris olunur.

Dövlət Proqramına uyğun olaraq, yeniyetmə və gənc futbolçuların peşəkarlığının artırılması məqsədilə Bakı şəhəri, Tovuz, İmişli rayonlarının ümumtəhsil məktəblərində təhsil alan 19 nəfər məktəbli futbolçu seçilərək Türkiyənin İstanbul şəhərində, «Fənərbağça» klubunun bazasında hazırlıq keçmələri təmin edilmişdir.

«Almaniya həftələri–2009» çərçivəsində Almaniyanın Azərbaycandakı Səfirliyi ilə birgə 2009-cu il sentyabr ayının 25-dən oktyabr ayının 10-dək «Futbol filmləri festivalı» keçirilmişdir. Hökumət Evində, AFFA-da, Bakı şəhəri 18 və 160 nömrəli orta məktəblərdə təşkil olunan futbol filmlərinin nümayişlərinə məktəbli futbolçuların baxışı təşkil edilmişdir.

Futbolun inkişafına dair Dövlət Proqramının icrası ilə əlaqədar yeni idman meydançalarının salınması, futbolun yeniyetmələr və gənclər arasında kütləviliyinə nail olunması istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin «2009–2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı»nın təsdiq edilməsi barədə 05 may 2009-cu il tarixli, 260 nömrəli Sərəncamının icrası ilə bağlı Azərbaycan Respublikası təhsil nazirinin əmri ilə Təhsil Nazirliyinin tədbirlər planı təsdiq edilmişdir.

2009-cu ildə təcrübə mübadiləsi aparmaq, məktəbli şahmatçılara əməli və metodiki köməkliklər göstərmək, eləcə də hakimlik etmək üçün Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən şahmat məktəblərinin əməkdaşlarının, eyni zamanda beynəlxalq qrossmeysterlərin müxtəlif ölkələrdə keçirilən Avropa, dünya birinciliklərində, çempionatlarında və turnirlərdə iştirakları təmin edilmişdir.

2009-cu ildə Naxçıvanda, Ağstafada, İsmayıllıda, Kürdəmirdə, Beyləqanda, Neftçalada, Dəvəçidə şahmat məktəbləri komandalarının respublika komanda çempionatının zona yarışları, Bakı şəhərində Ümummilli

lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümünə həsr olunmuş Respublika turniri, IX əsr dahi Azərbaycan şahmatçısı Cəlaləddin Naxçıvaninin xatirəsinə həsr olunmuş məktəblilərin respublika çempionatı, Balakəndə Respublika gününə, Astarada Novruz bayramına, Gəncədə «Usaq ili»nə həsr olunmuş respublika turnirləri, Zaqatalada Yeniyetmələrin respublika şahmat olimpiadası, Qubada Təhsil Nazirliyinin açıq respublika birinciliyi keçirilmişdir.

Aparılan işlərin, yaradılan şəraitin nəticəsidir ki, məktəbli şahmatçılar Avropa, dünya və beynəlxalq səviyyəli yarışların mükafatçıları sırasında olmuşlar.

2009-cu ilin aprel-may aylarında Yunanıstanın Saloniki şəhərində keçirilən Məktəblilərin 5-ci dünya çempionatında Bakı şəhəri 1№-li İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat-Dama Məktəbinin yetirməsi Elxan Bayramov bürünc medal, iyun ayında isə həmin məktəbin komandası Bolqarıstanda keçirilən məktəblilərin Avropa komanda çempionatında daha yüksək nəticə əldə edərək müstəqillik dövründə ilk dəfə olaraq birinci yerə çıxmışdır. Məktəbin yetirmələrindən 10 nəfər müxtəlif yaş qrupları üzrə Avropa və dünya birinciliklərinə vəsiqə qazanmış, məktəbin digər yetirməsi Nərmin Kazımova isə bir neçə beynəlxalq turnirlərdə uğurlu nəticələrinə görə Beynəlxalq dərəcəli idman ustası normasın yerinə yetirmişdir.

Bakı şəhəri 2№-li Uşaq-Gənclər Şahmat Məktəbinin yetirməsi Qədimli Abdulla iyun ayında Gürcüstanın Batumi şəhərində keçirilən 8-yaşadək şahmatçılar arasında Avropa birinciliyində I yerə çıxmış, Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Uşaq-Gənclər Şahmat məktəbinin yetirməsi Əsədli Vüqar isə həmin birincilikdə 8-yaşadək şahmatçılar arasında II yeri tutmuş, məktəbin digər yetirmələrindən İsgəndərova Xəyalə Norveçdə keçirilən beynəlxalq turnirdə qadınlar arasında I-yeri, Heydərli Kənan isə İranda keçirilən «Fəcr» turnirində II yeri tutmuşdur.

Sumqayıt şahmat məktəbinin yetirmələri Bəxtiyarlı Aysel və Nuri Murad fevral ayında İran İslam Respublikasında keçirilən beynəlxalq turnirdə III yerə çıxmışlar. Məktəbin yetirmələrindən 2 nəfəri isə müxtəlif yaş qrupları üzrə respublika birinciliyinin qalibi olmuş və dünya birinciliyinə vəsiqə qazanmışlar.

Gəncə şəhər Şahmat məktəbinin yetirmələrindən 4 nəfər müxtəlif yaş qrupları üzrə respublika birinciliyinin mükafatçısı olmuş, Avropa və dünya birinciliyinə vəsiqə qazanmışlar. Məktəbin yetirməsi Fətəliyeva Ülviyyə İranda keçirilən beynəlxalq turnirdə II yerə çıxmışdır.

Ucar Şahmat Məktəbinin yetirməsi Xatın Bağırova Fransanın Nitsa şəhərində keçirilən beynəlxalq turnirdə qadınlar arasında I-yerə çıxmışdır.

11–23 noyabr 2009-cu il tarixlərində Türkiyənin Antalya şəhərində uşaq, yeniyetmə və gənclər arasında 6 yaş qrupu üzrə keçirilən dünya birinciliyində şahmat məktəblərinin yetirmələrindən Məmmədzadə Günay 1-ci yeri tutmuş, Qədimbəyli Abdulla, Kazımova Nərmin, Məmmədova Gülnar və Bəxtiyarlı Aysel mükafatçılar arasında olmuşlar.

Müvafiq bazası olan şahmat məktəblərinin bina və yarış zallarında təlim-məşq prosesindən kənar vaxtlarda əhalinin bütün yaş təbəqələri nümayəndələrinə yarışların və şahmatla bağlı digər tədbirlərin keçirilməsi üçün müvafiq şərait yaradılıb. Belə ki, şahmat məktəblərində təlim-məşq prosesindən kənar vaxtlarda əhalinin bütün yaş təbəqələri nümayəndələri ilə yarışların və şahmatla bağlı digər tədbirlərin keçirilməsi üçün şahmat məktəblərində təşkilat komitələri yaradılmış, bununla bağlı məlumat-maarifçilik və təbliğat işinin təşkili üzrə müxtəlif elanlar hazırlanaraq şagird və valideynlər arasında yayılmışdır. Şəraiti olan şahmat məktəblərində həftənin bir neçə günü, müəyyən olunmuş saatlarda «Açıq qapı» günləri təşkil olunur, əhalinin müxtəlif yaş təbəqələrinin iştirakı ilə «Blits turnir», «Master klass» və s. yarış, turnirlər keçirilir, şahmat ustaları, qabaqcıl məşqçi-müəllimlər və hakimlərlə görüşlər təşkil olunur.

Eyni zamanda məktəblilərin tətil günlərində əhalinin bütün yaş təbəqələrindən olan nümayəndələri ilə şahmat məktəblərinin yetirmələri arasında turnir və yarışlar keçirilir.

Şahmat məktəblərinin maddi və tədris-texniki bazalarının möhkəmləndirilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Şahmat məktəbləri kompyuter və kompyuter avadanlığı, eləcə də digər lazımi inventar və avadanlıqlarla vaxtaşırı olaraq təmin olunurlar. Naxçıvan Şəhər Şahmat Məktəbi üçün yeni, dünya standartları səviyyəsində, müasir inventar və avadanlıqlarla təmin olunmuş bina tikilib istifadəyə verilmişdir. Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat Məktəbi, Goranboy,

Yardımlı, Neftçala, Ağstafa, Salyan, Quba, Qax, Astara, Zaqatala, Yevlax, Bərdə, Xızı, Xaçmaz, Şamaxı, Bakı şəhəri 1№-li İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat Məktəbi və Bakı şəhəri 2№-li Uşaq-Gənclər Şahmat Məktəbi əsaslı təmir olunmuş və lazımi avadanlıqlarla təmin olunmuşdur. Sumqayıt, Mingəçevir şahmat məktəbləri isə əsaslı surətdə yenidən qurulur və yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

Təhsil Nazirliyinin Elmi-metodiki şurası tərəfindən bəyənilən və Təhsil Nazirliyinin müvafiq əmri ilə dərs vəsaiti kimi istifadə olunması tövsiyə edilən «Şahmat oyunu» dərs vəsaiti hazırlanaraq bütün şahmat məktəblərinə çatdırılmışdır. Hazırda həmin dərs vəsaitinin təkmilləşdirilməsi və yeni dərs vəsaitinin və metodiki vəsaitlərin hazırlanması üzərində iş gedir.

Respublikada fəaliyyət göstərən uşaq-gənclər şahmat məktəblərinin direktorlarının iştirakı ilə Təhsil Nazirliyində Azərbaycan Respublikası Prezidentinin 05 may 2009-cu il tarixli, 260 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «2009–2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi haqqında Dövlət Proqramı»nın icrası ilə bağlı qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilmişdir.

Müşavirədə Dövlət Proqramının icrası ilə bağlı görülən işlər qiymətləndirilmiş, qarşıda duran vəzifələr müzakirə edilmiş, Dövlət Proqramının icrası istiqamətində müvafiq tapşı-rıqlar verilmişdir.

Hazırda şahmatla bağlı normativ hüquqi sənədlərin təkmilləşdirilməsi ilə bağlı Gənclər və İdman Nazirliyi ilə birgə müvafiq işlər aparılır.

Təhsil Nazirliyi tərəfindən respublikanın bütün şəhər və rayonlarını əhatə edən müxtəlif yaş qrupları və idman növləri üzrə 30-dan çox yarış, çempionat, turnir və kütləvi tədbirlər keçirilmişdir.

Son bir ildə 21451 nəfər kütləvi dərəcəli idmançı, 2639 nəfər I dərəcəli idmançı, 332 nəfər idman ustalığına namizəd, 22 nəfər idman ustası, 1 beynəlxalq idman ustası hazırlanmışdır.

Bu tədbirlər bölgələrdə idmanın inkişafına güclü təkan verir. Beynəlxalq səviyyəli birincilik və çempionatlara hazırlıq məqsədilə idman növləri üzrə yığma komandalar üçün 49 təlim-məşq toplanışı keçirilib. Bunun nəticəsi olaraq idmançılar respublika birincilik və çempionatlarında, eləcə də milli yığma komandaların tərkiblərində Avropa, dünya birinciliyində

və beynəlxalq turnirlərdə müvəffəqiyyətlə çıxış edirlər. Belə ki, cari ildə respublika birinciliklərində 1662, beynəlxalq yarışlarda isə 168 medal əldə edilmişdir.

İdman növləri üzrə bir sıra yarışlar keçirilmiş, şəhər, respublika və beynəlxalq səviyyəli çempionat, birincilik və turnirlərdə idmançılarımız müvəffəqiyyətlə çıxış etmişlər. Respublika və beynəlxalq yarışlarda yüksək nəticələr göstərən idmançılar arasında 1 və 2 nömrəli Respublika İOEUGİM-ri, Respublika İOEUG Gimnastika və Şahmat məktəbləri, Sumqayıt, Gəncə, Lənkəran və Naxçıvan şəhərlərinin yetirmələri də vardır.

Təhsil Nazirliyinin tabeliyində olan uşaq-gənclər idman və şahmat məktəbləri üçün metodik tövsiyələr və tədris proqramların hazırlanması istiqamətində aparılan işlər davam etdirilmişdir. Belə ki, şahmat, voleybol, basketbol, badminton və həndbol idman növləri üzrə tədris proqramları, şahmat məktəbləri üçün «Şahmat oyunu» dərsliyi çap edilib yerlərə çatdırılmışdır.

Azərbaycan Respublikası təhsil nazirinin 03.06.2009-cu il tarixli, 1080 №-li Respublika müsabiqəsinin keçirilməsi haqqında» əmrinə əsasən istedadlı gənc idmançıları, məşqçi müəllimləri aşkar etmək məqsədilə uşaq gənclər idman və şahmat məktəblərinin respublika müsabiqəsi keçirilmiş, qaliblər Təhsil Nazirliyinin diplom və qiymətli hədiyyələri ilə mükafatlandırılmışlar.

Qeyd olunan nailiyyətlər, görülən işlərlə yanaşı, uşaq və gənclər arasında idmanı daha da inkişaf etdirmək üçün müəyyən problemləri aradan qaldırmağı vacib hesab edirik. Bir çox rayon idman məktəblərinin özünün müstəqil binaları yoxdur. Stadionlar, hovuzlar yox dərəcəsindədir. Sadə idman meydançaları azlıq təşkil edir. İnventar və avadanlıqla təchizat yaxşılaşdırılmalıdır.

Qeyd edək ki, 2009-cu ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Milli Olimpiya Komitəsi və «İNTV» Media Holdinq təşkilatı ilə birgə keçirilən «Çempion» əyləncəli idman oyunları layihəsi həyata keçirilmişdir. «Çempion» əyləncəli idman oyununun keçirilməsində məqsəd müasir idman oyunlarının, xalq və hərbi vətənpərvərlik oyun növləri ilə sintezi əsasında gənc nəslin zehni və fiziki keyfiyyətlərini inkişaf etdirməkdir.

Nazirliyin kütləvi idman tədbirlərinin təqvim planına müvafiq olaraq təhsil müəssisələrində idmanın müxtəlif növləri üzrə tələbə və şagirdlər arasında universiadalar, spartakiadalar, birinciliklər, dövlət əhəmiyyətli bayramlara həsr olunmuş tədbirlər və xatirə turnirləri keçirilir. Bu tədbirlərdə ali, orta ixtisas, peşə məktəbləri, peşə liseyləri və ümumtəhsil məktəblərində təhsil alan tələbə və şagirdlər iştirak etmişdir. Bu yarışların tələbə və şagirdlərin idmana marağının artırılmasında böyük rolu vardır.

2009-cu ilin may ayında Təhsil Nazirliyi Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və «Futurologiya» ictimai birliyi ilə birlikdə inşa müsabiqəsi keçirmişdir. «Gələcək nəsillərlə üz-üzə» adlı bu müsabiqədə 15 qlobal mövzu üzrə 45 qalib müəyyən edilmiş, oktyabr ayında isə qaliblər qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu ilin «Uşaq ili» elan edilməsi haqqında 22 dekabr 2009-cu il tarixli, 103 nömrəli Sərəncamının icrası ilə bağlı Təhsil Nazirliyi tərəfindən hazırlanmış tədbirlər planına müvafiq olaraq təhsil müəssisələrində uşaqlar üçün silsilə tədbirlər həyata keçirmək, konsertlər və əyləncəli proqramlar hazırlamaq, muzeylərə ekskursiyalar təşkil etmək, milli mənəvi dəyərlərin, ailə dəyərlərinin qorunub saxlanılmasına, uşaqları zərərli vərdişlərdən çəkindirmək, asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə xidməti məktub hazırlanıb yerli təhsili idarəetmə orqanlarına göndərilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 26 fevral 2009-cu il tarixli, 222 nömrəli əmri ilə təsdiq edilmiş ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü münasibətilə ümumtəhsil məktəblərinin şagirdləri arasında «Heydər Əliyev və müstəqil Azərbaycan» mövzusunda respublika rəsm müsabiqəsi keçirilmiş, I, II, III yerlərə layiq görülmüş məktəblilərə diplomlar və hədiyyələr verilmişdir.

2009-cu ilin «Uşaq ili» elan edilməsi ilə bağlı Təhsil Nazirliyi tərəfindən hazırlanmış əmr və tədbirlər planına əsasən ümumtəhsil məktəblərinin şagirdləri arasında foto, rəsm və inşa müsabiqələri keçirilmişdir. Aztəminatlı ailələrdən, məcburi köçkün ailələrindən və digər xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün əyləncəli proqramlar hazırlanmış, Azərbaycan Milli Konservatoriyası nəzdində İncəsənət Gimnaziyasında Uşaq Yara-

dıclıq Mərkəzlərinin kollektivlərinin iştirakı ilə xeyriyyə konserti keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin yeni məktəbdənkənar müəssisələrin açılışında iştirakı ənənə halını almışdır. Ölkə Prezidenti İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Naxçıvan şəhər, Samux, Xızı rayonunda yeni tikilən şahmat məktəblərinin, Yevlax, Şamaxı rayon şahmat məktəblərinin və İsmayıllı Rayon Uşaq Yaradıcılıq Mərkəzinin əsaslı təmirdən sonra açılışında, Ağsu şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunacaq Uşaq-Gənclər Bədii Yaradıcılıq Məktəbinin təməlqoyma mərasimində iştirak etmişlər. Ağsu rayonunda Heydər Əliyev Muzey–Məktəbində Ağsu Rayon Texniki Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinin əl işlərinin nümunələrinə baxış zamanı cənab Prezidentin tapşırığına əsasən muzey-məktəbin bir otağı daimi istifadə edilməsi məqsədilə yaradıcılıq mərkəzinə verilmişdir.

«Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq olaraq məktəblərin ekoloji təhsili və maarifləndirilməsi işini təkmilləşdirmək, onların ekoloji biliklərə yiyələnməsi üçün lazımi şərait yaratmaq məqsədilə ötən tədris ilində bir çox tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 27 yanvar 2003-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün Kompleks Tədbirlər Planı»na uyğun olaraq gənc nəslin fasiləsiz ekoloji biliklərə yiyələnməsi, onların ekoloji maarifləndirilməsi və tərbiyəsi işini təkmilləşdirmək məqsədilə 2009-cu ildə bir çox tədbirlər həyata keçirilmişdir. Məktəblilər və gənclər arasında ekoloji maarifləndirmə və təbliğat işlərini gücləndirmək məqsədilə konfranslar, seminarlar, dəyirmi masalar, olimpiadalar, breyn-ringlər, baxış-müsabiqələr, yaradıcılıq sərgiləri, viktorinalar və s. kütləvi tədbirlər keçirilmişdir.

RETTM və Azərbaycan Gənclər İttifaqının birgə təşəbbüsü və Norveç Təbiəti Mühafizə İttifaqının dəstəyi ilə həyata keçirilən «Enerjiyə qənaət» proqramı üzrə təhsil müəssisələrində, ekoloji dərnəklərdə məş-

ğələlər təşkil edilmiş, məktəblilər alternativ enerji mənbələri haqqında məlumatlandırılmışlar.

Məktəblilərin ekoloji maarifləndirilməsini yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin nəşr etdirdiyi «Ekoloji dərnək, klub və digər birləşmələrin nümunəvi tədris proqramları və metodik tövsiyələr» adlı tədris metodik vəsaiti üzrə 2008–2009-cu tədris ilində «Quşların ekologiyası», «Ekoloji təhlükəsizlik», «Ekoloji hüquq», «İnsan ekologiyası» və s. mövzularda ekoloji dərnəklər təşkil olunmuşdur. «Məktəblərdə bitkiçiliyin əsasları üzrə dərnək məşğələlərinin keçirilməsi metodikası», «Məktəb və məktəbdənkənar müəssisələrdə ağac, kol və dekorativ bəzək bitkilərinə qulluq edilməsi qaydaları», «Məktəblilərdə ekoloji mədəniyyətin formalaşması» və s. mövzularda metodiki tövsiyələr hazırlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının «Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı»nın təsdiq edilməsi haqqında 24 mart 2006-cı il tarixli və «Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və sazişlərdən irəli gələn məsələlər sahəsində əlavə tədbirlər haqqında» 30 mart 2006-cı il tarixli sərəncamlarına müvafiq olaraq məktəblilərin biomüxtəlif və ətraf mühitin qorunması sahəsində biliklərini artırmaq məqsədilə gənc nəslin ekoloji maarifləndirilməsi, ətraf mühitin mühafizəsi sahəsində bilik və bacarıqların aşılanmasında ekoloji tədbirlərin böyük əhəmiyyəti vardır. Bu məqsədlə məktəblilər arasında «Biomüxtəlifliyi qoruyaq» mövzusunda yarışlar keçirilmiş, şagirdlərin yaradıcılıq işlərindən ibarət sərgilər təşkil olunmuşdur.

ARDNŞ-nin dəstəyi ilə il ərzində kütləvi-ekoloji tədbirlər, məktəb ekoloji monitorinqi, məktəblilərin AMEA Mərkəzi Nəbatat Bağına, Mərdəkan Dendrarisinə, Zooloji Muzeyə, Zooparka, Milli Parka ekskursiyalar təşkil edilmişdir.

Ekoloji maariflənmənin daha da təkmilləşdirilməsi məqsədilə Xəzər dənizi ekosistemlərinin və biomüxtəlifliyinin qorunması məqsədilə 2009-cu ilin fevral ayında Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzində Xəzəryanı rayonların ümumtəhsil məktəblərinin müəllimlərinin iştirakı ilə Xəzərin bioloji müxtəlifliyinə aid «Xəzərin quşları» adlı

tədris posteri-təyinedici açarın təqdimatına həsr edilmiş seminar-treninq keçirilmişdir. Xəzər ətrafı 5 ölkənin: Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İranın ümumtəhsil məktəbləri şagirdlərinin Xəzərin bioloji müxtəlifliyinə dair biliklərini artırmaq və ekoloji maarifləndirmək məqsədilə Xəzər Ekoloji Proqramı, Böyük Britaniyanın FSJ (təbiətdə təlim şurası) və «Darvin təşəbbüsləri» fondunun dəstəyi ilə nəşr edilmiş poster vasitəsi ilə məktəblilər quşlar üzərində müşahidələr və qeydlər aparmışlar. Məktəblilər üçün Səngəçal terminalında yerləşən Xəzər Enerji Mərkəzinə, dəniz sahilinə ekskursiyalar təşkil edilmişdir.

Şirin su mənbələrinin mühafizəsinin təmin edilməsi məqsədilə 2009-cu ilin mart ayında «Su həyatdır» devizi altında məktəblilərin içməli suya qənaət aylığı həyata keçirilmişdir. Məktəblilər «22 mart – Ümumdünya su günü»nə həsr edilmiş kütləvi ekoloji tədbirlərdə, yerli ərazilərdə içməli su mənbələrinin qorunmasında, məktəb ekoloji monitorinqinin keçirilməsində, su hövzələrinin çirklənmə səbəblərini aşkar edib aradan qaldırılmasında, əhali arasında, məktəblərdə ekoloji təbliğatın aparılmasında yaxından iştirak etmişlər. Bakı, Naxçıvan, Sumqayıt, Şəki, Şirvan şəhərlərinin, Cəlilabad, Hacıqabul, Quba, Qusar, Saatlı, Tərtər, Ağsu rayonlarının məktəbliləri ölkənin su ehtiyatlarının qorunmasında xüsusi ilə fəal iştirak etmişlər.

2009-cu ilin mart, aprel və oktyabr-noyabr aylarında ənənəvi olaraq «Vətənimizi yaşıllıqlar diyarına çevirək» devizi altında Respublika məktəblilərinin yaşıllaşdırma aylığı həyata keçirilmişdir. Rayon (şəhər) ETTM-lərinin dərnək üzvləri, ümumtəhsil məktəblərinin şagirdləri ekoloji mühitin yaxşılaşdırılması və yaşıllıqların artırılması üçün əməli tədbirlərdə iştirak etmişlər. Məktəblilər yaşayış yerlərində, məktəbyanı ərazilərdə, yol kənarlarında minlərlə ağac və kol bitkiləri əkmiş, abadlaşdırma işlərində böyüklərə yardımçı olmuşlar.

Çirklənmiş ərazilərin təmizlənməsi sahəsində Bakı şəhəri Suraxanı, Qaradağ, Əzizbəyov, Xətai rayonlarının gənc ekoloqları xüsusi fəallıq göstərmişlər. Məktəblilərdən ibarət «Ekoloji patrul», «Yaşıl patrul», «Məktəb meşəçiliyi» dəstələri, dərnək üzvləri əhali arasında təbii sərvətlərin davamlı istifadəsi, alternativ enerji mənbələrinin istifadəsi, ekoloji vəziyyətin sağlamlaşdırılması barədə müntəzəm maarifləndirmə və təbliğat işləri aparmış, yaşıllıqların artırılmasına nail olmuşlar. Yerli

ərazilərdə məktəb ekoloji monitorinqi keçirilmiş, qiymətli bitki və heyvan növlərinin mühafizəsi üçün əməli tədbirlər həyata keçirilmişdir.

Məktəblilər arasında ekoloji maarifləndirmə işlərini genişləndirmək məqsədilə 2009-cu il aprel ayının 30-da Nizami adına mədəniyyət və istirahət parkında Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin 80 illiyinə və Azərbaycan məktəblilərinin ekoloji hərəkatının 85 illiyinə həsr olunmuş «Ətraf mühit və biz» mövzusunda məktəblilərin II Respublika Uşaq Ekoloji Forumu keçirilmişdir. Forumda ölkənin bütün regionlarından ekoloji mərkəzlərin dərnək üzvləri olan 100-dən artıq V–XI sinif şagirdi iştirak etmişdir. Gənc ekoloqların «Su-həyatdır», «Biomüxtəlifliyin qorunması», «Sağlamlıq və ətraf mühit», «Təbii sərvətlərin davamlı istifadəsi» mövzusunda bölmələr üzrə təqdim etdikləri referat işləri məktəblilərin ətraf mühitin qorunması və sağlamlaşdırılması sahəsində konkret fəaliyyətini əks etdirmişdir.

Forumda məktəblilərin ekologiyaya aid yaradıcılıq işlərindən ibarət sərgi də nümayiş etdirilmişdir. Forumun yekunlarına görə Sumqayıt, Şirvan, Hacıqabul məktəblilərinə I, II, III dərəcəli, 13 məktəbliyə fərqlənmə diplomları, diğər iştirakçılara sertifikatlar, ExxonMobil, BP şirkətlərinin, Azərbaycan Dövlət Neft Şirkətinin hədiyyələri, kitablar təqdim olunmuşdur.

22 may-Beynəlxalq bioloji müxtəliflik günü münasibətilə Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzində 22 may 2009-cu il tarixdə «Bioloji müxtəlifliyi qoruyaq» mövzusunda Bakı şəhər məktəblilərinin ekoloji breyn-rinqi keçirilmişdir. Ekoloji bilik yarışında Bakı şəhəri 194 nömrəli məktəbin komandası I, 254 nömrəli məktəbin komandası II, «Azərbaycan Uşaqdan Uşağa Sülh » təşkilatının komandası III yerlərə layiq görülmüşlər. Gənc ekoloqlar nadir bitkiləri xilas etmək üçün RETTM-in təcrübə sahəsində «Biomüxtəlifliyi xilas edək» əməliyyatına qoşularaq sahəni zərərvericilərdən təmizləmişlər.

Görkəmi alim-təbiətşünas, akademik Həsən Əliyevin xatirəsinə həsr edilmiş tədbirlər ənənəvi olaraq davam etdirilmiş, «Təbiəti qorumaq – həyatı qorumaq deməkdir» devizi altında Bakı şəhəri 3, 194, 189, 121, 254, 294, 165 nömrəli məktəblərdə ekoloji gecələr, dəyirmi masalar, konfrans, viktorinalar və digər tədbirlər keçirilmişdir.

Ekoloji maarifləndirmə sahəsində Təhsil Nazirliyinin QHT-lər ilə əməkdaşlığı daha da genişləndirilmişdir. Qadın və İnkişaf Mərkəzində

«Azərbaycan Uşaqdan Uşağa Sülh» təşkilatının təşəbbüsü ilə 5 iyun – Beynəlxalq Ətraf mühit gününə həsr olunmuş «Ekoloji bilikdən ekoloji mədəniyyətə doğru» mövzusunda dəyirmi masa keçirmişdir. Tədbirdə Bakı şəhəri 132, 189, 190, 160 nömrəli və digər məktəblərin yuxarı sinif şagirdlərinin, mətbuat nümayəndələrinin, valideynlərin iştirakı ilə gənclərimizin ekoloji tərbiyə və ekoloji mədəniyyətin formalaşdırılması məsələləri müzakirə edilmişdlir. Canlı diskusiyalar zamanı «Debat» qrupunun üzvləri xüsusilə fərqlənmişdir.

2009-cu il may ayının 29-da «Ekoloji Standartların Qiymətləndirilməsinin Monitorinqi» təşkilatının təşəbbüsü ilə AMEA Mərkəzi Nəbatat bağında gənclər arasında «Ətraf mühiti öyrənək və qoruyaq» adlı ekoloji aksiya keçirildi. Aksiyada Təhsil Nazirliyinin, ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərinin, Azərbaycan Ekologiya Standartlarının Monitorinqi fondunun, AMEA-nın Mərkəzi Nəbatat bağının, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əməkdaşları və bir çox ali məktəblərin tələbələri iştirak etmişlər. Keçirilən monitorinqdə tədbir iştirakçıları günün aktual mövzusu olan ekoloji problemlərdən, onun həlli yollarından, ekologiya elminin məqsəd və vəzifələrindən bəhs edərək ekoloji maarifləndirmənin nə dərəcə səmərəli olduğunu qeyd etmişlər.

«Əhalinin ekoloji təhsili və maarifləndirilməsi» haqqında Azərbaycan Respublikasının Qanunundan və Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2006-cı il tarixli, 1698№-li Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün Kompleks Tədbirlər Planı»dan irəli gələn vəzifələri yerinə yetirmək və məktəblilər arasında ekoloji maarifləndirmə işlərini genişləndirmək məqsədilə Azərbayjan Respublikası Təhsil Nazirliyinin 06.10.2009-cu il tarixli, 1121 №-li əmrinə müvafiq olaraq 2009-cu ilin noyabr-dekabr ayında keçirilən «Təbiət bizim sərvətimizdir» mövzusunda məktəblilərin Respublika foto müsabiqəsinə 200-ə qədər fotoşəkil təqdim etmişlər.

Nazirliyin təşəbbüsü ilə Azərbaycan Dövlət Neft Şirkətinin, Bakı şəhəri üzrə Təhsil İdarəsinin, RETTM-nin və 46№-li Məktəbdənkənar İş Mərkəzinin birgə əməkdaşlığı ilə 2009/10-cu tədris ilində Bakı şəhəri məktəbliləri arasında «Ekoerudit» ekoloji breyn-rinq yarışı keçirilir. 3 mərhələdə (seçmə, yarımfinal və final) keçirilən breyn-rinqin əsas məqsədi

məktəblilərin ekoloji biliklərini artırmaq və ekoloji mədəniyyəti təbliğ etməkdən ibarətdir. Breyn-rinqin seçmə mərhələsində 16.12.2009-cu il və 18.12.2009-cu il tarixlərdə RETTM-də və 46 nömrəli Məktəbdənkənar İş Mərkəzində keçirilən bilik yarışında 24 komanda arasında Bakı şəhəri 5, 28, 58, 64, 164, 194, 201, 242, 269 nömrəli məktəblərin, 43 nömrəli Məktəbdənkənar İş Mərkəzinin, «Azərbaycan Uşaqdan Uşağa Sülh Şəbəkəsi»nin, «Zəngi liseyi»nin komandaları 2010-cu ilin fevral ayında keçiriləcək yarımfinal mərhələsinə vəsiqə almışlar.

2009-cu ilin noyabr ayında Laçın rayonu 6 nömrəli orta məktəbində «Bizim planet gələcəkdə» mövzusunda ekoloji gecə keçirilmişdir. «Biomüxtəlifliyin davamlı idarə olunması-Cənubi Qafqaz» layihəsinin rəhbəri Kristian Gönner, ekoloq Hartmurt Müller iştirak etmişlər. Azərbaycanın və dünyanın ekoloji problemlərinə, təbii sərvətlərin qorunmasına həsr olunmuş tədbirdə dərnək üzvləri işğal altında olan torpaqların bu günkü ekoloji durumunu, zəngin təbiətimizi əks etdirən bədii yaradıcılıq nümunələrini ekoloji səhnəciklərlə ifadə etmişlər. Məktəblilərin əl işlərindən ibarət yaradıcılıq sərgisində ətraf mühitə aid rəsmlər, eksponatlar nümayiş etdirilmişdir. Tədbirin sonunda şagirdlərə diplom və hədiyyələr təqdim olunmuşdur.

İl ərzində «Məktəbəqədər müəssisələrdə uşaqlara ekoloji biliklərin öyrədilməsi», «Kimya və riyaziyyat dərslərində ekoloji biliklərin inteqrativ tədrisi», «Xəzərin bioloji müxtəlifliyi» və s. mövzularda metodiki-tədris vəsaitləri, metodiki tövsiyələr hazırlanmışdır.

RETTM-in nəzdində nəşr edilən «Ekoloji tərbiyə» qəzetində məktəblilərin ekoloji təhsili və tərbiyəsi sahəsində QHT-lərlə əməkdaşlıq tədbirlərinə, rayon, şəhər ETTM-lərinin, ümumtəhsil müəssisələrinin iş təcrübəsinə, keçirilən ekoloji tədbirlərə həsr olunmuş məqalələr mütəmadi olaraq dərc olunur.

Respublika Gənc Turistlər və Diyarşünaslıq mərkəzi tərəfindən il ərzində məktəblilər və dərnək üzvləri arasında respublika turizm yarışları, əl işlərinə baxış-müsabiqə və diyarşünaslıq olimpiadaları keçirilmişdir.

Qazanılan uğurlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, məktəbdənkənar müəssisələrin maddi-texniki bazası ölkəmizin iqtisadi tərəqqisi ilə müqayisədə zəif inkişaf edir.

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli, 1880 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «İnsan Hüquqlarının Müdafiəsi

üzrə Milli Fəaliyyət Planı» ilə bağlı nazirliyin 23 yanvar 2007-ci il tarixli, 52 nömrəli əmri ilə tədbirlər planı təsdiq olunmuşdur. Tədbirlər planına uyğun olaraq 2009-cu ildə də müvafiq işlər davam etdirilmişdir.

Təhsil Nazirliyi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) arasında ümumtəhsil məktəblərində «İnsan hüquqları üzrə pilləli tədris» layihəsi ilə bağlı birgə müqavilə imzalanmışdır. Pilot layihənin həyata keçirilməsi məqsədilə Bakı şəhərinin 5, 31 və 207 nömrəli orta məktəbləri təyin edilmişdir.

«Nur» Uşaq və Gənclərin İctimai Birliyi ilə Təhsil Nazirliyi 2009-cu il «Uşaq ili» çərçivəsində uşaq hüquqları barədə ətraflı məlumata malik, uşaqlarla bağlı mövcud vəziyyəti obyektiv təhlil edən və uşaqlar üçün yararlı cəmiyyətin formalaşdırılması ilə bağlı təkliflər irəli sürə bilən lider uşaqlar qrupu formalaşdırmaq məqsədilə «Uşaq Hüquqları Şənbə Məktəbi» layihəsini həyata keçirmək haqda Bakı şəhərinin ümumtəhsil məktəblərindən lider uşaqlar seçilməsinə başlamışlar.

Yerli təhsil idarəetmə orqanlarına göndərilmiş təlimati məktublara uyğun Uşaq Forumuna təqdim olunmuş namizədlərin seçim turunda Təhsil Nazirliyinin iştirakı təmin edilmişdir.

17–18 dekabr 2009-cu il tarixlərdə Azərbaycan Hökuməti, Heydər Əliyev Fondu və «Nur» Uşaq-Gənclər İctimai Birliyinin 56 şəhər və rayondan 250 nəfər uşaq nümayəndənin iştirakı ilə təşkil etdiyi Azərbaycanda «2009-cu il – Uşaq ili»nin yekunlarına və Uşaq Hüquqları Konvensiyasının 20 illiyinə həsr olunmuş «Uşaqlara yararlı dünya» – Azərbaycan Uşaqlarının I Forumunun təşkilat komitəsinin tərkibində müvafiq tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 30 avqust tarixli, 982 nömrəli Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005–2009-cu illər)» ilə bağlı Təhsil Nazirliyinin 25.09.2005-ci il tarixli, 671 nömrəli əmri ilə təsdiq edilmiş tədbirlər planında nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar müvafiq tədbirlər həyata keçirilmişdir.

Tədbirlər planına uyğun olaraq 20 noyabr 2009-cu il tarixdə Milli Təhlükəsizlik Nazirliyinin Mədəniyyət Mərkəzində keçirilmiş «Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının» Təsis Qurultayının keçirilməsinə təşkilati dəstək verilmişdir.

Respublikada fəaliyyət göstərən uşaq yaradıcılıq mərkəzlərinin nəzdində fəaliyyət göstərən Gənclərin Resurs Mərkəzlərinin mövcud vəziyyəti ilə bağlı birgə monitorinqin keçirilməsi, resurs mərkəzlərinin nəzdində Uşaq yaradıcılıq və hüquqi maarifləndirmə özəklərinin yaradılması məqsədilə Təhsil Nazirliyinin Ombudsman Aparatı ilə birgə həmin mərkəzlərdə monitorinqi keçirilmişdir.

2009-cu «Uşaq ili» çərçivəsində BMT-nin Baş katibinin müavininə Xocalı soyqırımı faciəsinin 17-ci ildönümündə Təhsil Nazirliyi və Ombudsman Aparatı birgə «Biz sülh elçisiyik! Bizə qoşulun» devizi altında imza toplama kampaniyası keçirilmiş, yüz minlərlə məktəbli bu kampaniyada fəal iştirak etmişdir. Kampaniyanın fəal keçirilməsi məqsədilə yerlərə nazirliyin təlimati məktubu göndərilmişdir.

«21 sentyabr – Beynəlxalq Sülh Günü» ilə bağlı nazirliyin təlimati məktubuna əsasən bütün təhsil müəssisələrində konfrans, seminar, açıq dərs, disput, sinif saatları, mühazirələr keçirilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı) ümumtəhsil məktəblərinin şagirdləri arasında «Ekstremal şəraitdə uşaq hüquqlarının müdafiəsi» mövzusunda keçirdiyi rəsm müsabiqəsi ilə bağlı təhsil müəssisələrinə təlimati məktub göndərilmiş, şagirdlərin fəal iştirakı təmin edilmişdir.

Ombudsman Aparatının təşəbbüsü ilə 20 oktyabr – 20 noyabr 2009-cu il tarixdə «Uçaqları dinləyək, onların iştirakını təmin edək» devizi altında keçirilən «Uşaq hüquqları aylığı» çərçivəsində «Bizim hüquqlarımız» mövzusunda rəsm müsabiqəsi ilə bağlı yerlərə məlumatlar verilmiş, şagirdlərin fəal iştirakı təmin edilmişdir.

12 noyabr Konstitusiya Günü ilə əlaqədar Konstitusiya Məhkəməsi ilə birgə Bakı şəhərinin məktəbliləri arasında «Konstitusiya, şəxsiyyət və hüquqi dövlət» mövzusunda ənənəvi hüquq olimpiadası keçirilmişdir. Olimpiadanın keçirilməsi üçün Bakı şəhərinin 22 məktəbi müəyyən edilmişdir.

«İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı»nın icrası ilə bağlı əmr və tədbirlər planı hazırlanmış, insan alverinə qarşı mübarizə ilə bağlı aidiyyəti dövlət qurumları ilə birgə müxtəlif tədbirlər keçirilmişdir. «İnsan Alverinə Qarşı Mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 7.2-ci maddəsinə, Azərbaycan Respublikası Prezidentinin 06 fevral 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Res-

publikasının insan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009–2013-cü illər)»nın, eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 2009-cu il tarixli, 29/1–29 nömrəli tapşırığına əsasən Tədbirlər Planının aidiyyəti bəndləri üzrə Təhsil Nazirliyi tərəfindən müəyyən işlər görülmüşdür.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il tarixli, 133№-li «Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının (2009–2013-cü illər) təsdiq edilməsi haqqında» Sərəncamının icrası ilə bağlı nazirliyin 09 aprel 2009-cu il tarixli, 398 nömrəli əmri ilə tədbirlər planı təsdiq edilmişdir. Tədbirlər planının icrası nazirliyin müvafiq struktur bölmələrinə, yerli təhsili idarəetmə orqanlarına və təhsil müəssisələrinin rəhbərlərinə tapşırılmışdır.

Milli Fəaliyyət Planının 8-ci bəndinə əsasən insan alveri qurbanı olmuş körpələrin müvəqqəti olaraq körpələr evi-uşaq bağçalarına yerləşdirilməsi və məktəbyaşlı uşaqların təhsilə cəlb olunması məqsədilə Bakı şəhərinin 303 nömrəli körpələr evi-uşaq bağçası və 212 nömrəli orta məktəbi məqsədəmüvafiq hesab edilmişdir. Daxili İşlər Nazirliyinin insan alveri qurbanları üçün yaratdığı sığınacaqda həmin qurbanların təhsil almaları üçün Təhsil Nazirliyi tərəfindən sığınacağa partalar, yazı lövhəsi və dərsliklər verilmişdir.

«Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramının təsdiq edilməsi haqqında» 11 noyabr 2004-cü il tarixli, 517 nömrəli Prezident Sərəncamının icrası ilə bağlı fəaliyyətlərin davam etdirilməsi məqsədilə müvafiq əmr və tədbirlər planı hazırlanıb yerlərə çatdırılmışdır.*

**Bax:* www.edu.gov.az

Ümumtəhsil məktəbləri üzrə əsas göstəricilər

İllər	Cəmi ümumtəhsil məktəblərin sayı	O cümlədən		Cəmi şagirdlərin sayı	O cümlədən	
		Dövlət	Qeyri-dövlət		Dövlət	Qeyri-dövlət
2000/2001	4561	4561	–	1689682	1689682	–
2001/2002	4551	4551	–	1686429	1686429	–
2002/2003	4555	4546	9	1708628	1705255	3373
2003/2004	4565	4554	11	1689676	1685448	4228
2004/2005	4553	4542	11	1634341	1629831	4510
2005/2006	4559	4547	12	1586222	1581173	5049
2006/2007	4538	4525	13	1537273	1531226	6047
2007/2008	4562	4545	17	1490152	1483311	6841
2008/2009	4557	4540	17	1431515	1424353	7162

Bax: www.edu.gov.az

ƏDƏBİYYAT SİYAHISI

1. Abdullayev E. Ümummilli lider. Bakı, 2008.
2. Ağayev Ə.Ə. Azərbaycan elm pedaqoji fikrində şəxsiyyətin formalaşması problemləri. Bakı, «Avrora», 2005.
3. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, «Qanun», 2009.
4. Böyük yolun davamçısı. Bakı, 2004.
5. Əhmədov H.H. Azərbaycanda Xeyriyyə cəmiyyətinin maarifçilik fəaliyyəti. Bakı, «Mütərcim», 1997.
6. Əhmədov H.H., Əliyev P.B. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı, Beynəlxalq Universitet – NPM, 2006.
7. Əhmədov H.M. Azərbaycan məktəbi və pedaqoji fikir tarixi. Bakı, Beynəlxalq Universitet – NPM, 2001.
8. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. III nəşr. Bakı, Beynəlxalq Universitet – NPM, 2006.
9. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı, «Nurlan», 2006.
10. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, «Pedaqogika», 2004.
11. Əsgərov Ş. Milli birlik probleminə fəlsəfi baxış. Bakı, 2001.
12. Heydər Əliyev. Təhsil millətin gələcəyidir (tərtibçilər: M.Mərdanov, Ə.Quliyev), Bakı, «Təhsil», 2002.
13. Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab. Bakı, 2001.
14. Heydər Əliyev və Azərbaycan. Bakı, 2008.
15. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, «Təhsil», 2004.
16. Qaralov Z.İ. İdeologiya və mənəviyyat. Bakı, «Hüquq ədəbiyyatı», 2008.
17. Qaralov Z.İ. Tərbiyə, I, II, III cild, Bakı, «Pedaqogika», 2003.
18. Qasımov M.C. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. Bakı, «Adiloğlu» nəşriyyatı, 2001.
19. Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, «Təhsil», 2002.
20. Mahmudov Y.M. Azərbaycan dövlətçiliyinin xilaskarı. Bakı, 1998.
21. Mahmudov M.C. Bolonya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı, «Elm və təhsil», 2010.
22. Maqsudov F.Q. Heydər Əliyev və Azərbaycan elmi. Bakı, «Elm», 1998.
23. Məhərrəmov A.M. Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu. Bakı, 2001.
24. Mərdanov M.C. «Azərbaycan təhsili dünən, bu gün, sabah». Bakı, «Təhsil», 2006.
25. Mərdanov M.C., Şahbazlı F.Ş. Azərbaycanın təhsil siyasəti. Bakı, «Çaşıoğlu», 2005.
26. Mərdanov M.C., Quliyev Ə.Q. Azərbaycan Təhsili Xalq Cümhuriyyəti illərində (1918–1920). Bakı, «Çaşıoğlu», 2003.

27. Mərdanov M.C. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı, «Təhsil» 2005.
28. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, «Çaşıoğlu», 2009
29. Mehdiyev R.Ə. Heydər Əliyev və azərbaycançılıq. Bakı, 2002.
30. Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. Bakı, «XXI əsr – Yeni nəşrlər evi», 2003.
31. Mehdiyev R.Ə. Azərbaycanın inkişaf dialektikası. Bakı, 2000.
32. Mehdiyev R.Ə. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001.
33. Mehdiyev R.Ə. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı, 2006.
34. Mehrabov A.O., Abbasov Ə.M., Zeynalov Z.Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı, «Mütərcim», 2006.
35. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, «Mütərcim», 2007.
36. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, 2001.
37. Rüstəmov F.A. Yeni dövlətin pedaqogika tarixi. III kitab. Bakı, «Nurlan», 2004.
38. Rüstəmov F.A. Ən yeni pedaqogika tarixi. IV kitab. Bakı, «Nurlan», 2005.
39. Təhsil problemləri institutu – 75. Bakı, «TTM», 2006.
40. Xudiyev N.M. Heydər Əliyev və Azərbaycan dili. Bakı, 1997.
41. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə. Bakı, «Azərbaycan Universiteti» nəşriyyatı, 2005.
42. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001.
43. Şirzadova M.N. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişaf tarixindən. Bakı, «Təhsil», 2007.
44. Ахмедов Г.Г. Человеческий ресурс Азербайджанского образования. Москва, МПСИ, 2007.

Mətbuat orqanları

45. «Azərbaycan» (1993–2008)
46. «Respublika» (1993–2008)
47. «Xalq qəzeti» (1993–2008)

İnternet resursları:

48. www.aliyevheritage.org
49. www.president.az
50. www.azerbaijan.az
51. www.mehriban-aliyeva.org
52. www.edu.gov.az
53. www.tqdk.gov.az
54. www.meclis.gov.az
55. www.lit.az

MÜNDƏRİCAT

Ön söz 5
Müəllifdən 6

I FƏSİL
Təhsil inkişafı təmin edən ən zəruri vəzifədir

Azərbaycanda təhsil tarixinə dair 23

II FƏSİL
Azərbaycan elminin və təhsilinin himayədarı

Heydər Əliyev irsində təhsilə münasibət 45
2.1. Təhsil sahəsində islahatlar 45
2.2. Azərbaycanda elmin intibah dövrü 63
2.3. Azərbaycan təhsili müstəqillik dövründə 75

III FƏSİL
Iqtisadi potensialdan insan kapitalına

Azərbaycan təhsili yeni inkişaf mərhələsində 87
3.1. Müasir təhsil strategiyası 88
3.2. Milli Kurikulum 101
3.3. Dərslik siyasəti 107
3.4. İnformasiya əsrinin meyarları 110
3.5. Azərbaycanda distant təhsil 118
3.6. Təhsil yoxsulluğa qarşı 132
3.7. Azərbaycanda ali təhsilin inkişaf perspektivləri 139
3.8. Boloniya prosesi – reallıqlar, problemlər, perspektivlər 149
3.9. Azərbaycan təhsilində yeni istiqamətlər 159
3.10. Yaşlıların təhsili 164
3.11. İnsan kapitalı 173

IV FƏSİL
Vətənpərvərliyin və xeyirxahlığın ali ünvanı

Həyat dərsi 187
Heydər Əliyev fondu milli maarifçilik ənənələrinin davamçısıdır 189

4.1.Gələcəyə körpü 190
4.2. Yeniləşən ölkənin yeni məktəbləri 213
Azərbaycan maarifinə – təhsilinə rəhbərlik edənlər 242

ƏLAVƏLƏR

Təhsil sahəsində Azərbaycan Respublikasının Qanunları

Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Qanunu.....255
Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Qanunu.....255
Azərbaycan Respublikasında Dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu 256
«Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında təhsil, elmi dərəcə və elmi adlar haqqında sənədlərin qarşılıqlı tanınması sahəsində əməkdaşlıq haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.....263
«Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi və «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə» Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 22 dekabr tarixli 414 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu.....263
«Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.....266
Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair» Konvensiyaya (onun müddəalarını tamamlayan 190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 267
«Azərbaycan Respublikası hökuməti və Qazaxıstan Respublikası hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli

əməkdaşlıq haqqında» proqramın təsdiq edilməsi barədə
Azərbaycan Respublikasının Qanunu.....268
«Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında» Konvensiyada
iştirak edən dövlətlər arasında meydana çıxa bilən ixtilafları
həll etmək üçün barışıq və xeyirxah xidmət komissiyasının
təsis edilməsi haqqında protokolun təsdiq edilməsi barədə
Azərbaycan Respublikasının Qanunu.....269
«Türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə toplantısı
Antalya bəyannaməsi»nin təsdiq edilməsi haqqında
Azərbaycan Respublikasının Qanunu.....270
«Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Səudiyyə
Ərəbistanı Krallığının ali təhsil nazirliyi arasında elm və təhsil
sahəsində əməkdaşlıq haqqında» memorandumun təsdiq edilməsi barədə
Azərbaycan Respublikasının Qanunu.....271
«Azərbaycan Respublikası hökuməti və Birləşmiş Ərəb Əmirlikləri
hökuməti arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında»
sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.....271
«Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti
arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq haqqında»
1995-ci il iyulun 2-də Buxarest şəhərində imzalanmış sazişə
dəyişikliklər edilməsi barədə» əlavə protokolun təsdiq edilməsi
haqqında Azərbaycan Respublikasının Qanunu.....272
«Azərbaycan Respublikası hökuməti ilə Qazaxıstan Respublikası
hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və
elmi-texniki sahələrdə kooperasiyası haqqında» Sazişin təsdiq edilməsi
barədə Azərbaycan Respublikasının Qanunu.....272
Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında
Azərbaycan Respublikasının Qanunu.....273
Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu.....280

Təhsil sahəsində Azərbaycan Respublikası Prezidentinin fərmanları

M.C.Mərdanovun Azərbaycan Respublikasının təhsil naziri
təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....325
«Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun
tətbiq edilməsi barədəAzərbaycan Respublikası Prezidentinin Fərmanı.....325
M.C.Mərdanovun Azərbaycan Respublikasının təhsil naziri
təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....327

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....327
«Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....328
Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....330
«Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli 349 nömrəli fərmanına dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....334
Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....335
«Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....344
Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....345
Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....346
M.K.Kərimov haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....346
Azərbaycan Milli Aerokosmik Agentliyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....347
«Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....347
«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....348
«Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi və «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə «Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 22 dekabr tarixli 414 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi haqqında»

Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə
Azərbaycan Respublikası Prezidentinin Fərmanı 349
«Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında»
Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi
barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....350
«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında»
Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə
Azərbaycan Respublikası Prezidentinin Fərmanı 351
«Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında»
Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi
barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....352
Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin
təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 352
Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası
haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan
Respublikası Prezidentinin Fərmanı.....353
«İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası
Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası
Prezidentinin bəzi fərmanlarına əlavələr və dəyişiklik edilməsi barədə
Azərbaycan Respublikası Prezidentinin Fərmanı 353
«Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun
tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin
2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının icrası ilə bağlı əlavə
tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 355
«Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası
haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası
Prezidentinin 2005-ci il 6 aprel tarixli 219 nömrəli fərmanına əlavə və
dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası
Prezidentinin Fərmanı 356
«Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident
təqaüdünün təsis edilməsi haqqında» Azərbaycan Respublikası
Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli fərmanına
dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası
Prezidentinin Fərmanı 356
«Ən yaxşı ümumtəhsil məktəbi müsabiqəsinin keçirilməsi qaydaları
və ümumtəhsil məktəblərinə verilmiş mükafatın istifadə istiqamətləri»nin
və «Ən yaxşı müəllim müsabiqəsinin keçirilməsi qaydaları»nın
təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 357

Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında «Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 580-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....358
Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....359
«Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 274 nömrəli fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.....360
«Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli fərmanına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 361

Təhsil sahəsində Azərbaycan Respublikası Prezidentinin sərəncamları

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 25 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....365
Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 365
Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında «İnkişaf üçün kredit haqqında Saziş»i (Təhsil sahəsində İslahatlar Layihəsi) Azərbaycan Respublikasının adından imzalamaq səlahiyyətlərinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 367
«Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 367
Dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələri işçilərinin əməkhaqlarının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 368
«Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə» Azərbaycan

Respublikası Qanununun həyata keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....368
«Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 369
«Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqram (2003–2007-ci illər)»ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....370
Təhsil müəssisələri işçilərinin əmək haqlarının artırılması haqqında Ażərbaycan Respublikası Prezidentinin Sərəncamı.....370
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası işçilərinin vəzifə maaşlarının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 371
Elm sahəsində çalışan işçilərin əmək haqlarının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....371
Dövlət ali və orta ixtisas təhsil müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlərin təhsil haqqını ödəməkdən azad edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....372
Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 373
Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2004-cü ildə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı 374
Heydər Əliyev adına Hərbi Liseyin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 379
Azərbaycan Respublikasının elm, mədəniyyət və ədəbiyyat üzrə dövlət mükafatlarının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 379
Alimlik dərəcələrinə görə vəzifə maaşlarına əlavələrin artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....380
Aspirantura, ali, orta ixtisas və peşə məktəblərinin və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 381
«Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 382

2004-cü il mart ın 4-də Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş»in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 383
2004-cü il mart ın 1-də Astana şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....384
Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005–2007-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 384
2005–2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 385
«Azərbaycan Milli Elmlər Akademiyası işçilərinin əmək haqlarının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1 iyul 2002-ci il tarixli 967 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 387
Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 387
Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005–2009-cu illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 389
Aspirantlara, ali, orta ixtisas və peşə məktəbləri və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 390
«Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006–2010-cu illər)»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 391
«Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün Kompleks Tədbirlər Planı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....392
Təhsil işçilərinin əmək haqlarının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 393
Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 394

Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair
Dövlət Proqramı haqqında Azərbaycan Respublikası
Prezidentinin Sərəncamı 395
Hərbi təhsil müəssisələri kursantlarının müavinətlərinin
artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 396
«Azərbaycan Respublikasında Məktəbəqədər təhsilin yeniləşdirilməsi
Proqramı (2007–2010-cu illər)»nın təsdiq edilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 397
Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan elm və
elmi-tədqiqat müəssisələrində çalışan işçilərin əmək haqlarının
artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 397
«Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq
pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikasının
qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan
Respublikasının 2006-cı il 29 dekabr tarixli 221-IIIQD nömrəli
qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası
Prezidentinin Sərəncamı 398
Elm və elmi-tədqiqat müəssisələrində (Azərbaycan Milli Elmlər
Akademiyası istisna olmaqla) çalışan işçilərin əmək haqlarının
artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 399
Təhsil işçilərinin əmək haqlarının artırılması haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 400
«Azərbaycan Milli Elmlər Akademiyası işçilərinin əmək haqlarının
artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il
1 iyul tarixli 967 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 400
Azərbaycan Milli Elmlər Akademiyasının müşaviri vəzifəsinin
təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 401
«Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı
üzrə dövlət proqramı (2007–2012-ci illər)»nın təsdiq edilməsi
haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....402
Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində
nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi
haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....402
Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa
ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 403
YUNESKO-nun 2008–2009-cu illərdə görkəmli şəxsiyyətlərin və
əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla

bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 404
Bakı şəhərində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının açılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 406
Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 407
Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 409
2007-ci il oktyabrın 26-da Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş»in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 412
Uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən müavinətin artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 413
«Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008–2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 413
2009-cu ilin «Uşaq ili» elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 414
«2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....415
«2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı 416
Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər)»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı.....417
Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı.....418
Məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə əlaqədar əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 419

Təhsil sahəsində Azərbaycan Respublikası Prezidentinin dövlət proqramları

Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı.....423
Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005–2009-cu illər) 428
2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı 429
Azərbaycan Respublikasında Məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007–2010-cu illər) 437
Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005–2007-ci illər) 446
Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006–2010-cu illər) 448
Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007–2012-ci illər) 453
2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı 465
2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı.....473
2010–2013-cü illərdə Azərbaycan Respublikasının orta ixtisas təhsili sistemində islahatlar üzrə tədbirlər Proqramı.....497

Azərbaycan Respublikasının təhsil sahəsində əsasnamələri və digər sənədlər

Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə 513
Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə 520
Qrant alınmasına (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması Qaydaları.....524
Texniki yardım və qrant alınmasına dair sazişlərin bağlanması və təsdiq edilməsi Qaydaları.....526
Təhsil müəssisələrinin akkreditasiyası qaydaları 528
Formal təhsilin təşkili qaydaları 539

Təhsil sahəsində dövlət və hökumət sənədləri

Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı 543
Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və strategiyası 544
2003–2008-ci illərdə ölkəmizdə əsaslı təmir edilən və yeni inşa olunan məktəblər haqqında məlumat.....597
«2010–2013-cü illərdə Azərbaycan Respublikasının orta ixtisas təhsili sistemində islahatlar üzrə tədbirlər Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı 598
Ali və orta ixtisas təhsili sahəsi üzrə 2009-cu ildə görülmüş işlər 599
Ali məktəblər üzrə əsas göstəricilər.....615
Ali təhsil layihəsinin (2009–2014-cü illər) hazırlanması üzrə qrant.....616
Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli, 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramı»nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üzrə Təhsil Nazirliyinin fəaliyyət planı.....618
Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişaf Konsepsiyası (2007–2012-ci illər).....631
Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu).....639
«Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı 641
Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası 642
Dərslik və nəşriyyat sahəsi üzrə 2009-cu ildə görülmüş işlər 665
Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi layihəsi (2009–2014-cü illər) 676
Kənd rayonları üzrə ümumi təhsil.....680
Məktəbəqədər müəssisələr üzrə əsas göstəricilər 692
Məktəbəqədər təhsil sahəsi üzrə 2009-cu ildə görülmüş işlər 693
Monitorinq və qiymətləndirmə sahəsi üzrə 2009-cu ildə görülmüş işlər 698
Orta ixtisas məktəbləri üzrə əsas göstəricilər.....706

Peşə məktəbləri və liseylər üzrə əsas göstəricilər.....707
Şəhərlər üzrə ümumi təhsil 708
Təhsil sektorunun inkişafı üzrə İkinci layihə 717
Təhsilə yönəldilmiş investisiya xərcləri (milyon manatla).....718
Təhsilin idarəolunmasının məlumat sistemlərinin tətbiqi
sahəsi üzrə 2009-cu ildə görülmüş işlər.....719
Təhsilin iqtisadiyyatı, maliyyələşdirilməsi və təhsil müəssisələrinin
maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsi üzrə
2009-cu ildə görülmüş işlər.....724
Tərbiyə və məktəbdənkənar müəssisələrlə
iş sahəsi üzrə 2009-cu ildə görülmüş işlər 765
Ümumtəhsil məktəbləri üzrə əsas göstəricilər.....784
Ədəbiyyat siyahısı 785
Mündəricat.....787

Nəşriyyat redaktoru: *İradə Azər Cəfərqızı*
Texniki redaktor: *Səbinə Rasim Nadirqızı*
Dizayner: *Murad Quliyev*

Çapa imzalanmış 10.12.2010.
Format 70x100 1/16.
Fiziki çap vərəqi 50.
Ofset çap üsulu. Tiraj-1500
Qiyməti müqavilə ilə.

"RS Poliqraf" MMC-nin mətbəəsində
hazır diapozitivlərdən çap olunmuşdur.